AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

ALMAN DİLİNİN FONETİKASI, QRAMMATİKASI VƏ TARİXİ KAFEDRASI
EKSPERİMENTAL FONETİKA VƏ TƏTBİQİ DİLÇİLİK LABORATORİYASI

DİLÇİLİK ENSİKLOPEDİYASI

I cild

(dərs vəsaiti)

Azərbaycan Respublikası təhsil nazirinin 07 aprel 2005-ci il tarixli 222 saylı əmri ilə təsdiq edilmişdir.

Bakı - MÜTƏRCİM - 2006

downloaded from KitabYurdu.org

filologiya elmləri doktoru, prof. **Fəxrəddin Yadigar oğlu Veysəllinin**
müəllifliyi və redaktəsilə hazırlanıb

Məsləhətçilər:
əməkdar elm xadimi, filologiya elmləri doktoru,
prof. **K.M.Abdullayev**,
prof. **B.B.İsmayılov**,
filologiya elmləri doktoru, prof. **M.M.Musaoğlu**

Rəyçilər:
filologiya elmləri doktoru **F.H.Zeynalov,**
filologiya elmləri doktoru **A.Y.Məmmədov**

Məsul katib:
filologiya elmləri namizədi **C.M.Babayev**

Dilçilik ensiklopediyası. I cild (dərs vəsaiti) / prof. F.Veysəllinin redaktəsi ilə. – Bakı: Mütərcim, 2006. – 516 səh.

$D\frac{4306020000-50}{026}35-06$

© Mütərcim, 2006
© ADU, 2006

downloaded from KitabYurdu.org

ÖN SÖZ

Yenicə qədəm qoyduğumuz XXI yüzilliyi elmi-texniki tərəqqilər, dünya xalqlarının bir-birinə inteqrasiya əsri kimi səciyyələndirmək olar. İndi dünyada elmi, iqtisadi, mədəni və mənəvi sahələrdə qloballaşma böyük sürət götürərək irəliləməkdədir.

Bu inteqrasiya nə qədər güclü və əhatəli olsa da, dünyada yayılan elmi-texniki informasiyaları hər bir xalqın öz dilində qəbul etmək və bununla da öz mənəvi aləmini formalaşdırmaq hüququ vardır. Bu baxımdan dilçilik elmi müstəsna əhəmiyyətə malikdir. Bu gün danılmaz həqiqətdir ki, dilçilik elmi bir neçə nəhəng dilin (ingilis, alman, fransız, rus və s.) inhisarındadır. Dünyada yeniliklərin böyük əksəriyyəti bu dillərdə yaranır. İnternet saytları, çap olunan kitabların bu dillərdə çoxluq təşkil etməsi inkarolunmaz həqiqətdir. Belə bir vaxtda müstəqillik əldə etmiş xalqımızı dilçilik elmi sahəsində meydana gələn yeni elmi-nəzəri mənbələrlə tanış etmək, Azərbaycan dilçilərini dünyanın qabaqcıl elmi nailiyyətlərilə məlumatlandırmaq hazırda çox mühüm vəzifə kimi dilçiliyimiz qarşısında durur. Bu gün auditoriyalarda dilçilikdən oxunan mühazirələrə və aparılan seminar məşğələlərinə möhkəm zəmin yaratmaq üçün «Dilçilik ensiklopediyası»nın» əhəmiyyəti son dərəcə böyükdür.

2005-ci ildən Bakı Slavyan Universiteti dünyanın yüz ən böyük dühasının, onların da içərisində dilçi korifeylərin əsərlərinin Azərbaycan dilinə tərcüməsi sahəsində çox uğurlu bir layihə üzərində çalışır. Nəzərə alsaq ki, bu həm dilimizin zənginləşməsinə, həm də yeni elmi-nəzəri cərəyanlarla yaxından tanış olmağa geniş imkanlar yaradır, onda bu layihə ilə yanaşı beş dili əhatə edən linqvistik ensiklopediyanın hazırlanmasının xalqımızın bu sahədə artan ehtiyacını ödəməkdə nə qədər mühüm və vacib iş olduğunu başa düşmək çətin olmaz.

Dilçilik ensiklopediyası bilavasitə metodilçilik sahəsinə aiddir və bu, digər (izahlı, ikidilli, etimoloji, sinonimik, omonimik və s.) lüğətlərdən birinci növbədə onunla fərqlənir ki, burada dil haqqında, onun sistem və strukturu barədə dilçilik elminin müasir durumu baxımdan geniş və əhatəli bilgilər verilir. Bu tipli lüğətləri «dil haqqında həmin dildə danışmaq» da adlandırmaq olar.

Qeyd etmək lazımdır ki, Respublikamızın böyük dilçilər ordusu, filoloji fakültələrin tələbə, aspirant və dissertantları, habelə müstəqil şəkildə dillə və onun nəzəri problemlərilə məşğul olan minlərlə ziyalı bu günə qədər beş dili əhatə edən linqvistik ensiklopediya kimi mühüm mənbədən yararlanmaq imkanına malik deyildirlər. Düzdür, 1989-cu ildə çapdan çıxmış «İzahlı dilçilik terminləri » müəyyən mənada dilçilik sahəsində informasiya

downloaded from KitabYurdu.org

qıtlığının aradan qaldırılmasına xeyli köməklik göstərdi. Ancaq məlum olduğu kimi, bu kitab yalnız Azərbaycan dilli olduğundan istənilən səmərəni verə bilməzdi. Həm də bu kitabda toplanmış zəngin məlumat hazırkı dilçilik baxımından o qədər də əhatəli sayıla bilməz. Oxuculara təqdim olunan bu ensiklopediya həmin «boşluğu»-u doldurmaq niyyətindən irəli gəlir.

Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən Eksperimental fonetika və tətbiqi dilçilik laboratoriyasında hazırlanan «Dilçilik ensiklopediyası» indiyə qədər analoqu olmayan bir layihədir. Burada hər bir linqvisitik termin rus dilində əlifba sırası ilə düzülmüş, onun alman, ingilis, fransız dillərində qarşılığı , ingilis dilində sözün tələffüzü ilə yazılı forması arasındakı böyük fərqi nəzərə alaraq terminlərin bu dildə transkripsiyası verilmiş, sonra terminlərin Azərbaycan dilində açıqlanması özünə yer almışdır. Bölgüyə əsasən А, Б, В, Г, Д, Е,Я hərflərilə başlayan sözləri E. Əliyeva, Ж, З, И, К, Т, Ш, Щ, У hərflərilə sözləri Z. Əsgərova, Й, Н, О, П, Р, С, Э hərflərilə sözləri C. Babayev və Л, М, Ф, Х, Ц, Ч, Ю hərflərilə başlayan sözləri Z. Əliyeva düzmüş, onların alman, ingilis və fransız dillərində ekvivalentlərinin tapılıb yerinə qoyulmasına köməklik göstərmişlər. Bundan sonra terminlərin Azərbaycan dilində açılışı verilmişdir. Ensiklopediyada verilmiş sözlərin almanca qarşılığının dəqiqləşdirilməsinə və digər texniki məsələlərin həllinə öz köməyini əsirgəməyən əməkdaşımız M. Seyid-Rzayevi də xüsusi qeyd etmək lazımdır.

Ensiklopediyada rus dilinin ilkin mənbə kimi götürülməsi hazırda bizim Respublikamızda əsas informasiyanın bu dildə yayılması ilə bağlıdır. Bizdə yaşlı nəsil dilçiləri əsasən rus dilindən informasiya alır, həm də hələlik kitab bazarında bizə gəlib çatan yeni nəşrlər əsasən rus dilindədir. Alman, ingilis və fransız dillərində oxumaq və məlumat almaq imkanı çox az miqdarda adamlara məxsusdur. Həmin dillərdə terminlərin ekvivalentini verməklə biz oxucularımızı gələcəkdə orjinaldan qidalanmağa hazırlamaq məqsədi güdürük.

Sözlərin semantik mənalarının açılması və şərhi zamanı imkan daxilində Azərbaysan dilçiliyindəki mənbələrdən istifadə edilmişdir. Misallar müvafiq dillərdən gətirilir. Bəzən şərh olunan məsələ ilə bağlı başqa dillərin də misallarına müraciət olunur. İstisnasız olaraq bütün baş sözlərin açılışından sonra konkret elmi-nəzəri mənbə göstərilir. Əksər hallarda mənbələrin dəqiq biblioqrafik göstəriciləri səhifəsinədək verilir. Amma bəzi hallarda əsərin özü verilsə də, konkret səhifə göstərilmir. Çünki bəzən araşdırılan məsələ adı çəkilən mənbənin bütün məzmununu əhatə edir. Odur ki, belə hallarda səhifə göstərməyə lüzum görmədik. Əsas məqsəd oxucunu istiqamətləndirmək və araşdırılan məsələ ilə bağlı müvafiq dilçilik mənbəyinə yönəltməkdən ibarətdir. Eyni mənbə bir neçə dəfə təkrar olunanda onun qısaldılmış variantı göstərilir. Məs., SDƏ və ya GDG və s.

Ensiklopediyada ingilis dilində verilmiş sözləri oxuyub dəyərli məsləhətlərini vermiş f.e.d.prof.A.Y.Məmmədova öz minnətdarlığımızı bildiririk. Fransız dilindəki sözlüyü dos. Ç.Babaxanova və dos. R.Cabbarov nəzərdən keçirmiş və qiymətli fikirlər söyləyərək düzəlişlər etmişlər. Onların

downloaded from KitabYurdu.org

hamısına dərin minnatdarlığımızı bildiririk. Ensiklopediyanın ərsəyə gəlməsində mənəvi yardım göstərmiş dos.Q.Bayramova və b/m S.İsazadəyə təşəkkürümüzü bildiririk. Ensiklopediyanın Azərbaycan dilindəki şərhlərini redaktə etmiş f.e.d. prof.İ.Z.Qasımova xüsusi təşəkkürümüzü bildirmək istərdik.

Quruluşca ensiklopediya iki hissədən ibarətdir. Birinci hissə A-dan H-ə qədərki, ikinci hissə isə O-dan Я-gədərki hərfləri əhatə edir. Bundan başqa ikinci hissədə görkəmli dünya dilçiləri haqqında qısa məlumat, ensiklopediyada gedən dillərin siyahısı və dilçiliyin əsas anlayışlarının adları əlifba sırası və ensiklopediyanın hansı səhifəsində işlənməsini göstərməklə verilir. Ensiklopediyanın hər iki cildində qısaltmaların və əlifbaların siyahısı və istifadə olunmuş mənbələrin biblioqrafiyası da onun nə qədər elmi olmasını göstərən amillərdəndir.

İnanmaq istərdik ki, bu ensiklopediya dilçilərimizin durmadan artan mənəvi tələbatını ödəyəcəkdir. Onun gələcəkdə nöqsansız nəşrinə kömək ola biləcək hər cür oxucu rəyinə səmimi yanaşacağımızı izhar etməklə bütün oxuculardan təklif, rəy və nöqsanları qəbul etməyə hazır olduğumuzu bildirmək istərdik.

filologiya elmləri doktoru, professor
F.Y.VEYSƏLLİ

downloaded from KitabYurdu.org

ENSİKLOPEDİYADA İSTİFADƏ OLUNAN QISALTMALAR

azərb. - *azərbaycanca*
Azərb. d. - *Azərbaycan dili*
alm. – *almanca*
alm. d. – *alman dili*
ABC. – *absolutive*
a. – *agens*
a. – *Adstrat*
AEA - *Azərbaycan Elmlər Akademiyası*
a. – *aksentologiya*
a.ə. – *avtomatik əvəzlənmə*
bolq. d. – *bolqar dili*
BFƏ – *Beynəlxalq Fonetika Əlifbası*
b. e. ə. – *bizim eradan əvvəl*
CAR – *Cənubi Afrika Respublikası*
CV(VC) – *samit+sait (sait+samit)*
C - *cümlə*
dd. – *doktorluq dissertasiyası*
FS – *feli sifət*
f. - *feminim*
fr. – *fransızca*
fr. d. - *fransız dilində*
f – *fel*
GDG - *German dilçiliyinə giriş*
g. i. d. – *gədim ingilis dili*
x – *xəbər*
XMT – *Xəbər, mübtəda, tamamlıq*
İ – *isim*
İS – *ismi sifət*
ing. - *ingiliscə*
ing. d. - *ingilis dili*
ital. d. – *italyan dili*
lat. – *latınca*
məs. - *məsələn*
m. - *maskulinum*
Müq. et. - *müqayisə et*
M - *Moskva*
m – *mübtəda*
m. i. d. – *müasir ingilis dili*

downloaded from KitabYurdu.org

NF – *ismi söyləm*
nd – *namizədlik dissertasiyası*
o. a. d. – *orta alman dili*
PDM – *Praqa dilçilik məktəbi*
rus d. - *rus dili*
rus. - *rusca*
rum. d. – *rumın dilində*
s. - *səhifə*.
SDƏ - *Struktur dilciliyin əsəsları*
t – *tamamlıq*
və b. – *və başqaları*
və i. a. – *və ilaxir*
və s. – *və sair*
y. a. d. – *yeni alman dili*
YBD – *Yardımçı Beynəlxalq dil*

¿...ل - *sual bildirən cümlələrdə qoyulur*
/…// - *bitkinlik intonasiyası ilə deyilən cümlənin transkripsiya işarəsidir*

¡…¡ - *nida cümlələrində qoyulur*

← . - *irəliyə işarə*

→. - *sonrakı səhifəyə işarə*
*. – *alman dilində söz başında gələn cingiltili samitlərin yanında qoyulur və onların yarımcingiltili tələffüz olunduğunu bildirir.*
|#| – *qarşılaşma işarəsi*
/ / – *fonematikliyi, fonemliyi bildirən işarə*
/j/ – *«y» hərfinin fonem işarəsi*
/ɦ/ – *«g» hərfinin fonem işarəsi*
/ɤ/ – *«ğ» hərfinin fonem işarəsi*
/d=/ – *«c» hərfinin fonem işarəsi*
/ç/ – *«ç» hərfinin fonem işarəsi*
/ʃ/ – *«ş» hərfinin fonem işarəsi*
/g/ – *«g» hərfinin fonem işarəsi*

downloaded from KitabYurdu.org

DİLÇİLİK ENSİKLOPEDİYASI

(Dilçilik terminlərinin rus dilində sıralanması, alman, ingilis və fransız dillərində ekvivalenti və Azərbaycan dilində şərhi)

– A –

АБАЗИНСКИЙ ЯЗЫК – alm. Abazisch (n), ing. abaza language /ə'ba:zə 'lɔŋgwɪʤ/, fr. langue abaza, azərb. abazin dili. – Abxaz-adıq dillərindən biridir. Əsasən Qaraçay-Çərkəzdə yayılmışdır. Bu dildə 30 mindən çox adam danışır. İki əsas dialektə bölünür: tapant və aşxar. 1932-33-cü illərdə latın qrafikası əsasında yazısı hazırlanmışdır. 1938-ci ildən isə kiril əlifbasına keçmişdir.

К.В.Ломтатидзе. Тапантский диалект абхазского языка. Тбилиси, 1944; А.Н.Генко. Абазинский язык. Грамматический очерк наречия тапанта. М., 1955; Г.П.Сердюченко. Язык абазин. М., 1955.

АББРЕВИАТУРА (СОКРАЩЕНИЕ) - alm. Abbreviatur (f), Abkürzung (f), ing. abbreviation /əˌbri:vɪ'eɪʃən/, acronym /ə'krɔnɪm/, fr. abréviation, abrègement, azərb. abbreviatur. - 1. Qısaldılmış mürəkkəb sözlər. Məs.: Azərnəşr-Azərbaycan nəşriyyatı, Azərtac-Azərbaycan Teleqraf Acensi, demblok-demokratik blok; 2. a) Birləşməyə daxil olan sözlərin baş hərflərinin adlarından düzələn qısaltma. Məs.: Azərb. d. BMT - /be- em'te/, BDU - /be-de-"u/; alm. UNO, GUS-Länder; ing. USA /ju-es'ej/; fr. OSCE /o-es-si-'e/; b) İlk fonemlərinin səsləndirilməsindən əmələ gələn qısaltmalar. Məs.: ABŞ /a-p-ş/, ATƏT, ADU). 3. Mürəkkəb ixtisarlar. Burada birinci və sonrakı sözün ilk hecası saxlanılır. Məs.: Azərb. d. /azdrama/, /azneft/ və s.

К.А.Левковская. Именное словообразование в современной немецкой общественно-политической терминологии и примыкающей к ней лексике. М., 1960; Д.И.Алексеев. Сокращенные слова в русском языке. Саратов, 1979; Р.И.Могилевский. Очерки аббревиации славянских языков. М., 1983.

АББРЕВИАТУРА ЗВУКОВАЯ (АББРЕВИАТУРА АКРОФОНЕТИЧЕСКАЯ) - alm. lautliche Abbreviatur (f), ing. sounding abbreviation /saundɪŋ əˌbri:'vɪeɪʃən/, fr. abréviation phonétique, azərb. səsli abbreviatur. - Məs.: Azərb. d. /ADU/ - Azərbaycan Dillər Universiteti.

downloaded from KitabYurdu.org

Д.И.Алексеев. Göstərilən əsər; Ə.Dəmirçizadə. Müasir Azərbaycan dili. I (Fonetika, orfoepiya və orfoqrafiya). Bakı, 1972, s. 292.

АББРЕВИАЦИЯ - alm. Abkürzung (f), ing. abbreviation /ə'bri:vɪ'eɪʃ(ə)n/, fr. abréviation, azərb. abbreviaturların əmələ gəlməsi. - Abbreviasiya qısaltmalar haqqında elmdir.

Bax: Аббревиатура ←.

АБЗАЦ - alm. Absatz (m), ing. paragraph /'p5rəgra:f/, /'prəgr5f/, fr. alinéa, paragraphe, azərb. abzas, sətirbaşı. - Yazıda yeni fikrin başlanğıcını bildirən sətirbaşı və məzmunca tam, bitmiş bir fikir ifadə edən mətn parçası. Məs.: „Beləliklə, biz əsrin qovuşuğunda ümumi dilçilik və eyni zamanda germanistikaya güclü təsir göstərən istiqamətlərdən biri olan İ.A.Boduen de Kurtene məktəbinə bir nəzər salmaq istəyirik". F.Yadigar (Veysəlli). German dilçiliyinə giriş. «Təhsil», Bakı, 2003, s. 53; Ə.Dəmirçizadə. Müasir Azərbaycan dili. I (Fonetika, orfoepiya və orfoqrafiya). Bakı, 1972.

АБЛАУТ (АПОФОНИЯ, ДЕФЛЕКСИЯ) - alm. Ablaut (m), ing. ablaut /'ablaʊt/, vocalic alternation /'vouk5lık 6:l'tɜ:neɪʃ(ə)n/, vocal gradation /'voukəl gr5deɪʃn/, fr. alternance vocalique, azərb. ablaut. - Söz və ya morfem daxilində saitlərin əvəzlənməsi. Bu hadisə əsasən hind-Avropa dillərinə xasdır. Xüsusən alm., ing. və flamand dillərində geniş yayılıb. Məs.: ing. d. /speak-spoke-spoken/; alm. d. /sprechen-sprach-gesprochen/ və s. «Fonemlərin əvəzlənməsi bir morfoloji vasitə kimi qüvvətli fellərin zaman formalarının və bu fellərdən yeni söz yaranmasında böyük rol oynayır. Belə əvəzlənməyə ablaut deyirlər». F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 122.

German dillərində qüvvətli fellərdə (ing. d. irregulary verbs) bu daxili fleksiyanı Y.Qrimm (1785-1868) ablaut termini ilə adlandırdı və sonra bütün dilçilikdə bu cür qəbul olundu. Aşağıdakı cədvəldə ablauta dair misallar verilir.

	alm.	*ing.*	*nə əvəzlənir*	*tərcüməsi*
Infinitiv	singen	sing	/ɪ/	oxumaq
	trinken	drink	/ɪ/	içmək
Imperfekt	sang	sang	/a/ /æ/	oxudu
	trank	drank		içdi
Partizip II	gesungen	sung	/ʊ/ /^/	mürəkkəb xəbərin tərkib hissəsi kimi
	getrunken	drunk		

downloaded from KitabYurdu.org

fr. d.	faire [fɛ:ʁ] - etmək	fit/fit/ - etdi	çıxış edir=müq. et
			/(Er) hat gesungen// (o oxudu)
			/(He) has sung// (o oxudu)

Hər iki dildə əvəzlənmələr öz keyfiyyətinə görə bir neçə qrupa bölünür. Bu dillərdə qüvvətli fellərdən kök saitini isimlər də dəyişməklə düzələ bilir. Ancaq alman dilində daxili fleksiya ilə yanaşı prefiks də sözdüzəltmədə iştirak edirsə, ingilis dilində bu ablautla olur. Müq. et: alm. d. /singen – sang – gesungen – Ge+sang/; ing. d. /sing – sang – sung - song/; rus d. /замирать – замор – замер - замру/ (donmaq) və ya /нести-ношуносить-нашивал/ (daşımaq) misallarını da daxili fleksiya kimi dəyərləndirmək olar.

Maraqlı burasıdır ki, hind-Avropa dillərindəki bu əvəzlənmələri A.A.Reformatski (1906-1978) eyni morfemin variantları adlandırır, çünki bu əvəzlənmələr eyni morfem daxilində baş verir. Semit dillərində «kök+sxem» modelində samit qrupuna saitlər girir və həm formaca, həm də məzmunca yeni sözlər yaranır. Müq. et: /ktb/ - /katib/, /kitab/ sözlərində üç samit kökün özünü, sonra isə saitlər əlavə edilməklə yeni formalar əmələ gəlir, ona görə də onları müxtəlif morfemlər adlandırırlar.

Ю.С.Маслов. Введение в языкознание. М., 1987; А.А.Реформатский. Введение в языковедение. М., 2001, s. 280-286; Ю.С.Маслов. Введение в языкознание. М., 1987; N.Məmmədov, A.Axundov. Dilçiliyə giriş. Bakı, 1980, s. 164; P.H.Matthews. Oxford Concise Dictionary of Linguistics. Oxford, 1997, s. 2; M.İ.Adilov və b. İzahlı dilçilik terminləri. Bakı, 1989, s. 6.

АБЛАУТНАЯ БАЗА - alm. Ablautbasis (f), ing. ablaut basis /'ablaʊt ˈbeɪsɪs/, gradation /ɡrəˈdeɪʃən/, fr. base d'alternance, azərb. ablaut bazası. - Saitlərin əvəzlənmə sisteminin reallaşması. Məs.: rus d. /бер/бор, вез/воз/ və ya alm. d. /fɛrˊliːrən/ - /fɛrˊlʊst/. Bu misallarda təkcə saitlər deyil (rus d. /e/ # /o/, alm. d. /i:/ # /ʊ/), həm də samitlər əvəzlənir (rus d. /в'/ # /в/, alm. d. /R/ # /s/) və s.

О.С.Ахманова. Словарь лингвистических терминов. М., 1969, s. 62; H.Bußmann. Lexikon der Sprachwissenschaft. Stuttgart, 1990, s. 43; R.Conrad. Kleines Wörterbuch sprachwissenschaftlicher Termini. Leipzig, 1975, s. 18.

АБЛАТИВ - alm. Ablativ (us) (m), ing. ablative /ˈ5blətɪv/, fr. ablatif, azərb. ablativ (çıxışlıq hal, bölüşdürücü, paylaşdırıcı hal). – Bəzi dillərdə - latın, macar və s. dillərində müxtəlif semantik mənaya malik zərflərin ifa-

downloaded from KitabYurdu.org

dəsinə xidmət edən hal. Məs.: tərzi-hərəkət zərfliyi: - /pedibus ire/ (ayaqla getmək), /leveltoll/ (məktubdan aşağı), zaman /hieme/ (qışda) və s.

P.H.Matthews. Göstərilən əsər, s. 1.

АБРУПТИВ - alm. glottookklusiver Laut (m), Abruptivlaut (m), ing. glottocclusive sound /ˈgl6təˈklu:sıv saund/, glottalized consonant /ˈgl6t59zd ˈk6nsənənt/, fr. abrupt,-e, la voix qrasseyée, azərb. Partlayan-xirtdək, boğaz səsi. - Tələffüz zamanı ağızdakı partlayışla eyni vaxtda xirtdəkdə səs tellərinin arasında partlayışın müşayiətilə əmələ gələn samitə deyilir. Ağızda partlayış ağızdakı əzələ gərginliyi nəticəsində yaranır, xirtdəkdəki partlayış isə hava axınının təzyiqi ilə yaranır. Akustik əlaməti səsin spektrində qəfil başlanğıcın olmasıdır. Belə səslər amhar və Qafqaz dilləri üçün səciyyəvidir. Məs.: /pʾ, tʾ, kʾ/. Məs.: çərkəz dilində: /t>a/ (qaz) - /ta/ (biz); /k>a/ (ad) - /ka/ (diş); /p>a/ (yer) - /pa/ (boğul!).

Р.Якобсон, Г.Фант и М.Халле. Введение в анализ речи. «Новое в лингвистике». М., 1962, s. 184.

АБСОЛЮТИВ - alm. Absolutiv (us) (m), ing. absolutive /ˈ5bs(ə)lu:tıv/ (ABC) /[eı bi: si:]/, fr. absolutif, azərb. absolutiv. – Erqativ dillərdə keçməz, təsirsiz (intranzitiv) fellərin tamamlığını göstərən hal. Bu halın nominativ dillərdə adlıq hal göstəricisi yoxdur.

P.H.Matthews. Göstərilən əsər, s. 3.

Bax: Эргативные языки →.

АБСОЛЮТНЫЙ - alm. absolut, ing. absolute /ˈ5bs(ə)l-:t/ˈabsəlu:t/, fr. absolu,-e, azərb. mütləq. Mütləq zaman, danısıq vaxtına əsasən müəyyənləşdirilən zaman forması (nisbi zamanın əksi). - Müq. et: Azərb. d. /Mən adamı gördüm//. /Mən adamı görəcəyəm//. /Mən adamı görmüşəm//. /Mən adamı görmüş olacağam//. Mütləq başlanğıc - fasilədən sonra, cümlədə birinci sözün əvvəlində gələn fonem. Mütləq sonluq - fasilədən qabaq, cümlədə axırıncı sözün son fonemi.

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

АБСОРБЦИЯ - alm. Absorption (f), ing. absorption /əˈbs6:pʃ(ə)n/, fr. absorption, azərb. absorpsiya, ud(-ul)ma, sor(-ul)ma. - Sonor samitin yanında gələn saitin düşməsi. Məs.: ing.d. /I am/ > /I'm/, alm.d. /´li:bn ´ha͡est ´le:bn̩//; azərb. d. /gˇlümsˇndi/ və s. Qərbi Afrikanın bəzi dillərində tonal absorbsiya hecada ton konturunun sonu özündən sonra gələn hecanın tonu ilə eyni səviyyədə birləşir. Məs.: qalxan ton + yüksək ton:

downloaded from KitabYurdu.org

/⌣/ → aşağı ton + yüksək ton →↗; enən ton + aşağı ton ↘ →, yüksək ton + aşağı ton ↗↘ birləşməsi müşahidə olunur.

P.H.Matthews. Göstərilən əsər, s. 3.

АБСТРАКТ - alm. abstrakt, ing. abstract /′5bstr5kt/, fr. abstrait-e, azərb. abstrakt, mücərrəd. - Mücərrəd tərzdə ümumi keyfiyyət, əlamət, vəziyyət, hərəkət məfhumları bildirən sözlər. Məs.: Azərb. d. /gözəllik, yaxşılıq/ və s.

P.H.Matthews. Göstərilən əsər, s. 3.

АБСТРАКТНЫЙ ЗВУК - alm. Abstraktlaut (m), ing. abstract sound /′5bstr5kt saund/, fr. le son abstrait, azərb. mücərrəd səs. - Mücərrəd səs - mövqe ilə bağlı olmayan və fərdi şəkildə təzahür etməyən hər hansı bir fonemin təsəvvürdə canlanması.

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.

АБСТРАКТНАЯ ФОНЕТИКА - alm. abstrakte Phonetik (f), ing. abstract phonetics /5b′str5kt fou'netıks/, fr. phonétique abstraite, azərb. mücərrəd fonetika. - Hər hansı bir dilin konkret təzahür xüsusiyyətlərindən deyil, yalnız nəzəri ümumiləşmələrdən çıxış edərək təsvir modelinə söykənən elm sahəsi.

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

АБСТРАКТНЫЙ - alm. abstrakt, ing. abstract /′5bstr5kt/, fr. abstrait,-e, azərb. mücərrəd. - Adətən buraya mücərrəd qrammatik kateqoriyaya malik olan mücərrəd isimlər aiddir. Məs.: Azərb. d. /xeyirxah/, /səmimiyyət/, /şirin söz/, /acı dil/ və s.

Bax: Абстракт ←.

АБСТРАКТИВНАЯ РЕЛЕВАНТНОСТЬ - alm. abstrakte Relevanz (f), ing. abstractive relevance /5b′str5ktıv ′relıvəns/, fr. relevant abstractive, azərb. mücərrəd relevantlıq (abstrakt relevantlıq). - Fərqləndirmə funksiyasının xüsusiyyətidir, bütünlükdə reallaşan fonetik vahidlə deyil, yalnız onun bir qismilə həyata keçir, bu da fərqləndirici əlamət kimi qəbul edilir. Məs.: ləzgi dilində iki xirtdək samiti var: /q/#/qᵒ/. Onlardan birində dodaqlanma fərqləndirici əlamət kimi çıxış edir. Müq. et: /naqᵒ/ (torpaq).

Л.Р.Зиндер. Общая фонетика. М., 1979, s. 135.

АБСТРАКТНОЕ ДЕЙСТВИЕ - alm. abstrakte Verbalhandlung (f), ing. abstract action /′5bstr5kt ′5kʃ(ə)n/, fr. action abstraite, azərb. mücərrəd hərəkət. - Felin bitməmiş ifadəsini bildlirir. Məs.: Azərb. d.

downloaded from KitabYurdu.org

/Durna çırağı yandırmaq// (rəvayətə görə dağlarda yandırılır ki, durnalar azmasın).

R.Conrad. Göstərilən əsər, s. 20.

АБСТРАКТНОЕ СУЩЕСТВИТЕЛЬНОЕ (СУЩЕСТВИТЕЛЬНОЕ ОТВЛЕЧЁННОЕ) - alm. abstraktes Substantiv (n), ing. abstract nouns

/ˈ5bstr5kt nauns/, substantives /ˈsʌbstəntɪvz/, thought-names /4ɔ:t neɪmz/, fr. nom (substantif) abstrait, azərb. mücərrəd isim. - İş və əlamətin mücərrəd şəkildə adını bildirən isim. Məs.: Azərb. d. /sevgi/, /məhəbbət/, /nifrət/, /azadlıq/, /inam/, /şübhə/, /qorxu/ və s.

R.Conrad. Göstərilən əsər, s. 20.

АБСТРАКТНЫЕ ФОРМЫ - alm. abstrakte Formen (Pl.), ing.

abstract forms /ˈ5bstr5kt fɔ:mz/, fr. formes abstraites, azərb. mücərrəd formalar. - Sintaktik quruluşun müxtəlifliyindən yaranan sintaktik sinonimlər. Məs.: rus d. /голубоглазая девушка/ – /девушка с голубыми глазами/; Azərb. d. /professorun dəvəti/ - /professordan dəvət/ və s.

О.С.Ахманова. Словарь лингвистических терминов. М., 1969, s. 30.

АБСТРАКТНЫЙ ГЛАГОЛ - alm. abstraktes Verb (n), ing. abstract

verb /ˈ5bstr5kt vɜ:b/, fr. verbe abstrait, azərb. mücərrəd fel. - Öz leksik (lüğəvi) və ya konkret mənasından kənar formada işlənən fellər. Məs.: Azərb. d. /çəkmək/ - /ayağını çəkmək/ və /fikir çəkmək/. İkinci halda /çəkmək/ məcazi mənada işlənmişdir.

R.Conrad. Göstərilən əsər, s. 20.

АБСТРАКЦИЯ ЛЕКСИЧЕСКАЯ - alm. lexikale Abstraktion (f), ing.

lexical abstraction /ˈleksɪk(ə)l 5bˈstr5kʃən/, fr. abstraction lexicale, azərb. leksik mücərrədlik. - Mücərrəd şəkildə ümumi keyfiyyət, əlamət, vəziyyət, hərəkət bildirən sözlərin toplusu. Məs.: Azərb. d. /sıxıntı/, /qüssə/, /kədər/, /sevinc/ və s.

R.Conrad. Göstərilən əsər, s. 20.

АБХАЗСКИЙ ЯЗЫК – alm. Abchasisch (n), ing. abkhazian language

/əbˈkɑ:zɪən ˈlæŋgwɪdʒ/, fr. langue abkhazie, azərb. abxaz dili. – Abxazadıq dillərindən biridir. Əsasən Abxaz Respublikasında geniş yayılmışdır. Təqribən 100 minə qədər adam bu dildə danışır. İki əsas dialektə bölünür: abjuy və bzıb. Ədəbi dil kimi 1862 –ci ildə rus qrafikası əsasında abxaz əlifbasının tərtibindən sonra başlamışdır. 1928-ci ildə latın qrafikasına, 1938-ci ildə gürcü qrafikasına, 1954-cü ildə isə rus qrafikasına keçmişdir.

P.H.Matthews. Oxford Concise Dictionary of Linguistics. Oxford, 1997, s. 49; П.К.Услар. Этнография Кавказа. Языкознание, т.1. Абхаз-

downloaded from KitabYurdu.org

ский язык. Тифлис, 1887; К.В.Ломтатидзе. Категория переходности в абхазском глаголе. Известия ИЯИМК, 1942, т. 12.

АБХАЗСКО-АДЫГСКИЕ ЯЗЫКИ – alm. abchasisch-adygäische Sprachen (Pl.), ing. abkhaz-adyghei languages /əb'kɑ:z 'adɪg /ɑ:də'geɪ/ 'lʌŋgwɪʤɪz/, fr. langues abkhaze-adyghéenes, l'abkhaze-adyghéenes, azərb. abxaz-adıqey dilləri. – Qafqaz dillərinin qərb qrupu. Buraya abxaz, abazin, ubıx, adıq və kabardin-çərkəz dilləri daxildir. Ubıx dilinə yalnız müasir Türkiyə ərazisində rast gəlinir. Bu dillərdə saitlər (vokalizm) yarımsistemi zəif inkişaf etmişdir. Samitlər (konsonantizm) yarımsitemi mürəkkəb və geniş inkişaf etmişdir. Bu dillərin fonoloji sistemi (2-3) sait və (80) samit fonemlərdən ibarətdir.

P.H.Matthews. Göstərilən əsər, s. 49; Г.В.Рогава. Абхазо-адыгские языки. Языки народов СССР. т. 4, М., 1967.

АВАРСКИЙ ЯЗЫК – alm. Avarisch (n), ing. Avar language /'avɑ:ɑ, avɑr 'lʌŋgwɪʤ/, fr. langue avarienne, azərb. avar dili. – Dağıstan Respublikasının qərb hissəsində yayılmışdır. Bu dildə 500 min əhali danışır. Dialektləri iki qrupa bölünür: şimal ləhcəsi - salatav və xunzay; cənub ləhcəsi – andalal, qid, ansux, batlux və s. 1938-ci ildən rus qrafikasına keçmişdir.

P.H.Matthews. Göstərilən əsər, s.49; А.Чикобава, И.Церцвадзе. Аварский язык. Тбилиси, 1962.

АВЕСТИЙСКИЙ ЯЗЫК – alm. Avestisch (n), ing. Avesta language /ə'vɛstə 'læŋgwɪʤ/, fr. langue avesta, azərb. avesta dili. - «Avesta» - nın yazıldığı dil. Hindistan və İran ərazisində Allaha sitayişdə istifadə olunan dil. Avesta dilini iki dialektə bölürlər: qat dialekti (əsasən nəğmələrdən ibarətdir, Zərdüştə məxsus olduğu göstərilir) və sonrakı avesta dialekti.

P.H.Matthews. Göstərilən əsər, s. 31; С.Н.Соколов. Авестийский язык. М., 1961; Chr. Bartholomae. Avestasprache und Altpersisch. Grundriss der iranischen Philologie. Bd 1, Abt. 1, Strassburg, 1895-1901.

АВСТРАЛИЙСКИЕ ЯЗЫКИ – alm. australische Sprachen (Pl.), ing. Australian languages /6'streɪlɪəns /6s'treɪljən 'lʌŋgwɪʤɪz/, fr. langues australiennes, azərb. avstraliya dilləri. – Avstraliyanın yerli əhalisinin dili. Avstraliyanın Avropa dövlətləri tərəfindən müstəmləkəçiliyinə qədər 300 minlik Avstraliya əhalisi 260 dildə danışırdı. Hal-hazırda bu dillərdən 200-ə qədəri yer kürəsindən silinmək üzrədir. Avstraliya dilləri 12 ayrı-ayrı dilləri özündə cəmləşdirir: andillyauqva, varrai, hunavidi,

downloaded from KitabYurdu.org

kakadü, hunkarakan, manharay, minkin, nahara, nqevin, nunqqubuy, tivi, yanyula. Avstraliya dillərinin hamısı aqqlütinativ dillərdir.

P.H.Matthews. Göstərilən əsər, s.30; A.Capell. A new approach to Australian linguistics. Sydney, 1956; 2 ed., Sydney, 1962; yenə onun, History of research in Australian and Tasmanian languages. CTL, The Hague – P., 1971.

АВСТРОНЕЗИЙСКИЕ ЯЗЫКИ – alm. austronesische Sprachen (Pl.),

ing. Austronesian languages /6strə(ʊ)ˈни:зжян, (-= (я)н, 6:-)

ˈl5ŋɡwɪʤɪz/, fr. langues Austronésiennes, azərb. avstroneziya dilləri. – Ən böyük dil ailələrindən biridir. Malay arxipelağında (İndoneziya, Filippin), Malakka yarımadasında, Okeaniyada, Madaqaskar və Tayvan adalarında yayılmışdır. 800-ə qədər dili özündə birləşdirən Avstroneziya dillərində 250 milyondan çox adam danışır. Avstroneziya dillərinin müqayisəli-tarixi tədqiqi V.Humboldtun kavi dili haqqındakı elmi işidir. O, bu dilləri «malay-polineziy dilləri» termini ilə adlandırmışdır.

P.H.Matthews. Göstərilən əsər, s.30; Ю.Х.Сирк. Австронезийские языки. Сравнительно-историческое изучение языков разных семей. М., 1982; W.Humboldt. Über die Kawisprache auf der Insel Java. Bd 1-3, Berlin, 1836-1839.

АВТОМАТИЗМ - alm. Automatismus (m), ing. automatism /6:ˈt6mətɪz(ə)m/, fr. automatisme, azərb. avtomatizm. - Dilin daxili qanunauyğunluqları əsasında əvvəlki sözdən (sözlərdən) sonrakı sözlərin məlum olması, sərbəst şəkildə söz işlətməyin mümkün olmaması. A-in müxtəlif növləri var: leksik, sintaktik və psixoloji avtomatizim. Məs.: Azərb. d. /diş qıcamaq, göz ağartmaq/ və s. leksik avtomatizimlərdir.

M.İ.Adilov və b. Göstərilən əsər, s. 7.

АВТОМАТИЧЕСКИЙ АЛЬТЕРНАНТ - alm. automatischer

Alternant (m), ing. automatic alternant /6:təˈmatık ɔ:lˈtə:nənt/, fr. alternance automatique, azərb. avtomatik əvəzlənmə.

Bax: Автоматическое чередование →.

АВТОМАТИЧЕСКОЕ ЧЕРЕДОВАНИЕ - alm. automatische

Alternation (f), ing. automatic alternation /ɔ:təˈmatık ˌɔ:ltəˈneɪʃən/, fr. alternance automatique, azərb. avtomatik əvəzlənmə. - Konkret fonetik əhatə ilə müəyyənləşən fonomorfoloji əvəzlənmə. Məs.: Azərb. d. /Onlar get̲dilər// – /Onlar ged̲irlər//. /t/#/d/ əvəzlənməsi bu cür əvəzlənməyə misal ola bilər. İng. d. /ɪz/ (fish+es), /s/ (cat+s) və /z/ (dog+s, cow+s) əvəzlənmələrini a.ə. hesab etmək olar.

downloaded from KitabYurdu.org

P.H.Matthews. Göstərilən əsər, s. 30.

АВТОНОМНЫЙ - alm. autonom, ing. autonomous /ɔːˈtɔnəməs/, fr. autonome, azərb. avtonom, muxtar, muxtariyyətli. - Konteksdən, vəziyyətdən və ya şəraitdən asılı olmayaraq dil vasitələrinin asan başa düşülməsini təmin edən adi işlək formadır. Şerba (1880-1944) məktəbi fonem nəzəriyyəsinin işlənib hazırlanmasında avtonomluğu əsas götürür. L.V.Şerba yazır ki, fonemlər, o cümlədən, dilin səs tərkibi müstəqilliyə malikdir. Bu fikir fonologiyanın təməl daşıdır. Müstəqilliyin nə demək olduğunu izah edək. Alman dilində «binden» və «banden» sözləri vardır. Birinci sözdəki /ı/ onun qrammatik mənasında indiki zamanın, ikinci sözdəki /a/ isə keçmiş zamanın ifadə olunduğunu göstərir. Deməli, ayrılıqda heç bir mənaya malik olmayan /a/ və /ı/ səsləri göstərilən sözlər daxilində müxtəlif mənaların yaranmasını təmin edir. Yaxud /Er kommt/ və /Ich komme/ misallarına nəzər yetirək. Bu paradiqmdə /t/ vasitəsi ilə 3-cü şəxsin təki, [ə] vasitəsi ilə isə 1-ci şəxsin təki ifadə olunmuşdur. /t/ və /ə/ ayrılıqda heç bir məna ifadə etmir, lakin göstərilən misallarda müəyyən qrammatik məna bildirilir. /Mutter/ və /Mûtter/ sözlərində /ʊ/ və /ɣ/ saitləri müəyyən qrammatik mənaya xidmət edir. Bu yolla aparılan təhlildən L.V.Şerba belə qənaətə gəlir ki, dildəki bütün fonemlər müəyyən müstəqilliyə malikdir və potensiyada məna ilə bağlıdır. Həmin ideyanı L.V.Şerba «Fransız dilinin fonetikası» (1-ci nəşri: M., 1937) kitabında inkişaf etdirərək əsas variant məsələsinə gəlib çıxmışdır. Eyni zamanda L.V.Şerba sübut etmişdir ki, fonem dərketmə vahididir. L.V.Şerbaya görə, fonem variantlarından ən müstəqili mövqedən asılı olmayanıdır. O əsas, qalanları isə qeyri-əsas variantdır, çünki ayrılıqda tələffüz olunur. Bu zaman fonemin reallaşdığı varianta mövqenin təsiri olmayacaqdır: /a:/ və ya /a/. Lakin həmin /a/-lar müəyyən bir əhatədə işləndikdə səslər onlara öz təsirini göstərir. /bal/ - sözündə /a/-nın dodaqlanan şəkildə, dilin qabağa çəkilməsi və yanlardan üst dişlərin yuvaqlarına qalxması ilə tələffüz edilməsi /b/ və /l/ fonemlərinin təsiridir». F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s.32-33.

АВТОНОМНЫЕ СЛОВА - alm. autonome (hauptsächliche) Wörter (Pl.), ing. autonomous words /ɔːˈtɔnəməs wɜːdz/, fr. mots autonomes (principaux), azərb. avtonom sözlər. - Müstəqil leksik mənaya malik olan, cümlənin müstəqil üzvü olan sözlər. Məs.: Azərb. d. /vətən/, /yaşamaq/, /kitab/, /qələm/, /dəftər/ və s.

R.Conrad. Göstərilən əsər, s. 47.

АВТОНОМИСТЫ - alm. Autonomisten (Pl.), ing. autonomists /ɔːˈtɔnəmıstsˈ/, fr. autonomistes, azərb. avtonomistlər. - Təbii dillərdən

downloaded from KitabYurdu.org

asılı olmadan beynəlxalq süni dil yaratmaq ideyasina tərəf çıxan alimlər. Bu dilçilik tarixində naturalistlərə əks cərəyan hesab olunur.

M.İ.Adilov və b. Göstərilən əsər, s. 7.

АВТОНОМИЯ - alm. Autonomie (f), Selbstständigkeit (f), ing.

autonomy /ɔ:ˈtɔnəmı/, fr. autonomie, azərb. avtonomiya, müstəqil. – Dilin bir səviyyəsinin digərindən asılı olmaması, hər bir səviyyənin öz daxilində müstəqil şərhi. Avtonomluq L.V.Şerba məktəbinin əsas prinsipi sayılır.

«Şerbanın bəhs etdiyi fonem müstəqilliyini (avtonomluğunu) fonemin sözdən kənarda mövcud ola bilməsi kimi deyil, onun (fonemin) nə söz, nə də morfemin səs qabığı kimi çıxış etmədiyi və heç bir morfoloyi funksiyaya malik olmadığı, yəni özlüyündə sırf fonoloji vahidi təmsil etdiyi hallarda ayrica vahid kimi ayrıla bilməsi mənasında başa düşmək lazımdır».

Л.Р.Зиндер. Общая фонетика. М., 1979, s. 38.

АВТОНОМНЫЙ ГРАММАТИЧЕСКИЙ ПРОЦЕСС - alm. autonomer grammatischer Prozess (m), ing. autonomous grammatical

process /ɔ:ˈtɔnəməs ɡrəˈm5tık(ə)l ˈprəusəs/, fr. procès grammatical autonome, azərb. avtonom qrammatik proses. - Əsasda daxili dəyişiklər əmələ gətirən, şərtlənməmiş (müstəqil) fonomorfoloji proses. Məs.: ing. d. /took-take/ buna misal ola bilər.

P.H.Matthews. Morhology. London, 1979, s. 37.

АВТОРЕГУЛИРОВАНИЕ - alm. automatische Regelung (f), ing.

autoregulation /ˈɔ:təuˌreɡjuˈleıʃ(ə)n/, fr. autoréglage, azərb. avtonizamlama, avtotənzimləmə. - Danışıq psixofiziologiyasında tərsinə əlaqə, yəni tələffüz niyyətinin reallaşmasına eşitmə vasitəsilə nəzarət.

С.Л.Рубенштейн. Основы общей психологии. М., 1946.

АВТОРСКАЯ РЕЧЬ - alm. Verfasserrede (f), ing. author's speech

/ˈɔ:θəz spi:ʧ/, fr. parole d'auteur, azərb. müəllif nitqi. - Bədii əsərlərdə müəllifin dilindən yazılan parçalar, obrazların, personajların danışığında işlənməyən parçalar.

R.Conrad. Göstərilən əsər, s. 47.

АВТОРСКОЕ ПОВЕСТОВАНИЕ – Bax: Авторская речь ←.

АВТОСЕМАНТИЧЕСКИЙ (ЗНАМЕНАТЕЛЬНЫЙ) - alm. autosemantisch, (hauptsächlich, selbständig), ing. autosemantic

/ˈɔ:təusıˈmæntık/, of full meaning /əv ful ˈmi:nıŋ/, categorematic

downloaded from KitabYurdu.org

/ˈkætɪgɔrɪmætɪk/, fr. autonome, autosémantique, (significatif), azərb. avtosemantik. - Gerçəkliyi əşyada, hərəkətdə, keyfiyyətdə və digər xüsusiyyətlərdə əks etdirən, müstəqil məna bildirən sözlər və yaxud müstəqil leksik mənaya malik olan cümlə üzvləri funksiyasında çıxış edə bilən sözlərə deyilir.

M.İ.Adilov və b. Göstərilən əsər, s. 7.

АГАВСКИЕ ЯЗЫКИ – alm. Agau-Sprachen (Pl.), ing. Agave languages /əˈgeɪv ˈlɔŋgwɪʤɪz/, fr. langues agaves, azərb. aqav dilləri. – Şimali və şimal-qərbi Həbəşistanda yayılmışdır. Aqav dilləri kuşit dillərinin mərkəzi qrupunu təşkil edir. 400 mindən artıq dil daşıyıcısı vardır. Əsasən yazısı olmayan dillərdir. Hazırda bilin, xamir və kvara dillərinin qrammatikası və lüğəti işlənib hazırlanmışdır.

L.Reinisch. Die Chamirsprache in Abessinien. SbW, 1884, Bd 105-06.

АГГЛЮТИНАТИВНЫЙ - alm. agglutinativ, ing. agglutinative /əˈglu:tınətıv/, fr. agglutinant, azərb. aqqlütinativ (iltisaqi). - Dəyişməyən əsasa və ya kökə bilavasitə monosemantik şəkilçilərin artırılması. Misal olaraq müasir türk dillərini göstərmək olar. /Ata- atalar/, /ata-lar-ın/. Burada bir qrammatik məna bir morfemlə ifadə olunur.

R.Conrad. Göstərilən əsər, s. 24; 247-248.

АГГЛЮТИНАТИВНАЯ МОРФОЛОГИЯ - alm. agglutinative Morphologie (f), ing. agglutinative morphology /əˈgluːtınətıv mɔːˈfɔləʤı/, accidence /ˈ5ksıd(ə)ns/, fr. morphologie agglutinante, azərb. aqqlütinativ morfologiya. - Heç bir morfoloji dəyişməyə məruz qalmayan, morfemlərin yanaşı (bir-birinin ardınca) gəlməsi vasitəsilə qrammatik kateqoriyanın ifadə olunması. Məs.: Azərb. d. /ata+lar+dan/ və s.

N.Məmmədov, A.Axundov. Dilçiliyə giriş. Bakı, 1980, s. 300.

АГГЛЮТИНАТИВНЫЕ ЯЗЫКИ - alm. agglutinative Sprachen (Pl.), ing. agglutinative languages /əˈglu:tınətıv ˈlɔŋgwɪʤɪz/, fr. langues agglutinantes, azərb. aqqlütinativ dillər. - Söz formaları aqqlütinasiya yolu ilə düzələn dillər. Türk, fin-uqor dilləri belə dillərdən hesab olunur. Bu dillər üçün şəkilçilərlə sözdüzəltmə və sözdəyişmə sistemli xarakter daşıyır, vahid təsriflənmə və hallanma xüsusiyyəti olmaqla şəkilçilərin eyni funksiyalılığı mövcuddur.

N.Məmmədov, A.Axundov. Dilçiliyə giriş. Bakı, 1980, s. 291-313.

АГГЛЮТИНАЦИЯ – alm. Agglutination (f), ing. agglutination /əˈglu:tıˈneɪʃ (ə)n/, fr. agglutination, azərb. aqqlütinasiya. - 1. Yalnız bir mənası olan standart sözdəyişdirici şəkilçilərin sabit söz kökünə və ya

downloaded from KitabYurdu.org

əsasına qoşulması. Bu kimi qrammatik xüsusiyyətə malik dillərə aqqlütinativ (iltisaqi) dillər deyilir. Məs.: türk və fin-uqor dilləri. Aqqlütinasiya odur ki, hər bir şəkilçi yalnız bir qrammatik məna daşıyır, eləcə də hər bir qrammatik məna həmişə eyni bir şəkilçi vasitəsi ilə ifadə edilir. 2. Adətən yanaşı gələn iki sözün bir-birinə qovuşaraq bir söz şəklinə düşməsi. Məs.: Azərb. d. bildir (bir ildir), bilərzik (bilək üzük).

M.İ.Adilov və b. Göstərilən əsər, s. 8.

АГЕНС - alm. Agens (n), ing. actor /ˈaktə/, agent /ˈeɪʤ(ə)nt/, fr. agent, azərb. iştirak edən şəxs, icraçı, işin icraçısı, hərəkətin subyekti. - Hind-Avropa dillərində aqens feli hərəkətin mənbəyi kimi aktiv konstruksiyalarda adlıq halda çıxış edir. Məs.: alm. d. /Der Lehrer fragt mich// (Müəllim məni soruşur).

R.Conrad. Göstərilən əsər, s. 24.

АГЕНТИВНЫЙ СУФФИКС - alm. Agentivsuffix (n), ing. agential (agentival) suffix /əˈʤen ʃ əl /ˈəʤentıvəl/ ˈs∧fıks/, fr. suffixe d'agent, azərb. agentiv suffiks. - Hərəkətin (işin) icraçısını bildirən suffikslər. Məs.: Azərb. d. /dəmir – dəmirçi/, sürmək – sürücü/.

H.Bußmann. Göstərilən əsər, s. 55.

АГОГИКА РЕЧИ - alm. Agogik der Rede (f), ing. agogies of speech /əˈgɔgi:z əv spi:ʧ/, fr. discour agogique, azərb. nitq aqoqikası. - Oxunan və ya tələffüz olunan mətnin intellektual və emosional məzmununu nəzərə alan, nitqin tempi və ya ritmik quruluşu haqqında elmdir.

O.C.Ахманова. Словарь лингвистических терминов. M., 1966, s. 32.

АГРАММАТИЗМ - alm. Agrammatismus (m), ing. agrammatism /əˈgramətız(ə)m/, fr. agrammatisme, azərb. aqrammatizm. – Dərkedilmənin və danışıq fəaliyyətinin qrammatik nizamlanmasını təmin edən psixofizoloji proseslərin pozulmasından yaranan yayınmalar. Məs.: Azərb. d. /mən kimə görürəm?/. N.Xomski (1928) göstərir ki, hər bir dil daşıyıcısı qrammatik cəhətdən düzgün cümləni səhv cümlədən ayırmağa qabildir.

R.Conrad. Göstərilən əsər, s. 24, 98.

АГРАФИЯ - alm. Agraphie (f), ing. agraphia /əˈgrafıə/, fr. agraphie, azərb. aqrafiya. - Yazılı və şifahi nitq arasında qanunauyğunluqları təmin edən psixofizioloji proseslərin pozulmasıdır ki, bunun nəticəsində yazma qabiliyyəti itir, bəzən də nitq pozğunluğu müşahidə olunur. Məs.: Azərb. d. /təbi´ət/ əvəzinə /tibəit/ yazanda aqrafiya hadisəsi baş verir.

O.C.Ахманова. Göstərilən əsər, s. 32.

downloaded from KitabYurdu.org

АГРЕГАТИВНОЕ СЛОЖНОЕ СЛОВО - alm. aggregatives zusammengesetztes Wort (n), ing. aggregative compound word /ˈ5grɪgətɪv ˈkɔmpaund wɜ:d/, fr. mot agrégative composé, azərb. aqreqativ mürəkkəb söz. - Bir neçə ardıcıl üzvlərdən ibarət olan kopulyativ (sərbəst, müstəqil) mürəkkəb söz. Məs.: Azərb. d. /çöl-bəhri-biyaban/ və s.

О.С.Ахманова. Göstərilən əsər, s. 32.

АГУЛЬСКИЙ ЯЗЫК – alm. Aghulisch (n), ing. agul, aghul language /ˈagul ˈlɔŋgwɪdʒ/, fr. langue aghule, azərb. aqul dili. – Ləzgi dillərindən biridir. Dağıstanın Kurax və Aqul bölgələrində yayılmışdır. Təqribən 14 minə qədər adam bu dildə danışır. Genetik cəhətdən tabasaran dilinə yaxındır. 4 dialekti vardır: tipig, keren, burkihan və koşan. Yazısı rus qrafikası əsasında hazırlanmışdır.

А.А.Магометов. Агульский язык. Тбилиси, 1970.

АДАМАУА-ВОСТОЧНЫЕ ЯЗЫКИ – alm. Adamawa-östliche Sprachen (Pl.), ing. Adamawa-east languages /ɑdəˈma-i:st ˈlɔŋgwɪdʒɪz/, fr. langues Adamawa-Est, azərb. adamaua-şərq dilləri. – Niger-konqo-lez dillər ailəsinin tərkibinə daxildir. Təqribən 7 milyondan yuxarı adam bu dillərdə danışır. 150 dil və dialektləri özündə birləşdirir.

D.Westermann, M.Bryan. Languages of West Africa. Oxf., 1952; S.Santandrea. Comparative outline-grammar of Ndogo, Sere, Tagbu, Bai, Bviri, Bologna. 1961; J.Greenberg. The Languages of Africa. Bloomington, 1963.

АДАПТАЦИЯ - alm. Adaptation (f), Anpassung (f), ing. adaptation /ˌ5d5pˈteɪʃ(ə)n/, fr. adaptation, azərb. uyğunlaşma. - 1. Müəyyən bir sözün şəkilçi və ya kök ünsürünün səslənməsinə və ya mənaca yaxınlığına görə dəyişməsi; 2. Dil vahidinin işlənmə sahəsinin analogiyaya uyğun genişlənməsi. Məs.: Azərb. d. /gız´lar/ əvəzinə /gız´zar/ ya da /gız´dar/ tələffüz edilməsi.
О.С.Ахманова. Göstərilən əsər, s. 32; N.Məmmədov, A.Axundov. Göstərilən əsər, s. 74; Ə.Dəmirçizadə. Göstərilən əsər, s. 192-223.
АДАПТАЦИЯ ФОНОЛОГИЧЕСКИХ СИСТЕМ - alm. Adaptation der phonologischen Systeme (f), ing. adaptation of phonological systemes /ˌ5d5pˈteɪʃ(ə)n əv ˌfounəˈlɔdʒɪk(ə)l ˈsɪstɪmz/, fr. adaptation des systèmes phonologiques, azərb. fonoloji sistemlərin uyuşması. - Ədəbi dil üçün müxtəlif dialektlərdən: a) mənimsənilməsi və işlədilməsi az çətinlik törədən; b) danışığın rəvanlığını və aydınlığını artıran tələffüz variantının seçilməsi.

downloaded from KitabYurdu.org

N.Məmmədov, A.Axundov. Göstərilən əsər, s. 73-81; Ə.Dəmirçizadə. Göstərilən əsər, s. 192-223.

АДАПТАЦИЯ ФОНЕТИЧЕСКАЯ - alm. phonetische Adaptation (f), ing. phonetic(al) adaptation /fəu'netik(əl) ˌ5d5p'teɪʃ(ə)n/, fr. adaptation phonétique, azərb. fonetik uyuşma.

Bax: Адаптация ←.

АДВЕРБАЛЬ – alm. adverbial, ing. adverbial /əd'və:bɪəl/, fr. adverbial-,e, azərb. adverbal. – Felin yanında gələn, felə aid olan, felin idarə etdiyi söz. Məs.: alm. d. /Er begann zu singen// (O oxumağa başladı).

АДВЕРБИАЛИЗАЦИЯ - alm. Adverbialisierung (f), ing. adverbialization /əd'və:bɪəlɪzeɪʃ(ə)n/, fr. adverbialisation, azərb. adverbiallaşma (zərfləşmə). - Başqa nitq hissələrinin zərfə keçməsi. Məs.: Azərb. d. /səhər, axşam, günorta və s./, /Səhər mən tezdən dururam// cümləsində /səhər/ zaman zərfidir.

R.Conrad. Göstərilən əsər, s. 22-23.

АДВЕРБИАЛЬНЫЙ - alm. adverbial, ing. adverbial /əd'vɜ:bjəl/, fr. adverbial, azərb. adverbial (zərf mahiyyətində olan). Zərf funksiyasında çıxış edən. Məs.: Azərb. d. /Onlar yaxşı qaçırlar//.

АДВЕРБИАЛЬНО-ГЛАГОЛЬНОЕ СЛОВОСОЧЕТАНИЕ – alm. adverbial-verbale Wortverbindung (f), Wortgruppe (f), ing. adverbial-verbal combination /əd'vɜ:bjəl 'vɜ:bjəl kɔmbɪ'neɪʃ(ə)n/, verb-adverb combination /vɜ:b 'advə:b kɔmbɪ'neɪʃ(ə)n/, fr. groupe de mots verbal-advérbial, azərb. adverbial feli söz birləşməsi və ya tərkibi. - Mürəkkəb fel funksiyasını yerinə yetirən feli zərf birləşməsi. Məs.: Azərb. d. /O, içəri daxil olur//; ing. d. /He came in //=/ He entered// və s.

O.C.Ахманова. Göstərilən əsər, s.105.

АДВЕРСАТИВНЫЙ (ПРОТИВИТЕЛЬНЫЙ) - alm. adversativ, ing. adversative /əd'və:sətɪv/, fr. adversatif,-ve, azərb. adversativ, ziddiyyət. - Ziddiyyət ifadə edən, ziddiyyət mənasına malik olan qarşılaşdırma, bütöv və ya cümlənin ayrı-ayrı üzvləri qarşılaşdırma yolu ilə sintaktik birləşməyə xidmət edir. Məs.: Azərb. d. amma, ancaq, lakin bağlayıçıları ilə işlənən cümlələri misal göstərmək olar. Müq. et: /Hava qaralmışdı, amma uşaqlar həyətdə oynayırdılar/.

H.Bayramov. Azərbaycan dilində tabesiz mürəkkəb cümlələr. Bakı, 1964.

АДВЕРСИВ - alm. Adversivus (m), ing. adequative /'ədɪkwətɪv/, adversive /əd'və:sɪv/, fr. adéquat,-e adversif,-ve, azərb. adversiv. - Hərəkət yönələn obyekt və ya hərəkətin təsirinə məruz qalan predmeti

downloaded from KitabYurdu.org

təsvir edən kateqorial hal forması. Buna adlatir də deyirlər. Məs.: fin dilində /minulle/ və s.

O.C.Ахманова. Göstərilən əsər, s. 33.

АДГЕРЕНТНАЯ ЭКСПРЕССИВНОСТЬ - alm. adhärente Expressivität (f), ing. adherent expressiveness /əd'hıər(ə)nt ıks′prɛsıvnes/, fr. expressivité adhérente, azərb. adqerent ekspressivlik. - Söz və ya ifadənin müəyyən danışıq məqamında (kontekstdə) qazandığı ekspres-

sivlik. Məs.: Azərb. d. /gəʃʃʃənɦ/ buna misal ola bilər. Avstriyalı alim K.Büler hər bir söyləmdə 3 funksiyani qeyd edir: eksplikativ, ekspressiv və appelyativ (müraciət).

K.Bühler. Sprachtheorie. 1982 (1934), s. 28; F.Y.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005.

АДИТИВ - alm. Aditivus (m), ing. aditive /′5dıtıv/, fr. aditif,-ve azərb. aditiv. - Bəzi dillərdə (məs. bask dilində) hərəkətin istiqamətini göstərən hal forması.
O.C.Ахманова. Göstərilən əsər, s. 33.

АДСТРАТ - alm. Adstrat (m), ing. adstrat /′adstrɑ:t/, fr. adstrat, azərb. adstrat. - Müxtəlif dillərdə danışan xalqların uzun müddət eyni ərazidə və ya qonşuluqda yaşaması nəticəsində meydana gələn ikidillik (bilinq-vizm) növü (adətən yerli dillərə təsir göstərən gəlmə dillər də bu terminlə ifadə olunur), yanaşı şəkildə bir-birinə təsir göstərən, lakin heç biri digərinə üstün gəlməyən dillər nəzərdə tutulur. Məs.: Belçikanın Lyej (Liege, Lüttich) şəhərində flamand gəlmələrlə yerli roman dilli əhalinin dil kontaktı və ya alban dilinin Balkan romanlarının dilinə təsiri.
R.Conrad. Göstərilən əsər, s. 22.

АДЪЕКТИВАЦИЯ - alm. Adjektivierung (f), ing. adjectivization /′5ʤıktıvızeı∫(ə)n/, fr. adjectivation, azərb. adyektivasiya. - Başqa nitq hissələrinin sifətə keçməsi. Məs.: Azərb. d. /Zaman gələcək/. /Gələcək zaman/, /toz → tozlu/; alm. d. /Fleiß (səy) → fleißig (səyli)/ və s.
Ə.Cavadov. Sifət. Müasir Azərbaycan dili. II, AEA, Bakı, 1980, s. 95-124.

АДЪЕКТИВИРОВАННЫЙ - alm. adjektiviert, ing. adjectivized /′aʤıktıvızıd/, fr. adjectivé,-e, azərb. adektivləşmə, sifətləşmə. - Sifətin struktur-semantik əlamətlərinə yiyələnmiş, sifət cərgəsinə keçmiş sözlər. Məs.: danışan kukla, oxuyan gənclik. Azərbaycan dilçiliyində buna feli sifət deyirlər.
Ə.Cavadov. Sifət. Müasir Azərbaycan dili. II, AEA, Bakı, 1980, s. 95-124.

АДЪЕКТИВИРОВАННОЕ ПРИЧАСТИЕ - alm. adjektiviertes Partizip (n), ing. adjectival (adjectivized) participle /ˌaʤɛk′taıvəl /æʤıktıvızd/'pa:tısıpl/, fr. participe adjectivé, azərb. feli sifət. - Hind-

downloaded from KitabYurdu.org

Avropa dillərində fel xüsusi forma qəbul edərək attributiv funksiyada adyektivləşir. Məs.: alm. d. /lesen/ (oxumaq) felindən Partisip I formasında /lesend/ (oxuyan) və /gelesen/ Partisip II formasında (oxumuş) feli sifətlərini düzəltmək olur. Müq. et: /der lesende Student/ (oxuyan tələbə) və /das gelesene Buch/ (oxunmuş kitab) və s. rus d. /читать/ (oxumaq) → /читающий мальчик/ (oxuyan oğlan), /читаемая книга/ (oxunan kitab), /прочитанная книга/ (oxunmuş kitab) və s.

Ə.Cavadov. Göstərilən əsər; W. Admoni. Der deutsche Sprachbau. München, 1982, s. 139-154.

АДЪЕКТИВНЫЙ - alm. adjektivisch, ing. adjectival /aʤɛk'tʌɪv(ə)l/'5ʤek'taɪvəl/, fr. adjectif,-ve, azərb. adyektiv. - Sifət səciyyəsinə malik olan, sifətə xas olan, sifətə aidiyyatı olan.

Bax: Адъективированный ←.

АДЪЕКТИВНОЕ СЛОВОСОЧЕТАНИЕ - alm. adjektivische Wortverbindung (f), ing. adjectival word-combination, (phrase) /aʤɛk'tʌɪv(ə)l wɜ:d kɔmbɪ'neɪʃ(ə)n /freɪz/, fr. groupe de mot adjectival, azərb. adjektiv söz birləşməsi (cümlədə feli sifət birləşməsi). - Tabeedici sözü (üzvü) sifətdən ibarət olan söz birləşməsi. Məs.: Azərb. d. /yaxşı oğlan/; ing. d. /a stone house/ (daş ev).

Bax: Адъективный ←.

АДЫГЕЙСКИЙ ЯЗЫК – alm. Adygeisch (n), ing. adyghei(y) language /ɑ:də'geɪ 'l5ŋgwɪʤ/, fr. langue adyghéenne, azərb. Adıgey dili. – Abxaz-adıq dillərindən biridir. Adıgey respublikasında, Lazarev və Tuapse bölgələrində və Krasnodar vilayətində yayılmışdır. Bu dildən 120 mindən artıq adam ünsiyyət vasitəsi kimi istifadə edir. Adıgey dili 4 əsas dialektə bölünür: termigey, abadzex, bjeduq və şapsuq dialektləri. Adıgey dili «dzu, zu» dodaq affrikatları, «jyu, şIu» novlu və «nIu, tlu» kipləşən samitlərinə, zaman və şəkil formalarına görə kabardin-çerkes dilindən fərqlənir. 1917-ci ildə oktyabr çevrilişindən sonra adıq dilinin yazısı, 1918-ci ildə ərəb qrafikasının əsasında əlifbası yaradılmışdır, 1927-ci ildə həmin dilin yazısı latın, 1938-ci ildə rus qrafikasına keçdi. Ədəbi dil intensiv şəkildə inkişaf edir.

Н.Ф.Яковлев, Д.А.Ашхамаф. Грамматика адыг. лит. языка. М.-Л., 1941; Г.В.Рогава, З.И.Керашева. Грамматика адыгского языка. Краснодар-Майкоп, 1966.

АДЪЮНКТ – alm. Adjunkt (n), ing. adjunkt /'5ʤʌŋkt/, adjoint / ə'd=6ɪnt/, fr. aspirant, adjoint, azərb. adyunkt (təyin edən söz və ya birləşmə). – Əvvəldə və ya sonda gələn elementi semantik cəhətdən müəyyənləşdirən, təyin funksiyasında çıxış edən söz və ya ifadə. Məs.: Azərb. d. /o (bu) kitab//, /onun indicə oxuduğu kitab//, /oradaki kitab// və s.

H.Bußmann. Göstərilən əsər, s. 48.

downloaded from KitabYurdu.org

АЗБУКА (АЛФАВИТ) - alm. Alphabet (n), Abc (n) /a: be: ˈtse:/, ing. alphabet /ˈalfəbɛt/'5lfəbɪt], ABC /ˈeɪ bi: si:/, fr. alphabet, azərb. əlifba. – Yunan əlifbasında ilk iki hərfin adından (alpha+beta) düzəlmiş söz. Hər hansı dili yazıda qeyd və təsbit etmək üçün istifadə olunan və müəyyən sistem üzrə düzülən qrafik işarələrin məcmusu. Məs.: ərəb əlifbası, latın əlifbası və s. Hərflərin düzümü ayrı-ayrı dillərdə müxtəlif cür ola bilər. Məs.: latın əlifbasından istifadə edən Azərbaycan əlifbasındakı (31) düzülüş bu əlifbadan istifadə edən ing. (26), alm. (26), fr. (26), rus (33) əlifbalarındakından fərqlənir.

downloaded from KitabYurdu.org

alm. d.	ing. d.	fr. d.	Rus d.	azərb. d.
A	A	A	А	A
B	B	B	Б	B
C	C	C	В	C
D	D	D	Г	Ç
E	E	E	Д	D
F	F	F	У	E
G	G	G	Ё	Ə
H	H	H	Ж	F
I	I	I	З	G
J	J	J	И	Ğ
K	K	K	Й	H
L	L	L	К	X
M	M	M	Л	I
N	N	N	М	İ
O	O	O	Н	J
P	P	P	О	K
Q	Q	Q	П	L
R	R	R	Р	M
S	S	S	С	N
T	T	T	Т	O
U	U	U	У	Ö
V	V	V	Ф	P
W	W	W	Ч	R
X	X	X	Ц	S
Y	Y	Y	Ч	Ş
Z	Z	Z	Ш	T
			Щ	U
			Ь	Ü
			Ы	V
			Ъ	Y
			Э	Z
			Ю	
			Я	

Əlifba həm də sonu məlum müəyyən simvollar çoxluğu kimi də götürülə bilər. Məs.: Bizim əlifbamızda 31 işarə – hərf vardır, ancaq bir sıra süni dillərdə bu işarələrin sayı müxtəlifdir. Morze əlifbasında yalnız iki – uzun və qısa işarələr (ı— ·) və bir də fasilə mövcuddur. Transformasional qrammatikada da sonu məlum simvollardan istifadə olunur: S (cümlə), NP (noun phrase), VP (verbal phrase) və s.

P.H.Matthews. Göstərilən əsər, s. 15; Лингвистический энциклопедический словарь. М., 1990, s. 29-30.

downloaded from KitabYurdu.org

АЗБУКА (АЛФАВИТАЗИЦИЯ) – alm. Alphabetisierung (f), ing. alphabet /ˈalfəbɛt/ˈ5lfəbɪt/, the ABC /1ɪ ˈeɪbi:si/, fr. alphabet, (alphabétisation), azərb. əlifbalaşdırma. – Bəşəriyyət tarixi fonoqrafik əlifbaya qədər bir neçə yazı sistemindən istifadə etmişdir. Şəkli yazı (piktoqrafiya); ideya yazısı (ideoqrafiya). Məs.: Mağazanın qarşısında yuxarıda ayaqqabı şəkli varsa, deməli, burada ayaqqabı satılır. Çində günəş ideyası ayrıca bir işarə ilə ☼ verilir. Son illərdə loqoqrafiya geniş yayılıb. Hər hansı bir şirkətin göstəricisi kimi loqoqramlar və ya silloqramlar işlənir. Məs.: Almaniyanın /BMW/ nişanı Bavariya motor zavodunun loqoqramıdır. Əlifbanın vətəni kimi qədim Finikiya göstərilir. Bu konsonant yazı sistemi yunan saitləşmə sistemilə təkmilləşdi və sait samit ardıcıllığından ibarət yazı forması meydana gəldi. Bu sistemdə sadəlik, əlverişlilik, qənaət əsas meyardır. Çin yazı sistemi 6000-dən 8000-ə qədər ideoqramlardan istifadə edirsə, fonoqrafik yazı cəmi 30 işarədən istifadə etməklə ən çətin mətnlərin yazılması üçün yetərlidir. Fonoqrafik əlifbada bir işarə bir neçə funksiyada işlənə bilər. Bu artıq orfoqrafiyanın işidir.

H.Bußmann. Lexikon der Sprachwissenschaft. Stuttgart, 1990, s. 72-73.

АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК – alm. Asärbaidshanisch (n), ing. Azerbaijani (Azeri) language /ˌazəbʌɪˈdʒɑ:ni/ˈ5zəbaɪˈd=a:ni/ˌazərɪ/ ˈ15ŋgwɪdʒ/, fr. langue azerbaïdjanaise, azərb. Azərbaycan dili. – Türk dilləri ailəsinin oğuz qrupunun oğuz-səlcüq yarımqrupuna aid olan Azərbaycan dili ən çox Türkiyə türklərinin, türkmənlərin və qaqauzların dillərinə yaxındır. Azərbaycan dilində 45 milyondan çox azərbaycanlı danışır. Onlardan 30 milyonu Cənubi Azərbaycanda, 8 milyonu Quzey Azərbaycanında yaşayır. İlk yazılı abidəsi V.M.Jirmunskiya görə, V-VI əsrdən – «Kitabı Dədə Qorqud» dastanı ilə başlayıb. Azərbaycanda az bir müddətdə 3 dəfə əlifba dəyişikliyi baş verib: I – 1922-ci ilə qədər, 1922-dən 1933-ə və 1939-a qədər, II- 1940-58 və 1958-92 və 1992-ci ildən bu günə qədər.

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s.42; F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 80; N.Məmmədov, A.Axundov. Dilçiliyə giriş. Bakı, 1987; H.Mirzəzadə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, 1990.

АККАДСКИЙ ЯЗЫК – alm. Akkadisch (n), ing. akkadian /əˈkeɪdɪən/ akkadi language /əˈkeɪdɪ ˈ15ŋgwɪdʒ/, fr. langue akkadienne, akkadien, azərb. akkad dili. - Mesopotomiya və Assiriyanın qədim yerli əhalisinin dilidir. B.e.ə. III minillikdə Orta-aşağı və Aşağı Mesopotomiyada şumer dili ilə bərabər yayılmışdır. B.e.ə. II minillikdə Dəclə çayının sahilboyunun və Mesopotomiyanın bütün əhalisi assiriya dilindən istifadə etmişlər. Diaxronoloji və coğrafi baxımdan akkad dilləri 5 dialektə bölünür: köhnə akkad (b.e.ə. III minillik), köhnə Vaviliyon və köhnə Assiriya

downloaded from KitabYurdu.org

(b.e.ə. II minillik), yeni vavilion (b.e.ə. 10-5-ci əsrlər), yeni assiriya (b.e. ə. 10-7-ci əsrlər), Vavilyondan sonrakı dövr (b.e.ə. IV minillik və bizim eranın I minilliyi). Yazısı gil lövhələr üzərində sözlü-hecalı mixi işarələrdir. İlk yazılı abidələri b.e.ə. XXV minilliklərə təsadüf edir.
И.М.Дьяконов. Языки древней Передней Азии. М., 1967.

АКАНЬЕ - alm. A-artige Aussprache (f), ing. akanje /ak∧nʒı/, fr. akanié, azərb. «a»-laşma hadisəsi. - Azərbaycan dilinin cənub dialektində «o» «a» kimi tələffüz edilir. Məs.: /q∧hım/, /d∧vşan/ və s.
Ə.Dəmirçizadə. Göstərilən əsər, s. 169-197.

АКАЮЩИЙ ДИАЛЕКТ (ГОВОР АКАЮЩИЙ) - alm. A-artiges Sprechen (n), ing. akanje-dialect /ak∧n=ə -ˈdaıəlekt/, fr. dialecte akanjé, azərb. «a»laşan dialekt. - «A»laşmanı xarakterizə edən dialekt. Azərbaycan dilində Naxçıvan dialekti.
M.Şirəliyev. Azərbaycan dili dialektologiyasının əsasları. Bakı, 1962 (1967).

АККОМОДАЦИЯ (АДАПТАЦИЯ ФОНЕТИЧЕСКАЯ) - alm. Anpassung (f), (Akkomodation) (f), ing. accomodation /əˌkɔmə'deıʃən/, fr. accommodation, (adaptation phonétique), azərb. akkomodasiya, uyğunlaşma. - Artikulyator fonetikanın terminidir. Sait səslərin məxrəcilə yanaşı gələn samit səslərin məxrəcinin qarşılıqlı surətdə bir-birinə qismən uyğunlaşmasını bildirir. İrəli (proqressiv) akkomodasiya sonrakı səsin ekskursiyasının əvvəlki səsin rekursiyasına uyğunlaşması deməkdir. Geri (reqressiv) akkomodasiya – əvvəlki səsin rekursiyasının sonrakı səsin ekskursiyasına uyğunlaşması. Məs.: rus d. /ряд/ sözündə /a/ saiti başlanğıcda incə tələffüz olunur: [r'at]. Çünki əvvəl gələn samit bu saiti öz məxrəcinə uyuşdurur. Məs.: Azərb. d. /d'iz/ /d/ samiti yumşaq tələffüz olunur.
А.А.Реформатский. Введение в языковедение. М., 2001. s. 200-203.

АККУЗАТИВ – alm. Akkusativ (m), ing. accusative /əˈkju:z(ə)tıv/, fr. accusatif, azərb. akkuzativ. – Bir sıra dillərdə vasitəli və vasitəsiz tamamlığın ifadəsinə xidmət edən hal. Alman dilində akkuzativ həm sözönü, həm də sözönüsüz işlənir. Məs.: /Er geht <u>in die Stadt</u>//; /Ich lese <u>ein Buch</u>//. Bəzən akkuzativ cümlədə dalbadal gəlir. Məs.: alm. d. /Das kostet <u>mich</u> einige <u>Arbeitstage</u>// (Bu mənə bir neçə iş gününə başa gələcək).
R. Conrad. Göstərilən əsər, s. 25.

АККУМУЛЯЦИЯ - alm. Akkumulation (f), ing. accumulation /əkju:mjʊˈleıʃ(ə)n/, fr. accumulation, azərb. yığılma, toplanma, akkumulasiya. - Struktur üslubiyyatın irəli sürdüyü prinsipdir. Bu prinsipə görə eyni bir motiv, eyni bir əhval-ruhiyyə, hiss, duyğu, adət, eyni bir məzmuna malik bir neçə müvazi vasitələrlə ifadə edilir. Bu, təəssüratı

downloaded from KitabYurdu.org

şiddətləndirir və diqqəti bir nöqtədə cəmləşdirir. Məs.: Azərb. d. /yazıçı-şair/, /müğənni-bəstəkar/ və s.
R.Conrad. Göstərilən əsər, s. 25.
АКРОНИМ - alm. Akronym (n), ing. acronym /ˈ5krənım/, fr. acronyme, azərb. akronim. - Mürəkkəb ixtisar, sözlərin baş hərfləri və ya ilk səsləri (akronim) şəklində söz birləşmələrini təşkil edən ayrı-ayrı sözlərin düzəlməsi. Məs.: Azərb. d. /ADR/, /ADU/, /BMT/ və s.
Bax: Аббревиатура ←.
АКРОФОНЕТИЧЕСКАЯ АББРЕВИАТУРА - alm. akrophonetische Abbreviatur (f), ing. acrophonetic abbreviation /ˈ5krəfəʊˈnetik əˌbri:vıˈeıʃ(ə)n/, acronym /ˈ5krənım/, fr. abréviation acrophonétique, azərb. akrofonetik abbreviatur. - Söz birləşməsinin ilkin ünsürlərindən ibarət olan, lakin hərfləri əlifba qaydasına uyğun tərzdə deyil, adi söz kimi oxunan qısaltmalar. Məs.: Azərb. d. /KİV/ - Kütləvi informasiya vasitələri, /MSK/ - Mərkəzi seçki komissiyası və s.
Bax: Аббревиатура ←.
АКТАНТ – alm. Aktant (m), Mitspieler (m), ing. actant /ˈɑktənt/, fr. actante, azərb. aktant. – L.Tenyer (1893-1954) verbosentrik xəbəri fellə ifadə olunan cümlədə onun tələbinə uyğun olaraq hərəkətin iş görənini (aqens), onun obyektini (pasiens), hərəkətin alətini, materialını (qəzet, kitab) aktant adlandırır. Məs.: /Mən məqaləmi (rəfiqəmə, eynəklə) oxuyuram//. Aktantın sayı felin valentliyilə müəyyənləşir.
F.Yadigar (Veysəlli). German dilçiliyinə giriş. Bakı, 2003, s. 340-341.
АКТ КОММУНИКАЦИИ - alm. Kommunikationsakt (m), Aussage (f), ing. act of communication /5kt əv kəˌmju:nıˈkeıʃən/, fr. acte de communication, énoncé communicative, azərb. ünsiyyət aktı. – Müəyyən ünsiyyət şəraitində dinləyici tərəfindən qəbul edilə bilən və məna bütövlüyünə malik məlumat vahidi.
O.C.Ахманова. Göstərilən əsəri, s.36.
АКТИВНЫЙ - alm. aktiv, ing. active /ˈæktıv/, fr. actif,-ve, azərb. məlum (aktiv), fəal. – 1. Felin növü məchul növə qarşı qoyulur. Bəzi dillərdə (sanskrit və yunan dillərində) orta növ (medium) da vardır. Nominativ dillərdə (alman, ingilis, rus və s.) dillərdə belə münasibət keçən (tranzitiv) fellər vasitəsilə ifadə olunur. Məs.: alm. d. /Er liest ein Buch// (O, kitab oxuyur).
W. Admoni. Göstərilən əsər, s. 177-185.
2. Səsin yaranması üçün vacib, əsas işi yerinə yetirən fəal (mütəhərrik) danışıq üzvləri. Məs.: dil, dodaqlar, damaq pərdəsi, səs telləri.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.
АКТИВНЫЙ ОБОРОТ - alm. aktive Redensart (f), Wendung (f), ing. active expression /ˈæktıv ıksˈpreıʃ(ə)n/, phrase /freız/, fr. tournure active, expression active, azərb. aktiv ifadə. - İşin icraçısı (subyekti), cümlənin

downloaded from KitabYurdu.org

mübtədası, onun obyekti arasında münasibət növ formasında ifadə olunur. Məs.: /O, atasına məktub oxuyur//.
O.C.Ахманова. Göstərilən əsəri, s.36.
АКТИВНЫЙ СЛОВАРЬ (АКТИВНЫЙ СЛОВАРНЫЙ ЗАПАС) - alm. aktives Wörterbuch (n), aktiver Wortschatz (m), ing. active dictionary /ˈæktɪv ˈdɪkʃənrɪ/, fr. vocabulaire actif, lexique usuel, azərb. aktiv (işlək) lüğət. - Danışıqda daimi işlənən və ünsiyyətdə olanlar arasında aydın başa düşülən lüğət tərkibi.
F.Yadigar (Veysəlli). German dilsiliyinə giriş. Bakı, 2003, s. 148.
АКТУАЛИЗАТОР - alm. Aktualisator (m), ing. actualizator /ˌ5ktʃuəlaɪˈzeɪtə(r)/, fr. actualisateur, azərb. aktualizator. - Dil vahidinin müəyyən vəzifə kəsb etməsinə səbəb olan ifadə vasitəsi, işarənin (dil vahidinin) konkret mətndəki mənasını ifadə edən vasitə; virtual işarənin aktuallaşması üsulu, dilin danışığa çevrilməsi. Morfoloji aktualizator. Sintaktik aktualizator. Eksplisit (açıq, ifadə olunmuş aktualizator). Dil işarəsinin elə aktuallaşdırma vasitəsidir ki, o, formal şəkildə ifadə edilir. Məs.: müəyyən təsirlik halında və ya yiyəlik halında hal şəkilçiləri real olaraq işlədilir. İmplisit (gizli, ifadə olunmamış) aktualizator. Elə aktuallaşdırma vasitəsidir ki, burada dil işarəsi real şəkildə ifadə edilmir. Məs.: qeyri-müəyyən təsirlik halda hal şəkilçisi implisit şəkildə olur. Məs.: /Məktəb direktoru/ – /məktəbin direktoru/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 12.
АКТУАЛИЗАЦИЯ - alm. Aktualisierung (f), ing. actualization /ˌ5ktʃuəlaɪˈzeɪʃən/, fr. actualisation, azərb. aktuallaş(dir)ma. – Dilin gizli (virtual) işarələrinin nitq işarələrinə çevrilməsi, nitqdə bu işarələrdən istifadə; aktualizator vasitəsilə (köməyilə) virtual işarələrdən konkret olaraq istifadə etmə.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 12.
АКТУАЛИЗОВАННАЯ ФОНЕМА - alm. aktualisiertes Phonem (n), ing. actualized phoneme /ˈæktʃuəlaɪzd ˈfouni:m/, fr. phonème actualisé, azərb. aktuallaşmış fonem. – Fonoloji sistemin vahidi olan fonemin danışıqda öz variantlarının birində təzahürü.
N.S.Trubeskoy. Fonologiyanın əsasları. 1939-cu il almanca nəşrindən tərcüməsi, «Son söz» və «Qeydlər» prof. F.Yadigarındır. Bakı, 2001.
АКТУАЛЬНОЕ ЧЛЕНЕНИЕ ПРЕДЛОЖЕНИЯ - alm. aktuelle Gliederung des Satzes (f), ing. Theme-rheme patition /4i:m rɪ:m pɑ:ˈtɪʃn/, actual divizion of a sentence /ˈæktʃuəl dɪˈvɪ=ən əv əˈsentəns/, actual segmentation of a sentence /ˈæktʃuəl segmenteɪʃ(ə)n əv əˈsentəns/, fr. actuelle articulation de la phrase (proposition), azərb. cümlənin aktual üzvlənməsi. – İlk dəfə dilçilikdə aktual üzvlənmə ideyasını çex dilçisi V.Matezius (1882-1945) irəli sürmüşdür. Bu nəzəriyyəyə əsasən hər bir kommunikativ dil vahidi (cümlə) iki hissədən - tema və remadan təşkil

downloaded from KitabYurdu.org

olunur. Tema (köhnə, məlum) çıxış nöqtəsi rolunu oynayır, adətən dinləyənə əvvəlki danışıq məqamından və kontekstdən məlum olur. Rema isə fikrin özəyi haqqında verilən təzə məlumatdır. Adi, neytral danışıqda adətən mübtəda tema rolunda çıxış edir. Məs.: /Bakı (tema) danışır/ (rema); /Danışır (tema) Bakı (rema)-dır.
F.Yadigar (Veysəlli). German dilçiliyinə giriş. Bakı, 2003, s. 345.

АКТУАЛИЗОВАННЫЙ - alm. aktualisiert, ing. actualized /ˈaktʊəlʌɪzd,-ʧʊ/, fr. actualisé,-e, d'actualisé, azərb. aktuallaşmış. - Ünsiyyətin gerçəkliklə əlaqələndirilməsi, onun konkret danışıq şəraitində tətbiq edilməsi (olunması).
M.İ.Adilov və b. Göstərilən əsər, s.13.

АКТУАЛЬНЫЙ - alm. aktuell, ing. actual /ˈaktjʊəl, -ʧʊəl/ˈ5kʧuəl/, urgent /ˈəːʤ(ə)nt/, fr. actuel,-le, azərb. aktual. - Müəyyən tərtibdə real mənası və vəzifəsi olan; danışıqda öz təbii funksiyasını, rolunu yerinə yetirən dil işarəsi.
O.C.Ахманова. Göstərilən əsər, s. 37.

АКУСМА - alm. Akusma (f), ing. acusm /əˈkjusm/, fr. acusma, azərb. akusma, eşitmənin ən kiçik ünsürü. – İlk dəfə olaraq bu termini İ.A.Boduen de Kurtene (1845-1929) danışıq aktının üzvlənməsinin ən kiçik vahidi kimi dilçilik elminə gətirib.
F.Yadigar (Veysəlli). German dilçiliyinə giriş. Bakı, 2003, s. 215.

АКУСТИКА ФОНЕТИЧЕСКАЯ - alm. akustische Phonetik (f), ing. phonetic acoustics /fəʊˈnetɪk əˈkuːstɪks/, fr. acoustique phonétique, azərb. akustik fonetika. - Fonetikanın səslərin fiziki xassələrini öyrənən, fonosiya zamanı eşidib anlamanı təmin edən xüsusiyyətləri öyrənən bölmə. Akustik baxımdan səsin yaranması, ciyərlərdən gələn hava axını xirtdəkdən keçərkən səs tellərini hərəkətə gətirir, bu da dilçəyi titrədir və hava molekulları xirtdəküstü boşluğa daxil olarkən hava dalğalarının sıxılması və genişlənməsini hava təzyiqini titrədir. İnsan 0,0002-dən 250 bara qədər hava təzyiqini eşitməyə qadirdir. Səslər isə 0,00002-dən 20 bar arasında olur. Səsin yaranmasından sönməsinə qədər yayılma düz-xətli (—) və dalğavari (⊃⊃⊃⊃) olur. Səsin yayılması hava təzyiqinin gücündən, digər iqlim və məkandan asılı olur. Mütəxəssislər hesablayırlar ki, 11° selsi havada səsin sürəti 331 m-dir. Eyni zamanda təkrar dalğaların yaratdığı səslər periodik (buna saitlər daxildir), qeyri-periodik dalğaların yaratdığı səslər isə qeyri-periodik (bura sonorlar və cingiltili samitlər daxildir). Birincilər musiqili və ya tonlu, ikincilər isə tonla küyün qarışığından yaranan səslərdir.
F.Y.Veysəlli. German dilçiliyinə giriş. Bakı, 2003, s. 193-203.

АКУСТИКО-АРТИКУЛЯЦИОННЫЙ ПРОЦЕСС - alm. akustisch-artikulatorischer Prozeß (m), ing. acoustic-articulatory process /əˈkuːstɪk ɑːˈtɪkjuleɪtərɪ ˈprəuses/, fr. procès articulatoire acoustique, azərb. akus-

downloaded from KitabYurdu.org

tik-artikulator proses. - Danışıq aktının əmələ gəlməsi və onların eşidilərək dərk olunması prosesi, psixofizioloji aktın iki tərəfinin bir vəhdətdə götürülməsi. Səslərin tələffüz və eşidilmə əlamətlərinin əlaqəsini vəhdətdə öyrənən sahə.
Л.Р.Зиндер. Общая фонетика. М., 1979.
АКУСТИЧЕСКИЙ - alm. akustisch, ing. acoustic(al) /ə'ku:stik(ə)l/, fr. acoustique, azərb. akustik. - Səs qavrayişina aid olan, səs qavrayişi ilə əlaqədar; danışıq səslərinin fiziki xassələri. Danışıq səslərinin akustik cəhəti. Seqment və seqmentüstü vahidlərin akustik təsnifi. Akustik təhlil. Akustik fonetika.
Bax: Акустическая фонетика ←.
АКУТ - alm. Akut (m), Hochton (m), Stopton (m), ing. acute (high-pitch) accent /ə'kju:t/haı pıʧ/'5ksənt/, fr. accent aigü (frappé), azərb. akut. - 1. a) kəskin ton; b) yüksələn ton, bir söz daxilində ən aşağı tondan başlayıb yüksək tonda qurtaran; c) əski (köhnə) yunan dilində maksimum bir kvintə bərabər tutulan səs tonunun qalxması;
2. Bir heca daxilində nisbətən zəif (aşağı) tonda başlayıb yüksək tonda bitən ton hərəkəti. Məs.: /◡↗/. Çex dilində saitin uzunluğunu göstərmək üçün işlədilir. Məs.: /ra´da/ (həvəslə);
3. Fransız dilində (é) səsinin qapalılığını göstərmək ücün istifadə olunan diakritik işarə (′). Məs.: fr. d. /général/ (ümumi).
R.Conrad. Göstərilən əsər, s. 26.
АКЦЕНТ - alm. Akzent (m), Betonung (f), ing. accent /ək'sɛnt/, stress /'stres/, fr. accent, azərb. 1. vurğu. Dilçilikdə vurğuya bir neçə baxımdan yanaşılır: 1) Vurğunu təmin edən fonetik vasitələr baxımından (fiziki təbiətinə görə) o, dinamik, melodik və temporal (kəmiyyət) xarakterli olur. Əgər vurğunun təbiəti yalnız səsin gücü ilə ifadə olunarsa, (alman və Azərb. d.), buna dinamik vurğu deyilir. Başqa sözlə, buna dinamik, ekspirator, intensiv və ya güclü vurğu deyirlər. Əgər vurğu tonla ifadə olunursa, (çin, isveç, serb-xorvat dillərində) buna musiqili (xromatik və ya tonlu) vurğu deyirlər. Əgər bu, zaman komponent ilə ifadə olunarsa (çex və rus dillərində), buna temporal və ya kəmiyyət vurğusu deyilir. Amma həqiqətdə bu komponentlər qarışıq şəkildə çıxış edir. Heç bir dildə onlar ayrılıqda vurğunun təbiətini təmin edə bilmirlər. Alm. d. vurğu dinamik – melodikdir, Azərb. d. isə vurğu dinamik – temporaldır. 2) Yerinə görə vurğu sərbəst və sabit (bağlı və ya ritmik) olur. Macar və çex dillərində vurğu sabitdir, o həmişə sözün birinci hecasının üzərinə düşür. Polyak dilində isə axırıncıdan əvvəlki hecanın üzərinə düşür, bu da həmin dillərdə vurğunun söz sərhəddi (delimitativ) funksiyasını yerinə yetirməyə imkan verir. German dillərində vurğu bir qayda olaraq söz kökünə düşür. Ancaq bu dillərdə vurğunun sərbəstliyini göstərən hallar da vardır. Bunlardan fərqli olaraq rus dilində vurğu sərbəstdir. Deməli,

downloaded from KitabYurdu.org

söz öz formasını dəyişəndə, vurğu da yerini dəyişə bilir. Məs.: rus d. /рук´a/ → /р´уки/ və s.
3) Fəaliyyət dairəsinə görə vurğunun dörd növünü fərqləndirirlər: söz vurğusu, heca vurğusu, sintaqm vurğusu və cümlə vurğusu. Heca vurğusu tonun hərəkətinə görə aşağıdakı kimi müəyənləşdirilir: akut |↑|, enən|↓|, düz |→| , qalxıb-enən (sirkumfleks) |↗↘|, enən-qalxan |↘↗| və düz-qalxan-düz | →↗→|. Söz vurğusu bir hecanın digəri fonunda fərqlənməsi deməkdir. Sintaqm və cümlə vurğusu isə müvafiq olaraq bir sözün digərlərindən fərqlənməsi deməkdir.
4) Növünə görə dörd: qüvvətli, əsas, köməkçi, zəif vurğu fərqləndirilir. Məs.: alm. d. /ˈˈHauptˈbahnˌhöfe/.
5) Ekspressiv və informativ əhəmiyyətinə görə emfatik və kontrastiv vurğu fərqləndirilir. Məs.: /O, gözəl oğlandır//. / "O, (bu yox) gözəl oğlandır//.
F.Veysalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 194-205; R.Yakobson. Über die Beschaffenheit der prosodischen Gegensätze. «Mélanges de linquistique et de Phonoloqie». Paris, 1937.
2. Əcnəbi şəxsin tələffüzündəki xüsusiyyət. - Aksentin mahiyyəti belədir ki, müəyyən dilin səsləri, vurğusu və intonasiyası başqa dildəki əlamətlərlə əvəz olunur. Şəxs yad və ya tamamilə mənimsəmədiyi dildə danışarkən öz ana dilinin xüsusiyyətlərini saxlayır. Məs.: Bəziləri rusca danışarkən sözü vurğusuz tələffüz edirlər və ya azərbaycanlılar almanca danışanda saitlərin uzunluğunu gözləmirlər. Deməli, aksent bir dildə (yad dildə) danışarkən başqa dilin (ana dilinin) fonetik normalarından yayınmasına deyilir. Aksentlə danışma. Yad aksent və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 12.
АКЦЕНТИРОВАНИЕ (АКЦЕНТУАЦИЯ) - alm. Akzentuierung (f), ing. accentuation /əksɛntjʊˈeɪʃ(ə)n/, fr. accentuation, azərb. aksentləşdirmə, vurğu ilə tələffüz etmə. - Sözdə və ifadədə müəyyən elementin vurğu ilə nəzərə çarpdırılması. Vurğu dildə sözü tanıma vasitəsidir. Məs.: Azərb. d. / "Kim deyir ey bunu – "Mən!//.
Bax: Акцент ←.
АКЦЕНТНЫЙ - alm. akzentuell, ing. accent /əˈksɛnt//ˈ5ks|ə|nt/, accentual /əkˈsɛntjʊəl/, fr. accentué,-e, accentuel,-le, azərb. vurğulu. – Vurğuya aid olan, vurğu ilə deyilən. Məs.: /bala/ sözündə ikinci /la/ vurğuludur. Vurğulu heca dilin fonoloji sistemində vurğusuz hecaya qarşı qoyulur.
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 255-265.
АКЦЕНТИРОВАТЬ - alm. akzentuieren, betonen, ing. accent /əˈksɛnt/, accentuate /əkˈsɛntjʊeɪt/, fr. accentuer, azərb. vurğu ilə tələffüz etmək. -

downloaded from KitabYurdu.org

Məs.: Azərb. d. /Kitabı mağ"azadan aldım//; /Mağazadan kit'"ab aldım// və s.
R.Yakobson. Über die Beschaffenheit der prosodischen Gegensätze. «Mélanges de linquistique et de Phonoloqie». Paris, 1937.

АКЦЕНТОЛОГИЯ - alm. Akzentlehre (f), Akzentologie (f), ing. accentology /5k'sentɔlədʒı/, fr. accentolojie, azərb. aksentologiya, vurğular sistemi haqqında elm. - Dilçilikdə vurğunun mahiyyətini, funksiyasını, xüsusiyyətlərini və təzahür formalarını öyrənən elm sahəsinə deyirlər.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 12.

АЛАЛИЯ - alm. Alalie (f), ing. alalia /ə'leılıə,-eı/, fr. alalie, azərb. alaliya. - Afaziya və anartriyanın qəbul olunmuş ümumi adı. Nitq pozuntusu.
O.C.Ахманова. Göstərilən əsər" s. 39.

АЛБАНСКИЙ ЯЗЫК – alm. Albanisch (n), ing. Albanian language /5l'beınıən 'l5ŋgwıdʒ/, fr. langue albanaise, l'albanais, azərb. alban dili. – Hind-Avropa dilləri ailəsinə aiddir. Yuqoslaviya, Kosovo, İtaliya və Yunanıstan ərazisində yayılmışdır. Təqribən 400 minə qədər daşıyıcısı vardır. Alban dili iki əsas dialektə bölünür: cənub (tosk) və şimal (qek). Alban dilinin fonoloji sistemi 7 sait və 29 samit fonemdən ibarətdir. Qrammatik quruluşuna görə sintetik-flektiv dillərə aiddir. Sintaktik baxımdan sərbəst söz sırası üstünlük təşkil edir.
E.Sepir. Language. London, 1970, s. 233; S.Potter. Language in the Modern World. London, 1975, s. 94; A.M.Селищев. Славянское население в Албании. София, 1931; A.B.Десницкая. Албанский язык, его диалекты. Л., 1968.

АЛГОНКИНСКИЕ ЯЗЫКИ – alm. Algonkin-Sprachen (Pl.), ing. Algongian-languages /5l'gɔŋk5n 'l5ŋgwıdʒız/, fr. langues algonquiennes, algonkin, azərb. alqonkin dilləri. – Şimali Amerikada, Kanadada və ABŞ-da danışılır və hind dilləri ailəsinə daxildir. Bu dillərdə 160 minə yaxın əhali danışır. Üç əsas qrupa bölünür: a) mərkəzi (kri, montane-naskapi, menomini, foks, şauni, peoria; b) şərqi (abnaki, moqikan, narraqanset və c) və qərbi (blekfut, çeyen, arapaxo və s.). Qeyd edək ki, L.Blumfild (1887-1949) mərkəzi alqonkin dilini ayrıca tədqiq etmişdir.
S.Potter. Göstərilən əsər. s. 17, 117; C.C.Uhlenbeck. A Sonsise Blackfoot Grammar. Amsterdam, 1938; Ch.F.Hockett, Potawatomi: I-IV, IJAL, 1948, v. 14.

АЛГОРИТМ – alm. Algorithmus (m), ing. algorithm /'5lgərı1(ə)m/, fr. algorithme, azərb. alqoritm. – Hər hansı bir informasiya sisteminin kodlaşması və ötürülməsi üçün dəqiq qaydalar məcmusu. Bu qaydalardan maşınla tərcümə zamanı geniş istifadə olunur. Qaydalardan girişdə

downloaded from KitabYurdu.org

avtomatik analiz, çıxışda isə avtomatik sintez kimi istifadə olunur. Alqoritm termini tam təsadüf nəticəsində yaranıb. X əsrdə yaşayıb-yaratmış ərəb alimi Əl-Xorezmin adından götürülən bu söz orta əsrlərdə latınca traktatların birində hesablama vahidi kimi *Algorithmi* şəklində işlənib.

А.А.Реформатский. Введение в языковедение. М., 2001, s. 57-58.

АЛЕКСАНДРИЙСКАЯ ШКОЛА - alm. Aleksandrier Schule (f), ing. Alexandrian schooll /ˈ5lɪgˈz5ndraɪn/ /ɑlɪgˈzɑ:ndrɪəns sku:l/, fr. école alexandrine, azərb. İskəndəriyyə məktəbi. – B.e.ə. III əsrin əvvələrində Misirin (Eqipt) paytaxtı iskəndəriyyə şəhərində təşəkkül tapmış dil tədqiqatının ənənələri geniş yayılmağa başladı. Əsas çiçəklənmə dövrləri b.e.ə. II-ci və eramızın II-ci əsrini əhatə edir. 640-cı ildə İskəndəriyyənin ərəblər tərəfindən işğal olunması məktəbin süqutuna səbəb oldu. Əsas nümayəndəsi Aristarx (217-145) və onun yetirmələri olub. İskəndəriyyə məktəbinin ənənələrində filologiya və qrammatika mühüm elm sahəsi kimi təşəkkül tapmışdı. İskəndəriyyə məktəbi qrammatikanı digər dilçilik sahələrindən ayıraraq onu müxtəlif hissələrə - fonetika, morfologiya, sintaksis, habelə sonralar qrammatikaya daxil edilməyən leksikologiya, üslubiyyat, tekstologiya və paleoqrafiyaya bölürdü. İskəndəriyyə məktəbi dilin quruluşunun bütün səviyyələrini tədqiq edirdi. O, akustik və artikulyator əlamətlərinə görə dil səslərini: sait, samit və yarımsaitlərə ayırırdı. İskəndəriyyə məktəbində söz «üzvlənə bilən», müəyyən mənaya və formaya malik «əlaqəli nitqin ən kiçik hissəsi» kimi götürülürdü. İskəndəriyyə filoloqları 8 nitq hissəsi ayırırdılar: isim, fel, feli sifət, üzv, əvəzlik, sözönü, zərf və bağlayıcı.

Античная теория языка и стиля. М.,-Л., 1936; Т.А.Амирова, Б.А.Ольховский, Ю.В.Рождественский. Очерки по истории лингвистики. М., 1975.

АЛЕКСИЯ - alm. Alexie (f), ing. alexia /əˈlɛksɪə/, fr. alexie, azərb. aleksiya. – (Eskimo) - Psixi-fizioloji proseslərin pozulması ilə əlaqədar hərfləri və hərf birləşmələrini seçə bilməmək, onları birləşdirib oxuya bilməməkdən yaranan sapınma.

O.C.Ахманова. Göstərilən əsər, s.39.

АЛЕУТСКИЙ ЯЗЫК - alm. Aleutisch (n), ing. Aleut language /əˈlju:t; ˈɑlɪu:t ˈl5ŋgwɪʤ/, fr. langue aléoutienne, azərb. aleut dili. – Eskimos-aleut dillərindən biridir. Amerikanın Aleut yarımadalarında və Berinq boğazında yayılmışdır. Bu dildə 750 mindən artıq əhali danışır. 3 əsas dialektə bölünür: unalaş (şərqi), aktin və attov (qərbi).

И.Вениаминов. Опыт грамматики алеутско-лисьевского языка. СПБ, 1846; В.И.Иохельсон. Унанганский язык. В сб.: Языки и письменности народов севера. Ч. 3., М.-Л., 1934.

АЛЛЕГОРИЯ - alm. Allegorie (f), ing. allegory/ˈ5lɪgərɪ/ˈalɪg(ə)ri/, fr. allégorie, azərb. alleqoriya. - 1. Bir mücərrəd məfhumun konkret

downloaded from KitabYurdu.org

obrazlarda ifadəsi; 2. Geniş mənada obrazlar, rəmzlərdən ibarət məcaz. Məs.: nağıllarda və təmsillərdə «canavar yırtıcı, dovşan qorxaq» kimi götürülür.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 12.

АЛЛЕГРО - alm. allegro, ing. allegro (al-legro) /ə'leɪgrʊ,-'lɛg/, quick tempo /kwɪk 'tempəʊ/, fr. allégro, allegro, azərb. sürətli nitq. - Tələffüz zamanı sözlərin qısaldılması, adi danışığa xas qısaltmalar. Məs.: Azərb. d. /Mən, indi gəlirəm// əvəzinə /gə:rəm/; alm. d. /guten Tag// əvəzinə /n' Tag// və s.
R.Conrad. Göstərilən əsər, s. 28.

АЛЛИТЕРАЦИЯ - alm. Alliteration (f), Anreim (m), ing. alliteration /ə,lɪtə'reɪʃ(ə)n/, fr. allitération, azərb. alliterasiya (eyni səs və ya hecaların təkrarından ibarət şer). - Sözlərin əvvəlindəki, yaxud ortasındakı samitlərin, ya da fonem birləşmələrinin eyni və ya yaxın olması. Alliterasiyanın aşağıdakı növləri vardır: 1) Misralararası (sətirarası) və ya bənd, beyt alliterasiyası (xarici alliterasiya); əsasən qonşu misraların sözləri eyni səslə başlanır. Məs.: Azərb. d. «Ağ göyərçin ağ qanadın açarsan, Dam-divardan bir qovzanıb üçarsan». M.Şəhriyar. «Aman ayrılıq», Bakı, 1981, s.43; 2) Sözarası və ya misra alliterasiyası (daxili alliterasiya): ardıcıl gələn sözlərdə eyni səslərin təkrarı şəklində olur. Məs.: Azərb. d. /Su sənəyi suda sınar/.
Azərbaycan dilində alliterasiya üslubi və poetik vasitə olmaqdan əlavə, həm də leksik-morfoloji vasitədir. Külli miqdarda sözlərin komponentləri, adətən, alliterasiya prinsipi üzrə düzülür. Məs.: Azərb. d. /boy-buxun, /qaş-qabaq/, /dil-dodaq/, /səs-səmir/ və s; alm. d. /Wind und Wetter/, /Kind und Kegel/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 14; R.Conrad. Göstərilən əsər.

АЛЛИТЕРИРУЮЩИЙ - Bax: Аллитерация ←.

АЛЛОЛОГ - alm. Allologe (m), ing. allolog /'alə-lɔg/, fr. allologne, azərb. alloloq – 1) Sözün variantı; 2) Elliptik birləşmələrdə sözün sıfır variantı, atılmış sözlər. Məs.: /Salam!/ (salaməleykim əvəzinə).
O.C.Ахманова. Göstərilən əsər, s. 40.

АЛЛО - alm. Allo-, ing. allo - /'aləʊ/, fr. allô-, azərb. allo-. – Amerikan dilçiliyində emik səviyyənin (yəni fonemin, morfemin, leksemin, sememin, qrafemin və s.) vahidinin danışıqda, danışıq aktında konkret təzahürü, variant şəklində çıxış etməsini birləşdirən ön şəkilçi. Məs.: allofon, allomorf, alloleksem və.
R.Conrad. Göstərilən əsər, s. 28-29.

АЛЛОГРАФ(А) - alm. Allograph (m), ing. allograph /'aləgrɑ:f/, fr. allographe, allographème, azərb. alloqraf. – Deskriptiv dilçilikdə qrafemin konkret təzahürü, növü. Məs.: ing. d. „h“ qrafemi „th, sh“ birləşmə-

downloaded from KitabYurdu.org

lərində alloqraf və ya alm. d. «a», «aa» və «ah» alloqraflar kimi /a:/ foneminin yazıda verilməsinin işarələridir.
R.Conrad. Göstərilən əsər, s. 28.

АЛЛОЛЕКС - alm. Allolex (n), ing. allolex /ˈalə-leks/, fr. allolexeme, azərb. alloleks. – Leksemin konkret (yazılı və şifahi) danışıq aktında götürülmüş müəyyən bir variantı, növü; qlossu, üzvü olan söz. Məs.: Azərb. d. «Candan ciyəri, qardaşı qardaşdan ayırmış». Burada /qardaşı/ və /qardaşdan/ sözləri /qardaş/ lekseminin alloleksemləridir.
F.Yadigar (Veysəlli). German dilçiliyinə giriş. Bakı, 2003. s. 202, 208, 277.

АЛЛОМОРФ(А) - alm. Allomorph (n), ing. allomorph /ˈaləmɔ:f/, fr. allomorphie, azərb. allomorf, allomorfem – Deskriptiv dilçilikdə morfemin konkret şəkildə təzahürü, variantı. Dil sisteminin mücərrəd vahidi olan morfemin danışıq aktında konkret mövqedə işlənməsi. Morfemlər dildə variantlar - allomorflar şəklində çıxış edirlər. Məs.: Azərb. d. /lar/lər/ cəm formasının allomorfemləridir. Alm. d. /Rad/ - /Räder/ eyni morfemin allomorflarıdır.
F.Yadigar (Veysəlli). German dilçiliyinə giriş. Bakı, 2003. s. 277.

АЛОГИЗМ - alm. Allogismus (m), ing. allogizm /ˌalə(-)ʤızm/, fr. allogisme, azərb. allogizm. – 1) Məntiqə zidd olan, qeyri-məntiqi ifadə, söz. 2) Komizm, gülüş doğurmaq məqsədilə danışıqda məntiqi əlaqələrin pozulması, mənaca uyuşmayan, əlaqələnməyən sözlərin dalbadal işlənməsi. Məs.: Azərb. d. /Görəsən bu səma nə vaxt tikiləcək//.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 15.

АЛЛОНИМ - alm. Allonym (n), ing. allonym /əˈlɔnım/, fr. allonyme, azərb. allonim. – 1) Müəyyən şəxsin, coğrafi obyektin və s. bir neçə variantda adlandırılması. Məs.: /Volqa-İtil çayı; /Tanrı Dağı/, /Ağrı Dağı/. 2) Xüsusi mənada «yad, özgə ad» deməkdir. Özünün deyil, başqasının ad və soyadı ilə əsər çap edənləri bildirmək üçün də işlədilir.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 15.

АЛЛОСЕМА - alm. Allosem (n), ing. alloseme /əˈlɔsım/, fr. allosème, azərb. allosem. – Deskriptiv dilçilikdə ən kiçik məna elementinin – sememin konkret şəkildə təzahürü, variantı, növü. Məs.: Azərb. d. «kişi adam» «alçaq adam» birləşmələrindəki /adam/ sememi iki allosemdə çıxış edib.
R.Conrad. Göstərilən əsər, s. 28-29.

АЛЛОФОН - alm. Allophon (n), ing. allophone /ˈaləfə-n/, fr. allophone, azərb. allofon. – Deskriptiv dilçilikdə fonemin konkret şəkildə təzahürü, fonemin variantı. Məs.: Azərb. d. /ə̲l, lə̲lə̲, də̲də̲, nə̲də̲n/ vahidlərində bütün saitlər /ə/ foneminin allofonlarıdır. Allofonlar akustik-artikulyator baxımdan oxşar olmaqla bərabər bir-birini istisna edən mövqelərdə çıxış edirlər. Məs.: Azərb. d. [t^h] (təpik), [t^o] (tüstü), [t'] (tir)

downloaded from KitabYurdu.org

və [[t] t] (tar) (nəfəsli, dodoqlanan, yumşaq, qalınlaşma) variantları bir-birinə akustik və artikulyator baxımda yaxın olmaqla onlardan heç biri digərinin yerində gələ bilməz. →

Hər bir fonem öz variantlarında, variantlar isə səslərdə təzahür edir. Fonemdən varianta və variantdan fonemə yol dolayısı ilə deyil birbaşadır. Məs.:

Fonem	/d/	/t/
Variantlar	[d^o], [d'], [d], [d^h]	[t^o], [t'], [t], [t^h]
və ya		
Allofonlar:	[d^oüz], [d'iz], [daz], [ad]	[t^oül], [t'ir], [tar], [at^h] və s.
Səslər:	«d,d,d», «d,d,d», «d,d,d», «d,d,d»	«t,t,t», «t,t,t», «t,t,t», «t,t,t» və s.

Lakin bu münasibətləri fonem, sonra variant və, nəhayət, səs kimi şaquli vəziyyətdə versək, onda fonem variant və səslərə münasibətini bir-birindən asılılıq üzrə düzmüş oluruq ki, bu da fonemin əsas mahiyyətini açıb göstərə bilmir. Müq. et:



Bu sxemdən belə çıxır ki, variantlar bir-birindən asılıdır. Məsələni bu şəkildə qoyanlar fonemi məna fərqləndirən, variantları isə bu funksiyadan məhrum olan dəyərlər kimi verməyə çalışırlar.

Halbuki variantlar bərabərhüquqlu olmaqla, hər biri birbaşa konkret səslərdə təmsil olunur. Fonem nəzəriyyəsində dialektik vəhdət prinsipi o deməkdir ki, hər bir səs müəyyən variant, variant isə müəyyən fonem deməkdir. Başqa sözlə, hər bir fonem öz bərabərhüquqlu variantlarında (allofonlarda), onların fiziki varlığı olan səslərdə təzahür edir. Bütün dil daşıyıcılarını, dialektləri, situativ məqamları nəzərə alsaq,

downloaded from KitabYurdu.org

səslər saysız-hesabsızdır, n-qədərdir. Amma variantlar xeyli məhduddur, onların sayı mövqe, kombinasiya və superseqment vahidlərin təsiri ilə məhdudlaşır. Səs və variantın təmsilçisi olan fonemlər isə bir neçə onluqdan ibarətdir. Məs.: Azərb. d. onların sayı 33, rus d. 39, alm. d. 40, ing. d. 42-dir.

Göründüyü kimi, dil sistemi səviyyəsində fonemlər, norma səviyyəsində həmin fonemlər öz variantları və bunlar da danışıq səviyyəsində cüzi olsa da akustik və artikulyator baxımdan fərqlənən səslərlə qarşılaşmalarda iştirak edirlər. Məs.:

S i n t a q m a t i k

p a r a d i q m a t i k

/t/ // /d/ // /z/ /s/ və s.
/d/ // /t/ // /s/ // /z/ və s.
/s/ // /z/ // /t/ // /d/ və s.
/z/ // /s/ // /d/ // /t/ və s.
/a/ // /e/ // /o/ // /u/ və s.

Paradiqmatik planda bir-birinin yerində gələ bilən vahidlər fərqləndirmə funksiyasını aydınca yerinə yetirə bilirlər.

Məs.: məclis iştirakçılarından biri aparıcıya müraciətlə deyə bilər:

/bir yaxʃı dostum var/ istəsəniz təqdim edə bilərəm// və ya

/bir yaxşı tostum var/ istəsəniz təqdim edə bilərəm//.

Göründüyü kimi, bu iki cümlənin fərqlənməsi /d/ və /t/ fonemlərinə əsaslanır. Əslində bu fərq cingiltilik/karlıq fərqləndirici (distinktiv) əlamətinə əsaslanır. Amma etiraf etməliyik ki, bu iki cümlənin eyni məclisdə eyni adamın dilində səslənməsi az inandırıcıdır.

F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 153-160.

АЛЛОФОНИЧЕСКИЙ - alm. allophonisch, ing. allophonic /aləˈfɔnık/, fr. allophonique, azərb. allofonik. - Digər fonemlərlə müstəqil variant münasibətlərinə girə bilməyən, mövqe ilə şərtlənən variantlara xas olan. Bax: Аллофонема ←.

АЛЛОФРАЗА - alm. Allophrase (f), ing. allophrase /ˈ5ləfre9z/, fr. allophrase, azərb. allofraza. - Söz birləşməsinin, frazeoloji birləşmənin variant növü, müxtəlif növləri. Məs.: Azərb. d. /Həyat vəsiqəsi/ - /həyata vəsiqə/; /Ürəyi ağzına gəlmək/ - /ödü ağzına gəlmək/, /Ürəyi getmək/ - /ürəyi keçmək/.

О.С.Ахманова. Göstərilən əsər, s. 41.

АЛЛО-ЭМИЧЕСКИЙ - alm. allo-emisch, ing. allo-emik /ˈ5lə-ˈı:m9k/, fr. allô-émique, azərb. allo-emik. - Linqvistik invariant və em səviyyə məfhumuna və onun real danışıqdakı növlərinə, təzahür xüsusiyyətlərinə

downloaded from KitabYurdu.org

(alloform) əsaslanan. Allo-emik terminologiya - Dili bütün yaruslarında (səviyyələrində) təsvir edərkən istifadə olunan terminlərdə emlər (fonem, morfem, leksem, semem və s.) ilə alloların (allofon, allomorf, alloleks, allosem və s.) müntəzəm müqayisəli qarşılaşdırılması. Məs.: ing. d. /taken/ və /removed/ sözlərində /ən/ və /d/ keçmiş zaman partisipin (part partisiple) morfeminin allomorflarıdır.
P.H.Matthews. Göstərilən əsər, s. 14.

АЛФАВИТ - alm. Alphabet (n), ing. alphabet /ˈəlfəbɛt/5lfəbɪt/, fr. alphabet, azərb. əlifba. – Hər hansı bir dil üçün müəyyən bir ardıcıllıqla düzülmüş qrafik işarələr toplusu. Dünya dillərinin fonetik quruluşunu və fonoloji sistemini təşkil etmək üçün fonetik transkripsiyadan istifadə olunan işarələr sistemini Beynəlxalq Fonetika Əlifbası adlandırırlar.
Bu əlifbadan dünyanın 30 dilinin, o cümlədən də Türkiyə türkcəsinin təsvirində istifadə olunmuşdur. Qeyd edək ki, görməyənlər üçün Brayl əlifbası da bu fonetika əlifbası əsasında tərtib edilərək çap edilib.
Bax: F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s.329-330; Handbook of the International Phonetik Association. A Guide to the use of the International Phonetik Alphabet. Cambridge, 1999, s. 204; F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005.

АЛФАВИТНЫЙ ПОРЯДОК - alm. alphabetische Reihenfolge (f), ing. alphabetical order /ˈ5lfəˈbɛtɪk(ə)l ˈɔ:də/ alphabetically /ˈ5lfəˈbetɪk(ə)lɪ/, fr. ordre alphabétique, azərb. əlifba sırası. - Lüğətdə sözlərin əlifba sırası ilə düzülməsi.
A.Axundov. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, 2005.

АЛФАВИТНОЕ ПИСЬМО - alm. Buchstabenschrft (f), ing. alphabetical letter /ˈ5lfəˈbɛtɪk(ə)l ˈletə/, phonetic writing /fə-ˈnetɪk ˈraɪtɪŋ/, fr. écriture alphabétique, azərb. əlifba yazısı. - Qrafik işarəsi ayrıca bir fonemi işarə edən yazı növü. Məs.: latın qrafikasına əsaslanan yazı. Bu gün Azərbaycan əlifbasında lazımsız və yeri səhv salınmış işarələr çoxdur. Öncə deməliyik ki, «ə» işarəsinə ehtiyac yox idi, çünki simmetrik olaraq «o» - «ö», «u» - «ü» idisə, «a» - «ä» olmalıydı. Fikrimizcə, əlifbada «y» - ya ehtiyac yox idi, bunu «j» işarəsilə vermək daha düzgün olardı. Digər tərəfdən, «q» tam artıq bir işarədir. Biz hələ «ɡ» və «ğ» -nı demirik: «k» - «k´», «ɡ» - «ğ» olmalıydı. Belə olduqda bir tərəfdən daxili simmetriya saxlanılmış olardı, digər tərəfdən də üç (̳, ̆, -,) işarənin köməyilə əlifbamızda qənaət prinsipinə əməl edilərdi:

Saitlərdə	Samitlərdə
«a»-/a/ → «ä»-/ə/	«k»-/k/ → «k» - /Ɓ/, «s»-/s/ → «ş» - /ʃ/
«o»-/o/ → «ö» - /ø/	«ɡ»-/ɡ/ → «ğ» - /ɤ/, «c»-/dz/ → /ç/ - /tʃ/
«u»-/u/ → «ü»-/ü/	«j»-/j/ → «ĵ» - /ʒ/

Lakin yuxarıda deyildiyi kimi, əlifbamız qəbul olunanda bəzi vəzifəli,

downloaded from KitabYurdu.org

nüfuzlu, lakin əlifba məsələlərində naşı adamların təkidi və təsirilə indiki calaq əlifba meydana gəldi. Güman edirik ki, gec-tez bu prinsip qalib gələcək və əlifbamız yeni dəyişikliklərdən sonra təmiz və dolğun bir yazı sistemi şəklini alacaqdır.
F.Yadigar (Veysəlli). German dilçiliyinə giriş. Bakı, 2003, s. 81.

АЛЬВЕОЛО-ПАЛАТАЛЬНЫЙ - alm. alveolar-palataler Laut (m), ing. alveolo-palatal /5l'vıələ- 'pælətəl/, alveo-palatal /ˌalvı'ə-lə- 'pælətəl/, fr. alvéole-palatale, azərb. yuvaq-damaq. - Tələffüz zamanı dil ucunun alt diş yuvaqlarına, dilin orta hissəsinin isə sərt damağa doğru yaxınlaşması ilə yaranan səslər. Məs.: /f/, /s/ və s. Bu cür izah qüsurlu sayılır, çünki təsnifatın əsasında həm fəal, həm də qeyri-fəal tələffüz üzvü durur.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980; F.Yadigar (Veysəlli). German dilçiliyinə giriş. Bakı, 2003.

АЛЬВЕОЛЯРНЫЕ СОГЛАСНЫЕ - alm. alveolare Konsonanten (Pl.), ing. alveolar consonants /'5lvıələ 'kɔnsənəntz/, fr. consonnes alvéolaires, azərb. yuvaq samitləri. - Dil ucunun yuxarıdan ön dişlərin arxasına sıxılması ilə əmələ gələn samitlər. Məs.: Azərb. d. /d/, /s/, /z/, /l/, /n/. Bu da həmin səbəbdən qüsurlu təsnifat sayılır. Bunlara sadəcə dilönü samitlər deyirlər.
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 128.

АЛТАЙСКИЙ – alm. Altaisch (n), ing. Altai /5l'te(ı)aı/, Altaic /əl'teıık/, altain /5l'teıən/, fr. de l'Altaï, altaïque, azərb. Altay. – Mərkəzi və şimali Asiyada 250 milyon adamın danışdıqları 60-a qədər dilin ümumi adı. Bunlar üç yerə bölünür: türk, monqol və tunqus dilləri. Koreya, Yapon, həmçinin Ural dillərinin buraya daxil edilməsi mübahisəlidir. İlk dəfə bu dillərin bölqüsünə 1730-cu illərdə cəhd edilib. Əsas əlamətləri bunlardır: sadə fonem sistemi, sadə heca strukturu, sait ahəngi, morfoloji iltisaqilik, şəkilçilərin çoxluğu, zəngin hal sistemi, mübtəda xəbər uzlaşması, söz sırası «mübtəda+tamamlıq+xəbər» və s.
N.Poppe. Vergleichende Grammatik der altaischen Sprachen. Wiesbaden, 1960.

АЛЬТЕРНАНТ - alm. Alternant (m), ing. alternant /ɔ:l'tə:nənt/ /5l'tə:nənt/, fr. alternant, azərb. alternant. - Variantın eyni bir emik vahid çərçivəsində başqa variantlarla əvəzlənməsi. Məs.: alm. d. [k'] (Kiel), [k˚] (Kühl), [k] (Kahl) və s. Fonetik əhatədən asılı olaraq morfemin allomorfik dəyişməsi. Məs.: ing. d. isimlərin cəm şəkilçiləri (/-s/ /kæps/, /-z/ /kæbz/, /-ız/ /brʌʃız/) və s. İlk dəfə olaraq alternasiya nəzəriyyəsini dilçiliyə İ.A.Boduen de Kurtene gətirmişdir. O, 1894-cü ildə polyak dilində yazıb çap etdirdiyi əsərində alternasiya nəzəriyyəsini işləyib hazırlayır. Bu əsər 1895-ci ildə alman dilində «Versuch einer

downloaded from KitabYurdu.org

Theorie phonetischer Alternationen» adı altında Braunşvaidə çapdan çıxır. Yalnız 1963-cü ildə bu əsər rus dilinə tərcümə edilərək «Избранные труды по общему языкознанию» kitabında çap olunur.
«… fonetik alternatlar və ya alternasiyada iştirak edən o fonemlərdir və ya səslərdir ki, onlar müxtəlif cür tələffüz olunsalar da, eyni tarixi kökə aid edilə bilərlər, yəni tarixən onlar eyni bir fonemdən əmələ gəlirlər» (s.274).

Daha sonra İ.A.Boduen de Kurtene səbəb baxımdan alternasiyanı belə təsnif edir:

1) Hazırda antropofonik səbəbin mümkünlüyünü müəyyən etmək baxımdan;

a) neofonetik; bu zaman diverqentlər yaranır, prosesi isə diverqensiya adlandırmaq olar;

b) paleofonetik, bunları qeyri-diverqentlər adlandırırlar, proses isə qeyri-diverqensiya adlanır;

2) Psixi səbəbini göstərmək baxımından: a) psixofonetik; b) qeyri-psixofonetik alternantlar;

3) Ənənəvi və ya sosial səbəbini göstərmək imkanı baxımından;

4) Bir dildə və ya başqa dildə səbəbi olması baxımından: a) birdilli; b) yaddilli;

5) Fərdi və sosial səbəb arasında müxtəliflik baxımdan;

6) Sadəlik və mürəkkəblik baxımdan.

И.А.Бодуэн де Куртенэ. Избранные работы по общему языкознанию. М., 1963, т. 1, s. 276-284.

АЛЬТЕРНАНТ ФОНЕМЫ - Bax: Альтернант ←.

АЛЬТЕРНАТИВНОЕ ВОПРОСИТЕЛЬНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. alternativer Fragesatz (m), ing. alternative interrogative sentence /ɔ:l'tə:nətɪv ɪn'terəgeɪtiv sentəns/, fr. proposition interrogative alternative, azərb. alternativ sual cümləsi. - Alternativ sual ifadə edən cümlə. Alternativ sualda danışan müsahibinə bir deyil, iki və daha çox sual təqdim etmiş olur. Dinləyən bu suallara cavab almaq üçün danışanı maraqlandıran sözlərdən və ya cümlələrdən birini, ya sual cümləsinin bir hissəsini seçərək cavab verir. Məs.: Azərb. d. ¿…Bunları mən demişəm, ya deməmişəm?, ¿Düz deyirəm, yoxsa yalan deyirəm?, ¿Sən onu gördün, görmədin?, ¿Yeməlidir, geyməli? və s.
C.Axundov. Azərbaycan dilində sual cümlələri (eksperimental-fonetik tədqiq). Bakı, 1998, s. 78.

АЛЬТЕРНАТИВНЫЙ ВОПРОС – Bax: Альтернативное вопросительное предложение ←.

АЛЬТЕРНАЦИЯ - alm. Lautwechsel (m), ing. alternation /ˌɔ:ltə'neɪʃ(ə)n/, gradation /grə'deɪʃən/, fr. alternance, azərb. əvəzlənmə. - Fonetik əhatə ilə müəyyən olunan fonomorfoloji əvəzlənmə. Məs.: ing.

downloaded from KitabYurdu.org

d. /fi:l/ /fi: l´ɪŋ/. Birincidə qalın [l], ikincidə isə yumşaq [l'] tələffüz olunur.
R.Conrad. Göstərilən əsər, s. 30.

АЛЬФА ОТРИЦАНИЯ - alm. Alphanegation (f), ing. alpha negative /'ælfə 'negətɪv/, negation /neg'eɪʃən/, fr. alpha négation, azərb. inkarlıq bildirən alfa. - Yunan dilində mənşəcə hind-Avropa dillərinə aid olan inkarlıq bildirən önlük. Yazıda «a» ilə işarə olunduğuna görə belə adlandırılır. Məs.: alm. d. /grammatisch – agrammatisch/ və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 42.

АЛЬФА-ФОНЕТИКА - alm. Alpha-Phonetik (f), ing. alfa(ɑ)-phonetics /'5lfə(ɑ) fə-'netɪks/, fr. alpha phonétique, azərb. alfa-fonetika. – Fonetikanın danışıq üzvlərinin funksiyasını nəzərə almaqla səslərin tələffüzündə real ardıcıllığı araşdıran xüsusi bölməsi.
O.C.Ахманова. Göstərilən əsər, s. 42.

АЛЮТОРСКИЙ ЯЗЫК – alm. Aljutorisch (n), ing. alyutori(an) language /ə'l-:t(ə)rɪ(5n) 'l5ŋgwɪʤ/, fr. langue alyutorian, azərb. alütor dili. – Çukot-kamçatka dillərindən biridir. Əsasən Koryak muxtar vilayətində yayılmışdır. 2000 mindən bir qədər artıq daşıyıcısı vardır. Alütoran, palan və karaqin dialektlərinə bölünür.
А.Н.Жукова. Язык паланских коряков. Л., 1980.

АМАЛЬГАМИРОВАНИЕ - alm. Amalgamierung (f), ing. amalgamation /əˌm5lgə'me9ʃ(ə)n/, amalgamating /ə'mælgəme9t92/, fr. amalgamation, azərb. birləşmə, qovuşma. – 1) Birləşmə, qovuşma. Məs.: alm. d. /zu+der/=/zur/; 2) Sözdüzəltmədə yanaşma nəticəsində yaranan yeni söz. Məs.: alm. d. /Hand+Buch/ = /Handbuch/ (dərslik) və s.
H.Bußmann. Göstərilən əsər, s. 74.

АМБИВАЛЕНТНЫЙ - alm. ambivalent, ing. ambivalent /5m'bɪvələnt/, fr. ambivalent, azərb. ambivalent. – 1) Bu dar mənada qrammatik cəhətdən həm kişi, həm qadın cinsini bildirən isimlər qrupuna aiddir. Bəzən buna çoxcinslilik (substantiva communia) deyirlər. Məs.: rus d. /сирота/ həm kişini, həm də qadını bildirir. Müq. et: /круглый/-ая сирота/; 2) Geniş mənada bir-birinə zidd mənaları özündə cəmləşdirən sözləri bildirir. Məs.: fr. d. /hôte/ - «qonaq» və «sahib»; rus d. «занять» (tutmaq) - «занять» (borc götürmək) və s. Bəzən də müxtəlif cinsli şəxsləri bildirmək olur. Məs.: alm. d. /der/die Waise/ (yetim) və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 42.

АМБИГВИТНОСТЬ – alm. Ambiguität (f), (köhnəlmiş Amphibolie) (f), ing. ambiguity /ambɪ'gju:ti/, fr. ambiguïté, azərb. ambigvitlik. – Mətndə müxtəlif dil səviyyələrində söyləmlərin çoxmənalığı. Məs.: alm. d. /Er fährt mit dem Zug nach Bonn// cümləsi iki cür açıla bilər: 1) /O, Bonna gedir//; 2) /O, Bonna gedən qatarla gedir, ancaq yolda düşərək//. Ambigvitlik səriştəli dil daşıyıcısı və qrammatik təhlillə açıla bilər. Məs.:

downloaded from KitabYurdu.org

generativ sintaksis modelində çoxmənalı üst qat strukturlarına müxtəlif semantik şərhlər vermək olar. Səviyyəsindən asılı olaraq leksik və sintaktik ambigvitlik ola bilər. Leksik səviyyədə polisemiya → və homonimiya → buna misal ola bilər. Məs.: alm. d. /Absatz/ (ayaqqabının dabanı) və (satış) mənalarında işlənə bilir. Sintaktik və ya struktur səviyyədə (buna polisintaksislik və ya konstruksion homonimiya da deyirlər. Məs.: alm. d. /Die Wahl des Vorsitzenden fand Zustimmung// /sədrimin seçkisi razılıqla qarşılandı//, cümləsində ikimənalılıq var: /sədrin seçimi/ (nəyi, kimi) və /sədrin özünün seçilməsi/. Bu zaman kontekst, intonasiya və danışıq məqamı mühüm rol oynayır.

N.Fries. Ambiguität und Vaghut. Einführung und kommentierte Bibliographie. Tübingen, 1980.

АМБИСИЛЛАБИЧЕСКИЙ СОГЛАСНЫЙ - alm. ambisyllabischer Konsonant (m), ing. ambisyllabic consonant /am'bısı'l5bık 'kɔnsənənt/, fr. consonne ambisyllabique, azərb. ambisillabik samit. - Ekskursiya (1-ci faza) fazasına görə ilkin hecaya, rekursiya fazasına görə isə sonrakı hecaya mənsub olan (iki heca arasında paylanan), iki hecaya aid olan samit. Məs.: alm. d. /ˈan:ˌne:mən/; rus d. /от:'того/ və s. Bu sözlərdə heca sərhədi samitlərin ortasından keçir.

О.С.Ахманова. Göstərilən əsər, s. 42.

АМЕРИКАНИЗМ (СЛОВО, СЛОВОСОЧЕТАНИЕ ИЛИ ОБОРОТ РЕЧИ) - alm. Amerkanismus (m), ing. Americanism /ə'merıkənızm/, fr. américanisme, azərb. amerikanizm. – 1) İngilis dilinin amerikan variantına xas olan söz, söz birləşmələri və ifadələr. Həm tələffüz, həm də leksikonda Britaniya ingiliscəsindən fərqli ifadələr. Məs.: N.Vebsterin (1758-1843) New International Dictionary (1961-ci ildə 3-cü nəşrdə çapdan çıxıb) /-our/ əvəzinə /-or/, /-er/ əvəzinə /-re/ yazmağı məsləhət görür. Müq. et /favor, honor, humor, labor, odor, valor/. Britaniya ingiliscəsində isə bunlar belədir: /favour, honour, humour, labour, odour, valour/; /calibre, center, fiber, meter/. Britaniya ingiliscəsində isə onlar belədir: /calibre, centre, fibre, metre/ və s. Amerikanlar / «for, door, farm və lord» sözlərində /r/ samitini novlu tələffüz edirlər, halbuki İngiltərədə bu samit titrək /r/ kimi deyilir. Amerikanlar «dance, fast, grass və path» sözlərində aşagı yüksəlişli ön sıra saiti /æ/, «dock, fog, hat və rod» sözlərində isə aşağı yüksəlişli arxa sıra saiti /ɑ/ tələffüz edirlər və s.;

2) Britaniya ingiliscəsində və başqa dillərdə işlənən amerikan variantının söz və ifadələri.

S.Potter. Our Language. Penguin Books, 1990, s. 157-169.

АМЕРИКАНИСТИКА – alm. Amerikanistik (f), ing. Americanistic /ə'mɛrık(ə)nıstık/, fr. les études américaines, azərb. amerikanistika. – 1) Amerikada ingilis dili və ədəbiyyatını öyrənən elm sahəsi; 2) Amerikada

downloaded from KitabYurdu.org

yaşayan hindilərin və eskimosların dilləri, ədəbiyyatları və mədəniyyətlərindən bəhs edən elm.
R.Conrad. Göstərilən əsər, s. 32.

АМЕРИКАНСКИЙ СТРУКТУРАЛИЗМ – alm. amerikanischer Strukturalismus (m), ing. American strukturalism /ə'merıkən ˈstrʌktʃərəlızəm/, fr. structuralisme américain (d'Amérique), azərb. amerikan strukturalizmi. – XX əsrin 20-ci illərindən sonra E.Sepir (1884-1942) və L.Blumfildin təsirilə yaranmış dilçilik cərəyanlarının ümumi adı. Ümumilikdə bu strukturalizmin üç xüsusi qolu fərqləndirilə bilər: 1) Blumfild biheyviorizmi; 2) Z.Hərrisin (1909-1992) distribusionalizmi; 3) N.Xomskinin generativ qrammatikası. Bütövlükdə amerikan strukturalizmi deskriptivizm kimi də dəyərləndirilir. Onun da meydana gəlməsi ölüb getməkdə olan hindi dillərinin öyrənilməsilə bağlı olmuşdur. Yalnız şifahi formada mövcüd olan dillərin öyrənilməsini qarşısına məqsəd qoyan bu təsviri dilçilik səhra tədqiqatlarında xüsusi maraqlı idi. Nəzəri və metodiki cəhətdən ilkin olaraq a.s. davranış psixologiyasına əsaslanırdı. Təbiətşünaslığa söykənən bu istiqamət öz tədqiqat obyektini mahiyyətcə dərk olunan faktlara söykənir və heyvanlar üzərində aparılan eksperimentlərlə, müşahidələrlə insan davranışını şərh edirdi. Bu da mənanı dilxarici faktor kimi dilçilikdən kənara çıxartmaq demək idi. Fonologiya və qrammatika sırf formal kriteriyalara əsaslanan üzvlənməyə və təsnifə (taksonomiya) üstünlük verirdi. Metodiki baxımdan a.s. empirik, induktiv, analitik üsulları əsas götürməklə təsvirdə dil elementlərinin fiziki əlamətlərə rəğmən eyniləşdirilməsini və düzümünü əsas sayırdı. Sonralar isə universal qrammatikanın yaradılmasına və sintaktik strukturların üst və alt qat baxımından şərhinə güclü təkan verildi.
Л.Блумфильд. Язык. М., 1968; H.Bußmann. Göstərilən əsər, s. 76; G.Nickel. Grunlagen der Anglistik Amerikanistik. Einführung in die Linguistik Entwicklung, Probleme, Methden. Berlin, 1979.

АМЕРИКАНСКОЕ ЛИНГВИСТИЧЕСКОЕ ОБЩЕСТВО – alm. amerikanische linguistische Gesellschaft (f), ing. Linguistic Society of American (LSA) /lıŋˈgwıstık səˈsaıətı əv ə'merıkən/, fr. société linguistique d'Amérique, azərb. amerika linqvistik cəmiyyəti. – Canlı dillərin sinxron öyrənilməsini qarşısına məqsəd qoyan Amerika dilçilərinin təşkilatı. 1924-cü ildə Amerikanın aparıcı dilçilərinin (L.Blumfild və b.) təklifi əsasında yaradılmışdır. Cəmiyyətin 7 minə qədər üzvü vardır. İldə bir dəfə iclası keçirilir. Cəmiyyətin başında hər il seçilən prezident durur. Təşkilatın mərkəzi Vaşinqton şəhərində yerləşir. İki komitəsi-icraedici və mətbuat komitələri fəaliyyət göstərir. Mətbuat işləri üzrə komitə eyni zamanda təşkilatın mətbu orqanı olan «Language» jurnalının redaktorudur. Jurnal ildə 4 dəfə nəşr olunur. Amerika dilcilik cəmiyyətinin proqramı L.Blumfildin «Dil haqqında

downloaded from KitabYurdu.org

elm üçün postulatlar» (1926) və «Dil» (1933) əsərlərində öz əksini tapmışdır. L.Blumfildin fikir və mülahizələri Z.Hərris, C.L.Treycer (1908), Ç.F.Hokket (1907) və b. dilçilərin əsərlərində tətbiq və inkişaf etdirilmişdir.

Л.Блумфильд. Язык. М., 1968.

АМНЕЗИЯ - alm. Amnesie (f), ing. amnesia /æm'ni:zjə/, fr. amnésie, azərb. amneziya (huşsuzluq, hafizənin pozulması, zəifləşməsi). – Dilöyrənmədə ciddi maneələr yaradır.

Словарь иностранных слов. Под редакцией И.В.Лейхта и проф. Ф.Н.Петрова. М., 1949, s.42.

АМОРФНЫЕ ПРЕДЛОЖЕНИЕ - alm. amorpher Satz (m), ing. amorphous sentence /əˈmɔ:fəs sentəns/, fr. proposition amorphe, azərb. amorf cümlə. - Cümlənin adi, kanonik (müəyyən dil üçün məqbul sayılan) üzvlərinə görə bölünə bilməməsi.

R.Conrad. Göstərilən əsər, s. 32, 247-248.

АМОРФНЫЕ СЛОВА - alm. amorph(isch)e Wörter (Pl.), ing. amorphous words /əˈmɔ:fəs wɜ:dz/, fr. mots amorphes, azərb. amorf sözlər. - Bu və ya digər nitq hissəsinə aid edilmək üçün morfoloji göstəricisi olmayan sözlər. Məs.: Azərb. d. /hə/, /yox/, /deyil/ və s.

O.C.Ахманова. Göstərilən əsər, s. 42.

АМОРФНЫЕ ЯЗЫКИ - alm. amorph(isch)e Sprachen (Pl.), ing. amorphous languages /əˌmɔ:fəs 'læŋɡwɪʤɪz/, fr. langues amorphes, azərb. amorf dillər. - Sözdəyişdirici şəkilçiləri olmayan dillərdir ki, belə dillərdə qrammatik mənalar ya yanaşma əlaqəsi, ya da köməkçi sözlər vasitəsilə ifadə olunur. Məs.: çin dili. Sözün tam mənasında amorf dil yoxdur. Qeyd edək ki, F.Şlegel (1772-1829) dilləri flektiv və affiksli (aqqlütinativ) olmaqla iki yerə bölürdü. Sonradan onun qardaşı A.Şlegel (1767-1845) bu bölgünün yetərli olmadığını başa düşərək o bölgüyə birini də əlavə edib: amorf dillər. Flektiv dillər, A.Şlegelə görə, sintetik və analitik tipli ola bilər. Böyük alman mütəffəkkiri V. fon Humboldt (1767-1835) dilləri bu əlamətlərə görə müəyyənləşdirməyi tövsiyyə edirdi: 1) Dildə əlaqələrin ifadəsi (nisbi əlaqələrin ifadəsi); 2) Cümlənin əmələ gəlməsi qaydası; 3) Fonetik forma. V. fon Humboldt flektiv dillərə təkcə daxili dəyişiklikləri deyil, həm də affikslərlə ifadəni də daxil edirdi. O, israr edirdi ki, çin dili amorf dil deyil, təcrid olunmuş dilidir, yəni qrammatik mənalar bu dildə söz sırası və intonasiya ilə ifadə olunur. Beləlikdə, bu tipli dilləri o, sırf analitik dillər adlandırır.

Göstərilən üç tipdən başqa V. fon Humboldt inkorpor dilləri də fərqləndirir. Buraya Amerikada hindi dillərini və Asiyada paleoasiya dillərini aid edir. Bu dillərin əsas əlaməti odur ki, söz kökləri birləşib söz-cümlə yaradırlar. Bunun əvvəli mübtəda, sonu xəbər olur, ortada isə digər üzvlər gəlir. Məs.: /ninikakwa/ parçasında /ni/ - «mən», /naka/ -

downloaded from KitabYurdu.org

«yeyirəm», /kwa/ isə (ət) tamamlıqdır.
A.A.Реформатский. Göstərilən əsər, s. 444-447.

АМОРФНЫЙ - alm. amorph, formlos, ing. amorphous /ə'mɔ:fəs/, formless /fɔ:mles/, fr. amorphe, azərb. amorf. - Əsas və şəkilçilərə ayrıla bilməyən söz forması. Məs.: alm. d. /hinter/; ing. d. /between/ və s.
R.Conrad. Göstərilən əsər, s. 248.

АМРЕДИТА (ПОВТОРИТЕЛЬНОЕ СЛОЖЕНИЕ) - alm. Amredita (n), ing. amredita /'amredıta/, fr. amrédita, azərb. amredita. – Eyni kökün təkrarı nəticəsində sözlərin əmələ gəlməsi. Məs.: Azərb. d. /xor-xor/ yatmaq, /zır-zır/ ağlamaq və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 43.

АМФИБОЛИЯ – Bax: Амбигвитность ←.

АМПЛИФИКАЦИЯ – alm. Amplifikation (f), ing. amplification /ˌ5mplıfı'keıʃ(ə)n/, fr. amplification, azərb. amplifikasiya. – 1) Sinonimlərin əlavəsilə ekspressivliyi gücləndirən üslub vasitələri. Məs.: Azərb. d. /O gözəl, diribaş, cazibəli bir gızdır//; 2) Bir dildən digərinə tərcümə zamanı mətnin böyüməsi.

АМХАРСКИЙ ЯЗЫК – alm. Amharisch (n), ing. Amharic language /am'harık 'l5ŋgwıʤ/, fr. langue amharique, azərb. amhar dili. – Həbəşistanın şimalında yayılmış bu dildə təqribən 16 milyona qədər adam danışır. Həbəşistanın dövlət dilidir. Bir-birindən qismən fərqlənən üç dialekti vardır: şoan, qocan və hondar. Amhar dilinin fonem tərkibi 7 sait və 28 samitdən ibarətdir. Sintaktik baxımdan sabit söz sırası (MXT) mövcuddur. Cümlənin xəbəri adətən sonda gəlir.
J.P.Hughes. The Sciense of Language. An Introduction to Linguistics. New-York, 1966, s. 103; Н.В.Юшманов. Строй амхарского языка. Л., 1936; Е.Г.Титов. Современный амхарский язык. М., 1971.

АНАГРАММА - alm. Anagramm (n), ing. anagram /'5nəgr5m/, fr. anagramme, azərb. anaqram. - Söz və söz birləşməsində (cümlələrdə) ünsürlərin yerdəyişməsi nəticəsində yeni tipli ifadələrin alınması. Məs.: Azərb. d. /katib-kitab/, /kəmər-Kərəm/ və s. Digər növündə isə sözü təşkil edən ünsürləri əksinə düzdükdə həmin söz və ya ifadənin əksi alınır. Məs.: /Bikə tut əkib/; /nəm/ -/mən/, /sən/ - /nəs/ və s. Bunlara palindrom deyirlər. Anaqram adətən ləqəb kimi işlədilir. Məs.: /P.Celan/ → /P.Antschel/.
H.Bußmann. Göstərilən əsər, s. 77.

АНАКОЛУФ - alm. Anakoluth (n), ing. anacoluthon /anəkə'lu:4ɔn,-4(ə)n/, fr. anacoluthe, azərb. anakoluf. - Söyləmin bütün ünsürləri arasındakı düzgün formal sintaktik əlaqənin danışıq məqamında pozulması, xüsusən mürəkkəb cümlələrdə onların başlanğıcı ilə sonundakı əlaqələrin pozulması. Məs.: Azərb. d. /Çünki (ona görə ki) səfərə hazır-

downloaded from KitabYurdu.org

laşırdı o// /Çünki o, səfərə hazırlaşırdı//.
H.Bußmann. Göstərilən əsər, s. 78.

АНАЛИЗ - alm. Analyse (f), ing. analysis /ən5lısıs/ə'n5ləsi:z/, fr. analyse, azərb. analiz, təhlil. - Mürəkkəb dil vahidinin tərkib hissələrinə bölünməsi (üzvlənməsi). Morfoloji təhlil - sözün morfem tərkibinə görə təhlil. Sintaktik təhlil. Fonetik təhlil, fonoloji təhlil - fonem tərkibinə görə təhlil və s. Beləliklə, dil təhlili fonetik, fonoloji, morfoloji, sintaktik, semantik və praqmatik aspektləri əhatə edə bilər. Təhlil texnikası üzvlənmə və təsnifi əhatə etdiyindən struktur dilçilikdə bu taksonomik istiqamət kimi müəyyən edilir. Komponent, konstituyent və transformasional təhlil bu istiqamətin tərkib hissəsidir.

Azərbaycanda F.Veysəllinin işləyib hazırladığı linqvistik təhlil metodu aşağıdakı mərhələləri əhatə edir:

1. Söyləmin, sintaqmın və ya cümlənin intonasiya qəlibinə görə müəyyənləşməsi. Bu təhlilə görə hər bir mətn, cümlə, cümlə ardıcıllığı, sintaqm və söyləmdən ibarətdir. Məs.: Azərb. d. /Yağış yağır// və ya /Göyün üzü buludla örtülür. Gəfildən yağış yağmağa başlayır//. Cümlə bitkinlik, qeyri-bitkinlik və sual intonasiyası ilə deyilə bilər.
2. Sintaqm tərkibinə görə cümlə tək, iki və çoxsintaqmlı ola bilər. Məs.: Azərb. d. /Yağır// bir sintaqmlı, /yağış yağır/toz yatır// ikisintaqmlı cümlədir. Sintaqmlar bir-birindən sintaqm sərhədini bildirən fasilə (/) ilə ayrılır. Cümlənin sonunda böyük fasilə işarəsi (//) qoyulur.
3. Fonetik sözə və heca tərkibinə görə. /Yağışdan sonra/külək əsdi// cümləsində iki sintaqm var: /Yağışdan sonra/külək əsdi//. Onları həm də fonetik söz hesab etmək olar. /Yağışdan sonra// parçasında /sonra/ enklitikdir, vurğulu sözə birləşərək bir fonetik söz yaradır. İng. d. /at‿the‿Uni´´versity/ fonetik sözündə isə /at the/ proklitikdir, vurğulu sözlə birləşib bir fonetik söz yaradır.
4. Leksem və morfem tərkibinə görə. Azərb. d. /sonra, -dan, -di/ morfemləri sinsemantik, /yağış, külək-, əs-/ isə avtosemantik morfemlərdir. Leksem tərkibinə gəlincə isə deməliyik ki, burada 4 leksem var, /yağışdan/, /külək/, /əsdi/ avtosemantik, /sonra/ isə sinsemantik leksemlərdir.
5. Fonem tərkibə görə. Məs.: Azərb. d. /ja´´´ɣıʃ jaɣdı// cümləsində 10 fonem realizə olunaraq bir-birinin dalınca gəlib, onlardan 4-ü sait, 6-sı isə samitdir. Həmin fonemlərdən /j/, /a/, /ɣ/, /ı/ iki dəfə, o biriləri isə bir dəfə realizə olunub.
6. Variant tərkibinə görə: Yuxarıdakı misalda /j/, /a/, /ɣ/, /ı/ fonemləri iki variantda, /ʃ/, /d/ isə bircə variantda çıxış edirlər.
7. Cümlədə realizə olunmuş hər bir fonemin geniş akustik, artikulyator və distributiv təhlili aparılmalıdır. Məs.: /ʃ/ samiti kar, novlu, ikifokuslu, fışıltılı samitdir. Əmələ gəlməsində dilin qabaq hissəsi fəaldır. Distributiv məhdudiyyəti yoxdur və s.

downloaded from KitabYurdu.org

F.Yadigar (Veysəlli). German dilçiliyinə giriş. Bakı, 2003; F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005; A.A.Gleason. An Introduction to Descriptive Linguistics. London, 1970.

АНАЛИЗИРОВАТЬ - alm. analysieren, ing. to analyse /tu:ˈan(ə)l∧ɪz/, fr. analyser, azərb. analiz etmək, təhlil etmək. - Məs.: Azərb. d. /O müəl'"⊥mdır// cümləsi bitkinlik intonasiyası ilə tələffüz olunur və s. /He is a teacher// cümləsində /he/ /mübtəda/, /is a teacher/ xəbərdir, özü də ismi xəbərdir.

Bax: Анализ ←.

АНАЛИТИЧЕСКАЯ ФОРМА - alm. analytische Form (f), ing. analytical form /ˌ5nəˈlɪtɪkəl fɔ:m/, periphrastic /perɪˈfræstɪk/, fr. forme analitique, azərb. analitik forma. - 1. Tam mənalı sözlə köməkçi sözün birləşməsindən ibarət birləşmə. Məs.: Azərb. d. /dinləmək/ əvəzinə /qulaq asmaq/, /danışmaq/ əvəzinə /dil açmaq/ və s.;

2. Hər hansı qrammatik mənanın verilməsində əsas sözün köməkçi sözlə birləşməsindən ibarət qrammatik forma. Məs.: Azərb. d. /ən gözəl/, /daha gözəl/, /gərək gedəm/; alm. d. /Ich werde lesen/; ing. d. /I shall write/ və s.;

3. Analitik cümlə məntiqi cəhətdən hər zaman, hər yerdə düzgün cümlədir. Ondakı fikrin gerçəkliyini yoxlamağa ehtiyac qalmır. Məs.: alm. d. /Es regnet// (Yağış yağır) ya da /Es regnet nicht// (Yağış yağmır). Digər tərəfdən, geniş mənada analitik cümlələr elə cümlələrdir ki, onların düzgünlüyü sintaktik strukturdan və onlardakı dil ünsürlərinin mənasından asılıdır. Məs.: alm. d. /Geschwister sind miteinander verwandt// (Bacı qardaş qohumdurlar).

А.А.Реформатский. Göstərilən əsər, s. 300; H.Bußmann. Yenə orada, s. 81.

АНАЛИТИЧЕСКИЕ ЯЗЫКИ - alm. analytische Sprachen (Pl.), ing. analytic(al) languages /ˌænəˈlɪtɪk(əl) ˈlæŋgwɪʤɪz/, fr. langues analitiques, azərb. analitik dillər. - Müxtəlif qrammatik əlaqələri ifadə etmək üçün söz sırasından, köməkçi sözlərdən, intonasiya vasitələrindən, əvəzliklərdən və s. istifadə edən dillər. Məs.: fr., ing., alm. dilləri (Azərbaycan dilində analitizm ünsürləri olsa da, bu dil tam analitik dillərdən deyil) analitik dillərdəndir. Məs.: alm. d. /Er hat gelesen//; ing. d. /She has written// və s.

Bax: Аморфные языки ←.

АНАЛОГ - alm. analog, ing. analogue /ˈ5nəlɔg/, fr. analogie, analogon, azərb. analoq, oxşar. – 1) Bir dildəkı sözün digər dildəki sözə (lə) semantik, etimoloji, morfoloji uyğunluğu. Məs.: ing. d. – influence; alm. Einfluß və s.; 2) İnformasiyada təsvir olunanla təmsilçi arasında oxşarlıq. Bu xüsusilə canlı dillərin öyrənilməsində mühüm rol oynayır. Bu zaman təsvir olunanla real səslənən formalar arasındakı oxşarlığın üzə çıxarılması nəzəriyyənin adekvat olduğunu göstərir.

downloaded from KitabYurdu.org

H.Bußmann. Göstərilən əsər, s. 78.

АНАЛОГИСТЫ - alm. Analogisten (Pl.), ing. analogists /ˌ5nəl6ɡ9sts/, fr. les analogistes, azərb. analogistlər. – Klassik yunan filologiyasının nümayəndələri. Onlar dilin prinsipial olaraq məntiqi və bu səbəbdən də nizamlı və sistemli paradiqmlərdə təsvirini mümkün hesab edirdilər. Analogistlər daha çox bədii ədəbiyyatın, tarixən onlara qəlib çatmış mətnlərin tənqidi təhlililə məşğul olurdular. Bu mətnlərin bərpası qrammatikadakı qanunauyğunluqlarla mümkün hesab edilirdi.
F.Yadigar (Veysəlli). GDG. 2003, s. 20.

АНАЛОГИЧЕСКИЙ - alm. analogisch, ing. analogical /ˌænəˈlɔʤɪkəl/, fr. analogique, azərb. analoji. – Eyni və ya oxşar üsulla əmələ gələn sözlər və onların formaları. Məs.: alm. d. /'vant - vˈɛndə/, /ˈhant - ˈhɛndə/; ing. d. /boɪ-boɪs/, /qɛ: l/ - /qɛ: ls/ və s.
F.Yadigar (Veysəlli). GDG, s.19.

АНАЛОГИЧНЫЙ - alm. analog, gleichartig, ing. analogous (to) /əˈnæləɡəs/tu/, fr. analogue, azərb. oxşayan, oxşar, bənzər, analoji.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 18.

АНАЛОГИЯ - alm. Analogie (f), Angleichung (f), ing. analogy /əˌnæləʤɪ/, fr. analogie, azərb. analogiya, oxşayış, bənzəyiş. - Konseptual cəhətdən əlaqəli olan vahidlərin oxşar və eyni (fonetik cəhətdən) olmasını təmin edən dil dəyişikliyi. Beləliklə, sadələşmə, qənaətə can atma və dil öyrənməni asanlaşdıran nəticədir. Gənc grammatiklərin mühüm təhlil prinsipindən biri olan analogiya dildə az işlənən formaların çox işlənənlərlə tarazlıq yaratması, sözün hal və təsrif paradiqmində fərqlərin aradan qalxması və bununla da istisnaları istisnasız olaraq izah etmək kimi başa düşülür. Analogiyanın əsas növləri bunlardır: a) morfoloji paradiqm daxilində morfofonemik əvəzlənmələrin reduksiyası nəticəsində funksional baxımdan bir formada işlənməsi. Məs.: /choose/ (seçmək) feli qədim ing. d. /c*l*osan - c*l*as – curon – (ge) coren/ idi, sonra o dəyişərək müasir ingilis dilində belə forma aldı: /choose - chose - chose – chosen/. Burada həm samit, həm də sait dəyişikliyi baş verdi, ancaq əsas odur ki, zaman formasının ifadəsi yenə də söz kökündəki sait əvəzlənməsilə həyata keçir; b) proporsional A (buna anoloji genişlənmə də deyirlər). Müəyyən məhsuldar qayda ümumiləşərək aşağıdakı «eyniləşmə modeli» üzrə yeni formalara yayılır: A: A = B:X. Məs.: tarixən /cow/ (inək) sözünün cəmi /kine/ idi, ancaq sonralar bu söz indiki cəm formasını bu model üzrə qəbul etdi: /stone: stone-s/ = /cow:X/ (=cow-s). P.A. orfoqrafiyaya təsir edərək yeni sözlərin bu cərgəyə keçməsinə səbəb olub. Məs.: orta dövr alman dilində «ie» yeni dövr alman dilində uzunluğun ifadəçisi kimi çıxış edir. Məs.: «lieb» /liap/ (istəkli), indi isə «lieb» /li:p/. Bu, analoji olaraq tarixən diftonqu

downloaded from KitabYurdu.org

olmayan «Wise» sözünün də tərkibində uzunluğun ifadəsinə xidmət edir. Müq. et: «lieb» /´li:p/ = «Wiese» /´*vi:zə/. P.A.-nı biz sözdüzəltmədə də görürük. Məs.: alm. d. /berlinern/ (berlinləşmək) sözünə analoji olaraq «genschern» «genşernləşmək» (keçmiş xarici işlər naziri H.D.Genşerin adından götürülüb.

TQ-da A. sadələşmə baxımdan universal prosesin xüsusi halı kimi başa düşülür. Bununla mürəkkəb qaydalardan bir çoxları hasil olur ki, onların funksiyası sadələşmə mənasında yalnız birini qəbul edir.

A. materiya baxımdan formal və maddi ola bilər. Məs.: alm. d. «nachts» (gecələr) sözünə rəğmən «tags» (gündüzlər), müxtəlif formaların bir formada işlənməsi. Məs.: alm. d. /binden-band-gebunden/ (bağlamaq) formalarında /wir bunden/ əvəzinə /wir banden/ kimi işlənir, çünki /ich band/ işlənir. Sintaktik səviyyədə də A-ya rast gəlmək olur. Məs.: alm. d. /Ich schenke dir das Buch// (mən kitabı sənə bağışlayıram) modelinə uyğun olaraq /Ich verehre dir (halbuki dich olmalıdır) das Buch// (mən sənə kitab verirəm). Analogiyaya sözdüzəltmədə də təsadüf edilir. Məs.: alm. d. «Bibliothek» modelinə rəğmən «Diskothek, Phonothek» sözləri yaranır.

H.Bußmann. Göstərilən əsər, s. 79-80; R.Conrad. Göstərilən əsər, s. 33.

АНАЛОГОВАЯ КОММУНИКАЦИЯ - alm. analoge Komminikation (f), ing. analogous communication /ə′n5ləgəs kəˌmju:nı′keıʃ(ə)n/, fr. communication d'analogue, azərb. analoqlu ünsiyyət. – Sözsüz, bədən hərəkətlərinə və işarələr dilinə əsaslanan ünsiyyət, bu da siqnal ilə referent arasındakı oxşarlığa söykənir. O, insan əlaqələrinin şərhinə xidmət edir, fərqlə, ancaq situasiya ilə bağlı semantikaya malikdir, özü də tez-tez çoxmənalı kimi açıqlana bilir. Məs.: Azərb. d. /gülmək/, /ağlamaq/ və s. Analoqlu ünsiyyət morfoloji elementləri və sintaktik əlaqələri (inkar, bağlayıcı), zaman göstəriciləri olmadığı üçün onun digital kommunikasiyaya çevrilməsi çətindir.

H.Bußmann. Göstərilən əsər, s. 78.

АНАПЕСТ – alm. Anapäst (m), ing. anapaest /′5nəpi:st/, fr. anapeste, azər. anapest. – Qədim şer növü, iki vurğusuz (enən tonlu) və bir vurğulu (qalxan tonlu) hecadan ibarət söz. Məs.: alm. d. /Diamant - vv´ -/.

R.Conrad. Göstərilən əsər, s. 33.

АНАПТИКСИС - alm. Anaptyxis (n), Vokalentfaltung (f), ing. anaptyxis /ɑnəp′tıksıs/, fr. anaptyxe, azərb. anaptiksis. - Müəyyən fonetik şəraitin təsiri nəticəsində tələffüzün anlaşmasından ötrü iki samitin arasına saitin əlavə olunması. Məs.: Azərb. d. /şpris-şpiris, Hüseyn-Hüseyin/ və s.

O.C.Ахманова. Göstərilən əsər, s. 46.

АНАРТРИЯ (ДИЗАРТРИЯ) - alm. Anarthrie (f), (Dysarthrie) (f), ing. anarthry (dysarthria) /ə′nɑ:4rı/, fr. anarthrie, azərb. anartriya. - Səsləri tələffüz edə bilmək qabiliyyətini itirməkdən yaranan nitq pozuntusu.

O.C.Ахманова. Göstərilən əsər, s. 47.

downloaded from KitabYurdu.org

АНАСТРОФА (ОБРАТНАЯ ПЕРЕСТАНОВКА) - alm. Anastrophe (f), ing. anastrophe /ə'nastrəfi/, fr. anastrophe (transposition de retour), azərb. əks düzüm. - Sintaktik birləşməni təşkil edən sözlərin əks sıra ilə düzümü. Məs.: Azərb. d. /Altdan geyinib, üstdən qıfıllandı, üstdən geyinib, altdan qıfıllandı // Anastrof folklor dilində və klassik şerimizdə geniş yayılmışdır.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 18.
АНАТОЛИЙСКИЙ ЯЗЫК – alm. Anatolisch (n), ing. Anatol(ian) language /anə'tə-l(ıən) 'l5ŋgwıʤ/, fr. langue anatolaise, azərb. anatol dili. – Kiçik Asiyada ölüb getmiş dil. Hind-Avropa mənşəli bu dil het, lur, lüd, lük dillərinə qohum olub. Onlardan ən çox tanınmışı ölü dil olan het dilidir.
H.Bußmann. Göstərilən əsər, s. 83.
АНАФОРА (ОТНОСИТЕЛЬНЫЙ ДЕЙКСИС) - alm. Anapher (f), Anaphora (f), ing. anaphor /ə'n5f6rə/, fr. anaphore, azərb. anafora. – Eyni sözün və ya söz qrupunun bir neçə ardıcıl gələn, paralel düzələn sözlərin, söz qruplarının əvvəlində təkrarı. Müvazi nitq parçalarında (söz, söz birləşməsi, cümlə) ilk ünsürlərin (səs, səs birləşməşi, söz, söz birləşməşi, cümlə) təkrarı. Məs.:

Mən düşmənəm sizin qan içində üzən təxtü-tacınıza!
Mən düşmənəm sizin insan əti yeyən ikibaşlı qartalınıza!
Mən düşmənəm sizin süngü və pulemyot üstündə duran hökmranlığınıza!
Mən düşmənəm sizin ikiüzlü qanlı məhkəmələrininzə! (C.Cabbarlı).

Dildə fonetik, leksik və sintaktik anafora fərqləndirilir. Leksik anafora: Məs.: Azərb. d. /Cəmil bir kitab oxudu//, /O, (kitab) Cəmilin xoşuna gəldi//. Fonetik anafora: Məs.: Azərb. d.

/Car çəkir çarxların çaxnaşıq səsi,
Car çəkir, qışqırır nəhəng motorlar…// (S.Vurğun)

Sintaktik anafora: Məs.: Azərb. d. /Cəmil Moskvayaʖ gedəcək// → ¿Cəmil dəʖ// və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 18.
АНАФОРИЧЕСКИЙ - alm. anaphorisch, ing. anaphoric /5nə'four9k/, fr. anaphorique, azərb. anaforik. - İrəlidəki söz və ya sözləri göstərən, əvvəlcə deyilənə istiqamətlənən. Şerin və sintaktik strukturların əvvəlində gələn təkrarlar ekspressivliyi artırmağa xidmət edir. Buna epifer deyirlər.
R.Conrad. Göstərilən əsər, s. 33.
АНГЛИЙСКИЙ ЯЗЫК – alm. Englisch (n), ing. English language /'ıŋglıʃ 'læŋgwıʤ/, fr. l'anglais, langue anglaise, azərb. ingilis dili. – German dilləri ailəsinə daxildir. Böyük Britaniya, Kanada, İrlandiya, Şimali Amerika, Avstraliya, Yeni Zelandiya və bir sıra Asiya və Afrika

downloaded from KitabYurdu.org

ölkələrində yayılmışdır. Böyük Britaniya krallığının, Kanadanın, Amerikanın, Avstraliyanın, Yeni Zelandiyanın və İrlandiyanın dövlət dili statusuna malikdir. İngilis dilinin tarixinə dair bilgilər budur ki, adada ilk əvvəl V-VI əsrlərdə yutlar, saksonlar və anqellər yaşayıb. 597-ci ildə S.T.Avqustun gəlişi və İngiltərənin latınlardan xristianlığı qəbul etməsi bu ölkənin sonrakı taleyində mühüm rol oynayıb. III əsr ingilis ədəbiyyatı üçdilli olub (ingilis, latın (əsasən kilsə) və fransız). 1362-ci il oktyabrında parlament iclası öz işinə ingiliscə başladı.
Qədim ingilis dili qeyri-flektiv dil idi, amma yunan, latın və qot dillərində olduğu kimi də qeyri-flektiv deyildi. O, hind-Avropa sintetizmindən müasir ingilis dilindəki analitizmə doğru inkişaf etdi. Söz sırası müasir alman dilindəkinə bənzəyir, amma əvvəl elə bir ciddi qayda olmayıb. O, müəyyən modellərə uyğun gəlir, xüsusilə, tabeli cümlələrdə. Amma buna baxmayaraq mübtəda və xəbər baş cümlədə sərbəst şəkildə yerini dəyişə bilər. Yeni dövrdə ümumi ingilis dili (Standard English) və ədəbi tələffüz norması məşhur anqlist A.İ.Smirnitskinin (1903-1954) təbirincə desək, London yazılı dil variantı əsasında təşəkkül tapdı.
F.Yadigar (Veysəlli). GDG, s. 121-127; P.H.Matthews. Göstərilən əsər. s.114-115; А.И.Смирницкий. Древнеанглийский язык. М., 1955; А.И.Смирницкий. Лексикология английского языка. М., 1956; И.Р.Гальперин. Очерки по стилистике английского языка. М., 1958; В.Н.Ярцева. Историческая морфология английского языка. М.-Л., 1960; Исторический синтаксис английского языка. М.- Л., 1961.

АНГЛИЦИЗМ - alm. Anglizismus (m), ing. anglicism /ˈɪŋglɪsɪzm/, fr. anglicisme, azərb. anqlisizm. - İngilis dilindən alınmış və tam mənimsənilməmiş söz və ya ifadə. Məs.: alm. d. /Hobby, Job, okey/, rus d. /авторалли, сервис, продюссер/ və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 47; R.Conrad. Göstərilən əsər, s. 34.

АНГЛОНОРМАНСКИЙ ЯЗЫК – alm. Anglonormanisch (n), ing. Anglo-Norman language /əŋgləʊ–ˈnɔːmən ˈlɪŋgwɪʤ/, fr. langue anglo-normande, azərb. anqlonorman dili. – 1066-cı ildə normanların İngiltərənin istilası ilə yaranan şimali fransız dialekti. XIV əsrin ortalarına qədər İngiltərənin rəsmi dili olmuşdur. Geniş xalq kütlələri isə həmişə yerli ingilis dialektlərində danışırdı.
R.Conrad. Göstərilən əsər, s. 34.

АНГЛОФРАНЦУЗСКИЙ ЯЗЫК – alm. Anglofranzösisch (n), ing. Anglofrench language /əŋgləʊˈfrɛn(ʧ) ˈlɪŋgwɪʤ/, fr. langue anglo-française, azərb. anqlofransız dili.
Bax: Англонорманский ←.

АНГЛОФРИЗСКИЙ ЯЗЫК – alm. Anglofrisisch (n), ing. Anglo-Frisian language /əŋgləʊˈfrɪzɪən ˈlɪŋgwɪʤ/, fr. langue anglofriez, azərb. anqlofriz dili. – Qohum ingilis və friz dillərinin ümumiləşdirilmiş adı.

downloaded from KitabYurdu.org

R.Conrad. Göstərilən əsər, s. 34.

АНДАМАНСКИЕ ЯЗЫКИ - alm. Andamanisch (n), ing. Andaman(ish) languages /ˈandəmən(ɪʃ) ˈlɔŋɡwɪʤɪz/, fr. langues andamanes, azərb. andaman dilləri. – Andaman adalarında yaşayan yerli əhalinin dilləri ailəsi. Daşıyıcılarının sayı təqribən 1000 nəfərdir. Yazısı olmayan dillərdir. Andaman dilləri aqqülitinativ quruluşludurlar.

G.F.Meier, B.Meier. Handbuch der Linguistik und Kommunikationswissenschaft. Berlin, 1979.

АНДАЛУЗИЙСКИЙ ЯЗЫК – Bax: Испанский язык →.

АНДИЙСКИЙ ЯЗЫК – alm. Andisch (n), ing. Andish language /ˈəndɪʃ ˈlɔŋɡwɪʤ/, fr. langue andine, azərb. andi dili. – Avar-andi dillərindən biridir. Dağıstan Respublikasının Botlix rayonunun bir neçə aulunda yayılmışdır. 10 mindən bir qədər artıq daşıyıcısı var. İki ləhcəsi var: yuxarı andiy (andi, qaqatlı, rikvani, zilo) və aşağı andiy (muni, kvanxidatli).

И.Церцвадзе. Андийский язык. Тбилиси, 1965.

АНДСКИЙ ЯЗЫК – alm. Andisch (n), ing. andean language /ˈ5ndi:ən/ ˈlɔŋɡwɪʤ/, fr. langue andine, azərb. and dili. – Cənubi Amerikada təxminən 20 dili birləşdirən andi-ekvator dil qrupu. Ən mühim dillər keçua (7 milyon) və aymara (2,5 milyon) dilləridir. Peru və Braziliyada danışılır. Bundan başqa arakuan dili də (Çilidə 0,7 milyon adam danışır) bu dil qrupuna aiddir.

H.Bußmann. Göstərilən əsər, s 83.

АНДРОНИМ - alm. Andronymikon (m), ing. andronymic /5nˈdr6n9m9k/, fr. andronymie, azərb. andronim. - Qadınların ər adı və ya ləqəbi ilə adlandırılması. Məs.: alm. d. /Herr İvanov//, /Frau İvanova// və s.

M.İ.Adilov və b. Göstərilən əsər, s. 19.

АННАМИНЗСКИЙ ЯЗЫК – Bax: Вьетнамский →.

АНЛАУТ - alm. Anlaut (m), ing. anlaut /ˈanlaʊt/, fr. anlaute, azərb. anlaut. - Söz, heca və ya morfemin mütləq başlanğıcı. Azərb. d. /ɣ/ anlautda gələ bilmir. İng. və alm. d. /ŋ/ anlautda işlənmir və s.

F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989.

АННОМИНАЦИЯ - alm. Annomination (f), ing. annomination /5nˌnɔmɪneɪʃn/, fr. annomination, azərb. annominasiya. - Danışıqda eyni cür səslənən morfem tərkibilə üst-üstə düşən sözlərin işlədilməsindən əmələ gələn ifadələr. Alliterasiya nəticəsində belə ifadələr komik keyfiyyətlər kəsb edir. Belə ifadələrin fonetik və semantik (məna) oxşarlığı üslubi məqsədlərlə istifadə olunur. Məs.: Azərb. d. /Papaqçının papağı olmaz/; alm. d. /Ist das ein Arbeiter, der nicht arbeiten kann// (Bu o fəhlədir ki, işləmək istəmir) və s.

downloaded from KitabYurdu.org

Bax: «Парехеза», «Парномазия», «Полиптот» →.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 19.

АНОМАЛИСТЫ - alm. Anomalisten (Pl.), ing. anomolists /ə'n6məl9sts/, fr. les anomalistes, azərb. anomalistlər. - Klassik filologiyada anologistlərlə zidd mövqedə duran və onlardan fərqli olaraq ifadə elementlərilə məna elementlərini, məna və ifadələrin uyğunluğunu, müvafiqliyini inkar edən cərəyanın nümayəndələri. Anomalistlər iddia edirdilər ki, dil razılaşmadırsa, onda sapmalar olmamalıdır, olsa da düzəldilmədir.
F.Yadigar (Veysəlli). GDG, Bakı, 2003, s.20.

АНОМАЛИЯ - alm. Anomalie (f), ing. anomaly /ə'nɔməlı/, fr. anomalie, azərb. anomaliya, qeyri-adilik. - Ümumi sxemdən, standart normadan yayınma. Ümumiyyətlə, anomaliya dildə səhv, nöqsan deyil, sadəcə, fərdi, müntəzəm işlənməyən ifadə tərzidir. Dildə qaydadan kənara çıxan hallardır. Məs.: ing. d. /child-children, good-better/ və s.
F.Yadigar (Veysəlli). GDG, Bakı, 2003, s. 20.

АНОМАЛЬНЫЙ ГЛАСНЫЙ - alm. anomaler, unregelmäßiger Vokal (m), ing. abnormal vowel /æb'nɔ:məl 'vaʊ(ə)l/, anomalous vowel /ə'nɔmələs 'vau|ə|l/, fr. voyelle anomale, azərb. qeyri-adi sait. - Orta sıra saiti, dilin ümumi fonoloji sistemindən kənarda qalan, öz spesifikliyi ilə xarakterizə olunan, məhdud işlək dairəsinə malik sait (səs). Məs.: Azərb. d. /ɪ/ belə sait hesab edilə bilər. Anlautda gəlmir, məhdud işlənmə xüsusiyyətinə malikdir.
F.Yadigar (Veysəlli). GDG, Bakı, 2003, s. 20.

АНТЕВОКАЛЬНЫЙ - alm. prävokaler Laut (m), ing. prevocalic /'prevəʊ'kæl9k/, fr. antévocal, azərb. antevokal. - Saitdən əvvəl yerləşən, saitdən əvvəlki mövqedə gələn. Məs.: Azərb. d. /fəal/, /aeroplan/, /aeroport/, /müəyyən/ və s. Əslində bu sözlərin əksəriyyəti alınma sözlərdir.
O.C.Ахманова. Göstərilən əsər, s. 48.

АНТЕПЕНИЛЬТИМ - alm. Antepänultima (f), ing. antepenultim /'æntıpı'n∧ltım/, fr. antépénultième, azərb. antepenultim. - Vurğuya və fonetik proseslərə görə xüsusi mövqe kimi qeyd olunan, axırıncıdan (sonuncudan) əvvəlki ikinci heca. Axırıncıdan əvvəl ikinci heca həmişə vurğulu olduğundan bu hecanın qarşısındakı heca vurğusuz olur. Məs.: polyak dilində /armia Pols*ke*qo/. Ancaq ing. d. /h´appily/ sözündə sondan üçüncü heca vurğuludur.
P.H.Matthews. Göstərilən əsər, s. 19; F.Vejsalov. Lehrbuch der deutschen Phonetik, Baku, 1989.

АНТЕЦЕДЕНТНЫЙ - alm. antezedent, ing. antecedent /ˌ5tı'si:d(ə)nt/, fr. antécédent, azərb. antesedent. – 1) Formal məntiqdə söyləmlər sıra-

downloaded from KitabYurdu.org

sında əvvəlinci söyləm; 2) Dilçilikdə anafora ilə bağlı ifadə. Məs.: alm. d. /Hans, der den fremden Mann zuerst sah…// Burada /Hans/, /der/ nisbi əvəzliyinə anaforadır.
H.Bußmann. Göstərilən əsər, s. 86.

АНТЕЦЕДЕНТ (ПРЕДЫДУЩИЙ ЧЛЕН) - alm. Antezedent (m), ing. antecedent /ˌæntɪˈsi:d(ə)nt/, fr. antécédent, azərb. antesedent. - Söz, söz birləşməsi və cümlə tərkibində nizamla, sıra ilə gələn komponentlərdən (üzvlərdən) əvvəlincisidir ki, buna müvafiq olaraq sonrakı komponent işarə edir. Məs.: Azərb. d. /O yenicə danışmağa başlamışdı ki, Rəhim içəri girdi// və ya /Harada dedilər, orada otur// və s.
Bax: Анафора ←.
O.C.Ахманова. Göstərilən əsər, s. 48.

АНТИКАДАНС - alm. Antikadenz (f), ing. anticadence /ænt9ˈkædəns/, fr. anticadence, azərb. antikadans. – Danışıq aktında arakəsmələr zamanı intonasiyanın bütövlüyünü qorumaqdan ötrü tələffüz enerjisinin gücləndirilməsi. Məs.: diktə zamanı uzatmalar, cümlədə terminal sintaqmdan əvvəlki sintaqmların qeyri-bitkin (proqridient) intonasiya ilə deyilməsi. Müq. et: /İki gün bundan əvvəl/ başlayan yağış/ nəhayət ki, dayandı//.
Ф.Вейсалов. Завершающая интонация в современном немецком языке (Экспериментально-фонетическое исследование). Автореф. канд. дисс., Л., 1970.

АНТИКАДЕНЦИЯ - alm. Antikadenz (f), ing. anticadence /ænt9ˈkædəns/, fr. anticadence, azərb. antikadensiya. - Cümlənin sonuncudan əvvəlki sintaqmlarında intonasiya konturunun bir hissəsi.
Ф.Вейсалов. Завершающая интонация в современном немецком языке (Экспериментально-фонетическое исследование). Автореф. канд. дисс., Л., 1970.

АНТИКЛИМАКС (НИСХОДЯЩАЯ ГРАДАЦИЯ) - alm. Antiklimax (f), ing. anticlimax /ˈæntɪˈklaɪmæks/, descending gradation /dɪˈsendɪŋ grəˈdeɪʃ(ə)n/, fr. anticlimaxe (gradation descendante), azərb. antiklimaks. – 1) Söz, söyləm və qısa cümlələrin bağlayıcısız düzümü. Onların düzümü semantik cəhətdən müəyyən edilir; 2) Azalan antiklimaks. Sadalanan elementlər pillə-pillə mənaca azalır. Məs.: Azərb. d. /Əziz professorlar, dosentlər, həmkarlar, tələbələr və qonaqlar//; 3) Artan silsilə ilə yaranan klimakslara misal: /hər dəqiqə, hər saat, hər gün, hər həftə, hər ay/; 4) Klimaksın vasitəsilə əldə edilən ritorik effekt birdən aşağı üsluba keçə bilər. Məs.: Azərb. d. /Onun əzəməti, şərəfli əmək yolu, onun yaratdığı əsərlər/ ancaq ömrünün sonunda onun gözləri kor oldu//.
O.C.Ахманова. Göstərilən əsər, s. 48.

АНТИМЕНТАЛИЗМ - alm. Antimentalismus (m), ing. antimentalism /ˈant9ment5l9zm/, fr. antimentalisme, azərb. antimentalizm. - Bilavasitə

downloaded from KitabYurdu.org

danışıq aktında işlənən dil vahidlərini dilçilik obyekti hesab edən və dəqiq təbiətşünaslıq metodlarının tətbiqi və davranış psixologiyası baxımından şərh edən cərəyan. L.Blumfildin əsasını qoyduğu bu cərəyan introspeksiya ilə hər cür formaya, müşahidə olunan dil faktlarının istisnasız məhdudlaşmasına və məna komponentinin «stimul-reaksiya» mexanizminə söykənir. Həm də bu cərəyan Amerika strukturalizmin əsasını qoymuşdur.

Л.Блумфильд. Язык. М., 1968.

АНТИТЕЗА (АНТИТЕЗНЫЕ ПРОТИВОПОСТАВЛЕНИЯ) - alm. Antithese (f), ing. antithesis /5nˈtı4ısıs/, contraposition /ˌkɔntrəpəˈzıʃ(ə)n/, fr. antithèse, azərb. antiteza (əkslik, ziddlik, təzad). – Semantik təkrardan düzələn ritorik fiqur. Əksər hallarda kütlənin diqqətini cəlb etməyə yönəlir. Reklamda, siyasi diskussiyalarda tez-tez işlənir. Məs.: Azərb. d. /Bizə sosializm yox, sülh lazımdır//; /Bu qənd tozu nəinki təmizdir, həm də şirindir//; ing. d. /It wasn't me// (Bu mən deyildim); /It was you// (Bu sən idin).

H.Bußmann. Göstərilən əsər, s 87.

АНТИНОМИИ ГРАММАТИЧЕСКОЙ СТРУКТУРЫ - alm. Antinomie der grammatischen Struktur (f), ing. antinomy of the grammatical structure /5nˈtınəmı əv ðə ɡrəːˈm5tıkəl str∧kʧə/, fr. antinomies dans la structure grammaticale, azərb. grammatik quruluşun antinomiyası. - Eyni bir əşyanı adlandıran iki sözə məxsus elə bir xüsusiyyətdir ki, həmin sözlərdən biri adlandırdığı əşyanın bəzi xüsusiyyətlərini əks etdirdiyi halda, başqası bu xüsusiyyətdən məhrumdur və bunun nəticəsində meydana gələn hadisə dilçilikdə korrelativ qrammatik formaların asimmetriyası adlanır. Məs.: rus d. /теленок/ həm erkəyi, həm də dişini ifadə edə bilər. Eləcə də Azərb. d. /müəllim/ həm kişiyə, həm də qadına şamil edilə bilər.

O.C.Ахманова. Göstərilən əsər, s. 49.

АНТИФРАЗИС - alm. Antiphräsis (f), Gegensinn (m), ing. antiphrasis /anˈtıfrəsıs/, fr. antiphrase, azərb. antifrazis. – 1) Bax: Эвфемизм →; 2) İntonasiya ilə əlaqədar sözün əks mənada işlədilməsi. Məs.: Azərb. d. /Ay zalım! Gözəl danışır! (Əslində danışığın gözəl olmadığını bildirmək üçün). Hə, vur görüm!/ Batır özünü toza-torpağa! və s.; 3) Sözün öz mənasına əks mənada işlədilməsindən ibarət məcaz növü. Məs.: Azərb. d. /Gözəlçə/ («çirkin əməl sahibi» mənasında).

M.İ.Adilov və b. Göstərilən əsər, s. 20.

АНТИЦИПАЦИЯ - alm. Antizipation (f), ing. anticipation /5nˌtısıˈpeıʃ(ə)n/, fr. anticipation, azərb. antisipasiya. – Sonra gələn hecanın səsinin qabağa çəkilməsi. Məs.: fr. d. /tresor < lat. theasurus/; 2) Əvvəldə gələn elementlə əlaqəsi olan. Məs.: ing. d. /It was a dark night//

downloaded from KitabYurdu.org

(Qaranlıq bir gecə idi) və ya /There is nobody in the room// (Otaqda heç kim yox idi). Bu cümlələrdə «it» və «there» antisipasiya elementləridir.
О.С.Ахманова. Göstərilən əsər, s. 50.

АНТИЦИПИРУЮЩИЙ – Bax: Антиципация ←.

АНТИЦИРКУМФЛЕКС - alm. Antizirkumflex (m), fallend-steigend, ing. falling-rising /ˈfɔ:lɪŋ ˈraɪzɪŋ/, fr. anticirconflexe, (descendant-ascendant), azərb. antisirkumfleks. – Enib-qalxan tonla ifadə edilən vurğu: /↘↗/.
Bax: Акцент ←.

АНТОНИМЫ - alm. Antonyme (Pl.), ing. antonyms /ˈ5ntəunɪms/, fr. antonymes, azərb. antonimlər. - Mənaca bir-birinə zidd sözlər; əks mənalı sözlər. Məs.: Azərb. d. /uzaq-yaxın/, /yaxşı-pis/, /gözəl-çirkin/, /almaq-satmaq/; alm. d. /breit-eng/ (enli-dar); ing. d. /high-low/ (yüksək-alçaq) və s.
E.Bulitta, H.Bulitta. Wörterbuch der Synonyme und Antonyme. Frankfurt, 1983.

АНТОНИМИЯ (АНТОНИМИКА) - alm. Antonymie (f), ing. antonymy /ˈ5ntənɪmɪ/, fr. antonymie, azərb. antonimiya. - Semantik əkslik, mənaca zidd olma, antonimlik.
Bax: Антонимы ←.

АНТОНОМАЗИЯ - alm. Antonomasie (f), ing. antonomasia /5ntənəˈmeɪzɪə/, fr. antonomase, azərb. antonomaziya. – 1) Metonimiya növlərindən biri kimi şəxs adının təsvirinin apelativumla əvəz edilməsi. Məs.: /Gott/ əvəzinə /der Allmächtige/ (əlahəzrət), /Rotbart/ (qırmızı-saqqal). Bu proses əks istiqamətdə də ola bilər. Məs.: /eine Odyssee/ ya /Kaiser Friedrich I/, /ewige Stadt/ (əbədi şəhər) = (Roma) və s. Fransız dilində konkret bir tülkünün adı /renard/ geniş yayılmış ümumi tülkü adı /qoupil/ (tülkü) sözünü sıxışdırıb aradan çıxardıb; 2) Müəyyən şəxsin adının təsviri şəkildə ifadə edilməsi. Məs.: /Tanrı/ əvəzinə /Yeri-göyü yaradan/, /Napoleon/ əvəzinə /Austerlitsanın qalibi/, /Vaterloonun məğlubu/ və s.; 3) Tarixdən, bədii ədəbiyyatdan və s. hamıya məlum olan xüsusi adların ümumi ad yerinə işlədilməsi. Məs.: Azərb. d. /Xəsis/ əvəzinə /Hacı Qara/, /fırıldaqçı/ əvəzinə /Şeyx Nəsrullah/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 20; H.Bußmann. Göstərilən əsər, s.87.

АНТРОПОЛОГИЧЕСКАЯ ЛИНГВИСТИКА - alm. anthropologische Linguistik (f), ing. anthropological linguistics /ˌ5nθrəˈp6lədʤ9kəl lɪŋˈɡwɪstɪks/, fr. linguistique anthropologique, azərb. antropoloji linqvistika. - Antropoloji xüsusiyyətləri öyrənməklə dili şərh edən dilçilik şöbəsi.
Лингвистический энциклопедический словарь. М., 1990, s. 36.

АНТРОПОНИМ – alm. Anthroponym (n), ing. anthroponymy /ˈ5nθrəpəʊnɪmɪ/, fr. anthroponyme, azərb. antroponim. – Müxtəlif şəxs

downloaded from KitabYurdu.org

adlarının məcmusunu bildirən termin olub, şəxsin öz adını, atasının adını, soyadını, ləqəb və təxəllüslərini, ayamalarını və s. əhatə edir. Məs.: Azərb. d. /Çırtapırt Hacı İbrahim/, /hap-hapı Zeynəb/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 21.

АНТРОПОНИМИКА - alm. Anthroponymie (f), ing. anthroponymic /ˈ5nθrəpəʊnımık/, study of personal names /ˈstʌdı əv ˈpɜ:snl neımz/, fr. anthroponymie, azərb. antroponimika. - Antroponimlərin əmələ gəlməsi qanunauyğunluqlarını, ad sistemində onların yerini, inkişafını, digər adlarla əlaqələrini öyrənən elm şöbəsi. Məs.: alm. d. /Adolf/ - /edler Wolf/ (nəcib qurd) birləşməsindən yaranıb.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 23.

АНТРОПОФОНИЧЕСКАЯ КЛАССИФИКАЦИЯ - alm. anthropophonische Klassifikation (f), ing. anthropophonic classification /ˈ5nθrəpəʊˈfəʊn9k ˌklæsıfıˈkeıʃən/, fr. classification antropophonique, azərb. antropofonik bölgü. - Dildə səslərin yaranması xüsusiyyətlərinə görə bölgüsü.
И.А.Бодуэн де Куртенэ. Избранные труды по общему языкознанию. М., ч. I, 1963.

АНТРОПОТОНИМ – alm. Anthropotonym (n), ing. anthropotonim /ˈ5nθrəpəʊˈtəʊnim/, fr. anthropotonime, azərb. antropotonim. – Antroponimdən düzələn toponim. Məs.: Azərb.d. /Nəsimi r./, /Cəlilabad r./ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 23.

АНТРОПОФОНИЧЕСКИЙ (АНАТОМО-МЕХАНИЧЕСКИЙ) - alm. anthropophonisch, ing. anthropophonic /ˈ5nθrəpəʊˌfəʊn9k/, fr. antropophonique, azərb. antropofonik. - Danışıq səslərinin fiziologiyasına aid olan xüsusiyyət.
F.Vejsälli. Einführung in die Phonologie. Baku, 2004.

АНУДАТТА - alm. Anudatta (f), ing. [sanskr. anudâtta] /əˈnjʊədat/, fr. anudâtta, azərb. anudatta. - Sanskrit dilində aşağı ton (udattanın əksinə olaraq).
О.С.Ахманова. Göstərilən əsər, s. 51.

АНУНАСИКА - alm. Anunasik (f), ing. [sanskr. anunâsika], fr. anunâsica, azərb. anunasika. - 1. Anusvarın variantı; 2. Anunasikanı göstərmək üçün istifadə olunan işarə.
Bax: Анусвара →.

АНУСВАРА – alm. Anusvara (f), ing. [sanskr. anusvâra], fr. anusvâra, azərb. anusvara. – 1) Saitin sonluğundakı əlavə burun səsi. Sonluğunda anusvara (əlavə burun səsi) olan saitlərə dilçilikdə adətən əlavə səslər kimi baxılır; 2) Yazıda anusvaranı göstərmək üçün işlədilən diakritik işarə.
О.С.Ахманова. Göstərilən əsər, s. 51.

АОРИСТ - alm. Aorist (m), ing. aorist /ˈɛərıst/, fr. aoriste, azərb. aorist – Bəzi dillərdə (hind-Avropa, yunan, qədim slavyan) felin keçmiş zaman

downloaded from KitabYurdu.org

formalarından biri. Yunan dilində hərəkətin zamanı göstərilmir, ona görə də keçmişdə baş verən hadisələrin nəql forması kimi tətbiq edilir. Qədim slavyan dilində isə ilkin olaraq hərəkətin ani zaman kəsiyində baş verdiyini, sonralar isə «Nə olub?» sualına cavabda işlənir. Rus d. tərz kateqoriyasının formalaşması ilə imperfekt və pluskvamperfekt kimi aorist də aradan çıxır. Əslində bu zaman forması tarixi perfekt, fr. d. passe simple - yə uyğun gəlir. Aoristin aşağıdakı növləri fərqləndirilir: 1) qnomik aorist. İbarələrdə və ifadələrdə işlənən forma, yəni konkret zaman şəklini bildirməyən forma; 2) inqressiv aorist (başlanğıcı bildərən zaman, inxoativ); 3) sadə aorist: Bu, şəkilçinin kökə birləşməsilə yaranan aoristdir. Məs.: qədim slavyan dilində /-s/ siqmatik şəkilçi buna xidmət edirdi. 4) terminativ aorist. Buna final, nəticəli və səmərəli aorist də deyirlər.
R.Conrad. Göstərilən əsər, s. 36; O.C.Ахманова. Göstərilən əsər, s. 51.

АПЕКС - alm. Apex (m), ing. apex /ˈeɪpəks/, fr. apex, azərb. dilin ucu. - 1. İng. d. bütün samitlər dilin ucunun fəallığı ilə tələffüz olunduğundan onlara apikal (dilucu) samitlər deyilir, Azərb. d. isə dilin kürəyi fəal olduğundan samitlər dilönü samitlər adlanır.
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005.

АПЕЛЛЯТИВ - alm. Appellativ (n), ing. appellative /əˈpelətɪv/, fr. appellatif,-ve azərb. apellativ. – Eyni cinsli hadisələrin (şəxs, heyvan, bitki, əşyaların), həmçinin onların ayrı-ayrı üzvlərinin adlarını bildirir. Ümumi isimlərin adları xüsusi isimlərinkindən fərqlənir. Məs.: alm. d. /die Frau/.
R.Conrad. Göstərilən əsər, s. 37.

АПЕЛЛЯТИВНОЕ ИМЯ - alm. Appellativname (m), ing. appellative name /əˈpelətɪv neɪm/, fr. appellatif, azərb. apellativ ad. - Xüsusi ad, xüsusi ad formasının ümumi ad kimi işlənməsi. Məs.: alm. d. /Trine → Katharina/ (axmaq qadın); /Mansarde ← XVII əsr fransız memarının adından/.
R.Conrad. Göstərilən əsər, s. 37.

АПИКАЛЬНЫЙ - alm. apikal, ing. apical /ˈ5pɪkəl/, fr. apical,-e, azərb. apikal.
Bax: Апекс ←.

АПОДОЗИС - alm. Apodosis (f), ing. apodosis /əˈpɔdəsɪs/, conseguense clause /ˈkɔnsɪkwəns klɔ:z/, fr. apodose, azərb. apodozis. - Mürəkkəb cümlənin ikinci /sonuncu/ hissəsi. Adətən, cümlənin birinci hissəsi protazis adlanır. Məs.: rus d. /Если бы он захотел/ он бы пришел//. Ümumiyyətlə, dilçilikdə apodozisi cümlənin əsasən intonasiyası ilə sıx bağlı olduğu kimi göstərirlər, yəni vahid temalı cümlələr intonasiya baxımından iki hissəyə bölünür: yuxarı ton (protazis), aşağı ton (apodozis). /◡̲ ◠̲/.
O.C.Ахманова. Göstərilən əsər, s.52.

downloaded from KitabYurdu.org

АПОКОЙНИЧЕСКАЯ КОНСТРУКЦИЯ - alm. apokoinische Konstruktion (f), ing. apokoinou construction /ˈapəʊˈkɔɪnu; ˈkɔɪnaʊ kənˈstr5kʃən/, fr. construction apocopée, azərb. apokoynik konstruksiya. – Bu cür konstruksiyalarda iki cümlənin bir ümumi üzvü olur ki, o da ikinci cümlədə, ya da qovuşuqda gəlir. O, həm əvvəldəki, həm də sonrakı cümləyə aid olur. Məs.: ing. d. /Thereʹ is a man wants you on the telephone // (O kişidir, telefonda sizi istəyir) cümləsində /thereʹs/ sözü (contact clauses) apokoyni kimi izah etmək olar, çünki o həm / thereʹs a man/, həm də /wants you on telephone/ tərkibinə aiddir.
K.Gärtner. Die Construction Apakoi bei W. von Eschenbach. 1969, s.121-159.

АПОКОПА (УСЕЧЕНИЕ) - alm. Apokope (f), ing. apocope /əˈpɔkəupɪ/, fr. apocope, azərb. apokopa, sözlərdə sonuncu hecanın və səslərinin düşməsi. - 1. Müəyyən aksent və fonoloji proseslər əsasında sözün son səsinin və ya səslərinin düşməsi ilə yaranan qısaltma; 2. İxtisar yolu ilə yeni sözlərin yaranması. Məs.: /taksi+motor > taksomotor/; /aero+plan > aeroplan/ və s.; 3. Kəsilmiş, ixtisar edilmiş. - Apokopaya (kəsikliyə) məruz qalmış, apokopanın nəticəsində yaranmış. Məs.: /metropoliten/ əvəzinə /metro/, /fotoqrafiya/ əvəzinə /foto/ və s. işlədilir.
K.B.Lindgren. Die Apokope des mittelhochdeutschen –e in seinen verschiedenen Funktionen. Helsinki, 1953.

АПОСИЕЗ – alm. Aposiäse (f), ing. aposies /əˈpɔsɪz/, fr. aposiese, azərb. aposiez. – Üslubi üsul, qısaltma, cümlənin gözlənilmədən nəzakət naminə kəsilməsi. Məs.: Azərb. d. /Sənin dediyin o vətən … mənim ağzımı açdırma//.
H.Bußmann. Göstərilən əsər, s 90.

АПОСТРОФ - alm. Apostroph (m), ing. apostrophe /əˈpɔstrəfɪ/, fr. apostrophe, azərb. apostrof. - Yazıda istifadə olunan hərfüstü işarə. Adətən, Azərb. d. kirilcə yazıda iki məqsədlə işlədilirdi: 1. Apostrof saitdən sonra, samitdən əvvəl qoyulmaqla həmin saitin uzun tələffüz olunmasını göstərir. Məs.: Azərb. d. /şe’r/, /şö’lə/ və s.; 2. Ərəb mənşəli sözlərdə apostrof samitdən sonra və saitdən əvvəl qoyulmaqla samiti saitdən ayırır və saitin aydın tələffüz olunmasına imkan yaradır. Məs.: Azərb. d. /sür’ət/, /cür’ət/, /Kən’an/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 24.

АПОФОНИЯ - alm. Apophonie (f), ing. apophony /əˈpɔfəni/, fr. apophonie, azərb. apofoniya. - Daxili fleksiya funksiyasını yerinə yetirən morfonoloji əvəzlənmə. Məs.: alm. d. /trinken-trank-getrunken/ (içmək); ing. d. /write-wrote-written/ (yazmaq).
Bax: Аблаут ←.

downloaded from KitabYurdu.org

АППАРАТ КРИТИЧЕСКИЙ - alm. kritische Analyse der Fachliteratur (f), ing. critical apparatus /ˈkrɪtɪkəl ˌ5pəˈreɪtəs/, fr. apparat critique, azərb. kritik aparat. - Mətnin kommentariyalı (izahlı) nəşrində qeyd və sitatların məcmusu.
O.C.Ахманова. Göstərilən əsər, s. 52.
АППАРАТ РЕЧЕВОЙ - alm. Sprechapparat (m), ing. vocal apparatus /ˈvoukəl ˌ5pəˈreɪtəs/, organs of speech /ˈɔːgənz əv ˈspiːʧ/, fr. organes de la parole, azərb. danışıq cihazı. - Danışıq üzvlərinin məcmusu, danışıq cihazı.



Danışıq cihazı:
1. Burun boşluğu; 2. Ağız boşluğu; 3. Udlaq; 4. Üst dodaq;
5. Alt dodaq; 6. Dil; 7. Üst dişlər; 8. Alt dişlər; 9. Sərt damaq;
10. Yumşaq damaq; 11. Damaq pərdəsi/dilçək; 12. Dilin ucu;
13. Dilönü; 14. Dilortası; 15. Dilarxası; 16. Dilin kökü;
17. Çalovabənzər vəz; 18. Üzüyəbənzər vəz;
19. Qalxanabənzər vəz; 20. Səs telləri; 21. Səs cığırı;
22. Udlaq; 23. Xirtdək borusunun qapağı.
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 319.
АППЕЛЯТИВНАЯ ФУНКЦИЯ – alm. Appellfunktion (f), ing. appellative function /əˈpɛlətɪv ˈfʌnŋkʃ(ə)n/, fr. fonction appellative, azərb. appelativ funksiya (müraciət). – K.Bülerin (1879-1963) dil nəzəriyyəsində üç funksiyadan biri, dinləyənə göndərilən işarə müəyyən müraciəti ehtiva edir. Məs.: Azərb. d. /Xanım, bunun sizə heç bir dəxli yoxdur//. K.Bühler öz əsərində bu funksiyaları müvafiq olaraq belə adlandırıb:

downloaded from KitabYurdu.org



K.Bühler. Sprachtheorie. Stuttgart, 1965; F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 175.

АППЛИКАТИВ - alm. Applikativ (m), ing. applicative /ˈaplıkətıv, -keıt/, fr. applicatif, azərb. applikativ. - Bəzi dillərdə (məs.: svahili dilində) qeyri-subyekt vasitəsiz tamamlığa çevrilir. Məs.: /Mama çlipika chakula kwa watoto// (Ana yeməyi uşaqlar üçün bişirdi), ancaq /Mama aliwapikia watoto chakula// (Ana uşaqlara yemək bişirdi). /Pika/ (bişirmək), /pikia/ isə (üçün bişirmək) deməkdir. Alm. d. /be/ ön şəkilçisi də applikativ rolunu oynayır. Məs.: alm. d. /Der Vater schenkt dem Sohn das Buch// (Ata oğluna kitab bağışladı), ancaq /Der Vater beschenkt dem Sohn mit einem Buch// (Ata oğlunu kitabla mükafatlandırdı).
H.Bußmann. Göstərilən əsər, s 91.

АППЛИКАЦИЯ - alm. Applikation (f), ing. application /aplıˈkeıʃ(ə)n/, fr. application, azərb. applikasiya. – Riyazi məntiqdən götürülmüş anlayış, dildə ifadələri təmsil edən simvolların törəməsi üçün formal əməliyyatları bildirir. Kateqorial qrammatikada hər cür forma A-ya söykənir. Məs.: x və y obyektin ümumi tipinin vahidlərini bildirirsə, onda x və y kombinasiyası obyekt tipinin vahididir.
H.Curry, R.Feys. Combinatory logic. Amsterdam, 1958.

АППОЗИТИВНЫЙ (АППОЗИЦИОННЫЙ) - alm. appositionell, ing. appositive /ˈapəzıtıv/, fr. appositif, azərb. əlavə funksiyanı yerinə yetirən.
Bax: Аппозиция →.

АППОЗИЦИОННАЯ (АППОЗИТИВНАЯ) СВЯЗЬ - alm. appositioneller Zusammenhang (m), ing. opposition (appositive) connection /ˌɔpəˈzıʃ(ə)n/ˈapəzıtıv/kəˈnekʃ(ə)n/, fr. lien connexion oppositionnel, azərb. appozitiv əlaqə. - Əlavə ilə təyin olunan söz arasındakı əlaqə. Rus d. bu əlaqə hal üzrə uzlaşır. Məs.: rus d. /работы учеников, отличников/ (halda, kəmiyyətdə və cinsdə uzlaşma); Azərb. d. /Bakı, Azərbaycanın paytaxtı, indi daha gözəldir//. Titul və fəxri ad kimi aid olduğu addan əvvəl gəlir. Məs.: Professor Məmmədli, bəzən isə sonra da gələ bilər. F.Əmirovun «Karvan» simfonik muğamı, mənim

downloaded from KitabYurdu.org

sevimli musiqim, bu gün saat 14^{oo} – da səslənəcək// və s.
H.Bußmann. Göstərilən əsər, s 92.

АППОЗИЦИОННЫЕ (АППОЗИТИВНЫЕ) ОТНОШЕНИЯ - alm. appositionelle Beziehung (f), ing. appositive relationship /ˈapəzɪtɪv rɪˈleɪʃ(ə)nʃɪp/, fr. rapport oppositionnel, azərb. appozision (appozitiv) əlaqə. - Əlavə və təyin olunan söz arasındakı münasibət. Bu münasibət predmetin keyfiyyətini, cinsi xüsusiyyətlərini və s. bildirir.

АППОЗИЦИЯ (ПРИЛОЖЕНИЕ) - alm. Apposition (f), ing. apposition /ˌ5pəuˈzɪʃ(ə)n /apəˈzɪʃ(ə)n/, fr. apposition, azərb. appozisiya, əlavə (digər isim üçün təyin rolunu oynayan isim). - Cümlədə özündən əvvəlki üzvü konkretləşdirməyə və izah etməyə xidmət göstərən söz və ya söz birləşməsi. Əlavə aid olduğu cümlə üzvünün xüsusiyyətlərini özündə əks etdirir. Məs.: alm. d. /Lukas, mein Freund aus Graz, hat mir einen Brief geschrieben//.

Bax: Аппозиционная связь ←.

АППРОКСИМАЦИЯ - alm. Approximation (f), ing. approximation /əˌprɔksɪˈmeɪʃ(ə)n/, fr. approximation, azərb. aproksimasiya. - Obyekti ona bənzər şəkildə göstərmək.
Duden. Deutsches Universalwörterbuch. Mannheim, 1988, s. 94.

АППРОКСИОМАНТ – alm. Approxiomant (m), ing. approximant /əˈprɔksɪm(ə)nt/, fr. approxiomante, azərb. approksimant. – Ciyərdən gələn hava axınının udlaqda partlayış yaratması ilə düzələn səslər. Bunlara eyektiv səslər də deyirlər. Məs.: gürcü d. /k^{c}/, /t^{c}/, /p^{c}/.
H.Bußmann. Göstərilən əsər, s. 93.

АРАБИСТИКА – alm. Arabistik (f), ing. Arabic studies /əˈrabɪstɪk ˈstʌdɪz/, fr. arabistique, azərb. ərəbşünaslıq. – Ərəb dili, ədəbiyyatı və mədəniyyətini öyrənən elm sahəsi.
R.Conrad. Göstərilən əsər, s. 38.

АРАБСКИЙ ЯЗЫК - alm. Arabisch (f), ing. Arabic language /ˈ5rəbɪk ˈ15ŋgwɪʤ/, fr. langue arabe, azərb. ərəb dili. – Semit dillərindən biridir. İraq, Suriya, Səudiyyə Ərəbistanı, Livan, İsrail, Misir, Mərakeş, Ərəb Əmirliyi, Mavritaniya, Somali, Cibuti, Sudan, Yəmən, Əlcəzair, Tunis, Malta və b. ölkələrdə yayılmışdır. Bu dildə 200 milyona qədər adam danışır. BMT-nin 6 rəsmi və işlək dilindən biridir. Zəngin samit sistemi malikdir (velar, farinqal, larinqal samitlər). Sadə sait sistemi

downloaded from KitabYurdu.org

mövcuddur. Söz sırası adəti üzrə belədir: XMT (xəbər-mübtəda-tamamlıq). Aşağıdakı cədvəldə ərəb əlifbası transkripsiyası rusca səslənməsi və sıra nömrəsi verilmişdir (bax: cədvəl 1).

Ərəb əlifbası

Hərflərin qrafik yazılışı				Transkripsiya işarəsi	Hərfin adı		Sıra №-si
Sonda	Ortada	Əvvəldə	Xüsusi		rusca	ərəbcə	
ـا	ـا	ا	ا		алиф	أَلِفٌ	1
ـب	ـبـ	بـ	ب	[б]	ба	بَاءٌ	2
ـت	ـتـ	تـ	ت	[т]	та	تَاءٌ	3
ـث	ـثـ	ثـ	ث	[с]	са	ثَاءٌ	4
ـج	ـجـ	جـ	ج	[дж]	джим	جِيمٌ	5
ـح	ـحـ	حـ	ح	[х]	ха	حَاءٌ	6
ـخ	ـخـ	خـ	خ	[х]	ха	خَاءٌ	7
ـد	ـد	د	د	[д]	даль	دَالٌ	8
ـذ	ـذ	ذ	ذ	[з]	заль	ذَالٌ	9
ـر	ـر	ر	ر	[р]	ра	رَاءٌ	10
ـز	ـز	ز	ز	[з]	зайн	زَيْنٌ	11
ـس	ـسـ	سـ	س	[с]	син	سِينٌ	12
ـش	ـشـ	شـ	ش	[ш]	шин	شِينٌ	13
ـص	ـصـ	صـ	ص	[ç]	сад	صَادٌ	14
ـض	ـضـ	ضـ	ض	[д]	дад	ضَادٌ	15
ـط	ـط	ط	ط	[т]	та	طَاءٌ	16
ـظ	ـظ	ظ	ظ	[ð]	за	ظَاءٌ	17
ـع	ـعـ	عـ	ع	[']	айн	عَيْنٌ	18
ـغ	ـغـ	غـ	غ	[г]	гайн	غَيْنٌ	19
ـف	ـفـ	فـ	ف	[ф]	фа	فَاءٌ	20
ـق	ـقـ	قـ	ق	[ç]	каф	قَافٌ	21
ـك	ـكـ	كـ	ك	[к]	каф	كَافٌ	22
ـل	ـلـ	لـ	ل	[л]	лам	لَامٌ	23
ـم	ـمـ	مـ	م	[м]	мим	مِيمٌ	24
ـن	ـنـ	نـ	ن	[н]	нун	نُونٌ	25
ـه	ـهـ	هـ	ه	[h]	ха	هَاءٌ	26
ـو	ـو	و	و	[ў]	вав	وَاوٌ	27
ـي	ـيـ	يـ	ي	[й]	йа	يَاءٌ	28

downloaded from KitabYurdu.org

Н.В.Юшманов. Грамматика литературного арабского языка. М., 1985; Г.Ш.Шарбатов. Современный арабский язык. М.,1961; В.М.Белкин. Арабская лексикология. М., 1975.

АРАВАКСКИЕ ЯЗЫКИ - alm. Arawak-Sprachen (Pl.), ing. Arawak languages /ˈarəwak, -ɑ:k ˈlɔŋgwɪʤiz/, fr. langues arawaks, azərb. aravak dilləri. – Cənubi Amerikada hindi dillərinin ən böyük ailəsidir. Cənubi Florida və Karib hövzəsindən Paraqvaya, Perunun Sakit Okean sahil boyundan Amazonka çayının deltasına qədər böyük bir arealda yayılmışdır. Yarım milyondan çox insan bu dildə danışır. Fonoloji sistemində saitlər yarısistemi zənginliyi, samitlər sistemi isə məhdudluğu ilə diqqəti cəlb edir. Xüsusi yazısı olmayan dillərdir.

G.K.Noble. Proto-Arawakan and its descendants. Bloomington, 1965; E.Matteson. The Piro (Arawakan) language. Berk.-Los Ang., 1965.

АРАГОНЕЗИЙСКИЙ ЯЗЫК – Bax: Испанский язык →.

АРАМЕЙСКИЙ ЯЗЫК – alm. Aramäisch (n), ing. Aramean /arəˈmi:ən/, Aramic language /arəˈmeɪk ˈlɔŋgwɪʤ/, fr. langue araméenne, azərb. aramey dili. – Eradan əvəl X əsrdən üzü bəri geniş yayılmış dialektlər qrupu, eradan əvvəl 300-cü ildən bizim eranın 600-cü illərinə qədər aysar, babil və fars dövlətlərində geniş işlənmiş dildir. Hazırda Suriya, İraq və Türkiyədə bu dilə rast gəlmək olar.

H.Bußmann. Göstərilən əsər, s. 94.

АРАУКАНСКИЕ ЯЗЫКИ - alm. Arauka-Sprachen (Pl.), ing. Arawakan languages /arəˈwak(ə)n,-wa:k ˈlɔŋgwɪʤiz/, fr. langues araucanos (araucanie), azərb. araukan dilləri. – İspanların müstəmləkəsinə qədər Çilinin mərkəzində, Argentina pampası rayonunda və Patahoniyada yayılmışdır. 800 minəcən daşıyıcısı vardır. Fonoloji sistemi 6 sait və 21 samitdən ibarətdir. Morfoloji quruluşu suffiksial aqqülitinativdir.

M.R.Key. The Grouping of South American Indian Languages. Tübingen, 1979.

АРБИТРЕРНОСТЬ (ПРОИЗВОЛЬНОСТЬ) – alm. Arbitrarität (f), Willkürlichkeit (f), Beliebigkeit (f), ing. Arbitrariness /ˈɑ:bɪt(rə)rinis/, fr. arbitraire, azərb. ixtiyari. – İşarənin fundamental əlaməti, işarələnənlə işarələyən arasında birbaşa əlaqə olmur. F.de Sössür konsepsiyasında səs kompleksi (=image acoustique) və təsəvvür (=concept) arasında əlaqə ixtiyaridir, yəni onlar arasında daxili bağlılıq yoxdur. Buna sübut eyni şeyin ayrı-ayrı dllərdə müxtəlif cür deyilməsi ola bilər. Sözdüzəltmə və anamatopoetik (təqlidi) sözlərdə bu bağlılıq müəyyən mənada özünü göstərir.

F.Yadigar (Veysəlli). GDG, Bakı, 2003, s. 41.

downloaded from KitabYurdu.org

АРГО - alm. Argot (n), Sondersprache (f), ing. argot /ˈɑːgəʊt/, slang /slæŋ/, fr. argot, azərb. argo (kiçik bir ictimai qrupun, ümumi milli dildən ayrı olan şərti jarqonu). - Arqo fransız sözü olub, bu və ya digər ictimai dil hadisəsini bildirir. Arqoya jarqon da deyilir. Arqo əsasən cəmiyyətin tüfeyli ünsürləri (oğrular, quldurlar) tərəfindən yaradılır və işlədilir, daha doğrusu, o süni dillər qrupuna daxildir. Lakin onu yalnız cinayətkar aləmi ilə məhdudlaşdırmaq olmaz. Məlum olduğu kimi, müxtəlif ali məktəb tələbələrinin, orta məktəb şagirdlərinin də bəziləri süni dillərdən – arqodan istifadə edirlər. Arqoların əksəriyyəti ünsiyyət vasitəsi kimi istifadədə olan dil əsasında yaranır. Məqsəd isə ünsiyyəti başqalarının başa düşməməsidir. «Şərti dillər, adətən, ümumi dilin malik olduğu həmin fonetik sistemə, həmin morfologiyaya və sintaksisə, leksikanın çox hissəsinə (bütün dəyişməyən sözlər və bəzi dəyişənlər) malik olur. Arqoda söz yaradıcılığının yalnız bəzi kateqoriyalarının, lüğətin və semantikanın bir hissəsinin özünəməxsus xüsusiyyətləri var; arqo ümumi dildən daha çox sözlərin mənasına və işlədilməsinə görə fərqlənir».
N.Məmmədov, A.Axundov. Dilçiliyə giriş. Bakı, 1988, s. 101.
Arqolardakı söz yaradıcılığına, məna fərqliliyinə rus oğru arqosundan aşağıdakı sözləri misal göstərmək olar: /ширмач/ «cibgir», /мойшик/ «mağaza oğrusu», /майданшик/ «qatar oğrusu», /скокарь/, yaxud da /домушник/ «mənzil oğrusu», /голубятник/ «tuman-köynək, ağ oğrusu», /мокрушник/ «oğru-qatil», /kassir/, yaxud /медвежатник/ «dəmir kassalar oğrusu», /стопарь/ «quldur», /клюшник/ «kilsə oğrusu», /баншик/ «vağzal oğrusu» və s. Geniş mənada arqo xüsusi dil kimi başa düşülür. Artistlərin, hərbçilərin, musiqiçilərin, məktəblilərin arqoları ola bilər.
H.Bußmann. Göstərilən əsər, s. 93.
АРГОТИЗМЫ - alm. Argotismen (Pl.), ing. slang expressions /slæŋ ɪksˈpreʃənz/, argotisms /ɑːgɔ-tısımıs/, fr. argotismmes, azərb. arqotizmlər. - Müxtəlif arqolardan ədəbi dilə keçmiş söz və ya ifadələr. Bədii əsərlərdə arqotizmlər üsluba və ya danışığa xüsusi çalar vermək üçün işlədilir. Məs.: Sürücülərin, ovçuların, balıqçıların, musiqiçilərin, məktəblilərin və s. arqosu.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 25.
АРЕАЛ - alm. Areal (n), ing. areal /ˈɛərɪəl/, fr. aire, azərb. areal, yayılma sahəsi. – Müəyyən fonetik, qrammatik və leksik təzahürlərin yayıldığı sahə. Konservativ areal - dilin arxaik ünsürlərinin mühafizə olunduğu areal. Lateral areal – izoqlosların → az və zəif olduğu areal.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 25.
АРЕАЛЬНАЯ ЛИНГВИСТИКА - alm. Areallinguistik (f), ing. areal linguistics /ˈɛərɪəl lɪŋˈgwɪstɪks/, fr. linguistiques aréales, azərb. areal dilçilik. - Dilin tarixi inkişafında və tədqiqində ərazinin, coğrafi şəraitin, arealların (areal fransız sözü olan „air“ sözündəndir və „sahə, ərazi, çöl“

downloaded from KitabYurdu.org

deməkdir) xüsusi rolu olduğunu qəbul edən dilçilik cərəyanı. Bu cərəyana görə dildə hər cür yeniliyin meydana çıxması dillərin qarşılaşması nəticəsidir.
N.Məmmədov, A.Axundov. Dilçiliyə giriş. Bakı, 1988, s. 248.

АРМЯНСКИЙ ЯЗЫК – alm. Armenisch (n), ing. Armenian language /ɑ:ˈmi:nıən ˈlɔŋgwıʤ/, fr. langue arménienne, l'arménien azərb. erməni dili. – Hind-Avropa dilləri ailəsinə mənsubdur. Ermənistan, Gürcüstan, Türkiyyə, Azərbaycanda, həmçinin bir sıra xarici ölkələrdə – İran, Suriya, Livan, ABŞ-da və s. yayılmışdır. Dünyada bu dildə danışanların ümumi sayı 4 milyondan bir qədər artıqdır. Bu dildə külli miqdarda türk və fars dillərindən alınmalar vardır. Samitlərin bir yuvada çoxluğu səciyyəvidir, yeddi hal olsa da, qədim hind-Avropa dillərindəki cins fərqi yox olmuşdur. Söz sırası müxtəlifdir.
H.Jensen. Altarmenische Grammatik. Heidelberg, 1959.

АРТИКЛЬ - alm. Artikel (m), ing. article /ˈɑ:tıkl/, fr. article, azərb. artikl. - Bəzi dillərdə (ərəb, roman və german dilləri) isimlərlə birlikdə işlənib həmin isimlərin cinsini, halını, müəyyən və ya qeyri-müəyyən olduğunu bildirən köməkçi söz. Artikl aid olduğu ismin əvvəlki söyləm və ya mətndən aydın olduğu zaman müəyyən (Məs.: alm.d. /der, die, das/ – (təkdə), /die/ (cəmdə); ing. d. /the/, ilk dəfə işlənərkən isə qeyri-müəyyən olur (Məs.: alm. d. /ein/ (m), /eine/ (f), /ein/ (n), cəmi yoxdur, ing. d. /a, an/. Azərb. d. „bir“ sözü qeyri-müəyyənlik funksiyasında çıxış edə bilir. Məs.: /bir nəfər/. Artikl ing., alm., roman dillərində ismin əvvəlində gəlir, alban, bolqar, rumın dillərində (Məs.: bulqar d. /книга+ма/ (bir kitab), rumın d. /student+ul/ (bir tələbə)) isimdən sonra gəlir. Məs.: ing. d. /a man/; alm. d. /ein Mann/ və s. Alm. və fr. dillərində artikllər cinsə görə fərqlənir. Məs.: alm. d. m/artikl – kişi cinsi /der (m)/, orta cins /das (n)/, qadın cinsi /die (f)/; g/müəyyən artikl - /ein/, /ein/, /eine/. Cəmdə yalnız müəyyən artikl bir şəkildə çıxış edir. Fr. d. müəyyən artikllər /le/, /la/, qeyri-müəyyən artikllər isə /un/, /une/ - dirlər. Müəyyən artikli determinant, qeyri-müəyyəni isə kvanto adlandırırlar. Artikli aidlik bildirən söz kimi dəyərləndirən alimlər də vardır. Məs.: alm. d. /Der Hund ist ein Saugetier// (İt məməli heyvandır) cümləsində «it» konkret heyvanı bildirdiyindən müəyyən, «məməli heyvan» isə ümumini bildirdiyindən qeyri-müəyyən artikllə işlənib.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 26; Л.Р.Зиндер, Т.В.Строева. Современный немецкий язык. М., 1957.

АРТИКУЛЯТОР - alm. artikulatorisch, ing. articulatory /ɑ:ˈtıkjʊlətrı/, fr. articulateur, azərb. artikulyator (tələffüz). - Hər hansı bir səsin tələffüzünü səciyyələndirən və təmin edən fizioloji prosesi bildirir.

АРТИКУЛЯЦИОННАЯ БАЗА - alm. Artikulationsbasis (f), ing. basis of articulation /ˈbeısıs 6v ɑ:ˌtıkjʊˈleıʃən/, fr. base articulatoire, azərb. artikulyasiya (tələffüz) bazası. - Müəyyən bir dildə danışanların hamı-

downloaded from KitabYurdu.org

sına xas olan, bütün səslərin tələffüzü üçün danışıq üzvlərinin intensional idarə olunan və əlaqələndirilən hərəkətlərinin məcmusu.
F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Bakı, 1989; F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

АРТИКУЛЯЦИОННАЯ ОБЛАСТЬ - alm. Artikulationsbereich (m), ing. region of articulation /ˈriːdʒən əv ɑːˌtɪkjʊˈleɪʃən/, fr. région de l'articulation, azərb. artikulasiya (tələffüz) sahəsi. - Müəyyən bir səsin tələffüzü zamanı danışıq üzvlərinin mərkəzləşdiyi yer. Tələffüz məxrəci dedikdə dildə danışıq üzvlərinin bütün mümkün hərəkətlərinin məcmusu nəzərdə tutulur.
Bax: Артикуляционная база ←

АРТИКУЛЯЦИОННАЯ ФАЗА - alm. Artikulationsphase (f), ing. phases (parts) of articulation /feɪzɪz /pɑːts/ əv ɑːˌtɪkjʊˈleɪʃən/, fr. phases de l'articulation, azərb. artikulasiya (tələffüz) mərhələsi, fazası. – Klassik fonetikaya görə tələffüz 3 mərhələdən: ilk (ekskursiya), orta (ekspoziya) və son (rekursiya) mərhələdən ibarətdir.
М.И. Матусевич. Введение в общую фонетику. М., 1957.

АРТИКУЛЯЦИЯ - alm. Artikulation (f), ing. articulation /ɑːˌtɪkjʊˈleɪʃən/, fr. articulation, azərb. artikulasiya (tələffüz). - Müəyyən səsi tələffüz etmək üçün danışıq üzvlərinin aldığı vəziyyət və ya onların hərəkətlərinin məcmusu, səsin məxrəci.
М.И.Матусевич. Введение в общую фонетику. М., 1957.

АРТИКУЛЯЦИЯ ДВОЙНАЯ - alm. doppelte Artikulation (f), ing. double articulation /ˈdʌbl ɑːˌtɪkjʊˈleɪʃən/, fr. articulation double, azərb. qoşalaşmış artikulyasiya (tələffüz). – 1) Tələffüzü zamanı ağız boşluğundakı kipləşmə ilə yanaşı boğazda da ikinci kipləşmənin əmələ gəlməsindən yaranan səslər. Belə səslərə əsasən Qafqaz dillərində rast gəlinir. [pʾ], [tʾ], [kʾ]; 2) Fransız dilçisi A.Martinenin (1908) işləyib hazırladığı ikili üzvlənmə prinsipi. İnsan dilini səciyyələndirən bu üzvlənməyə görə, linqvistik işarənin ən kiçik mənalı vahidlərə bölünməsindən monem, ən kiçik fərqləndirici vahidlərə bölünməsindən isə fonem əldə olunur. Məs.: fr. d. /travaillons/ (biz işləyirik) ifadəsi iki monemə bölünür: /travaill/ (iş) və /ons/. Monemlər iki cür olur: leksem monemlər /travaill/ və morfem monemlər /-ons/. Bu monem anlayışı başqa məktəblərin morfem termininə uyğun gəlir.
Л.Р.Зиндер. Общая фонетика. М., 1979; André Martinet. Element of General Linguistics. London, 1964, s. 112-157; Ф.Вейсалов. Возможно ли линейное членение интонации. «Уч. записки», МВ и ССО, Баку, 1971; P.H.Matthews. Göstərilən əsər, s. 230.

АРТИКУЛЯЦИЯ ЗАДЕРЖАННАЯ - alm. verspätete Artikulation (f), ing. held articulation /held ɑːˌtɪkjʊˈeɪʃ(ə)n/, prolonged retention

downloaded from KitabYurdu.org

/prəˈlɔŋd rɪˈtenʃən/, fr. articulation sistanse (tenue), azərb. gecikdirilmiş artikulyasiya (tələffüz). – Səsin hər hansı bir artikulyasiya mərhələsi ləngiyir. Məs.: Azərb. d. /z/ /gözzzər/.
О.С.Ахманова. Göstərilən əsər, s. 55.

АРТИКУЛЯЦИЯ ЙОТОВАЯ - alm. palatalisierte Aussprache (f), ing. palatalized articulation /ˌpælətəlaɪzd ɑːˌtɪkjʊˈeɪʃ(ə)n/, fr. articulation palatal, articulation y-otavation, azərb. yumşaq tələffüz. - Dilin orta hissəsinin sərt damağa doğru qalxması ilə yaranan tələffüz. Bu cür tələffüz rus dilində yumşaq samitlərə xasdır. Məs.: /t', d', s', z'/ və s.
М.И.Матусевич. Введение в общую фонетику. М., 1957.

АРТИКУЛЯЦИЯ НОСОВАЯ - alm. Nasalartikulation (f), ing. nasal articulation /ˈneɪzl ɑːˌtɪkjʊˈeɪʃ(ə)n/, fr. articulation nasale, azərb. burun tələffüzü. - Tələffüzü zamanı dilçək azacıq irəli çıxır, yumşaq damaq isə aşağı enir və ağız boşluğunun yolunu bağlayır, hava axını burun boşluğundan çıxır. Alman, ingilis, rus və Azərbaycan dillərində /m/, /n/ samitləri buna misal ola bilər.
F.Veysəlli. Einführung in die Phonologie. Baku, 2004.

АРТИКУЛЯЦИЯ РТОВАЯ - alm. orale Artikulation (f), ing. oral articulation /ˈɔːrəl ɑːˌtɪkjʊˈeɪʃ(ə)n/, fr. articulation buccale, azərb. ağız tələffüzü. - Tələffüzü zamanı yumşaq damaq yuxarı qalxır, dilçək isə udlağın arxa tərəfdən divarına sıxılır və beləliklə, hava axını ağızdan çıxır. Alm., Azərb., rus və ing. dillərində bütün saitlər bu cür tələffüz xüsusiyyətinə malikdir.
F.Yadigar (Veysəlli). German dilçiliyinə giriş. Bakı, 2003, s. 178-192.

АРТИКУЛЯЦИЯ СЛАБАЯ - alm. schwache Artikulation (f), ing. weak articulation /wiːk ɑːˌtɪkjʊˈeɪʃ(ə)n/, fr. articulation débile, azərb. zəif tələffüz. – Vurğusuz hecalarda sait və samitlərin tələffüzü zəif olur.
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, s. 92-152.

АРТИКУЛЯЦИЯ ЯЗЫКА /И/-ОБРАЗНАЯ - alm. I-Artikulation (f), ing. i-like lingual articulation /ɪ- laɪk ˈl92gwəl ɑːˌtɪkjʊˈeɪʃ(ə)n/, fr. articulation linguale, langue articulation imagé, azərb. /i/-yə bənzər tələffüz. - Dilin orta hissəsinin sərt damağa doğru qalxması ilə səciyyələnən tələffüz. Məs.: rus d. /мˈɑт/, /mˈɑtˈ/ və s. Azərb. d. /l/ samiti incə saitlər qarşısında bu cür tələffüz olunur. Müq. et: /lˈ5lˈ/, /lˈylə/ və s. Ancaq rus d. bu i-yə bənzər tələffüz fonoloji dəyər kəsb edir, Azərb. d. isə fonetik səciyyə daşıyır.
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, s. 92-152.

АРХАИЗМ - alm. Archaismus (m), veralteter Ausdruck (m), ing. archaism /ˈɑːkeɪɪz(ə)m/, fr. archaïsme, azərb. arxaizm. - 1. Köhnəlmiş və ya dildən çıxmış söz və ya ifadə. Məs.: ing. d. /hereafter/, /Wonne/ (həvəs); Azərb. d. /görklü/ (mübarək, gözəl); 2. Köhnənin qalıqları, köhnə-

downloaded from KitabYurdu.org

lik. Məs.: ing. d. /God save the Queen// (Allah kraliçanı saxlasın). Dilçilikdə arxaizmlərin aşağıdakı növlərini fərqləndirilər: a) leksik arxaizm. Məs.: Azərb. d. /yazı/ (çöl, səhra); b) semantik arxaizm bunlar müasir dildə işlənir, lakin həm də köhnə mənada işlənir. Məs.: Azərb. d. /inqilab/ Füzulidə və indi; c) leksik-fonetik arxaizm əvvəlki mənası qalıb, səs tərkibi dəyişən sözlərdir. Məs.: Azərb. d. /xansı/ (hansı), /bərlü/ (bəri), biki (kibi) və s.; d) etnoqrafik arxaizm. Adət-ənənə, məişət tərzi ilə əlaqədar olan arxaizmdir. Məs.: /baş pulu/, /üzgörünçəyi/, /gəlinatlandı/, /alışdım-yandım/ (parça).

M.İ.Adilov və b. Göstərilən əsər, s. 27.

АРХАИЧЕСКИЙ - alm. archaisch, ing. archaic [-ˈk-] /ɑːˈkeɪɪk/, fr. archaïque, azərb. arxaik, köhnə, köhnəlmiş. - Arxaizmə aid olan.

M.İ.Adilov və b. Göstərilən əsər, s.27.

АРХИФОНЕМА (СМЕШАННАЯ ФОНЕМА, МАКРОФОНЕМА) - alm. Archiphonem (n), ing. archiphoneme /ˌɑːkɪˈfouniːm/, fr. archiphonème, azərb. arxifonem. – Arxifonem yunanca «archi» (üst, yuxarı) və «fonem» (səs) sözlərindən əmələ gəlib. Praqa dilçiləri, xüsusən də N.S. Trubeskoy və onun tərəfdaşları, arxifonem deyəndə binar qarşılaşmanın iki foneminə xas olan fərqləndirici əlamətlərin məcmusunu başa düşürlər. Onlara görə, alm. d. söz sonunda /d/ və /t/ fonemləri arasındakı fərqləndirici əlamətlər neytrallaşır və onlar arxifonem gismində çıxış edirlər. Məs. /kin $\frac{d}{t}$/.

Moskva fonoloqları bunu «hiperfonem», başqaları «qarışıq fonem», amerikanlar isə «makrofonem» adlandırırlar.

N.S.Trubeskoy. Fonologiyanın əsasları. Almancadan tərcüməsi, «Ön söz» və «Qeydlər» prof. F.Veysəllinindir. Bakı, 2001, s. 97-105; s. 285-302; F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005.

АРЧИНСКИЙ ЯЗЫК - alm. Arč(tsch)inisch (n), ing. Archinish language /ɑːkɪˈnɪʃ/ˈɑːʧɪnɪʃ ˈlɔŋgwɪʤ/, fr. langue archinaise, azərb. arçin dili. – Ənənəvi təsnifata əsasən ləzgi dillərindən biri hesab olunur. Dağıstanın Arçin kəndində yayılmışdır. Bu dildə 1000-dən artıq adam danışır. Dialektlərə parçalanmır. Fonoloji sitemi 81 fonemdən ibarətdir. Yazısız dildir.

А.Е.Кибрик. Опыт структурного арчинского языка. М., т. 1-3, 1977.

АССИБИЛЯЦИЯ – alm. Assibilation (f), ing. assibilation /əˈsibɪleɪʃ(ə)n/, fr. assibilation, azərb. assibilasiya. – Ön sıra saitləri qarşısında gələn dilönü kipləşən-partlayışlı samitlərdən sonra ötəri novlu səs. Məs.: alm. d. /Nation/, /Initiative/. Eyni zamanda /g/ və /k/ samitlərinin eyni mövqedə /c/, /s/ və /dz/-ya keçməsi də bu cür izah edilə bilər. Məs.: lat. /centum/kentum/ → ital. /cento/čento/; fr. cent /sã/ və s.

R.Conrad. Göstərilən əsər, s. 42.

downloaded from KitabYurdu.org

АСИЛЛАБИЧЕСКИЙ - alm. unsilbisch, ing. asyllabic /eısı'l5b9k,-a/, fr. asyllabique, azərb. asillabik. - Heca əmələ gətirməyən. Heca daxilində yüksək tona malik olmayan səs.

Bax: Слог →.

АСИНДЕТИЧЕСКИЙ – alm. asyndetisch, ing. asyndetic /asin'dɛtık/ , fr. asyndétique, (juxtaposé), azərb. bağlı olmayan, bağlayıcısız.

Bax: Асиндетон →.

АСИНДЕТОН (БЕССОЮЗИЕ) - alm. Asyndeton (n), ing. asyndeton /ə'sındıt(ə)n/, fr. asyndète, (juxtaposé) azərb. bağlayıcısız əlaqələr. - Məs.: Azərb. d. /Əl mənim, ətək sənin//; alm. d. /Er kam, er sah, er siegte// (O gəldi, gördü, qələbə çaldı).

R.Conrad. Göstərilən əsər, s. 42.

АСПЕКТ - alm. Aspekt (m), ing. aspect /ə'spɛkt/'aspɛkt/, fr. aspect, azərb. tərz, nöqteyi-nəzər, baxış, aspekt, görünüş. - İş və hərəkətin daxili səciyyəsini göstərən qrammatik fel kateqoriyası. Felin ifadə etdiyi iş və hərəkətin baş vermə üsulu. Ani tərz, iş və hərəkətin çox qısa bir zamanda, ani olaraq baş verdiyini göstərən tərz (əsasən səs təqlidi sözlərdə). Məs.: Azərb. d. /Taxcadan düşdü tapp elədi/ (Tapmaca). İş, hal və hərəkətin bitmədiyini, davam etdiyini göstərən tərz. Dilimizdə /-maqda/, /-məkdə/ şəkilçiləri felin bitməmiş tərzini əmələ gətirən morfoloji əlamət kimi diqqəti cəlb edir: /oxumaqda idi/, /yazmaqda imişlər/. Bitmiş tərz, yəni iş və hərəkətin bitib qurtardığını, sonunu, hüdudunu göstərən tərz. Azərbaycan dilində bir sıra köməkçi fellər. Məs.: /çıxmaq/, /getmək/, /səfərə çıxmaq/, /güzəştə getmək/ və s. Rus d. imperfektiv və perfektiv növü xüsusi qrammatik vasitənin köməyilə ifadə edirlər. Məs.: rus d. /rezat' - narezat'/. Birincisi bitmiş növü, ikincisi isə bitməmiş növü bildirir. İng. d. /I sing/ və /I am singing// formaların birincisi qeyrimüəyyən indiki zamanı, ikincisi isə davam edən indiki zamanı bildirir. Alm. d. bu fərqləri bildirmək üçün müxtəlif önsözlərindən istifadə olunur. Müq. et: /Er las das Buch durch// (O, kitabı oxuyub qurtardı), ancaq /Er las das Buch// (O kitabı oxuyurdu).

H.Bußmann. Göstərilən əsər, s. 103; R.Conrad. Göstərilən əsər, s. 41.

АСПЕКТ-МОДЕЛЬ – alm. Aspekt-Modell (n), ing. aspect-model /'5spɛkt/'aspɛkt 'mɔdl/, fr. aspect-modèle, azərb. aspekt-model. – N.Xomskinin inkişaf etdirdiyi generativ transformasional qrammatik modelin təkmilləşmiş forması. Əsas cəhətləri bunlardır: a) kompetensiya və performans, qrammatiklik, akseptabellik, üst və alt qat strukturlarının gətirilməsi; b) ümumiləşən transformasional qrammatika əvəzinə artıq qrammatikanın bazis komponentinə rekursivlik əlavə edilir, bundan başqa transformasiyalar mənaca neytrallaşır; c) leksikon bazisin subkomponenti kimi verilir və semantik səviyyə alt qatı şərh edən komponent kimi götürülür.

downloaded from KitabYurdu.org

O.Thomas. Transformational Grammar and the Teacher of English. N.-York, 1965.

АСПЕКТ СЛОВО ФОНЕМАТИЧЕСКИЙ - alm. lexikalisch-phonematischer Aspekt (m), ing. lexical-phonemic aspect /'leksıkəl fəuni:mık ə'spɛkt/, fr. aspect du mot phonématique, azərb. leksik-fonematik aspekt, növ. - Konkret bir sözün fonem tərkibinin tədqiqi, başqa sözlərdən fonoloji fərqini və onlara oxşarlığını öyrənən aspekt, onun asılı və sərbəst akustik-fizioloji xüsusiyyətlərinin araşdırılması.

K.Heger. Monem, Wort und Satz. Tübingen, 1971.

АСПИРАТА(Ы) - alm. Aspirata (f), ing. aspirate /'aspəreıt/'5sp(ə)rıt/, fr. aspirée, azərb. nəfəsli. - Kipləşmiş səs tellərinin partlaması ilə əmələ gələn səslər. Məs.: alm. d. /ta:t/ sözündəki əvvəlki və sonuncu /t/ nəfəsli tələffüz olunur. Transkripsiyada nəfəslilik samitin sağdan yuxarıdan kiçik [^{h}] işarəsilə göstərilir. Müq. et: [t^{h}a:t^{h}].

F.Veysälli. Einführung in die Phonologie. Baku, 2004.

АСПИРИРОВАННЫЙ - alm. aspiriert, gehaucht, ing. aspiration /5spə'reıʃ(ə)n/, fr. aspiré,-e, azərb. nəfəsli. - Səs telləri arasındakı novun daralması nəticəsində hava axınının səs tellərinə sürtünməsindən əmələ gələn səslər. Rus, ing., alm. və Azərb. d. vurğulu saitdən əvvəl və söz sonunda kipləşən-partlayışlı samitlər nəfəsli tələffüz olunur. Məs.: alm. d. /´*zant^{h}/ (qum); ing. d. /kæt^{h}/ - pişik; rus d. /t^{h}ak^{h}/ - (belə); Azərb. d. /ət^{h}/ və s.

Bax: Фонетика →.

АСПИРИРОВАННЫЙ СОГЛАСНЫЙ - alm. aspirierter Konsonant (m), ing. aspirated consonant /'5spəreıtıd 'kɔnsənənt/, fr. consonne aspirée, azərb. nəfəsli samit.

Bax: Аспирированный ←.

АССАМСКИЙ ЯЗЫК – alm. Assam(es)isch (n), ing. Assamese language /asə'mi:z 'l5ŋgwıʤ/, fr. langue assamaise, azərb. assam dili. – Hind dillərindən biridir. Hindistanın Assam ştatının dövlət dilidir. Brax-maputra çayının sahilində yayılmışdır. 13 milyondan çox daşıyıcısı var-dır. Benqal dilinə yaxın olsa da, ondan retroflektiv partlayışlı samitlərin olmaması ilə fərqlənir.

В.Д.Бабакаев. Ассамский язык. М., 1961; В.Д.Бабакаев. Очерки морфологической структуры ассамского языка. М., 1980.

АССИБИЛИРОВАННЫЙ - alm. assibiliert, ing. assibilated /ə'sibıleıtid/, fr. assibiler, azərb. sibilyantlaşan. - Kipləşən-partlayışlı samitin sibilyanta keçməsi. Kipləşən-partlayışlı samitlərin tələffüzü zamanı fışıltılı çaların meydana gəlməsi. Məs.: qədim ing. d. /tj/ → /tʃ/-ya keçib.

P.H.Matthews. Göstərilən əsər, s. 28.

downloaded from KitabYurdu.org

АССИБИЛИРОВАННОЕ ПРОИЗНОШЕНИЕ – Bax: Ассибилированный ←.

АССИБИЛЯЦИЯ - alm. Assibilation (f), ing. assibilation /ə's9b9le9ʃ(ə)n/, fr. assibilation, azərb. partlayış. – Kipləşən-partlayışlı samitlərin novlularla əvəzlənməsindən ibarət olan artıq (parazit) fışıltılı səs. Məs.: alm. d. Generation→ /ge·ne·rat͡s´ɪo:n/ kimi tələffüz olunur. /g/ və /k/ samitlərinin yumşaq samitlərdən qabaqda fışıltılı tələffüzü. Məs.: lat. centum; fr. d. /cent/→/sã/ kimi deyilir.

R.Conrad. Göstərilən əsər, s. 42.

АССИМИЛЯЦИЯ - alm. Assimilation (f), Angleichung (f), ing. assimilation /əˌsɪmɪ'leɪʃ(ə)n/, fr. assimilation, azərb. assimilyasiya (uyuşma). - Ənənəvi, artikulator fonetikada bir samitin yanındakı digər samitə (səsə) oxşadılması uyuşma adlandırılır. Məs.: /qızlar/→/qızzar/. Uyuşmanın aşağıdakı növləri mövcuddur: a) tələffüz üzvünə: (məs. alm. d. /´zempf/ «Senf» sözündən (xardal); b) tələffüz məxrəcinə (məs. /ge:m/ «gehen» sözündən (getmək); c) tələffüz tərzinə (məs.: /elne/ «Elle» sözündən (qol); d) səs tellərinə (məs.: /das zalt͡s/ «das Salz» sözündən (duz) aid ola bilər).

H.Bußmann. Göstərilən əsər, s. 105.

АССИМИЛЯЦИЯ КОНТАКТНАЯ - alm. Kontaktsassimilation (f), unmittelbare Assimilation (f), ing. contact assimilation /'kɔntækt əˌsɪmɪ'leɪʃən/, fr. assimilation en contact, azərb. kontakt uyuşması. - Bir səsin qonşuda gələn digər səsə oxşadılması. Yanaşı gələn səslərin uyuşması. Məs.: Azərb. d. /hambal/→/hammal/, /sazlar/→/sazzar/ və s.

Bax: Ассимиляция ←.

АССИМИЛЯЦИЯ ПОЛНАЯ - alm. totale (vollständige) Assimilation (f), ing. (absolute) total assimilation /'5bsəlu:t/ 'təutl əsɪmɪ'leɪʃ(ə)n/, fr. assimilation totale, azərb. tam assimilyasiya, uyuşma. - İki müxtəlif səsin qarşılıqlı təsir nəticəsində tamamilə bir-birinə uyuşması. Məs.: Azərb. d. /isti/-/issi/, /narlar/-/narrar/, /qızlar-qızzar/ və s.

A.A.Реформатский. Göstərilən əsər, s. 204.

АССИМИЛЯЦИЯ ПРОГРЕССИВНАЯ - alm. progressive Assimilation (f), ing. progressive assimilation /prəʊ'ɡresɪv əsɪmɪ'leɪʃ(ə)n/, fr. assimilation progressive, azərb. proqressiv, irəli assimilyasiya, uyuşma. - Sonrakı samitin əvvəlki samit tərəfindən assimilasiyası. Məs.: Azərb. d. /tutdan/-/tutnan/; alm. d. /´t͡simər/←/Zimber/ (otaq).

A.A.Реформатский. Göstərilən əsər, s. 204.

АССИМИЛЯЦИЯ РЕГРЕССИВНАЯ - alm. regressive Assimilation (f), ing. regressive assimilation /rɪ'ɡresɪv əˌsɪmɪ'leɪʃ(ə)n/, fr. assimilation

downloaded from KitabYurdu.org

régressive, azərb. geri assimilyasiya. Sözdə müəyyən səsin tələffüzünün özündən əvvəl gələn qonşu səsin təsiri ilə dəyişməsi. Əvvəlki mövgedə gələn səsin sonrakı səs tərəfindən assimilyasiyası. Artikulyator fonetik termindir. Məs.: Azərb. d. /tranvay/→/tramvay/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 28.

АССИМИЛЯЦИЯ ЧАСТИЧНАЯ - alm. partielle Assimilation (f), ing. partial assimilation /ˈpɑːʃəl əsımıˈleıʃ(ə)n/, fr. assimilation partielle, azərb. qismən assimilyasiya, uyuşma. - Danışıqda qarşılıqlı şəkildə birbirinə təsir göstərən səslərin qismən assimilyasiyası. Məs.: Azərb. d. /qızlar-qızdar/, /başlamaq-başdamaq/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 28.

АССИМИЛЯЦИЯ ЭПЕНТЕТИЧЕСКАЯ - alm. epenthetische Assimiliation (f), ing. epenthetic assimilation /ɛpɛnˈ4ɛtık əˈsımıˈleıʃ(ə)n/, fr. assimilation épenthétique, azərb. epentetik assimilyasiya. - Müəyyən morfonoloji və fonetik şərtlərin təsiri altında əmələ gələn, etimoloji baxımdan özünü doğrultmayan səslərin assimilyasiyası. Məs.: qədim ing. d. /thimble/ sözü /þÿmel/ şəklini alır, bu zaman /m/ və /l/ samitləri arasına zəif bir sait girir.
P.H.Matthews. Göstərilən əsər, s. 115.

АССИРИЙСКИЙ ЯЗЫК – alm. Assyrisch (n), ing. Assyria(n) language /əˈsırıə(n) ˈl5ŋgwıʤ/, fr. langue assyrienne, l'assirien, azərb. assiriya dili. – Semit dillərindən biridir. İran ərazisində (Urmiya gölünün ətrafında), İraq ərazisində (Mosul və Bağdadın şimalında), Türkiyə ərazisində (Van gölü və Kürdistan dağlarında) yayılmışdır. Bu dildə 400 mindən çox adam danışır.
К.Г.Церетели. Современный ассирийский язык. М., 1964.

АССОНАНС (СОЗВУЧИЕ) - alm. Assonanz (f), Gleichklang (m), ing. assonance /ˈ5səunəns/ˈas(ə)nəns/,accord /əˈkɔːd/, consonance /ˈkɔnsənəns/, fr. assonance, azərb. assonans (ahəngin pozulması). - Sabit söz birləşmələrində, qafiyələrdə saitlərin həmahəngliyi və ya eynicinsli saitlərin üslubi üsul kimi təkrarlanması. Məs.: Azərb. d. /Açıq ağız ac qalmaz/. /Ucunu tutub ucuzluğa gedir/. /Ucundan tutub ucuzluğa getmək/.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 29.

АССОЦИАТИВНЫЙ АНАЛИЗ - alm. assoziative Analyse (f), ing. associative analysis /əˈsəʊʃjətıv, -sı- əˈnæləsıs/, fr. analyse associative, azərb. assosiativ təhlil (analiz). - Allofon və allomorfların müvafiq fonem və morfemlərlə əlaqələndirilməsi, yəni danışığa məxsus allofon və allomorflarla dilin müvafiq struktur ünsürlərinin əlaqəsini bərpa etmək. Məs.: Azərb. d. [dᵒ], [d'], [d̠] səslərini bir fonemin variantları hesab

downloaded from KitabYurdu.org

edilirlər. Ümumiyyətlə, psixologiyadan gələn bu təhlil metodu iki və daha artıq təsəvvür aspektinin bir şüur əlaqəsində olması prosesidir.
H.Bußmann. Göstərilən əsər, s. 106.

АССОЦИАТИВНЫЙ ПЛАН - alm. assoziativer Plan (m), ing. associative plan /əˈsəʊʃjətɪv plæn/, fr. plan associatif, azərb. assosiativ proses. – Psixologiyada iki və daha artıq təsəvvür aspektlərinin şüurda əlaqələnməsi prosesi bir neçə təsəvvür elementlərinin qarşılıqlı şəkildə üzə çıxması zaman, yer, oxşarlıq və ziddiyyət kimi müəyyən assosiasiya qanunları ilə həll olunur. Xəyala dalmaq, fikirləşmək, yaddaş kimi məsələlərin tədqiqində assosiativ plan mühüm rol oynayır. Psixodilçilikdə qıcıqlanma və reaksiya arasında əlaqələr neobiheyviorist psixoloji yanaşma baxımından müəyyən edilərək mənanın şərhində tətbiq edilir. Bu zaman vasitəsiz qıcıq yaradan sözə bağlı digər sözlərlə və vasitəli, yəni birbaşa müşahidə olunan stimul – respons – prosesləri arasındakı əldə olunan assosiasiyalar həlledici rol oynayır.
H. Hörmann. Psychologie der Sprache. Berlin, 1967.

АССОЦИАЦИЯ - alm. Assoziation (f), ing. association /əˌsəʊsɪˈeɪʃən/, fr. association, azərb. cəmiyyət, birlik, assosiasiya. – 1) Müəyyən cəmiyyət, birlik; 2) Dil vahidlərinin formal və ya məntiqi-semantik əlamətlərinə görə eyniləşməsi.
Bax: Ассоциативный план ←.

АССОЦИАЦИЯ ПО ФОРМЕ - alm. Formenassoziation (f), ing. formal-association /fɔ:m5l əˌsəʊsɪˈeɪʃ(ə)n/, fr. d'après la forme association, azərb. forma üzrə əlaqə. - Bu və ya digər formaya görə əlaqələndirmə. Azərb. d. gəminin qabaq hissəsi insan sifətində qabağa çıxan buruna oxşadığı üçün ona gəminin burnu deyirlər. Məs.: «insanın burnu», «gəminin burnu».
Bax: Ассоциативный план ←.

АССОЦИАТИВНОЕ ПОЛЕ - alm. assoziatives Feld (n), ing. associative field /əˈsəʊʃɪətɪv,-sɪ fi:ld/, fr. champ associatif, azərb. assosiativ sahə. – Müəyyən formal və məzmun əlaqələrinə, yəni sözdüzəltmə və söz mənasına əsaslanan assosiativ sahə, söz sahəsi. Məs.: alm. d. /Fahrt/ (səfər), Fähre (bərə), Gefährte (yol yoldaşı) bir-birilə formaca və məzmunca bağlıdır, onların kökündə /fährt/ (getmək) semi durur və müəyyən sözdüzəldici şəkilçilərlə bir-birindən fərqlənirlər. Eyni zamanda onlar məzmunca /reiten/ (atlı getmək), /segeln/ (avar çəkmək), /laufen/ (yüyürmək), /fliegen/ (uçmaq) fellərilə də bağlıdır. Assosiativ sahə subyektivdir, danışanın təcrübəsindən asılıdır və ona görə də linqvistik-psixoloji və stilistik maraq kəsb edir.
Ch.Bally. L'Arbitraire du signe. Valeur et signification. Paris, 1940.

АССОЦИАТИВНО-ВСПОМОГАТЕЛЬНАЯ ФУНКЦИЯ - alm. assoziative Hilfsfunktion (f), ing. associative auxiliary function

downloaded from KitabYurdu.org

/ə'səʊʃɪətɪv,-sɪ, ɔ:g'zɪljərɪ 'fʌŋkʃən/, fr. fonction associative, associative auxiliaire, azərb. assosiativ – köməkçi funksiya.
Bax: Ассоциативное поле ←.

АССОЦИАЦИЯ ЯЗЫКОВ - alm. Sprachbund (m), ing. regional association of languages /'ri:ʤənl ə,sousɪ'eɪʃən,-sɪ, əv 'l5ŋgwɪʤɪz/, language-union /'l5ŋgwɪʤ 'ju:njən/, fr. association des langues, azərb. dillərin assosiasiyası (ittifaqı). - Müxtəlif növ tarixi, coğrafi, genetik cəhətdən çox uzaq qohum, qonşu dillərin qrupları, bu dillər qarşılıqlı təsir edərək (adstratlar - dil əlaqələri) struktur baxımdan başqa dillərdən fərqlənirlər.
H.Bußmann. Göstərilən əsər, s. 698.

АТАПАСКСКИЕ ЯЗЫКИ – alm. atapasische Sprachen (Pl.), ing. Athapask(an) languages /a4ə'pask(ən) 'l5ŋgwɪʤɪz/, fr. langues athapask azərb. atapask dilləri. – Şimali Amerikanın hindi dilləri qrupuna aiddir. 40-a qədər dili özündə cəmləşdirir. Bu dillərdə danışanların ümumi sayı 250 mindən yuxarıdır. Saitlər sistemi 6 sait fonemdən ibarətdir. Mürəkkəb samitlər sisteminə malikdir. Əsasən açıq hecalıq üstünlük təşkil edir, samitlərin birləşməsi az təsadüf edilir və sait birləşmələri geniş yayılmışdır.
Г.А.Климов. Типология языков активного строя. М., 1977.

АТЕМАТИЧЕСКИЙ - alm. athematisch, themavokallos, ing. athematic /54ɪ'matɪk/, non-thematic /nɔn 4ɪ'matɪk/, fr. athématique, azərb. atematik. - Tematik saitdən (söz tərkibində morfemləri birləşdirən) məhrum olmuş, tematik saitin olmaması ilə səciyyələnən, suffiksin kökə birbaşa birləşməsi ilə yaranan. Məs.: lat. d. /fertis/ (Siz hazırsınız) sözündə şəkilçi /-tis/ tematik saitsiz kökə /fer-/ birləşib. Ancaq /dis+i+tis/ sözündə həmin şəkilçi /i/ tematik saitlə birləşib.
P.H.Matthews. Göstərilən əsər, s. 29; О.С.Ахманова. Göstərilən əsər, s.58.

АТЛАС ДИАЛЕКТОЛОГИЧЕСКИЙ - alm. dialektologischer Atlas (m), ing. dialectological atlas /daɪəlek'tɔləʤɪkəl 'atləs/, fr. atlas dialectologique, azərb. dialektoloji atlas. - Bir dilin dialekt və şivələrinin, yaxud ayrı-ayrı dialekt hadisələrinin yayıldığını əks etdirən xəritələr toplusu (bax: atlas 1).
H.Bußmann. Göstərilən əsər, s. 895.

downloaded from KitabYurdu.org

ALMAN DİLİNİN DİALEKTOLOJİ XƏRİTƏSİ



АТОМИСТИЧЕСКОЕ ПРЕДЛОЖЕНИЕ - alm. atomistischer Satz (m), ing. atomistic sentence /atəˈmıstık ˈsentəns/, fr. proposition atomistique, azərb. atomistik cümlə. – Formal məntiqdə dilin sadə cümləsi, ancaq bu əslində dilin cümləsi deyildir (məntiqi bağlayıcısı yoxdur). Deməli, /Həsən böyükdür// atomistik cümlədir, ancaq /Həsən böyük və qamətlidir// bir-birinə /və/ məntiqi bağlayıcısı ilə bağlı cümlələrdir: /Həsən böyükdür// və /Həsən qamətlidir// qenerativ semantikada kauzativ felləri təhlil əsasında atomistik predikatdan da danışılır. Bu zaman kiçik özək söyləmlərinin inventarı onların semantik məhdudiyyətlərilə tətbiq olunmaqla təsvir olunur. Məs.: Azərb. d. öldürmək = elə etmək ki, qeyri-canlı olsun.

Bax: Генеративная семантика →.

АТОМИСТИСТИЧЕСКАЯ ЛИНГВИСТИКА - alm. atomistische Linguistik (f), ing. atomistic linguistics /atəˈmıstık lıŋˈgwıstıks/, fr. linguistique atomistique, azərb. atomistik linqvistika, dilçilik. – Dilçilikdə ayrı-ayrı dil vahidlərinin (hər birini özlüyündə) araşdırmaqla məşğul olan cərəyan. Məs.: Gənc qrammatiklərin ayrı-ayrı dil formalarının bərpası ilə bağlı iş metodu.

F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005.

downloaded from KitabYurdu.org

АТОМИСТИЧЕСКИЙ МЕТОД - alm. atomistische Methode (f), ing. atomistic method /atəˈmıstık me4əd/, fr. méthode atomistique, azərb. atomistik metod. - X1X əsr dilşünaslığı üçün səciyyəvi olan dil hadisələrini ayrı-ayrılıqda, bir-birindən təcrid olunmuş şəkildə tədqiq edən dilçilik metodu.
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005.
АТОНИЧЕСКАЯ ФОРМА - alm. atonische Form (f), unbetonte Form (f), ing. atonic form /5ˈt6nık/əˈtəʊnık f6:m/, fr. forme atone, azərb. atonik, zəif forma. – 1) Sözün vurğu daşımayan şəkilçisi; 2) Vurğusuz mövqedə gələn heca və ya fonem.
АТРИБУТ (ОПРЕДЕЛЕНИЕ) - alm. Attribut (n), Beifügung (f), ing. attribute /əˈtrıbju:t/, fr. complément attributif, épithèe, azərb. 1. atribut, əlamət (qrammatik təyin). – Gənc qrammatiklərdə in. d. və roman dilçiliyində yalnız təyinlərlə bağlı işlədilirdi, halbuki ən yeni qrammatikada cümlədə feldən başqa bütün sintaktik kateqoriyalara əlavə edilən sözləri göstərmək üçün işlədilir. Bu cür sözlərin əsas funksiyası təyin etməkdir. Adətən atributiv sifət (məs.: alm. d. /das neue Buch/ (təzə kitab)), genitiv atribut (məs.: alm. d. /der Tanz des Sängers/ (müğənninin vəqsi)), prepozisional (məs.: alm. d. /die Nacht im Hotel hoteldə bir gecə/), adverbial (məs.: alm. d. /dieser Tag hier/ (buradakı bir gün)), infinitiv qrup (məs.: alm. d. /die Lust zu lieben/ (sevmək həvəsi), təyin budaq cümləsilə (məs.: alm. d. /das Buch, das mich am meisten interessiert// (məni ən çox maraqlandıran kitab) və əlavə (məs.: alm. d. /dieser Junge ein wahres Talent// (bu gənc həqiqi talant) kimi növləri fərqləndirilir.
Y.Seyidov. Azərbaycan dilində söz birləşmələri. Bakı, 1992; W.Motsch. Syntax des deutschen Adjektivs. «Studia Grammatika», Berlin, 1964.
АТРИБУТИВ - alm. attributiv, ing. attributive /əˈtrıbjutıv/, fr. attributif, azərb. təyin, təyin yerində işlədilən. - Məs.: Azərb. d. /Arxadaki ikimərtəbəli yaşıl bina…/.
Бах: Атрибут ←.
АТРИБУТИВНЫЙ (ОПРЕДЕЛИТЕЛЬНЫЙ) - alm. attributiv, beifügend, ing. attributive /əˈtrıbjutıv/, fr. attributif, azərb. attributiv, təyini. - Təyinə aid olan, təyin rolunda çıxış edən, təyin xüsusiyyətlərinə xas olan. Məs.: alm. d. /Baku ist eine schöne Stadt//.
Bax: Атрибут ←.
АТРИБУТИВНО-ПРЕДИКАТИВНЫЙ - alm. attributiv-predikativ, ing. attributive-predicative /əˈtrıbjutıv prıˈdıkətıv/, fr. attributiv-prédicatif, azərb. atributiv-predikativ. - Atributiv-predikativ funksiyaları özündə cəmləşdirən. Məs.: /qara parça/; /parçanın rəngi qaradır//.
Bax: Атрибут ←.

downloaded from KitabYurdu.org

АТРИБУТИВНАЯ СВЯЗЬ - alm. attributive Verbindung (f), ing. attributive connection (link) /ə′trıbjutıv kə′nekʃən /lıŋk/, fr. rapport attributif, azərb. atributiv, təyini əlaqə. - Təyinə aid olan, təyin rolunda çıxış edən, təyin xüsusiyyətlərinə xas olan əlaqə, atributiv əlaqə. Məs.: Azərb. d. /O elə adamdır ki, /özündən başqa heç kimi bəyənmir//. Bu təyin budaq cümləsidir, budaq cümlə /elə/ korrelatını təyin edir.
H.Seiler. Relativsatz, Attribut und Apposition. Wiesbaden, 1960.

АТРИБУТИВНЫЕ ОТНОШЕНИЯ - alm. attributive Beziehung (f), ing. attributive relation /ə′trıbjutıv rı′leıʃən/, fr. relation attributive, azərb. atributiv əlaqə.
Bax: Атрибутивная связь ←.

АТРИБУТИВНЫЕ ФОРМЫ ГЛАГОЛА - alm. attributive Verbformen (Pl.), ing. attributive verb forms /ə′trıbjutıv ′vɜ:b fɔ:ms/ fr. formes attributive du verbe, azərb. felin atributiv formaları. Məs.: alm. d. /der ˏ laofəndə ´´man//, /die ˏ ge´laofənə ´´ʃtrɛkə/; Azərb. d. /aɤlayan uşaq/, /gələžək gün// və s.
Y.Seyidov. Azərbaycan dilinin morfologiyası. Bakı, 2002, s. 269-279.

АТТРАКЦИЯ ВРЕМЕННАЯ - alm. zeitliche Attraktion (f), ing. temporal attraction /′temp(ə)r(ə)l ə′trakʃ(ə)n/, fr. attraction temporelle, azərb. zaman tarazlaşdırması. - Məs.: fr. d. /Je voulais que tu le fasse toi-meme//, (Mən bilirəm ki, bunu sən özün edəcəksən). Burada budaq cümləsinin təsiri altında baş cümlənin də xəbəri imperfektdə işlənib.
O.C.Ахманова. Göstərilən əsər, s. 59.

АТТРАКЦИЯ ОТНОСИТЕЛЬНАЯ - alm. relative Attraktion (f), ing. (comparative), relative attraction /kəm′p5rətıv/′relətıv ə′trakʃ(ə)n/, fr. attraction relative, azərb. nisbi tarazlaşdırma. - Məs.: ing. d. /When him (= he whom) we serve is away…//. Burada nisbi sifət özündən əvvəl gələnə qovuşub.
O.C.Ахманова. Göstərilən əsər, s. 59.

АУГМЕНТ - alm. Augment (m), ing. augment /ɔ:g′mɛnt/, fr. augment, azərb. auqment. – Fel kökünə əlavə edilən heca, heca auqmenti zaman formasının düzəlməsində iştirak edir. Məs.: Yunan dilində xəbər şəklinin keçmiş zamanı bu yolla düzəlir. Müq. et: yunan d. /αίδενω/ (mən tərbiyə edirəm), ancaq /έ−ραίδενω/ (mən tərbiyə etdim). Saitlə başlayan sözlərdə isə heca auqmenti saitə qarışır. Məs.: /osutto/ (mən qazıram), ancaq /ώsuttov/ (mən qazdım).
R.Conrad. Göstərilən əsər, s. 44.

АУГМЕНТАТИВНЫЙ - alm. augmentatisch, vergrößernd, ing. augmentative /ɔ:g′mɛntətıv/, fr. augmentatif, azərb. gücləndirici, şiddətləndirici. – Hərəkətin sona qədər baş verməsini qabarıq şəkildə göstərən

downloaded from KitabYurdu.org

tərz. Məs.: polyak d. /roz-/; rus d. /раз-, рас-/ sözönü. Müq. et: rus d. /разговориться/ (söhbətə başlamaq). Əksər hallarda hərəkətin başa çatmasını yox, başlanğıcını bildirir.
A.A.Реформатский. Göstərilən əsər.
АУГМЕНТАТИВУМ – alm. Augmentativum (n), Amplifikativum (n), Vergröbungswort (n), Vergrößerungswort (n), ing. augmentativum /ɔ:gˈmɛntətıvim/, fr. augmentatif, -ve, azərb. auqmentativum. – Sifətlərdən düzələn isimlər, sözün mənasını kobudlaşdırır və ya böyüdür. Məs.: rus d. /домище/ (çox böyük ev), /книжище/ (çox böyük kitab).
R.Conrad. Göstərilən əsər, s.44.
АУСЛАУТ (ИСХОД СЛОВА) - alm. Auslaut (m), ing. auslaut/ˈaʊslaʊt/, ultima /ˈʌltımə/, fr. auslaute, (finale), azərb. auslaut (sözün sonu). - Sözün və morfemin mütləq sonluğu. Məs.: alm. d. /ˈˌzɑ:t/, /ˈlɑnt/ və s.
АУСЛАУТНЫЙ ЗВУК - alm. Auslaut (m), Endlaut (m), ing. auslaut sound /ˈaʊslaʊt saund/, fr. son auslaute, azərb. auslautlu səs. - Əsasın və ya sözün sonunda gələn səs. Alm. d. auslaut qanunu var. Bu qanuna görə söz və morfemlərin sonunda cingiltili samitlər və qısa saitlər işlənə bilməz. Rus d. də söz sonunda cingiltili samitlər işlənmir. Azərb. d. isə söz sonunda samitlər karlaşır, kipləşən-partlayışlı tələffüz olunurlar. Məs.: Azərb. d. /ad/, /od/, /ətʰ/, /mətʰ/ və s.
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005.
АУСТРОАЗИАТСКИЕ ЯЗЫКИ – alm. austroasiatische Sprachen (Pl.), ing. Austro-Asia(n) languages /ˈɔstrəʊ ˈeɪʃ(ə)(n),-=(ə)n ˈl5ŋgwıʤız/, fr. langues austro-asiatique, azərb. austro-Asiya dlləri. – Cənub-Şərqi, cənubi Asiyanın, habelə Hind okeanında bir sıra adaların əhalisinin (95 milyon) danışdıqları dillər ailəsi. Bu dillər ailəsinə 8 dil qrupu daxildir: semanq-sakay, vyetnam, mon-kxmer, palaunq, nikobar, kxasi, munda, naqali.
А.Ю.Ефимов. Некоторые проблемы развития фонаций в моно-кхмерских языках. М., 1978.
АФАЗИЯ - alm. Aphasie (f), ing. aphasia /5ˈfeızjə/əˈfeızıə/, fr. aphasie, azərb. afaziya. - Afaziya əsəb sisteminin pozulması ilə bağlı danışıq və eşitmə qabiliyyətinin itirilməsi. Afaziya danışığın düzgün qrammatik tərtibatının pozulmasından, lazım olan sözlərin seçilməsində və tələffüzündə danışanın səhvə yol verməsindən ibarətdir. Afaziya beynin aldığı müxtəlif cür zərbələrin, qıc olma və şişlərin nəticəsində yaranır. Nevropatoloqlar afaziyanın iki növünü göstərirlər: motor – xəstədə dili anlamaq və yazı qabiliyyəti qalır, ancaq danışıq üzvləri zədələnmədən spontan danışıq qabiliyyəti pozulur; sensor - xəstə danışılanı başa düşmür, ancaq spontan danışıq qabiliyyəti qalır, yazılı ifadə və oxu da

downloaded from KitabYurdu.org

mümkün olur. Adətən, afaziyanın bu növlərinə ayrılıqda rast gəlinmir. Sensor afaziyadan əziyyət çəkənlər motor, yəni, danışığını düzgün qurmaqda da xeyli çətinlik çəkirlər.
Р.О.Якобсон. Детский язык, афазия и общие звуковые законы. 1949-cu il almanca «Kindersprache, Aphasie und allgemeine Lautgesetze» (Stockholm) əsərin tərcüməsi, «Qeydlər» və «Şərhlər» prof. F. Yadıgarın (Veysəllinindir). Bakı, 1993.
АФАТИК - alm. Aphatiker (m), ing. aphasiaer /ə'feɪzɪə/, fr. aphatique, azərb. afatik. - Danışığında beyin yarımkürəsinin zədələnməsi nəticəsində qüsurları olan şəxs.
Bax: Афазия ←.

АФАТИЧЕСКИЙ - alm. aphatisch, ing. aphasish /ə'feɪzɪʃ/, fr. aphatique, azərb. afatik. – Bax: Афазия ←.
АФГАНСКИЙ ЯЗЫК – Bax: Пушту →.
АФЕРЕЗА - alm. Aphärese (n), Deglutination (f), ing. aphesis /eɪfɪsɪs/, fr. aphezise, azərb. afereza. – Sözün anlautunda səsin düşməsi, itməsi. Bu anlaut səhvən artiklin və ya sözönünün bir hissəsi kimi başa düşülür, ona görə də düşür. Məs.: /Lazur - Azur/ və s.
R.Conrad. Göstərilən əsər, s. 36.
АФОРИСТИЧЕСКИЙ (ГНОМИЧЕСКИЙ) - alm. aphoristisch, gnomisch, ing. aphoristic /'afərɪstɪk/, gnomic(al) /'gnəumɪk(əl)/, fr. aphoristique, (gnomique), azərb. aforizm, aforistik (indiki zaman). - Ümumiləşmiş ifadələrdən (atalar sözləri, zərb məsələlər, hikmətli sözlərdən) istifadə olunan və hal-hərəkəti danışan vaxtda inkar etməyən indiki zaman (zamandanxaric forma). Məs.: Azərb. d. /Nə tökərsən aşına, o da çıxar qaşığına//.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 30.
АФОРИСТИЧНОСТЬ - alm. Aphorismus (m), ing. aphorism character /ˌ5fə'rɪsm 'k5rɪktə/, fr. aphoristique, azərb. aforizm şəklində olma, aforizm mahiyyətində olma. - Məs.: Azərb. d. /gaş qayırdığı yerdə göz çıxartdı//.
Bax: Афористический ←.
АФРАЗИЙСКИЕ ЯЗЫКИ – alm. afrazische Sprachen (Pl.), ing. Afro-Azian languages /'afrəʊ'eɪʃ(ə)n, -=(ə)n 'l5ŋgwɪʤɪz/, fr. langues afro-asiatiques, azərb. afraz dilləri. – Bu dillər Afrikanın şimal hissəsində, Kanar adalarında, Qırmızı dənizin sahillərində, həmçinin Qərbi Asiyada və Malta adasında yayılmışdır. Bu dillərdə üst-üstə 260 milyondan artıq adam danışır. Afraz dilləri beş qola ayrılır: semit dilləri, qədim misir dilləri, bərbər-liviya dilləri, çad dilləri və omot dilləri.
И.М.Дъяконов. Семито-хамитские языки. М., 1965; И.М.Дъяконов. Языки древней Передней Азии. М., 1967.

downloaded from KitabYurdu.org

АФРИКААНС (БУРСКИЙ) ЯЗЫК – alm. Affrikaans Sprache (f), ing. Afrikaans language /afrɪˈkɑːns ˈlɔŋgwɪʤ/, fr. langue africaanse, azərb. afrikaans (buz) dili. – German dillərindən biridir. CAR-ın rəsmi dövlət dillərindən biridir. Əsasən Transvaal əyalətində yayılmışdır. Afrikaans dili XVII əsrdə Niderland dilinin dialektlərinin, qohum dillərin (alm. və ing.) qarışması və inteqrasiyası nəticəsində yaranmışdır. Fonetik sistemi Niderland dilinin fonetik sisteminə yaxındır. Saitlərin müəyyən fonetik mövqedə burunlaşması və söz əvvəlində cingiltili novlu samitlərin karlaşması səciyyəvi xüsusiyyətlərindəndir.
С.А.Миронов. Африкаанский язык. М., 1969.

АФФЕКТИВНЫЙ (ЭМОЦИОНАЛЬНЫЙ) - alm. affektiv, emotional, ing. affective /əˈfektɪv/, highly emotional /ˌhaɪlɪ ɪˌmə-ʃn(ə)l/, fr. affective (émotionnel,-le), azərb. affektiv (emosional). - Subyektiv münasibət, əhval-ruhiyyə, hiss ifadə edən. Buna bəzən emotiv, ekspressiv də deyirlər.
P.H.Matthews. Göstərilən əsər, s. 10.

АФФЕКТИВНАЯ ИНТОНАЦИЯ - alm. affektive, emotionale Intonation (f), ing. affective intonation /əˈfektɪv ˌɪntəuneɪʃ(ə)n/, fr. intonation affective, azərb. affektiv intonasiya. – Emosional danışıqda dinləyənin diqqətini daha çox cəlb etmək üçün işlənir. Məs.: Azərb. d. /Yoldaşlar, biz bu il pambıq planını artıqlaması ilə yerinə yetirəcəyik//.
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005.

АФФЕКТИРОВАННОЕ УДАРЕНИЕ - alm. affektierende Betonung (f), ing. emphatic accent (stress) /ɪmˈfɔtɪk ˈɔksənt/stress/, affected accent /əˈfektɪd ˈɔksənt/, fr. accentuation affectée, azərb. xüsusi qeyd edilən, vurğulanan, ifadəli vurğu. - Asılı üzvün əsas mövqeyə keçməsini müşayət edən vurğu. Məs.: ing. d. normal danışıqda belə deyilir: /I have finished it//, ancaq bu fikri şəstlə, lovğalıqla deyəndə belə səslənir /I have actually finished it//.
P.H.Matthews. Göstərilən əsər, s. 10.

АФФИКС - alm. Affix (n), ing. affix /ˈɔfɪks/, fr. affixe, azərb. affiks. - Söz tərkibində işlənib, onun qalan hissəsinin məna, forma və funksiyasını dəyişdirən morfem. Ümumi dilçilikdə bunlara formant və ya formal morfemlər də deyirlər. Affiks termini ilk dəfə yəhudi qrammatikasında 1506-cı ildə işlənmişdir. Söz tərkibindəki mövqeyinə uyğun olaraq affikslər müxtəlif növlərə bölünürlər: önşəkilçisi (prefiks), içşəkilçisi (infiks), son şəkilçi (suffiks). - İç şəkilçi söz kökünə daxil edilməklə onu dəyişdirən şəkilçidir. Bu şəkilçilər Azərbaycan dili üçün səciyyəvi deyildir. Önşəkilçiləri söz kökünün önünə artırılır. Bu qəbildən olan şəkilçilər dilimizə ərəb və fars dillərindən keçmədir. Qeyd: Son dövrlərdə artıq dilimizdə (bi-, na-) şəkilçilərinin əvəzinə onların ekvivalenti olan son şəkilçilər işlədilir. Məs.: /bimürvət – mürvətsiz/, /nainsaf – insafsız/

downloaded from KitabYurdu.org

və s. Son şəkilçi sözün sonuna artırılan şəkilçilər Azərbaycan dili üçün daha səciyyəvidirlər. Bunlar aşağıdakı kimi təsnif olunurlar: a) sözdüzəldici şəkilçilər (artırıldığı sözlərdən yeni sözlər əmələ gətirənlər). Məs.: Azərb. d. /dəmir/ + /çi/; b) sözdəyişdirici şəkilçilər (sözün morfoloji və sintaktik əlaqələrini göstərən şəkilçilərdir: hal, şəxs, zaman və s. şəkilçiləri). Məs.: Azərb. d. /at/, /atın/ və s. Məhsuldarlığına görə şəkilçilər iki yerə bölünürlər: a) məhsuldar şəkilçilər (yəni, daha çox işlənən) şəkilçilər; b) qeyri-məhsuldar şəkilçilər (çox az işlənən şəkilçilər). Tərkibinə görə də şəkilçilər iki yerə bölünürlər: a) mürəkkəb; b) sadə şəkilçilər. Sadə şəkilçilər daxili morfemlərə bölünməyən şəkilçilərdir. Məs.; /yaz – yaz – ı/, /su – su – lu/. Mürəkkəb şəkilçilər – daxili morfemlərə bölünən şəkilçilərdirlər. Məs.: Azərb. d. /dəmir+çilik/.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 30; Y.Seyidov. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı, 1992.

АФФИКС СЛОВОИЗМЕНИТЕЛЬНЫЙ - alm. wortveränderndes Affix (n), ing. inflexional affix /ɪnˈflekʃənəl ˈ5fɪks/, fr. affixe flectionnel, azərb. söz dəyişdirici şəkilçi. Azərb. d. (in)[4] sözdəyişdirici şəkilçilərdir. Məs.: /at+ın/, /ət+in/, /ot+un/, /üz+ün/ və s.
Y.Seyidov. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı, 1992.

АФФИКС СЛОВООБРАЗОВАТЕЛЬНЫЙ - alm. wortbildendes Affix (n.), ing. derivational (word-building) affix /ˌderɪˈveɪʃənəl /wɜ:d ˈbɪldɪŋ/5fɪks/, fr. affixe formatif, dérivation affixale, azərb. sözdüzəldici şəkilçi. Azərb. d. (li)[4], (çi)[4] sözdüzəldici şəkilçidir. Məs.: /dağ+li/, /dəmir+çi/ və s.
Y.Seyidov. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı, 1992.

АФФИКСАЛЬНЫЙ - alm. affixal, ing. affixal /ˈ5fɪksəl/, fr. affixal, azərb. affiksal.
Bax: Аффикс ←.

АФФИКСАЛЬНАЯ МОРФЕМА - alm. affixales Morphem (n), ing. affixal morpheme /ˈ5fɪksəl ˈmɔ:fi:m/, fr. morphème affixal, azərb. affiksal morfem.
Bax: Аффикс ←.

АФФИКСАЛЬНОЕ СЛОВООБРАЗОВАНИЕ (ДЕРИВАЦИЯ) - alm. affixale Wortbildung (f), Derivation (f), ing. affixal word-building (derivation) /ˈ5fɪksəl wə:d ˈbɪldɪŋ/ˌderɪˈveɪʃ(ə)n/, fr. dérivation affixale, azərb. affiksli sözdüzəltmə. Azərb. d. (sız)[4] şəkilçisi ilə düzələn sözlər. Məs.: /ağıl+sız/, /ət+siz/ və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 61.

АФФИКСАЦИЯ (ПРОГРЕССИВНАЯ ДЕРИВАЦИЯ) - alm. Affigierung (f), (progressive Derivation) (f), ing. affixation /ˌ5fɪkˈseɪʃən/, progressive derivation /prəuˈgresɪvˌderɪˈveɪʃ(ə)n/, fr. affixation,

downloaded from KitabYurdu.org

(dérivation progressive), azərb. affiksasiya, şəkilçi qəbul etmə. - Kök və əsaslara şəkilçilərin artırılmasından ibarət morfoloji proses. Məs.: alm. d. /´le:r+ər/ (müəllim), ing. d. /´ti:tʃ+ər/ (müəllim) və s.
H.Bußmann. Göstərilən əsər, s. 53.

АФФИКСИРУЮЩИЕ ЯЗЫКИ - alm. affigierende Sprachen (Pl.), ing. affixing languages /ə'fıksıŋ 'l5ŋgwıʤız/, fr. langues affixales, azərb. affiksli dillər. - Flektiv dillərdən fərqli olaraq söz formalarını affikslərin köməyilə düzəldən dillər. Hind-Avropa və türk dilləri buna misal ola bilər.
H.Bußmann. Göstərilən əsər, s. 53.

АФФИКСОИД - alm. Affixoid (m), Halbaffix (n), ing. semi-affix /semı 'afıks/, fr. affixoïde, azərb. affiksoid. - Affiks (şəkilçi) funksiyasını yerinə yetirən kök morfem. Məs.: rus d. /Полусон/ sözündə (полу - prefiksoid), литературовед sözündə isə (-вед suffiksoiddir).
H.Bußmann. Göstərilən əsər, s. 53.

АФФРИКАТА - alm. Affrikata (f), Verschlußengelaut (m), ing. affricate /'afrıkət/, fr. affriquée, azərb. afrikat iki samitin birləşməsindən alınan səs. Məs.; rus d. «ц» (t͡s) və «ч» (ʧ), Azərb. d. «ç» (ʧ) və «c» /ʤ/. Tələffüzü zamanı partlayışın nova keçməsilə düzələn səs. Afrikat bir morfem daxilində bölünməz fonemdir. Məs.: Azərb. d. iki afrikat var: /ʤ/, /ʧ/; alm. d. 3 afrikat var: /t͡s/, /tʃ/, /p͡f/.
F.Veysəlli (Yadigar). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

АФФРИКАТА ГУБНО-ГУБНАЯ - alm. Labialaffrikata (f), ing. bilabial affricate /baı'leıbjəl 'afrıkeıt/, fr. affriquée bi-labiale, azərb. qoşadodaq afrikatı. - Alt dodağın üst dodağa və ya üst dişlərə az ya çox yaxınlaşması, toxunması ilə tələffüz edilən samitlər. Alm. d. /p͡f/ buna misal ola bilər.
F.Veysəlli (Yadigar). Lehrbuch der deutschen Phonetik. Baku, 1989.

АФФРИКАТА ДОРСАЛЬНАЯ - alm. dorsale Affrikata (f), ing. dorsal affricate /'dɔ:səl 'afrıkeıt/, fr. affriquée dorsale, azərb. dorsal afrikat. - Dilin üst hissəsinin fəal iştirakı ilə yaranan samitlər. Məs.: alm. d. /t͡s/, /tʃ/; Azərb. d. /ʤ/, /ʧ/.
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005.

АХВАХСКИЙ ЯЗЫК – alm. Ahwahisch (n), ing. Akwakh-language /ə'kw5k 'l5ŋgwıʤ/, also, /akhvakhs/, fr. langue Akhwakhe, azərb. axvax dili – Avar-and-tsex dillər ailəsinin avar-and yarımqrupuna daxildir. Dağıstanın Axvax və Sovetski bölgələrində yayılmışdır. 6 minə qədər daşıyıcısı vardır. İki dialekti vardır: şimal və cənub.
З.И.Магомедбеков. Ахвуахский язык. Тбилиси, 1967.

downloaded from KitabYurdu.org

АХЛАУТ - alm. Achlaut (m), ing. Ach-laut /ak'laʊt/, fr. achlaute, azərb. axlaut. - Dilarxası kar samit. Məs.: alm. d. «ch» hərf birləşməsinin arxa sıra saitlərin qonşuluğunda /x/ kimi tələffüzünü nəzərə çarpdırmaq üçün işlənən termindir. Məs.: «acht» /˃'axt/ (səkkiz), «lachen» /'laxən/ (gülmək). Bundan fərqli olaraq «ch» hərf birləşməsinin ön sıra saitlərinin qonşuluğunda tələffüzünü nəzərə çarpdırmaq üçün «Ich - laut» terminindən istifadə olunur. Məs.: «ich» /˃iç/ (mən), «Milch» /'mılç/ (süd). N.S.Trubeskoy /x/ və /ç/-ni eyni fonemin variantları hesab edirdi. Sankt – Peterburq məktəbi isə onları müxtəlif fonemlər kimi götürür.
F.Veysalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989.

АХРОНИЯ - alm. Achronie (f), ing. achrony /ˌ5krəʊ'nı/, fr. achronie, azərb. axroniya. - Dil hadisələrinin linqvistik araşdırılmasında zaman faktorunun istisnasını (linqvistik tədqiqatlardan xaricini) tələb edən və insan dilinin xüsusiyyətlərinin ümumilikdə öyrənilməsini qarşısına məqsəd qoyan yanaşma. Belə tədqiqatlar nəticəsində müəyyənləşdirilən xüsusiyyətlər əslində heç bir zaman dəyişmir və dilin bütün inkişaf mərhələlərində özünü büruzə verir.
O.C.Ахманова. Göstərilən əsər, s. 62.

– Б –

БАВАРСКИЙ ДИАЛЕКТ – alm. die bayrische Mundart (f), Bayrisch (n), ing. Bavaria(n) dialect /bə'vɛ:rıə(n) 'dʌıəlɛkt/, fr. dialecte Bavarois, azərb. bavariya dialekti. – Bavariyanın şərqində ən böyük alman dialekti. Əsas əlaməti /a/ və /â/-nın /ɔ/və /ɔ:/-ya keçməsilə səciyyələnir. Məs.: «Acker» → /ɔka/, «Ader» → /ɔ:da/, /a"/ və /œ/- nin /a/ və ya /a:/- ya keçməsi. Müq. et: /Nächte/ → /naxt/, «Käse» → /ka:s/. Leksik səiyyədə «Donnerstag» (cümə axşamı), «Dienstag» (çərşənbə axşamı) əvəzinə müvafiq olaraq /Pfinztag/, /Erchtag/ və s. işlənir.
H.Bußmann. Göstərilən əsər, s. 120.

БАГВАЛИНСКИЙ ЯЗЫК – alm. Bagvalisch (n), ing. Bagvalin language /'b5gvəlın 'l5ŋgw9ʤ/, fr. langue bagvaline, azərb. baqvalin dili. – Avar-ando-tsez dillərinin and dil yarımqrupuna məxsus dillərdən biridir. Dağıstanın Sumadin və Axvax rayonlarında yayılmışdır. Bu dildə 4 minə qədər adam danışır. Üç dialektə bölünür: Kvanda və Qemerso kəndlərinin, Tlondod və Xuştad kəndlərinin və Tlisi və Tlibişo kəndlərinin dialektləri. Yazısız dildir.
T.E.Гудава. Багвалинский язык. «Языки народов СССР», т. 4, М., 1967.

downloaded from KitabYurdu.org

БАГИРМИ - alm. Bagirmi (n), ing. Bagirmi /ˈbaɡırmı/, fr. langue bahirmienne, azərb. baqirmi. – Mərkəzi Sudan dil qruplarına aid dildir. Çad respublikasında yayılmışdır. Təqribən 1,5 milyon daşıyıcısı vardır. Yazısız dildir.
H. Gaden. Essai de qrammaire de la langue baguirmienne. R., 1909.
БАЗА – alm. Basis (f), Grundlage (f), ing. base /beɪz/, basis /ˈbeɪsɪs/, foundation /faundeɪʃ(ə)n/, fr. base, azərb. baza, əsas. – 1) Kök morfem; 2) Mürəkkəb quruluşlu sözlərin əsas hissəsi; 3) Sözün ilkin leksik mənasını özündə cəmləşdirən iki (üç) samitlərin məcmusu. N.Xomskinin törəmə qrammatikasında dilin sintaksisi iki cür qaydalar sisteminə bənzədilir: 1. Bazis sistemi, bu alt qatlarını (strukturları) törədir; 2. Transformasiya sistemi, bu da dilin üst qatlarını (strukturları) yaradır. Bazis sistemi dərindəki qrammatik əlaqələri abstrakt formada törədir (baza struktural qrammatikanın əvəzetmə qaydaları). Transformasiya qaydaları isə udulma, yenidən düzəlmə və yanaşma üçün mövcud qaydalardır. Bazis qaydaları yeni söyləmlərin əmələ gəlməsini nəzərə alır, yəni formaların əvəzedici qaydalarıdır. Məs.: A…S, burada fraza struktur qrammatikasının inisial göstəriciləridir, onlar bazis əmələ gətirir.
N.Chomsky. Cartesianische Linguistik. Ein Kapitel in der Geschichte des Rationalismus. Konzepte der Sprach- und Literaturwissenschaft. Tübingen, 1971, s. 56-57.
БАЗА АНАЛОГИЧЕСКАЯ - alm. analogische Basis (f), ing. analogic(al) basis /ˌɔnəˈlɔdʒɪkəl beɪsɪs/, basis of analogy /əˈnɔləʤɪ əv beɪsɪs/, fr. base analogique, azərb. analoji baza. - Bənzər söz düzəltmək üçün nümunə olan söz. Məs.: Azərb. d. /dolma/ sözünün /doldurmaq/ sözündən düzəlməsi.
O.C.Ахманова. Göstərilən əsər, s. 62.
БАЗА АРТИКУЛЯЦИОННАЯ - alm. Artikulationsbasis (f), ing. articulation basis /ɔːˌtɪkjuˈleɪʃən ˈbeɪsɪs/, fr. base articulation, azərb. artikulyator baza. - Müəyyən bir dildəki səslərin tələffüzü üçün danışıq üzvlərinin bütün hərəkətlərinin məcmusu.
Bax: Артикуляционная база ←.
БАЗА ВИРТУАЛЬНАЯ - alm. virtuelle Basis (f), ing. virtual basis /ˈvəːtjuəl ˈbeɪsɪs/, fr. base virtuelle morphologique, azərb. mümkün morfoloji baza. - Morfoloji cərgənin üzvlərinin bir-birinə bilavasitə əlaqəsinin yolu ilə deyil, vasitəsiz, yəni hər hansı bir söz formanın elementlərinin morfonolojiləşməsi nəticəsində yaranan baza. Məs.: rus d. /мал-(ина) və сморoд-(ина)/ virtual morfoloji baza təşkil edir, çünki onlar bilavasitə leksem səviyyəsində bağlılığı ilə deyil, hər ikisində /-ина/ morfem olması ilə seçilir.
O.C.Ахманова. Göstərilən əsər, s. 62.

downloaded from KitabYurdu.org

БАЗА СЛОВООБРАЗОВАТЕЛЬНАЯ - alm. derivative Basis (f), wortbildende Basis (f), Wortbildungsbasis (f), ing. derivational basıs /derı'veıʃnəl 'beısıs/, word-formative basis /'wɜ:d 'fɔ:mətıv 'beısıs/, fr. base de formation des mots, azərb. sözdüzəldici baza. - Müəyyən bir dilin sözdüzəltmə sisteminin əsasını təşkil edən struktur morfoloji xüsusiyyətlərin məcmusu. Məs.: alm. d. sifətlərə /-heit/ şəkilçisi əlavə eiməklə sifətlər düzəltmək olur. Müq. et: /frei/+heit/ → /Freiheit/ (azadlıq), /schön/+/heit/ → /Schönheit/ (gözəllik) və s.
R.Conrad. Göstərilən əsər, s.48.

БАЗИСНЫЙ АНГЛИЙСКИЙ – alm. Basisenglisch (n), ing. Basic English /'be9sık 'ıŋglıʃ/, fr. l'anglais de base, azərb. əsas ingilis dili.
Bax: Базисный язык →.

БАЗИСНЫЙ КОМПОНЕНТ – alm. Basiskomponente (f), ing. basic component /'beısık kəm'pəunənt/, fr. constitutive de base, azərb. bazis (əsas) komponenti. – Törədici transformasiya qrammatikasında ümumi qrammatikanın fraza struktur qaydalarından (Phrasestrukturregeln), subkateqorizasiya qaydalarından (Subkategorisierungsregeln) və leksikondan ibarət olan cümlələr sinfi düzəldir. Bunlar qrammatikanın transformasional komponenti üçün verilən strukturlardır.
H.Bußmann. Göstərilən əsər, s. 122.

БАЗИСНАЯ МОРФЕМА – Bax: Корень →.

БАЗИСНАЯ СТРУКТУРА – Bax: Глубинная структура →.

БАЗИСНЫЙ ЯЗЫК – alm. Basissprache (f), ing. basic language /'beısık 'l5ŋgw9ʤ/, fr. langue de base, azərb. bazis dili. – İngilis məntiqçisi C.K.Oqden 1930-cu ildə ingilis dilinin Beynəlxalq ünsiyyət dilinə çevriləmsini təklif edib. O, qrammatik cəhətdən qüsursuz sayılan ingilis dilini əcnəbilər üçün yararlı hala salmaq üçün onu sadələşdirdi, onda daha az qrammatik forma saxladı ki, onları yaxşı yadda saxlamaq olsun. Məs.: O, /to be/ (olmaq) felinin 7 formasını və bir neçə qaydasız sayların düzəlişini saxladı.

Amma yenə çətinliklər qalırdı. Qüvvətli fellərin keçmiş zaman forması qaydaya tabe olmadığından bu fellər bir-bir öyrənilməlidir. Bu çətinliklərin aradan qaldırılması Oqdenin əsas vəzifəsi idi. O, bunu «Basic English» («British-American Scientific International Commersial English» - Britaniya-Amerika Elmi Beynəlxalq Kommersiya ingiliscəsi) adlandırırdı. O, felləri, demək olar ki, tamam uzaqlaşdırır, bu da yalnız öyrənilməsi vacib olan 20 000 söz və ifadə demək idi. Bəzi mənbələrə görə Oqden 18 fel saxlayır, yerdə qalanlarını feli birləşmə ilə verir. Məs.: /to put a guestion/ (sual vermək), (soruşmaq) /to ask/ əvəzinə, /to give money/ (almaq) əvəzinə /to buy/ və s.

Qrammatikanı bu yolla sadələşdirmək olar, amma sözləri azaltmaq qeyri-mümkündür. Elə buna görə Oqden ingilis dilinin söz fondunu

downloaded from KitabYurdu.org

maksimum azaldıb yalnız tələbatı ödəyən sözləri saxlayıb. Bunun üçün sözləri yalnız bir dəfə işlətməklə o, cəmi 850 söz seçir. Bu sözlər təkcə əcnəbilər üçün deyil, həm də ingilislərin özləri üçün nəzərdə tutulur.
Bu dildə cəmin yalnız /-s/-lə düzələn forması vardır, müqayisə isə yalnız more/most ilə düzəlir. Bu dil dünyada köməkçi dil funksiyasını yerinə yetirməli idi, özü də 60 saatda öyrənilə bilər.
F.Veysəlli. Dil, cəmiyyət və siyasət. Bakı, 2004, s. 46-47.

БАКТРИЙСКИЙ ЯЗЫК – alm. Baktrisch (n), ing. Bactria(n) language /ˈbaktrıə(n) ˈl5ŋgw9ʤ/, fr. langue bactérienne, azərb. baktriya dili. – İran dillərindən biridir (ölü dildir). Amudərya çayının sahili boyunda və Qissar aşırımında yayılmışdır. Kuşan şahlığının rəsmi dövlət dili olmuşdur.
И.М.Стеблин-Каменский. Бактрийский язык. М., 1981.

БАЛКАНИСТИКА – alm. Balkanistik (f), ing. Balcani studies /ˈbɔ:lkənı: st∧dız/, fr. étude balkanique, azərb. balkanşünaslıq. – Balkan xalqlarının dili, ədəbiyyatı və mədəniyyəti haqqında elm. Buraya həmçinin balkan dillərinin (alban, bolqar, makedon, serbxorvat, rumın və yeni yunan dilləri aiddir) öyrənilməsi də daxildir.

БАЛЛИСТИЧЕСКОЕ ДВИЖЕНИЕ - alm. ballistische Bewegung (f), ing. ballistic movement /bəˈlıstık ˈmu:vmənt/, fr. mouvement balistique, azərb. ballistik hərəkət (yerdəyişmə). - Samitlərin tələffüzü zamanı hava dəhlizinin daralması, yaxud maneələrin əmələ gəlməsilə nəticələnən danışıq üzvlərinin hərəkəti.
O.C.Ахманова. Göstərilən əsər, s. 63.

БАЛТИЙСКИЕ ЯЗЫКИ – alm. baltische Sprachen (Pl.), ing. Baltic languages /ˈbɔ:ltık/ ˈbɔlt ˈl5ŋgw9ʤız/, fr. les langues baltees, azərb. baltika dilləri. – Hind-Avropa dilləri qrupu. Baltika dilləri şərqi baltikyanı (Latviya, Litva və Polşanın şimal-şərqini və qismən də Belorusiya) əraziləri əhatə edir. 1845-ci ildən bu dilləri hind-Avropa dillərinin baltik dilləri qrupu kimi ümumi ad altında birləşdirilməsinə cəhd göstərilib. Müasir Baltik dilləri latış və litov dilləridir (bəzən dilçilər latqal dilini də qeyd edirlər). Ölü Baltik dillərinə pruss dili (Şərqi Prussiyada, bu dilin daşıyıcıları hal-hazırda alman dilində danışırlar), yatvyaj, kurş, selon, qalind və s. dilləri daxildirlər.
E.Frankens. Die baltischen Sprachen. Heidelberg, 1950; В.Н.Топоров. Балтийские языки. «Языки народов СССР» т. 1.М.1966.

БАЛТИСТИКА – alm. Baltistik (f), ing. Baltiısic studies /ˈbɔ:ltıstık/ˈbɔlt st∧dız/, fr. étude baltique, azərb. baltikşünaslıq. – Baltik dilləri, ədəbiyyatları və mədəniyyətləri haqqında elm.
Bax: Балтийские языки ←.

БАЛУЧИ – Bax: Курдский язык →.

downloaded from KitabYurdu.org

БАМАНА – alm. Bamana-Sprache (f), ing. Bamana language /baˈma:nə ˈl5ŋgw9ʤ/, fr. langue bamana, azərb. bamana dili. – Manda dillərindən biridir. Malinke və diula dilləri ilə birlikdə mandinqo dil birliyini əmələ gətirir. Mali (fransız dili ilə bərabər bu dövlətin ikinci rəsmi dövlət dilidir), Seneqal və Qvineyada yayılmışdır. 3 milyona qədər daşıyıcısı vardır. Çoxlu sayda dialektlərə bölünüb: bamako, senqu, kalonqe, koqoro və s. Zəngin saitlər sisteminə malikdir. Tonal dildir, lakin bu cəhət kifayyət qədər araşdırılmamışdır. 1967-ci ildə latın qrafikası əsasında yazısı tərtib olunmuşdur.

M.Delafosse. La lanque mandinque et ses dialektes (malinke, bambara, dioula). t.1. P., 1929.

БАМБАРА - Вах: Манде →.

БАНТОИД – Вах: Бенуэ-конголезский →.

БАНТУ ЯЗЫКИ - alm. Bantu-Sprachen (Pl.), ing. Bantu languages /banˈtu:/ˈbantu: ˈl5ŋgw9ʤız/, fr. langues bantu, azərb. bantu dilləri. – Benue-konqlez dilləri yarımqrupuna daxildir. Afrikanın mərkəzində və cənubunda yayılmışdır. Təqribən 160 milyona qədər insanın ünsiyyət vasitəsidir. Bu dillərdə fonemlərin kəmiyyəti müxtəlifdir: 53-dən 22-ə qədər artıb-azalır. Tipoloji cəhətdən aqqlütinativ dillərə aiddir.

Н.В.Громова. Части речи в языках банту и принципы их разграничения. М., 1966; И.Н.Топорова. Типология фонологических систем языков банту. М., 1975.

БАРИТОНИЧЕСКИЙ - alm. Bariton (m), ing. baritone /ˈb5rıtoun/, fr. baryton, azərb. bariton. – 1) Tenorla (ən yüksək kişi səsi), bas (ən aşağı kişi səsi) arasında orta mövqedə olan kişi səsi; 2) Bu səsə malik adam; 3) Nəfəsli mis alət.

Л.В.Бондарко. Звуковой строй современного русского языка. М., «Просвещение», 1977; F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

БАРИТОННЫЙ (ГОЛОС) - Вах: Баритонический ←.

БАРЬЕРНАЯ ТЕОРИЯ – alm. Barrieren-Theorie (f), ing. barrier-theory /ˈbarıə ˈ4ıərı/, fr. théorie de barriére, azərb. baryer (maneə) nəzəriyyəsi. – N.Xomskinin «Barriers» kitabından sonra (1986) idarə əlaqələrini vahid mövqedən şərh edən nəzəriyyədir. Burada sadələşməyə can atılır ki, bu da idarənin hüdudlarını və çərçivəsini müəyyənləşməsinin mərkəzində maneə kimi durur.

N.Chomsky. Barrieres. Cambridge Mass., 1986.

БАСКСКИЙ ЯЗЫК - alm. Baskisch (n), ing. Basque languages /b5sk/ba:sk ˈl5ŋgw9ʤ/, fr. langue basque, azərb. bask dili. – Geneoloji baxımdan təcrid olunmuş dildir. Basklar ölkəsinin (İspaniyada muxtar əyalətdir) rəsmi dövlət dillərindən (ispan dili ilə yanaşı) biridir. Fransada Atlantik Pireneyində məişət dili səviyyəsində işlədilir. Bu dildə Fransada

downloaded from KitabYurdu.org

130 min, İspaniyada isə 500 minə qədər insan danışır. Əsasən iki dialektə bölünür: qərbi (biskay dialekti); mərkəzi-şərqi (qipuskoan dialekti). Bask dilinin fonoloji sisteminin saitləri ispan dilinə çox yaxındır. Zəngin şəkilçiləri olan bu dil morfologiyasına görə aqqülitinativ dillərə aiddir. Sintaktik baxımdan erqativ dildir. Söz sırası mübtəda, tamamlıq, xəbər (MTX) – modelidir.

В.Шимарев. Очерки по истории языков Испании. М.-Л., 1941; R. Lafon. Le susteme du verbe basque au xvı siecle. t. 1-2, Bordeaux, 1943.

БАШКИРСКИЙ ЯЗЫК - alm. Baschkirisch (n), ing. Bashkir languages /baʃˈkıə ˈlɔŋgw9ʤ/, fr. langue bachkire, azərb. başqırd dili. – Türk dilləri ailəsinə aid dillərdən biridir. Başqırdıstan Respublikasında və Rusiya Federasiyasının Orenburq, Çelyabinsk, Kurqan və Yekaterinburq vilayətlərində yayılmışdır. 1 milyona qədər daşıyıcısı vardır. İki dialektə bölünür: şərqi (kuvakan) və cənub (yurmatin). 1928-ci ilə qədər ərəb qrafikası, 1929-cu ildən latın qrafikası, 1939-cu ildən isə kiril əlifbası əsasında yazı sisteminə malikdir.

Н.К.Дмитриев. Грамматика башкирского языка. М.-Л., 1948; Ж.Ф.Киекбаев. Башкорт дилинин фонетикасы. Уфа, 1958.

БАХУВРИХИ - alm. Bahuwrihi (n), ing. Bahuvrihi /bahʊˈvr:hi/, fr. bahuvrihi, azərb. baxuvrixi (Hindu dilində çox düyüsü olan deməkdir). - Mənsubiyyət, sahiblik mənası bildirən mürəkkəb söz. Bunlara bəzən yiyəlik birləşməsi də deyirlər. Məs.: Azərb. d. /enlikürək, qaragöz, şirindil/ və s. Tərkib isimləşir, ona görə əlamətin daşıyıcısı dilə gətirilmir və bu tərkiblərə ekzosentrik tərkiblər deyilir. Müq. et: alm. d. /Langbein/ (uzun ayağı olan adam).

R.Conrad. Göstərilən əsər, s. 137.

БЕГЛЫЙ - alm. fließend, geläufig, ing. unstable /ˈʌnˈsteıbl/, fluent /fluənt/, superficial /ˈsju:pəˈfıʃəl/, fr. caduque, azərb. 1) rəvan, asan; 2) davamsız, dəyişkən. Məs.: Azərb. d. /rəvan tələffüz/, /axıcı nitq/ və s.

O.C.Ахманова. Göstərilən əsər, s. 63.

БЕГЛЫЕ ГЛАСНЫЕ - alm. fließender Vokal (m), ing. unstable vowel /ˈʌnˈsteıbl ˈvauəl/, «fugurative» vowels /ˈfıɡjurətıvˈvauəl/, fr. voyelle caduque, azərb. düşən (mütəhərrik) saitlər. - Müasir Azərbaycan dilində danışıq aktında çoxhecalı sözlərin birinci hecasında işlənən /⊥/ və /ˣ/ saitləri düşür. Məs.: /d⊥lləndi/, /qˣlˣmsˣndi/ və s.

F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005; А.А.Реформатский. Введение в языковедение. М., 2001; Г.М.Богомазов. Современный русский язык. Фонетика. М., 2002.

БЕЖТИНСКИЙ ЯЗЫК - alm. Beztisch (n), ing. bejitin /bıʒi:tın/, also Bezitin languages /bezıti:n ˈlɔŋgw9ʤ/, fr. langue bejtine, azərb. bejtin dili. – Tsez dillərindən biridir. Dağıstanın Suntin və Gürcüstanın Kvarel

downloaded from KitabYurdu.org

rayonlarında yayılmışdır. Təqribən 3 minə qədər daşıyıcısı var. Üç dialektə bölünür: bejtin, tlyadal və xoşarxotin. Lüğət tərkibində gürcü dilindən keçmə sözlər üstünlük təşkil edir.

Е.А.Бокарев. Цезские языки Дагестана. М., 1959; Г.И.Мадиева. Грамматический очерк бежтинского языка. Махачкала, 1965.

БЕЗАНТЕЦЕДЕНТНОЕ ПРИДАТОЧНОЕ - alm. Nebensatz ohne Antezedent (m), ing. antecedentless clause /antɪˈsɪ:d(ə)ntlis klɔ:z/, fr. subordonnée sans antécédent, azərb. antesedentsiz budaq cümlə. - Baş cümlənin tərkibində antesedent (ilk üzvü) olmayan budaq cümlə. Məs.: Azərb. d. /Dəniz sahilində yaşıllıqlar uzanıb gedir//.

О.С.Ахманова. Göstərilən əsər, s. 354.

БЕЗАФФИКСНЫЙ - alm. affixlos, ing. non-affixal /ˈnɔn ˈ5fɪksəl/, fr. sans affixe, azərb. affikssiz. – Affikslərdən sözdüzəltmə vasitəsi kimi istifadə olunmaması. Məs.: rus d. /бег, зов, ход/ və s; alm. d. /Gang/, /Rat/ və s.

Ю.С.Маслов. Введение в языкознание. М., 1987; В.В.Виноградов. Русский язык. М., 1972.

БЕЗАФФИКСНЫЙ СПОСОБ СЛОВООБРАЗОВАНИЯ - alm. affixloses Wortbildungsmittel (n), ing. non-affixal word-formation (derivation) method /ˈnɔn ˈ5fɪksəl w8:d-fɔˈmeɪʃən (ˌderɪˈveɪʃən) ˈmeθəd/, fr. manière de formation des mots sans affixe, azərb. affikssiz sözdüzəltmə üsulu. - Əsasdan (fel və sifətlərdən) şəkilçi artırmadan yeni sözlərin yaranması. Məs.: Azərb. d. /qaradan artıq boyaq yoxdur//.

Bax: Безаффиксный ←.

БЕЗАФФРИКАТИВНЫЙ - alm. ohne Affrikate (f), ing. non-affricate /nɔn ˈɑfrɪkeɪt/, fr. sans affriquée azərb. afrikatsız. – Aşağıdakı parçada bir dənə də olsun afrikat işlənməyib.

Heydər baba, gün dalıvı dağlasın,
Üzün gülsün, bulaqların ağlasın,
Uşaqların bir dəstə gül bağlasın,
Yel gələndə, ver gətirsin bu yana,
Bəlkə mənim yatmış bəxtim oyana.

M.Şəhriyar. Aman ayrılıq. Bakı, 1981, s. 18.

БЕЗГЛАГОЛЬНЫЙ - alm. verblos, ing. non-verbal /ˈnɔn vɜ:bl/, fr. sans verbal, azərb. felsiz. - Tərkibində fel olmayan, fel iştirak etməyən cümlə. Məs.: Azərb. d. /Səhər. Hər tərəf duman//; ing. d. /John and Marie/; alm. d. /Hans und Karl/ və s.

А.А.Реформатский. Göstərilən əsər.

БЕЗГЛАГОЛЬНЫЕ ПРЕДЛОЖЕНИЯ - alm. verbloser Satz (m), ing. non-verbal sentence /ˈnɔn vɜ:bəl ˈsentəns/, verbless sentense /vɜ:bles ˈsentəns/, fr. proposition sans verbal, azərb. felsiz cümlə. - Adlıq cümlələr. –

Bax: Безглагольный ←.

downloaded from KitabYurdu.org

БЕЗГОЛОСЫЙ - alm. stimmlos, lautlos, tonlos, ing. unvoiced /ˈʌnˈvɔɪst/, voiseless /ˈvɔɪsles/, surd /sə:d/, breathed /breθt/, fr. sans voix, azərb. kar. - Səs tellərinin iştirakı olmadan yaranan samitlər. Bunlara kar samitlər deyirlər. –
Bax: Глухие согласные →.
БЕЗЛИЧНО-БЕЗОБЪЕКТНЫЙ ГЛАГОЛ - alm. unpersönlich-objektloses Verb (n), ing. non-finite objectless verb /'nɔn faɪˈnaɪt 'ɔbʤɪktlɪs vɜ:b/, fr. verbe impersonnel, azərb. şəxssiz -obyektsiz fel. - Buraya təbiət hadisələrini bildirən fellər aiddir. Məs.: ing. d. /It rains// (yağış yağır); alm. d. /Es regnet// (yağış yağır); /Es schneit// (qar yağır); fr. d. /il pleut/; rus. d. /Смеркается// və s.
A.A.Реформатский. Göstərilən əsər, s. 377.
БЕЗЛИЧНО-БЕЗОБЪЕКТНЫЙ ЗАЛОГ - alm. unpersönlich-objektloses Genus (n), ing. impersonal- objectless voice /ɪmˈpɜ:snəl 'ɔbʤɪktlɪs 'vɔɪs/, passive voice /ˈp5sɪv 'vɔɪs/ fr. voix impersonnel, azərb. şəxssiz-obyektsiz tərz. - Rus dilində «-ся» sonluğu ilə bitən fellərin leksik-sintaktik mənası. Məs.: rus d. /Мне не спится/;
O.C.Ахманова. Göstərilən əsər, s. 153.
БЕЗЛИЧНО-ГЛАГОЛЬНОЕ СЛОВОСОЧЕТАНИЕ - alm. unpersönlich-verbale Wortverbindung (f), ing. impersonal-verbal word-combination (phrase) /ɪmˈpɜ:snəl vɜ:bəl w8:d ˌkəmbɪˈneɪʃ(ə)n /freɪz/, fr. groupe de mots de verbe impersonnel, azərb. şəxssiz-feli söz birləşməsi. Məs.: alm. d. /Es darf gelacht werden (Gülmək olar)//; rus d. /Должно быть, он уже там//
O.C.Ахманова. Göstərilən əsər, s. 64.
БЕЗЛИЧНО-ПРЕДИКАТИВНЫЕ СЛОВА - alm. unpersönlich-predikative Wörter (Pl), unpersönliche Prädikative (Pl), ing. impersonal predicative words /ɪmˈpɜ:snəl prɪˈdɪkətɪv 'wɜ:dz/, fr. mots impersonnel prédicatif, azərb. şəxssiz predikativ sözlər. - Əsasən şəxssiz cümlələrdə yalnız xəbər rolunda çıxış edən və dəyişməyən sözlərin bir növü. Məs: Azərb. d. /budur/, /vaxtdır/, /bu da bu/, /əcəbdir/, rus d. /стыдно/, /жаль/, /досадно/ və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 64.
БЕЗЛИЧНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. unpersönlicher Satz (m), ing. impersonal sentence /ɪm'pɜ:snəl 'sentəns/, fr. proposition impersonnelle, azərb. şəxssiz cümlə. - Tərkibində mübtəda iştirak etməyən və təsəvvür də olunmayan təktərkibli sadə cümlə. Belə cümlələrdə proses və ya hal subyektlə və ya fəal icraçı ilə əlaqəli olmur. Məs.: alm. d. /Es donnert//, (İldırım çaxır) /Es schneit// (Qar yağır); ing. d. /It rains// (yağış yağır) və s.
Bax: Безлично-безобъектный глагол ←.
БЕЗПОДЛЕЖАЩНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. subjektloser Satz (m), ing. non-subject sentence /ˈnɔn 'sʌbʤɪkt 'sentəns/, fr. proposition

downloaded from KitabYurdu.org

sans sujet, azərb. mübtədasız cümlə. - Mübtədası olmayan, yalnız bir baş üzvü - xəbəri olan təktərkibli cümlə. Aşağıdakı cümlələr mübtədasız cümlələrdir: təktərkibli müəyyən şəxsli cümlələr, qeyri-müəyyən şəxsli cümlələr, ümumi şəxsli cümlələr, şəxssiz cümlələr. Məs.: Azərb. d. /Bilirəm, gəlməyəcəksən//, /Burada təzə bina tikirlər//, /Cücəni payızda sayarlar//, /Səhərdir//, /Götür-qoy etmək lazımdır// və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 274, 345.

БЕЗРАЗЛИЧНЫЙ ГЛАСНЫЙ - alm. neutraler (indifferenter) Vokal (m), ing. indifferent vowel /ɪnˈdɪfrənt ˈvau(ə)l/, neutral vowel /ˈnjuːtrəl ˈvauəl/, fr. voyelle indifférente, voyelle neutre (indifférente), azərb. neytral sait. - Bu sait heç vaxt vurğulu hecada gələ bilmir. Alm. və ing. dillərindəki [ə] saiti buna misal ola bilər.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

БЕЗУДАРНЫЙ - alm. unbetont, ing. unaccented/ˈʌnɜkˈsentɪd /ˈʌnˌɜksəntɪd/, unstressed /ˈʌnˈstrest/, fr. inaccentué, atone, azərb. vurğusuz, vurğusu olmayan. – Alm. d. [ə] saiti buna misal ola bilər. Müq. et: /ˈmʊtər/ (ana), /ˊfaːtər/ (ata). Bu sait əksər hallarda danışıq aktından düşür və bu zaman heca nüvəsini qonşudakı sonor samit əmələ gətirir. Müq. et: alm. d. /ˊliːbən/, Azərb. d. / ăɤăcdə"lən / və s.
F.Yadigar (Veysəlli). Struktur dilçiliyin əsasları. Bakı, 2005; A.Axundov. Azərbaycan dilinin fonetikası. Bakı, 1984; А.А.Реформатский. Введение в языковедение. М., 1967; Л.Р.Зиндер. Общая фонетика. М., 1979.

БЕЛОРУССКИЙ ЯЗЫК - alm. Belorussisch (n), ing. Belorussian language /bɛləʊˈrʌʃ(ə)n ˈlɜŋgwɜdʒ/, fr. langue biélorusse, azərb. belorus dili. – Şərqi slayan dillərindən biridir. Əsasən Belorusiyada, Rusiya Federasiyasında, Ukraynada, Litvada, Latviyada və Estoniyada yayılmışdır. Bu dildə danışanların ümumi sayı 8 milyonu keçir. İki əsas dialekti mövcuddur: şimal-şərq dialekti (polotski, vitebsk-mogilyov); cənub-qərb dialekti (qrodno-baranoviçi, slutsko-mozırsk və b.) Belorus yazısı kirill qrafikası əsasında tərtib olunmuşdur.
Н.В.Бирилло, М.Г.Булаков, М.Р.Судник. Белорусский язык. «Языки народов СССР», т.1, М., 1966.

БЕЛУДЖСКИЙ ЯЗЫК - alm. Beludshisch (n), ing. Baluchi language /bə ˈluːtʃi ˈlɜŋgwɜdʒ /also-lochi /-ˈləʊtʃi/, fr. langue Baluchi, azərb. beluc dili. – İran, Əfqanıstan, Pakistan və Tacikistan ərazilərində yayılmış dildir. Bu dildə danışanların ümumi sayı 4,5 milyondan yuxarıdır. İki əsas dialektə bölünür: qərbi və şərqi. Pakistan və Əfqanıstandakı belucların yazısı ərəb qrafikası əsasında tərtib olunub.
В.А.Фролова. Белуджский язык. М., 1960.

downloaded from KitabYurdu.org

БЕМОЛЬНЫЙ - alm. bemol, ing. flat /fl5t/, fr. bémol, azərb. bemol. – Bemol əlaməti saitlər və samitlərin dodaqlanma ilə yaranmasında müşahilə olunur, bu da tonun kəskin şəkildə aşağı düşməsinə səbəb olur. Onlarda tonun bu cür aşağı düşməsini musiqi terminilə bildirirlər və transkripsiyada /ˈ/ diakritik işarəsindən istifadə olunur. O, dodaqlanmanı göstərir. «Akustik baxımdan bemol səslər formant göstəricilərin aşağı düşməsilə səciyyələnir. Artikulyator baxımdan bemol səslərdə nov dar, sadələrdə isə enli olur. Dodaq səsləri bemol, qeyri-dodaq və dilönülər sadədirlər» (bax: şəkil).

a) bemol b) sadə

F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 221.

БЕНГАЛЬСКИЙ ЯЗЫК - alm. Bengali, (Bengalisch) (n), ing. Bengal language /bɛŋˈɡɔːl ˈlɜŋɡwɜdʒ/, fr. langue bengali, azərb. benqal dili. – Hindu dillərindən biridir. Banqladeş Xalq Respublikasının və Hindistanın Qərbi Benqaliya ştatının rəsmi dövlət dilidir. Bu dildə bütölükdə 175 milyon əhali danışır. İki əsas dialektə bölünür: qərb dialekti (Navadvip bölgəsinin əsas dialekti), şərq dialekti (Dəkkə bölgəsinin dialekti). Benqal dlinin özünün xüsusi yazısı vardır. Cins kateqoriyası yoxdur, bu dildə 4 hal vardır. Mübtəda ilə xəbərin uzlaşması (həm şəxsə, həm də nəzakət formasına görə) geniş yayılıb. Söz sırası: mübtəda, tamamlıq, xəbərdir (MTX).

Е.М.Быкова. Бенгальский язык. М., 1966; К.Л.Чижикова. Библиография работ по бенгальскому языкознанию. М.,1974.

БЕНУЭ-КОНГОЛЕЗСКИЕ ЯЗЫКИ - alm. Benue-kongolesische Sprachen (Pl.), ing. Benue-Congo languages /ˈbɛɪnweɪ ˈkɔŋɡəu ˈlɜŋɡwɜdʒɪz/, Benue-Congolese languages /ˈbɛɪnweɪ kɔŋəˈliːz ˈlɜŋɡwɜdʒɪz/ fr. langues bénine-congolaise, azərb. benue-konqolez dilləri. – Niger-konqolez dilləri ailəsinə daxil olan 600-ə yaxın qohum dilləri birləşdirir. Afrika qitəsində geniş bir ərazidə yayılmışdır (Nigeriyadan CAR-a qədər). Bu dillərdə 170 milyondan çox insan danışır. Fonoloji sistemi zəngin saitlər yarımsisteminə malikdir. Əksər dilləri yazısızdır.

K.Williamson. The Benue-Congo Languages and Ijo. «CTZ» 7, 1971, s.245-306.

downloaded from KitabYurdu.org

БЕРБЕРСКИЙ - alm. Berberisch (n), ing. Berber /ˈbə:bə/, fr. langue berbère, azərb. bərbər dili. – Afraziya dillərindən biridir. Şimali Afrikada geniş bir ərazidə yayılmışdır. Təqribən 12 milyon adam bu dildə danışır. Bərbər dili dörd qrupa bölünür: 1) şərqi (siua, sokna, fodjaxa, qxadames); 2) cənubi (qxat, axnetğ, air, kel qeres, axaqqar); 3) qərbi (zenqa); 4) şimali (iqliua, snus, şenua, mzab, uralqa, tinduft və s). Ərəb dilinin güclü təsiri altındadır. Söz sırası: xəbər, mübtəda, tamamlıqdır (XMT). Mürəkkəb samit sistemi mövcuddur.
Ю.Н.Завадовский. Барберский язык. М., 1967.

БЕСПРЕДЛОЖНАЯ СВЯЗЬ - alm. präpositionslose Verbindung (f), ing. non-preposition connection /ˈnɔn ˌprepəˈzɪʃən kəˈnekʃn/, fr. connexion préposition nel, azərb. sözönülərsiz əlaqə. - Sözlər arasındakı əlaqənin sözönülərsiz yerinə yetirilməsi. Məs.: alm. d. /Das Lesen dlieses Jungen gefällt mir// (Bu oğlanın kitab oxuması xoşuma gəlir).
O.C.Ахманова. Göstərilən əsər, s. 65.

БЕСПРЕДЛОЖНОЕ СЛОВОСОЧЕТАНИЕ - alm. präpositionslose Wortverbindung (f), ing. non-preposition phrase /ˈnɔn-ˌprepəzɪʃən freɪs/, fr. groupe de mots préposition nel, azərb. sözönüsüz birləşmə.
Bax: Беспредложная связь ←.

БЕСПРЕФИКСНЫЙ (БЕСПРИСТАВОЧНЫЙ) - alm. präfixslos, ing. non-prefixal /ˈnɔn ˈpri:fɪksəl/, prefixless /ˈpri:fɪkslɪs/, fr. sans préfixation, azərb. prefikssiz. - Prefikslərdən sözdüzəltmə vasitəsi kimi istifadə olunmaması. Məs.: alm. d. /´*ge:bən/ → /Gift/ (zəhər), /Gabe/ (vergi).

БЕСПРИСТАВОЧНЫЙ - Bax: Беспрефиксный ←.

БЕССВЯЗНОСТЬ - alm. Zusammenhangslosigkeit (f), ing. incoherence /ˌɪnkəuˈhɪərəns/, fr. décousu, incohérence, azərb. əlaqə-sizlik, rabitəsizlik, mənasızlıq.
M.İ.Adilov və b. Göstərilən əsər, s.32.

БЕССВЯЗОЧНЫЙ - alm. konjunktionslos, ing. non-connective /ˈnɔn-kəˈnektɪv/, incoherent /ˌɪnkəuˈhɪərənt/, fr. décousu, incohérent, azərb. bağlayıcısız. – 1) Tərkibində bağlayıcısı olmayan birləşmə. Məs.: rus d. /Он и сейчас счастлив //; Azərb. d. /Əli, Vəli, Pirvəli, hamısı insan adıdır//; 2) İsmi xəbər şəkilçisi olmayan. Məs.: rus d. /Он счастлив//.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 32.

БЕССКАЗУЕМОЕ ПРЕДЛОЖЕНИЕ - alm. prädikatsloser Satz (m), ing. non-predicate sentence /ˈnɔn ˈpredɪkɪt ˈsentəns/, fr. proposition sans prédicat, azərb. xəbərsiz cümlə. – Formal cəhətdən xəbəri olmayan təktərkibli cümlə. Məs.: Azərb. d. /Qarayazı, Kür qırağı, göy çəmən…// (S.Vurğun); rus d. /Он в воде// və s.
В.В.Виноградов. Русский язык. М., 1972.

downloaded from KitabYurdu.org

БЕССМЫСЛЕННЫЙ - alm. 1) sinnlos, 2) stumpfsinnig, verständnislos, ing. non-sense /ˈnɔn sens/, nonsen /nɔnˈsen/, absurd /əbˈsə:d/, senseless /senslıs/, fr. absurde, dénué de sons, azərb. mənasız. - Məs.: Azərb. d. /Yumurtaların iri qanadları uçuşa hazırlaşırdı//. Bu, qrammatik cəhətdən düzgün qurulsa da, mənasız söz yığınıdır.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 158.

БЕССОЮЗИЕ (АСИНДЕТОН) - alm. Asyndeton (n), Asyndese (f), ing. asyndeton /5ˈsındıtən/, non-conjunction /ˈnɔn-kənˈʤʌŋkʃən/, fr. asyndète, azərb. bağlayıcısız. – Tabesiz mürəkkəb cümlənin predikativ hissələrinin və sadə cümlənin həmcins üzvlərinin arasındakı bağlayıcısız əlaqə. Məs.: Azərb. d. /Axşam oldu, gün batdı; şamlar yandı//. (A.Səhhət).
Bax: Бессоюзный →.
H.Bußmann. Göstərilən əsər, s. 106.

БЕССОЮЗНЫЙ (АСИНДЕТИЧЕСКИЙ) - alm. konjunktionslos, ing. non-conjunction /ˈnɔn-kənˈʤʌŋkʃən/, asyndetic /ˌ5sınˈdetık/, fr. asyndétique, juxtaposé, azərb. bağlayıcısız, bağlayıcısı olmayan. - Tərkib hissələrinin bir mürəkkəb vahiddə birləşməsində bağlayıcı iştirak etməyən, yalnız intonasiyanın rolu olan. Bağlayıcısız tabeli və tabesiz mürəkkəb cümlə. Məs.: Azərb. d. /Gəlsəydi gələrdi//, / yağış yağdı, toz yatdı// və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 32; В.В.Виноградов. Русский язык. М., 1972.

БЕССОЮЗНАЯ (АСИНДЕТИЧЕСКАЯ) СВЯЗЬ - alm. konjunktionslose Kongruenz (f), ing. non-conjunction /ˈnɔn-kənˈʤʌŋkʃən/, (asyndetic) connection /ˌ5sınˈdetık) kəˈnekʃən/, fr. connexion asyndétique, azərb. bağlayıcısız əlaqə. - Həmcins üzvlərilə sə-ciyyələnən, yaxud bağlayıcıların köməyi olmadan mürəkkəb cümlələrin aralarındakı əlaqə. Belə üzvlər arasındakı əlaqə intonasiya vasitəsilə ifadə olunur. Məs.: Azərb. d. /Bakı, Gəncə, Şəki. Bu gözəl Azərbaycan şəhərləri// və s.
H.Bayramov. Azərbaycan dilində tabesiz mürəkkəb cümlələr. Bakı, 1969; Ю.С.Маслов. Введение в языкознание. М., 1987.

БЕССУБЪЕКТНОСТЬ - alm. Subjektlosigkeit (f), subjektlos, ing. non-subject /ˈnɔn ˈsʌbʤıkt/, fr. inpersonnel, azərb. subyektsizlik, şəxssizlik. - Xəbərin mübtəda ilə əlaqələnməməsi.
Bax: Безподлежащее предложение ←.

БЕССУФФИКСНЫЙ - alm. suffixlos, ing. non-suffixal /ˈnɔn ˈsʌfıksəl/, suffixless /ˈsʌfıkslıs/, fr. insuffixal, azərb. şəkilçisiz. - Şəkilçilərdən sözdüzəltmə vasitəsi kimi istifadə edilməməsi. Məs.: Azərb. d. /qırxayaq/, /şanapipik/ və s.
Ю.С.Маслов. Введение в языкознание. М., 1987.

downloaded from KitabYurdu.org

БЕСФОРМЕННЫЙ - alm. amorph, formlos, gestaltlos, ing. amorphous /ə'mɔ:fəs/, formless /fɔ:mlıs/, shapeless /ʃeıplıs/, fr. amorphe, informe, azərb. formasız, biçimsiz. - Kök və şəkilçilərə bölünməyən. Məs.: Azərb. d. /qanqal/, rus d. /метро/ və s.
Ю.С.Маслов. Введение в языкознание. М., 1987.
БЕСФОРМЕННЫЕ СЛОВА - alm. amorphe, formlose Wörter (Pl.), ing. amorphe words /ə'mɔ:f wɜ:dz/, formless words /fɔ:mlıs wɜ:dz/, fr. mots amorphes, azərb. formasız sözlər. - 1. Köməkçi sözlər və nidalar. Məs.: alm. d. / bei, von, aus/ sözönləri; 2. Amorf (kök və şəkilçiyə bölünməyən) sözlər. Məs.: Azərb. d. /bəli, xeyr, ən, lap/ və s.
А.А.Реформатский. Введение в языковедение. М., 2001.
БЕСФОРМЕННЫЕ ЯЗЫКИ - alm. formlose, inkorporierende Sprachen (Pl.), ing. amorphe languages /ə'mɔ:f 'l5ŋgwıʤız/, incorporating languages /ın'kɔ:pəreıtıŋ 'l5ŋgwıʤız/, fr. langues incorporantes, azərb. formasız, şəkilsiz dillər.
Bax: Аморфные языки ←.
БЕСЦВЕТНОСТЬ - alm. Farblosigkeit (f), Blässe (f), Bedeutungslosigkeit (f), ing. colourlessness /'kʌləlısnes/, insipidity /ın'sıpıdıtı/, achromatism /ə'krəumətızm/, fr. incoloration, azərb. – 1) Rəngsizlik, solğunluq, sönüklük. - Məs.: Azərb. d. /Sizi yordum lap/; 2) Maraqsızlıq, yekrənglik. Müq. et: Azərb. d. /O, çox yorğun olduğundan danışığı yekrəng idi//.
F.Veysəlli. Dil, cəmiyyət və siyasət. Bakı, 2004.
БЕСЦВЕТНЫЙ - Bax: Бесцветность ←.
БЕСЦЕЛЬНЫЙ - alm. ziellos, zwecklos, ing. aimless /'eımlıs/, purposeless /'pə:pəslıs/, idle /'aıdl/, pointless /pɔıntlıs/, fr. inutile, azərb. məqsədsiz, mənasız, boş. Məs.: Azərb. d. /O nə məqsəd güddüyünü bilmədi//.
F.Veysəlli. Dil, cəmiyyət və siyasət. Bakı, 2004.
БЕХАГЕЛЬСКИЕ ЗАКОНЫ – alm. Behaghelsche Gesetze (Pl.), ing. Behagel laws /'bı:hagıl lɔ:s/, fr. loi (status) béhagelle, azərb. Behaqel qanunları. – O. fon Behaqel (1864-1936) söz sırasına dair aşağıdakı ümumiləşmələri verib: a) ruhən bağlı olanlar daha da sıx birləşməlidirlər; b) daha mühüm üzv az mühümdən sonra gəlir; c) fərqləndirən üzv fərqlənən üzvdən qabaq gəlir; ç) iki üzvdən daha qısa olanı uzundan qabaq gəlir. Bundan başqa qüvvətli vurğulu üzvlə zəif vurğulu üzv arasında da əlaqə mövcuddur.
O.von Behaghel. Deutsche Syntax. Heidelberg, 1921, Bd. 4, 3.
БИБЛЕИЗМ - alm. Bibleizismus (m), ing. biblical expression /'b9bl9kəl ıks'preʃən/, fr. biblique, de la Bible, azərb. bibleizm. - Bibliyadan ümumi

downloaded from KitabYurdu.org

dilə keçmiş söz və ifadə. Məs.: rus d. /блудный сын, вавиллонское столпотворение, фарисеи// və s.
О.С.Ахманова. Göstərilən əsər, s. 66.
БИДЖАНЖАРСКИЙ ЯЗЫК – Bax: Австралийские языки ←.
БИКОЛЬСКИЙ ЯЗЫК – alm. Bikol (n), ing. Bikol language /bɪkɔ:l ˈlɔŋgwɪʤ/, fr. langue bicole, azərb. bikol dili. – Filippin dillərindən biridir. Filippin Respublikasında yayılmışdır. Təqribən 4 milyona qədər daşıyıcısı vardır. Dörd dialektə bölünür: onlardan üçü Cənubi Kamarines əyalətində yayılmışdır (naqa –bikol, rinkonda, iriqa-bikol) və biri də Katanduanes adasında yayılmışdır.
J.Erstein. Standard Bikol. Wach, 1967.
БИЛАБИАЛЬНЫЙ - alm. bilabial, ing. bilabial /baɪ'leɪbjəl/, fr. bilabiale, azərb. qoşadodaq. - Dodaqların bir-birinə yaxınlaşması ilə kipləşmə, sonra isə bu kipləşmənin partlayışa keçməsilə yaranan səslər. Məs.: Azərb. d. /b/, /m/, /p/ və s.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.
БИЛАБИАЛЬНЫЕ СОГЛАСНЫЕ - alm. bilabiale Konsonanten (Pl.), ing. bilabial consonants /baɪ'leɪbjəl 'kɔnsənənts/, fr. consonnes bilabialle, azərb. qoşadodaq samitlər. –
Bax: Билабиальный ←.
БИЛАТЕРАЛЬНЫЙ - alm. bilateral (m), ing. bilateral /baɪˈlɪtərəl/, fr. bilatérale, azərb. bilateral. – 1) Dildə işarənin ikitərəfli olması: işarələyən və işarələnən, 2) Dilin hər iki yanının üst damağa doğru qalxması ilə yaranan səs. Adətən bu səs unilateral (təkyanlı) olur. Məs.: Azərb. d. /l/. Müq. et: /læl/, /lal/ və s.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.
БИЛАТЕРАЛЬНОЕ ПРОТИВОПОСТАВЛЕНИЕ - alm. bilaterale Gegenüberstellung (f), Gegensatz (m), ing. bilateral opposition /baɪˈlɪtərəl ɔpəˈzɪʃən/, fr. opposition bilatérale, azərb. bilateral qarşılaşma. – Buraya müqayisənin əsası kimi götürülən əlamət yalnız bu qarşılaşmaya xasdır. Məs.: /t/ - /d/.
F.Y.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005. s. 168; N.S.Trubeskoy. Fonologiyanın əsasları. Almancadan tərcüməsi, «Son söz» və «Qeydlər» prof. F.Veysəllinindir. Bakı, 2001.
БИЛИНГВИЗМ - alm. Zweisprachigkeit (f), Bilinguismus (m), ing. bilingualism /bʌɪˈlɪŋgw(ə)lɪzm/, fr. bilinguisme, azərb. bilinqvizm, ikidillilik. – Çoxdilliliyin bir növüdür. Bu həm fərdi, həm də kollektiv şəklində ola bilər. Özü də ikidilliliyin iki növü fərqləndirilir: a) koordinativ (hər iki dildə eyni şəkildə danışmaq); b) subordinativ (dillərdən biri üstünlük təşkil edir).
F.Y.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 293-295.

downloaded from KitabYurdu.org

БИНАРНЫЙ - alm. binär, ing. binary /ˈbaınərı/, fr. binaire, azərb. ikili. – 1) Əlamətlərin ikili prinsipə görə təsnif; 2) Hər hansı bir dilçilik obyektini tədqiq edərkən, onun ən zəruri əlaməti kimi ikicəhətlilikdən, ikitərəflilikdən çıxış etmə. İki əsaslı loqarifm prinsipinə görə (hə, yox, +, -) R.Yakobson və onun həmkarları işləyib hazırladıqları bu təsnif üsulu elektron hesablayıcı maşınlara yönəlikli metoddur. Bu nəzəriyyəyə görə, dünyanın bütün dillərini 12 fərqləndirici əlamət əsasında təsnif etmək mümkündür. Sonralar bu bölgü prinsipi dilin o biri səviyyələrinə də (morfologiyaya, sintaksisə, semantikaya) tətbiq edildi.

Bax: Анализ ←.

F.Y.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 214-226; N.S.Trubeskoy. Fonologiyanın əsasları. Almancadan tərcüməsi, «Son söz» və «Qeydlər» prof. F.Veysəllinindir. Bakı, 2001.

БИНАРНЫЙ ПРИНЦИП - alm. binäres Prinzip (n), ing. binary principle /ˈbaınərı ˈprınsəpl/, fr. principe binaire, azərb. binar (ikili) prinsip. - Binar prinsipə görə dil hadisələri ikili qarşılaşma əsasında müəyyənləşdirilir, yəni eyni əlamətin olub-olmamasına, onun maksimal və minimal dərəcədə təzahürünə əsasən müəyyənləşdirilir. Məs.: uzun və qısa saitlər; kar və cingiltili samitlər. Təsdiq və inkar. Tək və cəm isimlər.

F.Y.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 214-226; N.S.Trubeskoy. Fonologiyanın əsasları. Almancadan tərcüməsi, «Son söz» və «Qeydlər» prof. F.Veysəllinindir. Bakı, 2001.

БИОЛИНГВИСТИКА - alm. Biolinguistik (f), ing. biolinguistics /bʌıə(ʊ)lıŋˈɡwıstıks/, fr. biolinguistique, azərb. biolinqvistika. – Danışıq aktında insan orqanizminin fəaliyyətində neyrofizioloji və genetik faktorları öyrənən dilçilik sahəsi.

E.H.Lenneberg. Biologische Grundlagen der Sprache. Frankfurt am Main, 1996.

БИОЛОГИЧЕСКИЙ - alm. biologisch, ing. biological /ˈbaıəˈlɔʤıkəl/, fr. biologique, azərb. bioloji. – Danışıq aktının bioloji (fizioloji) əsaslarını öyrənən aspekt.

Bax: Биолингвистика ←.

БИРЕМА - alm. Bireme (f), ing. burmese /bə:ˈmı:z/, bireme /bʌıri:m/, fr. birème, azərb. birema. - İki hissədən ibarət ifadə, deyim. Cüttərkibli cümlə. Məs.: Azərb. d. /Mən yazıram//

O.C.Ахманова. Göstərilən əsər, s. 66.

БИРМАНСКИЙ ЯЗЫК - alm. Burmesisch (n), ing. burman language /bə:mən ˈlɔŋɡwıʤ/, fr. langue birmane, azərb. birma dili. – Tibet-birma dillərindən biridir. Birmanın dövlət dilidir. Ənənəvi olaraq dörd dialektə bölünür: arakan, tavoy, inta, taunyou. Bu dildə 30 milyondan çox adam

downloaded from KitabYurdu.org

danışır. Hecalı və tonlu (4 ton) dildir, şəkilçisi yoxdur, amma önlüklərlə sözdüzəltmə mümkündür.
Бирманский язык. М.,1963; W.Cornun. Outline of Burmese grammar. Balt., 1944.

БИСАЙСКИЕ ЯЗЫКИ – alm. Bisaja-Sprachen (Pl.), ing. Bisay(an) languages /ˈbɪseɪ(ən) ˈlɔŋgwɪʤɪz/, fr. langues biscayennes, azərb. bisay dilləri. – Bir qrup Filippin dillərini özündə birləşdirir. Filippin arxipelaqının mərkəzi adalarında – Sebu, Neqros, Masbate, Panay, Leyte, Samar və b. yayılmışdır. 25 miilyondan artıq daşıyıcısı vardır. Bisay dilləri leksik, sözdüzəldici və ümumifilippin fonem tərkibinə görə 3 qrupa ayrılırlar. Sebuan dili – Sebu, Boxolvə şərqi Neqrose, Leyte və s. adalarda yayılmışdır. Təqribən 15 milyon daşıyıcısı vardır. Panayan dili - Panayan adasında və qərbi Neqrosda yayılmışdır. Samar dili – Samar və Leyte adalarında yayılmışdır.
J.D.Bergh. Analisys of the Syntax and the System of Affixes in the Bisayan from Sebu, Surigao (Mindanao). 1958.

БИСИЛЛАБИЧЕСКИЙ – alm. bisyllabisch, ing. bisyllabic /ˈbaɪsɪˈlɔbɪk/, fr. bisyllabique, azərb. ikihecalı. – Məs.: Azərb. d. /at-lı/.
Bax: Слог →.

БИТ – alm. Bit (n), ing. bit /bɪt/, binary /ˈbaɪnərɪ/, fr. bit, azərb. bit. – Məlumatın məzmununun ən kiçik ölçü vahidi, ikili əsasda qəbul edilən qərarın ölçü vahidi. Hər bir vahidin meydana gəlmə ehtimalı ikidə birə bərabərdir. Məs.: dəmir pulun hansı üzünün çıxacağı ehtimalı ikidə birə bərabərdir, yəni burada gözlənilən informasiya 1 bitdir, halbuki dördtərəfli zərin hər bir tərəfinin düşmə ehtimalı 1/4 bitə bərabərdir.
И.Эко. Отсутствующая структура. С.-Петербург, 2004.

БИФОНЕМАТИЧЕСКИЙ - alm. biphonematisch, ing. biphonematic /ba9ˈfəʊn9ˈm5t9k/, biphonetic /baɪfəuˈnetɪk/, fr. biphonématique, azərb. bifonematik. - Rus d. /a+u/ saitləri /nauqat/ sözündə bir morfemdə işlənərək bifonemik dəyərə malikdir, çünki /a/ və /u/-nun ortasından morfoloji sərhəd keçir. Ancaq alm. d. /a͡o/, /a͡e/ və /ɔθ/ tək fonemlərdir, çünki onların arasından morfoloji sərhəd keçmir.
Л.Р.Зиндер. Общая фонетика. М., 1979; N.S.Trubeskoy. Fonologiyanın əsasları. Almancadan tərcüməsi, «Son söz» və «Qeydlər» prof. F.Veysəllinindir. Bakı, 2001, s. 74, 379.

БИХЕЙВИОРИЗМ - alm. Behaviorismus (m), Physikalismus (m), ing. behaviourism /b9ˈhe9vjər9zm/, fr. behaviorisme, azərb. biheyviorizm. – Y.B.Vartson (1878-1959) tərəfindən ABŞ-da təbiətşünaslığa istiqamətlənən psixoloji tədqiqat istiqaməti. Bu istiqamət həm özünümüşahidəyə, həm də şüurun məzmununa (düşünmə, iradənin qıcıqlandırılması) əleyhinə yönəlmiş metoddur. Biheyviorizm ətrafın dəyişən şərtlərinə reaksiya kimi obyektiv müşahidə oluna bilən davranışdır. Əsas kimi

downloaded from KitabYurdu.org

heyvanlar üzərində aparılan təcrübələrdə inkişaf edən stimul-reaksiya modeli, həm də şərt refleks kateqoriyalarıdır. Davranış buna əsasən müəyyən ətraf mühitlə, xarici və ya daxili qıcıqlanmalara reaksiya kimi təhlil edilir və müvafiq stimul məqamlarının konkret gösəricisi kimi irəlicədən müəyyən edilə bilir. Bu xüsusilə öyrənmə psixologiyasında əhəmiyyətlidir. O da təbii prosesin inkişaf etdirilən mühüm şərti kimi dilöyrənməyə tətbiq edilir. Biheyviorizm belə hesab edir ki, müəyyən prosedurların və strategiyaların öyrənilməsi koqnitiv, həmçinin dil bilgilərini mənimsəmək anadangəlmə psixi fəaliyyət kimi götürülə bilər, öyrənmə prosesinin özü isə həmişə davam edən bir təcrübə kimi baş verir. Dil öyrənilmiş davranış olmaqla ayrı-ayrı şərtlərlə bağlı möhkəmlənmə /reinfercement/ və məşq edilmiş danışıq vərdişlərinin ümumiləşməsinin məcmusu kimi, dil ifadələrinin assosiativ əlaqələrinin təsadüfi şöbəsi kimi şərh edilir. Bu, L.Blumfildin antimental dil konsepsiyasında, xüsusilə onun təbiətşünaslıq metodlarına söykənən taksonomik təsvir təcrübəsində qabarıq şəkildə özünü biruzə verir.

G.E.Zurift. Behaviorism: a Conseptual Reconstruktion. N.-York, 1985; М.М.Гухман. Лингвистический механицизм Л.Блумфильда и дескриптивная лингвистика. Труды Института языкознания АН СССР. 1954, т. 4; А.А.Леонтьев. Психолингвистика. Л., 1967.

БИХЕЙВИОРИСТИЧЕСКАЯ ЛИНГВИСТИКА - alm. behavioristische Linguistik (f), ing. behaviorist linguistics /bɪˈheɪvjərɪst l92ˈɡwɪstɪks/, language as behaviour /ˈl52ɡwɪʤɪz 5z b9ˈhe9vjə/, fr. linguistique behavioriste, azərb. biheyvioristik dilçilik. - Dili insan davranışının nəticəsi kimi öyrənən dilçilik cərəyanı. Dilçilkdə biheyviorizmi L.Blumfild daha geniş tətbiq etmişdir. O, dili insan orqanizminin xarici aləmin təsirinin əks reaksiyası kimi izah edən biheyviorist dil nəzəriyyəsini yaratmışdır.

М.М.Гухман. Лингвистический механицизм Л.Блумфильда и дескриптивная лингвистика. Труды Института языкознания АН СССР. 1954, т. 4; В.В.Белый. Американская дескриптивная лингвистика. «Философские основы зарубежных направлений в языкознании». М., 1977.

БЛАГОЗВУЧИЕ (ЭВФОНИЯ) - alm. Euphonie (f), ing. euphony /ˈju:fənɪ/, harmony /ˈhɑ:mənɪ/, fr. euphonie, harmonie, azərb. xoş səslənmə. - Danışığın müxtəlif formalarında tətbiq olunan müxtəlif fonetik (fəndlərin) priyomların: uyuşma, səsartımı, alliterasiya←, assonans← və s. fonetik proseslərdən yaranan xoş səslənmə. Məs.: alm. d. /t/ samiti />a͡egənt͡liç/ sözündə və ya fr. d. /va+t̲+il/ ¿o gedirʖ buna misal ola bilər.

БЛАГОПРИЯТСТВУЮЩИЙ ВИД - alm. Applikativ (m), ing. applicative aspect /5plɪkətɪv 5spekt/, favorable /ˈfeɪv(ə)rəbl/, fr. aspect

downloaded from KitabYurdu.org

favorisé, azərb. şərait yaradıcı tərz. - Bəzi Qafqaz və Afrika dillərində felin düzəltmə forması.
Bax: Аппликатив ←.
БЛАТ - alm. Gaunersprache (f), Rotwelsch (n), ing. cant /k5nt/, thief-argot /θi:v ˈɑ:gou/, thieves cant /4i:vz k5nt/, fr. piston, azərb. oğru dili (jarqonu). - Oğru jarqonuna aid olan dil.
O.C.Ахманова. Göstərilən əsər, s. 67.
БЛЕК - БОКС – АНАЛИЗ – alm. Black-Box-Analyse (f), ing. Black-Boks-analysis /blak-bɔks-əˈn5ləsıs ˈan(ə)l∧sıs/, fr. black-box-analyse, azərb. blek-boks-təhlil. – Girişdə və çıxışda müşahidə oluna bilən daxili strukturu və oradakı əlaqələri görə bilməyən sistemlərin təhlili. Kibernetikadan götürülmüş bu üsul qrammatik qaydalar sistemini dilin törəmə strukturları ilə eyniləşdirir. İnsan beynindəki prosesləri qara qutuya bənzədir.
H.Buβmann. Göstərilən əsər, s.139.
БЛЕК ИНГЛИШ – alm. Black Englisch (n), ing. Black English (vernacular) /blak ˈıŋglıʃ/, fr. black country, azərb. qara dərililərin ingilis dili. – Xalq dili, ing. d. Şimali Amerikada işlənən sosiodialekti. Bunlar əsasən Afrikadan gəlmələrdir. İng. d. kreol dil kimi işlədirlər. Bu dildə çox yayınmalar var. Məs.: /he walk – uzlaşma yoxdur/.
J.Z.Dillard. Black English. Its History and Usage in the USA. N.-York, 1972.
БЛИЗКОГО ПРЕДМЕТА ДЕЙКСИС - alm. Dieser-Deixis (m), ing. deixis of proximate object /di:ikıs əv ˈprɔksımıt ˈɔbʤıkt/, fr. l'objet proche, azərb. deyksis (yaxındakı əşyaya işarə). – 1) Danışanın yaxınlığında yerləşən əşyaya jestlər və ya söz ilə işarə etməsi prosesi; 2) Danışıq məqamında dil vahidilə şəxsə, yerə və zamana işarədən asılı olaraq dil ifadələrinin şəxs, yer və ya zaman əlaməti və ya funksiyası. Mətn daxilində də işarə etmək mümkündür (anafer ←, sitat→). Təbii dillərdə deyktik komponent olur, o, semantika ilə paradiqmatikanı birləşdirir. Bu bir qayda olaraq hər bir paradiqmatik situasiyada meydana gələn dil ifadələrinin referensidir. Məs.: Azərb. d. /Mən acmışam//. /Bura bürküdür//, /Bu gün bütöv aydır// kimi ayrı-ayrı cümlələri gerçəkliklə bağlamaq olmur, çünki onların şərhi kim tərəfindən, nə zaman və harada deyilməsindən asılıdır. Dil işarələrinin deyktik tədqiqi qədim dövrlərdən başlamış və xüsusilə hind-german dilçiliyi bu sahə ilə yaxından məşğul olmuşdur. Ancaq praqmatika ilə bağlı tədqiqatlar çərçivəsində K. Bühlerin işarə sahəsi təlimində geniş vüsət almışdır. J.Layons (1932) isə deyksisə böyük əhəmiyyət verir. Son illərdə semantik və praqmatik yönümlü tədqiqatlarda deyksisə geniş yer ayrılır.

downloaded from KitabYurdu.org

K.Bühler. Sprachtheorie. Jena, 1934; J.Lyons. Deixis as the Source of Reference; E.Keenan. (ed.) Formal Semantics of Natural Language. Cambridge, 1975, s. 61-83.

БЛУМФИЛЬДСКАЯ ШКОЛА – Bax: Дескриптивная лингвистика →.

БОКОВОЙ - alm. Seitenlaut (m), ing. lateral consonant /'l5tərl 'kɔnsənənt/, side-aperture consonant /saɪd'5pətʃuə 'kɔnsənənt/, fr. latérale, azərb. lateral, dilyanı, yan səsləri (samitləri). - Tələffüzü zamanı dilin yanlarının sərt damağa yaxınlaşması ilə hava axının yan tərəflərdən süzülərək bayıra çıxması nəticəsində yaranan səs. Məs.: Azərb. d. [l] samiti buna misal ola bilər.

A.Axundov. Azərbaycan dilinin fonetikası. Bakı, 1984; Ə.Dəmirçizadə. Müasir Azərbaycan dili. Bakı, 1984; Л.Р.Зиндер. Общая фонетика. М., «Высшая школа», 1979; F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005.

БОЛГАРСКИЙ ЯЗЫК - alm. Bulgarisch (n), ing. Bulgar language /'bʌlgɑ: 'l5ŋgwɪʤ/, Bulgarian language /bʌl'gɛ:rɪən 'l5ŋgwɪʤ/, fr. langue bulgare, azərb. bolqar dili. – Cənubi Slavyan dillərindən biridir. Əsasən Bolqarıstanda, habelə Rumınıyada və Yuqoslaviyada yayılmışdır. Bu dildə danışanların ümumi sayı 10 milyona yaxındır. Bolqarıstanın rəsmi dövlət dilidir. Tələffüz xüsusiyyətlərinə görə dialektləri iki yerə – şərqi və qərbi dialektlərə bölünür. Ədəbi dil kimi XIX əsrin əvvələrində formalaşmışdır.

Л.Андрейчин. Грамматика болгарского языка. М., 1940; Ю.С.Маслов. Граматика болгарского языка. М., 1981.

БОЛЬШАЯ БУКВА - alm. Großbuchstabe (m), ing. capital letter /'k5pɪtəl 'letə/, fr. lettre majuscule, azərb. baş (böyük) hərf. - Sətirdəki hündürlüyünə, həmçinin təsvirinə görə kiçik hərfdən fərqlənən, müəyyən dildə qəbul olunmuş orfoqrafiya və punktuasiya sisteminə müvafiq surətdə işlədilən hərf. Xüsusi isimlər və təzə sətrdən başlanan hərf buna misal ola bilər. Məs.: Azərb. d. /Arif// və ya /Anam oğlundan məktub aldı//; ing. d. /Open the door// (Qapını açın) əvəzinə /The guardian of our privacy quick on its axle turn//. İng. d. başlıqlarda bütün isimlər böyük yazılır, alm. d. bütün isimlər harada gəlməsindən asılı olmayaraq həmişə böyük hərflə yazılır.

Ə.Dəmirçizadə. Azərbaycan dilinin fonetikası (orfoqrafiya, orfoepiya, punktasiya). Bakı, 1972, s.254-308; O.C.Ахманова. Göstərilən əsər, s.68; H.Lüdke. Die Alphabetschrift und das Problem der Lautsegmentierung. «Phonetica», 1969, vol. 20, s. 147-176.

БОМБАСТ - alm. Hochstil (m), Bombast (m), ing. bombast /'bɔmb5st/, fr. bombance, azərb. təmtəraqlı üslub. - Təmtəraqlı (ibarəli), həddən-ziyadə təntənəli üslub.

Bax: Стиль → .

downloaded from KitabYurdu.org

БОРМОТАНИЕ - alm. Murmeln (n), ing. mutter /ˈm∧tə/, mumble /ˈm∧mbl/, mumbling /ˈm∧mblı2/, fr. bredouillement, azərb. mızıldama, astadan burun altda danışma. - Məs.: Azərb. d. ƈSəndə oxuyursanƆ və s.
С.И.Ожегов. Словарь русского языка. М., 1975, s.54.

БОРМОЧУЩИЙ - alm. murmelnd, ing. mutter (ing.) /ˈm∧təs// mumble /ˈm∧mbl/, fr. marmonnant, azərb. dili dolaşan, duruxa-duruxa danışan, mızıldanaraq danışma.
Bax: Бормотание ←.

БОТЛИХСКИЙ ЯЗЫК - alm. Botlichisch (n), ing. Botlikhs language /bɔ:tlı:ks ˈlɔŋgwıʤ/, fr. langue botlixhe, azərb. botlix dili. – Avar-and-tsez dillərindən biridir. Dağıstanın Botlix və Miarso bölgələrində yayılmışdır. 3 min daşıyıcısı vardır. Yazısı olmayan dildir.
Т.Гудава. Ботлихский язык. Грамматический анализ, тексты и словарь. Тб., 1962.

БРАННЫЕ СЛОВА - alm. Schimpfworte (Pl.), ing. swear-word /ˈswɛə wɜ:d/, oath /ɔ-θ/, fr. gros mots, azərb. ədəbsiz sözlər. - Narazılığın kobud formada ifadə olunmasında istifadə olunan söz. Məs.: Azərb. d. /İt balası it, buna bax, mənə söz qaytarır//.
О.С.Ахманова. Göstərilən əsər, s. 68

БРАХИЛОГИЯ - alm. Brachylogie (f), Abbreviatursprache (f), ing. brachylogy /brəˈkıləʤı/, fr. brachylogie, azərb. brahilogiya. - Danışıqda uzun ifadələrin qısa ifadələrlə əvəzlənməsi. Məs.: Azərb. d. /Xalq tələb edir ki, siyasi məhbuslar azad edilsin// əvəzinə /Xalq siyasi məhbusların azadlığını tələb edir//.
H.Buβmann. Göstərilən əsər, s.140.

БРАХУИ - alm. Brahui (n), ing. Brahui /brəˈhu:ı/, fr. brahmane, azərb. braxui. – Dravid dillərindən biridir. Pakistanda, cənubi Əfqanıstanda və şərqi İranda yayılmışdır. 800 minə qədər daşıyıcısı vardır. İki əsas dialekti vardır: cxalvan və saravan. Yazılı forması ərəb qrafikası əsasında tərtib olunmuşdur.
М.Г.Пикулин. Брагуи. М., 1967; М.С.Андронов. Язык Брагуи. М., 1971.

БРЕТОНСКИЙ ЯЗЫК - alm. Bretonisch (n), ing. Breton language /ˈbrɛt(ə)n ˈlɔŋgwıʤ/, fr. langue bretonne, azərb. breton dili. – Kelt dillərindən biridir. Britaniyadan Britt tayfalarının V-VII əsrlərdə Bretan adalarına miqrasiyasından sonra yayılmışdır. 1 milyondan artıq daşıyıcısı vardır. Leon, tregier, kornuay və vann dialektlərinə bölünür. Analitik dildir. Yazılı forması latın qrafikası əsasındadır.
D.W.F.Hardie. A Handbook of Modern Breton. Cardiff, 1948.

downloaded from KitabYurdu.org

БРЕХУНГ – alm. Brechung (f), ing. breaking /breɪkɪŋ/, voice mutation /vɔɪs mjuːˈteɪʃ(ə)n/, fr. clabaudeur, azərb. sınma, brexunq. – Müasir alman dilində kökündə /eː/ və /ɛ/ saitləri indiki zamanda II və III şəxslərin təkində sınaraq /iː/ və /ɪ/ saitlərinə keçirlər. Məs.: /geben/ → /du gibst/, /er, sie, es gibt/; vergessen /du vergißt/, /er, sie, es vergißt/ və s.
H.Buβmann. Göstərilən əsər, s.142.

БРОКА АФАЗИЯ – alm. Broca-Aphasie (f), ing. Broca Aphasia /ˈbrəʊkə əˈfeɪzɪə/, fr. aphasie broccart, azərb. broka afaziya. – Cərrah P.Brokanın (1824-1880) adı ilə bağlıdır. Sonradan dil pozuntusu yaranan ekspressiv, qeyri-axıcı, motor afaziyası kimi tanınmışdır. Sözlərin işlədilməsi məhdudiyyəti yaranır, sadə, morfoloji (aqramamatizm), fonematik (parafraza, disprosodiya) və asta, çətin danışıq mümkün olur. Bu da həmin alimin kəşf etdiyi Broka mərkəzinin – sağ yarımkürənin zədələnməsi nəticəsində baş verir. Bunun müqabilində Vernike mərkəzi sol yarımkürədə yerləşir və o, zədələnəndə insan danışıq qabiliyyətini itirir.
L.E.Lennenberg. Göstərilən əsər.

БУГИЙСКИЙ ЯЗЫК - alm. Bugi (n), ing. bugis language /ˈbuːgɪs ˈlɪŋgwɪdʒ also bugi /ˈbuːgi/, fr. langue bugey, azərb. buqiy dili. – Cənubi sulaves dillərinə daxildir. Sulaves yarımadasında və şərqi İndoneziyanın böyük şəhərlərində yayılmışdır. 3 milyondan yuxarı daşıyıcısı vardır. XX əsrin əvvələrinə qədər yazı sistemi kimi buqiy-makasar (Hindi) istifadə olunmuşdur. Hazırda həmin yazı sistemi latın qrafikası tərəfindən sıxışdırılıraq aradan çıxarılmaq üzrədir.
Ю.Х.Сирк. Бугийский язык. М., 1975.

БУДУХСКИЙ ЯЗЫК - alm. Buduchisch (n), ing. budukhs language /ˈbʊduks ˈlɪŋgwɪdʒ/, fr. langue budughe, azərb. budux dili. – Ləzgi dillərindən biridir. Azərbaycanın Quba bölgəsində yayılmışdır. 3 minə qədər daşıyıcısı vardır. Yazısız dildir.
Ю.Д.Дешериев. Будухский язык. «Языки народов СССР». т. 4, М., 1967.

БУДУЩЕЕ ВРЕМЯ - alm. Futurum (n), Zukunft (f), ing. the future tense /ɪə ˈfjuːtʃə tenz/, fr. futur simple, azərb. gələcək zaman. – İş, hal və hərəkətin haqqında danışılan andan sonra baş verəcəyini göstərən zaman forması; gələcəkdə icra olunası bir işlə haqqında indi xəbər verilən iş arasındakı zaman. 1) Azərb. d. iki gələcək zaman forması var: qeyri-qəti gələcək zaman – bir işin gələcəkdə icrasını indi qeyri-qəti şəkildə xəbər verən zamandır və bu zaman forması -ar, -ər (-yar, -yər) şəkilçilərilə düzəlir; Müq. et: /alar/, /gələr/; 2) Qəti gələcək zaman – bir işin gələcəkdə icrası haqqında indi qətiyyətlə xəbər verən zamandır və /-acaq/, /-əcək/, (-yacaq, -yəcək) şəkilçilərilə düzəlir. Müq. et: /olacaq/, /gələcək/. Alm. d. də iki gələcək zaman forması var. Məs.: 1) Futurum I

downloaded from KitabYurdu.org

– Məs.: /Ich werde lesen// (Mən oxuyacağam); 2) F II – Məs.: /Ich werde gelesen haben// (Mən oxumuş olaram). Rus dilində gələcək zamanı sadə və analitik olmaq üzrə iki yerə bölürlər: sadə: /Я прочту//, analitik: /Я буду читать// və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s.146; W. Admoni. Der deutsche Sprachbau. München, 1986.

БУКВА - alm. Buchstabe (m), ing. letter /'letə/, fr. lettre, azərb. hərf. – Əlifbada müəyyən sıra ilə düzülmüş işarələrin ümumi adı. Hərf böyük və kiçik ola bilər.
Ю.С.Маслов. Введение в языкознание. М., 1987; F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005.

БУЛГАРСКИЙ ЯЗЫК - alm. Bulgarisch (n), ing. Bulgar language /'bʌlgɑ: 'lɔŋgwɪʤ/, fr. langue bulgare, azərb. bulqar dili. – Qədim ölü türk dillərindəndir. Böyük Bulqariyanın parçalanmasından sonra bulqar tayfalarının bir hissəsi Dunayda və Orta Volqaboyunda, digər hissələri isə Azov sahillərində məskunlaşdılar və məhz buna görə də həmin tayfaların dilləri Dunay-Volqa və Kuban-Bulqar adlandırılmağa başlamışdır. Bulqar dilinin ayrı-ayrı leksemləri haqqında hələ M. Kaşğarinin tədqiqatlarında da rast gəlmək mümkündür.
Н.А.Баскаков. Введение в изучение тюркских языков. М., 1969; Ф.С.Хакимзянов. Язык эпитафий волжских булгар. М., 1978.

БУРМЕНСКИЙ ЯЗЫК – Bax: Бирманский язык ←.

БУРУШАСССКИЙ ЯЗЫК – alm. Burushaski (n), ing. Burushaski language /brʊʃaɪskɪ: 'lɔŋgwɪʤ/, fr. langue bourouchaise, azərb. buruşas dili. – Kəşmirdə 300 min daşıyıcısı olan dildir.
D.Lorimer. The Burushaski Language. Oslo, 1935.

БУРЯТСКИЙ ЯЗЫК - alm. Burjatisch (n), ing. Buriat language /'buːrɪət 'lɔŋgwɪʤ/, also Buryat/, fr. langue bouriate, buriat, azərb. buryat dili. – Monqol dillərinə daxildir. Buryat Respublikasında, İrkutsk, Çita vilayətlərində və Çin Xalq Respublikasının şimal-şərqində yayılmışdır. Keçmiş Sovetlər ittifaqında bu dildə danışanların sayı təqribən 400 minə qədərdir. Buryat dili ərazi baxımından 4 dialektə bölünür: qərbi (exirit-bulqar); şərqi (horin); şimali (alar-tunkin) və cənubi (sonqol-sartul). 1931 –ci ildə buryat dili latın, 1939-cu ildən isə kiril qrafikasına keçirilmişdir.
Грамматика бурятского языка. Фонетика и морфология. М., 1962.

БУСТРОФЕДОН - alm. Bustrophedon (n), ing. boustrophedon /baʊstrə'fi:d(ə)n, bu:-/, fr. boustrofedon, azərb. bustrofedon. - Bir sətri soldan sağa, ikinci sətri isə sağdan sola yazılan. Qədim yunanlarda əkin vaxtı öküzün tarladakı hərəkətini əks etdirən yazı üsulu.
H.Buβmann. Göstərilən əsər.

downloaded from KitabYurdu.org

БУХЕН АРГУМЕНТ – alm. Buchen-Argument (n), ing. Buchen argument /bu:kən ˈɑ:gjʊm(ə)nt/, fr. argument bouchain, azərb. buxen arqument. – Hind-Avropa xalqlarının və slavyanların bho(u)gos - (Buchen) - cökədən əmələ gəldiyini əsaslandıran sübut. Könisberqdən Krıma qədərki ərazidə yetişən cökə ağacının adına işarədir. Sonralar onların yaşadıqları digər ərazilərdə başqa ağaclar da olub. Məs.: phegos «palıd», buz (iran dilində), «Ulme» və s.
G.S.Lane. The beech-argument. «KZ», 1962, 81, s. 197-202.
БУШМЕНСКИЙ ЯЗЫК - alm. Buschmeisch (n), ing. Bushman language /ˈbʊʃmən ˈlɔŋgwɪʤ/, fr. langue bushmane, azərb. buşmen dili. – Koysan dil ailəsinə daxil olan dillərdəndir. Əsasən CAR, Botsvan, Namibiya, Anqolanın şimal rayonlarında və Tanzaniyada yayılmışdır. 100 minə qədər daşıyıcısı vardır. Aşağıdakı qruplara bölünür: kunq, nqusan, auni, kxomani və xadza. Yazısı olmayan dildir.
D.Bleek. The Naron. A Bushman Tribe of the Central Kalahari. Cambridge, 1928.
БЫСТРЫЙ ТЕМП РЕЧИ – Bax: Темп речи →.
БЫТИЙНОЕ ПРЕДЛОЖЕНИЕ – alm. Existenzsatz (m), ing. existential sentence /ɛgzɪˈstɛnʃ(ə)l ˈsentəns/, fr. proposition d'usage (courante), azərb. xəbər şəkli olmayan cümlələr. – Mövcudluq, iştirak mənası verən cümlələr. Məs.: Azərb. d. /Kənd yeri/, /Ocaq başı/, /Xalq rəqsləri// və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 70.
БЫТОВАЯ ЛЕКСИКА - alm. Lebenswortschatz (m), Umgangswortschatz (m), ing. domestic vocabulary /dəuˈmestɪk vo‿kəbju:lərɪ/, everyday vocabulary /ˈevrɪˈdeɪ vo‿kəbju:lərɪ/, fr. lexique de mœurs, azərb. məişət leksikası. - Gündəlik məişətdə, ev şəraitində zəruri olan əşya və hadisələrin adlarından ibarət leksika. Bura toy və yas mərasimləri, bayram və ziyafət və s. ilə bağlı sözlər də daxildir. Məs.: Azərb. d. /ev, həyət, qazan, fincan, duz, çörək, halva, nişan üzüyü/ və s.
S.Cəfərov. Azərbaycan dilinin leksikası. Bakı, 1982.

– B –

ВАВИЛОНСКИЙ ЯЗЫК – Bax: Аккадский язык ←.
ВАКАШСКИЕ ЯЗЫКИ – alm. Wakash-Sprachen (Pl.), ing. Wakash languages /wɑ:kaʃ ˈlɔŋgwɪʤɪz/, fr. langues vacaches, azərb. vakaş dilləri. – Şimali Amerika hindi dilləri qrupu. Sakit okeanının sahillərində, Amerikanın Vaşinqton ştatının sərhəd rayonlarında və Kanadanın

downloaded from KitabYurdu.org

İngiltərə Kolumbiyasında yayılmışdır. Təqribən bir milyondan artıq daşıyıcısı vardır. Vakaş dilləri əsasən iki qrupa bölünürlər: kvakiutl (kvakiutl, bella-bella, kitamat) və nutka (nutka, nitinat, makax).

J.C.Pilling. Bibliography of the Wakashan languages. Washington, 1894.

ВАЛЕНТНОСТЬ - alm. Valenz (f), Wertigkeit (f), ing. valency /ˈve9lənsı/, valence /ˈv5ləns/, fr. valence, azərb. valentlik. – Kimya elmindən əxz olunmuş termindir. Bir sözün başqa sözlərlə birləşməyə girə bilmək qabliyyəti. İlk dəfə dilçilikdə fransız L.Tenyer (1893-1954) tərəfindən işlədildiyi güman edilir. Məs.: ing. d. /to wait/ feli özündən sonra tamamlığın /for/ sözönü ilə işlənməsini tələb edir: /I am waiting for him// (Mən onu gözləyirəm). Ancaq /to live/ feli lokal mənası verən sözönünü tələb edir. Müq. et: /I am living in Baku// (Mən Bakıda yaşayıram). Cümlədə x konstituentinin y leksemilə ifadə olunan konstituentdən ən azı y-in valentliyilə mövcud olan şərtlərdən birinin x-ə aidliyi varsa, onda o, valentliyə görə asılı olur. L.Tenyerin konsepsiyasında fellər valentliyə görə aşağıdakı kimi qruplaşdırılır: a) sıfır (avalent) fellər. Təbiət hadisələri bildirən fellər buraya aiddir. Məs.: alm. d. /donnern/ (göy guruldayır), /schneien/ (qar yağır), /blitzen/ (ildırım çaxır) və s. Ancaq burada /es/ qeyri-müəyyən mübtədası vacib olduğundan tamamlamanın olmasını inkar etmək olmaz; b) təkvalentli (monovalentli) fellər. Məs.: alm. d. /schlafen/ (yatmaq, xəyal etmək); c) ikivalentli (bivalentli). Buraya /suchen/ (axtarmaq), /lieben/ (sevmək), /verlassen/ (tərk etmək) və s. kimi keçən fellər daxildir; ç) üçvalentli (trivalent) fellər. Məs.: /geben/ (vermək), /schenken/ (bağışlamaq) və s. Valentlik ənənəvi dilçiliyin idarə və keçərlilik anlayışları ilə üst-üstə düşür. Ancaq müxtəlif valentlik nəzəriyyələri hələ də onun dilin hansı səviyyəyə (sintaksis, semantika, praqmatika, leksika) dəqiq aid olduğunu müəyyənləşdirməkdə çətinlik çəkir.

L.Tesniere. Основы структурного синтаксиса. М., 1986; М.Д.Степанов, Г.Хельбиг. Части речи и проблемы валентности в современном немецком языке. М, 1978.

ВАЛЛИЙСКИЙ ЯЗЫК – alm. Walisisch (n), Welsch (n), ing. Welsh language /wɛlʃ ˈlɔŋgwɪʤ/, fr. langue vaillicienne, azərb. valli dili. – Kelt dillərindən biridir. Böyük Britaniyada Uelsdə və Argentinanın bəzi ərazilərində yayılmışdır. 600 minə qədər daşıyıcısı vardır. Uelsdə iki dialekti vardır: şimali və cənubi.

J.Morris Cones. An Elementary Welsh Grammar. Oxford, 1938.

ВАРВАРИЗМ - alm. Barbarismus (m), ing. barbarizm /ˈbɑ:bərız(ə)m/, fr. barbarisme, azərb. varvarizm. – 1) əcnəbi sözlərin yersiz işlənməsi; 2) dilin təmizliyini pozan yad sözlər. Məs.: /madam/, /madmazel/, /ser/, /müsyö/ və s. Təsvirə bəzən xüsusi kolorit vermək məqsədilə işlədilən və başqa xalqların həyat tərzi ilə əlaqədar olan söz və ifadələr. Məs.: Azərb.

downloaded from KitabYurdu.org

d. /molla/, /müsyö/, /frau/, /hobbi/ və s. Dildə vətəndaşlıq almamış, onun müəyyən sosial sahələrində işlədilən bu cür əcnəbi söz və ya ifadələr (kontakt, kosmos, kompaniya) həm tələffüz, həm qrammatik, həm də leksik baxımdan çətinliklər yaradır.

Д.С.Лотте. Вопросы заимствования и упорядочения иноязычных терминов и терминоэлементов. М., 1982.

ВАРИАНТ - alm. Variante (f), ing. variation /ˈvɛərɪˈeɪʃən/, variant /ˈvɛərɪənt/, fr. variante, azərb. variant, çalarlıq. - Eyni bir dil və ya em səviyyəsi vahidinin (yəni fonemin, morfemin və s.) müxtəlif şəkillərdə təzahürü və ya işlənməsi. Müasir dilçilikdə variantın aşağıdakı növləri fərqləndirilir: 1) Xüsusi variantlar. Məs.: Azərb. d. /o/ - 3-cü şəxsin təki, ayrılıqda bir söz; 2) Kombinator variant. Əsas variant, yəni əhatədən və mövqedən ən az asılı olan və danışıq aktının neytral üslubunda maksimum fərqləndirmə qabiliyyətinə malik olan variant. Məs.: Azərb. d. /dᵒuz/ sözündəki dodaqlanan [dᵒ] variantı; 3) Mövqedən asılı olan variant. Məs.: alm. d. saitlər anlautda knaklautla tələffüz olunur. Müq. et: /˃´a:bənt/ (axşam) və s.; 4) Fakültətiv variant. Məs.: alm. d. [r] və [R] buna bariz nümunədir; 5) İşlənmə tezliyinə görə variantlar. Məs.: Azərb. d. /ə/ və /a/ ən sox işlənən saitlərdir. Bundan başqa fərdi və sosiovariant da fərqləndirirlər.

F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 157-160.

ВАРИАНТЫ СЛОВА - alm. Varianten des Wortes (f), ing. phonetic variants of the word /fəˈnetɪk ˈvɛərɪənts əv ðə wɜ:d/, fr. variantes phonétiques du mots, azərb. sözün variantları, alloleksemlər. - Dil vahidinin müxtəlif mətndə və əhatədə təzahür variantları. Məs.: rus d. /рыбак рыбака видит издалека// ifadəsində /рыбак/ sözü iki variantda çıxış edir.

Ю.С.Маслов. Введение в языкознание. М., 1987.

ВАРИАНТЫ СЛОВА ДИАЛЕКТНЫЕ - alm. dialektische Varianten des Wortes (Pl.), ing. dialectal variants of the word /ˌdaɪəˈlɛkt(ə)l ˈvɛərɪənts əv ðə wɜ:d/, fr. variantes des mots de dialecte, azərb. sözün dialekt variantları. - Bir və ya bir neçə dialektə məxsus fonetik və qrammatik xüsusiyyətlərlə səciyyələnən söz variantları: Məs.: Azərb. d. /əv/, /öy/, /ö´v/, /ev/; /qavın/, /qoun/, /qovun/, ovqat/, /ouqat/, /camış/, /gomuş/, /donuz/, /donquz/.

А.А.Реформатский. Göstərilən əsər, s. 74-80.

ВАРИАНТЫ СЛОВА МОРФОЛОГИЧЕСКИЕ - alm. morphologische Varianten des Wortes (Pl.), ing. morphological variants of the word /mɔ:fəˈlɔdʒɪkəl ˈvɛərɪənts əv ðə wɜ:d/, fr. variantes des mots morphologiques, azərb. sözün morfoloji variantları. - Eyni kökə mixtəlif sözdüzəldici və sözdəyişdirici şəkilçilərin qoşulması ilə yaranan

downloaded from KitabYurdu.org

variantlar. Məs.: Azərb. d. /Obrazlıq/, /obrazlılıq/, /Tabelik/, /tabelilik/; ing. d. /maus/ (siçan), /mais/ (siçanlar); alm. d. /'lant/ (ölkə) - /'lande/ (ölkəyə) və s. Bu sözlərdə variantlar morfoloji əlamətlə əldə olunur.
А.А.Реформатский. Göstərilən əsər, s. 275-276.

ВАРИАНТНОСТЬ - alm. Varianz (f), ing. variance /ˈvɛərɪəns/, fr. variance, azərb. variantlılıq, variativlik. - Danışıq şəraitindən və danışanların ictimai və məhəlli mənsubiyyətindən asılı olaraq meydana gələn danışıq müxtəlifliyi, danışıqdakı fərqlər.

ВАРИАЦИЯ - alm. Variation (f), ing. variation /ˌvɛərɪˈeɪʃ(ə)n/, fr. variation, azərb. variasiya, variant. – 1) Bir mətnin, planın, layihənin və s. dəyişmiş şəkli; 2) Bir musiqi əsərinin melodik və ritmik cəhəti; musiqi əsərinin müxtəlif variantlarda təkrarlanması. Moskva fonoloji məktəbi zəif mövqedə çıxış edən variantı çalar və ya variasiya, qüvvətli mövqedə çıxış edən vatiantı isə əsas çalar adlandırır. Məs.: rus d. /мал/ və /мил/ sözlərində [a] və [i] əsasa aid olurlar. /mæl/ və /mɪl/ sözlərindəki [æ] və [ɪ] saitlərini isə variasiya adlandırır. Variasiyalar həmişə eyni fonemə aid olur, variantlar isə fonem sırasına və ya hiperfonemə, arxifonemə aid olurlar.
А.А.Реформатский. Введение в языковедение. М., 1967, s. 218-219.

ВАРИАЦИЯ ФОНЕМЫ - alm. Variation des Phonems (f), (Phonemvariation) (f), ing. variation of phoneme /ˌvɛərɪˈeɪʃ(ə)n əv ˈfəuni:m/, fr. variation du phonème, azərb. fonemin variasiyası.
Bax: Вариация ←.

ВАРИФОНА - alm. Variphon (n), ing. variphone /ˌvɛər9ˈfo-n/, fr. variphone, azərb. varifon. – D.Counzun (1881-1967) işlətdiyi termindir. Müxtəlif fonetik mətn parçalarından asılı olaraq çeşidli tələffüz edildiyi üçün müxtəlif cür eşidilən səs. Bu Amerika dilçiliyində sərbəst variativliyə uyğun gəlir. Məs.: ing. d. zərbli r /r/ (flapped) ilə titrək /ɹ/ sərbəst variativliyə nümunə kimi götürülə bilər. Alman d. isə dilönü [r] ilə dilçək [R] buna misal ola bilər.
D. Jones. The phoneme, its Nature and USE. Cambridge, 1949, s. 205.

ВАРЬИРОВАНИЕ СВОБОДНОЕ - alm. freie Varierung (f), ing. free variation /fri: ˌvɛərɪˈeɪʃ(ə)n/, fr. variation libre, azərb. sərbəst variantlaşma, müstəqil variativləşmə. – 1) Səs tərkibində ifadənin məzmun dəyişikliyinə səbəb olmayan dəyişikliklər. Müstəqil variativləşmə allofonik variativləşmədən fərqli olaraq mövqedən asılı olmur. Məs.: alm. d. [r] və [R] buna misal ola bilər. Müq. et: /'re:dən/ (danışmaq) = /'Re:dən/ (danışmaq); 2) Tələffüzün fərdi dialekt xüsusiyyətlərindən asılı olan. Məs.: Azərbaycanın Qarabağ və Şirvan dialektlərində /z/ və /ʤ/ bu qəbildəndirlər. İng. d. /dri:md/ və /drempt/ hər ikisi /dremaed/ kimi yazılır. Morfoloji səviyyədə sərbəst variantlar kimi çıxış edirlər.
P.H.Matthews. Göstərilən əsər, s. 137.

downloaded from KitabYurdu.org

ВВОДНЫЙ - alm. einführend, einleitend, ing. introductory /ˌɪntrəˈdʌkt(ə)rɪ/, entrance /ˈentr(ə)ns/, parenthetical /ˈp5rənˈθetɪkəl/, inserted /ɪnˈsɜ:tɪd/, incidental /ɪnsɪdəntl/, fr. d'introduction, azərb. ara söz. – Cümlənin digər üzvlərilə formal-qrammatik cəhətdən əlaqəsi olmayan.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 25.

ВВОДНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. Schaltsatz (m), ing. parenthesis /pəˈrenθɪsi:z/, parenthetical clause /ˌp5r(ə)nˈθetɪk(ə)l klɔ:z/, fr. proposition incise, azərb. ara cümlə. - Başqa bir cümlənin tərkibində işlənən, lakin onun heç bir üzvü ilə qrammatik cəhətdən əlaqəsi olmayan tərkib. Əsas cümləyə nisbətən bu tərkib fasilə ilə ayrılır, daha alçaq tonla və iti sürətlə tələffüz edilir. Ara əlavələri quruluşca təktərkibli, cüttərkibli və şəxssiz ola bilər. Məs.: Azərb. d. /Statistikaya əsasən – o artıq çap olunub – avtomobil qəzalarının sayı çoxalıb//
M.İ.Adilov və b. Göstərilən əsər, s. 25.

ВВОДНОЕ СЛОВО - alm. Schaltwort (n), ing. parenthetic(al) word /ˌp5r(ə)nˈθetɪk(əl) wə:d/, parenthesis /pəˈrenθɪsi:z/, fr. mot d'introduction, azərb. ara söz. – «Cümlə üzvü funksiyası daşımayan, cümlə üzvləri ilə qrammatik əlaqəsi olmayan, məna cəhətdən isə danışanın ifadə etdiyi fikrə münasibətini bildirən söz və birləşmələr. Azərbaycan dilində ara söz və ara söz birləşmələrini aşağıdakı kimi qruplaşdırmaq olar: 1) Sübhə, fərziyyə, ehtimal bildirənlər: /bəlkə/, /güman (ki)/, /yəqin/, /deyəsən/; 2) Fikrin reallığını, doğruluğunu təsdiqləmə anlayışını bildirənlər: /həqiqətən/, /sözsüz ki/, /əlbəttə ki/; 3) Müqayisə bildirənlər: elə bil ki, sanki, guya ki, deyərsən (ki); 4) İfadənin mənbəyini və subyektiv münasibətini bildirənlər: /fikrimcə/, /məncə/, /bu fikrə görə/, /rəvayətə görə/, /mən bilən/, /mənə elə gəlir ki/, /səncə/, /zənnimcə/; 5) Ardıcıllıq, sıra, nəticə, əlaqə, dəqiqlik, seçmə kimi məntiqi əlaqələri əks etdirən: /əvvala/, /birincisi/, /deməli/, /qərəz/, /vəssalam/, /tutalım/, /üstəlik/; 6) Arzu, təəssüf, sevinc, təəccüb, maraq kimi emosional hadisələri bildirənlər: /nə ola (ydı)/, /heyf ki/, /qəribədir/, /tərslikdən/; 7) Müsahibin diqqətini cəlb edənlər: /bilirsənmi/, /bağışlayın/, /buyurun/; 8) Fikrin ifadə forması /xeyir olsun/, /üstünə sağlıq/, /qısa desək/, /zarafatsız/, /sözün açığı/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 25.

ВДЫХАНИЕ - alm. Einatmen (n), Einatmung (f), ing. inhalation /ˌɪnhəˈleɪʃ(ə)n/, inspiration /ˌɪnspəreɪʃən/, fr. aspiration, azərb. nəfəsalma. - Ciyər boşluğunun hava ilə dolması nəticəsində diafraqmın genişlənməsi.
H.H.Wängler. Grundriß einer physiologischen Phonetik. Bonn, 1968.

downloaded from KitabYurdu.org

ВЕДИЙСКИЙ ЯЗЫК - alm. Vedisch (n), ing. Vedic launguage /ˈveɪdɪk ˈlʌŋgwɪʤ/, fr. langue védique, azərb. vedi dili. – Qədim Hindu dillərinin ən qədim növlərindən biri, Hindistanda industların mədəniyyətinin dili. İki əsas növü vardır: arxaik (mantr şerlərinin dili) və sonrakı prozanın dili.
Т.А.Елизаренкова. Грамматика ведийского языка. М., 1982.
ВЕДУЩЕЕ СЛОВО - alm. Hauptwort (n), Grundwort (n), führendes Wort (n), Leitwort (n), ing. derivational pattern /ˌderɪˈveɪʃənl ˈpʌtn/, fr. mot principal, azərb. aparıcı (əsas) söz. - Analoji sözdüzəltmədə nümunə kimi götürülən söz.
А.А.Реформатский. Введение в языковедение. М., 2001.
ВЕЖЛИВОЕ ОБРАЩЕНИЕ - alm. Höflichkeitsform (f), ing. polite address form /pəˈlaɪt əˈdres fɔ:m/, fr. manière polie de traiter, azərb. nəzakətli müraciət forması. - Müraciət zamanı xüsusi nəzakət formalarından istifadə. Alman dilində bu /Sie/ əvəzliyi ilə verilir. Məs.: /Kommen Sie!/ (gəlin), /Lesen Sie!/ (oxuyan) və s. Bəzən bu müraciət forması xüsusi sözlərlə reallaşır. Məs.: Azərb. d. /Zəhmət olmasa, əziz, hörmətli/; alm. d. /heizlich, lieber/; rus d. /уважаемый, дорогой/; ing. d. /dear, lovly/ və s.
P.H.Matthews. Göstərilən əsər, s. 285.
ВЕЖЛИВОСТИ ФОРМА - alm. Höflichkeitsformen (Pl.), ing. politeness /pəˈlaɪtnis/, honorific forms /ˌɔnəˈrɪfɪk fɔ:mz/, fr. formes politesse, azərb. nəzakət, hörmət formaları. - Müəyyən dillərdə yaşlılarla və ya vəzifəcə, rütbəcə, ictimai mövqeyinə görə yüksək mövqedə duran şəxslərə müraciətdə işlədilən söz və ifadələr. Məs.: Azərb d. /bəy, xanım/, alm.d. /Eure Hohheit/, ing. d. /you highness/; rus d. /Ваша светлость/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 183.
ВЕЛИЧИНА - alm. Größe (f), ing. amount /əˈmaunt/, size /saɪz/, 2. riy. quantity /kwʌntɪtɪ/, magnitude /ˈmʌgnɪtju:d/, value /ˈvʌlju:/, fr. quantité, valeur, azərb. 1) ölçü vahidi; 2) riyaziyatda meyar. - Dildə hər bir səviyyənin vahidi bölünməzliyi, konkret funksiyası və dəyərilə fərqlənir. Məs.: Azərb. d. /dam/ sözü fonoloji baxımdan 3 vahiddən – /d/, /a/, /m/-dan düzəlib. Morfoloji səviyyədə avtosemantik morfemdir /damlar/ və ya /damsız/ sözlərindəki /-lar/ və /-siz/ sinsemantik morfemlərdən asılı olmaması və konkret leksik məna ifadə edə bilməsilə fərqlənir. Leksik səviyyədə isə omonimliyi (Məs.: /Filankəsi dama basdılar// və /Kənddə balaca bir damımız var//) və /dam, daş, ocaq, yurd/ və s. kimi sözlərlə bir paradigmdə olmaqla eyni semantik sahəyə daxil olur.
Alman alimi L.Vaysgerberin (1899-1958) məzmun qrammatikasında bu termin müəyyən halda olan cümlə üzvləri üçün əsas məfhum sayılır. Məs.: subyekt (əsas vahid), xəbər (bərabərlik vahidi), vasitəsiz tamamlıq

downloaded from KitabYurdu.org

(məqsəd vahidi), yiyəlik halında olan tamamlıq (iştirakçı vahidi), yönlük halındakı tamamlıq (müraciət olunan vahidi), qoşmalı tamamlıq (vəziyyət vahidi) və s.
L.Weisgerber. Die vier Stufen in der Erforschung der Sprachen. Düsseldorf, 1963, s. 62-92.

ВЕЛЯРИЗАЦИЯ - alm. Velarisierung (f), ing. velarization /v9ˈlɛər9ze9ʃ(ə)n/, fr. vélarisation, azərb. velyarlaşma. - Dil arxasının yumşaq damağa yaxınlaşmasından ibarət olan və dilarxası samitlərdən başqa bütün samitlərin əmələ gəlməsində özünü göstərən əlavə artikulasiya növü. Velyarlaşma samitlərdə ton və küyü azaltmaqla, onların qalınlığını artırır. Ona görə də bu hadisə „qalınlaşma" da adlanır. Buna əks hadisə palatallaşma („incələşmə") hesab olunur. Məs.: Azərb. d. /l/ samiti arxa sıra saitləri /a, o, u, ı/ qarşısında qalın [l] (məs.: /lal, bala/ və s.), incə saitlər qarşısında isə yumşaq [l'] tələffüz olunur (məs.: /lil/, /lülə/). Rus d. bunlar fonoloji əhəmiyyət kəsb etdiyi halda, alm., ing., Azərb. və fr. d. bu əlamət sırf fonetik xarakter kəsb edir.
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005.

ВЕНГЕРСКИЙ ЯЗЫК - alm. Ungarisch (n), ing. Hungarian language /ˈhʌŋgɛərɪən ˈlɔŋgwɪʤ/, fr. langue hongroise le hongrois, azərb. macar dili. – Fin-uqor (uqor qolu) dillərindən biridir. Macarıstanda və ona qonşu ölkələrdə (Yuqoslaviya, Avstriya, Rumıniya) yayılmışdır. 15 milyondan çox daşıyıcısı vardır. Macar Respublikasının rəsmi dövlət dilidir. Macar dilinin fonoloji sistemi üçün uzun və qısa saitlərin qarşılaşması, saitlərin ahəngi, həmahəngliyi səciyyəvidir. Morfoloji cəhətdən aqqülinitativ dillərdəndir. Yazısı latın əlifbası əsasında tərtib olunmuşdur.
К.Е.Майтинская. Венгерский язык. М., 1955.

ВЕНЕТСКИЙ ЯЗЫК – alm. Venetisch (n), ing. Venetic language /vɪˈnɛtɪk ˈlɔŋgwɪʤ/, fr. langue vénétienne, azərb. venet dili. – İtaliyanın şimal-şərqində yayılmış romanlaraqədərki qədim venetlərin dili. Fonoloji sistemi 22 fonemdən ibarətdir. Bunlardan 5-ı sait, 17-si samitdir. Samitlərdən 6-sı sonantdır: /v, w, l, r, m, n/.
А.А.Королев. Новые данные о венетском языке. М., 1977.

ВЕПССКИЙ ЯЗЫК – alm. Vepsisch (n), ing. Vepsian language /ˈvɛpsɪən ˈlɔŋgwɪʤ /, AlsoVeps /vpɛs/, fr. langue vepe, azərb. vep dili. – Fin-Baltikyanı dillərindən biridir. Kareliya Muxtar vilayətində və Voloqda vilayətində yayılmışdır. 400 minə qədər insan bu dildə danışır. Üç əsas dialektə bölünür: şimali, orta və cənub dilektləri. Fonetik biçimində saitlərin ahəngi qismən də olsa özünü göstərir. Sintaktik baxımdan karel dilinə çox yaxındır.
М.И.Зайцева. Грамматика веппского языка. Л., 1981.

ВЕРШИНА ИНТОНАЦИОННАЯ - alm. Intonationshöhe (f), ing. top /tɔp/, peak of intonation /pi:k əv ˌintouˈneɪʃən/, fr. sommet

downloaded from KitabYurdu.org

d'intonation, azərb. intonasiya zirvəsi. – İntonasiya konturunun maksimal ton yüksəkliyilə, maksimal uzunluq (qüvvətlilik), güclü intensivlik dərəcəsilə səciyyələnir. Məs.: Azərb. d. /O kitab oxuyur//.
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 299-315.

ВЕРШИНА СЛОГА - alm. Silbengipfel (m), ing. peak of syllable /ˈpi:k əv ˈsıləbl/, fr. sommet de syllable, azərb. heca zirvəsi. - Hecanın daha yüksək, daha güclü tələffüz olunan elementi. Adətən, hecada bu funksiyanı sait və nadir hallarda sonantlar yerinə yetirir. Məs.: alm. d. /ˊta:k/, çex dilində /vlk/ - (canavar): —◿◺—.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

ВЕТКА (ВЕТВЬ) - alm. Zweig (m), ing. branch /ˈbrɑ:nʧ/, twig /twɪg/, fr. branche, azərb. qol, budaq. - Genetik yaxınlığına görə dil ailəsinə birləşdirilən qruplar (bölgülər). Məs.: türk dillərinin oğuz qrupu; Hind-avropa dilləri ailəsinin slavyan dilləri qrupu və s.
M.İ.Adilov. Göstərilən əsər, s. 293.

ВЗАИМНЫЙ - alm. reziprok, ing. mutual /ˈmju:tjuəl/, reciprocal /rɪˈsɪprək(ə)l/, fr. mutuel, réciproque, pronominal, azərb. qayıdış, qarşiliqli - müştərək. – Müştərək, iki və daha artıq şəxsin qarşılıqlı hərəkətinin təsviri. Məs.: Azərb. d. /qüləşmək/, /sevişmək/; alm. d. /sich vereinbaren/ (razılaşmaq) və s.

ВЗАИМНЫЙ ЗАЛОГ - alm. reziprokes Genus (n), ing. reciprocal voice /rɪˈsɪprək(ə)l vɔɪs/, fr. voix réfléchie, azərb. qarşılıqlı növ. - İşin iki və daha artıq şəxs tərəfindən müştərək və qarşı-qarşıya icra edildiyini göstərən fel növü. Azərb. d. qarşılıqlı növ aşağıda sadalanan şəkilçilərin vasitəsilə yaranır: /-aş, -əş, -ş, -iş/. Məs.: /çarpışmaq/, /vuruşmaq/, /toplaşmaq/ və s.
M.Hüseynzadə. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 1973, s. 183-186.

ВЗАИМОДЕЙСТВИЕ - alm. Wechselwirkung (f), ing. mutual interaction /ˈmju:tjuəl ˌɪntərˈ5kʃ(ə)n/, reciprocal action /rɪˈsɪprək(ə)l ˈ5kʃ(ə)n/, fr. action, réciproque, interaction, azərb. qarşılıqlı təsir, bir-birinə təsir; qarşılıqlı əlaqə. - Qarşılılıq, qarşılıqlı mübadilə, hərəkətin əks istiqamətə - subyektdən obyektə keçdiyini göstərir və bunun nəticəsində həmin işin icraçısı eyni vaxtda digər icraçının obyektinə çevrilir. Məs.: Azərb. d. /Uşaqlar yaxşı güləşdilər//.
M.Hüseynzadə. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 1973.

ВЗАИМОЗАМЕНЯЕМОСТЬ - alm. Austauschbarkeit (f), ing. interchangeability /ˌɪntəˈʧeɪnʤəbɪlɪtɪ/, portability /ˌpɔtəˈbɪlɪtɪ/, fr. remplacement mutuel, azərb. qarşılıqlı əvəzetmə. - Eyni mövqedə dil vahidlərinin bir-birini əvəz etməsi. Bu, əvəzetmə, komutasiya → və substitusiya → metodu ilə eyni paradiqmə aid elementləri aşkarlamaqdır.

downloaded from KitabYurdu.org

Məs.: Azərb. d. /zaman/ və /saman/ sözlərində söz başında gələn samiti dəyişməklə yeni söz əldə edirik. Deməli, struktur dilçilikdə /z/ və /s/ səslərinin fonem olması bu yolla sübut edilmiş olur. Cümlədə eyni mövqedə bir element başqası ilə əvəz oluna bilərsə, deməli, həmin sözlər eyni paradiqmə aiddir.

Məs.: Azərb. d.	Səhər Axşam Günorta	mən	Bakıya Şəkiyə Kürdəmirə	yola düşürəm//.

Yalnız eyni söz sahəsinə aid olan sözləri bir-birilə əvəz etmək mümkündür. Belə ki, yuxarıdakı cümlədə zaman bildirən sözləri hərəkətin adını bildirən isimlərlə əvəz etmək olmaz.
Müq. et:

*Gediş Gəliş	mən yola düşürəm//. (*işarəsi cümlənin düzgün olmadığını bildirir)

Əvəzetmə üzrə təhlil iki mərhələdən ibarətdir: a) udma və ya silmə; b) adyunksiya. Birinci üsul transformasional qrammatikada alt qatdan üst qata keçmə zamanı elementlər silinir və ya başqası ilə əvəz edilir. Məs.: Azərb d. /Əhməd tar çalır və Həsən fleyta çalır// → /Əhməd tar çalır, Həsən fleyta//. İkincidə isə konstituyent alt qatdan çıxarıldıqdan sonra, başqa yerdə, üst qatda yerləşdirilir. Özü də bu qatın ağac strukturuna budaq əlavə etməklə tamamlanır. Məs.:

$$[x+y]_s \rightarrow [x+z+y]_s$$



E.Koseriu. Ümumi dilçiliyə giriş. 1996-cı almanca nəşrində tərcüməsi, «Giriş» və «Qeydlər» prof. F.Veysəllinindir. Bakı, 2006.

ВЗАИМОЗАМЕНЯЕМЫЙ - alm. austauschbar, ing. interchangeable /ˌɪntə(:)ˈʧeɪnʤˈæbl/, fr. échangeable, interchangeable, azərb. qarşılıqlı əvəz edə bilən. – Dilin müəyyən səviyyələrində vahidlərin bir-birini əvəz etməsi. İfadə planında əvəzetmə məzmun planında da dəyişiklik edirsə, deməli, əvəzolunmaları müxtəlif vahidlər, invariantlar kimi götürmək olar. Məs.: /mələk/ # /kələk/. İfadə planındakı əvəzetmə məzmun planında dəyişiklik etməsə, deməli, bu variativlik kimi götürlə bilər. Məs.: alm. d. [R] və [r] buna bariz nümunədir. Müq. et: /Ra:t/ və /ra:t/ (şura). Praqa funksional məktəbi və qlossematika bu təhlil metodunu komutasiya və ya subsititusiya adlandırır.
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005. S. 176-284.

downloaded from KitabYurdu.org

ВЗАИМОСВЯЗЬ - alm. wechselseitige Beziehung (f), ing. intercommunication /ˌɪntəkəˌmjuːnɪˈkeɪʃ(ə)n/, mutual link /ˈmjuːtjuəl lɪŋk/, fr. corrélation, azərb. qarşılıqlı əlaqə. - Məs.: alm. və rus d. sifət təyin funksiyasında çıxış edəndə o, aid olduğu isimlə hala, cinsə və kəmiyyətə görə qarşılıqlı əlaqəyə girir. Məs.: /der junge Mann/ (хороший человек), /die junge Frau/ (молодая женщина).
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 271-294.
ВЗРЫВ - alm. Explosion (f), Sprenge (f), ing. explosion /ɪksˈpləu=(ə)n/, outburst /ˈautbəːst/, fr. explosion, détonation, azərb. partlayış. – Kipləşmiş tələffüz üzvlərinin ciyərdən gələn hava axınının təsiri nəticəsində ani olaraq partlaması. Məs.: /p/, /t/, /k/ samitlərinin əmələ gəlməsi bu cür partlayış nəticəsində baş verir.
ВЗРЫВ ГЛОТТАЛЬНЫЙ - alm. Kehlexplosion (f), fester Einsatz (m), ing. glottal stop /ˈɡl6t(ə)l stɔp/, rough glide /r∧f ɡlaɪd/, fr. attaque dure (claire, forte), azərb. xirtdəkdə partlayış. – Kipləşmiş səs tellərinin gəfildən titrəməyə başlaması nəticəsində eşidilən partlayış. Məs.: alm. d. /˃´a:bənt/ (axşam), /˃´a:rt_st/ (həkim) sözlərində saitin əvvəlində bu cür partlayış olur ki, buna da sərt başlanğıc və ya knaklaut (şaqqıltılı səs) deyirlər. Bu səsin funksiyası morfem və söz sərhəddini bildirməkdir.
F.Veysəlov. Alman dilinin fonetikası. Bakı, 1980, s. 20.
ВЗРЫВ ГОРТАННЫЙ - alm. Knacklaut (m), Kehlkopflaut (m), ing. glottal stop /ˈɡl6t(ə)l stɔp/, guttural explosion /ˈɡ∧turæl/ ɡ∧t(ə)r(ə)l ɪksˈpləu=(ə)n/, fr. détonation gutturalle, azərb. xirtdəkdə partlayış. – Səs telləri kipləşmiş olur, sonra açılır və yenidən kipləşir. Bu vəziyyətdə yaranan sərt başlanğıc və ya knaklaut adlanır.
Bax: Взрыв глоттальный ←.
ВЗРЫВНОЙ - alm. Explosiv-, Sprenllaut (m), ing. explosive /ɪks'plousɪv/, explosive /ɪksˈplousɪv/, fr. explosif, azərb. kipləşən – partlayışlı səs. - Kipləşmiş tələffüz üzvlərinin hava axınının təsirilə partlayışından yaranan səs. Məs.: Azərb. d. /p/, /t/, /k/, /b/, /q/, /d/ kipləşən-partlayışlı samitlərdir.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.
ВЗРЫВНОЙ ГОРТАННЫЙ - alm. Knacklaut (m), Rekursivlaut (m), ing. (ex)plosive guttural /ɪksˈpləusɪv ɡ∧t(ə)r(ə)l/, fr. explosif guttural, azərb. kipləşən-partlayışlı xirtdək səsi.
Bax: Взрыв гортанный ←.
ВЗРЫВНЫЕ СОГЛАСНЫЕ - alm. explosive Konsonanten (Pl.), Verschlußsprengelaute (Pl.), ing. (ex)plosive (stop) consonants //ɪks/'plousɪv /stɔp/ 'kɔnsənəntz/, fr. consonne explosives, azərb. kipləşən-partlayışlı samitlər. - Tələffüz zamanı xirtdəküstü boşluqda (boğaz,

downloaded from KitabYurdu.org

ağız, burun boşluqlarında) yaranan kipləşmənin ani partlayışa keçməsilə yaranan samitlər.
Bax: Взрывной ←.
ВИБРАНТ(Ы) - alm. Vibrant (m), Schwinglaut (m), Zitterlaut (m), gerollter Laut (m), ing. vibrant /ˈvaɪbrənt/, flapped /flæpt/, rolled sound /ˈrould saund/, fr. vibrants, roulés, azərb. titrək. - Tələffüzü zamanı dil ucunun və dilçəyin ardıcıl titrəməsindən yaranan sonor səs. Məs: italyan və Azərb. dillərində /r/ /ro:ma/ sözündə dilucu titrək; çex d. novlu /r/ /ˈdvo:rak/ sözündə; alm. d. dilçək /R/ və ya saitləşən /ʁ/ tələffüz olunur.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.
ВИБРАЦИИ ГЛОТТАЛЬНЫЕ - alm. Glottalvibration (f), Schwingung (f), ing. glottal vibration /ˈɡlɒt(ə)l ˈvaɪbreɪʃ(ə)n/, fr. vibration glottale, azərb. glottal titrəmə. – Xirtdəkdə səs tellərinin titrəməsi.
ВИБРИРУЮЩИЙ - alm. vibrierend, schwingend, zitternd, ing. vibrating /vaɪbreɪtɪŋ/, vibratory /ˈvaɪbrət(ə)rɪ/, vibrant /ˈvaɪbr(ə)nt/, fr. vibratoire, azərb. titrəyən səslər. - Dil ucunun iki-üç dəfə titrəməsi nəticəsində yaranan səs. Məs.: Azərb. d. /r/ sonoru. Müq. et: /dərə/, /ara/ və s.
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 126.
ВИД (АСПЕКТ) - alm. Aspekt (m), ing. aspect /ˈæspekt/, fr. aspect, azərb. tərz. – Hərəkətin baş verməsi tərzi, bitməsi, davamlığı. Slavyan dillərində, yunan dilində felin tərz kateqoriyasının qrammatikləşməsi. Başqa dillərdə isə bu leksik vasitələrlə ifadə olunur. Rus d. bitmiş və bitməmiş tərz prefiks, suffiks, daxili fleksiya və affiksin düşməsi, vurğunun yerinin dəyişməsi və suppletivizmlə ifadə olunur. Müq. et:

Tərz

bitmiş	bitməmiş
делать	сделать (prefiks)
толкать	толкнуть (suffiks)
собирать	собрать (daxili fleksiya)
достигать	достичь (daxili fleksiya və dezaffiksasiya)
насы́пать	насыпа́ть (vurğunun dəyişməsi)
брать	взять (suppletivizm)

А.А.Реформатский. Göstərilən əsər, s. 255.
ВИД ГЛАГОЛА - alm. Aspekt des Verbs (m), ing. aspect of the verb /ˈæspekt əv ðə vɜ:b/, fr. aspect verbal, azərb. felin tərzi.
Bax: Вид (аспект) ←.
ВИД ДЛИТЕЛЬНЫЙ - alm. dauernder Aspekt (m), Durativ/Nicht Durativ, ing. durational aspest /dju(ə)ˈreɪʃ(ə)nəl ˈæspekt/, continuous

downloaded from KitabYurdu.org

aspect /kən′tınjuəs 'æspekt/, fr. aspect long, azərb. davamlı tərz. – Bu anlayış dilçilikdə aterminativ (kursiv/terminativ, bitmiş/bitməmiş, imperfektiv/perfektiv, imutativ/mutativ) terminlərilə də göstərilir. Durativ fellər hərəkətin davamlığı, və digər strukturlaşma əlamətinin olmaması ilə səciyyələnir. Məs.: alm. d. /brennen/ (yanmaq), /arbeiten/ (işləmək), /essen/ (yemək). Bunlardan fərqli olaraq qeyri-durativ fellərdə zaman məhdudiyyəti, prosesin sonu və inkişafı ifadə olunur. Məs.: alm. d. /entbrennen/ (alışıb yanmaq), /aufarbeiten/ (işi qurtarmaq), /einen Apfel essen/ (almanı yemək) fellərində tamamlanma, qurtarma mənaları ifadə olunur. Bəzən bu mənalar leksik yolla da verilə bilər. Məs.: Azərb. d. /Bina iki saat ərzində yandı//. Durativ fellərdə iterativ və semelfaktiv mənalar, yəni hərəkətin və ya prosesin təkrarı (müq. et: dalğalanmaq) və diminutiv məna, yəni prosesin qismən intensivliyi ifadə olunur (müq. et: gülümsəmək). Qeyri-durativ fellər isə inqressiv, müvafiq olaraq inxoativ, yəni hərəkətin başlanğıcını (müq. et: /einschlafen/ (yuxuya getmək), rezultativ, yəni hərəkətin sona çatmasını (müq. et: /verbrennen/ (yanıb qurtarmaq), transformativ, yəni bir vəziyyətdən başqa vəziyyətə keçidi (müq. et: /qocalmaq/), punktual, yəni hərəkətin ani baş verməsini (müq. et: /partlamaq/) və s. bildirir.
H.Bußmann. Göstərilən əsər, s. 200.

ВИД ЗВУКОВОЙ ПОЛНЫЙ - alm. volle Lautveränderung (f), ing. absolute sound aspect /′5bsəlu:t saund 'æspekt/, full grade /ful greɪd/, fr. aspect sonore absolu, azərb. tam səs əvəzlənməsi. – Dil vahidinin səslənməsində tam əvəzlənmə kimi səciyyələnir. Məs.: ing. d. /see - saw/ (görmək-gördü).
O.C.Ахманова. Göstərilən əsər, s. 75.

ВИД ЗВУКОВОЙ ПРОТЯЖЕННЫЙ - alm. gedehnter Laut (m), ing. expanded /ıks′p5ndıd/, extensive sound aspect /ıks′tensıv saund '5spekt/, lengthened grade /leŋθənd greɪd/, fr. aspect phonétique étendu, azərb. səsin uzanması. – Dil vahidinin səslənməsi uzanma ilə səciyyələnir. Məs.: alm. d. /´ʃra͡ebən-´ʃri:p/.
O.C.Ахманова. Göstərilən əsər, s. 75.

ВИД ЗВУКОВОЙ СИЛЬНЫЙ - alm. starker Lautaspekt (m), ing. strong sound aspect /strɔ2 ′saund '5spekt/, fr. aspect phonétique fort, azərb. səsin qüvvətli deyilməsi. – Vurğulu hecada səs qüvvətli tələffüz olunur. Məs.: alm. d. /´*ze:ən/ - /´*za:ən/; Azərb. d. /dáğ/, ancaq /dăga′/.
O.C.Ахманова. Göstərilən əsər, s. 76.

ВИД ЗВУКОВОЙ СЛАБЫЙ - alm. schwacher Lautaspekt (m), ing. faint sound aspect /feɪnt ′saund 'æspekt/, weak grade /wi:k greɪd/, fr. aspect phonétique faible, azərb. səsin zəifləməsi. – Reduksiya ilə bağlı zəifləmə. Məs.: Azərb. d. /başlamaq/, ancaq /başlıyır/ və s.
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 92-149.

downloaded from KitabYurdu.org

ВИД ИНХОАТИВНЫЙ - alm. inchoativer Aspekt (m), Inchoativ (um), ing. inchoative aspect /ˈɪnkoueɪtɪv ˈæspekt/, fr. aspect incohatif, azərb. inxoativ tərz (başlanğıc tərz).

Bax: Вид длительный ←.

ВИД МНОГОКРАТНЫЙ - alm. vielfacher Aspekt (m), ing. multiple aspect /ˈmʌltɪpl ˈæspekt/, iterative aspect /ˈɪtərətɪv ˈæspekt/, fr. aspect fréquent, azərb. çoxdəfəli tərz.

Bax: Вид длительный ←.

ВИД НЕЗАКОНЧЕННЫЙ - alm. unvollendeter Aspekt (m), ing. infective aspect /ɪnˈfektɪv ˈæspekt/, unfinished aspect /ˈʌnˈfɪnɪʃt ˈæspekt /, fr. aspect imparfait, azərb. bitməmiş tərz.

Bax: вид глагола ←.

ВИД СОВЕРШЕННЫЙ - alm. perfektiver Aspekt (m), vollendeter Aspekt (m), perfektive Aktionsart (f), ing. perfective aspect /ˈpɜ:fɪktɪv ˈæspekt/, fr. aspect perfectif, azərb. bitmiş tərz.

Bax: Вид глагола ←.

ВИД УСИЛИТЕЛЬНЫЙ - alm. Verstärkungsaspekt (m), Intensivum (n), ing. intensive aspect /ɪnˈtensɪv ˈæspekt/, fr. aspect amplificateur, azərb. gücləndirici tərz.

Bax: Вид длительный ←.

ВИД ФОНЕМЫ ОСНОВНОЙ - alm. Hauptvariante des Phonems (f), ing. principal aspect of a phoneme /prɪnsɪpl ˈæspekt əv ə fəuni:m/, main variant of a phoneme /meɪn vɛərɪənt əv ə ˈfəuni:m/, fr. aspect principal du pronème, azərb. fonemin əsas variantı. – Müstəqil şəkildə işlənən, mövqedən ən az asılı olan variant. L.V.Şerba sadəlik naminə bu variantı fonemin özü adlandırırdı. Məs.: Azərb. d. /o̲ gəlir/; alm. d. /a͡e/ (yumurta); ing. d. /aɪ ʃæl go v̲/; rus d. /y̲ нево мног^ друзей// misallarında /o/, /æ/, /aɪ/ və /u/ həmin dillərin əsas variantlarıdır. Sonralar L.V.Şerbanı fonemi variantdan ayırmaqda qünahlandıranlar da oldu. Ancaq fonem nəzəriyyəsinin sonrakı inkişafı göstərdi ki, hər bir variant təmsilçisi olduğu fonemin eyni hüquqlu nümayəndəsi və ya elə fonemin özüdür. Fonemdən varianta və ya variantdan fonemə yol birbaşadır. Məs.:



Ф.Вейсалов (Вейсалли). Проблема варьирования фонем в современной фонологии. ВЯ. М., 1990, №3, , s. 76-86; F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 191-204.

downloaded from KitabYurdu.org

ВИДОВОЙ - alm. Aspekt, ing. aspectual /'5spektʃəl/, fr. d'aspèct, azərb. tərz.
Bax: Вид глагола ←.
ВИДОВАЯ КОРРЕЛЯЦИЯ - alm. Aspektkorrelation (f), ing. aspectual correlation /5spektʃəl ˌkɔrɪ'leɪʃ (ə)n/, fr. corrélation d'aspect, azərb. növ korrelasiyası, cütlüyü. – Fellərin ifadə etdiyi hərəkətin tərzinə görə bir əlamətlə qarşılaşmalar ardıcıllığı. Məs.: durativ, iterativ/diminutiv (davamlı) #, qeyri-durativ (qeyri-davamlı), inxoativ, rezultativ, transformativ, punktuel, imperfektiv, perfektiv və s.
Bax: Вид длительный ←.
ВИНИТЕЛЬНЫЙ ПАДЕЖ - alm. Akkusativ (m), ing. accusative (case) /ə'kju:zətɪv /keɪz/, fr. accusatif, azərb. təsirlik hal. - Felin təsirinə məruz qalan, obyekti göstərən kateqorial hal forması. Məs.: Azərb. d. təsirlik; alm. d. Akkusativ; rus d. винительный падеж. Məs.: Azərb. d. /Mən məktub yazıram//; rus d. /Я читаю книгу//; alm. d. /Ich schreibe einen Brief// (Mən məktub yazıram).
Bax: Акузатив ←.
ВИРТУАЛЬНЫЙ - alm. virtuell, ing. virtual /'vɜ:tjuəl/, fr. virtuel, azərb. mümkün, törəyə biləcək. - Danışıqda reallaşmasından və aktuallaşmasından asılı olmayaraq dil sisteminin ünsürü kimi təsəvvür edilən.
О.С.Ахманова. Göstərilən əsər, s. 76.
ВИРТУАЛЬНАЯ ПАУЗА - alm. virtuelle Pause (f), ing. virtual pause /'vɜ:tjuəl pauz/, potential pause /pə'tenʃəl pauz/, fr. pause virtuelle, azərb. meydana gəlməsi mümkün olan fasilə. - Ayırıcı və birləşdirici pauzaların işlədilməsi. Məs.: Azərb. d. /Ana/ vətən çağırır// və ya /Ana vətən/ çağırır//.
H.Bußmann. Göstərilən əsər, s. 822.
ВИРТУАЛЬНАЯ ФОНЕМА - alm. virtuelles Phonem (n), ing. virtual phoneme /'vɜ:tjuəl fəuni:m/, fr. phonème virtuel, azərb. virtual fonem. - Dilin fonem sistemində privativ qarşılaşmada yeni fonem yaranması üçün mövcud olan imkan. Məs.: rus d. /k/ # /k'/, /g/ # /g'/, /x/ # /x'/ və s. Hər üç dilarxası sərt samitin yumşaq qarşılaşmanın fonem kimi qəbul olunması sistemdəki boşluqların doldurula bilməsindən irəli gəlmişdir.
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 208.
ВКЛЮЧЕНИЕ – alm. Inklusion (f), Einschließung (f), Enthaltensein (n), ing. inclusion /ɪn'klu:=(ə)n/, insertion /ɪn's8:ʃ(ə)n/, fr. insertion, inclusion, azərb. daxil etmə, yerləşdirilmə. – Klasslar (siniflər) və ya çoxluqlar arasında məntiqi əlaqə. Bu zaman A çoxluğunun elementi, həm də B çoxluğunun elementidir. Məs.: Azərb. d. /Bütün qardaşlar (çoxluq A), qan qardaşlarıdır (çoxluq B). İngilis dilçisi J.Layons inkluziyonu sinonimiyaya oxşadaraq hüponim terminindən semantik təsvir

downloaded from KitabYurdu.org

üçün istifadə edir. Məs.: Azərb. d. /alma hüponimdir/, çünki alma öz semantik spesifikliyilə meyvə sinfinə xasdır. /alma, armud, gəvalı/ kohüponimlər adlanır.
J.Lyons. An Analysis of Part of the Vocabulary of Plato. Oxford, 1963.

ВКЛЮЧИТЕЛЬНОЕ ЛИЦО – alm. einschließende Person (f), ing. inclusive person /ɪn'klu:sɪv pə:sn/, fr. personne inclusive, azərb. daxil edilən şəxs. – Həm danışanı, həm də müraciət olunanı əhatə edən birinci şəxsin cəm halı. Məs.: Azərb. d. /biz bu işin öhdəsindən gələ bilmirik//.
H.Bußmann. Göstərilən əsər, s. 342.

ВНЕВРЕМЕННОЙ - alm. außerhalb der Zeit (f), zeitlos, ing. timeless /'taɪmlɪs/, non-temporal /nɔn tempərəl/, fr. situé hors du temps, azərb. vaxtdan xaric, zamandan xaric. - Daimi, hər yerdə (bütün vaxtlarda) öz qüvvəsində qalan kimi düşünülən. Bu cür işlənmə atalar sözlərinə xasdır. Məs.: Azərb. d. /Nə tökərsən aşına, o da çıxar qaşığına//; rus d. /Что написано пером, не вырубишь топором// və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 79.

ВНЕЛИНГВИСТИЧЕСКИЙ - alm. extralinguistisch, außerlinguistisch, ing. extralinguistic /'ekstrəlɪŋ'gwɪstɪk/, fr. extralinguistique, azərb. dilçilikdən xaric. – Dilin faliyyətində ictimai-tarixi, sosial, coğrafi və s. amillərin nəzərə alınması. Məs.: dilin ayrı zaman kəsiyində tədqiqi coğrafi struktural təsvir adlanır.
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 6-43.

ВНЕЛИТЕРАТУРНЫЙ - alm. außerliterarisch, ing. non-literary /nɔn'lɪtərərɪ/, colloquial /kə'ləukwɪəl/, fr. extralittéraire, azərb. ədəbi dildən kənar. - Ədəbi dilə aid olmayan, ədəbi dilə daxil olmayan, müxtəlif dialekt, arqo və jarqon ifadələrə aid olan.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 63.

ВНЕПАРНАЯ ФОНЕМА - alm. unpaariges Phonem (n), ing. unpaired phoneme /'ʌnpɛə:d fəuni:m/, fr. phonème impaine (hor paine), azərb. qarşılığı olmayan fonem. – Fonoloji qarşılaşmada tək qalan fonem. Məs.: Rus dilində /ʧ/-nın sərt, /ʦ/-nin isə yumşaq qarşılığı yoxdur.
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 208.

ВНЕСЕНИЕ - alm. Satzparenthese (f), ing. parenthesis /pə'renθɪsɪs/ introduction/ˌɪntrə'dʌkʃ(ə)n/, fr. paranthèse, azərb. gətir(il)mə (içəri), daxil etmə (edilmə). - Qrammatik cəhətdən əlaqəsi olmayan tərkibin cümləyə daxili. Məs.: Azərb. d. /Lüğət yazmaq, *dedim axı*, çətin məsələ-dir//; ing. d. /Bill, let's face it, is too young// (Bil, qoy özünü göstərsin, çox cavandır). Bu cümlələrdə /dedim axı/, / let's face it/ sintaqmaları böyük sintaktik bütövün tərkibinə daxil edilib, onları asanlıqla çıxardıb atmaq olar, cümlənin strukturu və intonasiyası dəyişməz.
P.H.Matthews. Göstərilən əsər, s. 266.

downloaded from KitabYurdu.org

ВНЕФОНОЛОГИЧЕСКИЙ - alm. außerphonologisch, ing. subphonemic /sʌb ˈfəunımık/, infra-phonemic /ˈınfrə ˈfəunımık/, fr. extraphonologique, azərb. fonemxarici, fonolojilikdən kənar. – Fonoloji cəhətdən irrelevant. Məs.: Azərb. d. /s/ samitinin /sᵒytʰ/ və /sᵒʸmyk/ sözlərində dodaqlanması bu dilin fonoloji sitemindən deyil, onun normasından irəli gəlir, ona görə də dodaqlanmanı qeyri-relevant hesab etmək lazımdır.
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 92-129.
ВНЕШНИЙ - alm. äußerlich, äußerer, ing. exterior /eksˈtıərıə/, external /eks'tɜ:nl/, fr. extérieur, azərb. xarici. – 1) Dil vahidlərinin ifadə vasitələrinə aid olan xarici forması. Məs.: flektiv dillərdə prefiks və suffiks, köməkçi söz, söz sırası, intonasiya ilə yeni sözün və söz formasının yaranması. Müq. et: ing. d. /to teach-teach+er/ (öyrətmək-öyrətmən); /The teacher's book/ (Öyrətmənin kitabı). Burada /-er/ və /-s/ xarici əlamət sayılır; 2. Dilin tədqiqində xarici amillərin rolu. Hər hansı bir dilin tədqiqində tarixi, coğrafi və sosial-mədəni amillərin nəzərə alınması; 3) Dilin lüğət tərkibinin zənginləşməsində alınmalar. Alınmalarda işlənən formalar. Məs.: Azərb. d. «kolxoz» /kalxoz/, «komediya» /kamediya/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 318.
ВНУТРЕННИЙ - alm. innerlich, inner, ing. internal /ın'tɜ:nl/, inner /'ınə/, fr. intérieur, azərb. daxili. - Sözün daxilində baş verən dəyişmə əsasında düzələn yeni formalar, xətti qaydada, yəni ardıcıl sıra ilə düzülən. Məs.: alm. d. daxili fleksiya ablaut ←, vurğu, umlaut →, suppletivizm və brexunq ←.
A.A.Реформатский. Göstərilən əsər, s. 313.
ВНУТРЕННЯЯ ФЛЕКСИЯ - alm. Stammflexion (f), innere Flexion (f), ing. internal inflexion /ın'tɜ:nl ınˈflekʃ(ə)n/, fr. flexion intérieure, azərb. daxili fleksiya. – Alman alimi Y.Qrimm (1785-1863) fleksiyanın iki növünü qeyd edir: 1) Daxili fleksiya. Məs.: ing. d. /to give - gave/ (vermək – verdi), /Child/ - /Children/ (uşaq – uşaqlar); alm. d. /lesen/ - /las/ (oxumaq – oxudu), /Hand - Hände/ (əl – əllər); rus d. /печь - пеку/, /неси – н'ос/. 2) Xarici fleksiya. Məs.: ing. d. /to make/-/maker/ (etmək – edən şəxs) və s.
J.Grimm. Deutsche Grammatik. 1819.
ВНУТРИГЛАГОЛЬНОЕ СЛОВООБРАЗОВАНИЕ - alm. innerverbliche Wortbildung (f), ing. word formation in the verbal /wɜ:d fɔ: ˈmeıʃ(ə)n ın 1ə ˈvə:b(ə)l/, derivation in the verb /ˌderıˈveıʃən ın 1ə ˈvə:b/, fr. formation interverbale des mots, azərb. feldaxili sözdüzəltmə. - Məs.: alm. d. /geben - Gabe/ (vermək - vergi), ing. d. /to feel-feeling/ (hiss etmək – hiss) və s.
Bax: внутренняя флексия ← .

downloaded from KitabYurdu.org

ВНУТРИЛИНГВИСТИЧЕСКИЙ - alm. innerlinguistisch, intralinguistisch, intralingual, ing. intralinguistic /ɪntrə l92′gwɪstɪk/, fr. intralinguistique, azərb. linqvistikadaxili. – Dilin öz içindən istifadə etməklə təsviri. Məs.: fonem sisteminin distinktiv, semantik sistemin isə semantik əlamətlərlə təsviri.
H.Bußmann. Göstərilən əsər, s. 353.

ВНУТРИЯЗЫКОВАЯ СВЯЗЬ - alm. innersprachliche Verbindung (f), ing. intralinguistic relation /′ɪntrəlɪ2′gwɪstɪk rɪ'leɪʃ(ə)n/, fr. liaison intralingualle, azərb. dildaxili əlaqə. – Dilin ayrı-ayrı səviyyələrində onun vahidləri arasında əlaqə. Məs.: fonem, morfem, leksem və s.-nin qarşılıqlı əlaqələri. V. fon Humboldt dilin daxili formalarını dünyagörüşünün əsası hesab edirdi, başqa sözlə desək, dilin qanunları təfəkkürün qanunlarını əmələ gətirir. Buradan da sonraki dilçilikdə formalaşan üç istiqamət aydınlaşır: 1) Sepir-Uorf fərziyyəsi, buna linqvistik nisbilik prinsipi deyilir. Bu prinsipə görə, fərdlərin dünyagörüşü hər bir dil sistemilə şərtlənir; 2) L.Vaysgerberin məzmun qrammatikası. Bu cərəyan alman dili «dünyasının obrazını» tədqiq etməklə söz xəzinəsinin anlamca qruplaşmasını ana dilinin dərk edilməsilə bağlayır, dilə ətraf aləmlə fərd arasında aralıq dünyası kimi yanaşır; 3) N.Xomskinin alt qat nəzəriyyəsidir ki, bu da dilə deyil, ayrı-ayrı cümlələrə, müxtəlif dillərin bazasını təşkil edən strukturlara söykənir.
W. von Humboldt. Über die Verschiedenheit des menschlichen Sprachbaus und ihren Einfluß auf die geistige Entwicklung des Menschengeschlechts. Wiesbaden, 2003, s. 279-567; L.Weisgerber. Von den Kräften der deutschen Sprache. 4. Bde, Düsseldorf, 1949-1954; N.Chomsky. Aspekte der Syntaxtheorie. Frankfurt, 1969.

ВНУШАЮЩИЙ МОНОЛОГ - alm. suggestiver Monolog (m), ing. suggestive monologue /sə′ʤestɪv ′mɔnəlɔg/, fr. monologue suggestif, azərb. təlqinedici monoloq. - Natiq danışığının əsas forması olan monoloq. Bu monoloq məzmun etibarı ilə dinləyicilərə inam aşılamaq, təlqin etmək, təbliğ etmək xüsusiyyətlərinə malikdir.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 165.

ВОДСКИЙ ЯЗЫК – alm. Vodisch (n), ing. Vodian language /′vəʊdɪən ′l5ŋgwɪʤ/ also Votian /′vəʊtən/, fr. langue vodique, azərb. vod dili. – Fin-Baltikyanı dillərindən (cənub qrupu) biridir. Peterburq vilayətinin Peski, Krakolye bölgələrində yayılmışdır və əsasən yaşlı təbəqənin isifadə etdiyi dildir. Təqribən 2 min daşıyıcısı vardır.
Э.Адлер. Водский язык. «Языки народов СССР», т. 3, М., 1966.

ВОЗВРАТНО-НЕПЕРЕХОДНЫЙ - alm. reflexiv-intransitiv, ing. reflexive intransitive /rɪ'fleksɪv ɪn'tr5nsɪtɪv/, fr. réfléchi-intransitif, azərb. təsirsiz-qayıdış fel. - Mövcud hərəkət nə obyekt, nə də subyekt üzərinə

downloaded from KitabYurdu.org

keçmir. Burada subyekt eyni zamanda obyekt hesab olunur. Subyekt (iş görən) əslində üzərində iş icra olunan obyektin özüdür. Məs.: Azərb. d. /Günəş daim işiq saçır//Ay çıxır və batır//İt qapır//Gicitkən dalayır// və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 48.

ВОЗВРАТНО-ПЕРЕХОДНЫЙ - alm. reflexiv-transitiv, ing. reflexive-transitive /rɪ'fleksiv 'tr5nsɪtɪv/, fr. réfléchi-transitif, azərb. təsirli – qayıdış fel. - Subyektə təsir edən hərəkəti bildirir. Məs.: Azərb. d. /geyinmək, çimmək, daranmaq/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 48.

ВОЗВРАТНЫЙ - alm. reflexiv, ing. reflexive /rɪ'fleksɪv/, fr. réfléchi, pronominal, azərb. qayıdış. – Hərəkətin onu icra edənin üzərinə qayıtması. Məs.: alm. d. /sich beschäftigen/ (məşğul olmaq); rus d. /умываться/, azərb. d. /yuyunmaq/ və s. Adətən alman dilində qayıdış felləri həqiqi və qeyri-həqiqi fellər olmaqla iki yerə bölürlər. Həqiqi qayıdış fellərdə «sich» qayıdış əvəzliyi işlənir. Müq. et: /sich ereignen/ (baş vermək); ancaq qeyri-həqiqi qayıdış fellər qayıdış əvəzliyilə işlənir. Müq. et: /waschen/ (yumaq), /sich waschen/ (yuyunmaq). Axırıncıdan məchul növ düzəltmək mümkün olduğu halda (məs. /Das Kind wurde gewaschen// (Uşaq yuyunduruldu), birincidə bu mümkün deyildir.
R.Conrad. Göstərilən əsər, s. 287.

ВОЗЗВАНИЕ - alm. Aufruf (m), Appell (m), ing. appeal /ə'pi:l/, proclamation /ˌprɔklə'meɪʃ(ə)n/, emphatic address /ɪm'f5tɪk ə'dres/, fr. nom, apostrophe, appel, azərb. müraciət, xitab, çağırış. - Dinləyicinin diqqətini cəlb etmək məqsədilə işlədilən sözlər. Məs.: alm. d. /Achtung, Achtung/; Azərb. d. /Xanımlar və bəylər/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 321.

ВОКАБУЛА - alm. Vokabel (f), Stichwort (n), ing. vocable /'voukəbl/, fr. vocable, azərb. vokabula. – 1) Əzbər öyrənmək üçün ana dilinə tərcümə edilmiş xarici söz; 2) Lüğətdə əsas, özək söz.
A.A.Реформатский. Göstərilən əsər, s. 153-154.

ВОКАЛИЗАЦИЯ - alm. Vokalisation (f), ing. vocalization /ˌvoukəlaɪ'zeɪʃ(ə)n/, fr. vocalisation, azərb. vokallaşma. – 1) Diaxronik fonologiyada samit səsin sait səsə çevrilməsi. Məs.: latın dilində /l/ samiti /u/ saitinə keçib. Müq. et: lat. /alba/ → fr. /auba/ (səhər alatoranlığı); 2) Samitin hecadüzəldici xüsusiyyət kəsb etməsi. Məs.: alm. və ing. dillərində /er/ ardıcıllığı söz sonunda vokallaşaraq /∧/, / v /, /ʁ/ kimi tələffüz olunur. Məs.: alm. d. /∨e:ʁ/ (kim?), /fo· ʁ/ (üçün); ing. d. /ti:ʧə/ (müəllim) və s.
R.Conrad. Göstərilən əsər, s. 292.

ВОКАЛИЗМ - alm. Vokalismus (m), ing. vocalizm /'voukəlɪzm/, fr. vocalisme, azərb. vokalizm. - Dilin saitlər yarımsistemi. Vokalizm konsonantizmə qarşı qoyulur. Alm. d. bu 17, Azərb. d. 9, rus d. 6, ing. d. 20

downloaded from KitabYurdu.org

(22, 24) saitdən ibarətdir. Adətən dilin saitləri müxtəlif həndəsi fiqurlarla əks olunur. Aşağıdakı şəkillər bunu aydın göstərir:





F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 324-325.

ВОКАЛИЗОВАННЫЙ СОГЛАСНЫЙ (ВОКАЛИЧЕСКИЙ СОГЛАСНЫЙ) - alm. vokalisierter Konsonant (m), ing. vocalic (vocalized) consonant /voʊ'k5lık /'voʊ kəlaızd/ 'kɔnsənənt/, fr. consonne vocalique, azərb. saitləşən (vokallasan) samit. – Alm. d. söz sonunda /er/ şəkilçisində sait düşür /R/ samit isə vokallaşır. Məs.: /´le:Rʁ/ və s.

downloaded from KitabYurdu.org

F.Veysəlli. Einführung in die Phonologie. Baku, 2004.

ВОКАЛИЧЕСКИЙ - alm. vokalisch, ing. vocalic /vou'k5lık/, fr. vocalique, azərb. vokalik, vokal. - Saitə əsaslanan, sait vasitəsilə yerinə yetirilən. Alman dilini öyrənən azərbaycanlılar 3 və ya 4 samit birləşməsini dalbadal tələffüz etməkdə çətinlik çəkirlər. Ona görə də onların arasına vokalik elementlər daxil edirlər. Məs.: /'ʃprɛçən/ əvəzinə /'ʃⁱprɛçən/ və /'ⁱʃprɛçən/ deyirlər. Elmi dildə buna vokaloid deyilir.

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 115.

ВОКАЛИЧЕСКАЯ ТОЧКА - alm. vokalischer Punkt (m), ing. crest of syllable /'krest əv 'sıləbl/, vocalic point /vou'k5lık pɒınt/, fr. point vocalique, azərb. vokalik nöqtə. - Hecanın səslənməsində ən yüksək nöqtə. Adətən, sait və ya sonor səslər bu cür tələffüz olunurlar. Məs.: alm. d. /'*ba:dən/ → /^a:ˆə/.

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 62-63.

ВОКАЛИЧЕСКИЙ ЭФФЕКТ - alm. vokalischer Effekt (m), Wirkung (f), ing. vokalic effect /vou'k5lık ı'fekt/, fr. effet vocalique, azərb. sait təsiri. - Hecanın tərkibində ən uca zirvə və ya başqa sözlə desək, saitin nüvəsi.

Bax: Вокалическая точка ←.

ВОКАЛОИД – alm. Vokaloid (n), ing. Vokalid /və(ʊ)'kalıd/, fr. vocaloïde, azərb. vokaloid. – Samit birləşmələri arasına və ya /r/ samitindən əvvəl əlavə edilən saitəbənzər səs. Məs.: azərbaycanlılar alm. d. /ʃtr, ʃpr, Rnst, Rpst/ samit birləşmələrinin tələffüzündə çətinliklə üzləşirlər, çünki bu cür birləşmələr Azərbaycan dilinə yaddır. Məhz bu səbəbdən azərbaycanlılar həmin samitlərin arasına saitəbənzər səs «vokaloid» artırırlar. Müq. et: /'hɛrpst/ (payız), /'˃ɛrnst/ (ciddi), /'ʃpra:xə/ (dil), /'ʃtra:sə/ (küçə) əvəzinə /'hɛrpⁱst/, /'˃ɛrnⁱst/, /'ʃⁱpra:xə/, /'ʃⁱtra:sə/ və s. tələffüz edirlər.

F.Veysalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989.

ВОКАЛЬНЫЙ - alm. vokalisch, ing. vocalic /voʊ'k5lık/, vocal /'voʊkəl/, fr. vocalique, azərb. vokal. – Səs tellərinin periodik titrəməsilə tələffüz olunan səs, akustik baxımdan aydın formant strukturu olan səs. Bu qrupa saitlər və sonorlar aiddir.

F.Veysəlli. Alman dilinin fonetikası. Bakı, 1980, s. 62-63; F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 214-223.

ВОКАТИВ - alm. Vokativ (m), ing. vocative /'vɔkətıv/, fr. vocatif, azərb. vokativ. - Danışanın müraciət etdiyi şəxsi bildirən, lakin qrammatik cəhətdən cümlə üzvləri ilə bağlanmayan söz, söz birləşməsi və ifadə. Məs.: Azərb. d. ¿Əhməd, sən haradansanʃ və s; alm. d. ¿Hans, wo bist duʃ (Hans, sən hardasan?) və s.

downloaded from KitabYurdu.org

H.Bußmann. Göstərilən əsər, s. 839.

ВОЛНОТЕОРИЯ - alm. Wellentheorie (f), ing. wave theory /weɪv ˈθɪərɪ/, fr. théorie des ondes, azərb. dalğa nəzəriyyəsi. – Alman alimi J.Şmidtin (1843-1901) adı ilə bağlı dalğa nəzəriyyəsi dillərin yaranmasını dalğanın qabarması, ölüb getməsini isə onun çəkilməsilə izah edir. Bax: şəkil.



F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 15.

ВОЛАПЮК - alm. Volapük (n), ing. volapük /vɔləpʊk/, Also-puk/, fr. volapuke, azərb. volapük. - İohan Şlayxerin (1831-1912) 1879-cu ildən tərtibinə başladığı və 1880-cı ildə nəşr etdirdiyi süni Beynəlxalq dil. „Volapük“ sözünün hərfi tərcüməsi „dünya dili“ (beynəlxalq dil) deməkdir. 1889-cu ildə Parisdə volapükçülərin III Ümumdünya Konqresi çağırılmışdı ki, burada bütün məruzə və çıxışlar volapük dilində olmuşdur. Konqresdə əsasən İ.Şlayxer və volapükçülər arasında narazılıq baş verdi. İ.Şlayxer heç bir vəchlə yeniləşməni qəbul etmirdi və bunun nəticəsində cəmiyyətin dağılması gerçəkləşdi. 1912-ci ildə İ.Şlayxerin vəfatı ilə bu „dünya dili“ də məhv olub getdi. Sadə fonetik-fonoloji sistemi olan bu süni dilin morfoloji strukturu türk dillərinin biçiminə uyğun tərtib olunmuşdu. Söz fondu isə əsasən ingilis dilinin materialı əsasında tərtib olunmuşdu. Müq. et: /volapük/ sözü /vol/ (dünya) ingiliscə «world», /-a/ yiyəlik hal şəkilçisi, /pük/ isə ingilis dilində «speak» sözündən götürülərək «dil» mənasını verir. Bütövlükdə qrammatikası çətin, sözdüzəltməsi isə ixtiyari olduğundan esperanto → ilə əvəz olundu.

H.Bußmann. Göstərilən əsər, s. 839.

ВОПРОС - alm. Frage (f), ing. question /ˈkwestʃən/, interrogation /ɪnˌterəˈɡeɪʃən/, fr. interrogation, azərb. sual, sorğu, məsələ. – Müəyyən məlumat almaq üçün danışanın dinləyənə etdiyi müraciət. Ümumiyyətlə, dildə sual bu cür qruplaşdırılır:

I. Qrammatik cəhətdən: a) əvəzlikli sual; b) əvəzliksiz sual.

II. İfadə məqsədinə görə: a) həqiqi sual; b) təhrikedici sual.

III. Ümumi xarakterinə görə: a) ilkin sual; b) təkrar sual.

C.Axundov. Azərbaycan dilinində sual cümlələri (eksperimental-fonetik tədqiqat). Bakı, 1998, s. 58.

ВОПРОС АЛЬТЕРНАТИВНЫЙ - alm. alternative Frage (f), ing. alternative question /ɔːlˈtɜːnətɪv ˈkwestʃən/, fr. question alternative, azərb. alternativ sual. – Danışanın öz həmsöhbətilə iki və daha artıq sualdan yalnız birinə cavab verməyi təklif edən sual forması. Məs.: Azərb. d. /Sən Moskvaya uçursan, yoxsa Berlinə//.

downloaded from KitabYurdu.org

C.Axundov. Göstərilən əsər, s. 78.
ВОПРОС ВСТРЕЧНЫЙ - alm. Gegenfrage (f), ing. counter-question /'kauntə 'kwestʃən/, fr. question de rencontre, azərb. qarşılıqlı sual. Məs.: Azərb. d. - ¿O getdi? - ¿Bəs necə? və s.
C.Axundov. Göstərilən əsər, s. 78.
ВОПРОС ВТОРИЧНЫЙ - alm. Nachfrage (f), wiederholte Frage (f), ing. secondary question /'sekəndri 'kwestʃən/, repeated question /rɪ'pi:tɪd 'kwestʃən / fr. interrogation réitérative, azərb. təkrar sual. – Danışan verdiyi suala dəqiq cavab ala bilməyəndə təkrar sualdan istifadə edir. Məs.: Azərb. d. /Necə¿ Sizə gəlmişdi?/
C.Axundov. Göstərilən əsər, s. 135-158.
ВОПРОС ДВОЙНОЙ - alm. Doppelfrage (f), ing. double question /d∧bl 'kwestʃən/, fr. interrogation double, azərb. ikili sual. - Tərkibində müxtəlif halda 2 sual əvəzliyi olan sual forması. Məs.: Azərb. d. ¿Kim nə üçün çalışdığını yaxşı bilir|? alm. d. ¿Was, wer geschrieben hat? (Kim nə yazıbsa?)
C.Axundov. Göstərilən əsər, s. 135.
ВОПРОС ДЕЛИБЕРАТИВНЫЙ (ОБСУЖДАЮЩИЙ) - alm. zweifelnde Frage (f), ing. deliberative question /dɪ'lɪbərɪtɪv 'kwestʃən/, fr. interrogation commentative (délibérative), azərb. müzakirə sualı. - Öz-özü ilə götür-qoy edərək işlənən ritorik sual forması. Məs.: Azərb. d. ¿görəsən, getsəm yaxşı olar, ya getməsəm?
C.Axundov. Göstərilən əsər, s. 91-115.
ВОПРОС КОСВЕННЫЙ - alm. indirekte Frage (f), ing. indirect question /ˌɪndɪ'rekt 'kwestʃən/, fr. question indirecte, azərb. vasitəli sual. - Vasitəli nitqdə verilmiş sual forması. Məs.: Azərb. d. Soruşdum ki, ¿Tanıyırsan?
C.Axundov. Göstərilən əsər, s. 91-115.
ВОПРОС МЕСТОИМЕННЫЙ - alm. Pronominalfrage (f), ing. pronominal question /prə'nɔmɪnl 'kwestʃən/, fr. question pronominalle, azərb. əvəzlikli sual. - Tərkibində sual əvəzliyi olan sual. Məs.: Azərb. d. kim, nə, hara, hansı, neçənci, nə vaxt, haçan, kim üçün, nə üçün, nə qədər, necə, nə cür, hansı və s. Məs.: Azərb. d. ¿Kimlər görüb, necə görüb, hansı qərara gəliblər?
C.Axundov. Göstərilən əsər, s. 59-67.
ВОПРОС НЕПОСРЕДСТВЕННЫЙ (ВОПРОС ПРЯМОЙ) - alm. unmittelbare (direkte) Frage (f), ing. immediate (direct) question /ɪ'mi:djət /dɪ'rekt/ 'kwestʃən/, fr. question directe, azərb. vasitəsiz sual. -

downloaded from KitabYurdu.org

Sözün həqiqi mənasında sual, yəni sual cümləsinin məzmununun əsasında vasitəli sualdan fərqli olaraq dinləyicidən xüsusi məlumat almaq üçün ona verilən sual. Məs.: Azərb. d. ¿Onlar kitab oxuyurdular?
C.Axundov. Göstərilən əsər, s. 90.

ВОПРОС ОБЩИЙ - alm. allgemeine Frage (f), ing. general question /ʤenərl 'kwestʃən/, fr. question généralle, azərb. ümumi sual. - İfadənin əsas məzmununun təsdiqi və ya inkarını təklif edən sual forması. Bu da iki cür olur: təsdiqdə və inkarda. Bunlardan hər biri xüsusi ədatla və ya intonasiya ilə, sabit söz sırasına malik dillərdə isə həm də söz sırası ilə ifadə olunur. Məs.: Azərb. d. ¿onlar gəlirlə:ʁʖ və ya ¿onlar gəlirlərmiʖ. Alm. d. xəbərin təsrif olunan hissəsi, ing. d. isə /to do/ köməkçi feli ümumi sual cümləsinin əsas konstitutiv əlamətləridir. Müq. et: alm. d. ¿Lesen Sie ein Buchʖ (Siz kitab oxuyursunuz?), ing. d. /Do you read a bookʖ// (Sən kitab oxuyursan?) və s.
C.Axundov. Göstərilən əsər, s. 90.

ВОПРОС УТВЕРДИТЕЛЬНЫЙ - alm. bejahende Frage (f); ing. affirmative question /ə'fɜ:mətıv 'kwestʃən/, fr. interrogation affirmative, azərb. təsdiqli sual. – Bütün sualların forması, bu suallar inkar suallara qarşı qoyulur. Məs.: Azərb. d. ¿O, Bakıya gedir?; alm. d. ¿Er fährt nach Baku?; ing. d. ¿Does'nt she goʖ; rus d. ¿Он не пришелʖ (¿On prişelʖ) və s.
C.Axundov. Göstərilən əsər, s. 153.

ВОПРОС ЧАСТНЫЙ – Bax: Вопрос местоименный ←.

ВОРКОВАНЬЕ - alm. Gurren (n), Girren (n), ing. cooing /ku:92/, fr. roucoulement, azərb. – 1) Guruldama (göyərçinlərdə); 2) Şirin söhbət.
О.С.Ахманова. Göstərilən əsər.

ВОСКЛИЦАНИЕ - alm. Ausruf (m), ing. exclamation /ˌeksklə'meıʃən/, fr. exclamation, azərb. nida. – 1) Hiss, həyəcan bildirən sözlər. Danışıq prosesində emosional əhval ruhiyyənin xüsusi formal vasitələrlə (intonasiya, nidalar) ifadəsi. Məs.: alm. d. /Das ist aber schön!/ (Bu gözəldir!) və ya /Ach, komm doch her!/ (Ax, bir buraya gəl!) və s.; 2) Söz - nida və ya onun frazeoloji ekvivalenti. Məs.: Azərb. d. /Ax!/, /Ox!/, /Uf!/, /e hey !/, /Lənətə gələsən!/ və s.
R.Conrad. Göstərilən əsər, s.117; K.Hacıyev. Azərbaycan dilində nidalar. Bakı, 2005.

ВОСКЛИЦАТЕЛЬНЫЙ - alm. Ausruf-, Ausrufungs-, ing. exclamatory /eks'kl5mətərı/, fr. exclamatif, azərb. hiss, həyəcan ifadə edən, nida. - Danışığa emosional-ekspressiv çalarlıq gətirən ədatlar. Məs.: Azərb. d. Deyirəm axı!, | Gözlədin ki! və s.
K.Hacıyev. Azərbaycan dilində nidalar. Bakı, 2005.

downloaded from KitabYurdu.org

ВОСКЛИЦАТЕЛЬНЫЙ ВОПРОС - alm. Ausrufungsfrage (f), ing. exclamatory question /eks'kl5mətərı 'kwestʃən/, fr. question exclamative, azərb. nidalı sual. - Linqvostilistik məqsədlərlə sual formasında işlənən nida. Məs.: Azərb. d. Ƣİ canı ʧıxsın özü yassın?
M.Hüseynzadə. Müasir Azərbaycan dili. Morfologiya III. Bakı, 1973, s.286.

ВОСКЛИЦАТЕЛЬНЫЙ ЗНАК - alm. Ausrufezeichen (n), ing. exclamation mark /ˌeksklə'meɪʃən mɑ:k/, note of exclamation /nout əv ˌeksklə'meɪʃən/, fr. signe exclamatif, azərb. nida işarəsi (!). - Aşağıdakı hallarda işlədilən durğu işarəsi: 1) Nida cümləsinin sonunda. Məs.: Azərb. d. /Yanğın!/, /Fəlakət!/; əmr cümlələrində /Rədd ol burdan!/; 2) Çağırış və müraciət həyəcanlı olanda. Məs: Azərb. d. /Yaşasın müstəqil Azərbaycan!//; Nida cümlələrində özəksonu zəifləyir, zaman ləngiyir. /Ana! O, müqəddəs bir kainatdır//.
A.A.Реформатский. Göstərilən əsər, s. 337.

ВОСКЛИЦАТЕЛЬНАЯ ИНТОНАЦИЯ - alm. Ausrufungsintonation (f), ing. exclamatory intonation /eks'kl5mətərı ˌıntou'neɪʃən/, fr. intonation exclamative, azərb. əmr (nida) intonasiyası, nidalı intonasiya. – Hiss, həyəcan bildirən cümlələrdə işlənir. Azərbaycan dilində əmr intonasiyası səs tonunun ümumi hərəkəti baxımından nəqli intonasiya kimidir. Başqa sözlə desək, əmr intonasiyasını müstəqil intonasiya tipi kimi götürmək olmaz. Ancaq tələffüz sürəti və ayrı-ayrı halların dinamik strukturu (intensivliyi) konkret məna çalarından asılı olaraq qabardıla bilər. Əmr (hədə, qadağa), təhrik (çağırış, buyruq, təkid), təsir etmə (güzəşt, məsləşət, nəsihət, xahiş, yalvarış), hiss-həyacan-emotiv (nəşə, imtina, kinayə, qorxu-həyəcan, məmmunluq, əzizləmə və s.) çalarlıqlar öz konkret ifadəsini intonasiya konturunun konkret parametrində və yerində tapır. Müq. et:



Mənaca mühüm söz güclü və yüksək tonla tələffüz olunur. Əmr və nida cümlələrində təxminən eyni intonasiya konturu işlənir. Məs.: ¿Tarix utanmazmı yaratdığından!

downloaded from KitabYurdu.org

H.Mehdiyev. Побудительное предложение в современном азербайджанском языке и экспериментальное исследование его интонации. АКД, Bakı, 1973; A.Axundov. Azərbaycan dilinin fonetikası. Bakı, 1984, s.302-310.

ВОСКЛИЦАТЕЛЬНОЕ МЕСТОИМЕНИЕ - alm. Ausrufungspronomen (n), ing. exclamatory pronoun /eks'kl5mətərı 'prəunaun/, fr. pronom exclamatif, azərb. nida əvəzliyi, nidalı əvəzlik. - Nida cümlələrinin tərkibində işlənib, cümlənin nida keyfiyyəti kəsb etməsində rolu olan sual əvəzlikləri. Məs.: Azərb. d. /Nə böyük səadət/, /Gör necə danışır/.
K.Hacıyev. Azərbaycan dilində nidalar. Bakı, 2005.

ВОСПРИНИМАЕМОСТЬ (СЛЫШИМОСТЬ) - alm. Hörbarkeit (f), Wahrnehmung (f), ing. perceptibility /pə'septıbılıtı/, apprehensibility /ˌapr9'hensib9l9t9/, audibility /ˌɔ:dı'bılıtı/, hearing /'hıərıŋ/, fr perceptibilité, azərb. dərk edilmə, qavranılma qabiliyyəti. - Danışıq səslərinin eşidilərək dərk olunması. Göndərilən məlumatın dərk edilməsi və onun öz ilkin forması ilə eyniləşdirilməsi üçün mühüm olan elementlərin məcmusu ünsiyyətin perseptiv bazasını təşkil edir. Eşitmə və eyniləşdirmə bir dil kollektivi daxilində uşaqlıqdan tərbiyə olunur. Sonralar bu proses avtomatikləşir və insanın gündəlik həyatında normaya çevrilir.
Məlumatın adi qabığını dil səsləri və ya, fiziki terminlə desək, bir-birindən seçilən siqnallar təşkil edir. Siqnalların eşidilib dərk edilməsində eşitmə cihazı olan qulaq mühüm rol oynayır. Səsin dərk edilməsi mürəkkəb bir prosesdir. Mühitdə dalğalar şəklində yayılan səslər dinləyənin xarici qulağına çatır. Qulaq seyvanı bu səsləri istiqamətləndirir. Səs keçidi bir rezonator kimi səsin təzyiqini qüvvətləndirir və səs zindanlarını hərəkətə gətirir, eşitmə sümükləri bu titrəyişi oval pəncərəyə ötürür. Membran və pəncərə ölçüsündəki fərq vasitəsilə 50-60 dəfə güclənmiş təzyiqə malik rəqs yaradır. Əks-təqdirdə ilbizdəki mayenin sıxlığı böyük amplituda ilə titrəməni istisna edir. Oval pəncərədən alınmış titrəyiş əsas membrana ötürülür. Membranla birlikdə hərəkətə gələn eşitmə sinirlərini mərkəzi sinirə xəbər verir.
Alman alimi H. fon Helmholsa görə, əsas membranın hər bir lifi müəyyən yüksəkliyə malik tonda köklənir. Membran insan qulağı eşidə bilən (16-dan 22000 hs-ə qədər) tezliyi əks etdirən rezonatoru xatırladır. İnsanda aşağı eşitmə sərhədi 16 hs-dir. Yuxarı eşitmə sərhədi yaşdan asılıdır. Yaşlı adamlarda bu 15000 hs-ə, uşaqlarda isə 22000 hs-ə bərabərdir. Danışıq səsləri bu diapazonda yerləşir.
Səsin eşidilməsi üçün onun gücü olmalıdır. Dərk edilən səsin güc diapazonu 0,000000001 erq-sm^2 –dən 10,0000 erq-sm^3 saniyəyə bərabərdir. Dərk edilən səsin eşidilmə sərhədi ən az gücü olan səsin tonundan asılıdır. Qulağımızın həssaslığı 1000 hs - dən 3000 hs-ə qədərdir.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, m s. 153-157.

downloaded from KitabYurdu.org

ВОСПРИНИМАЕМОСТИ ШКАЛА - alm. Wahrnehmungsgrad (m), ing. scale of perceptibility /'ske9l əv pə'septəbılıtı/, fr. échelle de perceptibilité, azərb. eşidilmə dərəcəsi. - Danışıq səslərinin eşidilmə dərəcəsinə görə bölgüsü.

Bax: Воспринимаемость (слышимость) ←.

ВОСТОЧНОНУМИДИЙСКИЙ ЯЗЫК – alm. östlich-numidische Sprache (f), ing. East Numidia language /i:st nju:'mıdə 'l5ŋgwıʤ/ Also Numidian /nju:'mıdıən/, fr. langue est-numide, azərb. şərqi numidi dili. – Bərbər-livya dillərindən biridir. Əsasən Şimali Afrikada yayılmışdır. Yazılı abidəsi ilk dəfə 1961-ci ildən Numidiya (Tunisin şimalında, Əlcazairin şimal-şərqində) ərazisində tapılmışdır.

А.Б.Долгопольский. Нумидийское письмо Северной Африки. М., 1976.

ВОСТОЧНЫЕ БЕРБЕРО-ЛИВИЙСКИЕ ЯЗЫКИ – alm. östliche Berber-livische Sprachen (Pl.), ing. East Berber-lybian languages /i:st beıbə'lıbıən 'l5ŋgwıʤız/, fr. langues berbéro-libiennes de l'Est, azərb. şərqi bərbər-liviya dilləri. – Bu dillər Liviya və Misirdə yayılmışdır. Cənubi bərbər-liviya dillərində danışanların sayı təqribən 350 mindən yuxarıdır. Yazısız dillərdir.

G.Motylinski, A. de Calasanti. Le dialecte berbère de R'edamec. P., 1904; E.Laoust. Siwa. v.1, P., 1931.

ВОСТОЧНОСЛАВЯНСКИЕ ЯЗЫКИ - alm. Ostslawisch (n), ing. East Slavic languages /i:st 'sla:vık 'l5ŋgwıʤız/, fr. langues slaves-orientales, azərb. şərqi-slavyan dilləri. – Buraya rus, belarus və ukraya dilləri aiddir. Bunlardan fərqli olaraq polyak, çex, slovak, serb dilləri cənubi, bolqar, makedon, serbxorvat, sloven dilləri isə qərbi slavyan dillərinə aiddir. Əsas əlaməti fellərin bitmiş və bitməmiş (perfekt, imperfekt) növlərə bölünməsidir.

H.Buβmann. Göstərilən əsər, s. 688.

ВОСХОДЯЩЕ-НИСХОДЯЩИЙ ТОН - alm. steigend-fallender Ton (m), ing. high-rising falling ton /haı 'raızıŋ fɔ:l9ŋ təun/, ascending /ə'sendıŋ/, fr. ton ascendant-descendant, azərb. qalxıb-enən ton. – Nəqli cümlələrdə bu ton işlənir: / ◠/ Məs.: Azərb. d. /Mən ADU-da oxuyuram//; alm. d. /Ich studiere an der ASU //.

F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 304; Е.А.Брызгунова. Звуки и интонация руского языка. М., 1983.

ВОСХОДЯЩЕ-НИСХОДЯЩЕЕ УДАРЕНИЕ - alm. steigend-fallende Betonung (f), ing. ascending-descend accent (stress) /ə'sendıŋ dı'send '5ksənt /stres/, rising-falling stress /'raızıŋ fɔ:lıŋ 'stres/, fr. accent

downloaded from KitabYurdu.org

ascendant-descendant, azərb. qalxıb-enən vurğu. – Sözün vurğu daşıyan hecasında tonun hərəkəti belə olur: / ◠/.

Müq. et: /kitab/, /ba | bam | da | dır/
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 304.

ВОСХОДЯЩИЙ - alm. aufsteigend, steigend, ing. rising /ˌraızıŋ/↗, ascending /ə'sendıŋ/, fr. ascendant, azərb. yüksələn. – Qalxan ton. /◡/
Bax: TOH → .

ВОСХОДЯЩИЙ ДИФТОНГ - alm. steigender Diphthong (m), ing. ascending diphthong /ə'sendıŋ 'dıfθɔŋ/, rising difthong /'raızıŋ 'dıfθɔŋ/, fr. diphtongue ascendante, azərb. yüksələn diftonq, qalxan diftonq. – Fonetik cəhətdən diftonq həmişə iki komponentdən ibarət olur. Əgər birinci komponent zəif, vurğusuz və enən tonla tələffüz olunursa və hecanın özəyini əmələ gətirmirsə, ikinci isə güclü, vurğulu və yüksələn tonla tələffüz olunur və hecanın özəyini təşkil edirsə, belə diftonqa qalxan diftonq deyilir:

Birma dilində belə diftonq vardır |◡| - | i̯á|. Müq. et:



i̯a u̯a i̯e

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980. s. 97.

ВОСХОДЯЩИЙ СЛОГ - alm. steigende Silbe (f), ing. ascending rising syllable /ə'sendıŋ 'raızıŋ 'sıləbl/, fr. syllabe ascendantte, azərb. yüksələn vurğuya malik heca, qalxan tonla deyilən heca. /◡ ◠/. Məs.: alm. d. /ˊ*ba:dən/ və s.
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 304.

ВОСХОДЯЩЕЕ УДАРЕНИЕ - alm. steigende Betonung (f), ing. ascending rising accent, /ə'sendıŋ 'raızıŋ '5ksənt/, stress /'stres/ fr. accent ascendant, azərb. qalxan (yüksələn) vurğu. – Vurğulu hecanın daha yüksək tonla, güclə və zaman parametrinin artması ilə tələffüz olunması. Məs.:

◡→ /◡/– tonun qalxması, / ↑ / gücün göstəricisi və / → / zaman parametrinin artması. Məs.: alm. d. vurğulu

downloaded from KitabYurdu.org

heca yüksək tonla və daha güclü deyildiyi üçün bu dildə vurğu dinamik-musiqili adlanır.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 135.
ВРЕМЕННОЙ (ТЕМПОРАЛЬНЫЙ) – alm. temporal, ing. temporal /'tempərəl/, fr. temporaire, temporel, azərb. zaman əlaqəsi. - 1. Real vaxtın göstərilməsi ilə əlaqəli. Məs.: alm. d. obyektiv 3 zamanı ifadə etmək üçün 6 zaman formasından istifadə olunur:

Zaman

Keçmiş	İndiki	Gələcək
←	—	→
Perfekt	Präsens	Futur I
Imperfekt		Futur II
Plusquamperfekt		

2. Ümumilikdə hər bir dil vahidinin tələffüzünə sərf olunan zaman. Məs.: vurğulu hecanın tələffüzünə sərf olunan obyektiv zaman vurğusuz hecadan çox olur. Zaman bütün dillərdə intonasiyanın ayrılmaz tərkib hissəsidir.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980. s. 135.
ВРЕМЯ - alm. Zeit (f), Tempus (n), ing. tense /tens/, time /'taım/, fr. temps, azərb. zaman. - İş və hərəkətin danışıq vaxtina nisbətini göstərən qrammatik kateqoriya. Danışıq anına nisbətdə ifadə olunan qrammatik zaman. Ümumi şəkildə dildə danışığa qədərki vaxt - keçmiş /past/, danışıqdan sonrakı vaxt - gələcək /futur/, danışıq anının özü isə - indiki zaman /present/ adlanır. ←|↕|→ Məs.: ing. d. /loved/ (sevdi), (he, she, it) /loves/ (sevir) və /will love/ (seveçək).
Ümumilikdə götürüldükdə bu bütün dillər üçün eynidir. Lakin hər bir dildə bu və ya digər zamanı ifadə etmək üçün müxtəlif ifadə vasitələri vardır. Məs.: ing. d. 16 zaman forması vardır. Bunlar aşağıdakılardır:

downloaded from KitabYurdu.org

Present	
The Present Indefinite (simple, common) Tense (Sadə)	**The Present Continuous (progressiv) Tense (davamlı)**
he (she, it) works, goes	he (she, it) is working, going
Past	
The Past Indefinite (simple, common) Tense (Sadə)	**The Past Continuous (progressiv) Tense (davamlı)**
he (she, it) worked, went	he (she, it) was working, going
Present Perfect	
The Present Perfect Tense (Sadə)	**The Present Perfect Continuous (davamlı)**
he (she, it) has worked, gone	he (she, it) has been working, going
Future Perfect	
The Future Perfect Tense (Sadə)	**The Futur Perfect Continuous (davamlı)**
he (she, it) shall (will) have worked, gone	he (she, it) shall (will) has been working
Past Perfect	
The Past Perfect Tense (Sadə)	**The Past Perfect Continuous (davamlı)**
he (she, it) had worked, gone	he (she, it) had been working, going
Future	
The Future Indefinite (simple, common) Tense (Sadə)	**The Future Continuous (progressiv) Tense (davamlı)**
he (she, it) shall (will) go, work	he (she, it) shall (will) be going, working
The Future Indefinite (simple, common) in the Past	**The Future Continuous (progressiv) in the Past**
he (she, it) could (would) see, help	he (she, it) should (would) be waiting
The Future Perfect in the Past	**The Future Perfect Continuous in the Past**
he (she, it) should (would) have done	he (she, it) should (would) have been working

H.Glinz. Grammatiken im Vergleich. Deutsch – Französisch – Englisch – Lateinformen, Bedeutungsverstehen. Tübingen, 1994.

ВРЕМЯ АБСОЛЮТНОЕ - alm. absolute Zeit (f), ing. absolute tense /'absəlu:t 'tenz/, fr. temps absolu, azərb. mütləq zaman. - Cümlədə digər zaman formalarından asılı olmayan, danışıq vaxtına əsasən işlənən za-

downloaded from KitabYurdu.org

man forması. Məs.: Azərb. d. /Dərsə getdim//, /Kitab oxuyuram//, /İdmanla məşğul oluram//, /Məruzəçi göstərdi ki, tələbələr yaxşı çalışırlar//. Bu cümlədə „çalışırlar“ indiki zaman formasındadır. Lakin bu forma hərəkət vaxtını „göstərdi“ felinin əks etdirdiyi zamana əsasən bildirir.
H.Glinz. Göstərilən əsər, s. 160-168.

ВСАСЫВАЮЩИЙ - alm. Sauglaut (m), ing. suction-stop /ˈsʌkʃən stɔp/, sucion sound /ˈsʌkʃən saʊnd/, sucking /sʌkɪŋ/, fr. absorbant, aspirant, azərb. hava axınını içəri soruma ilə yaranan səs. - Marçıltını xatırladan nəfəsalma zamanı yaranan səs. Şimali Afrika dillərində dodaqda /G/ və dilönündə yaranan /δ/ soruma səslər vardır.
P.H.Matthews. Göstərilən əsər, s. 172.

ВСЕМИРНЫЙ ЯЗЫК - alm. Weltsprache (f), ing. world language /ˈwɜ:ld ˈlɔŋgwɪʤ/, universal language /ˌju:nɪˈvɜ:s(ə)l ˈlæŋgwɪʤ/, fr. langue mondial, universalle, azərb. ümumdünya dili. - Bunlara təbii dillərdən ingilis dili daxildir. Süni, planlaşdırılan və ya universal dillərdən esperanto →, volapük → və YBD → dilləri aid edilə bilər.
F.Veysəlli. Dil, cəmiyyət və siyasət. Bakı, 2004, s. 39-50.

ВСЕОБЩАЯ ГРАММАТИКА - alm. Universalgrammatik (f), ing. universal grammar /ˌju:nɪvɜ:səl ˈgrɔmə/, grammatics /ˈgrɔmɔtɪks/, fr. grammaire générale, azərb. ümumi qrammatika. – Dünya dillərinin ümumi kommunikativ qaydalarının sistemini və strukturunu açmağa cəhd göstərən qrammatika. İdeal danışan və ideal dinləyən tezisindən çıxış edən N.Xomski elə bir qaydalar sistemi işləyib hazırlamaq istəyir ki, onun köməkliyilə düzgün cümlələr səhv cümlələrdən fərqləndirilsin, onların alt qatına semantik şərh verməklə yanaşı üst qatının fonoloji reprezentasiyasını açıb göstərmək olsun.
F.Veysəlli. N.Xomskinin dilçilik görüşləri. N.Xomski. Dil və təfəkkür. İngiliscədən tərcüməsi f.e.d.prof. A.Məmmədovundur. BSU, 2006.

ВСПОМОГАТЕЛЬНЫЙ - alm. Hilfs-, auxiliar, ing. auxiliary /ɔ:gˈzɪljərɪ/, subsidiary /səbˈsɪdjərɪ/, fr. auxiliaire, azərb. köməkçi, yardımçı, ikinci dərəcəli. – 1. Cüzi və ya tamamilə öz leksik mənasını itirən, başqa söz formaları ilə birləşdikdə işlədilən və bu sözlərlə birgə analitik formaların yaranmasında istifadə olunan sözlər; 2. İkinci dərəcəli, tabe olan, əsas olmayan. Məs.: alm. və ing. dillərində mürəkkəb isimlərdə. Bunlara paralinqvistik vasitələr deyilir. Birinci komponent, əsas, ikinci komponent isə yardımçı vurğu daşıyır. Məs.: alm. d. /ˈhellˌblau/ (açıq mavi); ing. d. /ˈblack ˌboard/ (qara lövhə). Azərb. d. isə birinci komponent köməkçi, ikinci komponent isə əsas vurğu daşıyır. Müq. et: /ayaˈqˈqabı/; 3. Ünsiyyətin yardımçı vasitəsi kimi xidmət edən. Məs.: Sözlü ünsiyyətdə bədən hərəkətlərindən istifadə.

downloaded from KitabYurdu.org

M.Hüseynzadə. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 1973, s.291-353; F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s.136-144; F.Veysəlli. SDƏ. Bakı, 2005.

ВСПОМОГАТЕЛЬНОЕ СЛОВО - alm. Hilfswort (n), ing. auxiliary word /ɔ:ɡ'zɪljərɪ wɜ:d/, fr. mot auxiliaire, azərb. köməkçi söz. - Əsas sözə qoşulub mürəkkəb qrammatik forma əmələ gətirən söz. Buraya ədatlar, bağlayıcılar, qoşmalar, nidalar və s. aiddirlər.

Bax: Вспомогательный ←.

ВСТАВКА - alm. Einsatz (m), Epenthese (f), ing. insertion /ɪn'sɜ:ʃ(ə)n/, fr. insertion, azərb. daxil edilmə, əlavə edilmə. - 1. Dilöyrənmədə sözün ilkin formasında olmayan səsin təzahür etməsi. Azərbaycanlılar alm., rus və ing. dillərini öyrənəndə sözdə dalbadal gələn samitlərin arasına saitə bənzər ünsür yerləşdirirlər. Məs.: alm. d. /Sprache/ (dil) əvəzinə /Spˈrache/; ing. d. /street/ (küçə) əvəzinə /stˈreet/; rus d. /sklad/ əvəzinə /skˈlat/ və s.; 2. Bir dildə iki sait dalbadal gələndə tələffüzün asanlaşması üçün onların arasına samit əlavə edilir. Məs.: rus d. /Леонтий/ əvəzinə /Левонтий/, İtalia, İndia və Persia sözlərində sonda gələn saitlər arasına /y/ samiti artırılır. Müq. et: /İtaliya, İndiya, Persiya və s./. Rus dilindəki «нрав», «срам» və s. sözlərin tələffüzündə iki samit arasına azərbaycanlılar tələffüz edərkən ötəri sait (vokaloid ←) əlavə edilir.

F.Veysəlov. Lehrbuch der deutschen Phonetik. Bakı, 1980, s. 230-259.

ВСТРЕЧНЫЙ ВОПРОС - alm. Gegenfrage (f), ing. mutual question /'mju:tjuəl 'kwestʃən/ counter-question /kauntə 'kwestʃən/, fr. question-enquête, azərb. qarşılıqlı sual. - Cavab yerinə, əvəzinə verilən sual. Məs.: Azərb. d. - ¿Əhməd gəlmədi? - ¿Necə bəyəm?

Bax: Вопрос встречный ←.

ВТОРАЯ ОСНОВА ГЛАГОЛА - alm. zweiter Verbstamm (m), ing. second stem of verb /'sekənd 'stem əv' vɜ:b/, fr. deuxième thème du verbe, azərb. felin 2-ci əsası. - Kökə sözdüzəldici şəkilçi artırmaqla düzələn əsas. Məs.: Azərb. d. /yazıçı/ sözündə /yaz/ /kök/, /yazı/ birinci əsas, /yazı-çı/ isə ikinci əsas, /yazıçılıq/ isə ikinci əsasdan düzələn yeni sözdür.

Y.Seyidov. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı, 2002.

ВТОРАЯ ПАЛАТАЛИЗАЦИЯ - alm. zweite Palatalisierung (f), ing. second(ary) palatalization /'sekənd(ərɪ) 'p5lətəlaɪ'zeɪʃən/, fr. deuxième palatalisation, azərb. ikinci palatallaşma, incələşmə – . Məs.: Azərb. d. /i, e, ə, ö, ɣ/ ön sıra saitləri qarşısında samitlər incələşir. Müq. et: /l'əl/, /t'ü'nt/, /t'örəmə/, /t'əkə/ və s.

F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 92-152.

downloaded from KitabYurdu.org

ВТОРИЧНАЯ ФОНЕМА - alm. sekundäres Phonem (n), ing. secondary phoneme /'sekəndərı 'fəuni:m/, fr. second phonème, azərb. ikinci dərəcəli fonem. - Amerikan dilçiliyində ikinci dərəcəli fonem kimi bir açıq keçid (open transition), dörd vurğu / ´ ˆ ` ˇ/, dörd ton /1, 2, 3, 4/ və üç cümlə terminalı göstərilir. Onların hər biri fərqləndirici funksiya daşıdığına görə fonem kimi götürülür.
H.A.Gleason. An Introdustion to Descriptive Linguistics. Revised Edition, Holt, Rinehart and Winston, London, 1969, s. 40-50.
ВТОРИЧНЫЙ - alm. sekundär, ing. second /'sekənd/, secondary /'sekəndərı/, fr. second, azərb. ikinci. - Sözün mövcud əsasından törəmiş nisbətən yeni forma. Məs.: Azərb. d. /dəmirçilik/.
M.Hüseynzadə. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 1973.
ВТОРОГО ПЕРИОДА ПАЛАТАЛИЗАЦИЯ - alm. zweite Periode der Palatalisierung; ing. secondary period of palatalization /'sekəndərı 'pıərıəd əv ˌp5lətəlaı'zeıʃən/, fr. la deuxième période de palatalisation, azərb. palatallaşmanın ikinci dövrü. – Qədim rus dilində /ъ/ və /ь/ düşməsi nəticəsində sözün son hecaları qapalı olmaqla iki cür samit qarşılaşması formalaşdı: /ъ/ düşdüyü hecada sərt samit, /ь/-nın düşdüyü hecalarda isə yumşaq samit tələffüz olunmağa başladı. Beləliklə, fonetik proses kimi çıxış edən yumşalma mövqeyin aradan çıxması nəticəsində samit fonemlərin sayı ikiqat artdı.
A.A.Реформатский. Göstərilən əsər, s. 485-486.
ВТОРОЕ ЛИЦО – alm. zweite Person (f), ing. second person /sekənd 'pɜ:sn/, fr. deuxième personne, azərb. ikinci şəxs. - Müraciət olunan şəxsi bildirən kateqorial forma. Məs.: Azərb. d. /sən-siz/; alm. d. /du - ihr/; rus d. /ты-вы/; ing. d. /you/; fr. d. /toi-tu/.
H.Glinz. Göstərilən əsər, s. 19-26.
ВТОРОЕ УДАРЕНИЕ - alm. zweite Betonung (f), Nebenbetonung (f), ing. secondary stress (accent) /'sekəndərı 'stres /'5ksnt/, fr. accent secondaire, azərb. ikinci vurğu. - Məs.: alm. d. /˃'apˏta͡elʊŋ/ (şöbə) sözündə birinci heca əsas, ikinci heca isə ikinci dərəcəli vurğu daşıyır; ing. d. /ˌsivilai'zeiʃn/ (sivilizasiya) sözündə əsas vurğu axırıncı, ikinci vurğu isə birinci hecanın üzərinə düşür.
D.Jones. The Pronounciation of English. Cambridge, 1988, s. 143; K.Kohler. Einführung in die Phonetik des Deutschen. 1995, s. 186-192; F.Veysalov. Lehrbuch der deutschen Phonetik. Bakı, 1980, s. 194-205.
ВТОРОЙ ПРЕДУДАРНЫЙ СЛОГ - alm. zweite vorbetonte Silbe (f), ing. secondary pretonic syllable /'sekəndərı 'prıtɔ:nık 'sıləbl/, fr. syllabe secondaire protonique, azərb. vurğudan əvvəlki ikinci vurğusuz heca. - Müasir rus d. /naqavarit/ sözündə /q0/ hecası /it/ vurğulu hecasından əvvəldə gələn ikinci vurğusuz hecadır. Məs.: Azərb. d. /qцlц msцndi/.
F.Veysəlli. SDƏ, Bakı, 2005, s.129-149.

downloaded from KitabYurdu.org

ВТОРОСТЕПЕННОЕ УДАРЕНИЕ - alm. Nebenakzent (m), Nebenton (m), Nebenbetonung (f), ing. secondary stress (accent) /'sekəndərı 'stres/'æksənt/, fr. accent secondaire, azərb. ikinci dərəcəli vurğu. - Uzun sözlərdə və söz birləşmələrində əsas vurğu ilə yanaşı rast gəlinən zəıf vurğu. Məs.: Azərb. d. /ạğacdə´lən/, /ˌquşəpəɣ´i/ və s.
Bax: Второе ударение ←.

ВТОРОСТЕПЕННЫЕ СЛОВА - alm. Nebenwörter (Pl.), ing. adjunct-words /'5ʤʌŋkt wɜ:dz/, secondary words /'sekəndərı wɜ:dz/, fr. mots secondaires, azərb. ikinci dərəcəli sözlər.
Bax: Вспомогательное слово ←.

ВТОРОСТЕПЕННЫЕ ЭЛЕМЕНТЫ ПРЕДЛОЖЕНИЯ - alm. nebensächliche Satzelemente (Pl.), ing. secondary elements of the sentence /'sekəndərı 'elımənts əv ðə 'sentəns/, fr. éléments secondaires de la proposition, azərb. cümlənin ikinci dərəcəli üzvləri (elementləri). - Cümlənin baş üzvlərinə tabe olub, onların mənaca aydınlaşmasına, dəqiqləşməsinə, dolğunlaşmasına xidmət edir. İkinci dərəcəli cümlə üzvləri aşağıdakılardır: təyin, tamamlıq, zərflik. Məs.: Azərb. d. /Axşamlar o, təmiz hava udmaq üçün gəzintiyə çıxmağı xoşlayırdı//.
Müasir Azərbaycan dili. Sintaksis. ADU nəşriyyatı, Bakı, s. 166-252; A.A.Реформатский. Göstərilən əsər, s. 332.

ВУЛЬГАРИЗМ - alm. Vulgarismus (m), ing. vulgarism /'vʌlgərızm/'vʌl'gɛərızəm/, fr. vulgarisme, azərb. vulqarizm. – Ədəbi dildə işlənən qeyri ədəbi, kobud söz və ifadələr. Bədii üslubda müəyyən məqsədlə (təhqir etmək, ələ salmaq) işlədilən kobud söz və ifadələr. Məs.: Azərb. d. /Anasının əmcəyini kəsən//; alm. d. /Luder/ (cəmdək, leş, alçaq, əclaf).
M.Y.Adilov və b. Göstərilən əsər, s.

ВУЛЬГАРНЫЙ - alm. vulgär, gemein, ing. vulgar /'vʌlgə/, fr. vulgaire, trivial, azərb. vulqar, kobud, qaba, ədəbsiz. - Aşağı üsluba məxsus kobud, qaba söz və ifadələr. Məs.: Azərb. d. /Heyvan oğlu, heyvan, bilmirsən burada belə hərəkət etmək olmaz?/. Vulqar latın dili Roma imperiyasının qərbində danışılan dil idi, yazılı standart dilə qarşı qoyulurdu. Ondan sonralar roman dilləri inkişaf etdi.
P.H.Matthews. Göstərilən əsər, s. 408; R.Conrad. Göstərilən əsər, s. 295.

ВЫДЕЛЕНИЕ - alm. Aussonderung (f), ing. separation /ˌsepə'reıʃ(ə)n/, apportionment /ə'pɔ:ʃənmənt/, secretion focus /s9'kri:ʃən 'fəukəs/, fr. séparation, dégagement, excrétion, azərb. ayırma, seçmə. – 1) Söyləmin, ifadənin, sintaqm və cümlənin bu və ya digər hissəsinə dinləyənin və ya oxucunun diqqətini xüsusi cəlb etmək üçün onun fonetik, qrafik və sintaktik vasitələrlə qabardılması, seçilməsi. Məs.:

downloaded from KitabYurdu.org

Azərb. d. /y'oldaşlar/, /yold'aşlar/, /yoldaşl'ar/; alm. d. /Hans sagte Karl, wird nie Kanzler sein// (Hans dedi Karl, heç vaxt kansler olmayacaq) və ya /Hans sagte: Karl wird nie Kanzler sein// (Hans dedi: Karl heç vaxt kansler olmayacaq) və s; 2) Hər hansı bir dil vahidinin danışıq aktından ayrılıb götürülməsi.

Bax: Членение речевого потока →.

F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 299.

ВЫДЕЛИМОСТЬ ЗВУКОВАЯ - alm. lautliche Aussonderung (f), ing. phonetic separability /fəu'netık sepərə'bılıtı/ fr. séparation phonétique, azərb. səslə nəzərə çarpdırma. – 1) Tələffüzdə hər hansı bir seqmentin, saitin və ya samitin uzadılması, güclənməsi və yüksək tonda deyilməsilə nəzərə çarpdırma. Məs.: Azərb. d. /ədə:bi/, /fışşş/ və s.; 2) Səsin danışıq aktından ayrılıb götürülməsi.

Bax: Членение →.

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələri. Bakı, 1993, s. 122.

ВЫДЕЛИТЕЛЬНЫЙ - alm. Absonderungsmittel (n), ing. emphatic /ım'f5tık/, intensive /in'tensıv/, intensifying /ın'tensıfaıı̯ŋ/, fr. de sécrétion, azərb. ayrılan, seçilən. - Məs.: /Yol'"daşlar, xalq bizdən iqtisadi yüksəliş gözləyir//.

F.Veysəlli. SDƏ, Bakı, 2005, s.299.

ВЫДЕЛИТЕЛЬНЫЕ СЛОВА - alm. Absonderungswörter (Pl.), ing. emphatic words /ım'f5tık wɜ:dz/, fr. mots de sécrétion, azərb. ayrıla bilən sözlər. – Ünsiyyətdə bu və ya digər sözün, daha vacib informasiya daşıyan sözün qüvvətli deyilməsi. Bu cür hallara biz emfatik danışıqda daha tez-tez rast gəlirik. Məs.: ing. d. /hi: '"ditnt mi:n tə go// (o getməyi nəzərdə tutmuşdu) cümləsində emfatik danışıqda köməkçi fel daha qüvətli deyilir.

D.Jones. The Pronounciation of English. Cambridge, 1988, s. 147-148.

ВЫДЕЛИТЕЛЬНОЕ УДАРЕНИЕ - alm. Absonderungsbetonung (f), Hervorhebungsakzent (m), ing. emphatic accent (stress emphasis) /ım'f5tık '5ksənt /, stress emphasis /'stres 'emfəsıs/, fr. accent sécrétoine, azərb. ayıran, seçən vurğu. - Deyiliş məqamından və propozisiyadan asılı olaraq hər hansı bir sözün (xüsusi) vurğu ilə tələffüzü.

Məs.: /Ana"r mağazadan kitab aldı//,
/Mağaza"dan Anar kitab aldı//,
/Anar kitabı ma"ğazadan aldı//,
/Mağazadan kitabı A"nar aldı//.

«Misalların müqayisəsi göstərir ki, onların hər birindəki düzülüş deyilənin əvəlində söylənmiş fikirdən asılıdır. Onlardan birincisi və ikincisi bir-birinin əvəzində işlənə bilər, amma onlardan heç biri üçüncü və dördüncü yerdə gələ bilməz. Çünki cümlələrin hər birində söylənilən fikir və buna tabe olan söz sırası özündən əvvəlki fikirlə bağlı götürülməli və

downloaded from KitabYurdu.org

yalnız o məqamdan asılı olaraq izah olunmalıdır. Birincidə söhbət ondan gedir ki, Anar mağazaya girir, heçə nə almır, ancaq kitab alıb çıxır. İkincidə də təxminən bu fikir ifadə olunur. Ona görə də birinci və ikinci eyni fikir ifadə edən cümlələrin variantları kimi göstərmək olar. Hər iki halda əsas məsələ odur ki, mağazadan Anar kitab aldı. Üçüncüdə Anarın kitabı başqa yerdən yox, məhz mağazadan aldığı, dördüncüdə isə kitabı mağazadan Anarın alması daha qabarıq şəkildə göstərilir. Maraqlıdır ki, nümunələrin hamısında cümlə vurğusu bilavasitə xəbərdən əvvəl gələn sözün üzərinə düşür. Söhbət, əlbəttə, neytral və normal danışıq üslubundan gedir. Buradan belə nəticə çıxarmaq olar ki, söyləm və dönüm vurğusu bilavasitə xəbərdən əvvəl gələn sözün üzərinə düşür».
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s.51-52.

ВЫДЕРЖКА - alm. Stellung (f), ing. extract /ekstr5kt/, excerpt /'eksɜ:pt/, quotation /kwou'teɪʃən/, self-control /self kən'troul/, fr. d'exposition, azərb. səsin tələffüzündə ikinci mərhələ. – Artikulyator fonetikada səsin tələffüzündə üç mərhələ fərqləndirilir: 1) Başlanğıc, ekskursiya; 2) Orta, fasilə; 3) Son, rekursiya. Birinci, başlanğıc mərhələsində hər hansı bir səsin tələffüzündə iştirak edən danışıq üzvləri (məs.: /p/ samitində dodaqlar hərəkətə gələrək kipləşmə yaradır. Sonra bu kipləşmə bir qədər davam edir. Üçüncü mərhələdə isə kipləşən dodaqlar partlayışla açılır və danışıq üzvləri əvvəlki vəziyyətə qayıdır). Akustik fonetika isə danışıq aktını ardı-arası kəsilməz səs axını kimi götürür. Müq. et:

/p/

E.Sivers. Grundzüge der Phonetik. Leipzig, 1901, s. 37-39.

ВЫДЕРЖКА МГНОВЕННАЯ - alm. augenblickliche Stellung (f), Beherrschung (f), ing. instantaneous /ˌɪnstən'teɪnʃəs/, momentary extract (excerpt) /'mouməntərı ekstr5kt/'eksɜ:pt/, fr. extrait momentané, azərb. ani davamlılıq. - Səsin ikinci tələffüz mərhələsinin maksimum qısaldılması ilə kipləşən-partlayışlı samitlərin yaranması. Müq. et: /p/, /t/, /k/.
E.Sivers. Grundzüge der Phonetik. Leipzig, 1901, s. 37-39.

ВЫДОХ - alm. Ausatmung (f), ing. expiration /ˌekspaıə'reıʃən/, fr. expiration, azərb. nəfəsvermə (ekspirasiya). - Danışıq səslərinin yaranması üçün ağ ciyərdən gələn hava axınının ağız və ya burun boşluğundan müəyyən maneələri dəf edərək çıxması.
E.Sivers. Grundzüge der Phonetik. Leipzig, 1901, s. 3.

ВЫКИДКА (ДИАРЕЗА) - alm. Diärese (f), ing. diaeresis /daı'ıərısıs/, fr. diarése, azərb. düşmə (səs düşümü). - Klassik fonetikada morfemin,

downloaded from KitabYurdu.org

sözün, söz birləşməsinin tərkibindən səsin və ya hecanın düşməsi. Məs.: Azərb. d. /Tanrıverdi-Tarverdi, bilməməzlik-bilməzlik/; rus d. /bıvaet/ sözü /bıva/ əsasında və /ot/ şəkilçisindən düzəlib, bəzi yerlərdə /bıva:t/ kimi tələffüz olnur. Rus d. /t/ və /d/ samitləri də düşə bilir. Müq. et: /ʧesnıj/, /p^jeska/; Azərb. d. /doslar/ və s.
А.А.Реформатский. Göstərilən əsər, s. 208-209.

ВЫКРИК - Aufschrei (m), Ausruf (m), ing. cry /'kraı/, shout /'ʃaut/, yell /'jel/, fr. exclamation, azərb. qışqırıq, çığırtı, qışqırıq səsi, - Səlis danışıqdan fərqli olaraq qışqırtı, çığırtı.
О.С.Ахманова. Göstərilən əsər, s. 93.

ВЫДЫХАНИЕ - alm. Ausatmen (n), Ausatmung (f), ing. expiration /ˌekspaıəˈreıʃən/, fr. expiration, azərb. nəfəsvermə, nəfəsçıxarma. - Diafraqmın yığılması ilə ciyər boşluğunun sıxılması nəticəsində hava axınının bayıra çıxması.
О.С.Ахманова. Göstərilən əsər, s. 93.

ВЫДЫХАТЕЛЬНЫЙ - alm. expiratorisch, ing. expiratory /ıks'paıərətrı/, fr. expirateur, azərb. nəfəsvermə. - Nəfəsvermə ilə əlagədar, nəfəsvermə nəticəsində əmələ gələn.
О.С.Ахманова. Göstərilən əsər, s. 93.

ВЫДЫХА́ТЕЛЬНАЯ ГРУППА - alm. Ausatmunsgruppe (f), ing. expiratory group /ıks'paıərətrı gru:p/, breath group /breθ gru:p/, fr. groupe de souffle, azərb. nəfəs qrupu. - Klassik fonetikada danaşıq aktının üzvlənməsində ən kiçik fonetik vahid. Bu artıq köhnəlmiş termindir, çünki o, linqvistik prinsiplərə söykənmir. Linqvistik prinsipə söykənən üzvlənmə vahidi sintaqmdır. Nəfəs qrupu ona görə səhvdir ki, bir nəfəslə nəinki bir qrup, hətta bütöv cümlə deyilə bilər. Sintaqm isə mənaca bütöv, fonetik cəhətdən parçalanmaz, qrammatik baxımdan düzülmüş, danışıq vaxtı yaranan vahiddir.
D.Jones. The Pronounciation of English. Cambridge, 1988, s.148. Bax: sintaqma →.

ВЫДЫХАТЕЛЬНОЕ УДАРЕНИЕ - alm. Druckakzent (m), Intensitätsbetonung (f), ing. expiratory stress /ıks'paıərətrı 'stres/, dynamic stress (accent) /daı'n5mık stres/ ('5ksənt), fr. accent d'intensité, azərb. ekspirator, nəfəsli vurğu, dinamik (güclü) vurğu. - Tələffüz gərginliyinə görə fərqlənən vurğu. Belə yanaşmada vurğunun təbiəti yanlış olaraq yalnız nəfəsvermənin gücünə əsaslanır.
Bax: Акцент ←.

ВЫМИРАЮЩИЙ ЯЗЫК - aussterbende Sprache (f), ing. dead language /dɛd 'l5ŋgwıʤ/, moribund language /'mɔrıb^nd 'l5ŋgwıʤ/, language on the point of extinction /'læŋgwıʤ ɔn ðə pɔınt əv ıks'tıŋkʃən/, fr. langue morte, azərb. ölən, ölməkdə olan dil. - Canlı

downloaded from KitabYurdu.org

ünsiyyət prosesində işlənməyən, yalnız ədəbi abidələrdə mühafizə edilən dil. Latın dili, qədim türk dili, toxar dili, şumer dili, xet dili və s.
M.İ.Adilov və b., Göstərilən əsər, s. 73.

ВЫПАДАЮЩИЙ ЗВУК - alm. Apokope (f), ing. falling sound /ˈf6:l9ŋ ˈsaund/, fr. son tombant, azərb. düşən səs. – Buna elmi ədəbiyyatda Schwa-laut da deyirlər. İng. d. bunu neutral sound (vowel) adlandırırlar. Transkripsiyada [ə] kimi verilir. Müq. et: alm. d. /zi2ə/ (oxuyram); ing. d. /pəlaık/ (nəzakətli).
H.Bußmann. Göstərilən əsər, s. 669.

ВЫРАЖЕНИЕ - alm. Ausdruck (m), ing. expression /ıksˈpreʃən/, phrase / freız/, stating /steıtıŋ/, fr. locution, azərb. ifadə. - 1. Bu və ya digər spesifik xüsusiyyətə malik danışıq vahidi, danışıqda müəyyən ifadə, söyləm; 2. Danışığın müəyyən bir növü, danışığa xas olan tərkib; 3. Sintaqm, fonetik bütövlüyü və qrammatik tamlığı, qaydaya uyğun gəlməsi və dinləyici tərəfindən tam anlaşılan parça. Məs.: /Məktəb şagirdləri/ məktəbə gedirlər//.
F.Ə.Aslanov. Alman və Azərbaycan dillərində sintaqmın linqvistik təhlili. Bakı, 2005.

ВЫРАЗИТЕЛЬНОСТЬ - alm. Ausdrucksfähigkeit (f), Ausdrucksstärke (f), ing. expressiveness /ıksˈpresıvnıs/, significance /sıgˈnıfıkəns/, fr. expressivité, azərb. ifadəlik, ekspressivlik, təsir(li)lik. – Məs.: azərb. d. /Mavi Xəzərin zümrüd sularını yaran gəmi sahilə yanaşırdı//.
A.Axundov. Şer sənəti və dil. Bakı, 1980.

ВЫРАЗИТЕЛЬНЫЙ - alm. ausdrucksvoll, bedeutsam, ing. expressive /ıksˈpresıv/, indicative /ınˈdıkətıv/, fr. expressif, azərb. ifadəli, təsirli, funksiya daşıyan, ekspressiyaya malik olan.
Bax: Выразительность ←.

ВЫСКАЗЫВАНИЕ (АКТ КОУНИКАЦИИ) - alm. Äußerung (f), ing. expression /ıks'preʃən/, utterance /'ʌtərəns/ act of communication /5kt əv kəˌmju:nıˈkeıʃ(ə)n/, fr. propos, (acte de communication) azərb. söyləm. - Müəyyən danışıq şəraitində dinləyici tərəfindən dərk edilə bilən və məna (fikir) bütövlüyünə malik ünsiyyət vahidi. Məs.: /Bakıdan Şamaxıya qədər gedən yolda/ yaşıllıq yoxdur//.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s.51.

ВЫСКАЗЫВАНИЕ СИТУАТИВНОЕ - alm. situative Äußerung (f), ing. contextual of expression discours /ˈkɔntɛkstʃuəl əv ıks'preʃən dısˈkɔ:s/, fr. propos situatif, azərb. məqamla bağlı söyləm. – İlk dəfə J.R.Firs (1890-1966) tərəfindən işlədilmiş termindir, konkret danışıq məqamında işlədilən ifadə. Məs.: ing. d. /Well played// (yaxşı oynadı) ifadəsi meydançada futbol oyununda tamaşaçılardan biri konkret

downloaded from KitabYurdu.org

oyunçunun topu ötürməsi anına münasibət bildirmək üçün deyilmişdir. Və ya kiməsə ironiya ilə deyilə bilən ifadədəir və s.
P.H.Matthews. Göstərilən əsər, s. 73.

ВЫСОКИЙ - alm. hoch, ing. high /haı/, high-pitched /'haı-'pıʧt/, fr. haut, azərb. yüksək. - Spektrin ikinci formantının yüksək tezlikdə olması. Məs.: alm. d. /i:/. /ı/, /e:/ və /ε/ saitləri ən yüksək F_2-yə malikdir.

	/i:/	/ı/	/e:/	/ε/
F_1	300	350	520	600
F_2	2140	1980	1920	1800

Buraya /y:/, /ц/, /4/ və /ф/ saitlərini də aid etmək olar.

F_1	360	390	450	360
F_2	1500	1560	1350	1400.

Ф.Вейсалов. Вариативность гласных фонем немецкого языка (экспериментальные данные и теоретические проблемы). АДД, 1980, с. 26-27.

ВЫСОКИЕ ГЛАСНЫЕ - alm. hohe Vokale (m), ing. high vowels /'haı 'vauəlz/, fr. voyelles hautes, azərb. yüksək vəziyyətli (qapalı) saitlər.
Bax: Высокий ←.

ВЫСОКИЙ ПОДЪЁМ - alm. hohe Zungenhebung (f), ing. high lifting /'haı lıftıŋ/, high raising /'haı reızıŋ/, fr. haut levage, azərb. yuxarı yüksəlişli. - Dilin ön və ya arxa hissəsinin sərt damağa doğru qalxması ilə tələffüz olunan səslər. Məs.: alm. d. buraya /i:/, /⊥/ və /y:/, /ц/ saitləri aiddir.
F.Veysəlov. Alman dilinin fonetikası. Bakı, 1980.

ВЫСОКИЙ СТИЛЬ - alm. hoher Stil (m), ing. high style /'haı'staıl/, fr. style supérieur, azərb. yüksək üslub, ali stil. – Dilin işlənməsində yüksək üslub. Buraya poetik, ritorik, patetik, akademik, xüsusi texniki üslubları aid etmək olar. Fonetik baxımdan akademik L.V.Şerba iki danışıq üslubu fərqləndirir: səlis və danışıq üslubu. Səlis üslubda aydın tələffüzə, az fasilə ilə sintaktik bölgüyə tam əməl edilir. Danışıq üslubuna adi danışıqda, ailə-məişət danışığında rast gəlmək olur.
Л.В.Щерба. Фонетика французского языка. М., s.1957.

ВЫСОТА ТОНА - alm. Tonhöhe (m), ing. pitch /'pıʧ/, pitch of tone /'pıtʃ əv 'toun/, fr. hauteur de la tonalité, azərb. tonun yüksəkliyi. - Bir zaman vahidi ərzində səs tellərinin titrəmə tezliyinin ən yüksək səviyyəsi, səsin yüksəkliyi cismin rəqslərinin tezliyindən asılıdır. Tezlik isə özlüyündə cismin kütləsilə tərs, qərqinliyi ilə düz mütənasibdir… Cism nazik və gərgin olarsa, onun tezliyi çox və alınan səs də yüksək olar.
F.Veysəlov. Alman dilinin fonetikası. Bakı, 1980, s. 24.

ВЫСШИЕ ЕДИНИЦЫ ЯЗЫКА - alm. hohe Spracheinheiten (Pl.), ing. upper units of the language /'ʌpə 'ju:nıts əv ðə 'l5ŋgwıʤ/, fr. unité supérieure de la langue, azərb. dili sisteminin ən yüksək vahidləri. –

downloaded from KitabYurdu.org

Ünsiyyətdə bütov cümlə və mətn şəklində çıxış edən ibarələr, cümlələr və müstəqil cümlə ardıcıllıqları. Məs.: Azərb. d. /Nə tökərsən aşına, o da çıxar qaşığına// və ya /Yağış yağdı, toz yatdı/ bayaqdan ağacların altına yığışmış adamlar dağılışmağa başladılar//.
F.Veysəlli. GDG. Bakı, 2005, s.294-350.

ВЫСШИЕ УРОВНИ ЯЗЫКА - alm. höhe Sprachebenen (Pl.), ing. upper levels of the language structure /'ʌpə 'levlz əv ðə 'lɜŋgwɪʤ 'strʌkʧə/, fr. tonalités supérieur de la langue, azərb. dilin yüksək səviyyələri. – Bu sintaktik və mətn səviyyəsidir. Bu səviyyələrin vahidləri müstəqildir, bitkin məna ifadə edir və intonasiya qəlibinə malikdir.
Bax: Высшие единицы языка ←.

ВЬЕТМЫОНГСКИЕ ЯЗЫКИ - alm. Viet-Müöng Sprachen (Pl.), ing. VietMinh languages /vɪɛt'min 'lɜŋgw9ʤɪs, vj -Also Vietminh/, fr. langues vietmihongues, azərb. vietmıonq dilləri. – Austrioasiya dilləri qrupu. Əsasən Laos və Vyetnamda yayılmışdır. Beş yarımqrupa bölünür: 1) vyetnam dili; 2) mıonq dili; 3) tiıt yarımqrupu (may, ruk, arem dialektləri); 4) kunoy yarımqrupu (ponq, xunq dilləri); 5) qərbi-çıonqşon yarımqrupu (txavunq, pakatan, katyamponqxuk) və s. Ümumilikdə bu dillərdə təqribən 65 milyon insan danışır. Tipoloji baxımdan vietmıonq dilləri kök dillərdən hesab olunurlar.
Н.К.Соколовская. Материалы к сравнительно-этимологическому словарю вьетмыонгских языков. «Исследование по фонологии и грамматике восточных языков». М., 1978.

ВЬЕТНАМСКИЙ ЯЗЫК - alm. Vietnamesisch (n), ing. Vietnamese language /ˌvɪɛtnə'mi:z, 'vjɛt- 'lɜŋgw9ʤ/, fr. langue viêt-namienne le vietnamien, azərb. vyetnam dili. - Vietmıonq dillərinə mənsub olan dillərdən biridir. Vyetnam Respublikasının rəsmi dövlət dilidir, həmçinin Kamboca, Laos, Tailand, Yeni Kalendoniyada, Fransa və Amerikada yayılmışdır. 55 milyona qədər daşıyıcısı vardır. Ərazi baxımından üç əsas dialektə bölünür: şimali, mərkəzi və cənubi. Bəsit heca strukturuna və sayca çox tonun (6 ton) olmasına görə vyetnam dili vietmıonq dillərinə aid olan digər dillərdən fərqlənir. Ədəbi dili şimali və mərkəzi dialekti əsasında formalaşmışdır.
И.С.Быстров, Нгуен Тай Ган, Н.В.Станкевич. Грамматика вьетнамского языка. М., 1975.

ВЯЛЫЙ - alm. träge, ing. flably /'flæbɪ/, flaccid /'flæksɪd/, languid /'læŋgwɪd/, fr. faible, molle, azərb. qeyri-gərgin, zəif. - Belə səslərdə dilin gövdəsi neytral şəkildə ağız boşluğunda uzanıb qalır. Məs.: alm. və ing. d. [ə] belə səslərdəndir. Müq. et: /'ti:ʧə/ (müəllim), /'le:rər/ (müəllim) və s.
F.Yadigar (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 55.

downloaded from KitabYurdu.org

ГАВАЙСКИЙ ЯЗЫК – alm. Hawaiisch (n), ing. hawaiian language, also, wain /hə'wʌıən 'l5ŋgwıʤ/, fr. langue hawaïenne, azərb. havay dili. – Şərqi polineziy dil yarımqrupuna aid olan dildir. Əsasən Havay adalarında yayılmışdır. 30 minə qədər daşıyıcısı vardır. Fonoloji sistemi bəsitdir, bu dildə 5 sait və 8 samit vardır. Əsasən açıq heca CV quruluşuna malikdir. 1922-ci ildən latın qrafikası əsasında yazısı mövcuddur.
В.Крупа. Гавайский язык. М., 1979.

ГАГАУЗСКИЙ ЯЗЫК – alm. Gagausisch (n), ing. Gagauz language /'g5gauz 'l5ŋgwıʤ/, fr. langue gagaouze, azərb. qaqauz dili. – Türk dilləri ailəsinə mənsub olan dillərdən biridir. Moldaviyanın Çadır-Lunq, Vulkaneşt, Kompat, Ukraynanın İzmail vilayətində və qismən Kazaxıstan və Özbəkistanda yayılmışdır. Bu dildə 200 minə qədər adam danışır. Moldaviya və Bessarabiya ərazisində əsasən iki dialekti vardır: çadır-lunq və vulkaneşt. 1956-cı ildən kiril qrafikası əsasında əlifbası tərtib olunmuşdur.
Н.К.Дмитрева. Фонетика гагаузского языка. М., 1962; Л.А.Покровская. Грамматика гагаузского языка. Фонетика и морфология. М., 1964; Л.А.Покровская. Синтаксис гагаузского языка. Кишинев, 1973.

ГАЗЕТНО-ПУБЛИЦИСТИЧЕСКИЙ - alm. Pressesprache (f), Zeitungssprache (f), ing. newspaper-publicistic /'nju:speıpə pʌblısıstık/, fr. style publiciste, azərb. qəzet-publisistik üslub. - Dövri mətbuat üçün səciyyəvi olan üslub. Burada böyük rəngarənglik nəzərə çarpır. KİV-in (Kütləvi informasiya vasitələri) ünvanlandığı kütlədən (siyasi, bulvar qəzetlərinin dili), dövrülüyündən (gündəlik, həftəlik mətbuatın dili), yayılmasından (mərkəzi və bölgə gəzetlərinin, radio və telekanalların dili), məzmunu ilə bağlı rubrikadan (idman, iqtisadiyyat, mədəniyyət), mətnin növündən (şərh, müsahibə və hava haqqında məlumat) və digər faktlardan asılı olaraq söz və janr seçimi çeşidli ola bilər.
H.H.Lüger. Pressesprache. Tübingen, 1983.

ГАЛИСИЙСКИЙ ЯЗЫК – alm. Galicisch (n), ing. Galish language /gʌlıʃ 'l5ŋgwıʤ/, fr. langue galicienne, azərb. qalisi dili. - İbero-roman dilləri qrupuna aid dillərdən biridir. İspaniyada yayılmışdır. 4 milyondan artıq adam bu dildə danışır. Qalisiya vilayətinin rəsmi (ispan dili ilə bərabər) dilidir. Fonetik baxımdan ispan dilinə çox yaxındır. Ədəbi dili XIX əsrin ikinci yarısından formalaşmağa başlamışdır. Yazısı latın əlifbası əsasındadır.
В.Ф.Шимарев. Очерки по истории языков Испании. М.-Л., 1941.

ГАЛЛИЦИЗМ - alm. Gallizismus (m), ing. Gallicism /'g5lısızəm/, fr. gallicisme, azərb. qallisizm. - Fransız dilindən alınmış və dildə yad ünsür kimi qəbul edilən söz. Məs.: Azərb. d. /paleto→palto/,

downloaded from KitabYurdu.org

/bouillon→bulyon/, /omelette→omlet/, /mode→moda/, /etiquette→etiket/ və s. Bu və bu kimi sözlər XVII – XVIII əsrlərdə fransız dilindən rus dilinə, oradan da sonralar Azərbaycan dilinə keçmiş qallisizmlərdir.
Ю.С.Маслов. Введение в языкознание. М., 1975, s. 263.

ГАЛФ ЯЗЫКИ – alm. Galfsprachen (Pl.), ing. Gulf languages /ˈgʌlf ˈlɜŋgwɪʤɪz/, fr. langues gulffs, azərb. qalf dilləri. – Meksika körfəzinin sahillərində yayılmış hindi dillərinin Şimali Amerika ailəsinə aiddir. Ümumilikdə 30 mindən yuxarı daşıyıcısı vardır. Qalf dilləri ailəsinə natçez, tunik, çitimaç, atakapa və s. dillər daxildir. Yazısı olmayan dillərdir.
M.R. Haas. The proto-gulf word for water. IJAL., 1951.

ГАНДА - alm. Ganda-Sprache (f), ing. Ganda languages /ˈgandə ˈlɜŋgwɪʤ/, fr. langue Gand, azərb. qanda dili. – Bantu dillərindən biridir. Uqandada yayılmışdır. 3 milyona qədər insan bu dildən ünsiyyət vasitəsi kimi istifadə edir. Fonoloji sistemi 45 fonemdən ibarətdir. Uzunluq təkcə saitlər üçün deyil, samitlər üçün də fonoloji səciyyə daşıyır. Tonal dildir.
И.П.Яковлева. Язык ганда. М., 1961.

ГАПЛОГРАФИЯ - alm. Haplographie (f), ing. haplography /hapˈlɔgrəfɪ/, fr. haplographie, azərb. haploqrafiya. - Yazıda yanaşı gələn qoşa yazılmalı qrafemlərdən və ya iki hecadan birinin buraxılmasından ibarət səhv yazı. Məs.: Azərb. d. /Əliækbər/→/Ələkʹbər/; alm. d. /Mineralo+logie/→ /Mineralogie/ və s.
H.Bußmann. Göstərilən əsər, s. 302.

ГАПЛОЛАЛИЯ - Bax: Гаплология →.

ГАПЛОЛОГИЯ - alm. Haplologie (f), ing. haplology /hapˈlɔləʤɪ/, fr. haplologie, azərb. haplologiya. - Bir-birinin ardınca gələn eyni hecadan birinin atılması, düşməsi. Məs.: rus d. /знаменосец←знаменоносец/, /трагикокомедия←трагикомедия/; Azərb. d. /obrazlılıq-obrazlıq/, /minerologiya-minerologiya/, /çatışmamazlıq-çatışmazlıq/; alm.d. /Zaubererin→Zauberin/ və s.
А.А.Реформатский. Введение в языкознание. М., 2001, s. 209.

ГАРМОНИЗАЦИЯ - alm. Harmonisierung (f), ing. harmonization /hɑ:mənaɪzeɪʃən/, fr. harmonisation, azərb. harmonizasiya, ahənglik. – Sözün başlanğıc hecasında gələn saitin bu sözdə gələn digər saitləri öz məxrəcində (dodaq və damaq ahənginə görə) kökləməsi. Türk dilləri üçün səciyyəvidir. Məs.: Azərb. d. /göy+lər/, ancaq /son+lar/.
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s.147

downloaded from KitabYurdu.org

ГАРМОНИКА (ГАРМОНИЧЕСКИЙ ОБЕРТОН) - alm. Harmonika (f), Mundharmonika (f), ing. harmonic overtone /hɑ:ˈmɔnık ˈouvətoun/, fr. harmonica, azərb. harmonika. - Rəqs tezliyi sayca əsas tonun səs tezliyindən bir neçə qat çox olan sadə ton. Bu da səs tellərinin ayrı-ayrı hissələrinin tezliyindən yaranır və səsin tembrini təşkil edir.



Səs tellərinin bütövlükdə rəqsindən əsas ton, onun hissələrinin titrəməsindən oberton (yüksək ton) yaranır. Səs telləri iki yerə bölünərsə, deməli, hər hissənin ayrılıqda titrəməsinin tezliyi onların bütövlükdə titrəməsindən iki dəfə, üç yerə bölünərəsə üç dəfə yüksək olacaqdır (bax: şəkil). a) səs tellərinin bütövlükdə titrəməsi; b) səs tellərinin ½ hissəsinin titrəməsi; c) səs tellərinin ⅓ hissəsinin titrəməsi.
F.Yadigar (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 25.

ГАРМОНИЯ ГЛАСНЫХ - alm. Vokalharmonie (f), ing. harmony of vowels /ˈhɑ:mənı əv 'vauəlz/, vowel harmony /ˈvauəl ˈhɑ:mənı/, vocalic harmony /ˈvoukəlık ˈhɑ:mənı/, fr. harmonie des voyelles, azərb. saitlərin harmoniyası. - Sözün tərkibindəki saitlərin həmahəngləşməsi. Əsasən türk dilləri üçün səciyyəvidir. Ahəng qanununa görə, şözün kökündə gələn sait sözə əlavə olunan bütün saitləri sırasına və dodaqların iştirakına görə öz məxrəcinə tabe edir.

	Saitlər
Əvvəldə gələnlər	**sonda gələnlər**
e	ə, i (el, elə, eli) və s.
i	i/ə (il, ili, ilə) və s.
ə	ə, i/ə (ət, ətə, əti, ətdən) və s.
ö	ə, ü/i (özək, özü, özəyi) və s.
ü	e, ü, i/ə (ütü, kütbeyin, lülə) və s.
a	a, ı (acı, ağadan, ağanı) və s.
o	a, u (otu, ota, qoşuna) və s.
u	a, u (uzun, uzuna, uzaq) və s.

F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 147.

downloaded from KitabYurdu.org

ГЕМИНАТА - alm. Langkonsonant (m), ing. double consonant /'d∧bl 'kɔnsənənt/, geminate /'ʤeminıt/, fr. consonne géminée, azərb. geminat, uzun samitlər. – 1. Uzun tələffüz olunan samitlər. Məs.: italyan dilində samitlərin uzun və qısalığı fonoloji cəhətdən relevant əlamətdir. Məs.: /fat:o/ /tale/, ancaq /fat/ (etdi), /non:o/ (baba), /nono/ (doqquzuncu rəqəm). Azərbaycan dilində uzun samitlərin olması məsələsi mübahisəlidir. Tələffüz üçün qoşa yazılan samitlərin uzun tələffüzü səciyyəvi deyildir.

F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 121-123; H.Bußmann. Göstərilən əsər, s. 267. A.Axundov. Azərbaycan dilinin fonetikası. Bakı, 1984.

ГЕМИНАЦИЯ - alm. Gemination (f), Doppelung (f), ing. gemination /ˌʤemı'neıʃ(ə)n/, fr. gémination, azərb. qeminasiya. - Samit səsin uzadılması.

Bax: Гемината ←.

ГЕМИНИРОВАННЫЙ СОГЛАСНЫЙ - alm. Doppelkonsonant (m), ing. double consonant /'d∧bl 'kɔnsənənt/, fr. consonne double, géminée azərb. geminantlaşma, uzun samit. – Alman dilində yazıda verilən qoşa samit sözdə özündən qabaq gələn saitin qısalığını bildirir.

Bax: Гемината ←.

R.Conrad. Göstərilən əsər, s. 90.

ГЕНЕАЛОГИЧЕСКИЙ - alm. genealogisch, ing. genealogical /ˌʤi:njə'lɔʤıkəl/, fr. généalogique, azərb. genealoji. - Mənşə ümumiliyi ilə müəyyən edilən, dil qohumluğuna əsaslanan. Ümumi dil və ulu dil ideyasından çıxış edən bu bölgü tarixi-müqayisəli dilçiliyin ən uğurlu nailiyyəti sayıla bilər. Əslində real şəkildə nə vaxtsa mövcud olmuş ulu dili – tam şəkildə bərpa etmək qeyri-mümkündür. Ancaq gənc qrammatiklərin ümumi fonetik qanunları və semantik izomorfizm əsasında dillərin geneoloji bölgüsü bu gün mövcuddur və aşağıda bu bölgünü təqdim edirik.

(Bax: A.A.Reformatskinin kitabından götürülmüş xəritəyə).

downloaded from KitabYurdu.org

DİL AİLƏLƏRİNİN YAYILMASI XƏRİTƏSİ



А.А.Реформатский. Введение в языковедение. М., 1967, s.411-440; Ю.С.Маслов. Введение в языкознание. М., 1987; A.Axundov. Ümumi dilçilik. Bakı, 1988.

downloaded from KitabYurdu.org

ГЕНЕАЛОГИЧЕСКОЕ ДЕРЕВО (РОДОСЛОВНОЕ ДЕРЕВО) - alm. geneologischer Baum (m), Stammbaum (m), ing. genealogical tree /ˌʤi:njəˈlɔʤɪkəl tri:/, fr. arbre généalogique, azərb. genealoji ağac, şəcərə ağacı. - Dil ailələri, qrupları və budaqları arasında təsəvvür edilən əlaqə və bağlılıqların əyani təsviri. 1866-ci ildə A.Slayxerin (1821-1868) irəli sürdüyü nəzəriyyəyə görə canlı varlıq kimi hər bir dil də özündən əvvəlki dildən törəmiş hesab edilir. Bu da əyani olaraq ağac şəklində təsvir edilir. Bu nəzəriyyənin əvəzinə Y.Şmidt (1843-1901) 1872-ci ildə dalğa nəzəriyyəsini irəli sürmüşdür.

a)



b)



a) dalğa nəzəriyyəsi; b) ağac nəzəriyyəsi

ГЕНЕАЛОГИЧЕСКАЯ КЛАССИФИКАЦИЯ - alm. genealogische Klassifikation (f), ing. anthropophonic classification /ˌ5nθrəʊˈpɔˈfoʊnɪk kl5sɪfɪˈkeɪʃən/, genealogical (pedigree) classifictaion /ˌʤi:njəˈlɔʤɪkəl /ˈpedɪgrɪ:/ˌkl5sɪfɪˈkeɪʃən/, fr. classification généalogique, azərb. geneoloji təsnifat.

Bax: Генеалогический ←.

downloaded from KitabYurdu.org

ГЕНЕАЛОГИЧЕСКАЯ ТЕОРИЯ - alm. genealogische Theorie (f), Stammbaumtheorie (f), ing. genealogical theory /ˌdʒi:njəˈlɔdʒɪkəl ˈθɪərɪ/, pedigree theory /ˈpedɪgrɪ: ˈθɪərɪ/, fr. théorie généalogique, azərb. genealoji nəzəriyyə.
Bax: Генеалогическое дерево ←.

ГЕНЕТИЧЕСКАЯ СВЯЗЬ ЯЗЫКОВ - alm. genetische Sprachverbindung (f), ing. genetic relationship affinity between languages /dʒɪˈnetɪk rɪˈleɪʃənʃɪp əˈfɪnɪtɪ bɪˈtwi:n ˈlɔŋgwɪdʒɪz/, fr. liaison génétique des langues, azərb. dillərin genetik əlaqələri. - Dillərin oxşarlığı, dilin mənşə ümumiliyinə görə təsnifi; qohum dillərdə mənşə ümumiliyi əsasında baş verən tendensiyalar, analoji (oxşar) xüsusiyyətlər, qohum dillərin qarşılıqlı münasibəti. Məs.: fransız və ispan dilləri genetik cəhətdən qohum dillərdir. Onlar da digər roman dilləri kimi latın dilindən əmələ gəlmişlər. Bu da hind-Avropa dilləri ailəsinə aiddir və tarixən Avroasiya məkanında yerləşmiş dillərdir. Nikols adlı Amerikan dilçisinin son tədqiqatlarına görə, dillərin genetik qrupları ailə (stock), yarımailə (family), qrup (lineage) kimi bölünür. Əsas prinsip genetik birliyin qədimliyidir. Hind-Avropa dilləri ailəsinin tarixi 6 min ilə yaxın tarixi vardır. Dillərin genetik bölgüsünü müqayisəli metod vasitəsilə həyata keçirirlər. Bunu da ya ağac, ya da dalğa şəklində təsvir edirlər.
P.H.Matthews. Göstərilən əsər, s. 144; İ.Nichols. Linguistic Diversity in Space and Time. Chicago, 1992, s. 28.

ГЕНИТИВ (РОДИТЕЛЬНЫЙ ПАДЕЖ) - alm. Genitiv (m), ing. genetive (case) /ˈdʒenɪtɪv/ˈkeɪs/, fr. génitif, azərb. genetiv (yiyəlik hal). - Mənsubiyyət, əlaqə, münasibət və s. kimi mənalar bildirən kateqorial hal forması. Fellə, isimlə, sifətlə, sayla, zərflə (müqayisə dərəcəsində) əlaqəyə girərək obyekt, mənsubiyyət, kəmiyyət bildirən yiyəlik hal forması. Məs.: Azərb. d. formal olaraq (in)[4] variantlı şəkilçi ilə ifadə olunur. /Başının tacı/; alm. d. /das Buch des Bruder+s/ (qardaşımın kitabı); rus d. /рука друга/; ing. d. buna possesiv case-deyirlər. Əsasən /of/ və sözə qoşulan /-s/ ilə ifadə olunur. Məs.: /brother's book/ və ya /the book of the brother/ və s. Azərbaycan dilində müəyyən (məs.: /anamın kitabı/) və qeyri-müəyyən yiyəlik hal (məs.: /ana laylası/) fərqləndirilir.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 133.

ГЕРМАНИЗМ - alm. Germanismus (m), ing. Germanism /ˈdʒɜ:mənɪzəm/, fr. germanisme, azərb. germanizm. - German dillərindən alınmış söz, birləşmələr və formalar. Məs.: Azərb.d. /müştük/ sözü alman dilindəki /Mundstück/ sözündəndir, bank alm. d. /Bank/ sözündəndir.
Ю.С.Маслов. Введение в языкознание. М., 1975, s. 263.

ГЕРМАНСКИЕ ЯЗЫКИ – alm. germanische Sprachen (Pl.), ing. German languages /ˈdʒɜ:mən ˈlɔŋgw9dʒɪz/, fr. langues germaniques,

downloaded from KitabYurdu.org

azərb. german dilləri. – Hind-avropa dilləri ailəsinə daxil olan qohum dillər qrupu. German dilləri Böyük Britaniya, Almaniya, Avstriya, Hollandiya, Belçika, İsveçrə, Lüksemburq, Danimarka, Norveç, İslandiya, Amerika, Kanada, Afrikanın cənubunda, Avstraliya, Yeni Zelandiyada və s. ölkələrdə yayılmışdır. 600 milyondan çox insan bu dillərdən istifadə edir. German dillərini əsasən üç yarımqrupa bölürlər: şimali (isveç, danimarka, norveç, island, farer), qərbi (ingilis, alman, daç, lüksemburq, afrikaans, friz, idiş) və şərqi (ölü qot dili, burqund, vandal, qepid, qerul). Məşhur germanist V.M.Jirmunski (1891-1970) qədim german dialektlərini belə təsnif etməyi tövsiyə edirdi:

1. İlk öncə iki böyük qrup olmuş: Skandinaviya və ya quzey qrupu və materik və ya güney qrupu;
2. Doğu german tayfalarının (vandalların) e.ə. III və I əsrdə kontinentə axını;
3. Qotların Qara dəniz sahil çöllərinə axını (e.ə. III-II əsrdə qot dilinin inkişafı, IV əsrdə Vulfilin yazılı abidələri);
4. Batı german dilindən üç qrupun ayrılması: inqevon (şimal dənizi germanları, istevon (Rayn-vezer germanları) və erminonlar (Elbe germanları, e. I əsri), inqevonlar və istevonlar qaynayıb qarışmışlar;
5. Qot dili istisna olmaqla quzey və güney germanlarının geniş əlaqələri (b. e. ə. I və V əsr);
6. Angelsaksların Britaniya adalarına hərəkəti (anqelsaks dilinin qədim ingilis dilindən təcrid olunması (V-VI əsr), abidə V əsrin sonundan məlumdur;
7. Saksların Şimal dənizi sahillərindən quzey, batı və güneyə hərəkəti, onların Vezer-Rayn germanları və istevon qalıqları ilə birgə qruplaşması (e. IV-V əsri);
8. Herminonların Elbe çayının aşağı və orta zolağından güney Almaniyaya yayılması (I əsr). Güney bölgələrin alman və bavariyalılar (sonrakı alman ədəbi dil daşıyıcıları) tərəfindən zəbt edilməsi (III-V əsr).
9. Frank-istevonların batıda romanlaşması, şimali Qalliyaya hücumu, ikidilli Merovingiya dövlətinin yaranması (V əsrin sonu). Frankların (istevonların) alman, Bavariya (herminonlar), hessenlilərin və turingiyalıların, sonralar isə saksların (ingevonların) qaynayb qarışması;
10. Quzey german dillərinin materikdən ayrılması (V əsr). Danimarkalılar Yutlandiyanı V-VI əsrlərdə, norveçlər İslandiyanı VIII-IX əsrlərdə müstəmləkəyə çevirirlər. Artıq XII-XIII əsrlərdə qədim Danimarka, İsveç və İslandiya dillərində yazılı abidə meydana gəlir.

F.Yadigar (Veysəlli). GDG, Bakı, 2003, s. 104-147; В.М.Жирмунский. Введение в сравнительно-историческое изучение германских языков. М., 1977-78.

ГЕРМАНИСТИКА - alm. Germanistik (f), ing. Germanic languages studies /ʤɜ:'m5nık 'l5ŋgw9ʤız 'stʌdız/, Germanistic / ʤɜ:'m5nıstık/ fr.

downloaded from KitabYurdu.org

germanistique, azərb. germanistika. - German dilli xalqların dilini, ədəbiyyatını və mədəniyyətini tədqiqat obyekti kimi seçən elm sahəsi.
F.Yadigar (Veysəlli). GDG, Bakı, 2003.

ГЕРУНДИЙ - alm. Gerundium (n), ing. gerund /ˈdʒer(ə)nd/, fr. gérondif, azərb. gerund. - 1. Latın dilində feli isim. Ola bilsin ki, o gerunddan, isimlərdən eliziya (səsdüşümü) nəticəsində baş vermişdir; 2. Müasir ingilis dilində gerunda belə tərif verilir: «ing-lə düzələn fel mənalı və ya fel funksiyası ilə birlikdə isimlərə gerund deyilir». Məs.: ing. d. /Reading and writing are now common acguirements// və ya /I am fond of smoking//. Gerund adətən təyin və predikativ rolunda çıxış edir. Alm. d. buna partisip I və II uyğun gəlir. Məs.: /lesen – der lesende Junge// (oxumaq – oxuyan oğlan). Bu partisip I-də indiki zaman və aktiv forma var. /Der Junge ist lesend// (oğlan oxuyur, oxumaqdadır). Partisip II isə keçmiş zaman və passiv mənada işlənir. Məs.: /Das gelesene Buch// (oxunmuş kitab), ancaq partisip II perfekt, plusquamperfekt aktiv və passivin düzəlməsində mürəkkəb xəbərin əsas feli rolunda çıxış edir.
Müq. et:

Aktiv:
Perfekt: /Der Junge ist gekommen// (oğlan gəldi)
Plusquamperfekt: /Der Junge war gekommen// (oğlan gəlmişdi)
Passiv:
Perfekt: /Das Buch ist gelesen worden// (kitab oxunub)
Plusquamperfekt: / Das Buch war gelesen worden// (kitab oxunub qurtarıb)
Futur I: Präsens /Das Buch wird gelesen werden// (kitab oxunacaq)
Futur II: /Das Buch wird gelesen worden sein// (kitab oxunmuş olacaq).

H.Glinz. Göstərilən əsər; R.W.Zandwoorf. A Handbook of English Grammar. London, 1963.

ГЕТЕРОГЕН (РАЗНОРОДОВОЕ ЕДИНИЦА) - alm. heterogen, ing. heterogeneous unit /ˈhetərəʊˈdʒiːnjəs ˈjuːnɪt/, fr. hétérogène, azərb. heterogen. - Tək və cəm hallarda müxtəlif cinslərə aid olan isim. Məs.: latın d. /locus/ - tək hal, kişi cinsi, /loca/ - cəm hal, orta cins.
H.Glinz. Göstərilən əsər.

ГЕТЕРОНИМИЯ - alm. Heteronymie (f), ing. heteronymy /ˈhetər6ˈnımı/, fr. hétéronymie, azərb. heteronimiya, müxtəlif adlı. – 1) Eyni semantik meyarlı (məs.: rəngələr, həftə adları, rəqəmlər, müxtəlif köklü ifadələr). Məs.: fr. d. /cousin-cousine/; alm. d. /Vetter/ (əmioğlu) və /Base/; 2) Bir-birini əvəz edə bilən sinonimlər. Məs.: ümumi məfhum olan /Pferd/ (at) sözünü müəyyən məqamda /Rappe/ və /Schimmel/ sözlərilə əvəz etmək olur.
H.Bußmann. Göstərilən əsər, s. 306, 342.

downloaded from KitabYurdu.org

ГЕТЕРОРГАННЫЕ ЗВУКИ - alm. heterorgane Laute (Pl.), ing. heterorganic sounds /ˈhetər6ˈgænık saundz/, fr. sons hétérorganes, azərb. heteroüzv (-orqan) səslər. - Müxtəlif tələffüz üzvləri vasitəsilə əmələ gələn; həm passiv, həm də fəal tələffüz üzvlərinə görə fərqlənən səslər. Məs.: ing. d. /θ/ laminal, /s/ isə apikal səsdir. Bu səslər homorqan səslərə qarşı qoyulur.
H.Bußmann. Göstərilən əsər, s. 306.

ГЕТЕРОСИЛЛАБИЧЕСКИЙ - alm. heterosyllabisch, ing. heterosyllabic /ˈhetərəʊsıˈl5bık/, fr. hétérosyllabique, azərb. heterosillabik. - Bir-birinin ardınca gələn iki hecaya paylanmış. Məs.: alm. d. /n/ samiti /´>an: , ne:mən/ sözündə iki hecaya bölünən eyni cinsli samitdir.
Р.К.Потапова. Слоговая фонетика германских языков. М., 1986.

ГИБРИД (ГИБРИДНОЕ СЛОВО, ПОЛУКАЛЬКА) - alm. hybrides Wort (n), ing. hybrid word /haıbrid w8:d/, fr. hybride, azərb. hibrid, calaq. - Müxtəlif dillərdən götürülmüş tərkibə malik mürəkkəb söz, tərtib olunmuş çarpazlanmış söz. Məs.: rus d. автобусный – avto- < yunan. auto-, -bus- < lat. -bus, -nıy = rus. n + ıy; alm. d. Bürokratie fr. dilindən /Büro/ və yunan dilindək /kratie/, /Television/ yunanca /Tele/ və latınca /vision/ sözlərindəndir.
H.Bußmann. Göstərilən əsər, s. 315.

ГИБРИДНЫЙ - alm. hybrid, ing. hybrid /ˈhaıbrid/, creolized /ˈkri:əʊl∧ızd,ˈkrı-/, fr. hybride, azərb. calaq, qarışmış. – Picin və kreol dillər.
Bax: Креол →, пиджин →.
H.Bußmann. Göstərilən əsər, s. 587.

ГИБРИДНЫЙ ЯЗЫК - alm. hybride Sprache (f), ing. hybrid language /ˈhaıbrıd ˈl5ŋgwıʤ/, fr. langue hybride, azərb. calaq dili. – Leksik, fonetik, morfoloji və sintaktik səviyyələrdə müxtəlif dillərdən düzəlmiş dil. Məs.: Kreol və pidjin dilləri buna misal ola bilər.
Bax: Креол →, пиджин →.

ГИБРИДНОЕ СЛОВО - alm. hybrides Wort (n), ing. hybrid word /ˈhaıbrıd wɜ:d/, fr. mot hybride, azərb. hibrid sözlər.
Bax: Гибридный ←.

ГИДРОНИМ – alm. Hydronym (n), ing. Hydronim /ˈhıdr6nı:m/, fr. hydronime, azərb. hidronim. – Təbii su hövzələrinin adı. Məs.: Hind okeanı, Qara dəniz. Okeanlardan tutmuş xırda çay adlarına qədər, hətta coğrafi terminləri də hidronim terminləri adı altında buraya daxil edirlər. Məs.: Azərb. d. /şəlalə, Kür çayı, körfəz/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 328.

ГИМАЛАЙСКИЕ ЯЗЫКИ – alm. Himalaja-Sprachen (Pl.), ing. Himalay languages /ˈhıməˈleı læŋgwıʤız/, fr. langues himalayennes,

downloaded from KitabYurdu.org

azərb. himalay dilləri. – Nepal və qonşu Hind bölgələrində yayılmış dillərin ümumi adı. 3 milyondan artıq insan bu dillərdə danışır.
G.A.Grierson. Linguistic surveu of India, Calcuta, 1909.

ГИНУХСКИЙ ЯЗЫК - alm. Ginuhisch (n), ing. Gunich language /ˈgʌnık ˈlɔŋgwıʤ/, fr. langue hinoukhe, azərb. qinux dili. – Dağıstanın Suntin rayonunun Qinux kəndində yayılmış dildir. Təqribən 250 daşıyıcısı vardır. Yazısı yoxdur.
Е.А.Бокарев. Цезские языки Дагестана. М., 1959.

ГИПАЛЛАГА - alm. Hypallage (f), ing. hypallage /hʌıˈpaləʤi:- hı/, fr. hypallage, azərb. hipallaqa, əvəzetmə. – Yerdəyişmədə ritorik fiqurun əvəzlənməsi. Məs.: Azərb. d. /dəli adamlar/, /dəli küləklər/ birləşməsində /adamlar/ əvəzinə /küləklər/ işlənməsi.
H.Bußmann. Göstərilən əsər, s. 316.

ГИПЕРБАТОН - alm. Hyperbaton (n), ing. hyperbaton /hʌıˈpə:bət6n/, fr. hyperbate, azərb. hiperbaton, ritorik əvəzlənmə. – Sintaktik konstruksiyada sözlərin normal sırasının, cərgəsinin dəyişdirilməsindən ibarət bədii üslub. Məs.: Azərb. d. /Bu da yaxşılığım, mənim ona etdiyim//
M.İ.Adilov və b. Göstərilən əsər, s. 329.

ГИПЕРБОЛА - alm. Hyperbel (f), ing. hyperbole /haıˈpə:bəlı/, fr. hyperbole, azərb. mübaliğə, hiperbola. - İfadənin, danışığın təsirini artırmaq məqsədi ilə həddən artıq şişirtmə. Məs.: Azərb. d. /ölüm sükutu/, /daş qəlbli/; alm. d. /todmüde/ (ölü kimi yorğun).
R.Conrad. Göstərilən əsər, s. 108.

ГИПЕРКОРРЕКТНОСТЬ - alm. Hyperkorrektheit (f), ing. Hypercorrectness /haıˈpəkəˈrektnes/, overcorrectness /ˈouvəkəˈrektnes/, fr. hyper convenance, (correct), azərb. hiperkorrekt, son dərəcə dəqiq. – Düzələn ifadə həqiqətdə sözün yanlış deyilişinə və ya yazılışına səbəb olur. Məs.: Azərb. d. /Məmməd Səid/ əvəzinə /Məhəmməd Səid/; alm. d. /Treppe/ (pilləkən) əvəzinə /Trepfe/, /Aprikose/ (ərik) əvəzinə /Apfrikose/.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 107.

ГИПЕРНОМ – alm. Hypername (m), ing. Hypername /ˈhʌıpəˈneım/, fr. hypernome, azərb. ümumiləşmiş ad. – Məs.: Azərb. d. /tülpan, bənövşə, gızıl gül/ sözləri.
P.H.Matthews. Göstərilən əsər, s. 166.

ГИПЕРУРБАНИЗМ (УРБАНИЗМ) - alm. Hyperurbanismus (m), ing. hyper-urbanism /ˈhʌıpəˈə:b(ə)nızm/, fr. hyper-urbanisme, azərb. hiperurbanizm, dəbdəbəli danışığa cəhd etmə. - Danışığa təmtəraq vermək məqsədilə gündəlik məişətdə canlı ünsiyyətdən çıxmış və dialekt səciyyəli söz və ifadələrin işlədilməsi. Məs.: Azərb. d. /qadan alım/ əvəzinə /qadoy alım/ və ya /Ana, bir çay təşkil et// və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 330; P.H.Matthews. Göstərilən əsər, s. 166.

downloaded from KitabYurdu.org

ГИПОЗЕВГМА - alm. Hypozeugma (n), ing. hypozeugma /ˈhaɪpəʊˈzjuːgmə/, fr. hypozeugme, azərb. hipozevqma. – Ümumi, müştərək üzvün son cümlədə yerləşdirilməsi. Məs.: Azərb. d. /Kar eşitdiyini, kor tutduğunu buraxmaz//.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 230.

ГИПОСТАЗИС (МЕТАБАЗИС, ТРАНСПОЗИЦИЯ) - alm. Hypostase (f), ing. hypostasis /hʌɪˈpɔstəsɪs/, fr. hypostase, azərb. hipostazis. - Geniş mənada konversiya üsulu ilə bir nitq hissəsinin digərinə keçməsi, yəni substantivləşmə (isimləşmə) və advetbləşmə (zərfləşmə) daxil olmaqla. Məs.: rus d. путем (isim) > путем (zərf) > путем (sözönü).
О.С.Ахманова. Göstərilən əsər, s. 100.

ГИПОТАКСИС - alm. Hypotaxe (f), ing. hypotaxis /hʌɪpə(ʊ)ˈtɑksɪs/, fr. hypotaxe, azərb. hipotaksis, tabelilik. – Tabelik əlaqəsi əsasında yaranmış qrammatik vahidlər. Sintaktik vahidləri öyrənən sahə. Hipotaksis cümlələrin birinin digərindən tabeliliyi və bu tabeliyin müəyyən ünsürlər vasitəsilə əks etdirilməsidir. Dilçilikdə bu bölmə parataksislə qarşılaşdırılır. Məs.: Azərb. d. /Bilirəm ki, bilirsən// /Mən bilirəm ki,/ sən bilirsən//. Alm. d. baş cümlə adətən əvvəl gəlir və budaq cümlə ona tabe olur. Tabelilik əlaqəsi bağlayıcılar (məs.: weil, obwohl, because, потому что, that, çünki), nisbi əvəzliklərlə (məs.: der, welcher, who, whom), söz sırası və konyunktivlə ifadə oluna bilər. Məs.: alm. d. /Wir glauben, dass er kommen wird// (Biz inanırıq ki, o gələcək),
ing. d. /I said, he came// (Mən dedim, o gəldi),
rus d. /Я сказал, что он придет//.
Azərbaycan dilində tabeli budaq cümlələri baş cümləyə bağlayan bağlayıcılar bunlardır: 1) izahedici, aydınlaşdırıcı bağlayıcı /-ki/; 2) zaman bildirən bağlayıcı birləşmələr-/elə ki, o zaman ki, o vaxt ki, o gün ki, onda ki/; 3) səbəb və məqsəd bildirən bağlayıcı birləşmələr - /ona görə ki, ondan ötrü ki, onun üçün ki, o səbəbə ki, o məqsədə ki/; 4) şərt bildirən bağlayıcılar və bağlayıcı birləşmələr - /indi, ki, bir halda ki, əgər, madam ki, vaxta ki, hərgah/; 5) qarşılışdırma bildirən bağlayıcılar - /hərçənd, doğrudur, düzdür/; 6) nəticə bildirən bağlayıcılar - /ona görə (də), buna görə (də), onun üçün (də), bunun üçün (də), belə ki/ və s; alm. d. 1) mübtəda, xəbər və tamamlıq cümlələrində -/ daß, wie/; 2) zaman bildirənlər /als, wenn, bevor, ehe, nachdem, indem, während, solange, sobald, so oft, bis, dieweil, wie, da, indessen/; 3) səbəb bildirənlər: - /weil, da, zumal/; 4) nəticə bildirənlər: so dass, dergestalt, dass, dass, als dass; 5) məqsəd bildirənlər/damit, dass, auf dass/; 6) şərt bildirənlər: /wenn, falls/; 7) güzəşt bildirənlər: /obgleich, obschon, obwohl, obzwar, ob auch, wiewohl, wie auch, so auch, wenn schon, wenn auch, wenn gleich, trotzdem, ungeachtet/; Alman dilində tabeli budaq cümlədə təsrif olunan fel bir

downloaded from KitabYurdu.org

qayda olaraq sonda gəlir. Məs.: /Obwohl er nicht hungrig war, sollte er essen// (Ac olmamasına baxmayaraq, o yeməli idi). Qeyd edək ki, tabelilik birinci, ikinci, üçüncü və s. dərəcəli ola bilər. Müq. et: alm. /Er ist glücklich, **1** dass er jemand hat, **2** der verstehen kann, **3** warum er hier sein will// (O xoşbəxtdir ki , 1) onun kimisə var, 2) o kimsə başa düşə bilər, 3) niyə o burada olmalıdır); 8) modal bildirənlər: /indem, ohne dass/; 9) müqayisə bildirənlər: /wie, als, als ob, als wenn, wie wenn/; 10) məhdudluq mənası bildirənlər: /(in) soweit, insofern, wofern, soviel, nur dass, angenommen dass/; 11) qarşılaşdırma bildirənlər: /je… desto…, um so, je/; 12) vasitəsiz sual bildirənlər: /ob/; 13) nisbi əvəzliklər və zərflər: /der, welcher, wer, was, wo, wohin, wodurch/ və s.
Ə.Z.Abdullayev. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. Bakı, 1974, s. 109-113; Л.Р.Зиндер, Т.В.Строева. Современный немецкий язык. М., 1957, s. 301-341; H.Glinz. Göstərilən əsər, s. 338.

ГИПОТЕТИЧЕСКАЯ ФОРМА - alm. hypothetische Form (f), ing. hypothetic(al) form /ˌhaɪpə(ʊ)ˈ4etɪk(ə)l fɔ:m/, starred form /stɑ:d fɔ:m/, fr. forme hypothétique, azərb. fərz edilən, hipotetik forma. - Mövcud yazılı abidələrdə aşkar edilməyən, yalnız müqayisəli-tarixi metod vasitəsilə bərpa edilən forma.
O.C.Ахманова. Göstərilən əsər.

ГИПОТЕТИЧЕСКИЕ СОЮЗЫ (УСЛОВНЫЕ СОЮЗЫ) - alm. unterordnende Konjunktionen (Pl.), ing. subordinating conjunction /səˈbɔ:dnɪtɪŋ conjunction/, hypothetic(al) conjunction /ˌhaɪpə(ʊ)ˈ4etɪk(ə)l conjunction/, fr. conjonction (hypothétiques) de subordination, azərb. birləşdirici bağlayıcılar (şərti bağlayıcılar). - Aralarında tabelik əlaqəsi olan söz, cümlə və digər sintaktik bütövlərin birləşməsinə xidmət edən bağlayıcılar. Məs.: Azərb. d. tabelik bildirən bağlayıcılar /çünki, əgər/ və s. İng. d. /If Bill had only tried to see her…/ (Əgər Bill ancaq onu görməyə çalışsaydı)… yəni o çalışmayıb.
P.H.Matthews. Göstərilən əsər, s. 318.

ГИПОТЕТИЧЕСКОЕ ПРЕДЛОЖЕНИЕ - alm. unterordnender Satz (m), ing. hypothetical clause /ˌhaɪpəʊˈθetɪkəl klɔ:z/, subordinating sentence /səˈbɔ:dnɪtɪŋ sentəns/, fr. proposition de subordination, azərb. birləşdirici cümlə. - Güman, fərziyyə, ehtimal mənalarını bildirən şərt budaq cümləsi. Məs.: Azərb. d. /Əgər qonşularımız riyakar olmasaydılar…// və s.
Ə.Z.Abdullayev. Göstərilən əsər, s. 318.

ГИСТЕРОПРОТОН (ГИСТЕРОЛОГИЯ, ПРОТИСТЕРОН) - alm. Hysterologie (f), ing. hysteron-proteron /ˌhɪstər6nˈpr6tər6n/, hysterology /ˈhɪstərəʊlɔʤɪ/, fr. hysteron-proton, azərb. histeroproton. – «Təsvir edilən hadisələrin məntiqi ardıcıllığını pozmaqdan ibarət bədii

downloaded from KitabYurdu.org

üsul. Məs.: Azərb. d. /Baş yaranlarımız hamısı ibarətdir məhz gədə-güdədən, baqqallardan və çaqqallardan// (C.Məmmədquluzadə)».
M.İ.Adilov və b. Göstərilən əsər, s. 330.

ГЛАВНОЕ УДАРЕНИЕ (ОСНОВНОЕ УДАРЕНИЕ, САМОСТОЯТЕЛЬНОЕ УДАРЕНИЕ, СИЛЬНОЕ УДАРЕНИЕ) - alm. Hauptton (m), ing. main stress /'meɪn stres/, primary stress /'praɪmərɪ stres/, strong stress /strɔŋ stres/, principal stress /'prɪnsəpəl stres/, fr. accent principal, azərb. iki və daha artıq komponentli mürəkkəb sözlərdə əsas vurğu. – Sözü tanıma və fərqləndirmə funksiyasına malik olan əsas vurğu. Məs.: Azərb. d. /ayaqqa´bı/, /əlüzyu´yan/. Azərb. d. bu vurğu, bir qayda olaraq, son hecanın üzərinə düşür.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

ГЛАВНЫЙ (ПОДЧИНЯЮЩИЙ) - alm. Haupt-, ing. main /'meɪn/, principal /'prɪnsəpəl/, fr. principal, azərb. baş, əsas (tabe edən) – 1) Sintaktik cəhətdən asılı olmayan, başqa sintaktik vahidləri özünə tabe edən baş cümlə. Məs.: /O dedi ki,//; 2) Söz birləşməsinin baş sözü, söz birləşməsinin tərkibindəki digər sözləri özünə tabe edən. Məs.: alm. d. /der junge Knabe/ (gənc oğlan); 3) Təktərkibli cümlənin baş üzvü, subyektlə predikatın birləşməsindən yaranan cümlə. Məs.: Azərb. d. /Vəzifəsini ləyaqətlə yerinə yetirən xanım…//; 4) İng. və alm. d. isə iki və daha artıq komponentdən ibarət mürəkkəb sözlərdə əsas vurğu birinci komponentin üzərinə düşür. Məs.: ing. d. /´blackboard/ (lövhə); alm. d. /´Haus‚tür/ (ev qapısı), /'Kopf‚tuch/ (baş dəsmalı) və s.
H.Bußmann. Göstərilən əsər, s.302; D.Jones. Göstərilən əsər, s.143-145; F.Veysalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s.194-205.

ГЛАВНОЕ ПРЕДЛОЖЕ́НИЕ (НЕЗАВИСИМОЕ ПРЕДЛОЖЕНИЕ) - alm. Hauptsatz (m), ing. main (principal) clause /'meɪn /'prɪnsəpəl/ klɔ:z/, fr. proposition principale, azərb. baş cümlə. - Tabeli mürəkkəb cümlədə strukturca müstəqil (asılı olmayan) cümlə. Məs.: Azərb. d. /Bakı xəbər verir ki, …//. Asılı cümlələr bu cümləyə daxil olmaqla baş cümlədən fərqlənir. Alman dilində nəqli cümlələrdə xəbərin təsrif olunan hissəsi baş cümlədə ikinci yerdə, ümumi sual və əmr cümlələrində isə birinci yerdə gəlir. Məs.: /Er sagte, dass…// (O dedi ki,…), /¿Hat er gesadt, dass…?// (O dedi ki?…).
H.Bußmann. Göstərilən əsər, s. 302.

ГЛАВНЫЕ ЧЛЕНЫ ПРЕДЛОЖЕНИЯ - alm. Hauptsatzglieder (Pl.), ing. the principal parts of the sentence /1ə 'prɪnsəpəl pɑ:ts əv ðə sentəns/, the principal member of a sentence /ðə 'prɪnsəpəl 'membə əv ðə sentəns/, major constituent of speech, fr. les termes principaux (essentiels) de la proposition, azərb. cümlənin baş üzvləri. - Predikativ əlaqə əsasında birləşən mübtəda və xəbər. Məs.: Azərb. d. /Qız oxuyur//. Adi danışıqda nəqli cümlələrdə mübtəda əvvəl, xəbər isə sonra gəlir. Digər tərəfdən baş

downloaded from KitabYurdu.org

üzvlər bir sözdən və ya söz birləşməsindən ibarət olur. Məs.: Azərb. d. /Bakı xəbər verir//, /Narahat Bakı xəbər verir//. Baş cümlənin üzvləri ayrı-ayrı sözlə və ya əvəzliklə əvəz edilə bilər. Məs.:
Azərb. d. /İki gündən bəri susmaq bilməyən Bakı birdən-birə susmağa üstünlük verməyə başladı//.

↓ (Şəhər) ↓ (susdu)

Aktual üzvlənmədə formal şəkildə xəbər qabağa keçib, mübtəda, yəni tema rolunu oynaya bilər. Müq. et: /Danışır Bakı//, ancaq /Bakı danışır/ və s.
K.Abdullayev. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı, 1998.

ГЛАГОЛ - alm. Verb (n), ing. verb /vɜ:b/, fr. verbe, azərb. fel. – Əsas nitq hissələri arasında hal, hərəkət bildirən sözlər. Felin göstəricisi Azərb. d. /-maq, -mək/; alm. d. /en/; rus d. /-ть, -ти/; ing. d. /to/ olur. Məs.: /oxumaq/ (lesen, to read, читать), /oturmaq/ (sitzen, to sit, сидеть), /gəlmək/ (kommen, to come, приходить), /getmək/ (gehen, to go, идти) və s. Fellərin əsas əlamətləri təsrif olunmaq (mübtəda ilə uzlaşmaq), cinsə görə (rus dilində keçmiş zamanda), tərzə görə fərqlənmək (rus dilində bitmiş / bitməmiş), zaman və şəkil kateqoriyalarına (xəbər, əmr, arzu) malik olmaqdır. Müq. et:

Uzlaşma:

Kəmiyyətə görə /Er schreibt// (O yazır), /Sie schreiben// (Onlar yazırlar).

Şəxsə görə /Ich schreibe// (Mən yazıram), /Wir schreiben// (Biz yazırıq).

Cinsə görə uzlaşma /Она читала//, /Он читал//, /Оно видело//.

Tərzə görə /Он читал//, /Он прочитал//.

Zamana görə /He writes// (O yazır), /He wrote// (O yazdı), /He will write// (O yazacaq).

Şəklə görə /Yazıram// (xəbər), /Yaz// (əmr), /Yazarsa// (arzu, şərt) və s.

Fellər müxtəlif baxımdan qruplaşdırıla bilərlər:

icraçıya münasibətdə: məlum /məchul (yazmaq, yazılmaq)

şəxsli/şəxssiz: Ich friere (donuram), Es friert + sich / (donur)

obyektə münasibətdə: keçər/keçməz (yazmaq, yazdırmaq)

qayıdış, müştərək: sich kämmen (daranmaq, daramaq). /Alle Türen öffnen sich// (Bütün qapılar açılır), sich versöhnen (barışmaq)

bitmiş/bitməmiş (резать-нарезать)

funksiyasına görə: tam/köməkçi (to read/to have, to be)

downloaded from KitabYurdu.org

valentliyinə görə: sıfırvalentli (alman və ingilis dillərində: /es blitzt// (İldırım çaxır), /it rains// (yağır), təkvalentli /schlafen/ (yatmaq), ikivalentli /wohnen/ (yaşamaq), üçvalentli /geben/ (vermək)
təsriflənmə xüsusiyyətinə görə: güclü/zəif: /nehmen/, /take/ (götürmək)
irregulary/regylary: /fragen/ask/ (soruşmaq), gehen (getmək)
7) semantik cəhətdən: hərəkət felləri /lesen/ (oxumaq), proses /schwimmen/ (üzmək), vəziyyət /schlafen/ (yatmaq), /passieren/, /geschehen/ (baş vermək), təbiət hadisələrini bildirən fellər /regnen/ (yağmaq) və s.
H.Birinkmann. Die deutsche Sprache. Gestalt und Leistung. Düsseldorf, 1962.

ГЛАГОЛИЦА - alm. Glagoliza (f), ing. Glagolitic alphabet /gl5g6:'lıtık 5lfəbıt/, fr. alphabet, glagolitique, azərb. qlaqolitsa. - İlk iki slavyan (biri kiril əlifbası) əlifbasından biri. Hərflərinin şəkilcə mürəkkəbliyi və təmtəraqlığı ilə kirildən fərqlənir. Slavyan dillərinə xas olan «qlaqol» (söz) sözündəndir. İlk olaraq Xorvatiyada qəbul edilib. İlk slavyan abidələri məhz bu əlifbada olmuşdur.

QLAQOLİTSA ƏLİFBASI

А.А.Реформатский. Göstərilən əsər, s. 360-364.

ГЛАГОЛЬНЫЙ (ВЕРБАЛЬНЫЙ) - alm. verbal, ing. verbal /vз:bl/, fr. verbal, azərb. sözlü, sözlə ünsiyyətə girmək. - Məs.: alm. d. /Er singt// (o oxuyur); ing. d. /He works// (o işləyir), rus d. /он работает//; Azərb. d. /Akif oxuyur//.
H.Bußmann. Göstərilən əsər, s. 830.
ГЛАЙД (ПЕРЕХОДНЫЙ ЗВУК) - alm. Gleitlaut (m), ing. glide /glaıd/, transitive sound /'tr5nsıtıv saund/, fr. son transitif, azərb. qlayd,

downloaded from KitabYurdu.org

keçid səs. – Danışıq aktında bir səsdən digərinə keçiddə yaranan ötəri səs. Sonrakı səsə keçiddə yaranarsa ona «on-glidə», qabaqda gəlmə keçiddə olarsa buna «off-glidə» deyirlər. Məs.: ing. d. /will/ və /you/ sözlərində yarımsaitlər /w/ və /j/ buna misal ola bilər. Alman dilində isə bu rolda adətən /f/ çıxış edir. /Ankunft/ (gəlib, çatma), /Zukunft/ (gələcək), /Vernunft/ (zəka), /Zunft/ (həzz) sözlərindəki /f/ etimoloji cəhətdən /kommen/, /vernehmen/ və /ziemen/ sözlərində yoxdur. Ancaq bu fellərdən isim düzəldəndə /f/ keçid səsi əmələ gəlir.
P.H.Matthews. Göstərilən əsər, s. 147; R.Conrad. Göstərilən əsər, s. 95.
ГЛАСНАЯ ОСНОВА - alm. Vokalstamm (m), oder Vokalbasis (f), Vokalgrundlage (f), ing. vocalic stem /voukəlık stem/, fr. base vocalique, azərb. sait əsas. - Saitlə sonuclanan əsas. Məs.: Rus d. /страна/, Azərb. d. /tamaşa, toparlama/ və s.
А.А.Реформатский. Göstərilən əsər, s. 165.
ГЛАСНЫЙ - alm. Vokal (m), ing. vowel /vauəl/, fr. voyelle, azərb. sait. – Alman dilçiliyində buna bəzən «Selbstlaut», Azərbaycan dilçiliyində isə «səsli» deyirlər. Fonetik baxımdan bunlara səs tellərinin mütəmadi titrəməsi və xirtdəküstü boşluqda (ağız, burun, udlaq boşluqları) mərkəzləşmə yaratmayan səslər deyirlər. Saitlər dilin üfüqi, şaquli və dodaqların iştirakına görə təsnif olunurlar. Bundan başqa saitlər alman və ingilis dillərində uzun və qısalığına görə fərqlənirlər. Fransız dilində isə ağız və burun saitləri qarşılaşma yaradırlar. Dilçilikdə saitləri həndəsi üçbucaq və dördbucaq şəklində təsvir edirlər. Artikulyator baxımdan saitlər hava axını bayıra çıxarkan, yəni nəfəsvermədə xirtdəküstü boşluqda heç bir mərkəzləşmə olmadan yaranan tam sədalı səslərdir. Nəfəsin içəri çəkilməsilə yaranan saitlər ancaq paralinqvistik funksiya daşıyan səslər ola bilər. Saitlər ağız (məs.: Azərb., alm., ing., rus dillərində), ya da burunda olmaqla (məs.: fr. d. «chat» /ʃa/ (kater) və «champ» /ʃã/ (sahə), «mais» /mɛ/ və /m***** / (əl)). Dilin üfügi hərəkətinə görə saitlər ön sıra (alm. d. /i:, ɪ, e:, ɛ, y:, ʏ, ø:, oe/), orta sıra (alm. d. [ə]) və arxa sıraya (alm. d. /u:, ʊ, o:, ɔ, a:, a/) aid ola bilirlər. Dilin şaquli istigamətdə hərəkətinə görə saitlər yuxarı (məs.: alm. d. /i:, ɪ, y:, ʏ, u:, ʊ/), orta (alm. d. /e:, ɛ, ø:, oe/) və aşağı (alm. d. /a:, a/) yüksəlişli olurlar. Dodaqların iştirakına görə dildə dodaq (alm. d. /y:, ʏ, ø:, oe, u:, ʊ, o:, ɔ/) və qeyri-dodaq (alm. d. /i:, ɪ, e:, ɛ, a:, a/) olurlar.

downloaded from KitabYurdu.org



Şəkil 15. Saitlərin həndəsi fiqurlarla verilməsi

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993; F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 324.

ГЛОССА - alm. Glosse (f), ing. gloss /ˈɡlɔs/, fr. glose, azərb. qlossa. - Əlyazmaların mətnində və ya haşiyədə aydın olmayan, qəliz sözlərin şərhi, tərcüməsi. Əvvəllər qlossa sözünü naməlum söz və ya ifadələr adlandırırdılar. İlk dəfə qlossadan yunanlar Homerin poeziyasını öyrənərkən, sonralar isə «İncil»-ın bəzi hissələrini şərh edərkən istifadə etmişlər. Mətndə sətirlərin altında və üstündə olan tərcümələri interlingnal glossa, haşıyələrdəki söz tərcümələrini marqinal, bilavasitə mətndə edilən tərcümələri isə konkret qlossa adlandırırdılar.
R.Conrad. Göstərilən əsər, s. 96.

ГЛОССАРИЙ - alm. Glossar (n), ing. glossary /ˈɡlɔsərı/, fr. glossaire, azərb. qlossari. – Lüğətlərdə əlifba ilə və ya məna sahələri üzrə sözlərin düzülüşü. Adətən onlara şərhlər və tərcümələr əlavə edilirdi.
R.Conrad. Göstərilən əsər, s. 96.

ГЛОССЕМ – alm. Glossem (n), ing. glossem /ɡl6sem/, fr. glosséme, azərb. qlossem. – Leo Blumfildin təlimində məna daşıyan ən kiçik dil vahidi. Bu morfem → və taqmem → üçün ana məfhumdur. Glossemə aid edilən məna noem adlanır.
R.Conrad. Göstərilən əsər, s. 96.

ГЛОССЕМАТИКА - alm. Glossematik (f), ing. glossematics /ˈɡl6səˈmatıks/, fr. glossématique, azərb. qlossematika. – XX əsrin görkəmli dilçiləri L.Yelmslev (1899-1965) və H.İ.Uldall (1907-1957) tərəfindən yaradılıb, elm tarixinə Qlossematika və ya Kopenhagen dilçilik məktəbi kimi daxil olub. «F. de Sössürün dil təliminə söykənən L.Yelmslev və H.Y.Uldal PDM-nin bir qolu kimi fəaliyyətə başlamaq məqsədilə 1935-ci ildə Londonda II Beynəlxalq Fonetika Elmləri Konqresində «Fonematik» adı altında proqram məruzə ilə çıxış etdilər. Tezliklə öz nəzəriyyələrinin orijinallığını nəzərə çarpdırmaq üçün H.Y.Ulda-

downloaded from KitabYurdu.org

lın təklifi ilə dərnəyin adını dəyişib «qlossematika» (γκξοςςα – yunanca «dil» deməkdir) qoydular. Riyaziyyatçı professorunun oğlu olmaqla L.Yelmslev müqayisəli dilçiliyi öyrənir, Parisdə A.Meye (1866-1936) və J.Vandriyeslə (1875-1960) tanış olur. Dilçilərin II Beynəlxalq Haaqa konqresində (1928) iştirak edir və elə bu ildə də özünün «Principes de Qrammaire generale» kitabını çap etdirir. Onun ikinci kitabı hal kateqoriyasına həsr olunub. 1939-cu ildən «Acta Linquistica» adlı jurnal çap etdirməyə başlayır. 1943-cü ildə demək olar ki, qlossematika nəzəriyyəsi işlənib hazırlanır. Onun əvvəlcə Danimarka dilində «Omkring sproqteoriens grundlaeggelse», 1953-cü ildə müəllifin öz tərcüməsində «Prologomena to Theory of Language» adı ilə ingiliscə çap olundu və geniş yayılmağa başladı. H.Y.Uldall Kopenhagendə O.Yespersenin (1860-1943) yanında anqlistikanı öyrənir, 1927-ci ildən isə D.Counzun yanında fonetikaya dair tədqiqatlar aparır, O.Yespersenin təqdimatı ilə H.Y.Uldall Amerikaya F.Boasın (1858-1942) yanına gedir. Sonra Danimarkaya qayıdıb 1933-dən 1939-cu ilədək L.Yelmslevlə qlossematikanın formalaşmasında yaxından iştirak edir. Onlar «An Outline of Glossematics» adlı əsər yazmağı planlaşdırırlar, amma bu layihəni həyata keçirə bilmirlər. L.Yelmslevin dünyagörüşünün formalaşmasında birinci növbədə F. de Sössür xüsusi rol oynamışdır (bununla bağlı o yazırdı ki, struktur dil nəzəriyyəsinə dair onun fikirləri F. de Sössürü oxumamışdan xeyli əvvəl formalaşmışıdı. Ş.Balli (1865-1947) məktubunda yazırdı ki, L.Yelmslev yeganə alimdir ki, F. de Sössürü düzgün başa düşüb. O, F. de Sössürün «dil işarələr sistemidir», «əlaqələr sisteminin əhəmiyyəti» fikrini və forma ilə substansiyaya dair mülahizələrini axıra çatdırıb. F. de Sössürdən yayınmaları onun N.Bora və «Vyana dərnəyi» nə yaxınlığı ilə izah oluna bilər. Borun dəstəsi elmi dərk etmənin və onu metodoloji əsas kimi götürməyin əleyhinə idi. Vyana tədqiqatçıları dilin təhlilində XIX əsr pozitivizmi və XX əsr fizikalizmi əvəzinə neopozitivizmi irəli sürürdülər. Onlar fəlsəfəni dilin fəlsəfi problemlərilə məşğul olmağa çağırırdı. XX əsrin 30-cu illərində bu məktəb riyazi məntiqə və elmi – metodoloji problemlərin işlənib hazırlanmasına daha çox fikir verirdi. Vyana dərnəyi dilin işarəvi xarakterinə, elementar işarələrdən ifadələrin düzəlməsi üçün konstruktiv qaydalara, dil cümlələri arasındakı əlaqələrin öyrənilməsinə xüsusi fikir verirdi. Bunlar L.Yelmslevə öz linqvistik nəzəriyyəsini işləyib hazırlamaqda çox köməklik göstərirdi. L.Yelmslev onlardan riyazi düzəltmələr, formal ziddiyyətlik və nəzəriyyəsinın tətbiqdən asılı olmamasını, həmçinin maddi varlıqlı vahidlər arasındakı əlaqələrə etinasızlığı əxz etmişdi. L.Yelmslev yazırdı ki, Vyana məntiqçilərindən R.Karneginin (1891-1970) sintaksis və semantikaya dair yeni əsərləri dilin linqvistik tədqiqinə inkaredilməz təsirini göstərmişdir.

F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 276-278.

downloaded from KitabYurdu.org

ГЛОССОЛАЛИЯ - alm. Glossolalie (f), ing. glossolalia /ˈɡlɒsəˈleɪlɪə/, fr. glossolalie, azərb. qlossolaliya. - Xüsusi nitq pozğunluğu, xəstələrin xüsusi dil vasitəsilə ünsiyyətə girə bilmələrindən ibarətdir.
O.C.Ахманова. Göstərilən əsər, s. 108.

ГЛОССОЛОГИЯ – alm. Glossologie (f), ing. glossology /ɡlɒˈsɔlədʒɪ/, fr. glossologie, azərb. qlossologiya. - Dil haqqında elm, dilçiliyin sinonimi.
O.C.Ахманова. Göstərilən əsər, s.108.

ГЛОТТАЛИЗОВАННЫЙ - alm. glottalisiert, ing. glottalic /ˈɡlɔt(ə)lɪk/, glottalized /ˈɡlɒt(ə)laɪzd/, fr. glottalisé, azərb. qlottallaşmış. - Tələffüzü zamanı kipləşmiş səs telləri açılarkən boğazda partlayış yaranmaqla tələffüz olunan samit. Məs.: gürcü d. /pˇ/, /tˇ/, /kˇ/.
O.C.Ахманова. Göstərilən əsər, s. 108.

ГЛОТТАЛЬНЫЙ (ГОРТАННЫЙ) - alm. glottal, ing. glottal /ˈɡlɔt(ə)l/, fr. glottal, azərb. xirtdək samiti. - Xirtdəkdə partlayışla əmələ gələn samit. Buna alman dilindəki knaklaut → larinqal səslər də uyğun gəlir. Bəzən larinqal səsləri farinqal səslərdən fərqləndirmək çətin olur. Məs.: ləzgi d. /kᶜ/ # /tᶜ / və s.
R.Conrad. Göstərilən əsər, s. 150.

ГЛОТТАЛЬНЫЕ ВИБРАЦИИ - alm. glottale Vibrationen (Pl.), ing. glottal vibration /ˈɡlɔt(ə)l vʌɪˈbreɪʃ(ə)n/, fr. vibration glottale, azərb. xirtdəkdə səs tellərinin titrəmələri. - Səsin xirtdəkdə titrəməsi. Titrəmənin başlanğıcında və ya sonunda partlayışla başlayıb qurtarmasından asılı olaraq ümumi fonetika kar /h/ samitini cinqiltili /ɦ/, şaqqıltılı /h̲/, mırıltılı /ḥ / və partlayışlı /ʔh/ samitləri fərqləndirilir. Danimarka dilində /stöd/ də bura aiddir. Müq. et: Danimarka d. /fɛmʔ/ (beş), /ven?deʁ/ (qış).
E.M.Krech. Sprachwissenschaftlich-phonetische Untersuchungen zum Gebrauch des Glottisschlageinsatzes in der allgemeinen deutschen Hochlautung. Basel, 1968.

ГЛОТТИС – alm. Glottis (f), Stimmritze (f), ing. glottis /ˈɡlɒtɪs/, fr. glotte, azərb. qlottis. – Canlılarda xirtdəkdəki səs telləri arasındakı cığır. Səs tellərinin vəziyyəti səslənməni və fonasiyanı müəyyən edir.
Bax: Голосовые связки →.

ГЛОТТОГОНИЯ - alm. Glottogonie (f), ing. glottogony /ˈɡlɒtəˈʊˈɡɒnɪ/, fr. glottogonie, azərb. qlottoqoniya. – Dilin 4 ünsürdən (hava, su, od, torpaq) əmələ gəlməsinə dair nəzəriyyə; 2) Dilin yaranmasını və inkişafını öyrənən elm şöbəsi.
O.C.Ахманова. Göstərilən əsər.

ГЛОТТОХРОНОЛОГИЯ - alm. Glottochronologie (f), ing. glottochronology /ˈɡlɒtəkrəˈnɒlədʒɪ/, fr. glottochronologie, azərb.

downloaded from KitabYurdu.org

qlottoxronologiya. – 1) Tarixi leksikologiyanın bir şöbəsi olub, dildə baş verən dəyişiklərin tempini statistik metodla öyrənir. Bundan da məqsəd ayrı-ayrı leksik sistemlərin meydana gəlməsinin qədimlik dərəcəsini statistik yolla müəyyənləşdirməkdir. Bu yolla sözlərin yaşam tarixini müəyyənləşdirmək olur. Əsası amerikan dilçiləri tərəfindən qoyulmuş bu tədqiqat metodu ciddi mübahisələrə səbəb oldu. Məs.: sübut olunmuşdur ki, əvvəlki ulu dildən ayrılan hər hansı bir dil əvvəlki dilin əsas söz ehtiyatının 81%-ni saxlayır, növbəti min ildən sonrakı ayrılma zamanı da bu nisbət saxlanılır, yəni 81%-in 81%-i saxlanılır.
H. Bußmann. Göstərilən əsər, s. 233.

ГЛУБОКОЗАДНЕЯЗЫЧНЫЙ (ГЛУБОКИЙ) - alm. tiefer Hinterzungenlaut (m), ing. deep-back velar nasal /di:p ˈb5k ˈvi:lə neɪzl/, fr. profond-postlingual, azərb. dilarxası samit. - Dilin kötüyünə yaxın yerdə yaranan dilarxası samitlər. Məs.: alm. d. /x/ /ˈbax/ (arx), /ˈlaxən/ (gülmək).
Л.Р.Зиндер. Общая фонетика. М., 1979.

ГЛУХОЙ (БЕЗГОЛОС(Н)ЫЙ) - alm. stimmlos, ing. voiceless /vɔɪslɪs/, surd /sɜ:d/, breathed /breθt/, fr. sourd, sans voix, azərb. kar. - Yalnız küydən ibarət olan samitlər. Buraya /p/, /f/, /t/, /s/, /ş/, /k/, /ç/, /x/, /h/ samitləri aiddir. Həmin samitlərin tələffüzündə səs telləri iştirak etmir. Ona görə də bu səslər hava axını xirtdəkdə səs telləri sükunət vəziyyətdə olduqda ağız boşluğuna, orada yaranmış tam və ya yarımçıq maneənin aradan qalxması ilə yaranır. Bu samitlər həm də güclü samitlər hesab edilir. Məs.: Azərb. d. /p/, /t/, /k/ və s. güclü (fortis) samitlər adlanırlar.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 98-117.

ГЛУХОЙ СОГЛАСНЫЙ - alm. stimmloser Konsonant (m), ing. breathed consonant /breθt ˈkɔnsənənt/, fr. consonne sourde, azərb. kar samit. - Akustik baxımdan yalnız küydən ibarət olan səs.
Bax: Глухой ←.

ГЛУХОСТЬ - alm. Stimmlosigkeit (f), ing. voicelessness /ˈvɔɪslɪsnes/, fr. surdité, azərb. karlıq. – Fonasiyada səs tellərinin iştirakı olmadan yaranan küy. Məs.: ing. d. /fiʃə/, (Fisher) – (balıqçı) sözündə /f/ və /ʃ/ küylü kar samitlərdir.
P.H. Matthews. Göstərilən əsər, s. 398.

ГНЕЗДО - alm. Wortnest (n), Wortfamilie (f), ing. family of words /ˈf5mılı əv wɜ:dz /, semantic field (nest) /sɪˈm5ntıks fi:ld /nest/, fr. famille de mot, azərb. söz yuvası. - Eyni kökdən törəmiş və ya müasir morfoloji, yaxud semantik bağlarla bir-birinə yaxın olan sözlər qrupu. Məs.: Azərb. d. /bağ, bağça, bağban, bağat/; alm. d. /verstehen, missverstehen, Verständnis/ (başa düşmək, səhv başa düşmək, anlam) və s. Bu cür yanaşma məzmun qrammatikasında → söz sahəsi və ya söz ailəsi

downloaded from KitabYurdu.org

nəzəriyyəsinin yaranmasına gətirib çıxardı. Burada əsas fikir söz ehtiyatının bir-birindən ayrıla bilən söz və ya məna sahələrinə parçalana bilməsidir. Bu sahələr sözlərin işlənməsi baxımından fərqli olur. Məs.: Azərb. d. /İt hürür//, bunu /At hürür// kimi işlətmək olmaz.
R.Conrad. Göstərilən əsər, s. 81, 299.

ГНЕЗДОВОЙ – Bax: Гнездо ←.

ГНЕЗДОВЫЙ МЕТОД - alm. Wortnestmethode (f), ing. family of words method /ˈf5mılı əv ðə wɜ:dz ˈmeθəd/, nest method /nest ˈmeθəd/, fr. méthode par familles, azərb. yuva üsulu. - Məs.: Azərb. d. /anlamaq/, /anlaşılmaq/, /anlatmaq/ kimi semantik yuvaların müəyyənləşməsi metodu.
H.Bußmann. Göstərilən əsər, s. 854.

ГНОМИЧЕСКИЙ (АФОРИСТИЧЕСКИЙ, АХРОНИСТИЧЕСКИЙ) - alm. gnomisch, ing. gnomic(al) /ˈnəʊmık(əl)/, fr. gnomique, azərb. hikmətli söz, kəlam. - Həqiqi gerçəkliyin ümumi qaydada „zamandanxaric“ hərəkət, proses və digər təzahürlərin atalar sözlərində, zərbi-məsəllərdə və hikmətli sözlərdə işlədilməsi. Məs.: Azərb. d. /Özgəyə quyu qazan özü düşər// və alm. d. /Schnee ist weiß// (Qar ağdır).
H.Bußmann. Göstərilən əsər, s. 285.

ГНУСАВОСТЬ (ТВАНГ) - alm. näselnde Stimme (f), ing. nasal accent /neızl 5ksənt/, twang /twaŋ/, fr. nasillement, azərb. tın-tınlıq, burunda danışma. - Tələffüzü zamanı yumşaq damaq aşağı enmiş vəziyyətdə olur və hava axınının bir hissəsi burun boşluğunda rezonans əmələ gətirən səslər. Məs.: Azərb. d. /de˜yə˜sə˜n gə^lir//. Bir sıra dillərdə bu fərdi xarakter daşıyır.
O.C.Ахманова. Göstərilən əsər, s. 110.

ГОВОР (ДИАЛЕКТ) - alm. Dialekt (m), Mundart (f), ing. dialect /daıəlekt/, patois /ˈp5twɑ:/, fr. patois, parler, (dialecte), azərb. ləhcə. – Ədəbi dilin müəyyən ərazi daxilində bir qrup adam tərəfindən işlənməsi. Bu özünü həm fonetik, həm leksik, həm də qrammatik cəhətdən birüzə verir. Məs.: Azərbaycanın Qax ləhcəsində /paltar/ və /şalvar/ əvəzinə /partal/, /şarval/, /gəlirsən/ əvəzinə /gəliysən/ və s. işlənməsi. Bu ləhcədə /Kişi dünən şəhərə getmişdi// cümləsində kişinin kim olduğunu müəyyənləşdirmək məqsədilə verilən sual ¿Hansı kişi? əvəzinə ¿Kim kişi? şəklində olur. /Hürünün əri/ ifadəsi /Hürünün kişisi/ kimi işlənir və s.
Ф.Вейсалов (Вейсалли). Об акустическом различии в фонетике и фонологии. «Уч. записки» АПИЯ им. М.Ф.Ахундова. 1975, № 2.

ГОДОБЕРИНСКИЙ ЯЗЫК – alm. Godoberisch (n), ing. Godoberin language /ɡ6d6:berin ˈl5ŋɡw9ʤ/, fr. langue godoberine, azerb. qodoberin dili. – Avar-adiy dillərinin adiy dil yarımqrupuna daxil olan dildir. Dağıstanın Botlix rayonunun Qodoberi və Zabirhali kəndlərində yayılmışdır. Təqribən 3 minə qədər insan bu dildən istifadə edir. Yazısız dildir.

downloaded from KitabYurdu.org

Т.Е.Гудава. Годоберинский язык. Языки народов СССР, т. 4, М., 1967; П.А.Саидова. Годоберинский язык. Махачкала, 1973.

ГОЛОС (ГОЛОСОВОЙ ТОН) - alm. Stimme (f), ing. voice /'vɔɪs/, fr. voix, azərb. səda (səs). – Nəfəsalma zamanı hava axınının təzyiqi nəticəsində bir-birinə yaxın gərgin səs tellərinin xirtdəkdə titrəməsindən yaranan səs. Səs tellərinin periodik titrəməsindən alınan səslər musiqili səslərdir və ya tonlardır. Titrəmələrsiz yaranan səslər isə küylü səslərdir. Dildə saitlər birincilərə, kar samitlər isə ikincilərə aiddir. Üçüncü qrup səslər periodik və qeyri-periodik titrəməsindən və küyün qarışığından əmələ gəlir, buraya sonantlar aiddir. Və nəhayət, qeyri-periodik titrəmələrdən əmələ gələn səs müxtəlif maneələri dəf edərək formalaşır, bunlara cingiltili səslər deyilir.
musiqili səs / /; küylü səs. Məs.: ing. d. /balt/ sözündə /a/ periodik, /l/ periodik və qeyri-periodik, /b/ qeyri-periodik titrəmələrlə, /t/ – isə titrəməsiz yaranan səslərdir.
Bax: İngilis dilindəki /balt/ sözünün ossiloqramı.



b a l t

[z]

[j]

downloaded from KitabYurdu.org



Dil səsləri: a) saitlər;
b) sonor və cingiltili samitlər; v) novlular; q) karlar.

F.Vejsälli. Einführung in die Phonologie. Bakı, 200 , s. 38-39.

ГОЛОСОВОЙ - alm. stimm-haff, ing. voiced /'vɔıst/, fr. voisé, azərb. səsli.
Bax: Голос ←.

ГОМООРГАННЫЕ ЗВУКИ - alm. homorgane Laute (Pl.), ing. homorganic sounds /'h6m6:'ɡ5nık saunds/, fr. sons homorganes, azərb. homoorgan, eyni cinsli səslər. - Eyni bir tələffüz üzvünün fəal iştirakı ilə yaranan səslər. Məs.: /s/, /z/ dilönü, /j/, /ħ/ dilortası, /x/, /g/ dilarxası samitləri kimi homoorqan samitlərdir.
N.S.Trubeskoy. Fonologiyanın əsasları. Bakı, 2001.

ГОРТАННЫЙ - alm. Kehlkopflaut (m), guttural, ing. guttural /'ɡ∧t(ə)r(ə)l/, fr. guttural, azərb. xirtdək səsi. - Səs cığırında səs tellərinin kipləşərək qəfildən açılması nəticəsində yaranan səs. Gürcü və ləzgi dillərində belə səslər məlumdur. Məs.: gürcü dilindəki /pᶜ/, /tᶜ/ və s. səsləri.
Bax: Глоттальный ←.

ГОСПОДСТВУЮЩИЙ - alm. herrschend, vorherrschend, ing. subordinating /sə'bɔ:dnıtıŋ/, independent /ˌındı'pendənt/, governing /'ɡ∧vənıŋ/, dominating /'dɔmıneıtıŋ/, fr. dominant, prépondérant, azərb. əsas tabe edən. - Sintaktik cəhətdən müstəqil olan və sintaktik bütövün digər üzvlərini özünə tabe etdirən. Məs.: Azərb. d. /yaxşı oğlan/ söz birləşməsində /oğlan/ tabe edən, /yaxşı/ isə tabe olan sözdür.
Y.Seyidov. Azərbaycan dilində söz birləşmələri. Bakı, 1992.

ГОТИЧЕСКОЕ ПИСЬМО - alm. gotische Schrift (f), ing. Gothic writing /'ɡ649k raıtıŋ/ black-letter writing /blæk letə raıtıŋ/, fr. écriture gothique, azərb. qot yazısı. - Latın yazısındakı hərflərin formaca çıxıntılar (tin-tin) şəklində və onların şaquli xətt üzrə uzadılması ilə səciyyələnən yazı növü. Eramızın IV əsrinin ikinci yarısında yepiskop Vulfil «İncili» qot dilinə tərcümə edərək bu əlifbada çap etdirib. Qot yazısı 25 işarədən ibarətdir. XII-XV əsrə qədər hökmranlıq edən latın yazı növü olub. Almanlar bu yazı növündən uzun müddət istifadə ediblər. Qənaətcil yazı formasıdır, Almaniyada XX əsrin əvvəllərinə qədər bu yazıda kitablar çap olunurdu.

downloaded from KitabYurdu.org



Лингвистический энцклопедический словарь. М., 1990, s. 165.

ГОТСКОЕ ПИСЬМО – Bax: Готическое письмо ←.

ГОТТЕНТОТСКИЕ ЯЗЫКИ – alm. Hottentotisch (n), ing. Hottentot languages /ˈh6tnt6t ˈl5ŋgwʤɪz/, fr. langues hottentotes, azerb. qotten dilləri. - Koysan dil ailəsinə daxil olan dillərdən biri. CAR, Botsvana, Namibiya və Tanzaniyada yayılmışdır. Bu dillərdə danışanların ümumi sayı 200 minə qədərdəir. Aşağıdakı qrupları özündə birləşdirir: 1) kxoy (nama, kora, qrikva); 2) nxauru (naron); 3) kve, çumakve-şuakve; 4) çu (xioçu-vau, xaiçu-vau); 5) sandave (sandavi).

T.Hahn. Die Sprache der Nama. Leipzig, 1870.

ГРАВИС (ТЯЖЕЛОЕ УДАРЕНИЕ, ТУПОЕ УДАРЕНИЕ, ТЯЖЕЛЫЙ ТОН) - alm. Gravis (m), Tiefton (m), ing. grave accent /ɡreɪv ˈ5ksənt/, low pitch /lou pɪʧ/, fr. accent grave, azərb. qravis (ağır vurğu, ağır ton). – 1) İkinci formantın hündürlüyü ilə müəyyənləşdirilən və yüksək tonu aşağı tona qarşı qoyulan səs; 2) Frazanın sonunda yerləşməyən yüksək tonlu (akut) hecalarda vurğu; 3) Bir neçə dildə vurğu işarəsi: fransız dilində „açıq è /ɛ/“ üzərində və qapalı é-dən /e/ fərqlənir. Məs.: fr.d. sévèr, père; italyan d. vurğulu axırıncı və hecanın axırdan üçüncü elementi üzərində qoyulur. - università, matemàtica və s.

H.Bußmann. Göstərilən əsər, s. 295.

ГРАММАТИКА - alm. Grammatik (f), ing. grammar /ˈɡr5mə/, fr. grammaire, azərb. qrammatika. - Yunanca «qrammaticē» – «qramma» yazı sözündəndir. Orta əsrlərdə qrammatika dil və ritorika da daxil olmaqla üslubiyyatı əhatə edirdi. „Qrammatika danışanın və dinləyənin arasındakı fikir mübadiləsinin hansı qaydalar əsasında qurulduğunu və ya düzüldüyünü öyrənən elm sahəsidir… qrammatika mətnin yaranması qaydalarını və ya prinsiplərini öyrənən elmdir… Əksər dilçilər qrammatika deyəndə onu morfemlərin sözlər və sözlərin cümlələr əmələ gətirmək qaydalarını öyrənən elm kimi başa düşürlər“. F.Yadigar (Veysəlli). GDG, s.271. Beləliklə, bu gün qrammatika deyəndə nə başa düşülür? 1) Təbii dilin morfoloji və sintaktik qanunauyğunluqları haqqında bilgi və ya təlim. Bu yanaşmada fonetika, fonologiya və semantika qrammatika-

downloaded from KitabYurdu.org

dan kənarda qalır; 2) Struktur qaydalar sistemi kimi bütün dildə danışılan və anlam prosesinin əsasını təşkil edir; 3) Dil səriştəsinin modelinin yaranması üçün dil nəzəriyyəsi (formal-transformasiya qanunları işləyib hazırlayır); 4) Dilin formal qaydalarının struktur təsvirini, təbii dilin funksional qrammatikasını yaradır.

Qrammatikanın tipologiyasını müəyyənləşdirmək üçün bu məsələlər vacibdir: səriştə qrammatikası, yəni dil bilgisinin modelini yaradır, bu da hər hansı bir dildə müşahidə olunan faktların ətraflı təsvirinə – korpus qrammatikasına qarşı qoyulur. Nəzəri istiqamətinə görə, bir dilin qrammatik təsvir zəminini hazırlayır ki, ona əsaslanaraq konkret bir dilin qrammatikasını şərh etmək olsun. Metodik prinsipə görə, deskriptiv, yəni sinxronik faktları təsvir etməklə normativ qrammatikaya qarşı qoyulur. Normativ qrammatika dildən düzgün istifadə qaydalarını şərh edir. Dili əhatə baxımından ümumi, asılılıq, funksional, mənanı əsas götürən generativ – transformasional və valentlik qrammatikasını fərqləndirirlər. Elmi-nəzəri və pedaqoji qrammatikalar də fərqləndirirlir. Bundan başqa ana dilinə və xarici dilə söykənən qrammatikalar da vardır.

H. Bußmann. Göstərilən əsər, s. 287-288.

ГРАММАТИКА АССОЦИАТИВНАЯ - alm. assoziative Grammatik (f), ing. associative grammar /ə'souʃɪeɪtɪv 'gr5mə/, fr. grammaire associative, azərb. assosiativ qrammatika. – Psixolinqvistikada (xüsusilə neobiheyviorist psixologiyaya söykənməklə assosiasiya stimulla responslar (qıcıqlanma və reaksiya) arasında əlaqələr kimi başa düşülür və mənanın açılmasında dil testləri üçün tətbiq edilir. Özü də bilavasitə (müəyyən qıcıq yaradan sözlə meydana gələn sözlər sırası) və bilvasitə stimul-respons proseslərdə birbaşa müşahidə olunmayan assosiasiyaları bir-birindən fərqləndirirlər. Assosiativ qrammatika xüsusilə məna ilə məzmun arasındakı əlaqələri sözdüzəltmə və sözdəyişmədə asanlıqla üzə çıxarda bilir. Məs.: alm. d. /fahren/ (miniklə getmək) sözü bir tərəfdən /çefährte/ (yoldaş), /Faht/ (səfər), /Fähre/ (bərə) sözlərilə formal, digər tərəfdən isə /reiten/ (atla getmək), /segeln/ (avar çəkmək), /fliegen/ (uçmaq), /gehen/ (piyada getmək) sözləri ilə məzmunca bağlılıq hər bir dil daşıyıcısı üçün assosiativ əlaqə əsasında tam aydın olur.

H. Bußmann. Göstərilən əsər, s. 105-106.

ГРАММАТИКА ВНЕШНЯЯ - alm. Außengrammatik (f), ing. external grammar /eks'tɜ:nl 'gr5mə/, fr. grammaire extérieure, azərb. xarici qrammatika. – Cümlədə xarici qrammatik göstəriciləri öyrənən qrammatika. Ünsiyyət zamanı jest, mimika (kinezika →) və sözsüz (non verbal), yəni paralinqvistik vasitələrin və ya sosiomədəni faktorların sistemli şəkildə öyrənilməsi. Məs.: Biz yox deyəndə başımızı sağa-sola fırladırıq, farslar isə aşağı-yuxarı hərəkət etdirirlər.

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s.38.

downloaded from KitabYurdu.org

ГРАММАТИКА ВНУТРЕННЯЯ - alm. Innengrammatik (f), ing. internal grammar /ˌɪnˈtəːnl ˈɡr5mə/, fr. grammaire intérieure, azərb. daxili qrammatika. - Sözün ritmik-melodik və morfoloji dəyişiklərini öyrənən qrammatika. Məs.: Dilin müvafiq olaraq məna planının təsvirində fonoloji və semantik fərqləndirici əlamətlərin müəyyənləşdirilməsi.
H. Bußmann. Göstərilən əsər, s. 105-106.

ГРАММАТИКА ВСЕОБЩАЯ - alm. allgemeine Grammatik (f), ing. universal grammar /ˌjunɪˈvɜːsəl ˈɡr5mə/, fr. grammaire générale, azərb. ümumi qrammatika. – Dilin qrammatik quruluşunun xüsusiyyətlərini tək bircə dil baxımından deyil, ümumiyyətlə insan dilləri işığında araşdıran qrammatika. Buna A.Arno (1612-1694) və K.Lanslonun (1616-1695) 1660-cı ildə birgə çap etdirdikləri «Grammaire général et raisonníe de Port-Royal» misal ola bilər. Dilçiliyin elmi tarixinə Por-Royal qrammatikası kimi daxil olan bu kitab rasional qrammatika idi. Bu qramatika dünya dillərinin rəngarəngliyilə yanaşı, onların vəhdətini və özgürlüyünü açıb göstərməyə, təbii dilin bütün cəhətlərini işıqlandırmağa cəhd idi. Bəzi qaynaqlarda «Por-Royal qrammatikası» Karteziyan dilçiliyi kimi işlənir. Universallıq və rasionallıq – bu istiqamətlər insan dilinin anadangəlmə və ümumibəşəri olmasına əsaslanır.
Т.Амирова, Б.А.Ольховиков, Ю.В.Рождественский. Очерки по истории лингвистики. М., 1975, s. 201-235.

ГРАММАТИКА ДЕСКРИПТИВНАЯ (ГРАММАТИКА ОПИСАТЕЛЬНАЯ) - alm. deskriptive (beschreibende) Grammatik (f), ing. descriptive grammar /dɪsˈkrɪptɪv ˈɡr5mə/, fr. grammaire descriptive, azərb. deskriptiv (təsviri) qrammatika. – Dilin qrammatik quruluşunu empirik müşahidələr əsasında, yalnız sinxron (zaman kəsiyində) aspektdə öyrənən qrammatika.
„Deskriptiv dilçilikdə əsas yeri dil vahidlərinin bir-birinə münasibətdə paylanması və ya düzülüşü tutur. Distributiv istiqamətin banisi sayılan Z.Hərris (1909-1992) dil vahidlərini onların paylanması və əhatəsi qaydalarını öyrənməklə müəyyənləşdirir və buna da əsasən nail olur. Dilin fonemləri və morfemləri məna fərqləndirə bilmələrinə görə deyil, mümkün əhatələrin hamısı mənanın iştirakı olmadan nitq zəncirinin parçalanması və bu zaman alınan seqmentlərin distribusiyası ilə dəqiqləşdirilir“.
Z.Hərris dilçinin qarşısında aşağıdakı vəzifələrin durduğunu göstərir:
tədqiqatın ilkin mərhələsində ən kiçik dil vahidləri aşkar edilməli və danışıq axınından ayrılmalıdır;
ayrılmış vahidlər müəyyən fonem və morfem qruplarında ümumiləşdirilməlidir, yəni onların dildə paylanması aşkar edilməlidir;
distributiv təhlil nəticəsində müəyyən edilmiş qrupların hər biri öz çərçivəsində geniş təsvir olunmalıdır.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 30.

downloaded from KitabYurdu.org

ГРАММАТИКА ИСТОРИЧЕСКАЯ - alm. historische Grammatik (f), ing. historic (al) grammar /hɪsˈtɔrɪk(əl) ˈɡr5mə/, fr. grammaire historique, azərb. tarixi qrammatika. - Qrammatik quruluşu tarixi aspektdə götürən, dildəki dəyişikləri tarixin ayrı-ayrı dövrlərini müqayisə edərək araşdıran cərəyan. Tarixi qrammatikanın 2 əsas növü var: 1) tarixi sinxron qrammatika; 2) tarixi diaxron qrammatika. Bunlardan 1-cisi tədqiqat prosesində dili müəyyən zaman kəsiyində öyrənir; 2-ci isə, bunun əksinə olaraq, zaman axınına əsaslanır.



Т.Амирова və b. Göstərilən əsər.

ГРАММАТИКА СОПОСТАВИТЕЛЬНАЯ - alm. konfrontative Grammatik (f), ing. contrastive grammar /ˈkɔntr5stɪv ˈɡr5mə/, fr. grammaire comparative, azərb. müqayisəli qrammatika. – Dillər arasında qohumluq əlaqələrini nəzərə almadan müqayisə (tutuşdurma) yolu ilə onların qrammatik quruluşunu tədqiq edən dilçilik cərəyanı.

В.А.Исаченко. Грамматический строй русского языка в сопоставлении со словацким языком. I и II части. Братислава, 1965.

ГРАММАТИКА СРАВНИТЕЛЬНАЯ – alm. vergleichende Grammatik (f), ing. comparative grammar /kəmˈp5rətɪv ˈɡr5mə/, fr. grammaire comparée, azərb. müqayisəli qrammatika. – Dillər arasındakı qohumluq əlaqələrini müəyyənləşdirmək üçün onların qrammatik quruluşlarının müqaisə yolu ilə öyrənilməsi.

Т.А.Амирова və b. Göstərilən əsər.

ГРАММАТИКА ФОРМАЛЬНАЯ - alm. formale Grammatik (f), ing. formal grammar /ˈfɔ:məl ˈɡr5mə/, fr. grammaire formelle, azərb. formal qrammatika. - Qrammatik quruluşda formal münasibətləri öyrənən dilçilik cərəyanı. Formal qrammatika tədqiqat işində söz, söz birləşməsinin və cümlənin mənaya deyil, yalnız formal cəhətinə fikir verir. Dildəki qanunauyğunluqların qaydalar şəklində sistemli təsviri.

H. Bußmann. Göstərilən əsər, s. 287.

ГРАММАТИКАЛИЗАЦИЯ (ГРАММАТИЗАЦИЯ) - alm. Grammatikalisierung (f), Grammatization (f), ing. grammaticalization /ˈɡr5mətɪkəlɪzeɪʃ(ə)n/, fr. grammaticalisation, azərb. qrammatikləşmə. – A.Meye (1866-1936) tərəfindən dildəki dəyişiklik prosesini göstərmək üçün işlədilən termindir. Məs.: alm. d. /auf Grund/ (əsasında) birləşməsi

downloaded from KitabYurdu.org

tədricən /aufgund/ kimi işlənərək leksik vahiddən çevrilib sözönü olur, fr. d. /avoi/ latınca /haere/ (malik olmaq) sözündəndir, keçmiş zamanı bildirir və ya /pas/ (inkar hissəciyi) latıncadan /passum/ (addım) sözündəndir.
H. Bußmann. Göstərilən əsər, s. 289-290.

ГРАММАТИЧНОСТЬ - alm. Grammatikalität (f), ing. grammaticality /ˈgr5mətıkəlıtı/, fr. grammatique, azərb. qrammatiklik. – Danışanla dinləyənin işlətdiyi linqvistik strukturun qrammatikaya uyğun düzülməsi. Məs.: alm. d. cümlədə iki inkar bildirən söz, forma işlənə bilməz, ancaq fr. d. bu qrammatik cəhətdən düzgün sayılır. Müq. et: /Il nove pas// (olmaz).
H.Glinz. Göstərilən əsər.

ГРАММЕМА - alm. Grammem (n), ing. grammeme /gr5mem/, fr. grammème, azərb. qrammem. – Hər bir qrammatik qarşılaşmada iştirak edəq üzvün formal (və ya implisit) göstəricisi olur ki, buna qrammem deyilir. Dilçiliyə onu termin kimi N.Xomski gətirib. Təbii dildə ifadənin düzgünlüyünü bildirir. Düzgünlük deskriptiv anlayışdır, abstrakt (mücərrəd) təsvir üçündür, nə müşahidə, nə də statistik tezliklə yoxlana bilmir. Danışan və dinləyən öz intuitiv bilgisilə düzgün ifadəni qeyri-düzgündən fərqləndirə bilir. Burada həmin söz akseptabilliklə üst-üstə düşür.
H.Bußmann. Göstərilən əsər, s. 291; F.Yadigar (Veysəlli). GDG, Bakı, 2003, s. 273.

ГРАНИЦА - alm. Grenze (f), ing. boundary /ˈbaundərı/, border /ˈbɔ:də/, fr. limite, azərb. sərhəd. – 1) Danışıq zəncirində sözün və ya morfemin əvvəlini və ya sonluğunu bildirən siqnal. Məs.: alm. d. söz və ya morfem başında gələn knaklaut. Müq. et: /ˀa·bər/ (ancaq), /ˀˊi:gəl/ (kirpi) və s.; 2) İki qonşu dili və ya bir dil daxilində dialektləri bildirən müəyyən xətt (izoqlos →). Məs.: yuxarı alman dialektləri orta alman dialektlərindən Strasburg – Frankfurt – Vyana xətti boyunca ayrılır.
H.Bußmann. Göstərilən əsər, s. 895.

ГРАФ - alm. Graf (m), ing. graph /grɑf/, fr. comte, azərb. qraf. - Qrafemlərin fərqləndirici (differensial) əlamətlərindən biri. Diqraflar iki qrafemin birləşməsidir. Məs.: /n/ üç qrafdan ibarətdir: iki düz xətdən və onları yuxarıdan birləşdirən üfüqi xətdən. Məs.: «c» qrafemi «ch» və «sch» birləşməsində müxtəlif qraflar kimi çıxış edir.
R.Conrad. Göstərilən əsər, s. 100.

ГРАФА - alm. Rubrik (f), Spalte (f), ing. graph /grɑ:f/, fr. colonne, azərb. qrafa. - Qrafemin elə bir variantıdır ki, bu və ya digər konkret qrafemin allografı kimi müəyyən edilir. Qrafemlərə qarşı qoyulur „fon“, „morf“, „sem“ və s. kimi terminlərlə bir sırada durur.
O.C.Ахманова. Göstərilən əsər, s. 116.

downloaded from KitabYurdu.org

ГРАФЕМА - alm. Graphem (n), ing. grapheme /gr5fım/, fr. graphème, azərb. qrafem. - Müəyyən bir dilin yazı sisteminə daxil olan əsas struktur vahidi. Fonem, morfem, leksemlə bir sırada dayanaraq alloqraflarla realizə olunur. Hər bir qrafem fərqləndirici elementlərdən ibarətdir. Məs.: alm. d. /l/ bir üfüqi düz xəttədən və bir şaquli düzxəttdən ibarətdir.
А.А.Зализняк. О понятии графемы. В кн.: «Balcanica». Лингвистические исследования. М., 1979.

ГРАФЕМИКА - alm. Graphemik (f), ing. graphemics /gr5femıks/, fr. graphémeique, azərb. qrafemika. - Dilin fonemlərinin yazıda verilməsi qaydalarını öyrənən dilçilik şöbəsi. Fonemika və morfemika ilə uyğun götürülür. Bu elmin obyekti əllə, tipoqrafik üsulla və ya kompüterlə yazılmış mətnlərdir. Qrafemika yazıdakı normaları öyrənir, orfoqrafik qaydaları müəyyənləşdirir, tarixi abidələrin dilinin açılmasında mühüm rol oynayır.
O.C.Ахманова. Göstərilən əsər, s. 117.

ГРАФИКА - alm. Grafik (f), ing. graphics /ˈgr5fıks/, fr. graphie, azərb. qrafika. - Dilin yazı vasitələrinin məcmusu. Paleoqrafik, tipoqrafik və digər yazı sistemlərindəki qanunauyğunluqları tədqiq edən elm sahəsi. Əllə yazılmış mətnin oxunuşunu və yazılış qaydalarını müəyyənləşdirəndə buna qraffoloqiya, əl xəttinin tanınması qaydalarını müəyyənləşdirəndə buna qrafometriya deyilir.
Л.В.Щерба. Теория русского письма. Л., 1983; H.Bußmann. Göstərilən əsər, s.295.

ГРЕЧЕСКИЙ ЯЗЫК - alm. Griechisch (n), Hellenisch (n), ing. Greek /gri:k/, Greece languages /grı:s ˈl5ŋgw9ʤ/, fr. langue grecque, azərb. yunan dili. – Hind-Avropa dilləri ailəsinə daxil olan dillərdən biri. Cənubi Balkan yarımadasında, Egey dənizindəki adalarda (Krit, Evbey, Lesbos, Rodos, Kipr adalarında), həmçinin Cənubi Albaniyada, Misirdə, İtalyanın cənubunda və keçmiş sovetlər ittifaqında yayılmışdır. Bu dildə hazırda 14 milyona qədər adam danışır. Yunanıstanın və Kipr adasının yunanlara məxsus olan hissəsinin rəsmi dövlət dilidir. Eradan əvvəl XV əsrdən qeydə alınıb, artıq eradan əvvəl I minilliyində zəngin ədəbiyyata malik idi. Afinada danışılan antik dialekti koyne kimi qəbul edilir. Roma imperiyasının şərqində və Bizansda qəbul edilmişdi. Əsas əlamətləri: zəngin sait sistemi (uzun saitlər, diftonqlar), reduksiya, musiqili vurğudan dinamik vurğuya doğru inkişaf, 7 hal hazırda 4 hala enib. Qədim yunan dilində dualis vardır, müasir yunan dilində isə tək və cəm fərqləndirilir. Mürəkkəb zaman və tərz sistemi var. Analitizmdən sintetizmə doğru gedir. İnfinitiv yox olmaq üzrədir.
P.Warburton. Modern Greek. London, 1987; P.H.Matthews. Göstərilən əsər, s. 153.

downloaded from KitabYurdu.org

ГРЕЦИЗМ - alm. griechische Redewendung (f), Gräzismus (m), ing. graecism /ˈɡreɪkism/, fr. hellénisme, azərb. yunan dilindən keçmə sözlər. - Yunan dilindən alınmış söz və ya ifadələr. Məs.: /qlossa/ «dil» deməkdir, /atom/, /analiz/, /sintez/ və s.
Ю.С.Маслов. Введение в языкознание. М., 1987, s. 262.

ГРИММСКИЙ ЗАКОН – alm. Grimmgesetz (n), ing. Grimm's law /ˈɡrɪm:s lɔ:/, fr. loi grimmienne, azərb. grimm qanunu. – Alman alimi Y.Qrimmin adı ilə bağlı olan bu qanun digər Hind-Avropa dillərində samitlərin sistemli şəkildə german dillərinə dəyişməsini müəyyənləşdirir. Bu qanun əsasən Hind-Avropa dillərində /dʰ/, /bʰ/ və /h/, german dillərində /d/, /b/ və /g/ və ya keçmiş olur. Bu qanun dilçiliyə I - səs irəli çəkilməsi kimi daxil olub.

1-ci və ya german fonem dəyişikliyi

qot. d.	f	p	b	th	t	d	h	k	g
latın d.	p	b	f	t	d	t	c	g	h
yunan d.	p	b	ph	t	d	th	k	g	kh
sanskrit d.	p	b	bh	t	d	dh	s	j	h

Bu sxemdən məlum olur ki, german dillərində (sxemdə bu dillərin nümayəndəsi kimi qot dili verilib, çünki bu dil yazılı abidəsi olan ən qədim dildir) f digər dillərdə p-ya uyğun gəlir. Müq et: qot d. «fotus», lat. d. «pedis», yun. d. «podos», sanskrit d. «pades», alm. d. «Fuss» (ayaq). German dillərində p başqa dillərdə b-ya, th (transkripsiyada ingilis dilindəki /4/ kimi yazılır) t-ya, t isə d-ya uyğun gəlir (məs. qot d. «fadar», lat. «pater», alm. «Vater» - ata).

Y.Qrimm bunları german dillərinin tarixdən əvvəlki dövründə baş verən səs dəyişmələrilə izah edir. O dövrdə qədim h. g. dillərində nəfəsli samitlər (bh, dh və gh) nəfəssiz (b, d, g) olur, cingiltililər (b, d, g) karlaşır (p, t, k), kar kipləşən-partlayışlılar isə novlulara (f, th, h) çevrilirlər.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 30.

ГРОМКОСТЬ <ЗВУКА> - alm. Lautstärke (f), ing. loudness saund /ˈlaudnıs saund/, fr. force du son, azərb. səsin ucalığı. - Səs tellərinin titrəməsi amplitudu ilə müəyyən edilən keyfiyyət. Amplitud böyük olduqda səs də güclü olur. Səsin gücü mənaca mühüm sözün verilməsində özünü büruzə verir. Bu da öz əksini vurğuda tapır.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 133.

ГРУЗИНСКИЙ ЯЗЫК – alm. Georgisch (Grusinisch) (n), ing. Georgian languages /dʒɔ:dʒjən ˈlɔŋgw9dʒ/, fr. langue géorgienne, azərb. gürcü dili. – Cənubi Qafqazda Azərbaycan dilindən sonra ikinci böyük dildir. Bu dildə təxminən 3,5 milyon adam danışır. Ədəbi nümunələri 8-ci əsrdən yayılmağa başlayıb. Aramey yazısından yaranan əlifbası mxedruli adlanır. Sadə fonem sistemi xirtdək samitlərinin olması ilə

downloaded from KitabYurdu.org

səciyyələnir. Ancaq samit birləşmələri ilə zəngindir. Rəngarəng sonluqlar və erqativ hal sisteminə malikdir. Fel subyektlə uzlaşır. Zəngin tərz növləri mövcuddur. Cümlə daxilində söz sırası: SOX. Müq. et: /menşeni mixvarxari/ (Mən səni sevirəm).
H.Fahnvich. Kurze Grammatik der georgischen Sprache. Leipzig. 1986.

ГУБНО-ГУБНОЙ - alm. bilabial, ing. bilabial /baɪˈleɪbjəl/, fr. bilabial, azərb. qoşa dodaq samiti. - Dodaqların kipləşib-partlaması və ya onlar arasındakı novda yaranan səslər. Məs.: Azərb. d. /p/, /b/, /m/.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 127.

ГУАЙКУРУ – alm. Guaigua (n), ing. Guaigua /gɑɪkju:rɪ/, fr. guaigua, azərb. quaykuru. – Quaykuru dilini makrokuaykuruan dil ailəsinə aid edirlər. Bəzən də bu dil panoan dil ailəsinə aid edilir. Əsasən Argentina, Braziliya, Peru və Boliviyada yayılmışdır. Təqribən 50 minə qədər daşıyıcısının olduğu göstərilir. Fonetik sistemi bəsit sait və inkişaf etmiş samitlər yarımsistemi ilə səciyyələnir. Aqqütinativ dildir. Yazısı yoxdur.
M.Swadech. Maras de clasifikation Linqüistica de Mexico y las Amerikas. Mexico, 1959

ГУАНЧСКИЕ ЯЗЫКИ - alm. Guanč(tsch)e (n), ing. Guanche languages /ˈgwɑ:nʧ ˈlɔŋgw9ʤɪz/, fr. langues guangxis, azərb. quanç dilləri. – Kanar adalarında XVIII əsrə qədər yayılmış yerli xalqların (aborigenlərin) dilləri. Onlardan bir hissəsi artıq ölmüş, digər hissəsi isə avropalı müstəmləkəçilərin dilləri tərəfindən assmilyasiya olmuşlar. Bərbər-liviya dilləri ilə birləkdə Afroasiya dillərinin bir qolunu təşkil edirlər. Yazısı olmayan dillərdir.
D. Wölfel. Monumental Linguae kanariae. Graz, 1965.

ГУАРАНИ - alm. Guarani (n), ing. Guarani /ˈgʌ5r5nɪ/, fr. guarani, azərb. quarani. – Tupi-quarani dillərinə aid dildir. Paraqvayda, Braziliyanın və Argentinanın bəzi ərazilərində yayılmışdır. İspan dili ilə yanaşı Paraqvayın dövlət dilidir, ölkə əhalisinin 90% quarani dilində danışır. Məktəblərdə müəyyən məhdudiyyətlərlə də olsa tədris olunur. 4 milyona qədər insan bu dildən ünsiyyət vasitəsi kimi istifadə edir. Fellər iki müxtəlif cür təsrif olunan qrupa bölünür. Felin kökü müxtəlif məna ifadə edə bilər. Məs.: /a-karu'/ (mən yeyirəm), ancaq /s'e -karu/ (mən çox yeyirəm).
G.L.Benavento. El guarani en entre rios. Buenes Aires, 1962.

ГУБНО-ЗУБНОЙ (ЗУБНО-ГУБНОЙ, ЛАБИО-ДЕНТАЛЬНЫЙ, ДЕНТО-ЛАБИАЛЬНЫЙ) - alm. Labiodental (m), Zahnlippenlaut (m), ing. labio-dental /ˈleɪbɪoʊˈdentl/, fr. labiodental, azərb. diş-dodaq samiti. – Alt dodağın üst dişlərin ucuna toxunması ilə yaranan samitlər: /v/, /f/. Əslində bu fəal və qeyri-fəal üzvlərin qarışdırılmasıdır.
F.Veysəlli. SDƏ, Bakı, 2005, s.127.

ГУБНОЙ (ЛАБИАЛЬНЫЙ) - alm. Lippenlaut (m), ing. labial /ˈleɪbjəl/, fr. labial, azərb. dodaq samitləri. - Alt dodağın üst dodağa və

downloaded from KitabYurdu.org

üst dişlərə yaxınlaşaraq kipləşib-partlaması və ya nov yaranması ilə tələffüz edilən samit. /b/, /p/, /m /.
F.Veysəlli. SDƏ, Bakı, 2005, s.127.

ГУДЖАРАТИ - alm. Gujarati (n), ing. Gujerati /ˌguʤəˈrɑ:tɪ/, fr. gujerāt ou goudjerate, azərb. qucarati dili. – Hindistanın Qucarati ştatının rəsmi dilidir. 40 milyona qədər daşıyıcısı vardır. Strukturuna görə hindu (felin analitik sözdəyişmə paradiqminə) və marathi (uzunluğun fonoloji əhəmiyyət daşımadığına görə) arasında aralıq mövqe tutur.
Л.В.Савельева. Язык гуджарати. М., 1965.

ГУНЗИБСКИЙ ЯЗЫК - alm. Hunzibisch (n), ing. Hunzib language /ˈhʌnzɪb ˈlɔŋgwɜʤ/, fr. langue hounzibe, azərb. hunzib dili. – Tsez dillərindən biridir. Dağıstanın Suntin bölgəsinin Hunzib, Nahada, Qarbutl kəndlərində yayılmışdır. Bu dildə danışanların sayı təqribən 1000-ə bərabərdir. 3 ləhcəsi vardır: Hunzib, Qarbutl və Nahada kəndlərinin ləhcələri. Bu ləhcələr arasındakı fərq cüzidir.
Е.А.Бокарев. Цезские языки Дагестана. М., 1959.

ГУРСКИЕ ЯЗЫКИ – alm. Gur-Sprachen (Pl.), Volta-Sprachen (Pl.), ing. Gur languages /gʌr/g-r/ ˈlaŋgwɜʤɪz/, fr. langues Guri, azərb. qur dilləri. – Niger-Konqo dillər ailəsinə aid olan qolu. Əsasən Qərbi Afrikada, Mali, Niger, Qana, Toqo, Benin və s. ölkələrdə yayılmışdır. 15 milyondan yuxarı əhali bu dillərdə danışır. Bu dillərin əksəriyyəti yazısı olmayan dillərdir.
D.Westermann. Die westlichen Spracben Sudans. Berlin, 1927.

ГУТТУРАЛИЗАЦИЯ - alm. Gutturalisierung (f), ing. gutturalization /ˈgʌtərəlɪzɪeʃ(ə)n/, fr. gutturalisation, azərb. qutturallaşma. - Səsin dilin arxa yumşaq damağa doğru qalxaraq kipləşib-partlaması və ya nov yaranması ilə əmələ gəlməsi və ya onun (səsin) tələffüzünün yerinin damaq pərdəsinə istiqamətdə dəyişməsi. Məs.: Azərb. d. /k/, /g/, /x/.
P.H.Matthews. Göstərilən əsər, s. 155.

ГУТТУРАЛЬНЫЙ СОГЛАСНЫЙ - alm. Guttural (m), Kehl(kopf)laut (m), ing. guttural consonant /ˈgʌturæl kɔnsənənt/, fr. consonne gutturale, azərb. quttural samit. – Dilarxası samitlərin köhnəlmiş adı.
P.H.Matthews. Göstərilən əsər, s. 155.

– Д –

ДАЛМАТИНСКИЙ ЯЗЫК – alm. Dalmatisch (n), ing. Dalmatan language /dalˈmeɪʃ(ə)n ˈlɔŋgwɪʤ/, fr. langue dalmatiene, azərb. dalmatin

downloaded from KitabYurdu.org

dili. - Poman dillərindən biridir. XIX əsrin sonlarına qədər mövcud olmuşdur. Dalmasiya çayının sahillərində (keçmiş roma əyalətində) və Adriatik dənizindəki adalarda yayılmışdır. İki coğrafi dialekti məlumdur: şimali (velot) və cənub (raquzin).

Т.А.Репина. О далматинском языке и его место в группе романских языков, ВЯ., 1983, ¹3.

ДАННЫЕ – alm. Angaben (Pl.), ing. facts /f5kts/, data /ˈdeɪtə/, fr. données, azərb. faktlar. – Linqvistik tədqiqatlar üçün danışıq aktında faktları müşahidə etməklə toplanmış cümlə, söyləm və mətnlər. Bunlar tədqiatın məqsədindən asılı olaraq müxtəlif həcmdə və biçimdə götürülə bilər. Bəzən tədqiqatın etibarlığını riyazi yolla da müəyyənləşdirmək mümkündür.

F.Veysəlov (Veysəlli) vя b. Eksperimental fonetika. I. Bakı, 1980; II, 1981.

ДАРГИНСКИЙ ЯЗЫК – alm. Darginisch (n), ing. Dargin language /ˈdaːgɪn ˈl5ŋgwɪʤ/, fr. langue dargine, azərb. dargin dili. – Nax-Dağıstan dillərindən biridir. Əsasən Dağıstanın dağlıq ərazilərində yayılmışdır. 320 minə qədər dahıyıcısı vardır. 1938-ci ildən rus qrafikasın qəbul etmişdir. Dargin ədəbi dili rus dilindən alınma sözlərlə zəngindir.

С.Н.Абдуллаев. Грамматика даргинского языка. Махачкала, 1954.

ДАРДСКИЕ ЯЗЫКИ – alm. Dardisch (n), ing. Dard languages /dɑːd ˈl5ŋgwɪʤɪz/, fr. langues dardes, azərb. dard dilləri. – Hindistanın şimal-qərbində 15-ə qədər dili özündə cəmləşdirən dillərin ümumi adı. Onlardan ən çox yayılanı kəşmir dilidir (3 milyona qədər insan bu dildə danışır). Bu dillərin hind və ya iran dillərinə aid olması mübahisəlidir, çünki qədim yazılı abidələri aşkarlanmamışdır.

H.Bußmann. Göstərilən əsər, s. 157.

ДАРИ – alm. Dari (n), ing. Dari language /daːrɪ: ˈl5ŋgwɪʤ/, fr. dari, azərb. dəri. – 1) Sadın Zame və buna sərhəd Kamerun ərazilərində danışılan dil; 2) İran dillərindən (cənub-qərbi yarımqrup) biridir. Əfqanıstanın iki ədəbi dillərindən (puştu) biridir. 4 milyondan artıq insanın danışıq dilidir. İki dialektə bölünür: Herat, Hazaracata, Hardeza, Loqara və Bədəxşan, Pəncşera və Koxistan.

М.Н.Негхат-Саиди. Грамматика современного языка дари. Кабул, 1969.

ДАТЕЛЬНЫЙ ПАДЕЖ - алм. Датив (м), инэ. Дативе ъасе /деитив кеыс/, фр. датиф, азярб. йюнлцк щал. – Морфоложи щал олараг васитясиз тамамлыьын ифадясиня хидмят едир. Фелдян асылы олараг дативин ашаьыдакы нювляри фяргляндирилир: a) данышанын етик шяхси мювгейини ифадя едир. Мяс.: алм д. /Фащр мир абер vorsichtig// (Mənə görə, ehtiyatlı sür); b) yiyəlik, buna pertinents dativ deyirlər. Müq. et: alm. d. /Ihm schmerzen die Beine// (Onun ayaqları ağrıyır); c) maraq dativi (Dativus commodi) Müq. et: /Er strickte ihr einen Pulli// (O gıza istilik (jaket) toxuyur); ç) mövge, dativus Indicantis. Müq. et: /Er ist mir zu sympathisch// (O mənə çox xoş gəlir). Sifətlərin də bu halda işlənməsi

downloaded from KitabYurdu.org

mümkündür. Məs.: /Er ist ihm behilflich// (O ona yardımçıdır), sözönlərlədə işlənir. Məs.: /Ich nahm es aus dem Regal// (Mən onu rəfdən götürdüm). Arabir adnominal funksiyada da çıxış edə bilər. Məs.: /Der Mutter ihr Haus// (Anaya öz evi).
G.Helbig. Die freien Dative im Deutschen. Leipzig, 1988.

ДАТИВИЗАЦИЯ – alm. Dativierung (f), ing. Dative-shift movement /ˈdeɪtɪv ʃɪft ˈmu:vmənt/, fr. dativisation, azərb. yönlük halla əvəzlənmə. – Qoşmalı, qoşmasız yiyəlik, təsirlik halların yönlük hala çevrilməsi. Məs.: alm. d. /Er schickt den Brief an sie// → /Er schickt ihr den Brief// (O qıza məktub göndərib); ing. d. /He gave the book to Mary// → /He gave Mary a book// (O kitabı Meriyə verir).
H.Bußmann. Göstərilən əsər, s. 158.

ДАТСКИЙ ЯЗЫК – alm. Dänisch (n), ing. Danish language /ˈdeɪnɪʃ ˈlɔŋgwɪʤ/, fr. langue danoise, azərb. Danimarka dili. – Şimali german dili. 5 milyona qədər insanın ünsiyyət dilidir. 1550-ci ildən yazılı, 1536-cı ildən XIX əsrin ortalarına qədər həm də Norveçin dövlət dili olmuşdur. Bu dildə aparılan yazı islahatlarına görə (1948) bütün ismlər kiçik hərflərlə yazılır. Bu dildə xirtdəkdə partlayışla yaranan səs/stöd /?/ - vardır.
А.С.Новакович. Датский язык. М., 1974.

ДВАНДВА - alm. Dvandva (n), ing. dvandva compound /ˈdvandvə ˈkɔmpaund/, fr. dvandva, azərb. dvandva. - Tərkib hissələri arasında tabesizlik əlaqəsi olan mürəkkəb söz. Məs.: Azərb. d. şimal - qərb, dağ - dərə, böyük – kiçik; alm. d. /Rotweiß/ (gırmızı-ağ), /Mannweib/ (kişi-qadın) və s.
О.С.Ахманова. Göstərilən əsər, s. 121.

ДВЕ ТОЧКИ - alm. Doppelpunkt (m), ing. colon /ˈkoulen/, fr. deux-points, azərb. iki nöqtə. – 1) Yazıda təsnifat mətnində sonra əlavə edilən bölgüdən əvvəl qoyulur. Məs.: İsimlər quruluşca üç yerə bölünür: sadə, düzəltmə, mürəkkəb; 2) Müəllifin sözündən əvvəl qoyulur. Məs.: Peyğəmbərimiz demişdir: «İnsan bələkdən məzara qədər öyrənməlidir»; 3) Qəzet və jurnal başlıqlarında. Məs.: Dilçilik: problemlər və mülahizələr.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 115.

ДВИЖЕНИЕ РЕЧИ (ТЕМП РЕЧИ) - alm. Sprechtempo (n), ing. speech of tempo /ˈspi:ʧ əv ˈtempou/, utterance /ˈʌtərəns/, fr. rythme du langage (discours temps), azərb. danışıq sürəti (vaxtı). - Danışığın ritmik-sintaktik təşkilində təzahür edən zaman ardıcıllığında müşahidə olunan sürət növbələşməsi. Saysız-hesabsız tədqiqatlar sübut etmişdir ki, danışıq aktında gələn söyləm nə qədər uzun olsa, ona sərf olunan vaxt da bir o qədər çox olar. Məs.: açıq saitlər qapalılardan daha çox vaxt sərf etməklə tələffüz olunur. Fonoloji qarşılaşmalarda adətən nisbi uzunluq həlledici rol oynayır. Eyni kontekstdə açıq saitlər qapalı saitlərədən həmişə qısa olur. Adi danışıqda inqilis orta hesabla bir dəqiqədə 300, bir saniyədə 5 heca tələffüz edir. Məs.: ing. d. /bid/ sözündəki /ɪ/ /bi:t/ sözündəki /i:/- dən uzun olur,

downloaded from KitabYurdu.org

burada nisbi uzunluq və keyfiyyət fərqi fonoloji əlamət kimi çıxış edir.
K.Kohler. Einführung in die Phonetik des Deutschen. Berlin, 1995, s. 111; A.Digeser. Phonetik und Phonologie des Englischen. Padeborn, 1978, s. 3.

ДВИЖЕНИЕ ТОНА - alm. Tonbewegung (f), ing. movement of tone /ˈmu:vmənt əv təun/ intonation curve /ˌɪntouˈneɪʃən k8:v/, fr. mouvment du ton, (discours tonalités), azərb. tonun hərəkəti. – Danışıq aktında tonun dəyişməsi, söyləmin, cümlənin, mətnin melodik səciyyəsi. İngilis dilində söz səviyyəsində tonun 6 cür hərəkətini fərqləndirirlər:

1. Alçaq enən: /ˎtwo/; (iki) (müəllim uşağa qiymət elan edir)
2. Yüksək enən: /ˊˊtwò/; (iki) (uşaq eşitməzliyə vurub soruşur)
3. Enib-qalxan: /ˇtwo/; (iki) ((üç, dörd…) müəllim təkrar edir)
4. Alçaq-qalxan: /ˏtwo/; (iki) (təəccüblə soruşur, niyə iki)
5. Yüksək-qalxan: /ˊtwo/; (iki) (qətiyyətlə bildirilən qiymət)
6. Qalxan-enən: /ˆtwo/; (iki) (ikidir ki iki, bunun o yanı, bu yanı yoxdur)

A.Digeser. Göstərilən əsər, s. 211.

ДВОЕТОЧИЕ (ДВЕ ТОЧКИ) - alm. Doppelpunkt (m), ing. colon /ˈkoulen/, fr. deux-points, azərb. iki nöqtə. - Orfoqrafiyada biri-birinin üzərində (üstündə) qoyulan iki nöqtədən ibarət durğu işarəsi. Azərb. d. belə işarələr aşağıdakı hallarda işlənir: 1. Cümlələrdə həmcins üzvlərdən əvvəl gələn ümumiləşdirici sözdən sonra qoyulur. Məs.: Azərb. d. /Payızda bütün quşlar: durnalar, qaranquşlar, qazlar və ördəklər isti ölkələrə köçürlər//.
2. Bağlayıcısız tabesiz mürəkkəb cümlələrdə sonrakı tərəfin əvvəlki tərəflə səbəbiyyət, aydınlaşdırma əlaqələri olduqda onlar arasında qoyulur. Məs.: Azərb. d. /Dostum zəng etmişdi: o bizə gəlmək istəyir//.
3. Vasitəsiz nitqdən əvvəl, müəllifin sözlərindən sonra. Məs.: /V.Humboldt demişdir: «Dil xalqın ruhudur»//.
4. Adətən qəzet və jurnallarda məqalələrin başlığında istifadə olunur. Məs.: /Günümüzün reallıqları: ümidsüzlük və qeyri-müəyyənliklər//.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 115.

ДВОИЧНОЕ ПРОТИВОПОСТАВЛЕНИЕ - alm. binäre Opposition (f), ing. binary opposition /bın5rı ˌ6pəˈzıʃən/, fr. opposition binaire, azərb. ikili (binar) qarşılaşdırma. - Bu qarşılaşdırmanın əsas məğzi hər hansı bir dil vahidində eyni əlamətin və ya eyni keyfiyyətin olub-olmamasından ibarətdir. İkili qarşılaşdırma A-dır, A deyildir prinsipinə əsaslanır. Məs.: Azərb. d. samitlər yarımsistemində kar samitlərlə cingiltili samitlər, saitlər yarımsistemində isə qalın saitlərlə incə saitlərin arasında binar qarşılaşma mümkündür. /b/ # /p/, /d/ # /t/; /o/# /ö/, /u/ # /ü/ və s.
Qarşılaşma nəzəriyyəsini ilk dəfə I.A.Boduen de Kurtene işləyib hazırlamış, sonra isə N.S.Trubeskoy (1890-1938), R.Yakobson (1896-1986) və onun həmkarları inkişaf etdirmişlər. Bu nəzəriyyəyə görə dildəki ifadələr 2 müxtəlif səviyyələrdə üzvlənirlər: 1) ən kiçik mənalı vahidlər – morfemlər (A.Martine; 1908) bunları monemlər adlandırırdı); 2) ən kiçik fərqləndirici

downloaded from KitabYurdu.org

vahidlər – fonemlər; axırıncıların yalnız forması var, özlərinin ayrılıqda mənaları yoxdur. İkinci strukturlaşma ondan ibarətdtr ki, fonoloji səviyyədə bir neçə fonemin və onların birləşməsindən təbii dillərin sonsuz cümlələrini düzəltmək olur. Siqnallar, yol hərəkətini nizamlayan işarələr tərkib hissələrinə bölünməyərək müəyyən bir bütöv kimi çıxış edirlər, ancaq onlar həmin o ikinci səviyyəli söz və formaları fərqləndirən kiçik fonemlərə bölünmürlər. Məs.: /jaşıl işıq: yol açıqdır// söyləmi beş məna daşıyan monemə bölünür; /ja'şıl/ sözünün fonetik strukturu /j/, /a/, /ʃ/, /ı/, /l/ fonemlərindən formalaşıb. Beləliklə, ikili üzvlənmə həm insan dilini heyvanların dilindən, həm də dilin yaradıcı olmasını göstərən mühüm əlamətdir.

И.А.Бодуэн де Куртенэ. Избранные труды по общему языкознанию. М., 1963, I, II; F.Veysəlli. SDƏ. Bakı, 2005.

ДВОЙНАЯ АРТИКУЛЯЦИЯ - alm. Doppelartikulation (f), ing. double articulation /dʌbl ɑ:ˌtɪkju:ˈleɪʃən/, fr. double articulation, azərb. ikili artikulasiya. – İkili artikulyasiya fransız dilçisi A.Martinenin dilçiliyə gətirdiyi nəzəriyyədir. Bu nəzəriyyəyə görə, insan dili heyvan dilindən fərqli olaraq ikili üzvlənməyə qadirdir. Ən kiçik mənaya malik üzvlənmədən monemlər (başqa məktəblərdə «morfemlər»), onların ən kiçik elementlərə üzvlənməsindən fonemlər əldə edilir. Məs.: fr. d. /trava:llons/ (biz işləyirik) monemi iki leksemə bölünür: /travaill/ və /ons/. Axırıncı isə / ɵ :/ və /s/ fonemlərinə bölünür.

A.Martine. Elements de linquistique generale. Paris, 1960.

ДВОЙНАЯ БУКВА - Bax: Диаграф →.

ДВОЙНАЯ ПРИСТАВКА - alm. Doppelpräfix (n), ing. double prefix /dʌbl ˈpri:fɪks/, fr. préfixe double, azərb. iki sözönünün dalbadal gəlməsi. – Məs.: rus d. /по:вы:кидать/, /по:на:браться/; alm. d. /miss:ver:ständnis/ (anlaşılmazlıq).

Bax: приставка →.

ДВОЙНОЙ СОГЛАСНЫЙ (ГЕМИНИРОВАННЫЙ СОГЛАСНЫЙ, УДВОЕННЫЙ СОГЛАСНЫЙ) - alm. Doppelkonsonant (m), ing. double consonant /ˈdʌbl ˈkɔnsənənt/, fr. consonne double, azərb. qoşa samit.

Bax: Гемината ←.

ДВОЙНОЙ СОЮЗ - alm. Doppelkonjunktion (f), ing. double conjunction /dʌbl kənˈdʒʌŋkʃən/, fr. conjonction double, azərb. ikili bağlayıcı. - Bağlayıcı funksiyasında çıxış edən iki bağlayıcı. Bunlara bəzən korrelyativ bağlayıcılar da deyirlər. Müq. et. alm. d. /nicht nur-sondern auch/ (təkcə o deyil, həm də), /entweder-oder/ (ya-ya, ya da), /weder-noch/ (nə…nə də), /und wenn/; Azərb. d. /və əgər/, /və ancaq/; ing. d. /and when/.

Bax: Союз →.

ДВОЙНЫЕ АФФИКСЫ - alm. Doppelaffixe (Pl.), ing. double affixes /ˈdʌbl ˈ5fɪksɪz/, fr. affixe doubles, azərb. ikili affiks. – Sözdüzəltmədə

downloaded from KitabYurdu.org

yanaşı gələn iki affiks. Məs.: alm. d. /miss:ver: ständnis/ (anlaşılmazlıq), /be:auf:tragen/ (tapşırıq vermək).
Bax: двойная приставка ←.
ДВОЙНЫЕ ФОРМЫ - alm. Doppelformen (Pl.), ing. variant (alternative) /ˈvɛərɪənt /ɔ:lˈtɜ:nətɪv/ double forms /ˈdʌbl f6:mz/, fr. formes doubles, azərb. ikili formalar. - Orfofonik, orfoqrafik, morfoloji, sintaktik variant formaları. Əslində eyni sintopik, sinfatik, sinstratik kəsişmədə iki eyni formanın işlənməsi mümkün deyildir. Məs.: Azərb. d. /əgər, məgər, əyər/ və s.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s.74-79.
ДВОЙСТВЕННОЕ ЧИСЛО - alm. Dual (m), Dualis (m), Zweizahl (f), ing. dual number /ˈdju:əl ˈnʌmbə/, fr. duel, azərb. ikili kəmiyyət. - Cüt əşyaları fərqləndirən kəmiyyət forması. Müasir rus d. bu forma fəaliyyət göstərmir, lakin onun qalıqlarına hələ də təsadüf edilir. Məs.: rus d. /оба стола/; alm. d. /beide/; ing. d. /both/ cütlüyünü misal göstərmək olar. Sanskrit dilində /pitarau/ bir tərəfdən təkdə /pita/ (ata), digər tərəfdən isə /pitarah/ (atalar) formalarına qarşı qoyulur.
P.H.Matthews. Göstərilən əsər, s. 106.
ДВОЙСТВЕННОЕ ЧИСЛО ПРИРОДНОЕ (ДВОЙСТВЕННОЕ ЧИСЛО ПЕРВИЧНОЕ) - alm. natürlicher (primärer) Dualis (m), Zweizahl (f), ing. natural dual /ˈn5tʃrəl ˈdju:əl/, primary /prαiməri/, initial /ɪnɪʃ(ə)l/, fr. duel natural, azərb. ilkin cütlük hal. - Orqanizmdə cüt üzvləri ifadə etmək üçün işlədilən isimlərin xüsusi növü. Məs.: Azərb. d. /üz/, /qulaq/, /göz/, /dodaq/; rus d. /глаза/, /уши/, /руки/. Alm. d. qalmış dualis Bavariya dialektində işlənir. Məs.: /ös/ (qızların hər ikisi), /enk/ (sizin hər ikiniz).
H.Bußmann. Göstərilən əsər, s.158; O.C.Ахманова. Göstərilən əsər, s.122.
ДВОЯКОЕ УДАРЕНИЕ - alm. doppelte Betonung (f), ing. double stress /ˈdʌbl stres/, fr. accent double, azərb. ikili vurğu. - Mövcud variant formalarını fərqləndirən ikili vurğu. Məs.: rus d. /твóрог/ - /творóг/; /зáмок/ - /замóк/, ing. d. /ˈintrikit/, /inˈtrikit/, /ˈaplikəbl/, /əˈplikəbl/; alm. d. /ˈʃtaenRaec/ (daşla dolu), /ʃtaenˈRae/ (zəngin) və s.
F.Veysalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 196-197.
ДВУГЛАСНЫЙ (ДИФТОНГ) - alm. Diphthong (m), ing. diphthong /ˈdɪfθɔŋ/, fr. diphtongue, azərb. diftonq. - İki saitin bir heca daxilində birləşməsi. Bu zaman həmin saitlərdən biri hecadüzəldən, digəri isə heca əmələ gətirməyən olur. Məs.: alm. d. /hɑ s/ (ev), /h¾/ (isti), /l¾də/ (təəssüf) və s. Azərbaycan dilində həqiqi diftonqlar yoxdur. Ancaq diftonqoidlər mövcuddur. Məs.: Azərb. d. /douşan/, /douğa/ və s.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s.141-143.
ДВУГУБНЫЙ - alm. bilabial, ing. bilabial /baɪˈleɪbjəl/, fr. bilabial, azərb. qoşadodaq.

downloaded from KitabYurdu.org

Bax: Губно-губной ←.

ДВУЗНАЧНАЯ БУКВА - alm. Digraph (m), zweistelliger Buchstabe (m), ing. two-digit letter /ˌtuˈ:dıʤıt ˈletə/, digraph /ˈdaıɡrɑ:f/, fr. lettre bivalente, azərb. qoşa yazılan hərf. - Yazıda bir fonemi əks etdirmək üçün iki işarənin birləşməsi. Məs.: ing. d. /ʃ/ fonemi «sh» diqrafı ilə verilir.

P.H.Mathews. Göstərilən əsər, s. 98.

ДВУМЕРНАЯ СИСТЕМА ГЛАСНЫХ - alm. zweidimensionales Vokalsystem (n), ing. bidimensional vowel system /bi:daıˈmenʃ(ə)nəl ˈvauəl ˈsıstım/, two-dimensional /ˈtu:daıˈmenʃ(ə)nəl/, fr. systˈme vocalique à deux dimension, systˈme voyelle bidimensionnelle, azərb. ikimeyarlı sait sistemi. – Saitlərin uzun və qısılığa, incə və qalınlığa görə bölgüsü ikimeyarlığa əsaslanır.

N.S.Trubeskoy. Fonologiyanın əsasları. Almancadan tərcüməsi, «Son söz» və «Qeydlər» prof. F.Veysəllinindir. Bakı, 2001; F.Veysəlli. SDƏ. Bakı, 2005, s.210.

ДВУПОДЛЕЖАЩНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. Zweisubjektesatz (m), ing. two-subject sentence /tu:ˈs∧bʤıkt ˈsentəns/, sentence with twice denoted subject /sentəns wıð twaıs dıˈnoutıd ˈs∧bʤıkt/, fr. proposition à deux sujets, azərb. cütmübtədalı cümlə. - Tərkibindəki hər iki mübtədası eyni bir subyekti bildirən cümlə. Məs.: Azərb. d. /Mən və sən bu bəladan xilas ola bilməyəcəyik//; rus d. /Что же они не идут, соколы-то наши//.

O.C.Ахманова. Göstərilən əsər, s. 122.

ДВУСКАЗУЕМОСТЬ - alm. Doppelprädikatheit (f), ing. double predication /d∧bl ˈpredıkeıʃən/, fr. proposition à deux prédicats, azərb. iki xəbərlik. - Xəbəri iki felin ardıcıl gəlməsilə ifadə olunan cümlə. Məs.: Azərb. d. /Biz mahnı oxuyuruq, həm də rəqs edirik//; rus d. /Я пойду погляжу//.

O.C.Ахманова. Göstərilən əsər, s. 123.

ДВУСЛОГОВОЙ (ДВУСЛОЖНЫЙ, ДИСИЛЛАБИЧЕСКИЙ) - alm. zweisilbig, ing. disyllabic /ˈdısıˈlɔbık/, fr. disyllabique, azərb. cüthecalı. - Tərkibi iki hecaya bölünən söz. Məs.: Azərb. d. /qə-ləm/, /dəf-tər/, /ki-tab/, /a-na/, /a-ta/ və s.

R.Conrad. Göstərilən əsər, s. 54.

ДВУСОСТАВНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. zweigliedriger Satz (m), ing. two-member (binomial) sentence /tu: ˈmembə /ˈbaıˈnɔmınəl/ ˈsentəns/, fr. phrase à deux termes, azərb. cüttərkibli cümlə. - Xəbəri və mübtədası ayrı-ayrı sözlər və söz birləşmələri ilə ifadə olunan cümlə. Məs.: Azərb. d. /Quş uçur//, /İt hürür//; alm. d. /Die Sonne scheint// (Günəş saçır) və s.

Müasir Azərbaycan dili. Sintaksis. Bakı, 1959. s. 166-167.

ДВУСОСТАВНОЕ ПРЕДЛОЖЕНИЕ СЛОЖНОПОДЧИНЕННОЕ – alm. zweigliedriges Satzgefüge (n), ing. two-part compound sentence

downloaded from KitabYurdu.org

/ˈtuːˈpɑːt ˈk6mpaund ˈsentəns/ fr. proposition subordonnée complexe, azərb. cüttərkibli tabeli mürəkkəb cümlə. - Budaq cümləsi baş cümlənin bu və ya digər üzvü ilə deyil, bütövlükdə baş üzvə aid olan cümlə. Mürəkkəb cümlənin tərəfləri arasında əlaqə müstəqildir, beləki, cüttərkibli cümlənin baş cümləsi nisbətən bitmiş fikir bildirir, budaq cümləsiz keçinə bilir, quruluşca bu və ya digər budaq cümlələrlə tamamlanmasını tələb etmir. Məs.: Azərb. d. /Hava gəfildən dəyişdi, alpinistlər öz işlərini dayandırmağa məcbur oldular//. Nəticə, şərt, güzəşt, səbəb, qarşılaşdırma və zaman budaq cümlələri cüttərkibli tabeli mürəkkəb cümlənin budaq cümlələri hesab olunur.

Ə.Abduddayev. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. Bakı, 1974.

ДВУСОСТАВНОСТЬ (ДВУЧЛЕННОСТЬ) - alm. Zweigliedrigkeit (f), ing. binomiality /bʌɪˈnɔmə̇lɪtɪ/, binomial character /bʌɪˈnɔmə̇l ˈk5rɪktə/, fr. à deux termes, azərb. cüttərkiblik. - Gümlədə mübtəda ilə xəbərin formal ifadə olunması. Məs.: Azərb. d. /Sarı yarpaqlar yavaş-yavaş ağacdan yerə tökülürdü//.

Müasir Azərbaycan dili. Sintaksis. Bakı, 1959.

ДВУСТРОННОЕ ПРОТИВОПОСТАВЛЕНИЕ (БИЛАТЕРАЛ) - alm. zweidimensionaler Gegensatz (m), ing. bilateral (two-way) opposition (contrasting) /baɪˈlætərəl/tu-weɪ/,ɔpəˈzɪʃən/ˈkɔntræstɪŋ/, fr. opposition bilatérale, azərb. ikili qarşılaşdırma. - Fonoloji qarşılaşmalar nəzəriyyəsini ilk dəfə dilçilik elmində N.S.Trubeskoy işləyib hazırlamışdır. Bilateral (ikitərəfli) oppozisiyalarda müqayisə üçün götürülən əsas, yəni oppozisiyanın hər iki üzvünə xas olan əlamətlər məcmusu yalnız bu üzvlərdə özünü göstərir və sistemin heç bir digər üzvündə müşahidə olunmur. Belə qarşılaşmaları o privativ adlandırır.

Beləliklə, müqayisə üçün əsas götürülən əlamətlər məcmusu oppozisiyanın yalnız bu 2 üzvünə xasdır, onlar sistemin digər üzvlərində təkrar olunmur.

Məs.: /t/ - /d/; /f/- /v/
/b/ - /p/; /s/- /z/
/g/ - /k/; /s/ - /ʃ/
/b/ - /m/; /r/- /l/.

N.S.Trubeskoy. Fonologiyanın əsasları. Almancadan tərcüməsi, «Son söz» və «Qeydlər» prof. F.Veysəllinindir. Bakı, 2001, s. 85; F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 210-211.

ДВУСТОРОННАЯ АССИМИЛЯЦИЯ - alm. reziproke (doppelseitige) Assimilation (f), ing. bilateral /baɪˈl5t(ə)r(ə)l/, reciprocal assimilation /rɪˈsɪprəkəl əˌsɪmɪˈleɪʃn/, fr. assimilation réciproque, azərb. müştərək assimilasiya. - Səslərin bir-birinə qarşılıqlı təsiri nəticəsində uyuşması (assimilasiyası), qarşılıqlı təsir nəticəsində hər iki səsin dəyişməsi. Məs.: Azərb. d. /gəlirlər-gəlillər/, /oğlanlar-oğlannar/, /isti-issi/ və s. Aydındır ki, burada çıxış nöqtəsi kimi birinci tərəf götürülür. Bu da ondan irəli gəlir ki, klassik

downloaded from KitabYurdu.org

fonetika dilin variativlik kimi mühüm xassəsini görmürdü və sintopik və diatopik səviyyələri qarışdırırdı.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s.74-79.

ДВУВЕРШИННАЯ ФОРМА СОГЛАСНОГО – alm. zweigipfelige Konsonantenform (f), ing. consonantal double-peak form /ˌk6nsəˈn5ntəl ˈd∧bl pi:k/, fr. forme de la consonne à deux sommets, azərb. samitin ikizirvəli forması. – L.V.Şerba heca bölgüsü nəzəriyyəsini işləyib hazırlayarkən samitləri üç yerə bölürdü: a) başlanğıcı qüvvətli olan samitlər. Onlar özündən əvvəlki saitə qoşulurlar. Məs.: rus d. /ot/, /on/; b) sonu qüvvətli olan samitlər. Onlar özlərindən sonra gələn saitlərə qoşulurlar. Məs.: rus d. /na/ /nu/; c) tən ortası qüvvətli olan samitlər. Onlar heca sərhədilə tən ortadan bölünürlər. Bunları o, ikizirvəli samitlər adlandırırdı. Məs.: alm. d. /nœ t/ər/, /nœ ɛn/ən/ və s.
F.Veysəlov. Alman dilinin fonetikası. Bakı, 1980. s. 132.

ДВУВЕРШИННОСТЬ - alm. Zweigipfeligkeit (f), ing. slurred /slə:d/, fr. à deux sommets, azərb. ikizirvəlilik. – 1) Diftonqda hər iki komponenti eyni gücə və ton yüksəkliyinə malik olması. Məs.: udey dilində /o͡e/ diftonqu buna misaldır



2) Homogen samitlərin iki hecaya ayrılması. Məs.: alm. d. /ˈan:ne:mən/ (qəbul etmək); 3) Azərbaycan dilində söz ikizirvəli prosodik qəlibə malikdir. Birinci zirvə sözün kökündəki birinci saitin, ikincisi isə sözün son hecasının üzərinə düşür. Birinci həmahəngliyi, ikinci zirvə isə vurğunu təmin edir.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 133; F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 49-50.

ДВУВЕРШИННАЯ ИНТОНАЦИЯ - alm. zweigipfelige Intonation (f), ing. double peak intonation /d∧bl pi:k ˌɪntəˈneɪʃ(ə)n/, fr. ton à double sommet, azərb. cützirvəli intonasiya. – Cümlənin intonasiya konturunda iki zirvə aydın görünür. Məs.: Azərb. d. /Onlar oxuyurdular, biz yazırdıq//.



F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 13.

ДВУХФОКСНЫЙ - alm. mit zwei Focusen, ing. bifocal sound /ˈbaɪˈfəuk(ə)l saund/, fr. bifocusal, azərb. cütkeçidli, cütfokuslu. - Tələffüzü zamanı dilin ön və arxa hissəsinin müvafiq olaraq sərt və yumşaq damağa doğru qalxması nəticəsində yaranan səs. Bu cür tələffüz məxrəci /ʃ/ və /ʒ/

downloaded from KitabYurdu.org

samitlərində müşahidə olunur. Məs.: rus d. /'ʃaʃka/; Azərb. d. /ʃɪʃ/; alm. d. /'ʃø:n/ (gözəl); ing. d. /'fɪʃ/ (balıq) və s.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 105.
ДВУЧЛЕННОЕ ПРЕДЛОЖЕНИЕ - alm. zweigliedriger Satz (m), ing. binominal (two-member) sentence /ˈbaɪˈnəumjəl (tu:ˈmembə) sentəns/, fr. proposition à deux termes, azərb. ikiüzvlü cümlə. - Baş üzvlərin ikisinin də iştirak etdiyi cümlə. Məs.: Azərb. d. /Anar oxuyur//.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 115.
ДВУЧЛЕННОЙ КОММУНИКАЦИИ ТЕОРИЯ - alm. zweigliedrige Kommunikationstheorie (f), ing. two-member communication theory /tu:ˈmembə kəˌmju:nɪˈkeɪʃən ˈ4ɪərə/, fr. théorie de comunication à deux termes, azərb. ikiüzvlü kommunikasiya (ünsiyyət) nəzəriyyəsi. - Hər bir cümlədə bir-birinə qarşı qoyulan iki mərkəzin olduğunu fərz edən nəzəriyyə. Gənc qrammatiklər cümləni psixiloji mübtəda və psixoloji xəbərə bölürdülər. Onlardan sonra Praqa dilçilik məktəbinin banilərindən biri V. Matezius (1882-1945) cümlənin kommunikativ üzvlənməsi ideyasını irəli sürdü. Bu nəzəriyyəyə görə cümlə yeni (rema) və köhnədən (temadan) ibarət olur. Adətən tema əvvəl, rema isə sonra gəlir. Məs.: Azərb. d. /Anar/ kitab oxuyur// və ya /Kitabı/ Anar oxuyur//. Rema qabağa keçdikdə cümlə daha çox çalarlıq qazanır. Məs.: Azərb. d. /Danışır Bakı// və /Bakı danışır//.
В.Матезиус. О так называемом актуальном членении предложения. ПЛК, М., 1967, s. 239-246; F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 344-345.
ДВУЧЛЕННОСТЬ - alm. Zweigliedrigkeit (f), ing. binominal character /baɪ ˈnaʊmjəl ˈk5rɪktə/, two-member structure /tu:ˈmembə strʌktə/, fr. à deux termes, azərb. ikiüzvlülük. - Aktual üzvlənmə zamanı cümlənin iki vasitəsiz tərkibə bölünə bilməsi, bölünməsi.
В.Матезиус. О так называемом актуальном членении предложения. ПЛК, М., 1967, s. 239.
ДВУЧЛЕННЫЙ ВОПРОС - alm. alternative Frage (f), zweigliedrige Frage (f), ing. alternative question /ɔ:lˈtə:nətiv kwestʃən/, fr. question à deux termes, azərb. ikiüzvlü sual (alternativ sual). - Dinləyicidə (tərəf müqabilində) iki mümkün cavabdan birinin seçiminə şərait yaradan sual. Məs.: Azərb. d. /Bakıya gedirsən, yoxsa Şəkiyə//.
C.Axundov. Göstərilən əsər.
ДВУЯЗЫЧИЕ (БИЛИНГВИЗМ) - Zweisprachigkeit (f), Bilinguismus (m), ing. bilingual /baɪˈlɪŋgw(ə)l/, fr. bilinguisme, azərb. ikidillilik. - İki dildə yazmaq və danışmaq qabiliyyəti, müxtəlif ünsiyyət səraitində tətbiq olunan ikidillilik. Çoxdilliliyin xüsusi forması. İkidillilik iki cür başa düşülür: 1) Fərdi bilinqvizm. Bu, fərdin iki dildə fikir ifadə etmək qabiliyyəti deməkdir. Son dövrlərin tədqiqatları göstərir ki, iki dil bir adamda eyni dərəcədə yanbayan mövcud ola bilməz. Bu mənada ikidilli

downloaded from KitabYurdu.org

fərd subordinativ (bir dilin ikinci dildən aslılığı) və ya koordinativ (hər iki dili eyni dərəcədə bilmək) olur. Ancaq sözün həqiqi mənasında koordinativ bilinqvzm mümkün deyildir; 2) Kollektiv və ya sosial ikidililik, diqlossiya. Bu cür ikidilliliyə iki dövlətin sərhəd bölgələrində rast gəlmək olur. Məs.: gürcü-Azərbaycan, Azərbaycan-rus sərhədlərindəki ikidillilik.
S.Erwin, Ch. E.Osgood. Second language learing and bilingualizm. Journal of Abnormal and Sosial Psychology. 49, Suppl, 1954, s. 134-146.

ДВУЯЗЫЧНЫЙ СЛОВАРЬ - alm. zweisprachiges (bilinguistisches) Wörterbuch (n), ing. bilingual dictionary /bɪˈlɪŋgwəl dɪkʃənərɪ/, fr. dictionnaire bilingue, azərb. ikidilli lüğət. - Bir dilin leksik tərkibinin və semantik mənalarının başqa dildə verilməsi. Məs.: Azərbaycanca-rusca və rusca-azərbaycanca, ingiliscə-azərbaycanca lüğətlər və s.
F.Y.Veysəlov (Veysəlli). Azərbaycanca-ingiliscə lüğət leksikoqrafiyamızda yeni mərhələ. «Azərbaycan məktəbi», 1997, ¹3.

ДЕГЛЮТИНАЦИЯ - alm. Deglutination (f), Metanalyse (f), Abtrennung (f), ing. metanalysis /metˈ5nəlaɪz/, fr. deglutination, azərb. parçalanma. - Söz başında sait, samit və ya hecanın dəyişməsi. Məs.: alm. d. /ra͡os/, «heraus» sözündən; fr. d. /boutique/ «apotheks» sözündəndir və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 125.

ДЕЕПРИЧАСТИЕ - alm. Gerundium (n), Adverbialpartizip (n), ing. adverbial participle /ˌədˈv8:bjəl pα:tɪsɪpl/, fr. gérondif, azərb. feli bağlama. – Müstəqil işlənməyən, cümlə daxilində əsas feldən asılı olduğu üçün hal-vəziyyət, zaman, səbəb-məqsəd və şərt məzmunu daşıyan, lakin şəxs, kəmiyyət bildirməyən sözlərə feli bağlama deyilir. Feli bağlamalar felə və zərfə aid olan xüsusiyyətləri özündə cəmləşdirir. Feli bağlamalar da zərflər kimi şəxsə görə dəyişmir. Lakin zərflərdən fərqli olaraq, feli bağlamalar cümlədə ikinci dərəcəli xəbər funksiyasında çıxış edir və nə etdi? nə edir? suallarına cavab verir. Feli bağlamalarla feli sifətləri ümumiləşdirən cəhət onların hər ikisinin növ, təsirlilik xüsusiyyətlərinə malik olmalarıdır. Onları bir-birindən fərqləndirən başlıca xüsusiyyət isə belə xüsusiyyətlərə malik olmamalarıdır. Feli bağlamanı feldən fərqləndirən əsas xüsusiyyət isə birincinin müstəqil tərzdə zaman, şəxs və kəmiyyət ifadə etməsidir. Çağdaş Azərbaycan dilində feli bağlamalar (-ıb)[4], (-dığım)[4], -a,-ə, (-dıqca)[4], (-ınca)[4], (-yınca)[4] və s. şəkilçiləri vasitəsilə düzəlir. Məs.: Azərb. d. /qayıdıb/, /bitib/, /yuyunub/, /anladığım/, /bildiyim/, /yana-yana/, /bilə-bilə/, /fırlandıqca/, /alınca/, /doymayınca/, /görməyincə/ və s. Alman dilində partisip I və II fərqləndirirlər. Partisip I indiki, partisip II isə keçmiş zamana aid etmək olar. Birincisi təyin və predikativ rolunda, ikincisi isə təyinlə yanaşı (məs.: der gesehricbene Brief / yazılmış məktub) mürəkkəb zaman formalarının düzəlməsində iştirak edir. Müq. et: der schreib+end+e Student (yazan tələbə) ↔ Der Student hat geschrieben (Tələbə yazıb). Der Student hatte geschrieben, Der Student wird geschrieben haben.
Y.Seyidov. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı, 2002, s. 353-356;

downloaded from KitabYurdu.org

W.Admoni. Der deutsche Sprachbau. München, 1982, s. 156-203.

ДЕЕПРИЧАСТИЕ НЕЗАВИСИМОЕ - alm. unabhängiges Gerundium (n), Adverbialpartizip (n), ing. independent adverbial participle /ɪndɪ'pendənt əd'vɜ:bjəl 'pɑ:tɪsɪpl/, fr. gérondif indépendant, azərb. müstəqil feli bağlama. - Feli bağlamanın ara söz funksiyasında çıxış etməsi. Məs.: Azərb. d. /buna baxmayaraq/, /misal olaraq/, /açığını desək/, /doğrusunu desək/, /sadəcə olaraq/ və s.

Y.Seyidov. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı, 2002, s. 353-356.

ДЕЕПРИЧАСТНЫЙ - alm. Partizipform (f), ing. adverbial participle /əd'vɜ:bjəl pɑ:tɪsɪpl/, fr. participial, azərb. feli bağlama. -Tərkibində feli bağlama olan, feli bağlama mənasına malik olan. Məs.: rus d. /записывающий студент/; alm. d. /der schreibende Student/; Azərb. d. /yazan oğlan/.

H.Bußmann. Göstərilən əsər, s. 563.

ДЕЕПРИЧАСТНАЯ КОНСТРУКЦИЯ - alm. Partizipialkonstruktion (f), ing. adverbial-participle phrase (construction) /əd'vɜ:bjəl pɑ:tɪsɪpjəl freɪz (kən'strəkʃ(ə)n)/, fr. construction participial, azərb. feli bağlama tərkibi. - Feli bağlamadan öncə işlənib onu izah edən və onunla qrammatik əlaqədə olan sözlərin həmin feli bağlama ilə birlikdə yaratdığı konstruksiya (tərkib). Məs.: Azərb. d. /Gecələr tonqal başında toplaşan gənclər, azadlıq haqqında fikirlərini açıqlayırdılar//; alm. d. /Durch wiederholte unermüdliche Versuche entmutigt, kehrte er zürück// (Davamlı yorulmaz cəhdlərdən ruhdan düşmüş halda o geri qayıtdı).

Th.Bungarten. Partizipialkonstruktionen in der deutschen Gegenwartssprache. Düsseldorf, 1976.

ДЕЕПРИЧАСТНЫЙ ОБОРОТ – Bax: Деепричастная конструкция ←.

ДЕЕПРИЧАСТНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. Partizipialsatz (m), ing. adverbial-participle sentence /əd'vɜ:bjəl pɑ:tɪsɪpjəl sentəns/, fr. proposition participialle, azərb. feli bağlaması olan cümlə. - Xəbəri feli bağlamadan ibarət olan cümlə. Məs.: rus d. /он выпивши//.

O.C.Ахманова. Göstərilən əsər, s.125.

ДЕЗАКЦЕНТУАЦИЯ (АТОНАЦИЯ) - alm. Akzentverlust (m), ing. desaccentuation /di: səksentʃʊ'eɪʃ(ə)n/, fr. désaccentuation, azərb. vurğunun itməsi, düşməsi. – Cümlədə söz mənası və funksiyası dəyişdiyindən vurğunun düşməsi. Məs.: Azərb. d. /tə'rəf/, ancaq /da"ğa̯ tərəf/ və s.

O.C.Ахманова. Göstərilən əsər, s.126.

ДЕЗАСПИРАЦИЯ - alm. Enthauchung (f), ing. deaspiration /di:aspə'reɪʃ(ə)n/, fr. désaspiration, azərb. dezaspirasiya, nəfəsliliyin itməsi. - Mövqedən asılı olaraq kar-partlayan samitlərdə nəfəsləşmənin itməsi. Məs.: ing. d. /p/, /t/, /k/ samitləri /s/-dan sonrakı mövqedə nəfəslilik keyfiyyətini itirir. Müq. et: ing. d. /speak/ (danışmaq), /steam/ (buxar), /skirt/

downloaded from KitabYurdu.org

(yubka).
О.С.Ахманова. Göstərilən əsər, s.126.

ДЕЗАФФИКСАЦИЯ - alm. Affixverlust (m), ing. desaffixation /di:ˈsafıkˈseıʃ(ə)n/, loss of inflection /lɔs əv ınˈflekʃən/, zero inflection (with a paradigm) /ˈzıərou ınˈflekʃən (wıðə p5rədaım)/, fr. désaffication, azərb. dezaffiksasiya, affiksin düşməsi. – 1) Sözdüzəltmədə və sözdəyişmədə affikslərin itməsi. Məs.: rus d. /входить/вход/ və s.; 2. Düzəltmə sözlərdən əsasın ayrılması və onun müvafiq nitq hissəsinin paradiqminə daxil edilməsi. Məs.: ing. d. /to chauffe < chauffeur/.
О.С.Ахманова. Göstərilən əsər, s.126.

ДЕЗАФФРИКАЦИЯ - alm. Desaffrizierung (f), ing. desaffrication /di:ˈsafrıˈkeıʃ(ə)n/, fr. désaffrication, azərb. dezaffrikasiya. - Tələffüzdə kipləşəmə xarakterinin itməsi. Məs.: rus dialeklərində /tʃ/ samitində kipləşmə düşür. Müq. et: bəzən /замечательный/ əvəzinə /замещательный/, /что/ əvəzinə /што/ tələffüz edilir.
О.С.Ахманова. Göstərilən əsər, s.126.

ДЕЙКСИС - alm. Deixis (m), Zeigart (f), Demonstrationsart (f), ing. deixis /ˈd∧ıksıs/, deictic function /ˈd∧ktık f∧ŋkʃn/, fr. deixis, azərb. deyksis. – Xüsusən işarə əvəzlikləri deyksis funksiyasını yerinə yetirirlər: 1) prosesin danışıq məqamındakı elementlərin jestlər və dil ifadələrilə göstərilməsi; 2) söyləmlərdə deyiliş məqamından asılı olaraq yer, şəxs və zaman strukturunun xüsusiyyət və ya funksiyasının göstərilməsi (deyktik ifadə). Bu mənada şəxs, yer və zaman deyksislərindən danışırlar. Deyktik ifadələr müəyyən mətn daxilində digər dil işarələrinə də aid ola bilər (anafor, sitat) və s. Təbii dil bütövlükdə deyktik komponentlərdən ibarətdir. Deyksis semantikanı praqmatika ilə birləşdirən vasitədir, çünki dil ifadələri praqmatik subsituasiyalardan yaranır. Məs.: biz auditoriyada mühazirə zamanı qəfildən desək ki, //yaman acmışam// bunun gerçəkliklə bağlılığını müəyyən etmək çətin olar. Müasir tədqiqatlarda deyksis semantika və ya praqmatika ilə birgə öyrənilir.
H.Buβmann. Göstərilən əsər, s. 163-164.

ДЕЙКСИС БЛИЗКОГО ПРЕДМЕТА - alm. Dieser-Deixis (m), ing. deixis of proximate object /ˈd∧ıksıs ov ˈprɔksımət ˈɔbʤıkt/, fr. deixis de lˈobjet proche, azərb. yaxın əşyaya işarə etmə. - Danışanın bilavasitə yaxınlığında yerləşən, danışıq anında adı çəkilmiş, məlum, müəyyən əşyalara işarə edilməsi. Məs.: Azərb. d. /bu, belə, buradakı, bugünkü/ və s.
О.С.Ахманова. Göstərilən əsər, s.126.

ДЕЙКСИС ВТОРОГО ЛИЦА - alm. Du-Deixis (m), ing. second-person deixis /ˈsekənd ˈpɜ:sn ˈd∧ıksıs/, fr. deixis de la deuxiˈme personne, azərb. ikinci şəxsə işarə edilməsi. - Müraciətin ünvanlandığı şəxsə işarə edilməsi, yəni ikinci şəxsə müraciət. Məs.: Azərb. d. /Sən çoxbilmişlik eləyirsən ha// və ya /Siz, hörmətli nazir…//.

downloaded from KitabYurdu.org

О.С.Ахманова. Göstərilən əsər, s.126.

ДЕЙКСИС ПЕРВОГО ЛИЦА - alm. Ich-Deixis (m), ing. first-person deixis /fɜ:st pɜ:sn ˈdʌɪksɪs/, fr. deixis de la premiére personne, azərb. birinci şəxsə işarə. - Danışan şəxsin özünə işarə etməsi. Məs.: Azərb. d. /Mən həmişə bu fikirdəyəm// və s.

О.С.Ахманова. Göstərilən əsər, s.126.

ДЕЙКСИС УДАЛЕННОГО ПРЕДМЕТА - alm. entfernter Deixis (m), ing. deixis of distant object /ˈdʌɪksɪs əv 'dɪstənt 'ɔbʤɪkt/, fr. déixis de lˈobjet éloigné, azərb. uzaq şəxsə işarə. - Uzaqda yerləşən, bilavasitə adı çəkilməyən, onun haqqında məlumatın danışığın sonunda veriləcək əşya. Məs.: Azərb. d. /elə, oradan, ona/ və s.

О.С.Ахманова. Göstərilən əsər, s.126.

ДЕЙКТИЧЕСКИЙ (ЭПИДЕЙКТИЧЕСКИЙ) - alm. deiktisch, ing. deictic /ˈdʌɪktɪk/ fr. déictique, azərb. deyktik. - İşarə edən, ayıran, fərqləndirən, danışan şəxslə bu və ya digər münasibətdə olan.

Bax: Дейксис ←.

ДЕЙСТВИТЕЛЬНЫЙ - alm. Aktiv (n), ing. active /'5ktɪv/, fr. actif, azərb. məlum. – 1) Tərkibində məlum növ feli və bu formadan asılı olan, onu aydınlaşdıran, izah edən söz; 2) Məlum növ formaları sisteminə aid olan Azərb., alm., ing. və rus d. aktivin feldə göstəricisi yoxdur. Müq. et: ing., alm., rus. d. /I read/, /ich lese/, /я читаю/, Azərb. d. /mən oxuyuram/ və s.

О.С.Ахманова. Göstərilən əsər, s.126.

ДЕЙСТВИЯ ИМЯ - alm. Name der Handlung (f), ing. action noun /'5kʃn naun/, fr. nom d'action, azərb. hərəkətin adı. - Fel əsasına müəyyən sözdüzəldici şəkilçilərin artırılması ilə yaranan isimlər. Məs.: Azərb. d. /gəlmə/, /yemə/, /süzmə/, /itirilmə/ və s.

M.İ.Adilov və b. Göstərilən əsər, s. 302.

ДЕЙСТВИЯ ОБЪЕКТ - alm. Objekt der Handlung (f), ing. object of action /'ɔbjekt əv '5kʃn/, fr. action dˈobjet, azərb. hərəkət objekti. – Feldə ifadə olunan hərəkətin ünvanlandığı (istiqamətləndirildiyi) şəxs və ya predmet. /Məs.: Azərb. d. /Mən <u>ona</u> <u>məktub</u> yazıram//.

Bax: Дополнение →.

ДЕЙСТВУЮЩЕЕ ЛИЦО - alm. Subjekt (n), ing. subject /'sʌbʤɪkt/, fr. personnage, sujet, azərb. hərəkətin həqiqi icraçısı. – Məs.: Azərb. d. /<u>Arif</u> məktəbdə işləyir//.

Bax: Подлежащее →.

ДЕКЛАМАЦИЯ - alm. Deklamation (f), ing. declamation /deklə'meɪʃ(ə)n/, fr. déclamation, azərb. deklamasiya. - Bədii mətnin məzmun, ekspressiv və emosional baxımdan daha dolğun verilməsi üçün istifadə olunan qiraət. Məs.: «Ölülərdə» kefli İskəndərin monoloqunun respublikanın xalq artisti R.Balayevin ifasında səsləndirilməsi.

downloaded from KitabYurdu.org

О.С.Ахманова. Göstərilən əsər, s.127.

ДЕКЛАРАТИВНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. Deklarativsatz (m), ing. declarative sentence /'deklə'rətɪv 'sentəns/, fr. proposition déclarative, azərb. deklarativ nəqli cümlə. – Təsdiq etmək, müəyyən etmək, demək fellərilə işlənən cümlə. /Qiymətlər düşür// cümləsi /Mən sənə deyirəm ki, qiymətlər düşür// cümləsindən əmələ gətirmək kimi başa düşülür.

H.Bußmann. Göstərilən əsər, s. 164.

ДЕКЛАРАЦИЯ – alm. Deklaration (f), ing. declaration /ˌdeklə'reɪʃ(ə)n/, fr. déclaration, azərb. məlum, bəyan etmə. Söylənilən fikir ondan əvvəl cərəyan edən hadisənin fakt kimi tamamlanması kimi götürülə bilər. Məs.: Azərb. d. /İclas açıq elan edilir// cümləsi faktın təsdiqidir.

Bax: Декларативное предложение ←.

ДЕКОДИРОВАНИЕ – alm. Dekodierung (f), ing. decoding /dɪ'kɔ:dɪŋ/, fr. décodage, décryptage, azərb. fikirin açılması, yozması. – Danışanın göndərdiyi məlumat dinləyici tərəfindən açılır. Bunun üçün dinləyənlə danışanın eyni dil sistemindən istifadəsi vacibdir.

H.Bußmann. Göstərilən əsər, s. 165.

ДЕКОМПОЗИЦИЯ (РАЗЛОЖЕНИЕ ОБРАТНОЕ) - alm. Dekomposition (f), ing. decomposition /ˌdi:kɔmpə'zɪʃ(ə)n/, fr. décomposition, azərb. dekompozisiya. – Alman alimi Y.Qrimmin ikidən artıq mürəkkəb tərkibləri göstərmək üçün işlətdiyi termin. Məs.: alm. d. /Straßen+bahn +fahr+gast/ˌ(tramvayda gedən sərnişin). Bu tərkib bir neçə üzvdən ibarət ola bilər. Məs.: /Dampf+schiff+fahrts+gesellschafts+direktor+gemahlin// (Gəmi tərsanəsi şirkət direktorunun arvadı) və s.

ДЕЛАБИАЛИЗАЦИЯ (ДИСЛАБИАЛИЗАЦИЯ) - alm. Entrundung (f), Delabialisierung (f), ing. delabialization /di:'leɪbɪəlʌɪzeɪʃ(ə)n/, unrounding /'ʌn'raundɪŋ/, fr. délabiasation, désarrondissement, azərb. delabializasiya, dodaqlanmanın itməsi. - Səsin tələffüzündə dodaqların iştirakının aradan qalxması ilə baş verən dəyişikliklər. Azərbaycan dilində dodaq saitlərinin tələffüzündə dodaqlanma dərəcəsi zəifləyir. Məs.: Azərb. d. /gülümsündü/ sözündə „ü“ qeyri-dodaq saiti „i“ kimi tələffüz olunur. Sözün sonunda dodaq saitləri delabializasiyaya uğrayır. Məs.: /oldı/, /gördi/ və s.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 103.

ДЕЛИМИТАТИВНАЯ ФУНКЦИЯ (ФУНКЦИЯ РАЗГРАНИЧИТЕЛЬНАЯ) - alm. abgrenzende (delimitative) Funktion (f), ing. delimitative function /dɪ'lɪmɪtətɪv fʌŋkʃn/, fr. fonction délimitative, azərb. zirvədüzəldici funksiya. – Sözdə həmişə eyni heca üzərinə düşən vurğu zirvədüzəltmə funksiyası yerinə yetirir. Azərb. d. vurğu axırıncı və polyak dilində sözün axırdan ikinci hecasının, çex dilində isə birinci hecanın üzərinə düşməklə söz zirvələrini müəyyən edir. İlk dəfə R.Yakobson vurğudan danışarkən bu funksiyanı demarkativ və distinktiv funksiyalarla bərabər xüsusi qeyd edir.

downloaded from KitabYurdu.org

R.Yakobson. Über die Beschaffenheit der prosodischen Gegensätze. Melanges de linquistique et de phonologie. Paris, 1937; F.Veysalov. Lehrbuch der deutschen Phonetik. Bakı, 1989, s. 195.

ДЕЛОВОЙ - alm. geschäftlich, ing. business /ˈbɪznɪs/, fr. d'affaire, azərb. işgüzar üslub. – Bu üslubda rəngarəng çalarlığa və genişliyə rast gəlinmir. Adətən dəftərxana (kargüzarlıq) üslubuna xas olan söz və ifadələrin işlədilməsi müəyyən üstünlük təşkil edir. Məs.: Azərb. d. /Verilir Məmmədova, ona görə ki,/; alm. d. /Hiermit wird bestätigt/ və s.

M.İ.Adilov və b. Göstərilən əsər, s. 69.

ДЕМАРКАТИВНАЯ ФУНКЦИЯ – alm. demarkative (abgrenzende) Funktion (f), ing. demarcative function /dɪːˈmaːkətɪv fʌŋkʃn/, fr. fonction démarcatif, azərb. sərhədləmə funksiyası. – Vurğu ilə yanaşı bu funksiyanı fonemlər də yerinə yetirə bilər. Məs.: alm. d. saitin knaklautla tələffüzü morfem və leksemlərin sərhədini göstərməyə xidmət edir. Müq. et: /fɛrˊ>a enɪgən/ (birləşdirmək), ancaq /fɛrˊra enɪgən/ (təmizləmək) və s.

Bax: Делимитативная функция ←.

ДЕМИНУТИВ – alm. Deminutiv (m), ing. deminitiv /ˈdemɪnɪtɪv/, fr. dˈmunitif, azərb. deminutiv. – Felin hərəkətinin zəifləməsini bildirir. Durativ fellərin → bir qrupunu təşkil edir. Alm. d. /l/ samitin artırmaqla düzəlir. Məs.: /hüsteln/ ↔ /husten/ (öskürmək), /spötteln/ ↔ /spotten/ (ələ salmaq).

H.Bußmann. Göstərilən əsər, s. 165.

ДЕМОТИЧЕСКИЙ ЯЗЫК – Bax: Египетский язык →.

ДЕНАЗАЛИЗАЦИЯ - alm. Entnasalierung (f), ing. denasalization /diːˈneɪz(ə)lʌɪzeɪʃ(ə)n/, fr. dénasalisation, azərb. burunlaşmanın itməsi. - Tələffüz zamanı burunlaşmanın itməsi, burun saitinin ağız saitinə keçməsi. Məs.: fr. d. /bɔ̃bɔ̃/ əvəzinə /bonbon/ desək onda burunlaşmanın itməsini müşahidə edirik.

O.C.Ахманова. Göstərilən əsər, s. 128.

ДЕНОМИНАТИВНЫЙ (ОТЫМЕННЫЙ) - alm. denominal, ing. denominative /dɪˈnɔmɪˈnətɪv/, fr. dénominatif, azərb. ismi. - İsimdən düzəlmiş söz. Məs.: Azərb. d. /gözːləmək/, /kədərːlənmək/, /ürəkːlənmək/ və s.

M.İ.Adilov və b. Göstərilən əsər, s. 253.

ДЕНОТАТИВНЫЙ - alm. denotativ, ing. denotative /dɪˈnɔtətɪv/, fr. dénotatif, azərb. denotativ. – 1) Sözün ifadə etdiyi əşya, predmet, şəxs və s.; 2) Dil vahidinin denotatı (məs.: şair) klassın fərdlərini, üzvlərini bildirir. Məs.: J.V. fon Göte, Şekspir və s. Halbuki desiqnat klassın özünə aid olur.

H.Bußmann. Göstərilən əsər, s. 166.

ДЕНОТАЦИЯ - alm. Denotation (f), Bezeichnung (f), ing. denotation /dɪˈnoutеɪʃən/, fr. dénotation, azərb. ad, məzhəb. - „Sözün denotasiyası onun başqa yardımçı mənalarından (emosiya, başqa təsir) fərqli olaraq məfhumi mənasının məzmunudur, yəni sözün məzmun nüansları və çalarlıqları nəzərə alınmayan, sözün birbaşa məfhumi mənası nəzərdə tutulur".

downloaded from KitabYurdu.org

Bax: F.Yadigar (Veysəlli). GDG, s. 163.
Denotasiya konnotasiyaya qarşı qoyulur. Məs.: Azərb. d. /gecə/ sözünün denotasiyası günəşin çıxmasından batmasına qədərki vaxtı əhatə edir. Həmin sözün konnotasiyası isə /tənha/, /romantik/, /qaranlıq/ anlayışlarını əhatə edir. Bundan başqa denotat müəyyən bir əşyanı və hadisəni bildirir. Məs.: dildəki leksemlər ya ismi, ya feli, ya da digər nitq hissələrinin siniflərini göstərir; denotat isə konkret bu və ya digər nitq hissəsini ifadə edir. Tək halda mövcud obyektlərdə denotasiya və desiqnasiya üst-üstə düşür. Məs.: Azərb. d. /yer/, /günəş/, /Allah/ və s.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 163.
ДЕНТАЛЬНЫЙ (ЗВУК) - alm. Zahnlaut (m), ing. dental (sound) /ˈdentəl /saund/, fr. dentale, azərb. dental, dis səsi. – Klassik fonetikada dilin ucunun üst dişlərin yuvaqlarına sıxılması ilə əmələ gələn samitləri belə adlandırırlar: /d/, /t/, /s/, /z/, /l/, /n/. Bu cür izahat məqbul sayıla bilməz, çünki burada qeyri-fəal üzvlər təsnifə cəlb olunur. Ancaq Şerba məktəbi onları fəal üzvün adına müvafiq olaraq dilönü samitlər adlandırır.
F.Veysalli. Einführung in die Phonologie. Baku, 2004, s. 118.
ДЕНТО-ЛАБИАЛЬНЫЙ - alm. Labiodental (m), Lippenzahnlaut (m), Zahnlippenlaut (m), ing. labio-dental /ˈleɪbɪou ˈdentl/, fr. labio-dental, azərb. diş-dodaq samiti. - Tələffüzü zamanı alt dodağın üst dişlərə qismən yaxınlaşması ilə yaranan samitlər. Məs.: /f/, /v/.
F.Veysalli. Einführung in die Phonologie. Baku, 2004, s. 118.
ДЕПАЛАТАЛИЗАЦИЯ - alm. Depalatalisation (f), ing. depalatalization /di:ˈp5lətəlaɪˈzeɪʃ(ə)n/, fr. dépalatalisation, azərb. depalatallaşma, damaqlaşmanın itməsi. - Səsin tələffüzü prosesində əsas məxrəcə əlavə olunan damaqlaşmanın (palatallaşmanın) itməsi. Məs.: rus d. /st'ep'/ ← /s't'ep'/, /sjest/ ← /s'jest/ və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 167.
ДЕРЕВО - alm. Baum (m), ing. tree /tri:/, fr. arbre, azərb. ağac. - Cümlənin tərkib hissələri arasındakı sintaktik əlaqələri əyani təsvir etmək məqsədi daşıyan diaqram. Klassik dilçilikdə ağac modelindən dillərin yaranmasının, transformasion dilçilikdə isə sintaktik strukturların daxili münasibətini açıb göstərmək üçün istifadə edilir. Məs.:

downloaded from KitabYurdu.org

ağac
törəmə dillər

ulu dil
S – cümlə
IS – ismi söyləm
FS – feli söyləm
S - sifət
I - isim
Z - zərf
M – məsdər
F - fel

cümlə



/İncə mətləbləri tez açmaq olmur//
F.Veysəlli. SDƏ. Bakı, 2005, s.15; F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 324. LES.

SLAVYAN DİLLƏRİNİN QOHUMLUQ ŞƏCƏRƏSİ



downloaded from KitabYurdu.org

ДЕРИВАЦИОННЫЙ - alm. derivationell, ing. derivational /ˌderɪˈveɪʃnəl/, fr. de dérivation, azərb. sözdüzəltmə. – Söz kökünə və ya əsasına sözdüzəldici şəkilçi artırmaqla yeni söz düzəltmə. Məs.: Azərb. d. /əkin + çi/, /əkinçi-lik/ və s.
M.İ.Adilov. və b. Göstərilən əsər, s. 253.

ДЕРИВАЦИЯ (АФФИКСАЛЬНОЕ СЛОВООБРАЗОВАНИЕ) - alm. Ableitung (f), Derivation (f), ing. derivation /ˌderɪˈveɪʃn/, fr. dérivation, azərb. sözdüzəltmə. - Müəyyən dilə məxsus sözdüzəltmə modelləri əsasında yeni sözlərin düzəldilməsi. German dillərində bu müxtəlif yolla ola bilər. Birincisi, buraya sözönlərilə düzələn sözləri aid etmək olar. Məs.: alm. d. /tragen/ (daşımaq), /beitragen/ (töhvə vermək), /Beitrag/ (töhvə); 2) Söz kökünə şəkilçi əlavə etməklə yeni sözlər düzəltmək olur (bu türk dillərində çox önəmli vasitədir). Məs.: /schön/ (gözəl) /+heit/=/Schönheit/ (gözəllik); 3) daxili fleksiya, yəni fonem əvəzlənməsilə yaranan sözlər. Məs.: ing. d. /tʃɛlist/ (violençelist) ← /tʃɛlɛʊ/ (violençel); 4) felin məsdər şəkli atılır və yeni söz yaranır. Məs.: /schauen/ (baxmaq) → /Schau/ (tamaşa) və s.
H.Bußmann. Göstərilən əsər, s. 170.

ДЕРИВАЦИЯ ВТОРИЧНАЯ - alm. sekundäre Ableitung (f), ing. secondary derivation /ˈsekəndrɪ ˌderɪˈveɪʃ(ə)n/, fr. dérivation secondaire, azərb. ikinci sözdüzəltmə. - Düzəltmə sözdən şəkilçi vasitəsilə yeni sözün düzəldilməsi. Məs.: Azərb. d. /dəmir+çi+lik/

ДЕРИВАЦИЯ ПЕРВИЧНАЯ - alm. primäre Ableitung (f), ing. primary derivation /ˈpraɪmərɪ ˌderɪˈveɪʃən/, fr. dérivation initialle, primaire, azərb. ilkin sözdüzəltmə. - Söz kökündən sözdüzəldici şəkilçi vasitəsilə yeni söz düzəltmə. Məs.: Azərb. d. /dəmir - dəmir-çi/, /yol - yol-çu/, /su - su-lu, su - su-suz/ və s.

ДЕСЕМАНТИЗАЦИЯ - alm. Desemantisierung (f), ing. loss of meaning /lɔs əv 'miːnɪŋ/, fr. désémantisation, azərb. mənanın itməsi. - Sözün öz leksik mənasından uzaqlaşıb qrammatik mənanın ifadəçisinə çevrilməsi. Məs.: Azərb.d. /olmaq/, /etmək/ sözləri qismən də olsa, öz leksik mənalarından uzaqlaşıb qrammatik məna ifadə edirlər. /Xəbər vermək/, /göz eləmək/, /dost olmaq/, /düşmənçilik etmək/, /nifrət etmək/ və s. alm.d. /laut/ (səs) sözü öz leksik mənasını itirərək sözönü /laut/ (rəğmən) kimi işlənir.

ДЕСИГНАТ (ОБОЗНАЧАЕМОЕ) - alm. Designatum (n), ing. designate /ˈdezɪɡneɪt/, signified /ˈsɪɡnɪfaɪd/, denotatum /ˌdiːnəuˈteɪtəm/, fr. signifié, azərb. işarə olunan, işarələnən, desiqnat. - Danışıqda işarələnən real aləmin proses, keyfiyyət və əşyalarının (predmetlərinin) şüurda əks olunması: 1) denotat; 2) qlossematikada məzmun səviyyəsində forma ilə (linqvistik aspekt) substansiya (dildaxili aspekt) arasındakı əlaqə.
H.Bußmann. Göstərilən əsər, s. 170.

downloaded from KitabYurdu.org

ДЕСИГНАТОР - alm. Designator (m), ing. designator /ˈdezɪgneɪtə/, fr. signifiant, azərb. desiqnator. – İşarə nəzəriyyəsində (semiotikada →) real aləmin müşahidə olunan əlamətləri. İşarəni qəbul edən əmindirsə ki, nəzərdə tutulan obyekt desiqnator vasitəsilə ona xas əlamətlərə malikdir, deməli, informativ eynilik əldə olunub.
Ch. W. Morris. Sing, language and bchavior. N.-York, 1946.

ДЕСКРИПТИВНАЯ ГРАММАТИКА - alm. deskriptive (beschreibende) Grammatik (f), ing. descriptive grammar /dɪsˈkrɪptɪv ˈɡræmə/, fr. grammaire descriptive, azərb. deskriptiv qrammatika. - Müasir dilçilikdə Amerika strukturalizmini təmsil edən dilçilik cərəyanıdır. Dil strukturunun formal elementlərini, onun məna (məzmun) cəhətini nəzərə almadan distributiv metodla təsviri, daha doğrusu, müəyyən dilə məxsus qaydalar üzrə dil elementlərinin paylanmasının və düzülüşünün təsviri. Z.Hərris yazır ki, deskriptiv dilçiliyin əsas məqsədini dil vahidlərinin bir-birinə münasibətdə paylanmasını və ya düzülüşünü müəyyənləşdirmək təşkil edir. Distributiv istiqamətin banisi sayilan Z.Hərris dil vahidlərini, onların paylanması və əhatəsi qaydalarını öyrənməklə müəyyənləşdirir və buna da əsasən nail olur. O, dilin vahidlərini məna fərqləndirə bilmələrinə görə deyil, mümkün əhatələrin hamısı mənanın iştirakı olmadan danışıq zəncirinin parçalanması (danışıq aktının üzvlənməsi) və bu zaman alınan seqmentlərin distribusiyası ilə dəqiqləşdirilir. Deskriptiv dilçilik aşağıdakı funksiyalardan çıxış edir: 1. a) dilin təsviri sinxron olmalıdır; b) ayrı-ayrı dillər konkret dil materialları əsasında təsvir olunmalıdır; c) pozivitist göstəricilər, yəni distributiv təhlilə söykənən obyektiv faktlar əsas götürülməlidir; 2. Geniş mənada dil hadisələrinin təkrarlanan hallarını nəzərə almaqla bütün variantları qeyd edən qrammatika yaradılmalıdır.
Z.Harris. Struktural Linguistics. London, 1969.

ДЕСКРИПТИВНЫЙ МЕТОД - alm. deskriptive Methode (f), ing. descriptive method /dɪsˈkrɪptɪv ˈme4əd/, fr. méthode descriptive, azərb. deskriptiv (təsviri) metod. – Konkret dilin danışıqda, danışıq aktında işlənməsini əsas götürərək onun sırf sinxron təsvirini verir. Bu metod emprik poztivist prosesə əsaslanaraq hər bir dil səviyyəsinin distributiv mənzərəsini açıb göstərir. Amerikada aboriqenlərin dillərinin tədqiqi sayəsində formalaşan bu metod hər bir dil səviyyəsində emik (fonem, morfem, leksem və s.) və etik (allofon, allomorf, alloleksem) qarşılaşmaları üzə çıxardır.
F.Veysəlli. SDƏ. Bakı, 2005.

ДЕТЕРМИНАНТ - alm. Determinant (m), ing. determinant /dɪˈtə:mɪnənt/, fr. déterminant, azərb. determinant. – Müəyyən sözlə (məs.: artikl, işarə əvəzlikləri və s.) sonra gələn hissəni müəyyənləşdirir. Məs.: Azərb. d. /Sabah istirahət günü olduğu üçün işdən tez çıxdım// cümləsində zaman müəyyənləşdirilir. Həmçinin (bu, o, elə, belə) sözləri də təyin edir və ya anaforik funksiya yerinə yetirir. Məs.: alm. d. /Ich sehe ein Dorf// (Mən bir kənd görürəm) cümləsinin davamı kimi deyə bilərik /Das sehe ich von hier// (Onu mən buradan görürəm). Burada biz heç cür /die/ işlədə bilmərik.
H.Bußmann. Göstərilən əsər, s. 172.

downloaded from KitabYurdu.org

ДЕТЕРМИНАЦИЯ (ОДНОСТОРОННЯЯ ЗАВИСИМОСТЬ) - alm. Determination (f), ing. determination /dɪˌtəːmɪˈnéɪʃən/, fr. détermination, azərb. determinasiya. – 1. Bax: Определение →. 2. Qlossematikada iki funktiv arasında olan asılılıqdır. Bu zaman həmin funktivlərdən biri digərini (ikitərəfli yox) sintaktik cəhətdən təyin edir; bir üzvün digərini (ikitərəfli yox) təyin edən sintaktik asılılıq. Məs.: /dəmir qapı/. Burada /dəmir/ /qapını/ təyin edir.
H.Bußmann. Göstərilən əsər, s. 172-173.

ДЕТСКАЯ РЕЧЬ - alm. Kindersprache (f), Babbeln (n), ing. babbling speech /ˈbab(ə)lɪŋ spiːʧ/, nursery /ˈnɜːs(ə)rɪ/, fr. langage enfantin, (discours enfantin), azərb. uşaq dili. – Uşaq dili körpəlik dövründən başlayır və 8-10 yaşa qədər davam edir. İlk dövlərdə bu danışıq üzvlərinin qeyri-ixtiyari hərəkətlərinin nəticəsi kimi yaranırsa, sonralar bu dilin sistem və struktur qaydalar əsasında formalaşır.
Р.Якобсон. Детский язык, афазия и общие звуковые законы. 1949-cu il (Stokholm), almanca nəşrindən tərcüməsi, «Son söz» və «Şərhlər» prof. F.Yadigarındır (Veysəlli). Bakı, 1993; А.Н.Гвоздев. Вопрсы изучения детской речи. М., 1964; F.Veysəlova (Fəxri). Uşaq dilinin formalaşması və inkişafı problemləri. ND, Bakı, 2002.

ДЕТСКИЕ СЛОВА - alm. Kinderwörter (Pl.), ing. baby- (nursery-) words /ˈbeɪbɪ (ˈnɜːs(ə)rɪ) wɜːdz/, fr. mots-enfantins, azərb. uşaq sözləri. - Uşaq danışığını səciyyələndirən və lüğət tərkibinin cüzi bir hissəsini təşkil edən sözlər. Bu sözlərə uşaqlar dil açmağa başladıqları andan yiyələnirlər. Bu sözlər xüsusi ekspressiv çalarlığa malikdirlər və, adətən, həmən dildəki normal sözlərin fonetik tərkibinin sadələşdirilməsi istiqamətində dəyişdirilməsi yolu, ya səs təqlidi, alliterasiya və s. vasitələrlə düzəldilir. Məs.: Azərb. d. /bəbə/, /qaqaş/, /ham-ham/, /tık-tık/ və s.
F.Veysəlova (Fəxri). Göstərilən əsər.

ДЕТСКИЙ ЯЗЫК - alm. Kindersprache (f), ing. baby /ˈbeɪbɪ/, little (nursery) language /ˈlɪtl /ˈnɜːsərɪ/ ˈlæŋgwɪʤ/, fr. langue enfantin, azərb. uşaq dili. - Kiçik yaşlı uşaqların dilidir və bir sıra özünəməxsus xüsusiyyətlərə malikdir: fonem sistemi bəsitdir, fonoloji qarşılaşma və qrammatik qaydalar məhduddur, sadədir; morfoloji baxımdan analoji düzəltmələr gen-boldur, sintaktik quruluşu primitivdir.
M.Holzmann. The language of Children. Cambridge, 1997.

ДЕФЕКТИВНЫЙ (НЕДОСТАТОЧНЫЙ) - alm. defektiv, ing. defective /dɪˈfektɪv/, fr. défectif, azərb. qüsurlu, çatışmayan. - Öz paradiqmində müəyyən nitq hissəsinə məxsus bütün əlamətlərə malik ola bilməyən. Məs.: alm. d. /heutig/ (bugünkü), /dortig/ (oradakı) və s. yalnız təyin kimi işlənə bilirlər. Latın dilində «demək» mənasında olan /aio/ feli bəzi zamanlarda və şəxslərdə işlənirdi.
P.H.Matthews. Göstərilən əsər, s. 89.

ДЕФЕКТНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. defekter Satz (m), ing. defective

downloaded from KitabYurdu.org

sentence /dɪˈfektɪv sentəns/, fr. proposition défective, azərb. qüsurlu cümlə. - Mübtədası və ya xəbəri buraxılan, lakin təsəvvür edilə bilən cümlə. Məs.: Azərb. d. /Kimini güldürür, kimini ağladır (həyat)//; rus d. /Они, оказалось, казаки//(были) və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 130.

ДЕФЕМИЗМ (ДИСФЕМИЗМ) - alm. Dephemismus (m), ing. Dephemism /dɪ:fɪmɪzm/, fr. défémisme, azərb. defemizm. - Müəyyən mətndə hər hansı predmetin təbii adının əvəzinə nisbətən vulqar, familyar və kobud ifadələrin işlənməsi. Məs.: Azərb. d. /Onun başı/ əvəzinə /onun kəlləsi/ ifadəsinin işlədilməsi.
O.C.Ахманова. Göstərilən əsər, s. 137.

ДЕФИНИТИВНЫЙ - alm. definitiv, ing. definitive /ˈdefɪnɪtɪv/, fr. définitif, azərb. definitiv (təyini). - Təyinə aid olan, təyin funksiyasında çıxış edən. Məs.: Azərb. d. /ikibaşlı əjdaha/. Müəyyən artikl, xüsusi adlar aid olduqları referentləri sox dəqiq müəyyən edirlər. Məs.: alm. d. /Jakob/, ancaq /Der Jakob/, /der Rhein/ və s.
H.Bußmann. Göstərilən əsər, s. 160.

ДЕФИНИЦИЯ – alm. Definition (f), ing. definition /ˌdefɪˈnɪʃ(ə)n/, fr. définition, azərb. müəyyən etmə, təyin etmə. – Dil ifadələrinin mənasının müəyyənləşməsi. Formal şəkildə elmi tərif naməlumdan (definendum), yəni müəyyən edilən və məlumdan (definiens), yəni təyin edəndən ibarət adekvatlıq münasibətinin müəyyən edilməsidir. Dilin təsvirində aşağıdakı üsullar məqbul sayılır: a) real definisiya: əşyanın və ya konkret məfhumun ümumi anlayışlar və xüsusi göstəricilərinin köməyilə təyin edilməsi. Məs.: kipləşən-partlayışlı səs elə bir samitdir ki, o, kipləşmə və onun partlaması ilə yaranır. Definisiya təyin edilən məfhumun mahiyyətini açmalıdır, o nə mənfi, nə də müsbət olmalıdır. Müəyyən edilən məfhumlar (ümumi və spesifik baxımdan) kifayət qədər və dolğun müəyyən edilməlidirlər; b) xüsusi definisiya operasional definisiyadır, o, məfhumun yaranmasını yoxlaya bilir. Məs.: cümlə üzvləri cümlə daxilində sintaktik vahidlərdir, onlar sərbəst şəkildə yerlərini dəyişə bilərlər; c) nominal definisiyalar, bunlar adlara, məfhumlara və digər ifadələrə aiddir. Təyin edənlə təyin olunan arasındakı münasibətlərin müəyyənləşdirilməsi. Təyin edəndə variativlik mümkün deyilsə, bu təyin ediləndə də mümkün ola bilməz; ç) indikativ definisiya. Onlar sonsuz çoxlu obyektlərin siniflərini bazis elementlərinin və müəyyən miqdar birləşmə qaydalarının köməyilə müəyyən edir. Qrammatikada dilin qrammatik cəhətdən düzgün ifadələrinin çoxluğu müəyyən edilir. Məs.: düzgün qurulmuş induktiv definisiyası belədir: a) hər bir ifadənin variantlığı A dildə (L) düzgün qurulmuş A-dır; b) dilin (L) ifadəsi A-dırsa, onda qeyri-A da dilin ifadəsidir; c) A_1 və A_2 L-in ifadələridir. Bu qaydalarla düzəlməyənlər L-in düzgün qurulmuş ifadələri ola bilməzlər.
T.Pawlawski. Begriftsbidung und Definition. Berlin, 1980.

ДЕФИС (ЧЕРТОЧКА) - alm. Bindestrich (m), ing. hyphen /ˈhaɪf(ə)n/, fr. trait, d'union, (petit trait), azərb. defis. – Yazıda istifadə olunan ən qısa

downloaded from KitabYurdu.org

üfüqi işarədir. Azərbaycan yazısında defis işarəsi aşağıdakı hallarda qoyulur: 1) Mürəkkəbləşmiş sözlərin və ifadələrin arasında: /ala-bəzək/, /ad-san/ və s.; 2) Söz hissələri arasında: a) sətirdən sətirə keçirmədə: /işlə-yir/, /dola-yır/ və s.; b) ayrıca yazılan şəkilçidən əvvəl: /-dan, -çi/ və s.; c) miqdar saylarını bidirən rəqəmlə şəkilçi arasında: /9-cu/, /2-ci/ və s. Bundan əlavə dilimizdə defisin işlənməsinin 35 qaydası məlumdur.
Ə.Dəmirçizadə. Müasir Azərbaycan dili (Fonetika, orfoepiya və orfoqrafiya). Bakı, 1972, s. 280.

ДЕФОНОЛОГИЗАЦИЯ - alm. Dephonologisierung (f), Entphonologisierung (f), ing. dephonologization /dɪ:fə'nɔlədʒɪzeɪʃ(ə)n/, fr. déphonologisation, azərb. fonoloji dəyərin itməsi. - Müəyyən dildaxili (intralinqvistik) dəyişmələr nəticəsində dilin fonoloji sistemində bu və ya digər fonemin müstəqillik statusunu itirməsi. Məs.: alm. d. /ɛ:/ öz fonolji müstəqilliyini itirərək /e:/ fonemində birləşir. /ɛ:/ /e:/. Müq. et: «Ähre» /ɛ:rə/ (sünbül), «Ehre» /e:rə/ (namus). İndi bu sözlər eyni /e:/ saitilə tələffüz olunaraq omonimə çevrilmişlər.
F.Veysalli. Einführung in die Phonologie. Baku, 2004.

ДЕЭТИМОЛОГИЗАЦИЯ (ОПРОЩЕНИЕ) - alm. Deetimologisierung (f), ing. de-etymologization /di:etɪmɔlədʒʌɪ'zeɪʃ(ə)n/, fr. déétymologisation, azərb. etimoloji əlaqənin itməsi (sadələşmə). - Müəyyən sözün ilkin (törədici) köklə etimoloji əlaqəni itirməsi. Düzəltmə və mürəkkəb sözlərin tərkibinə daxil olan morfemlərin fuziya (sərhədlərin itməsi) nəticəsində sözün sadələşməsi. Məs.: ing. d. /lady/ (xanım) sözü qədim ingilis dilindəki /hlāf-dige/ sözündəndir; rus d. /товар/ türk dilindəki /davar/ sözündəndir və s.
Ю.С.Маслов. Введение в языкознание. М., 1987, s. 261.

ДЕЯТЕЛЬ (АГЕНС) - alm. Agens (n), ing. agens /eɪdʒ(ə)ns/, fr. agent d'action, azərb. iş və ya hərəkətin icracısı.
Bax: Агенс ←.

ДИАКРИТИКА - alm. Diakritik (f), ing. diacritic /dʌɪə'krɪtɪk/, fr. diacritique, azərb. diakritik. – (yunanca dia-içindən, kritik-ən kiçik deməkdir). – Transkripsiyada seqmentin üstündə, yanında və ya altında yazılmaqla ona yeni fonoloji dəyər verir. Məs.: /a:/-da uzunluğu, /ä/-da umlautu, /ᵊa/-da knaklautu və s. bildirir.
A Handbook of İnternational Phonetik Alphabet. 1996.

ДИАКРИТИЧЕСКИЙ ЗНАК - alm. diakritisches Zeichen (n), ing. diacritical sign (mark) /dʌɪə'krɪtɪk(ə)l saɪn /ma:k/, fr. signe diacritique, azərb. diakritik işarə. - Yazıda qrafemin yan, alt və üst tərəflərində qoyulan ən kiçik əlavə işarədir. O, fərqli əlaməti göstərməyə xidmət edir. Azərbaycan dilində /o/, /u/, /ı/ saitlərinin üzərindəki işarə onların /ö/, /ü/, /i/ kimi dəyərləndirilməsini bildirir. Diakritik işarələrdən daha çox transkripsiya zamanı istifadə olunur. Beynəlxalq Fonetika Əlifbasında əsas işarələrlə yanaşı dünya dillərinin fonoloji təsvirində istifadə olunan bütün diakritik

downloaded from KitabYurdu.org

işarələrin siyahısı verilib. Ən çox işlənən diakritik işarələr bunlardır: /ˊ/ (akut), /ˋ/ (qravis), /ˆ/ (sirkumfleks), /~/ (tilda), /-ʰ/ (nəfəslik), /.b/ (karlaşma), /- ᵒ/ (dodaqlanma) və s.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 329-330.

ДИАЛЕКТ - alm. Dialekt (m), Mundart (f), ing. dialect /ˈdaɪəlekt/, fr. dialecte, azərb. dialekt. - Ərazi, ictimai-sosial birlik daxilində işlədilən dil. Məs.: Məs.: Azərb. d. Quba, Şirvan, Cənub, Qərb dialektlərinə bölünür. Almaniyada, İngiltərədə, Fransada və Rusiyada bir neçə dialekt mövcuddur. Dilin müxtəlif baxımdan üzvlənməsindən danışarkən E.Koseriu (1921-2002) diatopik və sintopik üzvlənməyə xüsusi yer verir. Birincisində dilin dialektləri, ikincisində isə vahid dil nəzərdə tutulur. İngilis-amerikan dilçiliyində isə dialekt vatiantlığın sinonimi kimi başa düşülür.
F.Veysəlli. GDG. Bakı, 2003, s.77-79; P.H.Matthews. Göstərilən əsər, s. 96.

ДИАЛЕКТ КЛАССОВОЙ (ЖАРГОН КЛАССОВОЙ) - alm. Klassendialekt (m), ing. class dialect /kla:s ˈdaɪəlekt/, class jargon /kla:s dʒɑ:gən/, fr. dialecte de classe jargon, azərb. sinfi dialekt. - Cəmiyyətdə müəyyən ictimai təbəqədə adamları birləşdirən dialekt növü. Məs.: ing. d. danışarkən saray dilini (Queens English) xüsusi qeyd edirlər.
Ю.С.Маслов. Введение в языкознание. М., 1987, s. 241.

ДИАЛЕКТ ЛИТЕРАТУРНЫЙ - alm. Literaturdialekt (m), ing. literary dialect /ˈlɪtərərɪ ˈdaɪəlekt/, fr. dialecte littéraire, azərb. ədəbi dialekt. - Ədəbi dilin əsasında duran dialekt növü. Məs.: Azərbaycanda Sirvan (Bakı), Almaniyada Berlin, İngiltərədə London, Fransada Paris və Rusiyada Moskva danışığı ədəbi dilin əsasını təşkil edir.
Ю.С.Маслов. Введение в языкознание. М., 1987, s. 244.

ДИАЛЕКТ ПЛЕМЕННОЙ - alm. Stammdialekt (m), ing. tribal (breeder) dialect /ˈtraɪbl /ˈbri:də/ˈdaɪəlekt/, fr. dialecte de tribu, azərb. tayfa dili. - Etnik cəhətdən fərqlənən dialekt növü. Məs.: Azərbaycanın cənub və şimal bölgələrində işlənən dialektlər.
M.Şirəliyev. Azərbaycan dilinin dialektoloji atlası. Bakı, 1962.

ДИАЛЕКТ ПРОИЗВОДСТВЕННЫЙ (ПРОФЕССИОНАЛЬНЫЙ) - alm. Produktionsdialekt (m), ing. production dialect /prəˈdʌkʃ(ə)nˈdaɪəlekt/, workshop slang /ˈwə:kʃɔp ˈslæŋ/, fr. dialecte de production, azərb. istehsalat dialekti. - İstehsalın müəyyən sahəsində çalışan adamları birləşdirən peşə dialekti, sənət və ixtisasla bağlı danışıq tərzi. Məs.: sürücülərin, dənizçilərin dili; rus d. /по блату/ oğruların dilində işlənir.
А.А.Реформатский. Введение в языковедение. М., 2001, s. 130.

ДИАЛЕКТ СОЦИАЛЬНЫЙ - alm. Sozialdialekt (m), ing. social dialect /ˈsouʃəl daɪəlekt/, fr. dialecte social, azərb. ictimai dialekt. - Hər hansı bir ictimai qrupun dialekti. Məs.: Ziyalıların danışıq tərzi, tələbə gənclərin danışıq tərzi və s.
Ю.С.Маслов. Введение в языкознание. М., 1987, s. 241.

downloaded from KitabYurdu.org

ДИАЛЕКТ ТЕРРИТОРИАЛЬНЫЙ (ДИАЛЕКТ МЕСТНЫЙ, ДИАЛЕКТ ОБЛАСТНОЙ) - alm. Terrtorialdialekt (m), ing. territorial (local) dialect /ˌterɪˈtɔ:rɪal /ˈloʊkəl/daɪəlekt/, fr. dialecte territoriale, (dialecte local) azərb. ərazi (yerli) dialekti. - Müəyyən coğrafi ərazidə yayılmış dialekt. Məs.: Borçalıda yaşayan azərbaycanlıların dialekti.
M.Şirəliyev. Göstərilən əsər.

ДИАЛЕКТИЗМЫ - alm. Dialektismen (Pl.), ing. dialectisms /daɪəlekɪzms/, fr. dialectismes, azərb. dialektizmlər. – 1) Bədii əsərlərdə üslubi vasitə kimi işlədilən dialekt sözləri; 2) Ədəbi dildə rast gəlinən hər hansı bir dialektə məxsus fonetik, qrammatik və leksik xüsusiyyətlər. Məs.: Almaniyanın cənubunda Bavariyada /a‿e/ diftonqu /ei/ (məs.: beikiʃ) kimi, Avstriyada sözün əvvəlində kar samitlər cingiltili (məs. /Paeərbax/əvəzinə /Bəiərpax/), Baden-Vürtemberqdə /p/ və /t/-dan əvvəl – /ʃ/ tələffüz olunur. Məs.: /iʃt/. Ədəbi dil normasına görə burada /s/ deyilməlidir.
F.Vejsalov (Vejsälli). Lehrbuch der deufechen. Phonetik. Baku, 1989.

ДИАЛЕКТНОЕ СЛОВО - alm. dialektales Wort (n), ing. dialect word /ˈdaɪəlektˈ wə:d/, fr. mot de dialecte, azərb. dialekt söz. – 1) Ədəbi dildə işlənən dialekt. Məs.: Azərb. d. «saxta» mənasında «donqli» sözü; 2) Hər hansı bir sözün ədəbi nümunəsindən fonetik, morfoloji və semantik cəhət-dən fərqlənən ərazi variantı. Məs.: Azərb. dilinin Qazax dialektində /gəlirəm/ əvəzinə /gəlerem/ işlənir.
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005.

ДИАЛЕКТНЫЙ (ДИАЛЕКТАЛЬНЫЙ, ДИАЛЕКТИЧЕСКИЙ) - alm. dialektal, mundartlich, ing. dialectal /daɪəlektəl/, dialect /daɪəlekt/, fr. dialectal, azərb. dialekt. - Dialektə aid olan, dialekti səciyyələndirən (ədəbi dildən fərqli olaraq); müəyyən dilin tərkibində dialektlərdən irəli gələn rəngarənglik.
Ю.С.Маслов. Введение в языкознание. М., 1987, s. 241-246.

ДИАЛЕКТНЫЙ СЛОВАРЬ - alm. dialektales Wörterbuch (n), ing. dialect dictionary /ˈdaɪəlekt ˈdɪkʃənərɪ/, fr. dictionnaire des dialectes, azərb. dialekt lüğəti. - Müəyyən dialektin sözlərini özündə cəmləşdirən və onların mənasını həmin dialektə məxsus tərzdə izah edən lüğət növü.
M.Ş.Şirəliyev. Azərbaycan dilinin dialektoloji atlası. Bakı, 1962.

ДИАЛЕКТОГРАФИЯ - alm. Dialektographie (f), ing. dialectography /ˈdʌɪəlektəɡrɑfi/, fr. dialectographie, azərb. dialektolqrafiya. - Dilin dialekt xüsusiyyətlərini müəyyənləşdirən elementlərin yayılma ərazisini öyrənən dialektologiya sahəsi. Buraya fonoloji, morfoloji və leksik sahədə dil mate-rialların toplanması, yazılı və şifahi sorğuların aparılması və spesifik məkan-ərazi əlamətlərini göstərən izoqlosslara söykənən xəritələrin hazırlanması mühüm əhəmiyyət kəsb edir. Almaniyada Marburq məktəbi, Azərbaycan da isə M.Şirəliyev (1909-1982) məktəbi bu sahədə xüsusi fərqlənirlər.

ДИАЛЕКТОЛОГИЧЕСКИЙ – Bax: Диалектология ←.

downloaded from KitabYurdu.org

ДИАЛЕКТОЛОГИЧЕСКИЙ АТЛАС - alm. dialektologischer Atlas (m), ing. dialectological atlas /ˈdʌɪəlektɔləʤɪkəl ˈatləs/, fr. atlas dialectologique, azərb. dialektoloji atlas. - Müəyyən dil ərazisində müxtəlif dialekt hadisələrinin yayıldığını göstərən xəritələr məcmusu. Dialektologiya sahəsində ilk əsər yazan J. Vinteler (1846-1929) olmuşdur.
J.Winteler. Die Kerenzer Mundart des Kantons Clarus in ihren Grundzügen dargelegt. Leipzig. 1876.

ДИАЛЕКТОЛОГИЧЕСКАЯ КАРТА - alm. dialektologische Karte (f), ing. dialectological map /ˈdʌɪəlektɔləʤɪkəl m5p/, fr. carte dialectologique, azərb. dialektoloji xəritə. - Müəyyən dilin ayrı-ayrı dialekt, ləhcə və şivə hadisələrinin yayılmasını göstərən xəritə.
H.Bußmann. Göstərilən əsər, s. 894-896.

ДИАЛЕКТОЛОГИЯ - alm. Dialektologie (f), ing. dialectology /ˈdaɪəlektɔləʤɪ/, fr. dialectologie, azərb. dialektologiya. - Hər hansı bir dilin dialekt, ləhcə və şivələrinin öyrənilməsilə məşğul olan dilçilik sahəsi. Dialektologiyanın hazırki səviyyəsi dialekt sərhədlərini (izoqlossları) müəyyənləşdirmək, dialekt+ədəbi dil, dialekt lüğətlərini və s. işləyib hazırlamaqdır. Azərbaycan dilçiliyində bu sahədə M.A.Şirəliyevin elmi xidmətləri böyükdür. V.M.Jirmunskinin «Deutsche Mundartkunde» (alman dilinə V.Flayşer tərəfindən tərcümə olunmub, Berlin, 1962) əsəri dialektologiya sahəsində çox sanballı tədqiqat işidir.
M.A.Şirəliyev. Azərbaycan dialektologiyasının əsasları. Bakı, 1962.

ДИАЛЕКТОЛОГИЯ СОЦИАЛЬНАЯ (ДИАЛЕКТОЛОГИЯ СОЦИАЛОГИЧЕСКАЯ) - alm. soziale Dialektologie (f), ing. social dialectology /ˈsouʃəl ˈdaɪəlektɔləʤɪ/, fr. dialectologie sociale, azərb. ictimai dialektologiya. - Dialektologiyada ictimai qrumların dialektlərinin öyrənilməsilə məşğul olan bölmə. Bu əsasən sosiodilçiliyin məşğul olduğu sahədir. Buna adətən sosiodialekt deyirlər.
H.Bußmann. Göstərilən əsər, s. 692.

ДИАЛОГ - alm. Dialog (m), ing. dialogue /ˈdaɪəlɔɡ/, fr. dialogue, azərb. dialoq. – Danışan və dinləyən arasındakı mükalimə. Bu zaman hər bir söyləm müsahibə (adresata) birbaşa ünvanlanır və bilavasitə danışığın mövzusu ilə məhdudlaşdırılır. Dialoq ifadələrin qısalığı, yığcamlığı, sintaktik quruluşunun sadəliyi və çevik intonasiya (xüsusilə sual-cavabda) qəlibilə seçilir. Məs.: Azərb. d.
- Eşitmişəm, təzə əsər yazmısan?
- Təzə olmağına təzə deyil, ancaq mövzu çox təzə və aktualdır.
- Nədir o təzə mövzu?
- Mövzu çox genişdir. Mən yazıram ki, görəsən biz demokratiya üçün yetişmişik?
- Əşi, işin-gücün qurtarıb. Sən yaz ki, bu il məhsul bol olacaq, ya yox? və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 71.

downloaded from KitabYurdu.org

ДИАПАЗОН - alm. Diapason (m, n), Spannweite (f), ing. diapason /ˌdaɪəˈpeɪsn/, range /reɪnʤ/, fr. étendue, diapason, azərb. diapazon. - Müəyyən linqvistik hadisələrin yayılması, onların funksiyalarının hüdudu. M.İ.Adilov və b. Göstərilən əsər, s. 71.

ДИАПАЗОН АРТИКУЛЯЦИОННЫЙ - alm. Artikulationsdiapason (m, n), ing. diapason of articulation /ˌdaɪəˈpeɪsn əv ɑ:ˌtɪkjuˈleɪʃn/, fr. diaposon d'articulation, azərb. tələffüz diazaponu. - Müəyyən dildə tələffüz üzvlərinin bütün hərəkətlərinin məcmusu.

Bax: Диапазон ←.

ДИАПАЗОН ЗВУКОВОЙ - alm. Lautdiapason (m, n), ing. phonetic diapazon /fouˈnetɪk ˌdaɪəˈpeɪsn/, fr. diapason phonétique, azərb. səs diapazonu. - Tələffüzü aşağı və yuxarı hüdudu arasındakı məsafə.



F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Bakı, 1989.

ДИАПАЗОН ПЛОТНОСТИ - alm. Diapasondichte (f), ing. density range /ˈdensɪtɪ reɪnʤ/, fr. diapason de compacité, azərb. sıxlıq diapazonu. - Mürəkkəb söz və söz birləşməsi tərkibində yanaşı işlənə bilən morfemlərin miqdarı. Məs.: alm. d. /ˈʊnˈtˌsɛrˈˈbrɛçˈlɪçˈkaˌet/ (sınmazlıq) və s. Bu sözdə 5 morfem vardır, onlardan ikisi sözönü (/ʊnˈtˌsɛr/), biri avtosemantik morfem (/brɛç/) və ikisi sözdüzəldici şəkilçidir (/lɪç/, /kaet/).

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 274-277.

ДИАПАЗОН СЕМАНТИЧЕСКИЙ - alm. semantischer Diapason (m, n), ing. semantic diapason (range) /ˈsem5ntɪk ˌdaɪəˈpeɪsn /ˈreɪnʤ/, fr. diapason sémantique, azərb. semantik diapazon. - Müəyyən dil vahidinin məzmununun genişliyi, hər hansı məzmun çalarlıqlarının dildə ifadəsi.

Z.Leisi. Der Wortinhalt. Seine Struktur im Deutschen und Englischen. Heidelberg, 1975.

downloaded from KitabYurdu.org

ДИАСТРАТИЧЕСКИЙ – alm. diastratisch, ing. deastratic /daıəstr5tı:k/, fr. diastratique, azərb. diastratik. – Bir dil sistemi daxilində sosio-mədəni layların göstərilməsi sinstratikə qarşı qoyulur.

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 77.

ДИАТОПИЧЕСКИЙ - alm. diatopisch, ing. diatopic /d∧ıə′t6pık/, fr. diatopique, azərb. diatopik. – Bir dil sistemi daxilində reqional müxtəlif-liyin şərhi. Sintopikə qarşı qoyulur.

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 77.

ДИАТЕЗА (ЗАЛОГ) - alm. Diathese (f), ing. diathesis (voice) /d∧ıaθəsıs

/vɔıs/, fr. diath′se, (voix), azərb. diatez. - Subyekt və obyekt arasındakı müxtəlif münasibətləri ifadə edən felin qrammatik kateqoriyası. Adətən felin aktiv, passiv və medium növləri fərqləndirilir. İş icraçısı qrammatik mübtəda olanda aktiv, qrammatik tamamlıq olanda isə passivdən danışmaq olar. Məs.: /O, məktub yazır/ (aktiv), /Məktub onun tərəfindən yazılır/ (pas-siv). Alm., ing. və rus d. passiv sintaktik səviyyədə, Azərb. d. isə morfoloji səviyyədə işlənir.

İ.Kərimov. Alman dilində passiv konstruksiyalar və onların Azərbaycan dilində qarşılığı. NDA, Bakı, 2005.

ДИАФОНА - alm. Diaphon (n), ing. diaphone /d∧ıəfoun/, fr. diaphone, azərb. diafon. - Tələffüzün bütün dialekt variantlarını əhatə edən və ona görə də konkret səs realizasiyasına malik olan səs. Məs.: ing. d. /pʊt/ (qoymaq) sözündəki sait dodaq səsi olmasına baxmayaraq Britaniyanın bəzi dialektlərində açıq, aşağı və daha çox mərkəzi sait kimi deyilir.

P.H.Matthews. Göstərilən əsər, s. 97.

ДИАХРОНИЧЕСКИЙ (ПАРАХРОНИЧЕСКИЙ) - alm. diachronisch, ing. diachronic /d∧ıəkrɔnık/, fr. diachronique, (parachronique), azərb. diaxronik. - Diaxroniyaya aid olan, yunan dilində «dia-» içindən və «xronos-» vaxt sözlərindən əmələ gəlib. İlk dəfə F.de Sössür diaxronik tədqiqat üsulunu səmərəsiz hesab edərək onun əvəzinə sinxronik → metodu irəli sürmüşdür.

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 41, 97.

ДИАХРОНИЧЕСКАЯ ГРАММАТИКА - alm. diachronische

Grammatik (f), ing. diachronic /d∧ıəkrɔnık/, historical grammar

/hıs′tɔrıkəl′gr5mə/, fr. grammaire diachronique, azərb. diaxronik qrammati-ka. - Dilin struktur və qrammatik sistemini tarixi aspektdə götürən və tarixi dövrlərin müxtəlif mərhələlərini müqayisə etmək yolu ilə tədqiq edən qrammatika. Diaxronik aspekt tarixi ardıcıllıqda hər bir dil hadisəsinin yeri-ni və dəyişməsini başqa dil hadisələrilə əlaqələndirmədən öyrənir. Müq. et: rus d.

downloaded from KitabYurdu.org

A	sifət	isim
	голъ	голь
	↕	↕
B	гол	гол'

Sonda gələn «ъ» və «ь» düşdüklərindən hazırda fərqlənmə bütövlükdə sərt /g/ və yumşaq /g'/ üzərinə keçmişdir.

А.А.Реформатский. Введение в языковедение. М., 2001, s. 44-46.

ДИАХРОНИЧЕСКАЯ ЛИНГВИСТИКА - alm. diachronische

Linguistik (f), ing. diachronic historical linguistics /dʌɪəkrɔnɪk hɪsˈtɔrɪkəl ˈlɪŋɡwɪstɪks/, fr. linguistique diachronique, azərb. diaxronik linqvistika. – Dili və onun tarixi dəyişmələrini zaman axınında götürən dilçilik. Struktur dilçiliyə qədərki dilçilik, əsasən də gənc qrammatiklər vaxtında geniş vüsət almışdı. Diaxroniya ayrı-ayrı dil hadisələrinin sahəsi kimi götürülür, dil isə sistem kimi sinxroniyada öyrənilir.

А.А.Реформатский. Введение в языковедение. М., 2001, s. 46.

ДИАХРОНИЯ (ИДИОДИАХРОНИЯ) - alm. Diachronie (f), ing.

diachrony /dʌɪəkrɔnɪk/, fr. diachronie, azərb. diaxroniya. - Hər bir dil elementinin, dil sisteminin bir hissəsi kimi keçdiyi tarixi yol; bütövlükdə dil sisteminin tarixən dəyişmələrinin lingvistik araşdırılması. Adətən, dilçilik-də sinxroniyaya qarşı qoyulur.

А.А.Реформатский. Введение в языковедение. М., 2001, s. 46.

ДИВЕРГЕНТ - alm. Divergent (n), ing. divergent /dʌɪvəːʤənt/, variant /ˈvɛərɪənt/, fr. divergent, azərb. divergent. - 1. Fonemin konkret işlədilməsi nəticəsində yaranan çalarlıq. Məs.: alm. d. /ch/ mövqedən asılı olaraq gah /x/, gah da /ç/ divergentlərində çıxış edirdi.



Orta dövr alman dilində bu parçalanmanı doğuran mövqe aradan qalxdı və /x/ və /ç/ divergentləri yeni müstəqil fonemlərə çevrildilər; 2. Yeni fonemin ya-ranmasına səbəb olan çalar. Məs.: rus. d. sərt və yumşaq samitlərin qarşılaş-ması «ъ» və «ь» elementlərinin düşməsindən sonra fonoloji dəyər kəsb edib.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 184; А.А.Реформатский. Göstərilən əsər, s. 44-46.

downloaded from KitabYurdu.org

ДИВЕРГЕНЦИЯ - alm. Divergenz (f), ing. divergence /dʌɪvə:ʤəns/, fr. divergence, azərb. divergensiya. - 1. İlkin olaraq müəyyən variativləşməni şərtləndirən mövqeyin aradan qalxması nəticəsində fonem variantının müstəqilləşməsi. Məs.: rus d. «ъ» və «ь» vurğusuz saitlərin düşməsi nəticəsində rus dilində sərt və yumşaq samitlər qarşılaşması bütün samitlər sistemini əhatə etdi.

2. Bir fonem daxilində öşünü göstərən allofonik fərqlənmələr, səslərin mövqedən doğan dəyişmələri. Məs.: Azərb. d. /lal/ və /l'əl'/ və s.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s.184.

ДИГИТАЛЬНЫЙ - alm. digital, ing. digital /dɪˈʤɪtal/, fr. digital, azərb. rəqəmsal. – İnformasiyanın şərhində təsvir forması. Bu zaman işarələrin (rəqəmlərin) müəyyən çoxluğu kodla işlənən informasiyaya tətbiq edilir. Barmaqlarla sayanda 1-dən 10-a kimi rəqəmlər də hesablamanın özülünü təşkil edir. Digital təsvir analoqlu təsvirə qarşı qoyulur.

H.Bußmann. Göstərilən əsər, s. 182.

ДИГЛОССИЯ – alm. Diglossie (f), ing. diglossia /ˈdaɪglɔsɪə/, fr. diglossie, azərb. diqlossiya. – Dilin sosial baxımdan yüksək və aşağı variantları arasındakı ciddi funksional fərqlərin olmaması. Yuxarı səviyyə ciddi qrammatik qaydalarla tənzimlənir. Məs.: alman ədəbi dili və İsveçrədə işlənən isveçrə almancası və ya Azərbaycan dilinin Bakı və Təbrizdə işlənən variantları.

H.Bußmann. Göstərilən əsər, s. 183.

ДИГРАММА – Bax: Диграф →.

ДИГРАФ (ДВУЗНАЧНАЯ БУКВА, ДВОЙНАЯ БУКВА, ДИГРАММА) - alm. Digraph (m), ing. digraph /ˈdaɪgrɑ:f/, fr. digraphe, digramme, azərb. diqraf. - İki hərfdən ibarət olub, fonemi və ya onun əsas variantlarını yazıda əks etdirmək üçün istifadə olunan işarə. Məs.: ing. d. «sh»// → /ʃ/.

P.H.Matthews. Göstərilən əsər, s. 98.

ДИЕЗНЫЙ - alm. dies, ing. sharp /ʃɑ:p/, fr. de diˈse, azərb. diyez. – Yarım ton güclənmə ilə deyilən səslər. Səsin yaranmasında dilin orta hissəsi sərt damağa doğru qalxır ki, bu da formant göstəricilərinin (F_I və F_{II}) spektrdə yuxarı qalxmasına səbəb olur. Məs.: rus dilində yumşaq samitlərin hamısı diyez səslərdir.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 221.

downloaded from KitabYurdu.org

ДИЕРЕЗА - alm. Diärese (f), ing. diaeresis /dʌɪərezə/, fr. diér'se, azərb. dierez. -1. Diftonqa bənzər iki yanaşı gələn saitin parçalana, bölünə bilməsi. Məs.: /'naif/ və ya /Al"euten/. Bu hadisə trema kimi /"̲/ işarəsilə birinci saitin üzərində göstərilir.

R.Conrad. Göstərilən əsər, s. 64.

ДИЕРЕМА - alm. Grenzsignal (m), Dierem (n), ing. border mark (modification) /'bɔdə mɑ:k/,mɔdɪfɪ'keɪʃən/, fr. signe démarcatif, azərb. dierema. - Müəyyən fonemin və ya differensial əlamətin danışıq kəsiyinin müəyyən nöqtəsində təzahür etməsilə dil vahidlərinin sərhəddini bildirməsi.

Bax: Демаркативная функция ←.

ДИЗАРТИРИЯ - alm. Disartirie (f), ing. disartery /dɪs'ɑ:tərɪ/, fr. disarthrie, azərb. dizartiriya. – Neyrolinqvistikada mərkəzi və ya kənar sinir sistemində bir sıra danışıq-motor pozuntularının göstəricisi, bunlar da tələffüz, səslənmə və prosodiya ilə əlaqədardır. Bu pozuntular səlis danışığa ciddi maneəçilik törədirlər.

H.Bußmann. Göstərilən əsər, s. 200.

ДИЗЪЮНКТИВНЫЙ (РАЗДЕЛИТЕЛЬНЫЙ) - alm. disjunktiv, ing. disjunctive /dɪs'dʒʌŋktɪv/, fr. disjonctif, azərb. bölüşdürücü. – 1) Məntiqi bağlayıcı, «ya» ilə ifadə olunan, bir-birini inkar etməyən iki ifadə. Məs.: Azərb. d. /Ya yorğundur, ya qəmlidir, ya da hər ikisi//; 2) Müəyyən ifadədən yalnız biri seçilə bilər. Ancaq hər ikisi ola bilməz. Məs.: Azərb. d. - /O, ya gedəcək, ya da qalacaq//, /Gah orda, gah burda//, /Sən ola bilər (bilsin) ki gələrsən, ola bilər (bilsin) ki gəlməzsən// və s.; alm. d. /entweder, oder/ bu cür bağlayıcıdır.

H.Bußmann. Göstərilən əsər, s. 187.

ДИЗЪЮНКЦИЯ ФОНОЛОГИЧЕСКАЯ - alm. phonologische Disjunktion (f), ing. phonological disjunstion /fəunə'lɔdʒɪk(ə)l dɪs'dʒʌŋkʃ(ə)n/, fr. disjonstion phonologique, azərb. fonoloji bölüşdürmə. – Korrelyativ cütlüklər əmələ gətirməyən fonemlərin fonoloji qarşılaşması. Məs.: Azərb. d. /h/ samitdir, həm də sait deyildir; rus d. /a/ # /i/, /a/ # /p/ və s.

O.C.Ахманова. Göstərilən əsər, s. 498.

ДИМУНИТИВ – alm. Dimunitiv (n), ing. dimiunitiv /dɪ'mɪnjutɪv/, fr. diminutif, azərb. kiçiltmə. - Azərb. d. (cığaz[4]), (cik[4]) və (mini) prefiksilə düzələn kiçiltmələr. Məs.: /minitozsoran/, /evcik/, /qızcığaz/ və s. Alm. d. /Häuschen/ (evcik), /Mädchen/ (qızcığaz) və s.

H.Bußmann. Göstərilən əsər, s. 187.

downloaded from KitabYurdu.org

ДИНАМИКА - alm. Dynamik (f), ing. dynamics /daı'n5mıks/, fr. dynamisme, azərb. dinamika. - Dil hadisələrinin hərəkətdə, ilkin dövrdən hazırki dövrə qədər gəlib çatmasının izlənməsi. Dinamika dildə vurğunun güclü intensivliyə malik olmasını əsas götürür, daima dəyişiklikləri əsas sayır.

Дж.Джафаров. О некоторых вопросах динамики и статики (ударение). 100 il Cəfər Cəfərov (1904-2004). Bakı, «Mütərcim», 2005, s. 74-101.

ДИНАМИЧЕСКАЯ ЛИНГВИСТИКА - alm. dynamische Linguistik (f), ing. dynamic linguistics /daı'n5mık lıŋ'wıstıks/, fr. linguistique dynamique, azərb. dinamik linqvistika. - 1. Dili konkret tarixlə bağlı şəkildə öyrənməyi tələb edən dilçilik cəyəyanı; 2. Dilin real mənzərəsini, onun funksiya və təzahürlərini bütün cəhətlərdən araşdıran dilçilik.

Bax: Лингвистика →.

ДИНАМИЧЕСКОЕ УДАРЕНИЕ (ВЫДЫХАТЕЛЬНОЕ УДАРЕНИЕ, ЭКСПИРАТОРНОЕ УДАРЕНИЕ, СИЛОВОЕ УДАРЕНИЕ) - alm. Druck (m), ing. dynamic stress (accent) /daı'n5mık 'stres /'5ksənt/, fr. accent d'intensité (dynamique), azərb. dinamik vurğu. - Vurğusuz heca ilə müqayisədə vurğulu hecanın çox böyük gərginliklə tələffüz olunması. Vurğunun bu cəhəti bir çox Avropa dillərində, o cümlədən də, alman dilində özünü göstərir. Alman dilində vurğu melodik-dinamik, Azərbaycan dilində isə dinamik-melodikdir.

F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 198-199.

ДИСГЛОСИЯ – alm. Disglosgie (f), ing. disglossia /dısɡlɔsıə/, fr. disglosse, azərb. disqlosiya. – İlk və ya qüsur (çatışmamazlıq) nəticəsi olaraq periferik üzvlərin baş verən dəyişiklər əsasında tələffüzdəki yayınmaların göstəricisi. Konkret danışıq üzvünün zədələnməsi nəticəsində dodaq, boğaz və udlaq disqlosiyalarını fərqləndirirlər.

H.M.Müller (Hrsg.). Arbeitsbuch Linguistik. Paderborn, 2002, s. 329-349.

ДИСГРАМАТИЗМ – alm. Disgrammatismus (m), ing. disgrammaticism /ɡrə'm5tısız(ə)m/, fr. disgrammatisme, azərb. disqramatizm. – Neyrolinqvistikada geniş yayılmış, ancaq mübahisəli anlayışdır, fonoloji, morfoloji və sintaktik səviyyədə yayınmaların ümumi adı. Lakin onun müəyyən zamanda və ya daimi xarakter alması mübahisəlidir. Məs.: Azərb. d. /olmaz çəkmək siqaret/, /siqaret çəkmək olmaz// əvəzinə.

H.M.Müller (Hrsg.). Arbeitsbuch Linguistik. Padeborn, 2002, s. 329-349.

ДИСИЛЛАБ - alm. Dissyllab (n), ing. disyllable /dʌı'sıləb(ə)l/, fr. dissyllabe, azərb. ikihecalı. - Tərkibinə görə iki hecadan ibarət olan söz. Məs.: Azərb. d. /a-na/, /a-ta/, /və-tən/, /öv-lad/; alm. d. /´ha.bən/ və s.

O.C.Ахманова. Göstərilən əsər, s. 135.

downloaded from KitabYurdu.org

ДИСИЛЛАБИЧЕСКИЙ - Bax: Дисиллаб ←.

ДИСКРЕТНОСТЬ - alm. Diskretheit (f), ing. discreteness /ˈdɪsˈkri:tnɪs/, fr. discrétion, azərb. diskret, bölünməzlik. – Dil vahidlərinin fundamental xüsusiyyətlərindən biri. Öz səviyyəsində hər bir dil vahidinin kiçik hissələrə bölünməzliyi.

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 57-58.

ДИСКУРС – alm. Diskurs (m), ing. discourse /dɪskɔ:s/, fr. discurtion, azərb. diskurs. – 1) Amerikan-ingilis dilçiliyində mətnin müxtəlif aspektlərini bildirən əsas anlayış. Diskurs rabitəli danışıq (ing. connected speech), söynəlinən mətndir. Bu mənada diskurs formal qrammatik struktur kimi götürülən mətndən fərqlənir. Diskurs danışanın öz həmsöhbətinə yönələrək qurduğu koherent mətndir. Diskurs sosiomədəni kontekstdə interaktiv prosesin nəticəsidir; 2) Fəlsəfi mənada həqiqəti üzə çıxarmaq məqsədilə aparılan araşdırma. Ötən əsrin 70-ci illərində sosio-, psixo-, etnolinqvistikada, koqnitiv elmdə, süni intelligent dil fəlsəfəsində, dil sosiologiyasında, ritorika və üslubiyyatda geniş tətbiq olunur.

Z.Harris. Discourse analysis. «Language» 28, 1952.

ДИСЛАБИАЛИЗАЦИЯ (ДЕЛАБИАЛИЗАЦИЯ) - alm. Delabialisation (f), ing delabialization /dɪˈleɪbɪəl∧ɪzeɪʃ(ə)n/, fr. délabialisation, azərb. dodaqlanmanın itməsi. - Tələffüz prosesində dodaqlanmanın itməsinə yönələn dəyişiklik. Azərbaycan dilində adətən sözün sonuna getdikcə, xüsusən də, çoxhecalı sözlərdə dodaqlanmanın itməsi özünü bariz şəkildə göstərir. Məs.: Azərb. d. /quzu/, /sürü/, /gülümsündü/, /süründü/, /büründü/ kimi sözlərdə /u/ və /ü/ saitləri /i/ və /ı/ saitləri ilə əvəz olunur. Məs.: /quzı/, /süri/, /gülümsündi/, /süründi/ və s.

O.C.Ахманова. Göstərilən əsər, s. 136.

ДИСЛАЛИЯ - alm. Dislalie (f), ing. dislalia /dɪsˈleɪlɪə/, fr. dislalie, azərb. kəkələmə. - Uşaqlarda rəvan tələffüzdən yayınma. Heca və səslərin «yeyilməsi». Böyük miqdarda səslərdən tutmuş (çoxşaxəli kəkələmə) anlaşılmazlıqlara qədər (universal kəkələmə) olan kəkələmə. Xüsusi forması kimi paralaliya mövcuddur. Məs.: alm. d. /Papa, tansu ma tomm// (/Papa, kannst du mal kommen// (Papa, sən bura gələ bilərsən?)). Burada /t/ samiti /k/ əvəzinə işlənib.

H.M.Müller (Hrsg.). Arbeitsbuch Linguistik. Paderborn, 2002, s. 347.

ДИССИМИЛЯЦИЯ (РАСПОДОБЛЕНИЕ) - alm. Dissmilation (f), Entähnlichung (f), ing. dissimilation /dɪˌsɪmjʊˈleɪʃ(ə)n/, fr. dissimilation, azərb. fərqləşmə dissimilasiya. - Klassik fonetikada iki eyni və ya oxşar səslərdən birinin digər səslə əvəz olunmasını göstərmək üçün işlənən termindir. Dissimilasiya (fərqləşmə) elə bir dil hadisəsidir ki, elə bir fonetik hadisədir

downloaded from KitabYurdu.org

ki, bu zaman eyni və yaxud bir-birinə yaxın məxrəci olan samitlərdən biri digərinə təsir edərək, onu öz məxrəcindən uzaqlaşdırır. Fərqləşmə hadisəsinin Azərbaycan dilində iki növü var: irəli və geri fərqləşmə. Onlardan yalnız birincisi dilimiz üçün səciyyəvi hesab olunur: Məs.: Azərb. d.: /qararmaq←qaralmaq/, /sararmaq←saralmaq/, /hammal←hambal/ və s.

A.Axundov. Azərbaycan dilinin fonetikası, Bakı, 1984, s. 224.

ДИССИМИЛЯЦИЯ ГРАФИЧЕСКАЯ - alm. graphische Dissmilation (f), Entähnlichung (f), ing. graphic dissimilation /ˈɡr¾fɪk dɪˌsɪmjʊˈleɪʃ(ə)n/, fr. dissimilation graphigue, azərb. qrafik fərqləşmə. - Yazıda öz əksini tapmış səs fərqləşməsi. Məs.: orta alman dilində «zehs» (altı) sözü yeni alman dilində «sechs» /*´zɛks/ kimi yazılır.

R.Conrad. Göstərilən əsər, s. 66.

ДИССИМИЛЯЦИЯ ДИСТАКТНАЯ - alm. Distanzdissmilation (f), Entähnlichung (f), ing. distant dissimilation /ˈdɪst(ə)nt dɪˌsɪmjʊˈleɪʃ(ə)n/, fr. dissimilation distante, azərb. məsafəli, aralı fərqləşmə. – Klassik fonetikada digər səslərə parçalanmış, bölünmüş (buraya müxtəlif hecalara aid olan səslərin fərqləşməsi də aiddir) səs fərqləşməsi. Məs.: alm. d. «Balbier» (dəllək) «Barbier» (dialekt sözü) əvəzinə.

R.Conrad. Göstərilən əsər, s. 66.

ДИССИМИЛЯЦИЯ КОНТАКТНАЯ - alm. Kontaktdissmilation (f), Nahdissimilation (f), ing. contact dissimilation /ˈkɔnt5kt dɪˌsɪmjʊˈleɪʃ(ə)n/, fr. dissimilation de contact, azərb. kontakt (yanaşı) fərqləşmə. - Klassik fonetikada söz daxilində yanaşı gələn səslərin fərqləşməyə uğraması. Məs.: Azərb. d. /tranvay/ /tramvay/ əvəzinə.

A.Axundov. Göstərilən əsər, s. 225.

ДИСТАНТНЫЙ (ДИСТАКТНЫЙ) - alm. distant, ing. distant /ˈdɪst(ə)nt/, fr. distant, azərb. distant. – Mürəkkəb fellərin tərkib hissələrinin və ya ayrılan ön şəkilçilərin fel kökündən ayrılıb müəyyən məsafədə yerləşməsi. Dilimizdə isimlər miqdar sayları ilə distant vəziyyətdə olur. Məs.: Azərb. d. /iki nəfər adam/, /bir stəkan çay/, /iki qəlib sabun/, /üç ədəd kitab/; alm. d. /eine schöne Frau/ (gözəl qadın), /Er prüft diesen Studenten nach/ (O, bu tələbələri imtahan edir), /Er lernt meine Schwester kennen/ (O, bacımla tanış olur) və s.

R.Conrad. Göstərilən əsər, s. 66.

ДИСТИНКТИВНЫЙ - alm. distinktiv, ing. distinctive /dɪsˈtɪŋktɪv/, fr. distinctif, azərb. distinktiv. - Bu dil vahidinin elə bir xüsusiyyətidir ki, o, bu səs keyfiyyətinə görə sözləri və onların formalarını fərqləndirir, yəni distinktiv funksiya yerinə yetirir. Bu o deməkdir ki, onlar ayrılıqda məna

downloaded from KitabYurdu.org

daşıyan vahidləri bir-birindən fərqləndirir. Məs.: Azərb. d. /o-i/ qarşılaşmaları fonolojidir (distinktivdir). Müq. et: /ot-it/, /don-din/ və s. Ancaq alman dilində dilönü «r» ilə dilçək «R» qarşılaşmaları qeyri-relevantdır, çünki alman dilində elə bir söz cütü yoxdur ki, onlar bir-birindən bu səs qarşılaşmaları ilə fərqlənsin.

Hər bir dil vahidi distinktiv funksiya yerinə yetirən səs keyfiyyətinə malik olmalıdır, əks-təqdirdə bu dil vahidləri başqalarından fərqlənməz. Ayrı-ayrı dil vahidlərinin bir-birindən fərqləndirilməsi müstəsna dərəcədə distinktiv funksiya daşıyan səs keyfiyyətlərinə əsaslanır. Fərqləndirmə anlayışı qarşılaşma, oppozisiya anlayışını tələb edir. Səs keyfiyyəti yalnız o zaman distinktiv funksiya daşıyır ki, o, səs oppozisiyasının üzvü olsun.

N.S.Trubeskoydan sonra strukturalistlər fonemi «distinktiv əlamətlərin dəsti» kimi götürürlər. Onlar 12 distinktiv əlamət müəyyənləşdirirlər. Dünya dillərinin fonem sistemlərini bu əlamətlərə görə təhlil edirlər. Onlar spektral təhlilin nəticələrinə söykənirlər. Məs.: Azərb. d. samitlərini cədvəldəki kimi göstərmək olar (bax: cədvəl 2).

Fərqləndirici əlamətlərə görə təhlil strukturalistlərdə və generativistlərdə geniş yayılıb. Bu metod hətta semantik səviyyədə də tətbiq edilir. Bu metodun tənqidilə bağlı bax: Ф.Вейсалов. К критике теории дифференциальных признаков. Материалы Международной конференции, БСУ, Баку, 2005, s. 30-32 .

N.S.Trubeskoy. Fonologiyanın əsasları. Almancadan tərcüməsi, «Son söz» və «Qeydlər» prof. F.Veysəllinindir. Bakı, 2001, s. 39-40; Ф.Вейсалов. Проблемы варьирования фонем в современной фонологии. ВЯ., М., 1990, ¹ 3.

ДИСТРИБУТИВНЫЙ - alm. distributiv, ing. distributive /dɪsˈtrɪbjuːtɪv/, fr. distributif, azərb. distributiv. - Dil vahidlərinin paylanmasına söykənən metod.

Bax: Дистрибуция →.

ДИСТРИБУЦИЯ (РАСПРЕДЕЛЕНИЕ) - alm. Distribution (f), ing. distribution /ˈdɪstrɪˈbjuːʃən/, fr. distribution, azərb. distribusiya. – «Müəyyən edilən əlamətlər və ya vahidlər əhatəsinin məcmusu. Amerika dilçiliyində bu metod dil vahidlərinin müəyyənləşdirilməsində və təhlilində həlledici amildir. Dilin hər hansı elementinin (fonem, morfem, leksem və s.) distribusiyası onun işlənə bildiyi bütün mövqe və əhatələrin məcmusu olub, adətən bu vahidin işlənmədiyi bütün mövqe və əhatələrə qarşı qoyulur. Distribusiyanı dilçiliyə riyaziyyatdan Amerika deskriptivisti Z.Hərris gətirmişdir. Distributiv istiqamətin banisi sayılan Z.Hərris dil vahidlərini onların paylanması və əhatəsi qaydalarını öyrənməklə müəyyənləşdirir. Dilin fonemləri və morfemləri məna fərqləndirə bilmələrinə görə deyil,

downloaded from KitabYurdu.org

Cədvəl 2. Azərbaycan dili fonemlərinin dixotomik əlamətlərə görə təsviri

	fonemlər / əlamətlər	a	o	u	ɪ	e	○	Ə	ü	i	b	P	D	v	f	m	n	z	s	ʃ	n	d_=	r	l	j	k	g	к	x	h	ʒ	ɤ	ħ	t
1	saitlilik/q. saitlilik	+	+	+	+	+	+	+	+	+	–	–	–	–	–	– +	– +	–	–	–	–	–	– +	– +		–	–	–	–	–	–	–	–	–	–
2	samitlilik/q. samitlilik	–	–	–	–	–	–	–	–	+	+	+	+	+	+	+ -	+ -	+	+	+	+	+	+ -	+ -	+	+	+	+	+	+	+	+	+	+	+
3	fasiləli/fasiləsiz	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	+	+	+	-	-	-	+	-	-	-	-	+	+	+	+	0	0
4	xirtdək/q.xirtdək	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0
5	kəskin/q.kəskin	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	+	-	+	+	-	-	-	-	-	-	-	-	-	-	-	-
6	cingiltili/kar	0	0	0	0	0	0	0	0	0	+	-	+	+	-	+	+	+	-	-	-	+	+	+	+	-	+	-	-	-	+	+	+	
7	kompakt/diffuz	+	+	-	-	+	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	+	+	+	-	-	-	+	+	+	+		+	+		
8	aşağı/yuxarı	+	+	+	0	0	+	0	0	0	+	+	0	+	+	+	0	0	0	0	0	0	0	0	0	+	+	+	+	0	0	0	0	
9	bemol/sadə	-	+	+	-	-	+	-	+	-	+	+	-	+	+	+	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	
10	diez/sadə	0	0	0	0	+	0	0	+	+	0	0	+	0	0	0	0	+	+	0	+	+	0	0	0	0	0	0	0	0	0	0	+	+
11	gərgin/q.gərgin	0	0	0	0	0	0	0	0	0	0	0	0	+	+	0	0	+	+	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0	0
12	ağız/burun	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	-	-	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	-

downloaded from KitabYurdu.org

mümkün əhatələrin hamısı mənanın iştirakı olmadan nitq zəncirinin parçalanması və bu zaman alınan seqmentlərin distribusiyası ilə dəqiqləşdirilir".

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri, Bakı, 1993, s. 29.

Adətən distribusiyanın aşağıdakı növləri fərqləndirilir:

a) eyni distribusiyalar (ekvivalentlər) . Bunlara azad və ya fakültativ vaniantlar deyirlər Məs.: alm. d. [r] və ya[R] samitləri.

b) kontrastiv və ya fərqli distribusiyalar) . Bunlara misal olaraq Azərb. d. /d/, /b/, /g/ samitlərini göstərmək olar. Məs.: /daş/, /baş/, /gaş/ və s.

c) qismən ekvivalent distribusiyalar . . Onlara misal olaraq alman dilindəki kar və cingiltili samitləri göstərmək olar. Onlar an- və inlautda kontrast yaradırlar, ancaq auslautda cingiltilər gələ bilmirlər. Əksinə, /h/ və /ŋ/ anlautda və auslautda eyni mövqedə gələ bilməsələr də, inlautda eyni mövqedə üst-üstə düşürlər. /Ahorm/# /Anqora/, ancaq auslautda yalnız /ŋ/ gələ bilər.

ç) əgər iki element eyni mövqelərdə heç zaman gələ bilmirlərsə, deməli, onlar bir-birini istisna edənlərdir. Məs.: [t^h] və [t] bir-birini istisna edən mövqelərdə gəldiyindən, onlar müxtəlif dil vahidləri ola bilməzlər, yalnız eyni fonemin allofonları və ya variantları ola bilərlər. Məs.: alm. d. /t^hat^h/ (iş, əməl), ancaq /'>a: tmən/. Nəfəsli [t^h] və nəfəssiz [t] eyni fonemin allofonlarıdır. Buna elmi ədəbiyyatda əlavə distribusiya prinsipi deyirlər.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s.152-153.

ДИСТРИБУЦИОНАЛИЗМ – alm. Distributionalismus (m), ing. distributionalizm /ˈdıstrıˈbju:ʃ(ə)n5nəlizm/, fr. distributionalisme, azərb. distribusionalizm. – Buna adətən taksonomik və ya deskriptiv dilçilik də deyirlər. Amerikada 40-60-cı illərdə yaranıb və inkişaf edib. Əsasən Z.Hərrisin «Methods in Structural Luguistics» (1951) əsərində geniş şərh olunub. Əsas məqsədi subyektiv və semantik faktorları kənara ataraq hər bir dilin immanent sistem əlaqələrini eksperimental yolla yoxlamaqla obyektiv təsvirə nail olmaqdır. Bu zaman iki mühüm təhlil üsulundan istifadə olunur: materialın substitusiya baxımından üzvlənməsi - eyni funksiyalı elementlərin paradiqmatik əvəzlənə bilməsi (məs.: /daş/-/dağ/) və təsnif, həmin elementlərin cümlədə paylanması və əhatəsi əsasında qruplaşması təhlili semantikasız aparıldığından distribusiya aparıcı kriteriya kimi çıxış edir. Məna paylanmanın funksiyası kimi götürülür.

Adı çəkilən əsərində Z.Hərris dilçinin qarşısında aşağıdakı vəzifələrin durduğunu göstərir:

1) tədqiqatın ilkin mərhələsində ən kiçik dil vahidləri aşkar edilməli və danışıq axınından ayrılmalıdır;
2) ayrılmış vahidlər müəyyən fonem və morfem qruplarında ümumiləşdirilməlidir, yəni onların dildə paylanması aşkar edilməlidir;

downloaded from KitabYurdu.org

3) distributiv təhlil nəticəsində müəyyən edilmiş qrupların hər biri öz çərçivəsində geniş təsvir olunmalıdır.
Distribusiya substitsiya yolu ilə açılır. Məs.: /dəng/ və /zəng/ sözlərində /d/ və /z/ samitləri bir-birini əvəz etməklə yeni vahidlərin yaranmasına səbəb olur. Z.Hərrisin təklif etdiyi təhlil üsulunun zəif cəhəti ondadır ki, o, mənanı nəzərə almır və bütün təhlil xüsusiyyətlərini əhatə edir.

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 30.

ДИСТРИБУЦИЯ ДОПОЛНИТЕЛЬНАЯ - alm. komplementäre

Distribution (f), ing. additional distribution /ə′dıʃənl ˌdistrı′bju:ʃən/, fr. distribution complémentaire, (supplémentaire) azərb. əlavə distribusiya. – Dil sistemində vahidlərin bir-birini qarşılıqlı surətdə istisna etməsindən ibarət olan distribusiya. Bu prinsipə görə, bir-birini eyni mövqedə istisna edən səslər eyni bir fonemin variantları (allfonları) ola bilərlər. Bu prinsip L.Blumfild və onun davamçıları tərəfindən konkret bir dilin fonem tərkibini müəyyənləşdirərkən istifadə olunan əsas metodlardan biridir.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 152.

ДИСТРИБУЦИЯ КОНТРАСТИРУЮЩАЯ (КОНТРАСТИРУЮЩЕЕ РАСПРЕДЕЛЕНИЕ) - alm. kontraste Distribution (f), ing.

contractive distribution /kən′tr5ktıv ˌdıstrı′bju:ʃ(ə)n/, fr. distribution tranchant, azərb. kontrastiv distribusiya. - İki və daha çox dil vahilinin bir mövqedə işlənib müxtəlif məzmun bildirməsi. Kontrastiv distribusiyanı fərqləndirərkən əvvəlcə fonoloji və morfoloji vahidləri müəyyənləşdirmək, sonra onların distribusiyasını öyrənmək zəruridir. Məs.: Azərb d. /məktəbə getmək/ və /məktəbdən getmək/ tərkiblərində /-ə/ və /-dən/ morfemləri kontrast distribusiyaya misal ola bilər.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 242; J.Lyons. Einführung in die moderne Linguistik. München, 1995.

ДИСФАЗИЯ – alm. Disphasie (f), ing. dysphasia /dis′feız/, fr. disphasie, azərb. disfaziya. – Neyrolinqvistikada həm afaziyanın sinonimi, həm də disfaziyanın inkişafını bildirən qısaltma.

H.M.Müller (Hrsg.). Arbeitsbuch Linguistik. Paderborn, 2002, s. 329-348.

ДИСФЕМИЗМ (ДЕФЕМИЗМ, КАКОФЕМИЗМ) - alm. Disphemismus (m), ing. disphemism /dis′femızm/, dispheme /dı′sfi:m/, fr. disphémisme, azərb. disfemizm. - Müəyyən konteksdə hər hansı bir əşyanın təbii adının nisbətən kobud, qaba, vulqar söz və ifadələrlə əvəz edilməsi. Məs.: Azərb. d. /onun başı/ əvəzinə /onun kəlləsi/, /onun evi/ əvəzinə /onun xarabası/; ing. d. /fatheaded/əvəzinə /stupid/, /his head/ əvəzinə /his skull/, /One might also call it the fatheaded type/ əvəzinə /həmçinin kimsə bunu ağılsız adlandıra bilər/, /The who belong to what one might call the dreamer type/ (Belə adamları da xəyalpərvər adlandıra bilərik). və s.

downloaded from KitabYurdu.org

О.С.Ахманова. Göstərilən əsər, s. 137.

ДИСФОНИЯ – alm. Disphonie (f), ing. disphonia /dɪsˈfəunɪə/, fr. disphonie, azərb. disfoniya. – Fonotriyada bir sıra səs pozuntuları, xirtdəyin soyuqlaması nəticəsində xəstələnmədə baş verən pozuntular.

H.M.Müller (Hrsg.). Arbeitsbuch Linguistik. Paderborn, 2002, s. 329-348.

ДИТТОЛОГИЯ - alm. Dittologie (f), ing. dittology /dɪˈt6ləʤi/, fr. dittologie, azərb. dittologiya. - Söz və hecanın təsadüfən qoşalaşması və ya təsadüfən təkrar edilməsi. Məs.: Azərb. d. /Tərtər/, /xaşxaş/ və s.

M.İ.Adilov və b. Göstərilən əsər, s. 91.

ДИФТОНГ (ДВУГЛАСНЫЙ) - alm. Diphthong (m), ing. diphtong /ˈdɪfθɔŋ/, fr. diphtongue, azərb. diftonq. – Bir morfem tərkibində tələffüzü zamanı danışıq üzvləri elə hərəkət edirlər ki, iki cür səs eşidilir. Diftonqlar monofonem səslərdir, yəni əsl diftonqların komponentləri arasından morfoloji sərhəd keçmir. Komponentlər arasındakı əlaqəyə görə diftonqlar iki yerə bölünür: 1) enən diftonqlar. Məs.: alm. d. /a‿o/, /a‿i/, /6‿Ø/ diftonqları bu cürdür ◠; 2) fransız dilində diftonq qalxandır /a‿o/, məs.: bois – (meis) ◡; 3) eyni dərəcəli diftonqlar. Məs.: uyğur dilində /◡ ◠/. Azərbaycan dilində diftonqlar yoxdur, lakin diftonqa bənzər səslər vardır ki, bunlara diftonqoidlər deyirlər. Məs.: /doˆuʃan/, /doˆuğa/ və s.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 141-143; A.Axundov. Azərbaycan dilinin fonetikası. Bakı, 1984. s. 237.

ДИФТОНГ ВОСХОДЯЩИЙ - alm. steigender Diphthong (m), ing. rising diphthong /raɪzɪŋ ˈdɪfθɔŋ/, fr. diphtongue ascendante, azərb. qalxan diftonq. - Tərkibindəki səslərdən ikincisi heca əmələ gətirən diftonq. Məs.: əgər birinci komponent zəif, vurğusuz və enən tonla tələffüz olunur və hecanın özəyini əmələ gətirmirsə, ikinci isə qüvvətli, qalxan tonla tələffüz olunur və hecanın özəyini təşkil edir, belə diftonqa qalxan diftonq deyilir.

Məs.: fr. d. /ro̯i/ (Kral).

R.Conrad. Göstərilən əsər, s. 65.

ДИФТОНГ ИСТИННЫЙ (ДИФТОНГ ПРАВИЛЬНЫЙ) - alm. echter Diphthong (m), ing. real (full) diphthong (correct diphthong) /ˈrɪəl ˈdɪfθɔŋ/, /kəˈrekt ˈdɪfθɔŋ/, fr. vraie diphtongue, azərb. həqiqi diftonq. - „Komponentləri (tərəfləri) arasından morfoloji sərhəd keçməyən diftonq növü. Bu o deməkdir ki, alm. d. /a‿o/ həmişə bir morfem və bir heca daxilində gəlir. Elə hal yoxdur ki, /a◡o/ /a◡e/ və /ɔ◡Ø/ diftonqlarının

downloaded from KitabYurdu.org

birinci komponenti morfem qovuşuğunun bir tərəfində, ikinci komponenti isə o biri tərəfində gəlsin. Ona görə də bunlara həqiqi diftonq deyilir".

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 96.

ДИФТОНГ ЛОЖНЫЙ - alm. falscher, unwahrer Diphthong (m), ing. wrong /rɔŋ/, false diphthong /ˈfɔ:ls ˈdɪfθɔŋ/, fr. diphtongue fausse, azərb. yalançı diftonq. - „Həqiqi diftonqlardan fərqli olaraq, bəzi dillərdə yalançı diftonqlara da rast gəlmək olur. Bu zaman əsasən saitlə /j / birləşir və ilk baxışdan diftonq təəssüratı yaradır. Amma bu sözlər öz formasını dəyişərkən, hal şəkilçisi qəbul edərkən sait ayrılır və /j / sonrakı hecaya qoşulur. Məs.: Azərb. d. /ay→a-ya/, /say→sa-ya/, /yay→ya-ya/, /lay→la-ya/ və s. Morfoloji cəhətdən bölünməzlik də Azərbaycan dilindəki «a-j» birləşməsinə xas deyil, çünki onlar iki fonemin birləşməsindən ibarətdir. Ona görə bunlara yalançı diftonq deyilir".

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 96.

ДИФТОНГ НИСХОДЯЩИЙ (ДИФТОНГ ПАДАЮЩИЙ) - alm. fallender Diphthong (m), ing. falling diphthong /ˈfɔ:lɪŋ ˈdɪfθɔŋ/, fr. diphtongue descendante (décroissante), azərb. enən diftong. - Əgər diftonqun birinci komponenti güclü tələffüz olunur və hecanın nüvəsini təşkil edirsə, ikinci komponenti isə zəif, enən tonla deyilirsə bunlara enən diftonqlar deyilir. Alman dilindəki /a◡e/, /a◡o/ və /ɔ◡Ø/ diftonqları məhz enən diftonqlardır, çünki birinci komponent güclü, ikinci isə enən tonla tələffüz olunur. Nəhayət, birinci komponent həmişə hecanın nüvəsini təşkil edir: /a͡e/, /a͡o/, /ɔθ/.

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 96.

ДИФТОНГИЗАЦИЯ - alm. Diphthongierung (f), ing. diphthongization /ˈdɪf46ŋɪˈzeɪʃən/, fr. diphtongaison, azərb. diftonqlaşma. - Saitdə baş verən keyfiyyət dəyişməsi nəticəsində yaranan diftonqlaşma. Məs.: A.Axundovun (1932) fikrincə, Azərbaycan dilində diftonqlaşma /ö/ və /o/ saitlərindən sonra gələn /v/ samitinin söz ortasında işlənərkən öz samitlik keyfiyyətini tamamilə itirib, saitləşməsi ilə bağlıdır. /v/ samitinin saitləşməsi nəticəsində Azərbaycan dilində iki diftonq, daha doğrusu, diftonqoid yaranır; başqa sözlə, diftonqlaşma hadisəsi baş verir. Məs.: Azərb. d. /dovşan→do͡uşan/, /qaşov→qaşo͡u/ və s.

A.Axundov. Azərbaycan dilinin fonetikası. Bakı-1984, s. 237.

Ancaq əsl diftonqlaşma orta alman dilindən müasir alman dilinə keçid dövründə /ī/ və /ū/ uzun saitlərinin müvafiq olaraq /a͡e/ və /a͡o/ diftonqlarına keçməsi sayıla bilər. Müq. et: /zīt/ (vaxt) → /Zeit/ (vaxt, zaman), /hūs/ → /Haus/ (ev) və s.

downloaded from KitabYurdu.org

R.Conrad. Göstərilən əsər, s. 65.

ДИФТОНГОИД - alm. Diphtongoid (n), ing. diphthongoid /ˈdɪf46ŋɡɔːɪd/, fr. diphtongoïde, azərb. diftonqoid. - Diftonqoidlər elə saitlər hesab olunur ki, tələffüzü zamanı başlanğıcında, yaxud da sonluğunda adətən tələffüz məxrəcinə görə ona yaxın olan yarımsəs saitlə müşayət olunur. Diftonqoidləri diftonqlardan fərqləndirən əsas cəhət odur ki, diftonqlar iki saitin bir bütöv kimi bir vurğu ilə tələffüz olunmasıdır. Məs.: Müasir rus dilində /o/ saitinin əvvəlində u-şəkilli yarımsəs qalın saitə qovuşan saitin zəif tələffüzündən yaranır və onların komponentləri morfoloji sərhədlə ayrılır. Məs.: /ток/ sözündə /o/-dan əvvəl /ў/ tələffüz olunur.

F.Veysəlli. Struktur dilçiliyin əsasları, Bakı, 2005, s. 143.

ДИФФЕРЕНЦИАЛЬНЫЙ (ДИСТИНКИВНЫЙ, РАЗЛИЧИТЕЛЬНЫЙ) - alm. differential, distinktiv, ing. differential /ˌdɪfəˈrenʃ(ə)l/, distinctive /disˈtɪŋktɪv/, fr. différentiel (distinctif), azərb. differensial, fərqləndirici. – Minimum bir cüt fonemi fərqləndirən əlamət. Məs.: /t/ # /d/. Lakin N.S.Trubeskoy və onun davamçıları fərqləndirici əlaməti məna ilə bağlayırlar. „Fonemi əmələ gətirən iki əsas xüsusiyyətdən biridir. Bu o deməkdir ki, differensial əlamət məna daşıyan dil vahidlərini bir-birindən fərqdəndirməyə xidmət edir. Hər bir dil vahidi differensial funksiya yerinə yetirən səs keyfiyyətinə malik olmalıdır, əks təqdirdə, bu dil vahidləri bir-birindən fərqlənməz». Məs: Azərb. d. /at-it-ot-ət/ və s.

N.S.Trubeskoy. Göstərilən əsər, s.38.

ДИФФЕРЕНЦИАЛЬНЫЙ ПРИЗНАК - alm. distinktives Merkmal (n), ing. differential mark /ˌdɪfəˈrenʃ(ə)l mɑːk/, sign /saɪn/, distinctive feature /disˈtɪŋktɪv fiːʧə/, fr. signe différentiel, azərb. fərqləndirici (differensial) əlamət. – Praqa dilçilik məktəbində dil vahidinin fonoloji funksiyasının əsaslandığı element və elementlərin məcmusu. Fonem differensial əlamətlər toplusu kimi götürülür və bu əlamətlər binar (ikili) qarşılaşmalar əsasında müəyyən edilir. Dilçilikdə fonemin differensial əlamətləri irrelavant əlamətlərinə qarşı qoyulur. Məs.: /düz/ sözündə /d/ samiti dilönü, cingiltili, kipləşən-partlayışlı samitdir. Bu əlamətlər relevant əlamətlər hesab edilir, çünki birinciyə görə o, qeyri-dilönü /b, g/, ikinciyə görə /t/, üçüncüyə görə isə /z/ samitinə qarşı qoyulur. Ancaq bu sözdə /d/ samitinin [dᵒ] kimi dodaqlanan tələffüz olunması bunun irrelevant əlamətidir, çünki Azərbaycan dili samitlər sistemində dodaq /dᵒ/ və qeyri-dodaq /d/ samitlərinin qarşılaşması yoxdur. Ona görə də biz fonemi həm relevant, həm də qeyri-relevant əlamətlərin məcmusu kimi dəyərləndiririk.

Ф.Вейсалов. Проблемы варьирования фонем в современной фонологии. ВЯ., 1990, ¹ 3, s. 70-80.

downloaded from KitabYurdu.org

ДИФФЕРЕНЦИАЦИЯ ГРАММАТИЧЕСКАЯ - alm. grammatikalische Differenzierung (f), ing. grammatical differentiation /ɡrəˈm5tıkəl ˌdıfərenʃɪˈeɪʃən/, fr. différenciation grammaticale, azərb. qrammatik differensiasiya. – Dil vahidlərinin formal fərqlənməsi. Məs.: alm. d. 1-ci şəxs təkdə /e/, 2-ci şəxs təkdə /(e) st/ və 3-cü şəxs təkdə /(e) t/ şəkilçilərilə fərqlənir.

H.Glinz. Göstərilən əsər.

ДИФФЕРЕНЦИАЦИИ МАКСИМАЛЬНОЙ ПОЗИЦИЯ - alm. Stellung der maximalen Unterscheidung (f), ing. position of maximum differentiation /pəˈzɪʃən əv ˈm5ksıməm ˌdıfərenʃɪˈeɪʃən/, fr. position de la différentiation maximale, azərb. maksimum fərqləndirmə mövqeyi. – Kəmiyyət və keyfiyyətə görə maksimum fərqlənən mövqe. Bu ya fonemin müstəqil işlənməsidir, ya da vurğulu mövqedə gəlməsidir. Məs.: rus d. /a, o, в, c/ sözönləri bu cür keyfiyyətə malikdir. Azərb. d. /o/ /O gəlir/ cümləsində və ya saitin vurğulu hecada işlənməsi, samitin isə vurğulu saitdən əvvəl gəlməsi kəmiyyət və keyfiyyətcə onun daha dolğun olması deməkdir. Qeyd etmək lazımdır ki, Moskva fonoloji məktəbi /MFM/ dilin fonoloji təhlilində zəif və qüvvətli mövqe anlayışlarından istifadə edir və siqnifikativ güclü mövqedə gələn səsi fonem hesab edirlər. Digər hallarda isə fonemdən söhbət gedə bilməz.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s.198-204.

ДИФФЕРЕНЦИРУЮЩИЙ ПРИНЦИП ОРФОГРАФИИ - alm. differenzierender Grundsatz der Orthographie (m), ing. differentiative principle of orthography /ˌdıfəˈrentətıv ˈprınsəpl əv ɔːˈθɡrəfı/, symbolic principles of orthography /ˈsımbəlık ˈprınsəplz əv ɔːˈθɡrəfı/, fr. principe différentiel de l'orthographe, azərb. fərqləndirici orfoqrafiya prinsipi. - Yazıda ayrı-ayrı fonemlər üçün diskret işarələrdən istifadə prinsipi. Fonoqrafik yazı prinsipi. Azərbaycan dilinin yazı sistemi daha mükəmməl və daha fonolojidir, çünki burada diqraflardan və kombinasiyalardan demək olar ki, istifadə olunmur. Məs.: Azərb. d. /g/ və /ğ/, /o/ və /ö/.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 87.

ДИФФУЗНЫЙ - alm. diffus, ing. diffusive /dıˈfju:siv/, fr. diffusif, azərb. diffuz. - Dil səslərinin rezonans xüsusiyətlərindən biridir. «Diffuzlarda kompaktlardan fərqli olaraq bir və ya bir neçə dağınıq formant sahəsi olur. Artikulyator baxımdan diffuzlarda rezonator kiçilir, ya ağız boşluğunun qabaq hissəsində, ya da onun arxasında daralma müşahidə olunur. Universal ikili qarşılaşma sistemində diffuz əlamətlər kompakt əlamətlərə qarşı qoyulur».

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 42.

Diffuz i

downloaded from KitabYurdu.org

e ə

kompakt a o

Diffuz səslərdə F_I və F_{II} arasındakı məsafə çoxdur.

F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005. s. 146.

ДИХОТОМИЧЕСКИЙ ПРИНЦИП - alm. dichotomischer Grundsatz (m), dichotomisches Prinzip (n), ing. dichotomous principle /daɪkɔ:təmɔus ˈprɪnsəpl/, binary principle /ˈbaɪnərɪ ˈprɪnsəpl/, fr. principe dichotomique, azərb. ikili qarşılaşma prinsipi. – «Bu prinsip ilk dəfə R.Yakobson və onun həmkarları (M.Halle, Q.Fant) tərəfindən irəli sürülmüşdür. Onlar öz əsərlərində «sübut etmək istəyirlər ki, bütün dillərin fonem tərkibini akustik əlamətlərdən çıxış edərək təsnif etmək olar. Bu təsnif fərqləndirici əlamətlərin ikili (dixotomik və ya binar) prinsirinə əsaslanır. Onlar ümumiyyətlə 12 fərqləndirici əlamət mövcud olduğu prinsipini irəli sürmüşlər və qeyd etmişlər ki, elə dil ola bilər ki, orada bu əlamətlərin heç də hamısı iştirak etməsin. Həmin müəlliflərə görə, fonem diferensial əlamətlər məcmusudur».

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 40.

ДЛИТЕЛЬНОСТЬ - alm. Länge (f), ing. duration /dju(ə)'reɪʃ(ə)n/, length /leŋθ/, fr. durée, longueur, azərb. uzunluq. – Bu, dil vahidinin tələffüzü üçün tələb olunan obyektiv zamandır. Tədqiqatlar göstərir ki, bir saniyədə 5/6 heca, bir dəqiqədə isə 300 heca tələffüz etmək olar.

A.Digeser. Phonetik und Phonologie des Englischen. Padeborn, 1978, s. 3.

ДЛИТЕЛЬНОСТЬ АБСОЛЮТНАЯ - alm. absolute Länge (f), Dauer (f), ing. absolute length (duration) /ˈ5bsəlu:t leŋθ/djuəˈreɪʃən/, fr. durée absolue, azərb. mütləq uzunluq. - Danışıq tempi ilə müəyyənləşdirilən uzunluq. Danışıq aktında hər bir dil vahidinin tələffüzünə sərf olunan obyektiv vaxt.

F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1980.

ДЛИТЕЛЬНОСТЬ ОТНОСИТЕЛЬНАЯ - alm. relative Länge (f), Dauer (f), ing. relative duration /ˈrelətɪv dju(ə)ˈreɪʃ(ə)n/, fr. durée relative, azərb. nisbi uzunluq. - Konkret danışıq tempilə deyil, dil vahidinin qarşılıqlı nisbətdə olan uzunluğu. Məs.: alm. d. /i:/ saiti qısa /i/-dən mütləq mənada uzundur. Ancaq danışıq aktında o, eyni mövqedə heç zaman /i/-dən qısa ola bilməz. Ancaq danışıq aktnda onun uzunluğu müxtəlif cür ola bilər.

F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1980.

downloaded from KitabYurdu.org

ДЛИТЕЛЬНЫЙ - alm. lang, dauernd, ing. durational, long /djuəˈreɪʃən(ə)l/lɔŋ/, fr. long, de longue durée azərb. uzun. - Eyni qanışıq tempində qısa səslərlə müqayisədə böyük uzunluğa malik olan. Məs.: /i:/ # /ɨ/; /o:/ # /6/ və s. Alman dilində /a:/ -dan başqa bütün qapalı saitlər, həm də uzundurlar.

F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1980.

ДОГОН - alm. Dogon (n), ing. Dogon /ˈdəʊg5n/, fr. Dogon, azərb. doqon dili. – Gur dillərindən biridir. Əsasən Malidə, həmçinin Burkino-Fasoda da yayılmışdır. Daşıyıcılarının ümumi sayı 600 minə yaxındır. Tomo, kan, damsay, toro və s. kimi dialektlərə bölünür. Aqqlütinativ dil tipinə aiddir. Yazısız dildir.

G.Calame-Griaule. Dictionaire Dogon, 1968.

ДОГРАММАТИЧЕСКИЙ - alm. vorgrammatisch, ing. pregrammatical /preˈgr5mətıkəl/, fr. prégrammatical, azərb. qrammatikayaqədərki dövr. – Dilin təsvirində anlayışlar və üsulların yaranmasınaqədərki dövr. Adətən elmi qrammatikanın yaranmasını Por-Royalda 1660-cı ildə çap olunmuş «Grammaire generale et raisonnee» kitabını hesab edirlər.

Ə.Rəcəbli. Dilçilik tarixi. Bakı, 1962.

ДОИСТОРИЧЕСКОЕ РАЗВИТИЕ ЯЗЫКА - alm. prähistorische, vorgeschichtliche Entwicklung der Sprache (f), ing. prehistoric development of language /preˈhısˈtɔrık dıˈveləpmənt əv ˈl5ŋgwıʤ/, fr. développement préhistorique du langage, azərb. dilin tarixəqədərki inkişafı. - Dilin yazılı abidələrdə əks olunan dövrlərə qədərki mərhələsi.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 46.

ДОЛГАНСКИЙ ЯЗЫК - alm. Dolganisch (n), ing. Dolgan language /dɔ:lg5n ˈl5ŋgwʤ/, fr. langue dolgane, azərb. dolqan dili. – Türk dillərindən biridir. Taymır vilayətinin Dudin və Xatanq bölgələrində yayılmışdır. 5 minə qədər daşıyıcısı vardır. Noril, pasin, avam, xatanq və popiqay dialektlərinə bölünür.

О.Б.Долгих. Происхождение долган. «Сибирский этнографический сборники», т. 5, М., 1963.

ДОЛГИЙ ГЛАСНЫЙ - alm. langer Vokal (m), Langvokal (m) ing. long vowel /lɔŋ ˈvau(ə)l/, fr. voyelle longue, azərb. uzun sait. - Eyni danışıq tempində qısa saitlə müqayisədə uzun tələffüz edilən sait. İng. d. D.Counz 5 uzun sait olduğunu (/i:, a:, 6:, u:, ə:/), P.Leydfoget isə uzun sait olmadığını iddia edirlər. Alm. d. isə Şerba məktəbi 7 uzun sait (/a:, o:, u:, ø:, e:, i:, y:/) olduğunu göstərir.

downloaded from KitabYurdu.org

A.Digeser. Phonetik und Phonologie des Englischen. Padeborn, 1978, s. 22; F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1980, s. 124.

ДОЛГИЙ СЛОГ (ДВОЙНОЙ СОГЛАСНЫЙ) - alm. lange Silbe (f), ing. long syllable /lɔŋ ˈsıləbl/, fr. syllabe longue, azərb. uzun heca. – Uzun tələffüz olunan heca. Məs.: rus d. vurğulu heca. Vurğudakı sait daha uzun, daha yüksək və güclü deyilir. Müq. et: rus d. /bá:ba/



ba: ba

ДОЛГИЙ СОГЛАСНЫЙ (ДВОЙНОЙ СОГЛА́СНЫЙ) – Bax: Геминация ←.

ДОЛГОТА - alm. Dauer (f), Länge (f), ing. length /leŋθ/, fr. longueur, azərb. uzunluq. - Səsin tələffüzündə zamanca davamlılıq.

Bax: Долгий гласный ←.

ДОЛГОТА КОМБИНАТОРНАЯ - alm. kombinatorische Dauer (f), Länge (f), ing. combinatory length /kəmˌbaınəˈtərı leŋθ/, fr. longueur combinatoire, azərb. kombinator uzunluq. - Fonoloji cəhətdən relevant olmayan, lakin qonşu fonemlərin təsirilə yaranan uzunluq. Məs.: alm. d. /R/ samitindən əvvəl sait uzun tələffüz olunur. Müq. et: /ʃva:Rts/ (qara) və s.

F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1980, s. 132.

ДОЛГОТА ПО ПОЛОЖЕНИЮ - alm. Positionsdauer, (Länge) (f), ing. positional length /pəˈzıʃən(ə)l leŋ4/, fr. longueur par la position, azərb. mövqeyinə görə uzunluq. – Mövqedən asılı olaraq sait uzun tələffüz oluna bilər. Məs.: Azərb. d. alınma sözlərdə birinci hecada sait uzun tələffüz olunur. Müq. et: /aˑlim/, /əˑla/, /aˑdət/ və s.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 129-141.

ДОЛГОТА ПО ПРИРОДЕ - alm. natürliche Dauer, (Länge) (f), ing. length by nature /leŋθ baı ˈneıtʃə/, fr. longueur par la nature, azərb. təbiətinə görə uzunluq. – Bəzi dillərdə saitlər uzunluğa və qısalığa görə fonoloji qarşılaşma yaradırlar. Məs.: alm. d.

Saitlər | uzun: /a:, o:, u:, ø:, e:, y:, i:/

qısa: /a, 6, □, oe, ɛ, y, ɪ/

F.J.Vejsälli. Einführung in die Phonologie. Baku, 2004, s. 115.

downloaded from KitabYurdu.org

ДОЛГОТА ЭМФАТИЧЕСКАЯ - alm. emphatische Dauer (f), ing. emphatic length /ɪmˈfætɪk leŋθ/, fr. longueur emphatique, azərb. emfatik uzunluq. - Danışıq prosesində səsin müəyyən effekt yaratması üçün ixtiyari şəkildə uzadılması. Bu uzanma müxtəlif üslubi funksiya daşıyır. Məs.:

Azərb. d. biz deyirik: /ʕS:ənʃ/, /ʕS:ən məni udarsa:a:nʃ/ və s. Burada samitin və saitin uzanması danışanın hiss-həyəcanını, təəccübünü daha canlı şəkildə ifadə edir.

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s.203.

ДОЛГОТА ЭТИМОЛОГИЧЕСКАЯ - alm. etymologische Dauer (f),

ing. etymological length /ˌetɪməˈlɔʤɪk(ə)l leŋθ/, fr. longueur étymologique, azərb. etimoloji uzunluq. – Saitlərin etimoloji uzunluğu. Alm. d. /ga:mə/ sözündə uzun /a:/ deyilirdi. Unifikasiya nəticəsində [ə] düşdü və birinci heca oldu qapalı. Ancaq sözdəki /a:/ saitinin etimoloji uzunlüğü qaldı. Hazırda /Bräutigam/ (nişanlı) sözündə son hecadakı /a:/ saiti öz etimoloji uzunluğunu qoruyub saxlayıb.

F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1980, s. 203.

ДОЛГОТНОЕ УДАРЕНИЕ - alm. quantitative Betonung (f), ing.

quantitative accent /ˈkwɔntətɪv 5ksent/, longitudinal accent /ˌlɔnʤɪˈtju:dɪnl 5ksent/, fr. accentuation, azərb. uzun (kəmiyyət) vurğu (su). - Saitin uzanması ilə səciyyələnən vurğu növü. Məs.: rus dilində, çex dilində. Rus d. vurğulu sait vurğusuz saitdən təxminin 1,5 dəfə uzundur.

Л.В.Златоустова. Фонетическая структура слова в потоке речи. Казань, 1962.

ДОМИНАНТА СЕМАНТИЧЕСКАЯ - alm. semantische Dominanz (f),

semantic dominant /sɪˈmæntɪk ˈdɔmɪnənt/, fr. dominante sémantique, azərb. semantik dominantlıq. - Sinonimik cərgədə əsas məna daşıyıcısı keyfiyyətində çıxış edən, əlavə oxşar mənaları özünə tabe edən və onlar üzərində üstünlük təşkil edən üzv. Məs.: Azərb. d. /nəm-yaş-höyüş/ cərgəsində /nəm/ dominantlıq təşkil edir.

M.İ.Adilov və b. Göstərilən əsər, s. 92.

ДОПИСЬМЕННЫЕ ЗНАКИ - alm. vorschriftliche Zeichen (Pl.), ing. pre-literary symbols /preˈlɪtərərɪ ˈsɪmbəlz/, fr. signes préécritures, azərb. yazıya qədərki işarələr. – Yazının yaranmasına qədər istifadə olunan işarələr.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 64-92.

ДОПОЛНЕНИЕ (ОБЪЕКТ) - alm. Objekt (n), ing. object /ˈɔbʤɪkt/,

objective complement aktɪv /ˈɔbʤɪktɪv ˈkɔmplɪmənt 5ktɪv/, fr. complément (objet), azərb. tamalmıq. – Mübtəda ilə xəbər arasındakı münasibəti ifadə

downloaded from KitabYurdu.org

edən ikinci dərəcəli cümlə üzvü. Tamamlıq adətən ismin vasitəli halları ilə ifadə olunur. Tamamlığın yeri və halı cümlədə felin valentliyilə bağlıdır. Tamamlığın vasitəli (sözönlü, qoşmalı) və vasitəsiz növlərini fərqləndirirlər. Tamamlıq isimlə, tərkiblərlə və budaq cümlələrilə ifadə oluna bilər. Məs.: Azərb. d.

/Mən onu çağırıram// (vasitəsiz);

/Mən ona sarı gedirəm// (vasitəli);

/Mən Londona təhsil almağa getmişdim// (tərkiblə ifadə olunub).

H.Glinz. Göstərilən əsər, s. 99, 208.

ДОПОЛНИТЕЛЬНЫЙ - alm. komplementär, ing. additional /ə'dɪʃənl/, subsidiary /səb'sɪdjərɪ/, fr complétif, azərb. tamamlayan, əlavə. - 1. Səsin əsas tələffüz məxrəcini müşayət edən, əsas səsə birləşən. Məs.: rus d. samitin tələffüzündə dilin orta hissəsinin sərt damağa doğru qalxması. Müq. et: /t/, ancaq /t'/, /b/, ancaq /b'/ və s.; 2. Müəyyən vahidin əsas semantik xarakteristikasını səciyyələndirən, müşayiət edən. Məs.: Azərb. d. /Mavi göy Xəzərin…/; 3. Sintaktik səviyyədə əsas üzvün məzmununu dəqiqləşdirən, inkişaf etdirən və ya məhdudlaşdıran üzv. Məs.: /Mən ona – məktəbin direktoruna, dedim ki…/ və s.

H.Glinz. Göstərilən əsər, s. 99, 208.

ДОРСАЛЬНЫЙ - alm. dorsal, ing. dorsal /'dɔ:s(ə)l/, fr. dorsal, azərb. dorsal. - Dil kürəyinin orta hissəsi ilə tələffüz olunan səslər. Azərbaycan dilində samitlər dorsal, ingilis dilində isə apikaldır.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 286.

ДОСЛОВНЫЙ ПЕРЕВОД - alm. wörtliche (buchstäbliche) Übersetzung

(f), ing. literal translation /'lɪtərəl tr5ns'leɪʃən/, fr. traduction littérale, azərb. hərfi tərcümə. - Əcnəbi konstruksiyanı saxlamaq şərtilə mənbə etimon dildəki sözlərin yerinə onların obyekt dilə məxsus ekvivalentlərini tapıb qoymaqla edilən tərcümə. Məs.: rus d. /красная площадь/; Azərb. d. /qırmızı meydan/ kimi tərcümə ediləndə olur hərfi tərcümə.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 286.

ДРАВИДИЙСКИЕ ЯЗЫКИ - alm. dravidische Sprachen (Pl.), ing.

Dravidi languages /dra:vɪ:dɪ 'l5ŋgwɪʤɪz/, fr. langues dravides, azərb. dravidi dilləri. – Cənubi Asiya subkontinentində (Hindistan) dillər ailəsi. Əsasən Hindistanın cənub ştatlarında, Pakistan, Əfqanıstan, Şərqi İranda, qismən Şri-Lankada, Hind və Sakit okeanlarındakı adalarda və cənubi Afrikada yayılmışdır. 200 milyona qədər daşıyıcı vardır. Dravid dillərini ərazi baxımından üç əsas yarımqrupa bölürlər: cənub (tamil, kannada, malaya-

downloaded from KitabYurdu.org

lam, tulu, telequ və s.); mərkəzi (hondi, kui, kolami, parcu); şimali (kurukx, braxui, malto) və s.

Г.А.Зограф. Языки Индии, Пакистана, Цейлона и Непала. М., 1960; М.С.Андронов. Дравидийские языки. М., 1978.

ДРЕВА ГЕНЕАЛОГИЧЕСКИЕ - alm. genealogischer Baum (m), ing. genealogical tree /ˌʤi:njəˈlɔʤıkəl tri:/, family tree /ˈf5milı tri:/ fr. arbre généalogique, azərb. genealoji ağac. - Dil ailələrinin və qruplarının və ya qollarının ağac şəklində əyani təsviri. Bu da sonralar dilçilik tarixinə ağac nəzəriyyəsi kimi daxil olmuşdur. „Dilçilikdə ilk dəfə bu nəzəriyyəni A.Şlayxer (1821-1868) irəli şürmüşdür. A.Şlayxer bütün dillərin bir ulu dildən yarandığını, sonralar qollara bölünərək dil ailələrində cəmləşdiyini söyləməklə ümumi ulu dili axtarmağa çox vaxt və enerji sərf etmiş, ulu dildə bir təmsil yaratmışdır".

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 17.

ДРЕВНЕЕГИПЕТСКИЙ ЯЗЫК – alm. Altägyptisch (n), ing. Old Egyptian language /əuld ɪˈʤıpʃən ˈl5ŋgwʤ/, fr. langue d'ancienne Égyptie, azərb. qədim misir (qədim eqipt) dili. – Afraziya dillərinin ayrıca bir qoludur. V əsrə qədər müasir Misir ərazisində fəaliyyət göstərmişdir, sonrakı dövrlərdə ərəb dili tərəfindən sıxışdırılıb aradan çıxarılmışdır. İlk yazılı abidiləri IV-III minilliklərə aiddir.

Н.С.Петровский. Египтский язык. М., 1958.

ДРЕВНЕИНДЕЙСКИЙ ЯЗЫК - alm. Altindisch (n), ing. Old India language /old ɪndjə ˈl5ŋgwʤ/, fr. langue indienne, ancienne, azərb. qədim hind dili. – Şimal-qərbi Hindistanı işğal etmiş qədim ariyalıların dili. Qədim hind dilini iki dialektə bölürlər: vedi və sakskrit dialektləri.

J.Wackernagel. A.Debrunner. Altindische Grammatik. Bd 1-3, Göttingen, 1930.

ДРЕВНЕТЮРКСКИЕ ЯЗЫКИ - alm. alttürkische Sprachen (Pl.), ing. Old Turkish language /ould ˈtə:kıʃ ˈl5ŋgwʤız/, fr. langues turques anciennes, azərb. qədim türk dilləri. – Türk xalqlarının qədim dilləri. Ən qədim tarixi abidələrinə Lena çayının sahillərindən Volqa və Dunay çaylarının sahillərinə qədər uzanan geniş bir ərazidə rast gəlinir. Qədim tarixi abidələrinə Şərqi Türkistanda Turfan ərazisində də rast gəlinir.

П.М.Мелиоранский. Памятник в честь Гюль-Тегина. СПБ, 1899; С.Е.Малов. Памятники древне-тюркской письменности. М.-Л., 1951.

ДРОБНОЕ ЧИСЛИТЕЛЬНОЕ - alm. Bruchzahl (f), Bruchnumerale (n), ing. fractional numeral /ˈfr∧kʃ(ə)nl /ˈfr5kʃənl/ˈnju:m(ə)r(ə)l/, fr. numéral

downloaded from KitabYurdu.org

fractionnaire, azərb. kəsr sayı. - Kəsr sayı bütövün (tamın) müəyyən bir hissəsini, əşyanın neçədən hər hansı bir hissəsini bildirir. Kəsr saylarında bütövdən müəyyən bir hissə çıxarılır və ya götürülür, yerdə qalan hissə məzmunca nəticə kimi özünü büruzə verir. Məs.: Azərb. d. /almanın ½ hissəsi/, /çörəyin ¼ hissəsi/, /əhalinin 2/5 hissəsi/. Kəsr saylarını öz məzmun və formasına görə 3 yerə ayırmaq olar: adi kəsr sayları, onluq kəsr sayları, kəsr sayları mənalarında işlənən sözlər. Məs.: 2/3; 5/5; 0,5; 0,25; yarım, yarı, para, çərək, rüb, faiz və s.

Müasir Azərbaycan dili. II cild, Bakı, 1980, s. 142.

downloaded from KitabYurdu.org

QƏDİM TÜRK RUNİK ƏLİFBASI

Runlar			Runlar		
Orxon	Yenisey	transkripsiya	Orxon	Yenisey	transkripsiya
		a (ä)			m
		e			n^1
		i ï			n^2
		o u			ŋ
		ö ü			n j
		j^1			nč nğ
		j^2			nt nd
		b^1			p
		b^2			q^1
		č ğ			qï qï
		$č^2$ $ğ^2$			oq uq qo qu
		d^1			r^1
		d^2			r^2
		$γ^1$			s^1
		g^2			s^2
		k^2			š
		ök ük kö kü			t^1
		l^1			t^2
		l^2			z
		!d lt			

downloaded from KitabYurdu.org

ДРОЖАЩИЙ - alm. vibrierender Laut (m), Zitterlaut (m), ing. vibrate

/vaɪ'breɪt/, shudder /'ʃʌdə/, trilled /trɪld/, fr. tremblant, azərb. titrək. - Tələffüzü zamanı dil ucunun və ya dilçəyin titrəməsilə ritmik şəkildə yaranan sonor samit. Azərbaycan dilinin samitlər sistemində /r/ belə samitlərdəndir. Alm. d. /R/; ing. d. /r/; rus d./r/, /r'/; fr. d. isə /R/ belə samitlərdəndirlər.

F.J.Vejsälli. Einführung in die Phonologie. Baku, s. 20.

ДУАЛИС АНАФОРИЧЕСКИЙ - alm. anaphorischer Dualis (m), ing.

anaphoric dual /5nəfɔ:rɪk 'dju:əl/, fr. duel anaphorique (secondaire), azərb. ikili kəmiyyət. - İkili, barəsində söhbət gedən iki predmet mənası bildirən, əvvəllər ikili kəmiyyət formasında işlədilən kəmiyyət forması. Məs.: rus dilində /оба столá/, /оба коня/; alm. d. /beide/; ing. d. /both/ və s.

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 110.

ДУБИТАТИВ - alm. Dubitativ (m), ing. dubitative mood /'dju:bɪtətɪv mu:d/, fr. dubitatif, distributif, azərb. dubitativ. – Felin təəccüb, şübhə, çaşqınlıq bildirən lazım forması. Мяс.: Азярб. д. /Ола билсин ки, мян ону эюря билдим/.

О.С.Ахманова. Göstərilən əsər, s. 144.

ДУБИТАТИВНЫЙ - alm. dubitativ, ing. dubitative /'dju:bɪtətɪv/, fr. dubitatif, azərb. dubitativ. - Şübhə, təəccüb, inamsızlıq ifadə etmək üçün işlədilən lazım forması. Məs.: Azərb. d. /ola bilsin ki/, /ola bilər ki/ və s.

О.С.Ахманова. Göstərilən əsər, s. 144.

ДУБЛЕТ - alm. Dublette (f), Doppelform (f), ing. doublet /'dʌblɪt/,

alternative /ɔ:ltɜ:nətɪv/, fr. doublet, double, azərb. dublet. - „Diaxronik aspektdə söz mənasının dəyişməsilə bağlı olmasa da, dubletlər mənanın verilməsində mühüm rol oynayır. Mənşəyinə görə eyni etimondan olan iki söz fonetik cildinə görə müxtəlif olur. Məs.: latın dilindəki causa sözündən törəyən chose - „seç"; cause - „əsas", (səbəb deməkdir) dubletlərə misal ola bilər.

Göründüyü kimi, sözün fonetik qəlibində baş verən dəyişiklik onun mənasına da təsir etmişdir. Bu sözlərdən chose - ə varis söz (Erbwort) deyilir, çünki o, qədim fr. d. qalmış, lakin fonem tərkibində dəyişiklik baş verməklə öz ilkin şəklindən uzaqlaşmışdır. 2-si isə eyni latın sözündən götürülmüş, əsasən 16-cı əsrdə fransız lüğət fondunu zənginləşdirmək məqsədi güdürdü. Dubletlərdən danışarkən keçmə söz, alınma söz (Lehnwort), ulu dildən bərpa edilən söz (Erbwort) və əcnəbi söz (Fremdwort) məsələlərinə də xüsusi diqqət verilməlidir. Erbwort dilin öz sözüdür, müəyyən dövr ərzində ümumişlək söz kimi kənarda qalır, sonralar yenidən bərpa edilərək ümumişlək sözə çevrilir. Məs.: /Ho:chzi:t/ (toy). Alınma söz bütövlükdə həm

downloaded from KitabYurdu.org

fonetik, həm də semantik baxımdan mənimsənilir (məs.: Kasus), əcnəbi söz isə etimonun əlamətlərini qismən, ya da tam özündə saxlayır (məs.: Chancen və s.)“.

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 166.

ДУБЛЕТНАЯ ФОРМА (ДУБЛЕТ) - alm. Dublette (f), Doppelform (f), ing. doublet form /ˈdʌblɪt fɔːm/, fr. forme doublée, azərb. dublet (qoşa,cüt) forma. - Müəyyən dil vahidinin fonetik, morfoloji, sintaktik və üslubi variantı. Məs.: alm. d. Sprachwissenschaft– Linguistik.

M.İ.Adilov və b. Göstərilən əsər, s. 92.

ДУНГАНСКИЙ ЯЗЫК - alm. Dunganisch (n), ing. Dungan language /dʌŋg5n ˈl5ŋgwɪʤ/, fr. langue doungane, azərb. dunqan dili. – Çin-tibet dillərindən biridir. Kazaxstanın, Qırğızstanın və Özbəkistanın bəzi bölgələrində yayılmışdır. Keçmiş sovetlər ittifaqında bu dildə danışınlırın sayı təqribən 60 minə qədərdir. Çin ərazisində dunqanlar Hansu, Şensi, Henan Hebey və s. əyalətlərində yayılmışlar. Təqribən onların sayı 7 milyona çatır.

А.А.Драгунов, Е.Н.Драгунова. Дунганский язык. «Западный институт АН СССР», 1936, т.6. М.Имазов. Фонетика дунганского языка. Фрунзе, 1975.

ДУРАТИВНЫЙ - alm. durativ, ing. durative /djuəˈrətɪv/, cursive /ˈkəːsɪv/, fr. duratif, azərb. durativ. - Qeyri-məhdud sonluq, hüdud ifadə etməyən fellərlə ifadə olunan məna. Məs.: alm. d. /brennen/ (yanmaq), /arbeiten/ (işləmək), /essen/ (yemək). Bunlar aterminativ fellər kimi kursiv, terminativ, sonu bildirən /entbrennen/ (alışıb yanmaq), /verbrennen/ (yanıb qurtarmaq), /aufarbeiten/ (qurtarmaq), /einen Apfel essen/ (alma yemək) kimi fellərə qarşı qoyulur. Hüdudu bildirmək üçün Azərbaycan dilində leksik və ya mürəkkəb fellərdən istifadə olunur. Məs.: /yanıb qurtarmaq/, /iki saat yanmaq/ və s. Qeyri-durativ məna bizim dildə /davam etmək/ kimi fellə də ifadə oluna bilər. Durativ fellər iterativ /Habtern sticbeln/ və distinktiv /hüsteln/ (öskürmək), /lächeln/ (gülmək), qeyri-durativ fellər isə inqressiv (başlanğıc) bildirən fellərə bölünürlər: /entflammen/ (alovlanmaq), /einschlafen/ (yuxulamaq), prosesin sonunu bildirən fellər /verbrennen/ (yanıb qurtarmaq), /zerbrechen/ (sındırmaq), transformativ (prosesin keçəriliyini) bildirən fellər /altern/ (qocalmaq), /abkühlen/ (soyutmaq) və punktual fellər (məqamın ani dəyişdiyini bildirən) fellər, məs.: /platzen/ (partlamaq), /finden/ (axtarmaq) yerə bölünürlər.

H.Bußmann. Göstərilən əsər, s. 199-200.

ДУХ ЯЗЫКА - alm. Sprachgeist (m), ing. spirit of a language /ˈspɪrɪt əv əˈl5ŋgwɪʤ/, fr. esprit de la langue, azərb. dilin ruhu. – Alman alimi V.fon Humboldtun adı ilə bağlı bu cərəyan dil nəzəriyyəsinin əsasını qoyub. O, dili fərdin fövqündə duran, xalqın ruhu hesab edirdi. Dili o, erqon deyil,

downloaded from KitabYurdu.org

energeia (daima fəaliyyətdə olan) hesab edirdi, dili xalqın tarixi, mədəni və mənəvi fəaliyyətinin təzahürü kimi götürürdü. O yazırdı ki, dil anlama prosesində vasitəçi rolunu oynayır. Dil hissə meydan verir, özü hissi oyadır, ona görə də güc, dəqiqlik və çeviklik tələb edir. Dil məlumatın verilmə-sində obrazlı vasitələrlə yeni fikir doğurur, ona görə də sözlərdə iz buraxan ruhu hərəkətə gətirir… Dil fikri yaradan bir orqandır («Die Sprache ist das bildende Organ des Gedankens»).

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 36.

ДЫРЫ В МОДЕЛИ - alm. Modellücken (Pl.), ing. holes in the pattern /houlz ın ðə ˈp5tən/, fr. cases vides dans le modˈle, azərb. model boşluqları. - Fonoloji uyğunluq sistemində fonemlərin rəmzi işarələri ilə doldurulmuş torlar yaxud da boşluqlar məcmusu kimi təsvir olunan boş sahələr, boşluqlar (lakonlar).

O.C.Ахманова. Göstərilən əsər, s. 145.

ДЫХАТЕЛЬНАЯ ГРУППА (ГРУППА ВЫДЫХАТЕЛЬНАЯ) - alm. Atmungsgruppe (f), ing. breath group /breθ gru:p/, respiratory group /rısˈpaıərət(ə)rı gru:p/, fr. groupe de souffle, azərb. nəfəsvermə qrupu. – Bir nəfəsvermədə tələffüz olunan danışıq parçası. Bu cür yanaşmanı səhv hesab edən Şerba məktəbi bunun əvəzinə sintaqm anlayışını irəli sürdü.

Ф.Ядигяр и др. К истории изучения синтагм. «Dil və ədəbiyyat», Bakı, 2000.

ДЫХАТЕЛЬНАЯ ПАУЗА - alm. Atmungspause (f), ing. respiratory pause /rısˈpaıərət(ə)rı pɔ:z/, breath-pause /breθ pɔ:z/, fr. pause de souffle, azərb. nəfəsvermə fasiləsi. – Nəfəs qrupunun sonluğunu bildirən fasilə. Yuxarıdakı mənada burada söhbət sintaqm fasiləsindən getməlidir.
Bax: Дыхательная группа ←.
ДЫХАТЕЛЬНЫЙ (ФРИКАТИВНЫЙ) - alm. Reibelaut (m), Frikativlaut (m), ing. respiratory /rısˈpaıərət(ə)rı/, fricative /ˈfrıkətıv/, fr. respiratoire (fricatif), azərb. udlaq samiti. – Hava axınının ağız boşluğunda yaranmış novdan süzülərək bayıra çıxması zamanı yaranan səslər. Klassik fonetika bütün novlu səsləri nəfəsli və ya frikativ samitlər adlandırırlar.
K.Kohler. Göstərilən əsər, s. 57.

– E –

ЕВРЕЙСКИЙ ЯЗЫК – alm. Ivrit (n), ing. Yiddish language /ˈjdıʃ ˈl5ŋgwıʤ/, fr. langue yiddis(c)h, azərb. yəhudi dili. – Mişnait dövrününün

downloaded from KitabYurdu.org

dili əsasında formalaşmış qədim yəhudi dilinin müasir modifikasiyası. Semit dillərinin yeni mərhələsinə aiddir. İsrail dövlətinin rəsmi dilidir (ərəb dili ilə bərabər). Təqribən 3,5 milyon daşıyıcısı vardır. XX əsrin əvvəllərinə qədər bir neçə tələffüz norması mövcud olmuşdur: aşkenaz (əsasən Şərqi Avropa mənşəli, Almaniyada yaşayan yəhudilərin arasında); sefard (Şərqi Arallıq dənizi hövzəsindən, Niderlanddan və Cənubi Fransadan çıxmış İspaniya yəhudilərinin istifadə etdikləri dil. Yazısı Yəhudi əlifbasındadır.

N.Chomskiy. Morphophonemics of Modern Hebrew. Phil. 1951; А.А.Реформатский. Göstərilən əsər, s. 429.

ЕВРОПЕЙСКОЕ ЛИНГВИСТИЧЕСКОЕ ОБЩЕСТВО - alm. Europäische Gesellschaft für Linguistik (f), ing. Societas Linguistica of Europea /sə'saıətı 'lıŋgwıstık əv juərə'pi:ə/, fr. société linguistique européene, azərb. Avropa dilçilik cəmiyyəti. – Avropa ölkələrinin dilçilərinin həqiqi üzv keyfiyyətində birləşdirən və dilçilik sahəsindəki tədqiqat işlərinin inkişafına yardım göstərən Beynəlxalq elmi cəmiyyət. 1966-cı ildə Amerika dilçilik cəmiyyətinin nümunəsi (modeli) əsasında yaradılmışdır. Avropa dilçilik cəmiyyəti hər il öz yığıncağını keçirir və cəmiyyətin prezidenti və vitse-prezidentlərini seçir, həmçinin Beynəlxalq elmi konfransların keçirilməsini təşkil edir. İlk prezidenti A.Martine seçilmişdir. Mətbu orqanları: üçaydan bir çıxan elmi jurnal «Folia Linguistica» (1967-) və «Folia Linguistica Historica» (1980-)dır.

Лингвистический энциклопедический словарь. Под редакцией В.Н.Ярцевой. М., «Советская энциклопедия», 1990, s.147.

ЕВРОПЕЙСКИЕ ЯЗЫКИ - alm. Europäische Sprachen (Pl.), ing. European languages /ˌjuərə'pi(:)ən 'lɜŋgwıʤız/, fr. langues européennes, d'Europes, azərb. avropa dilləri. – Bunlar əsasən Hind-Avropa dilləridir. Ancaq Avropada bask dili qərbdə (tamam ayrı dildir), macar və fin dilləri şərqdə (ural dilləri), həmçinin türk dili (altay dili) və ərəb dilinə çox yaxın olan malta dili (Avroasiya dillərinə aiddir) kimi dillər də vardır.

H.Haarmann. Soziologie und Politik der Sprachen Europas. München, 1975.

ЕГИПЕТСКИЙ ЯЗЫК – alm. Ägyptisch (n), ing. Egyption language /ı'ʤıpʃ(ə)n 'lɜŋgwıʤ/, fr. langue l'égyptien; d'Egypte, azərb. misir dili. – Afroaziya dillərinin ayrıca bir qolu. V əsrdən ölü dil hesab olunur. Misir əlifbası ilə yazılmış ilk abidələri e.ə. VI əsrin sonuna III əsrin əvvəlinə təsadüf edir. Öz inkişaf dövründə misir dili hiss olunacaq dərəcədə dəyişiklərə məruz qalmışdır. Misir dilinin inkişafının əsas mərhələlərini aşğıdakı kimi vermək olar: əski misir (bizim eradan əvvəl 32-22-ci əsrlər); orta misir (bizim eradan əvvəl 22-14-ci əsrlər); yeni misir (14-7-ci əsrlər); demotik (bizim eradan əvvəl 17-ci əsr – bizim eranın 5-ci əsri) (bax: şəkil).

Н.С.Петковский. Египетский язык. М., 1958; М.А.Коростовцев. Египетский язык. М., 1961.

downloaded from KitabYurdu.org

MİSİR YAZISININ BƏZİ İŞARƏLƏRİNİN İNKİŞAF FORMALARI



ЕГИПТОЛОГИЯ – alm. Ägyptologie (f), ing. Egyptology /ˌiːʤɪpˈtɔləʤɪ/, fr. l'égyptologie, azərb. misirşünaslıq. – Qədim Misirin tarixini, dilini, yazısını və yazılı abidələri öyrənməklə məşğul olan tarixi-fəlsəfi fənlərin kompleksi. Dilçilik misirşünaslığın yaranması misir yazılarının açılıb oxunulması zərurətindən təşəkkül tapmışdır.

И.С.Канцельсон. Материалы для истории египтологии в России. «Очерки по истории русского востоковедения». М., 1956; Н.М.Постовская. Изучения истории Ближнего Востока в Советском Союзе. М., 1961.

ЕДИНИЦА - alm. Einheit (f), ing. unit /ˈjuːnɪt/, fr. unité, azərb. vahid. - Danışığa hazır şəkildə daxil edilən, hər dəfə danışıq prosesində yenidən yaradılmayan və beləliklə də dilin sabit ünsürü səciyyəsi daşıyan fonem, morfem, leksem və s. Dilin hər bir səviyyəsinin öz vahidi vardır. Fonoloji səviyyənin vahidi fonem, morfoloji səviyyənin vahidi morfem, leksikoloji səviyyənin vahidi leksem, frazeloji səviyyənin vahidi frazem, sintaktik səviyyənin vahidi isə cümlə modelləridir. Fonemdən fərqli olaraq digər dil

downloaded from KitabYurdu.org

vahidlər ikitərəflidir, başqa sözlə desək, onlar həm ifadə, həm də məzmun planına malikdirlər.
P.H.Matthews. Göstərilən əsər, s.391.

ЕДИНИЦА ВЫРАЖЕНИЯ (ЕДИНИЦА ОБОЗНАЧАЮЩЕГО) - alm. Ausdruckseinheit (f), ing. unit of expression /ˈjuːnɪt əv ɪksˈpreʃən/, fr. locution unité, azərb. ifadə vahidi. - Müəyyən dil məzmununa müvafiq gələn səslənmə parçası. Məs.: rus d. /stol/ dörd fonem ardıcıllığı olmaqla dəyirmi, oval, dördkünc stolun ifadə vasitəsidir. Müq. et:



F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 24.

ЕДИНИЦА ВЫРАЖЕНИЯ МИНИМАЛЬНАЯ - alm. minimale Ausdruckseinheit (f), ing. minimal unit of expression /mınım(ə)l ˈjuːnɪt əv ɪksˈpreʃən/, fr. locution, unité minimale dˈexpression, azərb. minimal ifadə vahidi. - Danışıq səsi, ən kiçik səslənmə parçası. Məs.: /t '/ foneminin kar, partlayışlı və yumşaqlığı kimi fərqləndirici əlamətləri buna bariz nümunə-dir. Məşhur dilçi E.Benvenist (1902-1976) fərqləndirici əlamətləri merizm adlandırır və onları ayrıca bir səviyyənin - merizmatik səviyyənin vahidi hesab edirdi.
E.Benveniste. Probleme der allgemeinen Sprachwissenschaft. Berlin, 1976, s. 135.

ЕДИНИЦА ЗВУКОВАЯ – Bax: Единица выражения ←.

ЕДИНИЦА ‹ЗВУКОВАЯ› КРАТЧАЙШАЯ - alm. kleinste lautliche Einheit (f), ing. the shortest sound unit /ðə ˈʃɔːtest ˈsaund ˈjuːnɪt/, fr. unité phonétique, la plus petite, azərb. ən kiçik ‹səs› vahidi. - Sözün ardıcıl xətti üzvlənməsi zamanı (özündən kiçik hissələrə bölünməyən) vahid kimi ayrılan, minimal zaman kəsiyinə malik olan tələffüz-eşitmə elementi. Məs.: Azərb. d. /dolab/ sözündə /b/ samiti ən kiçik tələffüz-eşitmə vahidi olmaqla yanaşı həm də morfemdir, o /dola/ sözündən yeni bir söz yaratmaqda iştirak edir.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s.103-121.

ЕДИНИЦА ‹ЗВУКОВАЯ› МИНИМАЛЬНАЯ - alm. minimale lautliche Einheit (f), ing. minimal unit of sound /mınıməl ˈjuːnɪt əv ˈsaund/, fr. unité phonétique mıinimale, azərb. minimal „səs“ vahidi.

Bax: Единица звуковая кратчайшая ←.

ЕДИНИЦА КОММУНИКАТИВНАЯ - alm. Kommunikationseinheit (f), ing. communicative unit /kəˈmjuːnɪkətɪv ˈjuːnɪt/, fr. unité communicative, azərb. kommunikativ (ünsiyyət) vahid (i). - Müstəqil

downloaded from KitabYurdu.org

şəkildə hər hansı məlumatı bildirməyə qabil olan danışıq parçası. Dildə cümlə əsas kommunikativ vahid hesab olunur.

M.A.K.Halliday. Explorations in the Function of Language. London, 1973.

ЕДИНИЦА ЛЕКСИЧЕСКАЯ - alm. lexikalische Einheit (f), ing. lexical unit /ˈleksık(ə)l ˈjuːnıt/, fr. unité lexicale, azərb. leksik vahid. – Forma ilə məzmunun vəhdətindən ibarət işarə, əşyavi səciyyə daşıyan, müəyyən bir dilə məxsus qaydalara əsasən formalaşan. Dil sisteminin digər vahidləri kimi söz də mücərrəd vahid keyfiyyətində çıxış edir. Belə bir dil vahidini leksem və ya qlossem, onların danışıqda reallaşmasını isə alloleksem adlandırırlar. Məs.: Azərb. d. /Ev sahibi o başdan bu başa, bu başdan o başa addımlayaraq gələn qonaqları başdan ayağa süzür//. Burada /baş/ leksemi iki alloleksemdə (/başdan/, /başa/) realizə olunmuşdur.

Ю.С.Маслов. Введение в языкознание. М., 1987, s. 10.

ЕДИНИЦА ЛИНГВИСТИЧЕСКАЯ - alm. linguistische Einheit (f), ing. linguistic unit /lıˈŋgwıstık ˈjuːnıt/, fr. unité linguistique, azərb. linqvistik vahid. - Dil vahidindən fərqli olaraq elmi-nəzəri konsepsiyanın və ya linq-vistik modelləşdirmənin elementi. Müxtəlif dilçilik məktəblərində müxtəlif cür adlandırılır. Məs.: A.Martinenin monem → termini həm morfemi, hə də leksemi → əhatə edir.

О.С.Ахманова. Göstərilən əsər, 146.

ЕДИНИЦА МОРФОЛОГИЧЕСКАЯ - alm. morphologische Einheit (f), ing. morfologic(al) unit /mɔːfəˈlɔʤık(əl) ˈjuːnıt/, fr. unité morphologique, azərb. morfoloji vahid. - Dilin ən kiçik mənalı vahidi. Ən kiçik (yəni öz mənasını itirmədən bölünə bilməyən) və verilən dilin ülgülərinə əsasən ifadə sisteminin müntəzəm şəkildə təkrarlanan vahidi. Bu da morfem anlayışıdır. Məs.: Azərb d. /əkinçi/ sözündə üç morfem vardır. /ək/ kök morfemdir, ondan /in/ şəkilçisi vasitəsilə yeni söz yaranıb, /əkin/ isə /-çi/ şəkilçisi qəbul edərək əkməklə məşğul olan şəxsi bildirir.

Ю.С.Маслов. Введение в языкознание. М., 1987, s. 164.

ЕДИНИЦА ПРОСОДИЧЕСКАЯ - alm. prosodische Einheit (f), ing. prosodic unit /prəˈsɔdık ˈjuːnıt/, fr. unité prosodique, azərb. prosodik vahid. – Prosodik vahid seqmentüstü səciyyə daşıyaraq… «bütövlükdə dilin prosodik vasitələrinin reallaşdığı kiçik (səslərə, hecalara), orta (ritmik qruplara, kiçik və böyük ritmik vahidlər arasında körpü kimi çıxış edən) və iri, ən azı iki və daha artıq ritmik qrupları özündə birləşdirən qruplara bölünür.

Д.Ш.Вейсалова. Просодия служебных слов в современном немецком и азербайджанском языках. Автореф. канд. дисс. Баку, 1990, s. 8.

downloaded from KitabYurdu.org

ЕДИНИЦА РЕЧИ - alm. Redeeinheit (f), Sprecheinheit (f), ing. speech unit /spi:ʧ ˈju:nɪt/, fr. unité discours, azərb. danışıq vahidi. - Təbii və qanunauyğun şəkildə danışıq axınından üzvlənən (ayrıla bilən) heca, söz, söz birləşməsi və söyləm.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 181-191.

ЕДИНИЦА СИНТАКСИЧЕСКАЯ - alm. syntaktische Einheit (f), ing. syntactical unit /ˈsɪnˈtæktɪk(ə)l ˈju:nɪt/, fr. unité syntaxique, azərb. sintaktik vahid. - Sintaksisin əsas vahidi cümlədir. Cümlə dilin ən kiçik ünsiyyət vahididir. Ünsiyyət prosesində fikir mübadiləsi yalnız cümlə vasitəsilə həyata keçirilir.

Bax: Предложение →.

ЕДИНИЦА СОДЕРЖАНИЯ - alm. Inhaltseinheit (f), ing. unit of content /ˈju:nɪt əv k6nˈtent/, fr. unité de contenu, azərb. məna vahidi. - Müəyyən ifadə vahidinə uyğun gələn məna. Məna vahidi nəzəri yanaşmadan asılı olaraq belə müəyyənləşə bilər: a) işarədən kənarda yerləşən gerçəklik: (məs.: /insan/ sözündə /canlı, cansız, böyük, kiçik, savadlı, savadsız/); b) mücərrədlik bildirməsi: (məs.: /məhəbbət/ sözünün məna komponentləri bunlardır: ilk məhəbbət/ sonuncu məhəbbət, aşıq olmaq, vurulmaq); c) seçib fərqləndirmək: (məs.: xüsusi adlar və terminlər) və s.

H.Bußmann. Göstərilən əsər, s. 339.

ЕДИНИЦА ФОНОЛОГИЧЕСКАЯ - alm. phonologische Einheit (f), ing. phonological unit /ˌfəunəˈlɔʤɪkəl ˈju:nɪt/, fr. unité phonologique, azərb. fonoloji vahid. - Müəyyən dildə danışıq axınının xətti ardıcıllığının üzvlənməsinin ən kiçik vahidi, söz və morfemlərin fərqləndirilməsinə xidmət edən və semioloji cəhətdən relevant dil vahidi. Fonologiyanın əsas vahidi fonemdir.

Bax: Фонема →.

ЕДИНИЦА ФОРМАЛЬНАЯ МИНИМАЛЬНАЯ - alm. minimale formale Einheit (f), ing. minimal formal unit /mɪnɪm(ə)l ˈfɔ:məl ˈju:nɪt/, fr. unité formelle minimale, azərb. minimal formal vanid (qramem). - Qrammatik səviyyədə ifadə planının ən kiçik vahidi. Qramem qrammatika sözünün kökündən düzəlib, dil sistemində vahidin mücərrədliyini bildirir. Məs.: dildə tək və cəmin göstəricisi, bu və ya digər halın göstəricisi və s.

Ю.С.Маслов. Введение в языкознание. М., 1987, s. 159.

ЕДИНИЦА ФРАЗЕОЛОГИЧЕСКАЯ - alm. phraseologische Einheit (f), ing. phraseological unit /ˌfreɪzɪəˈlɔʤɪk(ə)l ˈju:nɪt/, fr. unité phraséologique, azərb. frazeoloji vahid (frazem). - Tərkib elementləri struk-

downloaded from KitabYurdu.org

tur baxımdan sərbəst söz biləşmələrindən fərqli olaraq, semantik cəhətdən monolit vahid əmələ gətirən söz birləşməsi. Bu vahidlər öz məna xüsusiyyətlərinə görə hazır vahidlərdir və leksik-semantik səciyyələrinə görə ümumi sözlərdən və xüsusi adlardan fərqlənirlər. Birləşmənin tərkib elementləri birləşmədə ifadə olunan ümumi bir mənanın ifadəsinə xidmət göstərir. Frazeologyanın əsas vahidi frazemdir. Məs.: Azərb. d. /qulaq asmaq/, /gözünə dəymək/, /əldən düşmək/ və s.

H.Bayramov. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı, 1978; М.Т.Тагиев. Глагольная фразеология современного русского языка (Опыт исследований фразеологических единиц по окружению). АДД, Баку, 1966.

ЕДИНИЦЫ ЯЗЫКА ВЫСШИЕ - alm. höhere Spracheinheiten (Pl.), ing. the highest units of the language /ðə ˈhaɪəst ˈjuːnɪts əv ðə ˈlæŋgwɪʤ/, fr. unité supérieure, azərb. dilin ən yüksək vahidləri. - Fonemdən fərqi olaraq, müəyyən semantik mənalara, daha dəqiq desək, həm ifadə, həm də məzmun planına malik olan vahidlər. Morfem, söz, söz birləşməsi və frazem belə vahidlərdəndir.

E.Benvenist. Göstərilən əsər.

ЕДИНИЦА ЯЗЫКОВАЯ СТРОЕВАЯ - alm. Konstitutionseinheit der Sprache (f), ing. unit of the language structure /ˈjuːnɪt əv ðə ˈlæŋgwɪʤ ˈstrʌkʧə/, fr. unité linguistique de construction, azərb. dilin quruluş vahidi. – Dilin fonemləri morfemləri, morfemləri leksemləri, leksemləri söyləmləri, bunlar da mətnləri yaratmaq üçün konstitutiv funksiya yerinə yetirirlər. Məs.: Azərb. d. /ad/, /adsız/, /adsız adam olmaz// və s.

E.Benvenist. Göstərilən əsər.

ЕДИНСТВЕННОЕ ЧИСЛО - alm. Singular (m), Einzahl (f), ing. singular /ˈsɪŋgjulə/, fr. nombre singulier, le singulier, azərb. tək hal. - Kəmiyyətin kateqorial forması olub, əşyanın təkliyini və ya hal- hərəkətin tək-tək subyektlərə aid olduğunu göstərir. Məs.: Azərb. d. /O gəlir/, /Atam gəlir/, /Sən yazırsan/ və s.

M.İ.Adilov və b. Göstərilən əsər, s. 272.

ЕДИНСТВЕННОЕ РОДОВОЕ - alm. Einzahlgeschlecht (n), ing. single gender /ˈsɪŋgl ˈʤendə/, fr. singulier générique, azərb. cinsə görə fərqlənməyən. – Peşə və sənət bildirən sözlər yalnız bir cinsdə işlənir. Məs.: alm. d. /Frau Professor Meier/ (xanım professor Mayer) və ya /Ingenieur Anna Schmidt/ (Mühəndis Anna Şmidt) və s.

R.Conrad. Göstərilən əsər, s. 92.

downloaded from KitabYurdu.org

ЕДИНСТВЕННОЕ СОБИРАТЕЛЬНОЕ - alm. Sammelname (m), ing. collective noun singular /kɔ'lektıv naun 'sıŋgjulə/, fr. singulier collectif, azərb. toplu isimlər. - Məs.: Azərb. d. /daşlıq/, /qumluq/ və s.; rus d. /снег/, /песок/ və s.

R.Conrad. Göstərilən əsər, s. 237.

ЕДИНСТВЕННОСТИ КАТЕГОРИЯ - alm. Einzahlkategorie (f), ing. unicity of category /'ju:nısıtı əv 'k5tıgərı/, fr. catégorie de singularité, azərb. təklik kateqoriyası. – Mücərrəd isimlər və məhsul adları bir qayda olaraq, təkdə işlənir. Məs.: Azərb. d. /süd/, /sevgi/, /vəfa/, /neft/. Yalnız müxtəlif növlər nəzərə çatdırılanda onları cəmdə işlətmək olur. Məs.: /neflər/, /üzümlər/ və s.

R.Conrad. Göstərilən əsər, s. 237.

ЕДИНСТВО - alm. Einheit (f), ing. unity /'ju:nıti/, unit /'ju:nıt/, fr. unité, azərb. vəhdət. – Hər bir dil vahidi öz səviyyəsində kiçik hissələrə bölünməyən bütövdür.

О.С.Ахманова. Göstərilən əsər, s. 147.

ЕДИНСТВО ГРАММАТИЧЕСКОЕ - alm. grammatikalische Einheit (f), ing. grammatical unity /græmətıkəl 'ju:nıti/, fr. unité grammaticale, azərb. qrammatik vəhdət.

Bax: Единство ←.

ЕДИНСТВО АРТИКУЛЯЦИОННО-АКУСТИЧЕСКОЕ - alm. akustisch-artikulatorische Einheit (f), ing. articulatory acoustic unity /ɑ:ˌtıkjulətrı ə'ku:stık 'ju:nıti/, fr. unité d'articulation-acoustique, azərb. artikuylator-akustik vəhdət, bütöv. – Hər bir dil səsi akustik-artikulyator baxımdan bir bütöv kimi deyilir və dərk olunur.

Bax: Артикуляторно-акустический ←.

ЕКАНЬЕ - alm. Ekanje (n), ing. jekanje /=ekan=e/, fr. bondissement, azərb. yekanye. – Rus dialektlərində /e/-yə bənzər tələffüz.

О.С.Ахманова. Göstərilən əsər, s. 148.

EMA (ЭМА) - alm. emische Ebene (f), Em-Ebene (f), ing. eme /'ema/, fr. ema, azərb. em. – Amerika dilçiliyində sistemə aidliyini bildirmək üçün /-em/ və ya realizasiyaya aidliliyini bildirmək üçün /-tik/ /allo/ və ya müvafiq olaraq iki səviyyə fərqləndirilir: /fon+em/, /morf+em/, /leks+em/ və /fone+tik/, /morfem+(a)tik/, /leksem+(a)tik/ və s. Sonuncunu əksər hallarda /allo/ kimi də işlədirlər (allofon, allomorf və s.).

Ю.С.Маслов. Göstərilən əsər.

downloaded from KitabYurdu.org

ЕНИСЕЙСКИЕ ЯЗЫКИ – alm. Jenisejsprachen (Pl.), ing. Yeniseisk languages /ˌjenɪˈseɪsk ˈlæŋɡwɪʤɪz/, fr. langues İenisseïes, azərb. yenisey dilləri. – Sibirdə Yenisey çayının sahili boyunca yayılmış dillər qrupu (bəzən Yenisey dillər qrupunu ket qrupu adlandırırlar, lakin bu bölgü həqiqətə uyğun deyildirl). Köhnə ənənəyə görə, Yenisey dilləri Avroasiyanın digər dil aillələrindən təcrid olunmuş hesab edilirdi. Müxtəlif illərdə Yenisey dilləri cənub-şərqi Asiyanın və Qafqaz dilləri ilə müqayisə olunurdu və bu dillər arasında genetik əlaqələr araşdırılırdı. Lakin Yenisey dillərini Tibet-Birma dillərilə genetik əlaqələndirilməsi ən perspektivli yanaşma hesab etmək olar. Ket və sım dilləri Yenisey dil qrupuna daxil olan canlı dillərdir. Bu dillərin sonuncusunda (sım) təqribən bir neçə nəfər danışır.

Е.А.Крейнович. Кетский язык. «Языки народов СССР», т. 5, Л., 1968; С.А.Старостин. Праенисейская реконструкция и внешние связи енисейских языков. «Кетский сборник», Л., 1962.

ЕСТЕСТВЕННО-ИСТОРИЧЕСКОЕ НАПРАВЛЕНИЕ - alm. natürlich-historische (geschichtliche) Richtung (f), Strömung (f), ing. natural-historical direction (order) /ˈnæʧərəl hɪsˈtɔrɪkəl dɪˈrekʃən /ˈɔ:də/, fr. orientation naturelle-historique, azərb. təbii-tarixi cərəyan, meyl.

Bax: Направление →.

ЕСТЕСТВЕННЫЙ РОД - alm. natürliches Geschlecht (n), ing. natural gender /ˈnæʧərəl ˈʤendə/, fr. genre naturel, azərb. təbii cins. – Məs.: qadın və kişi sözləri təbii cinslərin dildə ifadəsidir. Ancaq alman dilində /Weib/ (qadın) sözü təbii cinsdən fərqli olaraq orta cinsdə işlənir.

R.Conrad. Göstərilən əsər, s. 92.

ЕСТЕСТВЕННЫЙ ЯЗЫК - alm. natürliche Sprache (f), ing. natural language /ˈnæʧərəl ˈlæŋɡwɪʤ/, fr. langue naturelle, azərb. təbii dil. – İng., alm., rus və s. dillər təbii dillərdir. Dünyada təxminən 5000-ə qədər dil vardır.

F.Bodmer. Die Sprachen der Welt. Berlin, 1990.

– Ж –

ЖАНР - alm. Genre (f), ing. genre /ʤenre/=enre/, fr. genre, azərb. janr. – Bu və ya digər üslubu özündə əks etdirən bədii əsərin növü. Bədii əsərlər şəkil və təsvirinə görə üç yerə bölünür: epik, lirik, dramatik. Bütün ədəbi janrların məzmununa görə bunlardan hər birinin öz tələbi və xüsusiyyətləri var. Lirikada tərənnüm, eposda təsvir, dramda əyanilik, göstərmə əsasdır.

downloaded from KitabYurdu.org

Məs.: epik əsərlərin – şifahi ədəbiyyatda rast gəldiyimiz şəkilləri epos, əsatir, əfsanə, nağıl, lətifə, təmsil, məsəl, atalar sözü, tapmaca, yanıltmac və s-dir. Yazılı ədəbiyyatda epik növün əsas janrları hekayə, təmsil, oçerk, povest, roman və s-dir.
M.C.Paşayev, P. Xəlilov. Ədəbiyyatşünaslığın əsasları. Bakı, 1972, s. 144.

ЖАНРОВЫЙ - alm. Genre-, ing. genre /ʤenre/, fr. de genre, azərb. janra aid olan, janrla bağlı olan.
Bax: Жанр ←.

ЖАНРОВАЯ КЛАССИФИКАЦИЯ СТИЛЕЙ - alm. Genreklassifikation der Stile (f), ing. classification of styles according to genre /ˌkl5sifɪˈkeɪʃən əv staɪls əˈkɔ:dɪŋ tu: ʤenre/, fr. classification de genre des styles, azərb. üslubların janr təsnifi. - Dil üslublarının müəyyən bədii janrlarla bağlılığı. Ədəbi yaradıcılıq dilində əsasən iki üslubi müxtəlifliyə rast gəlinir: prozaik (nəsr) və poetik (nəzm) dil üslubları. Poetik üslub xüsusi bədii söz və ifadələrlə daha zəngin olur. Məs.: /odlar yurdu, ay üzlü, lal gecələr/, /Meşələr təbiətin ağ ciyərləridir//.
M.C.Paşayev, P.Xəlilov. Göstərilən əsər.

ЖАНРОВАЯ СТИЛИЗАЦИЯ - alm. Genrestilisierung (f), ing. genre stylization /ʤenre staɪlizeɪʃən/, fr. stylisation de genre, azərb. janr üslublaşdırılması. - Müəyyən üsluba xas olan ifadə vasitələri (priyom və üsullarla) təqlidetmə.
Bax: Стилизация →.

ЖАНРОВЫЙ СТИЛЬ - alm. Genrestil (m), ing. genre style /ʤenre staɪl/, fr. style de genre, azərb. janr üslubu. - Üslubların janr təsnifatı zamanı müəyyən janrlarla əlaqədə götürülən üslub.
Bax: Стиль →.

ЖАРГОН - alm. Jargon (m), ing. jargon /ˈʤa:gən/, slang /ˈsl5ŋ/, fr. jargon, azərb. jarqon. – Fransız dilində «anlaşılmaz mızıltılı» deməkdir. Ümumxalq dilinə qarşı qoyulan, ayry - ayrı təbəqələr tərəfindən işlədilən soz və ifadələr. Jarqon leksikası sənət, peşə ixtisas və s.-dən asılı olaraq, müxtəlif söz ehtiyatlarına malik olur. Məs.: Azərb. d. /çırpışdırmaq/ (oğurlamaq əvəzinə), /sivişmək/ (aradan çıxmaq). Jarqon geniş mənada çətin anlaşılan danışıq tərzidir. Dar mənada jarqonu gündəlik danışıqda sözləri emosional seçimlə əlaqələndirmək olar. Neyrolinqvistikada sürətli anlaşılmaz danışıq tərzilə əlaqələnir. Söyləmlər ya mənasız səs axımı olur, ya da onlardakı fonem ardıcıllığı danışılan dilin fonotaktik modelinə uyğun gəlsə də, heç bir məna ifadə etmir, yəni onların kontrastlığı təmin edilmir. Buna da adətən xüsusi afaziya növü kimi yanaşırlar. Məs.: /lankini ərəsbən aradım// (Lenkanı qəsrdən tapdım).
A.A.Реформатский. Göstərilən əsər, s. 509.

downloaded from KitabYurdu.org

ЖАРГОН КЛАССОВЫЙ - alm. Klassenjargon (m), ing. class jargon (dialekt) /kla:s ˈdʒa:gən/ˈdaıəlekt/, fr. jargon de classe, azərb. sinfi jarqon. - Cəmiyyətin ayrı-ayrı ictimai təbəqələrinə aid olan söz və ifadələr. Məs.: Azərbaycanda müstəqilliyəqədərki dövrdə kübar təbəqənin, ziyalılırın, fəhlə və kəndlilərin danışıqlarında rast gəlinən söz və ifadələr.

A.A.Реформатский. Göstərilən əsər, s. 509.

ЖАРГОНИЗМ - alm. Jargonismus (m), ing. jargonism /ˈdʒa:gənızm/, slang word (expression) /ˈslæŋ wə:d /ıksˈpre›ʃən/, fr. jargonisme, azərb. jarqonizm. - Jarqonizmlərdə professionalizmlərdən fərqli olaraq əşya və predmetlər ilkin (ümumişlək, uzual) adıyla deyil, süni şəkildə, müəyyən məqsədlə adlandırılır və buna görə də bu qəbildən olan sözlərdə ekspressiv - üslubi çalarlıqlar daha kəskin ifadə olunur.
O.C.Ахманова. Göstərilən əsər, s. 512.

ЖАРГОННЫЙ - alm. Jargon-, ing. jargon /ˈdʒa:gən/, slangy /ˈslæŋı/, fr. jargon d'argot, azərb. jarqon. - Jarqona aid olan.
Bax: Жаргон ←.

ЖАРГОННОЕ ВЫРАЖЕНИЕ - alm. Jargonausdruck (m), ing. jargon expressions /ˈdʒa:gən ıksˈpreʃ(ə)ns/, slang expressions /ˈslæŋ ıksˈpreʃ(ə)ns/, fr. locutions de jargon, azərb. jarqon ifadələri. - Dilin leksik layında ayrı - ayrı zümrələrə məxsus olan ifadələr. Məs.: /öldürmək/ əvəzinə /xosunbay etmək/, aldatmaq əvəzinə /başını tovlamaq/ və s.
A.A.Реформатский. Göstərilən əsər, s. 512.

ЖАРГОННАЯ ЛЕКСИКА - alm. Jargonwortschatz (m), ing. jargon vocabulary /ˈdʒa:gən vəuˈk5bjuləri/, slangy lexica /ˈsl5ŋı ˈleksıkə/, fr. lexique argotique, azərb. jarqon leksikası. - Dialektlərdən və professional leksikadan fərqli olaraq, predmet və hadisələrin ədəbi dildə mövcud olan adlarının ayrı – ayrı ictimai zümrələrə məxsus insanlar tərəfindən yeni söz və ifadələrlə adlandırılması. Qeyd etmək lazıdır ki, A.Axundov jarqon leksikası və arqolar arasında kəskin fərq görmür və onları sinonim terminlər kimi şərh edir. Əslində bu terminlər arasında ekspressiv - üslubi cəhətdən fərq mövcuddur. Arqolar jarqonlardan fərqli olraq cəmiyyətin tüfeyli (oğru, qatil, quldur, qumarbazlar) və ya sinfi mənsubiyyəti olmayan zümrələr tərəfindən işlədilən məxfi leksikadır. Məs.: Azərb. d. /işi yaşdır/ kiminsə işində cinayət tərkibi olması mənasında işlədilir.
A.Axundov. Ümumi dilçilik. Bakı, 1988, s. 101.

ЖАРГОННЫЕ СЛОВА - alm. Jargonwörter (Pl.), ing. jargon words /ˈdʒa:gən w8:dz/, slangy words /ˈsl5ŋı wə:dz/, fr. mots argotiques, azərb. jarqon sözlər. – Jarqon leksikasına aid olan sözlər.
Bax: Жаргонная лексика ←.

downloaded from KitabYurdu.org

Л.И.Скворцов. Литература, язык, просторечие и жаргоны в их взаимодействии, «Литература. Норма и просторечие». М., 1977; К.Н.Дубровина. Студенческий жаргон. «Филологические науки», 1980, ¹1; O.Jespersen. Mankind, nation and individual from a linguistics point of view. Bloomington, 1964.

ЖЕ ЯЗЫКИ – alm. Že (She) - Sprachen (Pl.), ing. je languages /ˈdʒɛ l5ŋgwɪdʒɪz/, fr. langues jês, azərb. je dilləri. – Braziliyanın cənubunda yayılmış dillər. On dili (apinaye-kayapo, kanela, suya, şvante, kainqanq və s.) özündə birləşdirir. Üç dil qrupu əmələ gətirir: mərkəzi, şimal-qərbi və kainqanq. 10 minə qədər daşıyıcısı vardır. Bəzi quruluş cəhətlərinə görə je dillərinin tupi-quarani və borro dillərindən genetik cəhətdən uzaqlaşdığı fərz edilir. Fonoloji sistemi zəngin saitləri (14-17 sait fonem) və nisbətən məhdud samitləri (11-15 samit fonem) olması ilə səciyyələnir. Je dilləri az tədqiq olunmuşlar.
O.A.Shell. Grammatical outline of Kraho (Ge family). IJAL, 1952, V..18, ¹2; I.Davids. Comparative Jê phonologi. «Estudos Lingüisticos», 1966, v.1, ¹ 2.

ЖЕЛАТЕЛЬНОЕ НАКЛОНЕНИЕ - alm. Optativ (m), Wunschform (f), ing. optative /ˈɔptətɪv/, desirable mood /dɪˈzaɪərəbl mu:d/, fr. optatif, azərb. arzu şəkli. – Felin arzu şəklinin əsas mənası real şəkildə olmayan, lakin icrası subyekt tərəfindən arzu edilən hərəkəti ifadə etməkdir. Müasir Azərbycan dilində felin arzu şəkli belədir /fel kökü+ şəkil əlaməti – yəni a/-ə/. Məs.: Azərb. d. /mən gedəm, sən gedəsən/, /o gedə/; /biz gedək/, /siz gedəsiniz/, /onlar gedələr/ və s.; ing. d. /I would go/ (Mən gedəm), /you would go/, /he would goes/, /we go/, /yours go/, /they go/; alm. d. /Ich würde gehen/ (Mən getmək istərdim) və s.; rus d. /Я хотел бы пойти/ və s.
Bax: Наклонение →.

ЖЕНЕВСКАЯ ШКОЛА - alm. Genfer Schule (f), ing. Geneva school /dʒɪˈnɪ:və sku:l/, fr. école de Genˈve, azərb. Cenevrə məktəbi. – Dilçilik tarixində bu məktəb F. de Sössürün adı ilə tanınır. Bu məktəb F. de Sössürdən sonra dili işarələr sistemi kimi götürür, ona görə də dilçiliyi semiotika elminin tərkib hissəsi sayır və dil – danışıq, paradiqmatik – sintaqmatik, sinxron – diaxron qarşılaşmalarını əsas götürərək dilin müasir səviyyəsini tədqiq etmək sahəsində bir sıra mühüm metodoloji kriteriyalar irəli sürmüşdür.
A.Axundov. Ümumi dilçilik. Bakı, 1987; F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 39-43.

ЖЕНСКИЙ РОД - alm. Femininum (n), ing. feminine gender /ˈfemının ˈdʒendə/, fr. genre féminin, azərb. qadın cinsi. – Alm. və rus d. 3 cins fərqləndirilir. Onların hər birinin xüsusi göstəricisi var. Məs.: alm. d. /der Lehrer (müəllim), die Lehrerin (müəllimə), das Mädchen (qız)/; rus d. /мальчик, родина, поле/ və s.

downloaded from KitabYurdu.org

А.А.Реформатский. Введение в языковедение. М., 2001, s.251.

ЖЕНСКОЕ ОТЧЕСТВО - alm. weiblicher Vatersname (m), ing. matronym(ic) /ˌmətrɔːˈnɪm(ɪk)/, fr. matronyme, azərb. matronim. - Ana adından törənmiş şəxsi ad. Adətən ata adından törənmiş (patronim) adlara qarşı qoyulur.

Bax: Матроним →.

ЖЕНСКИЙ ЯЗЫК - alm. Frauensprache (f), ing. female language /ˈfiːmeɪl ˈlɜŋgwɜdʒ/, fr. langue féminine, azərb. qadın dili. – Danışanın cinsi mənsubiyyətindən asılı olaraq dil vahidlərinin fərqləndirilməsinin şərti adları, bu və ya digər dil vahidlərinin qadınlar tərəfindən seçilərək işlədilməsi. Yapon dilində dilin kişi və qadın növünə görə bölünməsi müntəzəmdir və əvəzlik sistemini əhatə edir. Məs.: I şəxsin təkində olan /boku/ əksər hallarda kişilər tərəfindən işlədilsə də, qadınlar tərəfindən işlədilmir.

Т.Б.Крючкова. К вопросу о дифференциации языка по полу говорящего. «Вопросы языкознания». М., 1976.

ЖЕСТЫ - alm. Gesten (Pl.), ing. signs/saɪns/, gestures /ˈdʒestʃəs/, fr. gestes, azərb. jest, işarə hərəkəti. - Kommunikativ aktın tərkib hissəsi, müxtəlif bədən hərəkətlərinin, xüsusən də əl-qol, göz - qaş hərəkətləri sistemindən istifadə etməklə ünsiyyətə girmək. Dilçilikdə bu ünsiyyət vasitələrini öyrənən elmə paralinqvistika (para - yanında) deyirlər.

Ю.С.Маслов. Введение в языкознание. М., 1975, s.23-34.

ЖЕСТОВ ЯЗЫКИ - alm. Gestesprache (f), ing. gesture languages /ˈdʒestʃə ˈlɜŋgwɜdʒɪz/, pasimology /p5sɪm6l5dʒ9/, fr. langages des gestes, azərb. jest dilləri. - Müxtəlif bədən hərəkətlərindən (danışıq orqanlarının hərəkətləri istisna təşki edir) istifadə etməklə ünsiyyətə girmək. Bu ünsiyyət vasitəsinin əsas çatışmayan cəhəti vizual (ünsiyyətin baş tuta bilməsi üçün vizuallıq, yəni iştirak edənlərin bir-birini görməsi əsas şərtdir) olmasıdır (bax: şəkil).

downloaded from KitabYurdu.org



(a) **Yalnız əl hərəkətlərilə verilən işarələr**

(b) **Tələffüz yerində verilən işarələr**



(c) **Yalnız hərəkətlə verilən işarələr**

M.İ.Adilov və b. Göstərilən əsər, s. 108; Г.Л.Зайцева, Р.М.Фрумкина. Психолингвистические аспекты изучения жестового языка, «Дефектология», 1981, ¹1; В.И.Беликов. Жестовые системы коммуникации (обзор) «Семиотика и информатика», в. 20, М., 1983; W.Stokoe. Sign language structure. An outline of the visual communication systems of the American deaf, «Studies in Linguistics. Occasional Papers». 1960.

ЖИВОЕ ЧЕРЕДОВАНИЕ - alm. phonetischer Phonemwechsel (m), ing. living gradation /ˈlɪvɪŋ ɡrəˈdeɪʃən/, living alternation /ˈlɪvɪŋˌɓ:ltəˈneɪʃən/, / fr. alternance vivante, azərb. canlı əvəzlənmə. - Dilin fonoloji sistemində inkişafın müəyyən mərhələsidə fəaliyyət göstərən fonetik qanunauyğunluqlarla izah oluna bilən fonetik əvəzlənmələr. Tarixi əvəzlənmədən fərqli olaraq canlı (fonetik) əvəzlənmə fonemlərin danışıq zəncirində qarşılıqlı

downloaded from KitabYurdu.org

təsirindən və ya fonemlərin işlənmə mövqeyindən asılıdır. Ona görə də bu əvəzlənməyə canlı fonetik əvəzlənmə deyilir. Fonetik əvəzlənmə iki cür olur: 1) Mövqe ilə bağlı olan əvəzlənmə; 2) Kombinator əvəzlənmə. Birinci mövqe ilə bağlı olduğu halda, ikincisi qonşu fonemlərdən asılıdır. Məsələn alm. və rus d. kar və cingiltili samitlər müstəqil fonemlərdir. Ancaq söz ortasında gələn cingiltili samit sözün sonunda müvafiq kar samitlə əvəzlənir. Sonda gələn kar samit bəzi sözlərin ortasında cingiltili ilə əvəzlənir, bəzilərində isə əvəzlənmir.

/Ra: t/ (təkər)= / R' a: dəs/ (təkərin) → /sut/- /suda/

/Ra: t/ (şura) = / Ra: təs/ (şuranın), /mat/ - mát J /

/ ta: t / (əməl) = / ta: tən / (əməllər); / rot / - / rta / və s.,

/ to: t / (ölü) = / to: də s/ (ölünün), / rot /- / roda / və s.

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 124.

ЖИВОЙ АФФИКС - alm. lebendiges Affix (n), ing. living affix /ˈlɪvɪŋ ˈ5fɪks/, fr. affixe vivant, azərb. canlı affiks. – Çağdaş dilin leksik qatında yeni söz və söz formaları düzəldən affikslərə deyilir. Canlı affikslər öz növbəsində üç yerə bölünürlər: 1) qeyri-məhsuldar - (bunlar yeni söz və formaların düzəlməsində fəal deyildir; Məs.: Azərb. d. /gan/, /kən…/; 2) məhsuldar (yeni söz və formalrın düzəlməsində gen-bol istifadə olunanlar və sozdüzəldici təhlil zamanı asanlıqla ayırıla bilənlər. Məs.: (ci)[4], (li)[4] və s.; 3) az məhsuldarlar - söz və formaların düzəldilməsində az - az istifadə olunan affikslər. Məs.: /kar/, /dar/- /sənətkar, əməkdar, tələbkar, inadkar/ və s.

A.A.Реформатский. Göstərilən əsər, s. 264-270.

ЖИВАЯ ОСНОВА - alm. Vollstamm (m), ing. living stem /lɪvɪŋ stem/, fr. thˈme vivant, azərb. törədici (canlı) əsas. – Dildə müxtəlif sözdüzəldici vasitələr əlavə etməklə yeni sözlər düzəldilən əsaslar. Əslində, törədici əsaslardan düzələn əsaslardır. Məs.: Azərb. d. /baş, başı, başçılıq, başsız/ və s.

A.A.Реформатский. Göstərilən əsər, s.253.

ЖИВОЕ СЛОВОИЗМЕНЕНИЕ - alm. lebendige Flexion (f), Beugung (f), ing. living inflexion /ˈlɪvɪŋ ɪnˈflekʃən/, fr. variation vivante du mot, azərb. canlı sözdəyişmə. – Dilin müasir mərhələsində eyni sözün qrammatik formalarının əmələ gəlməsinə xidmət edən sözdəyişmə növü. Məs.: Azərb. d. /su – su – lu/, /buz – buz – lu/ və s.

A.A.Реформатский. Göstərilən əsər, s. 251.

ЖИВОЙ ЯЗЫК - alm. natürliche Sprache (f), ing. natural language /ˌn5tʃrəl ˈ15ŋgwɪʤ/, living language /ˈlɪvɪŋ ˈ15ŋgwɪʤ/, fr. langue vivante, azərb. canlı dil. - Müəyyən dövrdə xalqın müxtəlif səviyyələrdə canlı ünsiyyət vasitəsi kimi işlətdiyi dil. Məs.: hazırkı dövrdə Azərbaycan Respublikasında ünsiyyət vasitəsi kimi işlifadə olunan Azərbaycan türkcəsidir.

Bax: Язык →.

downloaded from KitabYurdu.org

ЗАВИСИМОСТЬ - alm. Abhängigkeit (f), ing. dependence /dı′pendəns/, fr. dépendance, azərb. asılılıq. - Bir dil vahidinin digərindən asılılığı. Məs.: alm. d. /der junge Mann/ söz birləşməsində /junge/ sözünün /Mann/ sözünün tələbinə uyğun olaraq hal, kəmiyyət və cinsə görə ondan asılı olması, başqa sözlə, tabelilik asılılığı. Qarşılıqlı asılılıq. Qlossematikada iki funktiv vahid arasında olan funksional asılılıq – interdependensiya adlanır. Məs.: Sərbəst asılılıq bir - birini nəzərdə tutmayan, yəni biri digərini cəzb və ya rədd etməyən iki funktiv arasındakı asılılıqdır. Məs.: Azərb. d. /qırmızı alma/, /isti çorək/, /iki nəfər/ və s.
Asılılıq qrammatikası L.Tenyer tərəfindən təbii dillərin sintaktik səviyyəsinin strukturalizmə yönəlikli inkişaf etdirilib. Onun əsas məqsədi cümlənin elementləri arasındakı asılılıq əlaqəsini açıb göstərməkdən ibarətdir. Burada çıxış nöqtəsi kimi iki yanaşı gələn elementdən birinin tabe edən, o birisinin isə tabe olan vəziyyətdə olması və ikincinin birincidən asılı olmasıdır. Bu, ənənəvi sintaksisdə də vardı. Ancaq burada asılılıq təkcə təyinlə təyin olunan arasında deyil, bütövlükdə cümlədəki sözlərə aiddir. Özü də mərkəz kimi fel götürülür. Məs.: alm. d. /Das Kind mag das Brot nicht sehr// (Uşaq çörəyi çox da xoşlamır) cümləsinin asılılıq ağac şəkli belə olacaq:



Qırıq xətlər dil ifadələrinin kateqoriyalaşmasını bildirir. Cümlənin feli 2 ismi və bir zərfi idarə edir. Hər bir isim özlüyündə müvafiq olaraq artikli idarə edir. /Sehr/ isə /nicht/ inkarını idarə edir. İki element arasında asılılıq əlaqəsilə – konneksiya ilə yanaşı funksiya və translyasiya əlaqələri də nəzərə alınmalıdır. /Əli və Həsən dilçiliyi öyrənirlər/ cümləsində funksiya /Əli və Həsən/ əlaqəsində özünü büruzə verir. Translyasiya isə köməkçi sözlərin vasitəsilə ifadənin sintaktik kateqoriyası dəyişir və bununla da daha yüksək səviyyəli əlaqə yaradır. Məs.: ing. d. /The book of John/ (Conun kitabı) «John» of-un köməyilə «book»-la idarə olunan təyinə çevrilir.

downloaded from KitabYurdu.org

Asılılıq qrammatikası valentlik nəzəriyyəsinə güclü təsir göstərmişdir. Felin valentliyi cümlədə tələb etdiyi sözlərlə onun strukturunu müəyyənləşdirir. L.Tenyer burada aktantları (tamamlayıcı elementləri) və sirkonstantları (vəziyyət, məqam) fərqləndirir. Yuxarıdakı cümlədə /das Kind/ və /das Brot/ (mag) felinin iki aktantı /nicht sehr/ isə sirkonstantlardır. (Sentrifuqal, sentripetel). L.Tenyer asılılıq strukturu ilə söz sırası arasındakı əlaqələri tədqiq etsə də, demək olmaz ki, yuxarıdakı misalda /das Kind/ və mag /das Brot nicht sehr/ müvafiq olaraq mübtəda və ya mürəkkəb xəbər qruplarına aid edilməlidir, həm də bu modeldə cümlədəki elementlərin xətti ardıcıllığı nəzərə alınır. Yeni araşdırmalar həm konstituenti, həm də seriallaşmanı nəzərə almağa çalışır. Asılılıq qrammatikasının imkanlarını transformasiyalarla genişləndirmək mümkündür. Asılılıq qrammatikası sintaksisin avtonomluğunu tanısa da, cümlənin semantikasını da inkar etmir. L.Tenyer belə fikirdədir ki, hər bir sintaktik əlaqəyə bir semantik münasibət uyğun gəlir və bununla bağlı o, nüvə anlayışını inkişaf etdirir.

Л.Теньер. Основы структурного синтаксиса. М., «Прогресс» 1988; F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 340-355.

ЗАВИСИМЫЙ (ПОДЧИНЕННЫЙ) - alm. abhängig, ing. dependent (subordinate) /dɪˈpendənt /səˈbɔ:dınıt/, fr. dépendant, azərb. asılı. - Tabeli söz birləşmələrində tabeedici komponentdən asılı olan, onu izah edən üzv, komponent. İng. və Azərb. dillərində tabe olan tabe edən sözün qrammatik əlamətlərini qəbul etmir. Məs.: Azərb. d. /yaşıl meydan/, /məktəbin direktoru/, /dərs cədvəli/, /atamın kitabı/, /yaşıl meydan/, /a young man/ və s. Alm. və rus d. tabe olan söz tabe edən sözün qrammatik əlamətlərini qəbul edir. Məs.: rus d. /большая школа/, /большой стол/, /большое поле; alm. d. /eine groβe Schule/ (böyük məktəb), /ein groβer Tisch/ (böyük stol), /ein groβes Feld/ (böyük sahə) və s.

Bax: Зависимость ←.

ЗАВИСИМЫЕ СЛОВА - alm. abhängige Wörter (Pl.), ing. dependent words /dɪˈpendənt w8:dz/, fr. mots dépendants, azərb. asılı sözlər. – Müəyyən sintaktik quruluş daxilində tabe edən üzvün (əsas, asılı olmayan) tələbindən asılı olaraq, tabe olan sözün qrammatik göstəriciləri qəbul etməsi. Azərb. d. ikinci və üçüncü növ təyini söz birləşmələrində söz müəyyən və qeyri-müəyyən yiyəlik halında, tabe edən söz isə mənsubiyyət şəkilçisi qəbul edir. Məs.: Azərb. d. /qış gecəsi/, /məktəbin direktoru/ və s.

Bax: Зависимый ←.

ЗАВИСИМОЕ СЛОВОСОЧЕТАНИЕ - alm. abhängige Wortverbindung (f), ing. subordinated word combination /səˈb:ɔdıneıtıd w8:d kəmbıˌneı∫ən/, fr. groupes de mots dépendant, azərb. asılı söz birləşmələri. - Daha böyük söz birləşmələrinin tərkibində işlənib, onun hər hansı bir üzvünə tabe olan söz birləşməsi. Məs.: /Dostumun atasının kitabı/ birləşməsində «dostumun atasının» söz birləşməsi kimi. L.Tenyerin asılılıq qramma-

downloaded from KitabYurdu.org

tikasında substansiya (onda konneksiya) və koordinasiya (onda funksiya) anlayışları üçün əsas məfhum.
R.Conrad. Göstərilən əsər, s. 7.

ЗАВИСИМЫЙ СОСТАВ - alm. abhängiger Bestand (m), ing. dependent subordinated construction /diˈpendənt səˈbːɔdıneıtıd kənˈstrʌkʃ(ə)n/, fr. composition dépendante, azərb. asılı tərkib. - Xəbər və ondan bilavasitə asılı olan ikinci dərəcəli üzvlərin cəmi. Məs.: Azərb. d. /Cəmil əlindəki dəftəri göstərib dedi//.
O.C.Ахманова. Göstərilən əsər, s. 150.

ЗАГЛАВИЕ НОМИНАТИВНОЕ - alm. nominativer Titel (m), ing. nominative title-form /nɔmınətıv ˈtaıtl- fɔːm/, fr. du titre nominatif, azərb. nominativ başlıq. - Lövhələrdə, elanlarda, şəkillərin altında verilən ad və s. Adətən belə adlandırma implisit predikasiyanı səciyyələndirir. Məs.: Azərb. d. /Aşxana/, /Güllər/ və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 150.

ЗАГЛАВНАЯ БУКВА - alm. Anfangsbuchstabe (m), Großbuchstabe (m), ing. capital letter /ˈk5pıt(ə)l ˈletə/, title /ˈtaıtl/, fr. lettre majuscule, azərb. baş hərf, böyük hərf. – Dildə qəbul olunmuş orfoqrafiya və punktuasiya qaydalarına əsasən sətirdəki parametrlərinə (hündürlük, en), bəzən də təsvirinə görə digər hərflərdən böyük yazılması ilə fərqlənən hərf. Məs.: A, B, V, C və s. Cümlə və abzas, bir qayda olaraq, böyük hərflə yazılır. Alm. d. isə bütün isimlər böyük yazılır.
Ə.Dəmirçizadə. Göstərilən əsər.

ЗАГЛАВНОЕ СЛОВО - alm. Anfangswort (n), ing. catchword /ˈk5ʧˈwɜːd/, headword /ˈhed ˈwɜːd/, vocable /ˈvoukəbl/, fr. mot majuscule, azərb. baş söz, əsas söz. - Lüğətlərdə izah olunan xüsusi fərqləndirici şriftlə yığılan və tərtib olunan lüğətin əsas muddəalarına müvafiq şəkildə qurulan sözlük işarəsi. Məs.: kök, söz, mübtəda, fel və s. sözlərinin hər hansı bir lüğətdə yuva prinsipi əsasında verilməsindən yaranan ardıcıllıq. Məs.: Azərb. d. /ağac/- 1) bitki; 2) əl ağacı; 3) odun mənasında.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 32.

ЗАДЕРЖАННАЯ АРТИКУЛЯЦИЯ - alm. verzögernde Artikulation (f), ing. held articulation /held aːtıkjuˈleıʃən/, prolonged retention /prəˈlɔŋd rıˈtenʃən/, fr. articulation sistante, azərb. ləngidilən artikulyasiya. - Səsin orta fazasının ləngidilərək tələffüz olunması. Məs.: /a a: a dam/.
K.Kohler. Göstərilən əsər, s. 58.

ЗАДЕРЖАННАЯ ВЫДЕРЖКА - alm. verzögernde Stellung (f), ing. held (prolonged) retention /held /prəˈlɔŋd/rıˈtenʃən/, fr. extrait sistant, azərb. uzadılmış fasilə. - Səsin ikinci və üçüncü (orta mərhələsinin və rekursiyasının) mərhələsinin ləngidilərək və ya uzadılaraq tələffüz edilməsi. Məs.: /g ə ş ş ş ə n g/.
K.Kohler. Göstərilən əsər, s. 58.

downloaded from KitabYurdu.org

ЗАДНЕНЕБНЫЙ (ВЕЛЯРНЫЙ, МЯГКОНЕБНЫЙ, ПОСТПАЛАТАЛЬНЫЙ) - alm. postpalatal, ing. velar /vi:lə/, postpalatal /ˈpo□stpælət(ə)l/, fr. postpalatal, azərb. dilarxası samiti. – Dil kürəyinin arxa hisəsinin sərt damağa və yaxud arxadan yumşaq damağa doğru qalxması ilə yaranan səslər: /k/, /g/, /x/. Bəzi fonetika məktəbləri dil səslərinin təsnifində fəal üzvlərlə q/fəal üzvləri qarışdırırlar. Şerba məktəbi isə təsnifatda yalnız fəal üzvləri əsas götürür. Odur ki, bu cür səsləri dilarxası samitlər adlandırmaq daha düzgündür.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.

ЗАДНЕЯЗЫЧНЫЙ - alm. Hinterzungenlaut (m), ing. velar /vi:lə/, back lingual sound /b5k ˈlɪŋwəl sa□nd/, fr. postlingual, azərb. dil arxası samiti. - Dilin arxası fəal üzv kimi /k/, /g/, /x/, /ŋ/ samitlərinin tələffüzündə iştrak edir. /k/, /g/ və /ŋ/ samitləri tələffüz olunarkən dilin arxa hissəsi yumşaq damağa doğru qalxır və onunla kipləşir, sonra bu partlayışa keçir /x/ samitinin tələffüzündə isə dilin arxa hissəsi yumşaq damağa doğru qalxır, lakin onunla kipləşmir, dilin arxa hissəsi ilə yumşaq damaq arasında nov yaranır.
Bax: Задненебный ←.

ЗАДНИЙ ГЛАСНЫЙ - alm. Vokal der hinteren Reihe (m), ing. back (out-back) vowel /b5k /aut b5k/vo□(ə)l/, fr. voyelle postérieure, azərb. arxa sıra saiti. - Arxa sıra saitlərinin tələfüzündə dilin arxa hissəsi qalxmiş vəziyyətdə olur. /a/, /o/, /u/ arxa sıra saitlərdir.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 144.

ЗАДНИЙ РЯД - alm. hintere Reihe (f), ing. backward zone /ˈb5kwəd zə□ne/, fr. rang postérieur, azərb. arxa sıra. – Dilin bütün gövdəsi dilaltı sümüklə birlikdə geri çəkilir və bunun nəticəsində ağız boşluğunun ön tərəfində böyük boşluq yaranır. Ağız boşluğunda yaranan böyük rezonatorda qalın tembrli arxa sıra saitləri yaranır: /a/, /o/, /u/.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 144.

ЗАИМСТВОВАНИЕ - alm. Entlehnung (f), ing. borrowing /ˈbɔro□iŋ/, loan word /lə□n wə:d/, fr. emprunt, azərb. sözalma. - Yeni yaranan anlayışları ifadə etmək, habelə mövcud anlayışları bir-birindən fərqləndirmək məqsədilə başqa dillərdən sözlərin alınması. Ümumiyyətlə, dünyada yeknəsək tərkibli dil yoxdur və bu dünya xalqlarının sıx inteqrasiyası zəminində həm nəzəri, həm də praktik cəhətdən mümkün deyildir. Alınma sözlərin içərisində başqa dildən alınmış, lakin mənsub olduğu dilin xüsusiyyətlərini tam və ya qismən də olsa mühafizə edən, habelə keçdiyi dilin fonetik və qrammatik qanunauyğunluqlarına tam uyğunlaşmış sözləri qeyd etmək lazımdır. Məs.: sözalma prosesində alınma sözlərin dilin həqiqi sözlərinin işlək dairəsinin məhdudlaşdırılmasına, bəzi hallarda isə «gəlmə» sözlər tərəfindən onların sıxışdırılaraq passiv lüğət fonduna keçirilməsinə təsadüf edilir. Məs.: ərəb dilindən: /islam/, /aqibət/, /ələm/, /adəm/, /məruzə/, /məlumat/, /cahil/, /aşiq/, /amil/, /aqil/, /daxil/; fars dilindən: /dilbər/, /səda/, /sakit/, /peyman/, /badə/ və s., rus dilindən:

downloaded from KitabYurdu.org

/космос/, /космонавт/, /техника/, /агроном/, /комбайн/, /фото/, /микрофон/ və s.; latın dilindən: /akademiya/, /aspirant/, /qlobus/, /respublika/, /notarius/ və s.; yunan dilindən: /omonim/, /sinonim/, /filoloq/, /filosof/ və s.; fr. d.: /abajur/, /adres/, /artist/, /balet/, /büro/, /vergül/ və s.; ing. d.: /vağzal/, /rels/, /mitinq/, /tramvay/, /cemper/, /futbol/ və s.; alm. d.: /mundir/, /ştab/, /flaq/, /vafli/, /futlyar/, /kitel/ və s. Almaniyanın uzun illər latın dilinin təsiri altında olması, romalılar tərəfindən zəbt olunması, bu ölkədə xristianlığın qəbul edilməsi, XVIII-XIX əsrlərdə fransız mədəniyyəti və inqilabı, XX-ci əsrin ikinci yarsında ingilis və amerikan düşüncə tərzinin təsiri alman dilində dərin iz buraxmışdır. Bütün bu təsirlər elm, texnika, idman və mədəniyyət sahəsində alman dilinə çoxlu miqdarda alınmaların keçməsinə səbəb olmuşdur.

Ю.С.Маслов. Göstərilən əsər, s. 244.

ЗАИМСТВОВАНИЕ КНИЖНОЕ - alm. Buchentlehnung (f), ing. formal borrowing /ˈfɔ:məl ˈbɔro□iŋ/, fr. emprunt de livresque, azərb. kitab dilindən alınma. - Dilə digər dildən ədəbi, elmi və texniki əsərlər vastəsilə daxil olan alınma sözlər, kitab dili üçün səciyyəvi olan üslubi çalarları ilə fərqlənən alınmalar. Buraya əsasən elmin müxtəlif sahələrində yaranan terminlər daxildirlər. Məs.: /element/, /valentlik/, /tezlik/, /fonem/, /morfem/ və s.

Ю.С.Маслов. Göstərilən əsər, s. 244.

ЗАИМСТВОВАНИЕ СЕМАНТИЧЕСКОЕ - alm. semantische Entlehnung (f), ing. semantic borrowing /sɪˈm5ntɪk ˈbɔro□iŋ/, semantic loan word /sɪˈm5ntɪk lə□n wə:d/ fr. emprunt sémantique, azərb. semantik sözalma. - Hər hansı dilə məxsus söz və ifadələrin hərfi tərcümə vastəsilə (adətən hissə - hissə) alınması. Bu zaman yad dilin leksik materialı yeni sözün yaradılmasında yalnız model keyfiyyətində çıxış edir, əcnəbi dilə məxsus sözün məna cəhəti, tərkib hissələri alınır və söz maddi cəhətdən, səs kompleksi müvafiq vasitələrlə, söz alan dilin daxili qaydalarına əsasən düzülür. Başqa sözlə desək, yad dilə məxsus sözün əşyavilik mənası dilin daxili imkanları vasitəsilə yerinə yetirilir. Məs.: rus d. /надстройка/ – /üstqurum/, /рукопись/ - /əlyazması/, /ударник/ - /zərbəçi/, /писатель/ – /yazıçı/ və s. Bu cür alınmalara adətən kalka deyilir.

M.İ.Adilov və b. Göstərilən əsər, s. 136.

ЗАИМСТВОВАНИЕ ПРЯМОЕ - alm. direkte Entlehnung (f), ing. direct borrowing /diˈrekt bɔro□ɪŋ/, fr. emprunt direct, azərb. vasitəsiz sözalma. – Bir dildən başqa dilə ücünçü dilin vastəsilə deyil, birbaşa (bilavasitə) keçən sözlər. Məs.: rus d. ГАИ; Azərb. d. DAM (Dövlət Avtomobil Müfəttişliyi); ing. d. NATO (North Atlantic Treaty Organisation) bu qəbildən olan sözlərdir.

Ю.С.Маслов. Göstərilən əsər, s. 246.

ЗАИМСТВОВАНИЯ ИСТОЧНИК - alm. Quelle der Entlehnung (f), ing. source of borrowing /sɔ:sˈ əv bɔro□ɪŋ/, fr. emprunt saurce, azərb.

downloaded from KitabYurdu.org

alınma mənşəsi (mənbəyi). - Sözün alındığı mənbə dil. Məs.: Azərb. d. işlənən /vağzal, rels, mitinq, tramvay, cemper, futbol/ və s. sözləri üçün mənbə dil ingilis dili; /mundir, ştab, flaq, vafli, futlyar, kitel/ və s. sözləri üçün alman dili, /sputnik/ sözü üçün isə mənbə dil rus dilidir.
Ю.С.Маслов. Göstərilən əsər, s.246.

ЗАИМСТВОВАННОЕ СЛОВО - alm. Lehnwort (n), ing. loan-word /ˈloun wə:d/, borrowing word /ˈbɔro□ɪŋ wə:d/, fr. mot dˈemprunt, azərb. alınma söz.
Bax: Заимствование ←.
ЗАКОН ЗНАКА - alm. Gesetz des Zeichens (n), ing. law of the sign /lɔ: əv ðə saın/, fr. signe de loi, azərb. işarə qanunu. - Müəyyən işarənin müvafiq məzmunla zəruri və ayrılmaz əlaqəsi, səslənmə ilə məzmunun bir-birinə uyğun gəlməsi. Məs.: /a+ɣ+a+ʤ/ →
R.Conrad. Göstərilən əsər, s.303.
ЗАКОН (ЛИНГВИСТИЧЕСКИЙ) - alm. (linguistisches) Gesetz (n), ing. law (linguistic) /lɔ: /lıŋgwıstık/, fr. loi (linguistique), azərb. qanun–qayda. – 1) Dilin vahidlərinin qarışılıqlı münasibətlərinin müntəzəm və ardıcıliqla təkrarlanması. Azərbaycan dilində miqdar saylarından sonra isim cəm şəkilçisi qəbul etmir. Məs.: /beş (on) kitab/; ancaq alm., ing. və rus d. isim mütləq cəmdə olmalıdır. Məs.: /fünf Bücher/, /five books/, /пять книг/ və s.
2) Dilçilikdə ən az gərginlik sərf etməklə tələffüz olunan qanun var ki, buna G.K.Tsipf (1902-1950) qanunu deyirlər. Bu qanunun məğzi ondan ibarətdir ki, artikulyator baxımdan ən az enerji sərf olunan, ən az gərginliklə səciyələnən dil vahidi daha yüksək işlənmə tezliyinə malikdir. Onun hesablamalarına görə bu ingilis dilindəki /n/ samitidir.
«…dil vahidinin işlənmə tezliyi təkcə onun daha çox sözdə işlənməsilə deyil, həm də bu və ya başqa sözdə hansı tezliklə işlənməsindən asılıdır. Məs.: Tsipfin hesablarına görə daha az enerjinin sərf olunması ilə tələffüz olunan /n/ samiti ən yüksək işlənmə tezliyinə malikdir. Buradan da informasiya məzmunu ortalığa çıxır. Məs.: x və y eyni ehtimalla işlənirsə, deməli, onların daşıdığı informasiya yükü eynidir. Əgər bütün mətnlərdə x və y-in meydana gəlmə ehtimalının cəmi onlar arasında tən yarı bölünürsə, deməli, px=1/2/ və py=1/2. Bu o deməkdir ki, mətnin 50%-də biri, o biri 50%-də isə o birisi işlənib».
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 245.
A.Axundovun hesablamalarına görə saitlərimizdən ən çox işlənmə tezliyinə /ə/ və /a/, samitlərdən isə işlənmə tezliyinə görə sıralanma belədir: /l, n, r, m, d, j/ və s.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 160.
ЗАКОН ТРЕХ СЛОГОВ - alm. Dreisilbengesetz (n), ing. three syllable

downloaded from KitabYurdu.org

law /θri:ˈsıləbl lɔ:/, fr. loi des trois syllabes, azərb. üç heca qanunu. - Yunan dilində vurğu münasibətinin nizamlanmasına əsasən sözün əsas vurğusu üç vurğusuz mor (qısa hecanın ölçü vahidi) üzərinə düşə bilməzdi. Dilçilikdə qot dilində, söz sonunda uzun saitin işlənməsini izah edən qanun. Bu qanuna görə akut vurğulu hecalarda (impulsiv vurğu) iki mor, sirkumfleks vurğuluda isə (sürüşən vurğu) 3 morlu olurdu. Beləliklə, uzun saitlər və diftonqlar german dillərində həmişə bir heca (mor) reduksiyaya uğramaqla bərpa edilə bilərdi.

H.Buβmann. Göstərilən əsər, s.198.

ЗАКОН ОТКРЫТОГО СЛОГА - alm. Gesetz der offenen Silbe (n), ing. the law of the open syllable /ðə lɔ: 6v ðə ˈəupən ˈsiləbl/, fr. loi de la syllable ouverte, azərb. açıq heca qanunu. – 1) Acıq hecada saitin uzun tələffüz edilməsi. Məs.: Azərb. d. /Adil, Aqil/; 2) Slavyan dillərində açıq hecaya meyl güclüdür. Hətta heca qapalı olsa belə, o bir neçə dəfə təkrar olunanda açılır. Məs.: /at (тебя)/- /at-ta-ta/ və s.

Л.Б.Бондарко. Звуковой строй современного русского языка. М., 1977.

ЗАКОН СЕМАНТИЧЕСКИЙ - alm semantisches Gesetz (n), ing. semantic law /sıˈmæntık lɔ:/, fr. loi sémantique, azərb. semantik qanun. - Ayrı-ayrı sözlərin mənalarının dəyişməsində ümümi semantik qanunauyğunluqlar. Mənanın daralması, genişlənməsi, yaxşılaşması və pisləşməsi. Məs.: orta alm.d. mhd. /Marschale/ – «ata baxan, mehtər» deməkdi. y.a.d. /Marschall/ – «yüksək hərbi rütbə» deməkdir. Orta dövr alman dilində /Frauenzimmer/ «qadınlar toplaşan otaq», y.a.d. isə «pozğun qadın» deməkdir.

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s.148, 177.

ЗАКОН СОКРАЩЕНИЯ - alm. Gesetz der Verkürzung (n), ing. abbriviation law /əˌbrı:vıˈeıʃ(ə)n lɒ:/, fr. loi de racourcissement, azərb. ixtisar qanunu. - Müəyyən dil vahidinin işlənməsi tezliyi onun sadələşməsini tələb edir. Bu qanun müqablində dildə ən cox yayılan, işlək sözlər bir hecalı şəkilinə düşür. Məs.: Azərb. d. /filoloji fakültə/ əvəzinə /filfak/, /mexanika fakültəsi/ əvəzinə /mexmat/, /dialektik materializm/ əvəzinə /diamat/ deyilir və s.

A.A.Реформатский. Göstərilən əsər.

ЗАКОН ФОНЕТИЧЕСКИЙ - alm. Lautgesetz (n), phonetisches Gesetz (n), ing. phonetic law /fəuˈnetik lɒ:/, fr. loi phonétique, azərb. fonetik qanun. - Müntəzəm şəkildə və qarşılıqlı surətdə qohum dillərdə, habelə ayrıca bir dildə dilin inkişafının müxtəlif mərhələlərində səslərin bir-birinə təsiri nəticəsində ortaya çıxan qanun. Məsələn, rus dilində kar samitlərdən əvvəlki mövqelərdə cingiltili samitlərin karlaşması. Müq. et: «подсказать» - /пътск^зат'/. Daha geniş mənada fonetik qanun danimarkalı Karl Vernerin (1846-1896) (1875-ci ildə kəşf edib, 1877-ci ildə çap olunub) adı ilə bağlıdır. Sanskrit, yunan və german dialektlərini müqayisə edərək

downloaded from KitabYurdu.org

K.Verner müəyyənləşdirmişdi ki, hind-Avropa dillərində sərbəst söz vurğusunun yeri etimoloji cəhətdən qohum sözlərin samit sistemində uyğunsuzluq üçün əsas rolunu oynayır. Bu da isə Y.Grimin «qrammatik əvəzlənmə» qanunu ilə bağlı götürülməlidir. K.Vernerə görə, birinci fonem irəli çəkilməsi nəticəsində meydana gələn kar novlu /f, ö, χ, s/ samitləri ulu german dilində «in-» və «auslautda» cingiltili samitlər əhatəsində, bilavasitə onlardan qabaqda gələn sait əsas vurğu daşımırdısa müvafiq olaraq /β, δ, ɣ, z/ cingiltili samitlərinə çevrilmişlər. Müq. et:

Hind-Avropa	got dili	g.h.d.	got	
pətēr	fađar (ata)	bhrā́tēr	brothar	(qardaş, Buder)

/Vater/ sözündən düzəltmədə hind-Avropa /yunanca /t/ inkişaf edib cingiltili novlu samitə keçdi (got. d. /d=1/), çünki vurğu dilönü samitindən sonra gəlirdi, halbuki /Bruder/ sözündə hind-Avropa /qədim h dillərində /t/ birinci fonem əvəzlənməsinə görə kar novlu samitə çevrildi. Fonetik cəhətdən bu müxtəlif tələffüz qaydaları ilə izah edilsə də, fonoloji yanaşmada burada söhbət fonem parçalanmasından gedir (fonem dəyişməsi) ki, bu da german dillərində vurğunun kök hecası üzərinə çəkilməsilə başa çatıb, bununla da allofon dəyişiklərinin fonem statusu qazanması baş verib.

H.Buβmann. Göstərilən əsər, s.833.

ЗАКОН ФОНОЛОГИЧЕСКИЙ - alm. phonologisches Gesetz (n), ing. phonological law /fəunəˈlɒdʒɪkl lɔ:/, fr. loi phonologique, azərb. fonoloji qanun. – Bu və ya digər dilin fonoloji sistemində müəyyən yerdəyişmələrlə nəticələnən qanunauyğunluq. Məs.: o.a.d. «ch» (/x/) samiti mövqeyin aradan qalxması ilə iki fonemə parçalandı: | ch |/x| \|ç|

Bax: Дивергенуис ← .

ЗАКОН ЭКОНОМИИ СИЛ - alm. Gesetz der Kraftökonomie (n), ing. law of economy force /lɔ: ɔv ɪ(:)ˈkɔnəmɪ:ˈfɔ:s/, law of least effort (efficiency /lɔ: əv lɪ:st ˈefət /ɪˈfɪʃənsɪ/, fr. force économie de la loi, azərb. qənaət qanunu. – Dildəki fonetik dəyişmələrin əsas səbəbi hesab olunur. Qənaətə meylin mənbəyində insan orqanizmində enerjinin paylanması durur. Dildə qənaət prinsipi özünü mühafizə inistinktinin konkret təzahür formasıdır. Bu fizioloji gərginliyin həddən artıq işlənməsinə qarşı özünəməxsus reaksiyadır; yaddaşın işini mürəkkəbləşdirən, nitqin yaranması və qavranması ilə bağlı beyində olan bəzi funksiyaların həyata keçməsinə qarşı hər cür qeyri - rahatlığa qarşı duran bir prosesdir.

Б.А.Серебренников. Вероятностные обоснования в компаравистике. М., 1974, s. 27.

ЗАКОНЧЕННАЯ ИНТОНАЦИЯ - alm. terminale (abgeschlossene) Intonation (f), ing. final intonation /ˈfaɪnl ˌɪntouˈneɪʃən/, fr. intonation fini, azərb. bitginlik intonasiyası. – Sintaqmın sonuna yaxın səs tonu aşağı düşür, sintaqmın sonunda gələn saitin intensivliyi zəifləyir, danışığın ümumi sürəti

downloaded from KitabYurdu.org

zəifləyir və sintaqmın sonunda bitkinlik fasiləsi yaranır. Bu əlamətləri bitkinlik intonasiyası üçün differensial əlamətlər adlandırmaq lazım gəlir, çünki bu əlamətlərə malik olan hər bir cümlənin intonasiyası bitkinlik intonasiyası kimi izah edilə bilər. İntonasiyaya bu cür yanaşma superseqment vahidləri fonoloji tədqiqat metodlarının tətbiqilə aparılan ilk eksperimental-fonetik araşdırmalardan biri idi. N.S.Trubeskoydan sonra dildə 3 intonasiya konturu (terminal, proqrediyent və interroqrativ) sistemindən çıxış edərək 1970-ci ildə alman dilində terminal intonasiya konturunun tədqiqinə həsr olunmuş tədqiqat əsərində bu intonasiya konturu üçün yuxarıda sadalanan relevant əlamətlər müəyyən edildi.

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 150; Ф.Вейсалов (Вейсалли). Завершающая интонация в современном немецком языке (экспериментально-фонетическое исследование). Автореф. канд. дисс., Л., 1970.

ЗАКРЫТЫЙ ГЛАСНЫЙ - alm. geschlossener Vokal (m), ing. closed vowel /klouzd ˈva□əl/, fr. voyelle fermée, azərb. qapalı sait. - Alt çənənin açılma dərəcəsilə müəyyənləşir. Azərbaycan dilində qapalı saitlər qapalılıq, açıqlığa görə qarşılaşma yaratmırlar. Ancaq bu dilin saitlər sistemində /u/, /y/, /i/ qapalı, /a/, /ɔ/, /e/ və /ə/ açıqdır, /ɪ/ isə qarışıq sait sayılır. Alman dilində /a:/-dan başqa bütün uzun saitlər qapalı, qısalar isə açıqdır.

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.

ЗАКРЫТЫЙ СЛОГ - alm. geschlossene Silbe (f), ing. closed syllable /klouzd ˈsıləbl/, fr. syllable fermée (entravée), azərb. qapalı heca. - Sonu samitlə bitən hecalar qapalı heca adlanır. Məs.: /dəftər/, /sər:həd/ və s. Alman dilində vurğulu şərti qapalı, yəni söz formasını dəyişərkən açıla bilən hecalarda sait uzun tələffüz olunur. Müq. et: /mu:t/ çünki /mu:tə/ «cəsarət» və s.

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980; H.Bußmann. Göstərilən əsər, s. 274-276.

ЗАЛОГ - alm. Genus (n), ing. voice /vɔɪs/, fr. voix, azərb. növ, tərz. - Subyektlə obyekt (üzərində iş icra olunan əşya) arasında müxtəlif münasibətləri əks etdirən feli kateqoriya. Məs.: subyekt obyekt üzərində işi bilavastə özü görürsə, bu məlum, başqasına icra etdirdikdə isə icbar, subyekt işi başqa birisi ilə birlikdə gördükdə qarşılıqlı, həmin işi fəal növlü cümlənin obyekti öz üzərinə götürürsə məchul növ olur. Məs.:

	Fəal	Məchul	icbar	Qarşılıqlı növ
Azərb. dili	/Mən məktub yazıram//	/Məktub mənim tərəfimdən yazılır//	/Mən məktub yazdırıram özüm//	/Biz yazışırıq//
Alman dili	/Ich schreibe einen	/Der Brief wird von mir geschrieben//	/Ich lasse einen Brief schreiben//	/Wir schreiben uns Briefe// (einander)

downloaded from KitabYurdu.org

	Brief//			
İngilis dili	/I write letter//	/The letter has been written by me//	/I had the letter written by myself//	/We write letter to each other//
Rus dili	/Я пишу письмо//	/Письмо пишется мною//	/Я велел напи-сать письмо//	/Мы переписываемся//

Azərbaycan və rus dillərində növ morfoloji, alman və ingilis dillərində sintaktik səviyyədə öz ifadəsini tapır, çünki Azərbaycan və rus dillərində növün xüsusi morfoloji göstəricisi var (il)[4], (ся), ancaq alman və ingilis dilində bu sintaktik yolla ifadə olunur.

Y.Kərimov. Göstərilən əsər.

ЗАЛОГ БЕЗОБЬЕКТНЫЙ - alm. objektloses Genus (n), ing. objectless voice /ˈɔbʤɪktlɪz vɔɪs/, fr. voix sans-objet, azərb. obyektsiz növ. - Obyektinə aid olmayan, subyektin daimi aktiv və passiv xüssuyyətləri. Məs.: Azərb. d. /gicitgən dalayır/, /sap qırılır/, /dəmir paslanır/, /it qapır/.

H. Glinz. Göstərilən əsər.

ЗАЛОГ ВЗАИМНО-ВОЗВРАТНЫЙ - alm. reziprok-reflexives Genus (n), ing. reciprocally reflexive voice /rɪˈsɪprəkəlɪ rɪˈfleksɪv vɔɪs/, fr. voix réfléchie, azərb. müştərək-qayıdış növ. – İş-hərəkətin qarşılıqlı şəkildə icra olunduğunu göstərən növ. Məs.: Azərb. d. /yazışmaq/, /görüşmək/, /gülüşmək/.

Bax: Залог ←.

ЗАЛОГ ДЕЙСТВИТЕЛЬНЫЙ - alm. Aktiv (n), ing. aktiv voice /ˈ5ktɪv vɔɪs/, fr. voix active, azərb. məlum növ. - Hərəkətin, prosesin (təsirli fellərdə) birbaşa obyektə yönəldiyini, hərəkətin mənbəyinin subyektin özünün olduğunu göstərən fel növü. Onların leksik mənaları heç bir vasitənin köməyi olmadan subyekt və obyektin hərəkətə münasibətini təmin edir. İş icraçısı cümlədə işlənmədikdə belə, yenə də iş-hərəkətin fəal iştirakçısı kimi çıxış edir, iş və hərəkət bilavasitə onun özü tərəfindən icra olunur. Məlum növün xüsusi spesfik əlamət göstəriciləri olmur. Məlum növ fellər digər növlərin yaranması üçün çıxış nöqtəsidir. Belə fellərdə subyekt (işin icraçısı) cümlənin mübtədası funksiyasını yerinə yetirir. Məs.: Azərb. d. /Qoca əlindəki əsaya söykənərək nəfəsini dərmək üçün hasarın yanında dayandı//. /Piyadalar düşmən səngərinə yaxınlaşdılar//.

Bax: Залог ←.

ЗАЛОГ СТРАДАТЕЛЬНЫЙ - alm. Passiv (n), ing. passive voice /ˈp5sɪv vɔɪs/, fr. voix passive, azərb. məchul növ. – Məchul fellər hərəkətlə obyekt və subyekt arasındakı münasibətləri əks etdirir. Bu növ fellərdə işin icraçısı öz yerini cümlə daxilində tamamlıqla dəyişir. Cümlədə iş – hərəkətin həqiqi icraçısı qrammatik obyekt (tamamlıq), qrammatik obyekti isə qramatik subyekt (mübtəda) kimi işlənir. Məchul fellərdə iş-hərəkətin icraçısında icraçı (subyekt) passiv olduğundan o, zahirə çıxa bilmir. Bu səbəbdən

downloaded from KitabYurdu.org

obyekt onun yerini tutur və subyekti əvəzləyir. Məs.: Azərb. d. /Qapı açıldı/. /Taxıl biçildi/. Alm. və ing. d. məchul növ analitik yolla düzəlir. Məs.: alm. d. /Das Buch wird gelesen//; ing. d. /The book has been read// (kitab oxunur) və s.
Y.Kərimov. Göstərilən əsər.

ЗАМЕНА - alm. Substitution (f), ing. substitution /ˌsʌbstɪˈtjuːʃən/, fr. substitution, azərb. əvəzetmə. - Bir dil vahidinin digərinin yerinə işlədilməsi məs.: felin keçmiş zamanı əvəzində indiki zaman şəkilçisinin işlədilməsi; 1. Dünən bir də eşidirəm ki…; 2. Müəyyən qrammatik formaların öz mənalarında deyil, fərqli mənada, yalnız mətn daxilində kəsb etdikləri mənada işlədilməsi. Əvəzetmə paradiqmatik səviyyədə dil vahidinin müstəqilliyini sübut etmək üçün geniş işlənən təhlil üsuludur. Buna bəzən komutasiya və ya substitusiya da deyirlər. Məs.: struktur dilçilik fonemin müstəqilliyini bu yolla yoxlayır. /das/ sözündə birinci samiti /g/ ilə əvəz etdikdə yeni söz alınır, ona görə də /d/ və /g/ müxtəlif fonemlər hesab olunur.
N.S.Trubeskoy. Göstərilən əsər. Almancadan tərcüməsi, «Son söz» və «Qeydlər» prof. F.Veysəllinindir, s.58-65; F.Veysəlli. SDƏ. Bakı, 2005.

ЗАМЕНА ЛЕКСИЧЕСКАЯ - alm. lexikalische Substitution (f), ing. lexical substitution /ˈleksɪkəl sʌbstɪtjuːʃən/, fr. substitution lexicale, azərb. leksik əvəzetmə. - Eyni əhatədə işlənən sözlər bir-birini əvəz etməklə yeni məna ifadə olunursa, deməli onlar müxtəlif leksemlərdir. Məs.: Azərb. d. /garı/ # /darı/ # /doşab/ # /ʧarʃab/, /lək/ # /kəl/, /kəl/ # /öküz/ və s.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003.

ЗАМЕНИТЕЛЬ ФОНЕТИЧЕСКИЙ - alm. phonetischer Ersatz (m), ing. phonetic substitution /fɔnetɪk sʌbstɪtjuːʃən/, fr. succédant phonétique, azərb. fonetik əvəzləyici. - Sözdə qonşu hecadakı seqmentin düşməsi və ya itməsi uzun tələffüzə səbəb olur. Bununla da uzunluq «kompensasiya» olunur ki, nəticədə ilkin uzunluq nisbəti saxlanılır. Məs.: Hind-Avropa dillərində branhto → german dilində bra:hta → g.a.d.-də → brâhte, özü də german dillərində novlu samit qarşısında burun səsi saitin burunlaşması ilə bərabər düşür, ancaq bunun əvəzində uzun tələffüz olunurdu. Bunun izlərini biz müasir alman dilində görürük. Məs.: «Bart» sözündə /a/ /r/-dan qabaq uzanır və /r/ danışıq zəncirindən düşür: /ba:t/!
F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Bakı, 1989.

ЗАМЕНИТЕЛЬНЫЕ ФОРМЫ - alm. Ersatzformen (Pl.), ing. substitutive forms /ˈsʌbstɪtjuːtɪv fɔːms/, fr. formes succédanées, azərb. əvəzedici formalar. - Söz birləşməsinin xüsusiyyətlərindən asılı olaraq iki formadan birinin seçilməsi. Məs.: Azərb. d. sual cümlələrinin düzəlməsində (mı)[2] düşür, intonasiya bu funksiyanı yerinə yetirir. Məs.: ¿sən (dəmi) gəlirsən? və s. Hələ A.M.Peşkovski (1878-1933) sintaktik səviyyədə «kompensa-

downloaded from KitabYurdu.org

siya» prinsipindən danışırdı. Cümlədə qrammatik vasitələr iştirak edəndə, intonasiya zəifləyir və əksinə.

А.М.Пешковский. Интонация и грамматика. М., 1928; Ф.Вейсалов. Завершающая интонация в современном немецком языке (экспериментально-фонетическое исследование). Канд. дисс., Л., 1970.

ЗАМЕСТИТЕЛЬ ФОНЕМЫ - alm. Ersetzung des Phonems (f), ing. phoneme substitute /ˈfoun:m sʌbstıtju:t/, fr. suppléant du phonˈme, azərb. fonem əvəzləyicisi. – Moskva fonoloji məktəbində fonemin zəif mövqedə çıxış edən və tez-tez həmin mövqeyin səslənməsinə görə digər fonemin əvəzləyicisı ilə üst-üstə düşən fonem variantı. Məs.: rus d.[a] və [o] fonemlərin vurğusuz hecalarda [ʌ] ilə üst-üstə düşür. Bu yanlış baxışı Şerba məktəbi qəbul etmir və hər bir fonem realizasiyasını elə fonemin özü hesab edir.

F.Veysəlli. SDƏ. Bakı, 2005.

ЗАМЕЩЕНИЕ - alm. Ersetzung (f), Substitution (f), ing. substitution /ˈsʌbstıtju:tʃən/, fr. substitution, azərb. əvəzləmə. – 1. Müəyyən ifadə vahidinin müyyən məzmun vahidi ilə paradiqmatik cəhətdən əlaqələndirməsi; 2. Deskriptiv dilcilikdə dil vahidlərinin fərqli cəhətlərini müəyyənləşdirməkdən ibarət metod. Həmin məqsədlə dil vahidlərinin qarşılıqlı şəkildə əvəz edilməsində onların funksonal xüsusiyyətləri, müəyyən qrupları üzə çıxarılır. Əvəzetmə üsulu eyni qrammatik kateqoriyaya xas elementlərin üzə çıxarılmasında geniş tətbiq olunur. Cümlədə bir element paradiqmatik klassik digər elementilə əvəz olunduqda məzmun dəyişirsə, deməli, cümlənin daşıdığı intonasiya da dəyişir. Məs.: alm. d. /Ich schreibe einen Aufsatz// (Mən məqalə yazıram) cümləsində /schreibe/ əvəzinə /lese/ (oxuyuram) işlətsək məna dəyişir. Paradiqmatik cəhətdən əvəzolunanlar eyni qrammatik kateqoriyaya aid olur. Bütün səviyyələrdə əvəzetmə iki cür olur: a) silinmə, udulma və artırma→. Birincidə dərindəki qatdan üst qata keçmə yolunda ayrı-ayrı elementlər atılır və ya udulur. Məs.: /Hans spielt Piano und Monika spielt Flöte// (Hasis piano çalır və Monika fleyta çalır) → /Hans spielt Piano und Monika Flöte//; b) İkincisi isə dərindəki strukturdan çıxarılan birləşmə üst qata əlavə edilə bilər. Məs.:

$[x+y]_s \rightarrow [x+z+y]_s$. Formal nitqdə disfunksiyanın sinonimi.



H.Bußmann. Göstərilən əsər, s.753.

ЗАМКНУТЫЙ ГЛАСНЫЙ - alm. gedeckter Vokal (m), ing. closed vowel /kləuzd ˈvauəl/, blocked vowel /blɔkt ˈvauəl/, fr. voyelle entravée,

downloaded from KitabYurdu.org

azərb. örtülü sait. – Örtülü hecadakı sait aid edilir və dilçilikdə adətən açıq hecadakı saitlərə qarşı qoyulur.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

ЗАНДЕ – alm. Zande (n), ing. Zand /zand/, fr. langue zandée, azərb. zande dili. – Adamua dillərindən biridir. Cənubi Sudanda, Mərkəzi Afrika Respublikasında və Zairdə yayılmışdır. Təqribən 2,8 milyona qədər daşıyıcısı vardır. Ərazi baxımından iki dialekti vardır: dio və patri. Zəngin saitlər sisteminə malikdir. Yazısız dildir.
A.Tucker., P.Hackett. Le groupe Linguistique zande, Tervuren, 1959.

ЗАПАДНОАТЛАНТИЧЕСКИЕ ЯЗЫКИ - alm. westatlantische Sprachen (Pl.), ing. West(ern)Atlantic languages /ˈwest(ən)ətˈlæntɪk ˈlaŋgwɪʤɪz/, fr. langues atlantique occidentales, azərb. qərbi atlantik dilləri. – Niger-konqolez dilləri ailəsi daxilində yarımdillər ailəsi. Qərbi Afrikanın Atlantik sahillərində, şimaldan Seneqal çayından cənubdan Liberiyaya qədər (Seneqal, Qambiya, Qvineya-Bisau, Qvineya, Sierro-Leone, qismən Liberiya) yayılmışdır. Yalnız flua dili bu arealdan kənara çıxaraq bütün Afrikada yayılmışdır. Qərbi atlantik dilləri iki qola ayrılır: şimal və cənub qolları. Şimal qolu tərkib baxımından daha rəngarəngdir. Bu qola flua, serer, volof, çanqin, lehar, non, ndut, falor, diola, kvatay, tanda, basari, bedk, konyaqi, kobiana, nalu, mbulunqiş və s. daxildir. Cənub qoluna isə sua, temnee, baqa-koba, landuma, tiapi, bulom, kisi, qola, limba və s. daxildir.
D.Westermann. Die Westlichen Sudansprachen und Beziehungen zum antu. B., 1927.

ЗАПАДНОБАНТОИДНЫЕ ЯЗЫКИ - alm. Westbantu-Sprachen (Pl.), ing. West(ern)bantoid languages /ˈwestənbantoɪd ˈl5ŋgwɪʤɪz/, fr. langues bentoïdes occidentales, azərb. Qərbi bantoid dilləri.

Bax: Западноатлантические языки ←.

ЗАПАДНОСЛАВЯНСКИЕ ЯЗЫКИ - alm. westslawische Sprachen (Pl.), ing. west(ern) Slavic, Slavonic languages /ˈwestən ˈsl5vɪk/, /ˈslɑ:vɪk/ slaˈv6nɪk/ ˈl5ŋgwɪʤɪz/, fr. langues slaves occidentales, azərb. Qərbi slavyan dilləri. – Çex, slovak, polyak, lujitski (iki variantda – yuxarı və aşağı lujitski), həmçinin ölü polab dilini özündə birləşdirən slavayan dilləri qrupu. Çexiya, Slovakiya, Polşa və keçmiş sovetlər ittifaqında, (Ukraina, Belarus və Litva respublikalarında), Almaniya, Fransa, Macarıstan və Yuqoslaviyada yayılmışdır. 60 milyondon çox daşıyıcısı vardır. Qərbi slavyan dilləri üç yarımqrupa bölünür: lexit, çex-slovak və serblujitski.
А.М.Селищев. Славянское языкознание. Т.1, Западнославянские языки. М., 1941; С.Б.Бернштейн. Очерки сравнительной грамматики славянских языков. М., 1961.

downloaded from KitabYurdu.org

ЗАПРЕТ - alm. Verbot (n), ing. taboo /tə'bu:/, fr. tabou, azərb. qadağa. - Müxtəlif dilxarici faktorların təsiri nəticəsində sözlərin işlənməsində yaranan məhdudiyyətlər.
Ю.С.Маслов. Göstərilən əsər.

ЗАПЯТАЯ - alm. Komma (n), ing. comma /'kɔmə/, fr. virgule, azərb. vergül. - Sözləri, birləşmələri və cümlələri sərhədləndirmək üçün işlədilən durğu işarəsi. Bu işarədən aşağıdakı məqamlarda istifadə olunur: a) cümlənin həmcins üzvləri və sadalanan sözlər arasında. Məs.: /Nizaminin, Füzulinin, Vaqifin; b) tabeli və tabesiz mürəkkəb cümlələrin komponentləri arasında. Məs.: /gələn gəldi, gedən getdi/; c) Cümlələrdə əlavə və xüsusiləşmələri ayırmaq üçün. Məs.: /süfrəyə bal qoyuldu, əsl beçə balı//; ç) Cümlə üzvləri ilə qrammatik cəhətdən bağlanmayan sözləri (ara sözü, xitab, nida, təsdiq, inkar sözləri) ayırmaq üçün. Məs.: /O, əlbəttə, mən Cəmili deyirəm hələ də özünə gəlməyib//.
Ə.Dəmirçizadə. Göstərilən əsər.

ЗАСВИДЕТЕЛЬСТВОВАННАЯ ФОРМА - alm. belegte Form (f), ing. attested form /ə'testid fɔ:m/, fr. forme témoignagée, azərb. təsdiq edilmiş forma. – Müqayisəli-tarixi dilçilikdə yazılı abidələrdə, yaxud canlı dildə müşahidə olunan, (olunmuş) forma. Məs.: orta əsrlər Azərbaycan dilində /onu əvəzinə «anı»/.
H.Mirzəzadə. Azərbaycan dilinin tarixi morfologiyası. Bakı, 1962.

ЗАСТЫВШИЙ - alm. erstarrt, isoliert, ing. fossilized /'fɔsılaızd/ stereotyped /stıərətaıpt/, fr. figé, azərb. təcrid edilmiş. - Donuq, təcrid olunmuş söz və ifadələr. Canlı (məhsuldar) sistemin tərkib hissəsinə aid olmayan, dilin əvvəlki durumundan, mərhələlərindən keçib gəlmiş söz və ifadələr. Məs.: Azərb. d. /Şol səbəbdən kim andən (ondan) ənürsən// (Nəsimi)
A.Axundov. Azərbaycan dilinin fonetikası. Bakı, 1984, s. 7.

ЗАТВОР - alm. Verchluß (m), ing. closure /'klouʒə/, fr. fermeture, azərb. qapalılıq. - Səsin tələffüzündə kipləşmə mərhələsi.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.

ЗАУДАРНЫЙ - alm. nachbetont, ing. posttonic /poust'tɔnık/, fr. apr's l'accent, azərb. vurğudan sonrakı. - Vurğulu hecadan sonra gələn. Məs.: rus dilində /просоде'ма/, /при'ступ/, /ме'тод/ və s. sözlərində vurğudan sonra gələn /mʌ/, /tup/ və /tod/ hecaları.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 308-314.

ЗВАТЕЛЬНЫЙ - alm. Vokativ (m), ing. vocative /'vɔkətıv/, fr. vocatif,-ve azərb. müraciət forması (çağrış halı). - Müraciət, çağrış bildirən. Məs.: /Cəmil, sizi cağıran var//.
A.A. Реформатский. Göstərilən əsər, s. 488.

downloaded from KitabYurdu.org

ЗВОНКИЙ - alm. stimmhaft, ing. voiced /vɔɪst/, fr. sonore, azərb. cingiltili. - Səs tellərinin titrəməsi (vibrasiyası) ilə tələffüz edilən. Məs.: /d/, /z/ və s. cingiltili samitlərdir.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1980.
ЗВОНКИЕ СОГЛАСНЫЕ - alm. stimmhafte Konsonanten (Pl.), ing. voiced consonants /vɔɪst kɔnsənəntz/, fr. consonnes sonores, azərb. cingiltili samitlər. - Tələffüzü zamanı səs tellərinin titrəməsi ilə yaranan samitlər. Məs.: Azərb. d. /b/, /v/, /ħ/, /ʒ/, /d/, /z/, /j /, /g/, /ʤ/, /ə/. Onlar /p/, /f/, /k/, /x/, /t/, /s/, /ʃ/, /ʧ/, /h/, /k/ kar samitlərinə qarşı qoyulur. /m/, /n/, /l/ və /r/ samitləri isə sonor samitlərdir.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 127-129.
ЗВОНКОСТЬ - alm. Stimmhaftigkeit (f), ing. resonance /ˈreznəns/, sonority /səˈnɔrıtı/, fr. sonorité, azərb. cingiltilik. - Səs tellərinin titrəməsi nəticəsində yaranan səs keyfiyyəti.
Bax: Звонкие согласные ←.
ЗВУК - alm. Laut (m), ing. sound /saund/, fr. son, azərb. səs. - Tələffüz üzvləri vasitəsilə yaranan, öz fiziki əlamətilə seçilən seqment vahid. Məs.: /adam/ sözünü bu cür seqmentləmək olar: /a/, /d/, /a/, /m/. Bu zaman iki sait səs və /d/ və /m/ samitləri alınacaq. Ancaq bu sırf akustik üzvlənmədir.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 103.
ЗВУКОВОЙ (ФОНИЧЕСКИЙ) - alm. lautlich (phonisch), ing. sound (phonic phonetic) /saund/ˈfounık/ˈfouˈnetık/, fr. phonétique (phonique), azərb. səsli (fonik). – Tələffüz olunan səs, səsin maddi tərəfi, səsdən ibarət olan.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.
ЗВУКОВАЯ АББРЕВИАТУРА - alm. Initialkürzung (f), ing. sound abbreviation /saund əˌbriːvıˈeıʃ(ə)n/, phonetic acronym /ˈfə□ˈnetık əˈkrɔnım/, fr. abréviation phonétique, azərb. səs abbreviaturası. - Mürəkkəb ixtisarları təşkil edən səslər. Hər bir işarənin əlifbadakı səs kimi deyil, adi söz kimi tələffüzü. Məs.: Azərb. d. /SES/, (su elektrik stansiyası), /RİH/ (Rayon icra hakimiyyəti) və s.
Bax: Аббревиатура ←.
ЗВУКОВОЙ ВИД - alm. Schallaspekt (m), Tonart (f), Klangart (f), ing. sound aspect /saund ˈ5spekt/, fr. aspect phonétique, azərb. səs növü. – Məs.: /cingiltili, kar, uzun, qısa, qalın, incə/ və s.
F.Veysəlli. SDƏ. Bakı, 2005.
ЗВУКОВАЯ ВЫДЕЛИМОСТЬ - alm. Lautaussonderung (f), ing. phonetic segmentation /ˈfə□ˈnetık ˈsegməntеıʃ(ə)n/, sound separability /saund sepərəˈbılıtı/, fr. séparation phonique, azərb. səs ayrılması, səs parçalanması. – Müəyyən seqmentin daha böyük nitq parçalarından ayrıla

downloaded from KitabYurdu.org

bilmək xüsusiyyəti. Bu yalnız fiziki xassələrə əsasən mümkündür. Ancaq əslində, burada düzgün sərhəd tapmaq qeyri-mümkündür, çünki səs fiziki baxımdan arası kəsilməyən bir axındır. Səsin dil seqmentilə üst-üstə düşməsi mümkün deyildir.

Bax: Выделимость фонемы ←.

ЗВУКОВАЯ ЕДИНИЦА - alm. Lauteinheit (f), ing. sound of unit /saund 6v ˈju:nɪt/, fr. unité phonique, azərb. səs vahidi. – Danışıq axınında linqvistik üzvlənmə əsasında yaranan səs vahidi. Məs.: [a], [d], [i].
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 103.

ЗВУКОВОЕ ИЗМЕНЕНИЕ - alm. Lautwandel (m), ing. phonetic change /ˈfə□ˈnetɪk ʧeɪnʤ/, sound change /saund ʧeɪnʤ/, fr. changement phonétique, azərb. səs dəyişməsi. - 1. Dil vahidinin səs (fonetik) dəyişikliyi. Məs.: rus d. /a/, /ʌ/, /ь/, /ъ/. və s. Aşağıdakı spektrlər həm eyni fonemin, həm də müxtəlif fonemlərin səs axınını aydın göstərir (bax: şəkil).



Şəkil. **Sözlərin və ayrı-ayrı fonemlərin spektroqramları**

/ о г о р о д и т ь /

downloaded from KitabYurdu.org



F.Veysəlli. SDƏ. Bakı, 2005.

ЗВУКОВОЙ КОМПЛЕКС (ЗВУКОСОЧЕТАНИЕ) - alm. akustischer Komplex (m), ing. sound complex /saund ˈk6mpleks/, cluster /ˈkl^stə/, fr. complexe sonore, azərb. səs kompleksi. - Danışıq aktından ayrılan səs ardıcıllığı.

Şəkil. **/fa:mi:*l*je/ və /di:fi:tsjɛ*l*// sözlərinin spektroqramları**

ЗВУКОВАЯ ОБОЛОЧКА - alm. Lauthülle (f), ing. sound envelope /saund ˈenvıloup/, fr. enveloppe sonore, azərb. səs qabığı, substansiya. - Söz və morfemin, onların daxili, məna tərəfindən yaxud məzmunundan fərqli olaraq, xarici, səs (maddi) tərəfi, səsin substansiyası.

F.Veysəlli. SDƏ. Bakı, 2005.

ЗВУКОВОЕ ПИСЬМО - alm. Lautschrift (f), ing. phonetic writing /f ə□ˈnetik raıtiŋ/, fr. écriture sonore, azərb. səsli yazı (fonetik yazı). - Hər bir fonemin ayrıca qrafik işarəsi, yaxud fonemi əks etdirən yazı növü. Son illər dünya dilçilik elmində belə bir fikir özünə möhkəm yer tutur ki, Avropaya fonoqrafik yazını türk mənşəli etrusklar gətirib.

H.Harald. Die Geschichte der Schrift. München, 1962, s. 61; F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 64.

ЗВУКОВАЯ СИСТЕМА - alm. Lautsystem (n), ing. sound (phonetic) system /sau:nd (fə□ˈnetik) ˈsistım/, fr. systˈme sonore, azərb. səs sistemi. -

downloaded from KitabYurdu.org

Müəyyən dildə söz və morfemlərin, yəni dil vahidlərinin səs qabığının fərqləndirilməsi üçün istifadə olunan fonetik vasitələrin məcmusu. Buraya seqment (sait, samit və onların birləşmə qaydaları) və superseqment (ton, intonasiya) aiddir.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 178.

ЗВУК РЕЧИ - alm. Sprechlaut (m), ing. speech sound /ˈspɪ:tʃ saund/, fr. son du discours, azərb. nitq səsi. – Dildə müəyyən dəyər kəsb edərək, ictimai funksiya daşıyan, müəyyən şəxs tərəfindən konkret şəraitdə tələffüz edilən, yəni bütün maddi xüsusiyyətləri özündə əks etdirən konkret səs. Məs.: /a/ foneminin Azərbaycan dilində milyonlarla səs təzahürü var.
F.Veysəlli. SDƏ. Bakı, 2005.

ЗВУК ЯЗЫКА - alm. Sprachlaut (m), ing. sound of language /saund 6v ˈlæŋgwɪʤ/, fr. son de la langue, azərb. dil səsi. - Akustik - artikulyator cəhətdən fərqlənən, dil daşıyıcıları tərəfindən eyniləşdirilən, danışıq səslərində reallaşan dil vahidi. Dil səsi dil daşıyıcılarının şüurunda mövcud olan səs etalonu, səs tipidir. Diğər dil vahidləri kimi dil səsi də – fonem özlüyündə konkret səs deyil, abstraksiyadır. Sankt-Peterburq fonoloji məktəbinin (L.V.Şerba və onun davamçıları) konsepsiyasında danışıq səsi və dil səsi məfhumları müvafiq olaraq fon və allofon adlandırılır. Şerba məktəbinin nümayəndələri allofonun ümumiləşdirilmiş cəhətlərini qeyd edir və onu norma səviyyəsinə aid edirlər. Peterburqlular allofonun funksional mahiyyətli olduğunu nəzərə çatdırmaqdan ötrü bəzən onu allofonem adlandırırlar. Moskva fonoloji məktəbinin təmsilçiləri danışıq səslərini dil səslərində birləşmiş akustik-artikulyator oxşarlığa, dil səslərinin fonemdə cəmləşdirilməsində isə funksional cəhətə əsaslanırlar. Problemin həllinə fərqli mövqedən yanaşan Peterburq məktəbinin nümayəndələrinə görə fonun allofonda, allofonun fonemdə eyniləşdirilməsi vahid funksional əsasa söykənir.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 191-198.

ЗВУКОВОЙ ТИП - alm. Lauttyp (m), ing. sound type /saund taıp/, fr. type sonore, azərb. səs tipi. - Dildə eyni vəzifə daşıyan, yalnız mövqeyinə görə fərqlənən səslər sırası. Məs.: rus d. /a/, /a'/, /'a/, /ä /. Akad. L.V. Şerba ayrılıqda tələffüz olunan səsi səs tipi adlandırmaqla onu müəyyən mənada fonemlə eyniləşdirmiş olurdu. Ancaq o, bunu sadəlik naminə edirdi.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 191-198.

ЗВУКОВАЯ ЦЕПЬ - alm. lautliche Kette (f), ing. sound chain /saund ʧeın/, fr. chaîne sonore, azərb. səs zənciri. - Dilin fonetik vahidlərə parçalana bilən səs axınından ibarət danışıq aktı.
F.Veysəlli. GDG. Bakı, 2003, s. 216.

ЗВУКОВОЙ ЯЗЫК - alm. lautliche Sprache (f), ing. acoustic language /əˈku:stık ˈlæŋgwɪʤ/, auditory language /ˈɔ:dıˈtɔ:rı ˈlæŋgwɪʤ/, fr. langage auditif, azərb. səsli dil. - Səsli dil, insan cəmiyyətinin ilkin dili. O, adətən dilin yazılı formasına qarşı qoyulur.

downloaded from KitabYurdu.org

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 52.

ЗВУКОПОДРАЖАНИЕ - alm. Lautnachahmung (f), ing. onomatopoeia/ˈɔnəumətəuˈpɪ(:)ə/, sound symbolism /saund ˈsɪmbəlɪzm/, fr. onomatopée, azərb. səs təqlidi. - Təbiət səslərinin və səslənmənin, həmçinin heyvan səslərinin eynilə təkrarı. Məs.: /o inək kimi <u>mələyir</u>, eşşək kimi <u>anqırır</u>, xoruz kimi <u>banlayır</u>, at kimi <u>fınxırır</u>//

F.Veysəlli. GDG. Bakı, 2003, s. 18.

ЗВУКОПОДРАЖАТЕЛЬНАЯ ТЕОРИЯ - alm. Lautnachahmungstheorie (f), ing. onomatopoe(t)ic theory /ˈɔnəumətəuˈpi:(t)ɪk ˈθɪərɪ/, fr. théorie onomatopéique, azərb. səs təqlidi nəzəriyyəsi. - Dilin yaranması (mənşəyi) haqqındakı mövcud fərziyyələrdən biridir. Bu nəzəriyyəyə görə dil insanın təbiət səslərini təqlid etməklə çıxardığı səslər əsasında yaranmışdır. Belə bir nəzəriyyənin tərəfdarları Qədim Yunanıstanda Demokrit (460-370) və Platon (427-347), həmçinin stoiklər olmuşlar. XVII əsrdə V.Leybnis, (1646-1716), XIX əsrdə V. fon Humboldt, D.Herder, D.Uitni və b. də həmin nəzəriyyəyə tərəfdar çıxmışlar. Doğrudan da, ayrı-ayrı dillərdə səs təqlidi ilə yaranan sözlər kifayət qədərdir. Lakin bu kimi sözlər adətən çox az olur. Onlar heç də ən zəruri həyati anlayışları bildirən sözlər deyildir. Təbiəti təqlid etmək üçün insan əvvəldən inkişaf etmiş nitqə malik olmalı idi.

Səs təqlidi nəzəriyyəsi iki müddəaya əsaslanır: 1) dildə ilk sözlər səs yamsılamaları olmuşdur; 2) sözdə səslənmə rəmzidir, şeylər təbiətinə müvafiq mənaya malikdir.

Təqlidi sözlər dilin leksik layında azlıq təşkil edirlər və oların ən naqis cəhəti səslənmə formalarının müxtəlif dillərdə fərqli olmalarıdır. Məs.: rus üçün ördək /krya-krya/, ingilis üçün /kvak-kvak/, fransız üçün /kan-kan/ səsləri çıxarır. Onlar ya zərf, ya da fel kimi daha çox yayılıb. Bax: azərbaycanlı üçün /qru-qru/, /tappa-tap/, /dıppa-dıp/, /zıppa-zıp/, /banlamaq/, /xoruldamaq/ və s.

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s.18-30.

ЗВУКОПОДРАЖАТЕЛЬНЫЙ - alm. lautnachahmend, ing. onomatopoetic /ˌɔ:noumətouˈpi(:)tik/, fr. onomatopéique, azərb. səs təqlidi. - Səs təqlidinə əsaslanan.

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s.18.

ЗВУКОПОДРАЖАТЕЛЬНОЕ СЛОВО - alm. lautnachahmendes Wort (n), ing. onomatopoe(t)ic word /ˌɔ:noumətouˈpi(t)ik wɜ:d/, fr. onomatopée, azərb. səs təqlidilə yaranan söz. - Öz səs tərkibinə görə insanların çıxardığı reflektor səsləri, heyvan və quşların səslərini, təbiət hadisələrinin səslərini və cansız əşyalarını səslərini təqlid edən sözlərdən ibarətdir. Təqlidi sözlər öz mahiyyətinə görə nidalara yaxındır. Lakin bəzi cəhətlərinə görə onlardan fərqlənir, çünki onlar hiss-həyəcan (əmr, istək, arzu və s.) ifadə etmirlər. Onlar danışıqda gerçəkliyi əks etdirmək üçün ekspressiv üslubi vasitə kimi işlədilir.

downloaded from KitabYurdu.org

А.А.Реформатский. Göstərilən əsər, s. 287.

ЗВУКОПРЕДСТАВЛЕНИЕ - alm. Lautvorstellung (f), ing. phonetic (sound) image /phonetık /saund/imıʤ/, fr. représentation de son, azərb. səs təsəvvürü. - Fonemin akustik-fizoloji və pisxoloji təsəvvür kimi danışıqda müxtəlif realizə forması.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 181.

ЗВУКОСОЧЕТАНИЕ - alm. Lautkomplex (m), ing. sound complex (cluster) /saund ˈkɔmpleks ˈklastə/, fr. group de sons, complex, azərb. səs birləşmələri. – Danışıq aktında bir-birindən morfoloji sərhəd əsasında ayrıla bilən səs birləşmələri. Məs.: /t+s/ ing. d. /kæt+s/ sözündə.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 181.

ЗВУЧАНИЕ - alm. Verlautung (f), ing. flow of sounds /flou 6v saundz/, sounding /ˈsaundıŋ/ fr. sonorité, retentissemen, azərb. səslənmə. – Dil vahidlərinin xarici, səsli tərəfi. Bu xüsusiyyətinə görə səslənmə özünün, daxili tərəfindən – məzmun və mənadan fərqlənir.

F. Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

ЗВУЧНОСТЬ - alm. Tonfülle (f), Wohlklang (m), ing. sonority /səˈnɔrıtı/, fr. sonorité, azərb. səslilik. - Səslənmə dərəcəsi (bərkdən, ucadan, yavaşca) və s.

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 132.

ЗДРАВЫЙ СМЫСЛ - alm. Menschenverstand (m), ing. common sense /ˈkɔmən sens/, fr. bon sens, azərb. sağlam fikir, düşüncə. - Dilin insan tərəfindən linqivistik təhlili və təsvirinin təbii şəkildə qəbul edilməsi.

E.Coseriu. Geschichte der Sprachphilosophie. Tübingen, 2003.

ЗЕНАГА – alm. Zenaga (n), ing. Zenega /ˈzenægə/, fr. Zénaga, azərb. zenaqa. – Liviya dillərindən diridir. Mavritaniyada və Seneqalın cənub-şərqində yayılmışdır. 20 mindən artıq daşıyıcısı mövcuddur. Leksik tərkibində əsasən ərəb dilindən alınmalar üstünlük təşkil edir. Yazısız dildir.

G.Faidherbe. Zenaga des tribus senegalaises. P., 1977.

ЗЕТАЦИЗМ - alm. Zetazismus (m), ing. zetacism /ˈzi:təsiz(ə)m/, fr. zétacisme, azərb. zetatizm. - Samitin «z» səsinə keçməsi. 1) Yunan əlifbasında 6-cı hərf; 2) /ts/ samitini fışıltılı /s/ samitinin əvəz etməsi. Məs.: /ge·ne·ra·ts(s)ˑ o: n/; 3) /k/ və /g/ samitlərinin fışıltılı (novlu) samitə keçməsi. Məs.: h. a. d. /gnojom/ → rus. d. /znaju/, lat. /centum/ /k/ fr.d. /cent/=/s/.

О.С.Ахманова, Göstərilən əsər, s.158.

ЗЕНЕТСКИЕ ЯЗЫКИ - alm. Zenatija-Sprachen (Pl.), ing. Zenet languages /ˈzenet ˈlæŋgwıʤız/, fr. langues zénˈtes, azərb. zenet dilləri. – Bərbər-Liviya dillərinə daxil olan şimal qrupu. Mərakeşin şimal-şərqində, Əzcəzairdə, Tunisdə və qərbi Liviyada yayılmışdır. Bu dillərdə təqribən 3,5 milyon insan danışır. Yazısız dillərdir.

downloaded from KitabYurdu.org

A.Basset. Les parlers berberes. «İnitiation a la Tunisie», P., 1950.

ЗНАК - alm. Zeichen (n), ing. sign /saın/, symbol /ˈsımbəl/, signal /ˈsıgnəl/, fr. singe, azərb. isarə. - Dildə müəyyən mənanın ifadəçisi, göstəricisi, semiotikanın əsas məfhumu. Dilçilikdə işarə olunanla işarə edən arasında kauzal əlaqəni bildirən siqnal və ya əlamət. Məs.: dərinin sarı rəng olması müəyyən xəstəliyin simptomu ola bilər. Ancaq «sarı» rənglər spektrində konkret bir rəngin adıdır. F. de Sössür dili işarələr sistemi kimi götürür və onun aşağıdakı əlamətlərini müəyyən edir: a) ikitərəflilik. İşarə bir tərəfdən səsi və ya qrafik reallaşan (işarələyən), o biri tərəfdən isə ideyanı, cismin konsepsiyasını bildirir (işarələnən). Məlumdur ki, Ç.Pirs (1839-1914) işarənin güclü tərəfindən çıxış edirdi; işarənin substansiyası, işarələnən və danışan; b) ixtiyarilik. İşarələyənlə işarələnən arasındakı əlaqə şərti olsa da, ixtiyaridir, çünki onlar arasında əlaqənin heç bir motivi yoxdur; c) xəttilik. Mənaca dərk edilən hər bir işarə müəyyən zaman daxilində baş verir. İşarə nəzəriyyəsində üç, bəzən isə dörd aspekt fərqləndirilir: sintaktik aspekt işarələr arasındakı əlaqəni öyrənir (sintaksis), semantik aspekt işarə ilə onun ifadə etdiyi məna arasındakı əlaqəni (semantika), praqmatik aspekt işarə ilə onun spesifik tətbiqi məqam arasındakı əlaqəni (praqmatika) və nəhayət, siqmatik aspekt (işarə ilə xarici aləm arasındakı əlaqəni öyrənir) (siqmatika).

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 38; H.Buβmann. Göstərilən əsər.

ЗНАК АКТУАЛИЗОВАННЫЙ - alm. aktualisiertes Zeichen (n), ing. actualized sıgn /ˈ5kʧuəlızaıd saın/, fr. signe actualisé, azərb. aktuallaşdırılmış işarə. - Danışıqda konkret təzahür edən dil vahidi. Məs.: /yağış, qar/ təbiət hadisəsi kimi. Biri də var: /yağış yağdı// cümləsində reallaşan /yağış/.

Ю.С.Маслов. Göstərilən əsər, s. 24.

ЗНАК АКТУАЛЬНЫЙ - alm. aktuelles Zeichen (n), ing. actual sign /ˈ5kʧuəl saın/, fr. signe actuel, azərb. aktual işarə. - Danışıqda reallaşan dilin ünsürü? «virutal işarəyə» qarşı qoyulur.

Ю.С.Маслов. Göstərilən əsər, s. 24.

ЗНАК ВОПРОСИТЕЛЬНЫЙ - alm. Fragezeichen (n), ing. question mark /ˈkwestʃən ma:k/ interrogative sign /inˌterəˈg5tıv saın/, fr. point d'interrogation, azərb. sual işarəsi. - Sual cumləsindən sonra qoyulan durğu işarəsi. Bundan əlavə həmcinis üzvlü sual cümlələrində hər üzvü müstəqilləşdirmək, nəzərə çapdırmaq istədikdə onlardan sonra sual və nida işarəsi qoyulur. ¿Kimdir müqəssir?! Başqasından sitat verərkən bu sitatda şübhə oyadan, narazılıq doğuran söz və ifadələrdən sonra da sual işarəsi qoyulur. Məs.: Azərb. d. /Sən yuxudan nə vaxt oyanırsan?/

Ə.Dəmirçizadə. Göstərilən əsər, s. 254-303.

ЗНАК ВОСКЛИЦАТЕЛЬНЫЙ - alm. Ausrufezeichen (n), ing. exclamation mark /ˌeksklə'meıʃən ma:k/, fr. point d'exclamation, azərb.

downloaded from KitabYurdu.org

nida işarəsi. - Nida cümlələrinin sonunda qoyulan durğu işarəsi. Məs.: Azərb. d. /Heyf ki, qocaldım, ağacım düşdü əlimdən/!
Ə.Dəmirçizadə. Göstərilən əsər, s. 254-303.

ЗНАКИ ГЛАСНЫХ - alm. Vokalzeichen (Pl.), ing. vowel points /ˈvauəl pɔ:ınts/, fr. signes des voyelle, azərb. sait işarələri. - Sami dillərində (məs.: ərəb) saitləri əks etdirmək məqsədilə əlifba işarələrinə (hərflərə) əlavə edilən diaktrik işarə.
Bax: Диакритика ←.

ЗНАКИ ГРАФИЧЕСКИЕ - alm. graphische Zeichen (Pl.), ing. graphic signs /ˈgr5fik saıns/, symbols /ˈsımbəls/, fr. signes graphiques, azərb. qrafik işarə. - Dilin fonoloji sistemi, qrafik əvəzləyicisi.
Bax: Графика ←.

ЗНАК ДЕМАРКАЦИОННЫЙ - alm. Grenzsignal (n), ing. demarcative sign /ˈdı:mɑ:k5tıv saın/, boder mark /bɔdə ma:k/, fr. signe démarcatif, azərb. demarkasiya işarəsi. - Danışıq aktında morfemlər, sözlər və söz birləşmələri arasında hüdudu göstərmək üçün qrafik və ya fonoloji əlamətlərin olub-olmadığını göstərən işarələr. Məs.: alm. d. knaklaut sözün və morfemin əvvəlində gəlir və onların sərhədini bildirir. Müq. et: kopulativ kompozitlərin komponentləri arasında yazıda (-) qoyulur. Məs.: Azərb. d. /yazıçı-bəstəkar/.
H.Bußmann. Göstərilən əsər. s. 864.

ЗНАК ДИАКРИТИЧЕСКИЙ - alm. diakritisches Zeichen (n), ing. diacritical sign (mark) /daıəˈkrıtıkəl saın /mɑ:k/, fr. signe diacritique, azərb. diaktirik işarə. - Seqmentin və ya hərfin üstündə və ya sağında qoyularaq onlara yeni linqvistik məna verən işarə. Məs.: Azərbaycan yazısında /ö/, /ú/ və ya /ğ/ və s. İng., alm. d. fonoloji transkripsiya zamanı saitin sağdan yanında qoyulan iki nöqtə onun uzunluğunu, bir nöqtə isə yarımuzunluğunu bildirir. Məs.: /a:sk/ (soruşmaq), /˃ˈa:bənt/ (axşam), /˃ˈana/ və s.
H.Bußmann. Göstərilən əsər, s. 864.

ЗНАКИ ДОПИСЬМЕННЫЕ - alm. vorschriftliche Zeichen (Pl.), ing. preliterary symbols /pre-lıtərərı ˈsımbəls/, fr. signe avant l'écriture, azərb. yazıya qədərki işarə. - Yazının yaranmasından əvvəlki dövrlərdə müxtəlif rəmzi mənalarda işlənən, şifahi nitqi əvəz edən müxtəlif işarələr. Daş üstü yazılar, sümük və dəri üzərindəki yazılar, papirus və perqament üzərindəki işarələr.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 64-91.

ЗНАКИ КОРРЕЛЯЦИИ - alm. Korrelationszeichen (Pl.), ing. correlation mark /ˌkɔrıˈleıʃən mɑ:k/, mark of correlation /mɑ:k ov ˌkɔrıˈleıʃən/, fr. marques de corrélation, azərb. korellyasiya işarələri. - Mövcud olub-olmaması müəyyən korellyativ cütlüyü səciyyələndirən işarə. Məs.: rus d. fonoloji sistemində samitlərin qalınlıq–yumşaqlıq korrellyasiyası yalnız yumşaq samitlər üzərində (–ʹ) işarəsilə göstərilir.

downloaded from KitabYurdu.org

А.А.Реформатский. Göstərilən əsər. 485.
ЗНАКИ ЛИНЕЙНЫЕ - alm. Linienzeichen (Pl.), ing. linear signs /ˈlınıə saıns/, fr. signes linéaires, azərb. xətti işarə. – Xətti yazı işarələri. Məs.: fonemlər xətti işarələrdir, yəni düz xəttin hər bir nöqtəsində bir seqment işarə yerləşir. Məs.: /d/, /⊥/, /ʃ/ və s.
F.Yadigar (Veysəlli). GDG, s. 57.
ЗНАК ПЕРЕНОСА - alm. Bindestrich (m), Gedankenstrich (m), ing. hyphen /ˈhaıf(ə)n/, fr. singe figuré, azərb. defis. - Horizontal (üfüqi) xətt şəklində qısa işarədir ki, əsasən tabesizlik əlaqəsi üzrə düzələn mürəkkəb sözlərin və təkrarların komponentləri arasında işlənir, habelə sətirdən-sətrə keçirmə vəzifəsı daşıyır. Azərb. d. bu işarədən aşağıdakı hallarda istifadə olunur: 1. Eyni sözün tam və bəzi yarımçıq təkrarları arasında: /yavaş-yavaş/, /üz-üzə/, /birdən-birə/; 2. Sinonim, antonim və korrelyativ mənalı qoşa sözlərin komponentləri arasında: /səs-səmir/, /səs-səda/, /geç-tez/; 3. Əlavəli qoşa sözlərin komponentləri arasında: /tarixi-ictimai/ /fəhlə–kəndli/ (ittifaqı), /cənub-şərq/, /dil-ədəbiyyat/ (fakültəsi); 4. Müxtəlif toponomik və antroponomik adların yazılışında: /Alma-ata/, /Nyu-York/ və s.
Ə.Dəmirçizadə. Göstərilən əsər, s. 280.
ЗНАК ПОТЕНЦИАЛЬНЫЙ - alm. potentielles Zeichen (n), ing. virtual sign /ˈvə:tjuəl saın/, fr. signe virtuel, potentiel azərb. potensial işarə, virtual işarə. – Danışıqda işlənən işarə konkret şəkildə danışıqda təzahür edib-etməməsindən asılı olmayaraq, dil sisteminin bir hissəsini təşkil edən ünsiyyət vahidi. Məs.: /sait, samit, vurğu işarəsi/ və s.
ЗНАКИ ПРЕПИНАНИЯ - alm. Satzzeichen (Pl.), Interpunktionszeichen (Pl.), ing. punctuation marks /p∧ŋktjuˈeıʃən ma:ks/, fr. signes de ponctuation, azərb. durğu işarələri. - Dilin ümumi qrafik sistemində xüsusi yer tutan işarələr sistemidir ki, bunlar hərflər və digər yazı vasitələri ilə (rəqəmlər, bərabərlik işarəsi, bənzərlik işarəsi və.s.) ifadə etmək mümkün olmayan cəhətləri bildirmək üçün işlədilir. Durğu işarələrinin vəzifəsi danışıq aktının məna daşıyan parçalara üzvlənməsini (mənalı hissələrini) göstərməkdən və onların tanınmasını təmin etməkdən, habelə danışıqda reallaşan sintaktik strukturun ritmik-melodik xüsusiyyətlərini əks etdirməkdən ibarətdir. /Nöqtə/, /sual işarəsi/, /nida işarəsi/, /vergül/, /nöqtəli vergül/, /iki nöqtə/, /tire/, /çox nöqtə/ durğu işarəsi adlanır.
Ə.Dəmirçizadə. Göstərilən əsər. s. 254-307.
ЗНАК ФОНЕМНОГО РЯДА - alm. Zeichen der Phonemreihe (n), ing. character (symbol, letter) phonemic transcription /ˈk5rıktə /ˈsımbəl,ˈletə/ fəuˈni:mık tr5nsˈkrıpʃən/, fr. rangée de phonˈme, azərb. fonem cərgəsi işarəsi. – Morfofonematik transkripsiya işarəsi. Məs.: rus d. /_v∧da_/, /_vodı_/ və /_vot_/ sözlərində morfem eyniliyini göstərmək üçün morfonoloji transkripsiyada belə bir işarədən istifadə olunur:

downloaded from KitabYurdu.org

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 81- 93.

ЗНАК ФУНКЦИОНАЛЬНЫЙ - alm. funktionales Zeichen (n), ing. functional sign /ˈfʌŋkʃ(ə)nl saın/, fr. signe fonctionnel, azərb. funksional işarə. - Məs.: /i:/ uzun saiti, /⊥/ qısa saiti, /ı/ isə qarışıq saiti bildirir.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003.

ЗНАКОВЫЙ - alm. Zeichen (n), ing. sign /sain/, fr. de signe, azərb. işarəvi. - İşarələrə aid olan, işarəvi xarakterli, işarələrdən ibarət olan. Məs.: /işarə nəzəriyyəsi/, /işarənin təbiəti/ və s.
F.Vejsälli. Einführung in die Phonologie. Baku, 2004.

ЗНАМЕНАТЕЛЬНЫЙ - alm. autosemantisch, ing. of full meaning /6v ful ˈmi:niŋ/, autonomous /ˈ6:t6nəməs/, fr. significatif,-ve azərb. müstəqil mənası olan, müstəqil mənalı. - Ayrıca mənaya malik olan (müstəqil semantik mənası olan) sözlər. Məs.: /əsas nitq hissələri/.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 291.

ЗНАМЕНАТЕЛЬНЫЕ СЛОВА (АВТОСЕМАНТИЧЕСКИЕ СЛОВА) - alm. autosemantische Wörter (Pl.), ing. autosemantic words /ˌɔ:tousıˌmæntık wə:dz/, fr. mots significatifs, azərb. müstəqil mənalı avtosemantik sözlər. - Müstəqil leksik mənaya malik, ayrılıqda cümlə üzvü vəzifəsində çıxış edən, müəyyən suala cavab verən sözlər. Bu qəbildən olan sözlər nominativ funksiyaya malik olduğu üçün əşya, hadisə, əlamət, keyfiyyət və s. adları kimi işlənə bilməsi ilə səciyyələnir. Məs.: /ağac/, /a tr*i*:/, /baom/, /dˈerˈevʌ/ və s.
F.Yadigar (Veysəlli). GDG, s. 291.

ЗНАЧЕНИЕ (СЕМАНТИЧЕСКИЙ СОСТАВ СЛОВА) - alm. Bedeutung (f), ing. meaning (semantic field) /ˈmı:nıŋ /sımæntık fi:ld/, fr. signification, sens, acception, azərb. məna. - 1. Semantikanın əsas anlayışı. - Müxtəlif cür müəyyənləşdirilir. Məna tərifində 4 cəhət nəzərə alınmalıdır: a) maddi (səsli və ya qrafematik); b) psixi aspekt (anlayış və təsəvvürlər konsepsiyasının işlənib hazırlanmasında nəzərə alınmalıdır); c) real gerçəkliyin əşya, hadisə və varlıqları; ç) danışan və dinləyən müxtəlif məqamlarda mənanı dəyərləndirir və ona münasib hərəkət edirlər. Elə buna görə də məna həm dilçiliyin, həm də fəlsəfə, psixologiya, sosiologiya, semantika, praqmatika və başqa sahələrin diqqət mərkəzində olan məsələdir. Məna statik şəkildə təsəvvür obrazı ilə eyniləşdirilir, yəni o, mental fenomen kimi götürülür. Mental yanaşma mənəvi baxışdan fərqli olaraq mənanı obyektiv varlıq kimi götürür. Davranışa söykənən məna isə mənanın yaranmasında kauzal əsası ön plana çəkir ki, bu mənanın müəyyən müşahidə

downloaded from KitabYurdu.org

məqamındakı vəziyyətdən, habelə dinləyənin realizasiyasından formalaşdığını israr edir. Dinləyən, danışan və situasiya, həmçinin mənanın işlənməsi nəzəriyyəsində də çox önəmlidir. Bu yanaşmaya görə sözün mənası onun dildə işlənməsi kimi başa düşülür. Əgər məna gerçəkliyə aid proses kimi götürülürsə, onda o, dilxarici obyekt və hadisələrin toplusu kimi müəyyənləşir, struktur semantikada isə dildaxili, sistemdə immanent qanunauyğunluqlara söykənir. Dilin leksikonunda semantik əlaqələrin toplusu və hər bir ifadənin dil sistemində yeri onun mənasını verir. Dilxarici gerçəkliyə və dildə onu işlədənə etinasız münasibət bu nəzəriyyəni naqisli edir. Semantik təsvirdə küllü miqdarda termin işlədilir. Leksik məna, denotasiya, konnotasiya, ekstensiya, intensiya, məntiqi məna və s. Ancaq necə olursa-olsun bu gün söz semantikasından cümlə semantikasına keçid müşahidə olunur. Cümlə ondakı sözlərin və onlar arasındakı qrammatik əlaqələrin mənasındanmı hasil olur? Digər tərəfdən sintaktik, semantik və praqmatik subyektlərin ayırd edilməsi cümlə mənasına nə dərəcədə sərfəlidir?
E.Coseriu. Bedeutung, Bezeichnung und sprachliche Kategorien. Sprachw. 12, s. 1-23.

ЗНАЧЕНИЕ АБСОЛЮТНОЕ - alm. absolute Bedeutung (f), ing. absolute value /ˈ5bsəluːt ˈvæljuː/, fr. valeur absolue, azərb. mütləq məna. - Keyfiyyətin və əlamətin son həddini ifadə edən və buna görə də şiddətləndirici sözlər və şəkilçi qəbul etməyən sözün mənası.
M.İ. Adilov və b. Göstərilən əsər, s. 159.

ЗНАЧЕНИЕ АБСТРАКТНОЕ - alm. abstrakte Bedeutung (f), ing. abstract meaning /ˈ5bstrækt mɪːnɪŋ/, fr. sens abstrait, azərb. abstrakt, mücərrəd məna. - Mücərrəd məfhum bildirən isimlərə xas olan ümumiləşdirici məna. Məs.: Azərb. d. /yaxşılıq, pislik, gözəllik, təmizlik/ və s.
M.İ. Adilov və b. Göstərilən əsər, s. 159.

ЗНАЧЕНИЕ АТРИБУТИВНОЕ - alm. attributive Bedeutung (f), ing. attributive meaning /əˈtrɪbjutɪv mɪːnɪŋ/, fr. sens attributif, azərb. atributiv məna. - Təyin mənasında işlənən. Məs.: ing. d. /a book of my brother/ (qardaşımın kitabı) və ya alm. d. /Leipziger Straβe/ (Laypsiq küçəsi) və s.

ЗНАЧЕНИЕ БЕЗЛИЧНО – ИНТЕНСИВНОЕ - alm. unpersönlich-intensive Bedeutung (f), ing. impersional-intensive meaning /ɪmˈpəː sənəl ɪnˈtensɪv ˈmɪːnɪŋ/, fr. sens impersonnel-intensif, azərb. şəxsiz intensiv məna. – Məs.: rus d. /светлеет/, /дождит/; ing. d. /it rains/ (yağır); alm. d. /Es regnet/ (yağış yağır) və s.
M.İ. Adilov və b. Göstərilən əsər, s. 159.

ЗНАЧЕНИЕ ВЕЩЕСТВЕННОЕ - alm. Ding-, Sach-, Stoffbedeutung (f), ing. material meaning /məˈtɪərɪəl mɪːnɪŋ/, fr. sens de matiˈres, azərb. əşyavi məna. - Sözün qrammatik və ya formal hissəsinin mənasından fərqli olaraq onun əsas (əşyavi) hissəsinin bildirdiyi məna. Məs.: Azərb. d. /ev – evdə – evlərdə - evlərdən/ və s.
M.İ. Adilov və b. Göstərilən əsər, s. 159.

downloaded from KitabYurdu.org

ЗНАЧЕНИЕ ВТОРИЧНОЕ - alm. sekundäre Bedeutung (f), ing. secondary meaning /ˈsekəndərı ˈmı:nıŋ/, fr. sens secondaire, azərb. ikinci məna. - 1) Söz və formanın düzəltmə mənası: 2) Əlavə məna. Məs.: Azərb. d. /bağ/; rus d. /сад/, Azərb. d. /bağ/ - rus d. /verevka/ və s.
M.İ. Adilov və b. Göstərilən əsər, 159.

ЗНАЧЕНИЕ ВЫДЕЛИТЕЛЬНОЕ - alm. absondernde Bedeutung (f), ing. distinguish meaning /dısˈtıŋgwıʃ mı:nıŋ/, emphatic meaning /ımˈf5tık mı:nıŋ/, underlying meaning /ʌndəˈlaıŋ mı:nıŋ/, fr. signification de sécrétion, azərb. fərqləndirmə mənası. - Sintaktik vasitələrlə, əsasən kontrastiv vurğu ilə cümlə üzvünü fərqləndirərək dinləyiciyə çatdırılması. Məs.: Azərb. d. /Atam iki (üç yox) kitab aldı// və s.
M.İ. Adilov və b. Göstərilən əsər, 159.

ЗНАЧЕНИЕ ГРАММАТИЧЕСКОЕ (ЗНАЧЕНИЕ ФОРМАЛЬНОЕ) - alm. grammatische Bedeutung (f), ing. grammatical or formal meaning /grəˈm5tıkəl ɔ: ˈfɔ:məl mı:nıŋ/, fr. sens grammatical, azərb. qrammatik məna. – Dilçilikdə əsas sözlərə qoşularaq bu və ya digər qrammatik kate-qoriyalara işarə qrammatik məna adlanır. Məs.: Azərb. d. /Ata at/a ot verir/.
Ю.С.Маслов. Введение в языкознание. М., 1987, s. 90.

ЗНАЧЕНИЕ ДЕРИВАЦИОННОЕ - alm. derivative Bedeutung (f), ing. derivational meaning /deriˈveiʃənəl ˈmı:nıŋ/, fr. sens dérivationnel, azərb. derivasion məna. - Müstəqil şəkildə işlənməyib qoşulduğu söz kökünü (və ya düzəltmə sözü) müşayət etməklə onu dəqiqləşdirən sözdüzəldici şəkilçinin mənası. Məs.: Azərb. d. /dəniz-çi-nin evi gəmidir// və s.
А.А.Реформатский. Göstərilən əsər, s. 252-253.

ЗНАЧЕНИЕ ДОБАВОЧНОЕ - alm. zusätzliche Bedeutung (f), ing. additional meaning /əˈdıʃənl ˈmı:nıŋ/, connotation /kɔnouˈteıʃən/, fr. connotation, azərb. əlavə məna. - Söz və ya ifadənin əlavə mənası, onun əsas mənasının üzərinə əlavə edilən semantik və ya üslubi çalarlar. Məs.: Azərb. d. /hırıldamaq/ sözünün əsas mənası gülməkdirsə, əlavə mənası /kobudluqdur/ və ya insanın etika çərçivəsindən kənara çıxdığına işarədir.
А.А.Реформатский. Göstərilən əsər, s. 265-267.

ЗНАЧЕНИЕ ИНТЕНСИОНАЛЬНОЕ (ИНТЕНСИЯ) - alm. intentionelle Bedeutung (f), ing. intentional meaning (intention) /ınˈtenʃənl ˈmı:nıŋ /ˌınˈtenʃn/, fr. sens intentionnel, azərb. intensional daxili məna. - Söz və ya ifadənin daxili məzmunu. Bir dil vahidi kimi sözün mənası.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 159.

ЗНАЧЕНИЕ ИСХОДНОЕ (ЗНАЧЕНИЕ ПЕРВОНАЧАЛЬНОЕ) - alm. ursprüngliche (primäre) Bedeutung (f), ing. initial meaning /ıˈnıʃ(ə)l ˈmı:nıŋ/, original (primitive) meaning /əˈrıʤənl /ˈprımıtıv/ˈmı:nıŋ/, fr. sens primitif, (primaire), azərb. ilkin məna. - Sözün ilkin, əşyavi mənası, ibtidai mənası,

downloaded from KitabYurdu.org

sözün etimonu. Məs.: /Daş/ sözünün ilkin mənası təbii bərk cisimdirsə, onun ikinci mənası soyuq, sərt təbiətli adamlara da şamil edilə bilər.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 159.

ЗНАЧЕНИЕ КАТЕГОРИАЛЬНОЕ - alm. kategoriale Bedeutung (f), ing. categorial meaning /k5tı'gɔrıəl 'mı:nıŋ/, fr. sens catégoriel, azərb. kateqorial məna. - Sözlərin konkret leksik mənasına əlavə olunan ümumiləşdirici (mücərrəd) məna. Məs.: Azərb. d. isimlərin kateqorial mənası əşyavilik, sifətlərinki əlamət, fellərinki isə iş və hərəkət bildirməkdir.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 159.

ЗНАЧЕНИЕ КАЧЕСТВЕННОЕ - alm. qualitative Bedeutung (f), ing. qualitative meaning /'kwɔlıtətıv 'mı:nıŋ/, fr. sens qualificatif, azərb. keyfiyyət mənası. - Zərfliklər və keyfiyyət bildirən sifətləri birləşdirən məna.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 159.

ЗНАЧЕНИЕ КАЧЕСТВЕННО-ОЦЕНОЧНОЕ - alm. qualitativ-bewertende Bedeutung (f), ing. qualitative evaluative meaning /'kwɔlıtətıv ı'v5ljuətıv 'mı:nıŋ/, fr. sens qualificatif d'estimation, azərb. keyfiyyət-qiymətləndirici məna. - Cümlədə predikativ üzv funksiyasında çıxış edən zərfi təyinlə ismin mənası. Məs.: Azərb. d. /Bu lap balacadır//, /Bu çox pisdir//.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 159.

ЗНАЧЕНИЕ КОЛИЧЕСТВЕННО – РАЗДЕЛИТЕЛЬНОЕ - alm. quantitativ-disjunktive Bedeutung (f), ing. quantitative-partitive meaning /'kwɔntıtətıv 'pa:tıtiv 'mı:nıŋ/, fr. sens quantitatif-disjonctif, azərb. kəmiyyət-bölüşdürmə mənası. - Müəyyən iş və hərəkətin təsirinə əşyanın və ya predmetin bütöv həcminin deyil, yalnız bir hissəsinin məruz qalması. Məs.: rus d. yiyəlik halında /напиться чаю, сбор чая/.
Ю.С.Маслов. Göstərilən əsər, s. 159.

ЗНАЧЕНИЕ КОМБИНАТОРНОЕ - alm. kombinatorische Bedeutung (f), ing. combinative meaning /'kɔmbinətiv 'mı:niŋ/, fr. sens combinatoire, azərb. kombinator məna. - Sintaktik vasitələrin müəyyən birləşmələrdən doğan mənası. Məs.: Azərb. d. /qapının çərçivəsi/, ancaq /çərçivə nəzəriyyəsi/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 160.

ЗНАЧЕНИЕ КОНКРЕТНОЕ - alm. konkrete Bedeutung (f), ing. concrete meaning /'kɔnkri:t 'mı:nıŋ/, fr. sens concret, azərb. konkret məna. - Sözlərin əşyaları bilavasitə əks etdirən mənası. Məs.: Azərb. d. /alma, yasəmən, qapı/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 160.

ЗНАЧЕНИЕ КУМЛЯТИВНОЕ - alm. kumulative Bedeutung (f), ing. cumulative meaning /'kju:mjulətiv 'mı:niŋ/, fr. sens cumulatif, azərb. komulyativ məna. - Sadə (motivləşməmiş) sözün mürəkkəb (semantik,

downloaded from KitabYurdu.org

tərkibə bölünə bilən) mənası. Məs.: Azərb. d. /xəz - vəhşi heyvanların dərisi/, /gön – qaramalın dərisi/ və s.
Bax: Значение ←.

ЗНАЧЕНИЕ НОМИНАТИВНОЕ - alm. nominative Bedeutung (f), ing. nominative meaning /ˈnɔminətɪv ˈmɪ:nɪŋ/, fr. sens nominatif, azərb. nominativ (adlandırma) məna. - 1) Sözün bilavasitə əşya, hadisə, keyfiyyətdən doğan mənası. Məs.: Azərb. d. /ağ/ sözü /qar/, /sud/ və ya /təbaşir/ rəngi mənasındadır. 2) Sözün müəyyən işlədilmə anında kəsb etdiyi məna. Məs.: əzizləmə mənasında: /mənim dovşanım/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s.160.

ЗНАЧЕНИЕ ОБОБЩЁННО-ЛИЧНОЕ - alm. verallgemeinernd-persönliche Bedeutung (f), ing. generalized-personal meaning /ʤlinərəlaızd ˈpə:snl ˈmɪ:nɪŋ/, fr. sens généralisé personnel, azərb. ümumi şəxs mənası. - Felin istənilən şəxsə aid edilə bilən təsrif formasıdır. Məs.: Azərb. d. /Ayı ilə bostan əkənin tağı çiynində bitər//. /Nə ətdir, nə balıq//.
M.İ.Adilov və b. Göstərilən əsər, s.160.

ЗНАЧЕНИЕ ОБРАЗНОЕ - alm. bildhafte Bedeutung (f), ing. descriptive meaning /dɪsˈkrɪptɪv ˈmɪ:nɪŋ/, figurative meaning /ˈfɪgjurətɪv ˈmɪ:nɪŋ/, fr. sens pittoresque, azərb. obrazlı məna. - Sözün məcazi keyfiyyət daşıyan mənası. Məs.: Azərb. d. /Dünyada ən gözəl şey *günəşin doğmasına* tamaşa etməkdir//. Bu cümlədə */günəşin doğması/* ifadəsi məcazi mənada işlənmişdir.
M.İ.Adilov və b. Göstərilən əsər, s.160.

ЗНАЧЕНИЕ ОККАЗИОНАЛЬНОЕ - alm. okkasionale Bedeutung (f), ing. occasional meaning /əˈkeɪʤnəl ˈmɪ:nɪŋ/, fr. sens occasionnel, azərb. okkazional məna. - Sözün müəyyən kontekstlə bağlı mənası. Dilçilikdə adətən uzual mənaya qarşı qoyulur. Məs.: Azərb. d. /Tərlan bizim qonşumuzdur//. Tərlan quş adıdır, amma burada insan adı kimi işlənib.
M.İ.Adilov və b. Göstərilən əsər, s.160.

ЗНАЧЕНИЕ ОСНОВНОЕ - alm. Grundbedeutung (f), Hauptbedeutung (f), ing. fundamental meaning /ˈfʌndəməntl ˈmɪ:nɪŋ/, fr. sens fondamental, azərb. əsas məna. - 1) Dil vahidinin invariant mənası. Məs.: Azərb. d. /otun kökü torpaqdadır// cümləsindəki /torpaqdadır/ sözünün əsas (əşyavi) mənası sözün kökü olan /torpaq/ hissəsində ifadə olunmuşdur.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 160.

ЗНАЧЕНИЕ ПОБОЧНОЕ - alm. Nebenbedeutung (f), ing. secondary meaning /ˈsek(ə)nd(ə)rɪ ˈmɪ:nɪŋ/, fr. sens secondaire, azərb. ikinci (yardımçı) məna. – 1) Söz və formanın əsas olmayan düzəltmə mənası; 2) Əlavə məna. Məs.: Azərb. d. /qışqırmaq/ sözünün bir mənası nəyisə ucadan deməkdirsə, digər mənası danışanın ədəb normalarından kənara çıxmasına işarədir.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 160.

downloaded from KitabYurdu.org

ЗНАЧЕНИЕ ОТНОСИТЕЛЬНОЕ - alm. relative Bedeutung (f), ing. relative meaning /ˈrelətɪv ˈmɪ:nɪŋ/, fr. sens relatif, azərb. nisbi məna. - Mütləq mənaya qarşı qoyulan, müstəqil olmayan və sözün əsas mənasının üstünə əlavə edilən mənası. Məs.: Azərb. d. /Qobustandakı qaya üzərindəki rəsmlər tariximizin daşlaşmış yaddaşıdır// cümləsində /*daşlaşmış yaddaşıdır/* ifadəsi nisbi mənada işlənmişdir.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 160.

ЗНАЧЕНИЕ ПРОИЗВОДНОЕ - alm. abgeleitete Bedeutung (f), ing. derivation meaning /ˌderɪˈveɪʃ(ə)n ˈmɪ:nɪŋ/, fr. sens dérivé, azərb. törəmə məna. - Sözün ilkin mənasından törəmiş məna. Məs.: Azərb. d. /dəmir/ sözündən /dəmir/ (adam adı), /dağ/ isə /dağ çəkmək/ birləşməsində mənaları törəmədir, düzəltmədir.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 160.

ЗНАЧЕНИЕ РЕЛЯЦИОННОЕ - alm. relationelle Bedeutung (f), ing. relational meaning /rɪˈleɪʃənl ˈmɪ:nɪŋ/, fr. sens relationnel, azərb. relyasion məna. - Münasibət ifadə edən, daha doğrusu, onun qrammatik mənası. Məs.: Azərb. d. /qatara/→ düz istiqamət; /qatarda/↓ aşağıya istiqamət.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 160.

ЗНАЧЕНИЕ СИНТАКСИЧЕСКОЕ - alm. syntaktische Bedeutung (f), ing. syntactic(al) meaning /sɪnˈt5ktɪk(əl) ˈmɪ:nɪŋ/, fr. sens syntaxique, azərb. sintaktik məna. - 1) Söz və ya ifadələrin kontekst çərçivəsində kəsb etdiyi sintaktik məna. Məs.: Azərb. d. /Dəmir mənim qardaşımdır// (adam adı, işin icraçısı), ancaq /Respublikamızın cənubunda dəmirağacı bitir// (keyfiyyət bildirib, təyin rolunda çıxış edir).
Ю.С.Маслов. Göstərilən əsər, s. 219-241.

ЗНАЧЕНИЕ СЛОВАРНОЕ - alm. lexikalische Bedeutung (f), ing. dictionary meaning /ˈdɪkʃənrɪ ˈmɪ:nɪŋ/, fr. sens du dictionnaire, azərb. lüğəti məna. - Sözün və ya ifadənin konkret danışıq aktında deyil, konkretlikdən kənarda müstəqim şəkildə ifadə etdiyi lüğəvi məna. Məs.: Azərb. d. /qol/, /baş/ və s.
Ю.С.Маслов. Göstərilən əsər, s. 102-147.

ЗНАЧЕНИЕ СЛОВОСОЧЕТАНИЯ ФОРМАЛЬНОЕ - alm. formale Wortverbindungsbedeutung (f), ing. formal meaning of the word combination /ˈfɔ:məl ˈmɪ:nɪŋ əv ðə wə:d ˈkəmbɪˈneɪʃən/, fr. sens form du groupe de mots, azərb. söz birləşməsinin formal mənası. - Söz birləşməsinin onu təşkil edən ayrı-ayrı vahidlərin leksik - frazeoloji xüsusiyyətlərindən deyil, sintaktik quruluşdan yaranan mənası. Məs.: Azərb. d. /dərs cədvəli/, /dərs ili/, /dərs kitabı/ və s.
Ю.С.Маслов. Göstərilən əsər, s. 232.

ЗНАЧЕНИЕ УВЕЛИЧИТЕЛЬНОЕ - alm. verstärkte Bedeutung (f), ing. augmentative meaning /ɔ:gˈmentətɪv ˈmɪ:nɪŋ/, fr. sens augmentatif, azərb. şiddətləndirmə mənası. - Sözün əsas leksik mənasına əlavə edilən

downloaded from KitabYurdu.org

şiddətləndirici məna. Məs.: Azərb. d. /kəsilə-kəsilə qalmaq/, /hıqqana - hıqqana danışmaq/.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 159-160.

ЗНАЧЕНИЕ УЗУАЛЬНОЕ - alm. usuale Bedeutung (f), ing. usual meaning /ˈjuː=uəl ˈmɪːnɪŋ/, fr. sens usuel, azərb. uzual məna. - Sözün dildə qəbul edilmiş, sabitləşmiş mənası, sözün adi şəkildə, təbii tərzdə işləndikdə qazandığı məna. Məs.: Azərb.d. /Həyətdəki zoğal ağacı çiçəkləməyə başlamışdı/. Cümlədəki bütün sözlər özünün uzual (hamı tərəfindən qəbul olunmuş) mənalarında işlənmişlər.
M.İ.Adilov və b. Göstərilən əsər, s.160.

ЗНАЧЕНИЕ УМЕНЬШИТЕЛЬНОЕ - alm. diminutive Bedeutung (f), ing. diminutive meaning /dɪˈmɪnjutiv ˈmɪːnɪŋ/, fr. signification diminutive, azərb. kiçiltmə mənası. - Sözün əsas mənasına əlavə edilən kiçildici məna. Məs.: Azərb. d. /meydan – meydança/, /sərçə – sərçəcik/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s.160.

ЗНАЧЕНИЕ ФРАЗЕОЛОГИЧЕСКИ СВЯЗАННОЕ – alm. phraseologisch verbundene Bedeutung (f), ing. phraseologically bound meaning /ˌfreɪzɪəˈlɔʤɪkəlɪ bəund ˈmɪːnɪŋ/, fr. signification phraséologique contrainte, azərb. frazeoloji bağlı məna. - Sözün yalnız müəyyən frazeoloji tərkibin daxilində kəsb etdiyi məna. Məs.: Azərb. d. /milçəkdən fil düzəltmək/ tərkibinin birinci hissəsinin mənası yalnız bu frazeoloji birləşmə ilə bağlıdır.
Ю.С.Маслов. Göstərilən əsər, s. 143.

ЗНАЧЕНИЕ ЭКСТЕНСИОНАЛЬНОЕ - alm. extensionale Bedeutung (f), ing. extensional meaning /ɪksˈtenʃənæl ˈmɪːnɪŋ/, fr. signification de volume, (dˈextention) azərb. ekstensional məna. – Sözün müəyyən danışıq məqamında kəsb etdiyi yeni (mətni) məna. Məs.: Azərb. d. /baş/ sözü: 1) İnsanın orqanizmi; 2) Əsas, vacib. Məs.: Azərb. d. /Şəhərin baş küçəsi//.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 159.

ЗОЙГМА - alm. Zeugma (n), ing. zeugma /ˈzjuːgmə/, fr. zeugma, (zeugme), azərb. zoyqma. - Qısaltmanın ritorik obrazı, qədimdən qrammatik ellipsis forması. Məs.: Azərb. d. /O şərab içir, mən çay//. Ümumi üzvü yalnız cümlələrin birində açıq şəkildə realizə olunan, digərlərində isə təsəvvür olunan cümlələr sırası (bu zaman digər üzvləri isə bərpa etmək mümkündür). Dilçilikdə bu hadisəni qənaət qanunu kimi izah etmək olar. Məs.: Azərb. d. /uşaqlardan biri kitabı götürdü, digəri dəftəri, o birisi isə qələmi//. Göründüyü kimi, zoyqmada iki və ya üç cümlənin xəbəri bir cümlədə birləşir. Ona görə də buna Züllepse (yunanca syl-lepsis) deyilir. Bir növ qoşulma hadisəsi kimi. Burada sintaktik-semantik qovuşma olur. Məs.: /butulkalar boşaldı, başlar doldu/. Bundan başqa, apokoyna da xüsusi forma kimi qeyd edilə bilər.
R.Conrad. Göstərilən əsər, s. 304.

ЗУБНО–ГУБНОЙ - alm. labiodental, Lippenzahnlaut (m), ing. labiodental /ˈleɪbɪouˈdentl/, fr. labio-dental, azərb. diş-dodaq. - Tələffüzü

downloaded from KitabYurdu.org

zamanı alt dodağın üst ön dişlərin yuvaqlarına yaxınlaşması nəticəsində yaranan samitlər. Məs.: Azərb. d. /v/, /f/ samitləri.

Bax: Губно-зубной ←.

ЗУБНОЙ (ДЕНТАЛЬНЫЙ) - alm. Zahnlaut (m), ing. dental /ˈdentl/, fr. dental,-e azərb. diş samiti. - Dil ucunun üst dişlərin arxa hissəsinə yaxınlaşması ilə yaranan samitlər. Əslində bu fonologiyaya qədərki fonetikada qeyri-fəal üzvü nəzərə çarpdırmaqla bölgü prinsipinin pozulmasıdır.

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003.

ЗУЛУ – alm. Zulu (n), ing. Zulu /ˈzu:lu:/, fr. zoulou, azərb. zulu. – Bantu dillərindən biridir. Cənubi Afrika Respublikasında və Zimbabvedə yayılmışdır. 7 milyona qədər daşıyıcısı vardır. Nedebe, kvabe, lala dialektlərinindən ibarətdir. Zimbabvedə nedebe dialekti şona dialekti ilə bərabər etniklərarası ünsiyyət dili kimi fəaliyyət göstərir.

Н.В.Охотина. Язык зулу. М., 1961.

downloaded from KitabYurdu.org

ИБЕРО-КАВКАЗСКИЕ ЯЗЫКИ – alm. Ibero-Kaukasische Sprachen (Pl.), ing. Iberia- Caucasian languages /aɪˈbɪərɪə kɔˈkeɪzjən ˈlɜŋgwɪʤɪz/, fr. langues ibˈro-caucasiennes, azərb. iber-qafqaz dilləri. – Təqribən 40-a qədər Qafqazda yayılmış dilləri özündə birləşdirən şərti ad. Şimali Qafqazda, Quzey Qafqazda və Türkiyədə yayılmışdır. Qafqaz dillərinin daşıyıcılarının kiçik qruplarına İran, Suriya və digər Yaxın Şərq ölkələrində rast gəlinir. Ümumilikdə 7 milyondan çox daşıyıcısı vardır. Qafqaz dilləri əsasən 3 qrupa bölünür: abxaz-adıgey dilləri, kartvel dilləri və nax-dağıstan dilləri. Abxaz-adıgey dilləri fonoloji sistemin zəngin konsonantlığı və zəif inkişaf etmiş saitlər sisteminin olması ilə səciyyələnir.

Структурные общности кафказских языков. М., 1978; А.С.Чикобава. Введение в иберийско-кафказское языкознание. Тбилиси, 1979.

ИБЕРСКИЙ ЯЗЫК – alm. Iberisch (n), ing. Iberi language /aɪˈbɪərɪ ˈlɜŋgwɪʤ/, fr. langue ibˈre, azərb. iber dili. – Cənubi Avropanın və Aralıq dənizi adalarında yayılmış genetik mənsubiyyəti müəyyənləşdirilməmiş dillərinin ümumi adı. Bu dillərin içərisində yalnız bask dili canlı dil kimi mövcuddur. Bir sıra yazılı abidələri məlumdur.

В.Георгиев. Исследования по сравнительно-историческому языкознанию. М., 1958.

ИБИБИО-ЭФИК ЯЗЫКИ - alm. Ibibio-Efik Sprachen (Pl.), ing. Ibibio-Efik languages /aɪˈbɪbɪo: ɛfɪ:k ˈlɜŋgwɪʤɪz/ fr. langues ibibio-efiques, azərb. ibibio-efik dilləri. – Benue-konqolez dilləri ailəsinə daxil olan dillər qrupu. Nigeriyanın cənub-şərqində və Kamerunda yayılmışdır. 3,5 milyondan çox daşıyıcısı vardır. İbibio-efik dillərinə ibibio, ananq, efik, okobo, oron, nket, ibino və andoni dilləri aiddir. İbibio-efik dillərinin fonoloji sistemi zəngin saitlər yarımsisteminin, həmçinin diftonqların, uzun və qısa saitlərin olması ilə səciyyələnir.

D.Westermann, M.Bryan. The languages of West Africa. 2 ed., Folkestone-L., 1970.

ИВРИТ - alm. Ivrit (n), ing. Hebrew /ˈhi:bru/, fr. hébreu, azərb. ivrit. – Mişnait dövrünün dili əsasında formalaşmış qədim yəhudi dili. Semit dillərinin yeni mərhələsinə aiddir. İsrail dövlətinin (ərəb dili ilə bərabər) rəsmi dilidir. 3,5 milyona qədər daşıyıcısı vardır.

E.Ben-Yehudhah. Thesaurus totius hebraitatis. Bd 1-17, Jerusalem-B., 1908-40.

«И» НЕСЛОГОВОЕ - alm. unsilbisch, ing. non-syllabic /nɔnsɪˈlæbɪk/, asyllabic / əsɪˈlæbɪk/, fr. «i» asyllabique, azərb. heca düzəltməyən «i». - Digər səslərlə birlikdə səslənən və səsliliyinə görə ona tabe olan. Məs.: alm. d. /reávaáluá't̪ sɪo:n/ bu sözündə /ɪ/ heca özəyi yarada bilmir, /Ø:/ saitilə birlikdə bir hecada çıxış edir.

downloaded from KitabYurdu.org

F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989.

ИГБО – alm. Igbo (n), ing. İgbo /ˈi:ɡbəʊ/, fr. Igbo, azərb. iqbo dili. – Cənub-şərqi Nigeriyada kva dillərindən biridir. Bu dildə 16 milyon adam danışır. Oniça, overri, ika, ida, aro, oqu, uku və s. dialektləri mövcuddur. Saitlər yarımsistemi 8 sait fonemdən ibarətdir. Tonlu dildir. Yazısı latın qrafikası əsasındadır.
I.Ward. An introduction to the Ibo language. Cambridge, 1936.

ИДЕАЛИЗМА ЭСТЕТИЧЕСКОГО ШКОЛА - alm. Schule des ästhetischen Idealismus (m), ing. school of aesthetic idealism /sku:l ɔv i:sˈ4etık aıˈdıəlızm/, fr. école idéaliste esthétique, azərb. estetik idealist məktəb. - Dili fərdin yaradıcılıq fəaliyyəti hesab edən, onu xüsusi və təkrar olunmayan ruhi fəaliyyət kimi təyin edən; buradan da dilin inkişafının və cərəyan edən dəyişmələrin milli «ruhla» əlaqəli olduğunu iddia edən dilçilik cərəyanı. Dilçilikdə estetik idealizm cərəyanının yaranması və inkişafı alman dilçisi və şairi Karl Fosslerin (1872-1949) adı ilə bağlıdır. Onun dilçilik mülahizələri aşağıdakılardır: 1) Dil fərdi mənəvi yaradıcılıq aktıdır. «Öz mahiyyətinə görə hər bir dil ifadəsi fərdin mənəvi yaradıcılığıdır»; 2) H. Paulun (1846-1921) «hər bir dilçilik tarixidir» tezisinin əksinə olaraq, K.Fossler «hər bir dilçilik estetik dilçilikdir» tezisini irəli sürürdü, bununla da gənc qrammatiklərin pozitivizmini aradan qaldırırdı; 3) K.Fosslerin fikrincə, dil formalarında bas verən dəyişmələrin əsasında bəşər ruhu durur və həmin dəyişmələri yalnız estetik səbəblərlə izah etmək olar; 4) O, dilçiliyi üslubiyyata bərabər tutur, habelə ünsiyyət vastəsi kimi dili yox, dil zəkasının ümumiliyini əsas hesab edir.
A.Axundov. Ümumi dilçilik. Bakı, 1988, s. 46-47.

ИДЕОГРАММА - alm. Ideogramm (n), ing. ideogram /ˈaıdıˈɔɡr5m/, fr. idéogramme, azərb. ideoqram. - İdeoqrafik yazı «ideyaların yazısı» sistemində işlədilən şərti təsvir və şəkil olub, sözlərin və ya morfemlərin mənasının ifadəsinə xidmət edir. Dilin mənalı vahidlərini bilavasitə, yəni bu vahidlərin səslənməsi vasitəsilə deyil, ideoqramlar adlandırırlar. İdeoqramların əsas növləri bunlardır: loqoqramlar və ya leksikoqramlar (bütöv sözə uyğun gələn) məsələn, +, -, ¹ və s.; və frazeoqramlardır (bütöv bir məlumata müvafiq gələn): istiqamət göstəriciləri, yol işarələri, qadağa işarələri və s.
А.А.Реформатский. Göstərilən əsər, s. 353.

ИДЕОФОН - alm. Ideophon (n), ing. ideophone /ˌıdıoufoun/, fr. idéophone, azərb. ideofon. - Hər hansı bir məfhumun səslə təsiri. Onlar əksər hallarda səs təqlidi üsulu ilə yaranır. Məs.: /böööö/ - dana böyürtüsü, /ham-ham/ - it hürüşü və s.
H.Bußmann. Göstərilən əsər, s. 320.

ИДЕОЛЕКТ - alm. Ideolekt (m), ing. idiolect /aıdıˈɔlekt/, fr. idéolecte, azərb. ideolekt. - Bir danışanın müəyyən bir vaxtda başqa bir danışanla ünsiyyətdə istifadə etdiyi mümkün tələffüzlərin cəmi idiolekt adlanır.

downloaded from KitabYurdu.org

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 165.

ИДИОМА - alm. Idiom (n), ing. idiom /ˈɪdɪəm/, idiomatic expression /ˌɪdɪəˈm5tɪk ɪksˈpreʃən/, fr. locution, idiome, idiotisme, azərb. idiom, idiomatik ifadə, ibarə, frazem. - 1) «Yaranmasına görə müəyyən və konkret şəraitlə bağlı olan, buna görə də hər dildə fərdi və səciyyəvi xüsusiyyətlər kəsb edən, başqa sistemli dillərə adətən hərfən tərcümə edilə bilməyən sabit leksik söz birləşmələri. İdiom bir məfhum bildirir və onun bütövlükdə mənası ayrı-ayrı komponetlərin mənalarının riyazi cəminə bərabər olmur». M.İ.Adilov və b. Göstərilən əsər, s. 113. Məs.: Azərb. d. /süd gölü/, /çörək ağacı/; alm. d. /jemanden auf die Palme bringen/ (kimisə əsəbləşdirmək). Buradakı /Palme/ sözünü, «Birke» sözü ilə əvəz etsək məna dəyişməz; 2) bir şəxsin və ya dilin xüsusiyyətləri. Məs.: Nəsiminin idiomları, Azərbaycan dilinin idiomları və s.

H.Bußmann. Göstərilən əsər, s. 320.

ИДИОМЫ ДЕФОРМАЦИИ - alm. Verletzung der Idiome (f), ing. deformation idioms /ˌdɪ:fɔ:ˈmeɪʃən ˈɪdɪəˈms/, fr. locutions de déformation, azərb. idiomun pozulması. - İdiomun sabit şəkil və mənasının ən müxtəlif tərzlərdə dəyişdirilməsi. Bu, müxtəlif yollarla əldə edilir. İdiomun üzvlərindən ixtisar olunur, onun bir və ya bir neçə üzvü təyinedici sözlər qəbul etməklə genişləndirilir, idiom konkret nitq şəraiti ilə əlaqələndirilir. Məs.: Azərb. d. /«Ac toyuq yuxuda darı görər»/ idiomu şərdə /«Çığırma yat, ay ac toyuq, yuxunda çox darı gör» şəklini almışdır//.

M.İ.Adilov və b. Göstərilən əsər, s. 113.

ИДИОМАТИЧЕСКИЙ - alm. idiomatisch, ing. idiomatic(al) /ˈɪdɪəmætik(əl)/, fr. idiomatique, azərb. idiomatik.

Bax: Идиома ←.

ИДИОМАТИКА - alm. Idiomatik (f), ing. idiomatics /ˌɪdɪəˈmætiks/, study of idiom(s) /ˈst∧dɪ 6v ˈɪdɪəm/, fr. idiotismes, azərb. idiomatika. – 1) Müəyyən dilə məxsus idiomları öyrənən elm sahəsi. Azərbaycan dilinin idiomatikası; 2) Dilin bütün idiomlarını əks etdirən lüğət və ya onları şərh edən monoqrafiya.

H.Bußmann. Göstərilən əsər, s. 320.

ИДИОСИНХРОНИЯ - alm. Idiosynchronie (f), ing. idiosynchrony /ˌɪdɪəˈsɪŋkrənɪ/, fr. idiosynchronie, azərb. idiosinxroniya.

Bax: Грамматика описательная ←.

ИДИШ – alm. Jiddisch (n), ing. Yiddish /ˈ(j)ɪdɪʃ/, fr. yiddish, azərb. idiş. – Aşkenaz (Alman mənşəli) yəhudilərinin məişət və ədəbi dili, german dillərindən biridir. X-XIV əsrlərdə təşəkkül tapmışdır. Əsas dialektləri (bu bölgü şərti xarakter daşıyır): polyak, litva-belorus, ukrain.

В.М.Жирмунский. О некоторых вопросах еврейской диалектографии. «Язык и мышление». Минск, 1940.

ИДО - alm. Ido (n), ing. ido /ɪdɔ/, fr. ido, azərb. ido. – İdo esperanto

downloaded from KitabYurdu.org

əsasında yaradılmış, təbii dillərə daha yaxın süni Beynəlxalq dildir. «İdo» sözü esperanto dilində hərfən «nəsil», «körpə» mənalarındadir. 1907-ci ildə yaradılmış bu süni Beynəlxalq dilin müəllifi fransız Markiz Lui de Bofroidir. Qeyd edək ki, esperantonun bir çox görkəmli xadimləri ötən əsrin əvvəllərindən idoçuların tərəfinə keçməyə başladı. İdo lüğəti 10 min sözü əhatə edir və bu çəhətdən bütün süni dillərdən ən zəngini hesab olunur. 1909-çu ildən Beynəlxalq İdoçular Cəmiyyəti təsis edilmiş və bu cəmiyyət bir neçə konqres çağırmışdır. Avropanın yüzlərlə şəhərində ido dilində əsər, qəzet, jurnal və lüğətlər nəşr olunmuşdur.
F.Veysəlli. Dil, cəmiyyət və siyasət. Bakı, 2004, s. 49.

ИЕРАРХИЯ - alm. Hierarchie (f), ing. hierarchy /ˈhaɪəra:kɪ/, fr. hiérarchie, azərb. iyerarxiya. - Şaquli vəziyyətdə səviyyələrin asılılığa görə düzümü prinsipi. Dil strukturunda aşağıdan yuxarıya bağlılıq prinsipi. Aşağı səviyyənin vahidi (fonem) yuxarı səviyyənin vahidi (morfem, leksem) üçün bazis elementini təşkil edir, yəni onlar ayrılıqda mövcud ola bilmirlər. Məs.: Azərb. d. /o/ fonemdir, ayrılıqda morfem və söz ola bilər. Məs.: /o-na/ sözündə /o/ morfemdir, /o, mən, sən/ qarşılaşmasında isə sözüdür. İyerarxiya nəinki dildə, həm də cəmiyyətdə movcuddur. Aşağıdan yuxarı tabelilik, yuxarıdan aşağı bağlılıq. Beləliklə, iyerarxik əlaqələr dil strukturundakı səviyyələrarası qarşılıqlı əlaqələrin ən mühüm göstəricisidir.
А.А.Реформатский. Введение в языковедение. М., 2002, s. 35.

ИЕРАРХИЯ КОРРЕЛЯЦИОННАЯ - alm. Korrelationshierarchie (f), ing. correlational hierarchy /ˈkɔrɪˈleɪʃənl ˈaɪəra:kɪ/, fr. hiérarchie de corrélation, azərb. korrelasiyon iyerarxiya. - Sistem daxilində elementlərin qarşılıqlı asılılığı, paradiqmatik asılılığı. Məs.: /p/, /t/, /k/, /b/, /d/, /g/ - fonoloji, /pir/, /tir/, /kir/. /dir/, /gir/. /mir/, /nir/, /-ir/ və s. morfoloji korrelyativ iyerarxiya yaradırlar.
H.Bußmann. Göstərilən əsər, s. 307.

ИЕРАРХИЯ РЕЛЯЦИОННАЯ - alm. Relationshierarchie (f), ing. relational hierarchy /rɪˈleɪʃənl ˈhaɪəra:kɪ/, fr. relation hiérarchie, azərb. relasion iyerarxiya. - Sistem daxilində sintaqmatik əlaqələr iyerarxiyası. Bu əlaqələr belə dəqiqləşir. Bütün dil vahidləri eyni funksiya daşıyır (kommunikativ) və eyni maddi təbiətə (səs) malikdir; aşağıdan yuxarı deyil, yuxarıdan aşağı üzvlənmə özünü göstərir. Əlaqələr assimetrikdir, tranzitivdir və fonem, morfem, leksem kimi çıxış edə bilər. Bir məna bir neçə işarə ilə və ya, əksinə, ifadə oluna bilər.
H.Bußmann. Göstərilən əsər, s. 307.

ИЕРАТИЧЕСКОЕ ПИСЬМО - alm. hieratische Schrift (f), ing. hieratic writing /haɪəˈrætik raɪtɪŋ/, fr. écriture hiératique, azərb. iyeratik yazı. - Qədim misirlilərdə heroqlif yazısı əsasında düzəldilmiş sadə yazı növü.
Bax: Письмо →.

ИЕРОГЛИФ – alm. Hieroglyphe (f), ing. hieroglyph /ˈhaɪərəuglɪf/, fr. hiéroglyphe, azərb. müqəddəs yazı (hieros-müqəddəs). - Misirlilərin

downloaded from KitabYurdu.org

miladdan 4 əsr əvvəl və 4 əsr sonra işlətdikləri yazı. İeoroqlif ideoqrafiya yazı prinsipini fonoqrafiya ilə birləşdirir. Hər məfhumun bir forması olur. Məs.: günəşin ideyası. Bu zaman piktoqramlar və bunlardan yaranan işarələr tətbiq olunur. Məs.: ayaqqabı dükanının qarşısında ayaqqabı şəkli burada ayaqqabı satıldığına işarədir.
Ю.С.Маслов. Введение в языкознание. М., 1987, s. 244.

ИЗАФЕТ - alm. Izafet (f), ing. İzafet /ˈiza:fət/, postpositional attributive group /ˈpoustpəˈzɪʃən əˈtrɪbjutɪv gru:p/, fr. combinaisons relatives, azərb. izafet. - İzafet ərəb və fars dillərinin qrammatikalarında təyinlə təyin olunanın birləşib söz birləşməsi əmələ gətirdiyini göstərən qrammatik əlaqə. Azərb. d. təyini söz birləşmələri buna misal ola bilər: /dəmir qapı/, /məktəb direktoru/, /məktəbin direktoru/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 114.

ИЗБЫТОЧНО - ВОЗВРАТНАЯ ФОРМА - alm. redundant-reflexive Form (f), ing. redundant reflexive form /rɪˈdʌndənt rɪˈfleksɪv ˈfɔ:m/, fr. forme réfléchie redondante, azərb. izafi-qayıdış forması. – Məs.: Azərb. d. /Öz pomidorumuz, öz xiyarımız//.
O.C.Ахманова. Göstərilən əsər, s. 167.

ИЗБЫТОЧНОСТЬ - alm. Überflüßigkeit (f), Redundanz (f), ing. redundancy /rɪˈdʌnd ənsɪ/, fr. redondance, azərb. izafilik. – Elə informasiyadır ki, ünsiyyət maneəsiz həyata keçərkən həmin o informasiya olmasa ünsiyyət pozulmaz. Dildə ünsiyyət daim maneələr (səs-küy) və işarə bolluğu ilə pozulur, ancaq dil öz ünsiyyət funksiyasını yüksək səviyyədə yerinə yetirir. Bunu sübut etmək üçün alm. d. /die wunderschönen Städte/ (gözəl şəhərlər) birləşməsinə nəzər yetirək. Burada cəmlik 4 dəfə ifadə olunub: /die, - en, ä, - e/. Leksik təkrarlar da buna xidmət edir, fonologiyada bir fonemdə bir neçə fərqləndirici əlamət olur (/d/-dilönü, kipləşən-partlayışlı, cingiltili); əsas informasiya nəzəriyyəsində bu izafilik geniş yayılıb. Məs.: bir dil işarəsinin meydana gəlmə ehtimalı nə qədər yüksək olarsa, yəni işlənməsi tezliyi nə qədər çox olarsa, onun informasiya məzmunu bir o qədər az olar.
H.Bußmann. Göstərilən əsər, s. 631.

ИЗБЫТОЧНОСТЬ СТИЛИСТИЧЕСКАЯ - alm. stilistische Redundanz (f), ing. styilistic redundancy /stɪlɪstɪk/staɪˈlɪstɪk/rɪˈdʌndənsɪ/, fr. redondance stylistique, azərb. üslubi izafilik artıqlıq. – Müxtəlif cür emfatik təkrarlardan, sinonim və ya oxşar ifadələrdən yaranan üslubi izafilik. Məs.: /gözəl – qəşəng, cazibəli, diqqəti çəkən, nazlı-qəmzəli, maral/ və s. Əksər üslubi izafilik auditoriyanı zinhara gətirir, natiqə qarşı maraq azalır. Bəzi şairlərin pafoslu çıxışları buna misal ola bilər.
H.Bußmann. Göstərilən əsər, s. 631.

ИЗМЕНЕНИЕ - alm. Wandel (m), Veränderung (f), ing. change /ʧeɪnʤ/,inflexion /ɪn'flekʃ(æ)n/, fr. changement, azərb. dəyişmə. - Dil

downloaded from KitabYurdu.org

vahidlərində struktur və məna cəhətdən köhnə xüsusiyyətlərin dəyişməsi və ya başqa şəklə düşməsi, yeni xüsusiyyətlərin yaranması.
О.С.Ахманова. Göstərilən əsər, s. 168.

ИЗМЕНЕНИЕ ВНЕЗАПНОЕ (МУТАЦИЯ) - alm. sprunghafte Mutation (f), Lautveränderung (f), ing. sudden sound-change (mutation) /ˈsʌdn saund ʧeɪnʤ/mju(:)ˈteɪʃ(ə)n/, fr. changement phonétique immediat, azərb. qəfil dəyişmə. - Söz kökündə fonem dəyişməsilə yeni sözün yaranması. Söz kökündə: a) sait dəyişir. Məs.: alm. d. /ˈʃpRɪŋən → ˈʃpRaŋən/ (tullanmaq - tullandı) və ya umlaut /ˈ*bu:x/ (kitab) → /ˈ*by:çəR/ (kitablar); b) samit dəyişir. Məs.: /ˈʃna□edən →ˈʃnɪt/ (kəsmək, biçmək – kəsdi, biçdi) və s.
О.С.Ахманова. Göstərilən əsər, s. 168.

ИЗМЕНЕНИЕ ЗАВИСИМОЕ - alm. positions- und kombinationsbedingte Veränderung (f), ing. dependent change /dɪˈpendent ʧeɪnʤ/, fr. changement dépendant, azərb. asılı dəyişmə. - Dil vahidinin realizə olunduğu fonetik şərait, kombinator və mövqe asılığı ilə bağlı dəyişmə. Məs.: Azərb. d. dodaq saitlərindən əvvəl gələn samitlərin son mərhələsinin dodaqlanmaya məruz qalması; /t°orpaq, d°ovşan, t°orağay/ və. s. Söz sonunda cingiltili samitlərin karlaşması: /yarpaq- yarpax/, /qonaq-qonax/, /çıraq – çırax/, /qənd – qənt/, /bulud – bulut/ və s.
F.Veysəlli. SDƏ. Bakı, 2005.

ИЗМЕНЕНИЕ ЗНАЧЕНИЯ - alm. Veränderung der Bedeutung (f), ing. chang of meaning /ʧeɪnʤ æv mɪ:nɪŋ/, fr. changement de sens, azərb. mənanın dəyişməsi. - İşarələnənlə işarələyən arasındakı ilkin münasibətlərin dəyişməsi. Məna müəyyən bir tarixi zaman kəsiyində dəyişir. Burada əsas odur ki, dil işarəsi (söz) formal baxımdan o qədər də dəyişmir, dəyişən əsasən məna olur. Məna dəyişməsi müxtəlif bucaqdan qruplaşdırıla bilər:
1) Mənanın genişlənməsi; 2) Mənanın daralması; 3) Mənanın yaxşılaşması; 4) Mənanın pisləşməsi. Məs.: o.a.d. /Wip/ - «arvad», y.a.d. /Weib/ - əxlaqsız mənada «qadın» deməkdir.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 165.

ИЗМЕНЕНИЕ КАЧЕСТВЕННОЕ - alm. qualitative Veränderung (f), ing. qualitative change /ˈkwɔlɪtətɪv ʧeɪnʤ/, fr. changement qualitatif, azərb. keyfiyyət dəyişməsi. – Səsin tembrinə, məxrəcinə və akustik səciyyəsinə təsir göstərən dəyişmə. Məs.: rus d. vurğusuz mövqedə sait keyfiyyətcə ciddi dəyişikliyə uğrayır. Məs.: rus d. /at/- (cəhənnəm), ancaq /ʌduʹ/- (cəhənnəmdə). Azərb. d. isə vurğudan əvvəlki hecalarda saitlər keyfiyyətcə zəifləyir. Məs.: /d ˘ ş ˘ n c ə/ və s.
F.Veysəlli. SDƏ. Bakı, 2005.

downloaded from KitabYurdu.org

ИЗМЕНЕНИЕ КОЛИЧЕСТВЕННОЕ - alm. quantitative Veränderung (f), ing. quantitativ change /kwɔntitətiv ʧeɪnʤ/, fr. changement quantitatif, azərb. kəmiyyət dəyişməsi. - Səsin uzunluğu - qısalığı ilə əlaqədar dəyişmə. Sözdə hecaların və fonemlərin sayı artdıqca hər bir səsin tələffüzünə sərf olunan zaman azalır. Məs: /ana/+lar+dan+sı+nız+mı/ və s.
F.Yadigar (Veyselli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

ИЗМЕНЕНИЕ МОРФОЛОГИЧЕСКОЕ - alm. morphologische Veränderung (f), ing. morphological change /m6:fə'l6ʤɪkəl ʧeɪnʤ/, fr. changement morphologique, azərb. morfoloji dəyişmə. - Dilin morfoloji sistemində müşahidə olunan dəyişiklik. Məs.: Azərb. d. /uzun/→/uzanmaq/, /uc+al/+maq/; alm. d. /sitzen/ (oturmaq) qüvvətli feldir, ancaq hazırda almanlar onu zəif fel kimi işlədirlər. Məs: /sitzen-sitzte-gesitzt/, /mein Haus/ (mənim evim) əvəzinə /das Haus von mir/ və s. işlənilir.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 284.

ИЗМЕНЕНИЕ СПОНТАННОЕ - alm. spontane Veränderung (f), ing. spontaneous change /sp6n'teɪnjəs ʧeɪnʤ/, fr. changement spontané, azərb. spontan dəyişmə. - Dil işarəsinin mövqeyindən asılı olmayan, tərkibində kənar fonetik təsirlə əlaqədar olmayan dəyişmə. Məs.: Azərb. d. /çatışmamazlıq/ → /çatışmazlıq/ və s.
О.С.Ахманова. Göstərilən əsər, s. 168.

ИЗМЕНЕНИЕ НЕФОНЕТИЧЕСКОЕ - alm. unphonetische Veränderung (f), ing. non- phonetic change /n6n'fæu'netik ʧeinʤ/, fr. changement nonphonétique, azərb. qeyri-fonetik dəyişmə. - Dildə sözün mənasında müxtəlif mədəni-tarixi amillərlə əlaqədar baş verən dəyişikliklər. Məs.: ing. d. «undertaker» - ilkin mənası «sahibkar», bu gün isə «meyit basdıran» deməkdir; alm. d. o.a.d. /Hohgezit-jedes hohe Fest/ (hər bir yüksək bayram), y.a.d. /Hochezit/ /toy/ deməkdir.
F.Yadigar. German dilçiliyinə giriş. Bakı, 2003, s. 165.

ИЗМЕНЕНИЕ ПОСТЕПЕННОЕ - alm. allmähliche Veränderung (f), ing. gradual sound - change /'gr5djuəl saund ʧeɪnʤ/, fr. changement graduel, azərb. tədirici dəyişmə. - Özünü müntəzəm şəkildə göstərən səs dəyişmələri, tələffüz prosesində ardıcıl sürətdə davam edən dəyişmələr nəticəsində ortaya cıxan səs dəyişmələri. Məs: alm. d. /n+g/ → /2/.
F.Vejsälli. Einführung in die Phonologie. Baku, 2004.

ИЗМЕНЕНИЕ ФОНЕТИЧЕСКОЕ - alm. phonetischer Lautwandel (m), ing. phonetic change /fəu'netik ʧeɪnʤ/, fr. changement phonétique, azərb. fonetik dəyişmə. - Dilin fonem sistemində baş verən dəyişiklik. Məs.: alm. d. XIX əsrin axırlarında və XX əsrin əvvəllərində /r/ dilönü samiti norma sayılırdı. Ancaq XX əsrin 40-cı illərindən sonra bu dilönü samiti sıxışdırılaraq aradan çıxdı və onun əvəzinə dilçək /R/ samiti işlənərək normaya çevrildi.

downloaded from KitabYurdu.org

F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1980.

ИЗМЕНЕНИЕ ФОНОЛОГИЧЕСКОЕ - alm. phonologische Veränderung (f), ing. phonological change /fænə'lɒdʒɪk(əl) ʧeɪnʤ/, fr. changement phonologique, azərb. fonoloji dəyişmə. - Dilin fonologi sisteminə təsir göstərən səs dəyişmələri. Alm. d. fonoloji sistemində eyni bir fonem kimi çıxış edən /ch/ bu gün artıq dilin fonoloji sistemində iki müstəqil fonem statusuna malikdir. Müq. et: /ç/, /x/.

F.Veysəlli. SDƏ. Bakı, 2005.

ИЗМЕНЕНИЕ ФУНКЦИОНАЛЬНОЕ - alm. funktionelle Veränderung (f), ing. functional change /'fʌŋkʃnəl ʧeinʤ/ fr. changement fonctionnel, azərb. funksional dəyişmə.

Bax: Изменение фонологическое ←.

ИЗМЕНЯЕМЫЙ - alm. flexibel, ing. changeable /ʧeinʤəbl/, variable /'vɛərɪəbl/, inflecte /ɪn'flektiv/, fr. variable, azərb. dəyişən. – Dilin morfoloji sistemi ilə səciyyələnən, kateqorial formalar məcmusunda formal ifadəsini tapan. Məs.: Azərb. d. /kitab, kitabın, kitabı, kitaba, kitabda/ və s.

M.Hüseynzadə. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 1973.

ИЗМЕНЯЕМЫЕ ЧАСТИ РЕЧИ - alm. flexierbare Wortarten (Pl.), ing. inflected parts of speech /'ɪn'flɪktid pa:ts 6v spɪ:ʧ/, fr. parties du discours variables, azərb. dəyişən nitq hissələri. - Məs. Azərb. d. sifət isim olur, isim sifət olur və s. Məs.: alm. d. /Lesen, kommen sind Verben// (oxumaq, gəlmək fellərdir), /Sein Lesen gefallt mir// (Onun oxumağı mənə xoş gəlir), /Das Schöne ist ein Substantiv// (Gözəl isimdir) və s.

M.Hüseynzadə. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 1973.

ИЗОГЛОССА - alm. Isoglosse (f), ing. isoglosa /ˌaɪsou'gl6sə/, isoglottic line /aɪso'gl6tɪk laɪn/, fr. ligne d'isoglose, azərb. izoqlos. - Dilin dialektlər xəritəsində bu və ya digər dialektin yayıldığı sahələri (arealları) bir-birindən ayırmaq üçün çəkilən xətt. İsoqlosdan istifadə etməyin müsbət və mənfi cəhətləri vardır. Müsbət cəhət dialektoqrafiyanın inkişaf etdirilməsi ilə bağlıdır. Mənfi cəhəti odur ki, xəritədə çəkilən xətt diqqəti yalnız ayrı - ayrı dil faktlarına cəlb etdiyindən bütövlükdə dialektin öyrənilməsi məsələsi arxa plana keçir.

P.H.Matthews. Göstərilən əsər, s. 188.

ИЗОКОЛОН - alm. Isokolon (n), ing. isocolon /ˌaɪsou'koulən/, fr. isocolon, azərb. bölünmə. - İfadənin bərabər ölçüdə ritmik-sintaktik kəsiklərə və ya üzvlərə bölünməsi. Məs.: Azərb. d. /O ağılsız gəldi, ağılsız yaşadı, ağılsız da getdi//.

H.Bußmann. Göstərilən əsər, s. 356.

ИЗОЛИРОВАННАЯ ФОНЕМА - alm. isoliertes Phonem (n), ing. isolated phoneme /'aisəleitɪd 'fəunɪ:m/, fr. phon'me isolé, azərb. təcrid edilmiş fonem. - Korrelativ qarşılaşmaya daxil olmayan (diferensial əlamət-

downloaded from KitabYurdu.org

lərinin heç biri qarşılaşmada iştrak etməyən) fonem. Azərb. d. /h/, rus d. [ʦ], [ʧ] fonemləri buna misal ola bilər.
M.Təhməzova. İngilis və Azərbaycan dillərində periferik fonemlərin eksperimental-fonetik tədqiqi. ND., Bakı, 2004.

ИЗОЛИРОВАННОЕ ПРОТИВОПОСТАВЛЕНИЕ - alm. isolierte Opposition (f), ing. isolated opposition /ˈaɪsəleɪtɪd ɔpəˈzɪʃən/, fr. opposition isolée, azərb. təcirid edilmiş qarşılaşdırma. - Fonoloji qarşılaşmalar sistemindən biridir ki, bu fonoloji sistemdə belə fonoloji qarşılaşmalar olmur. Məs.: N.S.Trubeskoy /2/ # /h/ qarşılaşmalarını təcrid olunmuş qarşılaşma adalandırırdı.
N.S.Trubeskoy. Fonologiyanın əsasları. Almancadan tərcüməsi, «Son söz» və «Qeydlər» prof. F.Veysəllinindir. Bakı, 2001, s. 88.

ИЗОЛИРОВАННЫЙ – alm. isoliert, ing. isolated /ˈaisəleitıd/, fr. isolé, azərb. təcrid edilmiş. – Heç bir dil ailəsinə aid olmayan dil. Məs.: bask, bruşaski, nahali, gilək (sərqi sibir, şumer (mesopotamiya), xınalıq (Azərbaycan) və s. Alban dili də hind-Avropa dilləri ailəsində təcrid edilmiş dil hesab olunur, çünki qohumluq əlaqələri bilavasitə sübut olunmayıb.
A.A.Реформатский. Göstərilən əsər.

ИЗОМОРФИЯ – alm. Isomorphie (f), ing. izomorphia /ˌaɪsəˈm6:fjə/, fr. isomorphie, azərb. izomorfiya. – Çoxluq nəzəriyyəsindən götürülüb, iki və daha artıq çoxluq arasındakı struktur eyniliyi bildirmək üçündür. Saylar arasında [1,2,3,4…] və iki-iki artan saylar arasında [2,4,6..]. Dilçilikdə isə Y.Kuriloviçdən (1895-1978) bu yana dilin struktur səviyyələri arasındakı oxşarlıqları əsas götürərək eyni tədqiqat üsulu ilə öyrənilməsini mümkün sayır. Məs: fonoloji fərqləndirici əlamətləri semantikaya, komponent təhlilinə tətbiq etmək.
H.Bußmann. Göstərilən əsər, s. 356.

ИЗОТОН - alm. Isoton (m), ing. isotone /ˈaɪsoutoun/, fr. isotone, azərb. izoton. - Ton müxtəlifliyinin işlənmə xüsusiyyətlərinin yayım coğrafiyasını göstərən (izoqlos) xətlər.
O.C.Ахманова. Göstərilən əsər, s. 170.

ИЗОФОН - alm. Izophon (n), ing. isophone /ˈaɪsəfoun/, isophonic line /aɪsəfonik laɪn/, fr. isophone, azərb. izofon. – Müəyyən bir səsin (səslərin) yayılma ərazisini göstərən fonetik xətt. Bundan fərqli olaraq izoqloslar söz fərqlərinə söykənir.
Bax: Изоглосса ←.

ИЗЪЯВИТЕЛЬНОЕ НАКЛОНЕНИЕ - alm. Indikativ (m), ing. indicative-mood /ɪnˈdɪkətiv mu:d/, fact-mood /f5kt mu:d/, fr. mode indicatif, azərb. xəbər şəkli. – Hərəkətin müəyyən zaman ərzində (keçmiş, indiki, gələcək zamanda) baş verdiyini bildirən fel şəkli. Xəbər şəklinin formalaşmasında xüsusi şəkli əlamət iştrak etmir. Əsas rolu zaman və şəxs şəkilçiləri oynayır. Müxtəlif zamanlarda aşağıdakı şəxs şəkilçiləri işlənir; Azərb. d. şühudi keçmişdə 1- ci şəxsin təki -/m/, cəmi: /q,- k/: ikinci şəxsin təki:-

downloaded from KitabYurdu.org

/n/, cəmi:- /niz/[4]: üçüncü şəxsin cəmi:- /lar – lər/. Nəqli keçmiş və indiki zamanlarda I şəxsin təki: /am-əm/ cəmi: /ık/[4], II şəxsin təki /san-sən/, cəmi /sınız/[4]: III şəxsin təki /dır/[4]: cəmi /lar-lər/-dir.
M.Hüseynzadə. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 1973, s. 207.

ИЗЬЯСНИТЕЛЬНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. Erläuterungssatz (m), ing. explanatory sentense /ıksˈpl5nətərı ˈsentəns/, fr. proposition explicative, azərb. izahedici cümlə. - İzahedici cümlənin elə bir növüdür ki, burada cümlənin əsas hissəsi budaq cümlə olmadan həm formal, həm də məzmun cəhətdən bitməmiş qalır. Məs.: Azərb. d. /Məktəbin həyətinə girən kimi hiss edirsən ki, bu məktəbdə möhkəm nizam-intizam hökm sürür//.
M.Hüseynzadə. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 1973, s. 221.

ИКАНЬЕ - alm. i-artige Aussprache (f), ing. ikanje /ıkan=e/, fr. hoquet, azərb. «i»-ləşmə. - («e») və «ə» səslərini «i» kimi tələffüz edilməsi. Məs.: rus d. «весна» əvəzinə «висна», «кипяток» əvəzinə «кипиток».
O.C.Ахманова. Göstərilən əsər, s. 171.

ИКОНЫ – alm. Ikonen (Pl.), ing. icons /ˈʌık6ns/, fr. icônes, azərb. ikonlar. – İkonlar işarələrdir. Ç.Pirsin semiotikasında görünən və eşidilən işarələr, onlar real gerçəkliyin şəkli təsviridir və bununla da dərk olunan varlığın əlamətlərini bildirir. Məs: dini mövzuda çəkilmiş rəsm əsərləri ikonlara bariz nümunədir.
H.Bußmann. Göstərilən əsər, s. 323.

ИКОНИЗМ – alm. Ikonismus (m), ing. iconism /ˈʌık6nız(ə)m/, fr. icônisme, azərb. ikonizm. – Semiotikada təsvir olunanla təsvir edənin qarşılıqlı əlaqəsinə əsaslanan mətn şərhi. Məs.: məruzəçi öz məruzəsini maraqlı etmək üçün bir sıra təsvir və əyani vasitələrdən istifadə edir ki, bu da onun bütün hərəkətlərini ardıcıllıqla izləməyə imkan verir.
H.Bußmann. Göstərilən əsər, s. 323.

ИКТИС - alm. Iktus (m), ing. ictus /ˈıktəs/, fr. ictus, azərb. iktis. – Taktın birinci vurğulu güclü hecası.
H.Bußmann. Göstərilən əsər, s. 324.

ИЛЛАТИВ - alm. Illativus (m), ing. illative /ıˈleıtıv/, fr. illative, azərb. illiativ. – Fin-uqor və bəzi Qafqaz dillərində əşyanın iç qatını göstərən kateqorial hal forması. Dilçilikdə ellativə qarşı qoyulur.
H.Bußmann. Göstərilən əsər, s. 324.

ИЛЛИРИЙСКИЙ ЯЗЫК – alm. Illyrisch (n), ing. illirii language /aılı:r ˈl5ŋgwıʤ/, fr. langue illirienne, azərb. illir dili. – Hind-Avropa dilləri ailəsinin Balkan qrupuna aid olan qədim illirlərin dili. Alban dilinə daha yaxındır. İki yaxın dil növü mövcuddur: balkan illiri və messap. Bu dillərdən birincisi Balkan yarımadısının şimal-qərbində yayılmışdır. İllir dili Balkanlarda iki əsas dialektə bölünür: dalmatin və pannon.
В.П.Нерознак. Палеобалканские языки. М., 1978.

ИЛЛОКУЦИЯ – alm. Illokution (f), ing. illocal /ıˈləʊk(ə)l/, fr. illocution, azərb. illokusiya. – Danışıq zamanı edilən hərəkəti bildirir. Danışıq aktı

downloaded from KitabYurdu.org

nəzəriyyəsində geniş tətbiq olunur. Danışıqdan qabaqkı vəziyyət və danışıqdakı fərd, bunların qarşılıqlı əlaqəsini öyrənən yeni elm sahəsidir. Məs.: /hava soyuqdur, mühərrik işə düşmür/. Burada 4 hal mövcuddur: a) hava soyuqdur hökmü; b) avtomobilin işə düşməsi hökmü; c) soyuq olması məsələsi; ç) maşının işə düşməməsi. İntonasiya, fasilə, sual əvəzlikləri, zərflər, ədatlar və modal sözlər əsas ifadə vasitələridir.
П.Ф.Стросон. Намерение и конвенция в речевых актах. «Философия языка». М., 2004.

ИЛЛОКУЦИОННАЯ СЕМАНТИКА - alm. Illokutionssemantik (f), ing. illocution semantics /ɪləˈkjuːˈʃ(ə)n sɪˈm5ntɪks/, fr. sémantique illocutione, azərb. illokusiya semantikası. – Praqmatik üçün işlədilən xüsusi anlayış, bu zaman təkcə söyləmin gerçəkliyi deyil, illokusiyanın öyrənilməsinə yönəlmiş semantika.
H.Bußmann. Göstərilən əsər, s. 324.

ИМЕНИТЕЛЬНЫЙ ПАДЕЖ - alm. Nominativ (m), ing. nominativ case /nˈɔmınətıv keıs/, fr. nominatif, azərb. adlıq hal. - Əşyaya müstəqim (bilavistə) istiqamətlənməsi və müstəqil şəkildə (yalnız) əşiyavilik bildirməsi ilə başqa hallara qarşı duran, iş görəni və ya subyekti bildirən hal. Adlıq hal formasındakı isim cümlədə müxtəlif sintaktik funksiyalarda (mübtəda, xəbər, əlavə, zərflik, təyin, xitab, vokativ və s.) işlədilə bilər. Məs.: Azərb. d. /Cəmil, gəl lövhəyə//, /Cəmil lövhəyə gəlir//, /Adama Cəmil yanaşan kimi yanaşar//, /Cəmil xisləti/ və s.
M.Hüseynzadə. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 1973.

ИМЕНТЕЛЬНЫЙ АБСОЛЮТНЫЙ - alm. absoluter Nominativ (m), ing. nominative absolute /ˈnɔmınətıv ˈ5bsəluːt/, fr. nominatif absolu,-e azərb. mütləq adlıq. – İng. d. mütləq konstruksiyalarda isimlərin ümumi halına üyğun gələn şəxs əvəzliklərinin adlıq halı. Məs.: ing. d. /I, you, we, he, it, she/ və s. Müq. et: /He being old and I young, nobody believed me// (Onun yaşlı, mənim cavan olduğuma heç kəs inanmırdı).
H.Bußmann. Göstərilən əsər, s. 531.

ИМЕНИТЕЛЬНЫЙ НАЗЫВНОЙ - alm. Nominativname (m), ing. nominative name, /ˈnɔmınətıv neım/, fr. nominatif appelatif, azərb. adlıq çağrış. - Adlıq hal formasının kitab başlıqlarında, lövhələrdə, elanlarda və s. işlədilməsi. Məs.: Azərb. d. /Azərbaycan gerçəklikləri/.
O.C.Ахманова. Göstərilən əsər. s. 172.

ИМЕНИТЕЛЬНЫЙ ПОБУДИТЕЛЬНЫЙ - alm. Aufforderungsnominativ (m), ing. (co) hortative nominativ /(kɔː)ˈhɔːtəıv ˈnɔmınətıv/, fr. nominatif poussé, azərb. adlıq təhrikedici. – Adlıq halın müraciət mənasında işlədilməsi. Məs.: Azərb. d. /Oğlan, bura gəl/, /Həsən, tez ol/ və s.
O.C.Ахманова. Göstərilən əsər. s. 172.

downloaded from KitabYurdu.org

ИМЕНИТЕЛЬНЫЙ ПРЕДИКАТИВНЫЙ - alm. prädikativer Nominativ (m), ing. nominative predicative /ˈnɔmınətıv ˈpredıkætiv/, fr. nominatif prédicatif, azərb. predikaiv adlıq hal. - Adlıq hal formasının xəbərin predikativ funksiyasında işlənməsi. Məs.: ing. d. /He is /a teacher// (O müəllimdir).
J.Lyons. Language and Linguistics. München, 1990.

ИМЕННОЙ - alm. nominal, ing. noun /naun/, nominal /ˈnɔmınl/, substantival /ˌsʌbstənˈtaıvəl/, fr. nominatif, azərb. ismi. - Dildə fərdi, ümümi, əşya və hadisənin sözdə əksi. Məs.: Azərb. d. /dəmir/ (metal adı), /Muğan/ (yer adı).
O.C.Ахманова. Göstərilən əsər. s. 172.

ИМЕННОЕ ДОПОЛНЕНИЕ - alm. nominales Objekt (n), ing. nominal object /ˈnɔmınl ˈɔbʤıkt/, fr. complément du nom, azərb. ismi tamamlıq. - Rus d. yiyəlik halda işlənən ismi tamamlıq. Müq. et: /книга друга/, /дом отца/.
R.W.Zandwoorf. A Handbook of English Grammar. London, 1963, s. 195-212.

ИМЕННОЙ КОРЕНЬ - alm. nominale Wurzel (f), ing. nominal root /ˈnɔmınl ru:t/, fr. racine nominative, azərb. ismi kök. - Etimonu adla (isimlə) bağlı olan kök. Məs.: Azərb. d. /əkin+çi/, /islahat+çı/ və s.
M.Hüseynzadə. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 1973, s. 28.

ИМЕННЫЕ СЛОВА - alm. nominale Wörter (Pl.), ing. noun words (nominals)/ naun wɜ:dz/ˈnɔmınls/, fr. mots nominaux, azərb. ismi sözlər. - Sintaktik funksiyasına görə isimlərlə eyni olan, başqa sözlə desək, isimlərə xas sintaktik funksiyada çıxış edə bilən sözlər, ifadələr, söz birləşmələri və konstruksiyalar. Məs.: Azərb. d. /Cənubdan əsən isti küləklər//; alm. d. /Rosen aus dem Süden// (Cənubdan qızıl güllər) və s.
R.Conrad. Göstərilən əsər, s. 181.

ИМЕННОЕ СЛОВОСОЧЕТАНИЕ - alm. nominale Wortverbindung (f), ing. nominal word-combination, /ˈnɔˈmınl wɜ:dz-ˌkɔmbıˈneıʃ(ə)n/, phrase /freıs/, fr. qroupe de mots nominaux, azərb. ismi söz birləşmələri. - Tərkibi yalnız isimlərdən düzələn, tabeedici komponenti isimdən ibarət olan söz birləşmələri – Məs.: Azərb. d. /gümüş qaşıq/, /məktəb direktoru/, /yun parça/, /kətan köynək/ və s.
Y.Seyidov. Azərbaycan dilində söz birləşmələri. Bakı,

ИММАНЕНТНЫЙ МЕТОД - alm. immanente Methode (f), ing. immanent method /ˈımənənt ˈmeθəd/, fr. méthode immanente, azərb. immanent metod.
Bax: Лингвистический метод →.

ИМПЕРАТИВ - alm. Imperativ (m), ing. imperative /ımˈperətıv/, fr. impératif, azərb. əmr forması. – Felin əmr şəklində hərəkətin icrası əmr, buyuruq, öyüd, nəsihət mahiyyətli olur. Məs.: Azərb. d. /Çalışın tapşırığı vaxtında yerinə yetirin!/, /Siz oxuyun, biz dinləyək!/. Bəzən əmr birgə

downloaded from KitabYurdu.org

hərəkətə təhrik edəndə birinci şəxs tək və cəm müraciət formasında olur. Müq. et: Azərb. d. /Baxım, görüm necədir//, /Baxaq, görək necədir//.
O.C.Ахманова. Göstərilən əsər. s. 172.

ИМПЕРАТИВНЫЕ КОНСТРУКЦИИ – alm. imperative Konstruktionen (Pl.), ing. imperative constructions /ɪmˈpɛrətɪv kənˈstrʌkʃ(ə)ns/, fr. constructions impérratives, azərb. əmr konstruksiyalar. - Transformasiyon qrammatikada alt strukturdan əmr cümləsini düzəltmə prosesi. Mübtəda udulur (silinir). Məs.: Azərb. d. /Mən deyirəm/ → /de, deyin/ və s.
H.Bußmann. Göstərilən əsər, s. 325.

ИМПЕРАТИВ МЕЖДОМЕТНЫЙ - alm. imperative Interjektion (f), ing. interjectional imperative /ˌɪntəˈʤekʃənl ɪmˈperətɪv/, fr. interjection impérative, azərb. imperativ nida. - Əmr, nida mənalı feli sözlərin xüsusi cərgələri. Belə sözlər adətən insanın istək və arzularını özündə əks etdirir. Məs.: Azərb. d. /Çəkil!/, /Rədd ol!/, /Yaşa!/; ing. d. /Get out!/ (Çıx bayıra), /live!/ (yaşa) və s. Bəzən hərəkətə təhrik halı adla ifadə olunur. Məs.: Azərb. d. /Ardımca!/; rus d. /За мной!/ və s.
R.Conrad. Gösətərilən əsər, s.

ИМПЕРФЕКТ - alm. Imperfekt (n), ing. imperfect (tense) /ɪmˈpə:fɪkt/ tenz/, fr. imparfait, azərb. imperfekt, bitməmiş (keçmiş zaman). - İş və hərəkətin keçmişdə baş verməsini, lakin onun danışıq məqamına gəlib çatdığını göstərən feli zaman şəkli. Məs.: alm. d. /Er las ein Buch// (O kitab oxuyardı). Bəzi dillərdə aorist (fr. d. passé simple) tarixi perfektlə müqayisə edilən perfekt (keçmişdə tamamlanmış prosesin müəyyən zaman nöqtəsini göstərməsi) və imperfekt fərqləndirilir. Perfektlə müqayisədə imperfekt aspektə görə seçilir. Alm. d. səhvən imperfekt preteritumun sinonimi kimi göstərilir.
H.Glinz. Göstərilən əsər, s.

ИМПЕРФЕКТИВ - alm. Imperfektiv (f), ing. imperfectiv /ɪmperˈfektiv/, fr. imperfectif, azərb. imperfektiv. - İmperfektiv /perfektiv/ (həmçinin aterminativ/kursiv və terminativ, durativ müvafiq olaraq qeyri-durativ, imitativ/mutativ, bitməmiş/bitmiş). Felin növüdür, proses zamanca ya strukturlaşma, ya başlanğıcı (inxoativ), ya da son mərhələni (rezultativ) ifadə edir. Adətən imperfektiv /perfektiv durativ/ q/durativlə eyniləşdirilir. Slavyan dillərində bu fellərin bitmiş və bitməmiş növlərinin morfoloji yolla ifadəsinə xidmət edir. Məs.: rus d. /писал/ (yazdı) /написал/ (yazıb qurtardı), /читал/ (oxudu) // прочитал/ (oxuyub qurtardı). Bəzən rus d. prefius hərəkətin zamanını məhdudlaşdırır. Müq. et: rus d. /мы танцевали/ (biz rəqs edirdik), /мы потанцевали (biz bir az rəqs etdik).
H.Bußmann. Göstərilən əsər, s. 326.

ИМПИЛИКАЦИЯ - alm. Implikation (f), ing. implication /ˌɪmplɪˈkeɪʃən/, fr. implication, azərb. impilikasiya. - İki elementar ifadə (p və q) yeni bir ifadədə birləşir, özü də bu yeni ifadə o zaman yalan olur ki, birinci hissə gercək, ikinci hissə isə yalan olsun. Formal olaraq bu belə göstərilir: p → q:

downloaded from KitabYurdu.org

məs: Bakı Xəzərin sahilində yerləşir, onda 2 x 2 = bərabərdir beşə (düz deyil). Biz desək: p=/Bütün insanlar ölümə məhkumdurlar və Sokrat da adamdır//, deməli q= Sokrat da ölümə məhkumdur (p → q). Bundan başqa, belə bir münasibət də mümkündür. /qələm kağızın üstündədir// cümləsindən belə məna çıxır /kağız qələmin altındadır/, ancaq biz deyəndə ki, /qələm kağızın üstündə deyil// buradan heç də o nəticə çıxmır ki, /kağız qələmin altındadır/. Bu cür impilikasiyaya hər addımda rast gəlmək olur. Alm. və ing. d. miqdar sayından sonra isim cümlədə həmişə cəmdə olmalıdır. Məs.: alm. d. /5 Bücher/, ing. d. /5 books/, ancaq Azərb. d. miqdar saylarından sonra isim cəm şəkilçisi qəbul etmir. Məs.: /üç kitab, beş dəftər/ və s.
H.Bußmann. Göstərilən əsər, s. 327.

ИМПЛИЦИТНЫЙ – alm. implizit, ing. implicite /ɪmˈplɪsɪt/, fr. implicite, azərb. implisit (gizli). – Yalnız təsəvvür edilən, dildə bilavasitə ifadə olunmayan. Məs.: Azərb. d. /üz, göz, qulaq/ hər iki üzvü nəzərdə tutur.
O.C.Ахманова. Göstərilən əsər. s. 172.

ИМПЛИЦИТНЫЙ АКТУАЛИЗАТОР - alm. impliziter Aktualisator (m), ing. implicit agent of actualizator /ɪmˈplɪsɪt ˈeɪʤənt 6v ˈ5ktʃ□əlaɪz5tə(r)/, fr. actualizateur implicite, azərb. implisit aktualizator (gizli ifadə olunmamış). - İmplisit aktualizator elə aktuallaşdırma vastəsidir ki, burada dil işarəsi formaca ifadə edilmir, ancaq məna nəzərdə tutulur. Qeyri-müəyyən təsirlik halda hal şəkilçisi implisit şəkildədir. Məs.: Azərb. d. /kitab rəfi/, /ana məktubu/ və s.
O.C.Ахманова. Göstərilən əsər. s. 174.

ИМПЛИЦИТНАЯ АКТУАЛИЗАЦИЯ - alm. implizite Aktualisierung (f), implicit actualization /ɪmˈplɪsɪt ˈ5ktʃuəlaɪzeɪʃən/, fr. actualisation implicite, azərb. implisit aktuallaşdırma. - İmplisit aktualizator vastəsi ilə virtual dil ünsürlərinin real məna və funksiyalarını müəyyənləşdirmə. Məs.: Azərb. d. /ana məktubu/ əvəzinə /ananın məktubu/ həmin impilisit aktuallaşmanı sübut edir.
O.C.Ахманова. Göstərilən əsər. s. 174.

ИМПЛОЗИВНЫЙ (СОМКНУТНЫЙ) - alm. implosiv, ing. implosive (close) /ɪmˈplousɪv /kləus/, fr. implosive, azərb. kipləşmiş. - Alman dilində /Lippen/ (dodaqlar) sözü /lipən/ kimi tələffüz olunur və bu zaman dodaqların kipləşməsi /p/ - da başlayır və /m/-nın axrına qədər davam edir. Nəticədə /p/ samitində kipləşmə açılmamış qalır.
R.Conrad. Göstərilən əsər, s. 111.

ИМПЛОЗИЯ - alm. Implosion (f), ing. implosion /ɪmplou=n/, fr. implosion, azərb. kipləşmə. – Partlayışlı samitlərin məxrəcinin ilkin mərhələsi, ekskursiyası. Məs.: /p/, /t/, /k/. Sonra bu kipləşmə partlayışa keçməklə samitlər tələffüz olunur və eşidilirlər.

Bax: Имплозивный ←.

ИМЯ - alm. Name (m), Nomen (n), ing. name /neɪm/, noun /naun/, fr. nom, azərb. ad. - Ümumi qrammatik xüsusiyyəti obyekt və hadisələrin adlarını

downloaded from KitabYurdu.org

bildirməkdir. Adlar deyiktik jestləri bildirir, xüsusi adlara, şəxs, yer və coğrafi adlar aiddir. Onlar ümumi adlara qarşı qoyulurlar.
R.Conrad. Göstərilən əsər, s. 175.

ИМЯ АПЕЛЛЯТИВНОЕ - alm. Appellativname (m), ing. appellative name /ə'pelətiv neɪm/, fr. mot appelatif, azərb. appellyativ ad. - Formasını dəyişmədən ümumi isim kimi işlənən xüsusi ad. Məs.: Azərb. d. /təlxək/, /loğman/, /firon/; alm. d. /Mansarde/ (mansarde – XVII əsr fransız memarının adından götürülüb) və s.
R.Conrad. Göstərilən əsər, s. 37.

ИМЯ ДЕЙСТВИЯ - alm. Handlungsname (m), ing. action nouns /'5kʃn naun/, nouns of action /nauns əv '5kʃn/, fr. noms d'action, azərb. hərəki isimlər, hərəkət bildirən isimlər. - Feli əsasdan düzəlmiş hərəkət, vəziyyət və prosesi bildirən isimlər. Məs.: Azərb. d. /yeriş/, /gülüş/, /savaş/; alm. d /der Gang/; rus d. /ход/ və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 175.

ИМЯ ДЕЯТЕЛЯ - alm. Agens (n), Name des Handlungs trägers (m), ing. agent (actor, agential) noun /'eɪʤənt/'5ktə/ə'ʤenʃ(ə)l naun/, fr. nom d'agent, azərb. icraçının adı (iş görənin adı). - Feli əsasdan icraçı suffikslərin köməyilə düzələn və iş, hərəkət icraçı ifadə edən düzəltmə isimlər. Məs.: rus d. /читатель/, /учитель/; Azərb. d. /oxu-cu/, /yaz+ı+çı/ və s.
H.Bußmann. Göstərilən əsər, s. 55.

ИМЕНА ИСЧИСЛЯЕМЫЕ - alm. zählbare Namen (Pl.), ing. countable nouns /kəuntəɪbl nauns/, fr. nom de nombre, azərb. sayıla bilən isim. - Sayılması mümkün olan, ayrı- ayrılıqda təsəvvür edilə bilən əşyaları təsvir edən, müəyyən sinfə məxsus sayıla bilən adları göstərən isimlər. Məs.: Azərb. d. /at/→/atlar/; alm. d. /Pferd - Pferde/ və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 175.

ИМЕНА НЕИСЧИСЛЯЕМЫЕ (ИМЕНА НЕСЧИТАЕМЫЕ) - alm. unzählbare Namen (Pl.), ing. uncountable nouns /∧n'kauntəbl nauns/, mass nouns /m5s nauns/, fr. nom non-nombrable, azərb. sayıla bilməyən isimlər. – Məs.: Azərb. d. /ay/, /günəş/, /yer/ və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 175.

ИМЯ КАЧЕСТВА (ИМЯ СВОЙСТВА) - alm. Qualitätsname (m), ing. adjective abstract /'5ʤɪktɪv '5bstr5kt/, quality name /'kw6lɪtɪ neɪm/ fr. nom de qualité, azərb. keyfiyyət bildirən ad. - Sifətdən düzəlmiş müəyyən bir əlamət bildirən mücərrəd isimlər. Məs.: Azərb. d. /xeyirxahlıq/, /yaxşılıq/, /saflıq/ bildirən isimlər, /ağ/, /qara/ (rəng adları); alm. d. /das Gute/ (yaxşı); rus d. /белое/, /красное/ (şərab adları) və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 175.

ИМЯ ЛИЧНОЕ - alm. Personenname (m), ing. personal name /'pə:snl neɪm/, fr. prénom personnel, azərb. şəxsi ad. - İnsan adları bildirən xüsusi isimlər. Məs.: Azərb. d. /Həsən/, /Vəli/, /Əli/ və s.

downloaded from KitabYurdu.org

Bax: Имя собственное →.

ИМЯ МЕСТА - alm. Ortsname (m), ing. place names /pleɪs neɪmz/, fr. noms de lieu, azərb. yer adları. - Ölkə, şəhər, materik və məkan bildirən adlar. Dilçilikdə toponimika (xüsusi adlar) onomastikanın (ümumiyyətlə adlar) ikinci mühüm sahəsi hesab olunur. Toponimlərdən dördü xüsusilə mühüm əhəmiyyət kəsb edir: oykonimlər, oronimlər, hidronimlər və dironimlər. Oykonimlər yaşayış məntəqələrinin adlarını (Bakı, Füzuli, Asiya, Avropa), oronimlər dağ, təpə adlarını (Kəpəz, Qafqaz və s), hidronimlər su hövzələrinin və nəhrlərinin adlarını (Kür, Araz, Xəzər); dironimlər meşə massivlərinin adlarını (Topxana meşəsi) bildirir. Son zamanlar sosiolinqvistik (adların verilməsi və işlənməsi), psixolinqvistik (psixoonomastika) və ya adın fizioqnomikası, praqmalinqvistik və tekst dilçiliyilə bağlı sahələr geniş vüsət almışdır.

A.Axundov. Ümumi dilçilik. Bakı, 1988, s. 171-173.

ИМЯ ПОЛНОЕ - alm. Vollname (m), ing. full name /ful neɪm/, fr. nom plein, azərb. tam ad. – 1) İxtisar olunmamış, kiçildilməmiş şəxsi ad. Məs.: Azərb. d. /Aysel/ → /Aska/, /Sevinc/→ /Seva/, Konstantin (Kostya), Aleksandr (Saşa) və s.; 2) Hind-Avropa mənşəli iki addan ibarət olub, hazırda vahid, bütöv bir ad formasında işlənən ad. Məs.: alm. d. /Adolf/ sözü /edler/ (nəcib) və /Wolf/ (canavar) sözlərindən əmələ gəlmişdir.

R.Conrad. Göstərilən əsər, s. 293.

ИМЯ ПРОИЗВОДЯЩЕЕ - alm. Nominalableitung (f), ing. underlyng noun /ʌndəˈlaɪŋ naun/, fr. mot créateur, azərb. törədici ad. - Affikslərlə sözdüzəltmənin nüvəsini təşkil edən ismi əsas. Məs.: Azərb. d. /əkin+çi+lik/; alm. d. /Recht+ler+in/ (hüquqçu) və s.

R.Conrad. Göstərilən əsər, s. 19.

ИМЯ ПРЕДИКАТИВНОЕ - alm. Pradikativname (m), ing. predicative name /prɪˈdɪkətɪv neɪm/, fr. nom prédicatif, azərb. predikativ ad. - İsmi xəbərin tərkibindəki isim. Məs.: Azərb. d. /O həkim+dir//, /Bu Əli+dir/; alm. d. /Er ist Günter// (O, Günterdir) və s.

O.C.Ахманова. Göstərilən əsər, s. 175.

ИМЯ СОБСТВЕННОЕ - alm. Eigenname (m), ing. proper name /ˈprɔpə neɪm/, fr. nom propre, azərb. xüsusi ad. - Fərdi qaydada insanların və yer, coğrafi və s. adları fərqləndirməyə xidmət edən, lakin onların əlamətini əks etdirməyən adlar. Məs.: Malik, Sakit, Taleh, Yalta (yunanca «Yaltos» sözündəndir, «sahil» deməkdir) və s.

R.Conrad. Göstərilən əsər, s. 70.

ИМЯ СОБСТВЕННОЕ СЛОЖНОЕ - alm zusammengesetzter Eigenname (m), ing. compound personal name /ˈkɔmpaund ˈpə:snl neɪm/, composite proper name /ˈkɔmpəzɪt ˈprɔpə neɪm/, fr. nom propre complexe, azərb. mürəkkəb şəxsi ad. - Şəxsi ad funksiyasında çıxış edən idiomatik söz birləşməsi. Məs.: /Nəsrəddin ibn Tusi, Heinrich Heine, Kamal Abdulla, İsa Qəmbər/ və s.

downloaded from KitabYurdu.org

О.С.Ахманова. Göstərilən əsər, s. 175.

ИНВАРИАНТ - alm. Invariante (f), ing. invariant /ɪnˈvɛərɪənt/, fr. invariant, azərb. invariant (əsas variant). - Konkret tərzdə realizə edilib-edilməməsindən asılı olmayaraq dil sisteminin mücərrəd bir ünsürü, em (emlər) səviyyəsində (fonem, morfem, leksem və s.) mövcud struktur dil vahidi. Dil vahidinin əsas mücərrəd əlaməti. Bu əlamət ən kiçik mətndən kənarda (ayrılıqda) mövcuddur. Məs.: Azərb. d. qoşadodaq, kipləşən-partlayışlı və cingiltilik əlamətləri, bütün vəziyyətlərdə və mövqelərdə /b/ samitinin invariant, dəyişməz əlamətləridir. Müq. et: /buyur/, /abad/, /baba/ və s.
R.Conrad. Göstərilən əsər, s. 121.

ИНВЕРСИВНЫЙ - alm. inversiv, ing. inversiv /ɪnvə:sɪv/, invertied /ɪnˈvə:tid/, fr. inversif, azərb. yerini dəyişmiş, inversiyaya uğramış. - İnversiyaya məruz qalmış, inversiya nəticəsində yaranmış. Məs.: Azərb. d. /Arif <u>dünən</u> məktəbə getmişdi//, /<u>Dünən</u> Arif məktəbə getmişdi//.
R.Conrad. Göstərilən əsər, s. 121.

ИНВЕРСИЯ - alm. Inversion (f), Umstellung (f), ing. inversion /ɪnˈvə:ʃən/, inversed word order change /ɪnˈversd wɜ:d ˈɔ:də ʧeɪnʤ/, fr. inversion, azərb. inversiya. - İfadəlilik əldə etmək məqsədilə danışıq prossesində sözlərin ənənəvi, ümumişlək sırasının pozulması, cümlə üzvlərinin yerlərinin dəyişilməsi.

Sızlar, yada düşəndə, ürəyimin telləri.
O mehriban, o əziz tələbəlik illəri.

Bu beytdə çox mürəkkəb, bir neçə pilləli inversiya özünü göstərir. Yəni adi danışıqda /o mehriban, o əziz tələbəlik illəri yada düşəndə ürəyimin telləri sızlar/ kimi işlənəcəyi halda, şerdə bu sıralanma mənanı qüvvətləndirmək məqsədilə edilərək inversiya şəklini alıb.
A.Axundov. Şer, sənət və dil. Bakı, 1980.

ИНВЕРСНЫЙ ПОРЯДОК СЛОВ - alm. Inversion (f), Umstellung (f), ing. inversion /ɪnvə:ʃən/, inversed word order change /ɪnˈversd wɜ:d ˈɔ:də ʧeɪnʤ/, fr. ordre de mots inversion, azərb. sözlərin inversiv söz sırası. - İnversivin məlumat verilən faktların məntiqi ardıcıllığının pozulması hesab etmək olsa da, mətn dilçiliyi söz sırasının bu cür olmasını danışıq məqamı və presuppozisiya, habelə ünsiyyətin təhlili ilə əlaqələndirir. Azərbaycanda söz sırası elmi cəhətdən öyrənilib.
O.Musayev. Müasir ingilis və Azərbaycan dillərində söz sırası. Bakı, 1960.

ИНГЕРЕНТНЫЙ - alm. inhärent, ing. ingredient /ɪnˈgri:dɪənt/, fr. ingérant, azərb. inqherent. - Qeyri -asılı, həmişə xas olan əlamət. Məs.: cins və kəmiyyət alman dilində isimlərin inherent əlamətləridir. Hal isə feldən, sözönüdən və sifətdən asılıdır. Müq. et: alm. d. /warten auf j-n/ (kimisə gözləmək) və s.
R.Conrad. Göstərilən əsər, s. 115.

ИНГРЕССИВНЫЙ - alm. ingressive Aktionsart (f), ing. ingressive /ɪngresɪv/, fr. ingressif aspect, azərb. inqressiv. – 1) İş və hərəkətin başlanğıcı və ya onun təşəkkülünü göstərən tərz. Məs.: rus d. /зачитать,

downloaded from KitabYurdu.org

заговорить/; Azərb. d. /oxumağa başladı/, /hərəkətə düşdü/; 2) Fonetikada nəfəsalmada tələffüz olunan səs. Məs.: Afrika dillərində belə səsə rast gəlmək olur. Alman dilində buna «şnalts tşao mar» (sovurma) səs deyirlər.
R.Conrad. Göstərilən əsər, s. 115.

ИНГУШСКИЙ ЯЗЫК – alm. Inguš(sch)isch (n), ing. ingush language /ɪŋˈguːʃ lɔŋgwɪʤ/, fr. langue ingouche, azərb. inquş dili. – Nax dillərindən biridir. Çeçen və İnquş respublikalarında yayılmışdır. 180 mindən artıq daşıyıcısı vardır. Mürəkkəb sait və samit yarımsistemlərinə malikdir. Çeçen dilindən fərqli olaraq, inquş dilində /f/ fonemi mövcuddur. İnquş dilində felin zaman, tərz, növ və qrammatik siniflər (klasslar) kimi kateqoriyaları vardır.
З.К.Масальгов. Ингушская грамматика. Владикавказ, 1925; Р.И.Долакова. Ингушский язык. «Языки народов СССР», т. 4, М., 1967.

ИНДЕЙСКИЕ ЯЗЫКИ - alm. indianische Sprachen (Pl.), ing. (American) Indian languages /əˈmerɪkən/ˈɪndjən ˈlɔŋgwɪʤɪz/, fr. amérindiens, azərb. hindi dilləri. – Amerikanın yerli əhalisinin (eskimos-aleut dilləri istisna olmaqla) dilləri. Ərazi baxımından Mərkəzi və Cənubi Amerikada təmsil olunmuşdur. 28 milyondan çox əhali bu dillərdə danışır. Tarixi nöqteyi-nəzərdən 30-40 min il əvvəl Berinq boğazı vasitəsilə Asiyadan köçmüş xalqların dillərinə çox yaxındır. Şimali Amerikada hindi dillərinin əsas ailələri: naden, alhonkin, saliş, siu, prokez, qalf, xokalıtelk və s. Mərkəzi Amerikada isə tano-astek, otomanq, maya ailələri mövcuddur. Cənubi Amerikada isə ən böyük dil ailələri çibça, aravak, karib, keçumar, panno-takana və s. ailələrdir. Bu dillərin əksəriyyəti yazısız dillərdir.
Ю.В.Кнорозов. Писсменность индейцев майя. М.-Л., 1963; Г.А.Климов. Типология языков активного строя. М., 1977.

downloaded from KitabYurdu.org

DEVANAQARI YAZISI

Başlanğıc		Samitlər «a» saitilə birləşmədə							
अ	a	क	ka	ञ	ña	न	na	श	ś a
आ	ā	ख	kha	ट	ṭa	प	pa	ष	
इ	i	ग	ga	ठ	ṭha	फ	pha	श	
ई	ī	घ	gha	ड	ḍa	ब	ba	ष	ṣa
उ	u	ङ	ṅa	ढ	ḍha	भ	bha	स	sa
ऊ	ū	च	ča	ण	ṇa	म	ma	ह	ha
ऋ	ṛ	छ	čha	त	ta	य	ya	ळ	ḷa
ॠ	ṝ	ज	ǰa	थ	tha	र	ra	ः	ḥ
ऌ	ḷ	झ	ǰha	द	da	ल	la		
ॡ	ḹ			ध	dha	व	va		
ए	e								

Samitlərin başqa saitlərlə birləşməsinə nümunələr

रा	ra	कं	ke
रि	ri	नं	nam
री	rī	पु	pu
रा	ro	शू	sū

downloaded from KitabYurdu.org

ИНДИВИДУАЛЬНОЕ ПРОИЗНОШЕНИЕ - alm. individuelle Aussprache (f), ing. individual pronunciation /ˌɪndɪˈvɪdjuəl prəˈnʌnsɪˈeɪʃ(ə)n/, fr. prononiation individuelle, azərb. fərdi tələffüz. – Müəyyən dil daşıyıcısının danışığına məxsus fonetik xüsusiyyətlər. Bəzi dil daşıyıcıları /r/ samitini tələffüz edə bilmirlər: «irəli»- əvəzinə [iləli] deyirlər. /l/ çox qalın və ya süzülən tələffüz edilir.
F.Veysəlli. SDƏ. Bakı, 2005.

ИНДИВИДУАЛЬНО-СТИЛЕВОЙ - alm. individuell-stilistische Aussprache (f), ing. individual style /ˌɪndɪˈvɪdjuəl staɪl/, fr. individuellement, azərb. fərdi-üslubi. - Fərdi üsluba aid olan. Məs.: Azərbaycanda gənclər «məktəb» sözündə /k/ samitinin partlayış fazasını aydın tələffüz edirlər və ya sözdə hecanın birini ixtisar edərək əvvəlki hecanın saitini uzun tələffüz edirlər. Məs.: Azərb. d. /gəlirəm/ əvəzinə /gə:rəm/ və s.
F.Veysəlli. SDƏ. Bakı, 2005.

ИНДИВИДУАЛЬНЫЙ СТИЛЬ - alm. individueller Stil (m), ing. individual style /ˌɪndɪˈvɪdjuəl staɪl/, fr. style individuel, azərb. fərdi üslub. - Müəllifin yaradıcılığını əhatə edən əsas fərdi-üslubi əlamətlərin məcmusu.

A.Axundov. Şer sənəti və dil. Bakı, 1980, s. 39-64.

ИНДИЙСКИЕ (ИНДОАРИЙСКИЕ ЯЗЫКИ) - alm. indische Sprachen (Pl.), ing. Indian /ˈɪndjən/, Hindu /ˈhɪnˈduː/, İndoari languages /ˈɪndoarɪ ˈlɪŋgwɪʤ/, fr. langues indo-européennes, azərb. hindu dilləri. – Dard və İran dilləri ilə birlikdə Hind-İran dilləri birliyinə daxil olan genetik cəhətdən qohum dillərin qrupu. Hind dilləri Hindistanın şimal və mərkəzi ərazilərində (xindi, urdu, benqal, pəncab, marathi, oriya, assam, sam və s.), Pakistanda (urdu, pəncab, sindxi), Banqladeşdə (benqal), Şri-Lankada (siqal), Maldiv respublikasında (maldiv), Nepalda (nepali) yayılmışlar. Keçmiş Sovetlər ittifaqında isə Qissar vadisində yayılmışdır. 770 milyondan yuxarı daşıyıcısı vardır.
Г.А.Зограф. Языки Индии, Пакистана, Цейлона и Непала. М., 1960; Т.Я.Елизаренкова. Исследования по диахронической фонологии индоарийских языков. М., 1976.

ИНДИЙСКОЕ ПИСЬМО - alm. indische Schrift (f), ing. Indian script /ˈɪndjən skrɪpt/, Hindu writing /ˈhɪnˈduː ˈraɪtɪŋ/, fr. écriture indienne, azərb. hind yazısı. – Cənub və Cənub-şərqi Asiyada ümumi mənşəyinə və vahid fonetik prinsipinə əsaslanan yazı növü. Hindistanın özündə yazının 5 minillik tarixi vardır. Əsas yazı növləri: brahmi və devanqari yazılarıdır.

downloaded from KitabYurdu.org

BRAHMİ YAZISI

Teləffüzü	Heca işarələri	Aramey yazısında götürülməsi ehtimal olunanlar	Teləffüzü	Heca işarələri	Aramey yazısında götürülməsi ehtimal olunanlar	Teləffüzü	Heca işarələri	Aramey yazısında götürülməsi ehtimal olunanlar	ma işarəsinin müxtəlif çalarlarda teləffüzü	ma işarəsinin müxtəlif şəkildə deyilişi	Liqaturun teləffüzü	Nümunələr
a			jha			pa			ma		mya	
o			ṉa			pha			mā		dva	
i			ṭa			ba			mi		vya	
u			ṭha			bha			mu		sva	
e			ḍa			ma			me		dhya	
ka			ḍhà			ya			mo		ttra	
kha			ṇa			la			maṃ			
ga			ta			va						
gha			tha			śa						
ča			da			ṣa						
ča			dha			sa						
ǰa			na			ha						

ИНДОЕВРОПЕЙСКИЕ ЯЗЫКИ - alm. indoeuropäische Sprachen (Pl.), ing. Indo-European languages /ˈɪndəuˌjuərəˈpɪ(:)ən ˈlɜŋgwɜdʒɪz/, fr. langues indo-européennes, azərb. Hind-Avropa dilləri.

Bax: Индоевропейская семья языков →.

ИНДОЕВРОПЕЙСКИЙ (ИНДОГЕРМАНСКИЙ) - alm. indoeuropäisch, ing. Indo-European /ˈɪnˈdəuˌjuərəˈpɪ(:)ən/, Indogerman /ˈɪnˈdəuˈdʒə:mən/, fr. indo-européen, (indo-germanique), azərb. Hind – Avropa dilləri, alman mənbələrində buna hind-german dilləri də deyirlər. Bu dillər ailəsinə daxil olan 140 dildə təxminən 2 milyard insan danışır. Bu dillər ailəsinə aşağıdakı dil qrupları aiddir: hind-iran, yunan, italik, (bundan yaranan roman dilləri), kelt, german, baltik, slavyan, alban, erməni və toxar dilləri. Güman edilir ki, bu dillərin törədiyi ulu (proto) dildə

downloaded from KitabYurdu.org

təxminən 5000 il bundan öncə Qara dənizin şimalında danışırlarmış. Bu dillərin əsas əlamətləri: şəkilçilərlə yanaşı güclü daxili fleksiya (ablaut), 8 hal, 3 cins (kişi, qadın, orta) və 3 kəmiyyət (tək, dual və cəm) bərpa edilə bilir. Sifətlə isim, isə fellə uzlaşır. Feldə zaman, şəkil və növ həm daxili fleksiya, həm də xarici fleksiyada (şəkilçi) öz ifadəsini tapır. Bu dillərin qohum olması barədə fikirlər çoxdan mövcuddur, ancaq onların sistemli şəkildə tədqiqi ser V.Cousun (1746-1794) 1786-cı ildə Asiya Cəmiyyətindəki məruzəsindən sonra geniş vüsət aldı. Daha sonra F.Şleqel (1772-1829), R.Rask (1787-1832) və F.Bopp (1791-1867) müvafiq olaraq 1808, 1814/18, 1816-cı illərdə çap etdirdikləri əsərlərində səs oxşarlıqlarını müqaysə etməklə Hind-Avropa ulu dilini bərba etməyə çalışırdılar. Daha sonra Y.Qrimin (1785-1863) 1819/22-ci illərdə çap etdirdiyi əsərində ayrı-ayrı dillər arasında sistematik səs qanunlarını müəyyənləşdirdi ki, sonralar bunlar elm tarixinə 1-ci və 2-ci fonem əvəzlənmələri qanunları kimi daxil edildi. A.Şlayxer (1821- 1868) ulu german dilində mətn yaratmağa müyəssər oldu. Gənc (H.Paul), K.Brugmann (1899- 1919), N.Osthoff (1847-1909), A.Leskin (1840- 1916) istisnasız olaraq səs dəyişmələrini və anologiyanı əsas götürərək ulu dili bərpa etməyə çalışırdılar. Sonralar toxar və xet dilləri də kəşf edildi. Bunlar isə hind-Avropa dillərinin hüdudlarını genişləndirməyə və fonem sistemlərini öyrənilmıəsində mühüm rol oynadı.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 29-143.

ИНДОЕВРОПЕЙСКАЯ ПРАРОДИНА - alm. indoeuropäische Urheimat (f), ing. the İndo-European original homeland /ðə ˈɪnˈdəuˌjuərəˈpɪ(:)ən əˈrɪʤənl houml5nd/ɪndou, juərəˈpi:ən/, fr. berceau indo-européen, azərb. hind-Avropa ulu vətəni. - Hind-Avropa dillərinin daşıyıcılarinın ilkin məşkunlaşdığı coğrafi yer.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 104-144.

ИНДОЕВРОПЕЙСКАЯ СЕМЬЯ ЯЗЫКОВ - alm. indoeuropäische Sprachfamilie (f), ing. The İndo-European language family, (stock) / ðə ˈɪnˈdəuˏjuərəˈpɪ(:)ən ˈlaŋgw9ʤ fəˈmɪli /stɔk/, fr. langues de famille indo-européenne, azərb. Hind-Avropa dilləri ailəsi. - Hind-Avropa ulu dilindən törəmiş dil ailəsi. «Hind-Avropa dilləri» terminini dilçiliyə F.Bopp gətirmişdir. Sonralar A.Şlayxer bu termin əvəzinə «Hind-german dilləri» termini işlətmişdirsə də, dilçilikdə məqbul görülməmişdir. Hind-Avropa dilləri ailəsi aşağıdakı dil qollarına bölünür: 1) Hind dilləri (benqal, pəncab, urdu, hindu, ölü dillərdən sanskrit və prakrit dilləri); 2) İran dilləri qrupu (fars, əfqan, tacik, osetin, kürd, tat, ölü dillərdən - skif dili); 3) Slavyan dilləri (şərqi slavyan-rus, ukrayn, belorus: qərbi slavyan-polyak, çex, slovak, qədim slavyan dilləri; 4) German dilləri qrupu (şərqi german-İsveç, Norveç, Danimarka, island; qərbi german- ingilis, alman, daç dilləridir; 5) Baltik dilləri qrupu: litov, latış; 6) Alban dili. 7) Yunan dilləri: yeni yunan və onun əcdadı əski yunan dilləri; 8) Roman dilləri: ispan, portuqal, fransız,

downloaded from KitabYurdu.org

italyan, rumın və moldavan və s.; 9) Hindoariya dilləri: hindu, urdu, benqal, maraxti, nepal, siqan və s.
G.F.Meier, B.Meier. Göstərilən əsər, s. 44.

ИНДОЕВРОПЕЙСТИКА - alm. Indoeuropäistik (f), ing. İndoEuropen linguistics /ındou, juərə'pı:ən lıŋgwıstıks/, fr. linguistique indo-européenne, azərb. Hind-Avropaşünaslıq. – Hind-Avropa dillərinin tədqiqi ilə məşğul olan dilçilik şöbəsi.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 32.

ИНДО-ИРАНСКИЙ ЯЗЫК– alm. Indoiranisch (n), ing. Hindo-Persian languages /'hın'du: 'pə:ʃ(ə)n 'l5ŋgw9ʤız/, fr. langue indo-iranienne, azərb. hindiran dili.- Hind-Avropa dillər ailəsinin bir qolu. Bu da iki yerə bölünür: İran və darı dilləri. Əsas əlaməti hind-Avropa dillərində /e/, /o/, /a/ saitlərinin /a/-da birləşməsidir, bu da keyfiyyət itkisinə və kəmiyyətcə ablauta gətirib çıxartdı. Müq. et. Sanskrit /sa' das/ «iqamətgah» → /sādäyati/ «oturmaq», həmçinin çoxlu miqdarda sözlərin yaranması. Məs: «Arya» (ariyalı).
Д.И.Эдельман. Сравнительная грамматика восточно-иранских языков. Фонология. М., 1986.

ИНДОЛОГИЯ - alm. Indologie (f), ing. indology /ınd'6ləʤı/, fr. indologie, azərb. hindşünaslıq. – Əsasən yazılı abidələr istinadən Cənubi Asiya xalqlarının mədəni tarixini öyrənən tarixi-filoloji fənlər kompleksi.
В.И.Кальянов. Изучение санскрита в России. «Уч. зап. ЛГУ», 1962, ¹ 304.

ИНДОНЕЗИЙСКИЙ ЯЗЫК – alm. Indonesisch (n), ing. İndonesian language /ındə'ni:zjən 'l5ŋgw9ʤ/, fr. indonésien, azərb. İndoneziya dili. – Malauriya adalarında yerləşən İndoneziyanın dövlət dili. 150 milyon daşıyıcısı vardır. Əsas xüsusiyyətləri: sadə fonoloji sistemi və nominal birləşmələr. Məs.: /seekor ayam/ (bir toyuq), /potong/ «parça» /potong-potong/ «parçalar» və s. İsmi feldən fərqləqndirən əlamət yoxdur. Söz sırası: MXT, sanskrit və ərəb dillərindən çoxlu alınma.
Грамматика индонезийского языка. М., 1972; Е.А.Кондрашкина. Индонезия. Языковая ситуация и языковая политика. М., 1986.

ИНЕССИВ - alm. Inessivus (m), ing. inessivus /'ınesi:vus/, fr. inessif, azərb. inessiv. - Əşyanin (predmetin) fin dilində nəyinsə daxilində (içərisində) yerləşdiyini göstərən yerlik hal forması. Adətən adessivə (çölündə) qarşı qoyulur.
O.C.Ахманова. Göstərilən əsər, s. 177.

ИНИЦИАЛ - alm. Initial (n), Kurzwort (n), ing. initial /ı'nıʃ(ə)l/, fr. initiale, azərb. inisial. - Bir çox Avropa dillərində (ingilis, fransız, ispan dilləri) işlənən bu söz əslində ərəbcənin «nəsil» sözündəndir. Aşagıdakı mənalarda işlənir: 1). Söz birləşmələrini təşkil edən ayrı-ayrı sözlərin ilk səs və ya hərflərindən düzəlmiş mürəkkəb ixtisar sözlər. (Bax:

downloaded from KitabYurdu.org

«abbreviatura» - 2-ci mənada). Bu mənada inisialların aşagıdakı növləri vardır: a) səs inisialı - birləşmədə iştrak edən sözlərin ilk səsləri alınıb, birlikdə adi sözlər kimi tələffüz edilir. Məs.: Azərb. d. ADU, SİTA, SES, b) hərfi inisial - birləşmədə iştirak edən sözlərin ilk hərifləri alınıb, hər hərfin adı tələffüz edilir. BMT (be+em+te), MTS (em-te-se) və s.
R.Conrad. Göstərilən əsər, s. 148.

ИНКЛЮЗИВНЫЙ - alm. inklusiv, ing. inclusive / in′klu: siv/, fr. inclusif, azərb. inklüziv. - Danışan, dinləyən və haqqında söz gedən şəxslər fərqləndirilir. Məs.: çin d. /women lai le/ «biz (mən və sən)», /zanmen lai le/ «biz (mən və o)» və eksklüzivə qarşı qoyulur.
O.C.Ахманова. Göstərilən əsər, s. 177.

ИНКЛЮЗИВНОЕ ВРЕМЯ - alm. inklusive Zeitform (f), ing. inclusive tense /ˌɪn′klu:sɪv tens/, fr. temps inclusif, azərb. inklüziv zaman. - Perfekt formasının danışıq anının qoşulması məzmununda işlədilməsi. Məs.: Azərb. d. /Mən onu artıq iki ildir ki, tanıyıram//.
Bax: Инклюзивный ←.

ИНКЛЮЗИВНОЕ ЛИЦО - alm. inklusive Person (f), ing. inklusive person /ˌɪn′klu:sɪv ′pə:sn/, fr. personne inclusive, azərb. inklüziv şəxs. - Danışan (danışanlar) və onu (onları) təmsil edən şəxsləri özündə ehtiva edən birinci şəxsin cəm forması. Məs.: Azərb. d. /Biz belə hesab edirik//. Eyni qrupdan olan elementlər arasında elə münasibətdir ki, bir qrupun (A) elementinin adını çəkəndə digər qrupun da (B) elementi nəzərdə tutulur. Məs: alm. d. /Alle Tanten sind mütterliche Verwandten// (Bütün bacılar ana tərəfin qohumlarıdır).
Bax: Имя инклюзивный ←.

ИНКОРПОРАЦИЯ - alm. Inkorporation (f), ing. incorporation /ɪnˌkɔ:pə′reɪʃ(ə)n/, fr. incorporation, azərb. inkorporasiya. - Köklərin felə yanaşması ilə əmələ gələn mürəkkəb söz. Məs.: alm. d. /radfahren/ (velisoped sürmək) birləşmənin köməkçi ünsürləri vasitəsilə formalaşdırılmasından ibarət sözdüzəltmə üsulu. Polisintetik dillərdə inkorporasiya üsuluna görə sözlər və köməkçi ünsürlər bir-birinə yanaşmaqla söyləmlər yaradır. Buradakı söz cumlənin ayrı-ayrı hissələri, həm də sözlərin elementləri və cümlə üzvləri vəzifəsində çıxış edir. Məs.: fr. d. /Je ne l'endends pas/ (mən ona qulaq asmıram).
R.Conrad. Göstərilən əsər, s. 247-248.

ИНКОРПОРИРУЮЩИЕ ЯЗЫКИ - alm. inkorporierende Sprachen (Pl.), ing. agglomerating, incorporating languages /ə′glɔmərɪtɪŋ ɪn′k6:p(ə)rɪtɪŋ ′l5ŋgw9ʤɪz/, fr. langues incorporantes, azərb. inkorporlaşan dillər. - İnkorporasiya üsulu ilə düzəltmədən geniş istifadə edən dillər. Bu dillərdə söz müstəqil, ayrıca bir vahid kimi mövcud olur, bütun birləşmə, cümlə formaca bir söz şəkilində təzahür edir. Çünki bütun cümlə bir vurğu ilə tələffüz edilir və ahəng qanununa tabe olur. Asiyanın şimal-şərqində ya-

downloaded from KitabYurdu.org

şayan bir sıra xalqların (eskimoslar, çukotlar, amutlar və s.) dilləri inkorplaşan dillər hesab edilir. Şimali Amerika hindularının da dili buraya daxildir.
Bax: Инкорпорация ←.

ИННОВАЦИЯ - alm. Innovation (f), ing. innovation /ˌɪnəuˈveɪʃ(ə)n/, fr. innovation, azərb. inovasiya. - Dilin ilkin mərhələlərində rast gəlinməyən, onu ilkin durumundan (ulu dildə) kəskin fərqləndirən hadisə və qanunauyğun dəyişmələrin təzahür etməsi. Məs.: Əvvəllər rus d. fonoloji sistemində yumşaq arxa sıra samitləri / г′/, /к′/, /х′/ müstəqil fonem kimi mövcud deyildilər. Digər bir misal: Azərb. d. bir heca daxilində samit cəmləşməsi rast gəlinmədiyi halda, indi onlara rast gəlinir və onlar dildə müstəqil söz kimi çıxış edirlər. Məs: /şpris/, /ştanq/, /plan/ və s.
P.H.Matthews. Göstərilən əsər, s. 181.

ИНОСТРАННОЕ СЛОВО - alm. Fremdwort (n), ing. foreign word /′fɔrın wə:d/, fr. mot étranger, azərb. xarici söz. - Yad dilə məxsus, lakin ana dilinin sözlərilə yanaşı işlənə bilən söz. Məs.: Azərb. d. /rejissor, kino, prodüser/ və s.
Ю.С.Маслов. Göstərilən əsər, s. 256.

ИНОЯЗЫЧНЫЙ - alm. fremdsprachlich, ing. foreign language (alien) /′fɔrın ′l5ŋgw9ʤ /′eılјən/, fr. de langue étrang′re, azərb. əcnəbi söz, alınma söz. - Yad dildən alınaraq mənimsənilmiş söz. Bu gün Azərb. d. /müştük/ sözu gen-bol işlənir. Ancaq bu söz alm. d. alınma sözdür. O, həm fonetik (ahəng qanuna tabe olması), həm də qrammatik cəhətdən (sözdüzəltmə və sözdəyişdirici şəkilçilər qəbul etməsi) tam mənimsənilmişdir. Onun alınma söz olduğunu xüsusi araşdırma vasitəsilə təsdiqləmək olar.

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003.

ИНСПИРАТОРНЫЙ (ВДЫХАТЕЛЬНЫЙ ОБРАТНЫЙ) - alm. inspiratorisch, ing. inspiratory /ınspəreıtərı/, inhaled sound (respiratory contrary) /ın′held saund /rıs′paıərət(ə)rı k6ntrərı/, fr. son inspiratoire, azərb. nəfəsalma. - Tələffüzü nəfəsalma ilə müşayyiət olan səs. Azərb. d. belə səslər adətən təəssüf, hiss, həyacan və təəccüb ifadə edən zaman yaranır. Məs.: Azərb. d. /ah! oh! uf!/ və s.
H.Bußmann. Göstərilən əsər, s. 345.

ИНСТРУМЕНТАТИВ - alm. Instrumentativum (n), ing. instrumentative /′ınstruməntətiv/, fr. instrumentatif, azərb. inistrumentativ. - Müəyyən işin icrasında tətbiq olunan predmetin (alətin) adı ilə bağlı olan birləşmə. Məs.: Azərb. d. /ütü ilə ütüləmək/, /bıçaqla - bıçaqlamaq/, /bıçaqla kəsmək/ /iynə ilə tikmək/ və s. Alm., ing., rus d. bu «mit», «with», «с» sözönlərilə ifadə olunur.
H.Bußmann. Göstərilən əsər, s. 345.

ИНТЕГРАЛЬНЫЙ - alm. integral, ing. integral /′ıntıgrəl/, fr. intégralle, azərb. inteqral. - Dilin ayrı-ayrı hadisələrini və faktlarını bir sistem halında, bir-biri ilə əlaqəli şəkildə öyrənən metod.
H.Bußmann. Göstərilən əsər, s. 345.

downloaded from KitabYurdu.org

ИНТЕГРАЦИЯ - alm. Integration (f), ing. integration /ˌɪntɪˈɡreɪʃ(ə)n/, fr. intégration, azərb. inteqrasiya. - Müxtəlif dillər və ya dialektlər arasında oxşar, bənzər cəhətlərin artması nəticəsində onların vahid dil halında birləşməsi, onlar arasındakı fərqlərin silinməsi nəticəsində vahid dil təşkil etməsi prosesi. İnteqrasiya dillərin yaxınlaşması prosesidir. Son zamanlar xüsusi inteqrativ dilçilik inkişaf etməkdədir. Bu istiqamət qrammatikaların vahid prinsip əsasında təhlilini irəli sürür. Onda ayrı-ayrı dillər idiolekt və sosiolektlər variantları kimi götürülür. Sintaktik, semantik, inteqrasiya bir tərəfdən alt qat, digər tərəfdən isə üst qat hadisəsi kimi araşdırılır. Sintaktik təsvir subyekt-obyekt münasibətlərinə əsaslanır, morfoloji göstəricilərlə bərabər intonasiyanı da diqqət mərkəzinə çəkir.
H.Glinz. Göstərilən əsər.

ИНТЕНСИВ - alm. Intensivum (n), ing. intensive /ɪnˈtensɪv/, fr. intensif, azərb. intensiv. - Mənanın şiddətlənməsinə xidmət edən törəmə fel forması. Məs.: Azərb. d. /tir-tir/ əsmək əvəzinə /titrəmək/ (üşümək). /şan-şan/ yerinə /şanə- şanə/ işlətməklə intensivlik yaradılır. Məs: Azərb. d. /Bağrım olur şanə-şanə durnalar!/ (M.P.Vaqif). Habelə /görməzə – bilmə-zə/, («görməz - bilməz» yerinə), /gur-gur guruldamaq/ («guruldamaq» yerinə), /ilim-ilim itmək/ («itmək» yerinə), /Hələ dəyməmiş meyvələr ağaclarda asım - asım asılmışdır/. Alm. d. mövcud fellərdən samit çoxluğu ilə yeni fellər yaratmaqla mənanı intensivləşdirmək olur. Məs.: alm. d. /schneiden/ (kəsmək) → /schnitzen/ (doğramaq), /hören/ (dinləmək) → /horchen/ (qulaq asmaq). Səs təqlidi ilə yaranan sözləri də bura aid etmək olar. Məs.: /saufen/ (sovurmaq), /brüllen/ (nərildəmək) və s.
H.Bußmann. Göstərilən əsər, s. 348; R.Conrad. Göstərilən əsər, s. 117.

ИНТЕНСИВНО-БЕЗОБЪЕКТНЫЙ ЗАЛОГ - alm. intensiv-objektloses Genus (n), ing. intensive objectless voice /ɪnˈtensɪv ˈɔbʤɪktlɪs vˈɔɪs/, fr. voix intense sans objet, azərb. şəxssiz-obyektsiz növ. - Müasir rus dilində leksik semantik mənası, məlum növə uyğun gəlməyən və /-ся/ sonluğu ilə bitən fellər. Məs.: rus d. /Мне не спится/. /Смеркается/.
О.С.Ахманова. Göstərilən əsər, s. 179.

ИНТЕНСИВНОЕ СЛОЖНОЕ СЛОВО - alm. intensives zusammengesetztes Wort (n), ing. intensive compound word /ˈɪntensɪv ˈkɔmpaund wə:d/, fr. mot complexe intense, azərb. qüvvətləndirici mürəkkəb söz. - Tərkibindəki əsaslardan biri digərinin mənasını quvətləndirməyə xidmət edən mürəkkəb söz. Məs.: Azərb. d. /alqırmızı/, /yaryaraşıqlı/ və s.
Bax: Сложное слово →.

ИНТЕНСИВНОСТЬ - alm. Intensität (f), ing. intensity /ɪnˈtensɪtɪ/, fr. intensité, azərb. intensivlik. - Səslərin (xüsusilə saitlərin) tələffüz gərginliyi. Saitlər öz intensivliyinə görə belə düzülür /a…….i/. Akustik baxımda səsin intensivliyi onun tələffüzünə sərf olunan enerjinin gücü ilə ölçülür.

downloaded from KitabYurdu.org

Л.Р.Зиндер. Общая фонетика, М., 1979.

ИНТЕНСИВНОСТЬ ЗВУКА - alm. Lautstärke (f), Lautintensitat (f), ing. intensity of sound /ɪnˈtensɪtɪ əv saund/, fr. intensité du son, azərb. səsin gücü, intensivliyi. – Səs təzyiqinin amplitudlarıyla səciyyələndirilən keyfiyyət göstəricisinin səciyyəsi. Səsin gücü səs tellərinin titrəməsi dərəcəsindən, yəni gücü onun amplitudundan asılıdır. Rəqsin amplitudu böyüdükcə, səsin intensivliyi də artır.

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s.182.

ИНТЕНСИОН – alm. Intension (f), ing. intension /ɪnˈtenʃən/, fr. intention, azərb. intension. - Məfhum ona xas əlamətlərlə səciyyələnir. O, məfhuma aid əlamətləri sadalamaqla müəyyənləşir. İki hökm o zaman eyni olur ki, onların komponent təhlili eyni əlamətləri üzə çıxartmağa imkan verir. Məs.: Azərb. d. /O əl çalır//, /O alqışlayır//. Ancaq ekstensional eynilikdə eyni sinfin sadalanan elementləri üzə çıxır. Məs.: Azərb. d. /axşam ulduzu/ və /səhər ulduzu/. Hər ikisi veneranın vəziyyətini bildirir, ancaq müxtəlif konnotasiyalarla intensional və ekstensional qarşılaşmalar məzmun və mənanın fərqləndirilməsində mühüm rol oynayır.

H.Bußmann. Göstərilən əsər, s. 346.

ИНТЕНСИОНАЛЬНЫЙ - alm. intentionell, ing. intension /ɪnˈtenʃən/, intensional meaning /ɪnˈtenʃənl 'mɪ:nɪŋ/, fr. substantiel, intentional, azərb. intensional. - Sözün (və ya terminin) daxili məzmununu, onun fərqlənməsini təşkil edən keyfiyyət və ya əlamət. Adətən «ekstensional» termini ilə qarşılaşdırılır. İntensional məna. Mürəkkəb cümlədə tərəflərin bağlılığı onların səhv və gerçək olması ilə müəyyən edilir. Məs.: Azərb. d. /Bayırda qaranlıqdır, çünki hələ ay yarımçıqdır (gerçək)/ ancaq /Bayırda qaranlıqdır, çünki 7 müqəddəs rəqəmdir (yanlış)/.

E.Koserin. Ümumi dilçiliyə giriş. Almancadan tərcüməsi, «Son söz» və «Qeydlər» prof. F.Veysəllinindir. Bakı, 2006.

ИНТЕРИВОКАЛЬНЫЙ - alm. intervokalisch, ing. intervocalic /ˌɪntə(:)vəuˈk5lɪk/, fr. intervocalique, azərb. intervokal (saitlərarası). - Samitin iki sait arasındakı mövqeyi. Məs.: Azərb. d. /gala/, /tala/; alm. d. /tantə/, ing. d. /02kəl/, fr. d. /parol/, rus d. /t'ot'a/ və s.

F.Veysəlli. SDƏ. Bakı, 2005.

ИНТЕРВЬЮ – alm. Interview (n), ing. interview /ˈɪntəvju:/, fr. interview, azərb. müsahibə. - Jurnalistika və dialektologiyadakı metodlardan fərqlənir. Sırf praqmatik məqsədlə çoxsaylı müraciət və ictimai aşkarlığı ilə dioloji məlumat toplamaq metodu.

H.Bußmann. Göstərilən əsər, s. 352.

ИНТЕРДИАЛЕКТ - alm. Interdialekt (m), ing. interdialect /ˌɪntəˈdaɪəlekt/, fr. intendialectal, azərb. interdialekt. - Eyni dilin müxtəlif dialektlərində danışan nümayəndələrinin bir-birilə ünsüyyət saxlamaları üçün istifadə etdikləri ortaq dialekt.

downloaded from KitabYurdu.org

О.С.Ахманова. Göstərilən əsər, s. 179.

ИНТЕРДЕНТАЛЬНЫЙ - alm. interdental, ing. interdental /ˌɪntəˈdentl/, fr. interdentale, azərb. dişarası. - Tələffüzü zamanı dilin uc hissəsinin alt və üst dişlər arasına keçməsi nəticəsində yaranan novlu samitlər, buna misal olaraq ing. d. /θ/, /δ/ samitlərini göstərmək olar. Belə samitlər türkmən dilində də var.
F.Veysəlli. SDƏ.

ИНТЕРДЕПЕНДЕНЦИЯ - alm. Interdependenz (f), ing. interdependency /ɪntəˈdɪpendənsɪ/, fr. interdépendance, azərb. qarışıqlı asılılıq. – Qlossematikada iki funuktiv arasında təyin edilən funksional asılılıq. Məs.: dildəki hadisələri həm məna, həm də ifadə səvəyyəsində maddi varlığı onlardakı formalara qarşı qoyur, hər iki səviyyənin formasını dilçiliyə çıxarır. Burada qarşlıqlı asılılıq əsas əlamət kimi götürülür.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 28; F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 235.

ИНТЕРКОНСОНАНТНЫЙ - alm. interkonsonantisch, ing. interconsonantal /ˌɪntəˈkɔnsənəntl/, fr. interconsonant, azərb. samitarası. - İki samit arası. Məs.: Azərb. d. /bab/ - /bam/, /ban/ - /baş/ sözlərində /a/ saiti onu əhatə edən samitlərin qarşılıqlı tələffüz təsirinə məruz qalaraq müxtəlif variantlarda çıxış edir. Məs.: alm. d. /ta:k/; ing. d. /kæt/; rus d. /sat/; fr.d. /ã:s/ və s.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

ИНТЕРЛИНГВА - alm. Interlingua (n), ing. interlingua /ˌɪntəˈlɪŋgwə/, fr. interlingue, azərb. interlinqva. – 1) 1903-cu ildə italyan riyaziyyatçısı Cüzeppe Peano tərəfindən təklif edilmiş süni beynəlxalq dil. Bu dilin qrammatik quruluşu roman dilləri, lüğət tərkibi isə bütün Avropa dillərinə məxsus sözlər əsasında təşkil olunmuşdur; 2) ABS-da 1924-cu ildən fəaliyyət göstərən Beynəlxalq Köməkçi Dil Assosasiyası (IALA) International Auxiliary Language Assosiation tərəfindən 1951-ci ildə nəşr olunmuş beynəlxalq dil layihəsi. Həmin cəmiyyətə milyoner A.D.Morris himayədarlıq edir və yardım göstərir. Əslində interlinqva layihəsi Esperantodan daha zəif və bəsit çıxmışdır. Bununla belə son zamanlar interlinqva bəzi təbii (ingilis, fransız və s.) dillərlə yanaşı rəsmi dil kimi, xüsüsən beynəlxalq yığıncaqlarda geniş miqyasda işlənməkdədir. 1954-cü ildə kardioloqların (Nyu - York), 1954-cü ildə pediatorların (Sirakuz), 1956-cı ildə hematoloqların (Boston), 1957-ci ildə revmatoloqların (Toronto) beynəlxalq konqreslərində interlinqva rəsmi dil kimi işlədilmişdir. ABŞ-da bu dildə geniş mətbuat nəşr olunur.
A.Gode, H.E.Blair. Interlingua. A grammar of the International language. N.-York, 1959.

ИНТЕРЛИНГВИСТИКА - alm. Interlinguistik (f), ing. interlinguistics /ˌɪntəlɪŋˈgwɪstɪks/, fr. interlinguistique, azərb. interlinqvistika. - Müxtəlif beynəlxalq süni dillərin (esperanto, ido və s.) yaradılması və tətbiqi ilə

downloaded from KitabYurdu.org

əlaqədar müxtəlif məsələləri öyrənən dilcilik bölməsi. İnterlinqvistika həm də maşınla tərcümənin tələbini ödəmək məqsədilə vasitəçi dilləri, köməkçi kodları riyazi yolla öyrənir və bu cəhətdən interlinqvistika mücərrəd dil nəzəriyyəsinə çevrilmiş olur. Bu nəzəriyyə məntiqi və riyazi yazını əsas götürür. «İnterlinqvistika» termini XX əsrdə yaranmış və sinonimi olan «kosmoqlottika» terminə nisbətən daha məqbul hesab edilir. Bəzən də kontrastiv dilçiliyin variantı kimi götürülür.
M.Wandrushka. Interlinguistik: Umrisse einer neuen Sprachwissenschaft. München, 1971.

ИНТЕРНАЦИОНАЛИЗМ - alm. Internationalismus (m), ing. international words (expressions) /ˌɪntəˈn5ʃənl wə:dz/ɪksˈpreɪʃ(ə)nz/, fr. internationalisme, azərb. internasionalizm. - Mənşəcə və ya tarixi inkişafına görə yaxın dillərdə işlənib, etimoloji cəhətdən ümumu fond təşkil edən söz və ifadələr. Məs.: /raket/, /bomba/, /radio/ və s. internasionalizm sözlərinə aiddir.
О.С.Ахманова. Göstərilən əsər, s. 180.

ИНТЕРНАЦИОНАЛЬНЫЙ ФОНЕТИЧЕСКИЙ АЛФАВИТ – alm. internationales phonetisches Alphabet (n), ing. international phonetic(al) alphabet /ɪntəˈneɪʃ(ə)n5l fəuˈnetɪk (əl)ˈalfəbet/, fr. alphabet phonétique international, azərb. beynəlxalq fonetik əlifba. – Beynəlxalq Fonetik əlifbası (IPA, BFƏ və APİ)

THE INTERNATIONAL PHONETIC ALPHABET (revised to 1993, updated 1996)

CONSONANTS (PULMONIC)

	Bilabial	Labiodental	Dental	Alveolar	Postalveolar	Retroflex	Palatal	Velar	Uvular	Pharyngeal	Glottal
Plosive	p b			t d		ʈ ɖ	c ɟ	k g	q ɢ		ʔ
Nasal	m	ɱ		n		ɳ	ɲ	ŋ	ɴ		
Trill	ʙ			r					ʀ		
Tap or Flap				ɾ		ɽ					
Fricative	ɸ β	f v	θ ð	s z	ʃ ʒ	ʂ ʐ	ç ʝ	x ɣ	χ ʁ	ħ ʕ	h ɦ
Lateral fricative				ɬ ɮ							
Approximant		ʋ		ɹ		ɻ	j	ɰ			
Lateral approximant				l		ɭ	ʎ	ʟ			

Where symbols appear in pairs, the one to the right represents a voiced consonant. Shaded areas denote articulations judged impossible.

CONSONANTS (NON-PULMONIC)

Clicks		Voiced implosives		Ejectives	
ʘ	Bilabial	ɓ	Bilabial	ʼ	Examples:
ǀ	Dental	ɗ	Dental/alveolar	pʼ	Bilabial
ǃ	(Post)alveolar	ʃ	Palatal	tʼ	Dental/alveolar
ǂ	Palatoalveolar	ɠ	Velar	kʼ	Velar
ǁ	Alveolar lateral	ʛ	Uvular	sʼ	Alveolar fricative

VOWELS



downloaded from KitabYurdu.org

OTHER SYMBOLS

ʍ	Voiceless labial-velar fricative	ɕ ʑ	Alveolo-palatal fricatives
w	Voiced labial-velar approximant	ɺ	Alveolar lateral flap
ɥ	Voiced labial-palatal approximant	ɧ	Simultaneous ʃ and x
ʜ	Voiceless epiglottal fricative		
ʢ	Voiced epiglottal fricative		
ʡ	Epiglottal plosive		

Open

Affricates and double articulations can be represented by two symbols joined by a tie bar if necessary. k͡p t͜s

SUPRASEGMENTALS

ˈ	Primary stress	
ˌ	Secondary stress	ˌfoʊnəˈtɪʃən
ː	Long	eː
ˑ	Half-long	eˑ
˘	Extra-short	ĕ
|	Minor (foot) group	
||	Major (intonation) group	
.	Syllable break	ɹi.ækt
‿	Linking (absence of a break)	

TONES AND WORD ACCENTS

LEVEL			CONTOUR		
ɛ̋ or	˥	Extra high	ě or	˩˥	Rising
é	˦	High	ê	˥˩	Falling
ē	˧	Mid	ɛ̌	˧˥	High rising
è	˨	Low	ɛ̌	˩˨	Low rising
ȅ	˩	Extra low	ɛ̌	˥˧˥	Rising-falling
↓		Downstep	↗		Global rise
↑		Upstep	↘		Global fall

DIACRITICS

Diacritics may be placed above a symbol with a descender, e.g. ŋ̊

̥	Voiceless	n̥ d̥	̤	Breathy voiced	b̤ a̤	̪	Dental	t̪ d̪
̬	Voiced	s̬ t̬	̰	Creaky voiced	b̰ a̰	̺	Apical	t̺ d̺
ʰ	Aspirated	tʰ dʰ	̼	Linguolabial	t̼ d̼	̻	Laminal	t̻ d̻
̹	More rounded	ɔ̹	ʷ	Labialized	tʷ dʷ	̃	Nasalized	ẽ
̜	Less rounded	ɔ̜	ʲ	Palatalized	tʲ dʲ	ⁿ	Nasal release	dⁿ
̟	Advanced	u̟	ˠ	Velarized	tˠ dˠ	ˡ	Lateral release	dˡ
̠	Retracted	e̠	ˤ	Pharyngealized	tˤ dˤ	̚	No audible release	d̚
̈	Centralized	ë	̴	Velarized or pharyngealized	ɫ			
̽	Mid-centralized	ɛ̽	̝	Raised	e̝		(ɹ̝ = voiced alveolar fricative)	
̩	Syllabic	n̩	̞	Lowered	e̞		(β̞ = voiced bilabial approximant)	
̯	Non-syllabic	e̯	̘	Advanced Tongue Root	e̘			
̴	Rhoticity	ə̴ a̴	̙	Retracted Tongue Root	e̙			

downloaded from KitabYurdu.org

ИНТЕРНАЦИОНАЛЬНАЯ ЛЕКСИКА - alm. internationale Lexik (f), ing. international vocabulary /ˌɪntəˈn5ʃ(ə)nl vəˈkæbjuləri/, fr. lexique international, azərb. internasional leksika. - Adətən ümumi, mədəni tarixi inkişafın nəticəsi kimi müəyyən bir dildə və ya bir sıra dillərdə işlənən beynəlxalq sözlərin məcmusu.

Л.Р.Зиндер, Т.В.Строева. Современный немецкий язык, 1957, s. 372.

ИНТЕРНАЦИОНАЛЬНЫЕ СЛОВА - alm. internationale Wörter (Pl.), ing. international words /ˌɪntəˈn5ʃ(ə)nl wɜ:dz/, fr. mots internationaux, azərb. internasional sözlər. - Eyni mənşəli olub, bir çox dillərə yayılan və bu zaman müvafiq dilin fonetik və morfoloji xüsisiyyətlərinə uyğunlaşan sözlər. İnternasional sözlərin əsas qismi elm və texnika (telefon, ossilloqraf, spektroqram); ictimai-siyasi həyatla (respublika, monarxiya, partiya); mədəniyyət və incəsənətlə (teatr, opera, balet) bağlı olurlar. Bu sözlər üçün səciyyəvi cəhət ondan ibarətdir ki, həmin sözlər minimum üç müxtəlif sistemli dillərdə işlədilməlidir.

Bax: Интернациональная лексика ←.

ИНТЕРРОГАТИВ – Bax: Вопросительный ←.

ИНТЕРФЕРЕНЦИЯ – alm. Interferenz (f), ing. interference /ˌɪntəˈfɪər(ə)ns/, fr. interférence, azərb. interferensiya. – Bir dil sisteminin başqasına təsiri: fərddə transfer və ya dil cəmiyyətində transferes adlanır. Birinci halda söhbət kontrastiv dilçiliyin məşğul olduğu səhvlərin mənbələri və aradan qaldırılmasından gedir, ikinci halda isə səhvləri doğuran səbəblər, dildə dəyişmələr öyrənilir. Bəzən səhv olaraq interferensiyanı analogiya ilə eyniləşdirirlər.

С.А.Адышова. Экспериментально-фонетический анализ интерференции (на материале немецко-азербайджанского билингвизма). Автореф. канд. дисс., Баку, 2003.

ИНТОНАЦИОННО-МЕЛОДИЧЕСКИЙ - alm. intonatorisch-melodisch, ing. intonational melodic /ˌɪntouˈneɪʃənl mɪˈlɔdɪk/, fr. d'intonation mélodique, azərb. intonasion – melodik. - Burada intonasiyanın melodik komponenti (əsas tonun tezliyi) əsas götürülür.

Bax: Интонация →.

ИНТОНАЦИОННЫЙ (РИТМОМЕЛОДИЧЕСКИЙ) - alm. intonatorisch, rhythmo-melodisch, ing. intonational pitch /ˌɪntouˈneɪʃənl pɪtʃ/, rhythmo-melodic /rɪðm6 mɪˈlɔdɪk/ fr. d'intonation, azərb. intonasiyaya aid olan, ritmomelodik. - Məs: /ta+ta+'ta/; ancaq /'ta+ta+ta/ bir də ola bilər ki, /ta+'ta+ta /. Eyni şəkildə təkrar olunarkən vurğulu hecaların vurğusuzlar və əksinə əvəz etməsi. Əsasən şerdə çox işlənir.

Məs.: /Heydərbaba, ildırımlar şaxanda
Sellər sular şaqqıldayıb axanda/ və s. *M.Şəhriyar*

F.Veysəlov. Alman dilinin fonetikası. Bakı, 1980, s. 148.

downloaded from KitabYurdu.org

ИНТОНАЦИОННАЯ ВЕРШИНА - alm. Intonationsgipfel (m), ing. (crest) peak of intonation /krest pɪ:k əv ˌɪntouˈneɪʃən/, fr. sommet d'intonation, azərb. intonasiya zirvəsi. - İntonasiya parametrlərinin (tonun hərəkəti, gücü və zamanı) maksimum yüksəkliyi ilə səciyələnən. Azərb. d. məs.: /Ana torpaq mənə çox əzizdir// cümləsində /ʧox/ intonasiya konturunun zirvəsini təşkil edir, çünki bu sözdə həm əsas ton yüksəkdir, həm intensivlik çoxdur, həm də zaman daha davamlıdır. Əyani olaraq bunu belə göstərə bilərik:



F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 313.

ИНТОНАЦИОННЫЙ КОНТУР (ИНТОНАЦИОННАЯ МОДЕЛЬ) - alm. Intonationskontur (f), ing. intonation contour /ˌɪntouˈneɪʃən ˈkɔntuə/, intonation model /ˌɪntouˈneɪʃən ˈmɔdl/, fr. contour d'intonation, (modˈle d'intonation), azərb. intonasiya konturu. - Müəyyən sintaktik bütövün reallaşması üçün vacib olan bütün seqmentüstü vahidlərin nizamlanmış düzümü.

Ф.Вейсалов. Завершающая интонация в современном немецком языке. (экспериментально-фонетическое исследование). Канд. дисс. Л., 1970.

ИНТОНАЦИЯ - alm. Intonation (f), ing. intonation /ˌɪntouˈneɪʃ(ə)n/, fr. intonation, azərb. intonasiya. - İntonasiya dilin mühüm fonoloji vasitəsidir. O, danışanın fikri düzgün və səlis ifadə etməsinə, dinləyici tərəfindən isə danışanın göndərdiyi məlumatın düzgün başa düşülməsinə xidmət edir. İntonasiyaya qısa və ya yığcam tərif versək, o zaman onun ya akustik, ya artikylator, ya da linqvistik xüsusiyyəti ifadə olunacaqdır. O.Yespersen (1860-1943) intonasiyanı hissiyatın «termometri», əhval ruhiyyənin «barometiri» və fikrin «skalpeli» adlandırırdı. Göründüyü kimi, məşhur dilçi O.Yespersen bu yığcam tərifdə nitqin emosionallığını və müxtəlif üslubi çalarlığını üstün tutmuşdur. Lakin qeyd olunduğu kimi, intonasiya dildə müəyyən funksiya daşıyan, fikrin ifadə olunması üçün cümləni aktuallaşdıran fonoloji bir vasitədir. Melodikanı, ritmi, intensivliyi, tempi, tembri və vurğunu özündə cəmləşdirən, cümlə səviyyəsində müxtəlif mənalar və kateqoriyalar, habelə ekspressiv və emosional konnotasiyalar məcmusundan ibarət dil hadisəsi. Xarici dilçilikdə intonasiya əsas tonun hərəkətilə eyniləşdirilir.

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 149; Ф.Вейсалов. Завершающая интонация в современном немецком языке. (экспериментально-фонетическое исследование). Канд. дисс. Л., 1970.

downloaded from KitabYurdu.org

ИНТОНАЦИЯ АКУТОВАЯ - alm. Stoßton (m), ing. acute intonation /əˈkju:t ɪntouˈneɪʃən/, fr. intonation timbrée, azərb. akt intonasiyası. - Bir heca daxilində nisbətən aşağı tonda başlayıb yüksək tonla bitən intonasiya.

Ф.Вейсалов. Göstərilən əsər.

ИНТОНАЦИЯ ВОСКЛИЦАТЕЛЬНАЯ - alm. Ausrufeintonation (f), ing. exlamatory pitch intonation /eksˈklæmət(ə)rɪ pɪtʃ/ɪntouˈneɪʃən/, fr. intonation d'exclamation, azərb. nida intonasiyası. – Son illərin tədqiqatları göstərir ki, nidaların ayrıca intonasiya konturları yoxdur. Onlar bitkinlik, sual və qeyri-bitkinlik intonasiya konturlarının strukturlarındakı dəyişikliklərlə ifadə olunur. Məs.: Azərb. d.

¿gör necə danışır?



sual intonasiyası

!gör necə danışır!

nida intonasiyası

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

ИНТОНАЦИЯ ВОПРОСИТЕЛЬНАЯ - alm. Frageintonation (f), ing. interrogative intonation /ˌɪntəˈrɔgətɪv ɪntouˈneɪʃən/, fr. intonation interrogatif, azərb. sual intonasiyası. - Cümlənin sonuna doğru tonun qalxması sual, qeyri-bitkinlik bildirən intonasiyadır. Azərb. d. ümumi sual cümlələrinin sonunda hecanın uzanması müşahidə olunur. Məs.: Azərb. d. ¿Sən də oxuyursanɔ̀ (→). Alm. d. isə ton qalxır. Məs.: alm. d. ¿kɔmst du? (↑).

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 148-187.

ИНТОНАЦИЯ ЗАКОНЧЕННАЯ - alm. terminale Intonation (f), ing. final intonation /ˈfaɪnəl ɪntouˈneɪʃən/, fr. intonation fini (achevé), azərb. bitginlik intonasiyası. - Sintagmın sonuna yaxın səs tonu aşağı düşür, sintaqmın sonunda gələn saitin intensivliyi zəifləyir, nitqin ümümi sürəti zəifləyir və sintaqmın sonunda bitginlik fasiləsi yaranır. Bu əlamətləri bitginlik intonasiyası üçün differensial əlamətlər adlandırmaq lazım gəlir, çünkü bu əlamətlərə malik olan hər bir cümlənin intonasiyası bitginlik intonasiyası kimi izah edilə bilər.

Ф.Вейсалов. Завершающая интонация в современном немецком языке. (экспериментально-фонетическое исследование). Канд. дисс. Л., 1970; F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s.148-187.

ИНТОНАЦИЯ ПРЕДУПРЕДИТЕЛЬНАЯ - alm. abschließende Intonation (f), ing. falling intonation /ˈfɔ:lɪŋ ɪntouˈneɪʃən/, fr. intonation descendant, azərb. bitkinlik (xəbərdaredici) intonasiyası. - Fikrin bitdiyini, tamamlandığını ifadə edən enən intonasiya.

downloaded from KitabYurdu.org

Bax: Интонация законченная ←.

ИНТОНИРОВАНИЕ - alm. Intonierung (f), ing. intoning /ın ˈtounıŋ/, fr. modulation, azərb. intonasiyalama, səsləndirmə. - Fikrin bu və ya digər formada səsləndirilməsi.

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 148-187.

ИНТРАЛИНГВИСТИЧЕСКИЙ ПЕРЕВОД - alm. intralinguistische Übersetzung (f), ing. intralinguistic translation /ˈɪntrəlɪŋˈgwɪstik tr5nsˈleɪʃən/, fr. transferts intralinquistique, azərb. dildaxili tərcümə. – Söz və ifadələrin dildə izahı. Adətən bu izahdan birdilli izahlı lüğətlərin tərtibində geniş istifadə olunur.

A.Axundov. Azərbaycan dilinin izahlı lüğəti. Bircildli. Bakı, 2005; F.Yadigar (Veysəlli). Azərbaycanca-ingiliscə lüğət leksikoqrafiyamızda yeni mərhələ. «Azərbaycan məktəbi», Bakı, 1997, №3; С.И.Ожегов. Словарь русского языка. 1975; ing. The New Oxford Dictionary of English. Oxford, 1998; alm. d. Wörterbuch der deutschen Gegenwartssprache. 6 Bände, (Hrsg. von R.Klappenbach/W.Steinitz), Berlin, 1978.

H.Bußmann. Göstərilən əsər, s. 353.

ИНТЕРЛИНГВИСТИЧЕСКИЙ ПЕРЕВОД - alm. interlinguistische Translation (f), Übersetzung (f), ing. interlinguistic translation /ˌɪntəˈlɪŋgwɪstik tr5nsˈleɪʃən/, fr. transferts interlinquistque, azərb. interlinqvistik tərcümə. - Hər hansı bir dilin söz və ifadələrinin başqa dil vastəsilə verilməsi; sözun əsl mənasında tərcümə. Buraya ikidilli lüğətləri və ayrı-ayrı əsər və parçaların tərcümələrini daxil etmək olar. Məs.: C.Cəfərov. Almanca-Azərbaycanca lüğət. Bakı, 1960; M.Quliyeva. Fransızca-Azərbaycanca lüğət. Bakı, 1965; O.Musayev. Azərbaycanca-ingiliscə lüğət. Bakı, 1997; Alman dilindən tərcümə: N.S.Trubeskoy Fonologiyanın əsasları. Almancadan tərcüməsi, «Son söz» və «Qeydlər» prof. F.Yadigarındır. Bakı, 2001 və s.

ИНФИКС - alm. Infix (n), ing. infix /ınˈfıks/, fr. infixe, azərb. infiks. - Söz kökünə (və ya əsasına) daxil edilən şəkilçi. Əsasən bəzi hind-Avropa dillərinə məxsus affiks növü olan infiks. Məs.: rus d. /v∧d͡∧vos /, /v∧dəpr∧vot/ və s. Azərbaycan dili üçün səciyyəvi deyildir.

A.A.Реформатский. Göstərilən əsər, s. 268, 269, 285.

ИНФИНИТИВ - alm. Infinitiv (m), ing. infinitive /ınˈfınıtiv/, fr. infinitif, azərb. məsdər. - Felin iş, hal və hərəkətini ən mücərrəd şəkildə ifadə edən ad forması; felin şəxs, zaman, kəmiyyət, iş, hal və hərəkət ilə (subyekt, iş görən ilə) əlaqəsini əks etdirməyən ad forması. Burada təsvir olunan dillərdə xüsusi məsdər şəkilçisi vardır. Məs.: Azərb. d. /-maq, -mək/. (getmək, oxumaq); ing. d. /to/. Məs.: /to go/ (getmək), /to write/ (yazmaq); alm. d. /-en/ /lesen/ (oxumaq), /gehen/ (getmək); rus d. /-ть/. Məs.: /сказать, описать/ və s.

downloaded from KitabYurdu.org

А.А.Реформатский. Göstərilən əsər, s. 96, 154, 262, 281, 300-301; M.İ.Adilov və b. Göstərilən əsər, s. 161.

ИНФИНИТИВ ЗАВИСИМЫЙ - alm. abhängiger Infinitiv (m), ing. dependent infinitive /dɪ'pendənt ɪn′fɪnɪtɪv/, fr. infinitif dépendant, azərb. asılı məsdər. - Xəbər yerində və mürəkkəb xəbərin tərkibində işlənən məsdər. Məs.: Azərb. d. /Oxumaq lazımdır/. Alm. və ing. d. /zu/ və /to/ ədatları ilə işlənən infinitiv. Məs.: alm. d. /Er glaubt zu schreiben// (O yazmağa inanır); ing. d. /He wants to read// (o oxumaq istəyir) və s.

Bax: Инфинитив ←.

ИНФИНИТИВ ЛИЧНЫЙ - alm. persönlicher Infinitiv (m), ing. personal infinitive /′pə: snl ɪn′fɪnɪtɪv/, fr. infinitif personnel, azərb. şəxsli məsdər. - Xəbər funksiyasında çıxış edən məsdər. Məs.: fr. d. /Ainsi dit le renard, et flatteurs d′arrlaudir/.

Bax: Инфинитив ←.

ИНФИНИТИВ НЕЗАВИСИМЫЙ - alm. unabhängiger Infinitiv (m), ing. independent infinitive /ɪn′dɪpendənt ɪn′fɪnɪtɪv/, fr. infinitif indépendant, azərb. asılı olmayan məsdər. – Təktərkibli cümlənin əsas üzvü və ya cüttərkibli cümlənin mübtədası funksiyasında çıxış edən infinitiv (məsdər). Məs.: Azərb. d. /Oxumaq mütləq lazımdır/, /Susmaq məqsədə uyğundur/ və s.

Bax: Инфинитив ←.

ИНФИНИТИВ СУБЪЕКТА - alm. Infinitiv des Subjektes (m), ing. subject infinitive /′sʌbʤɪkt ɪn′fɪnɪtɪv/, fr. infinitif du sujet, azərb. subyekt məsdəri. - Hərəkətin icrasına aid olan, cümlədə mürəkkəb feli xəbər tərkibinin bir hissəsi olan, feldən asılı məsdər. Məs.: Azərb. d. /aldatmağı sevmək/, /oxumağı sevmək/, /qaçmağa can atmaq/ və s.

Bax: Инфинитив ←.

ИНФИНИТИВНО-НАЗЫВНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. infinitiv-nominativer Satz (m), ing. infinitival-nominal sentence /ˌɪnfɪnɪ′taɪvəl ′nɔminl ′sentəns/, fr. proposition infinitive–explosive, azərb. adlıq məsdər cümləsi. - Hər hansı bir hərəkəti özündə əks etdirən və danışanın münasibətini intonasiya vastəsilə ifadə edən infinitiv (məsdər) cümlə növü. Məs.: Azərb. d. /oxumaq/, /oxumaq/, /yenə də oxumaq//.

Bax: Инфинитив ←.

ИНФИНИТИВНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. Infinitivsatz (m), ing. infinitive (infinitival) sentence /ɪn′fɪnɪtɪv ′sentəns/ˌɪnfɪnɪ′taɪvəl/, fr. proposition infinitive, azərb. məsdər cümləsi. - Tərkibindəki baş üzvü müstəqil məsdərdən ibarət təktərkibli cümlə. Məs.: Azərb. d. /oxumaqʃ ¿sən nə danışırsanʃ ¿indiki dövrdəʃ.

Bax: Инфинитив ←.

ИНФЛЕКСИЯ ВОКАЛИЧЕСКАЯ (ВОКАЛИЧЕСКАЯ МУТАЦИЯ, МЕТАФОНИЯ, МУТАЦИЯ ГЛАСНЫХ, ПЕРЕГЛОСОВКА,

downloaded from KitabYurdu.org

УМЛАУТ) - alm. Umlaut (m), ing. mutation /mju:ˈteɪʃən/, umlaut /ˈumlaʊt/, fr. infléxtion vocalique, azərb. saiti infleksiya. vokalik dəyişmə, metafoniya, saitlərin dəyişməsi, umlaut. - Qrammatik bir üsul, qrammatik formalar əmələ gətirmə vasitəsi kimi saitlərin əvəzlənməsi. Məs.: rus d. /нести-я несу, он нес/; ing. d. /to take/- /took/ (götürmək – götürdü); alm. d. /geben-gab/ (vermək - verdi) və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 184.

ИНФОРМАНТ - alm. Informant (m), ing. informant /ɪnˈfɔ:mənt/, fr. informant, azərb. informant. – Dil materialının əsas mənbəyi, dilin daşıyıcısı. Dilçilikdə qrammatik və ya fonetik işlənmənin düzgün və səhv olduğunu yoxlamaq üçün istifadə edilən dil daşıyıcısı. Təcrübi fonetikada bu metod çoxdan qəbul edilib.
F.Veysəlov (Veysəlli) və b. Eksperimental fonetika. Bakı, 1980, I, s. 81.

ИНФОРМАЦИОННЫЙ - alm. Informations-, ing. information /ˌɪnfəˈmeɪʃən/, informational /ˌɪnfəˈmeɪʃənl/, fr. d'information, azərb. informasiyaya aid olan.
P.H.Matthews. Göstərilən əsər, s. 179.

ИНФОРМАЦИОННАЯ ОПТИМАЛИЗАЦИЯ СООБЩЕНИЯ - alm. Informationsoptimalisierung der Mitteilung (f), ing. informational optimalisation of communication /ˌɪnfəˈmeɪʃən(ə)l ˈɒptɪməlizeɪʃən əv kəˌmju:nɪˈkeɪʃən/, fr. optimalisation d'information de la communication, azərb. məlumatın informasion münasibləşdirilməsi (optimallaşdırılması). - Ünsüyyət prosesində semantik və üslubi maneələrin aradan qaldırılması. Məlumatın birmənalı və itkisiz ötürülməsinə nail olmaq.
H.Bußmann. Göstərilən əsər, s. 337.

ИНФОРМАЦИОННАЯ ТЕОРИЯ – alm. Informationstheorie (f), ing. information theory /ˌɪnfəˈmeɪʃən ˈθɪərɪ/, fr. théorie d'information, azərb. informasiya nəzəriyyəsi. - Məlumatın maneəsiz ötürülməsi, işlənməsi və tətbiqi qanunauyğunluqlarını öyrənən riyazi nəzəriyyə. Bu nəzəriyyə bir sıra elm sahələrində (biologiya, psixologiya, nəzəri dilçilik və s.) geniş tətbiq olunur və tətbiqi zamanı «bit», «kod», «datay», «entropiya», «informasiya», «kommunikasiya», «redundans», «işarə» və s. məfhumlardan genbol istifadə edir.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 66-70.

ИНФОРМАЦИОННЫЙ ЯЗЫК - alm. Informationssprache (f), ing. information(al) language /ˌɪnfəˈmeɪʃənl ˈlæŋgwɪʤ/, machine language /məˈʃɪ:n ˈlæ:ŋgwɪʤ/, fr. langue d'information, azərb. informasiya dili. – Bilavasitə maşınlara (elektron, hesablama-analtik və s.) daxil etmək üçün müəyyən məlumatın məzmununun mümkün olan bir formada, tam birmənalı və ən yığcam şəkildə verilməsini təmin edən vasitə.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 66-70.

downloaded from KitabYurdu.org

ИНФОРМАЦИЯ - alm. Information (f), ing. information /ˌɪnfəˈmeɪʃ(ə)n/, fr. information, azərb. informasiya, məlumat. - 1) Keyfiyyət mənasında hər hansı bir işarənin daşıdığı məlumatın müşahidəsindən doğan məlumat. Məs.: /pəncərənin şüşəsi buz bağlayıbsa, deməli, o donub/; 2) Texniki mənada baş verən hadisənin ehtimallığını bildirən meyar. İnformasiya nəzəriyyəsində hadisənin baş verməsi ehtimalı nə qədər az olarsa, onun informasiya çəkisi bir o qədər çox olar. Bu informasiyanı ölçmə vahidi «bit»-dir (ing. binary unit (ikili vahid) sözlərindəndir). Adi şəraitdəki məlumatdan fərqli olaraq informasiya nəzəriyyəsində məlumatın məzmunu mücərrədləşir. Statistik dilçilik də məhz bu informasiya anlayışına əsaslanır.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 66-70.

ИНХОАТИВ – alm. Inchoativ (n), ing. inchoative /ˈɪnkouetɪv/, fr. inchoatif, azərb. inxoativ (başlanğıc bildirən fellər). – Qeyri-durativ fellər, hərəkətin başlanğıcını ifadə edən fellər. Məs.: alm. d. /blühen/ - (çiçəklənmək), ancaq /erblühen/ - «çiçəklənməyə başlamaq». Yəqin ki, inxoativi inqressivə (birdən hərəkətə gəlmək) sinonim kimi götürmək olar. Məs.: alm. d. /entflammen/ (birdən odlanmaq), /aufspritzen/ (birdən tumurcuqlamaq) və s.
Bax: Вид ←.

ИНХОАТИВ (ВИД ИНГРЕССИВНЫЙ, ВИД ИНЦЕПТИВНЫЙ) - alm. Inchoativ (n), ing. inchoative aspect /ˈɪnkouetɪv ˈ5spekt/, fr. inchoatif, azərb. inxoativ. - İşin (prosesin) başlanğıcını və ya onun təşəkkul tapmasını göstərən fel növü. Müasir rus d. bu hal bitmiş növ fellərə aid edilir. Məs.: rus d. /запеть, зачитать, заговорить/; Azərb. d. /danışmağa başladı/, /gülməyə başladı/ və s.
Bax: Вид ←.

ИНХОАТИВНЫЙ АОРИСТ - alm. inchoativer Aorist (m), ing. inchoative aorist /ˈɪnkouetɪv ˈɛərist/ fr. aoriste inchoatif, azərb. inxoativ aorist. - Hərəkətin başlanğıcının, durumunun dəyişməsini, yaxud da başqa vəziyyətə keçməsini əks etdirən forması.
Bax: Вид ←.

ИНЪЮНКТИВ - alm. Injunktiv (m), ing. injunctive /ɪnˈdʒʌŋktiv/, fr. injonctif, azərb. inyunktiv. - Modal mənaların bəzilərinin ümumi adı (arzu, istək, qadağa) və s.
P.H.Matthews. Göstərilən əsər, s. 180.

[И]- ОБРАЗНАЯ АРТИКУЛЯЦИЯ – Bax: Иканье ←.

ИРАКВСКИЕ ЯЗЫКИ – alm. Iraqw (n), ing. Iragw languages /ɪˈrɑ:ku:

ˈl5ŋgwɪdʒɪz/, fr. langues irakves, azərb. irakv dilləri. – Kuşit dillərinin cənub qrupu. Şimali Tanzaniyada yayılmışdır. 400 minə yaxın insan bu dillərdə danışır. İrakv dilləri irakv, mbulu, mbulunqe, qorovo, fiome, alaqva, burunqe kimi qohum dilləri özündə birləşdirir. Fonoloji sistemində 12 sait

downloaded from KitabYurdu.org

və zəngin samit yarımsistemlərinə malikdir. 4 ton növü: yüksək, aşağı, qalxan və enən. İsimlər üçün cins kateqoriyası (kişi və qadın), kəmiyyət kateqoriyası (tək və cəm) mövcuddur. Bu dillər arasında nisbətən çox tədqiq olunmuşu irakv dillidir. Yazısız dillərdir.

W.Whiteley. A short description of item categories in Iragw. Kampala, 1958.

ИРАНИСТИКА – alm. Iranistik (f), ing. Iranistic /aɪˈr5nıstık/, fr. études iraniennes, azərb. iranşünaslıq. – 1) İrandilli xalqların mədəniyyətini, tarixini, ədəbiyyatını, maddi və mənəvi həyatını öyrənən fənlər kompleksi; 2) İran dillərini öyrənən dilçilik şöbəsi.

И.М.Оранский. Введение в иранскую филологию. М., 1960.

ИРАНСКИЕ ЯЗЫКИ – alm iranische Sprachen (Pl.), ing. Irani /ɪˈrɑ:nɪ/, Persian languages /ˈpə:ʃ(ə)n ˈl5ŋgwɪʤɪz/, fr. langues iraniennes, azərb. iran dilləri. – Hind-Avropa dilləri ailəsinin İran dilləri qrupu. 60 milyon adamın danışdığı 40 dili birləşdirir: fars, puştu, kürd, beluc, osetin və Qafqazda bir çox etnik azlıqların dili. Qədim yazılı abidələri aramik dilindən törəmiş pəhləvi və manixek dialektlərində olub. Əsas əlamətləri: sanskritdən uzaqlaşması, məlum növ fellərdə erqativ sistemin inkişafı, bu kürd və puştu dillərində qalmışdır, ancaq fars dilində təsirlik hal ilə əvəz olunmuşdur. Hal sistemi aradan çıxmışdır, analitik strukturlar genişlənir, cümlə tərkibində MTX və ya MXT söz sırası mövcuddur.
И.М.Оранский. Введение в иранскую филологию. М., 1960.

ИРЛАНДСКИЙ ЯЗЫК - alm. Irisch (n), ing. Irish language /ˈaɪ(ə)rɪʃ ˈl5ŋgwɪʤ/, fr. lˈirlandais, azərb. irland dili. – Kelt dillərindən biridir. İrlandiyada yayılmışdır və ingilis dili ilə bərabər onun rəsmi dövlət dilidir. 1 milyona qədər daşıyıcısı vardır (İrlandların böyük əksəriyyəti ingilis dilindən istifadə edirlər). 3 dialektə bölünür: munster, konnaxt və ulster.
R.Thurneysen. A grammar of Old Irish. Dublin, 1946; G.F.Meier, B.Meier. Göstərilən əsər, s. 87.

ИРОКЕЗСКИЕ ЯЗЫКИ – alm. irokesische Sprachen (Pl.), ing. Iroquois languages /ˈɪrəkw6ɪ,-k6ɪ ˈl5ŋgwɪʤɪz/, fr. langues irokˈzes, azərb. irokez dilləri. – Şimali Amerikada 8 dili əhatə edən dil ailəsidir. Ən böyük dili çeroki də (Cherokee) təxminən 20.000 əhali danışır. Kaddo, kitsau, pavni, arikara dilləri ilə birlikdə irokua–kaddo dillər ailəsinə daxil olan dillər qruppu. Amerikanın şimalında və Kanadada yayılmışdır.
N.M.Holmer. The character of the Iroguoian languages. Upsala, 1952.

ИРОНИЯ - alm. Ironie (f), ing. irony /ˈaɪərənɪ/, fr. ironie, azərb. İroniya, istehza. – Gizli istehza, dolamaq məqsədi ilə sözü əks mənada işlətmə üsülundan ibarət üslubi xüsusiyyət. Məs.: Azərb. d. /Sən əjdahasan//. Lağa qoymaq mənasında; alm. d. /Du bist wunderschön// (Sən möcüzəsən) və s.

downloaded from KitabYurdu.org

Bu zaman qüvvətləndirici ədatlar, modal sözlər, intonasiya geniş tətbiq olunur.
P.H.Matthews. Göstərilən əsər, s. 187.

ИРРАЦИОНАЛЬНЫЙ - alm. irrational, ing. irrational sound /ɪ'r5ʃənl saund/, fr. irrationnel, azərb. irrasional. - 1) Eyni bir dildə normal uzunluğa malik saitə nisbətən qısa tələffüz olunan sait; 2) Müasir rus d. vurğudan əvvəlki mövqedə yerləşən saitlərdən başqa yerdə qalan bütün vurğusuz hecalarda gələn saitlərin umumi adı. Məs.: rus d. birinci, mütləq başlanğıc istisna olmaqla yerdə qalan mövqelərdə (ikinci, üçüncü və vurğudan sonrakı) gələn saitlər.
O.C.Ахманова. Göstərilən əsər, s. 185.

ИРРЕАЛЬНАЯ МОДАЛЬНОСТЬ - alm. irreale Modalität (f), ing unreal modality /'ʌn'rɪəl məu'd5lɪtɪ/, fr. modalité irréelle, azərb. qeyri-real modallıq. - Dildə ifadənin məzmunun qeyri-mümkün, qeyri-real təsviri.
Bax: Модальность →.

ИРРЕАЛЬНОЕ НАКЛОНЕНИЕ - alm. irrealer Modus (m), ing. mood of unreal condition /mu:d əv ʌn'rɪəl kən'dɪʃən/, fr. mode irréel, azərb. qeyri-real fel forması. - Elə bir fel formasıdır ki, müəyyən hərəkətin (vəziyyət və prosesin) gerçəklikdə olmadığını, həm də onun baş verə biləcəyinin mümkünsüz olduğunu göstərir. Alm. d. bunun üçün felin xüsusi şəkli var ki, buna konyunktiv deyilir.
Bax: Обтатив →.

ИРРЕАЛЬНЫЙ ПРЕТЕРИТ - alm. irreales Präteritum (n), ing. preterite of irreality /'pretərit əv ɪ:'reəlɪtɪ/, fr. pertérit irréel, azərb. qeyri-real preterit. – Qeyri-real şərt və istəklərin ifadəsi üçün işlədilən preterit forması. Şərt şəkli əvəzində işlədilir. Alm. d. buraya kondisionalis I və II formaları Аид-дир. Məs.: alm. d. *Käme* er doch! (Bir o gələydi!) Wenn er doch *käme*! (Əgər o gəlsəydi!) Daβ er *käme!* (Kaş gələydi) Ich wollte, mein Karl *wäre* so weit! (Mən istərdim mənim Karl belə olsun!) Noch einmal anfangen? (Birgə başlamaq?) Aber es hülfe nichts. (Amma heç bir köməyi olmaq) Wie, wenn *ich* stürzte? (Necə, mən yıxılsaydım?) Du wüßtest nicht, wer er sei? (Sən bilmirdin, o kim idi?)
İrreal preteritin bütün növləri aşağıdakı semlərə malikdirlər: hipotetiklik, daxili inkar, indiki və ya gələcək zaman.
H.Glinz. Göstərilən əsər.

ИРРЕЛЕВАНТНЫЙ - alm. irrelevant, ing. irrelevant /ɪ'relɪvənt/, fr. non-pertinent, azərb. qeyri-relevant, irrelevant. - Semioloji dəyərlilikdən məhrum, işarə funksiyasını yerinə yetirməyə qabil olmayan irrelenvant əlamətlər. Azərb. d. yumşaqlıq fonetik vəziyyətlə bağlı olduğundan o əlamət irrelavantdır. Məs.: /læl/, ancaq /lal/.

downloaded from KitabYurdu.org

N.S.Trubeskoy. Göstərilən əsər. Fonologiyanın əsasları. Almancadan tərcüəsi, «Son söz» və «Qeydlər» prof. F.Veysəllinindir. Bakı, 2001, s. 40.

ИСКЛЮЧЕНИЕ - alm. Ausnahme (f), ing. exclusion /ɪksˈklu:=(ə)n/, exseption /ɪkˈsepʃən/, fr. exception, expulsion, azərb. istisna. – Sözdəyişənin müəyyən paradiqmindən yayınma, sintaktik model və ya müəyyən leksik qanunauyğunluqdan kənara çıxma. Rus d. /*путь*/ sözünün hallanması bütün hallarda III hallanmaya uyğun gəlsə də, «творительный падеж»də fərqli hallanmaya malikdir. Məs.: rus d. /путью/ əvəzinə /путем/.

O.C.Ахманова. Göstərilən əsər, s. 185.

ИСКЛЮЧИТЕЛЬНЫЙ - alm. ausschließlich, ing. exceptional /ɪkˈsepʃənl/, exclusive /ɪksˈklu:sɪv/, fr. exclusif, exceptionnel, azərb. istisnasız - Nisbətən dar mənaya malik olan, məhdud predmetlər dairəsinə aid olan.

Bax: Исключение ←.

ИСКОННОЕ СЛОВО (ПЕРВИЧНОЕ СЛОВО) - alm. Erbwort (n), volkstümliches Wort (n), ing. vernacular word /vəˈn5kjulə wə:d/, aboriginal /ˌ5bəˈrɪʤənl/, fr. mot d'origine, azərb. əsl, ilkin söz. - Müəyyən dilin ilkin lüğət tərkibinə aid olan nisbətən köhnə (əsas) söz. Məs.: Azərb. d. /ev, at, yaman, yaxşı/ və s.

S.Cəfərov. Azərbaycan dilinin leksikası. Bakı, 1970.

ИСКУССТВЕННЫЙ ЯЗЫК - alm. künstliche Sprache (f), ing. artificial language /α:tɪˈfɪʃ(ə)l ˈl5ŋgwɪʤ/, fr. langue artificielle, azərb. süni dil. - Təbii dillərin ünsürlərindən düzələn və beynəlxalq ünsiyyət vastəsi funksiyasında işlənilmək üçün nəzərdə tutulan dillər: esperanto, ido, volapük, interlinqua, oksidental, novial, acuvanto, unversalqlot və s. Esperanto süni dili 28 hərfdən ibarətdir ki, onlardan beşi saitdir. Qrammatikası sadə olub, 16 qaydası var. Bu qaydalarda heç bir istisna yoxdur. Bir neçə saat ərzində həmin süni dili öyrənmək mümkündür. Bəziləri Esperantonu rəsmən Beynəlxalq dil kimi qəbul etməyi tələb edirlər.

F.Veysəlli. Dil, cəmiyyət və siyasət. Bakı, 2004.

ИСЛАНДСКИЙ – alm. Isländisch (n), ing. island /ˈʌɪlənd/, islandic /ˈaɪsˈl5ndɪk/, fr. islandais, d'Islande, azərb. island dili. – Şimali german dili olan bu dil 1935-ci ildən İslandiyanın rəsmi dilidir, 250.000 adam danışır. Fransız dilinin elementləri həddən artıq çoxdur, morfoloji göstəriciləri kifayət qədər çoxdur.

М.И.Стеблин-Каменский. Древнеисландский язык. М., 1955.

ИСПАНСКИЙ ЯЗЫК – alm. Spanisch (n), ing. Spanish language /ˈsp5nɪʃ ˈl5ŋgwɪʤ/, fr. langue espagnole, azərb. ispan dili. – Roman dil ailəsinə aid olan dillərdən biridir. İspaniyanın və Latın Amerikasının 19 dövlətinin rəsmi dilidir. 300 milyon insan bu dildə danışır. BMT-nin altı rəsmi dilindən biridir. Fonoloji sistemində 5 sait fonem mövcuddur. Felin 14 zaman forması vardır. Yazısı latın qrafikasına əsaslanır.

Э.И.Левинтова, Е.М.Вольф. Испанский язык. М., 1964; Г.В.Степанов. Испанский язык в странах Латинской Америки. М., 1963.

downloaded from KitabYurdu.org

ИСТИННЫЙ ДИФТОНГ - alm. echter Diphthong (m), ing. real (full) diphthong /ˈrıəl /ful/ ˈdıfθɔŋ/, fr. le vrai diphtongue, azərb. həqiqi diftonq.
Bax: Дифтонг ←.

ИСТОРИЗМ - alm. Historismus (m), ing. historizm /ˌhistɔ:rızm/, fr. historisme, azərb. tarixizimlər. – İfadə etdikləri əşyaların köhnəlib aradan çıxması ilə əlaqədar istifadə olunmayan, gündəlik həyatda işlədilməyən sözlər. Məs.: Azərb. d. /ərbab/, /rəmmal/, /münəccim/, /kəndxuda/, /xış/, /gavahın/ və s.
Ю.С.Маслов. Göstərilən əsər, s. 267.

ИСТОРИЧЕСКИЙ - alm. historisch, ing. historic(al) /hısˈtɔrık(əl)/, fr. historique, azərb. tarixi. - Zaman keçdikcə dil hadisələrinin dəyişmə və inkişafını öyrənən: dil faktlarının ən qədim dövrlərdən başlayaraq bu gunə kimi keçib gəldiyi tədrici inkişafı öyrənən. Tarixi qrammatika. Tarixi dilçilik. Tarixi fonetika. Tarixi dialektologiya və s.
Т.А.Амирова, Б.А.Ольховиков, Ю.Б.Рождественский. Очерки по истории лингвистики. М., 1973.

ИСТОРИЧЕСКАЯ ГРАММАТИКА - alm. historische Grammatik (f), ing. historical grammar /hısˈtɔrıkəl ˈgr5mə/, fr. grammaire historique, azərb. tarixi qrammatika. - Bu qrammatikanın iki növu fərqləndirilir: 1) tarixi diaxronik qrammatika – sözlərin, söz formalarının, söz birləşmələrinin, habelə qrammatik kateqoriyaların tarix boyu dəyişmə və inkişaf xüsusiyyətlərini öyrənir; 2) tarixi sinxronik qrammatika-müəyyən bir tarixi dövrdə qrammatik ifadə vasitələrini və qrammatik hadisələrin xüsuyyətlərini öyrənir.
Bax: Исторический ←.

ИСТОРИЧЕСКАЯ ЛИНГВИСТИКА - alm. historische Linguistik (f), ing. historical linguistics /hısˈtɔrıkəl lıŋgwıstıks/, fr. linguistique historique, azərb. tarixi dilçilik. - Dili yalnız onun konkret tarixi inkişafı ilə əlaqədar öyrənməyi tələb edən dilçilik cəryanı. Məs.: H.Paul israr edirdi ki, dilçilik yalnız tarixi ola bilər.
Bax: Исторический ←.

ИСТОРИЧЕСКИЙ ПРИНЦИП ОРФОГРАФИИ - alm. historisches Prinzip der Orthographie (n), ing. historical (conservative) principle of orthography /hısˈtɔrıkəl/kənˈsə:vətıv/ˈprınsəpl əv 6:ˈθ6grəfı/, fr. principe historique de lˈorthographe, azərb. tarixi (ənənəvi) orfoqrafiya prinsipi. - Ənənəvi prinsipdə müasir dilin nə morfoloji, nə də fonetik xüsusiyyətləri nəzərdə tutulur. Söz tarixən necə tələffüz olunubsa, elə də yazılır. Lakin sonralar sözün tələffüzündə müəyyən dəyişikliklər meydana gəlməsinə baxmayaraq, onun yazılışında dəyişiklik edilmir. Məs.: Azərb. d. /ibtidai/, heç bir /iqtisadi/, /ictimai/ və s.
I Всесоюзный тюркологический съезд. 26. II–5. III 1926, (Стенографический отчет). Баку, 1926, s. 155-171.

downloaded from KitabYurdu.org

ИСТОРИЧЕСКАЯ ФОНЕТИКА - alm. historische Phonetik (f), ing. historical phonetics /hɪsˈtɔrɪkəl fəuˈnetɪks/, fr. pronétique historique, azərb. tarixi fonetika. - Dilin səs sisteminin təşəkkülünü, inkişafını və müasir şəkilə düşməsi səbəblərini tədqiq edən fonetika bölməsi.
A.Axundov. Azərbaycan dilinin tarixi fonetikası. Bakı, 1988.

ИСТОРИЧЕСКОЕ НАСТОЯЩЕЕ - alm. Präsens-Historikum (n), ing. historical present /hɪsˈtɔrɪkəl ˈpreznt/, fr. présent historique, azərb. tarixi indiki zaman. - Danışığa xüsusi çalar vermək məqsədilə, keçmişdə baş vermiş hərəkət və prosesi təsvir etmək üçün indiki zaman formasının işlədilməsi. Məs.: Azərb. d. /Dünən işdən gəlirəm, görürəm ki, həyətdə adamlar yığışıb. Eşidirəm, nə haqqdasa mübahisə gedir// və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 186.

ИСТОРИЧЕСКОЕ ПРОШЕДШЕЕ - alm. historische Vergangenheit (f), ing. historic past /hɪsˈtɔrɪk pɑ:st/, narrative past /ˈn5rətiv pɑ:st/, fr. passé historique défine, simple, azərb. tarixi keçmiş. - Hərəkətin tamamilə keçmişə aid olduğunu, onun inkişafını və ya tam bitdiyini göstərən felin zaman forması.
O.C.Ахманова. Göstərilən əsər, s. 186.

ИСТОЧНИК ЗАИМСТВОВАНИЯ - alm. Quelle der Entlehnung (f), ing. source of borrowing /s6:s əv b6rouɪŋ/, fr. source d'emprunt, azərb. söz almanın mənbəyi. - Sözalma mənbəyi olan dil (etimon dil).
Ю.C.Маслов. Göstərilən əsər, s. 241-290.

ИСХОД АБСОЛЮТНЫЙ - alm. absoluter Auslaut (m), ing. absolute final /5bsəlu:t ˈfaɪnəl/, fr. finale absolue, azərb. mütləq sonluq. - Sözün fasilədən əvvəlki pozisiyası, daha doğrusu, cümlədə axırıncı sözün sonu. Məs.: Azərb. d. /Payız gəldi/ cümləsində /i/ fonemi mütləq sonluğu bildirir.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.

ИСХОД ОСНОВЫ - alm. Wortstammauslaut (m), ing. stem final /stem ˈfaɪnəl/, fr. thˈme issue, azərb. əsasın sonu. - Xüsusi fonetik və fonomorfoloji xüsusiyyətlərlə səciyyələnən əsasın son səsi və ya hecası.
Bax: Исход абсолютный ←.

ИСХОД СЛОВА - alm. Auslaut (m), ing. ultima /ˈʌltɪmə/, fr. mot finale, azərb. söz sonluğu (auslaut). – Söz birləşməsinin son hecasında, sözdə xüsusi fonetik və fonomorfoloji xüsusiyyətlərlə səciyyələnən səs. Rus d. adətən söz sonunda cingiltili samitlər kar qarşılıqları ilə əvəz olunurlar. Məs.: rus d. /хлеб–хлеп/, /дуб-дуп/ və s.
Bax: Исход абсолютный ←.

ИСХОД ФОРМЫ - alm. Formenauslaut (m), ing. stem finale /stem ˈfaɪnl/, fr. forme finale, azərb. ilkin əsas. - Söz düzəltmənin və forma + düzəltmənin mənbəyi (çıxış nöqtəsi) keyfiyyətində çıxış edən sadə əsas. Məs.: Azərb. d. /dəmir/ - /dəmirçi-lər/- dən/.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 257.

downloaded from KitabYurdu.org

ИСХОДНОЕ ЗНАЧЕНИЕ - alm. primäre Bedeutung (f), ing. original (primitive) meaning /ə'rıʤənl /'prımıtıv/ˌmı: nınŋ/, fr. sens primitif, azərb. ilkin məna. - Dilçilikdə sözün əşyavi mənası kimi götürülən, sözün etimonu hesab edilən məna. Adətən sözün leksik mənası qrammatik mənaya qarşı qoyulur. Məs.: Azərb. d. /dəftər-lər/ sözündə əşyavi məna kimi dəftər hissəsi götürülür.
Bax: Значение ←.

ИТАЛИЙСКИЕ ЯЗЫКИ – alm. italische Sprachen (Pl.), ing. Italic languages /'ıt5lık 'l5ŋgwıʤız/, fr. langues italiques, azırb. itali dilləri. - İtaliya ərazisində çoxlu miqdarda, bu gün ölüb getmiş dialektləri birləşdirən Hind-Avropa dil qolu.
И.М.Тронский. Очерки по истории латинского языка. Л., 1953.

ИТАЛЬЯНСКИЙ ЯЗЫК– alm. Italienisch (n), ing. Italian language /ı't5ljən 'l5ŋgw9ʤ/, fr. langue italienne, azərb. italyan dili. – Roman dilləri qrupuna aid dil. Təxminən 65 milyon insan bu dildə danışır. İtaliyada, İsveçrədə, Fransada, Somalidə, Belçikada, Argentinada, Həbəşistanda və Monakoda italyan dili işlənir. İtaliya Respublikasının (həmçinin Vatikanın da) rəsmi dövlət dilidir. Toskaniya dili də bura aiddir. XVI əsrdən yazısı formalaşıb. Sondakı samit atılıb (məs.: lat. d. /domis→dormi/ «sən yatırsan»). Söz ortasında kar samitin saxlanması lat. d. /via→vita/ «həyat». Yüzdən artıq dialekti mövcuddur. İtalyan ədəbi dilinin əsasını florenti dialekti təşkil edir. Yazısı latın əlifbasına əsaslanır.
Т.Б.Алисова, Т.В.Черданцева. Итальянский язык. М., 1962.

ИТАЦИЗМ - alm. Itazismus (m), ing. itacism /'ı:təsız(ə)m/, fr. itacisme, azərb. itasizm. - Yunan dilinin postklassik dövründə sonda saitlərin dəyişməsi nəticəsində bir sıra sait və diftonqların «i» cərgəsinə keçməsi.
О.С.Ахманова. Göstərilən əsər, s. 186.

ИТЕЛЬМЕНСКИЙ ЯЗЫК – alm. Itelmenisch (n), ing. itelman language /aıtəl'm5n 'l5ŋgwıʤ/, fr. langue itelm'ne, azərb. itelmen dili. – Çukotkamçatka dillərindən biridir. Kamçatka yarımadasında sahilboyunda yayılmışdır. 200 mindən çox insan bu dildə danışır. Əsasən yaşlı nəslin nümayəndələri itelmen dilindən istifadə edirlər. İtelmen dili ona yaxın olan çukot və korsak dillərindən samit zənginliyinə görə kəskin fərqlənir. Leksik tərkibinə görə də itelmen dili sadalanan dillərdən fərqlənir.
А.П.Володин. Ительменский язык. Л., 1976.

ИТЕРАТИВНЫЙ - alm. iterativ, ing. iterative /ıtərətıv/, fr. itératif, azərb. iterativ. - Dəfələrlə baş verən, təkrarlanan hərəkəti ifadə edən fellər.
Bax: Вид ←.

ИТЕРАТИВНЫЙ ВИД - alm. Iterativ (n), Iterativum (n), ing. iterative aspect /'ıtərətıv '5spekt/, fr. voix itérative, azərb. iterativ növ. - Hər hansı iş və hərəkətin təkrarlandığını göstərən tərz. Məs.: Azərb. d. /gəlib-getmək/, /var-gəl etmək/.

downloaded from KitabYurdu.org

Bax: Вид ←.

ИТЕРАТИВНЫЙ ГЛАГОЛ - alm. iteratives Verb (n), ing. iterative verb /ˈɪtərətiv və:b/, fr. verbe itératif, azərb. iterativ fel. - Hərəkətin çoxdəfəliyini, təkrarlandığını göstərən fellər. Məs.: Azərb. d. /davam etdirmək/.

Bax: Глагол ←.

ИТЕРАТИВНОЕ СЛОЖНОЕ СЛОВО - alm. iterative Zusammensetzung (f), ing. iterative compound word /ˈɪtərətɪv ˈkɔmpaund w8:d/, fr. mot composé itératif, azərb. iterativ mürəkkəb söz. - Eyni sözün təkrarı ilə düzələn mürəkkəb söz. Məs.: Azərb. d. /tez-tez/, /aşıq- aşıq oynamaq/, /dava-dava oynamaq/.

O.C.Ахманова. Göstərilən əsər, s. 186.

ИШКАШИМСКИЙ ЯЗЫК – alm. Ischkaschimi (n), ing. ishkashimi language /ɪʃkɑ:ʃɪmɪ: ˈlɔŋgwɪʤ/, fr. langue ichkachimique, azərb. işkaşim dili. – Pamirdə yayılmış dillərdən biridir. Əsasən Əfqanıstanın şimal-şərqindəki Bədəxşan vilayətində və Tacikistanın Dağlıq Bədəxşan muxtar vilayətində yayılmışdır. 700 minə qədər insanın danışdığı bu dil əsasən iki dialektə bölünür: işkaşim (Tacikistanda) və sanqliç (Əfqanıstanda).

T.H.Пахалина. Ишкашимский язык. M., 1983.

– Й –

ЙЕЛЬСКАЯ ШКОЛА – Bax: дескриптивная школа ←.

ЙОРУБА - alm. Yoruba , ing. Yoruba /j6:'rʌbə/j6:rəbə/, fr. yorouba, azərb. yoruba. – Kva dillərinə daxil olan dillərdən biridir. Nigeriyanın qərb və cənub-qərbi bölgələrində işlənir. Benində, Toqo və s. ölkələrdə yayılmışdır. Yoruba xalqının törəmələri Kuba adasında yaşayırlar. 20 milyona ədər əhali bu dildə danışır. Nigeriyada bəzi ştatlarda rəsmi dil səviyyəsində fəaaliyyət göstərir. Təqribən 30-a yaxın dialekti məlumdur: oyo, ife, icebu, eqba və b. Fonoloji sistemində 14 sait fonem mövcuddur. Təcrid edilmiş dildir, qrammatik mənalar leksik və sintaktik yolla verilir. Köməkçi söz rolunda, adətən, əsas sözlər çıxış edirlər. Ədəbi dili yo dialekti əsasında formalaşmışdır. Nigeriyada yoruba dilində radioda verilişlər verilir, Benin və Nigeriyada orta məktələrdə ibtidai siniflərdə tədris olunur, həmçinin universitetlərdə bu dillə bağlı elmi tədqiqatlar aparılır.

B.K.Яковлева. Язык йоруба. M., 1963; A.Bamgose. A grammar of Yoruba. Cambridge, 1966.

ЙОТ – alm. Jot (i) ing. nonsyllabic palatal fricativ (semivowel) /nɔn sılæbık pælətalæl frıkətıv/, fr.yod, azərb. yot. – Əvvəldə gələn səsə bitişən dilortası novlu sonant, transkripsiyada /j/ vasitəsilə göstərilir. Məs.: rus d. /бью/ - /b'ju/.

O.C.Ахманова. Göstərilən əsər, s. 187.

downloaded from KitabYurdu.org

ЙОТАЦИЯ - alm. Jotierung (f), ing. yotation /jɔteɪʃən/, fr.yotation, azərb. yotlaşma. – Sözün başlanğıcında saitdən əvvəl və ya saitlər arasında yot səsinin əmələ gəlməsi.
О.С.Ахманова. Göstərilən əsər, s. 187.

– К –

КАБАРДИНСКИЙ ЯЗЫК – alm. Kabardinisch (n), ing. kabardin language /kə'bɑ:dıən 'l5ŋgwıʤ/, fr. langue kabardienne, azərb. kabardin dili. – Şimal-qərbi Qafqaz dilləri (abxaz-adigey dilləri). 370 min adam danışır və 5 dili əhatə edir: abxaz, abazin, adıgey, kabardin və ölü hesab edilən ubıx dili. Fonem invertarı iki sait və 80-ə qədər samitdən təşkil olunmuşdur. Sadə hal sistemi (erqativ), ən mürəkkəb fel sisteminə malikdir.
Н.Ф.Яковлев. Грамматика литературного кабардино-черкесского языка. М., 1957.

КАБИЛЬСКИЙ ЯЗЫК – alm. Kabylisch (n), ing. kabyle language /ka:'bil 'l¾ŋgwıʤ/, fr. le kabonlien, azərb. kabil dili. – Bərbər-Liviya dillərindən biridir. Əlcəzairin dağlıq ərazilərində yayılmışdır. 2,6 milyon əhalinin danışdığı bu dil iki dialektə bölünür: böyük və kiçik kabiliyyə. Fonoloji sistemi dörd sait fonemə – /a/, /i/, /u/, /ə/ və nisbətən zəngin samitlər yarımsisteminə malikdir. Lüğət tərkibində ərəb dilindən keçmə sözlər üstünlük təşkil edir.
R.Basset. Manuel de la langue Kabyle. P., 1887; A.Ricvard. Textes berberes dans le parle des Irjen. T.1-2, Alger, 1958.

КАДАЙСКИЕ ЯЗЫКИ – alm. Kadai-Sprachen (Pl.), ing. Kadai languages /ka:'daı 'l¾ŋgwıʤız/, fr. les kadaïs, azərb. kaday dilləri. – Cənub-şərqi Asiyada 60 dili əhatə edir. Kaday dilləri kök dillərə aiddir. Bu dillərdə əksər hallarda morfem sərhədi heca sərhədi ilə üst-üstə düşür. Ən böyük dili tay (30 milyon) və ladlaos (17 milyon) dilləridir. Yazısız dillərdir.
С.Е.Яхонтов. В защиту аустро-тайской гипотезы. «Ностратические языки и ностратическое языкознание». М., 1977.

КАДУГЛИ ЯЗЫКИ – alm. Kadugli-Sprachen (Pl.), ing. Kadugli languages /'kaudugli: 'l¾ŋgwIʤız/, fr. langues kadouglies, azərb. kaduqli dilləri. - Afrikada 300 mil. adamın danışdığı dillər. İki qrupa bölünür: nigeriya-konqo və bir qədər kiçik kordofan dili: öz xüsusi isim klasları ilə fərqlənirlər.
G.F.Meier, B.Meier. Handbuch der Linguistik und KommuNikationswissenschaft. Bd. I, Berlin, 1979, s. 225.

КАВЫЧКИ - alm. Anführungszeichen (Pl.), ing. inverted commas /ın'və:tid 'kɔməs/, quotation marks /kwəu'teıʃ(ə)n mɑ:ks/, fr. guillemets,

downloaded from KitabYurdu.org

azərb. dırnaqlar. – Dırnaq («») işarəsi. Mətndə vastəsiz nitqi, sitatları, əsər, qəzet və jurnal adlarını, sözlərin məcazi mənalarını fərqləndirmək üçün işlədilən qoşa durğu işarəsi (« ») və ya (“”). «Müasir dünyamızda hegemonluq uğrunda mübarizə təkcə siyasi və iqtisadi, dini və mədəni sahələrdə deyil, həm də dil sahəsində geniş vüsət almışdır».
F.Veysəlli. Dil, cəmiyyət və siyasət. Bakı, 2004, s. 93; O.C.Ахманова. Göstərilən əsər, s. 187.

КАДЕНЦИЯ - alm. Kadenz (f), ing. cadency /ˈkeɪdənsɪ/, fr. cadence, azərb. kadensiya. – Cümlənin intonasiya konturunda sonda (mürəkkəb cümlənin sonunda) reallaşan sintaqm. Məs.: Azərb. d. /Nahaq yerə deyil-məmişdir ki,/ (antikadensiya) /iş ustasından qorxar/ (kadensiya). (mübtəda budaq cümləsi).
O.C.Ахманова. Göstərilən əsər, s. 187.

КАЗАХСКИЙ ЯЗЫК – alm. Kasachisch (n), ing. kazakh language /kɑ:zɪk /kɑˈzɑ:h/ ˈl¾ŋgwɪʤ /, fr. le kazakh, langue kazakhe, azərb. qazax dili. – Türk dilləri ailəsinə daxil olan dillərdən biridir. Qazaxıstanda, Qırğızıstanda, Türkmənistanda, Çin Xalq Respublikasında, Monqolıstanda, Əfqanıstanda və Pakistanda yayılmışdır. 8 milyona qədər daşıyıcısı vardır. Fonoloji sistemində 9 sait fonem vardır. Sözün fonetik biçimində sinharmonizm mühüm əhəmiyyətə malikdir. Ədəbi dili XIX əsrdən formalaşmağa başlamışdır.
Г.Г.Мусабаев. Современный казахский язык. ч. 1. Лексика. Алма-Ата, 1959; Г.Г.Мусабаев. Современный казахский язык. ч. 2, Алма-Ата, 1962.

КАКОЛОГИЯ - alm. Kakologie (f), ing. cacology /k5ˈk6ləʤɪ/, fr. cacologie, azərb. kakologiya. – Düzgün olmayan söz seçimi və ya sözün səhv tələffüzü. Məs.: Azərb. d. /gəlmək/ əvəzinə /dəlmək/, /dolaşmaq/ əvəzinə /dollaşmaq/ və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 187.

КАКОФОНИЧЕЧКИЙ - alm. kakophonisch, ing. cakophonic /k5ˈk6ɔnɪk/, fr. cacophonique, azərb. kakofonik. - Musiqinin və ya danışığın qeyri-adi, yad səslənməsi. Məs.: /do/ yerinə /re/, /mi/ yerinə /fa/ çalanda və ya hər hansı bir mahnını oxuyarkən ritmi düz tutmayanda. Danışığın ritmi pozulanda.
Bax: Какофония →.

КАКОФОНИЯ - alm. Kakophonie (f), ing. cacophony /k5ˈkɔfənɪ/, fr. cacophonie, azərb. kakofoniya. - Səslərin qulağa xoş gəlməyən səslənməsi, qarmaqarışıq səs kompleksi. Əksər hallarda kakofoniya hadisəsi danışıqda eyni səslərin və onların birləşməsinin düzgün işlənməməsi zamanı yaranır. Məs.: Azərb. d. /yemək-içmək/, əvəzinə /yımax-içmax/, /bərk/ əvəzinə /bərik/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 135.

downloaded from KitabYurdu.org

КАКУМИНАЛЬНЫЙ СОГЛАСНЫЙ - alm. kakuminaler Konsonant (m), ing. cacuminal consonant /k5ˈkju:mınl ˈk6nsənənt/, fr. consonne cacuminalle, azərb. kakuminal samit. - Təlləffüz zamanı dilin yanları sərt damağa doğru qalxır. İng. d. /r-/ da dilin yanları yuxarı qalxır və çalovabənzər şəkil alır (kakumus ən yüksək nöqtə deməkdir) ona görə də ona kakuminal səs deyilir.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 184.

КАЛАМБУР (ИГРА СЛОВ) - alm. Wortspiel (n), Kalambur (n), ing. pun /p∧n/, (play) (up) on words /pleı əˈp ɔn wə:dz/, fr. calembour, azərb. kalambur (söz oyunu). - Danışıqda müəyyən məqsədlə eyni sözün müxtəlif mənalarının qarşılaşmasından və ya səs tərkibinə görə yaxın sözlərin sıralanmasından ibarət söz oyunu. Məs.: alm. d. /der Fischer Fritz fischte frische Fische// (Balıqçı Fris balıq tuturdu); Azərb. d. /Dişi, kar, kor, kürkü yırtıq kirpi/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 135.

КАЛАМБУРНЫЙ - Bax: Каламбур →.

КАЛМЫЦКИЙ ЯЗЫК – alm. Kalmykisch (n), ing. kalmyk language /ˈk¾lmık ˈl¾ŋgwıʤ/, fr. langue kalmouke, azərb. kalmık dili. – Monqol dillərindən biridir. Əsasən Kalmıkiyada, qismən də Astraxan, Rostov və Stavropol vilayətlərində, həmçinin Qırğızıstanın İssık-Kul gölünün sahilində yayılmışdır. İki dialektə bölünür: derbet və torqut. Fonetik biçimində damaq sinharmonizmi mühüm rol oynayır. Dəfələrlə əlifba dəyişmələrinə məruz qalmışdır. 1938-ci ildən kiril əlifbasına keçmişdir.
Б.Х.Тодаева. Калмыцкий язык. «Языки народов СССР», т. 5, Л., 1968.

КАЛЬКА (СЕМАНТИЧЕСКОЕ ЗАИМСТВОВАНИЕ) - alm. Lehnübersetzung (f), ing. translation loan-word calque /trænsˈleıʃən ˈloun wə:d ˈk¾lgu:/, fr. calque, azərb. kalka. - Başqa dilə məxsus söz və ya ifadələrin sırf hərfi tərcüməsindən yaranan tərcümə. Məs.: Rus sözü /рукопись/-/əlyazması/, /надстройка/-/üstqurum/, /подсистема/-/yarımsistem/, /Новая Земля/-/Yeni Torpaq/, /пылесос/-/tozsoran/; alm. d. /Staubsauger/; ing. d. /vacuumcleaner/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 136; Лингвистический энциклопедический словарь. М., 1990, s. 211.

КАЛЬКА СИНТАКСИЧЕСКАЯ - alm. syntaktische Lehnübersetzung (f), ing. syntactic(al) calque /sınˈtæktık(əl) ˈk¾lgu:/, fr. calque syntaxique; de syntaxe, azərb. sintaktik kalka-Başqa dilin bilavasitə təsiri ilə meydana çıxan sintaktik model, ifadə üsulu:. Məs.: rus d. /Говорит Баку/ - /Danışır Bakı/, /Слово предоставляется товарищу Ахмедову/, /Söz verilir yoldaş Əhmədova/.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 136.

КАЛЬКИРОВАНИЕ - alm. Kalkierung (f), ing. calque /ˈk¾lgu:/, modelling words and constructions after foreign patterns /ˈmɔdlıŋ wə:dz 5nd

downloaded from KitabYurdu.org

kən'strʌkʃən 'α:ftə 'fɔrın 'p5təns/, fr. calque, azərb. kalkalaşdırma. - Kalkalaşdırma zamanı əcnəbi dilə məxsus söz və ya ifadənin mənası və strukturu (onun təşkil prinsipləri) əxz edilir. Bu zaman əcnəbi dil vahidi bir növ başqa dilə tərcümə edilir. Bu da başqa dilin və ya dillərin leksik-semantik, leksik-sintaktik modellərinin əxz edilməsi yolu ilə yeni sözlərin yaranması və ya dilə yeni sintaktik quruluş qaydaları daxil edilməsi deməkdir. Məs.: Rus dilindəki /небоскреб/ sözü ingilis dilindəki /skyscraper/ sözünün məzmun və strukturunun mənimsənilməsi nəticəsində yaranmışdır. Bu söz Azərbaycan dilinə /göydələn/ kimi tərcümə edilmişdir.
S.Cəfərov. Müasir Azərbaycan dili. Leksika. Bakı, 1970, s. 71-72; A.A.Реформатский. Göstərilən əsər, s. 129, 142, 143, 145, 147.

КАЛЬКЮЛАЦИЯ – alm. Kalkulation (f), ing. calculation /,k¾lkju'leıʃ(ə)n/, fr. calculs, azərb. hesablama. - Əsas işarələrin və hərəkət qaydalarının deduktiv sistemi və bu sistemin mexaniki və matematik yolla göstərilməsi. Buraya hərflər, rəqəmlər, sözlər və məntiqi qaydalar daxildir. Hərəkət qaydalarına vurma, toplama və sintaktik birləşmə qaydaları aid edilə bilər. Təbii dillərin modelləşməsində hesablamalar ciddi rol oynayır (alqoritmlər, əmr qaydaları və s.). Törəmə qrammatikasında (transformasiyon qrammatikada) sonu məlum obyektlərin çoxluğundan (dilin sözlərindən) və qaydalardan (konstituyent struktur qaydalarından, transformasiya qaydalarından, rekursiv qaydalardan) sonu məlum olmayan cümlələr düzəltmək mümkündür. Elektron-hesablayıcı maşınlar məhz hesablama dili əsasında işləyir.
H. Bußmann. Göstərilən əsər, s. 365.

КАМАСИНСКИЙ ЯЗЫК – alm. Kamasinisch (n), ing. kamashin language /k5məʃın 'l5ŋgwıʤ/, fr. langue camassine, azərb. kamasin dili. – XX əsrin əvvələrində öldüyü fərz edilən samodiy dillərindən biridir. XVII əsrdə Rusiya federasiyasının Krasnoyarski vilayətində 500-ə qədər samodiylərinin bu dildə danışdıqları göstərilir. Sonralar kamasinlərin ya tamamilə xakaslaşmış, ya da ruslaşması nəticəsində bir millət kimi yer üzündən silinib itmişlər.
A.Künnap. System und Ursprung der Kamassischen Flexionssufffixe. 1-2, Nels., 1971-78.

КАМБОДЖИНСКИЙ ЯЗЫК – alm. Kambodshanisch (n), ing. Kombodian language /kam'bəʊdıən 'l¾ŋgwıʤ/, fr. cambodjien, azərb. kamboca dili, monkamer dili. - Cənub-şərqi Asiyada 140 dili birləşdirən dil ailəsi. Buraya vyetnam dili (50 milyon) və Kxmer (Kamboca 7 milyon) daxildir. Kxmer dili hindi, Vyetnam dili isə çin yazı ənənəsinə əsaslanır.
H. Buβmann. Göstərilən əsər, s. 365.

КАМБИДИНЕЗСКИЙ ЯЗЫК - alm. Kampidanesisch (n), ing. Kambidanez language /kam'bı:danez 'l¾ŋgwɪʤ/, fr. langue cambidinaise, azərb. kambidinez dili. - Arxaik və əlahiddə mövcud olan roman dillərin-

downloaded from KitabYurdu.org

dəndir. Sardiniyanın dilidir. Ancaq nə qərbi, nə də şərqi roman dillərinə aiddir. 1 milyon adam danışır, iki əsas dialektə bölünür: mərkəzi sardik və cənubi sardik (kambinazik).
G.F.Meier, B.Meier. Göstərilən əsər, s. 97.

КАМ-ТАЙСКИЙ, (КАДАЙ-ДАНСКИЙ) – alm. Kam-Tai, Kadai-Daisch Sprache (f), ing. Kame Thai /kam taı/, kad dan /kad d¾n/, fr. langue kad-dan, azərb. kam-tay, kad-dan dili. - Şərqi Asiyada 60-a qədər dili əhatə edir, onlardan ən mühümü tay dilidir. Ümumilikdə bu dillərdə 30 milyon əhali danışır. Ən böyük dili laodur (17 milyon əhali danışır).
H.Buβmann. Göstərilən əsər, s. 365.

КАННАДСКИЙ ЯЗЫК – alm. Kannada (n), ing. Kannada language /kα:nadə ˈlɔŋgwıʤ/, fr. langue cannadienne, azərb. kannad dili. – Dravid dillərindən biridir. Hindistanın cənub-qərbində (Karnataka ştatının rəsmi dövlət dilidir) yayılmışdır. 31 milyon daşıyıcısı vardır. Üç dialektə bölünür: sahilboyu, mərkəzi və şərqi.
M.C.Андронов. Язык каннада. M., 1962.

КАННСКИЙ-ХАККА – Bax: Китайский →.

КАНОНИЧЕСКАЯ ФОРМА - alm. kanonische Form (f), ing. canonic form /kəˈnɔnık fɔ:m/, fr. forme canonique, azərb. sözün adi, yayılmış forması. - Bu və ya digər dildə geniş yayılmış, çox işlək dil formaları. Məs.: semit dillərində üç samitli əsasların yayılması, çin dilində təkhecalı sözlərin üstünlük təşkil etməsi və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 188.

КАНТЕ – alm. Kante (f), ing. cant /k¾ˈnt/, fr. cante, azərb. kante. - Ağac şəkilli sintaktik təsvirdə tərəfləri birləşdirən xətlər. Məs: Azərb. d. /O müəllimdir/ cümləsi belə olacaq:



H.Buβmann. Göstərilən əsər, s. 365.

КАНТОНЕЗСКИЙ – Bax: Китайский →.

КАНУРИ – alm. Kanuri (n), ing. Kanuri /kaˈnurı:/, fr. kanouri, azərb. kanuri. – Saxar dillərindən biridir. Geniş mənada kanembu dillərini də əhatə edir. Çad, Nigeriya və Kamerunda yayılmışdır. 4,5 milyondan artıq daşıyıcısının olduğu göstərilir. Nigeriyada məktəblərdə tədris dilidir, həmçinin yerli inzibati təşkilatlarda işlədilir.
J.Lukas. A study of the Kanuri language. L., 1937.

КАНЦЕЛЯРСКИЙ - alm. Kanzleisprache (f), ing. bureaucratic /ˌbjuərouˈkrætık/, formal /ˈfɔ:m(ə)l/, fr. de bureau, administratif, azərb. dəftərxana üslubu. - Quru, bədiilikdən, ifadəlikdən, fərdilikdən uzaq, fel və

downloaded from KitabYurdu.org

sifətlərin əvəzinə isimlər işlədilən, şablon ifadələrdən (klişe) gen-bol istifadə olunan üslub. Almaniyada 1350-1600-ci illərdə dialektlərin fövqündə duran dil uğrunda mübarizə başladı. Praqada IV Karl bu işdə xüsusi rol oynadı. Sonra dialektlərə bölünmüş Almaniyada Sakson dialektinə əsaslanan dəftərxana dilinin inkişafında M.Lüter (1483-1546) əvəzsiz rol oynadı.
H.Buβmann. Göstərilən əsər, s. 365.

КАПУЧИНСКИЙ ЯЗЫК – Bax: Бежтинский язык ←.

КАРАИМСКИЙ ЯЗЫК - alm. Karaimisch (n), ing. Karaim language /ˈkɑ:rım ˈlɔŋgwıʤ/, also Karaite /ˈkɛəraıt/ fr. le karaïmien, azərb. karaim dili. – Türk dillərindən biridir. Keçmiş sovetlər məkanında adacıqlar şəklində ayrı-ayrı ərazilərdə (Krım, Ukraina, Litva və s.) yayılmışdır. 500 mindən yuxarı daşıyıcısının olduğu göstərilir. Üç dialektə bölünür: krım, trakay və qalisa.
К.М.Мусаев. Грамматика караимского языка. М., 1964.

КАРАКАЛПАКСКИЙ ЯЗЫК - alm. Karakalpakisch (n), ing Karakalpak language /kɑ:rɑ: kɑ:lˈpɑ:k ˈlɔŋgwıʤ/, fr. langue karakalpake, azərb. qaraqalpak dili. – Türk dillərindən biridir. Qaraqalpaq muxtar vilayətində, Qazaxıstan və Özbəkistan respublikalarında yayılmışdır. 290 minə qədər daşıyıcısı vardır. Ərazi baxımından iki əsas dialektə bölünür: şimal-şərqi və cənub-qərbi. Yazısı 1924-28-ci illərdə ərəb, 1940-cı ildən isə rus qrafikası əsasında formalaşmışdır.
Д.Насыров. Становление каракалпакского общенародного разговорного языка и его диалектная система. Нукус, 1976.

КАРАТИНСКИЙ ЯЗЫК - alm. Karatisch (n), ing. Karatin language /ˈkar5ti:n ˈlɔŋgwıʤ/, fr. langue karatine, azərb. karatin dili. – Avar-andiy dillərindən biridir. Axvax bölgəsinin bəzi aullarında və Xasavyurt bölgəsinin Siux kəndində yayılmışdır. 6 minə qədər insanın ünsiyyət vasitəsidir. Ançix, arçoy, raçabalrasitlin və tokitin dialektlərinə bölünür. Yazısız dildir.
З.М.Магомедбекова. Каратинский язык. Тбилиси, 1971.

КАРАЧАЕВО-БАЛКАРСКИЙ ЯЗЫК - alm. Karač(tsch)aisch-Balkarisch (n), ing. Karachai-Balkar language /ˈka:ra:ʧı: bʌlk7:r/ ˈb6:lkər ˈlæŋgwıʤ/, fr. langue karatchaï-tcherkesse, azərb. qaraçay-balkar dili. – Türk dilləri ailəsinə aiddir. Əsasən Kabardin-Balkar və Qaraçay-Çərkəz vilayətlərində yayılmışdır. 190 minə qədər insanın danışdığı dildir. Əlifbası 1937-ci ildən rus qrafikasına keçmişdir.
У.Б.Алиев. Синтаксис карачаево-балкарского языка. Нальчик, 1987.

КАРДИНАЛЬНЫЕ ГЛАСНЫЕ - alm. Kardinalvokale (Pl.), ing. cardinal vowels /ˈka:dınl ˈvaʊəlz/, fr. voyelles cardinales, azərb. kardinal

downloaded from KitabYurdu.org

saitlər. - İngilis alimi D.Jouza (1881-1967) əsaslanan müstəqil, əvvəlcə iki, sonra isə üç ölcülü əlaqələr sistemindən ibarət mücərrəd saitlər sistemi.
Akademik L.V.Şerba 1937-ci ildə saitlərin cədvəlini aşağıdakı kimi çap etdirir.

ön	qarışıq	arxa
y i	ЫI	ɯ u
ʏI		ʊʊ
øe	ə	ɣo
œɛ	ɜ	ʌɔ
æ		
a	ɑɒ	

Cədvəldən göründüyü kimi, L.V.Şerba dilin şaquli istiqamətdə hərəkətinə görə 6 növ sait fərqləndirir. Özü də konkret yüksəlişlər arasında konkret xətt göstərilmir. Yəni bir yüksəlişdən o birisinə keçid ardıcıl və arasıkəsilməzdir. Burada onların dəqiq eşidilməsi və fərqlənməsi əsas götürülür. Bu cədvəl ümumilikdə bütün dillərin sait sistemlərinə tətbiq edilə bilər.
Л.В.Щерба. Фонетика французского языка. М., 1948, s.283; Л.Р.Зиндер. Общая фонетика. М., 1979, s. 198-200; F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 329.

КАРЕЛЬСКИЙ ЯЗЫК – alm. Karelisch (n), ing. Kareli(an) language /ˈk¾relj(ən) ˈlɔŋgwɪʤ/, fr. langue carélie, azərb. karel dili. – Pribaltika-fin dillərindən biridir. Əsasən Kareliya, Kalininqrad, Leninqrad və Novoqorod vilayətlərində yayılmışdır. Təqribən 80 minə qədər daşıyıcısı vardır. Üç dialektə bölünür: karel, livvik və lüdikovski.
Г.Н.Макаров. Карельский язык. «Языки народов СССР», т. 3, М., 1966.

КАРЕНСКИЕ ЯЗЫКИ – alm. karenische Sprachen (Pl.), ing. Karen languages /k¾ˈren ˈlɔŋgwɪʤɪz/, fr. les langues careniennes, azərb. karen dilləri. – Çin-Tibet dilləri ailəsinə aid dillər qrupu. Tailanda qonşu olan Mıyanma vilayətində yayılmışdır. 3,3 milyona qədər daşıyıcısının olduğu göstərilir. Onlardan 190 mini Tailanda yaşayır. Karen dilləri daxilində cənub-şərqi və şimal qollarına ayrılır. Karen dilləri hecalı və tonlu dillərdir.
R.Jones. Karen linguistic studies. Berk, Los-Ang., 1961.

КАРИБСКИЕ ЯЗЫКИ – alm. karibische Sprachen (Pl.), ing. Karib languages /ˈka:rib ˈlɔŋgwɪʤɪz/, fr. langues des caraïbes, azərb. karib dilləri. - Şimali Amerikada 50-dən artıq dili əhatə edir, bu dildə 25.000 adam danışır. Hazırda bu makro-karib ailəsinə aid edilir.
H.Buβmann. Göstərilən əsər, s. 365.

downloaded from KitabYurdu.org

КАРИЙСКИЙ ЯЗЫК – alm. Karisch (n), ing. Cariens language /karıəns ˈlɔŋgwıʤ/, fr. le cari, azərb. kari dili. – Hett-luviya dillərindən biridir. Misir ərazisində yayılmış dillərdən hesab olunur.
И.М.Дъяконов. Карийский алфавит и его место среди древнейших алфавитных письменностей. «Вестник древней истории», 1967, №2.
КАРКАС ЯЗЫКА РЕЛЯЦИОННЫЙ - alm. relationelles Sprachnetz (n), ing. relational frame work of language /rıˈleıʃənl freım w8:k əv ˈlɔŋgwıʤ/, fr. carcasse de la langue relationnelle, azərb. relyasyon dil çərçivəsi. - Konkret dilin real sistemi (əlaqələr şəbəkəsi) ilə müəyyənlişdirilə bilən mücərrəd münasibətlər sistemi.
O.C. Ахманова. Göstərilən əsər, s. 189.
КАРТАВЫЙ - alm. uvular, ing. burring /ˈb8:nıŋ/, fr. grasseyé, azərb. kartavıy. - Dilçəyin və ya dil kürəyinin arxa hissəsinin yumşaq damağa yaxınlaşması nəticəsində yaranan səs. Azərb. d. bəzən dilönü /r/ samiti əvəzinə dilçək /R/-sı tələffüz olunur. Məs.: Azərb. d. /qarğa/ əvəzinə /qaRqa/ və s. Fr. və alm. dillərində isə bu cür tələffüz norma sayılır.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 184.
КАРТВЕЛЬСКИЕ ЯЗЫКИ – alm. kartvelische Sprachen (Pl.), ing. khartwel languages /kartwel ˈlɔŋgwıʤız/, fr. langues kartvˈles, azərb. kartvel dilləri. – Qafqaz dillərinin cənub qrupu. Əsasən Gürcüstanda, qismən də Azərbaycanda, Türkiyyədə və İranda yayılmışdır. 3,5 milyon daşıyıcısı olan bu dillərə 4 dil aiddir: gürcü, meqrel, laz (çan) və svan. Fonoloji sistemində 6-7 sait və 28-30 samit fonemin olduğuğu göstərilir.
Т.В.Гамкрелидзе, Г.И.Мачавариани. Система сонантов в картвельских языках. Типология общекартвельской структуры. Тбилиси, 1965.
КАРТИННО-СИНТЕТИЧЕСКОЕ ПИСЬМО - alm. bildlich-synthetische Schrift (f), Piktographie (f), ing. pictographic writing /pıkˈt6grəfık ˈraıtıŋ/, picture synthetical writing /ˈpıktʃə sınˈ4etık(ə)l ˈraıtıŋ/, fr. écriture faite d'une maniˈre pittoresque synthétique, écriture pictographique, azərb. şəkli – sintetik yazı, piktoqraf yazı, sintetik yazı, runik yazı. - Qrafik işarələri (adətən şəkillər və şərti təsvirlər) dil formalarını əks etdirməyə deyil, danışığın məzmununun verilməsinə xidmət edən yazı növü. Bu zaman bir işarə kompleks təsəvvürlər və mənalar üçün tətbiq edilir. Bu yazı növü Alyaska eskimoslarından keçmə yazı növüdür. Bu gün hava limanlarında və Olimpiya simvollarında bu yazı növünə rast gəlmək olur.
Bax: Письмо →.
КАССИТСКИЙ ЯЗЫК – alm. Kassitisch (n), ing. Kassit language /kα:sit ˈlɔŋgwıʤ/, fr. langue cassite, azərb. kassit dili. – Qərbi İran ərazisində yaşamış qədim kassit tayfalarına məxsus olan ölü dil.
И.М.Дъяконов. История Мидии от древнейших времен до конца IV ве-

downloaded from KitabYurdu.org

ка до нашей эры. М. -Л., 1956.

КАТАЛАНСКИЙ ЯЗЫК – alm. Katalanisch (n), ing. Catalan language /ˈkatəlan ˈl5ŋgwɪʤ/, fr. le catalan, azərb. katalan dili. - Bu dillərdə İberiya yarımadasının şimal-şərqində, Fransanın Roussillon, Sardiniyanın Alfero və Andorrada 7 mil. adam danışır. Onun müasir yazılı forması Barselona dialektinə əsaslanır. Franko rejimi onu xeyli geri atmışdı. Onun əsas əlaməti söz başında gələn samitin yumşalmasıdır. Məs: lat /luna → lluna/ «ay». O şərqi və qərbi Katalan dillərinə bölünür. Katalan dilinin iber roman (ispan) və ya Qalloroman (oksitan) dillərinə aid olması şübhəlidir. Bu iki dil arasında katalan dili geniş yayılıb.

В.Ф.Шимарев. Очерки по истории языков Испании. М.-Л., 1941.

КАТАЛИЗ - alm. Katalyse (f), ing. catalysis /kəˈtælısıs/, fr. catalyse, azərb. kataliz. - Sintaktik əlaqəsi açıq şəkildə ifadə olunmuş birinci üzvə əsasən ikinci (gizli, açıq şəkildə ifadə olunmamış) üzvün bərpa edilməsi. Məs.: Azərb. d. /kitabın cildi/ birləşməsində birinci tərəfin məlumluğu ikinci tərəfin bərpasına zəmin yaradır.

O.C.Ахманова. Göstərilən əsər, s. 189.

КАТАХРЕЗА - alm. Katachrese (f), ing. catashresis /kαtəˈkri:sis/, fr. catachrˈse, azərb. kataxreza. - Sözün ilkin mənasına müvafiq olmayan yeni mənada islədilməsi. Məs: Azərb. d. /stolun ayağı/; alm. d. /Fuchsschwanz/ (mişar) və s. Çox vaxt hiperbolik mənada işlənir. Müq. et: /O, sanki gözü ilə nəsə demək istəyir//, /Soyuq onu qılınc kimi kəsir//, /O, ətrafı gözləri ilə yeyirdi// və s.

H.Buβmann. Göstərilən əsər, s. 371.

КАТАФОРА – alm. Kataphora (f), Katapher (f), ing. cataphora /kəˈtaf(ə)rə/, fr. cataphore, azərb. katafora. - Bir mətn daxilində sonra gələcək məlumata işarə edən dil elementi. Bu funksiyada adətən determinativlər və əvəzliklər çıxış edir. Məs: Azərb. d. /O şəxslərə sözümü deyirəm ki,…/ və s. Anaforaya (əvvəldə gedən informasiya) qarşı qoyulur.

H.Buβmann. Göstərilən əsər, s. 372.

КАТЕГОРИАЛЬНАЯ ГРАММАТИКА – alm. kategoriale Grammatik (f), ing. categorial grammar /ˌkætıˈg6rıəl ˈgr¾mə/, fr. grammaire catégorielle, azərb. qrammatik model. – Məs.: ad kateqoriyası cümlədə isimlə üst-üstə düşərək mübtəda funksiyasında çıxış edir və fellərə bağlanır, yəni ad fellə birgə cümlə düzəldir. Riyazi dillə deyilsə, N arqumentdir, S isə dəyər. N nominal adları, S isə cümlələri bildirir. Cümlənin düzgün olduğuna əminlik üçün bir neçə mərhələli əməliyyat etmək lazım gəlir. Əgər bu əməliyyatlar düzgün cümlə qurmağa imkan verirsə, deməli, normal səslənən cümlə düzəlib. Bunu aşağıdakı diaqram aydın göstərir: Müq. et: /Aydın həvəslə oxuyur//.

Aydın	həvəslə	oxuyur.
N	**S/N**	**S/N/ SN**

downloaded from KitabYurdu.org



Burada /həvəslə/ /oxuyur/-un ikisi bir yerdə /Aydın/-ın funktorlarıdır. Bu cümlənin semantik ierarxiyası üçün çox vacibdir. Bunu cümlədə asılılıq və ya valentliklə də müqayisə etmək olar. Bu həm də sintaktik əlaqələri semantik əlaqələrlə müqayisə etmək baxımından maraqlıdır, deməli, riyazi dilçilik üçün önəmlidir. Bu cür təhlillər, fonologiyada və morfologiyada da aparılır.
H. Buβmann. Göstərilən əsər, s. 374.

КАТЕГОРИАЛЬНАЯ ФОРМА - alm. kategoriale Form (f), ing. categorial form /ˌk5tɪˈɡ6rɪəl f6:m/, fr. forme catégorielle, azərb. kateqorial forma. - Müəyyən leksik cərgəyə məxsus sözlərin qrammatik kateqoriyasının ifadəsinə xidmət edən vasitə. Məs.: rus d. /a/ ilə bitən isimlər qadın, /o/, /e/ ilə bitən orta və şəkilçisiz sərt samitlə bitən isimlər isə kişi cinsinə aiddir. Məs.: rus d. /v∧da/, /pole/, /stol/ və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 190.

КАТЕГОРИАЛЬНОЕ ЗНАЧЕНИЕ - alm. kategoriale Bedeutung (f), ing. categorial meaning /ˌk5tɪˈɡ6rɪəl ˈmi:nɪŋ/, fr. acception (signification, sens) catégorielle, azərb. kateqorial məna. - Sözün konkret leksik mənası üzərində yüksələn, ümumiləşmiş mücərrəd məna. İsimlərin kateqorial mənası – əşyavilik, fellərinki isə – iş, hərəkət və proses mənalarıdır.
O.C.Ахманова. Göstərilən əsər, s. 190.

КАТЕГОРИИ ГЛАСНЫХ КОЛИЧЕСТВЕННЫЕ - alm. quantitative Kategorie der Vokale (f), ing. quantitative categories of vowels /ˈkw6ntɪtətɪv k5tɪˈɡ6rɪs əv vaʊəlz/, fr. catégorie des voyelles quantitative, azərb. saitlərinin kəmiyyət kateqoriyası. - Uzun və qısa saitlərin fonoloji cəhətdən fərqləndirilməsi. Məs.: ing., alm. və fr. d. Azərb. və rus d. isə saitlərin uzun və qısalığına görə fonoloji cəhətdən fərqlənməsi mövcud deyildir.
F.Veysəlli. SDƏ. Bakı, 2005.

КАТЕГОРИЯ ЛИНГВИСТИЧЕСКАЯ - alm. linguistische Kategorie (f), ing. linguistic categories /lɪnŋˈwɪstɪk ˈk5tɪɡərɪes/, fr. catégorie linguistique, azərb. linqvistik kateqoriya. - Dil vahidlərinin müxtəlif sinif və dərəcələrinin ümumi xüsusiyyətlərinə görə həmin cəhətlərin tərkibinin müəyyənləşdirilməsi. Məs.: tək və cəm kateqoriyası, cins və hal kateqoriyası.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003.

КАТЕГОРИЯ ОБУСЛОВЛИВАЕМАЯ - alm. bedingte Kategorie (f), ing. conditioned categories /kənˈdɪʃənd ˈk5tɪɡərɪes/, fr. catégorie conditionnée, azərb. şərtləndirilən kateqoriya (ikinci dərəcəli kateqoriya). - Ümumi kateqoriyalar əsasında fəaliyyət göstərən, öz linqvistik məzmununu yalnız ümumi kateqoriyalar fonunda tapan, onları şərtləndirən ümumi kate-

downloaded from KitabYurdu.org

qoriyalarin tərkibinə daxil olan xüsüsi kateqoriyalardır. Məs.: Azərb. d. fellərin şəxs, zaman və növ kateqoriyası və s.
Ю.С.Маслов. Göstərilən əsər.

КАТЕГОРИИ ОБУСЛОВЛИВАЮЩИЕ - alm. determinierende Kategorie (f), ing. conditioning categories /kənˈdɪʃnɪŋ ˈk5tɪgərɪes/, fr. catégories conditionnantes, azərb. şərtləndirən kateqoriya. - Xüsusi kateqoriyaları özündə birləşdirən müstəqil linqvistik məzmuna malik ümumi kateqoriyalar. Məs.: rus d. kəmiyyət, hal, şəxs, cins kateqoriyaları və s.
E.Koseriu. Ümumi dilçiliyə giriş. Almancadan tərcüməsi, «Son söz» və «Qeydlər» prof. F.Veysəllinindir. Bakı, 2006.

КАТЕГОРИЯ ТАКСОНОМИЧЕСКАЯ - alm. taxonomische Kategorie (f), ing. taxonomic categories /t5kˈsənomɪk ˈk5tɪgərɪs/, fr. catégorie taxonomique, azərb. taksonomik kateqoriya. - Bir və ya bir neçə dildə oxşar hadisələrin üzə çıxarılmasına və təsnifinə imkan yaradan, bununla da dillərin müqaysələrinin nəzəri əsasında duran (müqaysəli-tarixi və tipoloji araşdırmasında); qrammatik-leksik-tipoloji-tarixi müqaysəli təsvirlər, ümumiləşdirmələr üçün əsas olan bənzər dil hadisələrinin üzvlənməsi və təsnifi.
О.С.Ахманова. Göstərilən əsər, s. 190.

КАТЕГОРИЯ ЧАСТЕЙ РЕЧИ - alm. Kategorie der Wortarten (der Redeteile) (f), ing. category parts of speech /ˈk5tɪgərɪ pɑ:ts əv spi:ʧ/, fr. des catégories parties du discours, azərb. nitq hissələri kateqoriyası. - Müəyyən dilin leksik, morfoloji və sintaktik əlamətləri əsasında sözlərin bölgüsü. Məs.: müstəqil mənaya malik olub, müxtəlif şəkilçilər qəbul edən və cümlə üzvü yerində çıxış edən sözlər əsas nitq hissələridir. Yerdə qalan nitq hissələrini isə köməkçi nitq hissələri adlandırırlar.
O.Musayev. İngilis dilinin qrammatikası. Bakı, 1986.

КАТЕГОРИИ ЧЛЕНОВ ПРЕДЛОЖЕНИЯ - alm. Kategorie der Satzglieder (f), ing. categories of parts of the sentence /ˈk5tɪgərɪs əv pɑ:ts əv ðə ˈsentəns/, fr. des catégories termes d'une proposition, azərb. cümlə üzvləri kateqoriyası. - Müntəzəm və qanunauyğun şəkildə sintaktik funksiya yerinə yetirən sözlərin kateqoriyası. Məs.: fellər cümlədə bir qayda olaraq xəbər rolunda çıxış edir, leksik mənası iş, hal, hərəkəti bildirməkdir, şəkilçilər qəbul edir və s.
А.А.Реформатский. Göstərilən əsər, s. 377.

КАТЕГОРИЯ БЕЗЛИЧНОСТИ - alm. unpersönliche Kategorie (f), ing. category of impersonality /ˈk5tɪgərɪ əv ɪmpə:səˈn5lɪty/, fr. catégorie impersonnelle, azərb. şəxsiz kategoriya. - Formal şəkildə qrammatik mübtədası üçüncü şəxsin təkində işlədilən və konkret heç bir şəxslə bağlı olmayan kategoriya. Məs.: alm. d. /ɛs regnet/, /ɛs donnert/; ing. d. /İt rains/; rus d. /Дождит/; Azərb. d. /Yağır/, /qar və ya yağış/.
А.А.Реформатский. Göstərilən əsər, s. 377.

downloaded from KitabYurdu.org

КАТЕГОРИЯ ГРАММАТИЧЕСКАЯ - alm. grammatische Kategorie (f), ing. grammaticale categorie /ɡrə'm5tık(ə)l 'k5tıɡərı/, fr. categorie grammaticale, azərb. qrammatik kateqoriya. - Qrammatik forma ilə qrammatik mənanın vəhdəti qrammatik kateqoriya yaradır. «Bu və ya digər qrammatik göstəricilərlə sistematik olaraq ifadə olunan eyni cinsli qrammatik mənaların bir-birinə qarşıdurmasını qrammatik kateqoriya kimi müəyyənləşdirmək olar»

Ю.С. Маслов. Введение языкознание. М., 1987. s. 127.

КАТЕГОРИЯ ЕДИНИЧНОСТИ - alm. Singularitätskategorie (f), ing. category of singularity /'k5tıɡərı əv ˌsıŋɡju'l5rıtı/, fr. catégorie isolée, azərb. təklik kateqoriyası. – Sözdüzəldici şəkilçilərin mənası olub, onların köməyilə əmələ gələn sözlərin ayrıca tək halda olduğunu bildirir. Məs.: rus d. /ёнок/ şəkilçisilə düzələn /цыплёнок/ (cücə) buna misal ola bilər.

Ю.С.Маслов. Göstərilən əsər, s. 128.

КАТЕГОРИЯ ЕДИНСТВЕННОСТИ - Bax: Категория единичности ←.

КАТЕГОРИЯ ЛИЦА СИНТАКСИЧЕСКАЯ - alm. syntaktische Kategorie der Person (f), ing. syntactic category of person /sın 'tæktık 'kætıɡərı əv 'pə:sn/, fr. catégorie syntaxique de la personne, azərb. sintaktik şəxs kateqoriyası. - Xəbərlə əlaqədar olaraq şəxsə (subyektə) münasibətin müxtəlif ifadə vastələri. Məs.: Azərb. d. /sən gəlirsən/, /mən gəlirəm/, /o gəlir/ və s. İng. d., məlum olduğu kimi, şəxs kateqoriyası yalnız üçüncü şəxsdə qrammatik göstəriciyə malikdir. Müq. et: /I, you, we, you, there, come/, ancaq /he, she, it, comes// və s.

P.H.Matthews. Morphology. Au Introduction to the Theory of Word-Structure. Cambridge, 1979. s. 1-20.

КАТЕГОРИЯ МОРФОЛОГИЧЕСКАЯ - alm. morphologishe Kategorie (f), ing. morphological category /ˌmɔ:fə'lɔʤıkəl 'k5tıɡərı/, fr. catégorie morphologique, azərb. morfoloji kateqoriya. - Müəyyən şəkilçinin qrammatik məna ifadə etməsi. Məs.: alm. d. /-ung/, /-heit/, /-schaft/, /-keit/ qadın cinsli isimlərin morfoloji göstəricisidir. İng. d. /-hood/, /-ship/ topluluq mənasını verir. Müq. et: ing. d. /friendship/ (dostluq), /neighbourhood/ (qonşuluq) və s.

P.H.Matthews. Morphology. Au Introduction to the Theory of Word-Structure. Cambridge, 1979. s. 37-38.

КАТЕГОРИЯ МЯГКОСТИ - alm. Mouillierungskategorie (f), Weichheitskategorie (f), ing. category of softness /'k5tıɡərı əv 's6ftnız/, fr. catégorie des voyelles molles, azərb. yumşaqlıq, incəlik kateqoriyası. – Çağdaş rus d. samitlər sistemini səciyyələndirən yumşaqlıq-sərtlik (qalınlıq-incəlik) əlamətləri fonoloji qarşılaşma yaradır. Məs.: rus d.:

/b/ # /b'/, /g/ # /g'/, /s/ # /s'/, /m/ # /m'/
/p/ # /p'/, /k/ # /k'/, /ş/ # /ş/, /n/ # /n'/
/d/ # /d'/, /g/ # /g'/, /v/ # /v'/, /l/ # /l'/

downloaded from KitabYurdu.org

/ t / # / t′/, /x/ # /x′/, /r/ # /r′/, /z/ # /z′/

yalnız /ts/, /ʧ/ və /j/ bu qarşılaşmadan kənarda qalır. /ʧ/ yumşaqdır, /ʦ/ isə sətrdir.

Л.Р.Зиндер. Göstərilən əsər, s. 111-168.

КАТЕГОРИЯ НЕ-ЛИЦА - alm. unpersönliche Kategorie (f), ing. category of non-person /′k5tıgərı əv ′nɒn′pə:sn/, fr. catégorie non-personnelle, azərb. qeyri-şəxs kateqoriyası. - Şəxs bildirməyən isimlərin qrupu. Məs.: rus d. /ящик/ (qeyri-şəxsli) /продавщица/, /ямщик/ (şəxsli). Azərb. d. canlılarda şəxsə münasibət var, cansızlar da isə şəxs bildirilmir.

N.Məmmədov, A.Axundov. Göstərilən əsər.

КАТЕГОРИЯ НЕСИНТАКСИЧЕСКАЯ - alm. unsyntaktische Kategorie (f), ing. non-syntactic category /′nɔn-sın′t5ktık ′k5tıgərı/, fr. catégorie non-syntaxique, azərb. qeyri-sintaktik kateqoriya. - Müəyyən söyləmdə sözün işlənmə formasının başqa sözlərdən asılı olmadığını əks etdirən linqvistik kateqoriya. Danışıqda bir sözün digərindən asılılığını təsdiq etməyən kateqoriya. Azərb. və ing. d. isimlərin cins, sifətlərin isə kəmiyyət kateqoriyaları qeyri-sintaktik səciyyəlidir. Alm. və rus d. isə onların bu kateqoriyalar üzrə qrammatik göstəriciləri vardır. Müq. et: Azərb. d. /daş divar/, /yaxşı daş/, /hündür divar/, ancaq alm. d. /Stein/ (m) (daş), /Wand/ (f) (divar); /guter Stein/ (yaxşı daş), /hohe Wand/ (hündür divar) və s.

H.Glinz. Göstərilən əsər.

КАТЕГОРИЯ ПАРНОСТИ - alm. Kategorie des Dualismus (f), ing. category of paired relationship /′k5tıgərı əv pɛəd rı′leıʃənʃıp/, fr. catégorie formant la paine, azərb. qoşalıq (cütlük) kateqoriyası. - Öz mənşəyinə görə cütlüklə bağlı olan, cüt əşyanın (iki hissədən ibarət), qoşa əşyanın ümumiləşdirilmiş ifadəsi. Məs.: Azərb. d. cütlük kateqoriyası yoxdur. Məs.: rus d. /брюки, ножницы, глаза, вожжи, штаны/ və s.

O.C.Ахманова. Göstərilən əsər, s. 192.

КАТЕГОРИЯ ПОНЯТИЙНАЯ (КАТЕГОРИЯ ВНЕЯЗЫКОВАЯ) - alm. Begriffskategorie (f), ing. conceptual category (extralingual, notional) /kən′septjuəl ′k5tıgərı/, fr. catégorie de concept, azərb. anlayış kateqoriyası. - Dildə bu və ya digər şəkildə ifadəsini tapmış mücərrəd mənalarda işlənən söz qrupları. Məs.: əşiyavilik, mücərrədlik, konkretlik, cəmlik, modallıq, mənsubiyyət və s.

M.İ.Adilov və b. Göstərilən əsər, s. 162-163.

КАТЕГОРИЯ СИНТАКСИЧЕСКАЯ - alm. syntaktische Kategorie (f), ing syntactic category /sın′t5ktık ′k5tıgərı/, fr. catégorie syntaxique, azərb. sintaktik kateqoriya. - Danışıqda müəyyən sözlərin işlənmə formalarının digərlərindən asılı olduğunu əks etdirən linqvistik kateqoriya. Məs.: ismin hal kateqoriyası (onun hal şəkilçisi qəbul etməsi felin idarə etmə xüsusiyyətindən asılıdır). Məs.: Azərb. d. /Mən o kişidən xahiş etdim//. Ancaq Azərb. d. isimdən əvvəl gələn sifət, say heç bir dəyişikliyə uğramır,

downloaded from KitabYurdu.org

yəni onlar sintaktik kateqoriya kefiyyətinə malik deyildir. Burada sintaktik asılılıq yoxdur. İsimlərdə kəmiyyət, mənsubiyyət kateqoriyası, fellərdə şəxs, təsirlilik və təsirsizlik kateqoriyaları, bir sıra dillərdə cins kateqoriyası da sintaktik kateqoriya hesab olunur. Məs.: Azərb. d. /anamın kitabı/, /sən oxuyursan/, /Balaca uşaq çayı həvəslə içirdi//; alm. d. /schönes Wetter/ (yaxşı hava), /schöner Tag/ (yaxşı gün) və s.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003.

КАТЕГОРИЯ СОСТОЯНИЯ - alm. Zustandskategorie (f), ing. category of state /ˈk5tıgərı əv steıt/, fr. catégorie de position, azərb. hal, vəziyyət kateqoriyası. - Hal, durum, vəziyyət felləri əşyanın aldığı vəziyyəti, əlamə-ti, keyfiyyəti, kəmiyyəti və s. ifadə edən və, əsasən, şəxsiz cumlədə yalnız xəbər rolunda işlədilən vəziyyət və predikativ felləri. Məs.: Azərb. d. /arzulamaq, gülmək, oturmaq / və s.
H.Glinz. Göstərilən əsər.

КАТЕГОРИЯ ФОРМАЛЬНАЯ - alm. formale Kategorie (f), ing. formale category /ˈfɔ:məl ˈk5tıgərı/, fr. catégorie formelle, azərb. formal kateqoriya. - Morfoloji ifadəyə malik olan qrammatik kateqoriya.
O.C.Ахманова. Göstərilən əsər, s. 190.

КАУЗАЛЬНЫЙ (ПРИЧИННЫЙ) - alm. kausal, ing. causal /ˈk6:z(ə)l/, causative /ˈk6:zətıv/, fr. causal, azərb. səbəb. - Səbəbiyyət bildirən, asılılıq və ya belə asılılığın ifadəsi ilə bağlı olan, sintaktik vasitələrlə ifadə olun-muş səbəb mənalı. Məs.: səbəb bildirən bağlayıcılar. Müq et: Azərb. d. /nə səbəbə/; /nə üçün/ və s. səbəb budaq cümləsi bu ifadələr arasında xüsusi yer tutur. Alm. d. həm tabeli /da/, /weil/, həm də tabesiz bağlayıcılı səbəb cümlələri mövcuddur. Məs: alm. d. /Er kommt nicht, weil er kran ist// və ya /denn er ist krank// (O gəlmir, çünki xəstədir).
H.Buβmann. Göstərilən əsər, s. 376.

КАУЗАТИВНЫЙ - alm. kausativ, ing. causative /ˈk6:zətıv/, fr. causatif, azərb. (səbəblilik). - İşin icrası üçün səbəb (bəhanə) mənasına malik olan. Məs.: Azərb.d. bunu icbar fellər ifadə edir. Alm. d. isə sözönü /wirken/ (işləmək), ancaq /bewirken/ (təsir etmək), /trinken/ (içmək), /tränken/ (hop-durmaq), /sitzen/ (oturmaq), /setzen/ (oturtmaq). Erqativlik yolu ilə /Die Sonne schmilzt das Eis// (Günəş qarı əridir), ancaq /Das Eis schmilzt// (Buz əriyir) və ya /lassen/ feli ilə. Müq. et: /Er lässt sie schreiben// /Oğlan qıza yazdırır//.
H.Buβmann. Göstərilən əsər, s. 376.

КАФФА (КЭФА, КАФИЧО) – alm. Kafa (n) (auch Kefa, Kaffič(tsch)o), ing. kaffa /kα:fα/, fr. langue kaffa, azərb. kaffa dili. – Omot dillərindən biri. Həbəşistanın Kefa vilayətində yayılmışdır. 400 minə qədər əhali bu dildə danışır. Yazısız dildir və əsasən etniklərarası ünsiyyətdə istifadə olunur.
E.Cerulli. Studi etiopici. IV. La lingua caffina. Roma, 1951.

КАЧЕСТВА ИМЯ - alm. Adjektivabstraktum (n), ing. quality name /ˈkwɔlıtı neım/, adjective abstract /ˈ5ʤıktıv ˈ5bstr5kt/, fr. nom qualité,

downloaded from KitabYurdu.org

azərb. ad keyfiyyəti. - Müəyyən əlamət bildirən sifətlərdən düzəlmiş mücərrəd ismlər. Məs.: Azərb. d. /xeyirxahlıq, pislik, ağlıq/ və s.
R.Conard. Göstərilən əsər, s. 175.

КАЧЕСТВЕННОЕ ИЗМЕНЕНИЕ. Bax. Изменение ←.

КАЧЕСТВЕННОЕ ЧЕРЕДОВАНИЕ - alm. qualitativer Wechsel (m), ing. qualitative gradation /ˈkw6lıtətıv ˌɡr¾d5uˈeıʃən/, fr. alternance de timbre, alternance qualitative, azərb. keyfiyyət əvəzlənməsi. – Dilçilikdə müxtəlif keyfiyyətli səslərin bir-birilə əvəz etməsini adətən onların kəmiyyət əvəzlənməsinə qarşı qoyulur.

Məs.: Azərb. d. /uzun → uzan/
alm. d. /verlieren→verlor/ (itirmək - itirdi)
rus d. /нести →нˈос/, /во́ды/-/v∧da/
ing. d. /take →took/ (götürmək-götürdü) və s.

F. Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 124-126.

КАЧЕСТВЕННЫЙ - alm. qualitativ, ing. qualitative /ˈkw6lıtətıv/, fr. qualitatif, azərb. keyfiyyət. - Fonemlərin keyfiyyətcə dəyişməsi. Məs.: rus d. /принести/→/прин"ос/; alm. d. /sprechen/→/sprach/ (danışmaq-danışdı), /denken/→/dachte/ (düşünmək-düşündü) və s.

F. Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 124-126.

КАЧЕСТВО - alm. Qualität (f), ing. quality /ˈkwɔlıtı/, fr. qualité, azərb. keyfiyyət. - 1) Keyfiyyətlə bağlı olan, keyfiyyət mənası bildirən. Keyfiyyət zərflikləri, sifətlər və s. Məs.: Azərb. d. /bərk taxta/, /yumşaq parça/, /sakit/, /diribaş/ və s.; 2) Saitlər üçün səciyyəvi tembr. Məs.: /a/, /o/, /u/ saitləri öz keyfiyyətlərinə görə bir-birindən fərqlənir. Birinci açıq, ikinci qismən açıq, üçüncü isə qapalıdır; 3) Danışıq aktında vurğulu və vurğusuz hecalar fərqlənir. Vurğulu heca gərgin, vurğusuz qeyri-gərgin olur. Məs.: rus d. /v∧da/ sözündə birinci heca vurğusuzdur, ona görə də o, ciddi redukcsiyaya uğrayır. Akustik cəhətdən birinci hecadakı sait orta sıra və orta yüksəlişlidir.
А.А.Реформатский. Göstərilən əsər, s. 199.

КАШМИРИ – alm. Kaschmiri (n), ing. Kashmir language /k5ʃˈmıə ˈl5ŋɡwıʤ/, fr. la langue kaschémirie, azərb. kaşmiri dili. – Dard dillərinə aid olan dillərdən biridir. Şimali Hindistanın Kəşmir vadisində yayılmışdır. 3,5 milyona qədər daşıyıcısı vardır. Hindistanın Cammi və Kəşmir ştatlarının rəsmi dilidir. Kaşmiri, kaştavari, poquli, siraci, rambani və s. dialektlərinə bölünür. Hazırda müəyyən işarələr əlavə olunmaqla ərəb qrafikasından istifadə olunur.
Б.А.Захарьин, Д.И.Эдельман. Язык кашмири. М., 1971.

КВА ЯЗЫКИ - alm. Kwa-Sprachen (Pl.), ing. Kwa languages /ˈkwa ˈl5ŋɡwıʤız/, fr. langues kwa, azərb. kva dilləri. – Fil Dişi Sahili (Kotd

downloaded from KitabYurdu.org

İvuar), Qana, Toqo, Benin, Liberiya ölkələrində yayılmış, niger-konqolez dilləri ailəsinə daxil olan dillər qrupu. 67 milyondan yuxarı daşıyıcısı məlumdur. Kva dillərin akan, qan, yoruba, eve, nupe, adanqme, idoma, iqbo və s. dillər aiddirlər. Tonal dillərdir. Bu dillərdə 2-4 cür ton fərqləndirilir. Yüksək, orta və aşağı tonlardan savayı enən və yüksələn tonlar qeyd olunur. Ton sistemi «piləlidir», yəni hər bir heca özündən sonrakı və ya əvvəlki hecadan 1 ton vahidi ölçüsündə yüksək və ya aşağıdır. Kva dillərinin böyük əksəriyyətində 7 sait fonem vardır.

В.К. Яковлев. Язык йоруба. М., 1963; Б.С.Фрихман. Язык игбо. М., 1975.

КВАНТИТАТИВНЫЙ - alm. quantitativ, ing. quantitative /ˈkw6ntıtətıv/, fr. quantitatif, azərb. kəmiyyət. – 1) Səsin uzunluq xassəsi, səsin uzunluq dərəcələri arasındakı fərq; 2) Səsin uzunluğu və gücü ilə, habelə səsin həmin xüsusiyyətləri dəyişməsi ilə əlaqədar olan kəmiyyət dəyişmələri. Azərbaycan dilində açıq və vurğulu hecada sait qapalı və vurğusuz hecadakıdan uzundur. Müq. et: Azərb. d. /atam/ və /atamdan/ sözlərində birinci /a/ o birilərdən uzundur. Səslər kəmiyyətcə müxtəlif olur. Səsin fiziki uzunluğu heç də bu uzunluğun relevant olması demək deyildir. Danışıq aktında kəmiyyət göstəriciləri onun ümumi sürətindən, ritmik-melodik strukturundan asılıdır. Alm. d. saitlər uzun və qısalığına görə qarşılaşma yaradırlar. Müq. et: alm. d. /muss/ («müssen» felindən «malı-məli»), ancaq /mu:s/ qədim yunanlarda incəsənət əsəridir.

R.Conard. Göstərilən əsər, s. 214.

КВАНТИТАТИВНОЕ УДАРЕНИЕ - alm. Quantitätsbetonung (f), ing. quantitative stress /ˈkw6ntıtətıv stres/, fr. accent de quantité, accent temporel, azərb. kəmiyyət vurğusu. - Vurğulu hecanın vurğusuz hecadan uzunluğu ilə fərqlənən vurğu növü. Müasir rus d. vurğulu heca vurğusuz hecadan 1,5 dəfə uzun olur. Kəmiyyət əlaməti Azərbaycan dilində ümumi sual cümlələrində özünü daha aydın biruzə verir. Məs.: Azərb. d. ¿Sən kitab oxuyursa:nɔ

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

КЕКЧУ - Bax: Мая языки →.

КЕЛЬТИБЕРСКИЙ ЯЗЫК - alm. Keltiberisch (n), ing. Celtiber language /ˈkeltı:ber ˈl5ŋgwıʤ/, fr. keltiberien, azərb. keltiber dili. – Kelt dillərinə aid olan ölü dillərdən biri. Pireney yarımadasında yaşamış kelt tayfalarına məxsus olan dil. Keltiber dilinin materialları kelt və hind-Avropa dillərinin müqayisəli-tarixi tədqiqində ən vacib mənbələrdən hesab olunur.

M.Lejeune. Celtiberica. Salamanca, 1995.

КЕЛЬТОЛОГИЯ - alm. Keltologie (f), ing. Keltologie /ˈkelt6ləʤi/, fr. études celtiques, azərb. keltologiya, keltşünaslıq. – Kelt xalqlarının tarixini,

downloaded from KitabYurdu.org

etnoqrafiya və arxeologiyasını, ədəbiyyatını və dillərini öyrənən humanitar elmlərin məcmusu. Keltologiya bir elm sahəsi kimi XIX əsrin ikinci yarısında təşəkkül tapmışdır.

В.П.Калыгин, А.А.Королева. Кельтские языки. «Сравнительно-историческое изучение языков разных семей». М., 1982.

КЕЛЬТСКИЕ ЯЗЫКИ - alm. keltische Sprachen (Pl.), ing. Celt languages /ˈkelt,ˈselt ˈlɔŋgwɪʤɪz/, also Kelt /kelt/, fr. le celtique, langues des Celtes, azərb. kelt dilləri. – Hind-Avropa dilləri ailəsinə daxil olan dillər qrupu. Kelt dilləri Avropanın böyük bir ərazisində (Almaniya, Fransa, Böyük Britaniya, İrlandiya və İspaniyada), Karpatda, Balkanlarda və Kiçik Asiyada yayılmışdır. Sonralar bu dillərin yayılma arealı xeyli məhdudlaşmışdır. Kelt dillərinə aid olan dillərdən bəziləri ölü dillərə çevrilmişlər: men, korn, keltiber, leponti, qallii, irland, gel, vali və breton dilləri canlı kelt dillərinə aiddirlər. İrlandiya diliilə birlikdə qel dili (5000 daşıyıcı) VIII əsrdən bəri sxot-qel dili (90000 daşyıcısı var), uels dililə birlikdə breton dili (400.000) və breton dili (1,2 milyon) də bu ərazilərdə işlənir.

Г.Льюис, Х.Педерсон. Краткая сравнительная грамматика кельтских языков. М., 1954.

КЕНЕМА - alm. Kenem (n), ing. kineme /ˈkınımə/, fr. kenéme, azərb. kenem. - İfadə planında tələffüz ünsürü, artikulyator element, yaxud məzmunun ən kiçik ünsürü. İlk dəfə bunu dilçiliyə İ.A.Boduen de Kurtene gətirmişdir. Qlossematiklər isə onu fonoloji əlamətin yerinə işlətmişlər. Pleremlərlə birlikdə qlossemi təşkil edirlər.

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 215; F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 168.

КЕНЕМАТИКА - alm. Kenematik (f), ing. kinematics /ˌkaınıˈmætıks/, fr. kénématique, azərb. kenematika. - Artikulyasiya ünsürlərinin qarşılıqlı əlaqələrini öyrənən elm sahəsi. İlk dəfə olaraq İ.A.Boduen de Kurtene ikili üzvlənmədən söhbət açarkən tələffüz üzvlərinin hərəkətini və onları öyrənən elmi kenematika adlandırmışdır.

И.А.Бодуэн де Куртенэ. Избранные труды по общему языкознанию. М., 1963, т. I, s. 279.

КЕНТУМ ЯЗЫКИ - alm. Kentumsprachen (Pl.), ing. kentum languages /kentum ˈlɔŋgwɪʤɪz/, fr. langues centums, azərb. kentum dili. - Tarixi-müqayisəli dilçilik fonetik konstruksiyalar əsasında hind-Avropa dillərini qərb və şərq qruplarına bölür, bu zaman /hundert/ (yüz) sözünün bu qruplarda necə adlandırılması əsas götürülür. İlkin nəzəriyyəyə (bu gün mübahisəli) görə hind-Avropa ulu dilində 3 növ dilarxası (guttural) samit olub: velar /k/, /g/; yumşaq /k'/, /g'/ və dodaq-dilarxası (labiovelar) /gˇ/, /kˇ/. Bunlar müxtəlif dillərdə müxtəlif cür inkişaf edib: kentum dillərində (german, kelt,

downloaded from KitabYurdu.org

italiy) palatallar velarlarla qarışıb, satem dillərində isə (hind, iran) velarlarla labiovelarlar birləşib, palatallar isə novlulara çevrilib, bunun da nəticəsində əvvəllər kentum dillərindəki /k/ samiti satem dillərində /s/-ya çevrilib. Bu ideyaya qarşı güclü fərziyyələr irəli sürülürdü. İlk öncə şərqdə kentum dilləri hesab edilən toxar dilinin (1904), sonra isə xet dilinin (1906) kəşfi göstərdi ki, bu bölgü nə coğrafi, nə də fonoloji cəhətdən düz deyil. Ancaq necə olursa olsun kentum /satem anlayışları hind-Avropa dilçiliyində qəbul edilmişdir.

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 61.

КЕРЕКСКИЙ ЯЗЫК - alm. Kerekisch (n), ing. Kerek language /keˈrɪ:k ˈlɔŋgwɪʤ/, fr. langue kéréke, azərb. kerek dili. – Çukot-Kamçatka dillərinə aid olan dillərdən biridir. Çukotka vidayətinin Beringq bölgəsində yayılmışdır. 200 qədər daşıyıcısı mövcuddur. Çox az tədqiq olunmuşdur. Əvvəllər koryak dilinin dialekti hesab olunurdu. Yazısız dildir.

В.Г.Богораз. Чукчи. ч.I, Л., 1934; П.Я.Скорик. Керекский язык. «Языки народов СССР», т. 5, Л., 1968.

КЕТСКИЙ ЯЗЫК - alm. Ketisch (n), ing. Ket language /ket ˈlɔŋgwɪʤ/, fr. langue kète, azərb. ket dili. – Yenisey dillərindən biridir. Yenisey çayının sahili boyu yayılmışdır. 1000-ə qədər insanın danışdığı bu dil ərazi baxımından cənubi-ket, şimali-ket və orta-ket kimi dialektlərinə bölünür. Fonoloji sistemində sait yarımsisteminin zənginliyi (10-11 sait fonem) əsas fonetik cəhətlərindən biridir.

Е.А.Крейнович. Кетский язык. «Языки народов СССР», т.5, Л., 1968.

КЕЧУА – alm. Kechwa (n) (Quechua, auch Runa-Simi), ing. quechua language /ketʃu:7 ˈlɔŋgwɪʤ/, fr. le ketchua, azərb. keçua dili. – Cənubu Amerikada hindi dillərindən biri. Boliviyanın (ispan və aymara) və Perunun (ispan) dilləri ilə bərabər rəsmi dövlət dili. And yaylasında yerləşən ölkələrdə də yayılmışdır. Boliviyada 2,1 milyon, Peruda isə 6,75 milyon, Ekvadorda 3,65 milyon daşıyıcısı mövcuddur. Keçua dilinin daşıyıcılarının kiçik qrupları Argentinada, Kolumbiyada və Çilidə də yaşayırlar. Ərazi baxımdan üç dialektə bölünür: cənub (Perunun cənubu, Boliviya və Argentinanın şimal-qərbi), mərkəzi (Peru), şimal (Perunun şimalı, Ekvador və Kolumbiyanın cənubu). Saitlər sistemi üç fonemdən /a/, /i/, /u/ ibarətdir. Bəzi dialektlərdə saitlərin fonemlərin sayı 6-ya qədər artır.

E.W.Middendorf. Das Runa Simi oder die Keshua-Sprache. Leipzig, 1890.

КЕЧУМАРА ЯЗЫКИ – alm. Ketschumara-Sprachen (Pl.), ing. quechumara languages /ketʃu:m7:rə ˈlɔŋgwɪʤɪz/, fr. langues ketchumaras, azərb. keçumar dilləri. – Cənubi Amerikada hindi dilləri ailəsi. Keçua və aymara dillərini özündə birləşdirir. 16 milyon insan bu dillərdə danışır (3,3 milyon aymara dili). Məhdud saitlər sisteminə malikdirlər (aymar dilində 3-

downloaded from KitabYurdu.org

5, keçua dilində 3-6), samitlər sistemi isə 15-27 fonem civarında artıb-azalır. Söz kökləri müxtəlif heca strukturları müşahidə olunur: CV, CVC, CVCV (C) və əsasən ikihecalı modellər üstünlük təşkil edir. Keçumar dilləri nominativ dillərdir. İsmi və feli sözdəyişmə inkişaf etmişdir. Fellər təsirli və təsirsizə bölünürlər. Cümlə daxilində söz sırası MTF ardıcıllığındadır.

Y.Lastra. Cochabamba Quechua syntax, The Hague – Paris, 1968.

КИДАНЬСКИЙ ЯЗЫК – alm. Kidanisch (n), ing. Kidan language /ˈkıdan ˈlɔŋgwıʤ/, fr. langue cidane, azərb. kidan dili. – Monqol dilləri ailəsinə daxil olan, IV-XII əsrlərdə Çinin şimalında və Monqolustanda yaşımış kidanlara məxsus ölü dil. Kidan dilində köhnə çin ieroqlif yazısı nümunəsi əsasında tərtib olunmuş böyük və kiçik adlandırılan iki yazı sistemindən istifadə olunmuşdur (bax: şəkil).

Л.Н.Рудов. Проблемы киданьской письменности. «Советская этнография», 1963, №1.

KİDAN YAZISININ İŞARƏLƏRİ

downloaded from KitabYurdu.org

КИКУЙЮ – alm. Kikuju (n), ing. kikuyu /kɪ:kj-/, fr. kikouyou, azərb. kikuyu. – Bantu dillərindən biri. Keniyanın mərkəzi hissələrində yayılmışdır. Bu dildə danışanların sayı 4,4 milyona çatır. Nieri, ndia, embu, meru dialektlərinə bölünür. Yazısı latın qrafikası əsasında tərtib olunmuşdur.

L.Armstrong. Phonetik and tonal structure of Kikuyu. London, 1940.

КИНАКЕМА - alm. Kinakem (n), ing. kinakeme /ˈkɪ:nəˈkɛmə/, fr. cinakẽma, azərb. kinakem. - Psixoloji fonologiyada artiklyator və akustik təsvirlərin vəhdəti. Bu səs təsəvvürlərinin ən kiçik əlaməti kinem adlanır. Səsin əmələ gəlməsində bir danışıq üzvünün tələffüz fəaliyyəti, məxrəc baxımından fərqləndirici əlamət. Məs: /t/ səsi bir kenemdən (dilönü) ibarətdir. Halbuki /b/ səsi iki kinemdən (dodaq və xirtdəkdə səs tellərinin titrəməsi), /m/ səsi isə üç kinemdən (dodaq, xirtdəkdə səs tellərinin titrəməsi və burun) ibarətdir.

Ф.Вейсалов (Вейсалли). О дифференциальных и интегральных признаках фонем. «Ученые записки» АПИРЯ и Л. им. М.Ф.Ахундова, 1975, №2.

downloaded from KitabYurdu.org

КИНЕМИКА - alm. Kinemik (f), ing. kinemics /ˈkʌıni:miks/, fr. cinémique, azərb. kinemika. - Kinemi öyrənən kinesika bəhsi.

Bax: Кинесика →.

КИНЕСИКА (ПАСИМОЛОГИЯ) - alm. Kinesik (f), Pasimologie (f), ing. kinesics /ˈkʌıni:ks/, pasimology /p¾sıməl6:ʤı/, fr. kinécique (passimologie), azərb. kinesika. - İnsanlar arasında ünsiyyətə xidmət edən əl-qol, bədən hərəkətlərinin məcmusunu (danışıq üzvlərinin hərəkəti istisna olmaqla) öyrənən elm sahəsi. Sössüz ünsiyyət vasitələrinin (üzün ifadəsi, jest, mimika, bədən hərəkətləri, görmə bucağı və s.) struktur və funksiyasını öyrənən sahə. Alının qırışması, üzün ifadəsi, əlin hərəkəti və s. fikrin aydın çatdırılmasına ciddi təsir göstərə bilir. Bu elm sahəsini bəzən paralinqvistika adlandırırlar.

D.Crystal. Dictionary of Linguistics and Phonetics. Blackwell Pub, 2003.

КИРГИЗСКИЙ ЯЗЫК – alm. Kirgisisch (n), ing. Kirghiz language /ˈkır′gız ˈl5ŋgwıʤ/, fr. le kirghiz, langue kirghize, azərb. qırğız dili. – Türk dilləri ailəsinə aid olan dil. Əsasən Qırğızıstanda, Özbəkistanın Nəmanqan və Fərqanə vilayətlərində, Tacikistanın qonşu dağlıq ərazilərində, Qazaxıstanın bəzi bölgələrində, həmçinin Çin, Monqolustan, Əfqanıstan və Pakistanda yayılmışdır. Təqribən 3 milyona qədər daşıyıcısı vardır. Ərazi baxımından iki dialektə bölünür: şimal və cənub dialektləri. Digər türk dillərində olduğu kimi, qırğız dilində də sinharmonizm hadisəsi mühüm əhəmiyyət kəsb edir.

Б.М.Юнусалиев. Киргизский язык. «Языки народов СССР», т. II, М., 1966.

КИРИЛЛИЦА - alm. kyrillische Schrift (f), ing. Cyrillic alphabet, writing /sı′rılık ′5lfəbıt/raıtıŋ/, fr. alphabet, cyrillique, azərb. kiril qrafikası. - Müasir rus əlifbasının əsasını təşkil edən qədim slavyan əlifbalarından biri (digəri «qlaqolitsa» adlanır) olub hərflərinin nisbətən sadəliyi və dəqiqliyi ilə fərqlənir.

downloaded from KitabYurdu.org

KİRİL ƏLİFBASI

Yazılışı	Hərflərin adı	Səslən-məsi	Rəqəmlə ifadəsi	Yazılışı	Adı	Səslən-məsi	Rəqəmlə ifadəsi
А	азъ	[а]	1	Х	хѣръ	[х]	600
Б	боукы	[б]		Ѡ	отъ (омега) *	[о]	800
В	вѣди	[в]	2	Ц	ци	[ц']	900
Г	глаголи	[г]	3	Ч	чръвь или чрьвь **	[ч']	90
Д	добро	[д]	4	Ш	ша	[ш']	
Є	єсть или єстѣ **	[е]	5	Щ	шта **	[ш̂т'], [шч']	
Ж	живѣте	[ж']		Щ	шта **	[шт'],[шч']	
Ѕ	ѕ –зѣло *	[д̂з']	ѕ =6	Ъ	ѥръ	[ъ]	
З	землѧ	[з]	7	Ы	ѥры **	[ы]	
И	ижеи **	[и]	8	Ь	ѥрь	[ь]	
І	иже *	[и]	10	Ѣ	ѥть *	[æ],[ě]	
К	како	[к]	20	Ю		[у], [j у]	
Л	люди	[л]	30	Ꙗ	а йотированная *	[а],[ja]	
М	мыслите	[м]	40	Ѥ	е йотированная *	[е],[je]	
Н	нашь **	[н]	50	Ѧ	юс малый *	первоначально [ę]	900
О	снъ	[о]	70	Ѩ	юс малый йотированный *	первоначально [ę], [ję]	
П	покои	[п]	80	Ѫ	юс большой *	первоначально [ǫ]	
Р	рьци	[р]	100	Ѭ	юс большой йотированный *	первоначально [ǫ], [jǫ]	
С	слово	[с]	200	Ѯ	кси *	[кс]	60
Т	твьердо или твръдо	[т]	300	Ѱ	пси *	[пс]	700
Ѹ	оукъ **	[у]	400	Ф	ѳита *	[ф]	9
Ф	фьрть или фрьть	[ф]	500	Ѵ	ижица *	[и], [в]	400

F.Yadigar (Veysəlli). Dilimiz, qeyrətimiz, qayğılarımız. Bakı, 1993.

КИТАИСТИКА – alm. Sinologie (f), ing. sinology /sɪn'nɒlədʒɪ/, fr. cinologie, études chinoises, azərb. çinşünaslıq. – Çinin mədəniyyətini, tarixini, fəlsəfəsini, ədəbiyyatını və dilinini öyrənən elmlər toplusu. П.Е.Скачков. Библиография Китая. М., 1960.

КИТАЙСКИЙ ЯЗЫК – alm. Chinesisch (n), ing. Chinese language /'ʧʌɪni:z/'ʧaɪ'ni:z 'lɔŋgwɪʤ/, mandarine /'mɔndəri:n/, fr. le chinois, langue chinoise, azərb. çin dili. - Ən böyük çin-tibet dili. 6 dili birləşdirir: mandarin (Dutonqua şəklində Çin Xalq Respublikasının dövlət dili), quoyu Tayvanın dövlət dili 613 mil. adam danışır, vu (84 mil. adam danışır), yue

downloaded from KitabYurdu.org

(Çinin cənubunda, kantonez dililə birlikdə 54 milyon adam danışır), Min dili (Tayvan və Çində 77 mil), Kann-hakka dili (Cənubi Çində 67 mil.) hsianq dili (Hunanda 49 mil). İdeoqrafik yazı sistemi 4000 il bundan əvvəl yaranıb, ən qədim yazı formasıdır. Bu dilləri tonal dillər adlandırırlar (mandarində 4 ton var: yüksək,ˆ qalxan↑, enib-qalxan ↓↑, enən↓, kantonezik dildə isə 9 ton fərqləndirilir) və müxtəlif ton birləşmələri (sandhi) kimi çıxış edir. Bu dillərdə sadə heca strukturu var, şəkilçi yoxdur, amma sözdüzəltmə və birləşmə kifayət qədərdir. Məs.: fù-mǔ (ata-ana=valideynlər). Kəmiyyətə görə fərqlənmə və artikl yoxdur. Çin yazı nümunələri iki hissədən ibarətdir: birinci hissə radikal adlanır, mənanı bildirir, ikinci hissə isə qalıq adlanaraq fonetik realizasiya üçün işlənir. 214 radikal 40.000-ə qədər işarənin düzülüşünə xidmət edir. 10.000 işarə hərtərəfli ünsiyyət məqsədlərini təmin edir.

А.И.Иванов, Е.Д.Поливанов. Грамматика современного китайского языка. М., 1930; А.А.Драгунов. Исследования по грамматике современного китайского языка. М.,-Л., 1952

КИТАЙСКОЕ ПИСЬМО - alm. chinesische Schrift (f), ing. Chinese letter /ʧaɪˈnɪz ˈletə/, fr. écriture chinoise, azərb. çin əlifbası. – Söz və morfemlərin təsvirində xüsusi işarələrdən – heroqliflərdən istifadə olunan yazı növü.

QƏDİM ÇİN İDEOQRAFİK YAZISI



HAZIRKI ÇİN İEROQLİFLƏRİ

人	夕	干	木	糸	羽	身	食
口	大	心	毛	白	老	車	馬
刀	女	戸	水	目	肉	足	高
力	子	手	火	石	艸	金	麻
勹	山	支	爪	禾	虍	長	黒
口	山	攴	牛	穴	衣	門	飛
囗	工	方	犬	竹	言	頁	
土	巾	日	生	米	貝	風	

КИТАЙСКО-ТИБЕТСКИЕ ЯЗЫКИ - alm. chinesisch-tibetische Sprachen (Pl.), ing. Chinese-Tibetan languages /ʧaɪˈnɪz-tibet5n ˈl5ŋgwɪʤɪz/, fr. langues cino-tibétiennes, azərb. çin-tibet dilləri. – Dünyanın ən böyük dil aiilələrindən biri. 100-dən yuxarı dili özündə birləşdirir. Çin-Tibet dillərində 1100 milyondan yuxarı insan danışır. Çin-Tibet dilləri hecali, təcrid edilən, kök dillərdir. Adından göründüyü kimi, bu dillər şəkil-

downloaded from KitabYurdu.org

çisi olmayan, qrammatik vahidi yalnız leksik vahidlərdən, yəni köklərdən ibarət olan dillərdir. Bu dillərdə qrammatik əlaqələr daha çox fonetik və sintaktik vasitələrlə həyata keçirilir. Çin-Tibet dillərində özünü göstərən əsas qrammatik vasitələr söz sırası və intonasiyadan ibarətdir. Bu dillərdə əsas fonetik vahid hecadır və heca sərhədi adətən morfem və söz ilə üst-üstə düşür.

R.Shafer. Bibliography of Sino-Tibetan, pt1-5, Wiesbaden, 1957-63.

КЛАССИФИКАЦИЯ – alm. Klassifikation (f), ing. classification /ˌkl¾sɪfɪˈkeɪʃ(ə)n/, fr. classification, classement, azərb. təsnifat, bölgü - Müəyyən bir elm sahəsində bir-birilə bağlı anlayışlar arasındakı əlaqələri öyrənməyi və onları müxtəlif siniflərə, qruplara, növlərə ayırmağı nəzərdə tutan tədqiqat üsuludur. Təsnifat dilin daxili xüsusiyyətlərinin öyrənilməsində istifadə olunan əsas üsullardandır. Dilçilikdə təsnifat həmişə müəyyən bir prinsipə əsaslanır və həmin prinsip əsasında aparılır. Bu üsul dilçilik elminin bütün sahələrində, məs.: morfologiyada (nitq hissələri), sintaksisdə (cümlələrin bölgüsü) sahəsində özünü göstərir.

H.Buβmann. Göstərilən əsər, s. 383.

КЛАССИФИКАЦИЯ АКУСТИЧЕСКАЯ - alm. akustische Klassifikation (f), ing. acoustic classification of vowels /əˈku:stɪk kl5sɪfɪˈkeɪʃ(ə)n əv vaʊəlz/, fr. classification acoustique, azərb. akustik təsnifat. - Akustik əlamətə görə fonemlərin dixotomik bölgüsünü R.Yakobsonun (1896-1982) rəhbərlik etdiyi tədqiqatçılar qrupu ilk dəfə olaraq 1951-ci ildə vermişdir.

R.Yakobson fonemin düzxətt boyunca bölünməzliyinə, struktur baxımdan isə simultan əlamətlərin məcmusu kimi götürülməsinə daha çox meyllənir. Bu onun serb-xorvat və fransız dillərinin fonem sistemlərinə həsr etdiyi məqalələrində özünü daha aydın biruzə verir. Əslində N.S.Trubeskoy fonemin tutumuna verdiyi tərifdə bu mövqedə dururdu. «Beləliklə, deyə bilərik ki, fonem hər hansı bir səsin fonoloji cəhətdən relevant əlamətlərinin məcmusudur». N.S.Trubeskoy buna bənzər tərifə R.Yakobsonun əsərində rast gəldiyini etiraf edir.

Ötən əsrin 40-ci illərinin əvvəllərində R.Yakobson amerikan alimləri Z.Hərris, Ç.H.F.Hoket (1907), E.M.Ulenbek (1866-1951) və s. məşhur dilçilərlə mühazirə və seminar apararkən yaxından tanış olur. R.Yakobson öz xatirələrində N.F.Yakovlevin, N.S.Trubeskoyun və V.Mateziusun ona təsirlərini xüsusi qeyd etmişdir. R.Yakobson ötən əsrin 50-ci illərinin əvvəllərində öz həmkarları ilə birlikdə bir neçə əsər çap etdirir və bu əsərlərdə dilin fonem sisteminin binar (ikili) şərhini nəzəri cəhətdən əsaslandırır və praktik cəhətdən problemin həllini verir. Bu əsərlərin ilk ikisi rus dilinə tərcümə olunaraq («Новое в лингвистике», 3-cü buraxılış, M.,) 1960-cı ildə çap olunub. «Preleminaries»-də fonemə belə tərif verilir: «Bir simultan dəstdə birləşən distinktiv əlamətlər fonem əmələ gətirir».

downloaded from KitabYurdu.org

«İkili loqorifm sisteminə əsaslanan bu təsnif əlamətin olmasını (+) və olmamasını (-) əsas götürür. Fonemi fərqləndirici əlamətlərin (FƏ) məcmusu kimi götürün binaristlər qarşılaşdırma yolu ilə bütün bu əlamətləri universal əlamətlər kimi qələmə verirlər. Özü də bütün bu təhlil metodu privativ qarşılaşmaya əsaslanır. Elə klassik fonetikada da sait və samitlərin təsnifi əslində ikili prinsipə söykənirdi. R.Yakobsonun və onun həmkarlarının üstünlüyü onda idi ki, onlar FƏ-i akustik və artikulyator əlamətlər əsasında müəyyən edirdilər. Klassik fonetika kar/cingiltili, qalın/yumşaq və s. əlamətləri göstərəndə elə məhz ikili təsnif prinsipindən çıxış edirdi.
Danışıq cihazının xüsusiyyətindən çıxış edən binaristlər əlamətləri əsas və əlavə olmaqla iki yerə bölürdülər:
1. Səsin mənbəy ilə bağlı əlamətlər; 2. Rezonansla bağlı əlamətlər.
Akustik yanaşmada bu o deməkdir ki, hər hansı mənbə, insanda xirtdəkdəki səs tellərini ehtizaza gətirir, ağız və ya burun boşluğunda yaranan rezonans nəticəsində səs yaranır. Deməli, danışıq üzvləri səsin əmələ gəlmə mənbəyi, rezonatorlar isə onun formalaşması vasitələridir. Buradan da binaristlər mənbə və rezonatorla bağlı əlamətləri fərqləndirirlər. Mənbə ilə bağlı səslər birinci (ton və konsonant) və ikinci (yalnız konsonant) əlamətlərə bölünürlər. Bu nəzəriyyədə çatışmayan əsas cəhət eyni əlamətin həm saiti, həm də samiti səciyyələndirə bilməsidir. Binaristlər bunu sonorlar məsələsini həll etmək üçün irəli sürmüşdülər.
I.Birinciyə aid olan əlamətlər:
1. Saitlər/qeyri saitlər
2. Samitlər/qeyri samitlər
Görünən danışıq spektrində (visible speech) saitlər aydın spektr görüntüsü ilə fərqlənirlər. Samitlərdə isə aydın formant strukturu yoxdur. Müq. et:



Saitlər Samitlər

Aritkulyator baxımdan bu o deməkdir ki, səs telləri titrəyir, xirtdəküstü boşluqda isə maneə yoxdur.
İkinci əlamətin başqa akustik izahı var. Əgər ümumi enerji spektrin aşağısında azdırsa, deməli, səs samit, yuxarıda çoxdursa, deməli, həmin səs saitdir. Məs.:



downloaded from KitabYurdu.org

Əlbəttə ki, söhbət burada nisbi səciyyədən gedir. Yuxarıda deyildiyi kimi, müəlliflər bununla sonorlar problemini həll etmək istəyiblər. Küylü samitlər qeyri/saitlərə, sonorlar isə qeyri - samitlərə aiddirlər.
İkinci dərəcəli əlamətlər də bölünürlər:
1) əsas mənbə ilə bağlı və 2) əlavə mənbə ilə bağlı əlamətlər.
Əsas mənbə ilə bağlı əlamətlər:
3. Fasiləli/ fasiləsiz.
Akustik cəhətdən bu özünü onda göstərir ki, fasiləsizlərdə səssizlik olur, sonra o birdən enerjinin tez yayılmasına səbəb olur. Yəni kipləşən-partlayışlılarda kipləşmə anında səslənmə yoxdur, novlularda isə bu arası kəsilmədən səslənir. Artikulyator baxımdan bu xirtdəküstü borunun qoşulması və qoşulmaması deməkdir. Buraya /l/ və /r/ -da daxildir. Birincisi fasiləli süzülən, ikincisi isə fasiləsiz süzüləndir.



4. Xirtdək/qeyri –xirtdək
Akustik cəhətdən qısa müddətdə güclü enerjinin çıxması, qeyri-xirtdəklərdə az enerjinin çıxması ilə səciyyələnir. Artikulyator baxımdan xirtdək səsləri xirtdəkdə kipləşmənin partlayışa keçməsilə səciyyələnirlər. Buraya gürcü və şimali Qafqaz dillərindəki xirtəkdə partlayışlı səslər aid edilə bilərlər Məs.: /t^c/, /p^c/, /k^c/ və s.
5. Kəskin/qeyri-kəskin



Spektrdə küyün az və çoxluğu bu səslərin akustik şəklini bildirir. Təbiidir ki, burada nisbilik həlledicidir. Kəskinlərdə küyün enerjisi çoxdur, qeyri-kəskinlərdə isə azdır. Artikulyator baxımdan bu əlavə məxrəclə bağlıdır. əlavə məxrəc də danışıq traktında ən dar yerdə yaranır. Buraya afrikatlar və novlular uyğun gəlir. Novlular isə yastı novlu (məs.: /s/) və dairəvi (məs.: /ʃ/) novlu olmaqla iki yerə bölünürlər.
Deməli, 3, 4 və 5-ci əlamətlər əsas mənbə ilə bağlıdır. Ton əlamətinə yalnız biri aiddir.

downloaded from KitabYurdu.org

6. Cingilitli/kar

Akustik baxımdan spektrdə aşağı tezliklərdə periodik əyrilərin olması ilə səciyyələnir. Artikulyator baxımdan isə səs tellərinin titrəməsi və ya titrəməməsi ilə səciyyələnir.

Yuxarıda sadalanan əlamətlərin hamısı səsin yaranması mənbəi ilə bağlıdır. Yerdə qalan əlamətlər rezonansın filtr sistemindən asılıdır. Əsas rezonatorla, yəni ağızla şərtlənən əlamətlər 5-dir. Biri də əlavə rezonatorla, yəni burunla bağlıdır:

7. Kompakt/diffuz

Akustik baxımdan kompakt səslərdə enerji bir yerdə cəmlənir, ancaq diffuzlarda enerji paylanır. Məs.:



Kompaktlarda ümumi enerji güclənir, diffuzlarda zəifləyir. Artikulyator baxımdan kompaktlarda rezonator ən enli, diffuzlarda isə çox dar olur. Əlbəttə, bu əlamət də nisbi xarakter daşıyır. Əyani olaraq bunu belə göstərə bilərik:



8. Aşağı/yüksək

Akustik cəhətdən enerji aşağılarda aşağı tezliklərdə, yüksəklərdə isə yuxarı tezliklərdə cəmləşir. Artikulyator baxımdan bura mərkəzi və periferik fonemləri aid etmək olar. Aşağılara dodaq və dilarxası səslərini, yüksəklərə isə mərkəzi, bir də yumşaq səsləri, /i/ və /e/ saitlərini aid edə bilərik.



9. Bemol/sadə

downloaded from KitabYurdu.org

Akustik baxımdan bemol səslər formant göstəricilərin aşağı düşməsilə səciyyələnir. Artikulyator baxımdan bemol səslərdə nov dar, sadələrdə isə enli olur. Dodaq səsləri bemol, qeyri-dodaq və dilönülər sadədirlər.

10. Diez/sadə

9-cudan fərqli olaraq burada formant göstəriciləri yuxarı qalxır. Artikulyator baxımdan diez səslərdə dil ortası sərt damağa doğru qalxır.





11. Gərgin/qeyri-gərgin

Akustik baxımdan bunlar rezonans sahələrinin kəskin məhdudluğu və ümumi enerjinin yüksəlməsilə səciyyələnir. Zamanca uzanma burada aydın hiss olunur. Artikulyator baxımdan xirtdəküstü boruda sükunət vəziyətindən daha güclü yayınma nəzərə çarpır. Sükunət vəziyyəti /ə/ saitinin vəziyyətidir. Samitlərdə gərgin və zəif, saitlərdə isə uzun və qısa qarşılaşmalar buna misal ola bilər. Əlavə rezonatora görə fərqləndirici əlamət budur:

12. Burun/qeyri-burun

Akustik cəhətdən daha aşağı tezliklərdə burun formantlarının müşahidə edilməsidir. Artikulyator baxımdan damaq pərdəsinin aşağı düşməsilə burun boşluğunun qoşulması və burunda tembrin yaranmasıdır.

Deməli, R.Yakobson öz həmkarları ilə birlikdə FƏ-in dixotomik təsvirini verməklə universal bir nəzəriyyə yaratdıqlarını güman edirdi. Ancaq bu təlimin fonologiyaya yeni bir şey gətirdiyini güman etmək naşılıq olardı. Əvvəla, FƏ-in birbaşa akustik və artikulyator korrelatı yoxdur, baxmayaraq ki, bu təsvir akustik və artikulyator bazanı əsas götürür və binar prinsipə əsaslanır. Sonra isə bütün dillərdə saitlə samit ardıcıllığında sait mütləq hecanın nüvəsini əmələ gətirir. Üçüncüsü, «fonem FƏ-in məcmusudur» demək məsələnin mahiyyətindən uzaqlaşmaq deməkdir. Belədə, FƏ dönüb olur ünsür. Dördüncüsü, fonemin dərk olunması üçün inteqral əlamətlər mütləq nəzərə alınmalıdır. Məs.: Azərbaycan dilində /s°üt/ sözündə anautda gələn /s/ - samitini dodaqlanmayan tələffüz etsək, bizi heç kəs başa düşməz. Beşincisi, eyni əlamətlə həm samiti, həm də saiti təsnif etmək düz deyil. Nəhayət, bütün dünya dillərinə bu təsvirin tətbiq olunmasından danışmaq üçün bu dillərin həmin metodla tədqiqi lazımdır.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 214-233.

КЛАССИФИКАЦИЯ АНТРОПОФОНИЧЕСКАЯ - alm. antroophonische Klassifikation (f), ing. anthropophonic classification /ˈ¾nθrəpəʊˈfəʊnɪk ˌkl5sɪfɪˈkeɪʃ(ə)n/, fr. classification anthropophonique, azərb. antropofonik təsnifat. - Saitlərin fizioloji xüsusiyyətlər əsasında apa-

downloaded from KitabYurdu.org

rılan bölgüsü. Əsasən İ.A.Boduen de Kurtene məktəbində geniş yayılmış təsvir metodu.
F.Yadigar (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 62-63.

КЛАССИФИКАСИЯ ГЕНЕАЛОГИЧЕСКАЯ - alm. genealogische Klassifikation (f), ing. genealogical classification of languages /ʤi:njə'lɔʤıkəl kl5sıfi'keıʃən əv 'l5ŋgwıʤız/, fr. classification généalogique, azərb. geneoloji təsnifat. - Dillərin qohumluq baxımından qruplaşdırılması, təsnifi.
Bax: Генеологическая ←.

КЛАССИФИКАСИЯ ГЕНЕТИЧЕСКАЯ - alm. genetische Klassifikation (f), ing. genetic classificaton /ʤı'netik ˌkl5sıfi'keıʃ(ə)n/, fr. classification génétique, azərb. genetik bölgü.
Bax: Генеологическая ←.

КЛАССИФИКАЦИЯ МОРФОЛОГИЧЕСКАЯ - alm. morphologische Klassifikation (f), ing. morfological classification of languages /m6:fə'l6ʤıkəl 'kl5sıfi'keıʃ(ə)n əv 'l5ŋgwıʤız/, fr. classification morphologique, azərb. morfoloji təsnifat. - Bu təsnifatda dil tipi morfoloji xüsusiyyətə görə müəyyənləşdirilir. Dillərin morfoloji təsnifini ilk dəfə alman alimi F. fon Şlegel (1772-1892) vermişdir. Məsələyə morfoloji tərəf-dən yanaşan alim dünya dillərinin qruluşlarındakı fərqləri müəyyənləşdi-rərkən onları iki qrupa ayırmışdır: 1) şəkilçili dillər (bantu, türk və s.); 2) fleksiyalı dillər (sami, hind-Avropa dilləri və s.). Dilçilik tipologiyasında V.Humboldtun xidmətləri olduqca böyükdür. Hal-hazırda mövcud tipoloji təsnifi ümumi şəkildə ilk dəfə o irəli sürmüşdür və buna görə də dilçilik tarixində haqlı olaraq linqvistik tipologiya onun adı ilə bağlıdır.
Morfoloji təsnifata görə, dünyada mövcud olan dillər dörd müxtəlif qrupa ayrılır:

1. Kök dillər (Çin və Malayziya dilləri);
2. Aqqlütinativ dillər (türk dilləri);
3. Flektiv dillər (hind-Avropa dilləri);
4. İnkorporativ və ya polisintetik dillər (qrenland, irokezik dillər).

A.Axundov. Ümumi dilçilik. Bakı, 1988, s. 183.

КЛАССИФИКАЦИЯ ТИПОЛОГИЧЕСКАЯ - alm. typologische Klassifikation (f), ing. typological classification /taı'p6'lɔʤıkəl kl5sıfi'keıʃ(ə)n/, fr. classification typologique, azərb. tipoloji təsnifat. - Dillərin coğrafi yerləşməsindən asılı olmayaraq struktur oxşarlığına söykə-nən təsnifatı. İfadə vasitələrinin taksonomik (dildəki bənzər hadisələrin üzvlənməsi və bölgüsü əsasında) sistemləşdirilməsilə aparılan təsnifat. Dünya dillərində maddi oxşar və fərqli sturuktur səciyyəli, başqa sözlə desək, dil materialına görə deyil, onun quruluşu prinsiplərinə əsaslanan fərqlər də mövcuddur. Tipoloji təsnifat müxtəlif quruluş əlamətləri

downloaded from KitabYurdu.org

əsasında aparıla bilər: fonoloji, morfoloji, semantik və s. Qeyd edək ki, bəzən tipoloji təsnifatı areal və genealoji təsnifatdan ayırmaq çətindir.
N.S.Trubeskoy german dilləri üçün 6 struktur tipoloji əlamət göstərir: 1) Bu dillərdə sait ahəngi yoxdur; 2) Morfoloji funksiya daşıyan samit əvəzlənmələri mövcuddur; 3) Affiks və fleksiya ilə sözdüzəltmə; 4) Sözbaşında (anlautda) söz içində (inlaut) və söz sonundan (auslautdan) az olmayan samit birləşməsinin olması; 5) Söz məcburi deyil ki, köklə başlasın, o prefikslə də başlaya bilər; 6) Tranzitif fellərin subyekti intranzitiv fellərin obyekti kimi götürülə bilər.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 96.
КЛАСС – alm. Klasse (f), ing. class /ˈkla:s/, fr. classe, azərb. klass, (sinif). - Ən azı bir ümumi əlamətə görə eyni qrupa aid edilən dil vahidləri. Məs.: alm. d. /Buch/ (kitab), /bald/ (tezliklə) başlanğıcda /b/ samiti olduğundan bir sinifə aid edilə bilər. Məs.: Azərb. d. /ağac/, /adam/, /dəftər/ əşyavilik ifadə etdikləri üçün bir sinifə – isimə aid edilə bilər. Taksonomik strukturalizmdə distribusiya əsasında dil vahidləri müxtəlif klasslara, paradiqmlərə aid edilirlər. Məs: avtosemantik və sinsemantik morfemlər və ya məhdudiyyət bilməyən fonemlər və məhdud distribusiyalı fonemlər və s.
H.Buβmann. Göstərilən əsər, s. 382.
КЛАССЕМ – alm. Klassem (n), ing. classem /ˈklasi:m/, fr. classéme, azərb. klassem. - Klass düzəldən əlamətlər əsasında bölgü. Məs.: rəng bildirən sifətlər bir qrupda, çəki bildirən başqa qrupda birləşir. Bu prinsip semantik əlamətlərin bölgüsündə də istifadə olunur. Məs: /canlı/cansız/, /qoca/cavan/, /insan/heyvan/ və s.
H.Bußmann. Göstərilən əsər, s. 382.
КЛАССИЧЕСКИЙ - alm. klassisch, ing. classical /ˈkl5:sıkəl/, fr. classique, azərb. klassik. – Yazılı abidələrdə təmsil olunan, müəyyən tarixi kəsimdə yazılı və ədəbi dil forması kimi formalaşan və elə buna görə də filoloji araşdırmaların obyekti kimi öyrənilən və öyrədilən dil. Belələrinə yunan, latın və s. dilləri misal göstərmək olar.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 138.
КЛАССНЫЙ ПОКАЗАТЕЛЬ - alm. Klassenaffix (n), ing. class – formative /ˈkla:s ˈfɔ:mətıv/, class-indicator /kla:s-ˈındıkeıtə/, classifier //ˈkl5sıfaıə/, fr. indice classificateur, azərb. klass göstəricisi. - Dil vahidlərinin təsnifatında formal elementlər vasitəsilə sözün bu və ya digər sinifə aidliyinin ifadəsi.
O.C.Ахманова. Göstərilən əsər, s. 334.
КЛАССЫ ПОЗИЦИЙ - alm. Positionsklassen (Pl.), ing. classes of positions /kl5sıs əv pəˈzıʃ(ə)ns/, fr. position de classes, azərb. mövqe klassları. - Deskriptiv dilçilikdə sözlərin təsnifatında əsas kimi götürülən sintaktik mövqelərin klassları.
P.H.Matthews. Göstərilən əsər, s. 287.

downloaded from KitabYurdu.org

КЛАССЫ СЕМАНТИЧЕСКИЕ - alm. semantische Klassen (Pl.), ing. semantic classes /sɪ ˈm5ntɪk kla:sɪs/, fr. classes sémantiques, azərb. semantik klaslar. - Eyni semantik əlamətlərlə səciyyələnən qruplar. Sözlərin semantik əlamətlərinin və ya sözdüzəltmə vastələrinin ümumiliyi əsasında qruplaşdırılması. Məs.: Azərb. d. (lı[4]), şəkilçisilə düzələn sözləri eyni semantik qrupda birləşdirmək olar: Məs.: Azərb. d. /dadlı, sulu, bolluçoxlu, səsli/, və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 196.

КЛАССЫ СИНТАКСИЧЕСКИЕ - alm. syntaktische Klassen (Pl.), ing. syntactic classes /sɪnˈtæktɪk kla:sɪs/, fr. classes syntaxiques, azərb. sintaktik klasslar. - Cümlədə sintaktik cəhətdən eyni, yaxud bənzər kontekstdə çıxış etdiyinə görə birləşə bilən söz qrupları. Məs.: Azərb. d. /məktəbin direktoru/, /binanın memarı/, /şəhərin yeni seçilmiş meri/, /ideyanın müəllifi/ və s. bizim yerlimizdir//. Azərbaycan dilçiliyində bu cür birləşmələr təyini söz birləşmələri adı altında birləşdirilir.
Y.Seyidov. Azərbaycan dilində söz birləşmələri. Bakı, 1992.

КЛИКС (ЩЕЛКАЮЩИЙ) - alm. Schnalzlaut (m), ing. click /klɪk/, occlusive /əkˈlu:sɪv/, fr. clic, azərb. kliks (şaqqıltılı). - Tələffüzü zamanı dilin arxa hissəsinin yumşaq damaqla kipləşmə yaratması və sonra hava axını ağız içəri sorulması ilə kipləşmənin açılması nəticəsində yaranan səs. Cənubi Afrika dillərində, Nama-Koysan və bantu dillərindən olan zulu dilində bu səsə rast gəlmək olur. Afrikanistikada bu səsi vermək üçün /o/, /ǀ/, /ǁ/, /ǃ/ işarələrindən istifadə olunur. BFƏ (bax: s.22/23) /ʘ/, /ʇ/, /ʃ/ işarələrini tövsiyə edir. Adamlar hava ilə öpüş göndərəndə eşidilən səs belə olur /ʘ/ - dodaq şnals səsi.
H.Buβmann. Göstərilən əsər, s. 667.

КЛИМАКС (ВОСХОДЯЩАЯ ГРАДАЦИЯ) - alm. Klimax (f), ing. climax /ˈklaɪmˈ5ks/, climabing figure /klaɪmɪŋ ˈfɪɡə/, gradation /grəˈdeɪʃ(ə)n/, fr. gradation, climax, azərb. klimaks, ritorik fiqur. - Tərkibindəki söz və ifadələrdən hər birinin özündən əvvəlkinə nisbətən semantik çəhətdən daha tam və dolğun, daha təsirli olması ilə yüksələn istiqamətdə düzülüşündən ibarət bədii fiqur. Məs.: Azərb. d. /Bir gün belə, beş gün belə, on gün belə, axırı ki, yorulacaq/. Bu növ ritorik fiquru izah edərkən Sezarın məşhur kəlamını tez-tez misal gətirirlər: /veni, vidi, vici/ (gəldim, gördüm, qalib gəldim).
H.Buβmann. Göstərilən əsər, s. 385.

КЛИНИЧЕСКАЯ ЛИНГВИСТИКА – alm. klinische Linguistik (f), ing. clinical linguistics /ˈklɪnɪk(ə)l lɪŋˈɡwɪstɪks/, fr. linguistiques clinique, azərb. klinik dilçilik. – Tətbiqi dilçilik olmaqla ünsiyyətdə və dilöyrənmədə orqanik və ya psixi şərtlərlə bağlı meydana gələn yayınmaların şərhi, diaqnostikası və müalicəsi prinsiplərinin nəzəri və metodiki tədqiqilə məşğul olur. Dildə və onun tətbiqində müşahidə olunan yayınmaları öyrənməklə kliniki

downloaded from KitabYurdu.org

dilçilik neyrodilçilikdən onunla fərqlənir ki, birinci nəzəriyyələri tətbiq edir, ikinci isə nəzəriyyələri işləyib hazırlayır. Buraya loqopediya, afaziya və s. sahələr aiddir.

H.M.Müller (Hrsg). Arbeitsbuch Liguistik. Badeborn, 2002, s. 329-353.

КЛИНОПИСНЫЙ - alm. keilschriftlich, ing. cuneıform /ˈkjuːnɪfɔːm/, fr. cunéiforme, azərb. - mixi yazılar, mixi yazı növünə aid olan.

Bax: Клинопись →.

КЛИНОПИСЬ - alm. Keilschrift (f), ing. cuneiform writing /ˈkjuːnɪɪfɔːm raɪtɪŋ/, fr. écriture, cunéiforme, azərb. mixi yazı. - Ön Asiyada şumer və babillərin (xristianlıqdan 2900 il əvvəl) işlətdikləri yazı növü. Mixi yazı növündə işarələr paz şəkili xəttlərin kombinasiyasından əmələ gəlir. Mixi yazıları ilk dəfi Şumerdə meydana gəlmişdir.

MİXİ YAZI İŞARƏLƏRİNİN İNKİŞAFI

Şumer e.ə. IV əsr	Şumer e.ə. III əsr	Babil kursivi e.ə. II əsr	Assuriya kursivi e.ə. I əsr	Şumer işarələri	Babil-Assuriya yozumu
				su, ailə, nəsil, valideyn	su, sələf
				baş, fəsil, yuxarı	baş, fəsil
				balıq	balıq
				gəzmək, durmaq, gətirmək	gəzmək, oturmaq və s.
				bir kotan, əkinçi, əkin əkmək	kotan, əkinçi və s.
				burun, qab növü, be hecası	bi, pi, kas, kaş, qaş hecaları
	işlənmiş	–	–	?	–
				dağ, yad ölkə, yollar	ölkə, dağ mat, mod, şat və s. hecaları

H.Haarmann. Die Geschichte der Schrift. München, 2002; И.Фридрих. Дешифровка забытых письменностей и языков. М., 1961; F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 64-91.

downloaded from KitabYurdu.org

КЛИШЕ (ШТАМП)- alm. Klischee (n), Stereotyp (m), Wendung (f), ing. cliche /ˈkli:ʃeɪ/, stamp /st¾mp/, stereotyped expression /ˈstɪərɪəˈtaɪpd ɪksˈpreʃ(ə)n/, fr. cliché, azərb. klişe. - Kitab çapından götürülmüş ifadələrin pejorativ mənada işlədilməsi. Bunları bəzən stereotip (basmaqəlib) ifadələr də adlandırırlar. Planlı təsərrüfatda geniş yayılmışdı. Məs.: Azərb.d. /Zəhmətkeşlərimiz plan tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmişlər//. «Klişenin müsbət cəhətləri çoxdur: hazır nitq formalarından asanlıqla istifadəyə imkan yaradır, ünsiyyət prosesini yüngülləşdirir, həm danışan (yazan), həm də dinləyən (oxuyan) üçün enerjiyə və vaxta qənaət imkanı verir».
M.İ. Adilov və b. Göstərilən əsər, s. 139; Г.А.Золотова. Слова и штамп. «Вопросы культуры и речи», М., 1966.

КНАКЛАУТ - alm. Knacklaut (m), ing. glottal catch /ˈg6l6tal k5tʃ/, fr. coup de glotte, azərb. knaklaut. – Alm. d. saitlə başlayan söz və ya morfemin birinci saitində səs tellərinin sərt başlanğıcla titrəməsini bildirir. Kipləşən səs telləri şaqqıltı ilə açılır, sonra mütəmadi titrəməyə başlayır. Transkripsiyada saitin əvvəlində /˃/ işarəsilə qeyd edilir. Əsas linqivistik funksiyası morfem və söz başlanğıcını bildirməkdir. Məs.: Alm. d. /ˊan:ɛ˃Rkənən/. İng. d. buna bənzər kipləşən səs partlayışlı sammitlərdən sonra gəlir və ona «stop» deyilir. Məs.: ing. d. /kæt˃rin/. Danimarka dilində «stod» adlanır. Məs.: /fɛmʻ/ (beş), /dø˂ø/ (ölü), /ven˃də/ (qış) və s.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 20;
P.H.Matthews. Göstərilən əsər, s. 354.

КНИЖНЫЙ – alm. Bücher-, bildungssprachlich, ing. literary /ˈlɪtərərɪ/, bookish /ˈbukɪʃ/, fr. livresque, azərb. kitab dili. – Yazıldığı kimi danışılan dil, real danışıqdan uzaq olan və ona görə də ikinci dərəcəli ünsiyyət vasitəsi hesab edilən «dil». Məs: Azərb. d. /mək-təb başlayır/, real danışıqda deyilir /məçtəb başlıyır// və s.
M.İ. Adilov və b. Göstərilən əsər, s. 138.

КНИЖНОЕ СЛОВО - alm. Buchwörter (Pl.), ing. literary words /ˈlɪtərərɪ wə:dz/, fr. mot savant, azərb. kitab sözləri. - Əsasən yazıçı və alimlər tərəfindən düzəldilən və işlədilən sözlər. Məs.: Azərb. d. /sivil, intellekt, erudisiya/ və s.
M.İ. Adilov və b. Göstərilən əsər, s. 138.

КОАРТИКУЛЯЦИЯ – alm. Koartikulation (f), ing. coarticulation /ˈkou:ˌɑ:tɪkjuˈleɪʃ(ə)n/, fr. coarticulation, azərb. koartikulyasiya. - Danışıq aktında fəal üzvlərin hərəkətində ardıcıllıq axınının nəticəsi olaraq səs məxrəclərinin bir-birinə qarışması. Klassik fonetikanın fərqləndirdiyi üç mərhələ: ekskursiya (başlanğıc), stasionar (orta) və rekursiya (son) fonetik təsvir baxımından özünü doğruldur. Həqiqətdə isə bu mərhələlər o qədər bir-birinə qarışır ki, onları bir-birindən ayırmaq faktiki olaraq qeyri-mümkündür. Ona görə də müasir fonetika elmi koartikulyasiyadan, danışıq aktı-

downloaded from KitabYurdu.org

nın aramsız axınından söhbət açır. Azərbaycan dilində normal tələffüzdə «məktəb» sözü /məçtəb/ kimi deyilir. Başqa sözlə ortada gələn /ç/ samitinin axırıncı, sonuncu mərhələsi /t/ samitinin birinci mərhələsilə üst-üstə düşür.
F.Veysalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989; F.Vejsälli. Einführung in die Phonologie. Baku, 2004.

КОГЕРЕНЦИЯ - alm. Kohärenz (f), ing. coherence /kou'hıərəns/, fr. cohérence, azərb. koherensiya. - Mətndə əlaqələrin birliyi. Səbəb, zaman, məkan və digər linqvistik əlaqələrin fonunda mətnin əsasını təşkil edən məzmun-semantik və koqnitiv struktur vahid. Semantik koherensiya tematik inkişaf (propozisiya) – makrostruktur-semantik əlaqələr ardıcıllığı anlam konseptilə birləşən münasibətlər şəbəkəsini yaradır. Əslində bu termin mətn dilçiliyinə fonetika-fonologiyadan gəlib. Hələ İ.A.Boduen de Kurtene koherent səslərdən danışırdı və onları vahid psixo-fizioloji təsəvvürün (fonem) kombinator variantları hesab edirdi.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s.183; M.Heinemann, W. Heinemann. Grundlagen der Textlinguistik. Tübingen, 2002, s. 94.

КОГЕЗИЯ – alm. Kohäsion (f), ing. Cohesion /kəu'hi:=(ə)n/, fr. cohésion, azərb. koheziya. – Mətn dilçiliyində qrammatik formal əlaqələrlərin məcmusu. Koheziya mətnin semantik birliyinin əsasını təşkil edir və mətnin mənaca açılışına xidmət edir. Koheziya aşağıdakı vasitələrlə ifadə olunur: a) təkrarlar. Məs.: rekurens, mətn forikası, parafraz, parallelizm; b) mətnin sıxlığı, ellipsis, proforma; c) müxtəlif əlaqələrin ifadəsi üçün morfoloji və sintaktik vasitələr – qrammatik bağlılıq: zaman, növ, deyksis və ya tema-rema üzvlənməsi, prosodiya və intonasiya vasitələri.
M.Heinemann, W.Heinemann. Göstərilən əsər, s. 98-99.

КОГНИТИВНАЯ ЛИНГВИСТИКА – alm. kognitive Linguistik (f), ing. Cognitive Linguistics /'kɔgnıtıv 'lıŋ'gwıstıks/, fr. linguistiques cognitive, azərb. koqnitiv dilçilik. – Ötən əsrin 60-cı illərindən sonra ABŞ-da formalaşmış fənlərarası tədqiqat istiqaməti. Əsasən dil birliyinin mənimsənilməsi və tətbiqində mental (əqli) prosesləri öyrənir. Biheyviorizm müşahidə olunan davranışı və «stimul-respons» prosesinə söykənirsə, koqnitiv tədqiqat insanların informasiya alıb-verməsində, onu saxlamaqda və dili başa düşərək ondan istifadə etməsində koqnitiv strategiyaların təhlili vasitəsilə mental strukturları öyrənir.
G.Kirkheit/H.Strohner. Grundlagen der kognitiven Sprachverarbeitung. Tübingen, 1993.

КОГНИТИВНЫЙ – kognitiv, ing. Cognitive /'k6gnıtıv/, fr. cognitif, azərb. mental, əqli. – İnsanın dil səriştəsini və onun tətbiqini təmin etmək üçün istifadə etdiyi əqli (mental) biliklər.
Bax: Когнитивная лингвистика ←.

КОД - alm. Kode (m), ing. code /koud/, fr. code, azərb. kod. – İnformasiya nəzəriyyəsində iki fərqli siqnalın (0 və 1 dildə hə, yox) düzümünü nizamlayan qayda. Texniki cəhətdən cərəyan axını və cərəyanın kəsilməsi ardıcıl-

downloaded from KitabYurdu.org

lığı kimi başa düşülür. Məs.: 1, 2, 3, 4 rəqəmlərindən hər iki işarənin semantik yükünü saxlamqla aşağıdakı birləşmələri düzəltmək olar: 00, 01, 10, 11. Qeyd edək ki, Morze əlifbası da bu prinsiplə işləyir. Fransız dilçiliyində kod dil sistemini, məlumat isə danışıq aktını əks etdirir. Sosiodilçilikdə kod müxtəlif zümrələrə aid olan dil variantlarını və müxtəlif strategiyalar üçün verbal planlaşdırmanı bildirir.

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 91-94.

КОДИФИКАЦИЯ НОРМЫ - alm. Normkodifizierung (f), ing. codification of the norm /ˌk6dıfıˈkeıʃ(ə)n əv ðə n6:m/, fr. codification de la norme, azərb. normanın kodlaşdırılması. – Danışıqda dilin cəmiyyətdə işlənməsinin nümunəvi variantını müntəzəm qaydada təmin edən qaydaların qeydə alınması və orfofonik lüğət şəklində təsbit edilməsi. Məs.: müasir alman dilində 3 orfofonik lüğət var: Th. Siebs. Deutsche Aussprache. Reine und gemaßigte Hochlautung. Berlin, 1969; Duden. Aussprachewörterbuch. Mannheim, 1964; E.M.Krech. Großes Aussprache –Wörterbuch. Leipzig, 1988. İngilis dilində belə lüğəti D.Counz hazırlamışdır: An English Pronuncing Dictionary. London, 1964; Azərb. d. Ə.Əfəndizadə. Orfoqrafiya və orfoeriya lüğəti. Bakı, 1989.

КОЙНЕ – alm. Koine (f), ing. coine /k6:ını/, fr. coiné, azərb. koyne. – Müxtəlif dialekt və ya dillərin daşıyıcılarının müntəzəm sosial əlaqələr şəraitində gündəlik məişətdə əsas ünsiyyət vasitəsi kimi istifadə etdikləri funksional dil. Əsasən koyne rolunda bir dil və ya bir neçə dialekt daxilində inkişaf edən fövqəldialekt forması çıxış edir. Məs.: Mali Respublikasında koyne keyfiyyətində bamana dialekti çıxış edir.

А.В.Десницкая. Наддиалектные формы устной речи и их роли в истории языка. Л., 1970; A. Meillet. Apercu d'une histoire de la langue grecgue. Paris, 1975.

КОЙСАНСКИЕ ЯЗЫКИ – alm. Khoi-San-Sprachen (Pl.), ing. khoi-san languages /k6:ı san ˈl5ŋgwıʤız/, khoesaan /k6:ı s7:n/, fr. langues koïsanes, azərb. koysan dilləri. – Afrika dilləri ailəsi (böyük ailəsi). Koysan dilləri CAR, Namibiya və Anqolada yayılmışlar. Koysan böyük dil ailəsi iki qrupa bölünür: qottentot və buşmen. Cənubi Afrikanın buşmen dilləri 5 dil qrupunu özündə birləşdirir: 1) kunq, ssu qxassi, kaukau; 2) nqusan; 3) auni, kxatiya, kakia; 4) kxomani; 5) xadza. Qottentot dilləri ailəsinə isə aşağıdakı dillər daxildirlər: 1) kxoy, nama, kora, qrikva; 2) nxauru; 3) kve, demis, çumakve-şuakve; 4) çu, xaiçu-vau; 5) sandave. Saitlər sistemi nisbətən zəif inkişaf etmişdir (4-5 sait fonem) /a/, /e/, /i/, /o/, /u/. Koysan dilləri nama dili istisna olmaqla yazısız dillərdir.

D.M.Beach. The phonetics of the Hottentot languages, Cambridge, 1938.

КОЛИЧЕСТВЕННЫЙ (КВАНТИТАТИВНЫЙ) - alm. quantitativ, ing. quantitative /ˈkw6ntıtətıv/, fr. quantitatif, azərb. kəmiyyət (kvantativ). - Dil vahidinin deylişinə sərf olunan zaman. Bir qayda olaraq mütləq orta və

downloaded from KitabYurdu.org

nisbi kəmiyyət göstəriciləri fərqləndirilir. Ölçü vahidi m/san-dir. Mütləq kəmiyyət hər hansı bir dil vahidinin (fonem, morfem, söz, cümlə) tələffüzünə sərf olunan real zamandır. Orta kəmiyyət orta hesabla sözdə hər bir fonemin tələffüzünə düşən zamandır. Nisbi kəmiyyət isə orta zaman göstəricisinin bölünməsindən alınır. Məs.: Azərb. d. /ana/ sözündə 3 fonem var: $[a]_1$ = 30 m/san, /n/=20 m/san, $[a]_2$= 50 m/san. Deməli T_{a1}=30 m/san və s. İndi orta qiyməti almalıyıq. Bunu aşağıdakı formula ilə etmək olar. $T = \frac{30+20+50}{3} = \frac{100}{3} = 33{,}3$. Deməli, bu üç fonemli sözdə hər bir fonemin orta hesabla tələffüz sürəti 33,3 m/san-dır. İndi biz bu hesablamadan sonra nisbi-orta qiyməti almaq istəyirik. O zaman fonemin orta qimət göstəricisini onun mütləq göstəricisinə bölürük, yəni $T = \frac{t\ orta}{t\ mütləq} = \frac{33{,}3}{30} = 1{,}3$

Kəmiyyət göstəricilərinin bu cür hesablanması eksperimental fonetik tədqiqatlarda çoxdan uğurla tətbiq olunur.

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s 177.

КОЛИЧЕСТВЕННОЕ ИЗМЕНЕНИЕ. Bax: Изменение ←.

КОЛИЧЕСТВЕННОЕ УДАРЕНИЕ - alm. Quantitätsbetonung (f), ing. quantitative stress /ˈkw6ntitətıv stres/, fr. accent de quantite, accent temporel, azərb. kəmiyyət vurğusu. - Vurğunun kəmiyyət göstəricisilə müəyyənləşməsi. Kəmiyyət parametri müasir rus dilində vurğunun əsas göstəricisidir. Məs.: rus d. /ˈбаба/ sözündə vurğulu hecanın uzunluğu vurğusuza nisbətən 1,5 m/san çoxdur.

Л.В.Златоустова. Фонетическая структура слова в потоке речи. Казань, 1962.

КОЛИЧЕСТВЕННОЕ ЧЕРЕДОВАНИЕ - alm. quantitativer Ablaut (m), Vokalabstufung (f), ing. quantitative alternation /ˈkw6ntitəıtıv ˌ6:ltːˈneıʃ(ə)n/, fr. alternance de quantite, alternance quantitative, azərb. kəmiyyət əvəzlənmələri. - Alman dilində bəzi sözlərdə vurğu yerini dəyişir, bu zaman fonoloji cəhətdən uzun sait yarımuzun saitlə əvəzlənir. Müq. et: /laˈbo:R/ → /la.bo.ŕant/,→/ˈ dɔkto:R/→ /dɔkt́o:Rən/ və s.

F.Veysalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 203.

КОЛЕБАНИЯ ГЛОТТАЛЬНЫЕ - alm. Glottisvibration (f), ing. glottal vibration /ˈɡl6təl vaıˈbreıʃən/, fr. vibration glottale, azərb. xirtdəkdə titrəmə. – Xirtdəkdə səs tellərinin titrəməsi.

P.H.Matthews. Göstərilən əsər, s. 147.

КОЛЛЕКТИВУМ – alm. Kollektivum (n), ing. collectivum /k6ˈlektıvu:m/, fr. collectivum, collectivité azərb. topluluq. – Müəyyən şəkilçilər vasitəsilə düzələn sözlər topluluq bildirir. Məs.: Azərb. d. /-lıq/. Müq. et: Azərb. d. /daşlıq/, /qumluq/ və s. Alm. d. /Ge-/ sözönü, /-schaft/ və /-tum/ şəkilçilərlə düzələn sözlər də topluluq bildirir. Müq. et: /Stuhl/ (stul),

downloaded from KitabYurdu.org

ancaq /Gestühl/ (çoxlu stul), /Bürger/ (vətəndaş), /Bürgerschaft/ və ya /Bürgertum/ (vətəndaşlıq) və s.

H.Buβmann. Göstərilən əsər, s. 390.

КОЛИЧЕСТВЕННЫЙ АНАЛИЗ - alm. quantitative Analyse (f), ing. quantitative analysis /ˈkw6ntitətɪv əˈn5ləsɪs/, fr. analyse quantitative, azərb. kəmiyyətcə təhlil. - Araşdırılan hadisələrin tezliyə, linqvistik təzahürlərin işlənməsi nisbətinə əsaslanan təsvir metodu. Adətən bunu statistik təhlil metodu adlandırırlar. Riyazi dilçiliyin tərkib hissəsi olan bu statistik dilçilik dil vahidlərinin realizə qanunauyğunluqlarını öyrənir. Onun nəticələri tez-likli lüğətlərin hazırlanmasına və mətnin statistik təhlilinə kömək edir.

Ф.Вейсалов (Вейсалли). Анализ данных опыта по восприятию интонации. «Ученые записки» АПИЯ им. М.Ф.Ахундова. Баку, 1973, №1.

КОЛИЧЕСТВО – alm. Quantität (f), ing. quantity /ˈkw6ntitɪ/, fr. quantité, nombre, azərb. kəmiyyət. - Dildə fonemlərin kəmiyyətcə qarşılaşması. Məs.: alm. d. saitlər uzunluq və qısalığa görə-qarşılaşma yaradır. Yəni hər bir qısa saitin uzun qarşılığı var.

Məs.:	uzun	qısa
	/a:/	/a/
	/o:/	/ɔ/
	/u:/	/-/
	/e:/	/ɛ/
	/ʏ:/	/ʏ/
	/i:/	/ɪ/
	/ø:/	/Ï/

Məs.: alm. d. /ˈbe:t/ (lək) və /ˈbɛt/ (yataq) sözləri yalnız uzunluq və qısalığa görə fərqlənirlər. Bəzi dillərdə uzunluğa görə fərqlənmə 3 dərəcəni əhatə edir. Məs.: eston dilində: /klo:t/ (inandı), /klo·t/ (yaxşı), /klot/ (seçimli). Qrenland dilində samitlər də uzunluğa (geminat) və qısalığa görə fərqlənirlər. Məs.: /ma:ń:a/ (indi), /mańa/ (bu). Azərb. d. saitlərin uzunluğu mövqe ilə bağlıdır. Məs.: Azərb. d. /a·dil/, /e·lan/ və s. Samitlərin geminatlığı isə mübahisəlidir. Ancaq uzun samitlər bu dildə eyni morfem daxilində gələ bilmir. /çaqqal, baqqal/ və s. kimi sözlərdə iki heterogen samit, yəni /k+g/ və ya /h+g/ realizə olunur.

H.Buβmann. Göstərilən əsər, s.623; F.Veysəlli. SDƏ. Bakı, 2005, s.92-152.

КОЛЛИГАЦИЯ - alm. Kolligation (f), ing. collegation /ˈk6lɪgeɪʃ(ə)n/, fr. colligation, azərb. kolliqasiya. - Söz birləşmələrini və ifadələri morfosintaktik cəhətdən şərtləndirən. Məs.: Azərb. d. /O, çarpayıda yatır//, /O, iki ildir ki, yatır// (türmədə). Cümlədə işlənməsindən asılı olaraq /yatmaq/ feli iki müxtəlif mənada işlənir.

H.Buβmann. Göstərilən əsər, s. 390.

КОЛЛОКАЦИЯ - alm. Kollokation (f), ing. collocation /ˌk6ləˈkeɪʃ(ə)n/, fr. collocation, azərb. düzüm, distribusiya. – Sözlərin qarşılıqlı şəkildə bir-

downloaded from KitabYurdu.org

birinin ardınca gəlməsini şərtləndirir. Məs.: Azərb. d. it /hürmək/, /quyruq bulamaq/, /gecə, qaranlıq/ və s. Bir-birilə məna əlaqələri leksik həmrəylik nəzəriyyəsilə də izah oluna bilər.
E.Coseriu. Lexikalische Solidaritäten. «Poetica». 1, 1967, s. 293-303.

КОЛОМЕТРИЯ - alm. Kolometrie (f), ing. colometry /ˈkəˈlɒmɪ:tə/, fr. colométrie, azərb. kolometriya. – Söyləmin kolonlara bölünməsini öyrənən elm sahəsi.
Bax: Колон →.

КОЛОН – alm. Kolon (n), ing. colon /ˈkəulən/, fr. colon, azərb. kolon. – 1) Qədim natiqlik sənətində, ritorikada iki tələffüz fasiləsi arasında gələn nitq parçası, təxminən 7-dən 16 hecaya qədər ola bilərdi; 2) qoşa nöqtənin (:) köhnəlmiş adı.
H.Buβmann. Göstərilən əsər, s. 391.

КОЛОРИТ - alm. Kolorit (n), ing. colo(u)ring /kʌlərɪŋ/, fr. couleur, locale, azərb. kolorit. - Bədii əsərlərə və ya danışığa xüsusi ifadəlilik, verən söz və söz birləşmələri.
M.İ. Adilov və b. Göstərilən əsər, s. 140.

КОМБИНАТОРНЫЙ - alm. kombinatorisch, ing. combinatory /kəmˌbaınətrɒı/, combinatorial /kəmˌbaınəˈtɒ:rıəl/, fr. combinatoire, azərb. əhatə. - Əhatə ilə müəyyənləşdirilən, əhatədən asılı olan, müəyyən fonemin işləndiyi əhatədə tələffüzü. Azərb. d. dodaq saiti arasında samitlər dodaqlanan çalarda tələffüz olunur. Məs.: Azərb. d. /ɡ°uz°u/. Alm. d. vurğulu saitdən əvvəl və söz sonunda kipləşən-partlayışlı kar samitlər nəfəsli tələffüz olunur. Məs.: /t^h at^h/ (əməl) və s.
F.Veysalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989.

КОМБИНАТОРНЫЙ ВАРИАНТ – alm. kombinatorische Variante (f), kombinatorisches Allophon (n), ing. combinative variant /ˈkɒmbınətıv ˈvɛərıənt/, fr. variante combinatoire (de combinaison), azərb. kombinator variant. – İki səs bir-birini istisna edən əhatədə gəlirsə, onlar eyni fonemin kombinator variantları (allofonları) hesab olunurlar. Məs.: Azərb. d. /düz/ və /daz/ sözlərində dodaqlanan [d°] və dilin geriyə çəkilməsilə tələffüz olunan [d̠] kombinator variantlardır..
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 157-160.

КОМИ – Bax: Финно-угорский →.

КОМИ-ЗЫРЯНСКИЙ ЯЗЫК – alm. Komi (n) (auch Syrjenisch), ing. Komi-Syryan language /ˈkɒ:mı-sırj5n ˈl¾ŋɡwıʤ/, fr. langue komi-ziryane, azərb. komi-zıryan dili. – Perm dillərindən biri. Əsasən Komi vilayətində, qismən də Kolsk yarımadasında, Yamal-Nenetski və Xantı-Mansiyski vilayətlərində yayılmışdır. Bu dildə danışanların sayı 327 minə yaxındır.
В.И.Лыткин. Историческая грамматика коми языка. Сыктывкар, 1957.

downloaded from KitabYurdu.org

КОМИ-ПЕРМЯЦКИЙ ЯЗЫК - alm. Komi-Permjakisch (n), ing. Komi-Permyak language /ˈk6:mı permi7:k ˈl¾ŋgwıʤ/, fr. langue komi-permyatse, azərb. komi-permyak dili. – Perm dillərindən biri. Komi-Permyak muxtar vilayətində yayılmışdır. 150 mindən yuxarı daşıyıcısı vardır.

Р.М.Баталова. Коми-пермяцкая диалектология. М., 1975.

КОМИТАТИВ - alm. Komitativ (us) (m), ing. comitative /ˈk6mıtatıv/, fr. comitatif, azərb. komitativ. – 1) Başqa iş və hərəkəti müşayət edən fel növü; 2) Fin dilində şəxsi və əşyanı müşayət edən hal. Azərb. d. bu /yanına, yanında, yanaşı, bahəm, birgə/ qoşmaları vasitəsilə ifadə olunur.

H.Buβmann. Göstərilən əsər, s. 392.

КОММИССИВ – alm. Kommissiv (n), ing. to commissıv /tu: kəmıʃıv/, fr. commissif, azərb. həvalə etmə, vəd etmə. – Həmsöhbəti danışıq məqamından öncə baş verən hərəkətə yönəltmə, sövq etmə. Məs.: Azərb. d. /Vəd edirsən ki, dediyin sözə əməl edəcəksən//.

H.Buβmann. Göstərilən əsər, s. 392.

КОММУНИКАЦИЯ - alm. Kommunikation (f), ing. communication /kəˌmju:nıkeıʃ(ə)n/, fr. communication, azərb. kommunikasiya. - Dil vahidləri vastəsilə qarşılıqlı məlumat mübadiləsi, xəbər alıb-vermə, ünsiyyət vasitəsi. İnsanlar arasında bu həm sözlü, həm də sözsüz olur (jest, mimika və s.). Son illərdə ünsiyyətin tədqiqi praqmatik-sosiodilçilik istiqamətində geniş vüsət alıb. Ünsiyyət nəzəriyyəsinin bir vəzifəsi də ünsiyyət modelini işləyib hazırlamaqdır (dilin orqanonmodeli - K.Büller). Ünsiyyət prosesində /kim danışır nə danışır, kim üçün danışır, necə danışır/ suallarına cavab vermək ciddi elmi problem kimi müzakirə edilir. Ona görə də, ünsiyyət modeli belə təsvir edilir:

Həmin ifadə vasitələrinin realizə qaydaları, seqment və seqmentüstü vasitələrin realizəsi. Elmi araşdırmalarda ünsiyyət vasitələri, ünsiyyətin şərtləri (motivi), ünsiyyətə girənlərin davranışı və sosial-mədəni məsələlər mühüm yer tutur.

F.Yadigar (Veysəlli) Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 96.

downloaded from KitabYurdu.org

КОММУТАЦИЯ - alm. Kommutation (f), ing. commutation set /kəˌmju:ˈteɪʃən set/, fr. commutation, azərb. kommutasiya. – 1) İfadə vahidlərinin müəyyən məzmun vahidlərilə paradiqmatik cəhətdən əlaqələndirilməsi (korrelyasiyası); 2) İfadə planında invariantların qarşılıqlı nisbəti: işarələnənin və işarələyənin ünsürləri arasındakı əlaqə. Strukturalizmdə dil vahidlərinin özümlüyünü yoxlayan üsul. Mahiyyəti belədir ki, bunlardan birinin digəri ilə əvəz edilməsi onların əks etdirdikləri mənada (işarələnənin) müvafiq surətdə dəyişilməsinə səbəb olur; 3) Qlossematikada dili tədqiq etməyin metodu. Bu zaman dil vahidinin bir planında dəyişiklik o bir planda da dəyişikliyə səbəb olursa, onları müxtəlif invariantlar kimi götürmək olar. Məs.: Azərb. d. /b/ və /g/ /baş/ və /qaş/ sözlərində. Belə bir dəyişiklik olmadıqda, onlar allofonlar hesab edilir. Məs.: alm. d. [r] və [ʀ].

Ф.Вейсалов. Проблема варвирования фонем в современной лингвистике. Вопросы языкознания. 1990, №3.

КОМПАКТНЫЙ - alm. kompakt, ing. compact /kəmˈp5kt/, fr. compact, azərb. kompakt. - Kompakt fonemlər mərkəzi formant sahəsinin nisbətən çoxalması ilə səciyyələnir. Onlar spektr boyu yayılan diffuz fonemlərə qarşı qoyulur. Artikulyator baxımdan kompakt səslərdə ağız boşluğunun hər hansı bir yerində rezanator daha böyük olur.



/a/



/i/

F. Yadigar (Veysəlov). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 117.

КОМПАРАТИВИСТИКА - alm. Komparativistik (f), ing. comparativistics /kəmˈp5rətıvıstıks/, comparative philology /kəmˈp5rətıv fıˈlɔləʤı/, fr. études comparatives, azərb. komparativistika.

Bax: Сравнительно-историческое языкознание →.

КОМПАРАТИВНЫЙ - alm. komparativ, ing. comparative /kəmˈp5rətıv/, fr. comparatif, azərb. komparativ. - Müqayisə bildirən, müqayisə ifadə edən. Məs.: Azərb. d. /O sən<u>dən</u> qabiliyyətlidir//, /sən o<u>nun</u> <u>kimi</u> ağıllı deyilsən// və s. Ancaq alm. və ing. d. müqayisə həm ədat, həm də xüsusi şəkilçi vasitəsilə ifadə olunur. Müq. et:

alm. d	ing. d.	rus d.
Er ist schön<u>er als</u> ich	He is great<u>er than</u> I//	Он умн<u>ее</u>, <u>чем</u> я// və s.

downloaded from KitabYurdu.org

H.Glinz. Göstərilən əsər.

КОМПАРАТИВНАЯ ЛИНГВИСТИКА - alm. komparative Linguistik (f), ing. comparative linguistics /kəm′p¾rətıv ′lıŋgwistiks/, fr. linguistique comparative, azərb. komparativ dilçilik.

Bax: Сравнительно-историческое языкознание →.

КОМПАРАТИВНЫЙ МЕТОД - alm. komparative Methode (f), ing. comparative method /kəm′p5rətıv ′meðəd/, fr. méthode comparative, azərb. komparativ metod. - Dilin tədqiqi zamanı istifadə olunan üsul, metod. Tarixi-müqayisəli dilçilikdə geniş tətbiq olunurdu. Əsas məqsədi dillərin qohumluq dərəcəsini müəyyən etmək idi. Məs.: /bhrater-phratar-bruder-bruther-брат/ kimi sözləri müqayisə etməklə həm onların ifadə, həm də məna tərəfində oxşarlıqlarını aşkarlayaraq yunan, sanskrit, alman, ingilis, rus və s. dillərin genetik qohumluğunu sübut edirdilər.

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 59-64.

КОМПАРАЦИЯ – alm. Komparation (f), Steigerung (f), ing. comparison /kəm′p¾risn/, degree /dı′gri:/, fr. compraison, azərb. müqayisə. - Geniş mənada bütün ifadələri, dar mənada isə sifət və zərfləri səciyyələndirən morfoloji dərəcə əlaməti. Ənənəvi olaraq adi, müqayisə və şiddətləndirmə dərəcəsi fərqləndirilir. Məs.: alm. d. /εr ist alt// (O qocadır); /εr ist älter als ich// (O məndən qocadır); //εr ist am ältesten// (O ən qocadır). Azərbaycan dilində bəzən 3, bəzən də 5 dərəcə fərqləndirirlər. /qoca/, /qoca təhər, lap (ən çox) qoca/ misalları göstərir ki, Azərbaycan dilində də 3 dərəcə ilə kifayətlənmək olar. /qırmızı alma/, /bu alma ondan qırmızıdır/, /bu alma (çox, lap, ən, qıp) qırmızıdır//, (imtraq), (sov) və s. şəkilçiləri də müqayisəyə xidmət edir. Elə alm., rus, ing. dillərində də ədatlar şiddətləndirmə dərəcəsinə xidmət edir. Məs.: rus d. /яблоко очень красное/; alm. d. /Der Apfel ist sehr rot/; ing. d. /the apple is very (more, most) red// və s. Bəzi dillərdə dərəcənin ifadəsində suppletivizimdən istifadə edilir. Məs.: alm. d. və ing. d. /gut/good-besser/better-am besten /the best/ (yaxşı, bir az yaxşı, lap yaxşı) və s. Son zamanlar ən yüksək dərəcəni bildirmək üçün elativ dərəcəsini də qeyd edirlər. Ancaq onun da ayrıca morfoloji göstəricisi yoxdur. Müqayisə budaq cümlələri sintaktik səviyyədə müqayisənin ifadəsinə xidmət edir. Məs.: Azərb. d. /o elə oxuyur ki, elə bil bülbüldür//.

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 287.

КОМПЕТЕНЦИЯ – alm. Kompetenz (f), ing. competence /′kɔmpıt(ə)ns/, fr. compétence, azərb. sərişta, kompetensiya. - N.Xomskinin dil nəzəriyyəsində dil bilgisi və bu bilginin konkret tətbiqi kimi performansa (dildə istifadəyə) qarşı qoyulur. Bu ana dilini kortəbii mənimsəmədə qazanılan mental bilgidir ki, hər bir danışan/dinləyən homogen, yəni eyni dialekt, sosiodialekt variantlarından istifadə etməklə azad şəkildə ona yiyələnir. Bu bilgi sərişteli dildaşıyana imkan verir ki, prinsip etibarı ilə mövcud elementlərdən sonsuz söyləmlər düzəltsin, cümlələrin qrammatik cəhətdən düzgünlüyünü müəyyənləşdirsin, onların çox mənalığına və başqa cür deyilməsinə dair hökm çıxartsın. Generativ (transformasional) qrammatikanın vəzi-

downloaded from KitabYurdu.org

fəsi model olaraq elə bir qrammatika işləyib hazırlamaqdır ki, danışanın kompetensiyasından irəli gələn qabiliyyətini əks etdirsin və dilin mənimsənilməsi barədə münasib fərziyyə irəli sürsün. Kompetensiya dinamik konsepsiyadır, dilin sonsuzluğa qədər cümlədüzəltmə mexanizmini açmaq istəyir. Dilin tətbiqini isə (performansı) «parole» ilə eyniləşdirmək olar.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s.73-74.

КОМПЛЕКС - alm. Komplex (m), ing. complex /ˈk6mpleks/, fr. complexe, azərb. mürəkkəb qarışıq, kompleks. - a) iki və ya daha artıq dil vahidindən qrammatik qaydalar əsasında düzəlmiş mürəkkəb forma. Məs.: Azərb. d. /başa vurmaq/; b) iki və ya daha artıq morfemdən ibarət olan affiks, söz və s. Məs.: alm. d. /Miβverständnis/ (anlaşılmazlıq); rus d. /разглаголствовать/; Azərb. d. /dəmirçilik/ və s.
О.С.Ахманова. Göstərilən əsər, 201.

КОМПЛЕКС ЗВУКОВОЙ - alm. Lautkomplex (m), ing. sound complex /saund ˈk6mpleks/, cluster /ˈklʌstə/, fr. complexe phonétique, azərb. səs kompleksi. - Danışıq aktında ayrılmayan səs axını. Məs.: /sos/, /şşş/, /trru/ (atı saxlamaq üçün) və s.
Л.Р. Зиндер. Общая фонетика. М., 1979.

КОМПЛЕМЕНТАРНОСТЬ – alm. Komplementarität (f), ing. complemental /k6mplıˈmɛnt(ə)l/, fr. complémentarité, azərb. qarşılıqlı, uyğun gələn. - Qarşılaşmanın semantik əlaqələri. İki ifadə o zaman belə əlaqədə olur ki, onların aid olduğu sahə iki yerə bölünür. Özü də hər ikisi bir-birini inkar edir. Məs.: Azərb. d. (evli/subay). Onları müqayisə etmək olmaz. Bu əlaqəni qlossematikada interdependesiya adlandırırlar.
R.Conrad. Göstərilən əsər, s. 136.

КОМПЛЕМЕНТАЦИЯ ЧАСТИЧНАЯ - alm. Teilkomplementation (f), ing. partial complementation /ˈp7:ʃəl k6mplımənteıʃ(ə)n/, fr. complémentartion partielle, azərb. qismən komplementasiya. - Bir-birini istisna edən mövqelərdə işlənən səslər bir fonemin müxtəlif variantları ola bilər, çünki bu səslər bir-birini tamamlama distribusiyasına malikdirlər. Eyni dil vahidinin müxtəlif variantlarda realizə olunmaqla ortaya çıxan bir-birini qarşılıqlı şəkildə rədd etməsindən ibarət disturubisiya növü. Məs.: Azərb. d. «kal» və «kül» sözlərindəki [kʹ] və [kᵒ] səsləri bir-birini istisna edən mövqelərdə gəlir. Müxtəlif cür səslənirlərsə də, onların arasında akustik və artikulyator yaxınlıq var. Lakin bütün bunlara baxmayaraq onlar verilmiş sözləri fərqləndirmir, bunu saitlər yerinə yetirir. Ona görə də onlar bir fonemin müxtəlif variantlarıdır
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 60.

КОМПОЗИТА - alm. Zusammensetzung (f), Kompositum (n), ing. composite /kˈ6mpəzıt/, fr. composite, azərb. kompozit. - Kompozitləri mürəkkəb tərkiblərdən ayırmaq lazımdır. «Kompozit iki və va daha artıq müstəqil işlənən morfem və ya sözlərin birləşməsindən əmələ gəlir» və kompozitlərin yerini dəyişəndə ümumi məna pozulmur, çünki onlar eyni

downloaded from KitabYurdu.org

dərəcəlidir. Məs.: Azərb. d. /həkim-kosmonavt/, /şair-müğənni/; alm. d. /schwarrweiβ/ (qara-ağ); ing d. /author-collector/ (müəllif-kolleksiyaçı). Bunlara bəzən kopulativ (müvazi) tərkiblər də deyirlər. Mürəkkəb sözlərdə birləşdirici element olmayanları Y.Qrimm «xüsusi həqiqi» (/Waldruhe/ (meşə sükutu) /Kafe*l*tasse/ (kofe fincanı), birləşdirici element olanları isə yalançı /Tageslicht/ (gün işığı), /Sonnenschein/ (günəş şüası) tərkiblər adlandırırdı.

H.Buβmann. Göstərilən əsər, s. 400-401.

КОМПОНЕНТ - alm. Komponente (f), Bestandteil (m), ing. component /kəm′pəunənt/, fr. composant, partie constitutive, azərb. tərkib, komponent. - Mürəkkəb dil vahidini təşkil edən tərkib hissələrdən biri. Dildə istənilən tamın tərkib hissəsi. Məs.: aşağıdakı söz birləşmələri və mürəkkəb sözlər iki komponentdən ibarətdir: Azərb. d. /kitab almaq/, /kitabın cildi/, /kitaba alüdəçilik/, /maraqlı kitab/, /günəbaxan/, /qaragöz/, /dəvədabanı/ və s. /O deyirdi ki, azadlıq verilmir, o, qazanılır/.

H.Buβmann. Göstərilən əsər, s. 398.

КОМПОНЕНТНЫЙ АНАЛИЗ - alm. Komponentenanalyse (f), ing. component analysis /kəm′pounənt ′an(ə)l∧ıs/, fr. analysis des composants, azərb. komponent təhlil, əlamətə görə təhlil. - Leksik vahidlərin, eləcə də leksikonun daxili struktur təhlili. Əlbəttə, bu təhlilin əsasında fonologiyada qəbul olunmuş fərqləndirici əlamətlərə görə təhlil metodu durur. Fonologiyada olduğu kimi, komponent təhlildə də məhdud miqdarda universal əlamətlərin köməyilə dilin leksikonunu təhlil etmək olar. Xeyli miqdarda tədqiqatlar olmasına baxmayaraq bu metodun hamı tərəfindən qəbul edildiyini söyləmək çətindir. Aşağıda qohumluq əlaqələrini aşkar edən komponent təhlilə bir nümunə veririk.

Əlamətlər/ Leksemlər	qohum	valideyn	ata	ana	bacı/qardaş	qardaş	bacı	uşaq	oğul	qız	əmi	xala	əmi qızı	əmi oğlu	qardaş oğlu	
/canlı/	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	+ əlamət iştirak edir
/insan/	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	- etmir
/qohum/	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	0 – məlum deyil
/birbaşa qohum/	(-)	+	+	+	+	+	+	+	-	-	-	-	-	-	-	
/eyni nəsil/	0	-	-	-	+	+	+	-	-	-	-	-	+	+	-	
/yaşlı/	0	+	+	+	0	0	0	-	-	-	+	+	0	0	-	
/kişi/	0	0	+	-	0	+	-	0	+	-	+	-	+	+	+	
/qadın/	0	0	-	+	0	-	+	0	-	+	-	+	-	+	-	

Hər bir dil özünəməxsus şəkildə əlamətlərdən istifadə edir. Əlbət ki, komponent təhlil, transformasiyon qrammatika, izahlı semantika, generativ semantika, söz sahə nəzəriyyəsi üçün baza rolunu oynayır. Ancaq bu metodun çatışmazlıqları da yox deyildir. Məs.: heç də bütün semantik

downloaded from KitabYurdu.org

vahidləri semantik əlamətlərə bölmək olmur. Məs.: tranzitiv felləri bu cür təhlil etmək o qədər də asan deyil. Semantik əlamətlərin statusu da mübahisəlidir və s.

H.Buβmann. Göstərilən əsər, s. 398.

КОНАТИВ - alm. Konativ (m), ing. conative /kˈɒnətɪv/, fr. conatif, azərb. konativ. - Söz kökünə əlavə edilən şəkilçi vasitəsilə mənanı nisbətən şiddətləndirməyə xidmət edən söz forması. Məs.: Azərb. d. /Görməz-bilməz/, yerinə, /görməzə-bilməzə/, /guruldamaq/ yerinə, /gur-gur guruldamaq/, /nərildəmək/ yerinə /nər-nər nərildəmək/ və s.

O.C.Ахманова. Göstərilən əsər, s. 202.

КОНВЕРГЕНЦИЯ - alm. Konvergenz (f), ing. convergence /kənˈvəːʤəns/, fr. convergence, azərb. konvergensiya. – Dildə variativliyi törədən səbəblərin aradan qalxması nəticəsində müxtəlif variantların bir vahiddə birləşməsi. Dilin müxtəlif səsləri arasındakı oxşarlığın, bənzəyişin artmasına, hətta bu səslərin bir-birinə tam uyğunlaşmasına səbəb olan dəyişmələr. Mənşə ümumiliyindən asılı olmayaraq və adətən ərazi yaxınlığı və ya sıx mədəni əlaqələr nəticəsində iki və daha artıq dildə bənzər, oxşar əlamətlərin inkişafı; müxtəlif dillərdə ümumi cəhətlərin artması. Məs.: çağdaş alm. d. [eː] və [ɛː] bir fonemdə birləşərək konvergensiyaya uğrayıb. Müq. et: «Ehre» /ˀeː ʀə/ (vicdan), «Ähre» /ˀeː ʀə/ (sünbül). Bu sözlər indi omonimdir.

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003.

КОНВЕРСИЯ - alm. Konversion (f), ing. conversion /kənˈvəːʃ(ə)n/, fr. conversion, azərb. konversiya. – 1) İkiyerli predikat arasındakı qütbləşməni bildirən semantik qarşılaşmadakı münasibət. Buna ekvivalentlik əlaqəsi də demək olar. Məs.: /Əgər Zəminə Cəmildən böyükdürsə, deməli, Cəmil Zəminədən cavandır// (və əksinə). Belə ifadələr fellərdən daha çox müqayisə üçün sifətlərə aiddir. Ancaq buna bəzən fellər və isimlərdə də rast gəlmək olur. Məs.: /vermək-götürmək/, /satmaq-almaq/, /ata-oğul/ və s; 2) Söz sinfini dəyişməklə yeni sözlər düzəltmək. Bu əsas kök morfemlə olsa da, prefikslə, suffikslə və s-də ola bilər. Məs.: isimdən əmələ gələn fellər: Azərb. d. /qatıq-qatıqlamaq/; ing. d. /bicycle → to bicycle/ (velosiped – velosiped düzəltmək); feldən əmələ gələn isimlər, zərflərdən yaranan fellər. Məs.: alm. d. /kurz-kürzen/ (qısa-qısaltmaq) və s.

R. Conrad. Göstərilən əsər, s. 145.

КОНГО - alm. Kongo (n), ing. Congo /ˈkɔŋgəu/, fr. le conglais, azərb. konqo dili. – Bantu dillərindən biridir. Konqo, Zair və Anqolada yayılmışdır. Bu dildə danışanların sayı 7,5 milyondur. İki dialektə bölünür: şimal (kakonqo) və cənub (kikonqo, kişikonqo).

L.Dereau. Cours de Kikongo. Namur, 1955.

КОНЕЧНЫЙ - alm. auslautend, ing. finishing /ˈfɪnɪʃɪŋ/, final /ˈfaɪnəl/, ultimate /ˈʌltɪmɪt/, fr. final, azərb. son, axırıncı. - Sözün və ya əsasın sonuna

downloaded from KitabYurdu.org

aid olan, sözün sonu ilə bağlı olan, söz və ya söz əsasında son mövqe tutan. Məs.: Azərb. d. /çıraq/ sözündə /q/ fonemi son mövqedə yerləşir.
F. Veysəlli. SDƏ. Bakı, 2005.

КОНЕЧНЫЙ АОРИСТ - alm. terminativer Aorist (m), ing. final aorist /ˈfaınəl eıˈɔ:rist/, fr. aoriste final (résultatif), azərb. axırıncı aorist. - Müəyyən hədd (hüdud) çərçivəsində baş verən hərəkətə işarə etmək üçün işlədilən aorist (zaman forması).
Bax: Аорист ←.

КОНКАТЕНАЦИЯ - alm. Konkatenanz (f), ing. catenation /ˌk5tıˈneıʃ(ə)n/, concatenation /kɔn, kætıˈneıʃən/, fr. enchaînement, azərb. konkatenasiya. - Xətti təsəvvür olunan semantik inkişaf, yəni «semantik zəncirə yeni həlqələrin» əlavə edilməsi nəticəsində onun mənasının dəyişməsi. Məs.: Azərb. d. /uc/ (nəyinsə ucu)- /uc/ (nizənin ucu) – /uc/ (qələmin ucu).
O.C. Ахманова. Göstərilən əsər, s.203.

КОНКРЕТНОЕ ЗНАЧЕНИЕ – Bax: Значение ←.

КОННОТАТИВНЫЙ - alm. konnotativ, ing. connotative /ˌkɔnouˈtatıv/, fr. connotatif, azərb. konotativ. – 1) Əşyanın özündə onun fərqləndirici əlamətlərinin inikası. Gerçəkliyin müəyyən obyektinin əşyavi inikası ilə yanaşı ona xas olan digər əlamətlərin ifadəsi. Məs.: Azərb. d. /yaşayış/ sözü aşağıdakı mənaları verə bilər: /yaşayış minimumu/, /yaşayış tərzi/, /onun yaşayışı/ (həyatı mənasında) və s.; 2) Semantik, emosional üslubi çalarlıq ifadə edən məna. Məs.: Azərb. d. /filankəs dağ kimi oğlan idi/ və s.
R. Conrad. Göstərilən əsər, s. 141.

КОННОТАЦИЯ - alm. Konnotation (f), ing. connotation /ˌkɔnouˈteıʃ(ə)n/, fr. connotation, azərb. konnotasiya. - Sözün leksik mənasına səciyyəvi çalarlıq verən (emosional, ekspressiv, üslubi çalarlar). Sözün (ifadənin) əsas məzmununa affektiv, assosiativ/okkozional çalarların əlavə edilməsi; sözü müşaiyət edən semantik və ya üslubi çalarlar. Konnotasiya ifadəyə təntənəlik, qeyri-rəsmilik və s. gətirir. Məs.: Azərb. d. /üşümək/ əvəzinə /tir-tir əsmək/. Məntiqdə denotativlikdən fərqli olaraq dilxarici gerçəkliyə münasibət.
R. Conrad. Göstərilən əsər, s. 141.

КОНСЕКУТИВНЫЙ - alm. konsekutıv, ing. consecutive /kənˈsekjutıv/, fr. consécutif, azərb. nəticə bildirən. - Nəticə budaq cümləsi buna misal ola bilər. Məs.: Azərb. d. /o elə qızmışdı ki, gözünə heç nə görünmürdü// və s.
R. Conrad. Göstərilən əsər, s. 141.

КОНСОНАНТ - alm. Konsonant (m), ing. consonant /ˈkɔnsənənt/, fr. consonnante, azərb. konsonant. - Dildə iki seqment kateqoriyasından biri. Ciyərlərdən gələn hava axınının danışıq cihazının bu və ya digər yerində mərkəzləşmə yaratması ilə tələffüz olunan səslər. Normal olaraq samitlər nəfəsvermədə (eyektiv, məs.: gürcü dilində, Çad respublikasında kera dillə-

downloaded from KitabYurdu.org

rində və şnalts səslər: koyzan dilində istisna olmaqla) tələffüz olunurlar, bu zaman xirtdəkdəki səs telləri ya iştirak etmir və tam küy yaranır (məs.: kar samitlər), ya küylə tonun qarışığı, yəni səs tellərinin qeyri-periodik titrəməsinin nəticəsi kimi cingiltili samitlər, ya da mütəmadi titrəməsilə əmələ gələn (sonorlar) samitlər olur. Samitləri ənənəvi şəkildə 3 əlamətə görə təsnif edirlər. 1) fəal üzvə görə; 2) əmələ gəlmə üsuluna görə; 3) səs tellərinin iştirakına görə.

fəal üzvə görə / əmələ gəlmə üsuluna görə	dodaq		dilönü		dilortası		dilarxası		dilçək	udlaq
səs tellərinin iştirakına görə	kar	cingiltili	kar	cingiltili	kar	cingiltili	kar	cingiltili		
kipləşən/partlayışlı	p	b, m			k	ħ	k			
novlular	f	v	s, ʃ	z, ʒ		j	x			h
kipləşən (novlular, afrikatlar)			ʧ	dʒ				ɣ		
titrək									>	r
süzülən				ℓ						

Ənənəvi dilçilikdə samitləri danışıq cihazında maneə yaranması ilə əmələ gələn səslər kimi dəyərləndirirlər. Ancaq bu maneə /ɣ/ və /i/-də var. Bəzən samitləri heca nüvəsini yarada bilməyən səslər kimi dəyərləndirirlər. Ancaq bəzi dillərdə, (məs.: çex dilində) samit də hecanın nüvəsini yarada bilir. Məs.: /vḷk/ (canavar) və s. Ona görə də samitlərə İ.A.Boduen de Kurtene kriteriyası ilə tərif vermək düzgün olardı. Bu alimə görə samitlər danışıq cihazında mərkəzləşmə yaradan, saitlər isə bundan məhrum olan səslərdir. Terminoloji müxtəlifliyi aradan qaldırmaq üçün K.Payk (1908) samitləri kontoid, saitləri isə vokoid adlandırmağı təklif edirdi.

H.Buβmann. Göstərilən əsər, s. 411.

КОНСОНАНТНЫЙ/НЕКОНСОНАНТНЫЙ – alm. konsonantisch /nicht konsonantisch, ing. consonant /ˈkɔnsənənt/, non-consonant /ˈnɔn

downloaded from KitabYurdu.org

ˈkɔnsənənt/, fr. consonnant/nonconsonnant, azərb. samitlilik/qeyri-samitlilik. - Dil səslərinin 12 əlamətə görə dixotomik təsvirində samitləri saitlərdən fərqləndirən əlamət. Bu əlamətləri samitləri, süzülən (/l/) və sürüşkən /h,j/ səsləri bir-birindən ayırmağa xidmət edir. Saitlər saitliliyə və qeyri/samitliliyə malikdir. Samitlər samitliliyə və qeyri-saitliliyə malikdir.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 116.

КОНСОНАНТИЗМ - alm. Konsonantismus (m), ing. consonantism /kɔnsənəntızm/, fr. consonnantisme, azərb. samitlər sistemi. – Dilin samitlər yarımsistemi; bu samitlərin xüsusiyyətləri və bir-birilə qarşılıqlı əlaqələri. Məs.: Azərb. d.-nin samitlər yarımsistemi. Azərb. d. samitlər yarımsisteminə aşağıdakı samitlər daxildir.

p f t z = j k′ k x h

b v d s ʃ ħ g 7

ʧ ʤ m n l r

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 53.

КОНСОНАНТИЗМ МИНИМАЛЬНЫЙ - alm. Minimalkonsonantismus (m), ing. minimal consonantism /ˈmınıml ˌkɔnsənəntısm/, fr. consonantisme minimal, azərb. minimal konsonantizm. - Uşaq dilində minimal samitlər sisteminin ümumi əsası.

Məs.: / t /
/p/ /k/

Р.Якобсон. Детский язык, афазия и общие звуковые законы. 1993, с. 63.

КОНСТРУКТЫ - alm. Konstrukte (Pl.), ing. constructs /kənˈstr∧kts/, fr. construits, azərb. konstruktlar. - Bilavasitə müşahidə edilməyən obyektlər haqqında nəzəri ümumiləşmə və təsəvvürlər, müşahidə edilən faktları izah etmək üçün istinad edilir.
О.С.Ахманова. Göstərilən əsər, s. 204.

КОНСТАНТ – alm. konstant, ing. constant /ˈk6nst(ə)nt/, fr. constant, azərb. konstant. - Dil vahidini daima müşayiət edən əlamət. Məs.: hansı mövqedə gəlməsindən asılı olmayaraq samitlilik, kipləşmə, partlayış, karlıq /t/ samitinə məxsus olan daimi əlamətləridir.
F.Yadigar (Veysəlli). SDƏ. Bakı, 2005, s. 35.

КОНСТЕЛЛАЦИЯ – alm. Konstellation (f), ing. constellation /ˈk6nstəˈleıʃ(ə)n/, fr. constellation, azərb. konstellasiya. - İki dil vahidi arasındakı əlaqə, bu vahidlər bir-birilə bağlıdır, ancaq nə təyinlik (determinasiya), nə də qarşılıqlı asılılıq (interdependesiya) münasibətlərində olurlar. Məs.: alm. d. /wegtragen/ (götürüb aparmaq) də /weg/. Çunki bu /weg/ başqa kontekstlərdə də çıxış edir. Qlossematikada sintaqmatik konstellasiya kombinasiya, paradiqmatik konstellasiya isə avtonomiya adlanır.
H.Buβmann. Göstərilən əsər, s. 413.

downloaded from KitabYurdu.org

КОНСТИТУЕНТ – alm. Konstituente (f), ing. constituent /kən′stıtjuənt/, fr. constituant, azərb. konstituent. – Struktur cümlə təhlilində daha böyük dil vahidinin tərkibinə daxil olan ünsür (morfem, leksem, sintaqm). Bir neçə konstituyent birləşərək konstruksiya yaradır. Məs.: Azərb. d. /evlər köndələninə düzülərək göyə ucalır//. Burada /köndələninə düzülərək göyə ucalır/ bir konstruksiyadır, o da /köndələninə düzülərək/ və /göyə ucalır/ konstruksiyalarına bölünür.
R. Conrad. Göstərilən əsər, s. 143.

КОНСТИТУЕНТНЫЙ АНАЛИЗ – alm. Konstituentenanalyse (f), ing. immediate constituent analysis /ı′mi:djət/kən′stıtjuənt ə′n¾ləsıs/, fr. analyse constituante, azərb. tərkib hissələrinə görə təhlil. - Cümlə təhlilinin amerikan strukturalizm variantı. Məqsəd ifadənin ierarxik bağlılığını göstərən üzvlənməsindən ibarətdir. Bu seqmentasiya adlanır, özü də yerdəyişmə və əlavəetmə metodu ilə həyata keçirilir. İfadədə yeri dəyişilə bilən konstituyent adlanır. Məs.: azərb. d. /bizim laborant məruzəyə hazırlaşır// cümləsində /bizim laborant/ /o/ ilə, /məruzəyə hazırlaşır// isə /işləyir/-lə əvəz edilə bilər. Ağac şəklində bunu belə ifadə etmək olar.



Üzvlənmədən alınan elementləri tərkib hissələr (ing. immediate constituent) adlandırırlar (İC-Analysis). Ondan kiçik hissələrə bölünən konstiuyentlər, parçalanma qovuşuğunu isə konstitutlar adlandırırlar. Bu cür təsvir sonralar transformasiyon qrammatikada da tətbiq edilməyə başladı.
H.Buβmann. Göstərilən əsər, s. 413.

КОНСТРУКТИВНЫЙ – alm. konstruktiv, ing. constructive /kən′str∧ktıv/, fr. constructif, azərb. konstruktiv, quraşdırıcı. – Dil vahidinin ayrılmaz struktur əlaməti. Məs.: rus d. /a/ şəkilçisi qadın cinsli isimlərin vacib əlamətləridir.
P.H.Matthews. Göstərilən əsər, s. 71.

КОНСТРУКЦИЯ (ОБОРОТ) - alm. Konstruktion (f), Wortfügung (f), ing. construction /kən′str∧ktʃən/, fr. construction, azərb. konsturuksiya (tərkib). - Müəyyən qrammatik əlaqələrinə əsasən dil vahidlərinin bir-birilə birləşməsi, birləşmə nəticəsində meydana çıxan sintatik tam, bütöv (söz birləşməsi, tərkib).
R. Conrad. Göstərilən əsər, s. 143.

downloaded from KitabYurdu.org

КОНСТРУКЦИЯ АБСОЛЮТНАЯ - alm. absolute Konstruktion (f), ing. absolute construction /ˈ5bsəluːt kənˈstrʌktʃən/, fr. construction absolue, azərb. mütləq konstruksiya. – Cümlənin başqa hissəsilə leksik vasitə ilə yanaşı əlaqədə olan təpkib. Məs.: Azərb. d. /Çörəyi ver çörəkçiyə/birini də üstəlik/; alm. d. /Angekommen in der Stadt, hat er mich angerufen// (Şəhərə çatan kimi, o mənə zəng etdi).
O.C.Ахманова. Göstərilən əsər, s. 205.
КОНСТРУКЦИЯ АТРИБУТИВНАЯ - alm. attributive Konstruktion (f), ing. attrubutive construction /ˈ5trıbjuːtıv kənˈstrʌktʃ(ə)n/, fr. construction attributive, azərb. təyini konstruksiya. - Təyin və təyin olunandan ibarət birləşmə. Məs.: Azərb. d. /təyini söz birləşmələri/, /dərs cədvəli/, /dünya xəritəsi/; alm. d. /armer Klaus/ (kasıb Klaus).
Y.Seyidov. Azərbaycan dilində söz birləşmələri. Bakı, 1969; R.Conrad. Göstərilən əsər, s. 144.
КОНТАКТ - alm. Kontakt (m), Verbindung (f), ing. contact /kˈ6nt5kt/, fr. contact, azərb. kontakt, əlaqə. - Dil vahidlərinin yanaşı, bir-birini ardınca gəlməsilə müəyyən sintaktik əlaqənin ifadə olunması. Məs.: Azərb. d. birinci növ təyin söz birləşməsi: /dəmir qaşıq/, /taxta çarpayı/ və s. Onların komponentləri arasına başqa vahidlər əlavə edilə bilmir. Müq. et: alm. d. /in dem Haus/ (evdə), /in dem groβen Haus/ (böyük evdə) və s.
Y.Seyidov. Yenə orada; R.Conrad. Göstərilən əsər.
КОНТАКТ СВОБОДНЫЙ - alm. lose Verbindung (f), ing. loose contact /luːs ˈkɔnt5kt/, fr. contact libre, azərb. sərbəst əlaqə. - Yanaşı gələn dil vahidlərinin sərbəst şəkildə əlaqəyə girməsi. Məs.: Azərb. d. /şair-bəstəkar/, /memar-müğənni/; alm. d. /Klaus und Peter// (Klaus və Peter) və s.
R. Conrad. Göstərilən əsər, s. 144.
КОНТАКТ ТЕСНЫЙ - alm. enge Verbindung (f), ing. close contact /kləʊs ˈkɔnt5kt/, fr. contact êtroit, azərb. sıx əlaqə. – Dil vahidlərinin elə sıx əlaqəsidir ki, onları bir-birindən ayıranda ilkin məna itir. Məs.: Azərb. d. /motal pendiri/. Bu ifadədə /pendir motal/ demək olmaz, ancaq /üzlü/üzsüz, təzə/köhnə pendir və s. demək mümkündür.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 270-271.
КОНТАМИНАЦИЯ - alm. Kontamination (f), ing. contamination /kənˌt5mıˈneıʃ(ə)n/, fr. contamination, azərb. birləşmə, kontaminasiya, amalqam. - İki sözun və ya ifadənin birləşməsinin 3 növünü fərqləndirirlər: 1) Haploloji birləşmə. Birinci və ya ikinci sözün bir hissəsi düşür. Məs.: alm. d. /zu+dem/ → /zum/, /auf+das/ → /aufs/, Azərb. d. /gələ bilmədim/ → /gələmmədim/; 2) Tərkibə daxil olan sözlərdən birində səs və ya heca düşür. Məs.: alm. d. /Kur+urlaub/ → /Urlaub/; 3) Əsas sözün səslənən leksemlə əvəz olunması ilə yaranan. Məs.: alm. d. /Millionnarr/ (milyonçu dəli) və s.
H.Buβmann. Göstərilən əsər, s. 416.
КОНТЕКСТ - alm. Kontext (m), ing. context /ˈkɔntekst/, fr. contexte,

downloaded from KitabYurdu.org

azərb. kontekst. - Dil vahidinin linqivistik əhatəsi, işlənmə şəraiti və xüsusiyyətləri. Hər bir leksemin tam şəkildə anlaşılmasını təmin edən əhatə, danışan və dinləyənin qarşılıqlı anlaşılmasına xidmət edən mətn və s. Dilçilikdə linqvistik və ekstralinqvistik (fiziki) kontekst fərqləndirilir.
The Study of language. Cambridge University Press. Jule 6. 1996.

КОНТЕКСТ БЫТОВОЙ - alm. Lebenskontext (m), ing. extra linguistic context /ˈekstrə lɪŋgwɪstik ˈk6ntekst/, context of situation /ˈkɔntekst əv sɪtjuˈeɪʃ(ə)n/, fr. contexte usuels, azərb. adi məişət konteksti. – Danışıq aktında sözlərin və struktur modellərin seçilməsinə təsir göstərən ünsiyyət şəraiti: danışıqda aydın olduğundan bir çox sözlərin işlənməsinə imkan yaradan şərait. Bu kontekst növü fon bilikləri ilə bilavasitə bağlıdır. Məs.: ing. d. /Let's go to the bank// (Gedək banka) söyləmin açılışı kontekstual olaraq şərtləndirilir.
Bax: Контекст ←.

КОНТЕКСТ МЕТАФОРИЧЕСКИЙ - alm. metaphorischer Kontext (m), ing. metaphoric context /ˌmetəˈf6rɪk ˈk6ntekst/, fr. contex métaphorique, azərb. metoforik kontekst. - Ardıcıl şəkildə genişləndirilən, inkişaf etdirilən məcazlar toplusudur ki, bədii dildə «semantik ikiplanlığa» əsaslanır. Məs.: Azərb. d. /Lotular bir də gördün millətin sərvətini qoyublar qumara//. Burada sözlər metoforik mənada işlənmişdir.
P.H. Matthews. Göstərilən əsər, s. 72.

КОНТЕКСТУАЛИЗАЦИЯ – alm. Kontextualisation (f), ing. contextualiation /kənˈtɛkstjʊəlɪzeɪʃ(ə)n/, fr. contextualisation, azərb. kontekstləşmə. - Etnoqrafik dilçilikdə hər hansı bir dil hadisəsini öyrənmək üçün tədqiqata cəlb edilmiş dil daşıyıcılarından sual-cavab əsasında müəyyən informasiyanın alınması metodu.
P.Auer. Kontextualisierung. «Studia in Linguistics» 19, 1986, s. 22-47.

КОНТЕКСТУАЛИЗМ – alm. Kontextualismus (m), ing. contextualizm /kənˈtekstjʊəlɪzm/, fr. contextualisme, azərb. kontekstualizm. - İngilis dilçilik məktəbində geniş tətbiq olunur: a) tədqiqatın predmeti ilkin olaraq dil sistemi deyil, əhatəli sosial prosesin bir hissəsi kimi dil götürülür; b) bu sosial proses həm kontekstdə, həm də danışıq məqamında baş verir; c) məna kontekst və situasiyada kompleks əlaqə kimi başa düşülür. Bu cür yanaşma J.R.Firs (1890-1960) məktəbinə xasdır və o dilöyrənməyə güclü təkan verib.
J.R.Firth. Papers in Linguistics. 1934-1959. London, 1957.

КОНТЕКСТУАЛЬНЫЙ – alm. kontextuell, kontextabhängig, ing. contextual /kənˈtekstjʊəl/, fr. contextuel, azərb. kontekstlə bağlı. - Kontekst ilə bağlı və ya əlaqədar olan, konteksdən asılı olan sözün konsektual mənası. Məs.: Azərb. d. /sinəmə dağ çəkdin//, /sənə dağ deyirəm, daima başı qarlı// və s.

downloaded from KitabYurdu.org

M.İ. Adilov və b. Göstərilən əsər, s. 142.

КОНТЕКСТУАЛЬНОЕ НЕПОЛНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. kontextueller unvöllständiger Satz (m), ing. contextual incomplete sentence /kən′tekstjʊəl ınkəm′pli:t ′sentəns/, fr. proposition contextuelle imparfaite, azərb. kontekstual yarımçıq cümlə. - Üzvləri situasiya ilə əlaqədar «bərpa oluna bilən» yarımçıq cümlə. Məs.: Azərb. d /Mənim ümüdimi kəsdilər, ruhdan saldılar//, /Bizdə qan deyən qan, can deyən can eşidər//.

O.C.Ахманова. Göstərilən əsər, s. 207.

КОНТИНУАТИВ - alm. Kontinuativ (m), ing. continuative /kən¸tınjuətıv/, continuous /kən′tınjuəs/, expanded /ıks′p5ndıd/, fr. continuatif, azərb. kontinuativ. – Hərəkətin, prosesin davamlılığını əks etdirməkdən ibarət olan tərz-zaman kateqoriyası. Linqvistik mənbələrdə durativin sinonimi kimi də işlədilir. Məs.: ing. d. /I was speaking/ (Mən danışırdım).

H.Buβmann. Göstərilən əsər, s. 419.

КОНТРАКЦИЯ – alm. Kontraktion (f), ing. contraction /kən′tr¾kʃ(ə)n/, fr. contraction, azərb. qovuşma. – alman dilində saitlə ayrılan iki samitin qovuşması nəticəsində yaranan uzun sait. Məs.: /ligit/ > o.a.d. «liegt» /lîkt/ (uzanır); ing. d. /do not/ əvəzinə /dont/; fr. d. /au/ /à le/ əvəzinə.

H.Buβmann. Göstərilən əsər, s. 419.

КОНТРАСТ - Kontrast (m), ing. contrast /k′6ntr5st/, fr. contraste, azərb. ziddiyyət, təzad, kontrast. – 1) Sintaqmatik cəhətdən ayrı-ayrı vahidlərin fərqləndirilməsidirsə, qarşıdurma (oppozisiya) dil vahidlərinin paradiqmatik qarşılaşmasıdır. Məs.: Azərb. d. /göl/ sözündə /g/, /ø/, /l/ kontrast yaradırlarsa, /göl/ və /böl/ sözlərində /g/ və /b/ oppozisiyadadırlar; 2) Kontrast yaratmaq üçün vurğu ilə nəzərə çarpdırma. Məs.: Azərb. d. /Mən dedim/ (sən yox).

J.Lyons. Einführung in die moderne Linguistik. München, 1995.

КОНТРАСТИВНАЯ ЛИНГВИСТИКА – alm. kontrastive Linguistik (f), ing. contrastıve linguistics /kən′tra:stıv lıŋ′gwıstıks/, fr. linguistique contrastive, azərb. kontrastiv dilçilik. - Xarici dillərin öyrənilməsinə yönəlikli sahə kimi əlaqəyə girən dillərin-ana dililə öyrənilən dilin fərqli cəhətlərini tədqiq edərək sistemləşdirmək və bu yolla dilöyrnmədə meydana gələ bilən səhvləri öncə görmə və onları aradan qaldırma yollarını tədqiq edir. Bəzən bu sahəni konfrontativ dilçilik kimi də səciyyələndirirlər. Lakin konfrontativ dilçilik həm oxşarlıqları, həm də fərqləri öyrəndiyindən, o daha çox tipoloji səciyyə daşıyır. Əlbət ki, kontrastiv dilçilik birincinin nailiyyətlərindən gen-bol istifadə edə bilir. Kotrastiv dilçilik ana dilinin öyrənilən dilə və ya əksinə təsirini interferensiya adı altında birləşdirir.

AD → XD

XD → AD

downloaded from KitabYurdu.org

Bundan savayı, dildaxili interferensiyanı fərqləndirmək lazım gəlir.
С.А.Адышова. Экспериментально-фонетический анализ интерференции (на материале немецко-азербайджанского билингвизма). Автореф. канд. дисс., Баку, 2003.

КОНФИГУРАЦИЯ - alm. Konfiguration (f), ing. configuration /kənˌfɪɡjuˈreɪʃ(ə)n/, fr. configuration, azərb. konfiqurasiya. - Sintaqmatik cəhətdən düzülmüş, nizamlanmış cərgə, sintaqmatik quruluş ülgüsü (modeli). Söz və söz birləşmələrinin ardıcıllığı. Semantik əlamətlər arasında əlaqə. Məs.: Azərb. d. /qız/ sözündə [qadın] və [sonrakı nəsil] bir-birini tamamlayan əlamətlərdir, /stul/ sözündə isə /mebel/, /oturmaq üçün/ eyni zamanda mümkündür.
H.Buβmann. Göstərilən əsər, s. 404.

КОНФРОНТАТИВНАЯ ЛИНГВИСТИКА – alm. konfrontative Linguistik (f), ing. confrontativ linguistics /kənˈfrʌntətɪv lɪŋˈɡwɪstɪks/, fr. linguistique confrontative, azərb. konfrontativ dilçilik. – Qarşılaşdırılan dillərin oxşar və fərqli cəhətlərini tədqiq edir, tipoloji dilçilik üçün struktur prinsipləri işləyib hazırlayır. Konfrontativ dilçilik hər iki və ya bir necə dili eyni nəzəri bazada öyrənməyi üstün tutur.
C.Nikel. Reader zur kontrastiven Linguistik. Frankfurt, 1972.

КООРДИНАЦИЯ - alm. Koordination (f), ing. coordination /kouˌɔːdɪˈneɪʃ(ə)n/, fr. coordination, azərb. koordinasiya, parataksis əlaqəsi. - Cümlədə tabesizlik əlaqəsi, bərabərhüquqlu. Cümlə daxilində tabesizlik əlaqəsi bağlayıcısız (asindetik). Məs.: Azərb. d. /Mən yatırdım, o oxuyurdu// və ya bağlayıcılı (sindetik) olur. Müq. et: Azərb. d. /yağış yağdı, toz yatdı və göyün üzü açıldı//.
H.Bayramov. Müasir Azərbaycan dilində tabesiz mürəkkəb cümlələr. Bakı, 1964.

КОПЕНГАГЕНСКИЙ СТРУКТУРАЛИЗМ - alm. Kopenhagener Strukturalismus (m), Copenhagen Strukturalismus (m), ing. Copenhagen structuralism /ˌkoupnˈheɪɡ(ə)n ˈstrʌktʃərəlɪzm/, fr. structuralisme de Copenhague, azərb. Kopenhagen strukturalizmi. - Avropa struktur dilçilik ənənələrini inkişaf etdirən ikinci böyük məktəb Kopenhagen məktəbidir. Bu məktəbin ən böyük nəzəriyyəçisi L.Yelmslev idi.
L.Yelmslev «Prolegomena to a Theory of Language», (1953) adlı nəzəri əsərində dilin ifadə tərəfilə bərabər məna tərəfinə də ciddi fikir verir. O, hər iki aspektin forma və substansiyasını qabarıq şəkildə göstərməyə çalışır. Dildəki vahidlərin həm məna, həm də ifadə səviyyəsində maddi varlığı onların formalarına qarşı qoyur, hər iki səviyyənin formasını dilçiliyə daxil edir, maddi varlıqları isə dilçilikdən kənara çıxarır (bax: şəkil).

downloaded from KitabYurdu.org



İstər ifadənin, istərsə də məzmunun varlığı bütün dillər üçün eynidir. Məzmunun maddi varlığı isə ətraf aləmdəki şeylərin əksidir, bunun əksinə olaraq ifadənin maddi varlığı fonetik səciyyə daşıyır. Məzmunun və ifadələrin formaları bir-birilə sıx əlaqədardır və komutasiya qanunları ilə idarə olunur. İfadədəki formanın dəyişməsi məzmunun formasının dəyişməsinə gətirib çıxarır və ya əksinə. L.Yelmslev adı çəkilən əsərində yazır ki, qlossematika ← konvensial dilçiikdən fərqli olaraq elə elm sahəsidir ki, o, ifadə haqqındakı elmi fonetika adlandırmır. Eyni zamanda məna haqqında elmi semiotika adlandırmır. Mənanın forması ilə substansiyası arasındakı əlaqəni o desiqnasiya, substansiyanın özünü isə desiqnatum (şeylər, fikirlər) adlandırır. Forma dildaxili, substansiya isə dilxarici aspekti bildirir. Öz baxışını başqalarından fərqləndirmək üçün L.Yelmslev dilə belə tərif verir: O «qeyri-linqvistik … fenomenlərin konqlemeratı olmayıb, müstəqil bütöv, sui generis strukturdur».

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 27-28.

Kopenhagen strukturalistlərinin konsepsiyası üçün iki əsas cəhət səciyyəvidir, onlar dilçilikdə diaxronik aspekti qəbul etmir və bütün dillər üçün ümumi dilçilik nəzəriyyəsi yaratmaq üçün konkret dil materialını nəzərə almırlar.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 234-238.

КОПТИЙСКИЙ ЯЗЫК - alm. Koptisch (n), ing. Coptic language /k6:ptık ˈlɔŋgwıʤ/, fr. langue copte, azərb. kopti dili. – Misir dilinin inkişafının axırıncı mərhələsi. Misir xristianlarının (4,4 milyon) dili. 5 əsas dialektə bölünür: said, axim, subaxim, fayüm və boxar.

А.И.Еланская. Коптийский язык. М., 1964.

downloaded from KitabYurdu.org

КОПУЛЯТИВНЫЙ - alm. kopulativ, ing. copulative /ˈk6pjulətıv/, fr. copulatif, azərb. kopulyativ. - Müstəqil sintaktik münasibətlər əsasında əmələ gələn birləşmə; sintaktik cəhətdən bərabər hüquqlu komponentlərdən ibarət olan. Məs.: Azərb. d. /dərələr, təpələr, kəndlər, şəhərlər/, /müəllim-aktyor/ və s.
R.Conrad. Göstərilən əsər, s. 146.

КОПУЛЯТИВНЫЙ ГЛАГОЛ – alm. kopulatives Verb (n), ing. copulative verb /ˈk6pjulətıv və:b/, auxilary verb /6:gˈzılјərı v8:b/, fr. verbe copulatif, azərb. kopulyativ fel. - Əsas fellərdən fərqli olaraq, öz nisbi mənası ilə seçilən fellər. Alm. d. /sein/ (olmaq), /werden/ (olmaq), /bleiben/ (qalmaq), /scheinen/ (görünmək), /heiβen/ (adlanmaq) felləri kopulativ fellər adlanır. Onlar mübtəda ilə xəbər arasında əlaqə yaradırlar. Məs.: alm. d. /Er ist Lehrer/ (o müəllimdir); ing. d. /He is a teacher//.(O müəllimdir).
R.Conrad. Göstərilən əsər, s. 146.

КОРДОФАНСКИЕ ЯЗЫКИ - alm. kordofanische Sprachen (Pl.), ing. Kardofan languages /ka:ˈd6f5n ˈl¾ŋgwıʤız/, fr. langues cordophanes, azərb. kordofan dilləri. - Kordofan dilləri Nuba dağlıq ərazisində və Sudanda 30 dili əhatə edir. Nigeriya-Konqo dillərində olduğu kimi bu dillərdə də nominal klass sistemi əsasdır.
A.N.Tusker, M.Bryan. The Nou-Bantu languages of North-Eastern Africa, Hal., pr. 3, L., 1956.

КОРЕЙСКИЙ ЯЗЫК – alm. Koreanisch (n), ing. Korean language /kəˈrıən ˈl5ŋgwıʤ/, fr. le coréen, langue coréenne, azərb. koreya dili. - 60 milyon adamın danışdığı dil. Koreya yarımadasında yerləşən Koreya Xalq Demokratik Respublikasının və Cənubi Koreya dövlətinin rəsmi dövlət dillidir. Bəzi mənbələrdə Altay dillərilə, digər mənbələrdə isə tunqus-mancuriya dilləri ilə genetik qohumluğu fərz edilir. Koreya dili tərkibcə altı dialektə bölünür: şimal-şərqi, şimal-qərbi, mərkəzi, cənub-şərqi, şərq-qərbi və, nəhayət, Çedcudo adasında işlənən dialekt. Tarixən yazısı 1446-ildən bu yana məlumdur. Çin yazı sisteminə əsaslanan Han qul-yazısıdır. Koreya dilinin fonoloji sistemi 40 fonemdən ibarətdir. Bunlardan 19-u samit, 21-i isə sait fonemlərdir. Koreya dili nominativ quruluşlu aqqlütinativ dillərdən hesab olunur. Cümlə daxilində söz sırası MTX.
А.А.Холодович. Очерки грамматики корейского языка. М., 1954; Ю.Н. Мазур. Корейский язык. М., 1960.

КОРЕЙСКОЕ ПИСЬМО - alm. koreanische Schrift (f), ing. Korean script (writing) /kəˈrıən skrıpt /ˈraıtıŋ/, fr. écriture coréenne, azərb. koreya yazısı. – Koreya dilində mətnlərin yazılışında istifadə olunan fonetik hərfi-hecalı yazı. Koreyada bir neçə yazı sistemindən istifadə olunmuşdur. 1944-cü ildə hökmdar Böyük Seconun təşəbbüsü ilə hazırlanmış və 1446-cı ildən dövlət əlifbası kimi (çon əlifbası adlandırılmışdır) təsdiqlənmişdir. Müasir Koreya əlifbası 40 qrafemdən ibarətdir.

downloaded from KitabYurdu.org

KOREYA ƏLİFBASI

Əvvəldə (samitlər)					Ortada (saitlər)					
	I	II	III	IV	Əsas hərflər		Hərfi birləşmələr			
1	ㄱ' к	[ㄲ] кк	ㅋ кх	*ㅇ ҥ	(1)	•(ъ) ă	(4)	⊣• ọa		⁞⁞ йай
						— ы		[*⁞⁞] йойа		[*⁞⁞] йүй
2	ㄷ т	[ㄸ] тт	ㅌ тх	ㄴ' н		ǀ и		⊣ yŏ		⁞ǀǀ йŏй
3	ㅂ п	[ㅃ] пп	ㅍ пх	ㅁ' м	(2)	⊥ о		[*⁞⁞] йуйŏ	(6)	⊣⊢ оай
						ǀ• а	(5)	*•ǀ ăй		⊣ǀǀ yŏй
4	ㅈ ч	[ㅈㅈ] чч	ㅊ чх			⊥ у		⊣ ый		[*⁞⁞⁞] йойай
5	ㅅ' с	[ㅆ] сс				•ǀ ŏ		⊥ ой		[*⁞⁞⁞] йуйŏй
					(3)	⁞⁞ йо		ǀ•ǀ ай		
6	*ㅇ ?	[*ㅇㅇ] хх	ㅎ х	ㅇ' ,		⁞ йа		⊣ уй		
						⁞⁞ йу		•ǀǀ ŏй		
7	*ㅿ ж			ㄹ л		⁞ǀ йŏ		[*⁞⁞] йой		

Son samitlər							
		daxili tonda	ㄱ	ㄷ	ㅂ	ㅅ	ㅇ
		qalan hallarda	ㅇ	ㄴ	ㅁ	ㄹ	ㅿ
Çin dilönü samitləri üçün hərflər	dilönü		ㅈ	ㅊ	ㅈㅈ	ㅅ	ㅆ
	təmiz dilönü samitləri		ㅈ	ㅊ	ㅈㅈ	ㅅ	ㅆ

Tonlar	Adı	Düz	Qalxan	Enən	Daxil olan
	İşarəsi	nöqtəsiz	: (iki nöqtə)	. (bir nöqtə)	. (bir nöqtə)

КОРЕННОЙ - Bax: Корневой →.

КОРЕНЬ СЛОВА - alm. Wurzel (f), Stamm (m), ing. root word /ru:t w8:d/, fr. racine, azərb. sözün kökü. – 1) Şəkilçilərin qoşulduğu morfem. Məs.: Azərb. d. /ək+in+çi/ və s; 2) Sözün leksik mənasının daşıyıcısı. Sözün məna nüvəsini və struktur bütövlüyünü təşkil edən. Məs.: Azərb. d. /dəmirçi/ sözünün leksik mənası «dəmir»-dəndir.

H.Buβmann. Göstərilən əsər, s. 731.

КОРЕНЬ ДВУСЛОЖНЫЙ - alm. zweisilbige Wurzel (f), ing. disyllabic root /'dısı 'l5bık ru:t/, fr. racine disyllabique, azərb. ikihecalı kök. – Məs.: Azərb. d. /və+tən/, /i+pək/ və s.

Bax: Корень слова ←.

КОРЕНЬ ТРЕХСОГЛАСНЫЙ - alm. dreikonsonantische Wurzel (f), ing. root triliteral /ru:t trı:li:t5rıl/, fr. racine trilitére, azərb. üçsamitli kök. - Sami dillərində mövcud olan əsas söz kökləri. Məs.: ərəb dilindəki /k/, /t/, /b/ samitlərindən ibarət kök: /ktb/ → /kitab/, /katib/, və s.

КОРЕФЕРЕНЦИЯ – Bax: Референция →.

downloaded from KitabYurdu.org

КОРНЕВОЙ - alm. Wurzel-, Stamm-, ing. radical /ˈr5dıkəl/, root / ru:t/, fr. radical, azərb. kökə aid olan, köklə bağlı olan.
Bax: Корень слова ←.
КОРНЕВЫЕ ЯЗЫКИ - alm. Wurzelsprachen (Pl.), ing. isolating languages /ˈαısəleıtıŋ ˈl¾ŋgwıʤız/, radical languages /ˈrædıkəl ˈl¾ŋgwıʤız/, fr. langues isolantes, azərb. kök dillər. - Sözdəyişdirici şəkilçilərə malik olmayan, qrammatik mənaları yanaşma əlaqəsi və ya köməkçi sözlər vastəsilə ifadə olunan dillər.
Bax: Изолированные языки ←.
КОРНСКИЙ ЯЗЫК – alm. Kornisch (n), ing. Corn language /ˈkɔ:rn ˈl¾ŋgwıʤ/, fr. langue korne, azərb. korn dili. – Kornuoll (Böyük Britaniya) yarımadasında yerli əhalisinin işlətdiyi kelt dillərindən biri. Hazırda ölü dildir.
P.V.Ellis. The Cornish language And its literature. L., 1974.
КОРОНАЛЬНЫЙ - alm. koronal, ing. coronal /ˈkɔrənl/, fr. coronale, azərb. koronal (yastı novlu). - Tələffüz zamanı dilin kürəyinin ön hissəsi sərt damağa doğru qalxır, ağız boşluğunda iki məxrəc yaranır, qabaqda və arxada; dodaqlar azacıq yana doğru dartılıraq qövs forması alır, dilin gövdəsi isə ağız boşluğunda sərilmiş vəziyyətdə olur. Belə samitlərə ikifokuslu samitlər deyilir. Məs.: Azərb. d. /ʃ/.
Л.Р.Зиндер. Göstərilən əsər, s.147.
КОРПУС – alm. Korpus (m), ing. corpus /ˈk6:pəs/, fr. corps, azərb. korpus. - Bəzən dil tədqiqatlarında empirik əsas kimi istifadə olunan konkret söyləmlərin sonu məlum çoxluğu. Onların yeri və miqdarı tədqiqatın nəzəri konsepsiyasından, metodik istiqamətdən asılıdır. Məs.: strukturalizm və transformasiyon qrammatikada empirik materialın qiymətləndirilməsi müxtəlifdir.
H.Buβmann. Göstərilən əsər, s. 155.
КОРРЕЛЯТИВНЫЙ - alm. korrelativ, ing. correlative /kɔˈrelətıv /, fr. correlatif, corrilatif, azərb. korrelyativ. - Latın dilində «correlation» (qarşılıq) deməkdir. Başqası, digəri ilə qarşılıqlı şəkildə əlaqəli olan, qarşılıqlı şəkildə bir-birini şərtləndirən.
Bax: Корреляция →.
КОРРЕЛЯЦИОННАЯ ИЕРАРХИЯ - alm. Korrelationshierarchie (f), ing. correlational hierarchy /ˌkɔrıˈleıʃənəl ˈhaıəra:kı/, fr. hierarchie corrélative, azərb. korrelyasiya ierarxiyası. - Dilin fonoloji sistemində elementlərin qarşılıqlı asılılığı. Fonem cütləri və sıraları arasında eyni fərqləndirici əlamətə görə əlaqələr. Məs.: Azərb. d. /p/, /t/, /k/ samitləri cingiltilk /karlıq əlamətinə görə /b/, /d/, /g/ fonemlərindən fərqlənirlər.
Bax: Иерархия ←.

downloaded from KitabYurdu.org

КОРРЕЛЯЦИЯ - alm. Korrelation (f), ing. correlation /ˌkɔrɪˈleɪʃ(ə)n/, fr. corrélation, azərb. cütlük, korrelasiya. - Korrelasiya dedikdə eyni fərqləndirici əlamətlə səciyyələnən fonem cütləri və ya fonem sıraları başa düşülür. Qarşılığı olan fonem o fonemdir ki, o korrellasiya cütü yaratsın, tayı olmayan fonem isə əksinə olaraq heç bir korrelasiya cütündə iştirak etmir, odur ki, o qarşılığı olmayan fonem adlandırılır. Korrelasiya əlamətindən asılı olaraq onun müxtəlif növlərini göstərmək olar. Məs.: səs tellərinin iştirakına görə korrelasiya. Məs.: fr. d. /d-t, b-p, q-k, z-s/.
N.S.Trubeskoy. Fonologiyanın əsasları. Almancadan tərcüməsi, «Son söz» və «Qeydlər» prof. F.Veysəllinindir, s.107.

КОРРЕЛЯЦИЯ ФОНОЛОГИЧЕСКАЯ - alm. phonologische Korrelation (f), ing. phonological (phonomic) correlation /ˌfəunəˈlɔʤɪkəl /fəuˈniːmɪk/ˌkɔrɪˈleɪʃ(ə)n/, fr. corrélation phonologique, azərb. Fonoloji korrelyasiya. - Bir-birilə bir əlamət əsasında qarşılaşdırılan və bütün qalan əlamətləri ümumi fərqləndirici əlamət olması ilə səciyyələndirilən iki /a, o, u, ı/ # /ə-e-i-γ,ϕ/ fonem sırası. Saitlərin qalınlıq-incəlik korrelasiyası: Məs.: Azərb. d. /kəl-kal/. Samitlərin cingiltilik-karlıq korrelasiyası: Müq. et: [d-t, b-p, v-f, z-s] və s.
N.S.Trubeskoy. Fonologiyanın əsasları. Almancadan tərcüməsi, «Son söz» və «Qeydlər» prof. F.Veysəllinindir, s. 107.

КОРРЕЛЯЦИИ ЗНАК - alm. Korrelationsmerkmal (n), ing. correlation of mark /ˌk6rɪˈleɪʃən əv maːk/, fr. marque de corrélation, azərb. korrelasiya işarəsi. – Olub-olmaması müəyyən korrelativ cütlüyü səciyyələndirən korrelasiya işarəsi.
H.Buβmann. Göstərilən əsər, s. 427.

КОРРЕСПОНДЕНТЫ - alm. Korrespondenten (Pl.), ing. correspondents /ˌk6rɪsˈp6ndənts/, fr. correspondants, azərb. korrespondentlər. - Müqaysəli-tarixi dilçilikdə tutuşdurmaya üyğun gələn qohum dillərdəki səslər. İ.A. Boduen de Kurtene müxtəlif dillərdəki homogen səsləri və səs birləşmələrini korespondentlər adlandırırdı.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 184.

КОРЯКСКИЙ ЯЗЫК – alm. Korjakisch (n), ing. Koryak language /k6riɑːk ˈl¾ŋgwɪʤ/, fr. langue koriaque, azərb. koryak dili. Çukotka-kamçatka dillərindən biridir (çukot-koryak qolu). Rusiya Federasiyasının Koryak vilayətində yayılmışdır. Daşıyıcılarının sayı 5,4 minə qədərdir. 5 dialektə bölünür: çavçuven, apukin, kamen, paren və itkan.
А.Н.Жукова. Грамматика корякского языка. Л., 1972.

КОСВЕННАЯ РЕЧЬ - alm. indirekte Rede (f), ing. indirect speech /ˌɪndɪˈrekt spiːʧ/, fr. discours indirect, azərb. vasitəli nitq. - Başqasına məxsus olub, danışıq aktında qismən dəyişdirilmiş şəkildə verilən parça. /K.Marks «dilin praktik real şüur» olduğunu söyləmişdir//.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 39.

downloaded from KitabYurdu.org

КОСВЕННОЕ ДОПОЛНЕНИЕ - alm. indirektes Objekt (n), ing. object of reference /ˈɔbʤɪkt əv refrəns/, indirect object /ɪndɪˈrekt ˈɔbʤɪkt/, fr. complément d'objet indirect, azərb. vasitəli tamamlıq. - Məs.: Azərb. d. /Biz vətən uğrunda mübarizə aparırıq//.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 39-41.

КОСВЕННЫЙ ВОПРОС - alm. indirekte Frage (f), ing. indirect question /ˌɪndɪˈrekt ˈkwestʃ(ə)n/, fr. question indirecte, azərb. vasitəli sual. - Vasitəli nitqdə verilmiş sual.

Məs.: Azərb. d. ¿Sabah iclasda iştirak edəcəksən?
- Bəs necə?

Bax: Вопрос ←.

КОСВЕННЫЙ ПАДЕЖ - alm. abhängiger, obliquer Kasus (m), ing. obligue case /əˈblɪ:k keɪs/, fr. cas oblique, azərb. vasitəli hal. - Adlıq haldan başqa yerdə qalan hallar.
M.İ. Adilov və b. Göstərilən əsər, s. 34-41.

КОТЕКСТ – alm. Kotext (m), ing. cotext /k6:tekst/, fr. contexte, azərb. kontekst. - Dil vahidinin işləndiyi mətn. Təbii danışıq prosesində yaranan mətn.
H.Buβmann. Göstərilən əsər, s. 427.

КОТОКО ЯЗЫКИ – alm. Kotoko-Sprachen (Pl.), ing. Cotoko languages /k6:t6k6 ˈl¾ŋgwɪʤɪz/, fr. langues kotokos, azərb. kotoko dilləri. – Çad dilləri yarımqrupu. Çad gölünün cənubunda, Loqon və Şari çaylarının arasında, həmçinin Kamerun və Çad Respublikasının ərazisində Çad gölündəki adalarda yayılmışdır. Bu dillərdə danışınların ümumi sayı 200 min nəfərdir. Loqone, makari, gülfey, afade, kuseri, şoe və s. dillər kotoko dillərinə aiddir. Yazısız dillərdir.
J.Lukas. Die Logone-Sprachen im zentralen Sudan. Leipzig, 1936.

КРАСИС - alm. Krasis (m), ing. crasis /krasɪs/, fr. crase, azərb. krazis. - İki saitdən biri əvvəldə, digəri isə söz sonunda gəlir. Məs.: lat. dil. /cō-agō: cōgō/ /mən məcbur edirəm//.
H.Buβmann. Göstərilən əsər, s. 427.

КРАТКИЙ - alm. kurz, ing. short /ʃɔ:t/, fr. bref, azərb. qısa. - Eyni danışıq tempində uzun saitlərlə müqaysədə nisbətən qısa tələffüz olunan səslər. Məs.: alm. d. /ˈ ba:dən/ (çimmək), ancaq /tantə/ (xala).
F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989.

КРАТКИЙ СЛОГ - alm. kurze Silbe (f), ing. short syllable /ʃɔ:t ˈsɪləbl/, fr. syllable brˈve, azərb. qısa heca. - Nüvəsi qısa və ya reduksiyaya uğrayan saitlərdən təşkil olunmuş heca. Məs.: alm. d. /bəˈtraxtən/ (müşahidə etmək).
Bax: Краткий ←.

downloaded from KitabYurdu.org

КРАТКОСТЬ - alm. Kürze (f), ing. Shortness /ʃɔ:tnıs/, fr. brièveté, azərb. qısalıq. - Yarımuzunluğa və uzunluğa qarşı qoyulur.
Bax: Краткий ←.
КРЕАТИВНОСТЬ – alm. Kreativität (f), ing. creativity /krı(:)ˈeıtı:vitı/, fr. créativité, azərb. yaradıcılıq, kreativlik. – N.Xomskinin dil nəzəriyyəsində sonu məlum elementlərdən sonsuz cümlələr düzəldə bilmək.
N.Chomsky. Aspects of the Theory of Syntax. Cambridge, 1965.
КРЕОЛИЗАЦИЯ «ЯЗЫКА» - alm. Sprachkreolisation (f), ing. creolization language /krıəlızeıʃən ˈlæŋgwıʤ/, fr. créolalisation de la «Langue», azərb. dilin kreollaşması. - Yerli sakinlər tərəfindən (əsasən Hind okeanı adalarında) Avropa dillərindən birinin (ingilis, fransız, alman, ispan, portuqal) ünsiyyət vastəsi kimi işlədilməsi nəticəsində ortaya çıxan spesfik qarışıq dil. Adətən yerli əhali işğalçı xalqların (metropoliyanın) dilini mənimsəyərkən ona əlavə etdikləri səciyyəvi yerli xüsusiyyətlər.
İ.Hancock. History of Research on Pidgins and Creoles. «HSK», 1987, 3, 1, s. 459-469.
КРЕОЛЬСКИЙ ЯЗЫК - alm. Kreolsprache (f), Kreolisch (n), ing. creole language /ˈkri:əul ˈlæŋgwıʤ/, fr. langue créole, azərb. kreol dil. - Qərbi Hindistanda doğulan avropalıların dili. Bunlar keçmiş picin dilləridir ki, sonralar etnik qrupların ilkin «ana» dil kimi formalaşır. Funksional qrammatik baxımdan məhdudluqlar və sadələşmələr səciyyəvidir. Burada koloniyalılıar öz dillərilə Avropa dillərini qarışdırır, nəticədə picin monolinqvizmi yaranır. Bu zaman ana dili tamamən aradan çıxır və kreol dil yaranır. Üstünlük təşkil edən dilin leksikonu əksəriyyət qəbul edilir. Fransız kreol dilinə Lozannada və Mavritaniyada, holland kreol dilinə isə Corctaunda rast gəlmək olur.
Ю.С.Маслов, Введение в языкознание. М., 1987, s. 193.
КРИТИЧЕСКИЙ АППАРАТ - alm. kritischer Apparat (m), ing. critical apparatus /ˈkrıtıkəl ˌ5pəˈreıtəs/, fr. appareil critique, azərb. qeydlər apparatı. - Mətnin şərhli nəşrində qeyd və iqtibasların ümumi məcmusu. Məs.: N.S.Trubeskoy. «Fonologiyanın əsasları», Almancadan tərcüməsində prof. F.Veysəlli əsərin mətninə bəzi tənqidi qeydlər əlavə etmişdir.
N.S.Trubeskoy. Fonologiyanın əsasları. Almancadan tərcüməsi, «Son söz» və «Qeydlər» prof. F.Veysəllinindir, s. 375-378.
КРУГЛОЩЕЛЕВОЙ - alm. rillenformig, ing. groove fricative /ɡru:v ˈfrıkətıv/, fr. glottal, azərb. yumru novlu. - Tələffüzü zamanı dodaqlar dairələşir, yaxud da dil yanlardan sərt damağa doğru sıxılır, nəticədə hava axınının keçməsi üçün ağız boşluğunda iki məxrəcli dar dəhliz yaranır. Məs.: Azərb. d. /ʃ/.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 72.
КРЫЛАТЫЕ СЛОВА - alm. geflügelte Worte (Pl.), ing. winged words /wıŋd wɜ:dz/, fr. locutions devenues proverbiales, azərb. qanadlı sözlər. -

downloaded from KitabYurdu.org

Müəyyən tarixi mənbələrdən dilə keçmiş, atalar sözləri və zərbi-məsəllər kimi sabit, geniş işləklik dairəsinə malik söz və ifadələr. Məs.: /Ağıldan bəla/ (Qriboyedov), «Bir addım irəli, iki addım geri» (V.İ.Lenin).
M.İ.Adilov. Qanadlı sözlər. Bakı, 1988.

КРУ ЯЗЫКИ – alm. Kru (n), ing. Kru languages /kru: ˈl5ŋgwɪʤɪz/, fr. langues kroues, azərb. kru dilləri. - Niger-konqolez dilləri ailəsində qohum dillərin birliyi. Liberiya və Kot-dʹ İvuarda yayılmışdır. Sayca 3,3 milyon əhali bu dillərdə danışır. Zəngin saitlər sisteminə malikdirlər. Tonlu dillərdir. Yazısız dillərdir.
J.Duitsman, J.Betkaur, J.Laesch. A survey of Kru dialects. SAL, 1975, v. 6, №1.

КРЫЗСКИЙ ЯЗЫК – alm. Krysisch (n), ing. Kryz language /krʊz ˈlæŋgwɪʤ/, fr. le kirgniz, azərb. krız dili. – Ləzgi dillərindən biridir. Krız, Xaput, Cek dağ kəndlərində, Alıq Kubin rayonunda və Azərbaycanın Xaçmaz, İsmayıllı, Ağdaş və Qəbələ rayonlarında yayılmışdır. Bu dildə danışanların sayı 9 min nəfərdir. Krız dili digər ləzgi dillərindən fərqləndirən əsas cəhət saitlər yarımsisteminin zəngin olmasıdır.
Ш.М.Саадиев. Крызский язык. «Языки народов СССР», т.4, М., 1967.

КРЫМСКОТАТАРСКИЙ ЯЗЫК – alm. Krım-Tatarisch (n), ing. Crimean-Tatar language /kr7ɪˈmɪən-ˈt7:tə ˈlæŋgwɪʤ/, fr. langue tatare de Crimée, azərb. krımtatar dili. – Özbəkistan, Azərbaycan, Ukraina, Tacikistan və Rusiya Federasiyasının bəzi bölgələrində, həmçinin Türkiyə və Rumınıyada yayılmışdır. Əlifbasıı 1929-cu ilədək ərəb, 1928-38 illədə latın və 1939-cu ildən isə kiril qrafikası əsasında tərtib olunmuşdur.
А.Н.Кононов. История изучения тюркских языков в России. Дооктябрьский период. Л., 1982.

КУЛЬТУРА РЕЧЕВАЯ - alm. Redekultur (f), ing. culture of speech /ˈkʌltʃə 7v ˈspi: ʧ/, fr. culture du discours, azərb. nitq mədəniyyəti. - Bir dil üçün müəyyən edilmiş orfofonik, leksik və qrammatik normalara uyğun danışıq tərzi. Şəxsin fərdi danışığında ən yaxşı nümunələrə əməl edilmə qabiliyyəti.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 98.

КУЛЬТУРНЫЙ ЯЗЫК - alm. Kultursprache (f), ing. cultural language /ˈkʌltʃərəl ˈlæŋgwɪʤ/, fr. langue de culture (civilisation), azərb. mədəni dil. – Mədəni inkişafın yüksək mərhələsinə çatmış xalqın dili, dövlət dili əhəmiyyəti kəsb edən dil. Mədəni dil məktəblərdə tədrisin əsasını təşkil edir, nisbi sabitliyi, müəyyən ərazidə bütünlüklə yayılması və dialektləri öz içərisində əritmə qabiliyyəti ilə səciyyələnir. Əslində ünsiyyət vasitəsi olması baxımından dilləri mədəni/qeyri-mədəni hesab etmək düz deyildir.
F.Veysəlli. Dil, cəmiyyət və siyasət. Bakı, 2004; M.İ.Adilov və b. Göstərilən əsər, s. 73.

downloaded from KitabYurdu.org

КУМУЛЯТИВНОЕ ЗНАЧЕНИЕ - alm. kumulative Bedeutung (f), ing. cumulative meaning /ˈkju:mjulətɪv ˈmɪ:nŋ/, fr. signification cumulative, azərb. kumulativ məna. - Motivləşmiş sözün mürəkkəb (semantik tərkibə bölünə bilən) mənası. Məs.: Azərb. d. /gön, - qaramalın dərisi/.
О.С.Ахманова. Göstərilən əsər, s. 212.

КУМУЛЯТИВНОЕ ОТРИЦАНИЕ - alm. kumulative Verneinung (f), ing. cumulative negative (negation) /ˈkju:mulətɪv ˈnegətɪv /nɪˈgeɪʃən/, fr. négation cumulative, azərb. kumulativ (motivləşdirilməmiş (məna). – Motivləşdirilməmiş (əsaslandırılmamış) sözün mürəkkəb (semantik komponentlərə parçalana bilən) mənası. Məs.: Azərb. d. /mümkün - olduqca çətin, bərbad - çox pis/.
О.С.Ахманова. Göstərilən əsər, s. 212.

КУМЫКСКИЙ ЯЗЫК – alm. Kumykisch (n), ing. Kumyk language /kumık ˈlɔŋgwɪʤ/, fr. langue komike, azərb. kumık dili. – Türk dilləri ailəsinə daxil olan dillərdəndir. Əsasən Dağıstanda, qismən də Çeçen, İnquş və Şimali Osetiya respublikalarında yayılmışdır. 224 min daşıyıcısı vardır. Türk dillərinin qıpçaq qrupuna aiddir. Əlifbası 1929-cu ilədək ərəb, 1928-38 illədə latın və 1939-cu ildən isə kiril qrafikası əsasında tərtib olunmuşdur.
Н.К.Дмитриев. Грамматика кумыкского языка. М.-Л., 1940.

КУРСИВ - alm. Kursiv (m), ing. italics /ɪˈtɔlɪks /, fr. italique, azərb. kursiv (mətbəə şrifti) – Əl yazısına oxşayan mətbəə şiriftidir ki, düz şaquli tərzdə yığılmış mətnin tərkibində müəyyən hissəni seçmək, fərqləndirmək üçün istifadə olunur.
Bax: Дуративный/недуративный ←.

КУРДСКИЙ ЯЗЫК – alm. Kurdisch (n), ing. kurd language /kə:d ˈlɔŋgwɪʤ/, /kurdish/ˈkə:dɪʃ/, fr. langue kurde, azərb. kürd dili. - İran mənşəli dil, İranda, İraqda Türkiyədə və Suriyada 10 milyon adamın danışdığı hind-Avropa mənşəli dil. Ən yaxın qohumu belluc dilidir. Pakistanda 2 milyona qədər adam danışır. Keçmiş sovetlər ittifaqında kürd ədəbi dilinin əsasını kurdmanci, İraqda isə sorani təşkil edir.
К.К.Курдоев. Грамматика курдского языка. М.-Л., 1957.

КУШИТСКИЕ ЯЗЫКИ – alm. kuschitische Sprachen (Pl.), ing. Cushitic languages /ˈku:ʃɪtɪk ˈlɔŋgwɪʤɪz/, fr. langues kuchites, azərb. kuşit dili. – Afraziya dillərinə mənsub qol. Ərazi baxımından şimal-şərqi və şərqi Afrikada yayılmışdır. 25 milyondan yuxarı daşıyıcısı vardır. Fonoloji sistemində saitlər yarımsistemi zəif inkişaf etmişdir: /i/, /e/, /a/, /o/, /u/. Kuşit dillərindən somali (1973-cü ildən latın əlifbası) və oromo (1977-ci ildən həbəş əlifbası) yazılı dillərdir.
И.М.Дъяконов. Семито-хамитские языки. М., 1965; А.Б.Долгопольский. Сравнительно-историческая фонетика кушитских языков. М., 1973.

downloaded from KitabYurdu.org

КХМЕРСКИЙ ЯЗЫК - alm. Khmer (n), ing. khmer language /kmer ˈlɔŋgwɪʤ/, fr. langue khmer, azərb. kxmer dili. – Kxmer dillərindən biridir. Kambocanın dövlət dilidir. Vyetnam və Tailand dövlətlərində də yayılmışdır. Ümumilikdə bu dildə danışanların sayı 7,7 milyon nəfərdir. Kxmer dili saitlərin zənginliyi, tonun olmaması və ikihecalı morfemlərin olması ilə səciyyələnir.
Ю.А.Горгониев. Кхмерский язык. М., 1961; С.Лонг. Очерки по лексикологии кхмерского языка. М., 1975.

– Л –

ЛАБИАЛИЗАЦИЯ - alm. Labialisierung (f), ing. labialization /leɪbɪəlaɪˈzeɪʃ(ə)n/, fr. labialisation, azərb. dodaqlanma. – Qonşuluqda gələn dodaq səsinin təsiri nəticəsində dodaqlanmanın yaranması, dodaqların irəli çəkilməsinin saxlanılması. Məs.: Azərb. d. /tül/, /düz/ və /süt/ sözlərində [t°], [d°], və [s°] samitləri dodaqlanırlar.
Ф.Я.Вейсалов. Еще раз о минимальной единице членения речевого потока (в соавторстве с А.А.Гасановым). «Ученье записки» АПИЯ им. М.Ф.Ахундова. Баку, 1971, №1, s. 9-16; Л.В.Бондарко. Звуковой строй современного русского языка. М., 1977; Л.Р.Зиндер. Общая фонетика. М., 1979.
ЛАБИАЛИЗОВАННЫЙ - alm. labialisiert, ing. labialized /ˈleɪbjəlaɪzd/, rounded /ˈraundɪd/, fr. labialisé, azərb. dodaqlanan. - Dodaqlanmaya məruz qalmış. Məs.: Azərb. d. /d°on/, /d°uz/ sözlərində dodaq saitindən əvvəl gələn [d] samiti dodaqlanandır [d°].
Bax: Лабиализация ←.
ЛАБИАЛЬНЫЙ ЗВУК - alm. Labiallaut (m), ing. labial sound /ˈleɪbɪəl saund/, fr. sons labial, azərb. dodaq səsi. - Nisbətən mütəhərrik olan alt dodağın üst dodağa yaxınlaşması nəticəsində yaranan səslər. Dodaqların köməyilə əmələ gələn samitlər: /b, p, v, f, m/, saitlər isə /o/, /u/, /Y/, /ø/-dür. Alt dodağın üst dodağa yaxınlaşması nəticəsində bilabial (qoşadodaq samitləri: /b/, /p/, /m/) və labiodental (diş-dodaq samitləri: /v/, /f/) əmələ gəlir.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 127-129; A.A.Axundov. Azərbaycan dilinin fonetikası. Bakı, 1984; Л.Р.Зиндер. Общая фонетика. М., 1979; М.И.Матусевич. Современный русский язык. Фонетика. М., 1976.
ЛАБИО–ВЕЛЯРНЫЙ - alm. labiovelar, ing. labio-velar /ˈleɪbɪou ˈviːlə/, fr. labio-vélaire, azərb. dodaq-damaq. - Damaq pərdəsi və dodaqların işti-

downloaded from KitabYurdu.org

rakı ilə yaranan səslər. Ulu german dilində / gˇ /, /kˇ /, /xˇ/ samitləri buna misal ola bilər.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 107.
ЛАБИАЛИЗОВАННЫЙ ГЛАСНЫЙ - alm. labialisierter Vokal (m), ing. labialized vowel /ˈleɪbjəlaɪzd ˈvəuəl/, fr. voyelle labialisé, azərb. dodaqlanan saitlər. - Dodaq samitlərinin təsiri nəticəsində dodaqlanmaya məruz qalan saitlər. Azərb. d. /bibi/, /baba/, /səma/, /papaq/; rus d. /mama/, /papa/ sözlərində saitlər qonşuluqda gələn dodaq samitlərinin təsiri nəticəsində qismən dodaqlanmaya məruz qalır. Məs.: alm. d. /b°i: bəl/ (İncil) və s.
F.Y.Veysəlli. SDƏ, s. 103-121.
ЛАБИАЛИЗОВАННЫЕ ЗВУКИ - alm. labiale Laute (Pl.), ing. labiale sounds /ˈleɪbjəlɪ saundz/, fr. sons labialisés, azərb. dodaqlanan səslər. - Tələffüzündə əlavə dodaq artikulyasiyasının təsiri nəticəsində səslərin dodaqlanmaya məruz qalması.
Bax: Лабиализованный ←.
ЛАЛЕТИКА - alm. Laletik (f), ing. laletics /lα:letɪks/, fr. lalétique, azərb. laletika. - Dilçilikdə danışığın artikulyator tərəfinə üstünlük verən cərəyan. Fonetikanı laletika termini ilə əvəz etmək fikrini ilk dəfə G.Forxhammer irəli sürmüşdür. G.Forxhammer qeyd edir ki, nitq səsləri danışıq üzvlərinin hərəkətindən yaranır. Ona görə də Q.Forxhammer səslərin əmələ gəlmə-sinə dair fikirlərini dilçilik tarixində dönüş nöqtəsi adlandırır, fonetikanı dilçilikdən çıxarır, onu «laletika» ilə əvəz etməyi təklif edirdi.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 99.
ЛАДИНО – alm. Ladinisch (n), ing. ladino /ladɪn6:/, fr. ladino, azərb. ladino. – Roman dillərindən biridir. Bu dilin daşıyıcıları 1492-ci ildə İspaniyadan qovulmuş və Avropanın cənubunda, Niderlandda, İngiltərədə, Almaniyada və Türkiyədə məskunlaşmış yəhudilərin törəmələridir. 100 minə qədər daşıyıcısı məlumdur. Ədəbi ladino dili XVI əsrdə koyne əsasında yaranmışdır.
C.J.Grews. Recherches sur le judeo-espagnol dans les pays balkaniques. Paris, 1935.
ЛАДИНСКИЙ – Bax: Ретероманский →.
ЛАЗСКИЙ ЯЗЫК – alm. Lazisch (n), ing. laze language /ˈla:z ˈl¾ŋgwɪʤ/, fr. langue lazienne, azərb. laz (çan) dili. – Kartvel dillərinə aiddir. Türkiyənin şimal-şərqində Qara dəniz sahilində və Gürcistanın Sapri kəndində yayılmışdır. Daşıyıcılarının sayı 50 minə qədərdir. Üç dialektə bölünür: atin, arxav və xop. Leksik tərkibirdə türk dillərindən keçmə sözlər üstünlük təşkil edir. Yazısız dildir.
А.С.Чикобава. Грамматический анализ чанского (лазского) диалекта с текстами. Тбилиси, 1936.

downloaded from KitabYurdu.org

ЛАКСКИЙ ЯЗЫК – alm. Lakisch (n), ing. lak language /la:k ˈl¾ŋgwɪʤ/, fr. langue lake, azərb. lak dili. – Lak–dargin dillərinə aid dillərdəndir. Əsasən Dağıstan ərazisində yayılmışdır və 100 minə yaxın daşıyıcısı vardır. Ədəbi variantı kumıx dialekti əsasında formalaşmışdır. Lüğət tərkibində rus dilindən alınmış sözlər üstünlük təşkil edir. 1938-ci ildən kiril əlifbasından istifadə olunur.

Л.И.Жирков. Лакский язык. М., 1955.

ЛАКСКО-ДАРГИНСКИЕ ЯЗЫКИ – alm. Lakisch-Darginische Sprachen (Pl.), ing. lak-Dargin languages / la:k ˈda:gɪn ˈl¾ŋgwɪʤɪz/, fr. langues lako-darguines, azərb. lak-dargin dilləri. – Nax-Dağıstan dilləri ailəsinə aid olan dillər qrupu. Bu dillərdə Dağıstanda yaşayan darginlər və laklar, həmçinin Xasavyurt rayonunun Kostek və Qayakənd aulunun darginləri danışırlar. 387 min nəfərə qədər daşıyıcısı vardır. Dargin dilinin fonoloji sistemində 4 adi sait fonem /a/, /e/, /i/, /u/ mövcuddur. Lak və dargin dillərində üç sözdüzəltmə üsulu mövcuddur: önşəkilçili (prefikslərlə) (dargin dilində daha güclü inkişaf etmişdir), şəkilçili (suffiksli) və sözbirikmələr.

А.Ш.Акиев. Историко-сравнительная фонетика даргинского и лакского языков. Махачкала, 1977.

ЛАМБДА – alm. Lambda (n), ing. lambda /ˈlamdə/, fr. lambda, azərb. lambda. – «λ» yunan əlifbasında ll-ci hərfin adı.

H.Bußmann. Göstərilən əsər, s. 432.

ЛАМБДАИЗМ - alm. Lambdaismus (m), ing. lambdaism /ˈlamdəsı(ə)m/, fr. lambdaisme, azərb. lambdaizm. – Səhv düzələn səs. Səsin məxrəcindən asılı olaraq qammasizm /q/, kappasizm /k/, siqmatizm /s/, setizm /s/, lambdasizm /l/, rotasizm /r/ və s. fərqləndirirlər. Bəzən bir səsin əvəzinə mütəmadi olaraq başqa səs tələffüz olunur. Buna paralaliya da deyilir. Ümumiyyətlə, bu hadisəyə əsasən danışıqda, qeyri-ədəbi dil normalarına rast gəlinir. Məs.: rus d. /вельблюд – верблюд/, /талелка – тарелка/, /лыцарь – рыцарь/, /кульер – курьер/, /колидор – коридор/, /дилектор – директор/. Bu hadisəyə Azərbaycan dilində də təsadüf edilir. Məs.: Azərb. d. /qərar – qəral/ və s.

V.Veysəlova. Uşaq dilinin formalaşması və inkişafı. ND., Bakı, 2002.

ЛАМИНО-ПАЛАТАЛЬНЫЙ ЗВУК – alm. laminal-palataler Laut (m), ing. laminal palatal sound /ˈlamınəl ˈp5lətl saund/, fr. son lamino - palatal, azərb. laminal-palatal səs. – Fəal üzvə görə laminal, qeyri fəal üzvə görə isə damaq samiti. BFƏ-da bu alveo-palatal səs adlanır. Məs.: çin d. /ɕyeɕi/ - öyrənmək.

H.Bußmann. Göstərilən əsər, s. 432.

downloaded from KitabYurdu.org

ЛАМУТСКИЙ (ЭВЕНКСКИЙ) ЯЗЫК - alm. Lamutisch (Evenisch) (n), ing. Lamut (Even) language /ˈlamut /ˈiv(ə)n/ ˈl¾ŋgwɪʤ/, fr. langue évenque, azərb. lamut (evenk) dili. – Tunqus-mancuriya dillərindən birdir. Oxot dənizinin sahillərində, Maqadan və Yakutiya vilayətlərində yayılmışdır. 10 min insanın dilidir. Ədəbi dilin əsasında olsk dialekti durur. Yazıda 1931-ci ilədək latın, 1936-cı ildən isə kiril əlifbasından istifadə olunur.

В.Г.Богораз. Материалы по ламутскому языку. «Тунгусский сборник». Л., 1931.

ЛАНДСМОЛ - alm. Landsmol (n), ing. landsmol /ˈl5ndsmol/, fr. landsmol, azərb. landsmol. - Yerli dialektlərə əsaslanan Norveç ədəbi dili.

R.Conrad. Göstərilən əsər, s. 182.

ЛАОССКИЙ ЯЗЫК - alm. Laotisch (n), ing. Laotian language /leɪˈə uʃ(ə)n ˈl¾ŋgwɪʤ/, fr. langue laotienne, azərb. laos dili. – Tay dillərinə daxildir. Laos dövlətinin rəsmi dilidir. Tailandın şimal əyalətlərində də yayılmışdır. 23,5 milyon insan bu dildə danışır. Tonlu dildir (tonların sayı 5-7 civarındadır). Təkhecalı (monosillabik) dildir. Cümlə daxilində MXT söz sırası üstünlük təşkil edir.

Л.Н.Морев, А.А.Москалев, Ю.Я.Пламя. Лаосский язык. М., 1972.

ЛАППИЙСКИЙ ЯЗЫК – alm. Lappisch (n), ing. Lapp language /lap ˈl¾ŋgwɪʤ/, fr. langue lappique, azərb. lappi dili. - Skandinaviyanın şimalında yaşayan fin-uqor dilləri, 30.000 adam danışır. İlk yazılı abidəsi XVII əsrə aiddir.

П.Хайду. Уральские языки и народы. М., 1985.

ЛАРИНГАЛ - alm. Laryngallaut (m), ing. laryngeal /ˈl5rɪŋgal/, fr. laryngal, azərb. xirtdək səsi. - Xirtdək səsinin ümumiləşmiş, köhnəlmiş adı. Bunlara boğaz səsləri də deyirlər.

H.Bußmann. Göstərilən əsər, s. 433.

ЛАРИНГАЛЬНАЯ ТЕОРИЯ – alm. Laryngaltheorie (f), ing. laryngeal theory /ˈl5rɪŋgal ˈθɪərɪ/, fr. théorie laryngale, azərb. larinqal nəzəriyyəsi. - Hind-Avropa ulu dilinin bir hissəsinin bərpası sahəsində bir neçə dəfə sınaqdan çıxmış fərziyyə. Bu gün 3 larinqal samit bərpa edirlər: /h^1, h^2, h^3/. Bunların mövcudluğu morfoloji-struktur təhlilər əsasında müəyyənləşir. Digər tərəfdən bu fonemlər ayrı-ayrı dillərdəki reflekslə açıla bilir. Hind-Avropa dillərində e – nin a – ya h^2, o – ya isə h^3-lə dəyişməsi sübut oluna bilər; xet dilində h^2 bir çox mövqedə samit fonem kimi qalmışdır. Larinqal nəzəriyyəsi bunu Hind-Avropa dillərinin morfoloji sistemində ablautla daha aydın aça bilir. Məs.: lat. d. /est/, xet dilində /eszi/ «dir» deməkdir. Tədqiqatlar göstərir ki, /peh^2/ sözündə /e/ /a/-ya çevrilib və olub latın dilində /pa:sco/, xet dilində isə /pahsmi/ (mən qoruyuram). Göründüyü

downloaded from KitabYurdu.org

kimi bu formalarda heç bir /e/ yoxdur. Larinqal nəzəriyyəsi göstərir ki, latın dilində bu əlavə uzanma ilə yox olur, xet dilində isə /h/ kimi saxlanılır. Sonralar h^2 larinqalı kimi bərpa olunan xet dilində /h/-ın yerində gəlməsi empirik faktlarla təsdiq olundu. Larinqal nəzəriyyəsi F. de Sössürün adı ilə bağlıdır.

F. de Saussure. Memoire sur le systeme primitive de voyelles dans les langues indo-europeenes. Leipzig, 1879.

ЛАСКАТЕЛЬНЫЙ - alm. liebkosend, zärtlich, ing. affectionate /əˈfekʃnıt/, thypocoristic /hıˈpɔkrəstık/, fr. hypocoristique, azərb. əzizləmə, oxşama. - Zərif duyğu, hiss ifadə edən, ismə ekspressiv calarlıq verən. Məs.: Azərb. d. /uşaq-uşaqcığaz/, /ana-anacan/ və s.

R.Conrad. Göstərilən əsər, s. 148.

ЛАСКАТЕЛЬНОЕ ИМЯ - alm. Kosename (m), ing. affectionate name /əˈfekʃnit neım/, hypocoristic name /hıˈpɔkrəstık neım/, fr. diminutif, azərb. əzizləyici ad. - Sözə ekspressiv əzizləmə çaları verən, danışan tərəfindən zərif duyğu bildirən, tərkibində əzizləyici, oxşayıcı suffikslər olan isimlər. Məs.: Azərb. d. /Zema ← Zenfira/, /Ema ← Elmira/; alm. d. /Uli ← Ulrich/, /Annelie ← Anneliese/, /Gina ←Regina/ və s.

R.Conrad. Göstərilən əsər, s. 148.

ЛАТЕНТНЫЙ - alm. latent, ing. latent /ˈleıtənt/, fr. latent, azərb. gizli. - Müəyyən əvəzlənmə sistemində fonetik təzahürlərin izahı üçün nəzərdə tutulan, real şəkildə təzahür etməyən.

O.C.Ахманова. Göstərilən əsər, s. 213.

ЛАТЕРАЛИЗАЦИЯ – alm. Lateralisation (f), ing. lateralization /ˈlat(ə)rəl∧ızeıʃ(ə)n/, fr. latéralisation, azərb. laterallaşma. – Neyropsixologiyada hər iki beyin yarımkürəsinin informasiya əməliyyatlarında, xüsusən dildən istifadədə müəyyən funksiyalara yönəldilməsi. Lateriallaşma fərdi olur. Amma eyni zamanda müəyyən ümumiləşmələr mümkündür: analitik proseslər daha çox sol yarımkürəyə xasdır: sintaktik və fonoloji (samit+sait birləşməsinin tanınması); praqmatik informasiyanın qəbulu, cümlə intonasiyasının dərki, qeyri-danışıq səslərinin tanınması sağ yarımkürəyə aiddir. Bu zaman fərddən çox şey asılıdır. Məs.: musiqi məşqləri keçmiş şəxslər melodiyanı daha çox solda qəbul edir, nəinki məşq keçməmiş adamlar. Bu belə başa düşülməlidir ki, bir tərəfdə daha çox işlənən informasiya o birisi tərəfi sıxışdırır. Burada zədələnmə və yaş da mühüm rol oynayır. Məs.: eşitmə və ekspressiv hərəkətlər sağ yarımkürəyə aid olsa da, sol yarımkürə zədələnəndə sağ yarımkürə öz aktivliyini artıra bilir. Sağlam adamlarda iki yarımkürə arasındakı ardıcıl informasiya mübadiləsini müəyyənləşdirmək çətin olduğundan adətən eksperiment yolu ilə bu və ya digər yarımkürə xüsusi qıcıqlandırılır. Məs.: qulaqcıqla səs verilir, «sağ və sol qulaq» effekti

downloaded from KitabYurdu.org

yaradılır. Anadangəlmə dil xətaları (afaziya və ya narkozla təsir və s). Doğulan uşaqda fiziki assimetriya olur, həm də funksional baxımdan sol yarımkürəcik daha fəal olur. Məs.: 3 həftəlik uşaqda səsin gücləndirilməsi eşitmədə «sağ qulaq effektini, musiqidə isə sol-qulaq-effektini» verir. Yeniyetmə yaşında dilöyrənmənin kritik mərhələsi başa çatır.
H.Bußmann. Göstərilən əsər, s. 436.

ЛАТЕРАЛЬНЫЙ - alm. Seitenlaut (m), ing. lateral /ˈl5tərəl/, fr. latéral, azərb. lateral, dilyanı səs. - Lateral səslərin tələffüzü zamanı kipləşmə dilin yan tərəfilə (əksərən bir tərəfilə) sərt damaq arasında novdan hava axınının süzülüb bayıra çıxması ilə yaranan səs. Ona görə də lateral /l/ samitinə süzülən səs də (likvida) deyirlər. Məs.: Azərb., rus və alm. d. /l/- fonemi.
R.Conrad. Göstərilən əsər, s. 151.

ЛАТИНИЦА - alm. lateinisches Alphabet (n), ing. Roman alphabet /ˈroumən ˈ5lfəbıt/, Roman letters /ˈroumən ˈletəs/, fr. alphabet, latin, azərb. latın əlifbası, latın yazısı. - Nisbətən aydın italyan əlyazmaları əsasında işlənmiş və qədim roma yazılarının (daş, taxta) ümumi təsəvvürlərini təqlid etmək (nümunə götürmək) yolu ilə mükəmməlləşən latın əlifbasının qrafik növü, müxtəlifliyi.

ЛАТИНСКИЙ ЯЗЫК – alm. Lateinisch (n), ing. Latin language /ˈl¾tın ˈl¾ŋgwıʤ/, fr. langue latine, azərb. latın dili. – İtaliyanın mərkəzində Latsi vilayətində məskunlaşmış (b. e. ə. VIII əsr) qədim latın tayfasına məxsus italyan dillərindən biri. Latın dilinin tarixi bir neçə dövrə bölünür: arxaik dövr (b.e.ə. IV–VI əsrlərə aid bir neçə abidə bu günə gəlib çatmışdır), klassik dövrəqədərki dövr (b. e. ə. III-II əsrlər), klassik və ya «qızıl latın» dövrü (bu dövrdə ədəbiyyatın inkişafı geniş vüsət almışdır: Siseron, Sezar, Ovidii və b), klassik dövrdən sonrakı «gümüş» latın (bu dövrdə ədəbi dilin fonetik və morfoloji formaları, orfoqrafik qaydaları formalaşmışdır) və, nəhayət, sonrakı latın dili dövrü (II-VI əsrlər). Bu dövrdə yazılı və şifahi dil arasında ayrılma ortaya çıxmışdır. Roma imperiyasının süqutundan sonra latın dilinin parçalanması sürətlənmiş və roman dillərinin yaranması ilə nəticələnmişdir. Bu gün latın dili beynəlmiləl, həmçinin elmi terminlərin yaranmasında mənbə kimi çıxış edir.
В.М.Линдсей. Краткая историческая грамматика латинского языка. М., 1948; М.Нидерман. Историческая фонетика латинского языка. М., 1949; А.Эрну. Историческая морфология латинского языка. М., 1950.

ЛАТИНСКОЕ ПИСЬМО - alm. lateinische Schrift (f), ing. Latin letter /ˈl¾tın ˈletə/, fr. écriture latinne, azərb. latın yazısı. – Qərbi Avropa xalqlarının böyük əksəriyyətinin istifadə etdikləri, qədim romalıların işlətdikləri hərfi yazı.

downloaded from KitabYurdu.org

LATIN ƏLİFBASI

Çap forması	Sətri yazısı	Adı	Tələffüzü
A	a	a	[a]
B	b	бе	[б]
C	c	це	[ц] и [к]
D	d	де	[д]
E	e	э	[э]
F	f	эф	[ф]
G	g	ге	[г]
H	h	ха	[х]
I	i	и	[и]
J	j	йот	[й]
K	k	ка	[к]
L	l	эль	[л]
M	m	эм	[м]
N	n	эн	[н]
O	o	о	[о]
P	p	пе	[п]
Q	q	ку	[к]
R	r	эр	[р]
S	s	эс	[с]
T	t	те	[т]
U	u	у	[у]
V	v	ве	[в]
X	x	икс	[кс]
Y	y	ипсилон	[и]
Z	z	зета	[з]

Bax: латинский язык ←

ЛАТЫШСКИЙ ЯЗЫК – alm. Lettisch (n), ing. the Lettish language /ˈletɪʃ ˈlˡ¾ŋgwɪʤ/, fr. langue lettonne, azərb. latış dili. – Baltika dillərinə aiddir. Latviya Respublikasında yayılmışdır. Bu dildə danışanların sayı 1,5 milyondan yuxarıdır. Latış dilində üç dialekt fərqləndirilir: ortalatış (latış ədəbi dilinin əsasını təşkil edir), aşağılatış və livon. Litva dilindən fərqli olaraq, latış dilində vurğu sabitdir və, bir qayda olaraq, sözün ilk hecasının üzərinə düşür. Latış dilində fellər üçün keçmiş, indiki və gələcək zamanların sadə və mürəkkəb formaları səciyyəvidir. Latış qrafikası latın əlifbasına

downloaded from KitabYurdu.org

bəzi diakritik işarələr əlavə olunmaqla tərtib olunmuşdur və yazı prinsipi fonematik-morfolojidir.

Р.Грабис. Латышский язык. «Языки народов СССР», т. 1, 1966; J.Endzelins. Lettische Grammatik. Riga, 1922.

ЛАЦИЙСКО-ЮЖНОКАВКАЗСКИЕ ЯЗЫКИ – alm. Lazisch-südkaukasische Sprachen (Pl.), ing. Laz, Laze the South-Caucasian languages /la:z/ˈlɑ:zə ðə sauθ kɔ:ˈkeɪzjən ˈl¾ŋgwɪʤɪz/, fr. langues laciques-sudcancasiennes, azərb. las-cənubi qafqaz dilləri. – Cənubi Qafqazda 4 dili birləşdirir: meqrel, laz, svan və gürcü dilləri (4,5 milyon adam danışır).

H.Bußmann. Göstərilən əsər, s.754; В.Топуриа. Сванский язык. Тбилиси, 1931; С.М.Жгенти. Фонетика чанско-мегрельского языка. Тбилиси, 1953.

ЛЁГКИЙ - alm. leicht, ing. light /laɪt/, fr. léger, azərb. yüngül. - Vurğu daşımayan, zəif vurğulu heca. Məs.: Azərb. d. /qălă/nı; /gŏd=ăní/ və s.

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 258-265.

ЛЁГКОЕ ПРИДЫХАНИЕ - alm. leichte Aspiration (f), ing. light aspiration /laɪt ˌ5spəˈreɪʃ(ə)n/, smooth breathing /smuð ˈbri:ðɪŋ/, fr. aspiration légère, azərb. qismən nəfəsləşmə. - Yunan dilində ilk saitin səssiz başlanğıc mərhələsi. Adətən cüzi səssizlik işarəsi ilə göstərilir (’).

H.Bußmann. Göstərilən əsər, s. 104.

ЛЕЗГИНСКИЕ ЯЗЫКИ – alm. lezginische Sprachen (Pl.), ing. Lezghin languages /lezgɪ:n ˈl¾ŋgwɪʤɪz/, fr. langues lesghiennes, azərb. ləzgi dilləri. – Naz-Dağıstan dilləri yarımqrupu. Dağıstanın cənub rayonlarında (Aqul, Axtın, Dərbənd, Məhərrəmkənd, Tabasaran və s.) və Azərbaycanın Oğuz, Qax, Zaqatala, İsmayıllı, Quba, Qusar və Qəbələ rayonlarında yayılmışdır. Ləzgi, tabasaran, aqul, rutul, saxur, budux, krız, arçin, udin, xınalıq və s. dilləri ləzgi dilləri yarımqrupuna aiddir. Ləzgi dillərinin morfologiyası üçün çoxhallılıq səciyyəvidir (halların sayı dildən-dilə 10-dan 30-a qədər artıb-azala bilir). Sintaktik sistemidə isə nominativ, erqativ, dativ konstruksiyalar səciyyəvidir.

Е.А.Бокарев. Введение в сравнительно-историческое изучение дагестанских языков. Махачкала, 1961; Б.Б.Талибов. Сравнительная фонетика лезгинских языков. М., 1980.

ЛЕЗГИНСКИЙ ЯЗЫК - alm. Lezgisch (n), ing. Lezghin language /lezgɪ:n ˈl¾ŋgwɪʤ/, fr. langue lesghienne, azərb. ləzgi dili. – Ləzgi dilləri yarımqrupuna aid dildir. Dağıstanda və Azərbaycan Respublikasının şimal bölgəsində yayılmışdır. 340 min daşıyıcısı vardır. Kurax, güney, yarkin, axtın, kubin, fiy dialektləri mövcuddur. Ədəbi dilinin əsasında güney dialekti durur. Yazıda 1938-ci ildən rus qrafikasından istifadə olunur.

Л.И.Жирков. Грамматика лезгинского языка. Махачкала, 1941; М.М.Гаджиев. Синтаксис лезгинского языка. Махачкала, 1954.

downloaded from KitabYurdu.org

ЛЕЙПЦИГСКАЯ ШКОЛА – Bax: Младограмматическая школа →.

ЛЕММА – alm. Lemma (n), ing. lemma /ˈlemə/, catchword /kətʃwə:d/, fr. lemme, azərb. baş (əsas) söz. – Leksikonda və lüğətdə baş söz.
H.Bußmann. Göstərilən əsər, s. 445.

ЛЕКСЕМА - alm. Lexem (n), ing. lexem /lexsem/, fr. lexème, azərb. leksema. - Dil strukturunun leksik səviyyəsinin vahidi; danışıq aktında müxtəlif formalarda təzahür edən söz. Bütün forma və mənaların məcmusundan ibarət lüğət vahidi. Semantik məzmunu ayrı-ayrı ünsürlərin mənası ilə və semantik quruluş ilə izah oluna bilməyən mürəkkəb leksik vahid. Digər dil vahidləri kimi söz də dil sistemində abstrakt vahid-invariant keyfiyyətində, deməli bir qayda olaraq, öz variantlarında çıxış edir. Danışıqda konkret təzahür kimi realizə edilir. Sözün danışıqdakı işlənmələrini müvafiq olaraq alloleksem adlandırırlar. Məs.: Azərb. d. /yaz, yazır, yazmaq, yazırsan/ və s. Bunların hər birinə alloleksem deyilir.
Ю.С.Маслов. Введение в языкознание. Москва, 1987, s. 89.

ЛЕКСИКА - alm. Wortschatz (m), ing. vocabulary /vəˈk5bjulərı/, fr. vocabulaire, lexique, azərb. leksika. - Dilin lüğət tərkibinə daxil olan sözlər; dilin lüğət tərkibi: 1) Bir dilə, məhəlli və ya sosial dialektə məxsus sözlərin, ifadələrin məcmusudur. Bu mənada «Lüğət» sözü «Leksika» sözü ilə sinonimdir; 2) Müəyyən danışıq variantı üçün səciyyəvi olan, habelə müəyyən tətbiqi sahə ilə bağlı olan sözlərin məcmusu. Məs.: kimyəvi leksikon; 3) Dilin lüğət tərkibindəki üslubi laylardan hər biri. Məs.: dialekt leksikası; 4) Müəyyən müəllif tərəfindən işlədilən, onun dilinin lüğət tərkibi. Məs.: M.Ə.Sabirin leksikası və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 147.

ЛЕКСИКА ИНТЕРНАЦИОНАЛЬНАЯ - alm. internationale Lexik (f), ing. international vocabulary /ˌıntəˈn5ʃənl vəˈk5bjulərı/, fr. lexique international, azərb. internasional, beynəlmiləl leksika. - Bir çox dillərdə eyni məna ilə çıxış edən, lakin müəyyən dilin fonetik və morfoloji normalarına uyğun şəkildə formalaşmış, eyni mənşəyə malik olan sözlər. Beynəlmiləl leksikanın əsas hissəsi elm və texnika ilə (tarix, fəlsəfə, məntiq, teleqraf), ictimai-siyasi həyatla (partiya, konstitusiya, inqilab), iqtisadiyyatla (bank, kredit, faiz), ədəbiyyat və incəsənətlə (komediya, tragediya, opera, balet) sıx bağlıdır.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 147-148.

ЛЕКСИКА ЭКЗОТИЧЕСКАЯ - alm. exotische Lexik (f), ing. exotic vocabulary /eɡˈzɔtık vəˈk5bjulərı/, fr. lexique exotique, azərb. ekzotik leksika. - Danışığa xüsusi rəng (kalorit) vermək məqsədilə işlədilən, adətən az tanınmış dillərdən (hind-Avropa dillərinə aid olmayan) alınmış söz və ifadələr. Məs.: rus d. /гяур/, /аул/, /шальвары/ və s.
О.С.Ахманова. Göstərilən əsər, s. 214.

ЛЕКСИКА ЭМОЦИОНАЛЬНАЯ - alm. emotionale Lexik (f), ing. emotional vocabulary /ıˈməuʃənl vəuˈk5bjulərı/, fr. lexique émotionnel,

downloaded from KitabYurdu.org

azərb. emosional leksika. - Dildə sabit emosional rəngarəngliyə malik söz və ifadələr. Məs.: kiçiltmə və əzizləmə anlayışı bildirən şəkilçiləri qəbul etmiş sözlər. Müq. et: Azərb. d. - /quşcığaz/, /körpəciyəz/. Həmcinin insanın müəyyən şəraitdə kecirdiyi hiss və həyacanı bildirən sözlər. Məs.: Azərb. d. /aman allah, ilahi/, /heyrət/, /kədər/, /sevinc/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 96.

ЛЕКСИКАЛИЗАЦИЯ - alm. Lexikalisierung (f), ing. lexicalization /ˈleksıkəlˈızeıʃən/, fr. lexicalisation, azərb. leksikləşmə. – 1) Dilin lüğət fonduna daxil olan, leksikonda olub istənilən zaman işlədilə biliən sözlər: a) adi sözlər. Məs.: Azərb. d. /daş, ayı, kəmər/; b) mürəkkəb sözlər. Məs.: Azərb. d. /əlüzyuyan/, /ikibaşlı əjdaha/; c) ani yaranan sözlər. Məs.: Azərb. d. /qırmızı ləpirçilər/, ç) ifadə və ibarələr. Məs.: Azərb. d. /məndən ötdü qardaşıma dəydi/, /utanmasan oynamağa nə var// və s.; e) tarixən mürəkkəb olub, hazırda vahid leksik bütövə çevrilmiş sözlər. Məs.: Azərb. d. /gəlmənigör, alışdımyandım, gecəqondu/ və s.
А.А.Реформатский. Göstərilən əsər, s. 126.

ЛЕКСИКО-ГРАММАТИЧЕСКИЙ - alm. lexikalisch-grammatisch, ing. lexical-grammatical /ˈleksıkəl ˈgr5mətıkəl/, fr. lexico-qrammatical, azərb. leksik-qrammatik. - Leksik və qrammatik xüsusiyyətlərini özündə cəmləşdirən, həm leksik, həm də qrammatik xüsusiyyətləri olan. Məs.: nitq hissələri leksik-qrammatik kateqoriyalardır.
Е.В.Гулыга, Е.В.Розен. Новое и старое в лексике и грамматике немецкого языка. Л., 1977.

ЛЕКСИКОГРАФИЯ - alm. Lexikographie (f), ing. lexicography /ˌleksıˈkɔgrəfı/, fr. lexicographie, azərb. leksikoqrafiya. – 1) Müvafiq dilin leksik (lüğət) təsvirini lüğətlər (leksikonlar) şəklində əks etdirən dilçilik şöbəsi; 2) Lüğət tərtibinin prinsiplərini müəyyənləşdirən və onların araşdırılması ilə məşğul olan dilçilik sahəsi. Hər iki halda lüğətçiliyin elmi və metodiki prinsipləri ön plana çəkilir. Leksikoqrafiyada lüğətlərin aşağıdakı növləri fərqləndirilir: izahlı lüğət, ikidilli lüğət, etimoloji lüğət, sahə lüğəti, tezlikli lüğət, üslubi lüğət, ensiklopedik lüğət və s.
Ю.С.Маслов. Введение в языкознание. Москва, 1987, s. 120-124.

ЛЕКСИКОГРАФИЧЕСКИЙ - alm. lexikographisch, ing. lexicographic /ˌleksıˈkɔgrəfık/, fr. lexicographique, azərb. leksikoqrafik. - Müstəqil leksik mənası olan, cümlə üzvü funksiyasında cıxış edə bilən, fonetik bütövlüyə malik sözlər. Məs.: Azərb. d. /alma, armud, kitab, qələm, yol, iradə, səbir/ və s.
Ю.С.Маслов. Введение в языкознание. М., 1987, s. 120-124.

ЛЕКСИКОЛОГИЧЕСКИЙ - alm. lexikologisch, ing. lexicological /ˌleksıˈk6ləʤıkəl/, fr. lexicologique, azərb. leksikoloji.
Bax: Лексикология →.

downloaded from KitabYurdu.org

ЛЕКСИКОЛОГИЯ - alm. Lexikologie (f), ing. lexicology /ˌleksɪˈkɔlədʒɪ/, fr. lexicologie, azərb. leksikologiya. - Dilin lüğət tərkibini öyrənməklə məşğul olan dilcilik şöbəsi. Leksikologiya söz haqqında elm deməkdir.
Ю.С.Маслов. Введение в языкознание. М., 1987, s. 102.
ЛЕКСИКОЛОГИЯ ИСТОРИЧЕСКАЯ - alm. historische Lexikologie (f), ing. historical lexicology /hɪsˈtɔrɪkəl ˌleksɪˈkɔlədʒɪ/, fr. lexicologie historique, azərb. tarixi leksikologiya. - Dilin lüğət tərkibini inkişaf prosesində, diaxron (davamlı) planda öyrənən leksikologiya bölməsi. Buna adətən etimologiya deyirlər.
Ю.С.Маслов. Введение в языкознание. М., 1987, s. 103.
ЛЕКСИКОЛОГИЯ ОПИСАТЕЛЬНАЯ - alm. beschreibende (deskriptive) Lexikologie (f), ing. descriptive lexicology /dɪsˈkrɪptɪv ˌleksɪˈkɔlədʒɪ/, fr. lexicologie descriptive, azərb. təsviri leksikologiya. - Sözlərin mənasını, onların üslubi səciyyəsini, lüğət tərkibinin strukturunu sinxron planda (bir zaman kəsiyində) tədqiq edən leksikologiya bölməsi.
Ю.С.Маслов. Введение в языкознание. М., 1987, s. 103.
ЛЕКСИКО–МОРФОЛОГИЧЕСКИЙ - alm. lexikalisch-morphologisch, ing. lexical-morphological /ˈleksɪkəl ˌmɔ:fəˈlɔdʒɪkəl/, fr. lexico-morphologique, azərb. leksik–morfoloji. - Sözdüzəltmənin morfoloji vasitələrin köməyi ilə (affiksasiya: sözönülər və şəkilçilər) yaranan sözləri tədqiq edən aspekt. Məs.: Azərb. d. /li[4]/ şəkilçisi isim, sifət və zərf düzəldə bilir. Müq. et: /Saçlı/ (qız adı), /saçlı oğlan/ və s.
M.Hüseynzadə. Göstərilən əsər, s. 73.
ЛЕКСИКОН - alm. Lexikon (n), ing. lexicon /ˈleksɪkən/, fr. vocabulaire, lexicon, azərb. lüğət, söz ehtiyatı, sözlük. - 1) Hər hansı bir dilin (bölgə, sosiodialekt və sahə-ixtisas xüsusiyyətlərini nəzərə almaqla) əlifba sırası ilə düzülmüş sözlərinin bir dildə və ya başqa dildə açılışı; 2) dilin leksikonunun kodlaşmış /düzülmüş siyahısı; 3) transformasiyon qrammatikada bütün leksik formativlərin siyahısı.
R.Conrad. Göstərilən əsər, s. 156.
ЛЕКСИКО-СИНТАКСИЧЕСКИЙ - alm. lexikalisch-syntaktisch, ing. lexical-syntactical /ˈleksɪkəl sɪnˈt5ktɪkəl/, fr. lexico-syntaxique, azərb. leksik-sintaktik. - Eyni zamanda leksik və sintaktik səciyəyə malik olan dil hadisəsi. İdarə əlaqəsi leksik-sintaktik hadisədir. Felin semantikasından asılı olaraq tabe söz müəyyən hallara düşür. Habelə bu əlaqədə məna sözün özündə (söz kökündə, əsasda) mövcud olur. Məs.: ing. d. /I am waiting for you //; alm. d. /Ich warte auf dich//; Azərb. d. /mən səni gözləyirəm//; rus d. /Я тебя жду// və s.
ЛЕКСИКО-ФРАЗЕОЛОГИЧЕСКИЙ - alm. lexikalisch-phraseologisch, ing. phraseological lexical /ˌfreɪzɪəˈlɔdʒɪkəl - ˈleksɪkəl/, fr. lexico - phraséologique, azərb. leksik – frazeoloji. - Sözlərin lüğəvi mənası deyil,

downloaded from KitabYurdu.org

birləşmə daxilində ifadə etdiyi ümumi məna ilə səciyyələnən. Məs.: /gözüm səndə qaldı, ay qara xal yar// birləşməsində /göz/ öz lüğəvi mənasında deyil frazeoloji mənada işlənib.
О.С.Ахманова. Göstərilən əsər, s. 216.

ЛЕКСИЧЕСКАЯ ЗАПИСЬ – alm. Lexikoneintragung (f), ing. lexical writing /ˈleksıkəl ˈraıtıŋ/, fr. note lexique, azərb. leksik qeyd. – Transformasion qrammatikada sintaktik komponentlər daxilində leksik vahidlərin qeydə alınması. Bu, morfemi fərqləndirici əlamətlərdən ibarət fonemlərin ardıcıllığından matriks və morfemləri sintaktik əlamətlərdən ibarət mürəkkəb simvol (S) kimi qeydə alınması deməkdir.
İngilis dilində /inn/ (Qonaq evi) belə qeyd olunacaq:

	i	n
samit	-	+
burun	0	+
gərgin	-	0

C: + N (isim)
+ individual (fərdi)
- canlı
+ fiziki obyekt

Maksimum az əlamətlərdən istifadə etməklə bu qeydi aparmağa cəhd göstərilir.
R.Conrad. Göstərilən əsər, s. 156.

ЛЕКСИЧЕСКИЙ - alm. lexikalisch, ing. lexical /ˈleksıkəl/, fr. lexique, lexical, azərb. leksik.
Bax: Лексика ←.

ЛЕКСИЧЕСКОЕ ЗНАЧЕНИЕ СЛОВА - alm. lexikalische Wortbedeutung (f), ing. lexical meaning of word /ˈleksıkəl mı: nıŋ əv wə:d/, fr. sens lexical du mot, azərb. sözün leksik mənası. - Təfəkkürdə sözün səs tərkibinin əksi ilə müvafiq əşya və hadisənin əksi arasında mövcud olan əlaqə. Sözün leksik mənası həmin sözün bütün mümkün mənalarının məcmusunu təşkil edir.
Bax: Лексема ←.

ЛЕКСИЧЕСКИЕ ФОРМАТИВЫ – alm. lexikalische Formative (Pl.), ing. lexical formats /ˈleksıkəl ˈfɔmats/, fr. les formatifs lexicaux, azərb. leksik formativlər. – Generativ qrammatikada leksikonun ən kiçik semantik-sintaktik vahidi. Məs.: Azərb. d. /ata, yaz, qoca/ və s. Onlar leksik qaydalarla alt qata yeridilir, ancaq qrammatik formativlərdən (hal, şəxs, zaman şəkilçilərindən) fərqlənir. Leksik formativlər transformasiya komponentlərinin və şərh komponentinin tətbiqi üçün vacibdir. Generativ qrammatikada fonetik, fonoloji, sintaktik və semantik komponentlərdən ibarət bölünmə diaqramlarının göstərilməsilə leksikon formasında leksik formativlərin verilməsi. Məs.: «bakalavr» sözünün formativləri belə açılır.

downloaded from KitabYurdu.org



H.Bußmann. Göstərilən əsər, s. 449, 457.

ЛЕКСИЧЕСКИЕ ИНСЕРЦИОННЫЕ ПРАВИЛА – alm. lexikalische Insertionsregeln (Pl.), ing. lexical inertion (accelerative) regulation /ˈleksıkəl ınəˈsəːʃ(ə)n /əkˈseləreıtıv/ˌregjuˈleıʃ(ə)n/, fr. régles dˈincertion lexicale, azərb. leksik insersion qaydalar. – Leksik qaydalara generativ qrammatikada N. (isim), Adj. (sifət), V. (fel) və s. kimi simvolların alt qatda leksik formativlə əvəz edilməsi. Bu qayda ilə düzəltmə sona çatır. Generativ semantikada atomar predikatlar müxtəlif yerlərdə leksik vahidlərlə əvəz olunurlar.

H.Bußmann. Göstərilən əsər, s. 450.

ЛЕКСИЧЕСКАЯ КАТЕГОРИЯ – alm. lexikalische Kategorie (f), ing. lexical category /ˈleksıkəl ˈk5tıgərı/, fr. catégorie lexicale, azərb. leksik kateqoriya. - Generativ transformasiyonal qrammatikada leksikondan solda gələn kateqoriya simvolları: N., V., Adj., Art., bunlar da düzəltmə prosesində leksik formativlərlə əvəz edilir.

H.Bußmann. Göstərilən əsər, s. 450.

ЛЕКСИЧЕСКИЕ СОЛИДАРНОСТИ – alm. lexikalische Solidarität (f), ing. lexical solidarity /ˈleksıkəl s6lıˈd5rıtı/, fr. solidarité lexicale, azərb. leksik həmrəylik. – E. Coseriu (1922-2002) bu termini dil vahidləri arasında məna əlaqələrini ifadə etmək üçün irəli sürüb. Bu zaman təyin edənlə məs.: blond (qəhvəyi) təyin olunan (məs.: alm. d. /Haar/ (saç) arasındakı semantik əlaqə nəzərə çarpdırılır. Bu halda onlar arasında: a) klassı əmələ gətirən əlamətlə (klassem) təsdiq ifadə olunur. Məs.: /heyvan/ heyvanlarda fressen (heyvan yem yeyir), saufen (sormaq); b) üstün əlamətlə seçim edilir. Məs.: /fahren/ (miniklə getmək). Wagen (maşın), Boot (qayıq), Bus (avto-bus); c) bütün leksemlə impilikasiya. Məs.: /kəhər/ ata aiddir, yəni bu söz /at/ sözünü ehtiva edir.

E.Coseriu. Lexikalische Solidaritäten, Poetica, 1, s. 293-303.

ЛЕКСИЧЕСКОЕ ПОЛЕ – alm. lexikalisches Feld (n), ing. lexical field /ˈleksıkəl fi:ld/, fr. champ lexical, azərb. leksik sahə.

Bax: Словесное поле →.

ЛЕКСИКО-СТАТИСТИЧЕСКИЙ – alm. lexikalisch-statistisch, ing. lexic statistic(al) /ˈleksık ˌstəˈtıstık(əl)/, fr. lexico-statistique, azərb. leksik-

downloaded from KitabYurdu.org

statistik. – Dilin lüğət tərkibinin müxtəlif mətnlərdə işlənməsi tezliyini və üslubi xüsusiyyətlərini öyrənən metod.
H.Bußmann. Göstərilən əsər, s. 451-457.

ЛЕОНЕЗИЙСКИЙ – Bax: Испанский ←.

ЛЕНИЗАЦИЯ - alm. Lenisierung (f), ing. lenization /ˈlenɪzeɪʃ(ə)n/, fr. lénisation, azərb. lenizasiya. - Kelt dillərində saitlərarası samitlərin tələf-füzü zamanı ağız geniş açılır, bunun nəticəsində hava axını güclənir, kar samitlər cingiltiləşir, cingiltili samitlər isə xüsusi cingiltililik kəsb edirlər.
Л.Р.Зиндер. Общая фонетика. М., 1979.

ЛИВИЙСКИЙ ЯЗЫК – Bax: Восточно-нумидийский язык ←.

ЛИВИЙСКОЕ ПИСЬМО – alm. livische Schrift (f), ing. Libyan script (letter) /ˈlɪbɪən skrɪpt /ˈletə/, fr. écriture (lettre) libyenne, azərb. Liviya yazısı. – Afrika qitəsində ən qədim konsonant yazı növüdür. Mənşəyinə görə semit yazı sistemlərinə aiddir.

LİVİYA VƏ SEMİT YAZILARINDAKI İŞARƏLƏRİN OXŞARLIĞI

İşarənin oxunuşu	Tuaraqa yazısı		Şərqi-mumid		Finikiya		Cənubi semit			İşarənin oxunuşu
	müasir	qədim tuareq	epitafiya-larda	monumental yazı	qədim finikiya	yeni lunir	cənubi ərəb	lixyan	samud	
a										ʿ
n										n
r										r
g										g
š										š
s/š										s?/š?
ž/z										ḏ/z
t										t
d										d

LİVİYA VƏ FİNİKİYA YAZI İŞARƏLƏRİNİN SPESİFİK OXŞARLIĞI

oxunuşu	Liviya yazısı			Finikiya-lunik yazı		oxunuşu
	qədim tuareq	şərqi numid		qədim Finikiya	yeni lunik	
		epitafiyada	monument yazılarda			
y						
γ/q (h?)						ʿ h
q						q h

А.П.Долгопольский. Нумидийское (восточно-ливийское) письмо Северной Африки. «Тайны древних писменности. Проблемы дешифровки». М., 1976.

downloaded from KitabYurdu.org

ЛИВСКИЙ ЯЗЫК - alm. Livisch (n), ing. Livish language /lıvıʃ ˈl5ŋgwıʤ/, fr. langue libienne, azərb. liv dili. – Pribaltika-fin dillərindən biridir. Kurlandiyanın şimal-qərb sahillərində yayılmış bu dildə təqribən 100 nəfər danışır. İki dialektı məlumdur: canlı kurland dialekti (bu dialekt ozü də şərq, orta və qərb ləhcələrinə bölünür) və ölü salats dialekti. Məişət səviyyəsində işlənən dildir.
Э.Э.Вяари. Лмвский язык. «Языки народов СССР», т.3, М., 1966.

ЛИГАТУРА - alm. Ligatur (f), ing. ligature /ˈlıɡətʃuə/, fr. ligature, azərb. liqatur, qatışıq. - İki hərfin birləşməsindən və ya diakritik (fərqləndirici) işarələrin köməyilə yaranan hərfi işarə. Liqatur latın dilində «ligatura»- «bağlı, əlaqəli» mənasını verir. Məs.: fr.d. «o» və «e» →oe /oe/ saiti üçün və ya ing. əlifbasında /vv/ → «w» və s.
H.Bußmann. Göstərilən əsər, s. 457.

ЛИДИЙСКИЙ ЯЗЫК - alm. Lydisch (n), ing. lydish language /lıdıʃ ˈl5ŋgwıʤ/, fr. langue lidienne, azərb. lid dili. – Xet-luvi dilləri qrupuna aid ölü dil. Yazılı abidələrinin mənası məlum olmayan məzar kitabələrindən, başdaşı yazılarından (epitafiyalardan) təşkil edir.
А.А.Королев. Хетто-лувийские языки. «Языки Азии и Африки». М., 1976.

ЛИКИЙСКИЙ ЯЗЫК - alm. Lykisch (n), ing. liki language /ˈlıkı: ˈl5ŋgwıʤ/, fr. langue liquienne, azərb. liki dili. - Hett-luvi dillərinə qrupuna aid ölü dil. B.e.ə. I minillikdə Kiçik Asiyanın Likiya əyalətində yayılmışdır. Bu günə gəlib çatan yazılı mənbələri məzar kitabələri, başdaşı yazıları (epitafiyalar) və s. ibarətdir.
Г.Нойман. Ликийский язык. «Древние языки Малой Азии». М., 1980.

ЛИНГАЛА - alm. Lingala (n), ing. Lingala /lıŋ¾:la/, fr. lingala, azərb. linqala. – Bantu dillərindən biridir. Zair, Konqo və Mərkəzi Afrika Respublikasında yayılmışdır. Konqo çayının hər iki sahilində və Kinşasa şəhərindən Basoko şəhərinə qədərki ərazidə linqva franka kimi geniş istifadə olunur. 8 milyon insan bu dildən istifadə edir.
И.Н.Топорова. Язык лингала. М., 1973.

ЛИНГВА ФРАНКА - alm. Lingua-Franc(k)a, ing. lingua franca /ˈlıŋgw (ə) fr¾ŋk/, fr. lingua franca, azərb. linqva franka. – Müxtəlif dillərin daşıyıcılarının sosial ilişgilərdə məhdud çərçivədə istifadə etdikləri funksional dil növü. İlkin olaraq bu termin «Linqva franka» orta əsrlərdə Aralıq dənizi hövzəsində əsasən ticari işlərdə ərəb və Avropa mənşəli tacirlərin istifadə etdikləri fransız, provans və italyan sözlərindən ibarət dil mənası ifadə etmişdir. Lakin səlib yürüşü zamanında bu dilin rolu digər dillərdən də sözlər əxz emməklə xeyli dərəcədə güclənir.
Ю.С.Маслов. Введение в языкознание. М., 1976, s. 191.

downloaded from KitabYurdu.org

ЛИМИТАТИВ - alm. Limitativus (m), ing. limitative /ˈlımıtətıv/, fr. limitatif-ve, azərb. limitativ. - Monqol dillərində obyekt ifadə edən hallardan biri.
R.Conrad. Göstərilən əsər, s. 156.

ЛИНГВИСТИКА - alm. Sprachwissenschaft (f), Linguistik (f), ing. linguistics /lıŋˈɡwıstıks/, fr. linguistique, azərb. dilçilik, dilşünaslıq. – Dilçilik dil, onun ictimai təbiəti və funksiyaları, daxili quruluşu, funksiyalarının qanunauyğunluqları, tarixi inkişafı və konkret dillərin təsnifatı haqqında elmdir. Dil (mövcud və ya haçansa mövcud olmuş dillər) haqqında elm olub, dilçiliyə qədərki, mikrodilçilik və metadilçilik kimi hissələrə bölünür. Nəzəri dilçilik şərti olaraq ümumi və xüsusi dilçiliklərə bölünür. İngilis və fransız mənbələrində linqvistika işlənsə də o, dilçiliyin sinonimii kimi başa düşülür. Strukturalizmdə daxili və xarici dilçilik fərqləndirilsə də, linqivistika ümumi və nəzəri dilçiliyin bir hissəsi kimi başa düşülür. Ötən əsrin 50-ci illərindən bu yana linqvistika cağdaş, sinxron, daxili struktura yönəlikli bir elm kimi götürülür və bütün səviyyələrdə dil qanunauyğunluqlarını aydın və formal təsvir metodlarla tədqiq edir.
R.Conrad. Göstərilən əsər, s. 157; H.Bußmann. Göstərilən əsər, s. 458.

ЛИНГВИСТИКА АНТРОПОЛОГИЧЕСКАЯ - alm. anthropologische Linguistik (f), ing. anthropological linguistics /ˌɔnθrəˈpɔlədʒıkəl lıŋˈɡwıstıks/, fr. linguistique antropologique, azərb. antropoloji linqivistika. – İnsanın yaranmasını dillə üzvi şəkildə bağlayan dilçilik şöbəsi.
O.C.Ахманова. Göstərilən əsər, s. 217.

ЛИНГВИСТИКА АРЕАЛЬНАЯ - alm. areale Linguistik (f), ing. areal linguistics /ˈɛərıəl lıŋˈɡwıstıks/, fr. linguistique des aires, azərb. areal, ərazi dilçiliyi. - 1) Linqivistik arealları tədqiq etməklə məşğul olan dilçilik şöbəsi; 2) Dilçilikdə linqivistik arealların öyrənilməsinə xüsusi diqqət yetirən linqivistik cərəyan. Areal dilçilik dil vahidlərini və hadisələrini onların yayılma ərazisini nəzərə almaqla təsvir edir. Areal dilçilik dilin quruluşunu bütünlüklə təsvir etmir, lakin ayrı-ayrı hadisələrin əlaqəsini, onların yayılma yollarını və mərkəzlərini, dil ittifaqlarını müəyyən etməklə innovasiya - yeni yaranma sahələrini öyrənir. Areal dilçiliyin əsas nümayəndələri 1902-ci ildən çap olunmağa başlayan və 1910-cu ildə 35 buraxılışdan ibarət olan «Fransa linqvistik atlası»-nın tərtibçiləri J.Jilyeron (1854-1926) hesab olunurlar. Bu cərəyanın sonrakı davamçılarından biri də italyan dilçisi M.Bartoli (1873-1996) hesab olunur. O, 1925-ci ildə nəşr etdirdiyi «Neolinqvistikaya giriş» əsərində dil ailələrinin mənşəyi problemini tədqiq etmiş və dilçilik çoğrafiyası termini əvəzinə areal dilçilik termini təklif etmişdir. Areal dilçilik öz tədqiqatlarını «Dil atalasları» şəklində ümumiləşdirirlər, bu zaman dilxarici (tarixi, mədəni, sosial) faktorlarla yanaşı, dildaxili faktorlar da nəzərə alınır.
A.Axundov. Ümumi dilçilik. Bakı, 1988.

downloaded from KitabYurdu.org

ЛИНГВИСТИКА АТОМИСТИЧЕСКАЯ - alm. atomistische Linguistik (f), ing. atomistic linguistics /ˌ5tə′mıstık lıŋ′gwıstıks/, fr. linguistique atomistique, azərb. atomistik dilçilik. - Linqivistikada hər bir dil vahidinin fərdi şəkildə (digər vahidlərlə qarşılıqlı şəkildə deyil) öyrənilməsinə meyl edən dilçilik cərəyanı. Əsas müddəaları gənc qrammatiklər tərəfindən işlənib hazırlanıb. Gənc qrammatiklər dil faktlarını sistem daxilində yox, ayrı-ayrılıqda tədqiq etməyə üstünlük verirdilər. Onların fikrincə, yalnız bu halda dil faktlarının və hadisələrinin dərindən və hərtərəfli tədqiqinə nail olmaq mümkündür.
F.Veysəlli. SDƏ, s. 30-38.

ЛИНГВИСТИКА БИХЕВИОРИСТИЧЕСКАЯ - alm. behavioristische Linguistik (f), ing. behaviorist linguistics /bı′heıvjərızt lıŋ′gwıstıks/, language as behaviour /′l5ŋgwıʤ 5z bı′heıvjə/, fr. linguistique biheviorienne, azərb. biheyviorist dilçilik. - Dili insanın davranış formalarından biri kimi araşdıran dilçilik cərəyanı.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s.28-29.

ЛИНГВИСТИКА ВНЕШНЯЯ - alm. Außenlinguistik (f), ing. external linguistik /eks′tə:nl lıŋ′gwıstıks/, metalinguistics /metəlıŋ′gwıstıks/, fr. linguistique extérieure, azərb. xarici dilçilik. – Etnik, ictimai, tarixi, sosial, coğrafi və. s. dilxarici amilləri dilin inkişafı və işlənməsilə sıx vəhdətdə götürən dilçilik şöbəsi.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 29.

ЛИНГВИСТИКА ВНУТРЕННЯЯ - alm. Interlinguistik (f), ing. internal linguistics /ın′tə:nl lıŋ′gwıstık/, microlinguistics ′maıkroulıŋ′gwıstık/, fr. linguistique intérieure, azərb. daxili dilçilik. – Dilxarici amillərə fikir vermədən dil vahidlərinin sistem münasibətlərini iç qatdan (daxildən) öyrənməyə meyl edən dilçilik sahəsi.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 28-23.

ЛИНГВИСТИКА ДЕСКРИПТИВНАЯ - alm. deskriptive Linguistik (f), ing. descriptive linguistics /dıs′krıptiv lıŋ′gwıstıks/, fr. linguistique descriptive, azərb. deskiriptiv dilçilik. – Ayrı-ayrı dillərin ifadə sisteminə aid faktları hərtərəfli və bitkin tərzdə müəyyənləşdirməyin əsası olaraq ümumi dil ifadəsi nəzəriyyəsi yaratmağı dilçiliyin başlıca məqsədi hesab edən dilçilik cərəyanı. Deskiriptiv dilçilikdə tətbiq edilən metodlar dilin formal qaydalarla təsvirinə can atır, yəni dilin təsviri üçün xüsusi qaydalar işləyib hazırlayır və həmin metodlar elementlərin distiribusiyasına, onların danışıqda təkrarlanmasına əsaslanır.
Bax: Дескриптивная лингвистика ←.

ЛИНГВИСТИКА ДИНАМИЧЕСКАЯ - alm. dynamische Linguistik (f), ing. dynamical linguistics /daı′n5mıkəl lıŋ′gwıstık/, fr. linguistique dynamique, azərb. dinamik dilçilik. - Dili real varlıq kimi qəbul edən, onun

downloaded from KitabYurdu.org

funksiyasını və təzahür formalarını araşdıran dilçilik bölməsi. Dinamik dilçilik nitqlə məşğul olan dinamik, xarici dilçilik sahəsidir.
О.С.Ахманова. Göstərilən əsər, s. 217.

ЛИНГВИСТИКА ИСТОРИЧЕСКАЯ - alm. historische Linguistik (f), ing. historical linguistics /hɪsˈtɔ:rɪkəl lɪŋˈɡwɪstɪks/, fr. linguistique historique, azərb. tarixi dilçilik. - Dilin öyrənilməsini onun inkişafının konkret tarixilə əlaqələndirən dilçilik cərəyanı. Gənc qrammatiklər dilə daim dəyişməkdə olan bir hadisə kimi yanaşdıqlarından onlarda tarixçilik çox güclü şəkildə özünü büruzə verirdi. Onlar dil tarixinə ciddi əhəmiyyət verir və ayrı-ayrı dillərin ulu formasını bərpa etməklə məşğul olurdular.
H.Paul. Принципы истории языка. M., 1960.

ЛИНГВИСТИКА ОБЩАЯ - alm. allgemeine Linguistik (f), ing. general linguistics /ˈdʒenərəl lɪŋˈɡwɪstɪks/, fr. linguistique générale, azərb. ümumi diçilik. - Müxtəlif dillərin və dil qruplarının ümumbəşəri xüsusiyyətlərini araşdırmaq məqsədilə dil proseslərini öyrənən dilçilik şöbəsi. Ümumi dilçilik konkret dillərin tədqiqi sahəsində xüsusi dilçiliyin nailiyyətlərini ümumiləşdirir və deyilənlərə əsaslanaraq dilin mahiyyəti, mənşəyi və inkişafının əsas qanunlarını araşdırır, onları öyrənmək üçün tədqiqat metodları hazırlayır. Ümumi dilçilik bir elm sahəsi kimi dil haqqında nəzəri problemləri əhatə edir. Ümumi dilçilik dilin ictimai mahiyyətini, onun vəzifəsini, dilin daxili quruluş ünsürlərini və bunların bir-birilə olan əlaqələrini, səs tərkibini, sözün mahiyyətini, dilin qrammatik quruluşunu, nitq hissələrini, qrammatik kateqoriya və onun xüsusiyyətlərini, cümlə üzvlərini, onların növlərini, dillərin morfoloji və genoloji təsnifini və s. öyrənir. Ümumi dilçilik elminin banisi V. fon Humboldt sayılır.
A.Axundov. Ümumi dilçilik. Bakı, 1988.

ЛИНГВИСТИКА ОПИСАТЕЛЬНАЯ - alm. deskriptive (beschreibende) Linguistik (f), ing. descriptive linguistics /dɪsˈkrɪptɪv lɪŋˈɡwɪstɪks/, fr. linguistique descriptive, azərb. təsviri dilçilik. - Dili yalnız sinxron (movcud durumu) vəziyyətdə öyrənən dilcilik sahəsi. Təsviri dilçilik dil faktlarının və dil hadisələrinin təsviri ilə məşğul olur. Təsviri metodla yazılmış dilçilik əsərləri təsviri dilçilik adlanan xüsusi dilçilik sahəsini əmələ gətirmişdir. Təsviri dilçiliyin bölmələri arasında səyyar dilçilik xüsusi yer tutur. Tədqiqatçı üçün ana dili olmayan canlı dilin müstəqil yaradıcılıqla öyrənilməsinə və təsvirinə istiqamətləndirilən dilçilik üsulları kompleksini səyyar dilçilik adlandırırlar.
G.Gleason. An Introduction to Deskriptive Linguistics. N.-York, 1969.

ЛИНГВИСТИКА ПРИКЛАДНАЯ - alm. angewandte Linguistik (f), ing. applied linguistics /əˈplaɪd lɪŋˈɡwɪstɪks/, fr. linguistique appliquée, azərb. tətbiqi dilcilik. - 1) Maşınla tərcümə, avtomatik informasiya axtarışları kimi müasir praktik məsələlərin öyrənilməsi əsasında dilçilik nəzəriyyəsini işləyib hazırlayan ümumi dilçilik sahəsi; 2) Dilçiliyin mikrodilçiliyə daxil olmayan bölmələri. Tətbiqi dilçiliyin aşağıdakı sahələri vardır:

downloaded from KitabYurdu.org

1) Yazı – qrafika problemləri;
2) Lüğətçilik;
3) Sinxron-avtomat tərcümə;
4) Xarici dillərin öyrənilməsi;
5) Akustik obrazların və insan səslərinin tanınması.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 284-286.

ЛИНГВИСТИКА ПРОСТРАНСТВЕННАЯ - alm. zeitliche areale (räumliche) Linguistik (f), ing. spatial linguistics /ˈspeɪʃ(ə)l lɪŋˈɡwɪstɪks/, fr. linguistique de l'espace, spatial, azərb. məkani dilçilik. - Dilin yayıldığı ərazilə əlaqədar və bu əraziyə qonşu olan ərazilərdəki dillərlə müqayisədə tədqiq edilən dilçilik sahəsi. XX əsrin ikinci onilliyində formalaşan bu cərəyanın əsas baniləri italyan dilçiləri M.Bartoli və başqaları hesab olunur. Gənc qrammatiklərdən fərqli olaraq onlar dilə estetik ifadələrin məcmusu kimi yanaşırlar. Məkani dilçiliyin nümayəndələri dilçilik coğrafiyası ideyasını ortaya atırlar. Onların qənaətinə görə, hər bir sözün tarixi ilə yanaşı öz coğrafiyası da vardır. Məhz bu səbəbdən onlar dil hadisələrinin coğrafi yerləşməsini xüsusi diqqətlə araşdırırlar. Dildə baş verən dəyişmələrin səbəbinə gəldikdə, məkani dilçilik məktəbinin nümayəndələri bunu hər şeydən əvvəl etnik qarışmalarla izah etməyə çalışırlar.
A.Axundov. Ümumi dilçilik. Bakı, 1988.

ЛИНГВИСТИКА РЕЧИ - alm. Sprechlinguistik (f), ing. linguistics of speech /lɪŋˈɡwɪstɪks əv spiːʧ/, fr. linguistique de discours (la parole), azərb. nitq linqivistikası. – Müəyyən bir dildəki danışıq aktını öyrənən dilçilik şöbəsi.
О.С.Ахманова. Göstərilən əsər, s. 218.

ЛИНГВИСТИКА СОЦИОЛОГИЧЕСКАЯ - alm. soziologische Linguistik (f), ing. sociological linguistics /ˌsousɪˈɔlɔʤɪk5l lɪŋˈɡwɪstɪk/, fr. linguistique sosiologique, azərb. sosioloji dilçilik. - 1) Dil və ictimai həyatın faktları arasındakı səbəbiyyət əlaqələrini öyrənən dilçilik şöbəsi; 2) Dilçilikdə dillərin sosial differensiyasiyasını öyrənən dilçilik şöbəsi. Sosioloji dilçilik baxışlarının əsasını dil dəyişmələrinin ictimai amillərlə bağlı olması təşkil edir. Sosiloji dilçiliyin banisi F. de Sössür hesab olunur.
Ф. де Соссюр. Труды по общему языкознанию. М., 1977.

ЛИНГВИСТИКА СТАТИЧЕСКАЯ - alm. statische Linguistik (f), ing. static(al) linguistics /lɪŋˈɡwɪstɪks ˈst5tɪk(ə)l/, fr. linguistique statique, azərb. statik dilçilik. - Dilin dəyişmə və inkişafını sinxron planda (zaman kəsiyində) araşdıran dilçilik şöbəsi. Sinxron dilçilik dillə məşğul olan statik, daxili dilçilik sahəsidir.
И.А.Бодуэн де Куртенэ. Göstərilən əsər.

ЛИНГВИСТИКА СТРУКТУРНАЯ - alm. Strukturlinguistik (f), Strukturalismus (m), ing. structural linguistics /ˈstrʌkʧərəl lɪŋˈwɪstɪks/, fr. linguistique structurale, azərb. struktur dilçilik. - Dilçilikdə yalnız dil siste-

downloaded from KitabYurdu.org

minin əlaqə və münasibətlərini tədqiq edən bölmə. Dilin strukturu strukturalizm üçün ən vacib məsələdir. Müasir dilçilikdə strukturalizm, əsasən üç dilçilik məktəbini əhatə edir: Praqa funksional dilçilik məktəbi, Danimarka qlossematikası və Amerika deskriptiv dilçilik məktəbi. Bu dilçilik cərəyanı F. de Sössürün «Ümumi dilçilik» kursu əsərində irəli sürülən linqvistik ideyalarla, xüsusən dilin sistem təşkil etməsi ideyası ilə bağlıdır.
E.Coseriu. Ümumi dilçiliyə giriş. 1996-cı il nəşrindən tərcüməsi, «Giriş» və «Qeydlər» prof. F.Veysəllinindir. Bakı, 2006.

ЛИНГВИСТИКА ТРАДИЦИОННАЯ - alm. traditionelle Linguistik (f), ing. traditional linguistics /trəˈdɪʃənəl lɪŋˈɡwɪstɪks/, fr. linguistique traditionnelle, azərb. ənənəvi dilçilik. – Strukturalizməqədərki dilçiliyi dilçilikdə ənənənəvi qrammatika adlandırırlar.
F.Veysəlli. GDG. Bakı, 2003, s. 13-46.

ЛИНГВИСТИЧЕСКИЙ - alm. linguistisch, ing. linguistic /lɪŋˈɡwɪstɪks/, fr. linguistique, azərb. linqivistik, dilə məxsus, xas olan.
Bax: Лингвистика ←.

ЛИНГВИСТИЧЕСКАЯ ЕДИНИЦА - alm. linguistische Einheit (f), ing. linguistic unit /lɪŋˈɡwɪstɪks ˈjuːnɪt/, fr. unité linguistique, azərb. linqvistik vahid. - Dil vahidi: fonem, morfem, leksem və s. Elmi-nəzəri mühakimə ünsürü və ya dilçilik modelləri ünsürü.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 76.

ЛИНГВИСТИЧЕСКАЯ ПСИХОЛОГИЯ - alm. linguistische Psychologie (f), ing. linguistic psychology /lɪŋˈɡwɪstɪks saɪˈkɔlədʒɪ/, fr. psychologie linguistique, azərb. pisixoloji dilçilik. - Dilin inkişafını və onun daxili sistemini öyrənən psixo-linqivistik bölmə. XIX əsrin nəzəri dilçilik məktəblərindən ən mühümü olan psixoloji dilçilik məktəbinin yaranması Avropada ilk növbədə görkəmli alman dilçisi H.Ştayntalın (1823-1899), Rusiyada isə A.A.Potebnyanın (1835-1891) adı ilə bağlıdır.
H.Şteyntalın psixoloji dilçilik görüşlərini belə xülasə etmək olar: «Dilçiliyin predmeti dildir, yaxud ümumiyyətlə dildir», yəni qavranılmış daxili, psixi, mənəvi hərəkətlərin, vəziyyətlərin və əlaqələrin məxrəclənmiş səslər vasitəsilə ifadəsidir. Bununla birlikdə biz fərqləndiririk: nitq, danışıq, yəni hazırkı zamanda icra edilən, yaxud icra edilən kimi düşünülən dil təzahürü».
A.Axundov. Ümumi dilçilik. Bakı, 1988.

ЛИНГВИСТИЧЕСКАЯ СТАТИСТИКА - alm. linguistische Statistik (f), ing. linguistic(al) statistics /lɪŋˈɡwɪstɪk(əl) stəˈtɪstɪks/, fr. statistique linguistique, azərb. statistik dilçilik. – Danışığın və dil sisteminin tədqiqində statistik metodlarının tətbiqi.
Д.М.Сегал. Основа фонологической статистики. М., 1972.

ЛИНГВИСТИЧЕСКАЯ СТИЛИСТИКА - alm. linguistische Stilistik (f), ing. linguistic stylistics /lɪŋˈɡwɪstɪks staɪˈlɪstɪk/, fr. stylistique

downloaded from KitabYurdu.org

linguistique, azərb. dilçilik üslubiyyatı. - Dil hadisələrini müxtəlif emosional, ekspressiv çalarlarlıqları ifadə etməsi yönümündən tədqiq edən bölmə.
W.Strunk, Jr.E.B.White. The Elements of Style. N.-York, 1972.

ЛИНГВИСТИЧЕСКАЯ ЛИТЕРАТУРА - alm. linguistische Literatur (f), ing. linguistic literature /lɪŋˈɡwɪstɪks ˈlɪtərɪtʃə/, fr. littérature linguistique, azərb. dilçilik ədəbiyyatı. - Dilin yaranması, inkişafı, ayrı- ayrı layları, nəzəriyyəsi və tətbiqi ilə bağlı mövcud ədəbiyyat (əsərlər, monoqrafiyalar, məqalələr).
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı. 1993-cü il. Bu elmi ədəbiyyatda dilin fonetik qurumu, fonoloji sistemi və bu sistemin realizə yolları geniş şərh olunur. Bunları əks etdirən dilçilik ədəbiyyatının siyahısı verilib.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003. Bu kitabda 450-yə qədər linqvistik ədəbiyyatdan istifadə olunub.

ЛИНГВИСТИЧЕСКАЯ МОНОГРАФИЯ - alm. linguistische Monographie (f), ing. linguistic monographie /lɪŋˈɡwɪstɪks ˌmɔnouˈɡr5fɪə/, fr. monographie linguistique, azərb. dilçilik monoqrafiyası. - Monoqrafiya müəyyən elmi məsələnin dərinləşmiş tədqiqinə həsr olunmuş elmi əsərdir.
Y.Seyidov. Azərbaycan dilində söz birləşmələri. Bakı, 1992; A.Axundov. Azərbaycan dilinin fonemlər sistemi. Bakı, 1964; F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

ЛИНГВИСТИЧЕСКОЕ ДЕЛЕНИЕ АФАТИЧЕСКИХ НАРУШЕНИЙ - alm. linguistische Gliederung der aphatischen Verletzungen (f), ing. linguistic division of breach, violation /lɪŋˈɡwɪstɪks dɪˈvɪzən əv brɪ:ʧ/ˈvəɪəleɪʃən/, fr. division linguistique des transgressions aphrastiques, azərb. pozma, pozulma. - Afatik yayınmaların linqvistik bölgüsü, sapınmaların və ya kənara çıxmaların elmi təsnifi.
Р.Якобсон. Детский язык, яфазия и общие фонетические законы. Bakı, 1993.

ЛИНГВИСТИЧЕСКАЯ ТЕОРИЯ - alm. linguistische Theorie (f), ing. linguistic theory /lɪŋˈɡwɪstɪks ˈθɪərɪ/, fr. linguistique théorie, azərb. dilçilik nəzəriyyəsi. – Məs.: V. fon Humboldun dil nəzəriyyəsi, F.de Sössürün dil nəzəriyyəsi, İ.A.Boduen de Kurtenenin, L.V.Şerbanın fonem nəzəriyyəsi, N.Xomskinin dil bilgisi nəzəriyyəsi və s.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003.

ЛИНГИВИСТИЧЕСКИЕ ДАННЫЕ - alm. linguistische Angaben (Pl.), ing. linguistic data-facts-statistics /lɪŋˈɡwɪstɪks ˈdetə-f5kts stəˈtɪstɪks/, fr. données linguistiques, azərb. linqvistik göstəricilər (faktlar, dəlillər, əsaslar). Məs.: linqvistik faktlar göstərir ki, Azərbaycan dili həmahəngliyi, şəkilçilərin söz kökünə qoşularaq hər birinin ayrılıqda məna bildirməsi və. s. xüsusiyyətlərinə görə türk dilləri ailəsinə mənsubdur.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

downloaded from KitabYurdu.org

ЛИНГВИСТИЧЕСКАЯ ФАЗА - alm. linguistische Phase (f), ing. linguistic phase /lɪŋˈɡwɪstɪks feɪz/, fr. phase linguistique, azərb. linqivistik mərhələ (faza). - Dilin inkişaf prosesində bir-birini əvəz edən fazalar, mərhələlər. Məs.: Azərbaycan dilinin tarixini araşdıran Ə. Dəmirçizadə Azərbaycan dilinin inkişaf tarixini üç dövrə bölür:
1) ümumxalq dili əsasında Azərbaycan ədəbi dilinin formalaşıb inkişaf etməsi;
2) Azərbaycan milli dili əsasında ədəbi dilin sabitləşməsi dövrü;
3) Azərbaycan ədəbi dlinin dövlət dili kimi formalaşması və inkişafı.
Ə. Dəmirçizadə. Azərbaycan ədəbi dilinin formalaşması. Bakı, 1979.

ЛИНГВИСТИЧЕСКАЯ ФИЛОСОФИЯ - alm. linguistische Philosophie (f), ing. linguistic philosophy /lɪŋˈɡwɪstɪks fɪˈlɔsəfi/, fr. philosophie linguistique, azərb. linqvistik fəlsəfə. - Dilin və danışığın ümumi fəlsəfi əsaslarını tədqiq etməklə məşğul olan dilçilik bölməsi. N.Xomskinin dilçilik fəlsəfəsi dilin anadangəlmə olmasını əsas götürür, ona görə də universal qrammatika ideyasını gündəmə gətirir.
Linguistik und Philosophie. Hrsg. von Günther und Georg Meggle. Frankfurt, 1995.

ЛИНГВИСТИЧЕСКИЙ УРОВЕНЬ – alm. linguistische Ebene (f), ing. linguistic layer, level /lɪŋˈɡwɪstɪks ˈleɪə/ˈlev(ə)l/, fr. niveau linguistique, azərb. linqvistik səviyyə (lay). – Bu məfhumu müxtəlif dilçilik məktəbləri fərqli işlədirlər. Ümumi şəkildə dilin fonoloji, morfoloji, leksik, sintaktik, fraza struktur layaları kimi təhlil səviyyələri fərqləndirilir. Danimarka dilçiliyi ifadə və məna səviyyələri (planları) ilə yanaşı paradiqmatik və sintaqmatik səviyyələr də fərqləndirir və s.
E.Benveniste. Probleme der allgemeinen Linguistik. München, 1874, s.106-169.

ЛИНГВИСТИЧЕСКАЯ ЭКОНОМИЯ - alm. linguistische Ökonomie (f), ing. linguistic economy /lɪŋˈɡwɪstɪks iːkɔnəmɪ/, fr. économie linguistique, azərb. linqivistik qənaət. - Danışanın tələffüzü zamanı enerjiyə qənaət etməsi. Bu hadisə dilçilikdə əsas dəyişmələrin, xüsusən fonetik dəyişmələrin köklü səbəblərindən biri hesab olunur. A.Martinenin (1908) fikrinə görə, dildə baş verən bütün dəyişmələrin əsasında enerjiyə qənaət prinsipi durur.
А.Мартине. Принципы экономии в фонетических изменениях. М., 1960.

ЛИНЕЙНОСТЬ - alm. Linearität (f), ing. linearity /ˈlɪnɪətɪ/, fr. linéarité, azərb. xəttilik. - Danışıq ünsürlərinin bir-birinin ardınca gəlməsi, söyləmin ünsürlərinin ardıcıllığı. Dil işarələrinin düz xətt üzərində dalbadal düzümü: fonem, morfem, leksem ardıcıllığı. Bu vahidlərin düzümündə biri digərinin yerini tuta bilirlərsə onlar müxtəlif fonemlər sayılırlar. Məs.: Azərb. d. /d, a, ʃ/ sözündə birinci samit yerində /g, b, j, f, k, x, t, ʃ/ gələ bilər. Başqaları

downloaded from KitabYurdu.org

bu yerdə gələ bilmir, ona görə də /d/ samiti bu mövqedə onlara kontrast yaratmır.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 57-58.

ЛИНЕЙНОСТЬ РЕЧИ - alm. Redelinearität (f), ing. linearity of speech /ˈlɪnɪətɪ əv ˈspiːtʃ/, fr. linéarité du discours, azərb. danışığın xəttiliyi. - Danışıqda ünsürlərin, elementlərin zamanca müəyyən ardıcılıqla düzülməsi.
Bax: Линейность ←.

ЛИНИЯ ВОСХОДЯЩАЯ - alm. aufsteigende Linie (f), ing. rising line /raɪzɪŋ laɪn/, fr. ligne ascendante, azərb. yüksələn xətt. - Söyləmin tərkib hissəsindəki söz və ya ifadənin hər birinin özündən əvvəlkinə nisbətən semantik və emosional cəhətdən daha dolğun və daha təsirli olması əsasında yüksələn tonla deyilməsi. Məs.: ing. d. ¿Kant ju faind it? (Onu tapa bilirsən?) belə tələffüz olunur.
D.Jones. The Pronounciation of English. Cambridge, 1988, s. 163.

ЛИНИЯ ИЗОФОННАЯ - alm. Isophonlinie (f), ing. isophonic line /aɪsəˈfəunik laɪn/, fr. ligne isophonique, azərb. izofon xətti. - Müəyyən səsin və ya səslərin yayılma diopozonunu göstərən izoqloslar. Məs.: Azərb. d. qərb dialektində /c/ əvəzinə /ʒ/ tələffüz edilən bölgələr.
O.C.Ахманова. Göstərilən əsər, s. 170.

ЛИСП – alm. Lisp, ing. Lis(t)p (t)p-in /lɪsp (t)p-ɪn/ fr. lis(t)p, azərb. lis(t)p. – Lis(t)p qısaldılması, kompüter dilçiliyində və süni intellektin tədqiqində tətbiq olunan standart dil modeli. Kiçik sintaktik qaydalardan istifadə etməklə operator-operandor kombinasiyasına əsaslanan, böyük çevikliyə malik model. Xüsusilə ticarətdə geniş işlənir.
H.Bußmann. Göstərilən əsər, s. 460.

ЛИТЕРАТУРНО-РАЗГОВОРНЫЙ - alm. literarisch-umgangssprachlich, ing. literary-colləguial /lɪtərərɪ kələukwɪəl/, fr. litéraire-parlé, azərb. ədəbi-danışıq dili. - Mədəni ünsüyyətdə qəbul olunmuş, ziyalı (mədəni və savadlı) adamların danışığı. Bu dil mətbuat, məktəb, kino, teatr, dövlət idarə və müəssələrdə işlədilir. Ədəbi-danışıq dili cəmiyyətin bütün zümrələrini əhatə etdiyi üçün onun təsir dairəsi dialekt və ləhcələrin dairəsindən genişdir.
F.Veysəlli. Dil, cəmiyyət və siyasət. Bakı, 2004.

ЛИТЕРАТУРНЫЙ ЯЗЫК - alm. Hochsprache (f), literarische Sprache (f), Schriftsprache (f), ing. literary language /lɪtərərɪ ˈl¾ŋɡwɪʤ/, fr. langue litéraire, azərb. ədəbi dil. - Dialekt, loru dil və jarqonlara, adi danışıq dilinə qarşı qoyulan ümumişlək, hamı tərəfindən düzgün qəbul olunan nümunəvi dil. Məs.: Azərbaycan ədəbi dili.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

ЛИТЕРАТУРНЫЙ - alm. literarisch, ing. literary /ˈlɪtərərɪ/, fr. litéraire, azərb. ədəbi. - Nümunəvi dilin normalarına müvafiq (uyğun olan). Normalaşdırılmış, düzgün, standart.

downloaded from KitabYurdu.org

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 85-90.

ЛИТЕРАТУРНОЕ ПРОИЗНОШЕНИЕ - alm. Hochlautung (f), ing. literary pronunciation /ˈlɪtərərɪ prəˌnʌnsɪˈeɪʃ(ə)n/, fr. prononciation litéraire, azərb. ədəbi tələffüz. - Müəyyən dilin ədəbi tələffüzünü səciyyələndirən orfofonik qaydalar məcmusu.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 85-90.

ЛИТЕРАТУРНАЯ НОРМА - alm. Literaturnorm (f), ing. literary norm /ˈlɪtərərɪ ˈnɔ:m/, fr. norme litéraire, azərb. ədəbi norma. - Dil vasitələrinin nümunəvi tətbiqini müəyyən edən norma.

F.Yadigar (Veysəlli). Danışıqda ədəbi dil norması haqqında. Türk lehçeleri ve edebiyyatı. Ankara, 1997, s. 13-18.

ЛИТОВСКИЙ ЯЗЫК – alm. Litauisch (n), ing. Lithuanian language /lɪθju (:)ˈeɪnjən ˈlɔŋgwɪʤ /, fr. langue lit(h)uanienne, azərb. litov dili. - 1,5 milyon adamın danışdığı baltika dillərinə aid dil. İslahat dövründən dini abidələri var, XVIII əsrdən latın qrafikli yazıya keçib. Vurğu birinci hecaya düşür. Uzun və qısa saitlərin ton səviyyəsilə müşayət olunur. III şəxsdə tək və cəm fərqlənmir (latviya dilindəki kimi). İki əsas dialektə bölünür: jemayt və aukştayt. Litov dili flektiv dillərə (aqqlütinativ və analitik ünsürlərlə birlikdə) dildir.

H.Bußmann. Göstərilən əsər, s. 460.

ЛИТУАНИСТИКА – Bax: Балтистика ←.

ЛИТОТА - alm. Litotes (f), ing. litotes /ˈlaɪtouti:z/, fr. litote, azərb. litota. - Hər hansı əşya və hadisənin ölçüsünü, həmçinin qüvvəsini, əhəmiyyətini, dəyərini və s. həddən artıq azaltmaqdan, kiçiltməkdən ibarət məcaz növü. (əksi böyütmək-hiperbol) Məs.: Azərb.d. /bir damcı su içmək/, /cırtdan, bir hor yatmaq/ və s.

H.Bußmann. Göstərilən əsər, s. 461.

ЛИЦО - alm. Person (f), ing. person /ˈpə: sn/, fr. personne, azərb. şəxs. - Hərəkətin və onun icraçısının (subyekt) danışan şəxsə münasibətini göstərən felin qrammatik kateqoriyası.

I şəxs	alm. d.	ing. d.	rus d.	Azərb. d.	fr. d.
ind. zam.	- e	-	-у, -ю	-am, -əm	e, is, x, ds…
keç. zam.	-te-/#	-ed/#	л, ла, ло	(d)im	(ai,suis)é,i,e,s,x…
gəl. zam.	werde kommen	shall, will İnf.	Буду читать /прочту	acayam/ əcəyəm aram/ərəm	ai,is,us,s…

H.Glinz. Göstərilən əsər; A.A.Реформатский. Göstərilən əsər, s. 254; M.Hüseynzadə. Göstərilən əsər, s. 198-207.

downloaded from KitabYurdu.org

ЛИЦО ВТОРОЕ - alm. zweite Person (f), ing. second person /ˈsekənd ˈpə:sn/, fr. deuxième personne, azərb. ikinci şəxs. - İkinci şəxs müraciətin yönəldiyi predmet və ya şəxsi göstərən kateqoriyal şəxs forması.

II şəxs	alm.	ing.	fr.	rus	Azərb.d.
indiki zam.	(e)st	-	es,s,	читаешь	san/sən
keçmiş zam.	(t)e	-ed	(ai,suis)é,	-л, -ла/ло	(ın)[4]
gələcək zam.	wirst lesen	shall/will	as, is,is,us,s…	будешь читать	a+san ərsən acağsan ərəksən

Bax: Лицо ←.

ЛИЦО ОБЩЕЕ - alm. allgemeine Person (f), ing. common person /ˈk6mən ˈpə:sn/, fr. personne générale, azərb. ümumi şəxs. - Konkret şəxsi deyil, ümumilikdə hər hansı bir adamı göstərən leksik məna. Məs.: Azərb. d. /nə tökərsən aşına, o da çıxar qaşığına//.

M.Hüseynzadə. Göstərilən əsər, s. 198-207.

ЛИЦО ТРЕТЬЕ - alm. dritte Person (f), ing. third person /θə:d ˈpə:sn/, fr. troisième personne, azərb. üçüncü şəxs. - Ünsüyyətdə iştirak etməyən, ondan kənarda duran (yerləşən).

III şəxs	alm.	ing.	fr.	rus	azərb.
indiki zam.	-t	-s, es	e,t,	-ет	#
keçmiş zam.	-te	-ed	(a,est)é,t,	-л (a,o)	#
gələcək zam.	wird lesen	shal/ will	a,t,u,is,i	будет читать	#

Bəzi dilçilər III şəxsi şəxs kimi qəbul etmirlər.

E.Benveniste. Göstərilən əsər, s. 279-287.

ЛИЦО ГЛАГОЛА - alm. Verbperson (f), ing. verbal person /və:bəl ˈpə:sn/, fr. personne du verbe, azərb. felin şəxsi. - Felin şəxsi və felin təsriflənmə paradiqmində şəxsin kateqoriyal formasının ifadəsi. Məs.: Azərb. d. /mən, sən, o; mən oxuyuram/.

M.Hüseynzadə. Göstərilən əsər, s. 198-207.

ЛИЧНЫЙ - alm. persönlich, ing. personal /ˈpə:snl/, fr. personnel, azərb. şəxsi, xüsusi. - Şəxs kateqoriyasına aid olan, şəxs kateqoriyasının ifadə olunmasına xidmət edən.

M.Hüseynzadə. Göstərilən əsər, s. 198-207.

ЛИЧНЫЕ МЕСТОИМЕНИЯ - alm. Personalpronomen (n), ing. personal pronounes /ˈpə:snl ˈpərunaunz/, fr. pronoms personnels, azərb. şəxs əvəzlikləri. - Danışan və ya müraciət olunan şəxsi, müsahibi göstərən

downloaded from KitabYurdu.org

əvəzlik. Məs.: Azərb. d. /mən, sən, biz/; alm. d. /er, sie, es/; fr. d. /je, tu, nous/; ing. d. /I, you, we/.
H.Bußmann. Göstərilən əsər, s. 571.

ЛИЧНАЯ ФОРМА ГЛАГОЛА - alm. Personalform des Verbs (f), ing. finite form of the verb /ˈfaınaıt fɔ:m əv ðə və:b/, fr. forme personnelle du verbe, azərb. felin şəxs forması. - Şəxsli cümlələrin xəbəri vəzifəsində işlənən təsriflənmiş fel forması (şəxsə, kəmiyyətə, zamana və şəklə görə dəyişmiş). Məs.: Azərb. d. /Mən kitab oxuyuram//; fr. d. /Je lis un livre//; ing. d. /I read a book//; alm. d. /Ich lese ein Buch//.
H.Glinz. Göstərilən əsər.

ЛИЧНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. Personalsatz (m), ing. personal sentence /ˈpə:snl ˈsentəns/, fr. proposition personnelle, azərb. şəxsli cümlə. - Xəbəri şəxsli fellərdən ibarət olan cümlə. Bu mənada şəxsli cümlə qeyri-müəyyən şəxsli və ümumi şəxsli cümlələrə qarşı qoyulur. Tərkibində mübtədası bilavasitə işlənmiş olan cümlə. Məs.: Azərb. d. /Cəmil zirəkdir/ və s.
Müasir Azərbaycan dili. Sintaksis. Bakı, 1959.

ЛИЧНОЕ ОКОНЧАНИЕ - alm. Personalendung (f), ing. personal suffix /ˈpə:snl ˈs∧fıks/, fr. terminasion personnelles, azərb. şəxs şəkilçisi. - Felin kateqoriyal formasının ifadəsinə xidmət edən şəxs şəkilçiləri. Məs.: Azərb. d. /Mən həkiməm//.
M.Hüseynzadə. Göstərilən əsər, s. 198-207.

ЛОГИЧЕСКИЙ - alm. logisch, ing. logical /ˈlɔʤıkəl/, fr. logique, azərb. məntiqi. - Söyləmin intellektual məzmuna aid olan, mühakiməliliyin realizasiyası kimi yanaşan. Məs.: Azərb. d. /Həsən Hüseyndən böyükdür// ifadəsini /Hüseyn Həsəndən kiçikdir/ kimi desək bu məntiqə uyğun olar.
H.Bußmann. Göstərilən əsər, s. 461.

ЛОГИЧЕСКИЕ КОНСТАНТЫ – alm. logische Konstanten (Pl.), ing. logical constant /ˈlɔʤıkəl ˈk6nst(ə)nt/, fr. constantes logiques, azərb. məntiqi konstantlar. – Özünün birmənalı mənası və funksiyası əsasında söyləmlərin məntiqi strukturunu bildirən bütün məntiqi elementlərin ümumi göstəricisi. Buraya məntiqi pariklər, operatorlar və kvantorlar aiddir.
H.Bußmann. Göstərilən əsər, s. 462.

ЛОГИЧЕСКАЯ СЕМАНТИКА – alm. logische Semantik (f), ing. logical semantics /ˈl6ʤıkəl sıˈm5ntıks/, fr. sémantique logique, azərb. formal məntiqi semantika. – Ənənəvi olaraq məntiqi semantika süni (quraşdırılan) dillərin semantik tədqiqatlarını nəzərdə tutsa da, müasir dilçilik modellərində təbii dillərin semantik strukturunun təsvirini əhatə edir ki, bu da riyazi (formal) məntiqi üsullarla həyata keçirilir. Süni dillərdə təbii dillərdən fərqli olaraq sintaktik və semantik strukturların birmənalılığı, dəqiqliyi və birbaşa uyğunluğu üstünlük təşkil edir. Süni dillərin semantik

downloaded from KitabYurdu.org

şərhində əldə edilən nailiyyətlər təbii dillərə də şamil edildiyindən bunu həmin ideyaların banisi Montague-qrammatikası adlandırırlar.
H.Bußmann. Göstərilən əsər, s. 463.

ЛОГИЧЕСКАЯ ФОРМА – alm. logische Form (f), ing. logical form /ˈlɒdʒɪkəl ˈfɔːm/, fr. forme logique, azərb. məntiqi forma. – Generativ qrammatikada üst qatla semantik şərh arasında sintaktik təmsilçilik səviyyəsi. Məntiqi səviyyədə əməliyyatlar arasında əlaqələr komandalarla təmsil olunur: operator (məs.: kvantor və ya sual əvəzliyi) x konstituenti üzərində o zaman skopus olur ki, operator x konstituentinə məntiqi formaya e-komanda verir. məs.: /jeder liebt jemand$_2$/ (hər kəs kimisə sevir) kvantorla məntiqi forma /jemand$_2$ [jeder$_1$ liebt-$_2$]-ə çevrilir, bu da semantik baxımdan o deməkdir ki, elə bir x var ki, hər cür y-ə şamil edilə bilər: y liebt x, başqa sözlə jemand kvantoru jeder üzərində skopusa malikdir. Və ya /Kim bilir ki, kim nə aldı// sualında: hansı x-ə və hansı y-ə aiddir. X bilir, nə üçün z var ki, z y –i aldı. Vasitəsiz sual kimi bu belə olur: hansı x-ə aiddir: x bilir, nə üçün 2 və nə üçün y var ki, z y-i alıb. Məntiqi forma üst qat strukturlarının semantik ikimənallığını aradan qaldırır. Üst qat strukturlarından məntiqi formalar düzəldən qaydalara sintaktik məhdudiyyətlər aiddir, bununla da məntiqi formalar alt və üst qat strukturları kimi sintaktik reprezentasiya səviyyələrinə aiddir.
H.Bußmann. Göstərilən əsər, s. 461.
ЛОГИЧЕСКИЕ ПАРТИКЛИ – alm. logische Partikeln (Pl.), ing. logical particle /ˈlɒdʒɪkəl ˈpɑːtɪk(ə)l/, fr. les particules logiques, azərb. məntiqi ədatlar. – Formal məntiqdə sadə cümlələri mürəkkəb cümlələrə çevirən və /və ya (disfunksiya), nicht (inkar) əgər (bağlayıcı) və məhz onda ki, əgər (implikasiya) onda (ekvivalent) düzəldirlər və onların gerçəklik dərəcəsi sadə cümlələrin fuksiyasından asılı olur. Bir qayda olaraq biryerli /a/ (inkar) və /b/ ikiyerli (konfunksion, dizfunktsion və maddi implikasiyon) məntiqi partikillər fərqləndirilir. Onlar sadə hökmləri mürəkkəbə çevrirlər. Ancaq ənənəvi qrammatikada bağlayıcı kimi götürülən çünki, ona görə ki linqvistik mənada gerçəkliyi bildirən məntiqi operator rolunda çıxış etmirlər. Bundan başqa məntiqi anlayışlar qismən təbii dillərə tətbiq edilə bilirlər.
H.Bußmann. Göstərilən əsər, s. 463.
ЛОГИЧЕСКИЕ ЯЗЫКИ – alm. logische Sprachen (Pl.), ing. logical languages /ˈlɒdʒɪkəl ˈlæŋgwɪdʒɪz/, fr. les langues logiques, azərb. məntiqi dillər. – Bu dillərin sistemi məntiqi və ya riyazi yolla quraşdırıldığından təbii dillərdən fərqli olaraq birmənalı, dəqiq və yoxlanıla bilməsilə səciyyələnir.
H.Bußmann. Göstərilən əsər, s. 463.
ЛОГОГРАММА (ЛОГОГРАФИЯ) – alm. Logogramm (n), Logographie (f), ing. logogram /ˈlɒgəʊgræm/, logography /ˈlɒgəʊgrɑːfɪ/, fr. logogramme, logographie, azərb. loqoqrama. - Elə bir yazı sistemidir ki, hər bir dil

downloaded from KitabYurdu.org

ifadəsi (sözlər) qrafik işarə ilə (loqoqram) ifadə olunur. İdeoqrafik və piktoqrafik yazıdan fərqli olaraq burada hər bir işarə fonemlərin sabit sayı ilə verilir. Məs.: Azərbaycan manatı AZN, ABŞ dolları ($), BB funtu (₤$_1$) ilə işarə olunur.
H.Bußmann. Göstərilən əsər, s. 463.

ЛОГОПЕДИЯ – alm. Logopädie (f), ing, logopaedics /lɔgəˈpi:dıks/, speech therapy /spı:ʧ 'θerəpı/ fr. logopédie, azərb. loqopediya. – (logo-söz, paideia-tərbiyyə deməkdir). Dil, danışıq, səs və eşitmə pozuntularını öncə görən və islah edən elm sahəsi. Ənənəvi loqopediya fonotriyaya, yenilikdə isə neyrologiyaya yaxınlaşır. Fənn kimi universitetlərdə öyrənilir, ancaq müalicəsini xüsusi məktəblərdə həyata keçirirlər.
H.Bußmann. Göstərilən əsər, s. 463.

ЛОГОФОБИЯ – alm. Logophobie (f), ing. logophobia /lɒgəˈfəʊbıə/, fr. logophobie, azərb. loqofobiya. - Psixatriyada müəyyən məqamlarda daxili kəkələmənin aradan qaldırılması. Buna «lampa qızdırması» da deyirlər.
H.Bußmann. Göstərilən əsər, s. 464.

ЛОГОФОРИЧЕСКИЙ – alm. logophorisch, ing. logophoric /lɒgəˈfəʊrık/, fr. logophorique, azərb. loqoforik. – Yunanca pherein-danış-maq deməkdir. Danışanın nitqi, fikri, hissi və ümumi əhval ruhiyyəsindən asılı olaraq haqqında danışılan əşya və predmetə münasibət. Qaydış əvəz-likləri və felləri bunu aydın ifadə edirlər.
H.Bußmann. Göstərilən əsər, s. 464.

ЛОГОФОРИЧЕСКИЙ ЯЗЫК – Bax: Сардийский язык →.

ЛОГУДОРСКИЙ ЯЗЫК – alm. Logudorisch (n), ing. Logudor language /ˈlɒ:gudor ˈl¾ŋgwıʤ/, fr. langue logondore, azərb. loqudor dili. – Roman dillərindən biridr. Bu dilin daşıyıcılarının sayı 1,5 milyona qədərdir.
M.L.Wagner. La lingua sarda. Bern, 1951.

ЛОКАЛИЗАЦИЯ - alm. Lokalisation (f), ing. localization /ləʊkəlaızeıʃ(ə)n/, fr. localisation, azərb. lokallaşma; yayılmağa qoymama, məhdudlaşma. - Saitləri samitlərdən fərqləndirən əsas əlamət. Saitlərin ağız boşluğunda dəqiq məxrəci olmur. Samitlər isə lokallaşma ilə səciyyə-lənir.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 60-75.

ЛОКАЛИЗМ - alm. Lokalismus (m), ing. localism /ˈloukəlızəm/, fr. localisme, azərb. lokalizm. - Hərəkətin yerini, məkanını bildirən dil vahid-lərinin işlənməsi. Məs.: yer, məkan zərfləri, əvəzlikləri və s.
H.Bußmann. Göstərilən əsər, s. 464.

ЛОКАТИВНЫЙ (ПАДЕЖ) – alm. Lokativ (m), ing. locatıv /case/ /ˈləʊkətıv/keıs/, fr. locatif, azərb. lokativ (hal). – Türk dillərində yer bil-dirən hal. Başqa dillərdə bu sözönülərilə ifadə olunur. Müq. et: alm. d. /vor dem Haus/ (Evin qarşısında); ing. d. /on the table/ (stolun üstündə) və s.

downloaded from KitabYurdu.org

H.Glinz. Göstərilən əsər.

ЛОКАЛЬНЫЙ - alm. lokal, ing. local /ˈləʊk(ə)l/, fr. local, azərb. lokal. - Yerlik halla və ya onun ekvivalentilə ifadə olunan predmetlərarası münasibət. Məs.: Azərb. d. bu hal movcuddur. Bu münasibət yer budaq cümləsində özünü daha aydın büruzə verir. Məs.: Azərb. d. /o yerdə ona xoşdur ki, onu orada adam yerinə qoyurlar//
H.Bußmann. Göstərilən əsər, s. 465.

ЛОЛО-БИРМАНСКИЕ ЯЗЫКИ – alm. Lolo-Burmesische Sprachen (Pl.), ing. lolo-Burmese languages /lɒ:lɒ bə:ˈmi:z ˈlʌŋgwɪʤɪz/, fr. langues lolo-birmanes, azərb. lolo-birma dilləri. – Böyük və daha yaxşı tədqiq olunmuş tibet-birma dilləri qrupu. Əsasən Birmada və Sinin bəzi bölgələrində yayılmışdır. Bu dillərdə danışanların ümumi sayı 37 milyondur. Birma, lolo və nasi yarımqruplarına bölünür. Lolo-birma dilləri hecali, təcrid olunmuş dillərdir. Bəsit heca quruluşuna malikdir, bəzi dillərdə bu hecalar iki fonemdən: KV (samit+sait) ibarət olur.
R.Burling. Proto Lolo-Burmese, Bloomington –The Hague. 1967; D.Bradley. Proto-Loloish. L., 1979.

ЛОНДОНСКАЯ ШКОЛА – alm. Londoner Schule (f), ing. London school /ˈlʌndən sku:l/, fr. école londonienne, azərb. london məktəbi. – Bir tərəfdən D.Conzun, digər tərəfdən isə J.Firsin adı ilə bağlıdır. Birinci ing. d. fonetik quruluşunu, onun fonem sistemini və ədəbi tələffüz normalarını geniş dil materialı əsasında təhlil etmiş, bu dildə ilk orfofonik lüğət yaratmışdır. Özü də London məktəbi canlı danışığı əsas götürür, hər bir dil vahidi müəyyən danışıq məqamında araşdırılır, bu zaman həm distribusiya, həm də kontekst əsas götürülür. Bu məktəb mənanı kontekstlə situasiyanın mürəkkəb əlaqəsi kimi başa düşür. J.R.Firs isə dilin işlənməsinə yönəlmiş məna konsepsiyası və prosodika sahəsində ciddi elmi ümumiləşdirmələrlə dilin mənimsənilməsi və fonetik aspektin dərindən tədqiq edilməsinə güclü təkan vermişdir.
G.Sampson. Schools of Linguistics. Competition and evolution. London, 1980.

ЛОКУЦИЯ – alm. Lokution (f), ing. locution /ləˈkju:ʃ(ə)n/, fr. locution, azərb. lokusiya. – Danışıq aktı nəzəriyyəsində hər bir danışıq hərəkətinin danışıqda söz və söz cərgələrinin müəyyən qrammatik ardıcıllıqla düzülməsinin reallaşması, tələffüzünün bir hissəsi (faktiki aspekt), obyekt və hadisələrə münasibət (retik aspekt). Bunlar ikisi birlikdə ifadə formasıdır, retik aspektə isə propozisiya (Mokusiya-peilokusiya Propozisiya) uyğun gəlir.
H.Bußmann. Göstərilən əsər, s. 465.

ЛОТАРИНГИЙСКИЙ ЯЗЫК – alm. Lothringisch (n), ing. lotharingian language /ləʊθəˈrɪnʤɪən ˈlʌŋgwɪʤ/, fr. langue lorraine, azərb. lotring dili. – Rayn çayının hər iki sahili boyunca yerləşən qərbi orta dövr dialektlərini bil-

downloaded from KitabYurdu.org

dirir. Şimaldan aşağı alman (aşağı frenk), cənubdan Rayn frenk dialektlərini əhatə edir. Bu dialektlərdə danışanları Raynland oxuyanları adlandırırlar.
İki dialekt fərqlənir: a) şimal qrupu (aşağı alman danışıq tərzilə qarışıq); buna ripuar dialekti deyirlər. Buraya aiddir: Köln ətrafı, Eyfeldən Şimala, Aaxen, Ruhr və Elf ərazilər və bir də dağlıq ərazi. b) cənub dialekt qrupu kimi Mozel frenk dialekti: Mozel dialektləri qərbi Lotringen, Lüksenburq, həmçinin Raynın sağ sahilində Kestervald və Nigerland ərazilərini əhatə edir.
Dil baxımından Mozel frenk Ripuardan qərbi german /p/ - nin süzülənlərdən sonra işlənməsi səciyyələnir. Məs.: /dorp / dort/ (orada) və s.
G.F.Meier, B.Meier. Göətərilən əsər, s.
ЛУБА – Bax: Банту ←.
ЛУВИЙСКИЙ ЯЗЫК - alm. Luwisch (n), ing. Libyan language /ˈlıbıən ˈl¾ŋgwıʤ/, fr. langue louvienne, azərb. luvi dili. – Xet-luvi dillərinə aid ölü dil. B.e.ə. II minillikdə Cənub-qərbi Kiçik Asiyada Xet çarlığının tərkibinə daxil olan Luvi ərazisində yayılmışdır.
Э.Ларош. Очерк лувийского языка. «Древние языки Малой Азии». М., 1980.
ЛУО – alm. Luo (n), ing. Luo /luo/, fr. langue louo, azərb. luo dili. - Afrikada Nil-Zaharan dillərinin qolu: Buraya aiddir: şərqi Sudan dilləri, o cümlədən Nubii və Nilot dilləri). Mərkəzi Sudan dilləri və bəzi dillər. Ən böyük dillər: Sudanda Dinka (2, 7 mil.) və nubi (2 mil.), Keniyada luo (2,2 mil.), kalenyin (2 mil.), Uqanda və Kentiyada Trerkaua (1,5 mil.). Bu dillərin bəzisini hamif (Afroasiya) dilləri adlandırırlar. Tipik cəhətləri: nominal siniflər yoxdur, bəzi dillərdə cins kateqoriyası tək və cəm kateqoriyası vardır. Ən qədim yazı nümunəsi Nubii dilində VIII əsrdəndir.
R.L.Stafford. An elementary Luo grammar. London, 1967.
ЛЮДСКИЙ ЯЗЫК – alm. Lydisch (n), ing. Ludic language /ˈlu:dık,- ˈlju: ˈl5ŋgwıʤ/, fr. langue ludienne, azərb. lüd dili. – Hind-Avropa dillərindən ölü dil kimi xet dili (xet, hiroqlif xet, luvi, Palay, lüd və lük kiçik Asiyada) mövcud olmuş dillər. Onlardan ən tanınmışı ölü xet dilidir.
G.F.Meier, B.Meier. Göstərilən əsər, s. 106.
ЛЮКСКИЙ ЯЗЫК – Bax: Людский язык ←.
ЛЬЕЗОН - alm. Bindung (f), ing. liaison, /li:ˈeız6:n/, fr. liaison, azərb. əlaqə, birləşmə. - Fransız dilində söz qovuşanda lal (tələffüz olunmayan) saitlərin tələffüz olunan samitlərin həmin sözlərdə saitlə başlayan sözlərin əvvəlində əvəzlənməsi. Məs.: fr. d. mes parents /meparã/, mes enfants /mezãfã/.
H.Bußmann. Göstərilən əsər, s. 457.

– M –

МАБАНСКИЙ ЯЗЫК – Bax: Нило-сахарские языки →.

downloaded from KitabYurdu.org

МАГЯРСКИЙ ЯЗЫК – Bax: Венгерский язык ←.

МАДЕГАСССКИЙ – Bax: Малагасский язык →.

МАДУРСКИЙ ЯЗЫК – alm. Madurisch (Madura) (n), ing. Madura language /ˌmʌduˈrɑ: ˈlɜŋgwɪʤ/, fr. langue madourienne, azərb. madur dili. – İndoneziya dillərindən bridir. Madur adasında və ona qonşu olan kiçik adalarda yayılmışdır. 9,2 milyon daşıyıcısı vardır. İki dialektə bölünür: şərq və qərb dialektləri. Fonoloji sistemi 4 sait (/ɛ/, /6/, /a/, /ə/) və nisbətən zəngin samitlər yarımsisteminə malikdir. Ədəbi dili şərq dialekti əsasında formalaşmışdır.

А.К.Оглоблин. Мадурский язык и лингвистическая типология. Л., 1986.

МАЙДУ – Bax: Пенутианские языки →.

МАЙЯ-КИЧЕ ЯЗЫКИ – alm. Maya-Kič(tsch)e-Sprachen (Pl.), ing. Maya-kiche languages /ˈmθɪ(j)ə/ˈmeɪ(jə) kɪ:ʧ ˈlɜŋgwɪʤɪz/, fr. langues maya-kitchées, azərb. maya-kiçe dilləri. – Hindi dilləri ailəsinə daxil olan dillər ailəsi. Bəzi tədqiqatçılar maya-kiçe dillərini totonak, mixe-soke dilləri ilə birlikdə makropenutian dillərinə aid edirlər. Əsasən Meksika yarımadasında yayılmışdır. Bu dillərdə təqribən 2,3 milyon əhali danışır. Maya dilləri 4 qrupa bölünürlər: maya (ikaiçe, santakrus, mopan, lakadon dilləri), çol (çontal, çorti), çanyabal (seltal, sendal, kelene, çamula və s.) və xuastek (potosi, verakrus və s.). Kiçe dilləri isə 3 qrupa bölünürlər: mam (mam, aquatek, işil), kiçe (kiçe, sutixil) və kekçi (kekçi, pokom). Maya dillərinin fonoloji sistemi 10 sait və 30 samit fonemdən ibarətdir. Morfemlər adətən birhecalıdırlar (monosillabik) və quruluşca 4 cür ola bilirlər: V, VC, CV, CVC.

Ю.В.Кнорозов. Письменность индейцев майя. М.-Л., 1963.

МАКАСАРСКИЙ ЯЗЫК – alm. Makassar (n), ing. Makassar language /ma:kɑ:sɑ: ˈlɜŋgwɪʤ/, fr. macassarien, azərb. makasar dili. – Cənubi Sulavesi dillərindən biridir. Əsasən Sulavesi və Salayari adalarında yayılmışdır. 1,2 milyon daşıyıcısı məlumdur.

Sy.Kaseng. Kedudukan dan fungsi bahasa Makassar di Sulawesi Selatan. Jakarta, 1978.

МАКЕДОНСКИЙ ЯЗЫК – alm. Makedonisch (n), ing. macedonian language /m¾sıdəunjən ˈlɜŋgwɪʤ/, fr. macédonien, azərb. makedon dili. – Cənubi Slavyan dili, 1,2 milyon Makedoniyada, 0,1 milyon Şimali Yunanıstanda bu dildə danışırlar. 1945-ci ildən kiril əlifbasından istifadə edir. Əsas əlamətləri: çoxhecalı sözlərdə vurğu axırıncıdan üçüncü hecanın üzərinə düşür. Bu dildə sonda gələn 3 müxtəlif müəyyən artikl, təyin edilən obyektin əvəzlik vasitəsilə işarələnməsi səciyyəvidir.

Р.П.Усикова. Македонский язык. «Славянские языки». М., 1977; H.Bußmann. Göstərilən əsər, s. 467.

downloaded from KitabYurdu.org

МАКРОЛИНГВИСТИКА - alm. Makrolinguistik (f), ing. macrolinguistics /ˈm¾krou ˈlŋɪɡwɪstɪks/, fr. macrolinguistique, azərb. makrolinqivistika. – 1) Diləqədərki mikrodilçilik və metadilçilik bölmələrini əhatə edən vahid dilçilik; 2) Dili başqa elm sahələrilə (sosioliqvistika, psixolonqvistika, fəlsəfə, məntiq və s.) bağlı şəkildə öyrənən dilçilik sahəsi. Onun ən mühüm sahəsini mikrolinqvistika, dar mənada dilçilik təşkil edir ki, o da dilin sistem və struktur xüsusiyyətlərini şərh və təsvir edir.
H.Bußmann. Göstərilən əsər, s. 466.

МАКРО–АЛГОНКИНСКИЙ – Bax: Алгонкинские языки ←.

МАКРОСТРУКТУРА – alm. Makrostruktur (f), ing. macrostructure /ˌm¾krauˈstrʌktʃə/, fr. macrostructure, azərb. makrostruktur. – Mətnin ümumi semantik və praqmatik strukturu. Semantik makrostruktur «xüsusi makro qaydalarla» (informasiyanın sıxlaşması, ümumiləşməsi) cümlə və cümlə ardıcıllıqlarının semantik strukturundan yaranır. O, danışanların mətn düzəltmək qabiliyyətini, mətnin temasını ehtiva edir. Semantik makrostrukturların düzəlməsinə analoq olaraq ayrı-ayrı danışıq aktları praqmatik makrostrukturları mətnin illokusiyonunu yaradır.
T.A.van Dijk. Macrostructures. An interdisciplinary study of global structures in discourse, interaction and cognition. Hillsdale, 1980.

МАКРОСИНТАКСИС – alm. Makrosyntax (f), ing. macrosyntax /ˈm ¾krauˈsɪnt¾ks/, fr. macrosyntaxe, azərb. makrosintaksis. – Mətn qrammatikasında cümləfövqü vasitələrin qrammatik təsviri. Məs.: mətnlərin koheziyası, tekst forikası, transfrastik təhlil, mətnin təhlili.
M.Heinemann, W.Heinemann. Grundlagen der Textlinguistik. Tübingen, 2002.

МАКРОФОНЕМА – alm. Makrophonem (n), ing. macrophoneme /ˈm¾krouˈfəuni:m/, fr. macrophonème, azərb. makrofonem. – Amerikan dilçiliyində dilin mənalı vahidlərinin (morfem, söz, söz birləşməsi) əmələ gəlməsində və onların səs qabığının fərqləndirilməsində əsas rol oynayan ən kiçik dil vahidi. «İki müxtəlif forma arasındakı səs fərqlərinin dərəcəsi müxtəlif ola bilər. İki oxşar olmayan forma arasındakı səs fərqi müəyyən səs kompleksinin tərkib hissələrinə uyğun gəlir. Öz aralarında minimal cəhətdən fərqlənən formaların qrupu «sinif» yaradır. Bu sinif bütün üzvlər üçün eyni olan səs kompleksləri ilə səciyyələnir və bütün bu üzvlərdə minimal fərqi eyni səs parçası təşkil edirsə (məs.: sonu və ya əvvəli), onda belə sinfə «nizamlanmış» sinif deyilir. Məs.: Azərb. sözləri /qaz-yaz-paz-naz-saz/ və s. nizamlanmış sinif yaradır. Belə bir sinfin üzvləri arasındakı münasibətlər minimal fonoloji qarşılaşmalardır. Bu cür qarşılaşmaların üzvlərini V.F.Tvoddel (1906-1982) mikrofonemlər adlandırır (deməli, bizim misallarda /g-j-p-n-s/ özündən sonra gələn /az/ seqmenti ilə səciyyələnən formal sinfin mikrofonemləridir). Belə mikrofonemin fonetik qarşılığı bir neçə artikulyator xüsusiyyətə malikdir. İki forma sinfi o zaman «eyni cür nizamlı» adlanır ki, onların mikrofonemləri arasındakı münasibət eyni

downloaded from KitabYurdu.org

olsun. Məs.: /will, till, kill, bill/ və /nap-gnap-knack-nab/ sinifləri eyni cür nizamlanıb. Hər iki halda mikrofonemlərin fonetik təbiətinin müxtəlif olmasına baxmayaraq (/p-t-k/ söz əvvəlində nəfəsli, söz sonunda isə nəfəssiz tələffüz olunur) məhz bu mikrofonemlər arasındakı münasibət hər halda eynidir. Eyni cür nizamlanmış müxtəlif forma siniflərində həmişə eyni yerdə gələn bütün mikrofonemlər bir «makrofonem» əmələ gətirirlər ki, bu da bizim «fonem» anlayışımıza uyğun gəlir». N.S.Trubeskoy. Fonologiyanın əsasları. Almancadan tərcüməsi, «Son söz» və «Qeydlər» prof. F.Veysəllinindir. F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 109-110.

МАКСИМАЛЬНОЙ ДИФФЕРЕНЦИАЦИИ ПОЗИЦИЯ - alm. Stellung der maximalen Unterscheidung (f), ing. position of maximum differentiation /pəˈzɪʃən əv m¾ksıməm dıfərənteıʃn/, fr. position de la différentiation maximalle, azərb. mövqelərin maksimum fərqlənməsi. - Səs vahidlərinin maksimum fərqlənə bildiyi mövqe. Saitlər üçün bu vurğulu movqe, samitlər üçün isə vurğulu saitlərdən əvvəlki mövqedir. Müq. et: Azərb. d. /adam/, /badam/, /gardaş/ və s.
F.Veysəlli. SDƏ, s. 127-149.

МАЛАГАСИЙСКИЙ ЯЗЫК – alm. Malagasy (Malgaschisch) (n), ing. Malagasy language /ˌm¾ləˈg¾sı ˈl¾ŋgwıʤ/, fr. malgache, azərb. malaqas dili. – Avstronez dillərinə aid dildir. Əsasən Madaqaskar adasında, qismən də qonşu Komor və Seyşel adalarında yayılmışdır. Madaqaskar Respublikasının iki rəsmi dövlət dillərindən (fransız dili) biri. 7,7 milyona qədər insan bu dildə danışır. Fonoloji sistemi 5 sait (/i/, /e/, /a/, /o/, /u/) və 20 samit fonemdən ibarətdir. Malaqas dili əvvəlcə ərəb və bantu dillərinin, sonralar isə fr. d. güclü təsirinə məruz qalmışdır. XIX əsrin əvvəlinə qədər ərəb yazısından, hazırda isə latın əlifbasından istifadə edilir.
В.Д.Аракин. Малагашский язык. М., 1963; Л.А.Карташов. Структура малагашского слова. «Народы Азии и Африки», 1965, № 6.

МАЛАЙЗИЙСКИЙ ЯЗЫК – alm. Malaysisch (n), ing. Malaysia language /məˈleızıə ˈl¾ŋgwıʤ/, also malaysian /məˈleıʒn/, fr. malaysien, azərb. malayziya dili. – Malayziya Federasiyasının rəsmi dili. Malakka yarımadısında və ona yaxın adalarda yayılmışdır. Daşıyıcılarının sayı 9,2 milyondur. Lüğət tərkibində ing. və ərəb mənşəli sözlər üstünlük təşkil edir. Yazıda latın əlifbasından istifadə olunur.
Omar Asmah Haji, Rama Subbiah. An Introduction to Malay grammar. Kuala Lumpur, 1968.

МАЛАЙСКИЙ ЯЗЫК – alm. Malaiisch (n), ing. Malay(an) /məˈleı(ən) ˈl¾ŋgwıʤ/, fr. malais, azərb. malay dili. – Avstronez dillərindən biri. Əsasən Sumatra və Sinqapur adalarında, Malakka yarımadasında, Riau və Linqa arxipelaqlarında və Kalimantan adasının sahil bölgələrində yayılmışdır. Bu dildə danışanların sayı 26 miloyna yaxındır. Malayziya və Sinqapur

downloaded from KitabYurdu.org

dövlətlərinin rəsmi dilidir. Malay dili analitik qrammatik quruluşa malikdir. Söz daxilində saitlərin həmahəngliyi (sinharmonizm) müşahidə olunur.
Грамматика индонезийского языка. М., 1972.

МАЛАЙСКО-ПОЛИНЕЗИЙСКИЕ ЯЗЫКИ – Bax: Австронезийские языки ←.

МАЛАПРОПИЗМ - alm. Malapropismus (m), ing. malapropism /ˈm¾ləpr6pɪzəm/, fr. malapropisme, azərb. malapropizm, uyğun gəlməyən. – Bilməyərəkdən və ya qəsdən səhv işlənən alınma söz. Məs.: /kuratorium/ əvəzinə /krematorium/ və s.
J.E.Hurford. Malapropismus. «», 1981, 12, s. 419-423.

МАЛАЯЛАМ - alm. Malayalam (n), ing. Malayalam language /ˈm5ləjəl5m ˈl¾ŋgwɪʤ/, fr. malayalame, azərb. malayalam dili. – Dravid dillərinin cənub qrupuna aid olan dillərdən biri. Hindistanın cənubunda yayılmışdır və Kerala ştatının rəsmi dilidir. 30 milyondan yuxarı daşıyıcısı vardır. 3 dialektə bölünür: cənub (travankur, vembanadu), mərkəzi (koçin), şimal (malabar, vayanadu), həmçini Lakkadiv adalarının dialekti. Fonoloji və morfoloji sistemləri tamil dilinə çox yaxındır. İsimlər cins kateqoriyasına bölünürlər (kişi. qadın və orta cins). Fellərin üç zaman forması (keçmiş, indiki, gələcək) mövcuddur.
Ч.Секхар, Ю.Я.Глазов. Язык малаялам. М., 1961.

МАЛИНКЕ - alm. Malinke (n), ing. malinke /ˈm5li:nki/, fr. malinké, azərb. malinke. – Mande dillərindən biri. Bamana və diula dilləri ilə birlikdə mandinqo dil birliyini əmələ gətirir. Seneqal, Qvineya, qismən də Mali, Liberiya respublikalarında yayılmışdır. Bu dildə 3,7 milyon insan danışır. Koranko, mau, vasulu, şinya və s. kimi çoxlu dialektlərə bölünür. Tonal dildir.
В.П.Токарская. Язык малинке (мандинго). М., 1964.

МАЛОАЗИЙСКИЕ АЛФАВИТЫ - alm. kleinasiatische Alphabete (Pl.), ing. Asia Minor of alphabet /ˈeɪʃə ˈmɑɪnə əv ˈ¾lfəbɪt/, fr. alphabet de la petit Asie, azərb. kiçik Asiya əlifbaları. – Kiçik Asiyanın hüdudlarında (Türkiyə) və Egey adalarında yayılmış hərfi yazı növü.

downloaded from KitabYurdu.org





МАЛЬДИВСКИЙ ЯЗЫК (ДИВЕХИ) - alm. Maldivisch (n), ing. Maldiv(ian) language /ˈmaldɪːv(jən) ˈl¾ŋgwɪʤ/, fr. langue maldivie(île), azərb. maldiv dili. – Hindu dillərindən biri. Əsasən Maldiv adalarında və Hindistanın Lakkadiv adalarının tərkibinə daxil olan Minikoy adasında yayılmışdır. 200 min daşıyıcısı vardır.

C.Maloney. People of the Maldive İslands. Bombay-Madras-Calcutta, 1980.

МАЛЬТИЙСКИЙ ЯЗЫК - alm. Maltesisch (n), ing. Maltese language /ˈm6:lˈti:z ˈl5ŋgwɪʤ/, fr. langue maltais, azərb. malti dili. – Semit dillərindən biridir. Maltada (qismən də Avstraliya, Böyük Britaniya, Kanada, Tunis, Əlcəzair və s.) yayılmışdır və daşıyıcılarının sayı təqribən 365 min nəfərdir. Lüğət tərkibində Avropa mənşəli sözlər üstünlük təşkil edir. XIX əsrdən latın əlifbasına keçmişdir.

A.J.Arberry. A Maltese anthology. Oxford, 1960.

downloaded from KitabYurdu.org

MAM – alm. Mam (n), ing. mam /m¾m/, fr. mam, azərb. mam. - Meksika və Qvatemala həmsərhəd ərazilərində yayılmışdır, çoxlu sayda dialektləri mövcuddur. 270 mindən yuxarı daşıyıcısı vardır.
G.F.Meier, B.Meier. Handbuch der Linguistik und der Kommunikationswissenschaft. Berlin, 1979, s. 397.
МАНДАРИН – alm. Mandarinensprache (f), ing. mandarin /ˈm¾ndərın/, fr. langue mandarine, azərb. mandarin dili. - «Mandarin dili» ılk dəfə portaqaliyalılar tərəfindən dilçiliyə daxil edilmiş termindir.
Bax: Китайский ←.
МАНДЕ – alm. Mande-Sprachen (Pl.), ing. mande /ˈma:ndeı/, fr. langues mandais, azərb. mande dilləri. – Qərbi Afrikada Nigeriya və Konqada 25 dili birləşdirən dil qrupu. Bu dillərdən ən mühümü bambara dilidir. Mande dillərində təqribən 13,5 milyon insan danışır. Mande dilləri tonal dillərdir. Bu dildə nominal siniflər yoxdur. Qədim siniflər sisteminin qalığı söz başında samitlərin ablautunda qalıb. Qrammatik kateqoriya tonun hərəkətində bildirilir. Yazısı müxtəlif sillabik yazı sistemidir.
К.И.Поздняков. Языки манде. «Africana». т. 12, Л., 1980.
МАНДИНГО - Bax: Малинке ←.
МАНИПУРСКИЙ ЯЗЫК - alm. Manipuri (n), ing. Manipuri language /manı:purı ˈl5ŋgwıʤ/, fr. langue manipourienne, azərb. manipur dili. – Tibet-birma dillərindən biridir. Hindistanın Manipur ştatında etniklərarası ünsiyyət dili. Bundan başqa, Hindistanın Assame, Tripure ştatlarında və Banqladeş dövlətində yayılmışdır. 750 min daşıyıcısı mövcuddur.
R.Shafer. İntroductionto Sino-Tibetan, pr. 1-5, Wiesbaden, 1966-74.
МАНКС – alm. Manx (n), ing. Manks /m5nks/, fr. langue manxes, azərb. manks dili. - Man adasında yayılmış, hazırda ölü kelt dillərindən hesab olunur. Bəzi mənbələrə görə bu dildə hazırda təqribən 10 nəfərə qədər insan danışır.
Bax: Кельтский язык ←.
G.F.Meier, B.Meier. Handbuch der Linguistik und der Kommunikationswissenschaft. Berlin, 1979, s. 87.
МАНСИЙСКИЙ ЯЗЫК - alm. Mansi (Vogulisch) (n), ing. Mansi language /m¾nsı: ˈl5ŋgwıʤ/, fr. mancien, azərb. mansi dili. – Ob-uqor dillərindən birdir. Ob çayının sol sahilində və Tümen və Ekaterinburq vilayətlərində yayılmışdır. Bu dildə danışanların sayı 6 min nəfərdir. Cümlə tərkibində mübtəda əvvələ, xəbər isə onun sonuna doğru meyl edir.
Е.И.Ромбандеева. Мансийский (вогульский) язык. М., 1973.
МАНЬЧЖУРСКИЙ ЯЗЫК - alm. Mandschusprache (f), ing. Manchuria language / m5nˈʧu(ə)rıə ˈl5ŋgwıʤ/, fr. langue mandchourienne, azərb. mançjur dili. – Tunqus-mancur dillərindən biridir. Çinin şimal-qərbində yayılmışdır. Dayışıcılarının sayını dəqiqləşdirmək mümkün olmamışdır. Çünki bu gün 4,5 milyondan yuxarı mancur öz ana dilindən uzaq düşmüş və öz aralarında ünsiyyət dili kimi çin dilindən istifadə edirlər.

downloaded from KitabYurdu.org

Б.К.Пашков. Маньчжурский язык. М., 1963.

МАНЬЧЖУРСКОЕ ПИСЬМО - alm. Mandschuschrift (f), ing. Manchuria writing /m5n'ʧu(ə)rıə 'raıtıŋ/, fr. écriture mandchourienne, azərb. mançjuriya yazısı. – Mancuriyalılar tərəfindən XVI əsrdə monqollardan götürülmüş yazı növü. Əslində bu yazı növü türk mənşəli uyqurlara məxsusdur.

MANCUR YAZISINDA İŞARƏLƏRİN CƏDVƏLİ

№ №	Sözdə hərflərin mövqeyi: əvvəldə	ortada	sonda	Səslənməsi	Qeydlər
1.				a	
2.				ä (ə)	
3.				i	
4.				j	
5.				o	
6.				u	
7.				u̇	№9-dan sonra mənasında
8.				n	Mütləq sonluqda və n' samitindən əvvəl
9.				q	№№9-11 – a, o, u saitləri arasında
10.			–	γ	
11.			–	x	
12.			–	k	№12 və №14 ä və i incə saitləri arasında
12a.				ku̇	№12 və №5 işarələr liqaturu
13.			–	g	
13a.				gu̇	№13 və №5 işarələr liqaturu
14.			–	x'	
14a.				xu̇	liqaturlar işarəsi №14 və №5
15.			–	k	№15-17 a qarşısında
15a.				ko	№15 və №5 işarələr liqaturu
16.			–	g	№16 və №5 işarələr liqaturu
16a.				go	
17.			–	x	
17a.				xo	№17 və №15 işarələr liqaturu

№ №	Sözdə hərflərin mövqeyi: əvvəldə	ortada	sonda	Səslənməsi	Qeydlər
18.				b	
19.			–	p	
20.				s	
21.				š	
22.				t	a, u, o, i-dən qabaq (sonra)
22a.			как и №22	t	ä, ü-dən qabaq (sonra)
23.			–	d	a, i, o-dan qabaq (sonra)
23a.		как и №23	–	d	ä, ü-dən qabaq (sonra)
24.				l	
25.				m	
26.			–	č	i, e-dən qabaq
27.			–	ǯ	i, =-dən qabaq
28.				r	
29.			–	f	a, ä-dən qabaq
30.			–	v f	a, ä-dan əvvəl v, digər saitlərlə – f
31.		как № 28	–	c	№31-37 – alınma sözlərdə əlavə işarələr
32.			–	ʒ	
33.		–	–	c	y-dən qabaq
34.		–	–	s	y-dən qabaq
35.			–	č	i-dən qabaq
36.			–	ǯ	i-dən qabaq
37.		–	–	ǐ	

Б.К.Пашков. Маньчжурский язык. М., 1963.

МАОРИ - alm. Maori (n), ing. Maori /'maʊrı/, fr. langue maorie, azərb. maori. – Polinez dillərindən biridir. Şərqi-polinez yarımqrupuna aiddir.

downloaded from KitabYurdu.org

Yeni Zelandiyada, əsasən Oklend yarımadasında və Plenti körfəzində yayılmışdır. Daşıyıcılarının sayı 290 min nəfərdir. Yazısı latın qrafikası əsasında tərtib olunmuşdur.
В.Крупа. Язык маори. М., 1967.
МАРАТИ – alm. Marathi (n), ing. maratha /m5ˈrə4ə/, fr. marati, azərb. marati. – Hindistanın Maharaşta ştatında və ona qonşu ştatlarda yayılmışdır. Vahid dil dezi dialekti əsasında formalaşmışdır. İlk yazılı mənbələri XI əsrə aiddir. Bu dildə 45 milyon əhali danışır.
G.F.Meier, B.Meier. Göstərilən əsər, s. 49.
МАРГИНАЛЬНЫЙ АРЕАЛ - alm. marginalisches Areal (n), ing. marginal area /ˈmaːʤɪnl ˈɛəriə/, fr. aire marginale, azərb. haşiyə arealı. - İzoqlosların (dilin yayılma sərhədlərini göstərən xəttlər) nisbətən zəıf və solğun olduğu areal (yayıldığı sahə).
О.С.Ахманова. Göstərilən əsər, s. 223.
МАРИЙСКИЕ ЯЗЫКИ - alm. Mari-Sprachen (Pl.), ing. Mari languages /ˈmɑːrɪ: ˈl5ŋgwɪʤɪz/, fr. langues mariennes, azərb. mari dilləri. – Şərqi-luqovo və dağlıq-mari dillərinin ümumi adı.
И.С.Галкин. Историческая грамматика марийского языка. ч. 1-2. Юшкар-Ола, 1964-66.
МАРИЙСКИЙ ЯЗЫК - alm. Mari (Č(tsch)eremisisch) (n), ing. Mari language /ˈmɑːrɪ: ˈl5ŋgwɪʤ/, fr. langue marienne, azərb. mari dili. – Fin-uqor dillərindən biridir. Mari muxtar vilayətində, Tatarıstan, Udmurtiya, Başqırd respublikalarında yayılmışdır. 540 min daşıyıcısı vardır. Türk dillərinin güclü təsirinə məruz qalsa da, mari dili fin-uqor dillərinə xas olan əlamətlərini də hifs edə bilmişdir.
Д.Е.Казанцев, Г.С.Патрушев. Современный марийский язык. Лексикология. Йошкар-Ола, 1972.
МАРКЕРЕЗА – alm. Markerese (f), ing. marker /ma:kə/, fr. indice, azərb. əlamət. – İnterpretativ və generativ semantikada mənanın təsviri üçün tətbiq edilən əlamətlər dilinin süni adı. Əslində markerez öz vəzifəsini yerinə yetirə bilmir, çünki onun özü süni dildir. Ona görə də mənanın təsviri sadəcə törəmə ilə mümkün deyildir və reallığa yönələn modellərdən ibarət olmalıdır.
D.Lewis. General semantics. «Synthese», 1970, 22, s. 18-67.
МАРКИРОВАННАЯ ТЕОРИЯ – alm. Markiertheitstheorie (f), ing. marker theory /ma:kə θɪərɪ/, fr. théorie d'indice, azərb. nişanlama nəzəriyyəsi. – Praqa dilçilik məktəbində qarşılaşma cütlərini müəyyən etmək üçün əlamətin olması (merkmalhaltig-nişanlı) və əlamətin olmaması (merkmallos-nişansız). Adlıq və təsirlik halları nəzərdən keçirəndə məlum olur ki, təsirlik nişanlı (çünki o hərəkətin aid olduğu obyektin olmasını bildirir), adlıq hal isə nişansızdır (çünki o hal bu cür obyekt bildirmir). Bundan başqa, nişansız vahidlər daha sadə ifadə vasitələrinə, daha çox işlənmə tezli-

downloaded from KitabYurdu.org

yinə, dünya dillərində daha tez-tez rast gəlinən və daha tez mənimsənilən və daha çox dəyişikliklərə məruz qalan əlamətlərə malikdir. Törəmə qrammatikasında dairəvi / qeyri-dairəvi qarşılaşmanın nişansız üzvü ön sıra saitləri üçün qeyri-dairəvidir, arxa sıra saitləri üçün isə dairəvidir. Belə ki, bu qaydaya görə /y/ dodaq və ön sıra saiti dodaq dairəvi /u/ saitinə nisbətən daha çox nişanlıdır. Bu zəmində fonoloji sistemləri, sözlərin işlənməsini əlamətlərə görə müqayisə edib dəyərləndirmək olar.

O.A.Tonic. Markedness in synchrony and diachrony. Berlin, 1989.

МАРКИРОВАННЫЙ (ОБОЗНАЧЕННЫЙ, ОТМЕЧЕННЫЙ, ПОЛОЖИТЕЛЬНЫЙ) - alm. merkmalhaltig, ing. marked /mɑ:kt/, fr. marqué, azərb. nişanlanmış, (işarələnmiş, qeyd olunmuş, müsbət). – Qarşılaşdırılan üzvlərdən əlaməti olana nişanlı / markalanmış üzv deyilir. Məs.: «cingiltili»-»kar», «burun»-»ağız», «dodaq»-»qeyri dodaq» oppozisiyalarında əlaməti olan üzvə nişanlı üzv deyilir.

N.S.Trubeskoy. Fonologiyanın əsasları. Almancadan tərcüməsi, «Son söz» və «Qeydlər» prof. F.Veysəllinindir, s. 287; F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 166.

МАРКОВСКИЙ ПРОЦЕСС (ПРОЦЕСС МАРКОВА) – alm. Markovprozeß (m), ing. markov process /ˈma:rkov ˈpraʊses/, fr. processus de Markov, azərb. Markov prosesi. – Rus riyaziyyatçısı A.A.Markovun (1856-1922) adı ilə bağlı olub, ehtimal nəzəriyyəsi qanunlarına söykənən metoddur. Onun əsas məğzi odur ki, hadisənin hazırkı vəziyyətindən çıxış edib onu gələcəkdə öncə görmək tam mümkündür. 1913-cü ildə A.A.Markov bu statistik öncəgörməni A.S. Puşkinin «Yevgeni Onegin» əsərinin təhlilinə tətbiq etdi, sait və samitlərin işlənməsi tezliyini müəyyənləşdirdi.

H.Bußmann. Göstərilən əsər, s. 469.

МАРРИЗМ – alm. Marrismus (m), ing. marrizm /ˈma:rız(ə)m/, fr. marrisme, azərb. marçılıq. – Sovet arxieoloqu və dilçisi N.Y.Marr (1865-1934) ötən əsrin 20-ci illərində yeni bir dil nəzəriyyəsi ortalığa atdı. O, dilin inkişafını iqtisadi münasibətlərin güzgüsü kimi təsəvvür edir, dili ictimai üstqurum hadisəsi kimi dəyərləndirirdi. Dilçiliyə «marrizm» kimi daxil olan bu nəzəriyyə tarixi materializmə söykənərək «yafəz nəzəriyyəsi» kimi adlanırdı. Bu nəzəriyyəyə görə, Qafqaz dili Avropa dillərinin ulu dilidir. Sonralar bu nəzəriyyə kəskin tənqid atəşinə tutularaq rədd edildi. H.Y.Marrın «dil istehsal alətidir» ideyasını kəskin tənqid edən A.A.Reformatskiy (1900-1978) yazırdı: «İstehsal alətlərinin (balta, kotan, kombayn və s.) konstruksiyası və quruluşu varsa, dilin isə strukturu və sistemli təşkili var».

A.A.Реформатский. Введение в языковедение. M., 1967, s. 21-26.

МАСАИ - alm. Masai (n), ing. maasai /mɑ:saı/, fr. langue massaïe, azərb. masai dili. – Nilot dillərindən biridir. Tanzaniyada və onunla həmsərhədd olan Keniyanın bəzi bölgələrində yayılmışdır. 700 min dayışıyıcısı məlum-

downloaded from KitabYurdu.org

dur. Üç dialektə bölünür: masai, sampur və tiamus. Etniklərarası ünsiyyət dilidir.
G.F.Meier, B.Meier. Handbuch der Linguistik und Sprachwissenschaft. Berlin, 1979, s. 223.

МАСКУЛИНУМ – alm. Maskulinum (n), ing. masculine /məskjuˈlın/, fr. masculiu, azərb. kişi cinsi. - Bəzi dillərdə isimlərin bir hissəsinə aid olan cins kateqoriyası. Alm. d. /der Vater, Sohn, Bruder, Musiker, Apotheker (ata, oğul, qardaş, musiqiçi kişi, aptekçi kişi)/ və s. çıxmaq şərtilə isimlərin qrammatik cinsi ilə təbii cins olduqca fərqlidir. Bəzən cinsin öz şəkilçisi olur. Məs.: alm. d. /-er, -ling/ kişi cinsini bildirir. Müq. et: /Lehrer/ (müəllim), /Frühling/ (yaz). Alm. d. fəsil adları, ay, gün, qütblər, minerallar, spirtli içkilər, dağlar, kişi cinsinə aiddir. Cins kateqoriyası hər dildə spesifikdir. Məs.: alm. d. /die Stadt/ «səhər» qadın cinsinə, rus dilində isə /город/ kişi cinsinə aiddir. Azərb. d. cins kateqoriyası yoxdur, ingilis dilində isə cins yalnız III şəxsin təkində fərqlənir.
H.Bußmann. Göstərilən əsər, s. 472.

МАССИРОВАНИЕ АФФИКСОВ - alm. Affixhäufung (f), ing. massing of affixes /ˈm5sıŋ əv 5fıks/, fr. concentration des affixes, azərb. şəkilçilərin cəmləşməsi. - Aqqlütinativ dillərdə bir neçə şəkilçinin xətti ardıcıllıqla düzülməsi. Məs.: Azərb. d. /kitablarımızdan, oxucularımızdan/ və s.
M.Hüseynzadə. Göstərilən əsər.

МАССОВАЯ КОММУНИКАЦИЯ - alm. Massenkommunikation (f), ing. the mass communication (media) /1ə m5s kˌəmju:nıˈkeıʃən /ˈmi:dıə/, fr. communication de masse, azərb. kütləvi kommunikasiya, rabitə. - Bu termin son dərəcə geniş yayılmış və insanların həyatının müxtəlif sahələrini əhatə edən sözdür. Kütləvi kommunikasiyanın əsas vasitələri mətbuat, radio, səsli kino, televiziya və s-dir. Burada nəzərə çarpan xüsusiyyətlər bunlardır: a) ictimaiyyət nümayəndələrilə informasiyanı hazırlayanlar və çatdıranlar, habelə idarə edənlər arasında məsafə; b) danışanla dinləyənlərin rollarının assimmetrik paylanması. Bu axırıncı ünsiyyət iştirakçıları arasında birbaşa anlaşmanı istisna edir. Kütləvi ünsiyyət bir neçə elm sahəsinin – sosiologiyanın, fəlsəfənin, informasiya nəzəriyyəsinin, politologiyanın və s. obyektidir.
H.Bußmann. Göstərilən əsər, s. 472.

МАТАКО-МАКА ЯЗЫКИ - alm. Matako-Maka-Sprachen (Pl.), ing. Mataco-Maca languages /mat6ʊko-mα:kα: ˈl5ŋgwıʤız/, fr. langues mataco-macas, azərb. matako-maka dilləri. – Əsasən Argentina və Paraqvay dövlətlərinin ərazisində yayılmışdır. Bu dillərdə danışanların sayı 35 minə qədərdir. Maka, lenqua, nokten, matako, mataquayo, aşuşlay və s. dilləri matako-maka dillərinə daxildirlər. Bəsit saitlər yarımsisteminə malikdirlər. Məs.: matako dilinin fonoloji sistemi 6 sait (/i/, /e/, /a/, /u/, /o/, /ä/) və 21 samit fonemdən ibarətdir. Aqqlütinativ quruluşlu dildir. Sözdəyişmə zəif inkişaf etmişdir. Hallanma yoxdur.

downloaded from KitabYurdu.org

R.J.Hunt, B.A.Tompkins. Matako grammar. Tucuman, 1940.

МАТЕМАТИЧЕСКАЯ ЛИНГВИСТИКА – alm. mathematische Linguistik (f), ing. mathematical linguistics /ˌm5θˈm5tık(ə)l ˈlıŋgwıstıks/, fr. linguistique de mathématiques, azərb. riyazi dilçilik. – Dilin sistem və struktur xüsusiyyətlərini müxtəlif riyazi üsul və metodlarla öyrənən sahə. Elektron hesablama maşınları və kompüter tətbiqi ilə riyazi dilçilik son zamanlar geniş inkişaf edib. Statistik linqvistika buna misal ola bilər. Riyazi dilçilik dinləyici marağını az nəzərə alır və ya heç nəzərə almır. Ona görə də kütləvi ünsiyyət problemlərilə bir neçə elm sahəsi məşğul olur.

F.Kifer. Mathematical Linguistics in Eastern Europe. N.-York, 1968.

МАТЕРИАЛИСТИЧЕСКАЯ ТЕОРИЯ ЯЗЫКА – alm. materialistische Sprachtheorie (f), ing. materialistic theory language /məˌtıərıəˈlıstık ˈθıərı ˈl5ŋgwıʤ/, fr. théorie materialiste de la langue, azərb. materialist dil nəzəriyyəsi. – Dialektik və tarixi materializmə əsaslanaraq dilin ilkin funksiyasını fəhlə sinfinin ictimai fəaliyyətindən doğan inkişafda və ona xidmətdə görən nəzəriyyə.

H.Bußmann. Göstərilən əsər, s. 473.

МАТЕРИАЛЬНАЯ ПРИНАДЛЕЖНОСТЬ - alm. materielle Zugehörigkeit (f), ing. the material part of a word /1ə məˈtıərıəl pα:t əv əˈwə:d/, fr. appartenance matérielle, azərb. maddi mənsubiyyət. - Maddi mənsubiyyət söz mənasının əşyaviliklə bağlı olduğuna əsaslanır.

H.Bußmann. Göstərilən əsər, s. 473.

МАТЕРИАЛЬНОЕ ЗНАЧЕНИЕ - alm. materielle Bedeutung (f), ing. material meaning /məˈtıərıəl mı:nıŋ/, fr. sens matériel, azərb. əşyavi məna. - Sözün formal qrammatik hissəsindən fərqli olaraq, əsas (əşyavi) hissəsinin ifadə etdiyi məna. Məs.: Azərb. d. /dəmir – çi/, /dəmir – lər/ və s.

О.С.Ахманова. Göstərilən əsər, s. 224.

МАТЕРИАЛЬНЫЕ МОРФЕМЫ - alm. materielle Morpheme (Pl.), ing. material morpheme /məˈtıərıəl ˈmɔ:fi:m/, fr. morphèmes matérielles, azərb. maddi morfemlər. – Sözdüzəldici və sözdəyişdirici funksiya yerinə yetirən və konkret fonetik biçimdə çıxış edən morfemlər. Məs.: Azərb.d. /daş,-daş-la, daş-lar, baş- baş-çı/ və s.

Ю.С.Маслов. Göstərilən əsər.

МАТРОНИМ - alm. Matronym (n), ing. matronym(ic) /ˈmeıtrənəm/ık/, fr. matronyme, azərb. matronim. - Ana adından törənmiş şəxsi adı. Adətən (patronim) ata adından törənmiş adlara qarşı qoyulur. Məs.: Azərb. d. /Sarıköynək oğlu/, /Ziyafətuşağı/ və s.

M.İ.Adilov və b. Göstərilən əsər, s. 154.

МАТРИЦА – alm. Matrix (f), ing. matrix /ˈmeıtrıks/, fr. matrice, azərb. matrisa. – Coğrafiyadan götrülmüş fonoloji, sintaktik və semantik vahidlərin müəyyən əlamətlər əsasında ikicəhətli cədvəl şəklində təsviri. Nümunə kimi fonemlərin dixotomik əlamətlərə görə təsvirini göstərmək olar.

Bax: Дихотомическая классификация ← .

downloaded from KitabYurdu.org

МАШИННЫЙ ПЕРЕВОД - alm. (maschinelle) automatische Übersetzung (f), ing. machine translation /məˈʃiːn trænsˈleɪʃən/, fr. traduction automatique, azərb. maşınla tərcümə. - Elektron maşınların köməyilə proqram əsasında mətnin bir dildən digər dilə avtomatik tərcüməsi. Maşınla tərcümə proqramları leksik, qrammatik, bəzən də ensiklopedik bilik bazalarına malik olur. Maşınla tərcümə 3 komponentdən ibarətdir: a) etimon dilin ing.-Parsingin köməyilə təhlili; b) transfer-etimon dildən başqa dilə məlumatın ötürülməsi; c) sintez, tərcümə olunan dildə məlumatın formalaşması. Bəzən bir neçə dilə tərcümə ediləndə materialı ilkin dildən ortaq dilə çevirmək, sonra o dillərdə vermək daha səmərəli olur. Maşınla tərcüməyə əngəl törədən çoxmənalılıq müxtəlif dillərdə müxtəlif qrammatik strukturların olmasıdır. Ancaq hələlik maşınla tərcümənin insan amilinə ehtiyacı böyükdür. Burada maşını işlədən kadırların da işlənib hazırlanması vacibdir.

H.Bußmann. Göstərilən əsər, s. 470-471; F.Veysəlli. SDƏ, s. 286-289.

МАЯ ЯЗЫКИ – alm. Maya-Sprachen (Pl.), ing. maya languages /ˈmɒɪ(j)ə ˈmeɪ(jə) ˈl¾ŋgwɪʤɪz/, fr. langues maïas, azərb. maya dilləri. - Orta Amerikada 28 dili əhatə edən və 4 qrupa bölünən dil ailəsi: huartek, yukatek, qərbi maya, şərqi maya dilləri. Bunlardan ən böyüyü kviçe və açidir (0,7 milyon), mam, kakçikvel və kekçi (hər birində 0,4 milyon adam danışır). Qvatemalada və Yukatanda yukatek (0,6 milyon) adam danışır. Şimalda huastek dilindən başqa bu dillər areal qapalı dil təşkil edərək Şimali Amerikada penute dillərilə makro-penute dillərini əmələ gətirir. Bunlardan ən çox tədqiq olunanı Qvatemalada yukatek (20.000) və Meksikada tseltal (0,1 milyon) dilləridir. Əsas xüsusiyyətləri: nisbətən zəngin samit sistemi (xirtdəkdə partlayışlı əlamətlərlə yaranan və afrikatlar), sadə sait sistemi. Fel erqativ konstruksiya əsasında mübtəda və tamamlıqla uzlaşır. Təsirsiz feli cümlənin mübtədası, təsirli feli cümlənin tamamlığı olur. Possesiv cümlə konstruksiyalarında söz sırası XMT və ya XTM-dir. Özlərinin yazı sistemi var (fonetik - ideoqrafik), XVI əsərdən yazısı var, ilk abidələrindən biri Popol Vuh (məsləhət kitabı) məlumdur.

G.F.Meier, B.Meier. Handbuch der Linguistik und der Kommunikationswissenschaft. Berlin, 1979, s. 396.

МАЦАКА – Вах: Отомангские язык →.

МАЮСКУЛА - alm. Majuskel (f), ing. majuscules /ˈmɔʤəskjuls/, fr. majuscules, azərb. hərfin böyük yazılışı. – Hərflərin böyük və kiçik yazılması. Yunan, latın və kiril əlifbalarında böyük və kiçik hərflərin yanaşı yazılmasından ibarətdir. Yalnız «β» hərfinin böyük forması yoxdur. Dillərin əksəriyyətində xüsusi isimlər böyük hərflərlə yazılır. İng. d. «I» (mən) və başlıqlarda birinci hərflər böyük yazılır. Alm. d. bütün isimlər böyük hərflə yazılır.

H.Bußmann. Göstərilən əsər, s. 466.

downloaded from KitabYurdu.org

МГНОВЕННЫЙ - alm. momentan, ing. momentary /ˈmoumənterı/, fr. momentanée, azərb. ani. – Danışıq cihazında kipləşmə yaranan yerdə hava axınının güclü təsirilə partlayış olur və bu zaman məxrəcləşmə yerindən asılı olaraq /p/, /t/, /k/ samitlərindən biri yaranır. Partlayış xirtdəkdə də olur. Bu gürcü samitlərində /pᶜ/, /tᶜ/, /kᶜ/ müşahidə olunur.
Л.Р.Зиндер. Общая фонетика. М., 1979.

МЕГРЕЛЬСКИЙ ЯЗЫК (МИНГРЕЛЬСКИЙ) – alm. Mingrelisch (Margali) (n), ing. Meqrel language (mingrelian) /ˈmıgrel ˈl¾ŋgwıʤ/mı:ŋrelıən/, fr. langue mégrèle, azərb. meqrel dili. – Kartvel dillərindən biridir. Gürcüstanın qərbində yayılmışdır. 400 minə qədər daşıyıcısı vardır. İki dialektə bölünür: senak və samurzakan-zuqdid. Hallanma paradiqmində 9 hal mövcuddur. Nominativ quruluşlu dildir. Yazısız dildir.
С.М.Жгенти. Фонетика чанско-мегрельского языка. Тбилиси, 1953.

МЕДИАТИВ - alm. Mediativus (m), ing. mediative /ˈmedıətiv/, fr. médiatif, azərb. vasitə alət (mediativ). - Əmək alətləri mənası ifadə edən kateqoriyal hal forması. Məs.: rus d. /резать ножом/; Azərb. d. /qılıncla vurmaq/ və s. Bask dilində bu ayrıca bir haldır.
R.Conrad. Göstərilən əsər, s.164.

МЕДИА – Bax: Тенус →.

МЕДИАЛЬНЫЕ ГЛАГОЛЫ – alm. mediale Verben (Pl.), ing. medial verbs /ˈmi:djəl və:bz/, fr. verbes médiaux, azərb. orta (medial) fellər. – a) Buraya məchul növdə və modal sözlərlə işlənə bilməyən fellər aiddir. Məs.: alm. d. /ähneln (oxşamaq), /kosten/ (dəyəri olmaq), /meinen/ (fikirində olmaq), /passen/ (uyğun gəlmək, yaraşmaq), /wiegen/ (çəkmək)/ və s. kimi fellər aiddir. Müq. et: /Dieses Buch kostet viel Geld// (bu kitabın qiyməti bahadır), ancaq /von diesem Buch wird viel Geld gekostet// (demək olmaz); b) Bəzən qayıdış feli kimi işlənənlər də var. Məs.: alm. d. /Die Tür öffnet sich// (qapı açılır) və s.
H.Bußmann. Göstərilən əsər, s. 475.

МЕДИУМ - alm. Medium (n), ing. medium /ˈmi:djəm/, fr. médium, azərb. orta növ. – Bəzən bunu mediopassiv (orta passiv) də adlandırırlar. Sanskrit və qədim yunan dilində məlum və məchul növ arasındakı fel növü. Semantik mənada bu qayıdış fellərinə oxşayır, çünki subyektin hərəkəti ya onun özünə qayıdır, ya da onu maraqlar çərçivəsində həyata keçirir. Məs.: qədim yunan dilində /lo'uo/ (mən yuyuram), ancaq /lou'omai/ (mən yuyunuram), /dida'sko/ (mən öyrənirəm), ancaq /dida'skomai/ (mən özümü öyrətdirirəm), bu da q/məchul mənaya yaxınlaşır.
R.Conrad. Göstərilən əsər, s. 164.

МЕЖДОМЕТИЕ - alm. Interjektion (f), ing. interjection /ˌıntə(:)ˈʤekʃ(ə)n/, fr. interjection, azərb. nida. - Xüsusi qrammatik göstəricilərdən məhrum olan və xüsusi ekspressiv - semantik mənalar, hiss və iradə ifadə edərək dəyişməyən sözlər sinfidir. İnsan hisslərini bilavasitə

downloaded from KitabYurdu.org

ifadə edən qrammatik əlamətlərdən məhrum xüsusi nitq hissəsidir. Məs; /ah!, oh!, ax!, uff!/. Əsas nitq hissələrindən fərqli olaraq nidalar nominativ (adlandırma) funksiyasına malik deyildir. Köməkçi nitq hissələrindən fərqli olaraq, nidalar cümlədə sözlər arasında əlaqə bildirmir, onların bir-birinə bağlanmasına kömək etmir, cümləyə əlavə məna çaları vermir. Öz əsas funksiyasında işləndikdə nida, adətən, cümlə üzvü olmur və cümlə üzvləri ilə sintaktik cəhətdən bağlanmır. Məs.: Azərb. d. /Ura!/ /İnşallah!/ və s.
M.Hüseynzadə. Göstərilən əsər, s. 286-290; К.Гаждиев. Междометие в азербайджанском языке. Автореф. канд. дисс. , Баку, 1973.

МЕЖДОМЕТИЕ ВОКАТИВНОЕ - alm. vokative Interjektion (f), ing. vocativ interjection /ˈvɔkətɪv ˌɪntə(:)ˈʤekʃ(ə)n/, fr. interjection vocative, azərb. vokativ nida. - Öz formasına görə ismin cağırış (müraciət) formasına, yaxud çaığrış (vokativ) söz birləşmələrinə uyğun gələn nida. Məs.: Azərb. d. /ilahi! aman allah!/ və s.
M.Hüseynzadə. Göstərilən əsər, s. 286-290.

МЕЖДОМЕТИЕ ГЛАГОЛЬНОЕ – alm. Verbinterjektion (f), ing. verbal interjection /ˈvə:bl ˌɪntə(:)ˈʤekʃ(ə)n/, fr. interjection verbale, azərb. feli nida. - Öz formasına görə təqlidi sözlərə və nidalara oxşayan, cümlədə xəbər funksiyasında çıxış edən, keçmişdə ani şəkildə baş vermiş olay və hərəkəti bildirən və təsriflənməyən sözlər. Məs.: Azərb. d. /tap, tup, tarap/. Adətən bunlara /etmək/, /eləmək/ felləri qoşulur.
M.Hüseynzadə. Göstərilən əsər, s. 286-290.

МЕЖДОМЕТИЕ ИМПЕРАТИВНОЕ - alm. imperative Interjektion (f), ing. imperative interjection /ɪmˈperətɪv ˌɪntə(:)ˈʤekʃ(ə)n/ , fr. interjection impérative, azərb. əmr nidası. - Əmr, nida ifadə edən feli sözlərin xüsusi cərgəsi. Belə sözlər adətən insanın istək və arzularını özündə əks etdirir. Məs.: Azərb. d. /diqqət!/, /fərəqət!/, /marş!/; fr. d. /entrez!/, /parlez!/; alm. d. /Achtung/; ing. d. /attantion/ və s.
M.Hüseynzadə. Göstərilən əsər, s. 286-290; H.Glinz. Göstərilən əsər.

МЕЖДОМЕТИЕ ЭМОЦИОНАЛЬНОЕ - alm. emotionelle Interjektion (f), ing. emotional interjection /ɪˈmouʃənl ˌɪntə(:)ˈʤekʃ(ə)n/, fr. interjection émotionnelle, azərb. emosional nida. - İnsanın hisslərini müstəqim tərzdə özündə əks etdirən, qeyri-iradi şəkildə tələffüz edilən səslər. Məs.: Azərb. d. /Ox! uf! aha! eh!/ və s.
M.Hüseynzadə. Göstərilən əsər, s. 286-290.

МЕЖДОМЕТИЕ ПЕРВИЧНОЕ (НЕПРОИЗВОДНОЕ) - alm. ursprüngliche Interjektion (f), ing. primary interjection /ˈpraɪmərɪ ˌɪntə(:)ˈʤekʃ(ə)n/, fr. interjection primaire, azərb. ilkin nida. - Mənşəyinə görə əsas nitq hissələrinə aidiyyatı olmayan, daxilən üzvlənməyən (üzvlərə parçalanmayan), emosional və iradi ifadənin qrammatik cəhətdən formalaşmış, adətən, təkrarlanan nida növü. Məs.: Azərb. d. /Pəh-pəh-pəh, eh-eh/ və s.

downloaded from KitabYurdu.org

M.Hüseynzadə. Göstərilən əsər, s. 286-290.

МЕЖДОМЕТИЕ ВТОРИЧНОЕ - alm. abgeleitete Interjektion (f), ing. secondary interjection /ˈsek5ndərı ˌıntə(:)ˈʤekʃ(ə)n/, fr. interjection secondaire, azərb. törəmə nida. - Mənşəcə əsas nitq hissələrinin öz nominativ funksiyalarından məhrum olması və xüsusi emosional çalarlıq kəsb etməsi nəticəsində meydana çıxan nidalar. Məs.: Azərb. d. /sağ ol!, əlvida!, əl çək!/ və s.

M.Hüseynzadə. Göstərilən əsər, s. 286-290.

МЕЖДОМЕТНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. Interjektionssatz (m), ing. interjectional sentence /ˌıntə(:)ˈʤekʃ(ə)nl ˈsentəns/, fr. proposition interjectionelle, azərb. nida cümləsi. – 1) Təkcə nidadan ibarət olan və ya nida funksiyasında çıxış edən sözdən ibarət cümlə; 2) Xəbəri (təktərkibli cümlələrdə isə baş üzvü) nidadan ibarət olan cümlə. Məs.: Azərb. d. /Yetər! Bəsdir!/

M.Hüseynzadə. Göstərilən əsər, s. 286-290.

МЕЖДОМЕТНАЯ ТЕОРИЯ – alm. Interjektionstheorie (f), ing. interjection theory /ˌıntə(:)ˈʤekʃ(ə)n ˈ49ər9/, fr. théorie d'interjection, azərb. nida nəzəriyyəsi. - Nida nəzəriyyəsi dilin yaranmasını insanın keçirdiyi hiss və həyəcanlarla, yaşantılarla izah etməyə cəhd göstərir. Bu nəzəriyyəyə görə, ilk sözlər qeyri-iradi qışqırtılar, nidalar və reflekslər olmuşdur. İnsanlar ağrı və sevinclərini, qorxu və aclığını emosional tərzdə ifadə edirdilər. İnkişafın sonrakı mərhələlərində bu qışqırtılar müəyyən cəmiyyətin bütün üzvləri üçün rəmzi mənalar kəsb etməyə başladı.

A.Axundov. Ümumi dilçilik. Bakı, 1988, s. 8-24.

МЕЖДУНАРОДНЫЙ - alm. international, ing. international /ˌıntə(:)ˈn5ʃn(ə)l/, fr. international, azərb. beynəlxalq. - Milli dil çərçivəsinə sığmayan, bir sıra dillər üçün ümumi olan sözlər. Məs.: Azərb. d. /kosmos/, /respublika/ və s.

P.H.Matthews. Göstərilən əsər, s. 183.

МЕЖЗУБНЫЙ - alm. interdental, ing. interdental /ˌıntəˈdentl/, fr. interdental, azərb. dişarası. – Dilin ucunun üst dişlərin ucuna toxunması zamanı əmələ gələn novlu samitlər. Adətən bura ing. və türkmən dillərində /4/, /1/ samitlərini aid edirlər.

Л.Р.Зиндер. Общая фонетика. М., 1979; D.Jones. The Pronountion of Englisch. Cambridge, 1988, s. 25.

МЕЖЗУБНЫЕ СОГЛАСНЫЕ – Bax: Межзубный ←.

МЕЗОЗЕВГМА - alm. Mesozeugma (n), ing. mesozeugma /ˈmes6ˈzjuɡmə/, fr. mesozeugme, azərb. mezozevqma. - Müştərək üzvün birinci və axırıncı cümlədə deyil, yalnız orta cümlədə yerləşdirilməsi. Məs.: Azərb. d. /Anar və Həsən məktəbə getdilər, Fərid isə kitabxanaya//.

O.C.Ахманова. Göstərilən əsər, s. 226.

downloaded from KitabYurdu.org

МЕЙОЗИС - alm. Meiosismus (m), ing. meiosis /mʌɪˈəusɪs/, fr. méosis, azərb. meyozis. - Hər hansı bir xüsusiyyət və keyfiyyətin bilərəkdən kiçildilməsindən ibarət olan danışıq üsulu. Məs.: Azərb. d. /Tədbirə çox adam gəlməmişdi/ (az adam əvəzinə).
O.C.Ахманова. Göstərilən əsər, s. 226.

МЕКЛЕНБУРГСКИЙ-ФОРПОМЕРАНСКИЙ ЯЗЫК - alm. Mecklenburg-Vorpommeranisch (n), ing. Mecklenburg-forpomeranian language /ˈmeklənbəːɡ ˈfɔːˌpɔməˈreɪnjən ˈlɪŋɡwɪʤ/, fr. langue méclenbourgeoise-forpomérane, azərb. meklenburq-forpomeran dili. – Şimali aşağı alman dialektləri birliyi. Lübik və Pomeran buxtası arasında yayılıb. Əsas əlamətləri: a) /e:, *ϕ*:, o:/ uzun saitlərinin /*r*/ qarşısında /i:, γ:, u:/ saitlərinə çevrilməsi (müq. et: /i: a/ (namus), /u: a/ (qulaq), /hy:an/ (eşitmək); b) orta dövr alman /ei/ diftonqunun /e:/ şəklində monoftonqlaşması (müq. et: /de:t/ (edir); c) /-ing/ kiçiltmə suffiksinin işlənməsi.
H.Bußmann. Göstərilən əsər, s. 475.

МЕЛИОРАТИВНЫЙ - alm. meliorativ, ing. meliorative /ˈmi:ljərəɪtɪv/, fr. mélioratif, azərb. meliorativ. - Sözə müsbət ekspressiv-emosional çalara malik olan və ya buna oxşar məna verən.
O.C.Ахманова. Göstərilən əsər, s. 226.

МЕЛОДИЧЕСКОЕ УДАРЕНИЕ - alm. melodische Betonung (f), ing. melodic stress /mɪ'l6dɪk stres/, pitch stress /pɪ:ʧ stres/, tonic accent /toʊnɪk ˈ5ksənt/, fr. accent mélodique, azərb. melodik vurğu. – Əsas səs tonunun iştirakı ilə fərqlənən vurğu. Bu vurğu növü əsasən koreya, yapon, isveç, çin və s. dillərə xasdır.
F.Yadigar (Veysəlli). GDG, s. 258-265.

МЕЛОДИЯ - alm. Melodie (f), Tonverlauf (m), ing. melody /ˈmelədɪ/, tune /ˌtju:n/, fr. mélodie, azərb. melodiya (avaz, ahəng). - İfadənin tələffüzü zamanı səs tellərinin müxtəlif dərəcədə titrəməsindən əmələ gələn əsas tonun mütəmadi olaraq qalxıb enməsi və ya əks istiqamətdə hərəkəti. Avropa dilçiliyində, təəssüf ki, melodiya ilə intonasiya eyniləşdirilir, halbuki melodiya intonasiyanın tərkib hissəsidir. Melodiya və ya əsas tonun tezliyi 3 mühüm məsələnin izahını tələb edir.
1. Səs tonunun tezliyi, melodiya döş qəfəsinin sıxılmasından yaranan hava təzyiqinin nəticəsində xirtdəkdə yerləşən iki elastik üzvün (elmi ədəbiyyatda səs telləri adlanır) hərəkətə gəlməsi nəticəsində dalğalar yaranır. Bu titrəmələr periodik və qeyri-periodik olur. Bax:



downloaded from KitabYurdu.org

Bütövlükdə səs tellərinin titrəməsi əsas tonun, onların ayrı-ayrı hissələrinin titrəməsindən isə yüksək və ya partsial tonun (alm. d. Oberton) yaranmasına səbəb olur və F-lə işarə edilir. Əgər ab cismini şərti olaraq iki yerə bölsək, onda bu iki hissənin hər birinin /ac/ və /cb/-nin titrəmə tezliyi iki dəfə ab-dən yüksək olacaq, 3 yerə bölsək üç dəfə yüksək olacaq və s. Səs tellərinin titrəməsi müəyyən zaman daxilində (t) baş verir: a, b. Digər tərəfdən, səsin gücü səs tellərinə təzyiqin gərginliyindən asılı olaraq güclü və zəif olur (f). Deməli, fizioloji baxımdan səsin əsas tonunun tezliyi (f), onun intensivliyi (i) və zamanı (t), nəfəsvermə zamanı ciyərlərdən gələn hava axınının təzyiqi isə xirtdəkdəki səs tellərinin titrəməsi vəziyyətindən asılıdır. Səs telləri arasında səs cığırı var, o da 5 vəziyyətdə olur;
2) Əsas tonun tezliyi fiziki hadisə kimi akustika bölməsində öyrənilir. Bu zaman əsas tonun tezliyi, onun dinamikası, yəni intensivliyi və tempi əsas parametrlər hesab olunur. Onları ölçərək hesablamaq eksperimental fonetikanın tədqiqat metodlarına aiddir;
3) Əsas tonun tezliyi dinləmə baxımından melodiya kimi götürülür. Ancaq linqvistik baxmdan bu müəyyən zaman daxilində əsas tonun müxtəlif şəkildə hərəkəti (qalxan↺, enən ↷, qalxıb - enən ↺↷ və enib – qalxan ↷↺) intonasiyanın koponentlərindən biri kimi ünsiyyətdə mühüm rol oynayır. Məs.: Azərb. d. /diş həkiminə deyirik: ↺ /ağrıdır (dözə bilmirəm)/; ↷ / ağrıdır/, (bilirəm), /..↷ / ağrıdır // (amma dözmək olar), /˙.. ↷ /ağrıdır/ (elə də olmalıdır). Göründüyü kimi, biz burada tonun hərəkətinin dörd növünü göstərdik. Onlar dildən-dilə müxtəlif olur. Məs.: Azərb. d. suallıq daha çox temporal komponentin iştirakı ilə ifadə olunur.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 309-314.

МЕНТАЛИЗМ - alm. Mentalismus (m), ing. mentalism /men′t5lism/, fr. mentalisme, azərb. mentalizm. – N.Xomski tərəfindən Dekartın rasionalizminə əsaslanaraq işlənib hazırlanmış psixoloji-filoloji konsepsiya. Bu cərəyan dili anadangəlmə bacarıq hesab edir. Bununla da N.Xomski amerikan strukturalizmində kök salmış empirizmə və əsasən də biheyvioriz mə (davranış nəzəriyyəsinə) qarşı çıxır. Həm empirik, həm də davranış nəzəriyyəsi yalnız müşahidə olunan dil faktlarını tədqiqat obyekti kimi götürürlər. Psixi cəhətdən qavranılan və fiziki cəhətdən ölçülə bilən faktların dildə təsviri yalnız üst qatda mümkündür. N.Xomski burada iki məsələni ayırır: 1) o, qrammatik təhlildə alt qat strukturundan çıxış edir; 2) dili mənimsəmənin və dil sərişt əsinin (competence) anadangəlmə (universal) mexanızm olduğunu əsas götürür. Buna əsas olaraq N.Xomski aşağıdakıları misal gətirir: a) uşaq öz dilinin qrammatikasını 3-5 ildə tam mənimsəyir; b) öyrənilən dilin qrammatikasının tamlığı; c) inputla (sosial şəraitin təqdim etdiyi, qismən naqis dil faktları) output (bu faktlardan düzələn qrammatika) arasındakı uyğunsuzluq; ç) bütün dillərdə prosesin eyni cür getməsi; d) prosesin fərdi qabiliyyətdən asılı olmaması. Bütün bunlar dil

downloaded from KitabYurdu.org

bilgisi mexanizmini adekvat şəkildə izah etməyə əsas verir. Anadangəlmə olan dil bilgisi psixi cəhətdən verilmiş əsas strukturun təcrübi və yetkinləşmə yolu ilə dil səriştəsi strukturuna əsaslanır. Bu baxımdan transformasiyon (generativ) qrammatika dili mənimsəmə prosesini və onu yaradıcılıqla tətbiq etmə aspektini danışanın sayı məlum olmayan cümlələr düzəltmək qabiliyyəti ilə izah edir.
N.Chomsky. Dil və təfəkkür. 1968-ci il ingilis nəşrindən tərcüməsi, f.e.d. A.Məmmədovun, redaktəsi və qeydlər prof. F.Veysəllinindir. Bakı, 2006.

МЕРОИТСКИЙ ЯЗЫК – alm. Meroitisch (n), ing. meroitic language /meɪ'r6tɪk 'l¾ŋgwɪʤ/, fr. langue méroïte, azərb. meroit dili. - Nil çayının vadisində yayılmış, hazırda ölü dillər cərgəsinə aid olan dil. Genealoji mənsubiyyəti məlum deyildir.
Ю.Н.Заводский, И.С.Кацнельсон. Мероитский язык. М., 1980.

МЁРТВЫЙ - alm. tot, ing. dead /ded/, fr. mort, azərb. ölü dil. – Canlı danışıqda istifadə olunmayan dil. Məs.: latın dili, sanskrit dili.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 72-75.

МЕССАПСКИЙ ЯЗЫК – alm. Messapisch (n), ing. Messapi language /mesα:pɪ 'l5ŋgwɪʤ/, fr. langue messape, azərb. messap dili. – Hind-Avropa dillərinin Balkan qrupuna aid dillərdəndir. Alban dilinə daha yaxındır. Daşıyıcılarının sayı dəqiq məlum deyildir.
В.П.Нерознак. Палеобалканские языки. М., 1978.

МЕСТНЫЙ - alm. lokal, ing. local /'ləʊkəl/, fr. locatif, local, azərb. yerli. - Əşya və ya predmetin yerləşdiyi yeri göstərən. Azərbaycan dilində belə bir hal var. Ancaq Hind-Avropa dillərində bu məna əsasən sözönü vasitəsilə verilir. Məs.: ing. d. /from Baku/ (Bakıdan); alm. d. /aus Baku/ (Bakıdan); rus d. /из Баку/ və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 227.

МЕСТО ОБРАЗОВАНИЯ - alm. Artikulationsstelle (f), ing. place (point) of articulation /pleɪs /p6ɪnt/əv α:ˌtɪkju'leɪʃən/, fr. point, lieu d'articulation, azərb. əmələ gəlmə yeri. - Müəyyən səsi tələffüz etmək üçün danışıq üzvlərinin mərkəzləşmə yeri. Bir sıra fonetika məktəbləri dil səslərinin bölgüsündə elmi cəhətdən düzgün olmayan prinsipi, yəni tələffüz yerini də nəzərə alırlar. Məs.: A.A.Реформатский. Göstərilən əsər, s. 175-187, 204-207. Şerba məktəbi isə İ.A.Boduen de Kurtenedən sonra samitləri mərkəzləşməsi olan səslər kimi mərkəzləşmə yaratmayan saitlərdən fərqləndirir. Beləliklə, Şerba məktəbi səslərin təsnifində fəal üzvləri, əmələ gəlmə üsulunu və səs tellərinin iştirakını əsas götürür.
F.Veysəlli. SDƏ, s. 127-129.

МЕСТОИМЕНИЕ - alm. Pronomen (n), Fürwort (n), ing. pronoun /'pərunaun/, fr. pronom, azərb. əvəzlik. – Əşya, predmet, şəxsi və ya onların təmsilçilərini işarə, əvəz, təyin və s. etməklə bildirən sözlər. Əvəzlik əşyanı, onun əlamətini və sırasını göstərir. «Mən» danışandır, «Sən» müraciət

downloaded from KitabYurdu.org

olunandır, «O» haqqında danışılandır. «Bu» danışanın yaxınlığında mövcud olandır. «O» danışandan uzaqda olandır. Əvəzliklər cümlədə müxtəlif sintaktik funksiyalarda çıxış edir. Semantik cəhətdən şəxs, qayıdış, yiyəlik, işarə, qeyri-müəyyən, sual, nisbi əvəzliklər fərqləndirilir; əvəzliklər sintaktik baxımdan cümlə üzvü olurlar, morfoloji baxımdan şəkilçi qəbul edirlər.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 102; M.Hüseynzadə. Göstərilən əsər, s.119-146.

МЕСТОИМЕНИЯ АДЪЕКТИВНЫЕ - alm. Adjektivpronomen (Pl.), ing. adjectival pronouns /ˈ5ʤıktıv(əl) ˈprəunaunz/, fr. pronoms adjectivaux, azərb. sifət əvəzlikləri. - Leksik mənasına görə əvəzliyə aid olan, sintaktik funksiyasına görə isə (rus dilində isə sözdəyişmə paradiqminə görə) sifətlə üst-üstə düşən sözlər qrupu.
R.Conrad. Göstərilən əsər, s.211.

МЕСТОИМЕНИЕ ВЗАИМНОЕ - alm. Reziprokpronomen (n), ing. reciprocal pronoun /rıˈsıprəkəl ˈprəunaun/, fr. pronom réciproque, azərb. qarşılıq əvəzliyi. - Öz sözünün müxtəlif formalarda təkrarından ibarət olub, qarşılıq anlayışı bildirən əvəzlik. Məs.: Azərb. d. /bir-birilə/; rus d. /друг друга/; alm. d. /einander/; ing. d. /each other/. Alm. d. /Sie gönnten sich nichts// (Onlar heç nəyə paxıllıq etmirdilər) və /Sie gönnten einander nichts// (Onlar bir-birinə paxıllıq etmirdilər). Cümlələrdən birincisi omonim ola bilər: bir tərəfdən, o, ikinci cümlə kimi başa düşülə bilər, digər tərəfdən isə heç kəs özünə paxıllıq etmir.
M.Hüseynzadə. Göstərilən əsər, s. 119-146.

МЕСТОИМЕНИЕ ВОЗВРАТНОЕ - alm. Reflexivpronomen (n), ing. reflexive pronoun /rıˈfleksıv ˈprəunaun/, fr. pronom réfléchi, azərb. qayıdış əvəzliyi. – İş, hal və hərəkətin icraçının üzərinə qayıtmasını bildirən əvəzlik növü. Məs.: Azərb. d. /öz, özümü, özümdə, özünüz/; rus d. /себя, себе, собой, о себе/; alm. d. /sich/; ing. d. /herself, myself/; fr. d. /lui-même/.
M.Hüseynzadə. Göstərilən əsər, s. 119-146; H.Glinz. Göstərilən əsər.

МЕСТОИМЕНИЕ ВОПРОСИТЕЛЬНОЕ - alm. Interrogativpronomen (n), ing. interrogative pronoun /ˌıntəˈrɔgətıv ˈprəunaun/, fr. pronom interrogatif, azərb. sual əvəzliyi. - İsim funksiyasında çıxış edərkən həmsöhbətindən işarə olunan şəxsin və əşyanın ən yaxın əlamətlərinin göstərilməsini tələb edən. Sifət funksiyasında çıxış edərkən isə işarə olunan predmetin başlıca xüsusiyyət və ya sırasının göstərilməsini tələb edən əvəzlik. Məs.: Azərb. d. /kim?, nə?, kimin?, nəyin?, neçə?, hansı?/; fr. d. qui? que? quoi? à qui? və s.
M.Hüseynzadə. Göstərilən əsər, s. 119-146.

МЕТОИМЕНИЕ ВОПРОСИТЕЛЬНО-ОТНОСИТЕЛЬНОЕ - alm. interrogativ-relatives Pronomen (n), ing. interrogative-relative prənoun /ˌıntəˈrɔgətıv ˈrelətiv prəunaun/, fr. pronom interrogatif-relatif, azərb. nisbi-sual əvəzliyi. - Sual və nisbi mənaları özündə cəmləşdirən sual və

downloaded from KitabYurdu.org

mürəkkəb cümlələrdə bu qrupa aid olan, eləcə də əvəzliklər bağlayıcı söz funksiyasını yerinə yetirirlər. Məs.: Azərb. d. /kim?, nə?, hansı?, neçə?, nə qədər?, hara?/
M.İ.Adilov və b. Göstərilən əsər, s. 103.

МЕСТОИМЕНИЕ ВОСКЛИЦАТЕЛЬНОЕ - alm. Ausrufepronomen (n), ing. exclamation pronoun /ˌeksklə'meɪʃ(ə)n 'prəunaun/, fr. pronom exclamatif, zərb. nida əvəzliyi. - Nida ifadə edən cümlələrin tərkibində işlənib və bu zaman spesfik sintaktik funksiya kəsb edən sual əvəzliyi. Məs.: Azərb. d. /Nə böyük səadət!/, /Gör necə danışır!/
M.İ.Adilov və b. Göstərilən əsər, s. 103.

МЕСТОИМЕНИЕ ВЫДЕЛИТЕЛЬНОЕ - alm. Auszeichnenpronomen (n), ing. intensifying pronoun /ɪn'tensɪfaɪŋ 'prəunaun/, fr. pronom distinctif, sécrétorie, azərb. fərqləndirici əvəzlik. - Qarşılaşdırma, şiddətləndirmə və vurğulama (nəzərə çarpdırma) mənası bildirən əvəzliklər. Məs.: Azərb. d. /özü, özüdür ki, başqa cür, ayrı, başqa təhər, özgə/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 103-104.

МЕСТОИМЕНИЕ ЛИЧНОЕ - alm. Personalpronomen (n), ing. personal pronoun /'pə:snl 'prəunaun/, fr. pronom personnel, azərb. şəxs əvəzliyi. – Hind-Avropa dillərində əvəzliklərin hal paradiqmi vardır. Müq. et: alm. d. /ich-mein, mir, mich/; rus d. /я, мой, мне, мною/; ing. d. /I - me/; fr. d. /je, moi/ vəs. Sintaktik funksiyası isim və qeyri-nitq hissələrini əvəz etmək olan söz qrupu. Təkdə və cəmdə 3 şəxs fərqləndirilir. Bunlardan yalnız I şəxs (danışan), II şəxs (müraciət olunan) danışıqda iştirak edirlər. Məs.: Azərb. d. /mən, sən/, /biz, siz/. III şəxs danışıqdan kənarda qalan, lakin həmsöhbətlərə məlum olan və ya əvvəlcədən adı çəkilmiş şəxs və əşyaları göstərən əvəzliklərdir. Rus, ing. və alm. d. III şəxs cinsə görə fərqlənir. Müq. et: alm. d. /er, sie, es/; ing. d. /he, she, it/; rus d. /он, она, оно/. Azərb. d. isə belə fərqlənmə yoxdur.
R.Conrad. Göstərilən əsər, s.197; M.Hüseynzadə. Göstərilən əsər; A.A.Реформатский Göstərilən əsər, s.337.

МЕСТОИМЕНИЕ НЕОПРЕДЕЛЕННОЕ - alm. Indefinitpronomen (n), ing. indefinite pronoun /ɪn'definɪt prəunaun/, fr. pronom indéfini, azərb. qeyri-müəyyən əvəzlik. - Naməlum şəxsi, əşyanı və onların əlamətlərini özündə əks etdirən əvəzlik. Məs.: Azərb. d. /birisi, kimsə, nəisə/; alm. d. /man, jedes, etwas/. Bunlar cinsə görə qeyri-müəyyəndir. /jeder, etliche, mancher, niemand/ isə say baxımından qeyri-müəyyəndir.
H.Bußmann. Göstərilən əsər, s. 330; M.Hüseynzadə. Göstərilən əsər.

МЕСТОИМЕНИЕ ОБОБЩЁННО-ЛИЧНОЕ - alm. verallgemeinernd-persönliches Pronomen (n), ing. common personal pronoun /'kɔmən 'pə:snl 'prəunaun/, fr. pronom personnel généralisé, azərb. ümumi şəxs əvəzliyi. – Formal olaraq xəbəri II şəxsin və ya III şəxsin tək və cəmində ifadə olunsa da belə cümlələrdə söhbət konkret bir şəxsdən deyil, ümumilikdə hər hansı bir iş görəndən gedir. Məs.: Azərb. d. /Nə əkərsən, onu da biçərsən/,

downloaded from KitabYurdu.org

/Cücəni payızda sayarlar/; rus d. /поспешишь, людей насмешишь/ (tələsən təndirə düşər) və s.
A.A.Реформатский. Göstərilən əsər, s. 337.

МЕСТОИМЕНИЕ ОТРИЦАТЕЛЬНОЕ - alm. Negativpronomen (n), ing. negative pronoun /ˈnegətɪv ˈprəunəun/, fr. pronom négatif, azərb. inkar əvəzliyi. - Şəxsi, predmeti və ya onların əlamətlərini bilavasitə göstərməyən, onları inkar edən əvəzlik. Məs.: Azərb. d. /heç kim/, /heç nə/; ing.d. /nobody/; alm. d. /niemand/; rus d. /никто/; fr. d. /personne/ və s.
R.Conrad. Göstərilən əsər, s. 177.

МЕСТОИМЕНИЕ ПРИТЯЖАТЕЛЬНОЕ - alm. Possesivpronomen (n), ing. possessive pronoun /pəˈzesɪv ˈprəunaun/, fr. pronom possessif, azərb. yiyəlik əvəzliyi. - Əşyanın danışana və yaxud danışıqda müraciət olunan şəxsə aid olduğunu göstərən əvəzlik. Məs.: Azərb. d. /mənim, sənin, onun, bizim, özümün/; alm. d. /mein, dein, sein, ihr, unser, euer, 9hr/; ing. d. /my, your, their, our/; fr. d. /moi, toi, lui/. Bu həm də mənsubiyyət bildirir. Məs.: Azərb. d. /mənim atam/ → /atam/, ancaq alm. d. mənsubiyyət əvəzliyi ifadə olunmamış qalır. Müq. et: /mein Vater/, ancaq /Vater/ və s.
H.Bußmann. Göstərilən əsər, s. 595; M.Hüseynzadə. Göstərilən əsər.

МЕСТОИМЕНИЕ СОЮЗНОЕ - alm. Konjunktionspronomen (n), ing. conjunctive pronoun /kənˈʤʌŋktɪv ˈprəunaun/, fr. pronom conjonctif, azərb. bağlayıcı əvəzliyi. – Bağlayıcı və ya bağlayıcı söz funksiyasında işlənən əvəzlik. Məs.: Azərb. d. /hansı?, necə?, kim?, nə?/.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 103.

МЕСТОИМЕННЫЕ НАРЕЧИЯ - alm. Pronominaladverbien (Pl.), ing. pronominal adverb /prəuˈnɔmɪn(ə)l ˈ5dvə:b/, fr. adverbes pronominaux, azərb. zərfi əvəzlik. – Əvəzlik mənasına malik olan, lakin sintaktik funksiyasına görə zərflə üst-üstə düşən sözlər qrupu. Məs.: Azərb. d. /burada, orada, necə, belə, indi/. Alm. d. bunlar sözönlərinin /da(r)-, hier-, wo(r)-/ zərflərilə birləşməsindən yaranır. Müq. et: /worüber/ (nə haqda), /darüber/ (bu haqda), /womit/ (nəilə), /hiermit/ (bununla) və s.
R.Conrad. Göstərilən əsər, s. 211.

МЕСТОИМЕННЫЕ ПРИЛАГАТЕЛЬНЫЕ – Bax: Местоимения адъективные ←.

МЕСТОИМЕННОЕ ЧИСЛИТЕЛЬНОЕ - alm. Pronominalzahlwort (n), ing. pronominal numeral /prəuˈnɒmɪn(ə)l ˈnju:mərəl/, fr. pronoms numéraux, azərb. say əvəzliyi. - Qeyri-müəyyən say, (miqdar) mənası bildirən əvəzliklər. Məs.: Azərb. d. /çoxlu, az, xeyli, hara qədər/ və s. Bunlara bəzən qeyri-müəyyən saylar deyirlər.
R.Conrad. Göstərilən əsər, s. 184.

МЕСТОИМЕННОЕ СКЛОНЕНИЕ - alm. pronominale (starke) Deklination (f), ing. pronominal declension /prəuˈnɒmɪn(ə)l dɪˈklenʃ(ə)n/, fr. déclinaison (flexion) pronominale, azərb. əvəzliyin hallanması. - Hind-

downloaded from KitabYurdu.org

Avropa dillərində hallanma paradiqmi var. Alm. d. əvəzliklərlə bərabər sifətlər də hallanır. Müq. et: N. /mein alter Bruder/ (yaşlı qardaşım),

G. /meines alten Bruders/
D. /meinem alten Bruder/
A. /meinen alten Bruder/

H.Glinz. Göstərilən əsər.

МЕТАБАЗИС - alm. Metabasis (f), ing. metabasis /ˌmetəˈbeɪsɪs/, fr. métabasis, azərb. metabazis. – (yunanca – meta arasında, basis-özül) 1) Nitq hissələrinin onlar üçün səciyyəvi olmayan sintaktik funksiyada işlədilməsi. Məs.: /təyinləşmə, felləşmə, isimləşmə/; 2) Bir nitq hissəsinin digərinə keçməsi, daha doğrusu, substantivləşmə və adyektivləşmənin tətbiqi nəticəsində sözün bir nitq hissəsindən digərinə keçməsi. Məs.: rus d. /путём (isim), путём (zərf), путём (sözönü şəkilçi)// və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 230.

МЕТАГОГЕ - alm. Metagoge (m), ing. metagoge /ˌmetəg6g/, fr. métagogue, azərb. metaqoqe. - Cansız əşyalara hissiyatın əlavə edilməsindən ibarət olan metafora növü. Məs.: Azərb. d. /Birdən Gızılgül sözə başladı// və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 230.

МЕТАЛЕПСИС - alm. Metalepsis (f), ing. metalepsis /ˌmetəˈlipsɪs/, fr. métalepsis, azərb. metalepsis, səhvən əvəzləmə. – Sözün kontekstə uyğun gəlməyən başqa sözlə əvəzlənməsindən ibarət ritorik vasitə. Məs.: alm. d. (realisieren) «realizə etmək deməkdir»; ing. d. /realize/ «öz-özünə izah etmək deməkdir». Onları bir-birinin yerində işlətmək səhvdir.
H.Bußmann. Göstərilən əsər, s. 484.

МЕТАЛИНГИВИСТИКА - alm. Metalinguistik (f), ing. metalinguistics /ˌmetəlɪŋˈgwɪstiks/, fr. métalinquistique, azərb. metalinqivistika, metadilçilik. – 1) Metadilçilik dil haqqında danışmaq sözünün sinonimi. Bizim bu dilçilik ensiklopediyası buna ən yaxşı misaldır; 2) Təbii dilləri öyrənən nəzəri fənn. Bu fənn ümumi əlamətləri tədqiq edir; 3) Amerikan dilçiliyində xalqın ictimai həyatını və təffəkür tərzini əsas götürən, yəni dillə ümumi sosial-mədəni təsisatların (ikidillik, uşaqların danışığının inkişafı, dilin təffəkürlə əlaqəsi, dillərin semantik differensasiyası) qarşılıqlı əlaqələrini öyrənən dilçilik sahəsi.
H.Bußmann. Göstərilən əsər, s. 484.

МЕТАПЛАЗМА - alm. Metaplasma (n), ing. metaplasm /ˌmetəˈpleɪsm/, fr. métaplasme, azərb. metaplazm. - Sözlərin məruz qaldığı müxtəlif fonetik dəyişmələrin ümumiləşmiş adı. Məs.: proteza (səs artımı), epenteza (səs əlavəsi), aferezis (saitin düşməsi), sinkopa (səs düşümü), eliziya (səs birləşmələri) kimi fonetik dəyişmələr bu qəbildən hesab olunur.
O.C.Ахманова. Göstərilən əsər, s. 230.

downloaded from KitabYurdu.org

МЕТАПРАВИЛА – alm. Metaregeln (Pl.), ing. metarules /ˈmetəru:ls/, fr. métarègles, azərb. metaqaydaları. – Bu qaydalar həm qrammatik, həm də obyektiv qrammatikanı şərh edən «metaqrammatika» qaydalarıdır. Ümumiləşdirici fraza strukturu qrammatikasında fraza struktur qaydaları ona görə tətbiq edilir ki, onların köməyilə yeni fraza struktur qaydaları düzəltmək olur. Məs.: sintaktik qanunauyğunluqları qaydalar çoxluğu arasında əlaqələr kimi təsvir etmək olar, hərçənd ki, onlar fraza struktur qrammatikalarında təmsil olunmur. Metaqayda girmə və çıxma qaydalarından ibarətdir. Girmə qaydaları müxtəlif olmalıdır ki, bir sıra qaydalara tətbiq edilə bilsin. Məs.: VP→W, NP VP [PAS] → W, (PP) [by], burada W kateqoriya simvollarının çoxluğu üzərində müxtəlifliklərdir. Metaqaydalar (sintaktik reprezentasiyalar deyil) qaydalara tətbiq edilir və ona görə ağac şəklində təsvirdə məhduddurlar. Buna baxmayaraq metaqaydalar öz variabilliyilə turinq-maşınlar kimi generativ gücü olan sonsuz qrammatikalar düzəldə bilir. Elə bu səbəbdən Generativ Fraza Strukturları qrammatikası öz tətbiqində elə məhdudiyyətlərlə rastlaşır, yəni bir metaqayda hər bir qaydanın düzəlməsində ən çoxu bir dəfə tətbiq edilsin.
H.Bußmann. Göstərilən əsər, s. 486.

МЕТАСЕМИЯ - alm. Metasemie (f), ing. metasemy /ˌmetəˈsemı/, fr. métasémie, azərb. mənanın dəyişməsi. – Məs.: fr. d. /ministr/ xidmətçi demək idi. Bu gün bu söz nazir mənasında işlənir.
F.Yadigar. GDG. Bakı, 2003, s. 165.

МЕТАТЕОРИЯ – alm. Metatheorie (f), ing. metatheory /ˌmetəˈ4ıərı/, fr. métathéorie, azərb. metanəzəriyyə. – Bir başqa nəzəriyyəni araşdıran nəzəriyyə. Ümumi elm nəzəriyyəsi həm də bütün elmər üçün, o cümlədən dilçilik üçün də nəzəriyyədir.
R.Conrad. Göstərilən əsər, s. 166.

МЕТАТЕЗА - alm. Metathese (f), Umstellung (f), Lautversetzung (f), ing. metathesis /meˈt5θəsıs/, permutation /ˌpə:mju(:)ˈteıʃ(ə)n/, fr. métathèse, azərb. metateza. - Sözdə yanaşı səslərin yerini dəyişməsi. Məs.: «kirpik», «kiprik», «topraq», «torpaq». Metateza hadisəsi təzahürü assimilyasiya (uyuşma) və dissimiliyasiya (fərqləşmə) qanunlarıyla əlaqədardır. Metateza daha çox başqa dillərdən alınan sözlərdə özünü göstərir. Məs.: ərəb sözü «ziyan» rus dilində «изьян», latın sözü «mərmər» «marmor», «mramor» şəkilinə düşmüşdür. Müasir dilçilik metateza hadisəsini səviyyələrarası qarışdırmanın nəticəsi hesab edir. «Torpaq»la /topraq/-ı bir dil sistemi daxilində qarşılaşdırmaq düzgün deyildir, çünki onlardan biri dialektdə, o birisi isə ədəbi dildə işlənir.
F.Veysəlli. GDG. Bakı, 2003, s. 77-79.

МЕТАТОНИЯ - alm. Metatonie (f), ing. metatony /ˌmetəˈtounı/, fr. métatonie, azərb. metatoniya. - Söz tərkibində vurğunun bir hecadan

downloaded from KitabYurdu.org

digərinə keçməsi, söz vurğusunun yerinin dəyişməsi. Məs.: rus d. /рук'а-р'уки/; alm. d. /ˈ ˌdɔktor/-/ˌdɔkˈ to:ʀən/ və s.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

МЕТАФИЗИКА – alm. Metaphysik (f), ing. metaphysics /ˌmetəˈfɪzɪks/, fr. métaphysique, azər. metafizika. – Zaman, məkan və s. kimi ümumi kateqoriyalar haqqında anlayışlar sisteminin xüsusi şəkildə dildə əksi, bu və ya digər şəkildə öz ifadəsini tapması. Ona görə də hər dilin öz metafizikası var.
O.C.Ахманова. Göstərilən əsər, s. 231.

МЕТАФОНИЯ - alm. Metaphonie (f), ing. metaphony /ˈmetəˈfɔnɪ/, fr. métaphonie, azərb. metafoniya. - Qrammatik üsul kimi saitlərin əvəzlənməsi, yəni qrammatik formaların yaranması vasitəsi. Məs.: alm. d. Umlaut (saitlərin sınması) buna nümunə ola bilər. Müq. et: /Verstand/ (ağıl), ancaq /Verständnis/- (anlama) və s.
O.C.Ахманова. Göstərilən əsər, s.231.

МЕТАФОРА - alm. Metapher (f), Übertragung (f), ing. metaphor /ˈmetəfə/, fr. métaphore, azərb. metafora, məcaz. – Antik dövrdən bəri işlənən üslubi fiqur, məcazi mənada işlənən söz və ya ifadə. Məs.: M.Şəhriyarda belə bir ifadə var /Ağ buludlar köynəklərin sıxanda// (zəif yağış yağmaq mənasında). Bir əşyanın və ya predmetin adının oxşar əlamətlər əsasında digər əşya və predmetlərə keçməsi. Məs.: /burun: insanın burnu, gəminin burnu/, /göz/ /göz: insanın gözü, bulağın gözü/. Metafora məcazın ən geniş yayılmış növlərindən biridir. Bəzən çox qısa formada çıxış edir. Məs.: alm. d. /Fuchsschwanz/ «əl mişarı» deməkdir. Metafora koqnitiv qrammatikada geniş yer alıb. Tarixi aspektdə isə metafora sözdüzəltmə üçün zəngin mənbədir. Məs.: alm. d. «oymağa» /Fingerhut/ deyirlər, yəni «barmaq papağı» və s.
H.Bußmann. Göstərilən əsər, s. 486.

МЕТАФОРА ПОЭТИЧЕСКАЯ - alm. poetische Metapher (f), ing. poetical metaphor /pouˈetikəl ˈmetəfə/, fr. métaphore poétique, azərb. poetik metafora. - Poetik əsərlərin ekspressiv vasitələrin sırasına aid olan və mürəkkəb, müxtəlif planlı semantik struktur kimi çıxış edən ifadə vasitələri. Məs.: Azərb. d. /təbiətin şıltaqlığı, ağ buludlar köynəklərini sıxırdı// və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 155-156.

МЕТАФОРИЗАЦИЯ - alm. Metaphorisation (f), ing. metaphorization /ˌmetəˈfɒrɪzeɪʃən/, fr. métaphorisation, azərb. metaforikləşmə. - Sözün məcazi mənalarının və ekspressiv xüsusiyyətlərinin güclənməsi hesabına onun məna tutumunun genişlənməsi. Məs.: Azərb. d. /baş/ sözünün məna tutumu metaforikləşmə nəticəsində xeyli genişlənir. Müq. et: /baş: insanın başı, atın başı, dağın başı/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 156.

downloaded from KitabYurdu.org

МЕТАФОРИЧЕСКИЙ - alm. metaphorisch, ing. metaphoric(al) /ˌmetəˈfɔrɪk(əl)/, fr. métaphorique, azərb. metaforik. – Metaforik üslub. Məs.: ayaq (insanın ayağı), masanın ayağı, nərdivanın ayağı; alm. d. /am Fuße des Berges/ (dağın ətəyində).
M.İ.Adilov və b. Göstərilən əsər, s. 156.

МЕТАФРАЗА - alm. Metaphrase (f), ing. metaphrase /ˈmetəfreɪz/, fr. métaphrase, azərb. metasöyləm. – İfadənin bir dildən başqa dilə hərfi tərcüməsi. Məs.: rus d. /Он идет, куда глаза глядят// (O gözləri görən tərəfə qədər gedir).
R.Conrad. Göstərilən əsər, s. 166.

МЕТАЯЗЫК - alm. Metasprache (f), ing. metalanguage /ˌmetə ˈlɜŋgwɪʤ/, fr. métalangue, azərb. metadil. – Təsvir dili, ikinci dərəcəli dil, onun köməyilə təbii dillər (obyekt dilləri) təsvir olunur.
Bax: Объектный язык →.

МЕТОД ЛИНГВИСТИЧЕСКИЙ - alm. linguistische Methode (f), ing. linguistic method /lɪŋˈgwɪstɪk ˈme4əd/, fr. méthode linguistique, azərb. linqvistik metod. - Dili tədqiq edərkən istifadə olunan üsul, yanaşma tərzi. Elmi kateqoriya kimi, metod gerçəkliyin təcrübi və ya nəzəri cəhətdən öyrənilməsi, mənimsənilməsi və tətbiqi üsullarının məcmusudur. O, bütün hallarda konkret məqsədlərlə bağlı olur.
Metod elm üçün məqsəd deyil; o yalnız obyektin, onun ayrı-ayrı cəhətlərinin fəaliyyətinin dərk olunması vasitəsidir. Metod müşahidə olunmuşların və təcrübədə müəyyən edilmişlərin nəzəri mənimsənilməsi yoludur.
Yarandığı dövrdən indiyə qədər öz obyektini – dili və onun sistem və struktur xüsusiyyətlərini tədqiq etmək üçün bütün metodları işləyib hazırlayan elmə metodologiya deyilir. Dilçilik müstəqil elm kimi formalaşandan bu yana istifadə olunan bütün metodları 4 qrupda ümumiləşdirmək olar: 1) tarixi-müqayisəli metod; 2) struktur-funksional metod; 3) riyazi-statistik metod; 4) qarşılaşdırma-tutuşdurma metodu. Bu bölgü müəyyən mənada şərti xarakter daşıyır və onların hər birinin içərisində kifayət qədər xırda, lakin dilçilik üçün olduqca əhəmiyyətli metodlar ayırmaq olar.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 52-71; A.Axundov. Ümumi dilçilik. Bakı, 1988, s. 192.

МЕТОД АТОМИСТИЧЕСКИЙ - alm. atomistische Methode (f), ing. atomistic method /ˌ5təˈmɪstɪk ˈme4əd/, fr. méthode atomistique, azərb. atomistik metod. - Dil hadisələrini ayrı-ayrılıqda, bir-birindən təcrid olunmuş şəkildə tədqiqetmə metodu. Belə bir metod XIX əsr dilçiliyi, xüsusən «gənc qramatiklər» məktəbi üçün səciyyəvi idi.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 16-17.

МЕТОД ГЕОГРАФИЧЕСКИЙ - alm. geographische Methode (f), ing. geographic(al) method /ʤɪəˈgræfɪk(əl) ˈme4əd/, fr. méthode géographique, azərb. coğrafi metod. - Dil elementlərinin xəritələşdirilməsindən ibarət

downloaded from KitabYurdu.org

olan, dili dialektlərə bölən elmi üsul. Coğrafi metodun ilkin tələbi müəyyən edilən dil hadisəsinin mütləq xəritəyə köçürülməsidir. Dilçilik tarixində linqvistik atlasın tərtibinə ilk dəfə Almaniyada təşəbbüs edilmişdir. Belə ki, 1876-cı ildən başlayaraq alm. d. dialektlərinə aid material toplanmış və onlar 1881-ci ildə «Şimali və orta Almaniyanın dialektoloji atlası» adı altında çap edilmişdir.
Ə.Rəcəbli. Dilçilik metodları. Bakı, 2003, s. 296-306; M.İ.Adilov və b. Göstərilən əsər, s. 156-157.

МЕТОД ДЕСКРИПТИВНЫЙ - alm. deskriptive Methode (f), ing. descriptive method /dɪsˈkrɪptɪv ˈmeθəd/, fr. méthode descriptive, azərb. deskriptiv üsul, təsviri metod. - Dil faktlarının yığcam və hərtərəfli öyrənilməsinə, mətnin empirik təsvirinə üstünlük verən, tədqiqatçıdan psixologi proseslərin mahiyyətinə varmaq tələb etməyən elmi metoddur. Bu metod «allo» və «em» prinsiplərinə söykənərək dilin müxtəlif səviyyələrində «izafilik», «artıqlıq» olub - olmadığını araşdırmaqla məşğul olur. Adından göründüyü kimi, təsviri metod dil faktlarının və dil hadisələrinin təsviri ilə məşğul olur. Təsviri metoddan aşağıdakı məqsədlərlə istifadə olunur: 1) ayrı-ayrı dillərin elmi qrammatikalarının hazırlanması; 2) müxtəlif dillərə aid dərsliklərin hazırlanması; 3) çağdaş dilçilikdə başlıca tədqiqat üsulu.
Təsviri metod üç mərhələdən ibarətdir: birinci mərhələdə dil vahidləri müşahidə olunur, konkret vəzifədən asılı olaraq onlar seçilir; eyni zamanda nəzəri mənbələr dərindən (mənimsənilir). İkinci mərhələdə toplanmış dil materialı təhlil edilərək təcrübədən keçirilir, yəni seçilmiş dil materialı tərkib hissələrinə ayrılır. Üçüncü mərhələdə isə dil hadisələrinin və dil faktlarının linqvistik təsviri verilir və ümumiləşmələr, nəticələr çıxarılır.
A.Axundov. Ümumi dilçilik. Bakı, 1988, s. 199; Ə.Rəcəbli. Dilçilik metodları. Bakı, 2003, s. 61-123.

МЕТОД СРАВНИТЕЛЬНО–ИСТОРИЧЕКИЙ – alm. vergleichend-historische Methode (f), ing. comparativly-historical method /kəmˈp5rətɪvlɪ-hɪsˈt6rɪkəl ˈmeθəd/, fr. méthode comparative-historique, azərb. müqayisəli-tarixi metod. – Dillərin tarixi keçmişini müqayisə yolu ilə tədqiq etməklə onların genetik qohumluğunun aşkar edilməsi. Müqayisəli – tarixi metod dillərin qohumluğunu üzə çıxarmaq üsuludur. Bu metodun köməyilə dillərin genetik və morfoloji bölgüsünü vermək mümkün olmuşdur.
A.Axundov. Ümumi dilçilik. Bakı, 1988, s. 230-237; Ə.Rəcəbli. Göstərilən əsər, s. 210.

МЕТОНИМИЯ - alm. Metonymie (f), ing. metonymy /mɪˈt6nɪmɪ/, fr. métonymie, azərb. metonomiya, ad dəyişmə, yenidən ad qoyma. - Metonimiya mövcud ifadəni yeni əşyavi adla göstərilməsidir. Semantik cəhətdən səbəb, yer və zaman bağlılığı var. Bu, sinekdoxadan geniş, metafordan isə dar mənada işlənmə deməkdir. Bu zaman belə əvəzlənmələr ola bilər: Nizamini oxumaq (müəllif/əsər), ipək geyinir (məhsul/material), Der Kreml schweigt (Kreml susur; yer/məmur). İlkin olaraq metonomik adlar sözün yaranması səbəbkarını göstərmək üçün olub. Məs.: /Cognac/ (eyni

downloaded from KitabYurdu.org

adlı yerdən), tül (Fransada Tüll şəhərindən), Linç məhkəməsi (amerikalı hakim Lynchin adından), alqoritm (ərəb riyaziyatçısı Al-Chwarismin adından), rentgen (rentgen şüalarını kəşf edən Röntgenin adından) və s.
H.Bußmann. Göstərilən əsər, s. 487.

МЕТРИКА – alm. Metrik (f), ing. metrics /ˈmetrıks/, fr. métrique, azərb. metrik. – Vəzn haqqında elm. Şer, qafiyə, ritm və vəzn qanunauyğunlarını öyrənir.
R.Conrad. Göstərilən əsər, s. 167.

МЕТРИЧЕСКАЯ ФОНОЛОГИЯ – alm. metrische Phonologie (f), ing. metrics phonology /metr9ks fəuˈn69əʤ9/, fr. phonologie métrique, azərb. metrik fonologiya. – Vurğunu metrik ağacın güclü və zəif qollarının əlaqəsi kimi başa düşən konsepsiya. Sonralar bu təsvir üsulu seqmentüstü əlamətlərin tədqiqində geniş istifadə olunmağa başladı.
Р.Якобсон. Чешский стих в сопоставлении с русским. Berlin, 1923.

МИКРОКОНТЕКСТ – alm. Mikrokontext (m), ing. microcontext /ˈməıkrouˈk6ntekst/, fr. microcontexte, azərb. mikrokontekst. – Ən kiçik mətn, sintaktik səviyyədə bu cümlə, fonoloji səviyyə üçün isə morfemdir.

МИДИЙСКИЙ ЯЗЫК – alm. Medisch (n), ing. median language /mıdjən ˈ15ŋgwıʤ/, fr. langue mède, azərb. midiya dili. – Ölü İran dillərindən biridir. Yazılı abidələri qalmamışdır.
И.М.Оранский. Введение в иранскую филологию. М., 1960.

МИКРОЛИНГИВИСТИКА - alm. Mikrolinguistik (f), ing. microlinguistics /ˈməıkroulıŋˈgwıstıks/, fr. microlinguistique, azərb. mikrolinqivistika. – Dil işarələrini avtonom sistem kimi götürür. Strukturalizmə söykənən bu dilçilik dildaxili əlaqələri əsas götürür, dilxarici faktor və əlaqələri nəzərə almır, makrolinqvistikanın mərkəzi hissəsi sayılır.
H.Bußmann. Göstərilən əsər, s. 487.

МИКРОНЕЗИЙСКИЕ ЯЗЫКИ – alm. mikronesische Sprachen (Pl.), ing. Micronesian languages /məıkroˈneızı5n ˈ15ŋgwıʤız/, fr. langues mikronésiques, azərb. mikronez dilləri. – Okeaniya dilləri şərq qrupunun tərkibində dillər yarımqrupu. Kiribatu, Nauru, Marşal, Karolin adalarında yayılmışdır. Daşıyıcılarının ümumi sayı 190 mindir. Mikronez dillərinə nauru (5 min), kiritatu (68 min), marşal (30 min), kusai (5 min), ponape (25 min) və s. dillər aiddir.
V.W.Bender. Micronesian languages. GTL, v. 8, pt.1, The Hauge – Prage, 1971.

МИКРОСИНТАГМАТИКА - alm. Mikrosyntagmatik (f), ing. microsyntagmatics /ˈmaıkroˈsınt5gm5tıks/, fr. microsyntagmatique, azərb. mikrosintaqmatika. - Dilçilikdə söz birləşməsi haqqında elm. Söz birləşmələrinin sintaksisi.
О.С.Ахманова. Göstərilən əsər, s. 234.

downloaded from KitabYurdu.org

МИКРОФОНЕМА - alm. Mikrophonem (n), ing. microphoneme /ˈmaɪkroˈfəuni:m/, fr. microphonème, azərb. mikrfonem.
Bax: Макрофонема ←.
МИНГРЕЛЬСКИЙ ЯЗЫК – Bax: Мегрельский язык ←.
МИНИМАЛЬНАЯ ЕДИНИЦА ВЫРАЖЕНИЯ - alm. minimale Ausdruckseinheit (f), ing. minimal unit of expression, feature /ˈmɪnɪml ˈju:nɪt əv ɪksˈpreʃən /ˈfi:tʃə/, fr. unité minimale dexpression, azərb. minimal ifadə vahidi. – Dil işarəsinin ən kiçik fərqləndirici vahidi.
Bax: Фонема →.
МИНИМАЛЬНАЯ ПАРА - alm. Minimalpaar (n), ing. minimal (contrastive) pair /ˈmɪnɪml/ˈk6ntrɑ:stɪv/pɛə/, fr. paire minimuale, azərb. minimal cüt. - Eyni mövqedə bir fonem və ya bir əlamətlə fərqlənən iki söz. Məs.: Azərb. d. /baş # yaş/, /toz # qoz/; ing. d. /mail/ # /nail/; fr. d. pere # mere; və s. Dünya dilçiliyində Şerba məktəbindən başqa bütün fonoloji məktəblər fonemin statusunu onun mənafərqləndirməsində görür və bunu sübut etmək üçün minimal cütlərdən (kvaziomonimlərdən) istifadə edirlər.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 160-174.
МИНИМАЛЬНЫЙ КОНСОНАНТИЗМ - alm. Minimalkonsonantismus (m), ing. minimal consonantism /ˈmɪnɪml ˈk6nsənəntizm/, fr. consonantisme minimale, azərb. minimal (ən az, ən kiçik) konsonantizm. - Uşaq dili üçün səciyyəvi olan minimal samitlər sisteminin ümumi əsası. /p – t/ və /m – n/ samitlərinin uşaq dilində yaranan ilk qarşılaşmalardır.
Р.О.Якобсон. Детский язык, афазия и общие звуковые законы. Bakı, 1993; V.Veysəlova. Uşaq dilinin formalaşması və inkişafı. ND, Bakı, 2001.
МИНУСКУЛЫ – Bax: Маюскулы ←.
МИСКИТО-МАТАГАЛЬПСКИЕ ЯЗЫКИ – alm. Miskito-Matagalpa-Sprachen (Pl.), ing. Miskito-Matagalp language /mɪskit6−m5təgɑ:lp ˈlæŋgwɪʤɪz/, fr. langues miskito-matagalpes, azərb. miskit-mataqalp dilləri. – Amerika hindi dilləri ailəsinə aiddir. Honduras və Nikaraquada, həmçinin Salvadorda yayılmışdır. Daşıyıcılarının ümumi sayı 160 minə yaxındır. Miskit-mataqalp dilləri tipoloji cəhətdən analitik dillərə aiddir.
А.Д.Дриздо. Индейцы Никарагуа. «Исторические судьбы американский индейцев», М., 1985.
МЛАДОГРАММАТИКИ - alm. Junggrammatiker (Pl.), ing. young (neo) grammarians /jʌŋ/neo/grəˈmɛərɪəns/, fr. néogrammairiens, azərb. gənc qrammatiklər. - XIX əsrin sonu XX əsrin əvvəllərində yaranmış linqivistik cərəyan. Ən məşhur nümayəndələri A.Leskin, H.Osthof, K.Bruqman və H.Pauldur. Gənc qrammatiklər dilə daim dəyişməkdə olan bir hadisə kimi yanaşdıqlarından onlarda tarixçilik çox güclü şəkildə özünü büruzə verirdi. Dildə yaranan yeni elementləri onlar anologiya assosiasiyasına və fonetik qanunları fiziologi amillərə əsaslanaraq şərh edirdilər. Bunları kəşf etməklə gənc qrammatiklər dilin daxili mexanizmini açmağa can atırdılar. Gənc

downloaded from KitabYurdu.org

qrammatiklər fonetik qanunları zaman və məkan məhdudiyyətləri, analogiyanın fəaliyyəti, sonradan gələn alınmalar və müəyyən fonetik şəraitlə izah edirdilər. Onların konsepsiyasında əsas yeri fonetika tuturdu, onlar morfologiyaya az diqqət yetirirdilər, ancaq sintaksisi heç yaxına da qoymurdular. Gənc qrammatiklər eyni zamanda mənanı kənar edir, formanı, xüsusilə, səsləri ön plana çəkirdilər.

Dilçilik elminin dil tarixindən başqa bir şey olmadığını sübut etməyə çalışan H.Paul mənsub olduğu cərəyanın konsepsiyasını aşağıdakı kimi açıqlayır: «Dilin tarixilikdən başqa elmi tədqiqini söyləmək səhvə yol verməkdir. Dilin qeyri-tarixilik baxımından şərhini elmi şey kimi qəbul etmək əslində tamamilə tarixilikdən uzaq düşmək və ya tədqiqatçının, ya da müşahidə obyektinin tamamilə səhv olmasından başqa bir şey deyildir. Ayrı-ayrı şeylərin adicə izahından kənara çıxmaqla biz eyni zamanda əlaqəni şərh etmiş oluruq və bu özümüzə aydın olmasa da tarixilik mövqeyində durmaq deməkdir». H.Paul daha sonra qeyd edir ki, bu tarixililiyin real tarixlə əlaqəsi yoxdur, bu təkrar olunan əlaqələrin real tarixə münasibəti kimi başa düşülməlidir. Bu baxım XIX əsrin axırlarında Almaniyada dilçilikdə aparıcı istiqamət idi. Elə bu səbəbdən də gənc qrammatiklər canlı dilləri öyrənir, çünki əsas diqqət klassik dillərin və hazırda mövcud olan dillərin tarixi qrammatikasının yaradılmasına verilirdi. H.Paul eyni zamanda dil tarixindən kənarda mövcud olan bir elm yaratmağa çalışırdı. Bu elmi o, prinsiplər və ya metodlar nəzəriyyəsi adlandırırdı. Bu elm çərçivəsində o, bilavasitə dilə dəxli olmayan, lakin ona təsir edən psixi və ictimai amilləri öyrənirdi. Buradan da psixi elementin bütün mədəni hərəkatda mühüm amil olması, psixologiyanın, mədəniyyətşünaslığın özülünü təşkil etməsi, kulturologiyanın isə təbiət elmi kimi çıxış etməsi meydana gəlirdi. H.Paul xalq ruhunu və fərdin fövqündə duran digər xüsusiyyətləri rədd edirdi. Lakin o inkar edə bilmirdi ki, dil həmişə ayrı-ayrı fərdlərin danışığında mövcud ola bilir. Bu onun mövqeyindəki pozitivizim idi. Beləliklə, H.Paulun tədqiqat obyektini qapalı sistem şəklində çıxış edən dil təşkil etmir, dil «fərdlərin qarşılıqlı təsirini təmin edən danışıq fəaliyyətidir».

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı. 1993, s. 18-19.

МЛАДОПИСЬМЕННЫЙ - alm. jungschriftlich, ing. with a recent system of writing /wɪð ə ˈriːsnt ˈsɪstɪm əv ˈ raɪtɪŋ/, recently put into writing /ˈriː sntlɪi put ˈɪntə raɪtɪŋ/, fr. langue à la nouvelle écriture, azərb. yenicə yazı əldə etmiş dil. - Yaxın zamanlarda yazı əldə etmiş dil. Məs.: keçmiş sovetlər birliyində bir neçə dil yazılı forma qazandı.

H.Haarman. Geschichte der Schrift. München, 2002; I Всесоюзный Тюркологический съезд. Стенографический отчет. Баку, 1926.

МНОГОКРАТНЫЙ - alm. vielfach, mehrfach, ing. iterative /ˈɪtərətɪv/, frequentative /frɪˈkwentətɪv/, fr. aspect itératif, azərb. çoxdəfəli, təkrarlı. – (lat. iterim-iki dəfə, semel-bir dəfə) Təkrarlanan, növbələnən, tez-tez əvəz

downloaded from KitabYurdu.org

edilən hərəkətlərin təsviri. Məs.: rus d. пит' # пиват', знат' # znavat'; alm. d. streicheln (oxşamaq).

Bax: Итератив ←.

МНОГОСЛОЖНЫЙ - alm. mehrsilbig, ing. polysyllabic /ˈpɒlɪsɪˈlæbɪk/, fr. polysyllabe, polysyllabique, azərb. çoxhecalı. – İki və daha artıq hecadan ibarət olan sözlər. Məs.: Azərb. d. /A-zər-bay-can/, /dil-çi-lik/ və s.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 129-13 .

МНОГОСОЮЗИЕ - alm. mehrgliedrige Konjunktion (f), ing. multiconjuction /ˈmʌltɪ kənˈʤʌŋkʃən/, polysyndeton /pɒlˈsɪndit(ə)n/, fr. polysyndète, azərb. mürəkkəb bağlayıcı. – Mürəkkəb bağlayıcılar ən azı iki hissədən ibarət olur. Məs.: Azərb. d. /həm - həm də/, /təkcə - həm də/; alm. d. /nicht nur – sondern auch/ (təkcə – həm də), /entweder - oder/ (ya – ya da), /weder - noch/ (nə – nə) və s.
R.Conrad. Göstərilən əsər, s. 147.

МНОГОТОЧИЕ - alm. Gedankenpunkte (Pl.), ing. dots /dɔts/, fr. points, de suspension, azərb. çox nöqtə. – Aşağıdakı hallarda işlədilən durğu işarəsidir: a) danışanın güclü hiss-həyəcan keçirməsi ilə əlaqədar ifadəsinin yarımçıqlığını göstərmək üçün. Məs.: Azərb. d. /Həsən heç vaxt dostlarından ayrı gəzməzdi. Amma indi isə…/; b) mətndə ayrı-ayrı vahidlərin təsirini şiddətləndirmək üçün. Məs.: /oğul, sən çox şeyə qadirsən, çəkinmə…/; c) gözlənilmədən bir fikirdən başqasına keçid edildikdə. Məs.: /Lazımi idarələr bunu nəzərdən qaçırmışlar… Siz isə, cənab rəis, bu gündən azadsınız…/; ç) mətnə daxil edilən sitatda bu və ya digər sözün, ifadənin, cümlənin, mətn parçasının buraxıldığını bildirmək üçün. Məs.: «Romantiklərin (V.fon Humbolt) … dilin daxili forması anlayışına H.Paulun … kitabında bir dəfə də olsun rast gəlmirik».
Ə.Dəmirçizadə. Müasir Azərbaycan dili (fonetika, orfoepiya, orfoqrafiya). Bakı, 1972, s. 259-303.

МНОГОЧЛЕННОЕ ПРЕДЛОЖЕНИЕ - alm. mehrgliedriger Satz (m), ing. polynomial sentence /ˌpɒlɪˈnəumj(ə)l ˈsentəns/, multinomial sentence /ˈmʌltɪˈnəumj(ə)l ˈsentəns/, fr. proposition polynôme, azərb. çoxüzvlü cümlə. - Tərkibində ikidən çox tərkib hissəsi olan mürəkkəb cümlə. Məs.: Azərb. d. /Mən bilirdim ki, bu işlərin axırı yaxşı olmayacaq və buna görə onlar cavab verməli olacaqlar//.
Müasir Azərbaycan dili. Sintaksis. Bakı, 1959.

МНОГОЯЗЫЧИЕ - alm. Vielsprachigkeit (f), ing. polyglot /ˈpɔl9ɡlɔt/, multilingual /mʌlt9 ˈl9ŋɡwəl/, fr. polyglotte, de plusieurs langues, azərb. çoxdillik. - 1. Bir neçə dildə ünsiyyətə girmək qabiliyyəti; 2) Eyni ərazidə bir neçə dilin mövcudluğu. Adətən, ikidilli, üçdilli və çoxdillı adamlara rast gəlmək olur. Ancaq ən geniş yayılmış forma ikidillikdir. Elmi ədəbiyyatda tez-tez söhbət koordinativ və subordinativ bilinqivizmdən gedir.

Bax: Билингвизм ←.

downloaded from KitabYurdu.org

МНОГОЯЗЫЧНЫЙ – Bax: Билингвизм ←.

МНОГОЗНАЧНОСТЬ - alm. Vieldeutigkeit (f), ing. polysemy /ˌpɔlısemı/, fr. polysémantique, azərb. çoxmənalılıq. – Təbii dillərdə eyni sözə və ifadəyə bir-biri ilə əlaqədar olan müxtəlif semantik şərhlər verilə bilən. Çoxmənalılıq müxtəlif yollarla meydana gəlir. Bunlardan ən çox yayılanları məna genişlənməsi, məna daralması və mənanın köçurulməsidir. Məs.: alm. d. /Absatz/ - 1) daban; 2) satış; 3) mətndə yeni fikrin başlanğıcı. Efemizm, jarqonizm, semantik sıxılma, xalq etimologiyası və. s. dil hadisələri də çoxmənalılığın yaranmasına təsir göstərir. Çoxmənalılıq aşağıdakı yollarla açıla bilər: a) səriştəli dil daşyıcısı başqa cür şərh edə bilər; b) qrammatik təhlillə: məs.: generativ sintaksis modelində çoxmənalı üst qatın müxtəlif şərhi verilə bilər; c) leksik yolla (omonim, sinonim, antonim və s.); ç) sintaktik şərhlə: məs.: /onun dəvəti razılıqla qarşılandı//, /o dəvət edib, yoxsa onu dəvət ediblər/.

R.Conrad. Göstərilən əsər, s. 204; F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003.

МНОЖЕСТВЕННОЕ ЧИСЛО - alm. Plural (m), ing. plural /ˈplu:rəl/, fr. pluriel, azərb. cəm hal. - Kəmiyyət kateqoriyası kimi isimlərdə ayrı-ayrı əşyaların çoxluğunu, fellərdə isə iş və hərəkətin çoxlu subyektə aid olduğunu göstərir. Məs.: alm. d. /Auto/ - /Autos/ (maşın-maşınlar), /Tag/ - /Tage/ (gün-günlər), /Mann→Männer/ (kişi-kişilər), /Bar→Bären/ (ayı-ayılar), /Mutter→Mütter/ (ana-analar) və s. Göründüyü kimi alman dilində ismlərin cəmini düzəltmək üçün bir neçə şəkilçidən istifadə olunur. Ona görə də bu dildə ismlərin cəmlənməsini 5 qrupda ümumiləşdirirlər. Azərb. d. isə /-lar/lər/ şəkilçiləri cəmliyin düzəlməsində iştirak edirlər.

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 271-294.

МНОЖЕСТВЕННОЕ АВТОРСКОЕ - alm. autorische Mehrzahl (f), ing. author's «we» /ˈכ:θəs «wı:»/, fr. pluriel d'auteur (de modestie), azərb. müəllif cəmliyi. - Nəzakət xatirinə özünü müraciət olunanlarla və ya mənsub olduğu məktəbin nümayəndələrilə eyniləşdirmək məqsədilə cəm halının işlədilməsi. Məs.: Azərb. d. /Yuxarıda göstərdik ki… İrəlidə qeyd etdiyimiz kimi…/ və s.

R.Conrad. Göstərilən əsər, s. 203.

МНОЖЕСТВЕННОЕ ВЕЖЛИВОСТИ - alm. Höflichkeitsplural (m), ing. politeness plural /pəˈlaıtnıs ˈplu:rəl/, honorific /ˌɔnəˈrıfık/, fr. pluriel de politesse, azərb. hörmət mənasında cəm forması. - Şəxs əvəzliyinin ikinci şəxsin cəm formasının bir nəfərə müraciət zamanı işlədilməsi. Məs.: Azərb. d. /İndi siz deyin görüm…//; alm. d. bu üçüncü şəxsin cəmində olur: /Sagen Sie bitte// (Xahiş edirəm, deyin); /Скажите, пожалуйста!//, ingilis dilində isə tək və cəm eyni şəkildə ifadə olunur. Müq. et: /you know/; ¿Do you know? və s.

H.Bußmann. Göstərilən əsər, s. 590.

downloaded from KitabYurdu.org

МНОЖЕСТВЕННОЕ ПРЕУВЕЛИЧЕННОЕ - alm. Gemeinschaftsplural (m), ing. exaggerate plural /ɪɡ′z5ʤəreɪt ′plu:rəl/, augmentative /6:ɡ′mentətɪv/, fr. pluriel augmentatif, azərb. qüvvətləndirilmiş cəm. - Adətən danışığa xüsusi çalar (rəng) vermək məqsədilə danışanın müəyyən qüvvə ilə, kollektivlə əlaqədar olduğunu bildirmək üçün birinci şəxs təkinin əvəzinə cəm formasının işlədilməsi. Məs.: Azərb. d. /Bizim bu dünyada nə malımız var…//; alm. d. /Nun gehen wir ins Bett// (Uşaqlara müraciyətlə deyilir: Hə, gedək yataq!) və s. İng. d. bu /let/ sözü ilə qüvvətləndirilir. Müq. et: /Let us go/ (Gedək).
H.Bußmann. Göstərilən əsər, s. 591.

МНОЖЕСТВЕННОЕ РОДОВОЕ - alm. Mehrzahlsgeschlecht (n), ing. generic plural /ʤɪ′nerɪk ′plu:rəl/, fr. pluriel ɡénérique, azərb. nəsli və ya ailəni bildirən cəmilik. - Müəyyən cinslər və ya əşyalar sinfini təsvir etmək üçün ismin cəm halının işlədilməsi. Məs.: Azərb. d. /Bizim vəzifəmiz gələcək nəsillərə yaxşı ad qoyub getməkdir//.
R.Conrad. Göstərilən əsər, s. 262-263.

МНОЖЕСТВО – alm. Menge (f), Klasse (f), ing. multitude /′m∧ltɪtju:d/, many /′menɪ/, fr. quantité, multitude, azərb. çoxluq. – Riyaziyyatın əsas anlayışı, xüsusilə çoxluq nəzəriyyəsində. Bizim təsəvvürlərimizdə müəyyən fərqli obyektlər toplusu elementlər çoxluğuna deyirlər. Elementlər bütövə aidlik əlaqəsində olur: (XεM belə oxunur=X M-ə daxildir). Çoxluğun elementləri zahirən sadalana bilər, sıralanmada yer vacib deyildir, daxilən isə elementlərin göstərilməsilə (predikat) müəyyən edilə bilər. Riyazi mənada çoxluğun əlamətləri bunlardır: a) həm konkret obyektlər, həm mücərrəd və fikrən düzəldilən konstruktlar (saylar, adlar, fonemlər) çoxluğun elementləri kimi, yəni özləri başqa çoxluqların elementləri ola bilərlər. Məs.: dildə bütün sözlərin fonetik materiyası fonemlər çoxluğunun elementlərindən ibarətdir; b) çoxluq boş, sıfırlardan ibarət ola bilər. Məs.: maddi göstəricisi olmayan sıfır morfemlər. Müq. et: Azərb. d. qeyri-müəyyən təsirlik və qeyri-müəyyən yiyəlik hal şəkilçiləri: /kitab bazarı/, /mən kitab oxuyuram/); c) çoxluq yalnız bir elementdən ibarət ola bilər. Məs.: ing.d. /singleton/. Fraza struktur qrammatikasında S bütün hallarda başlanğıc kimi cümlənin simvoludur; ç) çoxluğun elementləri sonsuz ola bilər. Məs.: saylar və ya dildəki cümlələr.
Çoxluqlar arasında aşağıdakı əlaqələr mümkündür: a) çoxluqların eyniliyi. Məs.: A və B çoxluqları eyni əlamətlərə malikdirsə, zahirən onlar eynidirlər; b) ekvivalentlik əlaqəsi. İki çoxluq ekvivalentdır və ya eyni gücdədir. Eyni güclülük həm qayıdışlıq, həm simmetrik, həm də tranzitiv əlaqəsi deməkdir; c) birləşmə çoxlugu (ing. union set): bu elə çoxluqdur ki, M-də A və B son çoxluqda eyni elementlərdir: $A \cup B := \{x / x \varepsilon A \vee x \varepsilon B\}$. Birləşmiş çoxluq ilkin olaraq və ya inkluziv olaraq o zaman həqiqidir ki, biri və ya hər ikisi həqiqi olsun (dizyunksiya). Bunu aşağıdakı kimi göstərmək olar.

A



Məs.: alm. d. qadın cinsli isimlərin və mücərrəd isimlərin

downloaded from KitabYurdu.org

əlamətləri birləşmə çoxluğunun əlamətləridir.
Müq. et:
/Liebe/ (məhəbbət), /Haβ/ (nifrət), /Küche/ (mətbəx) və s.

ç) kəsişən çoxluqlar (ing. intersection set) elə çoxluqların M elementləridir ki, onlar həm A-ya, həm də B-yə aid olsunlar. $A \cap B := \{x/x \varepsilon A \wedge x \varepsilon B\}$. Məs.: əgər A alm. d. transitiv, B isə qüvvətli fellər çoxluğunun elementləridirsə, onda AB və M- kəsişməsi həm tranzitiv, həm də qüvvətli fellərin çoxluğudur; d) fərqli çoxluqlardır (qalıqlı çoxluq-substraksiyası) ki, A çoxluğunun bir hissəsidir, onlar B-də yox, yalnız A-dadır: $A \setminus B := :=\{x/x \varepsilon A \wedge x \varepsilon B\}$. $A \setminus B$ və $B \setminus A$ fərqli çoxluğu ona uyğun gəlir ki, onlardan yalnız biri ilə düzgün olsun (hər ikisi yox).

Bax: Məs.: 

Xətlə $A \setminus B$-ni göstərir. Məs.: tranzitiv felləri A çoxluğunda, qüvvətli fellər isə B çoxluğunda verilib. Onda zəif felləri $A \setminus B$ fərqli çoxluğu şəklində göstərmək olar. Məs.: /suchen/ (axtarmaq); e) A çoxluğunun o zaman B-yə daxildir. A-nın bütün elemləntləri eyni zamanda B-yə daxil olsun. $A \subset B$ « $\wedge x (x \varepsilon A \rightarrow x \varepsilon B)$.



Məs.: alm. d. bütün tranzitiv fellər bu dilin fellərinin bir qismidir. Ancaq alm. d. ən azı bir fel var ki, o tranzitiv fellər çoxluğuna daxil deyildir. Məs.: /regnen/ (yağmaq); f) çoxluq komplementində alman dilinin bütün sözləri G çoxluğudur, A isə fellərdir, onda G A sxemində belə



olur. ($C_G A$); g) çoxluq potensiyası. A çoxluğunun M potensiyası çoxluğunun bütün hissələrinin çoxluğudur. $\{P(A) := \{x/x \subset A\}\}$. Burada M- potensiyasının elementlərinin sayı ifadənin elementlər çoxluğunun 2-li potensiyasına uyğun gəlir. Məs.: əgər A-da 3 element varsa {a,b,c}, onda çoxluq potensiyası p(A) 2^3=8 olacaq. {⌀},{a}, {b}, {c}, {a,b}, {a,c}, {b,c}, {a,b,c}. j) çoxluq dizyunktu: A və B iki çoxluğu dizyunktdur, onların kəsişməsi sıfır çoxluğa bərabər olur, yəni onların heç bir oxşar elementi yoxdur. $A \cap B = \varnothing$:



Məs.: A tranzitiv, B isə alman dilində intranzitiv fellər çoxluğudursa, onda onların kəsişmə çoxluğu sıfıra bərabərdir, yəni elə ola bilməz ki, fel həm tranzitif, həm də intranzitiv olsun; i) çoxluq məhsulu. Yəni iki A və B çoxluqları bütün nizamlanmış cütlərin (x,y) çoxluğudur, özü də x A-ya, y isə B-yə aiddir: $AXB=\{< x,y>/ x \varepsilon A \wedge x e B\}$

downloaded from KitabYurdu.org



Məs.: flektiv dillərdə morfoloji göstərici vacibdir. Müq. et: alm. d. A hallar çoxluğudur. {Nom, Gen, Dat, Akk}. B isə kəmiyyət çoxluğudur. {Sing, Plur}. Məhsul çoxluğu hər iki AXB çoxluğun bütün mümkün birləşmələrini əhatə edir. Məs.: Nom/Sg, Dat/Pl. və s.
Bu çoxluq nəzəriyyəsini (ing. set theory) G.Cantor (1845-1918) işləyib hazırlayıb. Bu nəzəriyyə dəfələrlə dilçilikdə tətbiq edilib.
L.Lyons. Einfhrung in die moderne Linguistik. München, 1995.

МОДАЛЬНОСТЬ - alm. Modalität (f), ing. modality /məu'd5lıtı/, fr. modalité, azərb. modallıq. – «Danışanın ifadə olunan fikrə münasibətini, ifadə olunan fikrin obyektiv varlığa münasibətini əks etdirən qrammatik-semantik kateqoriya. İfadə olunan fikir məzmunca ya real, ya da qeyri-real, ya mümkün, ya da qeyri-mümkün, ya arzu olunan, ya da arzu olunmayan, ya zəruri, ya da ehtimali şəkildə və. s. anlaşıla, işlədilə bilər. Modallıq anlayışı qrammatik və leksik vasitələrin (fel formaları, modal sözlər, intonasiya, ədatlar) köməyi ilə ifadə olunur. Alm., ing., rus d. modal fellər var. Azərb. d. də /bilmək, bacarmaq və istəmək/ felləri modallığı ifadə etməyə meyillidirlər. Alm. d. modallıq morfoloji yolla (/gern/ (həvəslə), /so/ (belə), /derart/ (bu cür), umsonst (əbəs yerə) morfemlərilə), /-lings, -weise/ şəkilçilərilə düzələn sözlərlə (/höflicherweise/ (nəzakətcəsinə), /rittlings/ (çaparaq), ölçü ədatları ilə /nur/ (ancaq), /auch/ (həmçinin), /sogar/ (hətta), modal ədatları ilə /doch/ (bəs), /denn/ (ancaq), dərəcə ədatları ilə /sehr/ (çox), /weitaus/ (həddən çox), zərflər ilə /hoffentlich/ (güman ki), /gottlob/ (Allah xatirinə) və s. ifadə olunur.
H.Bußmann. Göstərilən əsər, s. 490-493; M.İ.Adilov. və b. Göstərilən əsər, s.164.

МОДАЛЬНОСТЬ ГИПОТЕТИЧЕСКАЯ - hypothetische Modalität (f), ing. hypothetical modality /ˌhaıpə'θetıkl məu'd5lıtı/, fr. modalité hypothétique, azərb. hipotetik modallıq. - Söyləm məzmununun təxmini təsəvvür edilməsi.
О.С.Ахманова. Göstərilən əsər, s. 237.

МОДАЛЬНОСТЬ ИРРЕАЛЬНАЯ - alm. irreale Modalität (f), ing. uneral modality /'∧n'rıəl məu'd5lıtı/, fr. modalité irréelle, azərb. qeyri-real modallıq. - Söyləmin məzmunu mümkün olmayan, baş verə bilməyən kimi təsəvvür olunması. Alm. d. qeyri-real modallığın ifadəsi üçün Konyuktiv və xüsusilə də Konditionalis-dən geniş istifadə edilir. İng. d. /should/, /would/, rus d. /бы/ ədatları qeyri-real modallığı ifadə edirlər. Azərb. d. arzu şəkli,

downloaded from KitabYurdu.org

qeyri-qəti gələcək də bu mənanı verir. Məs.: alm. d. /Hätte er Zeit gehabt, würde er gekommen sein// (Vaxtı olsaydı gələrdi).
H.Bußmann. Göstərilən əsər, s. 490-493.
МОДАЛЬНОСТЬ ОТРИЦАТЕЛЬНАЯ - alm. negative Modalität (f), ing. negative modality /ˈnegətɪv məuˈd5lɪtɪ/, fr. modalité négative, azərb. inkar modallığı. - Söyləmin məzmunun kerçəkliyə, həqiqətə uyğun olmadığının ifadəsi. Məs.: alm. d. /Er sei nicht gekommen, hätte er keine Einladung bekommen// (O dəvətnamə almasaydı, gəlməzdi).
H.Bußmann. Göstərilən əsər, s. 517-519.
МОДАЛЬНЫЙ - Bax: Модальность ←.
МОДАЛЬНЫЕ ГЛАГОЛЫ - alm. Modalverben (Pl.), ing. modal verbs /ˈməudl və:bz/, fr. les verbes modaux, azərb. modal fellər. - Vaciblik, zərurilik, istək və imkan mənası bildirən fellər. Adətən, belə fellərlə danışan dediklərinin məzmununa öz münasibətini bildirir. Alm. d. 6 modal fel var: /können/, /dürfen/ (bacarmaq), /mögen/ (istəmək), /müssen/, /sollen/ (-malı, -məli), /wollen/ (tstəmək, arzulamaq); ing. d. /might/, /must/. Bunlardan başqa alman dilində /scheinen/ (görünmək), /bleiben/ (qalmaq), /drohen/ (hədələmək), /versprechen/ (vəd etmək), /wissen/ (bilmək) və s. felləri /zu+Inf/-lə işlənərək modallıq bildirirlər. Eyni zamanda alm. və ing. d. /haben (have)+zu (to) və sein (be)+zu (to)/ da modallıq bildirir. Məs.: ing. d. /I have to wait/ (Mən gözləməliyəm); alm. d. /Er scheint mir klug zu sein// (O mənə ağıllı görünür).
H.Bußmann. Göstərilən əsər, s. 417-419.
МОДАЛЬНЫЕ СЛОВА - alm. Modalwörter (Pl.), ing. modal words /ˈməudl wə:dz/, fr. les mots modaux, azərb. modal sözlər. – «Danışanın bütövlükdə ifadə olunan fikrə və ya bu fikrin ayrı-ayrı hissələrinə münasibətini bildirən köməkçi sözlər. Modal sözlərin məna növləri bunlardır: a) təsdiqedici modal sözlər: /əlbəttə, həqiqətən, şübhəsiz, doğurdan (da), şəksiz/; b) yekunlaşdırıcı modal sözlər: /deməli, qısası, beləliklə, ümumiyyətlə, nəticədə/; c) ehtimal modal sözləri: /bəlkə, yəqin, deyəsən, ehtimal (ki,) güman (ki,) sanki, elə bil ki,/ və s.».
M.İ.Adilov və b. Göstərilən əsər, s. 164.
МОДАЛЬНАЯ ЛОГИКА – alm. Modallogik (f), ing. modal logic /ˈməudl ˈlɔdʒɪk/, fr. logique modalle, azərb. modal məntiq. – Fəlsəfi məntiqdə /və, və ya/ bağlayıcılar, modal ifadələr. Məs.: alm. d. /es ist möglich/notwendig/ (mümkündür kt, vacibdir ki,) və s. vasitələrlə aparılan təhlil üsulu.
H.Bußmann. Göstərilən əsər, s. 491.
МОДАЛЬНЫЕ ЧАСТИЦЫ – alm. Modalpartikel (Pl.), ing. modal particles /ˈməudl ˈpa:tɪkls/, fr. particule modalle, azərb. modal ədatlar. – Modallığın ifadəsində iştirak edən ədatlar: alm. d. /ja/ (ki, hə), /doch/ (əlbəttə), /denn/ (ancaq), /aber/ (lakin), /nur/ (yalnız). Bunlar həm də ayrıca çıxış edə bilirlər. Məs.: /ja/ cavab ədatı, /doch/ cümlə ədatı, /denn, aber/

downloaded from KitabYurdu.org

bağlayıcı, /nur/ ölçü ədatı və s. Məs.: /Hans ist verheiratet// (Hans evlidir) ancaq, /Hans ist ja verheiratet// (Hans ki evlidir).
H.Bußmann. Göstərilən əsər, s. 491.

МОДЕЛЬ - alm. Modell (n), ing. pattern /ˈp5tən/, model /ˈmɔdl/, fr. modèle, azərb. model. – 1) Dil vahidinin hissələri arasındakı qarşılıqlı əlaqə sistemini əks etdirən ümumi sxem; 2) Model bəzən qrammatika və ya paradiqm mənasında işlənir.
O.C.Ахманова. Göstərilən əsər, s. 238.

МОДЕЛИРОВАНИЕ - alm. Modellierung (f), ing. modelling /ˈmɔdelɪŋ/, fr. moulage, modeler, azərb. modelləşdirmə. – «Öyrənilən obyektin modelini yaratmaqdan ibarət tədqiqat üsulu. Modelləşdirmədən o zaman istifadə olunur ki, ya öyrənilən obyekti bilavasitə müşahidə etmək mümkün olmur, ya da bu obyekt olduqca mürəkkəb səciyyəli olur».
M.İ.Adilov və b. Göstərilən əsər, s. 165.

МОДЕЛЬНО-ТЕОРЕТИЧЕСКАЯ СЕМАНТИКА – alm. modell-theoretische Semantik (f), ing. model-theoretical semantics /ˈmɔdel ˌ4ɪəˈretɪkl sɪˈm5ntɪks/, fr. sémantique modèle-théorique, azərb. model-nəzəri semantika. – Formal məntiqi dillərin semantik şərhi üçün inkişaf etdirilən məntiqi formal konsepsiya. Əsas prinsipi: formal dillə metadil arasında semantik predikatla düzdür və ya səhvdir arasında seçim edir.
H.Bußmann. Göstərilən əsər, s. 493.

МОДИФИКАЦИЯ – alm. Modifikation (f), ing. modification /ˌmɔd9fɪˈke9ʃ(ə)n/ fr. modification, azərb. modifikasiya (dəyişmə). – Semantik dəyişmə və ya formal sözdüzəltmədə kök morfemin, xüsusilə, prefiksin əlavə edilməsilə əmələ gələn semantik fərq, özü də bu zaman sözün paradiqmatik mənsubluğu saxlanılır, morfemin, leksemin və cümlənin fonetik-fonoloji qəlibində dəyişiklik baş verir. Məs.: alm. d. /lesen/ (oxumaq)- /vorlesen/ (üzündən oxumaq), rus d. /рассказать/ (danışmaq), /пересказать/ (təkrar danışmaq) və s. Azərb. d. /Onlar ağac əkirlər//; ¿Onlar ağac əkirlə:r? və s.
Л.Р.Зиндер. Общая фонетика. М., 1979.

МОДУЛЯЦИЯ - alm. Modulation (f), ing. modulation /ˌmɔdjuˈleɪʃ(ə)n/, fr. modulation, azərb. modulyasiya. - Danışıqda seqmentüstü vasitələrin (səs tonunun hərəkəti, gücü, zamanı, fasilə, cümlə vurğusu və intonasiya baxımından formalaşması, bütövə çevrilməsi, yeri gələndə onun sintaqmlara bölünməsi və s.). Məs.: Azərb. d. /O/ qoca atlıya yaxınlaşıb nəsə dedi//, /O qoca/ atlıya yaxınlaşıb nəsə dedi//.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 127-128.

МОДУС – alm. Modus (m), ing. modus /ˈməudəs/ fr. modus, azərb. modus. - Danışanın ifadə etdiyi hal, vəziyyət və gerçəkliyə qarşı tutduğu mövqeyinin qrammatik kateqoriya kimi ifadəsi. Dillərin əksəriyyətində felin üç şəkli fərqləndirilir: xəbər, qeyri-real (Konjunktiv) və tələb kimi əmr şəkli.

downloaded from KitabYurdu.org

Ancaq bəzi dillərdə məs.: fransız dilində müəyyən gerçəkliyin ifadəsi üçün kondisional, yunan, türk və finn dillərində yerinə yetirilə bilən arzular ifadə etmək üçün optativ (arzu), türk dilində güman bildirmək üçün suppozitiv (arzu) /gələrsə, gələrəm/ və ərəb dilində israrlı təsdiqin ifadəsi üçün energikus (israr) şəkilləri mövcuddur. Modal mövqeləri həm də leksik yollarla (güman ki, bəlkə) ifadə etmək olur.
Bununla yanaşı modus ponens alm. d. Modus Ponens, ing. d. mood of affirming və modus tolens alm. d. Modus Tollen, ing. d. mood of deyning də fərqləndirirlər. Birinci halda söhbət təsdiqdən, ikinci halda isə irəlicədən verilən hökmün əlavə edilən sonrakı cümlədə (impilikasiyada) öz təsdiqini tapmasından gedir. Məs.: /Cəmil Sumqayıtda yaşayır (=p)/, əgər Cəmil Sumqayıtda yaşayırsa, deməli, o, Azərbaycanda yaşayır (p→q), yəni /Cəmil Azərbaycanda yaşayır (=-q)/. İkinci halda isə irəlidə söylənilən fikir əlavə edilən cümlədə /- implikasiyada/ rədd edilir. Məs.: /Cəmil Sumqayıtda yaşamırsa, deməli, o, Azərbaycanda yaşamır// (p→q). /Cəmil Azərbaycanda yaşamır/ (q), deməli, /Cəmil Sumqayıtda yaşamır (p)/.
H.Bußmann. Göstərilən əsər, s. 427.
МОКШАНСКИЙ ЯЗЫК – alm. Mokš(sch)a (Mokš(sch)anisch) (n), ing. Moksha language /mɒ:kʃə ˈlɔŋgwɪʤ/, fr. langue mordva-mokcha, azərb. mokşan dili. – Mordov dillərindən biridir. Əsasən Mordovada yayılmışdır. Daşıyıcılarının sayı 500 minə qədərdir.
П.Орнатов. Мордовская грамматика. М., 1938.
МОЛДАВСКИЙ ЯЗЫК – alm. Moldauisch (n), ing. Moldavian language /mɒlˈdeɪvjən ˈlɔŋgwɪʤ/, fr. le moldave, la langue moldave, azərb. moldavan dili. – Roman dillərinə aid dil. Moldaviyada yayılmışdır. 2,5 milyona qədər daşıyıcısı mövcuddur. Rumın dilinə yaxın dildir. 1989-cu ildən latın qrafikasına keçmişdir.
Л.А.Гуцул, Е.И.Рошкован. Молдавское советское языкознание. Кишинев, 1975.
МОМЕНТАЛЬНЫЙ – Bax: Мгновенный ←.
МОНГОЛЬСКИЕ ЯЗЫКИ – alm. mongolische Sprachen (Pl.), ing. Mongolian languages /ˈmɒŋˈgəuljən ˈlɔŋgwɪʤɪz/, fr. langues mongoles, azərb. monqol dilləri. – Altay dil qrupunun qolu olub 12 dili əhatə edir. Bu dildə Mərkəzi Asiyada 6,5 milyon adam danışır. Monqol, buryat, kalmık və s. dillər monqol dillərinə daxil olan əsas dillərdir.

downloaded from KitabYurdu.org

QALİK MONQOL ƏLİFBASI

Transkripsiyası	Uyğur. finalı	Transkripsiyası	Qalik. finalı	Transkripsiyası	Uyğur. finalı	Transkripsiyası	Qalik. finalı
a, e		a				ḍh	
		â				ṇ	
		i				t	
		î				th	
o, u		u		d, t		d	
		û				dh	
		e		n		n	
		ai				p	
		o				ph	
		cu		b, p		b	
		aṃ				bh	
		aḥ		m		m	
g, k		k		j, i		j	
		kh		r		r	
		g		l		l	
		gh		w, f		w	
		ṅ		š		s'	
ǧ, č		č				š	
		čh		s		s	
		ǧ				h	
		ǧh				ks	
		ñ				sz	
		ṭ				sz	
		ṭh				ṭ	
		ḍ				sh	

Г.Д.Санжеев. Сравнительная грамматика монгольских языков. т. 1, М., 1953.

МОНГОЛЬСКИЙ ЯЗЫК – alm. Mongolisch (n), ing. Mongolian language /ˈmɔŋˈɡəuljən ˈlɔŋɡwɪʤ/, fr. le mongol, langue mongole, azərb.

downloaded from KitabYurdu.org

monqol dili. – Monqol dillərinə aid olan dillərdən biridir. 1921-ci ildən Monqolıstanın rəsmi dilidir. 4,8 milyona qədər daşıyıcısı vardır.
Б.Х.Тодаева. Грамматика современного монгольского языка. Фонетика и морфология. М., 1951; Г.Д.Санжеев. Современный монгольский язык. М., 1959.

МОН-КХМЕРСКИЕ ЯЗЫКИ – alm. Mon-Kxmersprachen (Pl.), ing. Mon-Khmer languages /m6:n-kmer ˈl5ŋgwɪʤɪz/, fr. langues mon-khméres, azərb. mon-kxmer dilləri. – Cənub şərqi Asiyada 140 dili əhatə edir. Əsas dili Vyetnam dilidir (50 milyon). Yazısı hind və çin yazılarına əsaslanır.
H.Bußmann. Göstərilən əsər, s. 499; Ю.А.Горгониев. Грамматика кхмерского языка. М., 1966.

МОНЕМ – alm. Monem (n), ing. moneme /ˈm6nɪ:m/, fr. monème, azərb. monem. Fransız dilçisi A.Martinenin ikili üzvlənmə konsepsiyasında, ikinci üzvlənmənin ən kiçik vahidi, ifadə ilə mənanın vəhdəti. O, leksikonda mənası açılmış monemləri açıq sinif olan cütlər kimi leksik monemlər və ya semantemlər adlandırır. Qapalı sinfin monemlərini isə o, morfemlər adlandırır. Daha sonra o, monemləri funksional (sözönləri) və avtonom (dəyişməz, ancaq sərbəst və asılı) zaman, hal göstəriciləri. (Məs.: alm. d. /heute/ (bu gün), /leider/ (təəssüf)) olmaqla üç yerə bölür. Amerikan strukturalizmində morfemə A.Martinenin monemi, sərbəst leksik morfemlərə «semantemi» və asılı monemlərə morfemi uyğun gəlir. Bəzi hallarda ifadə planının ən kiçik vahidinə məna planında semem uyğun gəlir.
A.Martinet. Elements of General Linguistics. London, 1964.

МОНОГРАФИЯ - alm. Monographie (f), ing. monograph /ˈmɔnəgrα:f/, fr. monographie, azərb. monoqrafiya. – Müəyyən elmi araşdırmaların nəticəsinə həsr olunmuş elmi əsər. Məs.: A.Axundov. Azərbaycan dilinin fonemlər sistemi. Bakı, 1974.

МОНОКУТУБА – alm. Monokutuba (n), ing. MonoKituba /m6n7ˈkɪtubə/, fr. monokautoube, azərb. monokutuba. – Bantu dillərindən biridir. Konqoda yayılmışdır. Daşıyıcılarının sayı 3,8 milyona qədərdir. Monokutuba kreollaşmış dildir. Yazısı latın qrafikasına əsaslanır.
W.H.Fehderau. Descriptive grammar of the Kituba language: a dialektal survey. Leopoldville, 1963.

МОНОЛИНГВИЗМ – alm. Monolinguismus (m), ing. monolinguism /m6n7ˈlɪŋw9z7m/, fr. monolinguisme, azərb. birdillik. – Yalnız bir dildə ünsiyyətdə olmaq; birdilli ölkə, xalq, cəmiyyət.
F.Veysəlli. Dil, cəmiyyət və siyasət. Bakı, 2004.

МОНОЛОГ - alm. Monolog (m), ing. monologue /ˈmɔnəlɔg/, soliloque /səˈlɪləkwɪ/, fr. monologue, azərb. monoloq. - Danışanın öz-özünə müraciətlə söylədiyi nitq. Dialoji nitqdə, adətən, dinləyicinin-həmsöhbətin sözlü müdaxiləsi nəzərdə tutulur. Dialoqa nisbətən monoloq daha mürəkkəb sin-

downloaded from KitabYurdu.org

taktik qruluşa malik olması, daha geniş mövzunu əhatə etməsi ilə səciyyələnir.
F.Veysəlli. Dil, cəmiyyət və siyasət. Bakı, 2004.

МОНОЛОГ ЛИРИЧЕСКИЙ – alm. lyrischer Monolog (m), ing. lyric monologue /lırık ˈmɔnəlɔɡ/, fr. monologue lyrique, azərb. lirik monoloq. - Danışanın hiss-həyacanlarını, yaşantılarını və emosiyalarını ifadə etməyə xidmət edən monoloq. Məs.: Azərb. d. /Bir vaxtlar mən də başqa uşaqlar kimi məktəbə gedər, dərsdən evə qayıdardım, indi isə …/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 165.

МОНОЛОГ ПОВЕСТВОВАТЕЛЬНЫЙ – alm. erzählender Monolog (m), ing. narrative monologue /ˈn5rətıv ˈm6nəl6ɡ/, fr. monologue narratif, azərb. nəqli monoloq. - Məlumatın mütəşəkkil, məntiqi və ardıcıllıqla verilməsinin əsas vasitəsi olan monoloq növü.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 165.

МОНОРЕМА - alm. Monorem (n) , ing. monorem /ˈmɔnərıˈm/, fr. monorème, azərb. təkremalı, monorem. - Yalnız bir üzvü olan, bir üzvdən ibarət olan ifadə. Belə söyləmlərin ifadəsində prosodik vasitələr (vurğu, intonasiya, fasilə) mühüm rol oynayır. Məs.: Azərb. d. /Səhər/, ¿Səhər?; alm. d. /Sonnenaufgang/ (günəşin doğması).
M.İ.Adilov və b. Göstərilən əsər, s. 165.

МОНОСЕМИЯ – alm. Monosemie (f), ing. monosemic /m6n7ˈsi:m9k/, fr. monosémie, azərb. monosemiya. – Bir işarələyənə yalnız bir məna uyğun gəlirsə bu monosemik işarədir. Buna əsas etibarı ilə elmi terminologiyada tez-tez rast gəlmək olur. İltisaqi dillərdə də (türk dilləri) bir şəkilçi morfemin adətən bir mənası olur. Məs.: Azərb. d. /dəmir-çi/, /qayıq+dakı+lar/ və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 239.

МОНОСИЛЛАБ - alm. einsilbiges Wort (n), ing. monosyllable /ˈmɔnəˌsıləbl/, fr. monosyllabe, azərb. təkhecalı söz. – Məs.: alm. d. /an, in, ich, du, wir/; ing. d. /for/; Azərb. d. /mən, sən/; fr. d. /je, tu, il/; rus d. /я, ты/ və s.
F.Veysəlli. SDƏ. Bakı, 2005.

МОНОСИЛЛАБИЧЕСКИЙ - alm. einsilbig, ing. monosillabic /ˈmɔnəsıˈl5bık/, fr. monosillabique, azərb. təkhecalı.
Bax: Моносиллаб ←.

МОНОТОНИЗМ - alm. Monotonismus (m), ing. monotonism /ˈmɔnətounsım/, fr. monotonisme, azərb. monotonizm, monotonluq. – Dilin fonoloji sistemində ahəngin pozulması. Bu halda fonetik vasitələrin reallaşmasında ahəngdarlıq gözlənilmir. Məs.: ing. d. /I think so that…// söyləmində cümlədə saitlərin düzümündə heç bir ahəng gözlənilmir. Müq. et: /a e, ı, 6, -, -/.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 165.

downloaded from KitabYurdu.org

МОНОТОНИЧЕСКОЕ УДАРЕНИЕ - alm. monotonischer Akzent (m), ing. monotonic stress /mə'n6t6nık stres/, fr. accent monotonique, azərb. təktonlu vurğu. – Yalnız bir heca üzərinə düşən vurğu. Məs.: fr. d. vurğu həmişə sözün axırıncı hecasına düşür. Müq. et: /signifie/, /paris/ və s.
F.Vejsalov (Vejsälli). Lehrbuch der deutschen Phonetik. Bakı, 1989, s. 194-205.

МОНОФЛЕКСИЯ – alm. Monoflexion (f), ing. monoflexion /mə'n6'flekʃ(ə)n/, fr. monoflexie, azərb. təkşəkilçi. – Morfoloji və sintaktik əlamətin yalnız bir göstəricilə verilməsi. Məs.: alm.d. ismin halı və cinsi ondan əvvəl gələn sifətin hal sonluğu ilə bildirilir. Müq. et: /kleines Kind/ (balaca uşaq), /kleine Schule/ (balaca məktəb), /kleiner Mann/ (balaca kişi) və s.
R.Conrad. Göstərilən əsər, s. 170.

МОНОФОНЕМАТИЧЕСКАЯ ОЦЕНКА – alm. monophonematische Einschätzung (f), ing. Monophonematics mark /mə'n6'f6-nım5tıks ma:k/, fr. note, évaluation monophonématique, azərb. monofonematik dəyərləndirmə. – Dilin fonem sisteminin təhlilində iki səsin (məs.: affrikat, diftonq) bir fonem kimi dəyərləndirilməsi. N.S.Trubeskoy bunun üçün 6 qayda təklif edir: 1) hecaya ayrılmamaq; 2) bir tələffüz məxrəcində artikulyasiya bazasının tədricən pozulması; 3) birləşmənin uzunluğunun digər fonemlərin uzunluğundan artıq olmaması (bunu Şerba 1911-ci ildə göstərmişdir); 4) başqa səs birləşmələrinin gələ bilməməsi mövqeyi; 5) 1 və 3-cü qaydalarda verilən tələblər dil sistemindən hasil olursa və birləşmə yeganə fonem birləşməsi kimi götürülürsə; 6) 1-3-cü qaydalara uyğun gəlməyən başqa səs birləşməsi kimi çıxış edir.
Burada verilən qaydaların heç birisi linqivistik kriteriya kimi qəbul edilə bilməz, çünki onlar dilxarici amillərdir. L.R.Zinder (1904-1995) isə affrikatları ona görə monofonem sayır ki, onların komponentləri heç vaxt morfoloji sərhəd vasitəsilə ayrıla bilmir. Məs.: Azərb. d. /aʧıq/ sözü morfemlərə bölünərkən (/aʧ/ və /ıq/) [**t**] morfemin birində, [ʃ] isə o birisində ola bilməz.
N.S.Trubeskoy. Göstərilən əsər, s. 70-77; Л.Р.Зиндер. Общая фонетика, М., 1979; F.Vejsälli. Zum Problem der Sprachgliederung. Das Wort, 2005; F.Veysəlli. SDƏ. Bakı, 2005.

МОНОФТОНГ - alm. Monophthong (m), Einzellaut (m), ing. monophthong /'m6nəfθ6ŋ/, fr. monophthongue, azərb. monoftonq. - Bir səsdən ibarət sadə sait. Monoftonq diftonqa, triftonqa və s. qarşı qoyulur. Tələffüzü zamanı danışıq üzvlərinin vəziyyəti dəyişməz qalan sait monoftonq hesab edilir. Məs.: Azərb. d. fonoloji sisteminə daxil olan fonemlərin hamısı monoftonqdurlar.
F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı, 2005, s. 92-149.

downloaded from KitabYurdu.org

МОНОФТОНГИЗАЦИЯ - alm. Monophthongisierung (f), ing. monophtongization /ˈm6nəfθ6ŋgeɪzeɪʃ(ə)n/, fr. monophtongatsion, azərb. monoftonlaşma. – Dilin fonoloji sistemində baş verən müəyyən dəyişmələr əsasında diftonqun monoftonqa keçməsi. Məs.: orta dövr alman dilində /ie/, /iu/ və /ue/ müvafiq olaraq /i:/, /u:/ və /y:/ saitlərinə keçib.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 92-149.
MORA – alm. More/Mora (f), ing. mora /ˈm6:r7/, fr. mora, azərb. mora. – Fonologiyada qısa saitdən və ən çoxu bir samitdən ibarət qısa heca. İkimorlu hecalar uzun saitlə müvafiq olaraq iki və bir neçə samitdən ibarət olur. Morlu dillərdə ən kiçik prosodik vahid həmişə heca ilə üst-üstə düşmür. Məs.: lap və hopi dilləri.
N.S.Trubeskoy. Göstərilən əsər. s. 233-247.
МОРДОВСКИЕ ЯЗЫКИ – alm. mordvinische Sprachen (Pl.), ing. Mordvin(ian) languages /m6:dɪvɪn(jən) ˈl5ŋgwɪʤɪz/, fr. des Mordves, langues modovas, azərb. mordov dilləri. – Fin-volqa dilləri qrupu. Bu dil qrupuna mokşan və erzan dilləri aiddir. Əsasən Mordoviya, Başqırt, Tatar və Çuvaş respublikalarında yayılmışdır. Daşıyıcılarının sayı 1 milyondan yuxarıdır. Bu dil qrupuna daxil olan mokşan dilinin fonoloji sistemi 40 fonemdən ibarətdir. Bunlardan 7-si sait, 33-çü samit fonemlərdir. Erzan dilinin fonem repertuarı 33 fonemdən ibarətdir: 5 sait, 28 samit. Mokşan dilində vurğu əsasən ilk hecaya, erzan dilində istənilən hecaya düşə bilər.
Б.А.Серебренников. Историческая морфология мордовского языка. М., 1967; Грамматика мордовского (мокшанский и эрзянский) языков. ч. 1. Фонетика и морфология. Саранск, 1962.
МОРУ-МАДИ ЯЗЫКИ – alm. Moru-Madi-Sprachen (Pl.), ing. Mori-Madi languages /ˈm6:rɪ-madɪ ˈl5ŋgwɪʤɪz/, fr. langues morou-madies, azərb. moru-madi dilləri. – Şari-nil dillərinin mərkəzi sudan yarımqrupu. Sudanda, Zair və Uqandanın ona qonşu ərazilərində yayılmışdır. Bu dillərdə danışanlırın sayı 2 milyona çatır. Aqi, andri, miza, kaduro, avukaya, loqo, kaliko, luqbara, madii, lokay, pandikeri, olubo (luluba), burulo və s. moru-madi dilləri yarımqrupuna daxildirlər.
A.N.Tucker, M.A.Bryan. The non-Bantu languages of North-Eastern Africa. L., 1956.
МОРФ – alm. Morph (n), ing. morph /m6:f/, fr. morphe, azərb. morf. – Morfemin danışıq aktında işlənməsi. İki eyni mənalı morf müxtəlif cür paylanırlarsa, onlara eyni morfemin morfları, variantları və ya allomorfları deyirlər. Məs.: alm. d. /-er/ həm hal şəkilçisi /harter Griff/ (sərt tutma), həm də cəm şəkilçisi /Kind+er/ (uşaqlar). Bu fərqlənmə fon, allofon, fonem fərqlənməsinə uyğun gəlir.
Ю.С.Маслов. Göstərilən əsər, s. 133.
МОРФЕМА - alm. Morphem (n), ing. morpheme /ˈmɔ:fi:m/, fr. morphème, azərb. morfem. - İşarələr sistemi olan dildə fonoloji səviyyədən sonra 2-ci yerdə gələn morfoloji səviyyənin vahidi. Bu səviyyənin

downloaded from KitabYurdu.org

vahidinin adı morfemdir. Fonemdən fərqli olaraq morfem ikitərəfli ən kiçik işarədir. Bu o deməkdir ki, morfemin həm ifadə edəni, yəni fonetik tərəfi, həm də ifadə olunanı, yəni məzmun tərəfi var. Başqa sözlə desək, morfem dilin mənalı ən kiçik vahididir. Morfem öz səviyyəsində bütövlüyü pozulmadan kiçik hissələrə bölünə bilməz. Məs.: alm. d. /ˈ*zinlo:s/ «mənasız» sözündə iki morfem var /ˈ*zin/ (məna) və /lo:s/ (sız) və onların heç biri morfem səviyyəsində özündən kiçik hissələrə bölünməz. Lakin bu heç də o demək deyildir ki, morfemin ifadə və məna tərəfi bölünməz bir tamdır. /lo:s/ morfeminin ifadə planında üç fonem ardıcıllığı var. / l / + /o: / + / s /. Bu morfemin məna tərəfində isə bir neçə semin olduğunu müəyyənləşdirmək çətin deyildir. Məs.: alm. d. /loser Abzatz/ «yumşaq sonluq» və /losgeben/ «əlindən buraxmaq» sözlərində /lo:s/ müxtəlif semlərə malikdir.

Morfem anlayışını ilk dəfə dilçiliyə gətirən İ.A.Boduen de Kurtene olmuşdur. O, morfemi sözün məna daşıyan ən kiçik hissəciyi kimi başa düşmüşdür. Ancaq o, həm də dilçilik elminə sıfır morfem anlayışını gətirmişdir (Məs.: alman dilində qadın cinsli isimlərin təkdə qenitiv və akkuzativ halları: /Mutter-Mutter/).

Sonralar isə morfem məfhumu daha geniş və ətraflı planda araşdırılmağa başlandı. Bu gün artıq morfem universal dil vahidi kimi qəbul olunmuşdur. Dildəki morfemlər iki qismə ayrılır: a) seqment morfemlər-sözün hissələrindən ibarət olan morfemlər (məs; kök, ön şəkilçi, daxili şəkilçi); b) superseqment morfemlər-intonasiya, vurğu və s.

Daha sonra morfemlərin düzümünə görə a) məsafəli (məs.: alm. d. (ge+leb+t (partisip II formasında /ge/ və /t/ ilə ayrılır); b) bir neçə mənalı (məs.: alm. d. /sprechen/sprach- /ge/sproch+en/ ardıcıllığında həm zaman, şəxs, həm də kəmiyyət ifadə olunur). Daha sonra morfemlər leksik. (məs.: Azərb. d. /daş, gum/ və s.) və qrammatik (şəkilçilər) morfemlərə bölünürlər. İşlənməsinə görə morfemlər müstəqil /Ball/ (top), /Buch/ (kitab) və asılı olurlar (məs.: /sage/ (deyirəm), /sagt/ (deyir) və s.). Morfemlər valentliyə görə təkvalentli (məs.: rus d. море) və çoxvalentli (məs.: Azərb. d. /daş/) olurlar; /çağdaş, sirdaş/) və s.

Ю.С.Маслов. Введение в языкознание. Москва, 1987, s.131; F.Veysəlli. GDG. Bakı, 2003, s. 271-294.

МОРФЕМА АФФИКСАЛЬНАЯ - alm. αffixmorphem (n), ing. affixal morpheme /ˈ5fıksəl ˈm6:fi:m/, fr. morphème affixal, azərb. şəkilçi morfemlər. - Belə morfemlərin müstəqil leksik mənası olmur, onların mənası ya leksik-qrammatik səciyyəli (sözdəyişdirici, sözdüzəldici), yaxud sırf qrammatik (bəzən isə buna relyason, yəni münasibət bildirən morfemlər deyirlər) və, nəhayət, formal struktur funksiya yerinə yetirirlər. Məs.: rus d. /рука - руч-ка-руч-ной-рук-ой-вы-руч-ить/ və s.

А.А.Реформатский. Göstərilən əsər, s. 251-252.

МОРФЕМА ДЕРИВАЦИОННАЯ - alm. derivationelles Morphem (n), ing. derivational morpheme /ˌderıˈveıʃənl ˈm6:fi:m/, fr. morphème dérivationel, azərb. derivasion morfem. - Sözün ilkin leksik mənasını

downloaded from KitabYurdu.org

dəyişən, yeni söz əmələ gətirən morfem. Məs.: Azərb. d. /dəmir – dəmirçi/, /söz – sözlük/, /ev – evcik/, /yol – yolçu/, /göz – gözlük/, ing. d. /to teach – teacher/ (öyrətmək – müəllim), alm. d. /lehren – Lehrer/ (öyrətmək – müəllim) və s.
А.А.Реформатский. Göstərilən əsər, s. 252.

МОРФЕМА КОРНЕВАЯ - alm. Wurzelmorphem (n), ing. root morpheme /ru:t ˈm6:fi:m/, fr. morphème radical, azərb. kök morfem. - Sözün leksik mənasını, nüvəsini təşkil edən ən kiçik hissəsi. Məs.: Azərb. d. /tamaşa-çı-lar-dan/, /oxu-cu-lar-dan/ və s.
А.А.Реформатский. Göstərilən əsər, s. 252.

МОРФЕМА ЛЕКСИЧЕСКАЯ - alm. lexikalisches Morphem (n), ing. lexical morphemes /ˈleksıkəl ˈm6:fi:mz/, fr. morphèmes lexical, azərb. leksik morfemlər. – Ayrılıqda leksik mənası olan. Məs.: Azərb. d. /at, dəvə/; alm. d. /Buch/ (kitab); rus d. /том/ (cild); ing. d. /cat/ (pişik) və s.
Ю.С.Маслов. Göstərilən əsər, s. 132.

МОРФЕМА НУЛЕВАЯ - alm. Nullmorphem (n), ing. zero morpheme /ˈzıərou ˈm6:fi:m/, fr. morphème zéro, azərb. sıfır morfem. - Qrammatik (sözdəyişdirici) şəkilçinin olmaması. Bu hal müəyyən paradiqm daxilində xüsusi semioloji qrammatik dəyər kəsb edir. Məs.: /dəftər/ (adlıq halında) sözünün sonunda heç nə yoxdur, bunu İ.A.Boduen de Kurtenedən bu yana sıfır morfem adlandırırlar. Bu söz öz paradiqminin digər formalarında müvafiq şəkilçilər qəbul edir. Və ya rus dilində /белый, бело, белы, бела/ sözlərindəki müvafiq affikslərin /бел +0/ formasında olması sıfır morfem kimi götürülə bilər. Əslində bu yanaşma işarə nəzəriyyəsindən gəlsə də, dil baxımından qəbul edilə bilməz. Belədə biz formal (substansiya) tərəfi olmayana bir məna vermiş oluruq.
Ю.С.Маслов. Göstərilən əsər, s. 139.

МОРФЕМА ПОЛОЖИТЕЛЬНАЯ - alm. positives Morphem (n), ing. positive morpheme /ˈpɔzətıv ˈm6:fi:m/, fr. morphème positif, azərb. müsbət morfem. - Dilçilikdə bu hal sıfır morfem anlayışına qarşı qoyulur. Məs.: rus dilində /книг – a/ sözü yiyəlik (род. пад.) halında cəm şəklində "книг" formasına qarşı qoyulur.
Ю.С.Маслов. Göstərilən əsər, s. 134.

МОРФЕМА ПРЕФИКСАЛЬНАЯ - alm. Präfixmorphem (n), ing. prefix morphem /ˈpri: fıks ˈmɔ:fı:m/, fr. morphème préflixal, azərb. prefiks morfem. – Söz forması tərkibində kökəqədərki mövqedə duran. Bu hal Azərbaycan dilində geniş yayılmamışdır, yalnız Azərbaycan dilində alınma (əsasən fars, ərəb mənşəli) sözlərdə rast gəlinir. Məs.: /nanəcib, biixtiyar, bisavad, bimürvət; rus d. читать-почитать-прочитать-дочитать/. Ancaq hind-Avropa dillərində bu geniş yayılıb.
Ю.С.Маслов. Göstərilən əsər, s. 136.

МОРФЕМА СЕГМЕНТНАЯ - alm. Segmentmorphem (n), ing. segmental morpheme /ˈsegməntəl ˈm6:fı:m/, fr. morphème segmentatif,

downloaded from KitabYurdu.org

azərb. xətti morfem. – Əsil mənada morfem deməkdir. Söz forması daxilində xətti ardıcıllıqda müəyyən mövqe tutan, müəyyən uzunluğa malik olan. Morfemlərin kök və şəkilçiyə bölünməsi buradan başlayır.
Ю.С.Маслов. Göstərilən əsər, s. 136.

МОРФЕМА СОЕДИНИТЕЛЬНАЯ - alm. Verknüpfungsmorphem (n), ing. connecting morpheme /kəˈnektɪŋ ˈm6:fi: m/, fr. morphème conjonctif copoulative, azərb. birləşdirici morfem. - Sözdüzəltmə prosesində ayrı-ayrı morfemləri birləşdirən morfemlər. Məs.: Azərb. d. /gəlhagəl/, /vurhavur/, /birbəbir/, /yazhayaz/ və s. sözlərində, /ba-, ha/. və s. morfemlər belə morfemlərdəndir. Alm. d. /Land+s+man/- da (həmyerli) /s/, buna misal ola bilər.
Ю.С.Маслов. Göstərilən əsər, s. 136.

МОРФЕМА СВЯЗКА - alm. Kopulamorphem (n), ing. copula morpheme /ˈk6pjulə ˈm6:fɪ:m/, fr. morphème copule, azərb. morfem bağlayıcı. - Mürəkkəb sözlərdə birləşdirici funksiyasında çıxış edən morfem. Məs.: rus d. /e-o/ saitləri. Müq. et: /синеглазный/, /победоносный/; alm. d. /-en/ morfemi. Müq. et: /Frauentisch/ (qadın stolu) və s.
Ю.С.Маслов. Göstərilən əsər, s. 136.

МОРФЕМАТИЧЕСКОЕ ПРЕДЛОЖЕНИЕ - alm. morphematischer Satz (m), ing. morphemic sentence /ˈmɔ:fi:mık ˈsentəns/, fr. proposition morphèmique, azərb. morfematik cümlə: - İntonasiya konturuna malik morfematik fraza. Belə cümlələr, adətən, hiss - həyəcan, sual, nida və. s. kimi intonasiya xüsusiyyətlərinə malik olurlar. Məs.: Azərb. d. /gəl!, ¿həƧ, /hə/ və s.
Ю.С.Маслов. Göstərilən əsər, s. 164-167.

МОРФЕМАТИЧЕСКОЕ СЛОВО - alm. morphematisches Wort (n), ing. morphemic word /ˈmɔ:fi:mık wə:d/, fr. mot morphèmique, azərb. morfematik söz. - Bir əsasdan ibarət danışıq vahidi. Məs.: Azərb. d. /gəl, get, yaz, oxu/, /səhər/, /yol/ və s.
Ю.С.Маслов. Göstərilən əsər, s. 164-167.

МОРФЕМИКА - alm. Morphemik (f), ing. morphemics /ˈm6:fi:mıks/, fr. morphèmique, azərb. morfemika. – (morfologiyanın sinonimi) Dilin morfem tərkibinin təsviri ilə məşğul olan dilçilik şöbəsi. Morfemlərin qurluşu və onların nisbətən böyük morfem ardıcıllıqlarında gəlməsi qanunauyğunluqlarını öyrənən sahə.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 274-276.

МОРФЕМНЫЙ АНАЛИЗ – alm. Morphemanalyse (f), ing. morpheme analysis /ˈm6:fi:m əˈn5ləsıs/, fr. analyse morphèmique, azərb. morfemlərə görə təhlil. – İng. d. linqvistikada sinxron morfologiyanı göstərmək üçün işlənən termin.
Ю.С.Маслов. Göstərilən əsər, s. 164-167.

downloaded from KitabYurdu.org

МОРФОЛОГИЗАЦИЯ - alm. Morphologisation (f), ing. morphologization /ˌmɔ:fəˈlɒʤɪzeɪʃ(ə)n/, fr. morphologisation, azərb. morfolojiləşmə. – Müəyyən fonem ardıcıllığının morfoloji dəyər kəsb etməsi, müəyyən fonem ardıcıllığının morfoloji səciyyə daşıması. Məs.: orta dövr alm. dilində umlaut fonetik şərtlə bağlı idi. Unifikasiya nəticəsində bu fonetik amil aradan qalxdı, ancaq umlaut morfoloji əlamət kimi saxlanıldı. Müq. et: alm. d. /lang-länger, Hund-Hünde/, /Mutter-Mütter/, /Tochter- Töchter/, /Vater-Väter/ (uzun – bir az uzun, it – itlər, anna – analar, qız – qızlar, ata - atalar) və s.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 274-294.
МОРФОЛОГИЗОВАННОЕ ФОНОЛОГИЧЕСКОЕ РАЗЛИЧИЕ - alm. morphologisierter phonologischer Unterschied (m), ing. morphologized phonologic(al) difference /mɒ:ˈfɒlʔʤizd ˌfəunəˈlɒʤɪk(əl) ˈdɪfrəns/, fr. différence phonologique morphologisée, azərb. morfolojiləşmiş fonoloji fərq. – Söz formalarının qrammatik cəhətdən fərqləndirilməsini (differensiyasiyasını) təmin edən fonoloji fərq. Məs.: rus d. /делать/ - /сделать/; alm. d. /Mutter/ (ana) - /Mütter/ (analar).
А.А.Реформатский. Göstərilən əsər, s. 255.
МОРФОЛОГИЧЕСКИЙ - alm. morphologisch, ing. morphological /ˌmɔ:fəˈlɔʤɪkəl/, fr. morphologique, azərb. morfoloji. - Sözün morfem quruluşuna aid olan.
Bax: Морфология →.
МОРФОЛОГИЧЕСКАЯ АНАЛОГИЯ - alm. morphologische Analogie (f), ing. morphological analogy /ˌmɔ:fəˈlɔʤɪkəl əˈnɔləʤɪ/, fr. analogie morphologique, azərb. morfoloji analogiya (oxşarlıq, bənzəyiş). - Nisbətən məhsuldar və geniş yayılmış, müxtəlif cəhətdən bir-biri ilə əlaqəsi olan, digər dil vahidinin təsiri nəticəsində yaranan dil hadisəsi-bənzəyiş. Məs.: orta dövr alm. d. «liep» /liep/>yeni dövr alm. d. «lieb» /li:p/ (əziz) olduğu kimi «wiese» /viezə/ → də «wiese» /vi:zə/ (çəmənlik) oldu. Analogiya (bənzəyiş) dilin digər səviyyələrində olduğu kimi, morfoloji səviyyədə də özünü göstərir. Məs.: son zamanlar alm. d. /genschern/ (Almaniya xarici işlər nazirinin adından yaranan sözdür, «genşerləşdirmək» deməkdir) sözü əmələ gəlib, bu da /mosern/-ə («mozerləşdirmək» deməkdir) analogiya kimi yaranıb.
Ю.С.Маслов. Göstərilən əsər, s. 181-189.
МОРФОЛОГИЧЕСКИЙ ВАРИАНТ СЛОВА - alm. morphologische Variante des Wortes (f), ing. morphological variants of a word /ˌmɔ:fəˈlɒʤɪkəl ˈvɛərɪənts əv əˈwə:d/, fr. variante morphologique du mot, azərb. morfoloji variant. - Eyni bir sözün morfem tərkibinə görə müxtəlif şəkildə təzahürü, ifadə olunması. Dilin sistemində morfemlər abstrakt dil

downloaded from KitabYurdu.org

vahidi kimi danışıqda konkret nümunələrdə – allomorflar şəkilində təzahür edir. Məs.: alm. d. /Ra:t / «təkər» → /Re:dəR/ (təkərlər).
Ю.С.Маслов. Göstərilən əsər, s. 137.

МОРФОЛОГИЧЕСКИЕ ДУБЛЕТЫ - alm. morphologische 1ubletten (Pl.), ing. morphological double /ˌmɒ:fəˈlɔdʒɪkəl ˈdʌbl/, fr. doublets morphologiques, azərb. morfoloji dubletlər (cütlüklər). - Eyni kökə sözdüzəldici və sözdəyişdirici şəkilçilərin artırılmasından yaranan cütlüklər. Məs.: Azərb.d. /ifadəlik-ifadəlilik, sənətçi-sənətkar, tabelik-tabelilik/.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 165-167; Ю.С.Маслов. Göstərilən əsər, s. 137.

МОРФОЛОГИЧЕСКАЯ ЕДИНИЦА - Bax: Морфема ←.

МОРФОЛОГИЧЕСКОЕ ИЗМЕНЕНИЕ - alm. morphologische Veränderung (f), ing. morphological change /ˌmɔ:fəˈlɔdʒɪkəl ʧeɪnʤ/, fr. changement morphologique, azərb. morfoloji dəyişmələr. - Dildə ayrı-ayrı sözlərin morfem tərkibinə görə dəyişikliyə uğraması. Məs.: rus d. /морфонема/ «/морфофонема/; ing. d. /tooth - teeth/ (diş-dişlər) və s.
Ю.С.Маслов. Göstərilən əsər, s. 140-144.

МОРФОЛОГИЧЕСКАЯ КАТЕГОРИЯ - alm. morphologische Kategorie (f), ing. morphological category /ˌmɔ:fəˈlɔdʒɪkəl ˈk5tɪgərɪ/, fr. catégorie morphologique, azərb. morfoloji kateqoriya. - Müəyyən dilin leksik və qrammatik səviyyələrini səciyyələndirən əlamətlərin morfoloji ifadəsi. «Qrammatik forma ilə qrammatik mənanın vəhdəti qrammatik kateqoriya yaradır». F.Yadigar (Veysəlli). GDG, s. 229. «Bu və ya digər qrammatik göstəricilərlə sistematik olaraq ifadə olunan eyni cinsli qrammatik mənaların bir-birinə qarşı durmasını qrammatik kateqoriya kimi müəyyənləşdirmək olar».
Ю.С.Маслов. Введение в языкознание. Москва. 1987, s. 127.

МОРФОЛОГИЧЕСКАЯ КЛАССИФИКАЦИЯ - alm. morphologische Klassifikation (f), ing. morphological classification /ˌmɔ:fəˈlɔdʒɪkəl kl5sɪfɪˈkeɪʃən/, fr. classification morphologique, azərb. morfoloji təsnifat. - Dildə qrammatik formaların düzəlməsində özünü göstərən fərqlərə, xüsusiyyətlərə əsaslanan təsnifat. Adətən dilçilikdə morfoloji təsnifat tipoloji təsnifatla eyni götürülür, lakin tipoloji təsnifat morfoloji təsnifata nisbətən daha geniş əhatə dairəsinə malikdir. Morfoloji təsnifat dilin morfem sistemini öyrənirsə, tipoloji təsnifat dilin fonetik və sintaktik səviyyələrini təhlil edir. Bu təsnifata görə dillər üç yerə bölünür: təcrid edilmiş, sintetik və inkorpor dillər.
A.A.Реформатский. Göstərilən əsər, s. 388, 443-456

МОРФОЛОГИЧЕСКОЕ НАПИСАНИЕ - alm. morphologische Schreibung (f), ing. morphological spelling /ˌmɔ:fəˈlɔdʒɪkəl ˈspelɪŋ/, fr. graphie morphologique, azərb. morfoloji yazılış. - Orfoqrafiyada morfoloji

downloaded from KitabYurdu.org

prinsipə əsaslanan yazı növü. Yazı prosesində morfem eyniyyətinə can atan yazı növü. Bu yazı növünün ən naqis cəhəti dilin çağdaş mərhələsində fəaliyyət göstərən fonetik dəyişmələrə fikir verilməməsidir. Bu cür hallara əsasən rus d. rast gəlmək mümkündür. Müq. et: /вода, водовоз/ sözlərində /вод/ «о» ilə yazılır, halbuki bu sözlərdə birinci hecada /a/ saiti tələffüz olunur.

I Всесоюзный Тюркологический съезд. Стенографический отчет. Баку, 1926.

МОРФОЛОГИЧЕСКИЕ ПРИЗНАКИ - alm. morphologische Merkmale (Pl.), ing. morphological markers /ˌmɔ:fəˈlɔʤɪkəl ˈmɑ:kəs/, fr. marques (indices) morphologique, azərb. morfoloji əlamətlər. - Müəyyən söz qrupunu əhatə edən qrammatik kateqoriyanın morfoloji təzahürü, ifadəsi. Məs.: şəxs, zaman və kəmiyyət göstəricisinin şəkilçilə bildirilməsi. Müq. et: /ˈza:gə (I şəxsin təki, ind. zaman) – /ˈza:gt/ (III şəxsin təki, ind. zaman) və s.

H.Glinz. Göstərilən əsər, s.

МОРФОЛОГИЧЕСКОЕ ПРОТИВОПОСТАВЛЕНИЕ - alm. morphologische Gegenüberstellung (f), ing. morphological opposition /ˌmɔ:fəˈlɔʤɪkəl ˌɔpəˈzɪʃən/, fr. opposition morphologique, azərb. morfoloji qarşılaşma. - Eyni paradiqmə xas sözlərin morfoloji yolla fərqləndirilməsi. Məs.: /adam/ -ın, -a, -ı, -da, -dan/ və s.

Ю.С.Маслов. Göstərilən əsər, s. 157-199.

МОРФОЛОГИЧЕСКАЯ РАЗЛОЖИМОСТЬ - alm. morphologische Zerlegung (f), ing. morphological divisibility /ˌmɔ:fəˈlɔʤɪkəl dɪˌvɪzɪˈbɪlɪtɪ/, fr. décomposition morphologique, azərb. morfoloji parçalanma. - Sözdə açıq morfoloji quruluşun mövcudluğu. Məs.: Azərb. d. /dilən/+çi+lik/; rus d. /разумножить/ və s.

Ю.С.Маслов. Göstərilən əsər, s. 134-138.

МОРФОЛОГИЧЕСКОЕ СЛОВО – alm. morphologisches Wort (n), ing. morphological words /ˌmɔ:fəˈlɔʤɪkəl wə:dz/, fr. mots morphologique, azərb. morfoloji söz.

Bax: Морфематическое слово ←.

МОРФОЛОГИЧЕСКАЯ ФУНКЦИЯ - alm. morphologische Funktion (f), ing. morphological function /ˌm6:fəˈl6ʤɪkəl ˈfʌŋkʃən/, fr. fonction morphologique, azərb. morfoloji funksiya. – Morfemin yerinə yetirdiyi qrammatik funksiya. Məs.: alm. d. /ə/ saiti həm hal, həm şəxs sonluğu, həm də sözdüzəldici şəkilçi funksiyasını yerinə yetirir. Müq. et: /Ich lese/ (Mən oxuyuram), /am Tage/ (günorta, dat. halı), /schön/ (gözəl) - /das Schöne/ («gözəl», isim kimi) və s.

Ю.С.Маслов. Göstərilən əsər, s. 181-184.

downloaded from KitabYurdu.org

МОРФОЛОГИЧЕСКОЕ ЧЕРЕДОВАНИЕ – alm. morphologischer Wechsel (m), ing. morphological gradation /ˌmɔ:fəˈlɔdʒɪkəl ɡrəˈdeɪʃən/, fr. alternance morphologique, azərb. morfoloji əvəzlənmə. - Fonetik pozisiyadan asılı olmayan, müəyyən dilin fonoloji sistemini müasir durumu ilə izah oluna bilməyən, lakin müəyyən funksiya daşıyan əvəzlənmə növü. Məs.: ing. d. /speak/ (danışmaq) - /spoken/ (danışdı); rus d. /несу-нʹ ос/ və s.
Ю.С.Маслов. Göstərilən əsər, s. 181-184.

МОРФОЛОГИЧЕСКАЯ ЧЛЕНИМОСТЬ – alm. morphologische Gliederung (f), ing. morphological divisibility /ˌmɔ:fəˈlɔdʒɪkəl dɪˌvɪzɪˈbɪlɪtɪ/, fr. démembrement morphologique, azərb. morfoloji üzvlənmə.
Bax: Морфологическая разложимость ←.

МОРФОЛОГИЧЕСКИЙ ШОВ - alm. morphologische Grenze (f), Verbindungsstelle (f), ing. morphological suture /ˌmɔ:fəˈlɔdʒɪkəl ˈsju:tʃə/, fr. couture morphologique, azərb. morfoloji sərhəd. - Söz və ya söz birləşməsi tərkibində iki qonşu morfemi bir-birindən ayran sərhəd. Məs.: /kəklik-otu/, /gəmi-çi-lər/ və s.
Ю.С.Маслов. Göstərilən əsər, s. 186-189.

МОРФОЛОГИЯ - alm. Morphologie (f), ing. morphology /mɔ:ˈfɔlədʒɪ/, fr. morphologie, azərb. morfologiya. - Dilin morfem tərkibini öyrənən elmə morfologiya deyilir. Böyük alman şairi Y.V. fon Göte canlı orqanizmilərin forma və strukturunu öyrənən elmi morfologiya adlandırırdı. Sonralar bu termin XIX əsrdə fleksiya və sözdüzəltmədən bəhs edən bir anlayış kimi dilçiliyə gətirildi. Ənənəvi qrammatikada buna forma haqqında təlim deyirlər (alm. Formenlehre). Ç.Hoket (1907) morfoloji modellərin 3 növünü fərqləndirir: a) amerikan strukturalizmində geniş işlənən distribusiyaya əsaslanan (element və düzüm qrammatikasıdır-item-and arangement-grammar, kombinasiya morfologiyası); b) generativ transformasional qrammatikada (item-and process-grammar) (buna proses morfologiyası da deyirlər; burada əsas abstrakt formalar transformasiyalar vasitəsilə üst struktur formalarına çevrilir); c) word-and paradigm-modell (buna paradiqm morfologiyası da deyirlər, ancaq burada əsas vahid kimi söz götürülür).
Müasir dilçilikdə 1-ci yanaşma daha önəmlidir. Dilin ən kiçik mənalı vahidi olan morfemin forması, daxili strukturu, funksiyası və işlənməsi burada önə çəkilir. Söz klasslarının müəyyənləşməsi, fleksiyaların qanunauyğunluqları (hallanma, dərəcələnmə, təsriflənmə, zaman, modus), sözdüzəltmə, genetik cəhətdən qohum olmayan dillərdə morfoloji tiplərin aşkarlanması morfologiyanın bir çox elmlərlə sıx əlaqədə olduğunu göstərir.
Qeyd edək ki, morfem dəyişikliyinin əsas mahiyyəti sintaktik səviyyədə açılır. Bununla bağlı akademik L.V.Şerba sual verirdi: isim hallandığına görə isimdir, yoxsa isim olduğu üçün hallanır? Doğrudan da, bu suala yalnız morfologiya ilə sintaksisin qarşılıqlı əlaqəsindən çıxış edərək cavab vermək olar. Qrammatikanin əsas şöbələrindən olan morfologiya geniş mənа-

downloaded from KitabYurdu.org

da söz və onun formalarını morfem tərkibinə görə tədqiq edir. Morfologiyada morfem hər şeydən əvvəl, dilin qrammatik qurluşunu, onun morfologi sisteminin ümumi qanunauyğunluqlarını aşkar etmək istiqamətində öyrənilir. Morfologiya sözün struktur əlamətlərini, müxtəlif formalarını öyrənərkən onun leksik mənasına əhəmiyyət vermir. Onun ücün başlıca olaraq ən abstrakt və ümumi anlayışların dildə sistem şəkilində mövcud olan ifadə formaları və onların qrammatik mənası maraq doğurur.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 232; Ю.С.Маслов. Göstərilən əsər, s. 130; M.İ.Adilov və b. Göstərilən əsər, s. 169-170.

МОРФОЛОГИЯ АГГЛЮТИНАТИВНАЯ - alm. agglutinierende Morphologie (f), ing. agglutinative morphology /ə'glu:tınətıv mɔ:'fɔləʤı/, fr. morphologie agglutinantte, azərb. iltisaqi morfologiya. – İltisaqi dillərdə (türk) morfemlərin bir-birilə yanaşı gəlməsi və bu zaman bütün morfonoloji funksiyaların yerinə yetirilə bilməsi qanunauyğunluqlarını öyrənir. Məs: /ata+lar+dan/ və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 168-170.

МОРФОЛОГИЯ АНАЛИТИЧЕСКАЯ - alm. analytische Morphologie (f), ing. analytical morphology /ˌ5nə'lıtıkəl m6:'f6ləʤı/, fr. morphologie analytique, azərb. analitik morfologiya. - 1) Dildə morfoloji funksiyaların analitik formalar ilə ifadə olunması. Məs.: rus d. /Я буду читать/; alm. d. /9ch werde lesen/ (mən oxuyacağam); ing. d. /9 shall read/ (mən oxuyacağam) və s.; 2) Köməkçi sözlərlə tam mənalı sözlərin birləşməsindən əmələ gələn və həmin sözün sintetik forması ilə yanaşı fəaliyyət göstərən mürəkkəb forma. Məs.: Azərb. d. /ən qəşəng/, /qulaq asmaq/, /göz qoymaq/, /dil açmaq/.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 168-170; Ю.С.Маслов. Göstərilən əsər, s. 139.

МОРФОЛОГИЯ ФЛЕКТИВНАЯ - alm. flektive Mophologie (f), ing. inflexional morphology /ın'flekʃənl m6:'f6ləʤı/, fr. morphologie flexionnelle, azərb. flektiv morfologiya. – Dildə qrammatik əlaqələrin ifadəsində fleksiyadan istifadə edən morfologiya. Bu zaman qovuşuqda morfemlər müəyyən morfonoloji dəyişikliklərə məruz qalır. Məs.: rus d. olduğu kimi: /рука, рук-е, рук-и/ və s. Fleksiya iki cür olur: daxili: məs.: /foot-feet/ (ayaq-ayaqlar); xarici: məs.: /cat-cats/ (pişik-pişiklər) və s.
Ю.С.Маслов. Göstərilən əsər, s. 135-138.

МОРФОЛОГИЯ СЛОВОИЗМЕНЕНИЯ - alm. Morphologie der Wortveränderung (f), ing. inflexional morphology /ın'flekʃənl m6:'f6ləʤı/, fr. morphologie de variation du mot, azərb. sözdəyişmə morfologiyası. - Sözlərin qrammatik formasının düzəldilməsində qrammatik vasitələrə xüsusi diqqət yetirən morfologiya bölməsi.
Ю.С.Маслов. Göstərilən əsər, s. 145-147.

downloaded from KitabYurdu.org

МОРФОЛОГИЯ СЛОВООБРАЗОВАНИЯ - alm. Ableitungsmorphologie (f), derivative Morphologie (f), ing. derivational morphology /ˌderɪˈveɪʃənl mɔːˈfɔlədʒɪ/, fr. morphologie de formation des mots, azərb. sözdüzəltmə morfologiyası. – Dilçilikdə yeni sözdüzəltmə üsullarını öyrənən şöbə. Bu zaman fonem əvəzlənməsi, şəkilçi və təkrar mühüm rol oynayır.

А.И.Смирницкий. Морфология английского языка. М., 1959.

МОРФОЛОГИЯ СЛОВОСОЧЕТАНИЯ - alm. Wortverbindungsmorphologie (f), ing. morphology of word-combination /mɔːˈfɔlədʒɪ əv wəːd ˈkɔmbɪˈneɪʃən/, fr. morphologie du qroupe de mots, azərb. söz birləşməsi morfologiyası. – Söz birləşməsinin morfologi cəhətlərini, daha doğrusu, onun elementlərini ön plana çəkən dilçilik şöbəsi. Məs.: rus d. /водопровод, паровоз/ və s.

Ю.С.Маслов. Göstərilən əsər, s. 131-145.

МОРФОНЕМА - alm. Morphonem (n), ing. morphoneme /mɔːˈfouniːm/, fr. morphonème, azərb. morfonem. - Müəyyən morfonoloji strukturun şərtlərinə müvafiq qaydada eyni bir morfemin allomorflarında bir-birini əvəz edən fonem cərgəsi, yaxud fonemlər sırası və arxifonem. Məs.: ing. d. cəm forması /s, z,-iz,-en, ∅/; Müq. et: /cats, dogs, horses, oxen, sheep, feet, mais/ (pişiklər, itlər, atlar, öküzlər, qoyunlar, ayaqlar, siçanlar) və s. Morfonem anlayışı çox mənalıdır. Şerba məktəbi belə bir termini tanımır.

Bax: Архифонема ←.

МОРФОНЕМАТИЧЕСКИЙ - alm. morphonematisch, ing. morphonematic /mɔːˈfɔʊniˈmɔtɪk/, morphonemic /mɔːˈfɔʊˈniːmɪk/, fr. morphonématique, azərb. morfonematik. - Dilin ən kiçik səs vahidlərinə morfemin elementləri kimi baxılması.

Bax: Морфонема ←.

МОРФОНЕМИКА – Bax: Морфонология →.

МОРФОНОЛОГИЯ - alm. Morphonologie (f), Phonomorfologie (f), ing. morphonology /ˌmɔːfouˈnɔlədʒɪ/, fr. morphonologie, azərb. morfonologiya. - Morfologiya və fonologiyanın əlaqələrini öyrənən aralıq elm sahəsi (fonoloji vasitələrdən istifadə etmək yolu ilə morfoloji dəyişmələrin ifadəsi, söz və morfemin fonem tərkibinin müəyyənləşdirilməsi). Fonologiya ilə morfologiyanın arasında yer tutan məsələlərin həllində yaranan ehtiyacları ödəmək zərurətindən yaranmışdır. Dilin çağdaş mərhələsində morfemdə baş verən dəyişikliklərin müəyyənləşdirilməsi morfonologiyanın əsas praktik məsələlərindəndir. Bu isə dilin dərindən dərk edilib mənimsənilməsinə, sözlərin morfem tərkibinə görə əlaqələrinin təyin edilməsinə və bununla da onların semantikasının anlaşılmasına münbit zəmin yaradır. Morfonologiyada tədqiqatın istiqaməti ciddi şəkildə dəyişir: fonem və onların birləşmələri, dilin fonotaktik qurluşu morfemlər daxilində aparılır.

downloaded from KitabYurdu.org

Bu da morfemin müxtəlif sözlərdə dəqiqləşdirilərək eyniləşdirilməsi sayəsində mümkün olur. Bu termin dilçilikdə ilk dəfə N. S. Trubeskoy tərəfindən işlədilmişdir. Alim morfonologiya termini altında hər hansı bir dilin fonoloji vahidlərinin morfoloji məqsədlə işlədilməsini əsas götürürdü.

N.S.Trubeskoyun morfonoloji nəzəriyyəsi üç əsas müddəadan ibarətdir: 1) Morfemlərin fonoloji struktur nəzəriyyəsi; 2) Morfem birləşmələrində ayrı-ayrı morfemlərin məruz qaldığı kombinator səs dəyişmələri nəzəriyyəsi; 3) Morfoloji funksiya yerinə yetirən səs dəyişmələri nəzəriyyəsi. O dövrdə bəzi dilçilər, xüsusən də hind-avropalılar morfonologiyanı nəinki ulu dil (праязык), hətta ayrı-ayrı dillər üçün xüsusi və müstəqil qrammatika sahəsi olduğunu qəbul etmirdilər. Onlar morfonologiyanı səslərin və formanın tarixi arasında kompromisin nəticəsi kimi şərh edir, habelə morfoloji təzahürlərin bir hissəsini fonetikada, digərini isə morfologiyada öyrənməyi tövsiyyə edirdilər.

N.S.Trubeskoyun fikirincə, morfonologiya morfologiya ilə fonologiya arasında həlqə rolunu oynayan elm kimi öz layiqli yerini tutmalıdır. Yalnız sözün əsl mənasında morfologiyası olmayan dillər morfonologiyasız ötüşə bilər. Bu halda adətən morfologiyaya aid olan bəzi bölmələr (morfemlərin fonoloji strukturu haqqda bölmə) fonologiyaya daxil edilməlidir. Bu sahə ilə məşğul olan məktəblərdən xüsusilə deskriptiv dilçiliyi qeyd etmək olar. Deskriptivistlərə görə, danışığın ən kiçik vahidləri morflardır (morflar dilçilikdə eyni morfemlərin konkret təzahürüdür, yəni allomorflardır). Allomorflar eyni məna bildirib əlavə distiribusiyaya malik olduqda eyni morfemin təzahürləri kimi götürülür.

N.S.Trubeskoy. Gedanken über Morphonologie. TCLP, 1931, 4, s.160-163.

МОРФОСФЕРА - alm. Morphosphäre (f), ing. morphosphere /m6:ˈfəˈsfɪə/, fr. sphére morphologique, azərb. morfosfera.

Bax: Поверхностная структура →.

МОРФОСИНТАКСИС - alm. Morphosyntax (f), ing. morphosyntax /mɔ:ˈfəˈsɪnt5ks/, fr. syntaxe morphologique, azərb. morfosintaksis. - Morfemləri sintaktik funksiyasına əsasən öyrənən dilçilik şöbəsi. Əgər morfonologiya fonemlərin morfem tərkibindəki funksiyasını araşdırırsa, morfosintaksis morfemlərin sintaktik bütövün tərkibindəki funksiyasını öyrənir.

H.Bußmann. Göstərilən əsər, s. 507.

МОРФОФОНЕМА - Bax: Морфонема ←.

МОРФОФОНЕМИКА - alm. Morphophonemik (f), ing. morphophonemic /ˌm6:fəˈfouˈni:mɪk/, fr. morphophonémique, azərb. morfofonemika. – Morfemlərin fonetik variantlarını, onlardakı fonem əvəzlənmələrini, onların real danışıqda işlənməsi xüsusiyyətlərini öyrənən elm sahəsi. Generativ transformasional qrammatikada abstrak-morfonoloji (sistematik fonemik səviyyəni) üst strukturların konkret realizə edilməsini təmin edir, özü də morfoloji variantlar leksikonda verilir.

downloaded from KitabYurdu.org

H.Bußmann. Göstərilən əsər, s. 506.

МОТИВАЦИЯ ИМПЛИЦИТНАЯ - alm. implizite Motivation (f), ing. implicit motivation /ım'plısıt 'moutıveıʃən/, fr. motivation implicite, azərb. (gizli) impilisit motivləşmə. - Digər dil vahidləri ilə sistem-assosiativ münasibətdə sadə (bölünməz) sözlərin motivləşməsi.

O.C.Ахманова. Göstərilən əsər, s. 244.

МОТИВИРОВАННЫЙ - alm. motiviert, durchsichtig, ing. motivated /'moutıveıtıd/, fr. motivé, azərb. motivləşmiş. – Sözün mənasının onu təşkil edən elementlərin məcmusundan bilinməsi. Məs.: Azərb. d. /tozsoran/. Bu mürəkkəb sözün mənası onun tərkibinə daxil olan komponentlərin mənasının cəmidir.

O.C.Ахманова. Göstərilən əsər, s. 245.

МУБИ – alm. Mubi (n), ing. Mubi /m∧bı:/, fr. moubi, azərb. mubi dili. – Çadda yayılmış dillərindən biri. Əsasən Çad Respublikasında yayılmışdır. Daşıyıcılarının sayı 210 min nəfərə yaxındır. Əsas dialektləri: mubi, masmace, birqit və toram. Yazısız dildir.

J.Lukas. Zentralsudanishe Studien. Hamburg, 1937.

МУЖСКОЙ РОД - alm. männliches Geschlecht (n), Maskulinum (n), ing. masculine gender /'ma:skjulın 'dʒendə/, fr. genre masculin, azərb. kişi cinsi. - Xüsusi paradiqmı ilə səciyyələnən (canlı isimlərdə kişi cinsinə aidiyyatı olan) isimlərin qrammatik cins növü. Məs.: alm. d. /der Mann, der Rabe, der Gedanke, der Mensch/ (kişi, qovğa, fikir, adam), və s.; rus d. /стол, город/ və s.; ing. və Azərb. d. qrammatik cins kateqoriyası yoxdur.

A.A.Reformatskiy. Göstərilən əsər, s. 124, 212, 250-251.

МУЛЬТИЛИНГВИЗМ – Bax: Многоязычность ←.

МУЗЫКАЛЬНО-ВЫДЫХАТЕЛЬНОЕ УДАРЕНИЕ - alm. musikalische εxpirationsbetonung (f), ing. musical - expiratory stress /'mju:zıkəl ıks'paıərətərı stres/, fr. accent musical-expirateur, azərb. musiqili-ekspirator vurğu. – Həm tələffüz əzələlərinin gərginləşməsi nəticəsində güclü hava axınının çıxması, həm də tonun qalxması ilə səciyyələnən vurğu növü. Məs.: serb-xorvat dili.

F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Bakı, 1981, s. 194-205.

МУЗЫКАЛЬНЫЙ - alm. musikalisch, ing. musical /'mju:zık(ə)l/, pitch /pıʧ/, fr. musical, azərb. musiqili. – Tonun yüksəlməsi və ya enməsi ilə bağlı olan.

Bax: Музыкальное ударение →.

МУЗЫКАЛЬНОЕ УДАРЕНИЕ - alm. musikalischer (chromatischer) Akzent (m), ing. musical accent /'mju:zıkəl '5ksənt/, fr. accent chromatique, azərb. musiqili vurğu. – Sözün vurğulu hecasının vurğusuz hecasından tonun dəyişməsi ilə fərqlənən vurğu. Belə vurğu növü kök dillər: çin, yapon, koreya və norveç dilləri üçün xarakterikdir.

F.Yadigar (Veysəlli). GDG, s. 258-265.

downloaded from KitabYurdu.org

МУНДА ЯЗЫКИ – alm. Munda-Sprachen (Pl.), ing. Munda language /mʌndɑ: l5ŋgwɪʤɪz/, fr. langues moundas, azərb. munda dilləri. – Avstraliya-Asiya dilləri. Bu dillərdə danışanların sayı 9 milyondur. Hindistanın mərkəzində və şərqində (Bixar və Qərbi Benqaliya ştatlarında) yayılmışdır. Santali, mundari, xo, bixor, buximic, turi, asuri, kxaria, cuanq, savara, qutob, bonda, didey və s. munda dillərinə daxildirlər. Munda dillərindən 10-a qədəri hind adalarında işlənir. Ən böyük dil Santali dilidir (4 milyon). Morfologiyası və sintaksisi hindu dillərinin təsiri altındadır.
R.M.Macphail. An Intorduction to Santali. Bengalia, 1964.

МУСКОГИТСКИЙ ЯЗЫК – alm. Muskogi-Gruppe (f), ing. mouskogite language /ˈmauskɔgɪt l5ŋgwɪʤ/, fr. langue mouskogite, azərb. muskogit dili. – ABŞ-da cənubi-şərqdə 10 dili birləşdirən dil qrupu. Ən böyük dili xoktav dilidir (10.000). Əsas əlamətləri: 3 sıra pronominal affiks var.
H.Bußmann. Göstərilən əsər, s. 509.

МУТАЦИЯ - alm. Mutation (f), ing. mutation /mjuːˈteɪʃən/, fr. mutation, azərb. dəyişmə. – Dildə fonem əvəzlənməsilə yaranan proses. Məs.: alm. d. /springen-sprang/ (tullamaq-tullandı) (ablaut), /buːx-buçər/ (kitab-kitablar) (umlaut) və /schneiden-schnitt/ (kəsmək-kəsdi) (samit və sait əvəzlənməsi).
H.Bußmann. Göstərilən əsər, s. 509.

МУТАЦИЯ ВОКАЛИЧЕСКАЯ - alm. vokalische Mutation (f), ing. vocalic mutation /və(ʊ)ˈkalık mjuːˈteɪʃən/, fr. mutation vocalique, azərb. vokalik (sait) dəyişmə.
Bax: Мутация ←.

МУТАЦИЯ ФОНОЛОГИЧЕСКАЯ - alm. phonologische Mutation (f), ing. phonological mutation /fəuˈnəˈl6ʤıkəl mjuːˈteɪʃən/, fr. mutation phonologique, azərb. fonoloji (dəyişmə) mutasiya. - Dilin fonoloji sistemində baş verən səs dəyişmələri. Məs.: əvvələr rus d. qalın və incə samitlər eyni bir fonemin variantları hesab olunurdusa, dilin müasir fonoloji sistemində bunların hər biri ayrılıqda müstəqil fonemlərdir.
Ю.С.Маслов. Göstərilən əsər, s. 68-78.

МУТНЫЕ ГЛАСНЫЕ - alm. dunkle Vokale (Pl.), ing. dark (obscure) vowels /daːk /əbˈskjuə/ ˈvauəlz/, fr. voyelles sombres, azərb. tutqun saitlər. - Tələffüz zamanı dilin aşağı enməsi ilə yaranan saitlərdir. Bu saitlərdə F_I və F_{II} bir-birinə çox yaxın olur. Azərb. d. /o, u, a, ı/ belə saitlərdəndir.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 127-129.

МЫШЛЕНИЕ ВЕРБАЛЬНОЕ - alm. verbales Denken (n), ing. verbal thinking /vəːbəl θɪŋkɪŋ/, fr. mentalité verbale, azərb. verbal təfəkkür. - Sözlü fikir, mülahizə. O, dildə müəyyənləşmiş formalarda baş verir, daha doğrusu, daxili və xarici danışıq proseslərində icra olunur. Demək olar ki, dil müəyyən mənada insanın kainat haqqında biliklərini təşkil edir, bu

downloaded from KitabYurdu.org

bilikləri tərkib hissələrinə ayrır və möhkəmləndirir, habelə onları gələcək nəslə ötürmədə vasitəçi rolunu oynayır.
Ю.С.Маслов. Введение в языкознание. М., 1987, s. 15.
МЫШЛЕНИЕ ПОНЯТИЙНОЕ - alm. Begriffsdenken (n), ing. conceptual thinking /kən′septjuəl ′θɪŋkɪŋ/, fr. mentalité conceptive, azərb. anlayış təfəkkürü. - Anlayış (məfhum, fikir) elementlərindən ibarət təfəkkürdür. Dildə anlayış təfəkkürü ikinci, süni dillərə də söykənə bilər, insan tərəfindən yaradılmış xüsusi sistemə istinad edə bilər. Məs.: riyaziyyatçı, yaxud fizik şərti işarələrdə möhkəmlənmiş məfhumlardan istifadə edir, sözlərlə deyil, formullar vasitəsi ilə fikir yürüdür və formulların vasitəsilə yeni fikirlərə nail olur. Ancaq insanın ünsiyyətində işarələnən denotat həmişə dildə konkret və abstrakt şəkildə öz ifadəsini tapır.
E.Benveniste. Probleme der allgemeinen Sprachwissenschaft. Berlin, 1995.
МЯГКИЙ ПРИСТУП - alm. leiser (weicher) Einsatz (m), ing. soft glide /sɔft ′glaɪd/, gradual beginning /′grædjuəl bɪ′gɪnɪnŋ/, fr. attaque douce (graduelle, progressive), azərb. yumşaq başlanğıc - Söz və morfemin birinci saitin tələffüz başlanğıcında səs tellərinin titrəməyə başlanması ilə yaranan səs. Məs.: Azərb. d. /at/; ing. d. /a:sk/; rus d. /ʌтв’ет/ və s.
K.Kohler. Göstərilən əsər.
МЯГКИЙ СОГЛАСНЫЙ - alm. weicher Konsonant (m), ing. lax consonant /l5ks ′kɔnsənənt/, soft consonant /sɔft ′kɔnsənənt/, fr. connsone molle, azərb. yumşaq (incə) samit. – Dil kürəyinin orta hissəsinin sərt damağa sıxılması ilə yaranan samit.
Bax: Мягкость согласного →.
МЯГКОНЁБНЫЙ - alm. postpalatal, ing. velar /′vi:lə/, postpalatal /poust′p5lətl/, fr. consonne velaire-postpalatalle, azərb. yumşaq (incə) damaq samiti. – Dil kürəyinin arxa hissəsinin yumşaq damağa, yaxud sərt damağın arxa hissəsinə yaxınlaşması ilə əmələ gələn səslər. Məs.: rus d. /k′/, /g′/, /x′/. Bu termin fəal üzvə əsaslanmır.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.
МЯГКОСТЬ СОГЛАСНОГО - alm. Erweichung des Konsonanten (f), ing. softness consonant /sɔftnes ′kɔnsənənt/, fr. mollesse de la consonne, azərb. samitin incəliyi. - Yumşaq samitləri müvafiq sərt samitlərdən fərqləndirən əlamət. Məs.: rus d. /tʂ/ samitindən başqa bütün sərt samitlərin yumşaq qarşılığı var. Yumşaq samitlərdən isə təkcə /ʧ/ samitinin sərt qarşılığı yoxdur. Müq. et: /b/, /p/, /v/, /f/, /m/, /t/, /d/, /s/, /z/, /ʃ/, /ʒ/, /n/, /ʏ/, /l/, /j/, /k/, /g/, /x/: /b'/, /p'/, /v'/, /f'/, /m'/, /t'/, /d'/, /s'/, /z'/, /ʃ'/, /ʒ'/, /n'/, /r'/, /l'/, /-l/, /k'/, /g'/, /x'/.
А.А.Реформатский. Göstərilən əsər, s. 205, 216, 218, 220, 278.
МЯО-ЯО - alm. Miao-Yao-Sprachen (Pl.), ing. Miao Yao languages /′mjɑ-jɑ- l5ŋgwɪʤɪz/, fr. langues miao-iao, azərb. miyao-yao dilləri. – Cənub-

downloaded from KitabYurdu.org

şərqi Asiyada 4 dili birləşdirən dil ailəsi, çoxsaylı Çin adalarında və Tayvanda danışılır. Daşıyıcılarının ümumi sayı 8 milyona yaxındır. Bunlardan 7 milyonu Çində, 850 mini Vyetnamda yaşayır. Ən böyük dil yaodur (təxminən 1 milyon). Miyao-yao dilləri hecali dillərdir. Morfem və sözlər əsasən birhecalıdır. Heca quruluşu sadədir. Yalnız bəzi hallarda /pr, pl, tl, kl, kw/ samit birləşmələrinə rast gəlinir.

А.А.Москальев. Язык дуаньских яо (язык ну). М., 1978.

– Н –

НАВЫКИ АРТИКУЛЯТОРНЫЕ - alm. Artikulationsfahigkeiten (Pl.), ing. articulation skill (habits) /ɑˌtɪkjuˈleɪʃən skɪl /ˈh5bɪts/, fr. habitudes articulatoires, azərb. tələffüz vərdişləri. - Dildəki səslərin tələffüzü üçün danışıq uzvlərinin lazımi hərəkətlərinin mütəmadi təkrarından yaranan vərdişlər. Məs.: Azərb. dilində /a/ foneminin tələffüzü zamanı dil gövdəsi geri çəkilir, onun ön hissəsi azacıq aşağı düşür, çənə başqa saitlərə nisbətən bir qədər aşağı enir, dodaqlar isə neytral vəziyyətdə qalır. Səs telləri mütəmadi olaraq titrəyir. Bütün bunlar /a/ saiti üçün tələffüz vərdişləri hesab oluna bilər.

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.

НАГА ЯЗЫКИ – alm. Naga-Sprachen (Pl.), ing. Naga languages /nɑ:gɑ ˈl5ŋgwɪʤɪz/, fr. langues nagas, azərb. naqa dilləri. – Hindistanın Naqalend və Manipur ştatlarında yayılmış tibet-birma dillərinin ümumi adı. Bu dillərdə danışanları sayı 950 minə yaxındır. Lxota, ao, empeo, kabui, kuoyrenq, maram, kuxoyaro, marinq, kuxoybu, banpara, namsanq, moşanq və s. naqa dillərinə daxildirlər.

R.Şhafer. The Naga branches of Kukish. «Rocznik orientalusticzny», 1953, v.16.

НАГАЛИ – alm. Nahali-Sprachen (Pl.), ing. Nahali /n∧hɑ:lɪ/, fr. nahali, azərb. nahali. – Asiya dillərindən biri. Hindistanın şimal ştatlarında yayılmışdır. Nahali dilində danışanların hamısı 1870-ci ildə cəza ekspedisiyaları tərəfindən məhv edilmişlər. «Nahali»nin – hərfi mənası «məhv edilmiş tayfanın dili» deməkdir. Qrammatik quruluşu barədə məlumat yoxdur. Tipoloji baxımdan aqqlütinativ dillərə aiddir.

F.B.J.Kuiper. Nahali. A comparative study. Amsterdam, 1962.

НАГРУЗКА ФУНКЦИОНАЛЬНАЯ - alm. funktionelle Belastung (f), ing. functional capacity (yield) /ˈf∧ŋkʃənl kəˈp5sɪtɪ /ji:ld/, fr. charge fonctionnelle, azərb. funksional yük. – 1) Dil vahidinin yerinə yetirdiyi funksional yük; 2) Söz və morfemləri fərqləndirməkdən ötrü müəyyən fonoloji qarşılaşmanın işlənməsi tezliyi. Məs.: Rus dilinin fonoloji sistemində sərt və yumşaqlığına görə qarşılaşması samitlərin (/p/- /pʹ/, /v/- /vʹ/) kar

downloaded from KitabYurdu.org

və cingiltili əlamətlərinə görə qarşılaşması ilə müqayisədə daha böyük funksional əhəmiyyətə malikdir.
А.А.Реформатский. Göstərilən əsər.

НАДГОРТАННИКОВЫЙ - alm. epiglottal, ing. epiglottal /ˌepɪˈɡl6tal/, fr. surglottal, azərb. xirtdəküstü. - Hava axınının səs cığırından keçərək udlağın aşağı divarlarında əmələ gələn novlu samit. Məs.: ərəb və avar dillərində /ħ/ samiti buna misal ola bilər. Müq. et: /ħamza/, /ħasan/ və s.
P.H.Matthews. Göstərilən əsər, s. 115.

НАДГОРТАННЫЕ ПОЛОСТИ – alm. Ansatzrohr (n), ing. epiglottis air hole /ˌepɪˈɡlɔtɪs ɛə həul/, fr. cavités surglottales, azərb. xirtdəküstü boşluqlar. – Rezonator funksiyasını yerinə yetirən və müxtəlif rezonansların yaranmasında iştirak edən udlaq, ağız və burun boşluqlarının üçlüyü. Samitlərlə saitlər arasındakı fərqlərin formalaşmasında ağız və burun boşluqlarında mərkəzləşmənin olması müstəsna əhəmiyyətə malikdirlər. Belə ki, saitlərin tələffüzündə ciyərlərdən gələn hava axını bu boşluqların müxtəlif yerlərində müəyyən mərkəzləşmənin olmaması ilə yaranır. Samitlərin yaranmasında boşluqlardakı mərkəzləşmə mütləqdir.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.

НАДДИАЛЕКТНЫЙ - alm. übermundartlich, ing. supradialectal /ˈsjuːprə ˌdaɪəˈlektl/, fr. surdialectale, azərb. dialektlərin fövqündə (üstündə) duran, ədəbi dil. – Dialekt çalarından azad, ayrı-ayrı dialektlərlə münasibətdə əsas ünsiyyət vasitəsi kimi ölkə, dövlət miqyasında işlənən dil. Məs.: Azərbaycan ədəbi dili Bakı və Şirvan dialekti əsasında formalaşıb. Ədəbi dil rəvan, səlis, aramla danışığı əsas götürür, o ümumi ünsiyyət vasitəsi kimi dialektlərin fövqündə durur, fonetik, morfoloji və sintaktik tamlığı ehtiva edir.
F.Yadigar (Veysəlli). SDƏ. Bakı, 2005.

НА-ДЕНЕ ЯЗЫКИ – alm. Na-Dene-Sprachen (Pl.), ing. Na-Dene languages /nʌˈdenɪ: ˈl5ŋɡwɪʤɪz/, fr. langues na-dénés, azərb. na-dene dilləri. – Şimali Amerikanın hindi dilləri ailəsi. Daşıyıcılarının ümumi sayı 220 min nəfərdir. Hayda, tilingit, eyak və s. dillər bura aiddir. Fonoloji sistemində samitlərin sayı (24-dən 50-dək), saitlərin sayı isə 3-dən 10-dək) artıb-azalır. Na-dene dilləri aqqlütinativ dillərdir.
N.J.Pinnov. Grundzüge einer historischen Lautlehre des Tlingit. Wiesbaden, 1966.

НАДСТРОЧНЫЙ ЗНАК - alm. diakritisches Zeichen (n), ing. diacritical superlinear sign /ˌdaɪəˈkrɪtɪkəl ˈsjuːpəˈlaɪnə saɪn/, fr. singne diacritique, azərb. sətirüstü işarə. – Qrafemlərin üzərində qoyulan işarədir ki, həmin işarənin fərqli olduğunu göstərir. Məs.: Azərbaycan dilinin latın qrafikalı əlifbasında «ö», «ü», «ğ» qrafemlərinin üstündəki işarələr onların fərqli dəyərdə (valeur) olmasını göstərir. Müq. et: /o-ö, u-ü, g-ğ/ və s.
F.Veysəlli. SDƏ. Bakı, 2005.

downloaded from KitabYurdu.org

НАЗАЛИЗАЦИЯ - alm. Nasalierung (f), ing. nasalization /ˌneɪzəlaɪˈzeɪʃ(ə)n/, fr. nasalisation, azərb. burunlaşma. - Tələffüzü zamanı yumşaq damaq aşağı enmiş vəziyyətdə olur, hava axınının bir hissəsi burun boşluğundan çıxır və bunun da nəticəsində burunlaşan səslər yaranır. Məs.: Azərb. d. /nænæ/ sözündə ortada gələn /æ/ saiti burunlaşır, çünki o hər iki tərəfdən burun samitinin təsirinə məruz qalır. Onu transkripsiyada /ñ/ işarəsilə göstərirlər.

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

НАЗАЛЬНЫЙ ГЛАСНЫЙ - alm. nasaler Vokal (m), ing. nasal vowel /ˌneɪzəl ˈvau(ə)l/, fr. voyelle nasalle, azərb. burun saiti. – Saitlər qismən burun boşluğunda formalaşır, çünki onların yaranması zamanı damaq pərdəsinin aşağı düşməsilə hava axını burun boşluğuna keçir və beləliklə burun saitləri formalaşır. Məs.: fr. d. /ɛ˜:/, /Ø˜:/, /o˜:/, /ũ:/ burun saitləri var. Alm., ing., rus və Azərb. d. indiki durumunda burun səsləri fonematik mahiyyətli deyildir, onlar kombinator variantlar kimi çıxış edə bilərlər. Məs.: Azərb. d. /mən, sən, nənə, namə/ və s; alm. d. /Mähne/ (yal), /nennen/ (adlandırmaq), /mama/. Bəzən burun səslərilə burunlaşan səsləri səhv salırlar. Burun səsləri dilin fonoloji sistemində mövcud olan fonemlərdir (məs.: fr. d.), burunlaşan səslər isə danışıq aktında qazanılan səslərdir. Məs.: Azərb. d. /mən/ sözündə [ə̃] burunlaşır.

Ф.Вейсалов, А.А.Гасанов. Интерпретация некоторых фонетических терминов. IV РМНМК по АВ-ам обучения русскому языку в азербайджанской аудитории. Баку, 1973, с. 19-20.

НАЗАЛЬНЫЙ СОГЛАСНЫЙ - alm. nasaler Konsonant (m), ing. nasal consonant /ˈneɪzəl ˈkɒnsənənt/, fr. consonne nasalle, azərb. burun samiti. - Tələffüzü zamanı yumşaq damaq pərdəsi ağız boşluğunun yolunu qismən tutur və hava axınının bir hissəsi burun boşluğundan keçir. Bu cür mərkəzləşmə ilə yaranan səsləri burun samitləri adlandırırlar. Məs.: /m/, /n/, /ŋ/ samitləri bu qəbildəndirlər. Adətən ağız samitlərinə qarşı qoyulur.

Bax: Назальный гласный ←.

НАЗВАНИЕ - alm. Benennung (m), Name (m), ing. name /neɪm/, appellation /ˌɔpəˈleɪʃ(ə)n/, fr. nom, titre, azərb. ad. – 1) ümumi qrammatik xüsusiyyət kəsb edən, yəni substantivləşmə nəticəsində adlanma; 2) adlandırılan əşya, predmet əlamət, iş, hal və hərəkətə verilən ad. Məs.: Azərb. d. /ağız/, /ağ/, /oxumaq/ (həmişə yaxşıdır) və s.

R.Conrad. Göstərilən əsər, s. 50.

НАЗВАНИЯ ЭТНИЧЕСКИЕ - alm. ethnische Benennungen (Pl.), ing. ethnic names /ˈeθnɪk neɪmz/, fr. noms, ethniques, azərb. etnik adlar. - Ayrı-ayrı xalqların adı. Məs.: /alman, ingilis, rus, uyğur, ərəb/ və s.

НАЗЫВНОЙ (НОМИНАТИВНЫЙ) - alm. nominal, ing. denominative /dɪˈnɔminətiv/, nominative /ˈnɔminətiv/, fr. nominatif, azərb. adlandırma. –

downloaded from KitabYurdu.org

1) Sözün müəyyən danışıq aktında və ya mətndə işlənməsi xüsusiyyəti; 2) Sözün müəyyən referent ilə əlaqələndirilməsi, advermə prosesi.
R.Conrad. Göstərilən əsər, s. 50.

НАЗЫВНАЯ ФУНКЦИЯ - alm. nominale Funktion (f), ing. nominal function /ˈnɔmınl ˈfʌŋkʃən/, fr. parole, fonction nominatif, azərb. adlandırma funksiyası. – Fəaliyyət və hərəkətin nəticəsini adlandıran, bildirən sözlər, adlandırma. Məs.: Azərb. d. /qurğu/ (quraşdırmaq) sözündən, /sorğu/ (soruşmaq) sözündən və s. əmələ gəlib.
R.Conrad. Göstərilən əsər, s. 180.

НАИМЕНОВАНИЕ - alm. Benennung (f), Name (m), ing. denomination /dɪˌnɔmınˈneɪʃ(ə)n/, name /neɪm/, fr. dénomination, désignation, azərb. adlandırma. – Dildə sözlərin adlandırma funuksiyalarında işlədilməsi. Müq. et: Azərb. d. /gediş/ (getmək), /gəliş/ (gəlmək); alm. d. /Schreib+er/ (schreiben) – yazmaq – yazar/ və s.
R.Conrad. Göstərilən əsər, s. 180.

НАКЛОНЕНИЕ – Bax: Модус ←.

НАКЛОНЕНИЕ ЖЕЛАТЕЛЬНОЕ - alm. Optativ (m), ing. optative /6ptətıv/, desirable mood /dɪˈzaɪərəbl mu:d/, fr. optatif, azərb. arzu şəkli. - Felin arzu şəklinin əsas mənası real şəkildə olmayan, lakin icrası subyekt tərəfindən arzu edilən, gərək sayılan hərəkəti ifadə etməkdir. Azərb. dilində felin arzu şəkli quruluşca belədir: fel kökü+şəkilçi –a/-ə+ şəxs sonluğu. Məs.:

Tək	Cəm
I şəxs - oxu/y/a/m	oxu/y/a/q
II şəxs - oxu/ya/san	oxu/y/a/sınız
III şəxs - oxu/y/a	oxu/y/a/lar

Alm. d. buna konyunktiv uyğun gəlir. Qüvvətli fellərin konyunktivi müəyyən qrammatik göstəricilərə malikdir. Məs.:

ich – käme, komme	wir – kämen, kommen
du – kämest, kommest	ihr – kämet, kommet
er, sie, es – käme, komme	Sie, sie – kämen, kommen

Ancaq zəif fellərdə indiki zamanda I şəxs tək və cəmdə, III şəxs cəmdə heç bir şəkilçi olmur. Məs.:

ich - sage	wir - sagen
du - sagest	ihr -saget
er, sie, es - sage	Sie, sie – sagen

M.Hüseynzadə. Göstərilən əsər, s. 207-229; H.Glinz. Göstərilən əsər.

НАКЛОНЕНИЕ ИЗЬЯВИТЕЛЬНОЕ - alm. Indikativ (m), ing. indicative mood /ınˈdıkətıv mu:d/, fr. indicatif, azərb. xəbər şəkli. - Xəbər şəkli işin keçmiş, indiki və gələcəkdə icra olunmasını ifadə edir. Felin xəbər şəkli bütövlükdə zaman və şəxs anlayışları ilə sıx bağlıdır. Elə buna görə də, onun ifadəsi üçün xüsusi şəkilçiyə ehtiyac duyulmur. Belə ki, xəbər şəklində hər hansı bir iş, hal və hərəkətin icrası müəyyən şəxs

downloaded from KitabYurdu.org

tərəfindən verilir. Başqa sözlə desək, xəbər şəklində hər hansı bir iş, hal, hərəkətin müəyyən zamanda, müəyyən şəxs tərəfindən icrası haqqında məlumat verilir. Məs.: Azərb. d. /Sönməkdə olan ocağın zəif şöləsi onların çöhrələrini işıqlandırırdı//, /Biz ikimiz də ayağa qalxdıq//.
M.Hüseynzadə. Göstərilən əsər, s. 207-209.

НАКЛОНЕНИЕ ПОВЕЛИТЕЛЬНОЕ - alm. Imperativ (m), ing. imperative mood /ɪmˈperətɪv mu:d/, fr. impérátif, azərb. əmr şəkli. - Azərbaycan dilində əmr şəklinin xüsusi morfoloji əlaməti yoxdur. Felin əmr şəklində zaman şəkilçilərinə də ehtiyac duyulmur. Əmr şəkli əsasən çağırış, təklif, icazə, yalvarış, əmr, təhrik, məcburiyyət, tələb və s. mənalar bildirir. /Fel kökü+müvafiq şəxs sonluğu+ əmr intonasiyası/ əmr şəklinin qrammatik quruluşunu təşkil edir. Məs.: Azərb. d. /Sən get, mən onları gözləyirəm!//, /Elə etmə ki, sonra peşman olasan//, /Siz danışın, biz dinləyək//.
M.Hüseynzadə. Göstərilən əsər, s. 207-229.

НАКЛОНЕНИЕ СОСЛАГАТЕЛЬНОЕ - alm. Subjunktiv (m), ing. subjunctive -mood /səbˈdʒʌŋktɪv mu:d/, fr. subjonctif, azərb. lazım şəkli. - Felin lazım şəkli iş və hərəkətin icra edilməsinin lazım olduğunu bildirir. Azərbaycan dilində felin lazım şəkli fel əsasına /-ası-əsi/, /-yası-yəsi/ və şəxs şəkilçilərini artırmaqla düzəlir. Müq. et: /Mən iclasa gələsi deyiləm//.
M.Hüseynzadə. Göstərilən əsər, s. 207-229.

НАКЛОНЕНИЕ УСЛОВНОЕ - alm. Konditionalis (m), ing. conditional mood /kənˈdɪʃənl mu:d/, fr. conditionnel, azərb. şərt şəkli. - Felin şərt şəkli iş və hərəkətin icra olunmasını müəyyən şərtlə bağlayır, başqa cür desək, bir işin icrası başqa bir işin şərtlə icrasından məzmunca asılı olur. Şərt şəklinin morfoloji əlaməti ilə formalaşmış feli xəbərli cümlə müstəqil işlənə bilmir. Belə ki, /-sa, -sə/ şəkilçisi öz mənasını yalnız tabeli mürəkkəb cümlədə budaq cümlənin tərkibində yerinə yetirə bilər. Müq. et: /Sən vaxtında çatmasan, işlər alt-üst olacaq//. /Əkinçilər səpinə bir həftə gec başlasaydılar, bütün zəhmətləri hədər yerə gedəcəkdi//. Alm., ing. və fr. d. kondisionalisin fərqli ifadə vasitələri vardır. İng. d. bu /would/schould/; alm. d. /werden/ köməkçi fellərilə düzəlir. Müq. et: /Er würde arbeiten, wenn wir es ihm ermöglichten// (Biz ona imkan versəydik, o işləyərdi) və s. Beləliklə, alm. d. şərtin ifadəsi morfoloji yolla deyil, sintaktik səviyyədə həyata keçir. Özü də bu dildə zəif fellərin imperfekt konyunktivi indikativlə üst-üstə düşdüyündən /würde/ ilə əmələ gələn konstruksiyalar konyunktivin funksiyasını öz üzərinə götürür. Fransız dilində isə bu Azərb. d. olduğu kimi morfoloji kateqoriyadır. Müq. et: /il viendrait// (O gələrdi) (Kondisionalis), ancaq /qu'il vienne// (Bircə o gəlsəydi) (Konyunktiv). Fransız dilində kondisionalis keçmişdə gələcəyi bildirir. Geniş mənada o tərəddüd bildirdiyindən, onun tətbiq sahəsi kondisionalis şəbəkəsi olur, özü də baş cümlənin xəbəri kondisionalisdə işlənir. Müq. et: /s'il venait// (imperfekt), /je lui dirais cela// (kondisionalis) (Gəlsəydi, bunu ona deyərdim).

downloaded from KitabYurdu.org

R.Conrad. Göstərilən əsər, s. 137; H.Bußmann. Göstərilən əsər, s. 403.

НАКОПЛЕНИЕ АФФИКСОВ - alm. Affixhäufung (f), ing. accumulation of affıx /əˌkju:mjuˈleıʃ(ə)n əv ˌ5fiks /, fr. accumulation des affixes, azərb. affiks yığımı. - Aqqlütinativ dillərdə bir neçə affiksin xətti ardıcıllıqla yerləşməsi. Türk dilləri ailəsi üçün səciyyəvi olan bu halı Azərb. d. belə göstərmək olar: /məktəb, məktəb-li, məktəb-li-lər, məktəb-li-lər-dən/ və s. Alman dilində bir neçə affiksin dalbadal gəlməsi mümkündür. Məs.: /Verständniss/ (anlaşma) - /Missverständnis/ (anlaşılmazlıq), /un+zer-brech+liç+keit+en/ (sınmazlıq) və s.

H.Bußmann. Göstərilən əsər, s. 53.

НАЛОЖЕНИЕ СЛОГОВОЕ - alm. Silbenschichtung (f), ing. syllabic superposition /sıˈl5bık ˌsju:pəpəˈzıʃən/, fr. superposition syllabique, azərb. eyni tərkibli hecalardan birinin düşməsi. - Danışıq aktında ardıcıl gələn iki eyni tərkibə malik hecadan birinin düşməsi. Məs.: /obrazlılıq-obrazlıq, samballılıq-samballıq, çatışmamazlıq-çatışmazlıq/ və s.

F.Veysəlli. SDƏ. Bakı, 2005; M.Kloster-Jensen. Die Silbe in der Phonetik und Phonemik. «Phonetika», 9, 1963, s. 17-38.

НАМЕРЕНИЕ - alm. ɑbsicht (f), Intention (f), ing. intention /ınˈtenʃ(ə)n/, purpose /ˈpə:pəs/, fr. intention, dessin, projt, azərb. niyyət. - Danışanın demək istədiyi, nəzərdə tutulan potensialın ifadəsi. Məs.: Azərb. d. /kinoya getməyi planlaşdıran adam deyir: /mən kinoya getmək istəyirəm//. Deməli, intensiya məzmunun (daxili və xarici) əlamətlərinin adlandırılması, sadalanması və nəzərə çapdırılması deməkdir. İki hökm o zaman intensional eyni hesab olunur ki, onlar eyni əlamətlərə malik olsun (sinonimlər). Əksinə iki hökm o zaman ekstensional olur ki, onlar eyni sadalana bilən klassa aid olsun.

O.C.Ахманова. Göstərilən əsər, s. 250.

НАМЕРЕНИЕ ПРОИЗНОСИТЕЛЬНОЕ - alm. Ausspracheabsicht (f), ing. articulatory intention /ɑ:ˈtıkjulətrı ınˈtenʃən/, fr. intention articulatoire, azərb. tələffüz niyyəti. – Məs.: Azərb. d. /nar/ sözündə sonda /r/-nın tələffüzü nəzərdə tutulsa da, burada o ciddi şəkildə karlaşır və [r̥] kimi tələffüz olunur.

F.Veysəlli. SDƏ. Bakı, 2005.

НАНАЙСКИЙ ЯЗЫК – alm. Nanaisch (n), ing. Nanai language /ˈnɑ:naı ˈl5ŋgwıʤ/, fr. langue nanaïe, azərb. nanay dili. – Tunqus-mancur dilləri ailəsinə aid dildir. Rusiyanın Xabarovski və Primorski vilayətlərində və Çinin Sunqari adasında yayılmışdır. Daşıyıcılarının sayı 650 min nəfərdir.

Т.И.Петрова. Очерк грамматики нанайского языка. Л.,1941; В.А.Авронин. Грамматика нанайского языка. т. 1-2, М.-Л., 1959-61.

НАПИСАНИЕ - alm. Schreibweise (f), ing. way of writing (spelling) /weı əv raıtıŋ/ ˈspelıŋ/, fr. graphie, azərb. yazılış. – Müəyyən orfoqrafik sistemdən asılı olaraq dil vahidinin (söz, fonem, morfem və cümlənin) qrafikada

downloaded from KitabYurdu.org

verilməsi. Ənənəvi olaraq 3 cür yazı növü fərqləndirilir; tarixi (tarixən yazılış forması saxlanılır, məs.: ingilis yazı sistemi), morfoloji (rus dilində daha çox tətbiq olunur) və fonetik (Azərb. d. əsas prinsiplərdən biridir).
I Всесоюзный Тюркологический съезд. Стенографический отчет. Баку, 1926, s. 150-170.

НАПИСАНИЕ ИСТОРИЧЕСКОЕ – alm. geschichtliche Schreibweise (f), ing. historical writing /hɪsˈtɔrɪk(ə)l raɪtɪŋ/, fr. graphie historique, azərb. tarixi yazı prinsipi. – Yazılışda tarixi prinsipin gözlənilməsi. Məs.: ing. d. /in/ sözünün bu cür yazılışı yalnız onun tarixən belə yazılışını qoruyub saxlamaq istəyindən irəli gəlir.
Bax: Написание ←.

НАПИСАНИЕ МОРФОЛОГИЧЕСКОЕ - alm. morphologische Schreibweise (f), ing. morphological writing /ˌmɔ:fəˈlɔʤɪkəl raɪtɪŋ/, fr. morphologique graphie, azərb. morfoloji yazı. - Orfoqrafiyanın morfoloji prinsipinə əsaslanan yazı. Məs.: Azərb d. /qızzar/ deyilsə də, «qızlar» kimi yazılır. Rus d. /vad∧p∧vót/ deyilsə də «водопровод» kimi yazılır, çünki morfem tərkibi /вод+о+про+вод/-dur.
Bax: Написание ←.

НАПИСАНИЕ ФОНЕТИЧЕСКОЕ - alm. phonetische Schreibweise (f), ing. phonetic writing /fəuˈnetɪk raɪtɪŋ/, fr. phonétique graphie, azərb. fonetik yazı. - Orfoqrafiyanın fonetik prinsipinə əsaslanan yazı növü. Məs.: alm. d. /bunt/; ing. d. /in/; Azərb. d. /bal/, /yal/ və s.
Bax: Написание ←.

НАПРАВЛЕНИЕ ЕСТЕСТВЕННО-ИСТОРИЧЕСКОЕ - alm. natürlich-historische Richtung (f), ing. natural-historical direction /ˈn5tʃrəl hɪsˈtɔrɪkəl dɪˈrekʃ(ə)n/d∧ɪˈrekʃ(ə)n/, a school of opinion, thought /ə ˈsku:l hɪsˈtɔrɪk(ə)l əv əˈpɪnjən /4ɔ:t/, fr. direction naturelle-historique, azərb. təbii-tarixi istiqamət, meyl. - Dildə baş verən dəyişmələrin ictimai-tarixi amillərdən asılı olmasını təbii təkamül kimi araşdıran (qəbul edən) dilçilik məktəbi. Məs.: naturalizm cərəyanı. Dilçilikdə naturalizm məktəbinin yaranması və inkişafı alman alimi A.Şlayxerin adi ilə bağlıdır. Darvinizmi qəbul edən naturalizm cərəyanı dilə canlı orqanizm kimi yanaşır, onun fəaliyyət və inkişaf qanunauyğunluqlarını təbiətdəki bir sıra hadisələrlə yanaşı qoyur. A.Şlayxerə görə, dilin həyatı mahiyyət etibarı ilə digər canlı orqanların həyatından qətiyyən fərqlənmir. Onların hər birinin bəsitdən mürəkkəbə keçmə, böyümə və qocalma (məhv olma) dövrləri vardır.
A.Axundov. Ümumi dilçilik. Bakı, 1988, s. 29-30.

НАПРАВЛЕНИЕ ЛОГИЧЕСКОЕ - alm. logische Richtung (f), ing. logical (trend) direction /ˈlɔʤɪk(ə)l/trend/dɪˈrekʃ(ə)n/d∧ɪˈrekʃ(ə)n/, fr. direction logique, azərb. məntiqi cərəyan. - Dilçilik kateqoriyalarını məntiq

downloaded from KitabYurdu.org

kateqoriyaları ilə eyniləşdirən, cümləni ümumi və mücərrəd bir məntiqi - semantik sxemin təzahürü, reallaşması hesab edən cərəyan. Bu cərəyan cümləni hökmlə eyniləşdirir. Dildə məntiqi vurğunun olmasını iddia edir.
Ə.Rəcəbli. Dilçilik metodları. Bakı, 2003, s. 103-110.

НАПРАВЛЕНИЕ НАТУРАЛИСТИЧЕСКОЕ - alm. naturalistische Richtung (f), ing. naturalist direction (trend) /ˈn5tʃrəlıst dıˈrekʃ(ə)n/d∧ıˈrekʃ(ə)n /trend/, fr. direction naturaliste, azərb. naturalizm cərəyanı. - Dili canlı orqanizm, təbii hadisə hesab edən naturalizm cərəyanı. XIX əsrin ortalarında yaranmışdır. Darvinizmi təqlid edən bu cərəyan dilə canlı orqanizm kimi yanaşır, onun fəaliyyət və inkişaf qanunauyğunluqlarını təbiətdəki digər hadisələrlə bir sıraya qoyur. Bu nəzəri müddəaya əsaslanan A.Şlayxer səs birləşmələrinin ardıcıl inkişaf qanunauyğunluqlarını tapmaqla hind-Avropa dillərinin qanunlarını kəşf etdiyini güman edir və onları bütün dillərə şamil edir. Naturalizmə görə, dil də əsasən digər canlı orqanizimlər kimi yaranır, çiçəklənir və tənəzzülə uğrayır.
Dili səs materialından yaranmış ən yüksək təbii orqanizm hesab edən A.Şlayxer yazır: «Dilin həyatı mahiyyət etibarilə digər canlı orqanizmlərin - bitki və heyvanların həyatından qətiyyən fərqlənmir. Onların hər birinin ən sadə başlanğıcdan ən mürəkkəb formalara kimi böyümə və dillərin əldə etdikləri yüksək formalardan uzaqlaşdıqları və onları itirdikləri qocalıq dövrləri vardır. Təbiətşünaslar bunu geri metamorfoza adlandırırlar»
A.Axundov. Ümumi dilçilik. Bakı, 1988, s. 28-30; F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 17.

НАПРЯЖЕНИЕ - alm. Spannung (f), ing. communicative /kəˈmju:nıkətıv/, tension /ˈtenʃən/, fr. tension, azərb. gərginlik. - Tema və rema əlaqələrinin kommunikativ (ünsiyyət) həlli və verilən məlumatın dinləyicidə müəyyən gözləmə gərginliyi yaratdığını təsəvvür edən sintaktik yanaşma. Gərginlik cümlənin əvvəlində başlayır, ortasına doğru güclənir və sonuna yaxın zəifləyir. Bu cür cümlə formasını qövsə bənzədirlər. Müq. et: Azərb. d. /Bizim adamlar /qiybət qırmağı xoşlayırlar//.
K.Boost. Zum Wesen und zur Struktur des deutschen Satzes. Berlin, 1964.

НАПРЯЖЕНИЕ ПРОИЗНОСИТЕЛЬНОЕ - alm. Aussprachespannung (f), artikulatorische Spannung (f), ing. articulatory tension /α:ˌtıkjulətrı ˈtenʃən/, pronunciation tension /prəˌn∧sıˈeıʃn ˈtenʃən/ fr. tension de prononciation, azərb. tələffüz gərginliyi. - Tələffüz gərginliyinin dərəcəsi. Vurğulu heca vurcusuzdan daha gərgin tələffüz olunur.
F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Bakı, 1989, s. 194-205.

НАПРЯЖЕННОСТЬ - alm. Spannung (f), ing. tension /ˈtenʃ(ə)n/, fr. tension, azərb. gərginlik. - Müəyyən bir səsin yaranmasında iştirak edən tələffüz üzvlərinin əzələlərinin gərginliyi. Bu da özünü səsin fiziki xassəsinə – onun tonuna, intensivliyinə və sürətinə son nəticədə isə onun

downloaded from KitabYurdu.org

keyfiyyətinə güclü təsir göstərir. Səsin intensivliyi danışıq tempindən, sözdəki mövqeyindən və vurğuya münasibətindən asılıdır. Vurğulu hecada səs daha gərgin tələffüz olunur.
F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Bakı, 1989, s. 194-205.
НАПРЯЖЕННЫЕ ГЛАСНЫЕ - alm. gespannte Vokale (Pl.), ing. tense (high) vowels /tens /haı/ˈvau(ə)lz/, fr. voyelles intenses (tendues), azərb. gərgin saitlər. - L.V.Şerba eksperimental-fonetik tədqiqatlardan çıxış edərək yazırdı ki, saitlərin xarakterində tələffüz üzvlərinin gərginliyi özünü göstərir. Səslənmədə sönmə diapazonu az olduqca səs az gərgin olur.
Л.Р.Зиндер. Общая фонетика. М., 1979.
НАПРЯЖЕННЫЙ – Bax: Напряженность ←.
НАПРЯЖЕННЫЕ СОГЛАСНЫЕ – alm. gespannte Konsonanten (Pl.), (Fortis) (m), ing. tense consonant /tens ˈkɔnsənənt/, fr. consonnes intenses (tendues), azərb. gərgin samitlər. - Daha çox enerji sərf olunmaqla tələffüz olunan samilər. Buraya kar samitlər daxildir. Onlar zəif (Lenis) samitlərə qarşı qoyulur.
F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 175-178.
НАРАЩЕНИЕ ОСНОВЫ - alm. Krement (m), Stammerweiterung (f), ing. increment /ˈınkrım(ə)nt/, augment of stems /ˈכ:gmənt əv stems/, fr. intensification de la base, azərb. əsasın genişləndirilməsi. - Əsas ona bitişdirilmiş affiks elementlərilə genişlənə bilər. Məs.: Azərb. d. /araba → arabaçı → arabaçı+dakı/; alm. d. /sprechen, ansprechen, versprechen/ (danışmaq, müraciət etmək, vəd etmək) və s.
F.Veysəlli. GDG, Bakı, 2003.
НАРАЩЕННАЯ ФОРМА - alm. Streckform (f), ing. stretched form /ˈstretʃəd fɔ:m/, fr. forme étirée, azərb. genişləndirilmiş forma.
Bax: Наращение основы ←.
НАРЕЧИЕ - alm. Adverb (n), Umstandswort (n), ing. adverb /ˈ5dvə:b/, fr. adverbe, azərb. zərf. - İş və hərəkətin icra tərzini, zamanını, yerini, miqdarını, əlamətini və s. bildirən sözlərə zərf deyilir. Zərf sintaktik baxımdan müstəqil (məs.: /axşam, həvəslə/) və pronominal (məs.: oraya, ona görə/) olurlar. İşlənməsi baxımdan zərflər adverbial və predikativ olurlar (məs.: /o, axşamlar işləyir// və /o başqadır/). Bəzən də təyin kimi çıxış edirlər. Müq. et: //buradakı kitab…// və s. Semantik baxımdan zərflər aşağıdakı kimi bölünürlər: zaman, yer, modal, kauzal və s. Morfoloji əlamətinə görə zərflər sadə, düzəltmə və mürəkkəb olurlar.
H.Glinz. Göstərilən əsər, s. 9-35.
НАРЕЧИЕ ВТОРИЧНОЕ - alm. sekundäres ɑdverb (n), ing. secondary adverb /ˈsekəndərı ˈ5dvə:b/, fr. adverbe secondaire, azərb. ikinci zərf, törəmə zərf. – Digər nitq hissələrinin əsasından törəmiş zərflər. Məs.: Azərb. d. /bu→burada, ləng-ləngidici/, /qorxmaq→qorxa-qorxa/ və s.
H.Glinz. Göstərilən əsər, s. 9-35.

downloaded from KitabYurdu.org

НАРЕЧИЕ КАЧЕСТВЕННОЕ - alm. qualitatives Adverb (n), ing. qualitative adverb /ˈkwɔlıtətıv ˈ5dvə:b/, fr. adverbe qualitatif, azərb. keyfiyyət zərfi. - Əlamət və hərəkətin keyfiyyətini bildirən zərf. Məs.: Azərb. d. /O tir-tir əsirdi/.
M.Hüseynzadə. Göstərilən əsər, s. 257-283.
НАРЕЧИЕ КАЧЕСТВЕННО-ОБСТОЯТЕЛЬСТВЕННОЕ - alm. qualitativ-adverbiales Adverb (n), ing. qualitative-adverbial adverb /ˈkwɔlıtətıv ədˈvə:bjəl ˈ5dvə:b/, fr. adverbe qualitatif-circonstanciel, azərb. keyfiyyət-kəmiyyət zərfi. - İş və ya hərəkətin keyfiyyətini və icra tərzini özündə ehtiva edən zərf növü. Məs.: Azərb. d. /əzbərdən, dərindən/ və s. Müq. et: /Qoca onun əsərlərini əzbərdən bilirdi//.
M.Hüseynzadə. Göstərilən əsər, s. 257-283.

НАРЕЧИЕ КОЛИЧЕСТВЕННОЕ - alm. quantitatives Adverb (n), ing. quantitative adverb /ˈkwɔntıtətıv ˈ5dvə:b/, adverb of quantity /ˈ5dvə:b əv ˈkwɔntıtətı/, fr. adverbe quantitatif, azərb. kəmiyyət zərfi. – İş və ya hərəkətin kəmiyyətini bildirən, neçə? nə qədər? və s. suallarına cavab verən zərflər. Məs.: Azərb. d. /İş *olduqca* ağırdır//, /Onlar söhbət edə-edə *xeyli* irəliləmişdilər//.
M.Hüseynzadə. Göstərilən əsər, s. 257-283.
НАРЕЧИЕ ВОПРОСИТЕЛЬНОЕ - alm. Frageadverb (n), 9nterrogativadverb (n), ing. interrogative adverb /ˌıntəˈrɔgətıv ˈ5dvə:b/, fr. adverbe interrogatif, azərb. sual zərfi. - Məs.: Azərb. d. /nə vaxt?/, /haçan?/, /harada?/; rus d. /как/, /когда/, /где/, /откуда/; ing. d. /when?/, /where?/; fr. d. /où?/, /quand?/, /d'où?/ və s.
H.Glinz. Göstərilən əsər, s. 9-35.
НАРЕЧИЕ НЕОПРЕДЕЛЕННОЕ - alm. unbestimmtes ɑdverb (n), ing. indefinite adverb /ınˈdefınıt ˈ5dvə:b/, fr. adverbe indéfini, azərb. qeyri-müəyyənlik zərfi. - Qeyri–müəyyənlik bildirən zərflər. Məs.: Azərb. d. /nə vaxtsa, haçansa, haradasa/ və s.
M.Hüseynzadə. Göstərilən əsər, s. 257-283.
НАРЕЧИЕ ОПРЕДЕЛИТЕЛЬНОЕ - alm. Determinativadverb (n), ing. attributive adverbs /əˈtrıbjutıv ˈ5dvə:bz/, determinative adverb /dıˈtə:mınətıv ˈ5dvə:b/, fr. adverbe déterminatif, azərb. təyini zərflər. - İş və ya hərəkətin keyfiyyət, kəmiyyət və icra tərzini səciyyələndirən zərflər. Məs.: Azərb. d. /yaxşı, güclü oynayır/, /əzbərdən, dərindən bilir/, /dostcasına, zarafatyana deyir/ və s.
M.Hüseynzadə. Göstərilən əsər, s. 257-283.
НАРЕЧИЕ ОТРИЦАТЕЛЬНОЕ - alm. negatives ɑdverb (n), ing. negative adverbs /ˈnegətıv ˈ5dvə:bz/, fr. adverbe négatif, azərb. inkar zərflər. – Məs.: Azərb. d. /heç vaxt, heç yerdə/ və s.
M.Hüseynzadə. Göstərilən əsər, s. 257-283.

downloaded from KitabYurdu.org

НАРЕЧИЕ ПРИТЯЖАТЕЛЬНОЕ - alm. Possessivadverb (n), ing. possessive adverbs /pə'zesıv ˈ5dvə:bz/, fr. adverbe possessif, azərb. mənsubiyyət zərfləri. - Məs.: Azərb. d. /səncə, məncə, bizcə/ və s. ¿Bu işlər *Sizcə* başa çatacaq?
H.Glinz. Göstərilən əsər, s. 9-35.
НАРЕЧИЕ МОДАЛЬНОЕ - alm. Modaladverb (n), ing. modal adverbs /ˈməudl ˈ5dvə:bz/, fr. adverbe modal, azərb. modal zərflər. - İş və ya hərəkətə danışanın münasibətini bildirən zərflər. Məs.: Azərb.d. /Mənim bundan *sadəcə* xəbərim olmayıb//.
H.Glinz. Göstərilən əsər, s. 9-35.
НАРЕЧИЕ ОБРАЗА ДЕЙСТВИЯ - alm. Adverb der Art und Weise (n), ing. adverb of manner /ˈ5dvə:b əv ˈm5nə/, fr. adverbe de manière, azərb. tərzi-hərəkət zərfi. - Hərəkətin icra tərzini və ya vəziyyətini bildirən zərfə tərzi-hərəkət zərfi deyilir. Tərzi-hərəkət zərfi necə?, nə cür?, nə halda?, nə vəziyyətdə? suallarından birinə cavab verir. Məs.: Azərb. d. /O evdən *cəld* çıxdı//. /Qonşular o eşitməsin deyə *yavaşdan* danışırdı//.
M.Hüseynzadə. Göstərilən əsər, s. 258-269.
НАРЕЧИЕ ВРЕМЕНИ - alm. Adverb der Zeit (n), ing. adverbs of tense (time) /ˈ5dvə:bs əv tenz/taım/, fr. adverbe de temps, azərb. zaman zərfi. – İş və hərəkətin icra olunduğu zamanı, hal-vəziyyət və hadisənin vaxtını bildirən zərf növü. Zaman zərfi nə vaxt?, nə zaman?, haçan? suallarına cavab verir. Məs.: Azərb. d. /Məhsul, mer-meyvə *bildir* çox az oldu//. /*Arabir* külək darvazanı taqqıldadırdı//.
M.Hüseynzadə. Göstərilən əsər, s. 269-273.
НАРЕЧИЕ МЕСТА - alm. Adverb des Ortes (n), ing. local adverb /ˈləuk(ə)l ˈ5dvə:b/, adverb of place /ˈ5dvə:b əv pleıs/, fr. adverbe de lieu, azərb. yer zərfi. – İş və hərəkətin icra yerini, yönünü, çıxış və son nöqtələrini bildirir. Yer zərfləri hara?, haraya? və s. suallara cavab verir. Məs.: Azərb. d. /*İçəridə* baş verənlər çöldəkiləri bərk narahat etmişdi//, /Mən *burada* çox qalası deyiləm//.
M.Hüseynzadə. Göstərilən əsər, s. 273-279.
НАРЕЧИЕ ПРИЧИНЫ - alm. Adverb des Grundes (n), ing. adverb of cause /ˈ5dvə:b əv kɔ:z/, fr. adverbe de cause, azərb. səbəb zərfi. - İş və ya hərəkətin səbəbini bildirən zərf növü. Məs.: /Körpənin gözləri *sevincdən* doldu//, /Onun qollarında *aclıqdan* taqət qalmamışdı//.
R.Conrad. Göstərilən əsər, s. 22.
НАРЕЧИЕ ОТГЛАГОЛЬНОЕ - alm. verbales Adverb (n), ing. verbal adverb /ˈvə:b(ə)l ˈ5dvə:b/, fr. adverbe verbal, azərb. feli zərf. - Feli bağlamadan yaranmış, hərəkətin zamanını, icra tərzini və s. bildirən zərflər. Məs.: Azərb. d. /Hava *getdikcə* qaralırdı//. /Balaca uşaqlar *qaçaraq* arabaya oturdular//; rus d. /*Прочитав* книгу, ученик искал другую//.
M.Hüseynzadə. Göstərilən əsər, s. 244-257; R.Conrad. Göstərilən əsər, s. 23.

downloaded from KitabYurdu.org

НАРЕЧИЕ ПЕРВИЧНОЕ - alm. primäres Adverb (n), ing. initial /ɪ'nɪʃ(ə)l/, primary adverbs /'praɪmərɪ 'ɜdvə:bz/, fr. adverbe primaire, azərb. əsl zərflər. – Dilin çağdaş mərhələsində tərkib hissələrinə ayrılmayan və iş, hərəkətin zamanını, yerini, keyfiyyətini bildirən zərflər. Məs.: Azərb. d. /dünən, indi, erkən/ və s.
О.С.Ахманова. Göstərilən əsər, s. 253.
НАРЕЧИЕ ПРОТИВИТЕЛЬНОЕ - alm. adversatives Adverb (n), ing. adversative adverb /əd'və:sətiv 'ɜdvə:bz/, fr. adverbe adversatif, azərb. ziddiyyət bildirən zərflər. - Ziddiyyət bildirən bağlayıcı funksiyasında çıxış edən zərflər. Məs.: rus d. /зато, однако, а то/; Azərb. d. /hərgah, zira, buna baxmayaraq/ və s.
О.С.Ахманова. Göstərilən əsər, s. 253.
НАРЕЧИЕ СРАВНИТЕЛЬНОЕ - alm. Komparativadverb (n), ing. comparative adverb /kəm'pɜrətɪv 'ɜdvə:bz/, fr. adverbe comparatif, azərb. müqayisə zərfi. - Müqayisə bildirən, əsasən bağlayıcı funksiyasında çıxış edən zərflər. Məs.: Azərb. d. /guya, sanki, elə bil, necə də/ və s.
О.С.Ахманова. Göstərilən əsər, s. 253.
НАРЕЧИЕ СЧЕТНОЕ - alm. Numeraladverb (n), ing. numeral adverb /'nju:mərəl 'ɜdvə:b/, fr. adverbe de compte, azərb. say bildirən zərflər. - Kəmiyyət bildirən saylarla üst-üstə düşən, təkrarlıq əmsalı ifadə edən zərflər. Məs.: Azərb. d. /üçqat, beşqat, yüz kərə/; alm. d. /dreifach, hundertmal/ və s.
О.С.Ахманова. Göstərilən əsər, s. 253.
НАРЕЧИЕ (ДИАЛЕКТ) - alm. Mundart (f), 1ialekt (m), ing. adverb (dialect) /'ɜdvə:b/'daɪəlekt/, fr. dialecte, azərb. ləhcə (dialekt). – 1) Sıx ərazi birliyinə malik, daima və bilavasitə ünsiyyətdə olan adamlar tərəfindən işlədilən dil. Məs.: Şəki, Salyan, Lənkəran ləhcələri; 2) Bir-birinə yaxın olan şivələrin məcmusu. Almaniyanın Berlin dialektində qərbi və şərqi almanların ləhcələri fərqlənir. Eləcə də Bakının Buzovna və Qaradağ ləhcələrinə diqqətlə qulaq asanda fərqlər aydın olur.
M.Şirəliyev. Azərbaycan dialektoloqiyasının əsasları. Bakı, 1968.
НАРЕЧИЕ ПЛЕМЕННОЕ - alm. Stammesmundart (f), ing. tribal dialect /'traɪbəl 'daɪəlekt/, fr. dialecte de tribu, azərb. qəbilə dialekti, ləhcəsi. - Ərazi ləhcələrindən fərqli olaraq etnik danışıq xüsusiyyətlərini özündə cəmləşdirən ləhcə. Məs.: Bakının Suraxanı, Azərbaycanın Astara bölgələrində belə ləhcəyə rast gəlmək olur.
Ю.С.Маслов. Göstərilən əsər, 241-246.
НАРЕЧИЕ ЭТНИЧЕСКОЕ - alm. ethnische Mundart (f), ing. ethnic dialect /'eθnɪk 'daɪəlekt /, fr. dialecte ethnique, azərb. etnik ləhcə.
Bax: Наречие племенное ←.
НАРЕЧИЕ МЕСТНОЕ - alm. lokale Mundart (f), ing. local dialect /'ləuk(ə)l 'daɪəlekt/, fr. dialecte local, azərb. yerli ləhcə. - Müəyyən coğrafi

downloaded from KitabYurdu.org

ərazidə yayılmış ləhcə. Məs.: Azərb. d. Şirvanın cənubunda /onu götür mənə ver/ əvəzinə sadəcə /mə:/ deyirlər.
Ю.С.Маслов. Göstərilən əsər, 241-246.

НАРЕЧИЕ ПРОФЕССИОНАЛЬНОЕ - alm. berufliche Mundart (f), ing. dialect professional (slang) /ˈdaɪəlekt prəˈfeɪʃənl /sl5ŋ/, fr. dialecte professionnel, azərb. peşə ləhcəsi. - Müəyyən peşə, sənət və məşğuliyyət zəminində formalaşmış ləhcə. Peşə dillərinə mürəttiblərin, balıqçıların, sürücülərin və s. spesifik danışıq tərzi daxildir. Məs.: Azərb. d. /mən artıq necə ildir ki, qələmlə vuruşuram// və s.
Ю.С.Маслов. Göstərilən əsər, s. 13.

НАРИЦАТЕЛЬНОЕ СЛОВО - alm. Gattungswort (n), ing. common word /ˈkɔmən wə:d/, fr. mot commun, azərb. ümumi söz. - Sözlər denotativ və siqnifikativ əlaqələrin xarakterinə, ictimai vəzifələrinə görə iki böyük qrupa-ümumi və xüsusi sözlər qrupuna bölünür. Ümumi sözlərdə üç cəhət özünü göstərir: səs kompleksi, məna cəhəti, məna mənbəyi; başqa sözlə desək, fonetik söz, denotat və siqnifikat. Ümumi sözlərdə, xüsusi sözlərdən fərqli olaraq, denotat və siqnifikat bilvasitə deyil, bilavasitə əlaqədədir: /şir/ - fonetik söz, «şir» - denotat və məməli heyvanların bir növü kimi, «şir» - siqnifikat. Ənənəvi məna üçbucağı ilə göstərsək bu belə olacaq:

ŞİR /ʃir/



Məməli yırtıcı heyvan növü

А.А.Реформатский. Göstərilən əsər, s. 66.

НАРИЦАТЕЛЬНОЕ СУЩЕСТВИТЕЛЬНОЕ - alm. Gattungsname (m), ing. common nouns /ˈkɔmən nauns/, fr. noms commun, azərb. ümumi isimlər. – Eyni sinifdən olan əşyaların ümumiləşmiş adları. Məs.: Azərb. d. /şagird, kitab, don, çay, həyat, ağac, qəzet/.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 125.

НАРОДНАЯ ЭТИМОЛОГИЯ - alm. Volksetymologie (f), ing. popular etymology /ˈpɔpjulə ˌetɪˈmɔlədʒɪ/, fr. étymologie populaire, azərb. xalq etimologiyası. - Sözlərin semantikasının izahında onların daxili formasına, xalq deyiminə əsaslanmaq cəhdi. Məs.: F.Yadigarın (Veysəlli) yozumunda «Kürdəmir» sözü «Kür dəymir»-dən əmələ gəlmiş kimi izah edilir.
F.Yadigar (Veysəlli). Dilimiz, qeyrətimiz, qayğılarımız. Bakı, 1997.

НАРОДНО-ПОЭТИЧЕСКАЯ РЕЧЬ - alm. volkspoetische Rede (f), ing. people's poetic(al) speech /ˈpi:pls pəuˈetɪk(ə)l spi:ʧ/, fr. discours poétique populaire, azərb. poetik xalq danışığı. - Folklordan müəyyən bədii

downloaded from KitabYurdu.org

vasitələr mənimsəmiş poetik deyim növü. Məs.: Azərb. d. /Biri vardı, bir yox idi…//, /Əl-əl üstdən kimin əli//.
M.İ.Adilov. Göstərilən əsər, s. 318.

НАРУШЕННОЕ ПРЕДЛОЖЕНИЕ - alm. gestörter Satz (m), ing. broken sentence /ˈbroukən ˈsentəns/, fr. proposition enfreinte, azərb. cümlənin pozulması. - Xəbəri buraxılmış cüttərkibli cümlə. Məs.: Azərb. d. /Mən ona kitab oxumağı öyrədirdim, o isə mənə mahnı//, /Biz otağa ayaq basmışdıq ki, birdən nəsə guppultuyla… // və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 254.

НАСТОЯЩЕЕ ВРЕМЯ - alm. Präsens (n), ing. present tense /ˈpreznt tens/, fr. présent, azərb. indiki zaman. - İş, hal və hərəkətin onun haqqında danışılan vaxtda (anda) baş verib-vermədiyini bildirən zaman forması. İndiki zaman forması Azərb. d. fel əsasına (-ır[4]) şəkilçiləri artırmaqla düzəlir. Müq. et: /mən yarıram (-san, -ır, -ırıq, -ırsınız, -ırlar); alm. d. /ich - lese, du - liest, er, sie, es - liest, wir - lesen, ihr - lest, sie/Sie - lesen/ (mən yazıram…); ing. d. /I, you, we, they - ask/, /he, she, it - asks/ (mən soruşuram…); rus d. /я - читаю, -ешь, -ет, -ем, -ете, -ют//. Göründüyü kimi, ingilis dilində felin indiki zamanında yalnız üçüncü şəxsin təkində şəxs sonluğu olur. Alm. və rus d. isə şəxs sonluğü ilə xəbər şəkilçisi üst-üstə düşür. Azərb. d. isə xəbər və şəxs şəkilçiləri fərqlənir.

R.Conrad. Göstərilən əsər, s. 208.

НАСТОЯЩЕЕ АФОРИСТИЧЕСКОЕ ВРЕМЯ - alm. aphoristisches Präsens (n), ing. aphoristic present tense /ˌ5fəˈrıstık ˈpreznt tenz/, fr. présent atemporel, azərb. aforistik indiki zaman. - Hikmətli sözlərdə, zərbi-məsələlərdə və atalar sözlərində işlənən və hərəkətin danışıq vaxtda baş verdiyini inkar etməyən indiki zaman (zamandanxaric) forması. Məs.: Azərb. d. /Altı bulaq içərlər/, /Üstü zəmi biçərlər/; alm. d. /Man schiede das Eisen, so weit es heiß ist// (Dəmiri isti-isti döyərlər).
R.Conrad. Göstərilən əsər, s. 209.

НАСТОЯЩЕЕ ИСТОРИЧЕСКОЕ ВРЕМЯ - alm. Präsens-Historicum (n), historisches Präsens (n), ing. present historical tense /ˈpreznt hısˈtɔrıkəl tenz/, fr. présent historique, azərb. indiki tarixi zaman. - Kesmişdə baş vermiş hadisəni nəql edərkən ona xüsusi canlandırma vermək üçün işlədilən indiki zaman şəkli. Məs.: Azərb. d. /Keçən ilin söhbətidir. Meşədə odun qırıram. Görürəm budur, kolların arasında bir ayı nərildəyir//.
R.Conrad. Göstərilən əsər, s. 209.

НАСТОЯЩЕЕ ТАБЕЛЛЯРНОЕ - alm. darstellendes Präsens (n), ing. annalistic present /ˈ5n(ə)lıstık ˈpreznt/, fr. présent tabellaire, azərb. indiki obrazlı zaman. - Məşhur müəlliflərin sözlərindən sitat (iqtibas) gətirildikdə işlədilən zaman forması. Məs.: /Dostoyevski deyir: gözəllik dünyanı xilas edəcək//.
O.C.Ахманова. Göstərilən əsər, s. 255.

downloaded from KitabYurdu.org

НАТУРАЛИСТЫ - alm. Naturalisten (Pl.), ing. naturalists /ˈn5ʧrəlıstsˈ/, fr. naturalistes, azərb. naturalistlər. - Təbii dillərin bazası əsasında süni beynəlxalq dillərin yaradılmasını təbliğ edən cərəyan. Məlumdur ki, tarixən ölü və canlı dildən beynəlxalq ünsiyyət vasitəsi düzəltməyə can atmaqla yeni dilləri planlaşdırmağa cəhd göstəriblər. Almaniyada yaradılan volapük (ingilis dilində «world speak» söz birləşməsindən) dili ilk belə cəhdlərdəndir. Bu dil çoxlu şəkilçilərə malik olduğundan onu öyrənmək çətin idi, sözlərin çoxu təbii dillərdən götürülsə də, çox ciddi dəyişikləyə uğramışdı. 1887-ci ildə polşalı göz həkimi Zamenhof (1859-1917) beynəlxalq süni dil hazırlamış və onu Esperanto (mənası «ümid dolu» deməkdir) adlandırmışdı. 1907-ci ildə isə ido süni dil layihəsi yaradıldı. Onun müəllifi L. de Beaufort (Befo) idi.

F.Veysəlli. Dil, cəmiyyət və siyasət. Bakı, 2004, s. 47-49.

НАУРУ – alm. Nauru (n), ing. Nauru /nʌ(:)ˈu:ruˈna-ru:/, fr. naourou, azərb. nauru. – Mikronez dillərindən biridir. Nauru Respublikasının rəsmi dilidir (ingilis dili ilə bərabər). 5 min daşıyıcısı vardır. Nauru dilinin fonoloji sistemi olduqca mürəkkəbdir. Fonem inventarı 12 sait və 24 samitdən ibarətdir. Cümlə daxilində söz sırası İFT (isim+fel+tamamlıq).

A.Kayser. Nauru grammar. Nauru, 1938; G.S.Natan. Nauruan in the Austronesian. Language family. OL, 1973, v. 12.

НАУЧНАЯ ГРАММАТИКА - alm. wissenschaftliche Grammatik (f), ing. scientific grammar /ˌsaıənˈtıfık ˈgr5mə/, fr. grammaire scientifique, azərb. elmi (nəzəri) qrammatika. - Dilçiliyin əldə etdiyi son nailiyyətlər əsasında yazılan və nəzəri cəhətdən zəngin olan qrammatika. Nəzəri qrammatikanın tədqiqat obyekti nəzəri problemlərdir. Dilçilikdə nəzəri qrammatikanı adətən normal qrammatikadan əvvəlki mərhələ hesab edirlər.

Bax: Грамматика ←.

НАУЧНЫЙ СТИЛЬ - alm. wissenschaftlicher Stil (m), ing. scientific style /ˌsaıənˈtıfık staıl/, fr. style scientifique, azərb. elmi üslub. – Elmin bütün sahələrinə aid yazılan əsərlərin dil üslubu. Elmi dil üslubu bədii dil üslubundan tərkibində mücərrəd mənalı, habelə beynəlmiləl sözlərin çox olması ilə fərqlənir. Bu üslubda sözlər əsasən həqiqi mənada işlənir. Məs.: Azərb. d. /şer, hekayə, lirika, heca, vurğu, fonem, oksigen, karbon, metal, dəmir/ və s.

M.İ.Adilov və b. Göstərilən əsər, s. 297-298.

НАХСКИЕ ЯЗЫКИ – alm. nachische Sprachen (Pl.), ing. Nakh languages /ˈna:kˈna:h/ ˈl5ŋgwıʤız/, fr. langues nakhes, azərb. nax dilləri. – Qafqaz dilləri ailəsinə (iberiya-qafqaz) daxil olan dillərdən biri. Çeçen, inquş və batsbiy dillərini birləşdirir. 930 minə qədər daşıyıcısı vardır. İsimlərdə hal və kəmiyyət kateqoriyaları mövcuddur. İsmi və feli sözdüzəltmə güclü inkişaf etmişdir.

downloaded from KitabYurdu.org

З.К.Мальсагов. Ингушская грамматика. Владикафказ, 1925; Н.Ф.Яковлев. Синтаксис чеченского литературного языка. М.-Л., 1940.

НАХСКО-ДАГЕСТАНСКИЕ ЯЗЫКИ – alm. Nachisch-Dagestanische Sprachen (Pl.), ing. Nakh-Dag(h)estan languages /ˈna:k dɑ:ɡeˈstɑ:n ˈl5ŋɡwɪʤɪz/, fr. langues nakhes-dagestanaises, azərb. nax-dağıstan dilləri. – Qafqaz dillərini bir qolu və ya qrupu. Əsasən Çeçen İnquş və Dağıstan respublikalarında, qismən də Azərbaycan və Gürcistan Respublikalarında yayılmışdır. 2,3 milyona yaxın daşıyıcısı vardır. Fonoloji sistem 3-10 sait və 35-45 samit fonemdən ibarətdir.

Е.А.Бокарев. Введение в сравнительное изучение дагестанских языков. Махачкала, 1961; Б.К.Гигинейшвили. Сравнительная фонетика дагестанских языков. Тбилиси, 1977.

НАЦИОНАЛЬНЫЙ ЯЗЫК - alm. Nationalsprache (f), ing. national language /ˈn5ʃ(ə)nl ˈl5ŋɡwɪʤ/, fr. la langue nationalle, azərb. milli dil. – Bütün millətin ümumi dili. Alm. d. alman xalqının ümumimilli dili olmaqla 5 dövlətin rəsmi dilidir: AFR, Avstriya, İsveçrə, Lixtenştein, Luksemburq.

R.Conrad. Göstərilən əsər, s. 176.

НАЧАЛО АБСОЛЮТНОЕ - alm. Anlaut (m), Stirnstelle (f) ing. absolute beginning /ˈabsəlu:t bɪˈɡɪnɪŋ/, fr. commencement absolu, azərb. mütləq başlanğıc. – Fasilədən sonra, yəni morfem, leksem və cümlədə birinci yerdə gələn. Məs.: /Qatar hərəkətə gəldi// cümləsində /q/ fonemi mütləq başlanğıcda gəlir.

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.

НАЧАЛО СЛОВА - alm. Wortanlaut (m), ing. initial part /ɪˈnɪʃəl pa:t/, beginning of the word /bɪˈɡɪnɪŋ əv 1ə w8:d/ fr. mot initiale, azərb. sözün başlanğıcı. – Sözün başlanğıc ünsürü. Məs.: alm. d. bu mövqedə sait gələndə, o knaklautla tələffüz olunur. Müq. et: /ˈ>a: bənt/ (axşam), /ˈ>a: Rt/ (növ, tərz) və s.

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.

НАЧАЛЬНЫЙ - alm. anlautend, ing. initial /ɪˈnɪʃəl/, fr. initial, azərb. başlanğıc. - Başlanğıca aid olan, başlanğıca xas xüsusiyyətləri özündə əks etdirən.

Bax: Начало абсолютное ←.

НАЧЕРТАНИЯ БУКВ - alm. Buchstabenbild (n), ing. configuration letter /kənˌfɪɡəˈreɪʃn ˈletə/, sketch /sketʃ/, tracing /ˈtreɪsɪŋ/, fr. tracées des lettres, azərb. hərflərin şəkli (cizgisi). - Bu və ya digər hərflərin əlifbada qrafik işarəsi.

Bax: Алфавит ←.

НАЧИНАТЕЛЬНЫЙ - alm. Inchoativ (m), ing. inchoative /ˈɪnkəueɪtɪv/, inceptive /ɪnˈseptɪv/, fr. inchoatiif, azərb. başlanğıcı bildirən. - Hərəkətin, prosessin başlanğıcının, təşəkkül tapmasını bildirən.

Bax: Инхоативный ←.

downloaded from KitabYurdu.org

НГАЛА – Bax: Лингала ←.

НГАНАСАНСКИЙ ЯЗЫК – alm. Nganasanisch (n), ing. Nganasan language /ˈng5nəsən l5ŋgwɪʤ/, fr. langue nganasane, azərb. nqanasan dili. – Samodiy dillərindən biri. Taymır yarımadasında yayılmışdır. Bu dildə 800 min insan danışır. İki dialektə bölünür: avam və vadev.

Н.М.Терещенко. Нганасанский язык. «Языки народов СССР», т. 3, М., 1966.

НЕАДЕКВАТНО-ФОНЕМНОЕ НАПИСАНИЕ - alm. inadäquate Phonemschreibung (f), ing. non-adequate-phoneme of writing /ˈnɔn-ˈ5dɪkwɪt ˈfouni:m əv ˈraɪtɪŋ/, unequal phoneme of writing /ʌnˈi:kw(ə)l ˈfouni:m əv ˈraɪtɪŋ/, fr. l'écriture non-adéquate du phonème, azərb. qeyri-adekvat fonem yazılışı. - Dil daşıyıcılarının dərk etdikləri (qəbul etdikləri) fonemlərə müvafiq gəlməyən yazı növü. Məs.: /al, ba, dərə, tort/ sözlərində /a/, /l/, /d/, /æ/, /o/, /t/ fonemləri adekvat fonem yazılışa əsaslanırsa, /bıçaq, dörd, yod/, sözlərində isə «ı», «g», «d», qrafemləri qeyri-adekvat fonem yazısına uyğun gəlir. Çünki real danışıqda «ı» düşür, «g» [x], «d» isə karlaşmış [ḍ] kimi tələffüz olunur.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 103-121.

НЕАКТИВНЫЙ ЗАЛОГ - alm. Passiv (n), ing. inactive voice /ɪnˈ5ktɪv vɔɪs/, passiv voice /p5sɪv vɔɪs/, fr. voix passive (inactif), azərb. məchul. Bax: Пассив →.

НЕБЛАГОЗВУЧИЕ (КАКОФОНИЯ) - alm. Kakophonie (f), ing. disharmony /ˈdisˈhɑ:m(ə)nɪ/, cacophony /k5ˈkɔfənɪ/, fr. cacophonie, azərb. ahəngsizlik. - Söz qovuşuğunda səslərin və ya səs birləşmələrinin üst-üstə düşməsi nəticəsində tələffüzü çətinləşən, qulağa xoş gəlməyən, habelə arzuolunmaz təsəvvürlər oyadan səs axını. Məs.: rus д. /Дай-ка каши, Дали ли Лилии Лиде?/ вя с.

О.С.Ахманова. Эюстярилян ясяр, с. 255.

НЕБНЫЙ - alm. palatal, ing. palatal /ˈp5lətl/, fr. palatal, azərb. damaq səsi. – Dilin orta hissəsinin sərt damağa doğru qalxması ilə yaranan səslər. Tələffüzü zamanı dilin orta hissəsi yuxarı qalxaraq sərt damağa yaxınlaşır, ya kipləşmə yaradır, sonra partlayışa keçir, ya da nov əmələ gətirir. Bu əsasən rus d. yumşaq samitlərdə baş verir: /b', p', t', d'/ və s. Bu termin ənənəvi fonetikadan gəlir. Müasir dilçilikdə bu arxaik termin sayılır, çünki o, qeyri-fəal üzvə söykənir.

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 178-193.

НЕВАРСКИЙ ЯЗЫК – alm. Newari (n), ing. Newari language /nɪ:w5rɪ: ˈl5ŋgwɪʤ/, fr. langue névare, azərb. nevar dili. – Tibet-birma dillərindən biri. Mərkəzi Himalay qrupuna aiddir. Daşıyıcılarının ümumi sayı 750 min nəfərdir. 4 dialektə bölünür: şimal, cənub, şərq (bu dialektlər Katmandu

downloaded from KitabYurdu.org

vadisindədir) və dördüncü dialekt (Nepalın şərq hissəsində yayılmışdır). XVIII əsrə qədər Nepalın rəsmi dili olmuşdur, lakin sonralar nepal dili tərəfindən sıxışdırılaraq rəsmi dil funksiyasını itirmişdir.
Н.И.Королев. Неварский язык. М., 1985.

НЕВЕРБАЛЬНАЯ КОММУНИКАЦИЯ – alm. nonverbale Kommunikation (f), ing. non-verbal communication /ˌnɔnˈvə:bl kəˌmju:nɪˌkeɪʃ(ə)n/, fr. communication non-verbale, azərb. sözsüz (jest və mimikalarla) ünsiyyət. – İnsanlararası ünsiyyətdə iştirak edən sözsüz (non verbal) vasitələrin məcmusu. Bunları psixologiya, (psixatriya), sosiologiya, etnologiya və xüsusilə onların tam başa düşülməsini və təsvirini verən dilçilik elmləri öyrənir. Sözsüz ünsiyyətdə: a) fonetik vasitələr (səsin gücü, danışığın ritmi, gülmək, öskürmək) paralinqvistikada öyrənilir. Bəzən paralinqvistika deyəndə bütün qeyri-verbal ünsiyyət vasitələri nəzərdə tutulur; b) qeyri-fonetik vasitələr. Məs.: mimika, jest, bədən hərəkətləri, baxış, xarici görünüş və paltar, bütün bunları kinesika öyrənir. Onlar bəzən dil hadisələrilə (intonasiya, aksent) üst-üstə düşür, bəzən də sərbəst təzahür edirlər. Burada mühüm məsələ kodun xarakterindədir, yəni bu daxilən idarə olunan və insanın özündən asılı olmayan, kommunikativ niyyətə xidmət etməyən, özlüyündə baş verən davranışdır. Qeyri-verbal tədqiqatlarda səs, jest və ünsiyyət sistemləri bir tərəfdən bütöv ünsiyyət daxilində onların qarşılıqlı münasibətlərini və asılılıqlarını geniş tədqiq edirlər. Sözsüz (qeyri-verbal) ünsiyyətin 4 «parasemantik» funksiyası qeyd olunur: a) substitusiya: sözsüz (qeyri-verbal) kommunikasiyada siqnal, sözlü işarəni əvəz edir. Məs.: «hə» əvəzinə başı silkələmək; b) amplifikasiya: sözsüz (qeyri-verbal) ünsiyyət sözlə deyilmiş ifadənin məzmununu açır. Məs.: /orada/ deməklə yanaşı başla da işarə edilir; c) kontradiksiya: sözsüz (qeyri-verbal) ünsiyyətlə sözlü ünsiyyət arasında ziddiyyət əmələ gəlir (rədd edəndə başı silkələmək); ç) modifikasiya: sözlü məlumat səslə dəyişdirilir (məs.: razılıq bildirəndə kinayəli gülüş).
K.R.Scherer, P.Ekman. Handbook of methods in non-verbal research. Cambridge, 1982.

НЕВЕРХНИЙ ПОДЪЁМ - alm. niedreige Hebung (f), ing. non-high rise /ˈnɔn-haɪ raɪz/, fr. rengée inférieure, azərb. aşağı cərgə. – Dil ağız boşluğunda uzanaraq neytral qalır. Məs.: alm. d. /a:/ saitini tələffüzündə dil gövdəsi belə vəziyyətdə olur.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 143-149.

НЕВОКАЛИЗОВАННЫЙ СОГЛАСНЫЙ - alm. nichtvokalisierter Konsonant (m), ing. non-vocalized consonant /ˈnɔn ˈvəukəlaɪzd ˈkɔnsənənt/, fr. voyelle non-vocalisée, azərb. avazlanmayan samit. – Əsas tonun iştirakı olmadan, yalnız küydən ibarət olan samit səslər. Küylü samitlərin hamısı bu qəbildən olan samitlərdir.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 143-149.

downloaded from KitabYurdu.org

НЕВЫРАЖЕННЫЙ - alm. unausgedrückt, ing. ulterior /ʌlˈtɪərɪə/, unspoken /ˈʌnˈspəuk(ə)n/, covert /ˈkʌvə/, fr. inexprimé, azərb. ifadə edilməmiş. - Dildə açıq şəkildə öz ifadəsini tapmamış.
Bax: Имплицит ←.

НЕГИДАЛЬСКИЙ ЯЗЫК – alm. Negidalisch (n), ing. Negidals language /nɪˈdʒɪdəls ˈlɔŋgwɪdʒ/, fr. langue néguidale, azərb. neqidal dili. – Tunqus-mancur dillərindən biri. Rusiya Federasiyasında Amur çökəkliyində və Amqun çayının (Amur çayına tökülən sol qollarından biri) sol sahilində yayılmışdır. 350-ə qədər daşıyıcısı olduğu göstərilir. Yazısız dildir.
К.М.Мыльников, В.И.Цинциус. Материалы по негидальскому языку. «Тунгусский сборник 1», Л., 1931; В.Д.Колесникова, О.А.Константинова. Негидальский язык. «Языки народов СССР», т. 5, Л., 1968.

НЕГЛАГОЛЬНЫЙ - alm. nichtverbal, nonverbal, ing. non-verbal /ˈnɔnˈvə:bəl/, fr. non-verbal, azərb. feli olmayan. - Tərkibində fel olmayan cümlə. Məs.: Azərb. d. /İri bir otağın küncündə dəyirmi masa. Masanın ətrafında iki kişi, bir qadın//.
O.C.Ахманова. Göstərilən əsər, s. 256.

НЕГЛАГОЛЬНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. nichtverbaler Satz (m), ing. non-verbal sentence /ˈnɔnˈvə:bəl ˈsentəns/, fr. proposition non-verballe, azərb. feli olmayan cümlə. - İsmi xəbərə malik olan, tərkibində ismi xəbər olan cümlə. Məs.: Azərb. d /Həmid həkimdir//; rus d. /Он здоров// və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 256.

НЕГРАММАТИЧЕСКИЙ - alm. ungrammatisch, ing. non-grammatical /ˈnɔn grəˈmætɪk(ə)l/, fr. non-grammatical, azərb. qeyri-qrammatik. – Dildə qrammatik cəhətdən düzgün qurulmamış cümlə, ifadə. Məs.: Azərb. d. /*xeyli adamlar/; alm. d. /*fünf Buch/ və s. Elmi əsərlərdə bu qeyri-düzgünlüyü bildirmək üçün nümunənin qarşısında ulduzcuq işarəsi qoyulur. Məs.: Azərb. d. /*beş kitablar/.
O.C.Ахманова. Göstərilən əsər, s. 256.

НЕГРАММАТИЧЕСКОЕ СЛОВОСОЧЕТАНИЯ - alm. ungrammatische Wortverbindung (f), ing. ungrammatical word-combination /ˈʌngrəˈmætɪkəl wə:d ˌkɔmbɪˈneɪʃ(ə)n/, phrase /freɪs/, fr. groupe de mots non-grammatical, azərb. qeyri-qrammatik söz birləşməsi. – Tərkib hissələri arasındakı qrammatik əlaqənin açıq şəkildə ifadəsi olmayan söz birləşməsi. Bunlara elmi ədəbiyyatda müvazi (kopulativ) tərkiblər deyirlər. Məs.: Azərb. d. /həkim-təbib/, /yenilikçi-alim/, /təyyarəçi-kosmonavt/; rus d. /поэт-певец/; alm. d. /Dichter-Komponist/ (şair-bəstəkar) və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 256.

НЕГУБНОЙ - alm. nichtlabial, ing. non-labial /ˈnɔnˈleɪbjəl/, fr. non-labial, azərb. qeyri-dodaq. – Tələffüzü zamanı dodaqların fəal iştirakı olmadan yaranan səslər. Məs.: /a/, /ə/, /ɪ/, /i/, /e/, /t/, /k/, /g/, /x/ və s.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 103-149.

downloaded from KitabYurdu.org

НЕДЕЛИМОСТЬ - alm. Unzerlegbarkeit (f), ing. indivisibility /ˈɪndɪˌvɪzɪˈbɪlɪtɪ/, inseparability /ɪnˌsepərəˈbɪlɪtɪ/, fr. non-séparabilité, indivisibilité, azərb. bölünməzlik, bütövlük. – Hər bir dil vahidi öz səviyyəsi baxımından bölünməz bütövdür. Məs.: fonem, morfem, leksem və s. dil strukturundakı səviyyələri (fonoloji, morfoloji, leksik) baxımdan özlərindən kiçik hissələrə bölünə bilməzlər.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 103-149.

НЕДЕЛИМЫЙ - alm. unzerlegbar, ing. indivisible /ˈɪndɪˌvɪzɪˈbɪl/, inseparabl /ɪnˈsepərəbl/, fr. non-separabl, azərb. bölünməz, bütöv.
Bax: Неделимость ←.

НЕДИФФЕРЕНЦИАЛЬНЫЙ - alm. nichtdifferentiell, ing. non-differential /ˈnɔn ˌdɪfəˈrenʃ(ə)l/, fr. non-distinctif, azərb. qeyri-fərqləndirici. - Linqivistik (semioloji) cəhətdən relevant (fərqləndirici) olmayan. Məs.: /ɧˀγl/ sözündə /ɧ/-nın dodaqlanan tələffüzü fəqləndirici əlamət deyildir. Buna inteqral əlamət deyilir.
Ф.Вейсалов. Проблема варьирования фонем в современной фонологии. «Вопросы языкознания», М., 1990, №3, s. 72-80.

НЕДЛИТЕЛЬНЫЙ ВИД - alm. perfektive Aktionsart (f), ing. Perfect aspect /ˈpə:fɪkt ˈ5spekt/, fr. aspect dyscontinu, azərb. bitmiş tərz. – 1) İş və hərəkətin tam icra olunduğunu, sonunu, hüdudunu göstərən tərz; 2) Qeyri-davamlı aspekt. İng. d. bitməmiş tərzə qarşı qoyulan tərzin kateqoriyal forması. Müq. et: /I asked you// (Mən sizdən soruşdum).
P.H.Matthews. Göstərilən əsər, s. 271.

НЕДОСТАТОЧНЫЙ - alm. defektiv, ing. insufficient /ˌɪnsəˈfɪʃ(ə)nt/, defective /dɪˈfektɪv/, fr. défectif, azərb. yarımçıq, tam olmayan. - Öz paradiqmində bütün formalara malik olmayan, müəyyən nitq hissələri üçün normal sayılmayan, bütöv sintaktik əlaqələrə malik olmayan (təcrid) olunmuş. Dildə yalnız cəmdə (pluraliatantum) və ya təkdə (singulariatantum) işlənən isimlər. Məs.: rus d. /сумерки, брюки, сливки/ və s.; alm. d. /Eltern/ (valideyn), /Ferien/ (tətil) yalnız cəmdə işlənir; rus d. /солнце, мука/; alm. d. /Mond, Sonne/ və s. yalnız təkdə işlənir.
P.H.Matthews. Göstərilən əsər, s. 251.

НЕДОСТАТОЧНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. defektiver Satz (m), ing. defective sentence /dɪˈfektɪv ˈsentəns/, fr. proposition défective, azərb. yarımçıq cümlə. – Baş üzvlərdən birinin buraxılması ilə düzələn cümlə. Məs.: Azərb. d. /yağır/; ing. d. /London to night/ (London bu gecə); alm. d. /Berlin heute// (Berlin bu gün); rus d. /ночь в Лиссабоне/ və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 257.

НЕЗАВИСИМЫЙ - alm. unabhängig, ing. independent /ˌɪndɪˈpendənt/, fr. indépendant, azərb. müstəqil. - Başqa dil vahidlərindən, mövqe və

downloaded from KitabYurdu.org

əhatədən asılı olmayan, tabe olmayan. Məs.: Azərb. d. /Berlin, axşam saat 10// və s. Buraya vokativ cümlələr aiddir.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 45.

НЕЗАВИСИМОЕ РАЗЛИЧИЕ (ЗВУКОВ) - alm. unabhängiger Lautunterschied (m), ing. independent difference between saunds /ˌɪndɪˈpendənt ˈdɪfrəns bɪˈtwi:n saund/, fr. différence indépendante, (des sons), azərb. səslərin müstəqil fərqlənməsi. – Söz və morfemlərin səs qabığının fərqlənməsinə xidmət edən, mövqedən asılı olmayan, müstəqil fərqləndirmə. Məs.: Azərb. d. /tora dəymə/ - /tara dəymə/.
F.Veysəlli. SDƏ. Bakı, 2005.

НЕЗАВИСИМЫЕ СЛОВА - alm. unabhängige Worter (Pl.), ing. independent words /ˌɪndɪˈpendənt wə:dz/, fr. mots indépendants, azərb. müstəqil sözlər. - Təktərkibli cümlənin baş üzvü, cüttərkibli cümlənin isə mübtədası funksiyasında çıxış edən söz. Məs.: Azərb. d. /Axşama yaxın kənddə *cavanlar* bir yerə yığışardılar/.
F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003.

НЕЗАВИСИМЫЙ ЭЛЕМЕНТ ПРЕДЛОЖЕНИЯ - alm. unabhängiges Satzglied (n), ing. independent element of sentence /ˌɪndɪˈpendənt əv ˈelɪmənt ˈsentəns/, fr. élément indépendant de la proposition, azərb. cümlənin müstəqil üzvü. - Digər cümlə üzvlərilə morfosintaktik əlaqəyə girməyən, cümlənin (sözün, söz birləşməsinin) tərkibinə pərçimlənmiş (əlavə edilmiş) üzv. Məs.: Azərb. d. /Paho, əcəb işə düşdük//, /Deyəsən, bu axşam qar yağacaq//, /Əfsus, qocaldım, ağacım düşdü əlimdən// və s.
M.İ.Adilov və b. Göstərilən əsər.

НЕЗАКОНЧЕННАЯ ИНТОНАЦИЯ - alm. progrediente oder nicht terminale Intonation (f), ing. non-terminal intonation /ˈnɔn ˈtə:mɪnl ˌɪntouˈneɪʃən/, incomplete intonation /ˌɪnkəmˈpli:t ɪntouˈneɪʃən/ fr. intonation imparfaite, azərb. qeyri-bitkinlik, bitməmiş intonasiya. – İfadənin bitmədiyini, fikrin yarımçıq qaldığını əks etdirən intonasiya. «Qeyri-bitkinlik intonasiyası ilə deyilən sintaqmlarda səs tonu qalxır, o orta vəziyyətdə olur və ya aşağı düşür. Lakin səs tonunun qalxması heç zaman sual intonasiyası ilə deyilən sintaqmın sonundakı səviyyəyə çatmır. Səs tonunun aşağı düşməsi isə bitkinlik intonasiyası ilə deyilən sintaqmın sonundakı səviyyəyə çatmır». F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 150. Məs.: Azərb. d. /Uşaqlar gəldilər, amma qapının açarını gətirməyiblər//. Bu cümlədə /uşaqlar gəldilər/ sintaqmı proqrediyent intonasiya ilə deyilir.
Bax: Интонация ←.

НЕЗАКОНЧЕННОЕ СЛОВОСОЧЕТАНИЕ - alm. unvollendete Wortverbindung (f), ing. incomplete word- combination /ˌɪnkəmˈpli:t wə:d-ˌkəmbɪˈneɪʃən/, fr. groupe de mots imparfait, azərb. yarımçıq söz birləş-

downloaded from KitabYurdu.org

məsi. - Sözün tam mənasında söz birləşməsi, cümlədən öz «yarımçıqlığı» ilə fərqlənən söz birləşməsi. Məs.: Azərb. d. /Uşaq bağçası/, /uşaqların bağçası/ və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 258.

НЕЗАМКНУТОЕ СЛОВОСОЧЕТАНИЕ - alm. koordinative Wortverbindung (f), ing. coordinative word-combination /kəʊˈɔ:dɪneɪtɪv wə:d ˌkəmbɪˈneɪʃən/, fr. groupe de mots ouvert, azərb. açıq söz birləşməsi. - Üzvləri (komponentləri) tabesizlik əlaqəsi, yəni yanaşma əlaqəsi əsasında (sadalama, qarşılaşma, yanaşma) bağlanan söz birləşməsi. Məs.: Azərb. d. /taxta qaşıq, beş-altı gün əvvəl/; alm. d. /funkelnagelneu/ (təptəzə) və s.
Bax: Парамаксис →.

НЕИЗМЕНЯЕМЫЙ - alm. unveränderlich, ing. invariable /ɪnˈvɛərɪəbl/, fr. invariable, inaltérable, azərb. dəyişməyən, (hallanmayan, təsrif olunmayan). - Qrammatik formalardan məhrum olmuş, sözdəyişdirici paradiqmi olmayan. Məs.: Azərb. d. /tez, gec, ancaq, amma, lakin/ və s.
M.Hüseynzadə. Göstərilən əsər.

НЕИЗМЕНЯЕМЫЙ ГРАММАТИЧЕСКИЙ - alm. grammatisch unveränderlich, ing. invariable grammatical /ɪnˈvɛərɪəbl ɡrəˈm5tɪk(ə)l/, unchangeable grammatic(al) /ʌnˈʧeɪnʤəb(ə)l ɡrəˈm5tɪk(ə)l/, fr. inaltérable grammaticalement, azərb. qrammatik cəhətdən dəyişməyən. – Qrammatik cəhətdən dəyişməyən sözlər. Məs.: rus d. /кокаду, пальто, метро, такси/ və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 258.

НЕИНВЕРСИВНЫЙ - alm. nichtinversiv, ing. non-inversive /nɔn ɪnˈv8:sɪv/, fr. non-inversif, azərb. qeyri inversiv, inversiyaya uğramamış. - Ardıcıllıq ifadə edən, məlumatın məntiqi ardıcıllığa mütənasibliyi (uyğunluğu). Məs.: /Sizin bu işləriniz elm aləmi üçün böyük bir xidmətdir//. /Əsgərlər qaça-qaça, sürünə-sürünə irəliləyirdilər//.
O.C.Ахманова. Göstərilən əsər, s. 258.

НЕЙТРАЛИЗАЦИЯ - alm. Neutralisation (f), ing. neutralization /ˌnju:trəlaɪˈzeɪʃən/, fr. neutralisation, azərb. neytrallaşma. – Praqa dilçilik məktəbi müəyyən şəraitlərdə bu və ya digər qarşılaşmanın aradan qalxmasını neytrallaşma adlandırır və bu zaman qarşılaşma üzvlərinin reallaşdığı vahidi arxifonem kimi dəyərləndirir. Məs.: alm. d. cingiltili/kar əlamətinə görə qarşılaşdırılan samitlər söz sonu qanununa əsasən auslautda neytrallaşır, onlar yalnız arxifonem kimi reallaşır. «Neytrallaşan oppozisiyanın həqiqətən neytrallaşdığı mövqelərdə oppozisiya üzvlərindən biri öz spesifik əlamətlərini – fonoloji yararlığını itirir və yalnız o əlamətlər relevant kimi qalır ki, onlar hər iki üzvə aid olsun, neytrallaşan mövqedə oppozisiya üzvünün biri həmin qarşılaşmanın «arxifoneminin» əvəzedəni olur, beləliklə, biz arxifonem dedikdə hər iki fonem üçün ümumi olan distinktiv əla-

downloaded from KitabYurdu.org

mətlər məcmusunu başa düşürük». N.S.Trubeskoy. Fonologiyanın əsasları. Bakı, 2001, s. 99. Məs.: alm. d. /Band/ (cild) sözü /ˈ⁎bant/ kimi realizə olunur. Sondakı samit akustik-artikulyator əlamətlərinə görə cingiltili deyildir. O həm də tam kar deyildir, çünki /b-nt/ sözündə əsl kar samit realizə olunur, /ˈ⁎b-nte "kla͡edər/ (rəngbərəng paltarlar) birləşməsində /t/ samiti dəyişmir. Ancaq /band/ (cild) sözündə həmin auslautdakı /t/-/d/-ya keçdi. Bütün bunları nəzərə alaraq Praqa məktəbi «Band» sözünü /banT/ kimi transkripsiya etməyi məsləhət görür. Onlar belə güman edirlər ki, bu /t/ arxifonemində həm /d/, həm də /t/ foneminin əlamətləri cəmləşib. Sonralar bunu Moskva fonoloji məktəbi fonem sırası, «hiperfonem» və ya «qarışıq fonem» adlandırdı. Arxifonem anlayışı fonemin və cümlədə fonoloji səviyyənin avtonomluğunu şübhə altına almaq deməkdir, səsin fonematikliyini morfemə bağlamaq istəyidir. Şerba məktəbi bu cür halları fonetik mövqe ilə bağlı fonem əvəzlənməsi adlandırır.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 204-214.

НЕЙТРАЛЬНАЯ ЛЕКСИКА - alm. neutrale Lexik (f), ing. neutral vocabulary /ˈnju:trəl vəuˈk5bjulərı/, fr. lexique neutre, azərb. neytral leksika. – Dildə müəyyən üsluba aid olmayan, heç bir üslubi məhdudiyyət bilməyən, digər üslublarda (kitab, danışıq və loru dildə) sinonimlərə malik olan sözlər. Neytral leksika dilin bütün üslublarına qarşı qoyulur və butün üslublarda işlənən sözləri özündə cəmləşdirir. Məs.: Azərb. d. /gəzmək - seyrə çıxmaq/ və s.
Ю.С.Маслов. Göstərilən əsər, s. 102-157.

НЕЙТРАЛЬНЫЙ - alm. neutral, ing. neutral /ˈnju:trəl/, fr. neutre, azərb. neytral. - Ümumişlək, spesifik ünsiyyət şəraiti və ya dilin tətbiq dairəsi ilə bağlı olmayan və üslubi qarşılaşmada nişanlanmamış (əlaməti olmayan) üzv kimi çıxış edən söz və ya ifadə.
О.С.Ахманова. Göstərilən əsər, s. 259.

НЕЙТРАЛЬНЫЙ ГЛАСНЫЙ - alm. Murmelvokal (m), ing. neutral vowel /ˈnju:trəl ˈvauəl/, fr. voyelle neutre, azərb. neytral sait. - Beynəlxalq transkripsiyada [ə], rus transkripsiyasında isə [ъ], [ь] və [ʌ] ilə işarə edilən, orta yüksəlişli və orta sıralı, vurğulu hecada gələ bilməyən, reduksiyaya uğramış saitdir. Məs.: rus d. /qъʋʌrit/; alm. d. /ˊle:zən/ (oxumaq), /⁎gəˈbırgə/ (dağ silsiləsi). Alm. d. o danışıq üslubunda düşür. Məs.: alm. d. /ˈli:bn̩ ˈha͡est ˈˈle:bn̩/ ˃ʊnt ‿ ˈle:bn̩ ˈha͡est ˈˈˈli:bn̩// (sevmək yaşamaqdır, yaşamaq sevmək) (Y.V. fon Qöte). Belədə heca nüvəsini sonor /n/ saiti öz üzərinə götürür.
F.Veysəlov. Alman dilinin fonetikası. Bakı, 1980. s. 45-47.

НЕКОНЕЧНОЕ СОЕДИНЕНИЕ - alm. innere Verknüpfung (f), ing. plus juncture /plʌs ˈdʒʌŋktʃə/, fr. liaison inachevée, azərb. söz daxilində birləşmə. – Mürəkkəb sözlərdə morfem qovuşuğunda təzahür edən qisa fonetik birləşmə vasitəsi. Məs.: alm. d. /s/, Müq. et: /Lant+s+man/ - (kəndçi).

downloaded from KitabYurdu.org

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 258-269.

НЕКОНТРАСТИРУЮЩАЯ ДИСТИРИБУЦИЯ - alm. nichtkontrastive Distribution (f), ing. noncontrastive distribution /ˈnɔnˈkɔntrɑ:stɪv ˌdɪstrɪˈbju:ʃ(ə) n/, fr. destribution non-contrastée, azərb. təzadsız distribusiya. – Müxtəlif dil vahidlərinin bir mövqedə işlənib müxtəlif məna bildirməsidir. Təzadsız distribusiyanı fərqləndirərkən öncə fonoloji və morfoloji vahidləri müəyyənləşdirmək, sonra onların distribusiyasını öyrənmək məqsədəuyğundur. Məs.: Azərb. d. /dərsə getmək/ və /dərsdən getmək/ tərkiblərində /-ə/ və /-dən/ morfemləri təzadsız distribusiyaya nümunə ola bilər. Deməli, təzadsız distribusiya müxtəlif vahidlərin bənzər mətnlərdə (əhatələrdə) işlənməsidir ki, bu yolla dilin struktur vahidinin fərqləndirilməsi, semioloji xarakter kəsb etməsi sübuta yetir. Əlavə distribusiyada isə mətnlər (əhatə) müxtəlif olur və bununla da funksional cəhətdən bənzər ünsürlərin «etik» və ya fiziki differensiyası sübut edilir.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 238-254.

НЕКОНТАКТНЫЕ СЛОВА - alm. kontaktlose Wörter (Pl.), ing. noncontact words /nɔnˈkɔntakt wə:dz/, fr. mots nons-contact, azərb. qeyri-kontakt (yanaşı gəlməyən) sözlər. - Omonimlər və çoxmənalı sözlər eyni bir kontekstə deyil, müxtəlif kontekstlərdə işlənən sözlərdir. Bu funksional əlamətinə görə onlar sinonim və antonimlərdən kəskin fərqlənir. Çünki sinonimik cərgəyə və antonimik cütlüyə daxil olan sözlər eyni bir kontekst çərçivəsində işlənə bilirlər. Dilçilikdə sinonim və antonimlərin, omonim və çoxmənalı sözlərin kontekstlərə münasibətlərinə istinad edərək onları kontakt, qeyri-kontakt sözlər kimi dəyərləndirirlər. Məs.: Azərb. d. /Bu gün hava çox yaxşıdır//. /Bu gün hava çox pisdir/ (antonimlər). /Axşamüstü düşmən qalanı top və mərmi atəşlərinə tutdu//. /Uşaqlar həyətdə top qovurdular//. Çoxmənalı sözlər, nümunələrdən göründüyü kimi, /top/ (silah növü) və /top/ (idman ləvazimatı) sözləri müxtəlif məfhumlar ifadə etdiklərindən eyni kontekstlərdə işlənə bilmirlər.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 142.

НЕКОНТРАСТНЫЕ СЛОГИ - alm. kontrastlose Silben (Pl.), ing. noncontrast syllables /nɔnˈkɔntrɑ:st ˈsɪləbls/, soft /sɔft/, fr. syllabe non-contrastante, azərb. qeyri - kontrastiv hecalar. - Açıq və qapalı hecalar artikulyator xüsusiyyətlərinə görə bir-birindən fərqlənirlər. Samit+sait (KV) birləşməsində samitin saitə və, əksinə, saitin samitə təsiri tipli birləşmələrdəki saitin samitə və əksinə samitin saitə təsirindən qat-qat güclüdür, yəni KV tipli birləşmədə daxili bağlılıq VK birləşməsindəkindən xeyli möhkəmdir. Samit və sait bir-birinə daha sıx bağlı olduqda onların arasından keçən sərhəd özünü daha aydın şəkildə göstərir, samit saitdən daha effektli şəkildə ayrılır, heca daha kontrastiv olur. Məhz buna görə də KV tipli açıq hecalar istənilən VK tipli qapalı hecalardan daha kontrastiv olurlar. Məs.: «ta» və «at» hecalarında birinci ikinciyə nisbətən daha kontrastivdir. Bunu

downloaded from KitabYurdu.org

sübut edən daha bir amil qapalı hecaların dalbadal tələffüzü zamanı onların açıq hecaya çevrilməsidir. Məs.: /at-at-ta-ta/ və s.
Л.В.Бондарко. Звуковой строй современного русского языка. М., 1977.

НЕКСУС - alm. Nexus (m), ing. nexus /ˈneksəs/, fr. nexus, azərb. qovuşma. – O.Yespersenin nəzəriyyəsinə görə xəbərlə birləşmənin xüsusi sintaktik növü. Alm. d. /das Buch ist kostbar// (kitab qiymətlidir) cümləsində /kostbar/ sözü təyini birləşmədir, çünki bu cümləni çevirəndə həmin söz təyin funksiyasında çıxış edir. Məs.: alm. d. /Das kostbare Buch// (dəyərli kitab) və s.
P.H.Mattews. Göstərilən əsər, s. 243.

НЕЛАБИАЛИЗОВАННЫЙ - alm. nichtlabialisiert, ing. non-labialized /ˈnɔnˈleɪbjəlaɪzd/, fr. non-labialisé, azərb. dodaqlanmayan. - Tələffüzü zamanı dodaqların yan tərəfə çəkilməsi ilə (dodaqlar fəal iştirak etmirlər) müşayiət olunan səslər. Məs.: Azərb. d. /t°ɣnt/ sözündə birinci [t°] dodaqlanır, ikinci isə dodaqlanmır.
Bax: Неогубленный ←.

НЕЛИЧНЫЕ ГЛАГОЛЫ – alm. unpersönliche Verben (Pl.), ing. impersonal verb /ɪmˈpə:snl və:b/, fr. verbes impersonnels, azərb. qeyri-şəxsli fellər. – Yalnız III şəxsin təkində işlənən fellər. Bunlardan əmələ gələn cümlələrdə alm. d. /es/, ing. d. /it/ əvəzliyi çıxış edir. Məs.: alm. d. /Es donnert, blitzt, regnet/ (Göy guruldayır, ildırım çaxır, yağış yağır); ing. d. /it rains/ (yağır). Göründüyü kimi, bu fellər təbiət hadisələrini və havanın vəziyyətini bildirir.
H.Glinz. Göstərilən əsər.

НЕЛОКАЛИЗОВАННЫЙ ГЛАСНЫЙ - alm. nichtlokalisierter Vokal (m), ing. nonlocalized vowel /ˈnɔnˈləukəlaɪsd ˈvauəl/, fr. voyelle non-localisée, azərb. mərkəzləşməmiş sait. - Tələffüzü zamanı dilin gövdəsinin ağız boşluğunda neytral vəziyyətdə uzanması. Buna misal olaraq alm. və ing. dillərində neytral [ə] saitini göstərmək olar. Müq. et: alm. d. /ˈle:rər/; ing. d. /ˈtitʃə/ (müəllim) və s.

НЕМАРКИРОВАННЫЙ - alm. merkmallos, ing. unmarked /ˈʌnˈmɑ: kt/, fr. non-marquée, azərb. nişansız (nişanlanmamış). - Privativ oppozisiya zamanı əlaməti olan üzvə nişanlı, əlaməti olmayan üzvə isə nişansız deyilir. Linqvistik baxımdan privativ qarşılaşmanın əsas, daha vacib üzvü nişansız (əlaməti olmayan) hesab olunur və danışıqda onun nişanlı üzvə nisbətən daha çox işlənməsi buna sübutdur. Məs.: kar və cingiltili samitlər qarşılaşmanın müvafiq sərt və yumşaq üzvlərilə müqayisədə daha çox işlənirlər. Praqa fonoloji məktəbinə məxsus olan bu mülahizə fonologiyanın, habelə bütövlükdə dilçiliyin sonrakı inkişafında misilsiz rol oynamışdır.
F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 204-214.

НЕМЕЦКИЙ ЯЗЫК – alm. Deutsch (n), ing. German language /ˈdʒə:mən ˈlɜŋgwɪdʒ/, fr. langue allemande, azərb. alman dili. – Hind-

downloaded from KitabYurdu.org

Avropa dilləri ailəsinin german dilləri qrupuna aid olan dildir. Alman dilində 110 milyon əhali danışır. Mütəxəssislər tarixi baxımdan alman dilini 3 dövrə bölürlər:

1. Qədim alman dili dövrü (q.a.d.) – VIII-XI əsrlər
2. Orta alman dili dövrü (o.a.d.) – XI-XIV əsrlər
3. Yeni alman dili dövrü (y.a.d.) – XIV əsrdən hal-hazıra qədərki dövr.

Qədim alman dilində Hamburq və Vürtsburq yazıları, mətnlər, kilsə mahnıları, latın dilindən tərcümələr, Hildebrand və Lüdviq nəğmələri kimi yazılı abidələr mövcud idi.

Qədim alman dilində 16 sait fonem vardı: monoftonqlar: /i/, /u/, /ı/, /â/,/e/,/ē/,/ū/, /ô/, /o/,və diftonqlar: /iu/, /io/, /ie/, /uo/, /ei/, /ou/.

Samitlər: /p/, /f/, /b/, /pf/, /t/, /d/, /s/, /z/, /=/, /ch/, /k/, /g/, /h/, /w/, /m/, /n/, /l/, /r/, /j/.

Orta dövr alman dilində 24 sait fonem vardı: monoftonqlar /i/, /u/, /ü/, /î/, /e/,/ē/,/a/, /ū/, /ö/,/o/, diftonqlar /iu/, /ie/, /üe/, /uo/, /ö/, /ô/, /ei/, /öu/, /ou/, /å/, /œ/, /â/.

Orta dövr alman dilində aşağıdakı samit fonemlər var idi: /p/, /b/, /p‿f/, /t/, /d/, /ʃ/, /z/, /Z/, /ch/, /k/, /g/, /h/, /w/, /m/, /n/, /l/, /r/, /j/, /sch/= /sx/ və ya /sk/.

Yeni dövr alman dilində 17 sait (14 monoftonq və 3 diftonq) və 23 samit formalaşıb.

Saitlər Monoftonqlar/Diftonqlar			Samitlər
/i:/	/ɪ/	/a‿e/	/b/, /p/, /v/, /f/, /pf/, /m/, /d/, /t/, /r/, /s/, /ʃ/, /tʃ/, /ts/, /n/, /j/, /ç/, /g/, /k/, /ŋ/, /l/, /R/, /h/.
/y:/	/ö/	/ɔ‿o/	
/e:/	/ɛ/		
/ø:/	/œ/		
/u:/	/ʊ/		
/o:/	/6/		
/a:/	/a/	/a‿o/	

Yeni alman dilində çağdaş alman dilinin fonem sistemi, prosodiya və intonasiya əlamətləri, morfoloji strukturu və qrammatik quruluşu formalaşıb.

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003, s. 134-143.

НЕМОЙ - alm. stumm, ing. mute /mju:t/, silent /ˈsaılənt/, soundles /ˈsaundlıs/, fr. muet, azərb. kar, lal. - Tələffüz edilməyən, ənənəvi orfoqrafiyada işarəsi olan, lakin sözün səslənməsində reallaşmayan, fonem tərkibində real bir vahidin təsvir olunmasına xidmət etməyən.

Л.В.Щерба. Фонетика французского языка. М., 1937.

НЕМОТИВИРОВАННЫЙ - alm. unmotiviert, ing. amotivational /əˈmətıveıʃənl/, devoid of symbolic value /dıˈvɔıd əv sımˈbɔlık ˈvælju:/, fr.

downloaded from KitabYurdu.org

immotivé, gratuit, azərb. motivləşməyən. - Açıq semantik strukturu olmayan, yəni mənalı tərkib hissələrə parçalana bilməyən.
О.С.Ахманова. Göstərilən əsər, s. 260.

НЕНАЗАЛИЗОВАННЫЙ - alm. nichtnasaliert, ing. non-nasalized /ˈnɔnˈneɪzəlaɪzɪd/, fr. non-nasalisé, azərb. burunlaşmayan. – Burun səsləri qonşuluğunda gəlməyən səslərin hamısı burunlaşmayan fonemlərdir.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.

НЕНАПРЯЖЁННЫЙ - alm. nichtgespannt, ing. unstressed /ˈʌnˈstrest/, relaxed /rɪˈl5ks/, lax /l5ks/, fr. non-tendu, azərb. gərginləşməyən. – Vurğusuz hecalardakı səslərin tələffüzünə xas tələffüz. Vurğudan uzaq olduqca hecalar zəif tələffüz olunur.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.

НЕНЕЦКИЙ ЯЗЫК – alm. Neneisch (n), ing. Nenets language /ˈnɪˈnets ˈl5ŋgwɪʤ/, fr. langue néneene, azərb. nenes dili. – Samodiy dil qrupuna aiddir. Yenisey çayının sağ sahilində və Kolsk yarımadısında yayılmışdır. Bu dildə danışanların sayı 30 minə yaxındır. 1937-ci ildən yazıda kiril qrafikasından istifadə olunur.
Н.М.Терещенко. Материалы и исследования по языку ненцев. М.-Л., 1956; З.Н.Куприянова, А.М.Щербакова. Ненецкий язык. Л., 1957.

НЕНОСОВОЙ - alm. nichtnasal, ing. non-nasal /ˈnɔnˈneɪzəl/, fr. non-nasal, azərb. qeyri-burun. – Ağız boşluğunda formalaşan səslər. Alman və Azərbaycan dillərində /m/, /n/, /ŋ/ samitlərindən başqa fonemlərin hamısı qeyri-burun səslərdir.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.

НЕОБРАТИМОСТЬ - alm. Unaustauschbarkeit (f), ing. irreversibility /ˌɪrɪˈvə:səbɪlɪtɪ/, fr. irréversibilité, azərb. çevrilməzlik (yerini dəyişdikdə öz mənasını itirən). - Tərəflər arasındakı münasibətin üzvlərin birinin tələbinə əsasən qurulmasına söykənən sintaktik səciyyə. Belə hallarda tərkiblərin yerini dəyişdikdə məna tamam itir. Bu əlaqələrdə hər bir komponent digərilə fərqli münasibətdə olur. Məs.: Azərb. d. /məktəb həyatı/ - /həyat məktəbi/; /bal arısı/- /arı balı/ müxtəlif şeylərdir. Ancaq bundan fərqli olaraq müvazi tərkiblərin yerini mənaya xələl gətirmədən dəyişmək olur. Məs.: Azərb. d. /şair-müğənni/ /müğənni – şair// və s.
О.С.Ахманова. Göstərilən əsər, s. 260.

НЕОГРАММАТИКИ - Bax: Младограмматики ←.

НЕОГУБЛЁННЫЙ - Bax: Нелабиализованный ←.

НЕОДНОРОДНОЕ СЛОВОСОЧЕТАНИЕ - alm. nichtgleichwertige Wortverbindung (f), ing. non-homogeneous phrase /ˈnɔn-hɔməˈʤi:njəs freɪs/, fr. groupe de mots hétérogène, azərb. müxtəlif tərkibli söz birləşməsi. - Tabelilik ifadə edən, tərkibləri sintaktik tabelilik əlaqəsi üzrə bağlanmış söz birləşməsi. Məs.: Azərb. d. təyini söz birləşmələri buna misal ola bilər.

downloaded from KitabYurdu.org

Y.Seyidov. Azərbaycan dilində söz birləşmələri. Bakı, 1992.

НЕОДНОРОДНОЕ ОПРЕДЕЛЕНИЕ - alm. nichtgleichwertiges Attribut (n), ing. non-homogeneous attribute /ˈnɔn, hɔməˈʤi:njəs ˈ5trıbju:t/, fr. attribut hétérogène, azərb. qeyri-həmcins təyin. – Təyin olunan üzvlə, müxtəlif növlü sintaktik əlaqələrlə bağlanan təyin. Əşyanı müxtəlif tərəfdən, müxtəlif cəhətlərdən səciyyələndirən təyin. Məs.: Azərb. d. /taxta böyük çarpayı//, /Biz böyük ikimərtəbəli yaşıl daş binanın zirzəmisində yaşayırdıq//.

Y.Seyidov. Azərbaycan dilində söz birləşmələri. Bakı, 1992.

НЕОДНОРОДНЫЕ ЧЛЕНЫ ПРЕДЛОЖЕНИЯ - alm. nichtgleichwertige Satzglieder (Pl.), ing. non-homogeneous parts of the sentence /ˈnɔn ˌhɔməˈʤi:njəs pɑ:ts əv 1i: ˈsentəns/, fr. termes hétérogénes d'une proposition, azərb. qeyri- həmcins cümlə üzvləri. - Müxtəlif cinsli, tabesizlik əlaqəsi əsasında birləşə bilməyən, funksional cəhətdən qeyri - bərabərhüquqlu cümlə üzvləri. Məs.: Azərb. d. /İradəsi hisslərinə qalib gələnlər xoşbəxt, hissi alovlanaraq iradəsini yıxanlar bədbəxtdırlər// və s.

H.Glinz. Göstərilən əsər.

НЕОДУШЕВЛЁННОСТЬ – alm. Leblosigkeit (f), ing. inanimatenees /ınˈɑnımətni:s/, inanimation /ınˈ5nıˈmeıʃ(ə)n/, fr. inanimé, azərb. cansızlıq. - İsimlərin iki yarımsinfə bölünməsinin əsasında duran, canlılıq-cansızlıq kateqoriyasını təmsil edən kateqorial formalardan biri. Rus dilində cansız isimlərin təsirlik halında təkdə o biri iki cinsdən fərqli olaraq tək şəkilçisi qəbul etmir. Məs.: rus d. /человек - человека/, /друг - друга/, ancaq /стол - стол/, /поле - поле/ və s.

А.А.Реформатский. Göstərilən əsər, s. 319.

НЕОДУШЕВЛЁННЫЙ ПРЕДМЕТЫ – alm. leblose Gegenstände (Pl.), ing. inanimate objects /ınˈɑnımət ˈɔbʤıkts/, fr. objet inanimé, azərb. cansız əşyalar. - İsimlərin xüsusi yarımsinfinə aid edilən, insan və heyvan bildirməyən əşyalar. Məs.: Azərb. d. /daş, torpaq, toz/ və s.

А.А.Реформатский. Göstərilən əsər, s. 319.

НЕОЛИНГИВИСТИКА - alm. Neolinguistik (f), ing. neolinguistics /ni:əʊˈlıŋgwıstiıks/, fr. néolinguistique, azərb. neolinqivistika (məkani dilçilik). - XX əsrin 20-illərində V. fon Humboldtun «dil fəaliyyətində olan qüvvədir (energeia)» ideyasının təsirilə təşəkkül tapmış yeni dilçilik məktəbidir. Bu məktəb təsnifatı və struktur əlamətləri önə çəkərək dilin məna dünyasını açıb göstərməyə nail olmuşdur. Dil strukturunun daxili əlaqələrini gerçəkliyin ruhi strukturlaşması kimi götürən V.fon Humboldta görə, bu cərəyan hər bir insan cəmiyyəti üzvlərinin dünyagörüşünün formalaşmasında dilin gücünə xüsusi yer ayırır.

«Dialektikada Hegelsiz keçinmək olmadığı kimi, müasir dilçilikdə də V.fon Humboldtsuz keçinmək qeyri-mümkündür. V. fon Humboldtun dil haqqında görüşləri «İnsan dilinin müxtəlifliyi və bu müxtəlifliyin insan cəmiyyətinin

downloaded from KitabYurdu.org

əqli inkişafına təsiri» (Seçilmiş əsərləri, Berlin, 1848, 6-cı cild) adlı əsərində geniş şərh olunub. «Dil bütövlükdə ruhdur». O, ruhun qanunları ilə inkişaf edir. «Dil fəaliyyətin məhsulu olmayıb (erqon), fəaliyyətin özüdür (enerqeya)». «Dil öz məhsullarının məcmusu kimi danışıq fəaliyyətinin ayrı-ayrı aktlarından fərqlənir». «Sözdə həmişə iki tərəfin – səsin və məfhumun vəhdəti mövcuddur». «…dil bütövlükdə insanla ona zahirdən və daxildən təsir edən təbiət arasında yerləşir». «İnsan özünü səslər dünyası ilə əhatə edir ki, əşyalar aləmini dərk etsin və onu mənimsəsin,… onun şeylərə münasibəti dillə müəyyənləşir» kəlamlarını söyləyən bu böyük alim dili möcüzəli bir dairə kimi təsvir edir ki, ondan çıxmaq üçün başqa bir aləmə düşmək gərəkdir, bu da dünyagörüşünün dəyişməsinə aparıb çıxarır. «Xarici dili öyrənməyi əvvəlki dünyabaxışı kontekstində yeni nöqteyi-nəzərin əldə edilməsinə oxşatmaq olar».

«Dil fikir yaradan bir alətdir… o, xalqın ruhudur, onun zahiri təzahür formasıdır» deyən bu böyük filosof fikrini davam etdirərək yazırdı ki, «xalqın dili ilə ruhunun eyniyyətinə bənzər başqa şey tapmaq çox çətindir». F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 16.

Neolinqivistlər semantikanı əsas götürürlər. Onların ifadəsinə görə, dilçiliyin bütün coğrafiyası semantikaya əsaslanır, onu (semantikanı) dilçiliyin həqiqi mənəvi, yəni dilin əsl linqivistik hissəsi hesab edirlər. Bu ideyalar yeni romantik ardıcıllar nəslinin yetişməsinə səbəb oldu. L.Vaysgerber (1899-1958) və başqa italyan dilçiləri və s. «Bu dilçi-filosofun dil haqqında bir sıra maraqlı fikri var ki, onlar barəsində bir qədər ətraflı danışmağa dəyər. 1930-cu ildə «Dilçilikdə neoromantizm» adlı məqaləsində öz nəzəri müddəalarını irəli sürərək o, dil həyatının 4 mərhələsini ayrıca qeyd edir: bəşəriyyətin dil qabiliyyəti; cəmiyyətin mədəniyyət xəzinəsinin dili; hər bir kəsin dili; dil vasitələrinin tətbiqi forması» (s. 344). Lakin 40-cı illərin sonuna yaxın L.Vaysgerber dilin sosioloji tərəfinə ana dili mövqeyindən daha çox üstünlük verir... V.fon Humboldtun «dil daimi fəaliyyətdə olan gücdür», «o müəyyən dünyagörüşünü əks etdirir» və «o daxili formaya malikdir» anlayışlarını əsas götürərək dili ruhi formalaşmanın gücü kimi təyin edir. Beləliklə, o, dilçilikdə hökm sürən psixologizmi və sosiologizmi aradan qaldırmağa çalışır, bunun əvəzinə isə dilə fenomenoloji bir şey kimi yanaşır. Dildə səs və forma qrammatikasına məzmun və dil fəaliyyəti qrammatikasını da əlavə etməklə üçşaxəli bir elm sahəsi yaratmağa nail olur». F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 16.

Neolinqivistlərə görə, fonetika təcrübi və fizioloji bir elm kimi dilçiliyə daxil edilə bilməz. İtalyan neolinqvistləri ərazi amilini əsas götürərək yazırlar ki, real şəkildə nə dialektlər var, nə də ki, dillər. Yalnız izoqloslar (dil sərhədləri) sistemi mövcuddur. Onlara görə dilçiliyin başlıca vəzifəsi ayrı-ayrı dil faktları üçün izoqlosları müəyyənləşdirməkdən və dilçilik xəritələrində öz əksini tapmış izoqlosları araşdırmaqdan ibarətdir. Neolinqvistlər dildə baş verən dəyişiklikləri gənc qrammatiklərdən fərqli olaraq, etnik

downloaded from KitabYurdu.org

qarışmalar işığında izah etməyə calışırlar. Neolinqivistələrin fikrincə, dil dəyişmələri əksər hallarda, etnik qarışmalar, əlbəttdə, irqi yox, mədəni, yəni mənəvi qarışmalar nəticəsində baş verir. Onlar göstərirdilər ki, dillər arasında daimi və tədrici keçidlər vardır, burada kəskin hüdud qoymaq olmaz.
A.Axundov. Ümumi dilçilik. Bakı, 1988, s. 43-44; M.İ.Adilov və b. Göstərilən əsər, s. 181-183.

НЕОЛОГИЗМ - alm. Neologismus (m), ing. neologism /nı:ɔləʤız(ə)m/, fr. néologisme, azərb. neologizimlər. – 1) Yeni yaranan məfhumları və əşyaları ifadə etmək zərurətindən yaranan söz və ya ifadələr. Məs.: Azərb. d. /kosmos/, /kosmonovat/, /avtomobil/, /redaktor/, /radio/, /televizor/, /telekommunikasiya/ və s.; 2) Ümumxalq dilində vətəndaşlıq hüququ qazana bilməyən söz və ya ifadə. Belə söz və ya ifadələr nəticədə xüsusi, əksərən də aşağı üsluba aid olan sözlər kimi qəbul olunurlar. Dilin lüğət tərkibində neologizmlərin əsas hissəsi yeni əşya və hadisələri ifadə etmək zərurətindən yaranırsa, bir qismi də bədii söz ustaları tərəfindən üslubla əlaqədar olaraq yaradılır. Bundan savayı neologizmlər dilin özünün söz ehtiyatı əsasında da yaradılır. Neolgizmlər müəyyən müddətdən sonra ümumişlək leksikaya qarışaraq öz neologizmliyini itirirlər. Məs.: Azərb. d. /maşın/, /velosiped/ və s. Formal cəhətdən neoligizimlər 4 cür olur: a) mövcud morfoloji vasitələr və konstruksiyalar əsasında yaranan yeni ifadələr. Məs.: Azərb. d. /tozsoran/, /paltaryuyan/; b) yeni məna ilə bağlı sözün keçməsi. Məs.: /rentgen/, /virus proqramı/; c) başqa dildən alınmalar. Məs.: /(qara) piar/, /internet/; ç) metaforik işlənən ifadələrin birləşməsidir. Məs.: /tələbə şəhərciyi/. Son zamanlar neoloqizmlər daha geniş şəkildə yaranmaqdadır. Məs.: /tanıtım gecəsi/ (xatirə gecəsi əvəzinə) və s.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 183.

НЕОЛОГИЗМ СЕМАНТИЧЕСКИЙ - alm. semantischer Neologismus (m), ing. semantic neologism /sım5ntık nı:ɔləʤız(ə)m/, fr. néologisme sémantique, azərb. semantik neologizimlər. - Mövcud sözün mənaca yeniləşməsi, yeni məna kəsb etməsi. Məs.: fr. d. /qalife/ (şalvar) fransız generalının adından götürülmüşdür.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 183.

НЕОЛОГИЗМ СТИЛЕВОЙ - alm. Stilneologismus (m), ing. stylistic of neologism /staılıstık əv нысləʤыз(ə)m/, фр. néologisme stylistique, azərb. üslub neologizimləri. - Sözün bədii əsərlərin müəyyən janrına daxil edilərək yeni məna kəsb etməsindən doğan yenilik, əvvəllər gündəlik, adi danışıqda işlədilən, lakin bədii əsərlərdə öz ifadəsini təzəcə tapmış söz. Məs.: Azərb. d. /çəkicciyəzli/, /oraqcığazlı/ və s.

M.İ.Adilov və b. Göstərilən əsər, s. 183.

НЕОЛОГИЯ - alm. Neologie (f), ing. neology /ni: ˈ6ləʊʤı/, fr. néologie, azərb. neologiya. – Dildə yeni sözlərin yaranmasını (innovasiyanı) şərtlən-

downloaded from KitabYurdu.org

dirən amilləri öyrənən dilçilik sahəsi. Başlıca amil yeni yaranan obyektlərin adlandırılması zərurətidir. Bu bölmənin ikinci bir vəzifəsi yeni sözlərin yaranma üsullarını analiz etməkdən ibarətdir.
M.İ.Adilov və b. Göstərilən əsər, s. 183.

НЕОПРЕДЕЛЕННО-ЛИЧНОЕ ЛИЦО - alm. unbestimmt-persönliche Person (f), ing. indefinite expressed person /ɪnˈdefɪnɪt ɪksˈpresd ˈpə:sn/, fr. personne indéterminée (indéfinie), azərb. qeyri-müəyyən şəxs. - Müasir rus dilində ikinci şəxsin formaları ilə ifadə olunan, lakin birinci şəxs mənası bildirən. Məs.: rus d. /Что посеешь, то и пожнешь// və ya Azərb. d. /Nə əkərsən, onu da biçərsən// və s. Alman dilində /man/ əvəzliyi qeyri-müəyyən şəxs əvəzliyi rolunda çıxış edir. Müq. et: /Man baut dort ein Haus// (Orada bir ev tikirlər).
W.Admoni. Der deutsche Sprachbau. München, 1982, s. 150.

НЕОПРЕДЕЛЕННО-КОЛИЧЕСТВЕННОЕ ЧИСЛО - alm. unbestimmte-Quantitätszahl (f), unbestimmt-quantitative Zahl (f), ing. indifinite cardinal numerals /ɪnˈdefɪnɪt ˈkɑ:dnl ˈnju:m(ə)r(ə)l/, indifinite quantitative numeral /ɪnˈdefɪnɪt ˈkwɔntɪtətɪv ˈnju:mərəl/, fr. nombre quantitatif indéfini, azərb. qeyri-müəyyən miqdar sayı. - Dəqiq, diferensiallaşmış miqdar deyil, ümumiyyətlə miqdar anlayışı bildirən say. Məs.: Azərb. d. /az, çox, bir qədər, xeyli, kalan, azacıq/ və s.
W.Admoni. Der deutsche Sprachbau. München, 1982, s. 147-148.

НЕОПРЕДЕЛЕННО-ЛИЧНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. unbestimmt-persönlicher Satz (m), ing. indefinite-personal sentence /ɪnˈdefɪnɪt ˈpə:snl ˈsentəns/, fr. proposition personnel indéfinie, azərb. qeyri-müəyyən şəxsli cümlə. - Mübtədası olmayan və yeganə baş üzvü ifadə olunan üçüncü şəxsin təkində və cəmində işlənən xəbərdən ibarət cümlə. Alman və ingilis dillərində belə cümlələrin formal mübtədası qeyri-müəyyən /es/, /it/ çıxış edir. Məs.: alm. d. /Es regnet/; ing. d. /it rains/; Azərb. d. /yağır/; rus d. /дождит/ və s.
W.Admoni. Der deutsche Sprachbau. München, 1982, s. 149.

НЕОПРЕДЕЛЕННЫЙ - alm. unbestimmt, ing. indefinite /ɪnˈdefɪnɪt/, fr. indéfini, azərb. qeyri-müəyyən. – Dildə qeyri-müəyyənliyi bildirən xüsusi vasitələr var. Alm. ing. və fr. dillərində buna qeyri-müəyyən artikllər aid-dir. Məs.: Azərb. d. /bəzi/, /xeyli/; alm. d. /ein/, /eine/; ing. d. /a, an/. Rus və Azərbaycan dillərində bunu /bir/ (один), /bir kəs/ (некто), /nəisə/ (нечто) və s. ifadə etmək olur.
W.Admoni. Der deutsche Sprachbau. München, 1982, s. 127-139.

НЕОПРЕДЕЛЕННЫЙ ГЛАСНЫЙ - alm. unbestimmter Vokal (m), ing. indeterminated vowel /ɪndɪˈtə:mɪnɪtɪd ˈvau(ə)l/, fr. voyelle indéterminée, azərb. qeyri-müəyyən sait. – Qeyri-dodaq, qətiyyən gərgin-ləşməyən, heç bir tam saitlə ikili qarşılaşmaya girə bilməyən, xüsusi, qısa,

downloaded from KitabYurdu.org

zəif sait. Bunu biz alman və ingilis dillərində görürük. Məs.: /*gə'birgə/ (dağlar silsiləsi), /'ti:tʃə/ (müəllim) və s.
F.Veysəlli. SDƏ. Bakı, 2005.

НЕОФОРМЛЕННЫЙ - alm. nichtausgestaltet, ing. unexecuted (covert) /'ʌn'eksıkju:tıd/'kʌvət/'kəvə:t/, fr. non-formé, azərb. formalaşmamış. - Müəyyən sintaktik münasibətlərin formal ifadəsindən məhrum edilmiş. Məs.: alm. d. /auf gut Glück/ (Allaha təvəkkül).
H.Glinz. Göstərilən əsər.

НЕПАЛАТАЛИЗОВАННЫЙ СОГЛАСНЫЙ - alm. nichtpalatalisierter Konsonant (m), ing. hard, nonpalatalized consonant /hα:d/ 'nɔn ˌp5lətəlaı'zd 'kɔnsənənt/, fr. consonne dure, azərb. qalın samitlər. – Yumşalmayan qalın saitlərdən əvvəl və ya onların arasında gələn samitlər. Məs.: Azərb. d. /adam/, /bol/, ancaq /tələ/ və s.
F.Veysəlli. SDƏ. Bakı, 2005.

НЕПАЛЬСКИЙ ЯЗЫК – alm. Nepali (n), ing. Nepalese language /nip5li:s 'l5ŋgwıʤ/, fr. langue népalaise, azərb. nepal dili. – Hindu dilləri qrupuna aid dil. Əsasən Nepalda və Hindistanın onunla sərhəd ərazisində yayılmışlır. Nepal dilində danışanların sayı 9,1 milyondan yuxarıdır. Nepal Krallığının rəsmi dövlət dilidir. Ərazi baxımından mərkəzi (Katmandu vadisində), qərb, şərq və dağətəyi dialektlərə bölünür. Danışıq dili tibet-birma dillərinin güclü təsirinə məruz qalmışdır. İsimlər cins kateqoriyasına bölünmürlər. Devangari yazısından istifadə olunur.
Н.И.Королев. Язык непали. М., 1965.

НЕПАРАЛЛЕЛЬНОЕ ЧЕРЕДОВАНИЕ - alm. nichtparalleler Wechsel (m), ing. non-parallel alternation /'nɔn-'p5rəlel ˌɔ:ltə'neıʃ(ə)n/, fr. alternance non-parallèle, azərb. qeyri-paralel (kəsişən) əvəzlənmə. – Moskva fonoloji məktəbinə görə, «güclü» fonemin öz ekvivalenti «zəif» fonemlə əvəzlənməsi. Şerba məktəbi isə bu cür əvəzlənməni qəbul etmir və ümumilikdə; «zəif» və «güclü» fonem anlayışını yaxına buraxmır. Bu məktəb üçün səs fonem statusu əldə etdikdən sonra hər yerdə öz müstəqilliyini qoruyub saxlayır. Ona görə də rus dilində /в0да/ və /воды/ sözlərində birinci hecada /a/ və /o/ fonemlərinin olduğunu birmənalı şəkildə qəbul edir.
Л.Р.Зиндер. Общая фонетика. М., 1979.

НЕПАРНАЯ ФОНЕМА - alm. unpaariges Phonem (n), ing. unpaired phoneme /'ʌn'pɛəd 'fəunim/, fr. phonème non-apparié, phonème hors coupl, azərb. təcrid edilmiş fonem, qarşılıqlı olmayan fonem. – Korrelativ qarşılaşmaya daxil olmayan (differensial əlamətlərinin heç biri qarşılaşmada iştirak etməyən). Azərbaycan dilində /h/ fonemi, rus dilində isə /t͡s/ və /t͡ʃ/ fonemləri, alman və ingilis dillərində /h/ və /ŋ/ və s. bu cür müəyyən əlamətə görə qarşılığı olmayan fonemlərdir.

downloaded from KitabYurdu.org

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003.

НЕПАРНЫЙ ГЛАГОЛ - alm. unpaariges Verb (n), ing. unpaired verb /ʹʌnʹpɛəd və:b/, fr. verbe déparié, azərb. qarşılığı olmayan fel. - Slavyan dillərində bitmiş və bitməmiş tərzə görə felin müvafiq qarşılığının olmaması. Məs.: rus d. /воспрянуть/, /грянуть/, /бездействовать/, /благоговеть/ və s.

О.С.Ахманова. Göstərilən əsər, s. 103.

НЕПЕРЕХОДНОСТЬ - alm. Intrasitivität (f), ing. intransitivity /ɪnʹtr5nsɪʹtɪvɪtɪ/, fr. intransitivité, azərb. təsirsizlik. – Keçməzlik felin mənasında iş, hal və hərəkətin obyektə keçməməsi (təsirsizliyi) əks etdirir. Bu, leksik və qrammatik vasitələrlə formalaşdığından onu leksik-qrammatik kateqoriya hesab etmək olar. Yalnız hərəkəti göstərən, hərəkətin yönəldiyi obyekti nəzərdə tutmayan, onu tələb etməyən fel keçməz (təsirsiz) fel adlanır. Məs.: Azərb. d. /yatmaq, yaşamaq, durmaq, oturmaq/, ancaq /yatırtmaq, yaşatmaq, durdurmaq, oturtmaq/ və s. keçərli (təsirli) fellərdir. Rus dilində bu xüsusi morfoloji yolla ifadə olunur. Məs.: /çernetь/ (qaralmaq) - /çernitь/ (qaraltmaq), /molodetь/ (cavanlaşmaq) – /molodiть/ (cavanlaşdırmaq). Alman dilində keçərlik/keçməzlik bəzən analitik yolla ifadə olunur. Müq. et: /schwarz werden/ (qara olmaq) - /schwarz machen/ (qara etmək).

А.А.Реформатский. Göstərilən əsər, s. 329.

НЕПЕРЕХОДНЫЙ - alm. intransitiv, ing. intransitive /ɪnʹtr5nsɪʹtɪv/, fr. intransitif, azərb. təsirsiz (keçməz). - Keçməzlik kateqoriyası ifadə edən. Yalnız hərəkəti göstərən, bu hərəkətin yönəldiyi obyekti nəzərdə tutmayan fel. Məs.: Azərb. d. /yatmaq, yaşamaq, yanmaq/ və s.

А.А.Реформатский. Göstərilən əsər, s. 267, 329.

НЕПОДВИЖНАЯ ОСНОВА - alm. Stammmorphem (n), Wortbildungsstamm (m), ing. fixed-stress stem /fɪkst stress stem/, fr. thème immobile, azərb. sabit əsas. – Sabit, dəyişməz əsas. Məs.: Azərb. d. əsaslar heç zaman dəyişmirlər. Müq. et: /qatar-da-dan/ və s.; alm. d. /Be-streb-ungen/ (can atma) və s.

R.Conrad. Göstərilən əsər, s. 301.

НЕПОДВИЖНОЕ УДАРЕНИЕ - alm. feste Betonung (f), ing. fixed stress /fɪkst stres/, fr. accent immobile, azərb. sabit vurğu. – Sözün müxtəlif qrammatik formalarında eyni heca üzərinə düşən vurğu. Türk dillərinin əksəriyyətində vurğu həmişə sözün son hecasının üzərinə düşür. Məs.: /bab'a-baba+l'ar-babalard'an/ və s. Rus d. vurğu sabit deyil. Məs.: /рукáрýки/. Alm. d. isə söz vurğusu əsasən sabitdir. Məs.: /'ʃte:ən/ (durmaq) /fɛʀʃte:ən/ (başa düşmək), ancaq dəyişə də bilir. Məs.: /la·'bo:r/, /la·bo·r-'ant/.

F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 194-205.

downloaded from KitabYurdu.org

НЕПОЗИЦИОННЫЙ - alm. nichtpositionell, ing. non-positional (free) /ˈnɔn pəˈzɪʃənl/fri:/, fr. non-positionnel, azərb. müstəqil (mövqedən asılı olmayan). - Sözdə tutduğu mövqedən asılı olmayan. Alman və ingilis dillərində ablaut mövqedən asılı deyildir. Müq. et: /take-took/ (götürmək-götürdü), /foot-feet/ (ayaq-ayaqlar); alm. d. /schreiben-schrieb/ (yazmaq-yazdı) və s.
F.Yadigar (Veysəlli). GDG. Бакы, 2003.

НЕПОЛНАЯ АССИМИЛЯЦИЯ - alm. partielle Assimilation (f), ing. partial assimilation /ˈpɑ:ʃəl əˌsɪmɪˈleɪʃn/, fr. assimilation partielle, azərb. qismən, yarımçıq uyuşma (assimilyasiya). – Danışıq aktında qarşılıqlı şəkildə bir-birinə təsir göstərən səslərin qismən uyğunlaşması. Məs.: Azərb. d. /quşlar-quşdar, qızlar-qızdar, başlamaq-başdamaq//. Ənənəvi fonetikadan gələn bu qayda müasir fonoloji yanaşmaya sığışmır. Çünki yuxarıda verilmiş misallarda müxtəlif səviyyələr (diatopik-sintopik) qarışdırılır. Müasir fonologiyada söhbət yalnız variativlikdən gedə bilər.
F.Veysəlli. GDG.

НЕПОЛНОГО ОБРАЗОВАНИЯ ГЛАСНЫЙ - alm. Halbvokal (m), Vokaloid (n), ing. ıncomplete formation vowel /ınkəmˈpli:t ˈfɔ:mˈeɪʃ(ə)n ˈvauəl/, fr. formation imparfaite des voyelles, azərb. yarımçıq sait (redukcsiyaya uğramış). – Dilin adi (normal) saitindən xeyli qısa tələffüz olunan səs. Bu alm. d. zəif vurğusuz [ə] səsində özünü büruzə verir. Müq. et: /ˈle:zən/ (oxumaq), /ˈ*bıldən/ (düzəltmək, quraşdırmaq) və s.
Ф.Вейсалов, С.Рашидова – Зейналова. О некоторых результатах экспериментального исследования немецкого редуцированного [ə]. Изв. АН Азерб. ССР, серия лит., языка и искусства. 1980, № 3, s. 65-71.

НЕПОЛНОЕ ОКАНЬЕ - alm. nichtvolle o-artige Aussprache (f), ing. ıncomplete okanje / ınkəmˈpli:t ˈɔkən=i/, fr. prononciation imparfaite des «o», azərb. yarımçıq o-laşma. – Rus dilində bəzi dialektlərdə vurğusuz hecalarda reallaşan o-ya bənzər sait. Məs.: /говорить/, /городской/ və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 263.

НЕПОЛНОЕ ПОДЧИНЕНИЕ - alm. nicht volle Unterordnung (f), ing. incomplete subordination /ınkəmˈpli:t səˌbɔ:dɪˈneɪʃ(ə)n/, fr. subordination imparfaite, azərb. yarımçıq tabelilik. - Appozitiv (digər isim üçün təyin rolunu oynayan) birləşmələrdə sintaqmatik asılılıq. Məs.: /dəmir qapı, taxta qaşıq, həkim qadın/ və s. kimi təyini söz birləşmələrində birinci komponentin ikinciyə formal bağlılığı yoxdur, ikinci komponentdə isə mənsubiyyət şəkilçisi işlənir.
Y.Seyidov. Azərbaycan dilində söz birləşmələri. Bakı, 1992.

НЕПОЛНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. partieller Satz (m), ing. elliptical sentence /ɪˈlıptıkl ˈsentəns/, incomplete sentence /ınkəmˈpli:t ˈsentəns/, fr. proposition imparfaite, azərb. yarımçıq cümlə. – Elliptik cümlə onun bəzən mübtəda və xəbəri, bəzən tamamlığı buraxılır, ancaq onlar asanlıqla bərpa

downloaded from KitabYurdu.org

oluna bilirlər. Məs.: Azərb. d. /Sən də getmişdin?-hə/. Belə hallara dialoji nitqdə daha çox rast gəlmək olur. Məs.: rus d. /Ты был вчера на заседании? - Был/ və s.
А.А.Реформатский. Göstərilən əsər, s. 338.

НЕПОЛНОЕ ПРЕДЛОЖЕНИЕ СТАЦИОНАРНОЕ - alm. elliptischer (nichtvoller) Stationärsatz (m), ing. elliptical stationary sentence /ɪ'lɪptɪkl 'steɪʃ(ə)n(ə)rɪ sentəns/, incomplete stationary sentence /ɪnkəm'pli:t 'steɪʃ(ə)n(ə)rɪ sentəns/, fr. proposition imparfaite stationnaire, azərb. stasionar yarımcıq cümlə. - Eyni şəraitlə əlaqədar həmişə işləndiyindən şablon, klişe (basmaqəlib söz) halı almış söz və ifadə. Məs.: Azərb. d. /necəsən?, nə var?, nə yox?/; alm. d. /¿Was ist los?/ (Nə baş verib?) və s.
О.С.Ахманова. Göstərilən əsər, s. 264.

НЕПОЛНОЕ СОКРАЩЕНИЕ - alm. nichtvolle Abkürzung (f), ing. incomplete abbreviation /ɪnkəm'pli:t əbrɪ:vɪ'eɪʃ(ə)n/, elliptical /ɪ'lɪptɪkl/, fr. réduction imparfaite, azərb. yarımçıq ixtisar- Yazıda yerə və vaxta qənaət etmək məqsədilə müəyyən qrafik ixtisarlardan istifadə edilir. Mürəkkəb sözlərdə birinci ünsürün ixtisar edilməsi. Məs.: Azərb. d. /demblok/, /Azərenerji/.
Bax: Аббревиатура ←.

НЕПОСРЕДСТВЕННОЕ ОКРУЖЕНИЕ - alm. unmittelbare Umgebung (f), ing. direct /dɪ'rekt/daɪ'rekt/, immediate environment /ɪ'mi:djət ɪn'vaɪərənmənt/, fr. environnement immédiat, azərb. vasitəsiz əhatə. – Sintaqmatik ünsürlərin müəyyən vahidlər arasında işlənməsi. İng. və alm. d. sifət bilavasitə isimlə artikl arasında gəlir. Müq. et: alm. d. /der junge Mann/ (cavan kişi); ing. d. /a young man/ (cavan kişi) və s.
P.H.Matthews. Göstərilən əsər, s. 170.

НЕПОСРЕДСТВЕННОЕ УПРАВЛЕНИЕ - alm. unmittelbare Rektion (f), ing. prepositionless government /prɛpə'zɪʃ(ə)nles 'gʌv(ə)nmənt/ 'gʌv(ə)mənt/, fr. régime immédiat, azərb. vasitəsiz idarə. – İdarə iki cür olur: a) vasitəsiz. Məs.: rus d. /вижу собаку//; Azərb. d. (iti görürəm); alm. d. /Ich sehe den Hund// və s.; b) vasitəli. Məs.: rus d. /гляжу на собаку//; Azərb. d. /itə baxıram//; alm. d. /Ich schaue auf den Hund//.
А.А.Реформатский. Göstərilən əsər, s. 238, 328.

НЕПРАВИЛЬНЫЙ - alm. unregelmäßig, ing. improper /ɪm'prɒpə/, fr. irrégulier, azərb. yanlış (səhv). – Normadan yayınma dilin bütün səviyyələrində müşahidə oluna bilər. Məs.: Azərb. d. fonetik səviyyədə: /gə: rəm/ (gəlirəm əvəzinə); morfoloji səviyyədə /kitabın yazmaq/, /kitab yazmaq əvəzinə//. Sintaktik səviyyədə /onlar rəqs edir/ (edirlər əvəzinə) və s. Qeyd edək ki, N.Xomski səhv (qrammatik cəhətdən düzgün olmayan) cümlələri «ill-formed sentences» adlandırır.
N.Chomsky. Syntactic Structures. 1956; F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 254-259.

downloaded from KitabYurdu.org

НЕПРЕДИКАТИВНЫЙ - alm. unprädikativ, ing. non-predicative /nɔn-prɪ′dɪkətɪv/, fr. non-prédicatif, azərb. qeyri-predikativ, xəbəri olmayan. – Predikativi ifadə olunmayan. Məs.: Azərb. d. /adam çıxmaq ağac//.
O.C.Ахманова. Göstərilən əsər, s. 264.

НЕПРЕЛОЖНОСТЬ ЗВУКОВЫХ ЗАКОНОВ - alm. Unveränderlichkeit der Lautgesetze (f), ing. immutability of sound (fonetic, rules) /ɪmju:tə′bɪlɪtɪ ov saund/fəunetik/ru:ls/, fr. immutabilité des lois phonétiques, azərb. səs (fonetik) qanunlarının dəyişməzliyi. - Gənc qrammatiklərin əsas tezislərindən biridir. Onların fikrincə, mexaniki surətdə fəaliyyət göstərdiyindən hər bir səs dəyişməsi istisna bilməyən qanunlar üzrə baş verir.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 18.

НЕПРЕРЫВНЫЙ - alm. ununterbrochen, ing. continued /kən′tɪnju(:)d/, continual /kən′tɪnjuəl/, fr. continuel, azərb. fasiləsiz. – Danışıq prosesi ardıarası kəsilməyən bir prosesdir. Burada axıcılıq bir kontinuum təşkil edir. Məs.: /adada/ sözünün ossilloqrammı.



a d a d a

Л.Р.Зиндер. Общая фонетика. М., 1979.

НЕПРЕФИКСАЛЬНЫЙ - alm. unpräfixal, ing. non-prefixal /′nɔn-prefɪx5l/, fr. non-préfixal, azərb. prefikssiz (sözönüsüz). - Dilin çağdaş strukturunda söz önülərinin olmaması. Məs.: müasir türk dilləri.
M.Ergin. Türk dil bilgisi. Sofia, 1974.

НЕПРИДЫХАТЕЛЬНЫЙ - alm. unaspiriert, ing. unaspirated /ʌnˌ5spə′reɪtɪd/, fr. non-aspiré, azərb. nəfəssiz səs. - Tələffüzü zamanı kipləşmənin partlayışa keçməsi mərhələsində nəfəslə müşayiət olunmaması. Məs.: /b/, /d/, /g/ samitləri bu qəbilədəndir. Bunlara bəzən imploziv samitlər də deyirlər. Onların nəfəssiz tələffüz olunduğunu yəqin etmək üçün bir parça kağız parçasını dodaqlara yaxınlaşdıraraq həmin səsləri ələffüz etmək kifayyətdir. Kağız parçası sərt şəkildə dodaqlardan aralanmazsa, deməli, onlar nəfəssiz tələffüz olunurlar.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.

НЕПРИКРЫТЫЙ СЛОГ - alm. nichtgedeckte Silbe (f), ing. uncovered syllable /ʌn′kʌvəd ′sɪləbl/, syllable beginning with a vowel /′sɪləbl bɪ′gɪnɪŋwi1 ə ′vau(ə)l/, fr. syllabe non-dissimulée, non-déguisée, azərb.

downloaded from KitabYurdu.org

örtüksüz heca. - Saitlə başlayan heca. Məs.: Azərb. d. /a-na, a-ta, a-ra-ba, is-ti/ və s.
A.Axundov. Azərbaycan dilinin fonetikası. Bakı, 1984.

НЕПРОДУКТИВНЫЙ - alm. unproduktiv, ing. unproductive /ʌnprə'dʌktɪv/, fr. improductif, azərb. qeyri-məhsuldar. - Dildə yeni sözlərin düzəldilməsində qismən istifadə olunan və ya heç istifadə olunmayan şəkilçiləri belə adlandırırlar. Əslində qeyri-məhsuldar anlayış bütün sözdüzəltmə və sözdəyişməyə aid edilən mücərrəd bir modeldir. Məs.: alm. d. qeyri-məhsuldar qüvvətli fellər /springen/ (tullanmaq), /singen/ (oxumaq), /sitzen/ (oturmaq) sadə danışıq dilində və uşaqların dilində zəif fellər kimi işlənir. Müq. et: alm. d. /springte/, /singte/, /sitzte/ və s. və ya rus d. /путь/, /мать/, /дочь/ sözlərinin hallanması. Ancaq qeyri-məhsuldar anlayışı daha çox az sözdüzəltmə gücünə malik olan şəkilçilərə şamil edilir. Məs.: rus d. /оть/ şəkilçisi ilə cəmi beş fel düzəlir: /молоть, полоть, колоть, пороть, (по)бороть/.
А.А.Реформатский. Göstərilən əsər, s. 248-249.

НЕПРОДУКТИВНЫЕ АФФИКСЫ - alm. unproduktive Affixe (Pl.), ing. unproductive affixes /ʌnprə'dʌktɪv 'ɜfɪks/, fr. affixes improductifs, azərb. qeyri - məhsuldar şəkilçilər. – Sözdüzəltmədə morfoloji üsulla çox az sözə artırılan və əsasən birmənalı sözlər əmələ gətirən şəkilçilər qeyri - məhsuldar adlanır. Məs.: Azərb. d. /qan, - kən, - ğan, -gən,- ağan,- əyən, - çin,- çın,- dan,- dən, sal,- ay,- öy/. Müq. et: /bildirçin, sığırçın, solaxay, qumsal, şamdan, kəsəyən, çalağan, güləyən/ və s.
S.Cəfərov. Azərbaycan dilinin leksikası. Bakı, 1970.

НЕПРОИЗВОДНЫЙ - alm. primär, ing. primary /'praɪmərɪ/, fr. primaire, azərb. ilkin, törəməmiş. – Düzəltmə olmayan, heç bir şəkilçi vasitəsilə düzəlməyən, sadə. Dilçilikdə adətən törəmə əsasa qarşı qoyulur. Sadə sözlərin əmələ gəlməsini açmaq çətindir bəzən heç bu mümkün olmur. Bunu yalnız etimoloji yolla etmək olar. Məs.: rus d. /нос/ sözünün niyə bu cür olmasını dilin hazırkı səviyyəsindən çıxış edərək izah etmək olmaz.
А.А.Реформатский. Göstərilən əsər, s. 181-182.

НЕПРЯМОЙ ОБЪЕКТ - alm. indirektes Objekt (n), ing. indirect object /ˌɪndɪ'rekt 'ɔbʤɪkt/, fr. complément indirect, azərb. vasitəli tamamlıq (obyekt) – Əşya və proses arasındakı münasibəti müstəqil tərzdə deyil, müəyyən vasitə ilə, nisbətən uzaq və dolayı yolla ifadə edən tamamlıq. Məs.: Azərb. d. /O, dəftərləri qırmızı ilə deyil, həmişə yaşıl qələmlə yoxlayırdı//.
А.А.Реформатский. Göstərilən əsər, s. 332-334.

НЕРАВНОСЛОЖНЫЙ - alm. ungleichsilbig, ing. imparisyllabic /ɪmˌpərɪsɪ'ləbɪk/, fr. imparisyllabique, azərb. qeyri-bərabər hecalı. – Eyni paradiqmə xas sözlərin qeyri-bərabər hecalara malik olması. Məs.: Azərb. d. /ki-tab, kitab: xa' na/ və s.
О.С.Ахманова. Göstərilən əsər, s. 265.

downloaded from KitabYurdu.org

НЕРАЗЛОЖИМЫЙ - alm. unzerlegbar, ing. indecomposable /ˈɪnˌdi:kəmˈpəuzəbl/, fr. indécomposable, azərb. bölünməz, bütöv. - Aid olduğu semantik və sintaktik keyfiyyətini itirmədən tərkib hissələrinə bölünə bilməyən.
Bax: Неделимый ←.

НЕРАСКАТИСТЫЙ – alm. nichtzitternd, ing. non-vibrant /nɔnˈvaıbrənt/, untrilled /ˈʌntrıld/, fr. non-vibrant, azərb. qeyri-titrək. - /r/ samitinin dil ucunun titrəməməsilə tələffüz olunması. Məs.: Azərb. d. /qatar/ sözünün /qataṛ/ kimi deyilməsi.
F.Veysəlli. SDƏ. Bakı, 2005.

НЕРАСПРОСТРАНЁННОЕ ПРЕДЛОЖЕНИЕ - alm. unerweiterter Satz (m), ing. non-expanded sentence /ˈnɔn ıksˈp5ndıd sentəns/, fr. phrase courte, azərb. müxtəsər cümlə. – Tərkibi yalnız baş üzvlərdən, yəni mübtəda və xəbərdən ibarət olan cümlə. Məs.: Azərb. d. /Quş uçur//, /Havalar soyuyur//, /Uşaqlar oynayırlar// və s.
W.Admoni. Göstərilən əsər.

НЕРЕГУЛЯРНЫЕ (НЕПРАВИЛЬНЫЕ) ГЛАГОЛЫ – alm. unregelmäßige Verben (Pl.), ing. irregular verbs /ıˈregjulə və:bz/, fr. verbes irrégulies, azərb. qaydasız fellər. – Buraya qaydadan kənara çıxan fellər aiddir. Əgər qaydalı fellər deyəndə yalnız bir modelə tabe fellər nəzərə alınırsa (İmperfekti alm. d. /(e)te/ və ing. d /ed/, partisip II forması alm. d.-də /ge - t/ ilə düzəlmələr, bunlara zəif fellər deyirlər), normadan kənara çıxan fellərə aşağıdakıları aid etmək olar: a) qüvvətli fellər (singen-sang-gesungen) (oxumaq); b) geriyə umlautlaşan (məs.: brennen, nennen, senden, wenden, kennen, bringen); c) samiti dəyişən fellər (məs.: denken, dünken); ç) /sein/ və /tun/ felləri; g) /haben/ və /werden/; e) preterito-presentia felləri. Məs.: alm. d. /können, wollen, sollen, dürfen, mögen, müssen, wissen/.
H.Glinz. Göstərilən əsər.

НЕРОДОВОЙ – alm. ungeschlechtig, ing. genderless /ˌdʒendəles/, fr. insexué, azərb. qeyri-cinsi. - Tərkibində cinsi mənsubiyyətinin morfoloji ifadəsi olmayan. Məs.: alm. d. /Mond/ (ay), /Magen/ (mədə) və s.
W.Admoni. Göstərilən əsər.

НЕСАМОСТОЯТЕЛЬНЫЕ СЛОВА - alm. synsemantische Wörter (Pl.), ing. non-independent words /n6n-ˌındıˈpendənt wə:dz/, fr. mots-outils, azərb. köməkçi sözlər. - Qrammatik sözlər, asılı sözlər, lesik mənadan məhrum sözlər, semantik cəhətdən müstəqil olmayan sözlər. Müstəqil cümlə üzvü kimi işlənə bilməyən, cümlənin əsas üzvləri arasında semantik-sintaktik əlaqə yaradan sözlər. Buraya ədatlar, sözönləri (qoşmalar), bağlayıcılar, modal sözlər aiddir.
J.Erben. Abriß der deutschen Grammatik. Berlin, 1958, s. 1-11.

downloaded from KitabYurdu.org

НЕСАМОСТОЯТЕЛЬНЫЙ - alm. unselbständig, ing. non-independent (positional) /n6n-ˌɪndɪˈpendənt/pəzɪʃənl/, fr. non-autonome, azərb. müstəqil olmayan. - tabe olan. Məs.: alman və rus dillərində sifət cümlədə ismə tabe olaraq onun hal, cəm və cins şəkilçilərini qəbul edir.
J.Erben. Abriß der deutschen Grammatik. Berlin, 1958, s. 1-11.

НЕСВОБОДНОЕ СОЧЕТАНИЕ – alm. abhängige Wortrerbindung (f), ing. set phrase /set freɪz/, restricted combination /rɪsˈtrɪktɪd ˌkɔmbɪˈneɪʃ(ə)n/, , fr. mots construits dépendants, azərb. sabit, asılı söz birləşməsi. – Bu birləşməyə daxil olan sözlər öz ilkin mənasını saxlasa da, birləşmənin ümumi mənası komponentlərin mənasından hasil olmur. Məs.: Azərb. d. /dəmir yolu/ yolun dəmirdən olduğunu deyil, öz xüsusiyyətlərilə fərqlənən nəqliyyat növünün adıdır. Belə birləşmələr tərkibinə görə ismi (məs.: rus d. /волшебный фонарь/), feli (məs.: Azərb. d. /avara-avara gəzmək/), adverbial (məs.: rus d. /на широкую ногу/) və s. olur. Ancaq frazeoloji birliklər, frazeoloji vahidlər və birləşmələr buraya aid deyildir. Onlara frazemlər və idiomlar da deyirlər.
М.Т.Тагиев. Глагольная фразеология современного русского языка (опыт исследования ФЕ по окружению). АДД., Баку, 1966.

НЕСИНТАКСИЧЕСКАЯ ПАУЗА - alm. nichtsyntaktische Pause (f), ing. non-syntactic pause /ˈnɔn sɪnˈtaktɪk ˈpɔːz/, fr. pause non-syntaxique, azərb. qeyri-sintaktik fasilə. - Psixoloji, fizioloji amillərin təsiri nəticəsində danışıq zamanı yaranan arakəsmələr. Canlı danışıqda hansısa söz yaddan çıxır, danışan axtarmağa çalışır, fonosiyada fasilə yaranır. Müq. et: /Mən elə ….. sahibkarları çox görmüşəm// və s.
А.А.Реформатский. Göstərilən əsər, s. 309.

НЕСКЛОНЯЕМЫЙ - alm. undeklinierbar, ing. indeclinable /ˌɪndɪˈklaɪnəbl/, fr. indéclinable, azərb. hallanmayan. - Hal şəkilçisi qəbul etməyən, hallara görə dəyişməyən. Məs.: rus d. əcnəbi dillərdən alınmış sözlər: /depo, palto, metro/ və s.
О.С.Ахманова. Göstərilən əsər, s. 267.

НЕСЛОГОВОЙ - alm. unsilbisch, ing. non-syllabic /ˈnɔn sɪˈl5bɪk/, fr. assyllabique, azərb. heca əmələ gətirməyən. - Məs.: rus d. /край/ sözündə /кр-ˉi/ heca düzəltməyən samitlərdir. Ancaq elə dillər var ki, onlarda samitlər heca nüvəsini təşkil edirlər. Məs.: fr. d. /ipst!/, serb d. /prst/ (barmaq) və /srp/ (serb) sözlərində müvafiq olaraq /s/ və /r/ heca düzəldən samitlərdir.
О.С.Ахманова. Göstərilən əsər, s. 267.

НЕСЛОГООБРАЗУЮЩИЙ - alm. unsilbisch, ing. non-syllabic /ˈnɔn sɪˈl5bɪk/, asyllabic /eɪ sɪˈlabɪk/, fr. asyllabique, azərb. heca yaratmayan.
Bax: Неслоговой ←.

downloaded from KitabYurdu.org

НЕСМЯГЧЁННЫЙ СОГЛАСНЫЙ - alm. nichtmouilierter Konsonant (m), ing. (hard) unmitigated consonant /ʌnˈmɪtɪɡeɪtɪd kɔnsənənt/, fr. consonne dure, azərb. yumşalmayan samit. – Alman, Azərbaycan və ingilis dillərində söz sonunda samitlər yumşalmır. Məs.: alm. d. /lant/; Azərb. d. /qat/; ing. d. /kæt/ və s. Ancaq həmin dillərdə incə saitlərdən əvvəl samitlərin yumşalması müşahidə olunur. Müq. et: ing. d. /fi:l'iŋ/ (hiss); alm. d. /fi: bər/ (qızdırma); Azərb. d. /d'irsək'/ və s.
F.Veysəlli. SDƏ. Bakı, 2005.

НЕСОГЛАСОВАННЫЙ - alm. nichtübereinstimmend, ing. disagreed/dɪs əˈɡri:d/, fr. non-coordonné, non-concerté, azərb. uzlaşmayan. - Sifətin aid olduğu ismə tabeliyinin formal ifadəsi olmayan və habelə xəbərin mübtəda ilə şəxsə, cinsə və kəmiyyətə görə uzlaşması. Məs.: Azərb. d. /gözəl qız/, /gözəl qızlar/, /gözəl qızlardan/ və s. Rus d. /А он - бежать/ və s.
О.С.Ахманова. Göstərilən əsər, s. 267.

НЕСПРЯГАЕМЫЙ - alm. unkonjugierbar, ing. non-conjugated /ˈnɔnˈkɔnʤuɡɪtɪd/, non-inflective /ˈnɔn ɪnflektɪv/, fr. qui n'est pas conjugable, azərb. təsriflənməyən. – Felə məxsus olan əsas qrammatik formalardan məhrum olan, yəni şəxsə, zamana və kəmiyyətə görə dəyişməyən forma; məsdər, feli bağlama və feli bağlama tərkibləri buna misal ola bilər. Müq. et: rus d. /читать книгу нелегко//, /прочитав книгу…//; alm. d. /der schreibende Junge/ (yazan oğlan) və s.
О.С.Ахманова. Göstərilən əsər, s. 267.

НЕТЕМАТИЧЕСКИЙ ГЛАСНЫЙ – alm. nichtthematischer Vokal (m), Interfix (n), ing. non - thematic vowel /ˈnɔn4ɪm5tik vau(ə)l/ fr. voyelle contractante, azərb. birləşdirici sait. – Rus dilində bu /a/ saitidir, yazıda «о» qrafemi ilə verilir. Müq. et: /лес<u>о</u>руб/ (meşəqıran), /вод<u>о</u>провод/ (su kəməri).
Ю.С.Маслов. Göstərilən əsər, s. 169-170.

НЕУДАРЕННЫЙ - alm. unbetont, ing. unstress /ʌnstres/, fr. non-accentué, azərb. vurğusuz. - Üzərinə vurğu düşməyən, vurğu daşımayan.
D.Jones. The Pronounciation of English. Cambridge, 1988, s. 141-149.

НЕУПОТРЕБИТЕЛЬНОСТЬ ФОНЕМЫ - alm. Ungebräuchlichkeit des Phonems (f), ing. obsoleteness of a phoneme /ˈɔbsəli:tnis əv əˈfəuni:m/, fr. non-utilisation du phonème, azərb. fonemin işlənməzliyi. – Fonemin müəyyən mövqedə gələ bilməməsi. Azərbaycan dilinin fonoloji sistemində /ɣ/ fonemi söz başlanğıcında işlənmir. Müq. et: /ağır/, /qağa/, ancaq söz başında heç vaxt gəlmir.
F.Veysəlli. SDƏ. Bakı, 2005.

НЕУСТОЙЧИВЫЙ - alm. unstabil, ing. unstable /ˈʌnˈsteɪbl/, fr. instable, azərb. dəyişkən, sabit olmayan. - Dildə öz ilkin formasını sabit, dəyişməz

downloaded from KitabYurdu.org

şəkildə saxlamağa qabil olmayan. Alman dilində dilönü kar kipləşən-partlayışlı samitlərdən sonra [ə] saiti işlənmir. Müq. et: /ˀ´arba‿etn̩/ (işlə-mək), /´tıntn̩/ (mürəkkəblər) və s.
K.Kohler. Göstərilən əsər, s. 206.

НЕФОНЕМАТИЧЕСКОЕ РАЗЛИЧИЕ - alm. unphonematischer Unterschied (m), ing. non-phonematic difference / nɔn-fəuˈni:m5tık ˈdıfr(ə)ns/, non-phonemic difference /nɔn-fauˈni:mık ˈdıfr(ə)ns/, fr. différence non-phonématique, azərb. qeyri-fonematik fərq. - Mövqe fərqi, söz və morfem tərkibində sırf mövqe ilə şərtlənən fərq. Məs.: dodaqlanan [t°], yumşaq [t'] və nəfəsli [t^h] arasındakı fərqlər buna misal ola bilər. Bunlara bəzən qeyri-relevant və ya inteqral əlamətlər də deyilir.
F.Veysəlli. SDƏ. Bakı, 2005.

НЕФОНЕМАТИЧНОСТЬ - alm. Nichtphonemigkeit (f), ing. non-phonemic character /nɔn-fauˈni:mık ˈk¾rıktə/, fr. non-phonématique, azərb. qeyri – fonematiklik.
Bax: Нефонематическое различие ←.

НЕФОНЕМАТИЧЕСКОЕ ЧЕРЕДОВАНИЕ – alm. nichtphonematischer Wechsel (m), ing. non-phonematic gradation /nɔn-fouˈni:m5tık ɡrəˈdeıʃ(ə)n/, fr. alternance non-phonématique, azərb. qeyri-fonematik əvəzlənmə. – Fonetik mövqe ilə şərtlənən, lakin fonoloji dəyər kəsb etməyən əvəzlənmə, buna fonetik və ya variant əvəzlənməsi də deyirlər. Məs.: rus d. «голова» sözü /qъlaʌva/ kimi tələffüz edilir. Burada /ъ, ʌ, a/ bir-birini əvəzləyən qeyri-fonematik prosesdir, çünki onların hamısı /a/ foneminin variantlarıdır. Ancaq rus dilində «друг-друзья-дружба» sözlərində /g-z'-=/ fonematik əvəzlənmədir, onların əvəzlənməsi fonetik mövqedən asılı deyildir. Onlar müxtəlif fonemlərin əvəzlənməsidir.
Ю.С.Маслов. Göstərilən əsər, s. 68-78.

НЕЧЛЕНИМОЕ ПРИЛАГАТЕЛЬНОЕ - alm. ungegliedertes Adjektiv (n), ing. short-form adjective /ʃɔ:t fɔ:m ˈ5ʤıktıv/, fr. adjectif dénombrable, azərb. sifət. – Müasir rus dilində keyfiyyət bildirən sifətlərin qısa forması. Belə sifətlər adətən pedikativ funksiyada işlədilir. Müvəqqətilik, ötərilik belə sifətlərin əsas məziyyətləridir. Məs.: rus d. /больной, болен, больна/, /добр, добра, добро, добры/. /Он добр//, /Она добра//.
О.С.Ахманова. Göstərilən əsər, s. 268.

НЕЭМОЦИОНАЛЬНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. nichtemotioneller Satz (m), ing. unemotional sentence /ˈʌnˈməʊʃənl ˈsentəns/, fr. proposition non émotionnelle, azərb. adi cümlə, qeyri-emosional cümlə. – Adi danışıq məqamında işlənən, emosional fuksiya daşımayan, yalnız məlumatı bildirən cümlə. Məs.: Azərb. d. /Hazırda saat 12-dir//.
О.С.Ахманова. Göstərilən əsər, s. 268.

downloaded from KitabYurdu.org

НИВХСКИЙ ЯЗЫК – alm. Nivchisch (n), ing. nivkhe language /nıvık ˈlɜŋgwıʤ/, fr. langue nivkhe, azərb. nivx dili. – Saxalin adasının və Amur çökəkliyində məskunlaşmış yerli əhalinin dili. Şərti olaraq paleoasiya dillərinə aid edilir. Daşıyıcılarının sayı təqribən 1500 nəfərdir. Nivx dili amur, şimali-saxalin və şərqi-saxalin dialektlərinə bölünür. İsimlərdə 8 hal kateqoriyası mövcuddur. Aqqlütinativ dildir. Sadə cümlələr mürəkkəb cümlələrə nisbətən üstünlük təşkil edir. Cümlə daxilində MTX (mübtəda+tamamlıq+xəbər) söz ardıcıllığı səciyyəvidir.
Е.А.Крейнович. Нивхский язык. «Языки Азии и Африки». М., 1979.

НИГЕРО-КОНГОЛЕЗСКИЕ ЯЗЫКИ – alm. Nigero-kongolesische Sprachen (Pl.), ing. Niger-Congo languages /ˈnʌıʤə ˈkɔŋgəʊ ˈlɜŋgwıʤız/, Niger-Congolese language /ˈnʌıʤə kɔŋəˈli:z ˈlɜŋgwıʤız/, fr. langues nigéro-congolaizes azərb. niger-konqolez dilləri. – Niqer-Kordofan dillərinin böyük ailəsi 6 qrupa bölünür: qərbi atlantik, mande, qur, kva, benua-konqo, şərqi-adamaua. Kva və Benua-Konqo bu gün qarışaraq benua-kva dilini əmələ gətirib. Tonal dilləridir, nominal klaslar geniş yayılıb.
D.Westermann. Die westlichen Sudansprachen und ihre Beziehungen zum Bantu. B., 1927; D.Westermann, M.Bryan. The languages of West African. «Handbook of African Languages», 1970.

НИГЕРО-КОРДОФАНСКИЕ ЯЗЫКИ – alm. Nigero-kordophanische Sprachen (Pl.), ing. Niger-Kordofan languages /ˈnaıʤə ˈkardofɔn ˈlɜŋgwıʤız/, fr. langues nigéro-cordophanes, azərb. niger-kordofan dilləri. – Afrika dilləri ailəsi yüzlərlə dili birləşdirir. Bu dillərdə 300 milyon adam danışır. Əsas dilləri niger-konqo, kordofan və kaduqerdir.
J.Greenberg. The languages of Africa. The Hague, 1963.

НИДЕРЛАНДСКИЙ ЯЗЫК – alm. dutch-flämish Niederländisch (n), Holländisch (n), ing. Netherlands language /ˈnɛ1ələndz ˈlɜŋgwıʤ/, Dutch language /dʌʧ lɜŋgwıʤ/, fr. le néerlandais, azərb. niderland (daç, flamand). – Qərbi aşağı frenk dilindən yaranan ilkin flamand (Cənubda) və daç (Şimalda) dialektlərindən inkişaf etmiş qərbi german dili. Bu dildə 20 mil. adam danışır. Niderlandın rəsmi dövlət dili və 1922-ci ildən bu yana isə Belçikanın fransız dili ilə yanaşı ikinci dili. XVII əsrdə bu dilin dialektlərindən törəyən Afrikaans bu gün müstəqil dilə çevrilməkdədir. İlk yazılı abidəsi 12-ci əsrdən başlayan, 17-ci əsrdən Amsterdam dialekti yazılı normanın əsasını təşkil edir (İncil 1626-1637-ci ildə bu dilə tərcümə edilib). Cənubda vlaams (flamand) dili danışılır. 1980- ci ildə imzalanan Nederlandse Taalunie (Niderland dil ittifaqı) Niderlandla Belçikanın dil uğrunda uzun illər apardıqları mübarizəni yekunlaşdırdı. Bu dil əvvəlki kimi yenə də alman dilinə çox yaxındır. Amma son zamanlar çoxlu yeni söz yaranıb. Məs.: /oorlog/ (müharibə), /eeuw/ (əsr) və s. Hallanma xeyli sadələşib, konyunktiv, demək olar ki, aradan çıxıb.

downloaded from KitabYurdu.org

C.B. van Haeringen. Nethevlandic language research: men and Works in the Study of Dutch. Leiden, 1960; С.А.Миронов. Нидерландский язык. М., 1965.

НИЖНИЙ - alm. nieder, ing. lower /ˈləʊə/, fr. bas, azərb. aşağı, alt. - Avropa dilşünaslığında ölkənin aşağı hissəsini, daha dəqiq desək, dənizə yaxın hissəsini göstərmək üçün mürəkkəb sifətlərin birinci ünsürü kimi işlədilməsi.
О.С.Ахманова. Göstərilən əsər, s. 268.

НИЖНЕНЕМЕЦКИЙ – alm. Niederdeutsch (n), ing. Low German /ˈləʊə ˈdʒə:mən/, Also Low dutch /ˈləʊə dʌtʃ/, fr. bas allemeand, azərb. aşağı alman dili. – İkinci fonem əvəzlənməsinə məruz qalmayan şimali Almaniya dialektləri.

germ. d.	alm. d.
p	pf, ff
t	(t)z, cz, ss
k	(k) ch, hh, (ck)
b (v)	b (p)
d	d (t)
g (j)	g (k)

Şimalda bu dialektlər Danimarka və Friez dillərindən ayrılır, qərbdə isə alman və Niderland sərhədi boyunca ədəbi alman dili bu ayrılığı təmin edir, hərçənd ki, dialekt və dövlət sərhədləri eyni şey deyildir. Cənubda Raynın aşağılarında samitlərdə aşağı alman, saitlərdə isə yuxarı alman dialektlərinin izləri aydın görünür. Aşağı və yuxarı alman dialektlərinin çarpazlaşması Zaale çayının şimalında da özünü büruzə verir. Burada tarixən aşağı alman dialektləri aparıcı idi, indi onların ədəbi dillə sıxışdırılması müşahidə olunur (Brandenburq, Yuxarı Saksoniya). Aşağı alman dialektləri Qərb (vestfal, şərqi vestfal, şimali aşağı sakson dialektləri) və Şərq (Meklenburq, Fonpomeraniya, Aşağı Prusiya) dialektlərinə bölünürlər. Axırıncılar, necə deyərlər, XII və XIII əsrlərdə şərqi müstəmləkəçilk vaxtından slavyan və baltik dilindən keçmiş substratların nəticəsidir. Bu iki qrup arasında sərhəd Lübek-Merzebruqda Elbe və Zaale çayları boyunca keçir. Dil baxımından Qərbi aşağı alman dialektlərində bu fellərin cəmdə vahid şəxs sonluğu /-(e) t/ (wi, gi, se mak (e) t/ və şərqi aşağı alman dialektlərində /(-e) n/-də ifadə olunur.
В.М.Жирмунский. История немецкого языка. М., 1965; H.Bußmann. Göstərilən əsər, s. 523-524.

НИЖНЕФРЕНКСИЙ – alm. Niderfränkisch (n), ing. Low-Frenk /lɔ-ˈfrenk/, fr. bas frènc, azərb. aşağı frenk dialekti. – Bu dialekt Belçikada və Niderlandda aşağı alman dialektlərinin əsasını təşkil edir. Linqvistik baxımdan bu dialekt yuxarı alman və frenk dialektlərinin qarşılığıdır (burada aşağı frenk dialektlərindəki kimi fellərin vahid cəm forması yoxdur).

downloaded from KitabYurdu.org

В.М.Жирмунский. История немецкого языка. М., 1965; H.Bußmann. Göstərilən əsər, s. 523-524.

НИЗКИЙ - alm. niedrig, ing. low /lou/, grave /ɡreɪv/, fr. bas, grave, azərb. aşağı. - Fərqləndirici elementlərin unversal ikili qarşılaşması sistemində (yüksək,uca) əlamətinə qarşı qoyulan, spektrin aşağı tərəfinin üstünlük təşkil etdiyi, danışıq səslərinin aşağı tonluq əlaməti. Dodaq səsləri aşağı yüksəlişli saitlər (/a/, /o/, /u/, /æ/) aşağı tonlu səslərdir.

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s.117.

НИЗКИЙ ГЛАСНЫЙ - alm. Vokal der tiefen Hebung (m), dunkler Vokal (m), ing. low vowel /lou ˈvauəl/, fr. voyelle bas, azərb. aşağı yüksəlişli (açıq) sait. - Tələffüzü zamanı çənənin aşağı düşməsi və dilin ağız boşluğunda neytral qalması ilə yaranan saitlər. Bu saitlərə misal /a/ saitini göstərmək lar.

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s.117.

НИЗКИЙ ПОДЪЁМ - alm. tiefe Hebung (f), ing. low rise /loʊ raɪz/, fr. développement bas, azərb. aşağı yüksəlişli. - Dilin şaquli istiqamətdə uzanıb qalması ilə səciyyələnən açıq sait. Məs.: alm. d. /a/ saiti. Bu saitdə F_I yüksək (500 hs), F_{II} isə 800 hs civarında olur.

F.Vejsälli. Einführung in die Phonologie. Baku, 2004, s. 48-49.

НИКОБАРСКИЙ ЯЗЫК – alm. Nikobarisch (n), ing. Nicobarese language /nıko-ˈb5rı:z ˈl5ŋɡwıʤ/, fr. langue nicobare, azərb. nikobar dili. - Austria-Asiya dilləri ailəsinə aid dildir. Ətraflı məlumatlar əsas (mərkəzi) dialekti (nankauri) barədədir.

R.Radhakrishnan. The nankowru word: phonology, affixal morphology and roots of a Nicobarese language. Carbondale, 1981.

НИЛО-САХАРСКИЕ ЯЗЫКИ – alm. Nilo-Sahara-Sprachen (Pl.), ing. Nile-Saharan languages /naıl -səˈhα:rə(n) ˈl5ŋɡwıʤız/, fr. langues nilo-sahariennes, azərb. nil-saxar dilləri. – Mərkəzi Afrikada xeyli dili özündə birləşdirir. Nil-saxar dilləri 6 dil qrupuna bölünür: sonqay-zarma, saxar, maba, fur, şari-nil və koma.

J.Greenberg. The languages of Africa. The Hague, Bloomington, 1963; H.Bußmann. Göstərilən əsər, s. 526.

НИЛОТСКИЕ ЯЗЫКИ – alm. nilotische Sprachen (Pl.), ing. Niloti languages /naıˈlɔtı/ˈnılətı ˈl5ŋɡwıʤız/, fr. langues nilotes, azərb. nilot dilləri. – Afrikanın şərqində yayılmış şərqi Sudan dilləri qrupu. Nilot dillərində 20 milyona yaxın əhali danışır. Bu dillər Uqanda, Keniya, Tanzaniyada və Zair Həbəşistanın bəzi bölgələrində yayılmışdır. Ərazi baxımından üç qrupa bölünür: qərb (burun, maban, cum-cum, luo, şilluk, anuak, bodo, qolo, mananger və s. dillər), şərq (mandari, padculu, kuku, kakva, toqos, turkana və s. dillər) və cənub (nandi, kipsiqis, keyo, saboat, sabin, tüken, kipsoray, ndorobo, mbay, pok, tatoqo və s. dillər).

downloaded from KitabYurdu.org

O.Köhler. Geschichte der Eforschung der Nilotischen Sprachen. Berlin, 1955.

НИСХОДЯЩИЙ - alm. fallend, ing. falling /ˈfɔ:lɪŋ/, descending /dɪˈsendɪŋ/, fr. décroissant, azərb. enən. - Fonasiyanın sonuna yaxın danışıq üzvlərinin gərginliyinin zəifləməsi; tonun tədricən aşağı düşməsi. Bu cür ton hərəkəti terminal intonasiya konturuna xasdır.

Bax: Интонация ←.

НИСХОДЯЩЕ-ВОСХОДЯЩЕЕ - alm. fallend-steigend, ing. falling-rising /ˈfɔ:lɪŋ ˈraɪzɪŋ/, fr. descendant-ascendant, azərb. enib-yüksələn ton. - Səsin tonunun və ya gücünün əvvəlcə enməsi, sonradan qalxması ilə müşayət olunan əsas ton tezliyinin hərəkəti. Bu cür ton hərəkəti interroqativ intonasiya konturuna xasdır.

Bax: Интонация ←.

НИСХОДЯЩИЙ ДИФТОНГ - alm. fallender Diphthong (m), ing. falling diphthong /ˈfɔ:lɪŋ ˈdɪfθɔ/, fr. diphtonque descendante, azərb. enən diftonq. - Tərkibində ilk elementi heca daşıyan diftonq. Dilçilikdə onları adətən əsl diftonqlar adlandırırlar. Rus və Azərbaycan dillərində diftonqların fonematik səviyyədə olmasa da, fonetik səviyyədə olmasını dolayısı ilə təsdiqləyən fikirlərə bəzi mənbələrdə rast gəlmək mümkündür. Azərbaycan dilçiliyində bu fikir ilk dəfə F.Kazımov (1925-1989) tərəfindən irəli sürülmüşdür. Onun mülahizəsinə görə, Azərbaycan dilində doqquz enən diftonq mövcuddur. Bunlar [aĭ, oĭ, θĭ, iĭ, eĭ, æĭ, üĭ, uĭ, Iĭ] diftonqlarıdır. Həmin diftonqların ilk ünsürü istənilən qısa saitdən, ikincisi isə [ĭ]-dən ibarətdir. Əvvəla, bu mövcud nəzəriyyələrlə daban-dabana ziddir. Belə ki, diftonq sait + samit birləşməsi deyil, iki saitin bir heca tərkibində qovuşuğudur; ikincisi, diftonqların tərəfləri arasından morfoloji sərhəd keçməməlidir, yəni onun komponentləri ayrı–ayrı morfemlərə parçalanmamalıdır. Məs.: Azərb. d. /toy – to-ya, çay- ça- ya, boy- bo- yu/ və s.

F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 141-143.

НИСХОДЯЩЕЕ УДАРЕНИЕ - alm. fallende Betonung (f), ing. falling strees /ˈfɔ:lɪŋ stres/, fr. accent décroissant, azərb. enən vurğu. - Hecanın sonuna doğru ton və gücün daima zəifləməsi ilə səciyyələnən vurğu. Məs.: litov dilində (dvieʹm) enən tonla deyiləndə «iki», qalxan tonla deyiləndə /dvie -m/ «ikili» deməkdir. Serb dilində /cmbâpi/ enən tonla «şey», qalxan tonla /cmbaʹpu/ «şeydə» deməkdir.

R.Conrad. Göstərilən əsər, s. 27.

НОВАТОРСТВА - alm. Innovation (f), ing. innovation /ɪnəˈveɪʃn/, fr. esprit, novateur, azərb. yenilik, yenilikçilik. - Yeni ifadə və təsvir vasitələrinin tətbiqi, müəyyən yazıçının yaradıcılığında mövcud bədii-danışıq ənənələrinin dəyişdirilməsindən ibarət xüsusiyyətlər. Məs.: /internet/, /fayl/, /sayt/.

downloaded from KitabYurdu.org

Ю.С.Маслов. Göstərilən əsər, s. 264-265.

НОВИАЛЬ - alm. Novial (n), ing. novial /ˈnəʊvɪəl/, fr. novial, azərb. novial. - Beynəlxalq süni dillərdən biri. Bu dilin layihəsini 1928-ci ildə O.Yespersen vermişdir. Analitik dillərə daha çox üstünlük verən O.Yespersen süni dil layihəsini hazırlayarkən öz ideyasına sadiq qalmışdır. O, həmçinin avtonomizmlə naturalizm arasındakı ziddiyyətləri aradan qaldırmağa səy göstərmişdir. Müəllif layihənin tərtibində təbii dillərin faktları ilə bərabər, süni dil materiallarından da istifadə etmişdir.
O.C.Ахманова. Göstərilən əsər, s. 269.

НОВОАКУТОВЫЙ - alm. neuakut, ing. new-acute /nju əˈkju:t/, fr. néoacoute, azərb. yeni akut. - Praslavyan dilində köhnə sirkumfleksi (qalxıb-enən ton ◠) əvəz edən yüksələn ton.
O.C.Ахманова. Göstərilən əsər, s. 269.

НОВЫЕ СЛОВА - alm. neue Wörter (Pl.), ing. new words /nju wə:dz/, fr. nouveaux mots, azərb. yeni sözlər.
Bax: Неологизмы ←.

НОВООБРАЗОВАНИЕ - alm. Neubildung (f), ing. new formation /nju fɔ:ˈmeɪʃən/, neologism /nɪ(:)ˈɔlədʒɪzm/, fr. formation nouvelle, azərb. yeni yaranan. - Dilin inkişafının sonrakı mərhələlərində, əsasən söz yaradıcılığı sahəsində, yaranmış yeni sözlər. Məs.: müstəqillik qazanandan sonra Azərbaycanda seçki sistemini göstərən iki yeni söz yarandı: /mojaritar/, /proporsional/.
Ю.С.Маслов. Göstərilən əsər, s. 264-265.

НОГАЙСКИЙ ЯЗЫК – alm. Nogaisch (n), ing. Nogays language /nɔˈgɑɪs ˈlɔŋgwɪdʒ/, fr. nogaïen, azərb. noqay dili. – Türk dilləri ailəsinin qıpçaq-noqay yarımqrupuna aiddir. Bu qrupa noqay, qaraqalpaq, qazax və s. daxildir. Bu dildə 54 min əhali danışır. Yazısı kiril əlifbası əsasında tərtib olunmuşdur.
Н.А.Баскаков. Ногайский язык и его диалекты. М.-Л., 1940.

НОМЕНКЛАТУРА - alm. Nomenklatur (f), ing. nomenclature /nouˈmenklətʃə/, fr. nomenclature, nomenclatura, azərb. nomenklatura. - Müəyyən bir elm, istehsalat, sənaye və s. sahlərində işlədilən səciyyəvi adlar məcmusu. Məs.: dilçilikdə sait, samit, fonem, heca, vurğu və s.
Ю.С.Маслов. Göstərilən əsər, s. 93-97.

НОМИНАЛИЗАЦИЯ – alm. Nominalisierung (f), ing. nominalization /ˈnɔmɪn(ə)lʌɪzeɪʃ(ə)n/, fr. nominalisation, azərb. adların əmələ gəlməsi. – 1. Hər bir başqa nitq hissəsindən adların yaranması. Məs.: /gözəl-gözəllik/, /yerimək-yeriş/ və s.; 2. Transformasiyonal qrammatikada fellərdən və sifətlərdən adlara keçidin təsviri.
O.C.Ахманова. Göstərilən əsər, s. 270.

downloaded from KitabYurdu.org

НОМИНАЛЬНЫЕ КЛАССЫ – alm. Nominalklassen (Pl.), ing. nominal class /ˈnɔmın(ə)l klɑ:s/, fr. classes nominales, azərb. nominal siniflər. – Geniş mənada isimlərin semantik aspektə görə leksik –qrammatik bölgüsü. Məs.: canlı/cansız, konkret/mücərrəd, kişi/qadın və s. Dar mənada cinsə dair bölünməyən isimlər. Məs.: Azərbaycan dilində, Nigeriya-Konqo dillərində (bantu, qərbi atlantik) 20-yə qədər qrup var.
О.С.Ахманова. Göstərilən əsər, s. 270.

НОМИНАЛЬНАЯ ФРАЗА – alm. Nominalphrase (f), ing. nominal phrase /ˈnɔmın(ə)l freıs/, fr. phrase nominale, azərb. nominal fraza. – Ən azı bir ismi və ya əvəzliyi olan sintaktik birləşmə, özü də bu sifətlərlə genişləndirilə bilər. Məs.: alm. d. /sehr gute Weine/ (çox yaxşı şərablar) təyin kimi nominal fraza sonra əlavə kimi genişlənə bilər. Məs.: alm. d. /Hans, mein Freund/ (Hans mənim dostumdur) və ya genitiv birləşməsi ola bilər. Məs.: alm. d. /Martas Haus/ (Martanın evi), /Das Haus von Marta/ budaq cümlə də ola bilər; /das Mädchen, das neben mir sitzt/ (yanımda oturan qız). Cümlədə subyekt, obyekt funksiyasını yerinə yetirə bilər, ya da tərkib kimi işlənir. Belədə onlar tamamlıq və zərflik funksiyalarını yerinə yetirir. Semantik baxımdan onlar definit və indefinit ola bilərlər. Müəyyənlik artikl və determinantla ola bilər. Məs.: alm. d. /der Jakob, der Rhein, das ElsaB/. Qeyri-müəyyən, xüsusi və ad ola bilər. Məs.: alm. d. /Philip möchte einen Fisch fangen// (Filip balıq tutmaq istəyir) cümləsi iki cür izah oluna bilər: spesifikdə müəyyən balıqdan, qeyri-spesifikdə isə istənilən balıqdan söhbət gedər. NP-də determinans fraza (DP) mərkəzində determinant dura bilər, NP-da iç determinantsız mümkündür (elliptik). Məs.: alm. d. /Du ziehst mir nicht das Grüne an// (sən mənə yaşıl paltar geyindirmirsən), ancaq /Das Gute setzt sich durch// (yaxşı özünə yol tapar) burada N bərpa oluna bilər.
S.P.Abney. The English noun phrase in its sentential aspect. Cambridge, 1987.

НОМИНАЛЬНЫЙ СТИЛЬ – alm. Nominalstil (m), ing. nominal style /ˈnɔmın(ə)l staıl/, fr. substantivation, style nominal, azərb. isimləşmə. – Mürəkkəb fel tərkibinin isimləşməsi. Müq. et: Azərb. d. /Söhbətin baş tutması/ «Söhbət baş tutmadı» əvəzinə. Bu üslub rəsmi danışıqlarda, yazışmalarda tez-tez işlənir.
H.Bußmann. Göstərilən əsər, s. 531.

НОМИНАЛЬНЫЙ ЯЗЫК – alm Nominalsprache (f), ing. nominal language /ˈnɔmın(ə)l ˈlɜŋgwıʤ/, fr. la langue nominale, azərb. nominal dil. – Bask dilindən başqa bütün Avropa dilləri üçün səciyyəvi dil xüsusiyyəti. Cümlə adlıq halda olan sözlə başlayır, fel tranzitivdə olur, sonra basqa formalar işlənir. Məs.: Azərb. d. /Əhməd yazır//, /Əhməd məktub yazır//. /Məktub Əhməd tərəfindən yazılır// və s.
H.Bußmann. Göstərilən əsər, s. 531.

downloaded from KitabYurdu.org

НОМИНАТИВУС ПЕНДЕНС – alm. Nomitativus-Pendens (m), ing. nominativus pendency /ˌnɔmınəˈtʌɪvəs ˈpɛndɛns/, fr. mot complémentaire, azərb. əlavə söz. – Mübtədadan solda gələn, ancaq mübtəda ilə uzlaşmayan. Məs.: Azərb. d. /Bu ağrılı-acılı illər, o, bunu başa düşmədi//.
H.Bußmann. Göstərilən əsər, s. 531.

НОМИНАТИВ - alm. Nominativ (m), ing. nominativ /ˈnɔminətıv/, fr. nominatif, azərb. adlıq hal. - Adlandırma funksiyası yerinə yetirən müstəqil hal forması, müstəqim (bilavasitə) şəkildə əşyavilik bildirməsilə başqa hallaradan fərqlənən, iş görəni və ya subyekti ifadə edən hal. Adlıq hal formasındakı isim cümlə tərkibində mübtəda, xəbər, əlavə, təyin, zərflik və s. kimi müxtəlif sintaktik funksiyalarda çıxış edir. Məs.: Azərb. d. /Əhməd yazır//, /O Əhməddir//, /O, Əhmədin kiçik qardaşı, çox ağıllıdır//, /Əhməddən gələn məktub…//, /Qonaq Əhmədgildədir// və s.
H.Bußmann. Göstərilən əsər, s. 530.

НОМИНАТИВНЫЙ - alm. Nominal-, ing. nominal /ˈnɔmınl/, fr. nominatif, azərb. adlandırma.
Bax: Номинатив ←.

НОМИНАТИВНАЯ ФУНКЦИЯ - alm. nominative Funktion (f), ing. nominative function /ˈnɔminətıv ˈfʌŋkʃən/, fr. fonction nominative, azərb. adlandırma (nominativ) funksiyası. – Sözün (yaxud da söz birləşməinin) əşya və hadisələri adlandırma xüsusiyyəti. Məs.: Azərb. d. /Əli/, /əzab/, /axırıncı aşırım/ və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 270.

НОМИНАТИВНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. Nominalsatz (m), ing. nominal sentence /ˈnɔmınl sentəns/, fr. phrase nominale, azərb. adlıq cümlə. – Yalnız isimlərdən və ya onların birləşməsindən ibarət olan təktərkibli cümlə. Adlıq cümlə əşya və hadisə, onların mövcudluğu, varlığı barədə anlayışları ifadə edir. Məs.: Azərb. d. /Gecə//, /Küçə//, /28 May gecəsi// və s.
H.Bußmann. Göstərilən əsər, s. 530.

НОМИНАЦИЯ - alm. Nominierung (f), ing. nomination /ˌnɔmıˈneıʃən/, fr. nomination, azərb. nominasiya, adlandırma. – 1) Sözün müəyyən (konkret) danışıq şəraitində və ya mətndə təzahür edib işlənməsi xüsusiyyəti. Məs.: Azərb. d. /çiçək/, /günorta/ və s.; 2) Sözün müəyyən referent ilə əlaqələndirilməsi, advermə prosesi. Məs.: alm. d. /Der Tisch in der Mitte…// (ortadakı stol…) ; 3) Sözün adlandırma funksiyası. Məs.: rus d. /булочная/, /кафетерия/ və s.
O.C.Ахманова. Göstərilən əsər, s. 270.

НОМОСТРУКТУРА – alm. Nomostruktur (f), Nomosphäre (f), ing. nomostructura /ˈnɔmɔˈstrʌkʧə/, fr. structure nominale, azərb. nomostruktur. – Alman alimi H.Glinsin (1913) sintaktik təlimində generativ qrammatikanın «alt qat» terminilə müqayisə edilə bilən, əsas məzmun səviyyəsi kimi

downloaded from KitabYurdu.org

«üst qata» morfostruktur kimi realizasiya səviyyəsinə qarşı qoyulur. Nomosemantemlər əsas elementlər kimi əsas verbal söz zəncirləridir, onlardan əmələ gələn cümlə planları ola nomosintaksisdə təsvir olunmalıdırlar.
H.Glinz. Die innere Form des Deutschen. München, 1973.

НОРВЕЖСКИЙ ЯЗЫК – alm. Norwegisch (n), ing. Norwegian language /ˈnɔːwɪʤ(ə)n ˈlɔŋgwɪʤ/ fr. le norvégien, langue norvégienne, azərb. norveç dili. – Şimali german dili, 5 milyon əhali bu dildə danışır. 1907-ci ildən Norveç Krallığının rəsmi dövlət dilidir. Bokmol (kitab dili) əvvəl bu Ricksmol (reyxin dili) adlanırdı, Norveç dilinə oxşar Danimarka dili, 20 % əhali ölkənin orta və qərb bölgələrində bu dildə danışır və Landsmol bu gün buna Nynorsk-yeni Norveç dili deyirlər. Bu ikidilliyə səbəb əvvəllər aşağı alman, isveç və danimarka dillərinin təsiri olmuşdur. 1397-ci ildən danimarka dili idarəetmə, 1739-cu ildən isə tədris dili olmuşdur. 1892-ci ildən hər iki dil eynihüquqlu olmuşdur. Əsas əlaməti tonal dil olmasıdır. Bokmol-da (Danimarka və İsveç dillərində olduğu kimi) kişi və qadın cinsləri birləşib, landsmol isə qadın cinsini saxlayıb. Cümlə daxilində söz sırası MXT-dır.
H.Bußmann. Göstərilən əsər, s. 530; М.И.Стеблин-Каменский. Грамматика норвежского языка. М.-Л., 1957; В.Л.Якуб. Практический курс норвежского языка. М., 1966.

НОРМА - alm. Norm (f), ing. norm /nɔ:m/, fr. norme, régle, azərb. norma. - Dilin cəmiyyətdə, dil kollektivində işlənməsini nizamlayan qaydalar məcmusu, danışıq aktında dilin realizə olunmuş forması. Norma bir cəmiyyət daxilində müəyyən dövr ərzində formalaşmış qaydalar sistemidir ki, ona əməl olunması fərdin və dil kollektivinin mənəvi borcu və hüquqi vəzifəsidir. Norma dil sistemilə danışıq aktı arasında orta bir yer tutur. Bir tərəfdən o dil sisteminə söykənir, orada olmayan vahidləri və onların münasibətlərinin paradiqmatik qarşılaşmalarını gözləyir, digər tərəfdən o, danışıq aktında seqment və seqmentüstü vahidlərin sintaqmatik variativliyinə şərait yaratsa da, kontrastlığına əməl edir. Məs.: Azərbaycan dilinin fonoloji sistemində dodaq və qeyri-dodaq samitlərinin qarşılaşması yoxdur. Ancaq danışıq aktında dodaq saiti qarşısında gələn istənilən samit dodaqlanan tələffüz olunmalıdır. Müq. et: /t°γl/, /g°ül/ və s. Bu, koartikulyasiyanın tələbidir, yəni dil öz kommunikativ funksiyasını yerinə yetirdikdə fonemlərin xətti düzülüşü vacibdir və bu zaman onların qarşılıqlı təsiri qaçılmazdır. Deməli, norma əvvəlcədən müəyyənləşdirilir və danışıq məqamlarında hər bir dil vahidi müəyyən dəyişikliklərə məruz qalmalıdır. Bunları öyrənən elmə orfofoniya deyirlər. Ancaq bu dəyişiklik həmin dil vahidlərinin özümlüyünü pozmamalıdır.
Məlumdur ki, F. de Sössür və onun təliminə söykənən dilçilər sistem və danışıq qarşılaşmasından çıxış edirlər. Lakin Şerba məktəbi bu ikili qarşılaşmanı naqis və qüsurlu sayır, çünki bu qarşılaşmada norma yoxdur. Ona görə də bu məktəb binar qarşılaşmaya üçlü yanaşmanı qoyur. Bu ideyanı müasir dilçilikdə xüsusi çəkisi olan E.Coseriu da geniş təbliğ edir.

downloaded from KitabYurdu.org

F.Yadigar (Veysəlli). GDG. Bakı, 2003; Ф.Вейсалов. Варьирование гласных фонем современного немецкого языка (теоретические прблемы и эксперментальные данные). АДД., Л., 1980.

НОРМА ПРОСТРАНСТВЕННАЯ - alm. lokale Norm (f), ing. (spatial /ˈspeɪʃ(ə)l/, in space norm /ɪn speɪs nɔ:m/, fr. norme d'espace, azərb. məkan norması. – Neolinqvistikada müəyyən dilin yayıldığı ərazinin müxtəlif hissələrində və ya onun dinamik növlüyünün adətən qeyri-bərabər paylanmasına əsaslanan, ayrı-ayrı linqvistik mərhələlər arasındakı münasibətləri təyin etmə vasitələri.

M.İ.Adilov və b. Göstərilən əsər, s. 201-202.

НОРМАЛИЗАЦИЯ - alm. Normalisierung (f), ing. normalization /ˌnɔməlaɪˈzeɪʃən/, fr. normalisation, azərb. normalaşdırma, normaya salma. - Normanı müəyyən etmə, norma kimi qəbul etmə. Norma qaydaları sistem halında müəyyən bir qurum və ya fərd tərəfindən işlənib hazırlanır. Məs.: alman dilinin tələffüz normalarını teatr xadimlərindən və dilçilərindən ibarət yeddi nəfərlik bir qrup XIX əsrin axırlarında teatr danışığına əsaslanaraq işləyib hazırladılar. Bu qaydaları sonralar 1898-ci ildə T.Zibs (1870-1941) ümumiləşdirərək «Bühnendeutsch» (səhnə dili) adı altında qaydalar və sözlük şəklində çap etdirdi. Sonralar bu kitab bir neçə dəfə yenidən nəşr edildi və 1969-cu ildə görkəmli dilçi C.Ungehoyerin (1930-1982) fonoloji təhlil xarakterli iri məqaləsilə 19-cu nəşrdə çap olundu. Özü də kitabın adı dəyişdirilərək «Deutsche Aussprache. Reine und gemäßigte Hochsprache» (Alman ədəbi tələffüzü. Təmiz və uyğun ədəbi dil adlandırıldı). Redaksiya heyəti bu qərarı onunla əlaqələndirir ki, artıq alman ədəbi dili təkcə səhnə ilə məhdudlaşmır, o dilin tətbiqinin bütün sahələrində özünü göstərir, alman dilində danışanların hamısı üçün nümunəvi tələffüz normasına çevrilmişdir. Ona görə də onu yüksək ədəbi tələffüz norması adlandırmaq məqsədəuyğundur. Alman dilinin ikinci orfofonik lüğəti Duden redaksiyasında hazırlanıb və «Der große Duden». Aussprachewörterbuch (Mannheim, 1962) adı altında çap olunub.

Məlumdur ki, norma müəyyənləşdirilir, ayrı-ayrı dilçilər tərəfindən kodifikasiya olunur – qeydə alınır, yoxlanılır və bütün dildaşıyıcıları üçün münasib bilinir. Burada orta məxrəc tapmaq çətindir, bəzən bunun üçün geniş eksperiment aparılır, dildə danışanlar informantlar kimi tədqiqata cəlb olunur, sonra riyazi yolla hesablanır, orta məxrəc tapılır və bu orta məxrəc norma kimi qaydalar sistemi şəklində cəmiyyətə təqdim olunur.

Almaniyada E.M.Krexin rəhbərliyi altında hazırlanmış «Große Aussprachewörterbuch der deutschen Sprache» (Leipzig, 1970) orfofoniya lüğəti buna misal ola bilər.

İngilis dilində vəziyyət bu baxımdan o qədər yaxşı deyil, çünki bu dil çox geniş yayılıb. Ona görə də bu dildə vahid normalar qaydası müəyyənləşdirmək o qədər də asan deyildir. Bütün bunlara baxmayaraq ingilis alimi D.Jouns belə bir lüğəti hazırlayaraq 1967-ci ildə onu «English

downloaded from KitabYurdu.org

Pronounciation Dictionary» adı altında çap etdirdi. D. Couns London dialektinə əsaslanırdı.
Rus dilinin də orfofonik lüğəti 70-ci illərdə çapdan çıxıb. Azərbaycan ədəbi tələffüzünü əhatə edən iki balaca lüğət çap olunub.
Ə.Məmmədov. Orfoepik lüğət. 1970; Ə.Əfəndizadə. Ortoqrafiya və orfoepiya lüğəti. Bakı, 1989; F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 52-55.

НОРМАЛИЗОВАННЫЙ - alm. normalisiert, ing. normalized /ˈnɔməlaızd/, fr. normalisé, azərb. normalaşdırılmış. - Normaya müvafiq olaraq qurulmuş (qəlibə salınmış), dil vahidlərinin normaya müvafiq işlədilməsi.
Bax: Нормализация ←.

НОРМАЛЬНАЯ ИНТОНАЦИЯ - alm. normale Intonation (f), ing. normal intonation /ˈnɔməl ˌɪntouˈneɪʃən/, fr. intonation normale, azərb. normal intonasiya. - Emosional intonasiyadan fərqli olan, neytral danışığa xas olan intonasiya növü.
Bax: Интонация ←.

НОРМАЛЬНАЯ ПАУЗА - alm. normale Pause (f), ing. normal pause /ˈnɔməl pɔ:z/, fr. pause normale, azərb. normal fasilə, durğu (pauza). – Sintaqm və cümlələri bir-birindən ayıran fasilə, fonasiyanın müvəqqəti olaraq dayandırılması. Normal fasilə transkripsiyada (/) işarəsilə verilir.

Məs.: /Qatar-qatar olub qalxıb havaya/
/Nə çıxıbsız asimanə, / durnalar/.
/Qərib-qərib/ qəmgin-qəmgin ötərsiz/,
/Üz tutubsuz/ nə məkanə/, durnalar/.

Bu fasilə, göründüyü kimi, subyektiv deyildir, o tamamilə fikrin semantik, fonetik və qrammatik bölgüsünü izləyir. Yazıda adətən vergüllə işarə olunur.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 56-60.

НОРМАЛЬНЫЙ ГЛАСНЫЙ - alm. normaler Vokal (m), ing. normal vowel /ˈnɔməl ˈvauəl/, fr. voyelle normale, azərb. adi (normal) sait. – Bu adətən vurğulu hecada və ya ayrılıqda tələffüzdə özünü büruzə verir. Məs.: Azərb. d. /a/ saitdir. /badamd'a/ /a/ saiti üç dəfə işlənir.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 56-60.

НОРМАТИВНЫЙ - alm. normativ, ing. normative /ˈnɔ:mətıv/, fr. normatif, azərb. normativ. – Norma çərçivəsində çıxış edən, normadan kənara çıxmayan. Məs.: Azərb. d. /5 kitab/ normaya uyğundur, ancaq /5 kitablar/ normanın pozulmasıdır, çünki dilimizdə miqdar saylarından sonra gələn isim cəmdə işlənməz.
M.Hüseynzadə. Göstərilən əsər, s. 106-112.

НОРМАТИВНАЯ ГРАММАТИКА - alm. normative Grammatik (f), ing. normative grammar /ˈnɔ:mətıv ˈɡræmə(r)/, prescriptive grammar

downloaded from KitabYurdu.org

/prɪsˈkrɪptɪv ˈɡræmə(r)/ fr. grammaire normative, azərb. normativ qrammatika. – Əsası İskəndəriyyə dilçilik məktəbi tərəfindən qoyulub. Əsasən orta və ali məktəblərdə təhsil alanlar üçün nəzərdə tutulan qrammatika. Burada müvafiq dilin qrammatik qurluşunu əks etdirən ən mühüm və zəruri morfoloji və sintaktik qaydalar konkret misallar əsasında şərh edilir. Dilçilikdə nəzəri cəhətdən mübahisəli məsələlər normativ qrammatikaya daxil edilə bilməz. Bu qrammatika minimum nəzəri məlumat verməklə kifayətlənir və «necə işlətməli?» sualına cavab verməlidir. Ayrı-ayrı dilçilər və ya qurumlar (məs.: Fransada Academie Française, Almaniyada Duden redaksiyası, Rusiya Federasiyasında və Azərbaycanda Dilçilik institutları) başqa dillərin (əsasən latın dili) və ya şair və yazıçıların nümunəvi «dilləri» əsasında dilə qayğı və ya nümunəvi üslub zəminində qaydaları kodlaşdırır, düzgün və ya «səhvdir» hökmünü verirlər. Bundan fərqli olaraq deskriptiv dilçilik mümkün variantların rəngarəngliyini kodifikasiya etmədən təsvir edir.

M.Hüseynzadə. Müasir Azərbaycan dili. Bakı, 1973; F.Veysəlli. GDG. Bakı, 2003.

НОСОВОЙ - alm. Nasal (m), ing. nasal /ˈneɪzəl/, fr. nasal, azərb. burun səsləri.

Bax: Назальный ←.

НОСОВЫЕ ГЛАСНЫЕ - alm. nasale Vokale (Pl.), ing. nasal vowels /ˈneɪzəl ˈvauəlz/, fr. voyelles nasalles, azərb. burun saitləri. - Tələffüz zamanı burun rezonatorunun işə qarışması, yəni yumşaq damaq pərdəsinin aşağı düşdüyündən burun boşluğunun yolu qismən açılır və hava axınının həm burun, həm də ağız boşluqlarından keçməsilə yaranan saitlər. Belə hallarda saitlərin tembrində burunlaşmaya xas əlamətlər və tonun aşağı duşməsi müşayiət olunur. Belə saitlər fransız ədəbi tələffuz norması üçün səciyyəvidir. Məs.: fr. d. /ã: ɔ̃: ẽ:/ və s.

Л.В.Щерба. Фонетика французского языка. М., 1967.

НОСОВЫЕ СОГЛАСНЫЕ - alm. nasale Konsonanten (Pl.), ing. nasal consonants /ˈneɪzəl ˈkɔnsənənt/, fr. connsones nasalles, azərb. burun samitləri. - Tələffüzü zamanı səs cığırı daralır, hava axınının təzyiqindən tarımlanmış səs telləri titrəməyə (ehtizaza) başlayır, yumşaq damaq pərdəsi aşağı endiyinə görə hava axının xeyli hissəsi burun boşluğundan çıxır ki, bu zaman burun samitləri yaranır. Məs.: /m/, /n/, /ŋ/.

Л.Р.Зиндер. Общая фонетика. М., 1979.

НОСТРАТИЧЕСКИЕ ЯЗЫКИ – alm. nostratische Sprachen (Pl.), ing. nostratic languages /ˈnɔstrətik ˈl5ŋɡwɪʤɪz/, fr. langues nostratiques, azərb. nostratik dillər. – Hind-Avropa, kartvel, ural, dravid, avro-asiya dil ailələlərini birləşdirən böyük dil ailəsi (makroailə).

В.М.Иллич-Свитыч. Материалы к сравнительному словарю ностратических языков (индоевропейский, алтайский, уральский, дравидский, картвельский, семитохамитский). «Этимология». М., 1967.

downloaded from KitabYurdu.org

НОТКА ЯЗЫК – alm. Altniederfränkisch (Salisch) (n), ing. Low Frenk dialect /l6ʊ 'frenk 'daɪəlekt//, salic /s5lık/ , fr. langue salisique, azərb. notka (salis) dili. – Aşağı alman dialektlərinə aiddir. Ədəbi alman dilinə aid olan frankların şimal qolu. Sakson dialektinin təsirinə çox erkən məruz qalmışdır. Bu dil sonrakı orta niderland dilinin əsasın əmələ gətirmişdir.
G.F.Meier, B.Meier. Göstərilən əsər, s.85.

НОТАЦИЯ – alm. Bezeichnung (f), ing. notation /nəuˈteɪʃ(ə)n/, fr. notation, azərb. notasiya. – Dilçilikdə müxtəlif işarə sistemlərindən istifadə olunur. Məs.: Beynəlxalq Fonetika Əlifbası bütün dünya dillərini vahid işarələr sistemilə göstərilməsini məsləhət görür.
Handbook of International Phonetic Alphabet. California, 1993.

НУБИЙСКИЙ ЯЗЫК – alm. Nubisch (n), ing. Nubian language /ˈnju:bjən ˈl5ŋgwɪʤ/, fr. langue noubienne, azərb. nubi dili. – Şari-nil dillərindən biridir. Nil vadisində yayılmışdır. Bu dildə 2,14 milyon əhali danışır. Əsas dialektləri kenuzi, donqola, maxas və dağlıq, dair, dillinq, qulfan, qarko, kadero, kundqur, midob, birked və s.-dir. Aqqlütinativ dildir. Lüğət tərkibində ərəb mənşəli sözlər çoxluq təşkil edir.
C.H.Armbruster. Dongolese Nubian. A grammar. Cambridge, 1960.

НУЛЕВАЯ МОРФЕМА - alm. Nullmorphem (n), ing. zero morpheme /ˈzɪərou ˈmɔ:fi:m/, fr. morphème zéro, azərb. sıfır morfem. - Paradiqm bu və ya digər formasında qrammatik şəkilçinin maddi cəhətdən olmaması. Müəyyən paradiqmə xas olan xüsusiyyətin nəticəsi kimi bu vəziyyət özlüyündə konkret qrammatik dəyərlilik kəsb edir. Bütün digər morfemlərin açıq şəkildə işlənən allomorfları olursa, müvafiq paradiqm daxilində sıfır morfem allamorfları olmaması ilə onlara qarşı qoyulur. Sıfır morfemlər bu və ya digər qrammatik mənalar bildirən sıfır eksponentə bərabər morfemlərdir. Morfem yoxluğunun növündən asılı olaraq sıfır morfemləri bir neçə yerə bölünürlər. Onlardan ən çox yayılanı şəkilçi və fleksial morfemlərin, nisbətən az rast gəlinəni isə prefiksal (önşəkilçilərin) morfemlərin söz və söz formalarında olmamasıdır. Azərbaycan dilində sıfır morfemlərə isimlərin adlıq, sifətlərin adi dərəcəsini misal gətirmək olar. Əslində bu məsələ işarə nəzəriyyəsindən gəlsə də, morfemin tərifinə ziddir.
Ю.С.Маслов. Göstərilən əsər, s. 139-143.

НУЛЕВАЯ ФЛЕКСИЯ – Bax: Нулевая морфема ←.

НУЛЕВАЯ ФОРМА – Bax: Нулевая морфема ←.

НУЛЕВОЙ АФФИКС - alm. Nullaffix (n), ing. zero affix /ˈzɪərou ˈ5fıks/, fr. affixe zéro, azərb. sıfır affiks. – Sözün affiks sistemində maddi ifadə vasitəsi kimi təmsil olunmayan və ya digər formasında açıq şəkildə ifadə olunan affikslərə qarşı qoyulan, müqayisə yolu ilə aşkar edilən affiks. Məs.: alm. d. /verstehen, aufstehen, stehen/ (başa düşmək, ayağa qalxmaq, durmaq) və s.

downloaded from KitabYurdu.org

Ю.С.Маслов. Göstərilən əsər, s. 139-143; А.А.Реформатский. Göstərilən əsər, s. 259, 269, 275.

НУЛЕВОЙ ПОКАЗАТЕЛЬ - alm. Nullbezeichnung (f), ing. zero mark /ˈzɪərou mɑ:k/, fr. indice zéro, azərb. sıfır göstərici. - Göstəricinin olmaması, müvafiq ifadə sistemində qarşılaşma nəticəsində xüsusi məna (semioloji relevantlıq) kəsb edən. Məs.: Azərb. d. /adam/ - /adamda/, /adamı/ və s.
А.А.Реформатский. Введение в языковедение. М., 1964, s. 258-259.

НУЛЕВОЙ ПАДЕЖ – Bax: Номинатив ←.

НУОРЕЗСКИЙ ЯЗЫК – alm. Nuoresisch (n), ing. Nuoresis language /nəˈɔ:ri:sɪs ˈlɜŋgwɪʤ/, fr. langue nouorézienne, azərb. nuores dili. - Roman dilləri qrupuna aiddir. Əsasən Sardiniya və ona yaxın kiçik adalarda yayılmışdır. Bu dildə 1,5 milyon əhali danışır. XI-XIV əsrlərdə Sardiniyanın rəsmi dili olmuşdur. XIX əsrdən əvvəllərindən məişət dili kimi fəaliyyət göstərir. Nuorez dili loqudor, kampidan, qallur və sassar dialektlərinə bölünür. Lüğət tərkibi italyan və ispan dillərinin güclü təsirinə məruz qalmışdır.
V.Porru. Saggio di grammatica sul dialetto sardo meridionale. Calgari, 1975.

НУРИСТАНСКИЕ ЯЗЫКИ - alm. Nuristani (n), ing. Nuristan languages /ˈnʌrɪst5n ˈlɜŋgwɪʤɪz/, fr. langues nouristanes, azərb. nuristan dilləri. – İran dilləri ailəsinə aid dil. Əfqanıstanın Nuristan əyalətində yayılmışdır. Tipoloji əlamətlərinə görə dard dillərinə yaxındır. 150 min əhali bu dillərdə danışır. Kati, vayqali, aşkun və prasun əsas nuristan dillərindəndir.
Д.И.Эдельман. Дардские языки. «Языки Азии и Африки». т. 2, М., 1978.

НУЭРСКИЙ ЯЗЫК – alm. Nuer (n), ing. Nuer language /ˈnju:r ˈlɜŋgwɪʤ/, fr. langue nouérienne, azərb. nuer dili. – Nilot dillərinin qərb qrupuna aid dildir. Əsasən Sudanda və qismən də Həbəşistanda yayılmışdır. Bu dildə danışanların sayı 1,13 milyon nəfərdir. Nuer dilinin ədəbi variantı nıyanq dialektinə əsaslanır. Nuer dili son dövrlərdə rəsmi dairələrdə ərəb dili tərəfindən sıxışdırılmışdır və hazırda məişət səviyyəsində işlədilir.
J.P.Crazzolara. Outlinesof a Nuer grammar. Wien, 1933.

НЫМЫЛАНСКИЙ ЯЗЫК – Bax: Корякский язык ←.

НЬЯМВЕЗИ - alm. Njamwezi (n), ing. Nyamwezi language /ˈnɪ5mwezɪ ˈlɜŋgwɪʤ/, fr. niouamvezi, azərb. nıyamvezi. – Bantu dillərinə aid dildir. Tanzaniyanın mərkəzi bölgələrində yayılmış dildir. Bu dildə 4,6 milyon əhali danışır. Sukuma, nıyanembe, takama, mveri, kononqo və s. dialektləri mövcuddur. Yazısı XIX əsrdən formalaşmışdır və latın əlifbası əsasındadır. Suaxili dili tərəfindən ədəbi və rəsmi dairələrdən sıxışdırılmışdır. Hazırda etniklərarası ünsiyyət dili kimi fəaliyyət göstərir.
C.Velten. Grammatik des Kinyamuesi. Göttingen, 1901.

downloaded from KitabYurdu.org

НЬЯНДЖА - alm. Nyanja (n), ing. Nyanja language /ˈnɪ5nʒə ˈl5ŋgwɪʤ/, fr. niandja, azərb. nıyanca. – Bantu dilləri qrupuna daxildir. Malavi Respublikasında (ingilis dili ilə bərabər bu ölkənin rəsmi iki dilindən biridir), həmçinin onunla həmsərhəd olan Zambiya, Mozambik və Zimbabvedə yayılmışdır. Bu dildə təqribən 7 milyon əhali danışır. Manqanca, peta, çeva, niasa, ambo dialektləri məlumdur. Zimbabvedə linqva franka kimi fəaliyyət göstərir. Yazısı XIX əsrdə formalaşmışdır və latın qrafikasına əsaslanır.

A.Hetherwick. A practical manual of the Nyanja language, 8 ed., London, 1932.

downloaded from KitabYurdu.org

KİTABIN İÇİNDƏKİLƏR

Ön söz ……... 3

Ensiklopediyada istifadə olunan qısaltmalar …… 6

А ……..... 8

Б ……..... 83

В …… 105

Г …… 144

Д …… 177

Е …… 225

Ж …… 233

З …… 239

И …… 269

Й …… 312

К …… 313

Л …… 373

М ……..... 403

Н ……... 458

downloaded from KitabYurdu.org

DİLÇİLİK ENSİKLOPEDİYASI
(prof. F.Veysəllinin redaktəsi ilə)

I cild

(dərs vəsaiti)

Bakı – Mütərcim – 2006

downloaded from KitabYurdu.org

Nəşriyyatın direktoru
Telman Vəlixanlı

Nəşriyyat redaktoru
Əliş Mirzallı

Texniki redaktor
Mətanət Qaraxanova

Kompüter tərtibatı
Lətafət Əliyeva

downloaded from KitabYurdu.org

Yığılmağa verilib: 11.05.2006.
Çapa imzalanıb: 15.11.2006.
Format: 70x100 1/16. Qarnitur: Times.
Ofset çap. Ofset kağızı əla növ.
Həcmi: 32,25 ş.ç.v. Tiraj: 500. Sifariş № 35.
Qiyməti müqavilə ilə.

«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: **mutarjim@mail.ru**

downloaded from KitabYurdu.org